Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondunun qrant layihəsi çərçivəsində
nəşr olunmuşdur

**Musa Qasımlı**

# ERMƏNİSTANIN SOVETLƏŞDİRİLMƏSİNDƏN AZƏRBAYCAN ƏRAZİLƏRİNİN İŞĞALINADƏK ERMƏNİ İDDİALARI: TARİX – OLDUĞU KİMİ

**(1920-1994-cü illər)**

**Bakı – Elmin İnkişafı Fondu – 2016**

**Elmi redaktor**: professor **Əli Həsənov** (*Azərbaycan*)

**Rəyçilər:** professor **Quram Marxuliya** (*Suxumi Universiteti, Gürcüstan*)

professor **Kamal Çiçək** (*İpək Universiteti,Türkiyə*)

professor **Mixail Basxanov** (*Mərkəzi Asiya İşləri üzrə Kral Cəmiyyəti, Böyük Britaniya*)

**Qasımlı M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər). –** Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016. – 520 səh.

Monoqrafiyada Azərbaycan, Rusiya, Gürcüstan, Türkiyə, ABŞ, Böyük Britaniya və digər ölkələrin arxiv materialları və sənədli mənbələri əsasında, sovetləşdirildikdən sonra Ermənistanın irəli sürdüyü əsassız ərazi iddiaları, Moskva və Kars konfranslarında ərazi məsələlərinin, Lozan konfransında "erməni məsələsi"nin həlli, sovet rəhbərliyinin erməniləri xarici ölkələrdən gətirərək yerləşdirməsi, süni surətdə Dağlıq Qarabağ Muxtar Vilayətini yaratması, İrəvanda Türkiyə nümayəndəliyinə hücum, 20-30-cu illərdə xarici ölkələrdən ermənilərin gətirilməsi, İkinci dünya müharibəsindən sonra Ermənistan SSR rəhbərliyinin Azərbaycandan DQMV-ni qopartmaq cəhdləri, Türkiyəyə qarşı ərazi iddialarının irəli sürülməsi, bunlar baş tutmadıqda isə xarici ölkələrdən ermənilərin Ermənistana gətirilməsi, gətirilənlərin yerləşdirilməsi üçün şərait olmadığından azərbaycanlıların tarixi torpaqlarından deportasiya edilməsi, onların hər cür şəraiti olan evlərinə və təsərrüfatlarına yerləşdirilmələri, 50-60-ci illərdə xarici ölkələrdəki erməni diasporasının və Ermənistan SSR rəhbərliyinin əsassız iddiaları və fəaliyyətləri, 70-80-ci illərdə erməni terror təşkilatlarının törətdikləri terror aktları, Azərbaycan torpaqlarını ələ keçirtmə cəhdləri, Ermənistanın hərbi təcavüzünün başlanması, gedişi və Azərbaycan ərazilərinin işğalının nəticələri məsələləri araşdırılmışdır. Problemə beynəlxalq münasibətlər, böyük dövlətlərin siyasəti və regionda baş verən proseslər baxımından yanaşan müəllif maraqlı bir elmi baxış ortaya qoymuşdur.

Mənbələrin əksəriyyəti ən mötəbər olmaqla, elmi dövriyyəyə ilk dəfə gətirilmişdir. Əsər tarixçi, siyasətçi, diplomat və bu məsələ haqqında tarixi gerçəkləri bilmək istəyənlər üçün nəzərdə tutulmuşdur.

Bu monoqrafiya Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə çap edilmişdir – Qrant № EİF/MQM-2-Şuşa-2013-3(9)-10/08/5

EIF/MQM-2-Shusha-2013-3(9)-10/08/5

**ISBN: 978-9952-8185-9-8**

© Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016

© Musa C. Qasımlı, 2016

Bu əsər 13 mart 2014-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 8016 nömrəli Şəhadətnamə (qeydiyyat nömrəsi №04/C-7502-14) verilmişdir.

# İÇİNDƏKİLƏR

**GİRİŞ**........ 8

**I FƏSİL. SOVETLƏŞMƏ ƏRƏFƏSİNDƏ DAŞNAK ERMƏNİSTANININ SİYASƏTİ**........ 14

*Anadoluda və Cənubi Qafqazda şərait – 14. "Böyük Ermənistan" iddiaları. Bolşevik Rusiyasının və Azərbaycanın mövqeyi – 15. Anadoluda qətliam – 21. Azərbaycanlılara qarşı qırğınlar – 22. Azərbaycanın etirazları və sovet xadimlərinin baxışları – 24. Azərbaycanın görkəmli dövlət adamları öldürülür – 29. Azərbaycan əraziləri tutulur. Cənubi Qafqaz "balkanlaşdırılır" – 30. Bolşevik Rusiyası daşnak Ermənistanı ilə müqavilə bağlayır – 32. Sevr müqaviləsi. Qırğınlar Anadoluda davam etdirilir – 34. Türkiyə və Ermənistan haqqında məsələ Moskvada və Bakıda müzakirə edilir – 35. Daşnak Ermənistanı ilə nə etməli? – 35. Azərbaycana hücumlar davam edir – 42. Daşnakların Gürcüstanı Türkiyə əleyhinə qaldırma cəhdləri – 44. Rusiyanın təklifləri – 45. Mərkəz Naxçıvan və Zəngəzurun Ermənistana verilməsinə dair hazırlıq işləri aparır – 45. Bolşevik Rusiyasının narahatlığı – 46. Qnçak yaranmış şərait üçün Daşnaksütyunu təqsirləndirir – 48. Türkiyənin sülh təkliflərinə münasibət – 49. ABŞ hökuməti erməniləri müdafiə etməyin yanlış olduğunu anlayır. İstanbuldakı ali komissar Mark Lambert Bristol: "Ermənilər haqqında həqiqətləri nə üçün deməyək? "Erməni məsələsi"haqqında həqiqəti demək lazımdır..." – 54. Ermənilərin narahatlığı və sovet xadimlərinin baxışları – 59.*

**II FƏSİL. SOVET ERMƏNİSTANI DAŞNAK SİYASƏTİNİ DAVAM ETDİRİR**........ 62

*Ermənistan sovetləşdirilir: "erməni məsələsi" həll edildimi? – 62. Türklərin məqsədi – 63. Ərazi məsələsinə bolşeviklərin münasibəti – 64. Nəriman Nərimanov Zəngəzur və Naxçıvanı Ermənistana güzəştə gedir. Naxçıvan əhalisinin və Türkiyənin mövqeyi – 65. Aleksandropol (Gümrü) sülh müqaviləsi – 69. Daşnakların bir hissəsi Cənubi Azərbaycana sığınır – 71. Erməni bolşevikləri daşnakların siyasətini davam etdirirlər – 71. Rus – türk konfransı ərəfəsində erməni iddialarına münasibət – 72. Azərbaycanın Ermənistana yardımları – 78. Ermənistanın iddialarına münasibət – 79. Tiflisdə erməni bolşeviklərinin qəddarlıqları – 87. Şuşada qətllər – 87. Sovet hökümətinin tələbləri – 88.*

**III FƏSİL. RUS – TÜRK KONFRANSINDA VƏ MOSKVA MÜQAVİLƏSİNDƏ ƏRAZİ-SƏRHƏD MƏSƏLƏLƏRİ**........ 91

*Rus – türk konfransı işə başlayır – 91. Konfransın gedişində rus – türk münasibətlərini pozmaq cəhdləri – 93. Müqavilə layihəsinin müzakirəsi – 94. Moskva müqaviləsi – 101.*

**IV FƏSİL. KARS KONFRANSINA HAZIRLIQ DÖVRÜNDƏ ERMƏNİSTANIN İDDİALARI VƏ AZƏRBAYCANA EDİLƏN TƏZYİQLƏR** ........ 105

*Türkiyə və Cənubi Qafqaz respublikaları yeni dövrün astanasında – 105. A.Mravyan və A.Bekzadyanın məktubları – 110. Ermənistandan azərbaycanlıların köçürülməsi: məqsəd nədir? – 111. Kars konfransına hazırlıqlar – 112. Qafqaz siyasi mühacirəti nümayəndələrinin müqavilə və sazişlərə münasibəti – 116. Mərkəzi hökumət Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürməsini təşviq edir. Qarabağ məsələsi müzakirə edilir – 117. Azərbaycana və Türkiyəyə edilən təzyiqlər – 124. Dağlıq Qarabağ haqqında məsələ yenidən müzakirə edilir – 126.*

**V FƏSİL. MOSKVADA BAŞLANAN İŞ KARSDA YEKUNLAŞIR: ƏRAZİ-SƏRHƏD MƏSƏLƏLƏRİ HƏLL EDİLİR** ........ 130

*Kars konfransında ərazi-sərhəd məsələlərinə dair müzakirələr – 130. Kars konfransı davam edərkən Bakıda Qarabağda vəziyyətə dair məsələ müzakirə edilir – 142. Kars müqaviləsi – 143. Müqavilənin imzalanmasının əhəmiyyəti və ona münasibət – 146. Qarabağda vəziyyət müzakirə edilir – 147. Ermənilərin narahatlığı və Azərbaycanın xahişi – 148. Daşnakların ABŞ-dan və Rusiya – İngiltərə danışıqlarından yararlanma cəhdlərinin boşa çıxması. Terror davam edir – 149. Mixail Frunzenin Türkiyəyə səfərində Kars müqaviləsinin təsdiqi haqqında məsələ – 151. Daşnakların Fransadan yararlanma cəhdləri iflasa uğrayır – 153. Müqavilənin təsdiq edilməsi məsələsinə dair müzakirələr – 154. Kars müqaviləsinin təsdiqi – 156.*

**VI FƏSİL. ƏRAZİ MÜBAHİSƏLƏRİ VƏ ZORAKILIQLAR** ........ 160

*Azərbaycanlıların torpaqlarının ələ keçirilməsi – 160. Türk diplomatlarına qarşı zorakılıq. İzmirin yandırılması. Türk ordusunun İstanbulu azad etməsi narahatlıq yaradır – 164. Qarabağa dair məsələlər müzakirə edilir – 166. Lozan konfransı ərəfəsində şərait – 166. Azərbaycan və Ermənistan arasında ərazi məsələləri – 167.*

**VII FƏSİL. AZƏRBAYCAN ƏRAZİSİNDƏ DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNİN YARADILMASI VƏ LOZAN KONFRANSINDA "ERMƏNİ MƏSƏLƏSİ"NİN DƏFN EDİLMƏSİ** ........ 169

*Dağlıq Qarabağ məsələsi yenidən müzakirə edilir – 169. Erməni dairələri fəallaşırlar – 169. G.Çiçerin: "Milli azlıqlar üçün hər hansı formada özünüidarəni yaratmaq yaxşı olardı" – 170. Ermənilərin yerləşdirilməsi sürətləndirilir – 171. Dağlıq Qarabağ haqqında məsələ müzakirə edilir – 172. G.Çiçerin köçürülən ermənilər üçün "milli ocaq", özünü idarə edən kantonlar yaradılmasını təklif edir – 175. Dağlıq Qarabağda işləmək üçün Ermənistandan kadrlar tələb edilir – 180. Sovet hökuməti ermənilərin gətirilməsi məsələsini müzakirə edir – 181. "Erməni məsələsi" Lozanda dəfn edilir – 185. Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılır – 185. İrəvan insidenti – 203.*

**VIII FƏSİL. ERMƏNİLƏRİN CƏNUBİ QAFQAZA YERLƏŞDİRİLMƏSİ, AZƏRBAYCAN VƏ TÜRKİYƏ ƏLEYHİNƏ FƏALİYYƏTLƏR**..............................206

*Ermənilərin gətirilməsi davam etdirilir – 206. Ərazi iddiaları – 209. Cənubi Azərbaycanda daşnak fəaliyyətləri – 214. Ermənilərin Cənubi Qafqaza gətirilməsi və Ermənistanın erməniləşdirilməsi davam etdirilir. Milli nifaq qızışdırılır – 217. 20-30-cu illərdə Daşnaksütyunun Türkiyə əleyhinə qiyamlarda kürdlərdən istifadə etmək cəhdləri – 220. Türkiyə hökumətinin erməni təbliğatına qarşı tədbirləri – 222. Almaniyanın SSRİ-yə hücumu və xarici ölkələrdəki erməni fəaliyyətləri – 226. Ermənilər San-Fransisko konfransına müraciət edirlər – 227.*

**IX FƏSİL. İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRAKI İLK İLLƏRDƏ ƏRAZİ QOPARTMA CƏHDLƏRİ VƏ NƏTİCƏLƏRİ**..............................................229

*Azərbaycana edilən təzyiqlər – 229. SSRİ hökuməti xarici ölkələrdən ermənilərin gətirilməsi haqqında qərar qəbul edir – 230. Ermənistan rəhbərliyi Azərbaycanın Dağlıq Qarabağ regionuna əsassız iddialar irəli sürür – 231. Azərbaycanlılara məxsus yaşayış yerlərinin adları dəyişdirilir – 235. Türkiyəyə qarşı ərazi iddiaları irəli sürülür – 236. Türkiyədəki ermənilərin fəaliyyətləri – 237. Əsassız ərazi iddiaları davam edir. Amerikan radio şərhçisi Blok: "Avropa və Asiya ölkələrinin bir-biri ilə alver və mübarizə etmək üçün ermənilərdən piyadalar kimi istifadə etmələri metodundan daha qalmaqallı bir şey yoxdur" – 240. Ermənistanın erməniləşdirilməsi yolunda növbəti addım – 248. Xarici ölkələrdəki ermənilərin əsassız iddiaları davam edir – 251. Gətirilənlərə qayğı göstərilir və azərbaycanlılara məxsus yaşayış yerlərinin adları dəyişdirilir – 251. Erməni təşkilatları təzyiqləri artırır – 252. Gəlmələr üçün şərait yaradılır – 253. Təbrizdə daşnakların silah-sursat anbarı – 254. DQMV-də bəzi erməni ziyalılarının əhval-ruhiyyəsi – 256. Sovet rəhbərliyi gətirilən ermənilərə xüsusi qayğı göstərir – 259. Azərbaycan əraziləri Ermənistana verilir – 262. Cənubi Azərbaycandakı daşnaklar Türkiyədən ərazilər tələb edirlər – 262. Tarix saxtalaşdırılır – 263. Türkiyədəki ermənilərin fəaliyyətləri – 264. Daşnaksütyun:"Kütləvi repatriasiya, xüsusən erməni torpaqlarının azad edilməsi və Ermənistanın sərhədlərinin genişləndirilməsi ilə əlaqədardır" – 264. Əsassız ərazi iddiaları – 272. Daşnak fəaliyyətləri – 274. Azərbaycanlıların deportasiyası – 276. Ermənilərin Cənubi Qafqaza gətirilməsi davam etdirilir: məqsəd nədir? – 286. DQMV-nin yaradılmasının 25 illiyi qeyd edilir – 291. Azərbaycan K(b)P-nin XVII qurultayında erməni millətçilərinə münasibət – 297. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılmasının 25 illiyinin qeyd edilməsi haqqında qərar – 300. M.Bağırovun İ.Stalinə məktubları – 300. M.Bağırovun A.Mikoyana məktubu – 302. Naxçıvan MSSR-in 25 illiyinin bayram edilməsi – 304. Sovet rəhbərliyinin tədbirləri – 308. Türkiyə hökumətinin saxta erməni təbliğatına qarşı tədbirləri – 311. Cənubi Qafqazda daşnak fəaliyyətləri – 312. Ermənistanda azərbaycanlılara məxsus yaşayış yerlərinin adları dəyişdirilir – 316.*

**X FƏSİL. CƏNUBİ QAFQAZDA VƏ XARİCİ ÖLKƏLƏRDƏ FƏALİYYƏTLƏR**........318

*Ermənistanda alimlər "vahid axın" nəzəriyyəsini təbliğ edirlər – 318. Daşnaklar xarici ölkələrdə fəaliyyətlərini genişləndirirlər – 320. Cənubi Qafqazda daşnak fəaliyyətləri – 327. N.S.Xruşşovun Ermənistana səfəri erməniləri ruhlandırır – 328. Xarici ölkələrdəki ermənilər fəaliyyətlərini artırırlar -329. Cənubi Qafqazda düşmənçilik hissləri qızışdırılır – 329. A.Mikoyanın xahişi və N. Xruşşovun cavabı -336. Uydurma erməni soyqırımı məsələsi gündəliyə gətirilir – 336. Erməni iddialarına Türkiyədən cavab – 339. Gizli fəaliyyətlər – 342. Ermənistan rəhbərliyinin manevrləri – 343. Erməni fəaliyyətlərinə qarşı Türkiyənin tədbirləri – 344. Təxribatçılıq işləri – 344. Uydurma soyqırım qurbanlarına abidələr qoyulur 346. Stepanakertdə təxribat – 346. Azərbaycan torpaqlarına iddialar – 348. Ermənistanda azərbaycanlılara məxsus yaşayış məntəqələrinin adları dəyişdirilir – 353. Türkiyənin tədbirləri – 353. Ermənilərin gətirilməsi davam edir – 354. Azərbaycan əleyhinə fəaliyyətlər – 354.*

**XI FƏSİL. TERROR AKTLARI VƏ AZƏRBAYCAN ƏLEYHİNƏ FƏALİYYƏTLƏR**........358

*Terror yenidən baş qaldırır – 358. Qatı millətçilik – 364. Dağlıq Qarabağ regionuna əsassız iddialar – 365. Ermənistanda azərbaycanlılara məxsus yaşayış yerlərinin adları dəyişdirilir – 370. Terror şiddətlənir – 370. Bakıda terror aktı – 382. İddialar davam edir – 383. Kəmərli hadisəsi – 384.*

**XII FƏSİL. "SOYQIRIMI"NI TANITMA, SOVET YARDIMLARINI ALMA VƏ XARİCİ ÖLKƏLƏRDƏN ERMƏNİLƏRİ GƏTİRMƏ CƏHDLƏRİ**........399

*Uydurma soyqırımı məsələsi müzakirə edilir – 399. Türkiyənin mövqeyi – 404. Ermənilərin SSRİ-yə gətirilməsinə dair yeni qərar – 407. Sovet rəhbərliyi xaricdəki erməni mətbuat orqanlarına yardım edir – 407. Ermənilərin gətirilməsi davam etdirilir – 410. Əsassız erməni iddialarına Türkiyədən cavab – 411. Düşmənçilik hissləri qızışdırılır – 416.*

**XIII FƏSİL. ERMƏNİSTANIN AZƏRBAYCANA HƏRBİ TƏCAVÜZÜ VƏ NƏTİCƏLƏRİ**........421

*Azərbaycanın daxili işlərinə Ermənistanın müdaxiləsinin başlanması – 421. İlk qan – 424. Sumqayıt hadisəsi – 426. Münaqişədə erməni kilsəsinin rolu – 429. Sovet rəhbərliyinin şübhəli cəhdləri – 430. Ermənistan Azərbaycanın daxili işlərinə müdaxiləni genişləndirir. Azərbaycanlıların Ermənistandan qovulması kütləvi hal alır – 437. Ermənistanda zəlzələ və Azərbaycanın yardımı – 442. Mərkəzi hakimiyyət Azərbaycanın hüquqlarını pozur – 442. Azərbaycan Respublikasının suverenliyi haqqında konstitusiya qanunu – 443. DQMV-nin birləşdirilməsi haqqında qanunsuz qərar – 444. 1990-cı il 20 yanvar hadisəsi – 446. Ermənistan beynəlxalq şəraitdən yararlanır – 448. Ermənistan manevr edir: uydurma soyqırımından imtina etmədən Türkiyə ilə münasibətlər qurmaq istəyir – 448. Ölkədə şərait və Azərbaycan – 449. Azərbaycanın dövlət müstəqil-*

*liyinin bərpası haqqında bəyannamə – 453. İlk sülh səyləri – 454. Azərbaycanın dövlət müstəqilliyi haqqında konstitusiya aktının qəbul edilməsi və beynəlxalq birliyə ilk müraciətlər – 456. Ermənistanın Azərbaycana təcavüzü davam edir. DQMV-nin ləğvi haqqında qərar – 457. SSRİ-nin dağılması ilə münaqişə iki dövlət arasında müharibəyə çevrilir – 458. Xocalıda soyqırımı – 462. Yeni sülh səyləri – 466. Şuşanın işğalı – 468. Laçın rayonunun işğalı – 470. Sülh səyləri davam edir – 471. Kəlbəcərin işğalı – 476. Soçi görüşü – 479. BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi – 480. Azərbaycanda böhran – 484. Ağdam rayonunun işğalı – 486. BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi – 486. Füzuli və Cəbrayıl rayonlarının işğalı – 489. BMT Təhlükəsizlik Şurasının 874 saylı qətnaməsi – 490. Zəngilan rayonunun işğal edilməsi – 493. BMT Təhlükəsizlik Şurasının 884 saylı qətnaməsi – 495. Atəşkəs elan edilir – 498. Azərbaycan ərazilərinin işğalının nəticələri – 500.*

**NƏTİCƏ** ........................................................................ 505

**BİBLİOQRAFİYA** ........................................................................ 514

# GİRİŞ

Məlum olduğu kimi, Anadoluda niyyətlərinə çata bilməyən ermənilər 1918-ci ildə Cənubi Qafqazda (Zaqafqaziya, Transqafqaz) türk torpaqlarında Ermənistan Respublikasını qurdular. Bundan sonra regionda əslində sakitlik yaranmalı idi. Lakin belə olmadı. Daşnak Ermənistanı həm Türkiyəyə, həm də Azərbaycana əsassız ərazi iddiaları irəli sürərək hərbi əməliyyatlara başladı. Hərbi əməliyyatların gedişində dinc türk, müsəlman əhaliyə qarşı amansız qırğınlar törədildi.

Bu zaman Antanta ölkələri bolşevizmi beşiyində boğmaq və sovet hakimiyyətini devirmək məqsədi ilə Rusiyaya, türk ərazilərinə yiyələnmək üçün isə Türkiyəyə qarşı hərbi əməliyyatlar aparırdılar. Türk xalqı qərbdə Antanta ölkələrinin hücumları, şərqdə isə daşnak Ermənistanının düşmənçiliyi ilə üz-üzə qalmışdı. Antanta ölkələrinin qalib gəlməsi onların Cənubi Qafqaza yürüşünə, Azərbaycan neftinə yiyələnməsinə, oradan da bolşevik Rusiyası üzərinə gedən yolun açılmasına gətirərdi. Ağır şərait yaranmışdı. Belə bir zamanda, XX əsrin 20-ci illərinin əvvəllərində bolşevik Rusiyası və kamalçı Türkiyə yaxınlaşdılar. Bu yaxınlaşma Cənubi Qafqazda yeni geosiyasi şərait yaratdı. Azərbaycan işğal edilərək sovetləşdirildi. Ermənistan, az sonra isə Gürcüstan da bolşevikləşdirildi.

Ermənistanda hakimiyyətə gələn bolşeviklər mahiyyətinə görə daşnakların siyasətini davam etdirir, Türkiyəyə və Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürürdülər. Ərazi-sərhəd məsələləri rus – türk konfransının yekununda 1921-ci il martın 16-da imzalanmış Moskva müqaviləsində və bolşevik Rusiyasının vasitəçiliyi ilə Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstan arasında həmin ilin oktyabrın 13-də imzalanmış Kars müqaviləsində tənzimləndi. Lakin aralarındakı ideoloji fərqlərə baxmayaraq, xarici ölkələrdəki erməni təşkilatları və sovet Ermənistanı rəhbərləri daim həm Türkiyəyə və həm də Azərbaycana qarşı əsassız ərazi iddialarını davam etdirir, Türkiyədən ala bilmədiklərini Azərbaycan hesabına reallaşdırmağa çalışırdılar.

20-ci illərin əvvəllərində xarici ölkələrdəki erməni təşkilatları iddialarını hələ də davam etdirir, müttəfiqlər və Türkiyə arasında keçiriləcək Lozan konfransına ümid bəsləyirdilər. Bir neçə erməni konfransa hay-küylə gəlmişdi. Lakin konfransda ermənilərin arxalandığı "*ingilislərin gəmilərinin ermənilərin əsassız iddia etdikləri ərazilərin dağlarında və daşlarında üzə bilmədiyi*" məlum oldu. "Erməni məsələsi" Lozanda dəfn edildi.

Erməni təşkilatları bu zaman saxta təbliğat yolu ilə bəzi xarici ölkələrdə ictimai rəyi özlərinə cəlb edə bilmişdilər. Nəticədə, Türkiyə ərazisindən ermənilərin köçürülməsi və onlara sovet respublikalarında "yeni bir

milli ocağın" yaradılması məsələsi gündəliyə gəlmişdi. Bu zaman erməni dairələri Azərbaycanın Qarabağ regionunun dağlıq hissəsinə də iddialarını davam etdirirdilər. Belə bir şəraitdə bolşevik Rusiyası erməniləri sovet respublikalarının ərazilərinə gətirməklə dünya ictimai rəyini öz xeyrinə dəyişdirmək üçün istifadə etmək istəyirdi.

Lozan konfransından sonra milli azlıqlar məsələsi Antanta ölkələrində də geniş müzakirə edilirdi. SSRİ-də milli azlıqlara dair işlərə Antanta dövlətlərinin müdaxilə etmək niyyətlərindən narahat olan sovet hakimiyyəti həmin məsələni özü həll etməyə çalışırdı. Sovet dövləti gələcəkdə Qərb ölkələrinin və Türkiyənin yaxınlaşaraq SSRİ üçün təhlükə yarada biləcəyindən də ehtiyat edərək Cənubi Qafqazda Ermənistandan başqa ikinci bir bufer ərazinin qurulmasında maraqlı idi. Bu məsələdə ermənilərin və sovet hakimiyyətinin maraqları üst-üstə düşdüyü üçün xarici ölkələrdən gətirilən ermənilərin bir qismi Azərbaycan ərazilərində yerləşdirilirdi. 1923-cü ildə Azərbaycan ərazisində süni yolla ikinci "erməni ocağı"nın – Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ilə iki xalq arasında gələcək milli münaqişə üçün zəmin hazırlandı. Məsələ bununla da sona çatmadı. 20-ci illərdə Azərbaycanın bəzi əraziləri qopardılaraq Ermənistana verildi.

20-30-cu illərdə xarici ölkələrdən ermənilər gətirilərək yenidən Cənubi Qafqaza yerləşdirildilər. Bununla yanaşı olaraq xarici ölkələrdəki erməni təşkilatları Azərbaycana və Türkiyəyə qarşı düşmənçiliyi davam etdirirdilər.

Qeyd etmək lazımdır ki, Lozan konfransından İkinci dünya müharibəsinin başlanmasına qədər olan dövrdə ermənilər özlərinə məxsus olan qəzet və jurnallarda, nəşr etdirdikləri kitablarda Türkiyə əleyhinə düşmənçilik təbliğatı aparsalar, əsassız ərazi iddiaları irəli sürsələr də, uydurma soyqırımını gündəliyə gətirmirdilər. Bu da bir sıra amillərlə bağlı idi. Hər şeydən əvvəl, onların özləri uydurma soyqırımın olduğuna inanmırdılar. İkincisi, 20-30-cu illərdə Avropada və dünyada dövlətlər arasında qüvvələr nisbəti hələ tam aydın deyildi. Almaniyada nasional-sosialistlər hakimiyyətə gəldikdən sonra qitədə yaranmış qarışıq beynəlxalq şəraitdə dövlətlər yeni törənə biləcək müharibə tufanından özlərini qorumaq üçün yollar axtarırdılar. Nəhayət, Türkiyənin Qərb ölkələri ilə getdikcə yaxşılaşan münasibətləri və sovet – türk münasibətlərinin vəziyyəti ermənilərin bu yöndəki işlərinə təsir edirdi. Buna baxmayaraq, onlar fəaliyyətlərini dayandırmamışdılar.

1939-cu ildə başalayan İkinci dünya müharibəsi erməni dairələrində yeni ümidlər yaratdı. Müharibənin sonuna yaxın SSRİ–Türkiyə münasibətlərinin soyuqlaşması Ermənistan rəhbərliyini hərəkətə gətirdi. Yerevandan edilən müraciət əsasında Mərkəzi hökumət Ermənistanda sovet

hakimiyyətinin qurulmasının 25 illiyi münasibəti ilə 1945-ci ilin noyabr ayında ermənilərin xarici ölkələrdən sovet Ermənistanına gətirilməsinə dair qərar qəbul etdi.

İdeoloji fərqlərə baxmayaraq, bu zaman daşnaklar və erməni kommunistləri bir neçə istiqamətdə fəaliyyət göstərirdilər. Ermənistan SSR rəhbərliyi Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətini qopartmaq iddiasına düşmüşdü. Lakin bu istək Azərbaycan tərəfindən rədd edildi.

SSRİ və Türkiyə arasında münasibətlər pozulduqdan sonra sovet rəhbərliyi Türkiyəyə qarşı əsassız ərazi iddiaları irəli sürdü. Bu zaman heç bir müttəfiqi olmayan Türkiyə sovet iddialarını qətiyyətlə rədd etdi. Belə olduqda SSRİ rəhbərliyi xarici ölkələrdən ermənilərin Ermənistana gətirilməsi məsələsini reallaşdırmağa başladı. Bu məsələdə sovet rəhbərliyi bir neçə məqsəd güdürdü. SSRİ hökuməti Türkiyə ilə sərhəd rayonlarda erməniləri yerləşdirməklə strateji hədəflərə nail olmaq – gələcəkdə Qara dəniz boğazlarına, oradan da Aralıq dənizinə çıxmaq və Hind okeanına gedən yola sahib olmaqla Qərb dövlətlərinin hərbi-siyasi, ticarət-iqtisadi və strateji maraqlarına zərbə vurmaq istəyirdi. Ermənistan rəhbərliyi və diasporası isə respublikadakı azərbaycanlıları sıxışdıraraq deportasiya etmək, Ermənistanı erməniləşdirmək, Azərbaycan və Türkiyə torpaqları hesabına ərazilərini genişləndirmək və tarixdə heç bir zaman olmayan "Böyük Ermənistan" yaratmaq üçün bir addım atmaq niyyətlərini reallaşdırmağa çalışırdı.

Həmin məqsədlərə çatmaq üçün konkret tədbirlər həyata keçirildi. Xarici ölkələrdən ermənilərin gətirilməsi üçün yeni qərar qəbul edildi. Lakin gəlmələrin Ermənistanda yerləşdirilməsi üçün şərait yox idi. Ona görə də Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlılar deportasiya edildilər. Özləri ilə Cənubi Qafqaza milli nifaq və düşmənçilik hissləri gətirən ermənilər azərbaycanlıların hər cür şəraiti olan evlərinə və təsərrüfatlarına yerləşdirildilər. Gələnlərdən Dağlıq Qarabağ Muxtar Vilayətində yerləşdirilənlər də oldu. Lakin erməni iddiaları yenə də dayanmadı. 40-cı illərin ikinci yarısında Azərbaycandan bəzi torpaqlar qopardılaraq Ermənistana verildi.

Bu zaman beynəlxalq münasibətlərdə iki sistem arasında soyuq müharibənin getdiyi bir şəraitdə ABŞ Prezidenti Harri Trumenin Türkiyə və Yunanıstanı sovet təzyiqlərindən qorumağı nəzərdə tutan və öz adı ilə adlandırılan doktrinasının 1947-ci il martın 12-də qəbul edilməsindən sonra SSRİ rəhbərliyi erməniləri ölkəyə gətirərək onlara xüsusi qayğı göstərməyə başladı. Ona görə də ermənilər sovet lideri İosif Stalini "*erməni xalqının atası və xilaskarı*" kimi mədh edirdilər. Erməniləri sovet rəhbərliyi gətirsə də, böyük dövlətlər onlardan SSRİ-nin əsaslarından biri olan xalqlar dostluğunu sarsıtmaq üçün istifadə edirdilər.

40-cı illərdə xarici ölkələrdəki erməni mətbuatı Azərbaycana və Türkiyəyə qarşı əsassız ərazi iddiaları ilə dolu məqalələr dərc edir, Ermənistandakı şair, yazıçı və publisistlərin əsərlərində isə Azərbaycan xalqına iftira atılır və tarix kobudcasına saxtalaşdırılırdı. Bu fəaliyyətlərin qarşısını almaq üçün Azərbaycan tərəfi müəyyən tədbirləri həyata keçirtdi. Xarici ölkələrin əlində alət olduğunu görən SSRİ rəhbərliyi daşnaklara qarşı müəyyən inzibati tədbirləri həyata keçirtdi. Onların ölkəyə gətirilməsi dayandırıldı.

Bu illərdə yalan erməni təbliğatına və düşmənçilik fəaliyyətlərinə qarşı Türkiyə hökuməti də tədbirlər aldı. Müəyyən hökumət qərarları qəbul edildi.

50-ci illərin sonlarından etibarən Türkiyənin Avropa Birliyinə üzv olmaq üçün müraciət etməsi sovet dövlətinin narahatlığına səbəb oldu. Bundan istifadə edən ermənilər SSRİ rəhbərliyinin mövqeyindən yararlanmağa başladılar. Ermənistanda türk düşmənçiliyi daha da şiddətləndirildi. 1961-ci ildə sovet rəhbəri Nikita Xruşşovun Ermənistana səfərindən sonra respublika rəhbərliyi yenidən hərəkətə keçdi. Xarici ölkələrdən ermənilərin gətirilməsi bərpa edildi və əsassız ərazi iddiaları artdı.

Kiprdə 60-cı illərdə baş verən hadisələrə münasibətdə Türkiyə həm üzvü olduğu NATO blokunun bəzi ölkələrinin, həm də SSRİ-nin təzyiqləri ilə üz-üzə qaldı. Erməni dairələri yaranmış şəraitdən yararlanmağa cəhdlər etdilər. Uydurma erməni soyqırımının 50 illiyinin Ermənistan SSR-də hay-küylə keçirilməsi türk düşmənçiliyini daha da artırdı. "Soyqırımı qurbanları"na abidə qoyulması isə erməni gənclərinin hansı ruhda tərbiyə edilməsinin göstəricisi oldu.

60-cı illərin sonu – 70-ci illərin əvvəllərində dünyada iki sistem ölkələri arasında qarşıdurmadan beynəlxalq gərginliyin zəiflədilməsinə keçid baş verdikdə və sovet – türk münasibətlərində normallaşma və əməkdaşlıq dövrü başladıqda Türkiyəyə qarşı erməni terroru yenidən baş qaldırdı. İlk terror aktı Türkiyənin müttəfiqi olan ABŞ ərazisində törədildi. Türk diplomatları və binaları hücumlara məruz qaldılar.

Azərbaycan hökumətinin 70-ci illərdə DQMV-də apardığı geniş miqyaslı tikinti-quruculuq işləri bəzi ermənilərdə qısqanclıq hissləri yaradırdı. Onlar Moskvaya iftiralar dolu məktublar göndərirdilər. Azərbaycan isə iki xalq arasında dostluq münasibətlərinin qorunması üçün hər şeyi edirdi.

Xarici ölkələrdəki erməni terror təşkilatlarının Türkiyəyə qarşı terroru 70-ci illərdə də xeyli genişləndi. Nə qədər səylər etsə də, türk hökuməti terrorun qarşısını ala bilmirdi.

Ermənistan rəhbərliyi 80-ci illərin əvvəllərində Azərbaycanın Qazax rayonunda bəzi torpaqlara əsassız iddia irəli sürdü. Bu, böyük qalma-

qal yaratdı. Əhalinin etirazlarına baxmayaraq, Mərkəzi hakimiyyətin təzyiqi altında Azərbaycan ərazilərinin bir qismi Ermənistana verildi.

1985-ci ildə Ermənistan rəhbərliyi uydurma soyqırımının 70 illiyinin keçirilməsi üçün respublika hakimiyyətinin fərmanının verilməsinə icazə almaq istəyirdi. Sovet rəhbərliyi bu təklifi rədd etsə də, Mərkəzi mətbuatda ermənilərin maraqlarına uyğun olan məqalə dərc edildi.

SSRİ rəhbərliyinə M.S.Qorbaçovun gəlməsi ilə ermənilər daha da fəallaşdılar. Az sonra sovet rəhbərliyi xarici ölkələrdən ermənilərin gətirilməsi haqqında yeni bir qərar qəbul etdi. Bir müddət keçmiş Ermənistan SSR rəhbərliyinin müraciəti əsasında xarici ölkələrdəki erməni mətbuatına yardımlar edildi.

80-ci illərin ortalarından etibarən qatı millətçi erməni dairələri dünyada və SSRİ-də baş verən proseslərin təsiri altında Türkiyəyə qarşı düşmənçiliyi unutmadan, onu arxa plana keçirərək, Azərbaycandan Dağlıq Qarabağ regionunun qopardılması üçün fəaliyyətlərini genişləndirdilər. M.S.Qorbaçovun ermənipərəst mövqeyi, Azərbaycan rəhbərliyinin zəifliyi Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxiləsinə, daha sonra on minlərlə günahsız insanın qanının axıdılmasına səbəb olan hərbi təcavüzünə, SSRİ dağıldıqdan sonra isə iki müstəqil dövlət arasında müharibəyə, Azərbaycanın Dağlıq Qarabağ regionunun və ətraf rayonlarının işğalına gətirib çıxardı.

Təcavüzün gedişində Ermənistan Xocalıda dinc əhalini amansızlıqla qətlə yetirməklə bəşəriyyətə və sivilizasiyaya qarşı dövlət səviyyəsində cinayət törətdi. Azərbaycan ərazilərinin işğal edilməsi nəticəsində ağır bir şərait yarandı.

Qeyd etmək lazımdır ki, 1920-1922-ci illərdə Azərbaycan və Ermənistan müstəqil dövlətlər olmayıb, Mərkəzdən asılı vəziyyətdə idilər. 1922-1991-ci illərdə isə SSRİ-ni təşkil edən müttəfiq respublikalar kimi müstəqil xarici siyasət yürüdə bilmirdilər. Ölkənin xarici siyasəti tamamilə Moskvanın əlində cəmlənmişdi. Türkiyənin də ayrıca Azərbaycan və Ermənistan siyasəti mövcud olmayıb, SSRİ ilə qarşılıqlı münasibətlərinin bir hissəsi idi. Sovet İttifaqı 1991-ci ildə dağıldıqdan sonra müstəqil olan Azərbaycan və Ermənistan ilə Türkiyə arasında münasibətlərdə yeni bir dövr başladı.

Məlum olduğu kimi, tarixi tədqiqatlar yalnız yaxın və ya uzaq keçmişdə nələrin olduğunu təsbit etmək üçün deyil, həm də baş vermiş hadisə və proseslərin səbəb-nəticə bağlılığını açmaq, özündən sonrakı tarixə necə təsir etdiyini öyrənmək və ibrət almaq üçün aparılır. Ona görə də təqdim edilən bu araşdırma zamanı bir sıra suallara cavab verməyə səylər edilmişdir: Ermənistan sovetləşdirildikdən sonra Azərbaycana və Türkiyəyə

qarşı əsassız iddialarının başlıca səbəbləri hansılar olmuşdur? Ermənistan Türkiyədən istədiyini ala bilmədikdə Azərbaycana qarşı hansı yollarla fəaliyyət göstərmişdir? Erməni dairələri niyyətlərinə çatmaq üçün hansı üsullardan istifadə etmişlər? Sovet dövləti və bəzi böyük ölkələr ermənilərdən öz məqsədləri naminə necə yararlanmışlar? Bütün bu fəaliyyətlərin hansı nəticələri olmuşdur? Erməni iddialarının gerçək tarixlə bir əlaqəsi varmı? Tarixi faktlar bu barədə nə deyir?

Bütün bu və digər məsələlərin ən mötəbər arxiv mənbələri və sənədli materiallar əsasında tarixi tədqiqatların dünyada qəbul olunmuş ümumi metodoloji prinsiplərinə əsaslanaraq, hissə qapılmadan, obyektiv, tarixi gerçəkliyə uyğun şəkildə dərindən araşdırılması və erməni dairələrinin əsassız iddialarına tutarlı elmi cavab verilməsi vacibdir. Ona görə də belə bir araşdırmanın aparılması zəruri sayılmışdır.

Monoqrafiyanın yazılmasında başlıca məqsəd Ermənistanın sovetləşdirilməsindən başlayaraq Azərbaycana qarşı təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsində atəşkəs elan edilənədək olan dövrdə erməni diasporası və Ermənistan rəhbərliyinin Azərbaycana və Türkiyəyə qarşı fəaliyyətlərini araşdırmaqdır.

Məqsədə nail olmaq üçün Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivi (ARSSA), Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi Arxivi (ARMTNA), Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Arxivi (ARXİNA), Rusiya Xarici Siyasət Arxivi (rusca AVPR), Rusiya Sosial-Siyasi Tarix Arxivi (rusca RQASPİ), Rusiya Dövlət Ən Yeni Tarix Arxivi (rusca RQANİ), Rusiya Federasiyası Dövlət Arxivi (rusca QARF), Gürcüstan Mərkəzi Ən Yeni Tarix Arxivi (GMƏYTA) fondlarında uzun illər boyu "məxfi", "tamamilə məxfi" və "xidməti istifadə üçün" qrifləri altında saxlanılmış sənədlərdən, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Praqa Arxivinin, Türkiyə Cümhuriyyəti Baş Bakanlıq Cümhuriyyət Arxivinin, ABŞ və Böyük Britaniya arxiv fondlarının materiallarından, dövri mətbuatdan, mümkün olan Ermənistan mənbələrindən istifadə edilmişdir. Mənbələrin əksəriyyəti elmi dövriyyəyə ilk dəfə gətirilmişdir. Göstərdikləri yardımlar üçün çalışdığım arxiv və kitabxanaların rəhbərlərinə və əməkdaşlarına təşəkkür edirəm.

# I FƏSİL

# SOVETLƏŞMƏ ƏRƏFƏSİNDƏ DAŞNAK ERMƏNİSTANININ SİYASƏTİ

## *Anadoluda və Cənubi Qafqazda şərait*

20-ci illərin əvvəllərində Anadoluda və Cənubi Qafqazda mürəkkəb bir şərait yaranmışdı. Antanta ölkələri 1920-ci il martın 16-da İstanbulu işğal etdikdən dörd gün sonra, martın 20-də ermənilər sanki razılaşdırılmış kimi, Azərbaycanın Dağlıq Qarabağ regionunda qiyam qaldırdılar. Lakin qiyam yatırıldı.

Bundan bir müddət keçmiş, aprelin 18-26-da Osmanlı dövləti ilə imzalanacaq Sevr müqaviləsinin şərtlərini hazırlamaq üçün İtaliyanın San Remo şəhərində beynəlxalq konfransın keçirildiyi günlərdə, aprelin 23-də Ankarada Mustafa Kamal Paşanın rəhbərliyi altında Türkiyə Böyük Millət Məclisi hökuməti quruldu.

Bir neçə cəbhədə müharibə aparmasına baxmayaraq, San Remo müqaviləsini tanımayan türk xalqı istiqlal savaşını genişləndirdi. Bununla bağlı olaraq müttəfiqlərin İstanbuldakı ali komissarı Mark Lambert Bristol sonralar, 1920-ci il sentyabrın 18-də ABŞ dövlət katibinə 760j.6715\23 6№-li teleqramında yazırdı:

*"Milli hərəkatın səbəblərindən biri ermənilərin şərq vilayətlərində törətdikləri vəhşiliklər və yunanlar tərəfindən Smirnanın* (İzmir – M.Q.) *işğalı oldu. Milli hərəkat San Remo müqaviləsini tanımadı"*[1].

Türk xalqının qərbdə Antanta ölkələrinə qarşı ölüm-dirim müharibəsi apardığı bir zamanda daşnak dəstələrinin Anadoluda dinc əhalini amansızlıqla qırmaqda davam etməsi, daşnak Ermənistanının "Böyük Ermənistan" qurmaq niyyəti ilə şərqdə Türkiyəyə qarşı yeni bir cəbhə açması onsuz da mürəkkəb olan şəraiti daha da ağırlaşdırırdı.

Ermənistanın təcavüzkar hərəkətləri həmçinin bir sıra beynəlxalq amillərlə, o cümlədən Antanta ölkələrinin apardığı müharibə və ABŞ-ın Ermənistan üzərində mandata sahib olmaq istəkləri ilə bağlı idi. Lakin bu istək baş tutmadı. ABŞ senatı Prezident Vudro Vilsonun Ermənistan üzərində mandat qurulmasına dair təklifini rədd etdi. Bununla bağlı olaraq "Tayms" qəzeti yazırdı:

*"Amerika senatı Prezident Vilsonun Ermənistana Amerika mandatı tətbiq edilməsinə dair təklifini 1 iyun tarixli iclasında rədd etdi. Mandatın*

---

[1] Papers Relating to the Foreign Relations of the United States. 1920. Vol.III. Washington, 1936, p.788.

*lehinə 62, əleyhinə 12 nəfər səs verdi. Buna qədər xarici işlər üzrə komissiya da Prezidentin özbaşına hərəkətini rədd etmişdi"*[2].

ABŞ senatının bu qərarı qəbul etməsinin bir sıra səbəbləri var idi. Hər şeydən əvvəl, əgər ABŞ, Ermənistan üzərində mandat qazanardısa, özü üçün çoxlu əlavə problemlər yaradacaq və başını bəlaya salmış olacaqdı. Çünki özlərini idarə edə bilməyən ermənilər digər xalqları heç idarə edə bilmir və onlara zülm edirdilər. Bu isə qarışıqlıq yaradırdı. Belə olduqda ABŞ uzaq bir coğrafiyada baş verən münaqişələri yatırtmaq üçün əsgər göndərmək məcburiyyətində qalacaqdı. Əsgər göndərmək isə ölkə daxilində narazılıqlara gətirəcəkdi. Digər tərəfdən, regionda mürəkkəb proseslər baş verirdi. Dünya müharibəsindən qalib çıxan, lakin çoxlu problemlər məngənəsində vurnuxan Avropa dövlətləri belə bir mandatı üzərlərinə götürmək, özləri üçün əlavə problem yaratmaq istəmirdilər. Nəhayət, dünya müharibəsindən yenicə çıxan amerikalılar ölkəsinin başqa bir yerdə qarışıqlıqlarda iştirak etməsini istəmirdilər. Həm də bu zaman ABŞ konqresində dünya işlərinə müdaxilə etməyin tərəfdarı olan beynəlmiləlçilərin mövqeyi zəifləmiş, təcridçilər isə üstünlük qazanmışdılar.

### *"Böyük Ermənistan" iddiaları. Bolşevik Rusiyasının və Azərbaycanın mövqeyi*

Belə bir şəraitdə ümumi maraqlar baxımından bolşevik Rusiyası və kamalçı Türkiyənin yaxınlaşması Cənubi Qafqazda geosiyasi şəraiti dəyişdirdi. 1920-ci il aprelin 28-də Azərbaycan işğal edilərək sovetləşdirildi.

Ermənistanda hakimiyyətdə olan daşnaklar isə yeni ərazilər işğal etmək üçün Azərbaycana qarşı iddialara başladılar. Ermənistan ilə mübahisələrin hərbi deyil, diplomatik-siyasi yolla həllinə üstünlük verən Azərbaycan hökuməti 1920-ci il aprelin 30-da daşnak Ermənistanı və menşevik Gürcüstanı hökumətlərinə nota verdi. Notada deyilirdi:

*"1.Qarabağ və Zəngəzurdan ordularınızı çıxarın; 2.Öz sərhədlərinizə çəkilin. 3.Millətlərarası qırğını dayandırın. Əks halda Azərbaycan SSR İnqilab Komitəsi özünü Ermənistan Respublikası hökuməti ilə müharibə vəziyyətində hesab edəcəkdir"*[3].

Notaya cavab üç gün ərzində verilməli idi.

---

[2] НКИД Азербайджанской ССР.Отдел Востока. Информационный бюллетень. №105. – ARSSA, f.609, siy.1, iş 59, v. 10.

[3] Нота Азербайджанского советского правительства правительствам Армении и Грузии. 30.04.1920. – ARDA, f. 28 s., siy.1, iş 99, v.12; ARSSA, f. 1, siy.169, iş 249, v.8; f.1, siy.31, iş 186a, v.9; Газ. "Коммунист", Баку, 01.05.1920, №1.

Tarixi həqiqətləri kobudcasına saxtalaşdıraraq Zəngəzuru və Qarabağı erməni torpaqları hesab edən Ermənistanın xarici işlər naziri A.Ohacanyan mayın 3-də verdiyi cavab notasında yazırdı:

*"Azərbaycan ərazisində erməni ordusu yoxdur. Əksinə, devirdiyiniz Müsavat Partiyasının ordusu erməni Qarabağı vilayətindədir, zəhmətkeş erməni kəndlilərini qırır, Şuşanın erməni hissəsini və çoxlu kəndləri yandırmışdır. Azərbaycan ilə Ermənistan arasında bütün mübahisəli məsələlər dinc yolla həll edilməlidir. Qarabağ kəndliləri Ermənistan Respublikasının tərkibində olmaq istəyirlər. Zəngəzurda isə Azərbaycan öz hakimiyyətini heç vaxt yaymamışdır və Zəngəzuru Azərbaycan ərazisi hesab etmək hüquqi və taktiki cəhətdən düzgün deyildir. Ermənistan ordusu heç vaxt Azərbaycan sərhədini keçməmişdir. Milli qırğın isə Müsavat hökuməti və türk emissarları tərəfindən təşkil edilmişdir"* [4].

Yaranmış beynəlxalq şəraitdən yararlanmağa çalışan daşnak hökuməti riyakarcasına təklif edirdi:

*"1. Bütün hərbi əməliyyatlar dayandırılsın; 2. Sərhəd məsələlərini həll etmək və mehriban qonşuluq münasibətləri yaratmaq üçün danışıqlara başlanılsın".*

Əsassız iddialarını davam etdirən ermənilərin Tiflisdəki Qarabağ icmasının nümayəndələri S.Pirimov və Aramans Yerhinyans 1920-ci il mayın 9-da Q.K.Orconikidzeyə göndərdikləri teleqramda Zəngəzurun və Qarabağın əhalisinin Azərbaycanın tərkibinə daxil olmaqdan imtina etdiklərini yazsalar da[5], bir müddət sonra, iyunun 9-da V.İ.Leninə göndərdikləri teleqramda vurğulayırdılar:

*"Qarabağ ermənilərinin çoxu Bakı mədənlərində çörək pulu qazanırlar... Dağlıq Qarabağ kəndliləri 1920-ci il yanvarın 22-də Azərbaycanın hakimiyyətini rəsmən tanımışlar... Dağlıq Qarabağ kəndlilərinə öz müqəddəratını təyinetmə hüququ verməyinizi xahiş edirik..."* [6].

Əsassız iddialarına nail olmaq üçün daşnak Ermənistanı Rusiya sovet hökumətinə Azərbaycan ilə mübahisələrdə vasitəçi olmağı və azərbaycanlılara məxsus əraziləri mübahisəli elan edib rus qoşunlarını yerləşdirməyi təklif edirdi. RSFSR xalq xarici işlər komissarının müavini L.Karaxan 1920-ci il mayın 15-də Azərbaycan SSR xalq xarici işlər komissarı

---

[4] Нота Армении. 03.05.1920. №2792. – ARDA, f.28 s., siy.1, iş 99, v.26; Газ. "Коммунист", Баку, 15.05.1920, №12.

[5] Телеграмма С.Пиримова и А.Ерхинянса С.Орджоникидзе. 09.05.1920. – РГАСПИ, ф. 85, оп. 13, д. 18, л. 1.

[6] Телеграмма С.Пиримова и А.Ерхинянса В.И.Ленину. 09.06.1920. – ARSSA-nın surət fondu, 409, v. 1, 2, 4.

Mirzədavud Hüseynova teleqram göndərərək, Rusiya sovet hökumətinin vasitəçiliyinə dair razılıq haqqında məlumat verməyi xahiş etdi[7] .

Lakin hansı cavabın veriləcəyini gözləməyən Ermənistan az sonra hərbi əməliyyatlara başladı. Hərbi əməliyyatların aparılmasının konkret hədəfləri var idi. Erməni tədqiqatçısı A.Lalayanın yazdığı kimi, daşnak Ermənistanı *"Azərbaycanda Qarabağ və Naxçıvan, Gürcüstanda Borçalı, Axıska, Axalkələk kimi torpaqları işğal etmək, Türkiyədən Şərqi Anadolunu Aralıq dənizinədək qopartmaqla "böyük, müstəqil Ermənistan" yaratmaq istəyirdi"* [8].

Daşnak hərbi hissələri hücum edərək Qazax qəzasında, Qarabağ və Zəngəzurda azərbaycanlılara məxsus yaşayış məntəqələrini dağıtdılar. Daşnaksütyunun rəhbərlərindən biri olan Ov. Kaçaznuni bununla bağlı olaraq sonralar yazırdı:

*"Ermənistanda, Ağbabada, Zodda, Zəngibasarda, Vedi-Basarda, Şərur-Naxçıvanda, Zəngəzurda və b. yerlərdə müsəlman əhaliyə qarşı qanlı döyüşlər aparıldı"* [9].

Yaranmış vəziyyət ilə bağlı olaraq N.Nərimanov, RK(b)P Qafqaz diyar Komitəsinin üzvü P.K.(Budu) Mdivani, Azərbaycan K(b)P MK üzvü A.Mikoyan, Ermənistan K(b)P MK üzvü Nuricanyan iyunun 19-da G.Çiçerinə və Q.K.Orconikidzeyə teleqram göndərərək, daşnak hökumətinin Azərbaycana hücum etdiklərini, bəzi rayonlarda uğur qazandıqlarını, Qazaxa və Gədəbəyə yaxınlaşdıqlarını, dəmiryolunu təhlükəyə salmaq məqsədi güddüklərini və daşnak Ermənistanı ilə danışıqların zamanı gəlmədiyini bildirdilər. Onların yazdıqlarına görə Azərbaycan ordusunun yaxınlaşdığını görən Dro başda olmaqla erməni terror dəstələrinin Qarabağdan çəkilməsindən sonra ermənilərin sovet hakimiyyəti quraraq Qarabağdakı komissarlar olan D.Bünyadzadə və M.Karakozovla (Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 12 may tarixli iclasında D.Bünyadzadə Qarabağın müvəqqəti fövqəladə komissarı, Armenak Karakozov isə erməni hissəsi üzrə onun köməkçisi təyin edilmişdi[10]) əlaqə qurduqlarını qeyd edən bu şəxslər vurğulayırdılar:

*"Artıq sovet Azərbaycanının tərkibində keçmişdə* ***guya mübahisəli olan Zəngəzur və Qarabağa gəldikdə isə qəti surətdə bəyan edirik ki, bu***

---

[7] Телеграмма заместителя наркома иностранных дел Карахана народному комиссару иностранных дел Гусейнову. 15.05.1920. №1102. – ARDA, f. 28 s., siy. 1, iş 99, v. 96.

[8] Лалаян А. Контрреволюционный "Дашнакцутюн" и империалистическая война 1914-1918 гг. – "Революционный Восток", М.,1963, № 2-3.

[9] Качазнуни Ов. Дашнакцутюн больше нечего делать! Тифлис, 1927, с. 33.

[10] Протокол заседание Азревкома. 12.05.1920. – ADRA, f.410, siy.1, iş 78, v.6.

***yerlər mübahisəsizdir və bundan sonra da Azərbaycan hüdudlarında olmalıdır...*** (Seçmə bizimdir –M.Q.). *Öz tərəfimizdən biz daşnak hökuməti ilə hər hansı danışıqları və sizin təklif etdiyiniz şəkildə Türkiyə Ermənistanı* (Türkiyənin Şərq vilayətləri nəzərdə tutulur – M.Q.) *haqqında məsələni zamanı çatmamış hesab edirik"* [11].

Teleqram göndərilən günün səhərisi, iyunun 20-də daşnak dəstələri Qazax rayonunun Ermənistan ilə sərhəddə yerləşən kəndlərini yenidən bombardman etdilər. Hücumları dayandırmaq və bu tələbi Moskvadakı erməni nümayəndəsinə çatdırmaq üçün Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov G.Çiçerinə, V.İ.Leninə və RSFSR-in Tiflisdəki nümayəndəsi S.M.Kirova müvafiq nota verdi[12] .

Bundan sonra V.İ.Lenin Azərbaycan ilə Ermənistan arasında ərazi mübahisələri barədə G.Çiçerinin fikrini soruşdu. N.Nərimanovun mövqeyinə qarşı çıxaraq, 1920-ci il 22 iyun tarixində V.İ.Leninə *"Nərimanov Bakı tatarlarının* (azərbaycanlılar – M.Q.) *hücum niyyətinə haqq qazandırır"*[13] yazan G.Çiçerin gerçək tarixi saxtalaşdıraraq vurğulayırdı:

*"Qarabağ erməni yerləridir, lakin ermənilər orada qaldıqdan sonra düzənlik hissədə tatarlar yerləşmişlər, dağlıq hissədə isə ermənilər qalmışlar. Biz indi tatarları incik salmamaq üçün həmin yerləri ermənilərə vermirik... Gürcüstanın və Ermənistanın sovetləşməsi üçün şərait yetişdikdə, onda bütün bunlar aradan qalxacaqdır"* [14].

Qeyd etmək lazımdır ki, coğrafi anlamda Qarabağ dedikdə, Yelizavetpol quberniyasının Şuşa, Cavanşir və Zəngəzur qəzalarını əhatə edən keçmiş xanlıq ərazisi, həmçinin Göyçə gölündən cənuba doğru Kiçik Qafqazın cənub-şərq hüdudları başa düşülürdü[15].

Bu zaman kifayət qədər gücü olmadığından lüzumsuz siyasi toqquşmalardan qaçan sovet Rusiyası Gürcüstan və Ermənistanı Antanta ölkələrindən ayırmaq üçün diplomatik yolu seçərək kompromis xətt yeridirdi. Azərbaycan kommunistlərinin həmin xəttə maneçilik törətdikləri qənaətində olan G.Çiçerin yazırdı:

---

[11] Телеграмма Нариманова, Мдивани, Микояна и Нуриджаняна Чичерину, копия Орджоникидзе.19.06.1920. – ARSSA, f.1, siy.31, iş 186 a, v. 10; РГАСПИ, ф. 28, оп 1, д. 99, л. 115.

[12] Нота т. Нариманова наркоминделу Чичерину, копия Ленину, копия Тифлис, дипломатическому представителю РСФСР т. Кирову. – Газ. "Коммунист", Баку, 08.07.1920, №58.

[13] Ответ Г.Чичерина Ленину. Июнь 1920. – РГАСПИ, ф. 2, оп.1,д.14516, л. 2.

[14] Yenə orada.

[15] Энциклопедический словарь. Изд. Брокгауз, Ефрон.Т. XIV. СПб., 1895.

*"MK Gürcüstan və Ermənistan burjua hökumətləri ilə hələ qüvvələrimizi bu istiqamətə cəlb etmək üçün vaxt olmadığından diplomatik yolla onları Antanta ayaqları altından çıxartmaq və Ermənistanın sovetləşdirilməsini rədd etmək, kompromis xətt yeritmək barədə qərar qəbul etmişdir. Bakılı yoldaşlar öz hərəkətləri ilə kompromisi pozurlar, MK-nın Ermənistan ilə tələb etdiyi sazişi rədd edirlər, üsyanlara şərait yaradırlar, bizim qüvvələrin tutması qərarına gəlinən mübahisəli ərazilərin Azərbaycana birləşdirilməsi Ermənistanla sazişi tamamilə mümkünsüz edir. Bakılı yoldaşların bu inadkar xətti MK-nın artıq qoyulmuş xəttinin tamamilə əksinə gedir"* [16].

Onun bu mövqeyinə etiraz edən N.Nərimanov V.İ.Leninə yazırdı ki, Çiçerinin teleqramından görünür, Sizin məlumatınız birtərəflidir[17].

Etirazlara baxmayaraq, sovet rəhbərliyi niyyətini həyata keçirtdi. İyunun 30-da bolşevik ordusunun Ermənistana doğru irəliləməsinin dayandırılması haqqında qərar qəbul edildi. Bu qərar bir tərəfdən, Cənubi Qafqazda yaranmış şərait, digər tərəfdən isə sovet dövlətinin beynəlxalq konyukturanı nəzərə alması və Antanta ölkələri ilə yeni toqquşmadan qaçma istəkləri ilə bağlı idi.

Türk milli mərkəzi ilə bolşevik Rusiyası arasında birbaşa quru ərazisi əlaqəsi qurulması zərurətə çevrildiyindən G.Çiçerin daşnak Ermənistanı ilə danışıqlar aparmağı və müqavilə bağlamağı vacib hesab edirdi. O, RK(b)P MK Siyasi Bürosunun qərarına əsaslanaraq iyulun 2-də bununla bağlı olaraq Q.K.Orconikidzeyə göndərdiyi teleqramında bildirirdi ki, türk milli mərkəzi ilə başlanan danışıqlarda Rusiyaya birbaşa ərazi əlaqəsi zəruridir, onun vasitəsi ilə belə əlaqə imkanı əldə etmək üçün Ermənistanla müqavilə bağlamalıyıq. G.Çiçerin belə düşünürdü ki, *"Ermənistan ilə müqavilə Kiçik Asiya işlərinə sovetlərin mümkün təsirini təmin edən yeganə vasitə olardı"* [18].

Həmin gün Q.K.Orconikidzeyə göndərdiyi digər bir teleqramında G.Çiçerin daşnak hökuməti ilə kompromis əldə edilməsinin sovet Rusiyası üçün zəruri olduğunu yazaraq əlavə etdi:

*"Azərbaycan hökuməti yalnız Qarabağ və Zəngəzuru deyil, Şərur-Dərələyəz qəzasını da mübahisəli elan edir. Sonuncu ərazi heç vaxt, heç bir halda mübahisəli olmamışdır və hətta Müsavat hökuməti belə oranı həmişə Ermənistan kimi tanımışdı. Şərur-Dərələyəzsiz Ermənistana demək*

---

[16] Письмо Г.Чичерина в Политбюро ЦК РКП(б). 22.06.1920. – ARSSA-nın surət fondu.

[17] Письмо Нариманова Ленину. 1920. – ARSSA, f. 609, siy.1, iş 71, v. 41.

[18] Телеграмма Чичерина Орджоникидзе. 02.07.1920. – РГАСПИ, ф.85, оп. 3 с., д. 2, л. 1.

*olar ki, heç nə qalmır, Ermənistan sülh nümayəndə heyəti uzun müqavimətdən sonra gec-tez böyük hissəsinin Ermənistana veriləcəyinə ümid edərək Qarabağ və Zəngəzurun mübahisəli olduğu ilə heç bir halda razılaşmır. Digər tərəfdən Ermənistanla müqaviləmizin Azərbaycan hökumətinin tələblərinə zidd olmadığına dair Azərbaycan hökuməti ilə razılığa gəlməyimiz zəruridir.* ***Sizin Bakıda çox böyük təsiriniz olduğundan xahiş edirik, bu təsirdən istifadə edərək Azərbaycan hökumətinin Şərur-Dərələyəzi deyil, Qarabağ və Zəngəzuru mübahisəli ərazi kimi tanımasına nail olun*"** (seçmə bizimdir – M.Q.) [19].

Tarix boyu coğrafi-siyasi və etnik-mədəni baxımdan Azərbaycana məxsus olmuş ərazilərin Ermənistana birbaşa birləşdirilməsini təklif edən G.Çiçerindən fərqli olaraq Q.K.Orconikidze Qarabağ və Zəngəzurun Azərbaycan tərkibində muxtariyyətinin elan edilməsinə, digər ərazilərin isə Ermənistana verilməsi üçün təzyiqlər edilməsinə tərəfdar çıxır, bunu "türk təhlükəsi" və iqtisadi amillərlə əlaqələndirərək tövsiyə edirdi ki, muxtariyyətin elanı ideyası RSFSR ilə Ermənistan arasında imzalanacaq müqavilədə göstərilməməli, ideya Azərbaycandan gəlməlidir. O, G.Çiçerinlə telefon danışığında mövqeyini belə əsaslandırırdı:

*"Azərbaycan Qarabağın və Zəngəzurun təcili və danışıqsız birləşdirilməsini təkid edir. Məncə bunu etmək zəruridir. Çünki hər iki qəza iqtisadi baxımdan Bakıya meyillidir və xüsusilə, Bəyazid türk diviziyasının araya girdiyi indiki vaxtda bu qəzalar tamamilə İrəvandan ayrılmışlar. Bu qəzalar mübahisəli saxlanıldığı halda, onlar sözsüz, türklər tərəfindən tutulacaqlar və bütün erməni əhalisi qılıncdan keçiriləcəkdir. Bunu aradan qaldırmaq üçün biz heç nə edə bilmərik. Bu qəzaların Azərbaycana birləşdirilməsi Azərbaycan kommunistlərinin əlinə güclü dəlil vermiş olar və köçərilər üçün yolları açardı. Qabrileyanın* ( Ermənistan Hərbi-İnqilab Komitəsinin üzvü S.M.Ter-Qabrileyan nəzərdə tutulur –M.Q.) *sözlərinə görə erməni nümayəndəliyi sözsüz buna gedər.* ***Məsələnin həllinin belə gedişində Azərbaycanı məcbur etmək olar ki, digər vilayətlərdən imtina etsin. Fikrimcə, Qarabağ və Zəngəzur təcili olaraq Azərbaycana birləşdirilməlidir. Azərbaycanı məcbur edəcəyəm ki, bu vilayətlərin muxtariyyətini elan etsin, lakin bu ideya Azərbaycandan gəlməlidir və heç bir halda bunu müqavilədə*** **(Rusiya ilə Ermənistan arasında imzalanacaq müqavilə nəzərdə tutulur – M.Q.)** ***göstərmək olmaz"*** **[20].**

---

[19] Телеграмма Чичерина Орджоникидзе. 02.07.1920. – РГАСПИ, ф.85, оп. 3 с., д. 2, л. 3.

[20] Ответ Орджоникидзе по прямому проводу Чичерину. Июль 1920. – РГАСПИ, ф. 85, оп. 3 с., д. 2, л. 6; ARSSA, f. 1, siy. 31, iş 186 a, v. 38.

Göründüyü kimi, Orconikidze həmin ərazilərə muxtariyyət verilməsini təklif edir, lakin bu ideyanın Azərbaycandan gəlməsini məsləhət bilir və onun reallaşdırılması üçün təzyiq edəcəyini yazırdı.

## *Anadoluda qətliam*

Bolşevik Rusiyası Azərbaycan torpaqlarını daşnak Ermənistanı üçün qoparmağa çalışdığı bir zamanda Türkiyə ağır vəziyyətdə idi. Bundan istifadə edən daşnak dəstələri "Böyük Ermənistan" qurmaq istəyi ilə Anadoluda dinc əhalini qırmaqda davam edirdilər. Qırğın bütün Kars vilayətində, İrəvan quberniyasında, Şərur-Dərələyəzdə və b. yerlərdə törədilirdi. Məsələn, təkcə 1920-ci ilin iyun ayında Kars dairəsindən 40 min nəfər qovulmuşdu[21]. Daşnak hökumətinə göndərdiyi məlumatında türk-kürd əhalisinin məhv və əmlakının talan edilməsini etiraf edən, kəndlər işğal edildikdən sonra daşnak hökumətinin heç də həmişə orada qalmış sərvəti öz əlinə ala bilmədiyini Karsdan yazdığı məktubunda bir məmur belə təsvir edirdi:

*"Türklərin və kürdlərin məskunlaşdığı yerlər sərvət məkanıdır, lakin təəssüf olsun ki, biz ona sahib ola bilmirik"*[22].

Sonralar Gürcüstan Fövqəladə Komissiyasının sənədlərində Karsda törədilənlər aşağıdakı kimi əks olunmuşdu:

*"Erməni – müsəlman toqquşmalarının qızışdırıcısı olan belə qatı millətçi partiyalardan biri Daşnaksütyun Partiyası idi. Daşnaklar Karsda 80 kəndi yez üzündən sildilər və əhalisini qaçqına çevirdilər"*[23].

Belə bir zamanda yunan ordusunun İzmirdən çıxaraq Anadolunun içərilərinə doğru hücuma başlaması, Şərqi Frakiyaya daxil olması və Ədirnəni işğal etməsindən ruhlanan daşnak dəstələri qırğınları və terror fəaliyyətlərini genişləndirdilər. Onlar təkcə müsəlmanları deyil, digər millətləri, o cümlədən rusları da öldürürdülər. Yaranmış ağır şəraitlə bağlı olaraq S.M.Kirov hələ iyunun 29-da G.Çiçerinə göndərdiyi teleqramında yazırdı:

---

[21] Меморандум представителей Демократической Республики Юго-Западного Кавказа, по вопросам национального движения на Юго-Западного Кавказа от русской революции до прихода турок на Кавказ. 25.12.1920 – РГАСПИ, ф. 544, оп. 3, д. 68, л.6-8.

[22] Контрреволюционная роль партии Дашнакцутюн.–ARMTNA,L-164,v. 182.

[23] Об армянской революционной партии Дашнакцутюн. Циркулярное письмо Президиума Чрезвычайной Комиссии Грузии. № 3. Совершенно секретно. Тбилиси, Электропечатная Грузчека, 1922, с. 13. – ARMTNA, PR-41064, IV cild, v. 17-18.

*"Kars vilayətinin 30 minlik rus əhalisindən 15 mini qalmışdır. Digər hissəsi ya Türkiyəyə, ya Rusiyaya qaçmış, ya da məhv olmuşdur"* [24].

### *Azərbaycanlılara qarşı qırğınlar*

Sovet xadimləri tarixi Azərbaycan ərazilərini mübahisəli elan edərək daşnak Ermənistanına verməyə çalışdıqları bir zamanda bu ölkə ərazisində azərbaycanlılara qarşı qırğınlar davam etdirilirdi. Culfaya qədər müstəsna olaraq müsəlmanlar yaşayan əraziləri tutmağa qərar verən daşnaklar 1920-ci il iyul ayının əvvəllərindən başlayaraq Zəngibasara hücum etdilər. Daşnak hökuməti azərbaycanlı kəndləri tabe etdirmək üçün Zəngi çayının axarını bağlayaraq suyunu kəndlərin üzərinə yönəltdi. Nəticədə Göyçədən Zəngibasara qədər onlarla kənd su altında qaldı. Çoxlu adam, mal-qara və əkin sahəsi məhv oldu[25].

Zəngibasar rayonundan daşnaklar 18 gənc qızı aparmış, 400 uşağı öldürmüş, qaça bilməyən 100 xəstəni tonqalda yandırmışdılar. Erməni artilleriyası ilə 150 qoca və qarı öldürülmüşdü. Qaçmaqla canını qurtarmaq istəyən 816 nəfər Araz çayında boğulmuşdu. Çayı üzüb keçə bilməyən 160 uşaq çayın sahilindən tutub qalsa da, daşnaklar onları süngü ilə vurub suya salaraq boğmuşdular.

Erməni məmurlarından biri (arxiv sənədində adı göstərilməmişdir – M.Q.) daşnak hökumətinə göndərdiyi məktubunda yazırdı:

*"Zəngibasar tərəfimizdən işğal edilmişdir. Bu ölkə o qədər zəngindir ki, bizim borcları bir neçə dəfə ödəmək gücündədir. Artıq iki gündür ki, burada görünməmiş soyğunçuluq baş verir–taxılı, buğdanı, düyünü, samovarları, xalçaları, pulları və qızılları daşıyırlar...Maliyyə naziri yalnız dünən buraya özünün iki agentini göndərmişdir, onlar da təşkilatlanmamışlar...Zəngin zərvət bizim əlimizdən çıxır..."* [26].

Daşnaklar qanlı hücumlarını Şahtaxtı stansiyasını tutmaqla başa çatdırdılar. Həmin ərazilərdə 48 kənd tamamilə dağıdıldı. 160 min nəfər əhali ev-eşiksiz, açıq səma altında qalmış, çoxlu azərbaycanlı isə Cənubi Azərbaycana qaçmağa məcbur olmuşdu.

Vedibasar rayonunda 118, Dərələyəzdə 74, Şərur və Şahtaxtı rayonlarında 76 kənd yandırılmış, bu rayonlardan 50 mindən çox iri buynuzlu mal-qara aparılmış, əhalinin var-dövləti qarət edilmiş, 500 min adam səfil

---

[24] Телеграмма С.Кирова Г.Чичерину. 29.06.1920. – РГАСПИ, ф.5, оп.1, д. 2178, л. 1.

[25] Контрреволюционная роль партии Дашнакцутюн. – ARMTNA, L-164, v.185.

[26] Yenə orada, v. 182.

vəziyyətə düşmüşdü. Buğda və düyü ehtiyatı daşnakların əlinə keçmişdi. Vedibasar rayonunda artilleriya atəşi ilə 900 nəfər öldürülmüş, 6 qadın zorla aparılmış, 300-dən çox uşaq və qoca öldürülmüş, Şərur rayonunda 810 yataq xəstəsi, 150 qoca və qarı, 718 uşaq qətlə yetirilmiş, 144 qadın zorla aparılmışdı[27].

Daşnaklar erməniləri azərbaycanlı əhaliyə qarşı qızışdırır, onların mal və mülkünü almağa təhrik edirdilər. Azərbaycanlı əhalinin malı və mülkünün qarət edilməsi daşnaklar tərəfindən Ermənistanı ağır şəraitdən çıxartmaqda bir yol kimi düşünülürdü. Məsələn, Şərur, Vedibasar və Zəngibasar rayonlarının əhalisini darmadağın edən daşnak dəstələri azərbaycanlılardan üç min pud buğda, üç yüz at və iki yüz baş mal-qara verməyi tələb etmiş, onları dağıdılmış evlərinə belə, buraxmamışdılar.

İyul ayında daşnaklar Göl sahəsində Arpaşen, Austan, Topdaş, Təligli və b. kəndlərinə hücum edərək yandırdılar, əhalisini məhv etdilər. Daşnak hökumətinin bu hərəkətlərini mədh edən hansısa Q.Muradyan Göyçə gölünün şimal sahillərində azərbaycanlılar yaşayan kəndləri dağıtdığını aşağıdakı kimi təsvir edirdi:

*"Hökumətimizin səyləri nəticəsində bu kəndlərin (Toxluca, Ağbulaq, Ərdəniş və b.) sakinləri Ermənistan sərhədlərini tərk etmişlər... Mən boşaldılmış kəndləri gördüm, orada bir neçə pişik, iki-üç it qalmışdır, onlar matəm sükutundan heyrətlənmişlər, qeyri-adi və təəccüblü səslə hürürlər. Bu kəndlərin əhalisi çoxlu toxumluq kartof, buğda və taxıl qoyub getmişdir. Hökumət bu kəndlərdən 2 milyon puddan çox taxıl və 1,5 milyon ton kartof yığa bilər"* [28].

Daşnak hökumətinin yerlərdəki səlahiyyətli nümayəndələri olan liazorilər azərbaycanlılardan qarət etdikləri məhsulları özləri mənimsəyirdilər.

Daşnaksütyun azərbaycanlı və kürd əhalini məhv etmək, qovmaq və əmlaklarını ələ keçirtməklə Ermənistanı erməniləşdirirdi. Ermənistanın azərbaycanlı əhalidən təmizlənməsinin son aktı onlara məxsus evlərin dağıdılması və tikinti materiallarının oğurlanması oldu. Azərbaycanlı əhaliyə qarşı törətdiyi vəhşiliyi daşnak məmurlarından biri belə təsvir edirdi:

*"Mən Basarkeçərdə heç bir fərq qoymadan azərbaycanlı əhalini məhv etdim. Bəzən patrona heyfim gəlir. Bu itlərə qarşı ən doğru üsul döyüşlərdən sonra bütün sağ qalanları bir quyuya töküb üstündən ağır daşlar atmaqdır ki, onlar bu dünyada olmasınlar.*

---

[27] К положению дел в Нахичеванско-Зангибасарском районе. – Газ. "Коммунист", Баку, 15.10.1920, №138.

[28] Контрреволюционная роль партии Дашнакцутюн.–ARMTNA,L-164, v.183.

*Mən belə də hərəkət etdim. Bütün kişi, qadın və uşaqları bir yerə yığıb, onları məhv etdim, məhv edib tökdüyüm quyuları daşla doldurdum”* [29].

Qaranux rayonunda isə adamları bir yerə toplayan sahə komissarı V.Ağamyan günün günorta çağı qadın və qızları heç bir məhkəmə qərarı olmadan fərarilikdə təqsirləndirərək, tamamilə lüt olmağa, kəndin mərkəzində əvvəlcədən hazırlanmış gölməçəyə salaraq qaz kimi yeriməyə məcbur etdi. O, qadınları gölməçənin içində saatlarla saxlayıb döydükdən sonra həbs etdi. Öz işçilərinin vasitəsi ilə gecə gənc qadın və qızları yanına gətirdərək zorladı, digərlərini isə əməkdaşlarının ixtiyarına verdi. V.Ağamyanın özünü həyasız aparması adamları hiddətləndirmişdi. Əhalinin onu öldürmək istədiyini görən hökumət V.Ağamyanın iş yerini dəyişdirdi.

## *Azərbaycanın etirazları və sovet xadimlərinin baxışları*

Daşnakların qəddar hərəkətlərinə etiraz olaraq Azərbaycan SSR xalq xarici işlər komissarı Mirzədavud Hüseynov 1920-ci il iyulun 5-də Ermənistanın xarici işlər naziri A.Ohacanyana teleqram göndərdi. İyulun 7-də göndərdiyi cavab teleqramında Naxçıvan və Zəngibasar rayonunun “türk imperialistləri”nin rəhbərliyi altında guya Ermənistana qarşı əksinqilabi çıxışlar etdiyi üçün Ermənistan ordusu tərəfindən tutulduğunu həyasızlıqla yazan A.Ohacanyan hökumətinin hərəkətlərinə dair Azərbaycanın sualını Ermənistanın daxili işlərinə qarışmaq kimi qiymətləndirdi, sovet Azərbaycanına qarşı heç bir hücumun edilmədiyini iddia etdi. Onun yanlış qənaətinə görə guya Bakıda əksiniqilabi bəy hərəkatına qarşı mübarizə üçün erməni silahlı dəstələri hazırlanır, Qazax və Ağstafa rayonlarında cəmləşdirilir, zərərli məqsədlərlə istifadə üçün zorla Ermənistana göndərilirdi. A.Ohacanyan Ermənistan ordularının sərhədləri qorumaq üçün göndərildiyini riyakarlıqla bildirirdi[30].

Yaranmış şəraitdə daşnak Ermənistanının siyasəti rus – türk münasibətlərində də əngələ çevrilmişdi. Bu barədə Qafqaz cəbhəsi Hərbi-Siyasi Şurasının üzvlərinə, Gürcüstan, Ermənistan və Türkiyədəki diplomatik nümayəndələrə təlimat verilməsi məsələsi RK(b)P MK Siyasi Bürosunun 1920-ci il iyulun 7-də keçirilən iclasında (protokol №25) müzakirə edildi. Müvafiq təlimat qəbul olundu. Bir sıra məsələlərin də əks olunduğu təli-

---

[29] Yenə orada, v.184.

[30] Телефонограмма Агаджаняна уполномоченному представителю и наркоминделу Азербайджана Гусейнову, миссармении Бекзадяну, полномочному представителю РСФСР в Грузии, народному комиссару иностранных дел Чичерину. 07.07.1920. – ARDA, f.28 s., siy.1, iş 71, v. 3-4.

matın 7-ci bəndində yazılırdı ki, yaranmış şərait rus hissələrinin Qarabağ, Zəngəzur, Naxçıvan, Culfa, Şərur və Dərələyəz qəzalarını tutmasına imkan vermir. Rus hərbi hissələri Azərbaycan ilə Ermənistan arasında yalnız hazırda tutulmuş mübahisəli olan əraziləri tutmalıdır. Bu ərazilərə Azərbaycan və erməni hakimiyyəti buraxılmamalıdır[31].

Bu mövqe əslində manevr etmək idi. Manevr etməyin əleyhinə çıxan İ.Stalin iyulun 8-də Q.K.Orconikidzeyə yazırdı:

*"Sonsuzluğa qədər tərəflər arasında manevr etmək olmaz. Aydın şəkildə tərəflərin birini – indiki halda, əlbəttə, Türkiyə ilə Azərbaycanı müdafiə etmək lazımdır. Mən Leninlə danışdım, o, etiraz etmir".*

Məsələyə fərqli yanaşan G.Çiçerin isə iyulun 8-də Q.K.Orconikidzeyə göndərdiyi teleqramında vurğulayırdı:

*"Biz əla bilirik ki, Ermənistanın da sovetləşdirilməsi üçün zaman yetişəcəkdir, lakin indi ona getmək tezdir. Ən başlıcası, indi nəyə nail olmaq olar? **İndi Qarabağ və Zəngəzuru mübahisəli yerlər elan etmək olar, bunun üçün isə Azərbaycan hökumətinin razılıq verməsi gərəkdir*** (seçmə bizimdir M.Q.). *Bu, bizim üçün zəruridir, biz mütləq Ermənistan ilə müqavilə bağlamalıyıq. Bunu qəti şəkildə beynəlxalq vəziyyət tələb edir, bunun üçün isə ən azından Qarabağ və Zəngəzuru mübahisəli elan etmək lazımdır"* [32].

Bu mövqe hansı anlama gəlirdi? G.Çiçerin *"Azərbaycan hökumətinin razılıq verməsi gərəkdir"* deməklə, əslində Qarabağ və Zəngəzurun Azərbaycan əraziləri olduğunu təsdiqləyir, həmin əraziləri *"mübahisəli elan etmək"lə* isə gələcəkdə Ermənistana verilməsini düşünürdü.

Mərkəzi hökumətin azərbaycanlılara məxsus tarixi əraziləri Ermənistana vermək cəhdləri Azərbaycanda narazılığa səbəb oldu. N.Nərimanov, P.Mdivani, A.Mikoyan, Viktor (Mikoyl) Naneyşvili, IX Ordu Hərbi Şurasının üzvləri J.Vesnik, M.Levandovski və İ.Mixaylov RK(b)P MK-ya göndərdikləri 1920-ci il 10 iyul tarixli məktubda Qafqazda inqilabın mənafeyinə zidd olan, Ermənistan ilə aparılan məlum danışıqlarda nəzərdə tutulan Qarabağ və Zəngəzur məsələlərinə dair vahid fikirlərini bildirdilər. Onlar yazırdılar ki, Müsavat hökuməti dövründə Qarabağ bütövlükdə Azərbaycanın tərkibində olmuşdur. Qarabağ və Zəngəzurun Bakı ilə qırılmaz

---

[31] Материалы к протоколу №25 от 7 июля 1920 г. Заседания ПБ ЦК п.8 по вопросу инструкции членам РВС Кавказского фронта и нашим дипломатическим представителям в Грузии, Армении и Турции. Приложение: Проект инструкции РВС Кавказского фронта; сопроводительное письмо к инструкции на имя Крестинского. – РГАСПИ, ф.17, оп. 163, д.78, л.9-13.

[32] Телеграмма Чичерина Орджоникидзе. 08.07.1920. – РГАСПИ, ф. 64, оп.1, д.17, л. 60.

iqtisadi və mədəni birliyi bu vilayətlərdən olan on minlərlə fəhlədən qidalanaraq, onların İrəvanla tamamilə əlaqəli olmaması 1919-cu ildə Qarabağın erməni əhalisinin kəndli qurultayında aydın şəkildə təsdiqini tapmışdır. Məktub müəlliflərinin fikrincə, Müsavat rejiminin ermənilər üçün yaratdığı dözülməz şəraitə və Ermənistan agentlərinin təxribatçı əməllərinə baxmayaraq, hər halda erməni əhalisi ermənilərə sakit həyat təminatı şərti ilə Azərbaycanla tamamilə bir yerdə olmağa qəti surətdə tərəfdar olmuşdur. Müsəlman (azərbaycanlı – M.Q.) kütlələrini Azərbaycanın köhnə sərhədlərində saxlamamağı sovet hakimiyyətinin xəyanəti, ermənipərəstliyi və ya zəifliyi kimi qiymətləndirən bolşevik xadimləri xəbərdarlıq edirdilər:

*"Qarabağ və Zəngəzur məsələsində tərəddüd etməklə Azərbaycanı rəzil vəziyyətə qoymasınlar"* [33].

N.Nərimanov bununla bağlı olaraq V.İ.Leninə birmənalı şəkildə yazırdı:

*"Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini tanımışdır. Lakin eyni zamanda, Mərkəz Azərbaycanın mübahisəsiz ərazilərini Ermənistana verir"* [34].

Bu məsələdə G.Çiçerini təqsirləndirən N.Nərimanov təkrarən V.İ.Leninə yazırdı:

*"Əgər Mərkəzə Azərbaycanı qurban vermək və yalnız Bakını – nefti özündə saxlamaq sərfəlidirsə və Şərq siyasətindən imtina edirsə, qoy etsin, lakin xəbərdarlıq edirəm: bütöv Azərbaycan olmadan xain daşnakların və gürcü menşeviklərinin qonşuluğunda Bakını saxlamaq olmaz. Digər tərəfdən, mən Sizdən öyrənmək istəyirəm, Mərkəz biz müsəlmanlara necə baxır və o, belə mühüm məsələləri bizsiz necə həll edə bilər. Mərkəz bizə inanmaya bilər, ancaq Orconikidze və Mdivani kimi məsul yoldaşlar da Mərkəzin qərarı ilə razı deyillər. Mərkəz bizdən silahımızı almışdır və Qarabağ haqqında öz qərarı ilə Müsavat təxribatını gücləndirmişdir. Hansı ki, həmişə deyirlər, müsəlman kommunistlər Azərbaycanı Rusiyaya satmışlar. Həmin Rusiya Gürcüstanın və Ermənistanın müstəqilliyini tanıyır, lakin nəyə görəsə Azərbaycanda sovet hakimiyyəti qurulana qədərki mübahisəsiz əraziləri mübahisəli hesab edir"* [35].

Məsələyə dair Azərbaycanın mövqeyi təkcə Mərkəzə edilən müraciətlərlə başa çatmadı. 1920-ci il iyulun 10-da Azərbaycan K(b)P MK Bürosunun iclasında 6-cı məsələ kimi "Qarabağdan məruzə" müzakirə edildi. İclasda Büro üzvləri V.Naneyşvili, N.Nərimanov, Ə.Qarayev, D.Bünyad-

---

[33] Письмо Нариманова, Мдивани, Микойла Нанейшвили, Веснина, Левандовского и Михайлова ЦК РКП(б). 10.07.1920.–ARSSA, f. 1, siy.44, iş 118, v. 25-28.
[34] Письмо Н.Нариманова В.И.Ленину. – ARSSA, f.609, siy.1, iş 62, v. 19.
[35] Письмо Н.Нариманова В.И.Ленину. – ARSSA, f.609, siy.1, iş 71, v. 41.

zadə, A.İ.Yeqorov, A.Mikoyan, Armenak Karakozov, dəniz donanmasının, XI ordu siyasi şöbəsinin nümayəndələri və Ermənistanın nümayəndəsi B.V.Leqran iştirak edirdilər. Məruzədə deyilirdi ki, erməni kəndliləri Ermənistana birləşmək istəmirlər. Müzakirə nəticəsində qeyd edildi:

*“Qarabağın kommunistləri...Qarabağı Azərbaycan ilə sıx bağlayan iqtisadi şəraitə görə onun Azərbaycana birləşdirilməsini zəruri hesab etmişlər... Erməni kəndliləri Ermənistanın tərkibinə daxil olmaq istəmirlər. Onların Rusiyaya güclü meyili vardır. Rusiyaya gedən yol isə Bakıdan keçir”* [36].

Müzakirələr nəticəsində məruzənin bütün əsas müddəaları qəbul edildi.

Həmin gün, iyulun 10-da Ermənistan tərəfi Azərbaycan XXİK-ə Ermənistan – Azərbaycan konfransının çağırılmasına dair təkliflərini verdi. Təkliflərə görə Azərbaycanda həbs olunmuş daşnaklar, bunun müqabilində Ermənistanda həbsxanada olan bolşeviklər azad edilməli; təqsirli bilinən şəxslər müvafiq respublikaların hüdudlarından çıxarılmalı; mübadilə iki respublika arasında sərhəddə, Qazax və Karvansaray arasında olan ərazidə edilməli; hər iki hökumət bolşeviklərin və daşnakların təqib edilməsini dayandırmalı; Azərbaycan hökuməti Azərbaycanı tərk etmək istəyən bütün ermənilərə əmlaklarını da götürməklə getmək hüququ verməli; Azərbaycan və Ermənistan bir-birinə qarşı hər cür təcavüzkar hərəkətlərdən imtina etməli və bütün məsələləri həll etmək üçün Tiflisdə konfrans çağırmalı idilər; Ermənistan Respublikasının nümayəndələri – Ermənistanın Gürcüstandakı diplomatik nümayəndəsi A.Bekzadyan, Azərbaycandakı diplomatik nümayəndəsi S.Q.Arutunyan, parlament üzvləri N.Ağbalyan və E.Qazaryan təyin edilirdilər[37].

Bütün mübahisəli məsələlərin dinc yolla həllinə tərəfdar olan Azərbaycan SSR XXİK iyulun 11-də konfransın çağırılmasına dair təkliflərini Ermənistanın Gürcüstandakı diplomatik nümayəndəsi A.Bekzadyana və RSFSR-in Gürcüstandakı nümayəndəsi S.M.Kirova göndərdi. Təkliflərdə yazılırdı:

*"... 2). Hər iki respublika tezliklə bir-birinə qarşı hər hansı təcavüzkarlıq hərəkətlərini dayandırırlar; 4). Bütün mübahisəli məsələləri həll etmək üçün Qazaxda və ya Vladiqafqazda erməni – azərbaycanlı konfransı çağırılır"* [38].

---

[36] Протокол заседания Бюро ЦК АКП.10.07.1920. – ARSSA, f. 1, siy.13, iş 120, v. 13; f.1, siy.31, iş 186 a, v.47-48.

[37] Армения и Азербайджан. – ARDA, f.28 s., siy.1, iş 171, v.13.

[38] Чрезвычайный полномочный представитель и наркоминдель АССР – дипломатическому представителю Армении в Грузии, копия полномочному представителю РСФСР Кирову.11.07.1920. – ARDA, f.28 s., siy.1, iş 98, v. 5.

Bundan sonra A.İ.Yeqorov, A.Mikoyan, Ə.Qarayev, M.Hüseynov, N.Nərimanov, D.Bünyadzadə, M.Qasımov, V.Naneyşvili, Q.K.Orconikidze, Y.D.Stasov, XI ordu Hərbi Şurası nümayəndələrinin və B.V.Leqranın iştirakı ilə Azərbaycan K(b)P MK Bürosunun iyulun 15-də keçirilən iclasında Ermənistan ilə sülh haqqında məsələ də müzakirə edildi[39]. Dörd bənddən ibarət qərar qəbul edildi. Birinci bənddə yazılırdı ki, Qarabağ və Zəngəzur Azərbaycana birləşdirilməlidir. İkinci bənddə vurğulanırdı ki, Naxçıvandan və digərlərindən imtina edilsin, rus ordusu tərəfindən işğal edilməsi tövsiyə olunsun. Üçüncü bənddə yazılırdı ki, Ermənistanın vəziyyəti haqqında tam məlumat alınanadək Leqrana müvəqqəti olaraq sülh bağlamamaq təklif edilsin. Dördüncü bənddə Ermənistana sülh danışıqları dövründə hərbi əməliyyatları dayandırmaq təklif edilirdi.

Ermənistan ilə bolşevik Rusiyası arasında sülh müqaviləsini Azərbaycanın iştirakı olmadan bağlamağa çalışan G.Çiçerin isə Azərbaycan ilə Ermənistan arasında mübahisələri həll etməmək, gələcəkdə onlardan hər iki tərəfə təzyiq vasitəsi kimi istifadə etmək niyyətlərini güdürdü. Azərbaycan tərəfi belə yanaşmaya etiraz edirdi. Azərbaycan nümayəndələri gələnə qədər Ermənistan ilə sülh bağlamağı yanlış hesab edən və bundan Azərbaycan rəhbərlərinin narahat olduğunu bildirən Q.K.Orconikidze iyulun 16-da V.Lenin, İ.Stalin və G.Çiçerinə göndərdiyi teleqramında yazırdı:

*“Azərbaycanın iştirakı olmadan Ermənistan ilə sülh müqaviləsi bağlamaq buradakı yoldaşları güclü əsəbiləşdirir”* [40].

Ermənistanın Naxçıvana hücum edəcəyi təqdirdə qırğınların olacağından əndişə duyan Q.K.Orconikidze 17 iyul tarixli teleqramında G.Çiçerinə bundan çıxış yolunu da göstərirdi:

*“1. Ermənilərin Naxçıvana hücumu ilə əlaqədar qırğının labüd olacağını nəzərə alaraq bizim ordular bu ərazini işğal etsinlər;2. Azərbaycan nümayəndəsi gələnə qədər Ermənistan ilə müqavilə təxirə salınacaqmı?..”* [41].

Ermənistanın əsassız iddia etdiyi və bəzi bolşeviklərin zorla alıb bu respublikaya vermək istədikləri ərazilərin əhalisi Azərbaycandan ayrılmaq istəmirdi. Bununla əlaqədar olaraq Q.K.Orconikidze iyulun 19-da V.İ.Leninə və G.Çiçerinə Vladiqafqazdan göndərdiyi teleqramında yazırdı:

*"Qarabağda və Zəngəzurda sovet hakimiyyəti elan edilmişdir və adı çəkilən hər iki ərazi özünü Azərbaycan sovet respublikasının hissəsi hesab edir. Ümumiyyətlə, mənim fikrimcə, Azərbaycanın sədrini* (N.Nərimanov

---

[39] Протокол заседания Бюро ЦК АКП.15.07.1920. – ARSSA, f.1, siy.1, iş 18, v.13-14.

[40] Телеграмма Орджоникидзе Ленину, Сталину, Чичерину.16.07.1920. – РГАСПИ, ф. 85, оп. 3, д. 2, л. 12.

[41] Телеграмма Орджоникидзе Чичерину.17.07.1920. – ARSSA-nın surət fondu, №304.

nəzərdə tutulur – M.Q.) *Moskvaya çağırmaq və onunla birlikdə Azərbaycana və Ermənistana aid olan məsələləri həll etmək lazımdır. Və bunu Ermənistanla müqavilə bağlananadək etmək lazımdır"* [42].

Daşnak Ermənistanının Azərbaycana qarşı əsassız ərazi iddiaları davam edərkən Azərbaycan Cümhuriyyətinin görkəmli xadimləri erməni terrorçularının hədəfinə tuş gəldilər.

### *Azərbaycanın görkəmli dövlət adamları öldürülür*

Azərbaycan Cümhuriyyətinin Baş Naziri Fətəli xan Xoyski 1920-ci il iyunun 19-da Tiflisdə erməni terrorçusu tərəfindən öldürüldü[43]. Bu hadisədən bir ay sonra, iyul ayında yenə Tiflisdə Azərbaycan parlamentinin sədr müavini Həsən bəy Ağayev qətlə yetirildi.

Azərbaycan Cümhuriyyəti hökumətinin daxili işlər naziri vəzifəsində işləmiş Behbud xan Cavanşirə bir il sonra – 1921-ci il iyul ayının 18-də İstanbulda Pera Palas otelinin qarşısında sui-qəsd edildi. Onun yanında həyat yoldaşı və iki qardaşı – Cümşüd və Surxay da var idi. Tuti Şanedə bir qədər oturduqdan sonra qaldıqları otelə yollandılar. Binaya yaxınlaşarkən Behbud xan Cavanşirə arxadan iki atəş açıldı. O, terrorçu ilə əlbəyaxa oldu. Bu zaman qarnına atəş açıldı. Qardaşlarına tərəf dönən, *"qatil budur, kömək edin, məni öldürür"* deyərək, qüvvə toplayan Behbud xan Cavanşir bir zərbə ilə terrorçunu otelin yanındakı səkinin üstünə yıxdı. Behbud xanın həyat yoldaşı qəzəbli halda qatili əzişdirməyə başladı. Qardaşı Cümşüd terrorçunu tutmaq istəsə də, o, yenidən atəş açaraq qaçıb getdi. Hadisə yerinə türk polisi gəldi. Behbud xan hadisə yerindən qaçan ermənini göstərərək dedi: *"O, it oğlu məni vurdu."* Yaralını maşına qoyub xəstəxanaya apardılar. Behbud xan sürücüyə müraciətlə söylədi:

"*Məni təcili xəstəxanaya çatdır. Qoy, gülləni ürəyimdən tez çıxarsınlar. Yanıram".*

Behbud xan xəstəxanada qardaşına dedi:

*"Məni yalnız siyasi məqsədlər üçün öldürə bilərlər. Mənim şəxsi düşmənim qətiyyən yoxdur və ola da bilməz. Xalqımın qarşısında xidmətlərim ermənilərin xoşuna gəlmirdi və onlar məni öldürməyə qərar vermişlər".*

Behbud xan həyat yoldaşını yanına çağırtdırsa da, o, gəlib çata bilmədi. *"Pəncərələri açın, boğuluram"* deyən Behbud xan bir neçə dəqiqədən sonra dünyasını dəyişdi[44]. Onu öldürən erməni terrorçu Torlaqyan idi.

---

[42] Телеграмма С.Орджоникидзе В.И.Ленину и Г.Чичерину. 17.07.1920. – АВПР, ф.1, д. 54882, л. 20.

[43] Догуляются. – Газ. "Коммунист", Баку, 30.06.1920, №49.

[44] Как был убит Бехбуд хан Джаваншир? – ARDA, f.28 s., siy.1, iş 68, v.81-82; "İkdam" gazetesi, İstanbul, 27.07. 1921.

## *Azərbaycan əraziləri tutulur.*
## *Cənubi Qafqaz "balkanlaşdırılır"*

Erməni terrorçuları azərbaycanlı dövlət xadimlərini öldürdükləri bir zamanda Ermənistanın əsassız iddia etdiyi Azərbaycan ərazilərini bolşevik qoşunları tuturdu. 1920-ci il iyulun 21-də bolşevik qoşun hissələri Naxçıvanı işğal etdi. Azərbaycan torpaqlarını işğal etməklə Mərkəzi hakimiyyət Cənubi Qafqazı "balkanlaşdırdı".

Avqustun 1-də Naxçıvanda sovet və türk əsgərləri sərhəddə görüşdü[45]. "Borba" qəzeti sonralar, 1920-ci il avqustun 24-də bununla bağlı olaraq yazırdı:

*"Bakıda bolşevik hakimiyyəti Cənubi Qafqaz üçün məhvedici olan erməni – azərbaycanlı qisasçılığını həll etmək şəraitini pisləşdirdi. Azərbaycandan kənardakı bolşevik hakimiyyəti onun üzərində erməni – azərbaycanlı məsələsində iki münasibətdə mürəkkəbləşdirdi: Birincisi, bolşeviklər Cənubi Qafqaza xalqlarımıza yad olan qüvvələri – özlərinin Qırmızı ordusunun süngüləri ilə hakim kimi sovet Rusiyasını gətirdilər. Qeyri-rəsmi şəkildə onlar Cənubi Qafqaz işlərinə Mustafa Kamalı qatdılar. Sovet ordusu Naxçıvanda onun ordusu ilə birləşdi. Bolşeviklər Cənubi Qafqazın "balkanlaşdırılması"na yardım edirlər. İkincisi, bolşevik hakimiyyəti erməni – azərbaycanlı düşmənçiliyindən özünün Şərq siyasəti üçün istifadə etmişdir. Azərbaycanda süngüyə dayanaraq o, pantürkizmə və panislamizmə arxalanmaq istəyir, bu səbəblə türk kütlələrinin hisslərini qızışdırır"* [46].

Ermənistanın silah gücünə Naxçıvanı işğal etmək və əhalisini tabe etdirmək istəyi yerli əhalinin müqavimətinə rast gəldi. Daşnak silahlı qüvvələri ilə Naxçıvan rayonu əhalisi arasında qanlı toqquşmalar baş verdi. Naxçıvan İnqilab Komitəsi daşnaklar tərəfindən Naxçıvan əhalisi üzərinə qoyulmuş təzminatla əlaqədar olaraq erməni hökumətinə çatdırılmaq üçün 1920-ci il avqustun 1-də Şahtaxtıdakı erməni dəstələrinin başçısına belə bir teleqram verdi:

*"Naxçıvan rayonunun zəhmətkeş əhalisi öz boynundan monarxiya idarə üsulunu devirərək, hətta nə vaxtsa özünə daşnak qulçuluğu hökmranlığını geyinmək mümkünlüyünü rədd edir. Naxçıvanın zəhmətkeş əhalisi özünü RSFSR ilə ittifaqda olan Azərbaycan sovet respublikasının ayrılmaz hissəsi elan edir. Bu xalq heç bir zaman Ermənistanın zəhmətkeş xal-*

---

[45] Atatürkün söylev ve demeçleri. I cilt. İstanbul, 1945, s.94.

[46] Бюллетень информационного отдела при дипломатическом представительстве АССР в Грузии. 24.08.1920. №30. – ARDA, f.28 s., siy.1, iş 204,v. 30.

*qı ilə düşmənçilik etməmişdir və düşmənçilik etmir, istismar edən daşnaklara qarşı mübarizə aparacaqdır”* [47].

Daşnak Ermənistanı isə azərbaycanlıları tarixi torpaqlarından qovmaqda davam edirdi. 1920-ci ilin avqust ayında 5 min nəfər azərbaycanlı Şuragəl sahəsindən Şahtaxtı körpüsünə gətirilərək İrana keçirildi. Sərhədin İran tərəfində Kars vilayətindən və İrəvan quberniyasından minlərlə qaçqın var idi. Acınacaqlı vəziyyətdə olan həmin şəxslərin min nəfərdən çoxu aclıqdan və yatalaq xəstəliyindən ölmüşdü. Mənbələrdə yazıldığı kimi, özlərini fars diplomatik nümayəndələri kimi qələmə verən daşnaklar guya xeyirxahlıq edərək qaçqınları vaqonlara doldurub, İran ərazisinə keçirtmək adı altında Uluxanlı stansiyasına gətirmişdilər. Burada onların mal-qarasını və əmlakını əllərindən almış, ən gözəl qadınları isə İrəvana aparmışdılar. Yalnız bir ay ərzində İrəvan ilə Aleksandropol arasında dəmiryolunda vaqonlarda Azərbaycan vətəndaşı olan 500 nəfər azərbaycanlı öldürülmüşdü. Yürüdülən soyqırım və deportasiya siyasəti nəticəsində Eçmiadzin və Sürməli qəzalarının 300 mindən çox azərbaycanlı əhalisindən yalnız 40 min nəfəri qalmışdı. Bu qəzalarda cəmi 150 min erməni var idi[48]. Daşnak Ermənistanı mübahisəli adı altında əraziləri yerli əhalidən təmizləyərək işğal etməkdə davam edirdi.

Daşnak Ermənistanı ilə sülh bağlamağa hazırlaşan bolşevik Rusiyası isə Azərbaycan və Ermənistan arasında ərazi-sərhəd məsələlərinə dair arayış tələb etdi. Azərbaycan İnqilab Komitəsi sədrinin və xalq xarici işlər komissarının imzaladıqları 1920-ci il 5 avqust tarixli arayışda Azərbaycanın Ermənistan ilə mübahisəsiz ərazisi aşağıdakı kimi təsvir edilirdi:

*“Azərbaycanın Ermənistan ilə mübahisəsiz ərazisi Qazax və Borçalı qəzalarının köhnə inzibati sərhədlərindən başlayır, sonra Qazax, Aleksandropol və Yeni Bəyaziddən Maralıca dağlarına qədər, oradan birbaşa Göyçə gölünə enir, təxminən 11/2 verst şimala Çubuqlu kəndindən sonra Göyçə gölünü ikiyə bölür, onun cənub sahili ilə qərb istiqamətinə gedir. Göyçə gölünün cənub sərhədində sərhəd Zağalı və Gödək Bulaq kəndləri arasında başlayır, sonra Yarnızlı, Qızıl Vəng və Yuxarı Alçalı kəndlərinin yuxarısından Göyçə gölünün cənub sahillərinin dağlıq rayonlarından – Qızıl Harava (təxminən 10859) və Ağmahan yüksəkliklərindən keçir. Qərbdə İrəvan və Yeni Bəyazid qəzalarının sərhədlərindən Kiçik*

---

[47] Английское командование на Кавказе и Дашнакцутюн. – ARMTNA, L-164, v. 260.

[48] Меморандум представителей Демократической Республики Юго-Западного Кавказа, по вопросам национального движения на Юго-Западного Кавказа от русской революции до прихода турок на Кавказ. 25.12.1920. – РГАСПИ, ф.544, оп.3, д.68, л.6-8.

*Ağdağa doğru gedir, müsəlmanların yaşadığı dağlıq rayonları ermənilərin məskunlaşdığı kəndlərdən ayırır. Sonra sərhəd Kiçik Ağdağ dağlarından şimal-qərbə Toğmahan gölü istiqamətində Təzəkənd kəndinə doğru gedir, oradan Gərniçay çayı ilə Yuxarı Ağbaş kəndinə çatır və onun qarşısından şimala doğru 3620 yüksəkliyə qalxır, oradan cənub-qərbə Uluxanlıya gedir, Uluxanlı kəndi və Uluxanlı dəmiryolu stansiyasının arasından keçərək Araz çayına qədər uzanır və şimalda Rəncbər kəndinə çatır. Rəncbər kəndindən Araz çayınadək sərhəd birbaşa qərbə, Sürməli qəzası ilə Eçmiadzin və Kars vilayətlərinin keçmiş inzibati sərhədləri ilə qovuşur və Təndürək dağlarına, keçmiş rus – türk sərhədinə doğru gedir”* [49].

Digər bir sənəddə isə Ermənistan – Azərbaycan sərhədi aşağıdakı kimi təsvir edilirdi:

*“Azərbaycan ilə Ermənistanın sərhədi Sürməli qəzasının keçmiş inzibati sərhədi ilə Araz çayına qədər gedir, İrəvan qəzasının Ağamazlı, Baş Gərni və İmirzin kəndlərindən keçir və sonra Yeni Bəyazid və Şərur-Dərələyəz qəzalarının sərhədləri ilə gedir, sonra Göyçə gölü üzrə dönür, Gözəldərə kəndi Ermənistana keçir, Daşkənd və Basarkeçər kəndləri isə Azərbaycanda qalır. Sərhəd Göyçə gölünü tən yarı bölür və sonra Gəncə və İrəvan quberniyalarının sərhədləri ilə gedir, burada Çubuqlu kəndi Ermənistana keçir, Göyçə gölünün bütün şərq sahili Azərbaycanda qalır.*

*Bu sərhədin əsasında Azərbaycan ərazisinə bütün Gəncə quberniyası və İrəvan quberniyasının bütün Sürməli, Naxçıvan və Şərur-Dərələyəz qəzaları, həmçinin İrəvan qəzasının cənub hissəsi Kəmərli, Böyük Vedi, Davalı və Yeni Bəyazidin şərq hissəsi keçir”* [50].

## ***Bolşevik Rusiyası daşnak Ermənistanı ilə müqavilə bağlayır***

Daşnaklar Azərbaycan ərazilərinin işğalını, mülki əhalini qaçqına çevirməyi və azərbaycanlı dövlət xadimlərini qətlə yetirməyi davam etdirdikləri bir zamanda sovet Rusiyası rəhbərliyi eyni bolşevik hakimiyyətinin mövcud olduğu Azərbaycan tərəfinin xəbərdarlıqlarına məhəl qoymayaraq partiyanın Ermənistan ilə sülh bağlamağa dair qəbul etdiyi qərarını həyata

---

[49] Предазревком и наркоминдел. Описание границы бесспорной территории Азербайджанской Советской Социалистической Республики с Арменией. 05.08.1920. №6107. – ARSSA, f.276, siy.5, iş 1, v.5; f.1, siy.31, iş 186b, v.15-16; Справка о бесспорной территории Азербайджана с Арменией. 05.08.1920. – ARSSA, ф. 276, оп. 5, д. 1, л. 5.

[50] Заведывающий информационным подотделом А. Щекотьев. Армяно-Азербайджансая граница. – ARSSA, f.1, siy.31, iş 186b, v.17.

keçirtdi. Geniş müzakirələrdən sonra RSFSR-in Ermənistandakı nümayəndəsi B.V.Leqran, Ermənistan Respublikasının nümayəndəsi A.Camalyan və A.Babalyan 1920-ci il avqustun 10-da RSFSR ilə Ermənistan arasında ilkin sülh müqaviləsini imzaladılar[51].

Sənəd Rusiya və Ermənistan arasında bağlansa da, bir çox maddəsi Azərbaycana aid idi. Belə ki, müqaviləyə görə Ermənistan ordusu Şahtaxtı, Aznabürt, Sultanbəy və daha sonra Küküdən şimala doğru, Bazarçaydan qərbə 1920-ci il iyulun 30-da işğal etdiyi Qazax qəzasındakı Bazarkəndi tuturdu. "Mübahisəli" Qarabağ, Zəngəzur və Naxçıvan vilayətləri, Ermənistan Respublikası ordularının yerləşməsi üçün nəzərdə tutulan zolaq istisna olmaqla RSFSR orduları tərəfindən tutulurdu. Sovet orduları tərəfindən "mübahisəli ərazilər"in tutulması bu ərazilərə Ermənistan və Azərbaycan sovet sosialist respublikalarının hüququnun olmasını əvvəlcədən həll etmirdi. Əlverişli şərait yarandıqda Ermənistan ilə Azərbaycan arasında sərhəd mübahisələri RSFSR-lə müəyyənləşdirilən kimi həll edilməli və müqavilə bağlanmalı idi. Ona görə də həmin müqavilə imzalananadək xüsusi erməni – azərbaycanlı konfransını çağırmaq məqsədəuyğun hesab edilmirdi.

Bolşevik Rusiyasının belə bir müqaviləni bağlamasının səbəbləri nə idi? Bu, hər şeydən əvvəl, mövcud beynəlxalq şəraitlə bağlı idi. Mərkəzdə belə hesab edirdilər ki, daşnak Ermənistanı üzərinə hücum Antanta ölkələri ilə yeni bir toqquşmaya gətirə biləcəyindən, kompromis yolu ilə erməni xalqını daşnakların hakimiyyətindən xilas etmək lazımdır. Digər tərəfdən, bu zaman Antanta ölkələrinin Türkiyə ilə imzalayacaqları Sevr sülh müqaviləsinin layihəsi artıq hazır idi. Türkiyənin məğlubiyyətini rəsmiləşdirməyi nəzərdə tutan həmin müqavilə layihəsində Şərqi Anadoluda "Ermənistan" adlı bir dövlətin yaradılması da nəzərdə tutulmuşdu. Antanta ölkələrinin nəzarəti altında belə bir dövlətin qurulması təkcə Türkiyənin deyil, Rusiyanın da maraqlarına zidd idi. Çünki Ermənistanın qurulması ilə Antanta ölkələri Cənubi Qafqaza, Rusiyanın əsəbi olan Bakı neftinə yaxınlaşar, bu, Qafqazda türk torpaqlarında yaradılmış qondarma Ermənistanı özünə tərəf çəkər və regionda separatçılıq meyilləri artardı.

Bolşevik Rusiyasının Ermənistan ilə bağladığı müqaviləyə münasibət birmənalı deyildi. Hər şeydən əvvəl, ingilislər onun imzalanmasını yaxşı qarşılamadılar. Bununla əlaqədar olaraq ingilis generalı Lyuke daşnak hökumətinin üzvləri ilə bir müddət sonra, avqustun 31-də etdiyi söhbətdə narazılığını və etirazını bildirərək, *"Ermənistanın xarici siyasətində*

---

[51] К миру Армении с Совроссией. – Газ. "Коммунист",Баку,08.07.1920,№ 58; Телеграмма члену Реввоенсовета Кавфронта тов. Орджоникидзе. – ARSSA, f.1, siy.31, iş 186b, v.11.

*Azərbaycan SSR-ə və RSFSR-ə münasibətdə güzəştə maksimum dərəcədə getməməyi"* tələb etdi.

## *Sevr müqaviləsi. Qırğınlar Anadoluda davam etdirilir*

Ermənistan ilə RSFSR arasında sülh müqaviləsi bağlanan gün, 1920-ci il avqustun 10-da qalib dövlətlər Osmanlı dövləti ilə Sevr sülh müqaviləsini imzaladılar. Müqavilənin 88-ci maddəsinə görə Türkiyənin şərq vilayətlərində, ermənilərin təbirincə, "Türkiyə Ermənistanı" müttəfiq dövlət kimi muxtar və müstəqil tanınmalı idi. 92-ci maddəyə görə Ermənistanın Azərbaycan və Gürcüstanla olan sərhədi maraqlı dövlətlər tərəfindən razılaşma yolu ilə təsbit ediləcəkdi. Maraqlı dövlətlər bu sərhədlər daxilində öz aralarında razılığa gələ bilməzdilərsə, o, böyük dövlətlər tərəfindən müəyyənləşdiriləcək və sərhədin ərazi üzərindəki tətbiqi isə onların özlərinə aid olacaqdı.

Müqaviləyə qarşı çıxan türk xalqı Antanta ölkələrinə boyun əymədi. Sevr sülh müqaviləsini rədd edərək, Mustafa Kamal Paşanın rəhbərliyi altında istiqlal savaşını genişləndirdi.

Bu zaman ermənilərə arxalanaraq Çukurobanı işğal edən fransızlar onlara geniş muxtariyyət vədini vermişdilər. Əhalinin az bir hissəsini – 33%-ni təşkil etmələrinə baxmayaraq, ermənilər həmin məqsədlə fransız işğalçılarının köməyi ilə bütün Çukurobanı özlərinə tabe etdirmək istəyirdilər. Ona görə də qanlı əməllərini daha da artırdılar.

Qeyd etmək lazımdır ki, strateji əhəmiyyət daşıyan və Bağdad dəmiryolunun mühüm sahəsi olan Çukurobadan Anadolu, Suriya və Mesopotamiyaya gedən yollar keçirdi. Çukurobanın böyük ticarət əhəmiyyəti də var idi. Emal sənayesinin inkişaf etdiyi bu ərazi Aralıq dənizi, Avropa, Suriya və Mesopotamiya arasında ticarət mərkəzi rolunu oynayırdı. Heç əbəs deyildir ki, mühüm dəniz limanı olan İskəndərunu vaxtilə almanlar *"Kiçik Asiyanın Hamburqu"* adlandırmışdılar.

Erməni silahlı dəstələrinin qanlı fəaliyyətləri, mülki əhalini kütləvi şəkildə öldürməsi yerli türk əhalisini hiddətləndirmişdi. Bununla bağlı olaraq Türkiyədəki Sovet informasiya bürosunun rəhbəri Q.Astaxov bir müddət sonra Moskvaya göndərdiyi məlumatında yazırdı:

*"XI əsrin sonlarından XIV əsrin sonlarınadək Kilikiyada* (Çukuroba – M.Q.) *məskunlaşan ermənilər çoxdan Aralıq dənizinə çıxmaq arzusunda olan "Böyük Ermənistan" ideoloqlarının təhriki ilə asanlıqla fransız himayəsinə keçdilər. Ermənilər Zeytunda və başqa şəhərlərdə teleqraf əla-*

*qəsini kəsdilər. Fransızlar geri çəkildikdə partizan döyüşlərində 15 min erməni öldürüldü. Kilikiyanın digər ərazilərlə əlaqəsi bərpa edildi"* [52].

### *Türkiyə və Ermənistan haqqında məsələ Moskvada və Bakıda müzakirə edilir*

Sevr müqaviləsinin imzalanmasını bolşevik Rusiyası narahatlıqla qarşıladı. Çünki Antanta ölkələrinin Anadoluda qalib gəlməsi onların Cənubi Qafqaza gəlmələrinə imkan verərdi. Buradan isə Moskvaya gedən yol keçirdi. Ona görə də Türkiyə ilə Ermənistan arasında münasibətlər Moskvada müzakirəyə çıxarıldı. RK(b)P MK Siyasi Bürosunun 1920-ci il 13 avqust tarixli iclasında (protokol № 36) Türkiyə və Ermənistan haqqında məsələ müzakirə edildi. Məsələ üzrə G.Çiçerin məruzə etdi[53]. Şəraitin ağır qiymətləndirildiyi Türkiyə ilə əlaqə qurmaq zəruri hesab edildi.

Qərarın qəbul edilməsindən az sonra, 17 avqust tarixdə Q.K.Orconikidze G.Çiçerinə yazdığı teleqramında vurğulayırdı ki, türklərin Şahtaxtı kəndini tutmasına razılıq vermək lazımdır. Orada qırğın olmayacaqdır. Çünki heç bir hərəkat yoxdur. Sülh müqaviləsi bağlanarkən razılaşmaq olar[54].

Türkiyə məsələsi Azərbaycan K(b)P MK Siyasi Bürosunun 1920-ci il 20 avqust tarixli iclasında da müzakirə edildi. Bildirildi ki, Türkiyədə siyasəti müəyyənləşdirmək üçün tam və etibarlı informasiya gərəkdir. Türkiyədə siyasəti köklü dəyişdirmək üçün bundan sonra da müvəqqəti olaraq milli-azadlıq mübarizəsini müdafiə etmək lazımdır[55].

### *Daşnak Ermənistanı ilə nə etməli?*

Yaranmış ağır şəraitdən yararlanan daşnak Ermənistanı həm Azərbaycan ərazilərinə basqınlar, həm də Sevr müqaviləsində nəzərdə tutulmuş torpaqları ələ keçirtmək üçün Türkiyəyə qarşı düşmənçilik edirdi. Qərbdə Antanta ölkələrinə qarşı döyüşən TBMM hökuməti şərqdə daşnak Ermənistanına qarşı qoşunlarını saxlamağa məcbur idi. Ermənistan silahlı dəstələrinin mülki əhalini kütləvi surətdə qırması yeni Türkiyə hökumətini

---

[52] Сообщение зав. Информбюро Турции Г.Астахова о положении в Киликии. 23.12.1920. – РГАСПИ, ф.544, оп.3, д.23, л.27-30.
[53] Заседание Политбюро ЦК РК (б) П.13.08.1920. Протокол №36. – РГАСПИ, ф.17, оп.3/ПБ, д.94, л. 2.
[54] Телеграмма Г.К.Орджоникидзе Чичерину. 17.08.1920. – РГАСПИ, ф.85, оп.с/Турция, д.15, л.1.
[55] Протокол заседания Политбюро ЦК АКП(б). 20.08.1920. – ARSSA, f.1, siy.1, iş 22, v.6.

tədbirlər almağa vadar edirdi. Belə bir şəraitdə, 1920-ci il sentyabrın 7-də 15-ci Ərzurum korpusunun komandiri Kazım Qarabəkir Paşa Ankaraya gəldi. O, Ankaradan geri dönənədək korpusun komandiri vəzifəsini icra edən Rəmzi Paşa qoşunları Ermənistan ilə sərhədə yığdı.

Kazım Qarabəkir Paşa Ankaraya gəldikdən sonra Mustafa Kamal Paşanın rəhbərliyi altında sentyabrın 8-də Ali Şuranın iclası keçirildi. Çıxış edən Kazım Qarabəkir Paşa yaranmış şəraitdən çıxmağın və bolşeviklərlə birləşməyin yeganə yolu kimi Ermənistana hücum etməyin vacibliyini bildirdi. Şura üzvləri ona qüvvələrin kifayət edib-etməyəcəyi barədə suallar verdilər. Bu zaman Kazım Qarabəkir Paşanın sərəncamında 4 diviziya, hər bir diviziyada isə 8-9 min nəfər var idi. Qoşun hissələrini qeyri-nizami türk və kürd dəstələri müdafiə edirdilər. Mustafa Kamal Paşa üçün yalnız bir qaranlıq məqam qalırdı: Ermənistana hücum olacağı təqdirdə Gürcüstan hansı mövqe tutacaqdı. Mustafa Kamal Paşa həmin məsələləri dəqiqləşdirmək üçün Bakıda keçiriləcək Şərq xalqları qurultayına bir nümayəndə heyəti göndərdi. Keçmiş torpaq naziri Yusuf Kamal başda olmaqla nümayəndə heyəti isə Bakıdan Tiflisə getdi. Onu gürcü hökumətinin sədri N.Jordaniya və xarici işlər naziri Y.P.Gegeçkori qəbul etdilər. Bir saatdan çox davam edən danışıqlarda gürcü tərəfi türk – erməni müharibəsində bitərəf qalacağını bildirdi. Axşam gürcü və türk heyətləri birlikdə yemək yedilər.

Türk heyəti Rusiyanın Tiflisdəki nümayəndəsi S.M.Kirov ilə də məsləhətləşdi. Beləliklə, sırf məsləhətçi xarakter daşıyan bu missiya başa çatdı. İki gündən sonra Bakıya dönən heyət burada səfərinin nəticələri barədə xarici işlər naziri Bəkir Sami Kunduha məlumat verdi. O isə sovet nümayəndələri ilə əvvəlcədən məsləhətləşmədən Ankaraya bir cavab vermək istəmirdi. Bakıda da məsləhətləşmələr davam etdirildi. Yalnız bundan sonra türk heyəti Ankaraya belə bir teleqram vurdu:

"*Yol açıqdır*" [56].

Mustafa Kamal Paşanın Ermənistan siyasətini şərh edən bolşevik xadimi İ.Qoldber 1920-ci il 12 sentyabr tarixli məruzəsində yazırdı ki, Ermənistana gəlincə, bu məsələdə Kamal Paşa Moskvanın göstərişinə riayət edir. Belə ki, Naxçıvanda müsəlmanların kütləvi şəkildə qırılmasından sonra Kamal ziyan çəkən müsəlmanların müraciətinə əsasən Naxçıvana korpus yeritmək istədi. Bu manevr onun Moskvaya yolunu açardı. Görünür, Moskvadan gələn məsləhətlə o, bu niyyətini həyata keçirtməkdən imtina etdi[57].

---

[56] Как кемалисты подготовили наступление на Армению. Журнал Де Орион. №704. Информбюро Турции. №8. – РГАСПИ, ф. 544, оп.3, д.113, л. 116.

[57] Доклад И.Голдберга о сведениях, сообщенных зам. председателя Центральной Бюро Турецких Коммунистических организаций т. Алимом и другими

Yaranmış mürəkkəb şəraitdə bolşeviklər Ermənistana dair məsələni təcili həll etmək istəyirdilər. Lakin sovet Rusiyası bunu özü edə bilmirdi. Çünki RK(b)P MK kompromis xətt yürütmək barədə qərar qəbul etmiş və avqustun 10-da daşnak Ermənistanı ilə müqavilə bağlamışdı. Digər tərəfdən, Rusiyanın Ermənistan ilə birbaşa sərhədi yox idi. Bolşevik Rusiyasının dövlət müstəqilliyini tanıdığı Gürcüstandan keçərək Ermənistan üzərinə hücum etmək də məqbul deyildi. Azərbaycandan keçərək Ermənistana hücum etmək dünya ictimai rəyini sovet Rusiyasının əleyhinə yönəldərdi.

Ermənistana dair məsələnin həllini bir sıra daxili və beynəlxalq amillər şərtləndirirdi. Bununla bağlı olaraq, 1920-ci ilin sentyabr ayında RSFSR-in İran və Türkiyədəki fövqəladə və səlahiyyətli nümayəndəsi Ş.Eliava xalq xarici işlər komissarı G.Çiçerinə, V.İ.Leninə, L.Trotskiyə və RK(b)P MK-ya göndərdiyi məruzəsində yazırdı ki, Yaxın Şərqdə yaranmış şərait böyük diqqət və yubanmadan qətiyyətli fəaliyyət tələb edir. İngiltərənin Şərqdə Rusiyanı boğmağa yönəlmiş mükəmməl siyasətinə qarşı Rusiyanın da parlaq düşünülmüş siyasət qoymasını tövsiyə edən Ş.Eliavanın fikrincə, İngiltərə Anadoluda hərbi gücünü toplayaraq Bakını ələ keçirtmək istəyir, Ermənistan hücum üçün məqam gözləyir, İngiltərə Qafqaz ətrafında dəmir zəncir düzəldir və Azərbaycana agentlərini göndərirdi. Ş.Eliava qeyd edirdi:

*“Mustafa Kamal Paşa, Kazım Qarabəkir Paşa və Xəlil Paşa bildirirlər ki, əgər Türkiyə ətrafında bu şərait bir ay davam edərsə, onda Türkiyə olmaz”.*

O, aşağıdakı nəticələrə gəlirdi: Ağstafa, Dilican, Qarakilis, Aleksandropol və Sarıqamışdan qətiyyətlə keçərək təcili surətdə Anadolu ilə əlaqə qurmaq lazımdır. Bu, bütün Cənubi Qafqazın iyrənc əksinqilabının ocağı olan Ermənistanın sovetləşdirilməsi deməkdir. Bundan sonra hər tərəfdən sovet ölkələri və müttəfiq Türkiyə ilə əhatə olunan Gürcüstan ölümə məhkum ediləcəkdir. Şahtaxtı, Culfa dəmiryolunun Ermənistana verilməsi tamamilə başa düşülən deyildir. Bununla bizim Naxçıvanı işğal etməyimiz şəffaf olur, o zaman Ermənistan çatışmayan ərzağı İranın zəngin olan şimalından gətirmək və bizimlə mübarizə məqsədi ilə istifadə etmək imkanı qazanır. Ş.Eliava yazırdı ki, birincisi, Ermənistanın sovetləşdirilməsi Anadolunun xilas edilməsi üçün lazımdır. İkincisi, bu, Azərbaycanda və Dağlı hökumətində əksinqilabi ümidləri öldürəcəkdir. Üçüncüsü, bu, İran Azərbaycanında ingilis təsirini məhv edəcək, mübarizəni oraya keçirtməyə imkan verəcəkdir. Dördüncüsü, Kürdüstan buferi qurmağa dair ingilis planlarını puça çıxaracaqdır. Ermənistanda hərbi kampaniyanı qış-

---

турецкими коммунистами, приехавшим из Анатолии о внутреннем положении в Турции и внешней политике. – РГАСПИ, ф.670, оп.1, д.51, л. 202-205.

da aparmaq xeyli çətin olduğundan Ş.Eliava onun tezliklə tutulmasını tövsiyə edirdi[58].

Bu təkliflər Azərbaycan K(b)P MK Siyasi Bürosu və Təşkilat Bürosunun 1920-ci il 16 sentyabr tarixli birgə iclasında geniş müzakirə edildikdən sonra belə bir qərar qəbul edildi:

*“Yaxın Şərqdə və Türkiyədə Antantaya qarşı mübarizəni yüngülləşdirmək üçün tezliklə Ermənistan sovetləşdirilsin. Bu barədə Mərkəzə məlumat verilsin. Eliava və Stasov Mərkəzə göndərilsin”* [59].

Ermənistan ilə bağlı məsələ 1920-ci il sentyabrın 17-də Şərq xalqları Təbliğat və Fəaliyyət Şurasının Rəyasət Heyətinin iclasında da müzakirə edildi. Qəbul edilən tamamilə məxfi qərarda yazılırdı ki, Ermənistanda daşnak hökuməti gücsüzlüyümüzdən istifadə edərək müdafiədən bizə qarşı müharibəyə başlamağa hazırlaşır. Azərbaycanda, xüsusən Qarabağ və Zəngəzurda kommunist maskası altında işləyən daşnaklar yerli hakimiyyət orqanlarını ələ keçirdib, müsəlman əhalini tərksilah edərək daşnak hücumu üçün zəmin hazırlayırlar. Azərbaycanda sovet siyasətində olan bəzi səhvlər sovet hakimiyyətinə qarşı əksinqilab üçün zəmin hazırlamışdır. Yerli rəhbərlər belə hesab edirlər ki, Azərbaycanda sovet hakimiyyəti rus süngüsü üzərində dayanmışdır. Mustafa Kamal Paşa Xəlil Paşa vasitəsi ilə bildirir ki, belə bir ağır şəraitdə millətçilər mübarizəni yalnız bir ay müddətində davam etdirə bilərlər. Əgər bir ay müddətində sovet Rusiyası ilə əlaqə qurulmasa, onlara maddi və mənəvi dəstək verilməsə, milli hərəkat yatırılacaq və Türkiyə Böyük Millət Məclisi hökuməti devriləcəkdir. Qərarda vurğulanırdı ki, Yaxın Şərqdə vəziyyət böhranlıdır, İngiltərə hökuməti Ermənistanın və Gürcüstanın köməyi ilə *“Azərbaycanı azad etmək”* adı altında sovet Azərbaycanına zərbə endirmək istəyir. Qeyd edilirdi ki, daşnak ordusu ilə bərabər Gürcüstanda gizlənən Müsavat ordusu da Azərbaycana girə bilər, Azərbaycanda sovet hakimiyyətinin müstəmləkə və antitürk siyasəti nəticəsində xalq nəinki bu hücuma müqavimət göstərməz, əksinə, onun cərgələrinə qoşular. Belə bir şəraitdə rus ordusu uzun müddət müqavimət göstərə bilməzdi. Yalnız dənizə çıxışı olan Bakı şəhəri hərbi əməliyyatlardan bir ay sonra mühasirəyə düşərdi. Bu zaman Bağdadda İngiltərənin Şərq hava qüvvələrinin 300 təyyarəsi var idi. Tutulmasaydı belə, Bakı mühasirəyə alınar və yandırılardı. Digər tərəfdən, türk inqilabi hərəkatının yatırılması, bütün Şərqdə inqilabi hərəkatın və sovet siyasətinin

---

[58] Доклад чрезвычайно полномочного представителя РСФСР Турции Элиаве, Чичерину, копия Ленину, Троцкому, ЦК РК (б)П о политическом положении на Ближнем Востоке, в т.ч. Турции. – РГАСПИ, ф.5, оп.2, д.92, л.33-34.

[59] Протокол объединенного заседания Политбюро и Оргбюро ЦК АКП. 16.09.1920. – ARSSA, f.1, siy.1, iş 24, v.13.

iflasına gətirərdi. İngiltərə itirilmiş nüfuzunu bərpa etmək üçün əhalisi müsəlman olan və rus zülmü altında inləyən Azərbaycan, Qafqaz və Türküstan üzərində Türkiyənin tarixi haqqını tanıyar və bu əraziləri Rusiya əleyhinə qaldırardı. İngiltərə panislamçı hərəkatı qərbdən şərqə keçirdərək bolşevik Rusiyasına qarşı yönəltmək istədiyindən yerlərdə sovet xadimlərinin müstəmləkə siyasətindən narazı qalan xalqları onun əleyhinə çevirmək çətin olmazdı. O zaman müsəlmanların müqəddəs müharibəsi İngiltərəyə qarşı deyil, sovet Rusiyasına qarşı başlayar, bununla da Rusiya zəngin neft və pambıq mənbələri olan Qafqazdan və Türküstandan ayrı düşərdi.

Qəbul edilən qərarda sovet Rusiyası üçün ölümcül olan bu şəraitdən çıxmağın yolu kimi Türkiyədəki milli hərəkata yardım etmək, ingilis – şah qüvvələrinin Ermənistan ilə birləşməsinin qarşısını almaq, Türkiyə ilə birləşmək məqsədi ilə millətçi türk ordu hissələrinin Ermənistan üzərinə hücumuna, erməni xalqına zülm edən daşnakları devirməyə yardım etmək tövsiyə olunurdu. Daşnakların devrilməsi Türkiyə ilə birləşməyə, erməni sərhədini, arxadan təhlükəni ləğv etməyə, Mustafa Kamalın mövqelərini möhkəmləndirməyə kömək edərdi. Bu, milli hərəkatı gücləndirər, ingilislərin əlində olan sultanın Türkiyədə yeganə hakim olmasını elan etməsinə mane olardı. Ermənistan üzərinə hücum təkcə türk milli hərəkatına yardım etməz, həmçinin Rusiyanın düşmənlərinin yığıldığı Ermənistanı aradan qaldırar, ingilis – şah qüvvələri gəlməzdən əvvəl onu sıradan çıxardardı. Qərarda yazılırdı:

*"Bundan başqa, Ermənistan üzərinə hücum ondan müdafiə olunmaqdan asandır, daşnakların Azərbaycanı bolşeviklərdən azad etmək adı altında üzərimizə hücum edəcəyi təqdirdə Azərbaycan əhalisinin bir hissəsi bizim əleyhimizə olacaqdır. Bizim Ermənistana hücum edəcəyimiz təqdirdə isə təkcə bütün Azərbaycan əhalisi deyil, ermənilərin də bir hissəsi bizim tərəfimizdə olacaqdır. Ermənistana hücum üçün əlavə qüvvə lazım olmayacaq, yalnız gövdə göstərisi olacaqdır".*

Qərarda qeyd edilirdi ki, Türkiyə hökuməti türk ordusunun gəlməsindən qorxa biləcək ermənilərin narahatlığına son qoymaq üçün qoşun hissələrini rus komandirlərinin ixtiyarına vermək istəyir. Daşnak Ermənistanı ilə müharibə Azərbaycanda bolşeviklərin mövqelərini möhkəmləndirərdi. Sovetləşən Ermənistanın yedirdilməsi üçün qida, zəngin ərzaq ehtiyatı olan Cənubi Azərbaycandan gətirilə bilərdi. Diplomatik cəhətdən Qərbi Avropada bu hay-küyü yatırmaq üçün Ermənistana hücum zamanı aşağıdakıların edilməsi tövsiyə olunurdu:

*"Türk ordusu hücuma başlayan kimi, biz öz mətbuatımızda və bizim orqanların köməyi ilə Avropada yeni erməni – türk qırğınları haqqında hay-küy qaldıra bilərik, onu birdəfəlik dayandırmaq üçün ordularımız Ermənistan üzərinə hücum edə bilər. Bu zaman sovet hakimiyyəti qurular. Da-*

*ha sonra biz türk ordularını Ermənistan hüdudlarından çıxardarıq. Türklər buna sözsüz tabe olarlar. Türklərlə ermənilər arasında gələcəkdə toqquşmaların olmaması üçün biz erməni – türk sərhədini tutarıq. Beləliklə, biz bütün Qərbi Avropa proletariatının gözündə mötədil, sülhpərvər, erməni xalqının qalan hissəni qırğından qurtaran və xilasedici kimi görünərik*".

Qəbul edilən qərarda vurğulanırdı ki, Ermənistan ilə müharibə qaçılmazdır, ona yubanmaq Ermənistanın Azərbaycan üzərinə hücumu və Bakının itirilməsi ilə nəticələnər. Buna görə də Şərqdə inqilabı xilas etmək üçün Ermənistan üzərinə təcili hücuma keçilməli və o, sovetləşdirilməlidir[60].

Şərq xalqlarının Təbliğat və Fəaliyyət Şurası Rəyasət Heyətinin üzvü M.Pavloviçin (Veltman) fikrincə, Ermənistanın sovetləşdirilməsi erməni – türk düşmənçiliyinə son qoya, sovet Rusiyası, Ukrayna, Azərbaycan, Ermənistan və Türkiyənin daxil olduğu Qara dəniz federasiyasının qurulması üçün əlverişli amil ola bilərdi. Ermənistanda sovet çevrilişi ingilis – fars və erməni qüvvələrinin Bakı üzərinə hazırlanan hücumunun və ingilislərin İran Azərbaycanında möhkəmlənməsinin qarşısını ala bilərdi.

Artıq qeyd edildiyi kimi, türk xalqının qərbdə ingilis-yunan müdaxiləçiləri ilə ölüm-dirim mübarizəsi apardığını görən daşnaklar Türkiyəyə qarşı yeni cəbhə açmışdılar. Onlar Türkiyə əleyhinə hətta ittifaq qurmaq barədə də düşünürdülər. Məsələn, İstanbuldakı erməni mətbuatı 1920-ci ilin sentyabr ayında Türkiyəyə qarşı Ermənistan, Gürcüstan və Yunanıstan daxil olmaqla *"Şərq Antantası"* yaratmaqda israr edirdi[61].

Erməni dəstələrinin vəhşilik hərəkətlərinə və daşnak Ermənistanının düşmənçilik siyasətinə türklər cavab verməyə məcbur oldu. Ordu hazırlandı. Türkiyə komandanlığı sentyabrın 19-da Ermənistan ilə müharibənin başlandığını orduya elan etdi. Sentyabrın 22-də hərbi əməliyyatlar başladı. Mustafa Kamal Paşa Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir Paşaya hərbi əməliyyatları sürətləndirməyi və qışa qədər başa çatdırmağı əmr etdi[62]. Artıq Türkiyəni heç nə ilə dayandırmaq mümkün deyildi. Bununla bağlı olaraq Ov. Kaçaznuni sonralar yazırdı:

*"Türklər nə Vilsonun qərarlarını, nə də Sevr müqaviləsini tanımaq istəyirdilər... Müttəfiqlər boyun əyməyən Ankaranı silah gücünə qaydaya riayət etməyə çağırmaq barədə heç bir tədbir görə bilmədilər"* [63].

---

[60] Заключение Президиума Совета Пропаганды и Действия народов Востока о политическом положении на Ближнем Востоке. 17.09.1920. Сов.секретно. – РГАСПИ, ф.5, оп.2, д.92, л. 30, 31, 32.

[61] Хроника событий в Азербайджанской ССР, составленная информационным отделом Наркоминдела Азербайджанской ССР. 01.08.1920-17.02.1921. – ARDA, f. 28 s., siy. 1, iş 168, v. 18.

[62] На Востоке. – Газ. "Коммунист", Баку, 22.10.1920, №144.

[63] Качазнуни Ов. Дашнакцутюн больше нечего делать, с. 45.

Müharibənin başlanmasının əsas səbəbi daşnak Ermənistanının antitürk siyasəti, mülki türk, müsəlman əhalisini kütləvi surətdə qırması, əsassız ərazi iddialarını irəli sürməsi, türk xalqına qarşı müharibə edən Antanta ölkələrinin əlində bir alətə çevrilməsi idi. Mənbələrdə yazıldığı kimi, daşnaklar Türkiyənin parçalanacağına və Sevr müqaviləsi əsasında yaradılması nəzərdə tutulan "müstəqil Ermənistanda" dünyanın hər yerindən gələn ermənilərin toplaşacağına ümid edirdilər[64].

Hərbi əməliyyatların başlanmasının təqsiri Ermənistanın üzərinə düşürdü. Bununla əlaqədar olaraq Kazım Qarabəkir Paşa "Slovo" qəzeti müxbirinin suallarına cavabında deyirdi:

*"Ermənistan Türkiyənin sinəsində köhnə əşyaların qalıqlarını qazmaqla məşğul oldu və ideallar yaratmış türk tarixinə qarşı getməyə başladı. Biz ermənilərə yalvardıq ki, gəlin, real maraqlar çərçivəsində danışaq. Onlar bizim təkliflərimizi rədd etdilər"* [65].

Türklərin məqsədi Ermənistanı tutmaq və erməni ordusunu məhv etmək deyildi. Bununla əlaqədar olaraq "Hakimiyyeti Milliye" qəzeti yazırdı:

*"Kamalçıların Ermənistan üzərinə hücumu Ermənistanı tutmaq və erməni ordusunu məhv etmək məqsədi güdmür. Hərəkat ona görə başladı ki, Ermənistan kamalçıların Şərq xalqları ilə əlaqələrinə mane olur və ingilis imperializminin dayağıdır"* [66].

Türk ordusu hücuma başladıqdan sonra, oktyabr ayının əvvəllərində erməni xalqına müraciət edərək hücumları pisləyən Ermənistanın Baş Naziri Ov.Kaçaznuni Mustafa Kamal Paşanı *"Osmanlı sultanının qeyri-rəsmi agenti"* adlandırdı[67]. Geniş hazırlıqlara başlayan Ermənistan hökuməti səfərbərlik elan etdi. Bununla bağlı olaraq ABŞ-ın Tiflisdəki konsulu Mozer 1920-ci ilin oktyabr ayında dövlət katibinə göndərdiyi teleqramında yazırdı:

*"Ermənistan hökuməti Türkiyəyə qarşı müharibədə döyüşmək üçün 35 yaşınadək olan bütün kişiləri orduya səfərbər etdi"* [68].

Lakin həmin tədbirlər Ermənistanı məğlubiyyətdən qurtarmağa kifayət etmirdi.

---

[64] Бюллетень информационного отдела при дипломатическом представительстве АССР в Грузии. 22.01.1921.№ 135. – ARSSA, f. 1, siy. 2, iş 79, v. 60.

[65] Бюллетень информационного отдела при дипломатическом представительстве АССР в Грузии. 25.11.1920. № 94. – ARDA, f.28 s., siy.1, iş 211, v.120; Газ. "Слово", Тифлис, 21.11.1921.

[66] В советской Армении. – Газ. "Бакинский рабочий", 20.12.1920, №37 (124).

[67] Воззвание премьера Армении. – РГАСПИ, ф.544, оп.3, д.113, л.28.

[68] Papers Relating to the Foreign Relations of the United States.1920.Vol.III, p.788-789.

### *Azərbaycana hücumlar davam edir*

Bu zaman bolşevik Rusiyası həm daşnakların hakimiyyətdən getməsini istəyir, həm də erməniləri müdafiə edərək sovet Azərbaycanında aman-sız siyasət yürüdürdü. Belə ikili yanaşma Azərbaycan bolşeviklərini hiddətləndirirdi. Azərbaycan SSR-in RSFSR yanındakı səlahiyyətli nümayəndəsi Behbud Şahtaxtinski Moskvadan 1920-ci il sentyabrın 20-də V.İ.Leninə göndərdiyi məktubunda sovetləşmədən sonra Azərbaycanda yürüdülən siyasətdə buraxılan səhvləri kəskin tənqid edərək yazırdı:

*"Qırmızı ordu bütün vasitələrlə hətta Ermənistan ilə sərhəddə olan vilayətlərdəki müsəlman əhalinin silahlarını alır. Bununla belə, görməmək mümkün deyildir ki, davam edən hücumlar nəticəsində* (Ermənistanın hücumları nəzərdə tutulur –M.Q.) *müsəlman əhalinin fiziki mövcudluğu təhlükə altına düşmüşdür. Müsəlman əhali tərksilah edilmişdir. Daşnakların silahlı dəstələri müsəlman kəndlilərini amansızlıqla doğrayır və məhv edir. Kəndlilər bağlarını, əkin sahələrini və yaşayış yerlərini buraxaraq dağlara qaçırlar. Öz çörəyi ilə yaşayan Azərbaycanda indi çörək yoxdur. Ac olan Ermənistan və Gürcüstanda isə çörək boldur. Azərbaycan əhalisi Naxçıvanın demək olar ki, hamısının Ermənistana verilməsi xəbərindən heyrətə düşmüşdür. Amerikada 25 nəfərlik dəstə hazırlanaraq Ermənistana yola salınmışdır. Ermənistanla sərhəddə əhalinin tərksilah edilməsini dayandırmaq lazımdır"*[69].

Azərbaycanın israrlı tələblərinə baxmayaraq, daşnak hücumları dayanmır, daha da genişlənirdi. Daşnak dəstələri Qazax qəzasında Azərbaycan sərhədinə hücum etdikdə Q.K.Orconikidze 1920-ci il sentyabrın 30-da RSFSR-in Ermənistandakı fövqəladə səlahiyyətli nümayəndəsi B.V.Leqrana yazırdı:

*"Erməni orduları bizim ordu hissələrinin zəifliyindən istifadə edərək Qazax qəzasına hücum etmişlər, Gəncə, Ağstafa və Tovuz rayonlarında strateji xəttimizi təhlükəyə salmışlar. Buna görə də bizim Qazax qəzasının Yeni Bəyazid, Aleksandropol və Borçalı ilə inzibati sərhədləri möhkəmləndirilməli, Yeni İvanovka, Mixaylovka və Çəmbərək mütləq Azərbaycana birləşdirilməlidir. Bu rayonların əhalisi daşnak hökmranlığından xeyli narazıdırlar və sovet Azərbaycanına can atırlar. Əhalinin nümayəndələri bir neçə dəfə gələrək Azərbaycana birləşməyi xahiş etmişlər"* [70].

Erməni dəstələrinin hücumları davam edərkən Ermənistan – Azərbaycan konfransını çağırmaq üçün yazışmalar aparılırdı. Müqavilə münasibətləri

---

[69] Чрезвычайный полномочный представитель АССР Б.Шахтахинский – председателю Совета Народных Комиссариатов Ленину. 20.09.1920. Москва. – ГАРФ, ф.130, оп.3, д.129 б, л. 213-222.

[70] Письмо Орджоникидзе Леграну. 30.09.1920. – ARSSA-nın surət fondu, № 335, v.1.

olmadığından Ermənistan ilə mübahisəli məsələləri həll etmək olmurdu. Ermənistanın Azərbaycandakı nümayəndəsi S.Q.Arutunyan 1920-ci il oktyabrın 7-də Azərbaycan tərəfinin erməni – azərbaycanlı konfransı çağırmaq barədə Bakı fəhlə, əsgər və matros deputatları sovetinin qəbul etdiyi qətnaməni Ermənistan Xarici İşlər Nazirliyinə göndərdi. Qətnamədə yazılırdı:

*"...normal müqavilə münasibətləri olmadığından qaçqınlar və köçkünlər məsələsini həll etmək, iqtisadi münasibətlər qurmaq, Azərbaycanda həbs edilən daşnakları və Ermənistanda həbs edilən kommunistləri azad etmək mümkün deyildir"* [71].

Azərbaycanın müraciətinə Ermənistanın xarici işlər naziri A.Ohacanyan 12 oktyabr tarixində riyakarlıqla belə bir cavab verdi:

*"Ermənistan belə bir konfransın çağırılmasını dəfələrlə təklif etmiş, lakin Azərbaycan hökuməti heç bir cavab verməmişdir. Əksinə, Azərbaycan qoşunlarını Ermənistana yeritmişdir. Yalnız avqustun 10-da Ermənistan ilə RSFSR ilkin saziş imzaladıqdan sonra Azərbaycan belə bir təklif irəli sürmüşdür"* [72].

Heç şübhəsiz, Mərkəzin təzyiqi ilə Azərbaycan tərəfi həmin müqavilə imzalananadək xüsusi erməni – azərbaycanlı konfransını çağırmağın vaxtı çatmadığı cavabını vermişdi. Lakin Ermənistan hökuməti belə bir konfransın hər hansı bitərəf ölkədə və ya Ermənistan ərazisindəki şəhərlərdən birində çağırmağa *"Azərbaycan xalqının istəyinə cavab olaraq"* razı olduğunu həyasızcasına bildirdi[73]. Buna baxmayaraq, Azərbaycana hücumlar davam edirdi. Ona görə də M.Hüseynov A.Ohacanyana və RSFSR-in nümayəndəsi B.Leqrana oktyabrın 27-də verdiyi cavab notasında daşnak dəstələrinin hücumlarını dayandırmağı tələb etdi[74]. Ermənistanın əsassız iddialarının rədd olunduğu notada Azərbaycan tərəfi konfransın hətta çağırılması gününü də bildirdi: 5 noyabr 1920-ci il[75].

Lakin sülh yaratmaqdan uzaq olan daşnak hökuməti bu zaman Gürcüstanı da Türkiyə əleyhinə qaldırmaq üçün fəaliyyətlərini artırmışdı. Həmin məqsədlə müxtəlif üsullardan istifadə edilirdi.

---

[71] Телеграмма Арутуняна МИД-у Армении. – Газ. "Коммунист", Баку, 31.10.1920, №151.

[72] Документы внешней политики СССР. Т. II, с. 728.

[73] АССР и соседи. – Газ. "Коммунист", Баку, 31.10.1920, №151.

[74] Вырезка из Бакинской газеты об армяно – турецких отношениях, и планах создания Черноморской Федерации из республик Советской России, Украины, Азербайджана, Армении и Турции. 10.11.1920. – РГАСПИ, ф.495, оп. 299, д.4, л.81.

[75] Наркоминдел АССР – дипломатическому представителю Армении в Азербайджане, копия Эриван мининдел Огаджаняну. – ARDA, f.28 s., siy.1, iş 116, v. 102.

## *Daşnakların Gürcüstanı Türkiyə əleyhinə qaldırma cəhdləri*

Daşnaklar türk ordusunun hücumlarının guya Gürcüstana qarşı yönəldiyi barədə şayiə yayaraq bir blok qurmaq üçün cəhdlər etməyə başlamışdılar. Lakin TBMM xarici işlər naziri vəzifəsini icra edən Əhməd Muxtar (xarici işlər naziri Bəkir Sami Kunduh ölkədə olmadıqda bu vəzifəni Əhməd Muxtar icra edirdi – M.Q.) 1920-ci il oktyabrın 9-da Gürcüstan Demokratik Respublikasının xarici işlər nazirinə göndərdiyi teleqramda daşnak Ermənistanı rəhbərlərinin türk ordusunun hərəkətlərinin guya Gürcüstana qarşı yönəldiyinə dair yaydıqları şayiələri qətiyyətlə rədd etdi və türk xalqının daşnak hökumətinə olan aşağıdakı konkret ittihamlarını göstərdi:

*"1. Bir neçə aydır, erməni daşnak bandaları Kars, Oltu və b. yerlərdə dinc əhali üzərində zorakılıq edir, türk ordusunun postlarına hücumlar edir, müsəlmanları köçməyə məcbur edir; 2. Daşnak hökuməti daim ingilis mənfəətlərinə uyğun olaraq Türkiyə ilə Rusiya və Azərbaycan arasında əlaqələrin qurulmasına mane olur. Ordu bizi Azərbaycandan ayırmaq üçün əhalisi yalnız türklərdən ibarət olan Naxçıvan keçidinə müntəzəm olaraq hücum etmişdir; 3. Bizim bütün addımlarımıza baxmayaraq, daşnaklar daim sülh bağlamaqdan imtina etmişlər və bizi daha ağır vəziyyətə salmaq üçün hər dəfə hərbi fəaliyyətlərini bizə qarşı Yunanıstan ilə əlaqələndirmişlər. Onlar Ərzuruma hücum edərək bizim şərq vilayətlərimiz vasitəsi ilə Mesopotamiyada olan ingilis orduları ilə birləşmək, Yunanıstanın Qərbi Anadoluda oynadığı rolu Şərqdə oynamaq istəmişlər. Beləliklə, onlar özlərini Britaniya imperializminin nökəri kimi təqdim edəcəklərinə, Sevr müqaviləsinin həyata keçiriləcəyinə, erməni imperiyasının qurulacağına ümid edirlər. Bütün bu faktlar Ankara hökumətini daşnakların ağlını başına yığmağa və ordularını elə strateji yerləri tutmağa vadar edir ki, İrəvan hökuməti hazırkı şəraiti və öz vəzifələrini başa düşsün, bizim istəklərimizə ədalətlə yanaşsın və bizimlə sülh bağlasın. Bizim düşməni məhv etməyimiz haqqında heç bir söhbət gedə bilməz. Düşmənimiz guya bizim erməni xalqını məhv edəcəyimizə inandırmağa çalışır. Qafqazın heç bir xalqına qarşı bizim təcavüzkar niyyətimiz yoxdur. Bizim yeganə düşmənimiz daşnaklardır. Biz əminik ki, Türkiyə və Gürcüstan xalqları arasında münasibətlər daim dostcasına olmuşdur. Bizim münasibətlərimizdə heç bir anlaşılmazlıq olmamışdır. Daşnakların hiyləgərlikləri Gürcüstana təsir edə bilməz"* [76].

Bununla da TBMM hökuməti gürcü – türk münasibətlərini pozmağa çalışan daşnak təbliğatına cavab verdi və Gürcüstanı xəbərdar etdi.

---

[76] Телеграмма министра иностранных дел Турции Ахмеда Мухтара на имя министра иностранных дел Грузинской Республики. 09.10.1920. – GMTA, f.1864, siy.1, iş 122, v. 7-8.

Bolşevik Rusiyası isə bu zaman daşnak Ermənistanına münasibətdə bəzi digər addımlar atdı.

### *Rusiyanın təklifləri*

RSFSR-in Ermənistandakı səlahiyyətli nümayəndəsi B.Leqran oktyabrın 13-də Ermənistan hökumətinə iki təkliflə müraciət etdi:

*"1. Antanta ilə mübarizə məqsədilə Mustafa Kamal orduları ilə birləşmək üçün sovet ordusu və sursatının Ermənistan ərazisindəki dəmiryolu və avtomobil yolundan keçərək sərbəst hərəkəti üçün icazə versin; 2. Ermənistan Sevr sülh müqaviləsindən imtina etsin".*

B.Leqranın fikrincə, bu təkliflərin yerinə yetirilməsi bütün anlaşılmazlıqları aradan qaldırar və Ermənistanın normal dövlət kimi yaşamasına təminat verərdi. Əslində Sevr müqaviləsindən imtina etməyə dair olunan təklif bolşevik Rusiyasının Anadoluda Ermənistan adlı bir dövlətin qurulmasına qarşı birbaşa çıxması demək idi. Məlum olduğu kimi, həmin müqaviləyə görə Ermənistan Türkiyənin Van, Bitlis, Ərzurum və Trapezund kimi tarixi torpaqlarını tutmalı idi[77].

Daşnak hökuməti B.Leqrana cavab verdi ki, ultimatum qəbuledilməzdir, onun tələblərinin yerinə yetirilməsi Ermənistanın tamamilə asılı olması demək olar. Bu cavabı ilə Ermənistan özünü məhv olmaq astanasında qoydu. Çünki Ermənistanı müdafiə edən Antanta ölkələri artıq Cənubi Qafqazda meydanda yox idilər. Onların yerini Rusiya tutmuşdu. Yaranmış şəraitlə bağlı olaraq ermənilərin "Mşak" ("Əməkçi") qəzeti yazırdı:

*"İndi Türkiyədən də çox İngiltərə Ermənistanın düşmənidir. Antanta bizi xaincəsinə tək qoyduqda meydana bizi xilas etmək istəyən başqa bir siyasi qüvvə – sovet Rusiyası girdi. Əgər o, bizim xalqımızı fiziki cəhətdən, dövlətimizin müstəqilliyini və bizim insan haqlarımızı xilas edəcəksə, biz yalnız təşəkkür hissi ilə Rusiyanın vasitəçiliyini qəbul edə bilərik"* [78].

### *Mərkəz Naxçıvan və Zəngəzurun Ermənistana verilməsinə dair hazırlıq işləri aparır*

Türkiyə və Ermənistan arasında müharibə davam edərkən bolşevik Rusiyası özünü Ermənistanın xilaskarı kimi göstərərək yanına çəkmək və

---

[77] Армения и Советская Россия. 04.11.1920. – РГАСПИ, ф.544, оп. 3, д.113, л. 26-31.

[78] Сообщение из Тифлисской газеты о прекращении военных действий на армянском фронте и решении сближения с Турцией и Советской Россией. – РГАСПИ, ф.495, оп.299, д.4, л.63.

daşnaklarla müharibədə qalib gələcək Türkiyə ilə Azərbaycanın yaxınlaşmaması üçün Bakını təzyiq altında saxlamaq üçün bəzi tədbirlər gördü. Behbud Şahtaxtinskinin hələ 1920-ci il sentyabrın 20-də Leninə həyəcanla yazdığı *"Azərbaycan əhalisi Naxçıvanın demək olar ki, hamısının Ermənistana verilməsi xəbərindən heyrətə düşmüşdür"* xəbərdarlığının əksinə olaraq sovet rəhbərliyi niyyətlərini həyata keçirtmək üçün addımlar atdı. Bakıda 1920-ci il noyabrın 4-də Azərbaycan K(b)P MK Siyasi Bürosunun RK(b)P Qafbüronun üzvləri ilə birgə keçirilən iclasında (protokol №4, 2-ci bənd) "Ermənistanda vəziyyət haqqında Leqran yoldaşın məruzəsi" adlı məsələ müzakirə edildi. İclasın sədri Q.Kaminski, katibi isə Lozner idi. İclasda Siyasi Büronun üzvləri Nərimanov, Hüseynov və Yeqorov, Qafbüronun üzvləri Stalin, Orconikdize, Stasova və Şeynman, Leqran, Qabrielyan və Qarayev iştirak edirdilər[79]. Məruzə ilə Leqran çıxış etdi. Məxfi qərarlar qəbul edildi. Ermənistan ilə Rusiya arasında imzalanacaq sülh müqaviləsində Naxçıvan və Zəngəzurun Ermənistana verilməsinin əks olunmasına dair məsələdə Siyasi Büro üzvləri belə bir fikir söylədilər ki, bu, siyasi və strateji baxımdan faydalı deyildir və yalnız ən çıxılmaz halda edilə bilər. Ermənistan ilə məsələni aydınlaşdırmaq üçün Leqranın Moskvaya səfəri zəruri sayıldı. Siyasi Büronun Naxçıvan və Zəngəzur haqqında fikrinin motivlərini tərtib etmək Nərimanova tapşırıldı. Dövlətovun Ermənistana göndərilməsi məqbul hesab edilmədi.

Naxçıvan və Zəngəzurun Ermənistana verilməsinə dair məsələnin imzalanacaq Rusiya – Ermənistan müqaviləsində əks olunmaması və Nərimanova həmin ərazilərin verilməsinin formalaşdırılmasının tapşırılması səbəbsiz deyildi. Əgər müqavilədə bu məsələlər əks olunardısa, onda bolşevik Rusiyası özünü tamamilə gözdən salar, "müstəqil" elan etdiyi Azərbaycan SSR-i idarə etdiyini açıq-aşkar göstərər, antisovet müqavimət hərəkatı daha da qızışar və Türkiyə ilə münasibətlərə xələl gələrdi. Ona görə də bu təklifin Azərbaycandan gəlməsini daha uyğun görürdü. Belə bir təklif yerli hakimiyyəti Azərbaycan xalqının gözündə aşağı saldığından Mərkəzdən asılılığını daha da artırardı. Eyni zamanda bolşevik Rusiyası bununla erməni ictimai rəyini öz tərəfinə çəkəcəyinə ümid edirdi.

### *Bolşevik Rusiyasının narahatlığı*

Türk ordusu bu zaman Karsı azad etdi. İrəvan və Aleksandropol üzərinə gedən yol açıldı. Belə bir şəraitdə bolşevik Rusiyası kamalçı Türkiyə ilə yaxınlaşmaq üçün əlavə addımlar atdı. Ankarada sovet səfirliyi

---

[79] Протокол №4 заседание Политбюро ЦК АКП совместно с членами Кавбюро ЦК РКП(б). 04.11.1920. – ARSSA, f.1, siy.1, iş 22, v. 17, 20.

açıldı. Doğrudur, buna qədər Batumda RSFSR-in səlahiyyətli nümayəndəsi S.M.Kirovun rəhbərliyi altında informasiya bürosu fəaliyyət göstərirdi. Səfirliyin açılması isə münasibətlərə yeni keyfiyyət halı verirdi.

Noyabrın 6-da Ankaraya gələn sovet nümayəndəliyinin katibi Y.Y.Upmal Türkiyə – Ermənistan müharibəsində bolşevik Rusiyasının vasitəçilik etməsinə türk tərəfinin razılıq verməsi üçün cəhdlər etdi[80]. Lakin Türkiyə tərəfi Ermənistan ilə müharibədə Rusiyanın vasitəçiliyini qəbul etmədi[81].

Daşnakların hakimiyyətdən getməsində, Ermənistanın sovetləşdirilməsində və özünü "ermənilərin xilaskarı" kimi göstərməkdə maraqlı olan bolşevik Rusiyası Ermənistanın tamamilə darmadağın edilməsinin əleyhinə idi. Sovet rəhbərliyi həmçinin Türkiyənin hücumunun hansı niyyətlər güdməsindən, xüsusən Azərbaycanın müstəqillik fikrinə düşməsindən, Bakı üzərinə hücum etmək ehtimalından və bu məsələlərdə Gürcüstanın tutacağı mövqedən narahatlıq hissi keçirirdi. Azərbaycan K(b)P MK, Bakı şəhər Partiya Komitəsi və RK(b)P MK Qafqaz Bürosu, Azərbaycan İnqilab Komitəsi, Bakı şəhər İcraiyyə Komitəsi, xalq komissarlarının və rayon icraiyyə komitələri və Azərbaycan K(b)P komitələrinin 1920-ci il noyabrın 9-da keçirilən birgə iclasında çıxış edən Stalin bununla bağlı olaraq aşağıdakı mülahizələrini söylədi:

*"Mən üç faktdan çıxış edəcəyəm, hansı ki, onlarla hesablaşmaq lazımdır. Birincisi – Qafqaz üzərində qara buludlar asılmışdır. Antanta hərbi əməliyyatlar meydanını Qafqazın cənubuna keçirtməyə cəhd edir. Vrangel Rusiyanı neftdən ayırmaq üçün Kubana girə bilər. Türkiyənin Ermənistana hücumu şəraiti bir qədər tündləşdirir. Azərbaycan, ola bilsin, öz azadlığını silahlı müdafiə etmək faktı qarşısında qala bilər. Biz xarici mürəkkəbliklər dövrünə yaxınlaşırıq, bu, tufana çevrilə bilər. Mən Azərbaycanın müstəqilliyinin tərəfdarı deyiləm. Kommunistin bir hissəsi digərindən müstəqil ola bilməz. Bizim kamalçılarla əlaqəmiz yoxdur. Biz yalnız fəhmlə deyə bilərik ki, o, nə edir. Düşünürəm ki, Kamal bir sıra vilayətlərin Ermənistana verilməsini nəzərdə tutan Antantanın türk hökumətinə sırıdığı müqavilədən imtina etmək üçün Aleksandropolu tutmaq, Ermənistanı Gürcüstandan ayırmaq istəyir. Bizdə dövlət milli prinsiplərə uyğun qurula bilər, lakin Antanta türk hökumətinin iradəsinin ziddinə olaraq müqaviləni qəbul etməyə məcbur etmişdir. Kamal Arazdan cənubda ermənilərin məskunlaşdığı bir sıra vilayətləri tutmaq istəyir. Onlar yazırlar ki,*

---

[80] Главнейшие моменты в политической жизни Турции с ноября 1920 года на ноябрь 1921 года. – Т.С. ВСА. 930.02.2.12.2.

[81] Чичерин Г. Год восточной политики советской власти. – Газ. "Бакинский рабочий", 21.11.1921, №266 (398).

*Ermənistanı daşnaklardan xilas etmək istəyirlər. Bu, boş bir şeydir. Kamalçılar Antanta ilə döyüşən burjua-millətçi partiyadır və Kamalın Ermənistanda məqsədlərinə Rusiyanın münasibəti yalnız mənfidir. Aydındır, sovet hakimiyyəti Kamala dayanmaq üçün nə qədər təklif edə bilər və etməlidir ki, Ermənistanı darmadığın edilməkdən xilas etsin.* ***Ümumiyyətlə, kamalçılar Antanta ilə bəzi sazişlər axtarmağa başlamışlar. İngiltərə şərqdəki dalğaların təsiri altında getdikcə güzəştə gedən olur. İstisna deyildir ki, Türkiyə Antanta ilə barışacaq və bizə qarşı Antantanın mübarizəsi meydanına çevriləcəkdir*** (seçmə bizimdir – M.Q.). *Onun Antantaya qarşı müharibəni davam etdirəcəyi də istisna deyildir. Bu günlərdə biz orada vəziyyəti aydınlaşdırmaq üçün Türkiyəyə nümayəndə heyəti göndərəcəyik...Gürcüstan indi gəlin vəziyyətindədir, onun çoxlu adaxlıları vardır. Onunla oynayırlar, ağızlarını marçıldadırlar. Biz də onunla oynayırıq ki, nəyisə əldə edək. Burada Antanta bizə qarşı ittifaq qurmaq istəyir. Biz, əlbəttə, Gürcüstanı öz tərəfimizə çəkməyəcəyik, lakin Gürcüstan hökumətində parçalanmaları artıracağıq və bir damla neftin verilməsi ilə Gürcüstan ilə Antanta arasında hərbi ittifaqı dayandıracağıq. Sonra faktlar göstərəcəkdir, hansı yaxşıdır...Kamal hökuməti keçə biləcəyi həddi keçmişdirmi? Biz bilmirik. Burada hamı şantaj edir. Biz səfirliklərin heç bir bəyanatına inanmırıq. İndi heç bir cavabı vermək olmaz"* [82].

### *Qnçak yaranmış şərait üçün Daşnaksütyunu təqsirləndirir*

Yaranmış şəraitdən rahatsız olan təkcə sovet rəhbərliyi deyildi. Ermənistanın düşmüş olduğu acınacaqlı vəziyyət müxtəlif erməni təşkilatlarını da həyəcanlandırmışdı. Belə ki, 1920-ci il noyabrın 11-də keçirtdiyi konfransda ölkənin fəlakətli və ümidsiz vəziyyətini müzakirə edən Qnçak təşkilatı onu Daşnaksütyunun səhv fəaliyyəti ilə əlaqələndirərək aşağıdakı məzmunda bir qərar qəbul etdi:

*"Ermənistandakı indiki rejim və onun rəhbərləri inqilabi şüarlarla, özlərinin siyasəti və taktikaları ilə ölkəni nəinki xilas etmədilər, həmçinin Antantanın, onun imperialist niyyətlərinin əlində kor alət oldular, erməni xalqının nəinki iqtisadi, həmçinin siyasi müstəqilliyini təhlükə altına atdılar. Ermənistanın indiki rəhbərliyi Antantanın erməni xalqına olan münasibətinin əksinə olaraq həm Ermənistanda, həm də Kilikiyada özlərinin is-*

[82] Протокол заседания ЦК АКП, БК АКП, Кавбюро ЦК РКП, Азревкома, Бакисполкома, наркомов и президиумов районных исполкомов и комитетов АКП. 09.11.1920. Секретно. – ARSSA, f.l, siy.l, iş 14, v.15, 16, 17, 18, 20.

*tismar və riyakar siyasətləri ilə bu gün qurban olan erməni xalqını xilas etmək üçün hələ də Antanta ölkələrini gözləyirlər"* [83].

Həqiqətən də erməniləri ağır vəziyyətə daşnaklar özlərinin avantürist siyasəti ilə salmışdılar. Amma türklərin məqsədi Ermənistanı məhv etmək deyil, düşmənçilik edən daşnakların hakimiyyətini devirmək, Ermənistanı müstəqil və demokratik görmək idi. Ölkəsinin Ermənistan siyasətini izah edən TBMM hökumətinin Tiflisdəki nümayəndəsi Kazım deyirdi:

*"Ermənistan üzərinə hücum bizim istəyimizin əksinə olaraq daşnakların günahı səbəbindən oldu. Biz Ermənistanın vəhşiliyini dayandırmaq və sərhədləri Rusiyanın təklif etdiyi kimi, xalq səsverməsi yolu ilə müəyyənləşdirməyi təklif etdik. Lakin Ermənistan türklərə məxsus əraziləri tutmaq istədi. Biz Ermənistanı məhv etmək fikrindən çox uzağıq.*

*Biz müstəqil, demokratik Ermənistan görmək istəyirik. Ermənilər özləri də təsdiq edə bilərlər ki, bizim tutduğumuz vilayətlərdə heç bir qəddarlıq olmamışdır"* [84].

### *Türkiyənin sülh təkliflərinə münasibət*

Qan tökülməsini istəməyən Türkiyə tərəfi Ermənistana sülh şərtlərini təklif etdi. Lakin Ermənistan hökuməti noyabrın 13-də bəyanat verərək sona qədər döyüşəcəyini bildirdi[85]. Ona görə də türklər hücumlarını davam etdirməyə məcbur oldular. Ermənistan ordusu darmadağın edildi. Bundan narahat olan bolşeviklərin fikrincə, Ermənistanı məğlub etdikdən sonra Türkiyə bu ölkədə qalardısa, onda Azərbaycan ilə ümumi sərhəd qazanar və Bakını bolşevik Rusiyasına qarşı qoya bilərdi. Bununla əlaqədar olaraq 1920-ci il noyabrın 16-da İ.V.Stalin Vladiqafqazdan V.İ.Leninə göndərdiyi şifrəli teleqramda yazırdı:

*"Təhlükə Bakını üç tərəfdən təhdid edə bilər. Birinci təhlükə cənubdan İngiltərə tərəfdəndir. Əgər Ənzəli və Rəşt şah hökumətinə verilsə, indi İranda yeganə real hakimiyyət İngiltərədədir. Belə vəziyyətdə İngiltərə Xəzər dənizinə bir neçə sualtı qayıq buraxa, bizim su nəqliyyatımızı poza bilər. Əgər o, qoşunlarını bir qədər də şimala doğru gətirərsə, onda Bakının müdafiəsi üçün xeyli qüvvə lazım olacaqdır. Belə təhlükəni aradan qaldırmaq üçün ingilislər İrandan çıxana qədər Ənzəli və Rəştdə müvəqqəti olaraq qalmaq barədə şərt qoymaq lazımdır.* ***İkinci təhlükə Türkiyə***

---

[83] Резолюция конференции социал-демократической партии Гнчак. 11.11.1920. – РГАСПИ, ф.544, оп.3, д.113,л.115.
[84] Что делается в Анатолии. – Газ. "Бакинский рабочий", 22.11.1920, №13 (100).
[85] Телеграмма зав. бюро печати Ерофеева на имя Чичерина. 15.11.1920. – ARDA, f.28, siy.1, iş 38, v.88-89.

***tərəfdəndir. Əgər Türkiyə Ermənistanda qalarsa, onda Azərbaycan ilə ümumi sərhəd qazanar. Bu təhlükəni aradan qaldırmaq üçün indiki şəraitdən istifadə edərək Ermənistanı sovetləşdirmək, erməni sovet pazı ilə Türkiyə və Azərbaycanın arasına vurmaq lazımdır. Üçüncü təhlükə Gürcüstan tərəfdəndir, yəni Antanta tərəfdəndir. Məsələ ondan ibarətdir ki, Tiflis ilə Yelizavetpol arasında ərazi qərbdən olan hücumların qorunması üçün münasib deyildir. Elə ilk hücum zamanı düşmən Yelizavetpolda ola bilər. Burada o, heç şübhəsiz, burjua Azərbaycan hökuməti qurar, bununla da bizim Azərbaycandakı qoşunlarımızın arxasında qərar tutar*** (seçmə bizimdir – M.Q.). *Burjua Gürcüstanı mövcud olduqca bu təhlükə bütün təhlükələrdən daha ciddi təhlükə olacaqdır. Ona görə də biz Gürcüstana qarşı daim ciddi qüvvələr saxlamalı olacağıq. Bu təhlükəni aradan qaldırmaq üçün indi Gürcüstanı sovetləşdirmək və öz qoşunlarımızı Tiflisə doğru hərəkət etdirmək lazımdır. Gürcüstanın sovetləşdirilməsi Şimali Qafqaz əksinqilabçılarının arxa cəhbəsini əllərindən alar və Şimali Qafqaz donmuş olar"* [86].

Həmin teleqramdan bir neçə gün sonra, noyabrın 20-də B.Leqran və P.Mdivani İrəvana gəldilər. Bu zaman artıq Aleksandropolda ermənilər və türklər arasında danışıqlar gedirdi. Tərksilah olan ermənilər silahlarını türklərə vermişdilər. Sülhün son şərtləri isə hələ məlum deyildi. Daşnaklar ermənilər arasında belə bir təbliğat aparırdılar ki, guya Ermənistana qarşı müharibəni Türkiyə və Rusiya birlikdə aparır[87].

Həmin gün İ.V.Stalinə göndərdiyi teleqramında P.Mdivani Ermənistanın vəziyyətinin acınacaqlı olduğunu bildirdi. Onun məlumatına görə erməni ordusu dağılmış və fəlakətli vəziyyət yaranmışdı. Türklər istəsəydilər bütün Ermənistanı qısa bir müddətdə tuta bilərdilər. Belə bir şəraitdə Ermənistanı *"xilas etmək"* lazım idi.

İ.V.Stalin noyabrın 20-də V.İ.Lenin ilə telefon danışığında İrəvandan P.Mdivaninin göndərdiyi teleqrama əsaslanaraq dedi:

*"1.Erməni ordusu artıq dağılmışdır. Türklər istəsələr bütün Ermənistanı tuta bilərlər. Kazım bəy özünü şübhəli aparır. Mdivaninin fikrincə, bu ərazilərin tutulması Türkiyə ilə Gürcüstan arasında gizli razılaşma, ola bilsin, Antanta ilə razılaşma əsasında həyata keçirilir; 2.Q.K.Orconikidzenin fikrincə, türklər Azərbaycandakı narazı elementlərlə əlaqə qurmağa çalışırlar; 3.Türklərin mövqeyi vasitəçilik məsələsində yayındırıcıdır; 4. Q.K.Orconikidzenin məlumatına görə Rəştdə və Ənzəlidə bir neçə*

---

[86] Шифротелеграмма Сталина Ленину.16.11.1920. – РГАСПИ, ф.558, оп.2, д.10, л.1-2.

[87] Телеграмма завбюро печати Ерофеева на имя Чичерина. 23.11.1920. – ARDA, f.28 s., siy.1, iş 38, v.98.

*min nəfər ingilis əsgəri vardır. Onlar ingilislərin İranda möhkəmlənməsi üçün iş aparırlar; 5.* ***Q.K.Orconikidzenin fikrincə, biz Cənubi Qafqazda Antantanın təşkil etdiyi böyük müharibənin astanasındayıq. Gürcüstanın köməyi ilə, ola bilsin, yaxşı halda Türkiyəni bitərəf etməklə, pis halda isə bolşevik Azərbaycanını bizə qarşı müharibəyə qoşmaqla; 6. Q.K.Orconikidze praktik addım kimi Türkiyə ilə Azərbaycan arasında paz vurmağı, zolaq yaratmağı təklif edir*** (seçmə bizimdir – M.Q.). *Lakin indiki şəraitdə bu təklif risklidir. Çünki Rusiya ilə İrəvan arasında həm əhali, həm də ordu üçün birbaşa dəmiryolu yoxdur. Ağstafa – Dilican avtomobil yolu isə kifayət etmir. 200 min pud çörəyi bu yol ilə daşımaq mümkün olmaz. Gürcüstan da öz ərazisindən sovet nəqliyyatının keçməsinə imkan verməz".*

Ona görə də İ.V.Stalin Ermənistana qarşı əməliyyatı yeni qüvvələr gələnə qədər təxirə salmağı təklif edir, hərbi hissələrin gətirilməsinin yubadılmasını biabırçı adlandırırdı. *"Türklər tərəfindən Azərbaycan üçün təhlükənin gündən-günə artdığı"* qənaətində olan İ.V.Stalin deyirdi:

*"Bizim başqa yolumuz yoxdur."*

İ.V.Stalin Q.K.Orconikidzenin müəyyənləşdirdiyi əməliyyatı təxirə salmağı təklif edir, eyni zamanda qeyd edirdi ki, təcili əməliyyatın keçirilməsi riskli olsa da, bizə xeyir verə bilər. İ.V.Stalin V.İ.Lenindən cavab istəyirdi. V.İ.Lenin isə bildirirdi ki, Siyasi Büro toplanmadan o, heç bir cavab verə bilməz. O, İ.V.Stalinə Siyasi Büroya ya konkret təklif verməyi, ya ona verilmiş səlahiyyət çərçivəsində müstəqil hərəkət etməyi, ya da bütün Qafqaz məsələlərini həll etmək üçün təcili olaraq Moskvaya gəlməyi tövsiyə etdi. Müstəqil hərəkət etməkdən vaz keçərək Moskvaya getməyə qərar verən İ.V.Stalin Q.K.Orconikidzeyə hazırlıq işlərini aparmağı və təlimat gözləməyi tapşırdı[88].

Q.K.Orconikidze türklərin Aleksandropoldan çıxmasını tələb etdi. Kazım Qarabəkir Paşa ona göndərdiyi 20 noyabr tarixli teleqramında Aleksandropoldan çıxmağa razı olduqlarını, Karsı isə heç bir zaman boşaltmayacaqlarını bildirərək, Naxçıvana dair birmənalı olaraq vurğuladı:

*"Naxçıvan ya Türkiyədə, ya da Azərbaycanda qalmalıdır"* [89].

Türkiyə əvvəllər olduğu kimi, Ermənistanın əsassız ərazi iddialarından imtina etməsini, müsəlmanları qırmağı dayandırmasını və müstəqil bir dövlət kimi qalmasını istəyirdi. Bununla əlaqədar olaraq TBMM hökumətinin Tiflisdəki nümayəndəsi Kazım bildirirdi:

---

[88] Разговор Ленина и Сталина по прямому проводу о позициях Грузии и Турции. 20.11.1920. – РГАСПИ, ф.2, оп.1, д.16244, л.1-5.

[89] Телеграмма Кязима Карабекира на имя Г.К.Орджоникидзе. 20.11. 1920. – РГАСПИ, ф.85, оп. с/Турция, д.23, л.1-2.

*"Müharibə daşnakların siyasəti nəticəsində meydana gəldi. Ermənistan Ərzurum, Van, Bitlis və Trapezundu tutmaq üçün müharibəyə başladı. Biz istəyirik ki, Ermənistan müsəlmanların qanını tökməyi dayandırsın. Türkiyə bütün millətlərin öz milli ərazilərində müstəqil yaşamasına tərəfdardır"* [90].

Erməni Xalq Partiyası Mərkəzi Komitəsinin sədri S.Q.Arutunyanı noyabrın 20-də onun xahişi ilə qəbul edən Kazım söhbət zamanı dedi ki, Ermənistan Türkiyə ilə müharibə şəraitində olduğundan rəsmi bir şəxslə görüşə bilməz. Ona görə də S.Q.Arutunyanı partiya nümayəndəsi kimi qəbul edir. Daşnak Ermənistanının təcavüzkar siyasətinin üstündən sükutla keçən S.Q.Arutunyan aşağıdakı suallara cavab verməyi Kazımdan xahiş etdi:

*"1.Beynəlxalq qaydalara uyğun olmadan hansı amillər Anadolu hökumətini Ermənistana ordu yeritməyə və müharibəyə başlamağa vadar etdi? 2.Türk hökuməti müharibəyə tezliklə son qoymaq və sülh bağlamaq istəyirmi? 3.Anadolu hökuməti müstəqil və birləşmiş Ermənistanın* (Türkiyənin şərq vilayətlərinin Daşnak Ermənistanı ilə birləşdirilməsini nəzərdə tuturdu – M.Q.) *mövcudluğunu, hansı ərazilərin bu ölkənin olduğunu qəbul edir?"*

Suallara cavab verərkən ermənilərlə türklər arasında münasibətlərin xarakterinə diqqəti çəkən Kazım bildirdi ki, türk və erməni xalqları arasında düşmənçilik süni surətdə yaradılmışdır. Keçmiş zamanlarda türklərlə ermənilər arasında düşmənçilik olmamışdır. Hər iki xalq daim sülh şəraitində yaşamışdır. Türk Məkkəyə həccə gedərkən öz uşaqlarını qonşusu olan erməniyə verərdi. Amerikaya və ya digər bir ölkəyə səfər edən erməni isə uşaqlarını və evini-malını qonşusu olan türkə – Əhmədə, Mehmetə tapşırardı. Qədim zamanlarda türklər və ermənilər belə yaşamışlar. Lakin 25-30 il bundan əvvəl "Böyük Ermənistan" qurmaq haqqında məsələ meydana gəldikdən və daşnaklar fəaliyyətə başladıqdan sonra türklərlə ermənilər arasında düşmənçilik yarandı. İndiki Ermənistan hökuməti bu düşmənçiliyi daha da qızışdırdı, ərazisində yaşayan müsəlmanlara qarşı son illərdə təqiblərə və qırğınlara başladı. Yüz minlərlə türk Ermənistanda ölümdən xilas olmaq ümidi ilə Anadoluya qaçdı. Bu isə türk xalqını hiddətləndirdi. Bu, Kamal ordusunun Ermənistana hücum etməsinin birinci səbəbidir.

Kazımın fikrincə, Ermənistan ilə müharibənin başlanmasının ikinci səbəbi Ermənistanın Antanta əlində Türkiyəyə qarşı vasitə olması idi. Türkiyə hökuməti indiyədək Ermənistan ilə bütün bu məsələləri Antantanın iştirakı olmadan həll etmək üçün səylər etsə də, nəticəsi olmamışdı. Kazıma görə hələ də gec deyildi. Əgər Ermənistan hökuməti müsəlmanların təqibini dayandırardısa, Antantasız, üçüncü tərəfin iştirakı olmadan danışıq-

---

[90] Телеграмма завбюро печати Ерофеева на имя Чичерина. 24.11.1920. – ARDA, f.28 s., siy.1, iş 38, v.104.

lara başlayardısa, onda əlverişli nəticə alardı. Bu, hər iki xalqın maraqlarına uyğun olardı.

Türk hökuməti Ermənistanın müstəqilliyini tanımışdı. Müstəqil Ermənistanın sərhədi olmalı idi. Lakin bu məsələnin müzakirəsində həm Kazım, həm də S.Q.Arutunyan səlahiyyətli şəxslər deyildilər. Sərhəd məsələləri türk – erməni konfransında müəyyənləşdirilməli idi. Türkiyə əgər Aleksandropola qədər Ermənistan ərazisinə yiyələnmişdisə, bu, Türkiyənin həmin ərazilərə iddia etməsi demək deyildi. Türk hökuməti qonşu xalqı alçaltmaq və zorakılıq etmək istəmirdi.

S.Q.Arutunyan utanmazcasına bildirdi ki, türklərin Ermənistanda təqib edilməsi haqqında danışarkən faktlara əsaslanmalı, Anadoluda yayılan şayiələrə fikir verilməməlidir. O, həmin məsələyə aydınlıq gətirmək üçün Zəngibasar hadisəsinə diqqəti cəlb etdi. Bildirdi ki, İrəvanın 6 verstliyində yerləşən bu dairədə yaşayan müsəlman əhalisi Ermənistan hökumətini tanımaqdan imtina etdi, erməni rəsmi şəxslərini qəbul etmədi. Yalnız burada müsəlmanları hakimiyyətə tabe etdirmək üçün silaha əl atıldı. Təkcə bir kənd hökumətə tabe oldu. Digər kəndlərin əhalisi isə Ermənistan ərazisini tərk edərək Anadoluya köçdü. Bu zaman həqiqətən insanlar ölmüş və maddi zərər dəymişdir. Daşnak hökumətini törətdiyi cinayətkar əməllərdən təmizə çıxarmağa çalışan S.Q.Arutunyan riyakarlıqla dedi:

*"Məgər bunun üçün hakimiyyəti təqsirkar hesab etmək olarmı?"*.

Ermənistanın ərazisi haqqında məsələyə toxunan S.Q.Arutunyan bildirdi ki, bu, dövlətlər arasında bölüşdürülə bilməyən almadır. Yenə də Türkiyənin şərq vilayətlərini nəzərdə tutaraq dedi ki, əgər Türkiyə hökuməti Ermənistanın müstəqilliyini tanıyırsa, onda o, Ermənistanın tarixi və milli ərazisinə sahib olması fikri ilə razılaşmalıdır. Bunun üçün onun əhalisi yaşamaq imkanı əldə etməlidir.

Kazım bildirdi ki, əgər Ermənistan tarixi türk torpaqlarına iddia edəcəksə, Türkiyə bununla razılaşmayacaq və bir qarış da torpaq verməyəcəkdir. Kazımın fikrincə, İrəvan hökuməti siyasətini dəyişdikdən, müsəlmanların təqibini dayandırdıqdan və türk hökuməti ilə birbaşa danışıqlara başladıqdan sonra düşmənçilik dayandırıla bilərdi. O, erməni əsirləri ilə xoş davranıldığını da S.Q.Arutunyanın diqqətinə çatdırdı[91]. Əlavə etdi ki, əgər erməni hökuməti siyasətini dəyişmək istəyirsə, onda müsəlman əhalini təqib etməkdən imtina etməli, Antantanın və üçüncü ölkənin müdaxiləsi olmadan danışıqlara başlamalıdır. Yalnız o zaman müsbət nəticə ala bilər[92].

---

[91] Информбюро Турции. №3. 15.12.1920. – РГАСПИ, ф.544, оп.3, д.113, л.112.

[92] Телеграмма завбюропечати Ерофеева на имя Чичерина. 28.11.1920. – ARDA, f.28 s., siy.1, iş 38, v.109.

Artıq qeyd edildiyi kimi, bu zaman Ermənistan darmadağın edilmişdi. Bir-birinin ardınca qələbələr qazanan türk ordusu qərbdə də ölkənin işğal olunmuş ərazilərini azad edirdi. Əvvəllər törətdikləri qanlı cinayətlərə görə cavab verəcəklərindən qorxan ermənilər türk ordusu gələnə qədər həmin yerlərdən köçüb gedirdilər. Belə bir şəraitdə Qərb ölkələri bu amildən istifadə edərək yenidən "erməni məsələsi"ni qızışdırıb, Türkiyəyə təzyiqlər etməyə başlamışdılar. Lakin türklər heç kimə boyun əymirdilər. Artıq ermənilərin əsassız iddialarını yerinə yetirmək mümkün deyildi. Antanta ölkələri onları müdafiə etməkdə aciz idilər. Belə ölkələrdən biri Amerika Birləşmiş Ştatları idi.

### *ABŞ hökuməti erməniləri müdafiə etməyin yanlış olduğunu anlayır. İstanbuldakı ali komissar Mark Lambert Bristol: "Ermənilər haqqında həqiqətləri nə üçün deməyək? "Erməni məsələsi"haqqında həqiqəti demək lazımdır..."*

Ermənilərin ümid bəslədikləri ABŞ Prezidenti Vudro Vilson da ölkəsinin onlara münasibətdə yürütdüyü siyasətin yanlış olduğu qənaətinə gəlmişdi. Erməni istəklərinin təmin edilməsi qarşısında aciz qalan Vudro Vilson müttəfiq qüvvələrinin Ali Şurasına 1920-ci il noyabrın 22-də yazdığı məktubunda birmənalı olaraq vurğulayırdı:

*"Üzərimə düşən məsuliyyəti dərk edərək, erməni xalqının maraqlarını nəzərə alaraq, onların maraqları çərçivəsində fəaliyyət göstərməyin nə dərəcədə çətin olduğunu anladım"* [93].

Regionda çalışan bir çox amerikan nümayəndələri də ermənilərin yalan məlumatlarına inanmağın ziyanlı olduğunu yazırdılar. Belə şəxslərdən biri ABŞ-ın Türkiyədəki ilk səfiri, hərbi-dəniz donanmasının kontr-admiralı, müttəfiqlərin ali komissarı Mark Lambert Bristol idi. O, aldığı təlimata uyğun olaraq ermənilərin vəziyyətini öyrənmək üçün Misir, Fələstin, Suriya və Kilikiyaya bir aydan çox davam edən səfərə çıxmış, görkəmli misirli xadimlərlə və yəhudilərin nümayəndələri ilə görüşmüşdü. Səfərinin yekunlarına dair sonralar, 1921-ci il martın 28-də ABŞ senatının xarici nümayəndəliklər üçün xüsusi səlahiyyətli şurasına, doktor Ceyms L.Bartona bir məktub göndərdi. Bu məktub erməni iddiaları və "erməni məsələsi" haqqında həqiqətləri bilmək üçün mühüm mənbədir.

Çukurobadan ermənilərin Fransa tərəfindən çıxarılması xəbərini doğru hesab etməyən M.L.Bristol yazırdı ki, ermənilərin ciddi səhvlərindən biri türklər hakimiyyətə gəldikdən sonra onların hay-küyə düşmələri və Çukurobadan kütləvi şəkildə getmələridir. Onun fikrincə, ermənilər

---

[93] Papers Relating to the Foreign Relations of the United States.1920. Vol. III, p.791.

üçün orada qalmaq yaxşı olar və türklər onlara həqiqi haqlarını verməyə məcbur olardılar. Ermənilərdən Qərb ölkələrinin istifadə etdiyini etiraf edən səfir yazırdı ki, ermənilər qalsaydılar, türklərə təsir etmək olardı, ermənilər getməyə başladıqda isə bu türkləri təkcə qorxudan deyil, həmçinin ölkədən sürgün etmək istəyindən onlara hücuma vadar edərdi. Lakin əgər ermənilər Çukurobada yaşamağa davam etsəydilər, Avropa və Amerika türklərə ən kiçicik mənəvi təsir etsəydi, türklərə qarşı ötən illərdə fəal çıxış etməyən ermənilər üçün yaxşı olardı.

Qafqazda türklər tərəfindən minlərlə erməninin öldürülməsinə dair yalan məlumatların ABŞ-da yayılmasına da münasibət bildirən Mark L.Bristol yazırdı ki, ermənilər qanın töküldüyünü söyləyirlər, lakin Yaxın Şərqə Yardım Təşkilatı və Amerikadakı şəxslər ermənilər haqqında məlumatların tamamilə yalan olduğunu deyirlər. Bu qədər saxta məlumatların təkzib edilmədən ABŞ-da yayılmasının qanunun kobud şəkildə pozulması olduğunu qeyd edən səfir vurğulayırdı ki, bu, ermənilərin özlərinə faydadan çox ziyan gətirir. Onun fikrincə, amerikalılar erməniləri bütün bunlardan əl çəkməyə sövq etməli idilər, yalnız ona görə yox ki, bunlar doğru deyildi, həm də ona görə ki, bununla onlar özlərini yaralayırdılar.

Səfir İstanbuldan ABŞ nümayəndəsi doktor Makkeynin göndərdiyi məlumatlardan heyrətləndiyini yazırdı. Çünki o, Makkeynin göndərdiyi məruzənin ermənilər tərəfindən göndərilən məlumatlardan ibarət olduğunun şahidi olmuşdu. Lakin Makkeynin Vaşinqtona göndərdiyi teleqramda məruzənin ermənilərə məxsus olduğu qeyd edilməmiş, ermənilərə aid olan məlumatlar amerikan məlumatı kimi verilmişdi. Həm ermənilərin, həm də amerikalıların şişirdilmiş məlumatlar verməklə ermənilər üçün ən pis iş gördüklərini qeyd edən səfir sual edirdi: bütün münasibətlərdə ermənilər haqqında həqiqəti nə üçün deməyək? Gəlin qalxaq və sadəcə deyək: ermənilər kimdir və nə üçün onlara rəğbət bəsləyirik və nəyə görə onlar üçün bütün mümkün olanları edirik, bu, həmin insanların gələcəyinə yaraşır. Səfir yazırdı ki, mən inanıram, bizdə insanların çoxu inanır, ermənilər öz fəaliyyətlərində və düşüncələrində xristianlardır və özlərini idarə etməyə qadirdirlər. Lakin *"ədalətə cinayət yolu ilə nail olmağa inana bilmədiyini"* vurğulayan səfirin fikrincə, amerikalılar ermənilərin yaydıqları bu saxta məlumatları rədd etmədikcə və qalxıb "erməni məsələsi" haqqında həqiqətləri demədikcə, onlar da bu saxta məlumatların yayılmasında iştirakçı olurdular. Tənqidçi olmaq istəmədiyini yazan səfir qeyd edirdi ki, biz də canlı adamlarıq, ermənilərin əzablarından danışarkən insani instinktlərimiz bizdə amerikan ideyası olan "ədalətli oyun" ideyasını gücləndirir və biz erməni xalqının zəifliyini unuduruq, hətta onu gizlətməyə çalışırıq, təki onları türk zülmündən xilas edək.

Ermənistana istiqrazlar ayrılmasının əleyhinə olan ABŞ səfiri mövcud şəraitdə ermənilərə hər hansı bir kreditin verilməsini səhv hesab edirdi. Onun fikrincə, əgər ABŞ müstəqil vahid kimi Ermənistanın yaradılması və onun xarici təcavüzdən qorunması üçün dəstək və vəsait verməsəydi, amerikan nəzarəti altında Ermənistana hər hansı maddi yardıma inanmırdı. ABŞ-ın artıq Ermənistana 50 milyondan yuxarı vəsait verdiyini və həmin pulların ortada olmadığını yazan səfir buna görə də yeni vəsaitin ayrılmasının əleyhinə çıxaraq vurğulayırdı ki, daha bir ssuda küləyə atılmış vəsait olacaqdır.

Erməni partiyaları arasında tamamilə düzgün olaraq fərq görməyən, onların riyakar olduqlarını, silahlı dəstələrin kürd, türk və azərbaycanlılara qarşı zorakılıq etdiyini təsdiqləyən səfir vurğulayırdı:

*"Mən yazmışdım ki, Ermənistan bolşevikləşdiriləcəkdir, bu yalnız zaman söhbətidir. Ermənistan bolşevik oldu, Rusiyanın təbliğatına baxmayaraq, onu heç kim buna məcbur etmirdi. Ermənistan bolşevik liderləri bir, daşnaklar digər, milli demokratlar isə tamam başqa bir partiyanın üzvləridirlər. Mənə qaldıqda, bu müxtəlif partiyaların liderləri arasında heç bir ciddi fərq görmürəm. Daşnaklar hakimiyyətdə olarkən onlar kürdlər, türklər və azərbaycanlıların üzərinə hücum etmək üçün dünyada nə varsa onu etdilər; müsəlmanlar üzərində zorakılıq etdilər; Qafqaz Ermənistanı əhalisinin xeyli hissəsini təşkil edən molokanlara nümayəndəlik üçün heç bir şərait yaratmadılar; müsəlmanları öldürdülər və onların evlərini dağıtdılar; nəhayət, türklərin üzərinə hücuma keçdilər. Bu da sonuncular tərəfindən cavab hərəkətlərinə gətirdi. Və o zaman ermənilər hər şeyi atdılar və qaçdılar, hətta öz arvadlarını və uşaqlarını qorumaq üçün dayanmadılar"* [94].

Ermənilərin Karsda törətdikləri qırğınlara da diqqəti cəlb edən səfir yazırdı ki, onların hərəkətləri amerikalılarda tamamilə nifrət yaratdı, son iki il ərzində Qafqazda ermənilər özlərini, xüsusən hakimiyyəti altında olan milli azlıqları idarə edə bilmədiklərini və onlarla keçinmədiklərini qəti şəkildə göstərdilər. İstanbulda olduğu iki il müddətində Qafqazda olmuş çoxlu amerikalı ilə görüşdüyünü yazan səfir, ermənilərin özlərini idarə etməyə qadir olduqlarını təsdiq edən bir nəfəri belə, tapmadığını vurğulayırdı. Ermənilərlə işləyən amerikalıların çoxu onlara nifrət edərək, iyrənərək oradan gəlmişdilər. Ermənilərə nifrət etmədiyini yazan səfir, əhalisinin 25%-dən azının ermənilər olduğu "Ermənistanda" (Türkiyənin şərq vilayətləri nəzərdə tutulur – M.Q.)  müstəqil dövlət yaradılması ideyasına inanmadığını vurğulayaraq, tamamilə düzgün olaraq əlavə edirdi ki, ermə-

[94] Письмо первого посла США в Турции Марк Л.Бристола доктору Джеймсу Л.Бартону.28.03.1921. – "Армянский геноцид":миф и реальность,с.241-251.

nilər özlərini idarə edə bilmirlər və onların heç bir zaman digər xalqları da idarə etməsinə yol verməmək olmaz. Səfirin fikrincə, hər hansı bir xalq əgər ermənilərin hakimiyyəti altında olacaqsa, şübhəsiz, onda erməni zülmünə və zorakılığına məruz qalacaqdır. O zamanadək ABŞ-ın bu məsələyə münasibətdə yürütdüyü siyasəti doğru hesab etməyən səfir Ermənistan üzərində Amerika mandatı qurulmayınca maddi yardımın ayrılmasını pulların itirilməsi sayaraq belə bir misal gətirir və sual edirdi:

*"İki il ərzində biz işsiz ermənilər üçün ictimai işlərə pul ayırdıq və un almaq üçün 50 milyon dollar verdik. Bu nəhəng vəsaitdən nə çıxdı?"*

Sualına özü də belə cavab verirdi:

"*Nankorluqdan başqa heç nə. Mürəkkəb şərait yaranan kimi, Ermənistanda olan və ən fəal yardım etdiyimiz ən böyük dostlardan biri şəxsi mühafizəsi üçün Türkiyəyə müraciət etməyə məcbur oldu".*

Səfir yazırdı ki, belə bir fakt yaxşı məlumdur, ermənilərə yardım haqqında proqramın lap başlanğıcından aclıq çəkənlərə yardım üçün erməni hökumətinə verdiyimiz un və ərzaq yüksək rəsmi adamlar tərəfindən mənimsənildi və şəxsi rifahları üçün satıldı, bolşeviklər tərəfinə keçdikdə isə Ermənistan borclarını ödəməkdən imtina etdi. Bu borclardan birini amerikalılar ermənilərə söz verdikləri üçün unun dəyərində vermişdi, lakin səfirin düzgün olaraq yazdığı kimi, ermənilərdə heç bir öhdəlik yox idi, xalqa inam əsasında verilən istiqraz sonda amerikalıların özünə qarşı yönəlmişdi.

Doktor Ceyms L.Bartonun Avropa dövlətlərinə ondan çox inandığını yazan səfir vurğulayırdı ki, indiyədək Avropa ölkələri dünyanın bu hissəsində heç bir milləti qorumamış, yalnız öz maraqlarını güdmüşlər. Əgər ABŞ Ermənistanın sərhədlərini qorumaq üçün təminata girsə, onda bu, ABŞ-ın Avropanın qalmaqallı işlərinə qarışması üçün ən yaxşı üsul olar. Səfir bildirirdi ki, Sevr müqaviləsi heç kim tərəfindən təsdiq edilmədiyi üçün müstəqil siyasi vahid kimi Ermənistan da mövcud olmamışdır. Məlum olduğu kimi, Ermənistanın sərhədləri həmin müqavilənin təsdiqindən asılı idi. Lakin Sevr müqaviləsi həyata keçmədi. Tarixi gerçəkliyə uyğun gəlməyən həmin sərhədlərin müəyyənləşdirilməsi cəhdləri türk millətçilərinin Ermənistan üzərinə hücumuna gətirdi. Ermənistanın yenə də ən xoş xəyallardan əziyyət çəkdiyini yazan səfir vurğulayırdı:

*"Siz görəcəksiniz, sonda Avropa dövlətləri ermənilər üçün heç bir şey etməyəcəklər"* [95].

Səfirin fikrincə, ABŞ tərəfi Avropa dövlətləri ilə sövdələşməyə getməməli, Yaxın Şərqin bütün xalqlarının xeyrinə olan siyasi xətt ilə çıxış etməli idi. Bunun hələ gec olmadığına inanan səfir daha sonra qeyd edirdi ki,

---

[95] Yenə orada.

əgər biz bu siyasəti iki il əvvəl qəbul edib həyata keçirtsəydik, onda çox şeyə nail olardıq. M.L.Bristola görə çirkab quyusu olan Yaxın Şərq azad edilməli və təmizlənməli idi. *"Bu ərazinin müəyyən bir hissəsində Ermənistanın yaradılması və yunanların məskunlaşdırılması ideyası Yeni Türkiyənin yaradılması ilə bir çirkab quyusunun əvəzində üç yeni çirkab quyusunun qurulması demək olardı"* yazan səfir, Yaxın Şərqə dair baş xətti qəbul edərək, ona uyğun fəaliyyət göstərməyi aşağıdakı kimi tövsiyə edirdi:

*"Əgər ABŞ Osmanlı imeriyasının hər hansı bir hissəsində Ermənistanın müstəqilliyi üçün öz üzərinə məsuliyyət götürərsə, onda biz hərəkətlərimizə heç bir zaman bəraət qazandıra bilmərik. Çünki belə prosedura qanuna və ədalətə əsaslanmır"* [96].

İngiltərənin Baş Naziri Lloyd Corcun söylədiyi *"Mustafa Kamal qiyam qaldırıb və qiyamçıdır"* fikri ilə razılaşmayan səfir qeyd edirdi ki, ola bilsin, o, ciddi və məhdud mənada qiyamçıdır, lakin məhz müttəfiqlərin fəaliyyəti türkləri qiyama qaldırdı. M.L.Bristol vurğulayırdı:

*"Mən türklərin hərəkətlərinə bəraət qazandırmıram, lakin əgər siz türkləri öyrənərək onları öz nəzarətinizdə saxlamaq istəyirsinizsə, onda onları hiddətləndirməyin, qəzəbləndirməyin, səhnədəki vəhşi buğa kimi qızdırmayın"* [97].

6 may tarixli cavab məktubunda M.L.Bristol ilə razılaşan Ceyms L.Barton Beyrut Universitetinin rektorunun da səfirin düşüncələri ilə həmfikir olduğunu vurğulayırdı. O, ermənilərin guya türklər tərəfindən kütləvi şəkildə qırılması barədə yayılan yalan xəbərlərə ən çox etiraz edən şəxslərdən biri idi. C.Barton Yel Universitetinin məzunu olan Kardaşyan adlı bir erməni gəncin komitə yaratdığını, ona Harold adlı birisini sədr təyin etdiyini və onların da yalan xəbərlər yaydığını qeyd edirdi. Komitənin yaydığı bütün məlumatlar ermənilərin özlərinin tərtib etdikləri idi. C.Barton tarixi keçmişi və mövcud şəraiti dəqiq ifadə edərək yazırdı:

*"Ermənilər xüsusi xalqdır, harada olurlarsa, kimlərlə ünsiyyət qururlarsa, heç yerdə onları sevmirlər. Ermənilərə hakimiyyət vermək olmaz. Biz kiminlə işləyiriksə, nə qədər etsək də, ən çox narazı qalan ermənilərdir. Deyirlər ki, onlar üçün nəzərdə tutulan pulları başqalarına veririk"* [98].

ABŞ səfirinin yazdıqları tarixi gerçəklikləri və mövcud vəziyyəti olduğu kimi əks etdirirdi. Dorğurdan da ermənilər daim nifaq yaradan və digər xalqlara rahat yaşamağa imkan verməyən bir ünsür idi.

---

[96] Yenə orada.
[97] Yenə orada.
[98] Письмо Американского совета специальных уполномоченных для иностранных миссии. Джемс А.Бартон адмиралу Марку Л.Бристолу. Верховному комиссару США. 06.05.1921. – "Армянский геноцид": миф и реальность, с. 251-255.

### *Ermənilərin narahatlığı və sovet xadimlərinin baxışları*

Bu zaman Cənubi Qafqazda mürəkkəb proseslər cərəyan edirdi. Belə bir şəraitdə Ermənistan ya tamamilə türklər tərəfindən tutulmalı, ya da daşnaklar sülhü imzalamalı idilər. 1920-ci il noyabrın 23 və 25-də verilən məlumatlara görə ermənilər türklərin tələb etdikləri sülh şərtlərini artıq qəbul etmişdilər. Mənbələrdə yazıldığı kimi, ərazilərini azad edən türklər erməni silahlı dəstələrinin törətdikləri qanlı əməlləri bağışlayaraq, Ardahan və Aleksandropolda ermənilərə mötədil münasibət bəslədilər[99].

Bu zaman Millətlər Cəmiyyəti erməni – türk mübahisəsini həll etməkdə aciz idi. Sovet mətbuat bürosunun rəhbəri Yerofeev noyabrın 25-də G.Çiçerinə göndərdiyi teleqramında yazırdı ki, Lion radiosu Millətlər Cəmiyyətinin erməni – türk mübahisəsini həll etməkdə aciz olduğunu vurğulamışdır. Radio Ermənistan ilə Türkiyə arasında vasitəçinin Antanta, yoxsa Rusiya olacağının yaxın zamanlarda məlum olacağını bildirmişdi[100].

Yerofeev həmin gün G.Çiçerinə göndərdiyi digər bir teleqramında yazırdı:

*"Rusiya həqiqətən indi Ermənistanı ağır vəziyyətdən çıxartmaqda olan bir gücdür. Rus ordusu Ermənistanı onun ölümünə bərabər olan sovetləşdirməlidir"* [101].

Türkiyə və Ermənistan arasında sülh danışıqlarında Rusiya tərəfi vasitəçi olmaq istəyindən əl çəkmirdi. Türklərin əsl niyyətlərini üzə çıxartmaq üçün Türkiyə ilə danışıqlara Rusiya şərtləri əsasında başlamağa dair fikirlərini Q.K.Orconikidze 27 noyabr tarixdə İ.Stalinə və G.Çiçerinə göndərdiyi teleqramında aşağıdakı kimi əsaslandırırdı: 1.Sovet Ermənistanının sərhədləri Rusiya ilə danışıqlara əsasən müəyyənləşdirilsin; 2.Gürcüstana hücumun vaxtı müəyyənləşdirilsin. 3.Antantaya qarşı fəal hücumun başlanması. Onun fikrincə, yalnız bu şərtlərlə Türkiyəyə maliyyə və başqa şeylər verilə bilərdi[102].

---

[99] Вырезка из газеты с сообщениями об армяно – турецких отношениях и начале мирных переговоров между ними. 25.11.1920. – РГАСПИ, ф.495, оп.299, д.4, л.59.

[100] Телеграмма завбюропечати Ерофеева Чичерину. 25.11.1920. – ARDA, f.28 s., siy.1, iş 38, v.102.

[101] Телеграмма завбюропечати Ерофеева Чичерину. 25.11.1920. – ARDA, f.28 s., siy.1, iş 38, v.106.

[102] Телеграмма Г.К.Орджоникидзе И.В.Сталину, Чичерину с предложением начать переговоры с Турцией на предложениях Российских условиях. 27.11.1920. – РГАСПИ, ф.85, оп. с/Турция, д.2, л.1-2.

Ağır şəraitin yarandığını görən daşnak Ermənistanı bolşevik Rusiyasına meyil edərək, millətlərin öz müqəddəratını təyinetmə prinsipinə yenidən istinad etməyə başladı. Bəzi erməni xadimləri türklərin Ermənistanda qırğınlar törədəcəkləri barədə haray-həşir salmışdılar. Məsələn, Berlindəki erməni koloniyası ittifaqı adından daşnaklar N.Movsesyan, A.Qarabedyan 1920-ci il noyabrın 27-də Xalq Komissarları Sovetinin sədri V.İ.Leninə çatdırmaq üçün Ermənistanın Moskvadakı səlahiyyətli nümayəndəsi S.M.Ter-Qabrielyana bir məktub göndərdilər. S.M.Ter-Qabrielyanın V.İ.Leninə təqdim etdiyi həmin məktubda yazılırdı:

*"Gənc türklər bolşevik bayrağı altında gizlənərək panturanizm arzularını həyata keçirtmək üçün Ermənistan üzərinə hücum etmişlər, ürəklərində bütün erməni xalqını məhv etmək istəyirlər. Sovet Rusiyasının türk qatillərə əl uzatmayacağına və mədəni bir milləti məhv etməkdə onlara kömək etməyəcəyinə əmin olaraq, erməni xalqını fəlakətdən qurtarmağı xahiş edirik. Bunu Rusiyanın adına rüsvayçılıq hesab edirik. Sovet Rusiyası türklərin bu vəhşi səylərinin qarşısını almağa və ermənilərin öz müqəddəratını təyinetmə hüququnu müdafiə etməyə qadirdir, erməni xalqının faciəsinin bütün nəticələri üçün məsuliyyət daşıyır"* [103].

Bu məktub bir neçə baxımdan diqqəti cəlb edir. Hər şeydən əvvəl, erməni xadimlərinin əslində mövcud olmayan "panturanizm" ifadəsini işlətməsi əbəs deyildi. Onlar bununla sovetləri qorxudub həm rus – türk münasibətlərini pozmaq, həm də bolşevik Rusiyasının səyləri ilə əsassız torpaq iddialarını təmin etmək istəyirdilər. Tarixi mənbələr sübut edir ki, əvvəlki dövrlərdə də erməni təşkilatları çar Rusiyasını və Avropa ölkələrini əslində olmayan "panislamizm", "pantürkizm" və "turançılıq"la qorxutmuşdular. Bu məqsədlə hətta bir çox daşnakı "panislamçı", "pantürkçü" və "turançı" maskası altında Cənubi Qafqaza təbliğat aparmaq üçün göndərmişdilər. Bununla da çarizm orqanları duyuq düşərək azərbaycanlıları təqib etmiş, beləliklə, daşnaklar öz əsassız iddialarını həyata keçirtməyə mane olan qüvvəni zəiflətməyə çalışmışdılar.

Qeyd etmək lazımdır ki, ermənilərin həmin istəkləri çox vaxt yerinə yetirilirdi. Belə ki, Behbud Şaxtaxtinski ilə keçirtdiyi bir görüşdə Kazım Qarabəkir Paşa bununla bağlı olaraq demişdi:

*"Türklər Azərbaycanda çevrilişə kömək etdilər ki, Rusiya Azərbaycan vasitəsi ilə Türkiyə ilə əlaqə qursun. Türkiyə inqilab naminə Ermənistandan çox həyat qabiliyyəti olan Azərbaycanda müsəlman dövlətini dağıtdı. Rusiya isə Türkiyə və Azərbaycan əraziləri hesabına ermənilər üçün*

---

[103] Письмо Н.Мовсесяна и А.Гарабедяна председателю Совета Народных Комиссаров господину Ленину. Берлин. 27.11. 1920. – РГАСПИ, ф. 2, оп.1, д. 25025, л.1-2.

*"Böyük Ermənistan" qurmağa çalışır... Həmin Ermənistan İran və Gürcüstan ilə birgə Azərbaycana qarşı çıxdı. Nəhayət, Rusiya türklərin Rusiya ilə əlaqə saxladığı kiçik dəhlizi Ermənistana verdi. Bununla da Rusiya özünü böyük bir kütlənin gözündə düşürdü, inam və etibarını itirdi, Azərbaycanda dəhşətlər törətdi. Düşmənlər deyirlər, Rusiyadan kömək gözləmək lazım deyildir, qorxmaq lazımdır"* [104].

Türkiyə tərəfi Zəngəzurun və Naxçıvanın Ermənistana verilməsinə deyil, müstəqil olmasına tərəfdar idi. Türklərin baxışına görə Naxçıvan müstəqil olardısa, Ermənistan ondan çörək ala bilərdi. Naxçıvan Ermənistana veriləcəyi təqdirdə isə türklər Maku xanlığını tuta bilərdilər.

Türklərin bu baxışları bəzi sovet xadimləri tərəfindən anlayışla qarşılanırdı. Məsələn, İ.V.Stalin 1920-ci il noyabrın 28-də Bakıya Q.K.Orconikidzeyə göndərdiyi teleqramında yazırdı:

*"Tələsmək lazım deyildir. Möhkəmlənməyi gözləmək lazımdır. Daşnakların üstündə türklərlə dava etmək lazım deyildir. Lakin türklərə güzəştə getmək də yolverilməzdir. Aleksandropolun Ermənistan üçün olduğuna dair türklərlə danışmaq lazımdır. Kars haqqında məsələni hələlik açıq saxlamaq lazımdır.* ***Görünür, türklər Ermənistanda Antantanın xəbəri olmaqla hərəkət edirlər. Buna görə də onlara inanmaq olmaz. Onları Antantadan ayırmaq lazımdır*** (seçmə bizimdir – M.Q.*). Onları Gürcüstan üzərinə yönəltmək lazımdır"* [105].

Beləliklə, Ermənistanın qonşu ölkələrlə dinc şəraitdə yaşamaq istəməməsi, yad qüvvələrə arxalanaraq niyyətlərini reallaşdırmaq cəhdləri regionda yeni şərait yaratdı və xalqlar arasında düşmənçiliyi dərinləşdirdi. Baş verən bütün qanlı hadisələr üçün məsuliyyət daşnak Ermənistanının üzərinə düşürdü.

---

[104] Письмо Б.Шахтахтинского на имя Г.К.Орджоникидзе. 28.11.1920. – РГАСПИ, ф.85, оп. с./Турция, д.31, л. 1-4

[105] Телеграмма Сталина на имя Орджоникидзе. 28.11.1920. – РГАСПИ, ф.558, оп.2, д.13, л.1.

# II FƏSİL

# SOVET ERMƏNİSTANI DAŞNAK SİYASƏTİNİ DAVAM ETDİRİR

## *Ermənistan sovetləşdirilir: "erməni məsələsi" həll edildimi?*

Tarixdə heç bir zaman olmayan uydurma "Böyük Ermənistan" qurmaq xəyalı ilə yaşayan daşnaklar yürütdükləri qanlı siyasət nəticəsində qondarma "Kiçik Ermənistan"ı da itirmək təhlükəsi qarşısında dayandılar. Belə bir şəraitdə Ermənistanı yalnız sovetləşdirilmə xilas edə bilərdi. Ona görə də Rusiya və Azərbaycandakı erməni kommunistləri səfərbər edildilər. Erməni mətbuatının verdiyi məlumata görə Bakıdan 30 nəfər erməni kommunisti Ermənistana göndərildi[106]. Kommunistlərin ardınca gedən bolşevik hərbi hissələri 1920-ci il noyabrın 29-da Qazax, İcevan (Karvansaray) və Dilicandan keçib fəhlə və kəndlilərə yardım etmək adı altında Ermənistana girdilər. Ermənistan sovetləşdirildi. Ermənistanda sovet hakimiyyətinin qurulmasının bir illiyi münasibəti ilə "Bakinskiy raboçiy" qəzeti yazırdı:

*"Mustafa Kamal öz ordusu ilə bütün istiqamətlərdə hücumu inkişaf etdirə bilərdi. Tezliklə Aleksandropol tutuldu. İrəvanın özü təhlükə qarşısında idi. Bu zaman zəhmətkeş erməni xalqı "Böyük Ermənistan" axtarışı ilə alver edən və artıq "Kiçik Ermənistan"ı da itirən dağılmış hökumətin gücsüzlüyünə tam əmin oldu"*[107] .

Daşnakların biabırçı məğlubiyyəti haqqında İstanbuldakı müttəfiq qüvvələrin ali komissarı Mark Lambert Bristol 1920-ci il noyabrın 30-da ABŞ dövlət katibinə göndərdiyi teleqramında məlumat verərək yazırdı:

*"Karsda və Aleksandropolda erməni qoşunu qüvvələr nisbətində üstün olmasına baxmayaraq, məğlub edilmiş və geri çəkilmişdir. Bolşeviklər və millətçi türklər razılaşmışlar"* [108].

Məğlubiyyətdən sonra daşnak hökuməti qaçdı. Ermənistanda yeni siyasi şərait yarandı. Lakin daşnakların devrilməsi hələ "erməni məsələsi"nin

---

[106] Бюллетень информационного отдела при дипломатическом представительстве АССР в Грузии. 24.01.1921. №136. – ARSSA, f.1, siy.2, iş 79, v. 64; "Ашхатавор", 22.01.1921.

[107] К первой годовщине советской власти Армении (29.11.1920 – 29.11.1921). – Газ."Бакинский рабочий", 29.11.1921, № 273 ( 405).

[108] Paper Relating to the Foreign Relations of the United States. 1920. Vol. III, p.805-806.

həll edilməsi demək deyildi. Çünki Ermənistana bu dəfə bolşevik Rusiyası girmişdi. Konyada nəşr edilən "Öğüd" qəzeti bununla bağlı olaraq yazırdı:

*"Türkiyə üçün "erməni məsələsi" həll edilməmişdir. Bunun sübutu odur ki, Ermənistana rus ordusu daxil olmuşdur"* [109].

Qərbi Avropa diplomatlarının təbirincə isə deyilsə, *"erməni ocağı"nın yaradılması boş bir ifadə idisə, bolşeviklərin Ermənistanda qələbəsi zəhmətkeşlər üçün "erməni ocağı" yaratdı"* [110].

## *Türklərin məqsədi*

Artıq qeyd edildiyi kimi, Karsı azad edən türk ordusu üçün geniş imkanlar açılmışdı. Ermənilər qorxu içində idilər. Türk ordusunun hücumu qarşısında qaçan daşnak hissələrinə əvvəllər türklərə qarşı qanlı əməllər törətmiş ermənilər də qoşulub gedirdi. Lakin türk ordusu dinc erməni əhalisinə toxunmur, milli və dini mənsubiyyətindən asılı olmayaraq hamıya bərabər, ədalətli münasibət bəsləyirdi. Yaranmış şəraitdə TBMM orduları Şərq cəbhəsi komandanı general-leytenant Kazım Qarabəkir Paşa dekabrın 1-də Karsın və Kars vilayətinin erməni əhalisinə müraciət edərək bir əmr verdi. Əmrdə yazılırdı:

*"Uzun illər davam edən və erməni xalqının müflisləşməsinə səbəb olan müharibənin səbəbkarı daşnaklardır. Daşnaklar hökumətimizin erməni xalqına olan xeyirxah münasibətini sizə çatdırmır, bizim arzularımızı rədd edir, özbaşına hərəkət edirlər. Daşnaklar bütün xalqları özlərinə tabe etdirmək istəyən imperialistlərin nökərləridir. Onlar öz xalqının sakit həyatı haqqında düşünmürlər. İndiki bədbəxtliyi yaşayan erməni xalqı başa düşəcəkdir ki, bu, daşnakların fəaliyyətinin nəticəsidir. Məqsəd həm xristian, həm də müsəlman kasıb əhalini daşnaklardan xilas etməkdir. Onlar əhalini məhv edirlər. Biz bütün əhaliyə, həm xristianlara, həm də müsəlmanlara yaxşı münasibət bəsləyən, qonşusu türk hökuməti ilə dostluqda yaşayan yeni mədəni erməni hökumətinin olmasını istəyirik. Bizim güclü ordumuz qarşısında daşnaklar tab gətirə bilmədilər, darmadağın edildilər və ölürlər. Bu, bir daha onların fəaliyyətinin düzgün olmadığını göstərir. Türk hökuməti ədalətli münasibət bəsləyəcək və qayda-qanun yaradacaqdır. Siz bu qayda-qanunu müdafiə etməlisiniz, onları* (daşnakları – M.Q.) *təhvil verməlisiniz, heç bir qanuna zidd hərəkət etməməlisiniz"* [111].

---

[109] Телеграмма завбюропечати Швырова на имя Чичерина. – ARDA, f.28 s., siy.1, iş 38, v.117.

[110] Английское командование на Кавказе и Дашнакцутюн. – ARNTNA, L-164, v. 265.

[111] Информбюро Турции. №2. Первый приказ турецкого командования в Карсе. 01.12.1920 . – РГАСПИ, ф. 544, оп. 3, д.113, л.79.

Əmrdə həmçinin, hər bir şəxsin ov tüfənglərindən başqa bütün soyuq və odlu silahları, bomba və dinamitləri 48 saat müddətində təhvil verməsi tələb edilirdi. Göstərilən müddət başa çatdıqdan sonra belə silahlar kimin evində tapılardısa, ona qarşı sərt tədbirlər həyata keçiriləcəkdi. Bundan başqa, hər hansı bir agent və casus, onları gizlədənlər asılacaqdı.

### *Ərazi məsələsinə bolşeviklərin münasibəti*

Bu zaman türklər Rusiya ilə hətta müqavilə layihəsi hazırlamış, bolşeviklər isə danışıqların başlanmasına etiraz etməmişdilər. Müvafiq komissiya göndərməyi təklif edən G.Çiçerinin fikrincə, danışıqlarda türklər Gürcüstan və Ermənistanın müstəqilliyinə təminat verməli, Ermənistanın sərhədləri Rusiyanın iştirakı ilə ortaq komissiya tərəfindən müəyyənləşdirilməli idi[112].

Ermənistan məsələsində Rusiya ilə razılaşacaqlarına inanan türklər bu respublikanı müstəqil görmək istəyirdilər. TBMM hökumətinin Tiflisdəki nümayəndəsi Kazım deyirdi ki, Moskva ilə qardaşlıq münasibətləri sovet Ermənistanına dair ümumi razılığa gəlməyə imkan verəcəkdir[113].

Yaranmış şəraiti V.İ.Lenin, L.Trotski və L.Kamenev ilə telefon danışığında müzakirə edən İ.V.Stalin bildirdi ki, P.Mdivaniyə çatdırmaq üçün Bakıda olan Q.K.Orconikidzeyə göndərdiyi 30 noyabr tarixli teleqramında Kars uğrunda türklərlə savaşmaq lazım olmadığını yazmışdır. İ.Stalin demişdi:

*"...onlara* (türklərə – M.Q.) *hər şeydə birbaşa güzəştə də getmək olmaz. Sovetləşdiriləcək Aleksandropolun Ermənistan üçün olması barədə kamalçılardan təminat almaq lazımdır. Əgər bizim sülh danışıqlarında vasitəçilik səylərimizdən imtina olunacaqsa, onda kamalçılara xatırlatmaq lazımdır ki, Zəngəzur və Naxçıvan qəzaları erməni – türk konfransının predmeti ola bilməz. Belə ki, bu qəzalar Rusiya ilə ittifaqda olan ermənilərlə Azərbaycan arasında mübahisəlidir. Əgər Ermənistanın daxili sovetləşdirilməsi rus ordularının Ermənistanda olmasını tələb etmirsə, onda biz sovetləşməyə etiraz etmirik*".

İ.V.Stalin bununla əlaqədar olaraq P.Mdivaniyə tövsiyə etmişdi:

*"Kazım Qarabəkir Paşanın bolşevik ordularını Ermənistanda görməsi və türk ordularının Qərb cəbhəsinə getməsi barədə bəyanatını yoxlayın və əgər bu bəyanat ciddidirsə, onda onun əsasları barədə bizə məlu-*

---

[112] Письмо Чичерина в Политбюро ЦК РКП. 30.11.1920. – РГАСПИ, ф. 159, оп.2, д. 57, л. 7.

[113] Завбюропечати Ерофеев – наркоминделу Чичерину. 01.11.1920. – ARDA, f.28 s., siy.1, iş 98, v.113.

*mat verin. Çox mühümdür, yoxlayın, Kazım Qarabəkir bizim orduları Ermənistana salmaqla Antanta ilə bizim aramızda vaxtından əvvəl münaqişə yaratmaq və Antantanın Batuma desant çıxartmaq üçün əl-qolunu bağlamaq istəmirmi?"* [114].

Ermənistan üstündə rus – türk yazışmaları davam edərkən Azərbaycan bolşevik xadimləri Ermənistan ilə ixtilaflara son qoyulacağı ümidi ilə Mərkəzin təzyiqləri altında bəzi addımlar atdılar.

### *Nəriman Nərimanov Zəngəzur və Naxçıvanı Ermənistana güzəştə gedir. Naxçıvan əhalisinin və Türkiyənin mövqeyi*

Ermənistanda sovet hakimiyyəti qurulduqdan bir gün sonra, noyabrın 30-da keçirilən Azərbaycan K(b)P MK Siyasi və Təşkilati Bürosunun iclasında Ermənistan ilə əlaqələrə dair məsələ müzakirə edildi. Müzakirə nəticəsində aşağıdakı qərarlar qəbul olundu:

*"Sovet Azərbaycanı ilə sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir; Zəngəzur və Naxçıvan Ermənistana keçir; Qarabağın dağlıq hissəsinə öz müqəddəratını təyinetmə hüququ verilir; sovet Azərbaycanı sovet Ermənistanı ilə qırılmaz hərbi və təsərrüfat ittifaqı qurur (o cümlədən, neft haqqında qeyd etmək); bu qətnaməni tərtib etmək Nərimanova tapşırılsın"* [115].

Bu tapşırığı yerinə yetirən N. Nərimanov Bakı Sovetinin 1920-ci il dekabrın 1-də Dövlət Teatrında keçirilən təntənəli iclasında etdiyi nitqində Zəngəzur və Naxçıvanın Ermənistana güzəştə gedildiyini, Qarabağda isə ermənilər üçün tam muxtariyyət yaradılacağını bildirdi[116]. Bəyanatda yazılırdı:

*"Sovet Azərbaycanı Ermənistan və Zəngəzurda ən yaxşı yoldaşlarımızın – kommunistlərin günahsız qanını tökmüş və tökən daşnakların hakimiyyətinə qarşı əməkçi erməni xalqının mübarizəsinə yardım göstərərək elan edir ki, bundan sonra heç bir ərazi məsələsi əsrlərdən bəri qonşu olan iki xalqın: ermənilərin və müsəlmanların bir-birinin qanını tökməsi üçün səbəb ola bilməz;* ***Zəngəzur və Naxçıvan qəzalarının ərazisi sovet Ermənistanının bölünməz hissəsidir; Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını təyinetmə hüququ verilir*** (seçmə bizimdir

---

[114] Телеграмма И.Сталина Орджоникидзе для Мдивани. 30.11.1920. – РГАСПИ, ф.558, оп.2, д.14, л.1-2.

[115] Обьединенные заседание Политбюро и Оргбюро ЦК АКП(б). 30.11.1920. – ARSSA, f.1, siy.1, iş 24, v.51a.

[116] Торжественное заседание Бакинского Совета. Речь главы азербайджанского правительства Н.Нариманова. 01.12. 1920. – Газ. "Коммунист", Баку, 02.12.1920, №178.

M.Q.)*; Zəngəzurun hüdudlarında bütün hərbi əməliyyatlar dayandırılır; sovet Azərbaycanının qoşunları buradan çıxarılır*" [117].

Sovet hakimiyyətinin qurulması ilə bağlı Ermənistana göndərdikləri təbrik teleqramında N.Nərimanov və M.Hüseynov həmin mövqeyi bir daha qeyd etdilər.

Bu addımı atarkən N.Nərimanovun əsaslandığı dəlillər aşağıdakılardan ibarət idi: sovet Azərbaycanı Ermənistanı səfalət və dağılmaq həddinə gətirmiş daşnak hökumətinə qarşı erməni xalqının qəhrəmanlıq səylərini dərin sevinc hissi ilə qarşılayırdı; daşnakların hakimiyyəti illəri qanlı toqquşmalar, azərbaycanlıların və ermənilərin qanı axan milli qırğınlar dövrü olmuşdu; daşnaklar Antantanın əlində kor silaha çevrilmişdilər; imperialist qüvvələri Qarabağ, Zəngəzur, Naxçıvan və digər ərazi məsələləri yaradaraq onu başqa xalqa qarşı təhrik etmişdilər; bu ərazi mübahisələri daşnaklar və müsavatçılar tərəfindən həll edilməmişdi; yüzlərlə dağıdılmış kənd, öz evlərindən didərgin düşmüş və aclığa düçar olmuş on və yüz minlərlə adam son illərin canlı şahidləri idi; sovet Azərbaycanı daşnak hökmranlığına qarşı Ermənistan və Zəngəzur hüdudlarında mübarizə aparan zəhmətkeş erməni xalqına güzəştə gedərək bidirirdi:

"B*undan sonra heç bir ərazi məsələsi iki əsrlik qonşu olan azərbaycanlı və erməni xalqları arasında qarşılıqlı qan tökülməsinə səbəb ola bilməz".*

Gətirdiyi dəlillərdə N.Nərimanov *"iki əsrlik qonşu müsəlman və erməni xalqları"* ifadələrini işlətməklə, əslində ermənilərin Cənubi Qafqaza gəlmə tarixinin 200 il olduğuna işarə edirdi. Ermənistanda sovet hakimiyyətinin qurulmasının sevinclə qarşılandığı həmin iclasda N.Nərimanovun tarixi gerçəkliyə zidd olan bu səhv bəyanatı "tarixi bəyanat" kimi bəyənildi.

Həmin bəyanatın verilməsinin səhərisi günü – dekabrın 2-də S.Orconikidze Bakıdan Lenin və Stalinə göndərdiyi məlumatında bildirdi:

*"Azərbaycan dünən Naxçıvan, Zəngəzur və* ***Dağlıq Qarabağın Ermənistanın xeyrinə verilməsini*** (seçmə bizimdir – M.Q.) *bəyan etmişdir"* [118].

Məlumatda *"Dağlıq Qarabağın Ermənistana verilməsi"nin* yazılması fikirləri büsbütün səhv idi. Çünki mətndən də göründüyü kimi, N.Nərimanovun bəyanatında belə bir fikir ifadə edilməmişdi.

Buna baxmayaraq, bu səhvi İ.Stalin də təkrar etdi. N.Nərimanovun Dağlıq Qarabağa muxtariyyət verilməsi barədə fikirlərini İ.Stalin S.Orconikdzenin göndərdiyi məlumata əsasən, Ermənistanın sovetləşdirilməsi

---

[117] Историческое заседание Бакинского Совета по случаю объявления Советской Армении. 01.12.1920. – Газ. "Коммунист", Баку, 07.12.1920, №181.

[118] Сообшение тов. Орджоникидзе. 02.12.1920. – Газ. «Правда», 04.12.1920, № 283.

münasibəti ilə "Pravda" qəzetinin 4 dekabr sayında dərc etdirdiyi təbrik məktubunda saxtalaşdıraraq, bu ərazinin Ermənistana verilməsi kimi təqdim etdi. İ.Stalin yazırdı:

"*Dekabrın 1-də Azərbaycan mübahisəli əyalətlərdən könüllü şəkildə imtina edir və Zəngəzur, Naxçıvan və* ***Dağlıq Qarabağı sovet Ermənistanına verdiyini bəyan edir*** (seçmə bizimdir –M.Q.)" [119].

V.İ.Lenin isə Ermənistan Hərbi-İnqilab Komitəsinin sədri Sarkis İvanoviç Kasyana ( əsl adı Sarkis Oqanoviç Ter-Kasparyan – M.Q.) dekabrın 2-də göndərdiyi təbrik məktubunda Nərimanovun bəyanatındakı ərazi məsələlərinə toxunmayaraq yazırdı:

*"Şübhə etmirəm ki, siz Ermənistan, Azərbaycan və Türkiyə zəhmətkeşləri arasında qardaşlıq həmrəyliyinin qurulması üçün bütün səyləri edəcəksiniz"* [120].

Orconikidze və Stalindən fərqli olaraq Leninin ərazi məsələlərinə diqqət yetirməməsi nə ilə bağlı idi? Bu, görünür, onların arasında müəyyən fikir ayrılıqlarının olduğunu göstərirdi. Həm də Lenin daha yaxşı bilirdi ki, belə məsələlər bəyanatlarla həll edilmir. Bununla belə, Lenin Qafqaz məsələlərinin həllində Stalinin rəyini nəzərə alırdı. Stalin isə məlumatları əsasən Orconikidzedən alırdı. Orconikidze də məlum olduğu kimi, "*Dağlıq Qarabağa muxtariyyət verilməsi ideyasının Azərbaycandan gəlməsi üçün təzyiqlər edilməsinin"* tərəfdarı idi.

N.Nərimanovun bir bəyanatı verməsinə Q.K.Orconikidzenin əvvəllər qeyd etdiyi *"muxtariyyət ideyası Azərbaycandan gəlməlidir"* "tövsiyəsi" və Mərkəzin təzyiqi olmuşdu. Ancaq Orconikidze 2 dekabr tarixində verdiyi yuxarıda qeyd edilən məlumatında "muxtariyyət" ifadəsini işlətmir, Dağlıq Qarabağın Ermənistana verildiyini yazırdı. Bu, nə üçün belə edilmişdi?

Araşdırma zamanı Azərbaycan ərazilərinin verilməsinə dair Nərimanova təzyiq edilməsi barədə Moskvanın birbaşa göstərişi haqqında heç bir arxiv materialına rast gəlmədik. Bununla belə, müstəqil olmayan, RK(b)P-dan asılı olan Zaqafqaziya diyar Komitəsinin və Azərbaycan K(b)P MK Siyasi Bürosunun artıq qeyd edildiyi kimi, 1920-ci il 4 noyabr tarixində birgə keçirilən iclasında Zəngəzur və Naxçıvanın Ermənistana verilməsinin motivlərini tərtib etmək N.Nərimanova tapşırılmışdı. Nərimanov da partiyanın həmin tapşırığını yerinə yetirmişdi.

---

[119] И.Сталин. Да здравствует советская Армения. – Газ. «Правда», 04.12.1920, №283; Заявление народного комиссара по делам национальностей о победе советской власти в Армении. 04.12.1920. – Документы Внешней политики СССР. Т. III. М., 1959, с. 366-367

[120] Председатель Совета Народных Комиссаров Ленин. Ответный привет тов. Ленина. – Газ. «Правда», 04.12.1920, №283.

N.Nərimanovun bəyanatının verilməsinə ermənilərə məxsus bəzi mətbuat orqanlarının münasibəti bir çox mətləbləri üzə çıxarır. Belə ki, Daşnakların "Aşxatavor" ("Zəhmətkeş") qəzeti bəyanatın verilməsinə dair əmrin Moskvadan gəldiyini iddia edirdi. Sovet mətbuat bürosunun müdiri Yerofeev N.Nərimanovun məlum bəyanatından bir neçə gün sonra, dekabrın 10-da G.Çiçerinə həmin qəzetdə dərc edilmiş bir yazı haqqında məlumat göndərdi. Qəzet yazırdı:

*"Sovet Rusiyası məlum olmayan inadkarlıqla erməni – türk müharibəsinə qatıldı, türklərə mənəvi və maddi yardım etdi. İndi onlar başqa mahnı oxuyurlar.* ***Moskvadan göndərilən əmrə uyğun olaraq Azərbaycanın Zəngəzur və Qarabağdan imtina etməsini biz alqışlayırıq. Lakin Rusiya Zəngəzur və Qarabağı verməklə Ermənistanın, Karsı türklərə verməklə Kamalın könlünü xoş etmək istəyir*** (seçmə bizimdir – M.Q.) *Ermənistanın vətəndaşları Ermənistanın Rusiyanın bir əyalətinə çevrilməsinə razı olmayacaqlar. Ermənistanın müstəqil sərhədləri olmalıdır"* [121].

"Aşxatavor" qəzeti daha sonra yazırdı:

*"Zəngəzur və* ***Qarabağdan imtina edən*** (seçmə bizimdir – M.Q.) *Azərbaycan gücsüz Ermənistana kömək etmək istəyir. Azərbaycanın seçdiyi yol iki xalqın dinc yaşamasının fundamentinə xidmət edir"* [122].

Göründüyü kimi, daşnak mətbuatı Naxçıvanın adını çəkməyərək, Azərbaycanın Zəngəzur və Dağlıq Qarabağdan imtina etdiyini yazırdı.

N.Nərimanovun tələsik, hisslərə əsaslanan və səhv olan bu addımı tarixi gerçəkliyi əks etdirmirdi. Xalqın iradəsi nəzərə alınmadan, Mərkəzin təzyiqi altında Azərbaycanın tarixi əraziləri heç bir tarixi-coğrafi, etnik-mədəni əsas olmadan gəlmə bir xalqa bağışlanırdı. Bu, Azərbaycana böyük ziyan vuran tarixi və siyasi səhv idi.

Ermənistan rəhbərləri N.Nərimanovun bu bəyanatından məmnun qalmışdılar. Onlar daşnak iddialarını gerçəkləşdirdiklərinə sevinirdilər. RK(b)P Qafqaz diyar komitəsinin katibi A.M.Nazaretyan 30 noyabr tarixindəki telefon danışığında Orconikidzeyə demişdi ki, əhsən azərbaycanlılar, mən sabahdan mətbuatda ucadan danışmağa başlayacağam[123].

Lakin erməni xadimləri yanılmışdılar. Nərimanovun bəyanatı ilə barışmayan Naxçıvan əhalisi kəskin etiraz edərək ayağa qalxdı. Diyarda kütləvi mitinqlər keçirilməyə başlandı.

---

[121] Завбюропечати Ерофеев – накроминделу Чичерину. 10.12.1920 . – ARDA, f.28 s., siy.1, iş 38, v.116.

[122] Телеграмма завбюропечати Швырова Чичерину. 23.12.1910. – ARDA, f.28 s., siy.1, iş 38, v.119.

[123] Телефонный разговор Орджоникидзе с Назаретяном. 30.11.1920. – РГАСПИ, ф.85, оп.14, д. 37, л. 1.

TBBM hökuməti də qəti mövqeyini ortaya qoyaraq Naxçıvanın Ermənistana verilməsini qəbul etməyəcəyini bildirdi. Belə ki, Moskvaya gedən türk nümayəndə heyəti Naxçıvanın yalnız Azərbaycanın protektoratlığında muxtar ərazi olması ilə razılaşacağını bildirdi.

Bolşevik Rusiyası isə Naxçıvanın Türkiyədə olması ilə heç cür razılaşmır, onu Ermənistan – Azərbaycan münasibətlərinə aid olan məsələ hesab edirdi. Nəticədə az sonra N.Nərimanov tarixi gerçəkliyə zidd olan həmin bəyanatından imtina etdi.

## *Aleksandropol (Gümrü)sülh müqaviləsi*

Bu zaman türk ordusu qarşısında biabırcasına məğlub olan daşnak Ermənistanı Ov. Kaçaznuninin yazdığı kimi, dekabrın 2-də *"...fiziki məhv olmaq təhlükəsi altında Aleksandropol sülh müqaviləsini imzalamağa məcbur oldu"* [124].

TBMM və daşnak Ermənistanı hökumətləri arasında Aleksandropol (Gümrü) müqaviləsini Türkiyə tərəfdən Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir Paşa, Ərzurumun qubernatoru Həmid, Ərzurumdan olan deputat Süleyman Nicati, Ermənistan tərəfdən Aleksandr Xatisyan, keçmiş maliyyə naziri Gülxanyan, daxili işlər naziri vəzifəsini icra edən Stepan Hurhanyan imzaladılar[125].

Müqaviləyə görə tərəflər aralarında mövcud olan müharibəni sona çatmış hesab edir və daimi sülh üçün danışıqlara başlayırdılar; Türkiyə – Ermənistan sərhədi dəqiqləşdirilirdi. Sərhəd Aşağı Qarasu çayının mənsəbindən başlayaraq Araz çayı – Arpaçaydan Keqaçanın şimal hissəsinə – Qaraxan dərəsinə – şərqi Tibinginsə – Böyük Şərqi Kimliyə – Böyük Ağbaba dağlarına uzanırdı. Müqavilə imzalandıqdan sonra ortaq komissiya sərhədi qəti olaraq yerində müəyyənləşdirməli idi; Küküdağ xəttindən cənuba 10282-8022 – Qamasurdağ 8160 – Qurdqulağ kəndi – Soğandağ – 2868-3080 – Arpaçayda – Hünərimdağ 6930 – Saraybulaq 8071 – Ararat stansiyası – Araz çayı, Aşağı Qarasunun mənsəbi; Naxçıvan, Şahtaxtı və Şərur rayonlarında müvəqqəti olaraq Türkiyənin himayəsində yerli özü-

---

[124] Качазнуни Ов. Дашнакцутюн больше нечего делать, с.57; Большая Советская Энциклопедия. Т. 3. М., 1930, с. 446.

[125] Текст мирного договора заключенного в Александрополе между Турцией и Арменией. – ARDA, f. 28 s., siy. 1, iş 55, v. 86; Документы внешней политики СССР. Т. IV. М.,1960, с. 772; Из исторического очерка об анатолийском движении, составленного сотрудником посольства РСФСР в Турции, в т.ч. главнейшие события политической жизни Турции с ноября 1920 г. по ноябрь 1921 г. – РГАСПИ, ф.544, оп.3, д.121, л.27; Условия мира Турции с Арменией. – РГАСПИ, ф.544, оп.3, д.113, л.115.

nüidarə təşkil edilirdi, buraya Ermənistanın iddia etmək hüququ yox idi, bu, idarə üsulu və sərhədləri müəyyənləşdirən plebissitin nəticələrinə qədər davam etməli idi; ikinci maddədə göstərilən və keçmiş türk sərhədindəki, bu müqavilə ilə Türkiyəyə keçən ərazilərdə onunla tarixi, irqi və hüquqi əlaqələr inkar edilə bilməzdi, müqavilə imzalandığı andan 3 il müddətinə əhaliyə geri dönmək imkanı verilirdi, İrəvan Respublikasının arzusu ilə TBMM hökuməti bu vilayətlərin hüquqi vəziyyətini müəyyənləşdirmək üçün plebissitə razılıq verirdi; imperialist dövlətlərin ictimai asayişi pozmaq üçün törətdikləri qızışdırıcı hərəkətlərinin qarşısını almaq üçün İrəvan Respublikasına daxili qayda-qanunu qorumaq üçün yüngül silahlanmış polis, dövlət sərhədini qorumaq üçün 20 pulemyot, 8 dağ və ya səhra silahı ilə silahlanmış 1500 nəfərlik muzdlu hərbi qüvvə saxlamağa icazə verilirdi; Ermənistan heç bir ordu saxlamayacağına dair təəhhüd götürürdü və hərbi mükəlləfiyyət keçirə bilməzdi; yuxarıda göstərilənlərə nəzarət etmək üçün Türkiyənin siyasi nümayəndəsi İrəvanda yaşamalı idi; bunun müqabilində daxili və xarici təhlükəyə qarşı mübarizədə İrəvan Respublikası tələb edərdisə, TBMM hökuməti öhdəlik kimi ona silahlı yardım etməyi üzərinə götürürdü; Ermənistan ərazisindən Türkiyə üçün təhlükə yaranardısa o, Ermənistana qoşun yeridə bilərdi; tərəflər mədəni ölkələrdə olduğu kimi, azlıqların bütün haqlarından istifadə etmələri, insanların doğma yerlərinə dönmələrinə dair öhdəlik götürürdülər; bu, müharibə dövründə düşmən tərəfə keçən qaçqınlara, müqavilə təsdiq edilib qüvvəyə mindikdən sonrakı bir il müddətində geri dönməyən qaçqınlara aid edilmirdi, onların əmlaklarına aid olan məsələlərə baxılmırdı; Ermənistan hökuməti ərazisində yaşayan müsəlman əhalinin mədəni və dini inkişafı üçün şərait yaratmalı idi; TBMM hökuməti məcbur olub müharibə etdiyindən və iki illik müharibədə ordusunun saxlanılmasına böyük xərc çəkdiyindən Ermənistandan təzminat tələb etməyə haqqı olsa da, humanizm prinsiplərinə hörmət edərək bundan imtina edirdi və s.[126] Müqavilə tərəflərin hökumətləri tərəfindən təsdiq edilməli idi.

Beləliklə, Türkiyə ilə Ermənistan arasında müharibə başa çatır və sərhədlər müəyyənləşdirilirdi. Artıq kamalçıların arxasında düşmən daşnaklar hakimiyyətdə deyildilər. Yaranmış yeni şəraiti şərh edən ingilis mətbuatı yazırdı:

*"Azərbaycan Kamalla birləşmək, Ermənistan isə Kamaldan qurtulmaq üçün rus qırmızı ordusunu dəvət etdi. Hər iki halda dəvət edənlər uduzdular: Azərbaycan müstəqilliyini itirdi və Kamalla birləşə bilmədi. Ermənistan da müstəqilliyini itirdi və onun torpaqlarına Rusiya sahib*

---

[126] Политический календарь (Россия – Турция – Союзники). С 1918-го по 1922-й год включительно. Составил: Туманов-Розенблюм. – РГАСПИ, ф.495, оп.154, д.770, л.48.

*çıxdı. Gələcəkdə Ermənistan bu iki qüvvə arasında* (Rusiya və Türkiyə nəzərdə tutulur – M.Q.) *mübarizədə top olacaqdır"* [127].

Sonrakı dövrdə baş verən hadisələr bu fikri demək olar ki, təsdiq etdi. Türkiyə tərəfi Ermənistanda bolşeviklərin hakimiyyətə gəlməsini məmnuniyyətlə qarşıladı. Kazım Qarabəkir Paşa Ermənistanda qurulan sovet hökumətini təbrik etdi[128]. Artıq Türkiyə – Ermənistan münasibətləri yeni bir mərhələnin astanasında idi.

Bolşeviklər də daşnakların devrilməsindən məmnun qalmışdılar. Dekabrın 2-də B.Leqran və daşnak nümayəndələri "Ermənistanın müstəqil sovet sosialist respublikası elan edilməsi haqqında" sazişi imzaladılar[129].

## *Daşnakların bir hissəsi Cənubi Azərbaycana sığınır*

Darmadağın edildikdən sonra Ermənistanı tərk etməyə başlayan daşnaklar bir sıra ölkələrlə yanaşı, İranda, Cənubi Azərbaycanda da yerləşərək təşkilatlarını qurdular. Xüsusən, 15 min nəfər ermənінin yaşadığı Təbrizdə 330-dan çox üzvü olan Daşnaksütyun güclü idi. Daşnaksütyunun təsiri altında olan digər erməni təşkilatları və erməni kilsəsi də silah ehtiyatı toplayırdı. Təbrizdə döyüşçülər hazırlanırdı. Farslar onlardan türklərə və kürdlərə qarşı istifadə edirdilər. Daşnakların Təbrizin 30 km-də Muxumbar kəndində olan silah anbarında iri çaplı silahlar saxlanılırdı. Təbrizin özündə isə Ağabekyanın rəhbərliyi altında silah anbarı var idi. Bundan əlavə, Cənubi Azərbaycan Culfasından 30 km aralıda Daraşan monastrında keşiş Gevondun nəzarəti altında silah anbarı yaradılmışdı. Daşnakların Təbrizdəki təşkilatında 600-dən çox tapança var idi. Mauzer üçün 5 min, Naqan üçün isə 3 min patron alınmışdı[130].

## *Erməni bolşevikləri daşnakların siyasətini davam etdirirlər*

Daşnakların bir hissəsi Ermənistandan köçüb getsə də, hakimiyyətə gələn bolşeviklər Azərbaycana münasibətdə daşnak siyasətini davam etdirirdilər. Bunu aydın şəkildə şərh edən mətbuat yazırdı:

---

[127] Бюллетень информационного отдела при дипломатическом представительстве АССР в Грузии. 08.12.1920. №101. – ARDA, f.28 s., siy.l, iş 215, v.29.
[128] Приветствия Кязима Карабекира. – Газ. “Коммунист”, Баку, 05.12.1920, №180.
[129] Документы внешней политики СССР. Т. IV, с.711.
[130] Выписка из архивного дела №276. Деятельность дашнаков в Персии. Совершенно секретно. ИНО ГПУ ЗСФСР. № 00313 от 15.05.1932. – ARMTNA, ÇF-852, v.12.

*"Erməni kommunistlərinin çoxu kommunizm maskası geymişlər. Əgər maska düşərsə, erməni kommunisti daşnakdır və Böyük Ermənistan arzulayır".*

Daşnakların və erməni kommunistlərinin məqsədlərinin eyni olduğunu etiraf edən Ov. Kaçaznuni isə açıq şəkildə vurğulayırdı:

*"Daşnaksütyun bundan belə öz həyatı üçün erməni siyasi azadlığı işi naminə gücsüzdür və yararsızdır, o, səhnədən getməlidir və yerini erməni bolşeviklərinə verməlidir. Onlar da indiki şəraitdə həmin işi davam etdirə bilərlər və artıq bunu edirlər"* [131].

Həqiqətən, daşnaklar kimi, erməni bolşevikləri də Rusiyanın köməyi ilə Türkiyə və Azərbaycan torpaqlarına yiyələnmək iddialarından əl çəkməmişdilər. Bununla əlaqədar olaraq Ov. Kaçaznuni birmənalı olaraq yazırdı:

*"Biz öz sərhədlərimizin genişləndirilməsi məsələsini yalnız Rusiyaya arxalanmaqla həll edə bilərik"* [132].

Həmin istək özünü rus – türk danışıqlarında da göstərdi. Ümidlərin Rusiyaya bağlanması əbəs deyildi. Bolşevik Rusiyasının sanki yeganə məqsədi Ermənistan üçün torpaqlar qopartmaqdan ibarət idi.

## *Rus – türk konfransı ərəfəsində erməni iddialarına münasibət*

Danışıqlar ərəfəsində, 1920-ci il dekabrın 3-də baxışlarını RK(b)P MK-ya yazan G.Çiçerin sovet Ermənistanına diplomatik yardım göstərilməsini, müdafiə edilməsini, Türkiyənin tələblərinin yumşaldılmasını və Gürcüstana hücumdan imtina etməsini təklif etdi. Türkiyəyə edilən yardımları bu şərtlərlə bağlamağı təklif edən, Türkiyənin gələcək istiqamətinin sual altında olduğu qənaətinə gələn G.Çiçerinin fikrincə, türklərlə müqavilə bağlanmalı, sərhədlər Rusiyanın iştirakı ilə ortaq komissiya tərəfindən müəyyənləşdirilməli, Türkiyənin ermənilər yaşayan bəzi ərazilərinin müstəqilliyinə nail olunmalı idi. O, məktubunda qeyd edirdi ki, əgər biz Ermənistana diplomatik yardım etməsək, bu, hər bir yerdə sovetlərin tərəfdarlarını xəyal qırıqlığına uğradacaqdır. G.Çiçerinin fikrincə, P.Mdivani türkləri cilovlamalı, onların Ermənistana qarşı tələblərini yumşaltmalı idi.

Türklərin silah və qızıl yardımı almaq istədiklərini yazan G.Çiçerinin baxışına görə bununla, sovetlər Türkiyəyə böyük təsir imkanları qazanırdı, Ermənistandan çıxacaqları təqdirdə onlara yardım ediləcəyi barədə vəd verilə bilərdi. "*Karsı Bakı üçün bir açar hesab edən*" G.Çiçerin bu baxışı ilə

---

[131] Качазнуни Ов. Дашнакцутюн больше нечего делать!, с.7.
[132] Yenə orada.

əslində daşnakların və erməni kommunistlərinin mövqeyini təkrarlayırdı. Əlavə edirdi ki, biz Brestdə Karsı güzəştə gedərkən hərbi mütəxəssislər dedilər ki, bu, Tiflisi mühafizə etmək üçün həssas yerdir. O, Ermənistanın müstəqilliyinə təminat alınmasını, sərhədlərin müəyyənləşdirilməsini sovet Rusiyasının iştirak edəcəyi ortaq komissiyaya verməkdə təkid etməyi, Türkiyənin şərq vilayətlərini nəzərdə tutaraq "Türkiyə Ermənistanı"nın sovetlərə keçən hissələrinin müstəqilliyinə nail olmağı zəruri hesab edirdi. Eyni zamanda vurğulayırdı ki, bu, ultimatum formasında olmamalı və türklərlə dostluq münasibətlərində toqquşma daşına çevrilməməlidir[133].

G.Çiçerinin təklifləri dekabrın 7-də keçirilən RK(b)P MK plenumunun iclasında müzakirə edildi. Türkiyə ilə müqavilənin ilkin layihəsini işləyib hazırlamaq və MK-ya təqdim etmək barədə qərar qəbul edildi[134]. Təkliflər hazırlandı. RSFSR-in Ankaradakı nümayəndəsi Y.Y.Upmal G.Çiçerinin təkliflərini Əhməd Muxtara çatdırdı. Görüş zamanı məlum oldu ki, türklər G.Çiçerinin bəzi təkliflərindən fərqli düşünür, ermənilər ilə bağlanan Aleksandropol sülh müqaviləsinə yenidən baxmaq istəmirlər. Bununla bağlı olaraq onların tutarlı dəlilləri var idi. Türklərin fikrincə, Ermənistanın sovetləşməsinə baxmayaraq, hakimiyyətdə hələ də daşnaklar oturmuşdular. Xarici ölkələrə çıxıb gedən varlı və ziyalı ermənilər də Türkiyəyə düşmən münasibət bəsləyirdilər. Ona görə də Ermənistana etimad etmək olmazdı. Aleksandropol sülh müqaviləsinin şərtləri yerinə yetirilməli idi.

P.Mdivani də aldığı təlimata uyğun olaraq mövcud şəraiti Kazım Qarabəkir Paşa ilə müzakirə etdi. Sülh müqaviləsinə yenidən baxılması təklifinin əleyhinə çıxan Kazım Qarabəkir Paşa özünün tutarlı dəlillərini söylədi. Bildirdi ki, Ermənistanda hələ də hakimiyyətdə olan daşnaklar, xarici ölkələrdəki varlı və ziyalı ermənilər Türkiyəyə düşmən münasibət bəsləyirlər, ona görə də Ermənistana etimad bəsləmək olmaz. Görüşdən sonra P.Mdivani dekabrın 9-da Q.Orconikidze, G.Çiçerin, İ.Stalin və B.Leqrana göndərdiyi teleqramında Kazım Qarabəkir Paşanın sülh müqaviləsinə yenidən baxılmasının tamamilə əleyhinə olduğunu yazaraq vurğulayırdı ki, türklər Moskvada konfrans çağırıb, Cənubi Qafqaz respublikalarına dair məsələlərin həllini istəyirlər[135].

---

[133] Чичерин – в Политбюро ЦК РКП(б). 03.12.1920. – РГАСПИ, ф.159, оп.2, д.57, л.9.

[134] Из протокола №24 (68) заседания пленума ЦК РКП(б). Предложение Чичерина по поводу договора с Турцией. – РГАСПИ, ф.17, оп.2, д.42, п.6, л.12.

[135] Телеграмма Мдивани из Александрополя Орджоникидзе, Чичерину, Сталину, Леграну о политике Турции в Закавказье. 09.12.1920. – РГАСПИ, ф. 5, оп 1, д.2203, л.16.

Sovet hökuməti 9 dekabr tarixli cavab notasında Türkiyə tərəfinin rus – türk konfransının keçirilməsinə dair təklifini qəbul etdiyini bildirdi. G.Çiçerin ərazi və digər məsələlər həll ediləcəyindən konfransda erməni və azərbaycanlı sovet nümayəndələrinin iştirakını zəruri hesab edirdi. Notada yazılırdı ki, daşnak Ermənistanı son günlərə qədər xalqlar arasında dostluğun qurulmasında bir əngəl idi. Erməni xalqının iradəsi ilə artıq Rusiya ilə Türkiyə arasında münasibətlərdə olan bu əngəl aradan qalxmışdır. G.Çiçerin erməni zəhmətkeşlərinin türk və rus xalqlarına qarşı düşmənçiliyinin olmadığını, eyni zamanda türk və rus xalqlarının erməni ərazilərində dostluq və qardaşlıqdan başqa bir şey axtarmadıqlarını vurğulayırdı. Notada qeyd edilirdi ki, onlarla dostluğu və qardaşlığı Rusiya zəhmətkeş kütlələri ilə sıx qardaşlıq münasibətinə girmiş Azərbaycan xalqı da axtarır. Şərqin azadlığı üçün mühüm nəticələri olacağını bildirən G.Çiçerin həmin konfransda iştirak etmək üçün sovet hökumətinin Ermənistan və Azərbaycan hökumətlərinə dəvət göndərdiyini də yazırdı[136].

Bundan sonra TBMM hökuməti danışıqlar üçün nümayəndələrini 1920-ci il dekabr ayının əvvəllərində Moskvaya qola saldı[137].

Ermənistan və Azərbaycan nümayəndələrinin dəvət edilməsi məsələsində Rusiya ilə Türkiyə arasında fikir ayrılığı olduğundan konfransın asan keçəcəyinə dair şübhələr çox idi. Konfransın keçirilməsinə təsir edən müsbət və mənfi amillər var idi.

Azərbaycan SSR-in Moskvadakı səlahiyyətli nümayəndəsi Behbud Şahtaxtinski Mərkəzə göndərdiyi 14 dekabr tarixli məruzəsində konfransda iştirak edəcək dövlətlərdə şərait, mənfi və müsbət faktlar haqqında öz mülahizələrini yazdı. O, ilk növbədə mənfi faktlar üzərində dayanaraq bildirirdi ki, hazırda Dərələyəzdə və Zəngəzurda özlərinə yuva qurmuş daşnaklar Aleksandropol sülh müqaviləsinə əsasən türklərdən onların hakimiyyətini həm xarici, həm də daxili düşmənlərdən qorumağı tələb edə bilərlər. Qarabağın dağlıq hissəsini işğal edən daşnaklar yaratdıqları erməni kəndli soveti adından müsəlman əhaliyə müraciət edərək bolşeviklərə qarşı mübarizədə birləşməyə çağırmış, imzaladığı müqavilə ilə götürdüyü öhdəlikləri yerinə yetirməyi Türkiyədən bir dəfə də olsun tələb etməmişdilər. Belə çıxırdı ki, daşnaklar türklərdən təminatı yalnız Antanta Türkiyə ilə qəti olaraq razılaşdıqdan sonra tələb edəcəkdilər. B.Şahtaxtinskinin yazdığına görə xaricdən gələn A.İ.Xatisov Ermənistanda sovet hakimiyyəti

136 Нота Чичерина турецкому правительству. – Газ. “Бакинский рабочий”, 12.12.1921, №30(117).

137 Из экстренного Бакинского бюллетеня №3 информбюро Турции. Выезд Ангорской делегации в Москву. 11.12.1920. – РГАСПИ, ф.544, оп.3, д.113, л.99.

qurulduqdan sonra imzaladığı müqavilə ilə Ermənistanı Türkiyənin muxtar vilayətinə çevirmişdi. Həmin müqavilənin bütün qətiliklərini aradan qaldırmaq üçün sovet tərəfinin vasitəçilik təklifinə türklər ermənilərin xahişi ilə razılıq verməmişdilər. B.Şahtaxtinskinin fikrincə, A.İ.Xatisov belə müqaviləni Antantanın göstərişi olmadan imzalaya bilməzdi. Konfrans başa çatanadək türklərin Aleksandropoldan çıxmaq istəməmələri də mənfi faktlardan biri idi.

Daha sonra müsbət faktlar üzərində dayanan B.Şahtaxtinski yazırdı ki, Mərkəz yuxarıda qeyd edilənlərdən bəzi mülahizələri nəzərə alaraq aşağıdakı nəticələri çıxarmalıdır:

*"Türkiyə ilə danışıqlarda əsas mübahisəli məsələ "erməni məsələsi" ola bilər."Erməni məsələsi"ndə türklər maksimum güzəştə getmək istəmirlər. Belə əsas gətirirlər ki, onlar güzəştə getsələr, İstanbul hökumətinin vəziyyətinə düşərlər. Türklərlə möhkəm ittifaq bağlamaq üçün biz "erməni məsələsi"ni danışıqlarımızda obyekt etməməliyik. "Erməni məsələsi"nin son həlli üçün daha əlverişli məqam tapmalıyıq. Biz türklərdən Aleksandropolu boşaltmalarını, daha sonra isə dəmiryoluna yaxın qəzalardan çıxmalarını tələb etməliyik. Lakin onların çox da çəkilməsinə nail olmamalıyıq"* [138].

Ən mühüm strateji məntəqə hesab etdiyi Naxçıvanın ya türklərin protektoratlığına, ya da Ermənistana verilməsinin əleyhinə olan B.Şahtaxtinski mövqeyini belə əsaslandırırdı:

*"Birincisi, bu diyarın əhalisi ona etiraz edəcəkdir. İkincisi, buna türklər razı olmayacaqlar. Ona görə də bu diyarı həməlik sovet Rusiyasının protektoratlığı altında özünü idarə edən diyara çevirmək lazımdır. Məsələnin belə həlli türkləri tutduqları mövqelərdən geri çəkilmələrində hərəkətə gətirəcəkdir və bu da Ermənistanı minimum etməyə bilməz. Əgər biz bu diyarı Rusiyanın protektoratlığı altında özünü idarə edən diyara çevirsək, onda tezliklə zəngin fars əyalətləri ilə* (Cənubi Azərbaycan nəzərdə tutulur – M.Q.) *ticarətə başlaya bilərik və təkcə Ermənistanı deyil, həmçinin burada yerləşən ordu hissələrini yedirtmək imkanı qazanarıq, Mərkəzi bu yükdən azad edərik"* [139].

Məsələyə erməni tərəfinin baxışı fərqli idi. Guya türk təhlükəsinin olduğunu önə çəkərək və bundan sui-istıfadə edərək Karsa yiyələnməyə çalışan erməni bolşevikləri hətta V.İ.Leninə də təsir etməyə çalışırdılar. Dekabrın 12-də V.İ.Lenin ilə görüşərək təkliflərini təqdim edən Ermənistan SSR-in Moskvadakı səlahiyyətli nümayəndəsi S.M.Ter-Qabrielyan bildirdi

---

[138] Доклад чрезвычайного полномочного представителя АССР по поводу конференции русско – турецкой в Москве. 14.12.1920. – РГАСПИ, ф.17, оп.84, д.104, л.95-97.

[139] Yenə orada.

ki, Karsın türklərə verilməsi guya Bakını təhlükə altına atır, türklər Ermənistanda qalacaqları təqdirdə ermənilər qırılacaq və qaçqınlar öləcəkdir.

Görüş haqqında dekabrın 14-də G.Çiçerinə yazan V.İ.Lenin qeyd edirdi ki, S.M.Ter-Qabrielyan 600 min ermənin qırılması təhlükəsinin olduğunu: 1. Erməni qaçqınların öləcəyini; 2.Kars olmadan Bakının təhlükədə olduğunu demişdir. V.İ.Lenin birinci və ikinci maddəni bir-birindən ayırmağı və birinci məsələdə hər cür kömək etməyin lazım olduğunu, bununla bağlı G.Çiçerinin nə etdiyini və fikirlərini soruşur, yardım göstərməyi tövsiyə edirdi[140].

Ermənistan SSR xalq xarici işlər komissarı A. Bekzadyan isə TBMM hökumətinə müraciət edərək, daşnakların Türkiyə ilə bağladığı müqaviləni ləğv etməyi və hər iki xalqın əməkdaşlığı əsasında yeni müqavilə hazırlamağı təklif edirdi.

Rusiyanın ədalətsiz yerə Ermənistanın əsassız iddialarını müdafiə etməsi Türkiyənin narahatlığına səbəb olmuşdu. Ona görə də türk xadimləri narazılıqlarını bolşevik nümayəndələri ilə söhbətlərində açıq şəkildə söyləyirdilər. Anadoludakı sovet informasiya bürosunun rəhbəri Q.Astaxov ilə görüşdə Trapezund vilayətindən TBMM üzvü olan Şükrü sovet Ermənistanı ilə yeni bir müharibənin olacağından narahatlığını bildirmişdi. Onun fikrincə, sovet Rusiyasının Ermənistana güzəştə getməsi Türkiyəni Antanta ilə yaxınlaşdıra bilərdi[141].

G.Çiçerinə göndərdiyi 15 dekabr tarixli teleqramında Ermənistan sovetləşdirildikdən sonra Rusiyanın İrəvana münasibətinin necə olmasına dair sual verən Əhməd Muxtar isə qeyd edirdi ki, türk – erməni sülhü zorakı deyil, millətlərin öz müqəddəratını təyinetmə hüququ əsasında bağlanmış, Türkiyə daşnakların qəddarlıqla hədələdikləri türk əhalisinin yaşadığı əraziləri ilhaq etmək niyyətinə düşməmişdir. O, birmənalı olaraq yazırdı:

"*Bizə gəlib çatan şayiələrə görə erməni hökuməti dəyişdikdən sonra bizim müqaviləmizə yenidən baxmaq, türklərin yaşadıqları əraziləri Ermənistana vermək istəyirsiniz. Məsələnin belə həlli onların tamamilə məhvinə gətirib çıxara bilər*" [142].

Azərbaycan torpaqlarının sovet Ermənistanına verilməsinə dair Əhməd Muxtarın dekabrın 15-də göndərdiyi teleqramında göstərilən "şayiə"

---

140 Записка В.И.Ленина Г.Чичерину.14.12.1920. – РГАСПИ, ф.2, оп.1, д. 25025, л.3.

141 Сводка информационного бюро РСФСР в Трапезунде. 01.12.-18.12.1920. №1. – РГАСПИ, ф.544, оп.3, д.23, л.26.

142 Народный комиссар по иностранным делам ВНСТ Ахмед Мухтар – наркоминделу РСФСР Чичерину. 15.12.1920. – РГАСПИ, ф.159, оп.2, д.56, л. 43-44.

əslində doğru idi. Həqiqətən də sovetləşdirildikdən sonra bolşevik Rusiyası Azərbaycan torpaqlarını Ermənistana verməyə başlamışdı. Buna etiraz edən Behbud Şahtaxtinski də RK(b)P MK-ya məktubda hiddətlə yazırdı:

*"Zəngəzurda 123 min 95 nəfər azərbaycanlı, 99 min 257 nəfər erməni yaşayır. Buna baxmayaraq, 1920-ci ildə Gəncə quberniyasının Zəngəzur qəzası, Yeni Bəyazid qəzasının Basarkeçər mahalı, İrəvan quberniyasının Vedibasar, Qazax qəzasının cənub hissəsi və Meğriyə bitişik ərazilər Ermənistana verilmişdir"* [143].

Həmin ərazilərin qopardılması nəticəsində Ermənistanda Dilican qəzası, Zəngəzur qəzasının ərazisində isə Meğri və Zəngəzur qəzaları yaradıldı. Beləliklə, Türkiyə ilə Azərbaycan arasında birbaşa quru ərazisi əlaqəsi kəsilmiş oldu.

Belə bir şəraitdə Rusiya diplomatiyası qarşıdakı rus – türk konfransına Ermənistanı qatmaqla Türkiyəyə təzyiq etməyə, Azərbaycanın və Ermənistanın xarici siyasətini əlində cəmləşdirməyə, gələcəkdə Cənubi Qafqazdakı niyyətlərini həyata keçirtmək üçün zəmin hazırlamağa çalışırdı.

Konfransa qatılmaq istəyən Ermənistanın başlıca məqsədi əsassız ərazi iddialarını təmin etmək idi. Bununla əlaqədar olaraq sovet mətbuat bürosunun rəhbəri Şvırov 1920-ci il dekabrın 23-də G.Çiçerinə göndərdiyi teleqramında yazırdı:

*"Sovet siyasətini araşdıran Ermənistan belə hesab edir ki, sovet siyasətinin başlıca məqsədi Aleksandropol sülh müqaviləsinə yenidən baxmaq olmalıdır"* [144].

Lakin Türkiyə tərəfi Ermənistanın iddialarını qəbul etmədi. Ona görə də bu zaman Tiflisdə olan xarici işlər naziri Bəkir Sami G.Çiçerinə çatdırmaq üçün 1920-ci il dekabrın 28-də[145] (digər bir mənbədə bu teleqramın tarixi 26 dekabr göstərilir[146]) P.Mdivaniyə bir teleqram təqdim etdi. P.Mdivani həmin teleqramı bir neçə gün sonra, 1921-ci il yanvarın 5-də G.Çiçerinə göndərdi. Müqavilənin ikinci maddəsinə türklərin riayət etməməsinə dair ermənilərin iddialarının heç bir əsası olmadığını, Türkiyənin Ermənistan ilə dost olmaq istədiyini bildirən Bəkir Sami yazırdı:

"*Məlumat verməyi özümə borc bilirəm, bizim hərbi dairələr haqlı olaraq gözləyirlər ki, hökumətimizə aid olan öhdəliklərin vicdanla yerinə yetirilməsinə dair yeni Ermənistan hökumətinə məsləhət veriləcəkdir. Ru-*

---

[143] Бехбуд Шахтахтинский – ЦК РКП(б). – ARSSA-nın surət fondu.

[144] Завбюропечати Швыров – наркоминделу Чичерину. 23.12.1920. – ARDA, f.28, siy.1, iş 38, v.121.

[145] Телеграмма Бекир Сами Чичерину. 28.12.1920. – РГАСПИ, ф.159, оп.2, д.56, л.50.

[146] Телеграмма Бекир Сами Чичерину. 26.12.1920. – РГАСПИ, ф.159, оп.1, д. 2203, л.73.

*siya yeni Ermənistanı başa salacaqdır ki, əgər ermənilər müqavilənin maddələrinə hörmətlə yanaşsalar, Ankara hökuməti Ermənistanın səmimi dostu olacaqdır. Bu müqavilədə müəyyən edilmiş sərhədlərdən başqa digər iddialar və tələblərin irəli sürülməsi keçmiş kin-küdurəti qızışdırar, beləliklə, maraqlara zərər vurar"*[147].

Türkiyə tərəfi Ermənistan ilə dost olmağa çalışır, Azərbaycan isə daşnakların müsibətlərə saldığı və nə qədər qəribə olsa da, əsassız ərazi iddialarını hələ də davam etdirən ermənilərə yardımlar etməklə bu respublikada hakimiyyətdə olan və daşnaklardan fərqlənməyən bolşeviklərin mövqelərini möhkəmləndirirdi.

### *Azərbaycanın Ermənistana yardımları*

Artıq qeyd edildiyi kimi, daşnakların avantürist siyasəti nəticəsində Ermənistanda acınacaqlı bir şərait hökm sürürdü. Ölkə dağılmışdı. Ərzaq çatışmırdı. 1921-ci il yanvarın 2-də yeni il münasibəti ilə etdiyi nitqində "*bizim yoldaşlara Ermənistanda ağır miras qalmışdır: ölkə dağılmış, dəmiryol nəqliyyatı tamamilə ləğv edilmiş, ərzaq anbarları boşalmışdır, yanacaq yoxdur"* deyən Ermənistan İnqilab Komitəsinin sədri S.İ.Kasyan vurğulayırdı:

*"Nə qədər tədbirlər həyata keçirilsə də, ermənilər ilk vaxtlarda ərzaq böhranını aradan qaldıra bilməyəcəklər. Buna görə də sovet Rusiyası və Azərbaycan tərəfindən yardım lazımdır"*[148].



*Azərbaycandan Ermənistana göndərilən yardım qatarı*

[147] Телеграмма Бекир Сами Чичерину. 28.12.1920. – РГАСПИ, ф.159, оп.2, д.56, л.50.

[148] Доклад председателя ревкома Армении Касяна. 02.01.1921 г. – Газ. "Коммунист", Эриван, 05.01.1921.

Yaranmış ağır şəraitdən çıxış yolunu Azərbaycanın edəcəyi yardımlarda görən Ermənistan SSR xalq xarici işlər komissarı A.Bekzadyan isə deyirdi:

*"Dost Azərbaycan olmasa, sovet Ermənistanı xaricdən yardım almasa, əhalini və ordunu yedirdə bilməz. Bizə dost Azərbaycan kömək edəcəkdir"* [149].

Həmin xahişləri yerinə yetirən Azərbaycan erməni xalqının ağır vəziyyətində yardım əlini uzatdı. Ermənistanı aclıqdan xilas etmək üçün Bakıdan 28 vaqon buğda, çörək, ərzaq məhsulları və 7 sistern yanacaq dolu qatar yanvarın 7-də İrəvana yola saldı[150]. Azərbaycan sovet Ermənistanını dost görmək arzusu ilə yardımlar edərək erməni xalqını zülmətdən qurtardı. Bununla bağlı olaraq Ov. Kaçaznuni sonralar yazırdı:

*"Bolşeviklər Bakıdan kerosin gətirdilər və ölkəni zülmətdən çıxartdılar"* [151].

Erməni sovet tarixçisi H.A.Haloyan isə tarixi gerçəkliyi aşağıdakı kimi etiraf edirdi:

*"Zəhmətkeş Azərbaycan mövcud şəraitdə gənc Ermənistan sovet respublikasına kömək etdi"* [152].

### ***Ermənistanın iddialarına münasibət***

Bu zaman türklərin Naxçıvanda guya bufer zona yaradacağından narahat olan bolşevik Rusiyası ona mane olmaq məqsədi ilə Ermənistan üçün Azərbaycandan əlavə torpaqlar qoparmağa çalışırdı. Bununla bağlı olaraq Q.K.Orconikidze və S.M.Kirov 1921-ci il yanvarın 2-də RK(b)P MK-nın bütün üzvlərinə yazırdılar:

*"... türklər asanlıqla Naxçıvanda öz bufer zonalarını yarada bilərlər. Onlar burada xüsusi xanlıq yaratmaq istəyirlər. Onların əlində Təbriz dəmiryolu olacaq, bizi İrandan ayıracaq və Ermənistanı parçalayacaqdır"* [153].

Ona görə də bolşevik Rusiyası Aleksandropol sülh müqaviləsinin ləğvində israr edirdi. Məsələyə dair türk hökumətinin mövqeyini 1921-ci

---

[149] В советской Армении. Экономическое положение. – Газ. "Коммунист", Эриван, 06.01.1921.

[150] Маршрутный поезд с нефтью и хлебом. – Газ. "Коммунист", Баку, 10.01.1921.

[151] Качазнуни Ов. Дашнакцутюн больше нечего делать!, с. 58.

[152] Галоян Г.А. Социалистическая революция в Закавказье в освещении буржуазной историографии. М.,1960, с. 184.

[153] С.Орджоникидзе и С.М.Киров – всем членам ЦК РКП(б). 02.01.1921. – ARSSA-nın surət fondu.

il yanvarın 3-də TBMM-in açıq iclasında "Şərq məsələsi" haqqında izahat verərkən bəyan edən xarici işlər naziri vəzifəsini icra edən Əhməd Muxtar Ermənistan ilə sülh məsələsinə aydınlıq gətirərək bildirdi ki, daşnak hökumətinin məğlubiyyətindən sonra Moskva daşnaklarla sülhün ağır şərtlərinin sovet Ermənistanına aid edilməsinin mümkünsüzlüyünü bildirərək, müqavilənin düzəldilməsi üçün Bakıda konfrans çağırmağı təklif, yeni erməni hökuməti isə Türkiyəyə bilavasitə müraciət edərək daşnaklarla imzalanmış müqavilənin şərtlərinin dəyişdirilməsini xahiş etmişdir. Cavabında türk hökuməti bildirmişdi ki, Ermənistanın idarəçiliyində baş verən dəyişikliklər cüzidir, bu dəyişikliklərin səmimiliyi və dərinliyinə inanmaq olmaz və çevrilişin həqiqi mahiyyəti müəyyən edilməmişdir, sülh şərtlərinin dəyişdirilməsi haqqında söhbət gedə bilməz.

Bundan sonra RSFSR-in Ankaradakı nümayəndəsi Y.Y.Upmal da Əhməd Muxtara müraciət edərək yeni kommunist Ermənistanı hökumətini müdafiə etməyi xahiş etmişdi. Belə olduqda Əhməd Muxtar ondan soruşmuşdu ki, bu, Moskvanın rəsmi mövqeyidirmi? Söylədiklərinin şəxsi mövqeyi olduğunu deyən Y.Y.Upmal bildirmişdi ki, tezliklə Moskvadan rəsmi müraciət də ediləcəkdir. Həqiqətən də az sonra G.Çiçerin nota göndərərək, türk ordularının tutduğu bir neçə rayondan ordu hissələrinin çıxarılmasını xahiş etmişdi. Əhməd Muxtarın fikrincə, bu nota həddindən artıq səmimi idi[154].

Bununla belə, türklərdə hələ də müəyyən şübhələr qalırdı. Həmin şübhələr bolşevik Rusiyasının "erməni məsələsi"ndən istifadə etməsi, Azərbaycanın Naxçıvan, Zəngəzur və Qarabağ torpaqlarının Ermənistana verilməsi haqqında İrəvandakı sovet nümayəndələrinin elan verməsi, daşnakların qurduğu erməni ordusunun saxlanılması və Türkiyədən ərazilər tələb etməsi və s. ilə bağlı idi.

Məsələyə dair P.Mdivani Karsdan G.Çiçerin, İ.Stalin və Ş.Eliavaya 1921-ci il yanvarın 8-də göndərdiyi 275 №-li tamamilə məxfi teleqramında yazırdı:

*"Türklər bizim hərbi qüdrətimizə inanmağa başlamışlar. Lakin hələ tərəddüd edirlər, bizə inansınlar, yoxsa yox, əmin deyillər, Rusiya Türkiyədən öz maraqları üçün istifadə etmək istəmirmi? Bu baxımdan bizi hər addımda, təkliflərimizi, xüsusən "erməni məsələsi"nə bizim münasibəti öyrənirlər. Bizim bu məsələdə davranışımız türkləri çaşdırır və onlarda belə bir inam yaradır ki, biz Türkiyənin deyil, yalnız Ermənistanın maraqlarına qayğı göstəririk və hətta Türkiyədən Ermənistanın xeyrinə istifadə*

---

[154] Объяснения наркоминдела Ангоры Мухтар бея по Восточному вопросу, данные в открытом заседании меджлиса. 03.01.1921. – РГАСПИ, ф.544, оп.3, д. 46, л.59.

*etmək istəyirik.* ***Aşağıdakı amillər türklərdə şübhələr yaradır: bizim İrəvandakı nümayəndələrimizin Rusiyanın adından Naxçıvan, Zəngəzur və Qarabağın Ermənistan hüdudlarına qatılması barədə elanlar verməsi, həm də bunun Azərbaycan tərəfindən qəbul edilməsi, həmçinin bizim təsirimiz kimi qəbul edilir*** (seçmə bizimdir – M.Q.); *Türkiyənin həqiqi düşmənləri olan daşnaklara bizim xeyli ehtiyatlı münasibətimiz, belə ki, onların bir hissəsi sülh nümayəndə heyəti kimi tam təminat ilə Rusiyanın mühafizəsi altında götürülmüşdür; Lavrov təyin edilməklə erməni ordusunun saxlanılması (?); Ermənistan üçün Van, Bitlis və Muşun tələb edilməsi".*

P.Mdivanı daha sonra qeyd edirdi:

*"Bütün bunlar bizim Türkiyə ilə ittifaqımıza ciddi ziyan vurur. Kütlələrdə, hətta uşaqlarda əvvəlcə ermənilərə, sonra isə ingilislərə dərin nifrət hakim olmuşdur. Həm hökumət, həm də komandanlıq hazırda güclənən antierməni əhval-ruhiyyəsindədir və bu şüarla Ermənistana qarşı ordu yeritmişdir. Türklərlə danışıqlarda real və praktik nəticələrə nail olmaq, xüsusən türk kütlələrində sovet Rusiyasına şəksiz rəğbəti qoruyub saxlamaq və inkişaf etdirmək üçün zəhmətkeş erməni xalqının da nifrət etdiyi daşnaklara bizim siyasətimizi kökündən dəyişmək və siyasi baxımdan onları öldürmək lazımdır. Məhdud ölçüdə erməni Qırmızı ordusunu yaradıb bizim Qırmızı ordunun tərkibinə qatmaq, bununla da türklərin dedikləri guya, onların arxadan Ermənistandan etibarsız qorunması fikrini əllərindən almaq lazımdır, heç bir halda türk əyalətlərini Ermənistan üçün tələb etməmək lazımdır, buna türklər heç bir zaman razı olmayacaqlar, hətta türklər çətin ki, Karsdan imtina etsinlər. Digər məsələlərdə türklər geniş güzəştlərə gedəcəklər. Bu tədbirlər mövcud hal üçün, Türkiyədə hakimiyyət millətçi hökumətin əlində olanadək lazımdır"* [155].

P.Mdivani eyni tarixli 420 №-li teleqramında Ermənistana silah verilməsini ciddi saymır, Türkiyənin şərq vilayətləri məsələsində türklərə güzəştə getməyi israr edirdi[156].

Ondan fərqli düşünən G.Çiçerin isə 1921-ci il yanvarın 11-də Q.K.Orconikidzeyə göndərdiyi teleqramında türklərlə alver etməyi, qorxmamağı, təslim olmağı deyil, millətlərin öz müqəddəratını təyinetmə hüququndan ermənilər üçün istifadə etməyin mümkünlüyünü bildirirdi. Bunun ümumi prinsip olduğunu yazan G.Çiçerin Ermənistanın sovetləşdirilməsini ciddi siyasi hadisə hesab edərək vurğulayırdı:

---

155 Телеграмма Мдивани Чичерину, Сталину, Элиаве. Сов. секретно. 08.01.1921. – РГАСПИ, ф.5, оп.1, д.2203, л.43.

156 Телеграмма Мдивани Чичерину, Элиаве. Сов. секретно. 08.01.1921. – РГАСПИ, ф.5, оп.1, д. 2203, л.44-45.

*"Biz, qardaş respublikanı taleyin hökmünə buraxa bilmərik. Bununla belə, Türkiyə ilə dostluq bizim üçün birinci dərəcəli əhəmiyyətlidir"* [157].

Onun fikrincə, Ermənistana münasibətdə Anadoluda təbii olaraq çoxlu kədər və nifrət toplanmış, lakin TBMM hökuməti keçmiş burjua dövlətlərinin siyasətindən imtina etmiş, məğlub edilmiş Ermənistan zəfər qazanmış təntənəli Anadolunun ayaqları altında uzandığı dəqiqələrdə türk hökuməti xatırlatmışdı ki, dünyanın xilası bütün millətlər arasında bərabərlik siyasətindədir. TBMM hökuməti qazandığı qələbənin bəhrələrindən istifadə etmək, Ermənistanı birdəfəlik boğmaq və məhv etmək əvəzinə onu qonşu xalqlar üçün daim təhlükə olan yalnız qəddar millətçilərdən və imperialistlərdən təmizləməklə kifayətlənmişdi.

G.Çiçerin bu məsələdə haqlı idi. Ermənistanı tamamilə tutmaq və məhv etmək üçün bütün imkanları olduğu halda türklər erməni xalqını düşmənçiliyi yayan daşnakların zülmündən xilas etmiş, dost əlini uzatmış, onunla bərabərhüquqlu münasibətlər qurmağa hazır olduqlarını bildirmişdi. Türkiyənin Ermənistan siyasətini şərh edən "Hakimiyyeti Milliye" qəzeti 1921-ci il yanvarın 11-də yazırdı:

*"Biz İrəvanı və Ermənistanın bütün ərazisini tutmaqdan imtina etməklə göstərə bildik ki, səsimizi dinləməyə məcbur etmək üçün kifayət qədər gücümüz vardır. Biz həmin andaca Ermənistana sülh təklif etdik. Bizim bu sülh təkliflərimiz erməni xalqının heç bir təbii və qanuni hüquqlarını pozmur və yalnız imperialistlərə qarşı və millətlərin öz müqəddəratını təyinetmənin düşmənlərinə qarşı ən qəddar siyasəti yürüdəcəyik*" [158].

Bu, yeni türk hökumətinin siyasəti idi. Gərgin və təhlükəli milli müharibədə TBMM hökuməti bir-biri ilə qırılmaz surətdə bağlı olan iki ideya güdürdü. Başlıca məqsəd öz mövcudluğunu qorumaq və müstəqillik qazanmaq idi. Lakin yeni Türkiyə gördü ki, öz hüquqlarına hörmət etməyə məcbur etmək istəyənlər ilk növbədə başqalarının hüquqlarına hörmət etməlidirlər. Ona görə də TBMM hökuməti "erməni məsələsi"nə aşağıdakı kimi yanaşırdı: o, erməni millətinin bütün təbii və qanuni hüquqlarını tanıyır, Ermənistana münasibətdə özünün xüsusi siyasətində bu baxımdan hərəkət edirdi. Hər iki tərəf üçün qorxulu və qəmli olan keçmiş haqqında unutmağa qərar verən Anadolu türkləri qardaşlıq naminə məğlub edilmiş və gücsüz Ermənistana dostluq əlini uzadırdılar. Yeni Türkiyə dağıtmaq və yandırmaq deyil, xalqlar arasında sülhü qurmaq və düşmənçiliyi məhv etmək üçün müharibə aparır, hər bir millətin təbii və qanuni hüquqlarının

---

[157] Телеграмма Чичерина на имя Г.К.Орджоникидзе. 11.01.1921. – РГАСПИ, ф.85, оп. с/Турция, д.33, л.1-2.

[158] Из бюллетеня информбюро Турции. 15.01.1921. – РГАСПИ, ф.544, оп.3, д.115, л.11.

tanınmasına çalışırdı. Ermənistan ilə aparılan danışıqlarda və münasibətlərdə bu fikir əsas motiv və başlıca prinsip hesab edilirdi. Türklər öz haqlarını digər millətlərin haqlarının müdafiəsi ilə eyni tuturdular.

Buna baxmayaraq, bəzi erməni xadimləri əsassız ərazi iddialarından imtina etmir, Ermənistanı zorla türk ərazilərində yerləşdirməyə çalışırdılar. Bununla əlaqədar olaraq Fransada çıxan "Jurnal De Orient" 1921-ci il 12 yanvar tarixli nömrəsində yazırdı:

*"Paqos Nübar Paşa Amerika erməni komitəsinə belə bir teleqram göndərmişdir: Ermənistan hökuməti türk ərazisində yerləşməlidir. Türkiyə Ermənistanı işğal edilənədək Millətlər Cəmiyyətinin Ermənistana ayırdığı 25 mln. dollar verilməsin"* [159].

Lakin erməni xalqının müəyyən təbəqəsi belə düşünmür, təhlükəsizliyi və rahat yaşaması üçün hakimiyyəti altında yaşadıqları bolşeviklərə deyil, türklərə və türk ordusuna etibar edirdi. "Vercin Lur" qəzeti 1921-ci il yanvarın 12-də bununla bağlı olaraq yazırdı:

*"Fransız mətbuatının məlumatına görə İrəvan əhalisi qırmızıların talanlarına və gündən-günə artan anarxiyaya son qoymaq üçün Kazım Qarabəkir Paşadan İrəvanı tutmağı xahiş etmişdir. Kamalçıların komandanı bildirmişdir ki, o, Aleksandropol sülh müqaviləsinin şərtlərini poza bilməz"* [160].

Aleksandropolun boşaldılmasını xahiş edən G.Çiçerin 1921-ci il yanvarın 13-də Q.K.Orconikidzeyə göndərdiyi teleqramında türklərin bu məsələdə yubanmalarını yanlış olaraq *"Nuru Paşanın 1918-ci ildəki köhnə antisovet siyasətinin dirçəldilməsi"* kimi qiymətləndirir, *"qardaş Ermənistan respublikasını fəlakətli vəziyyətdən çıxartmağı"* vacib hesab edirdi[161].

Ermənilərdə türk düşmənçiliyinin dayanmayacağı qənaətində olan G.Çiçerin yanvarın 19-da Q.K.Orconikidzeyə göndərdiyi teleqramında yazırdı:

*"Erməni – türk düşmənçiliyi həll edilməyəcəkdir. Ona görə də sərhədlərin qarşılıqlı güzəştlərlə dəyişdirilməsi vacibdir. Bütün türklər və Bəkir Sami burnunu qaldırır, bütün əhalini bizə qarşı yönəldir. Bütün məsələlər Moskvada həll olunur və biz hər cür bazarlığa getməyə hazırıq. Türklər Aleksandropoldan çıxmasalar, biz silah verməyəcəyik. Sərhəd məsələləri həll olunmadan müqavilə bağlamaq olmaz"* [162].

---

[159] Бюллетень информационного отдела при дипломатическом представительстве АССР в Грузии. 24.01.1921. №136. – ARSSA, f.1, siy. 2, iş 79, v. 65.

[160] Бюллетень информационного отдела при дипломатическом представительстве АССР в Грузии. 22.01.1921. №135. – ARSSA, f.1, siy. 2, iş 79, v. 38.

[161] Переписка Г.К.Орджоникидзе с Чичериным. 13.01.1921.– РГАСПИ, ф.85, оп. с/Турция, д.18, л.2-4.

[162] Телеграмма Чичерина Орджоникидзе. 19.01.1921. – РГАСПИ, ф.85, оп. с/Турция, д.18, л.6.

G.Çiçerin Türkiyədən guya *“sürgün edilən ermənilərin repatriasiya edilməsini, onları yerləşdirmək üçün geniş ərazi verilməsini”* təklif edirdi. Bununla o, həm Türkiyəyə təzyiq etməyə, həm də erməni kütlələrinin rəğbətini qazanmağa çalışırdı.

Ermənistan hakimiyyəti isə Naxçıvanı da özünə birləşdirmək istəyindən əl çəkmirdi. Bununla əlaqədar olaraq erməni mətbuatı yazırdı:

*“Leqran Naxçıvanı Ermənistana birləşdirmək üçün getmişdir. O, İrəvana qayıtdıqdan sonra bildirmişdir ki, Naxçıvanda özlərinin İnqilab Komi-təsi vardır və hələlik Ermənistana birləşmək qərarına gəlməmişlər, Moskvada erməni – türk – rus – azərbaycanlı konfransının qərarlarını və ya Moskvanın sərəncamını gözləyirlər”* [163].

Ermənistan ilə sərhəd məsələsinin həllinə Türkiyənin münasibəti Şərq xalqları Fəaliyyət və Təbliğat Şurasının səlahiyyətli nümayəndəsi Y.A.Eşbanın 1921-ci il yanvarın 29-da Mustafa Kamal Paşa ilə görüşündə də müzakirə edildi. Söhbət zamanı Mustafa Kamal Paşa dedi:

“*Əgər Ermənistan türk ərazilərinin bir hissəsini xahiş etsə, onda xalq yeni və güclü millətçi hisslərin təsiri altında sözsüz ki, buna razı olmayacaq və müqavimət göstərəcəkdir. Bir qarış torpağa iddia xalqın qəzəbini coşduracaqdır*” [164].

Bir neçə gün sonra Moskvada öz işinə başlayacaq rus – türk konfransında münasibətlərin möhkəmləndirilməsini arzulayan Mustafa Kamal Paşa əlavə etdi ki, Ermənistanın Qırmızı ordu tərəfindən tutulması ilə birlikdə ermənilər üzərində qazanılan qələbə erməni təhlükəsini məhv etdi. Onun fikrincə, türklərin ermənilərə təklif etdiyi sülh şərtləri Rusiya tərəfindən heç bir ixtilafa səbəb olmamalı idi[165].

Mustafa Kamal Paşa Eşbanı qəbul edən gün, yanvarın 29-da Moskva konfransına gedən türk nümayəndə heyəti Bakıya gəldi[166]. Bakıda söhbətlər zamanı türk nümayəndə heyəti bütün mübahisəli məsələləri həll etmək, mehriban qonşuluq münasibətləri qurmaq məqsədilə Azərbaycan, Gürcüstan, sonra isə Ermənistan ilə ayrıca müqavilə bağlamaq istəyini

---

[163] Бюллетень информационного отдела при дипломатическом представительстве АССР в Грузии. 24.01.1921. №136. – ARSSA, f.1, siy.2, iş 79, v. 87.

[164] Беседа Мустафа Кемал Паши с уполномоченным Совета Пропоганды Действия Народов Востока Эшба. 29.01. 1921. Ангора. – РГАСПИ, ф.544, оп. 3, д. 46, л. 38-40.

[165] Из сводки Российского информбюро в Турции (Трапезунд), в. т.ч. из беседы Кемаля с секретарем Ангорской советской миссии Эшба. 21.02.1921. – РГАСПИ, ф.544, оп.3, д.96, л.32-33.

[166] Телеграмма Г.К.Орджоникидзе Чичерину. 29.01.1921. – РГАСПИ, ф.85, оп. с/Турция, д.27, л.4-10.

Azərbaycan tərəfinin diqqətinə çatdırdı. Türklər Azərbaycan ilə 7 maddədən ibarət saziş layihəsini də hazırlamışdılar[167]. Lakin Azərbaycan hökuməti Mərkəzin təzyiqi altında buna etiraz etdiyindən həmin istəyi reallaşdırmaq mümkün olmadı. Bir müddət sonra Moskvada da türk nümayəndə heyətinə Güney Qafqaz respublikaları ilə ayrı-ayrılıqda deyil, vahid müqavilə bağlamağın vacibliyini dedilər[168].

Belə bir zamanda, əvvəllər təhsil naziri işləmiş, Rusiyada səfir təyin edilmiş Əli Fuad Paşa fevralın 2-də Moskvaya gəldi[169]. O, fevralın 3-də Azərbaycandakı türk əsirlərdən ibarət polk hazırlayıb Türkiyəyə göndərməyi xahiş etdi. Bakıdakı türk əsirlərindən ibarət 700-cü polk yaradıldı. Sovet Rusiyası polkun göndərilməsində ən əlverişli yol kimi Gürcüstan – Kars yolunu təklif edirdi. Lakin hələ sovetləşdirilməyən Gürcüstan yolu bağlı idi. Arzuolunmaz hərəkətlərin baş verməməsi üçün onlar silahsız olmalı idi. Məsələ sovet Ermənistanı hökuməti qarşısında qaldırıldı. Ermənistan tərəfi razılığını bildirdi. Lakin verdiyi sözü yerinə yetirmədi. Belə ki, polk Zəngəzurdan Naxçıvana gedərkən silahsız adamlara hücum edən daşnak silahlıları 300 nəfəri qətlə yetirdilər. Sağ qalanlar isə yolu keçə bilməyərək geriyə – Bakıya qayıtdılar.

Bolşeviklərin hakimiyyəti altında olan Ermənistan ərazisində törədilən belə hərəkətlər narahatlıq doğururdu. Sovet rəhbərliyi isə yanlış olaraq baş verən hadisənin səbəbi kimi türk ordusunun Aleksandropolu boşaltmamasında görürdü. Fevralın 3-də Q.K.Orconikidzeyə göndərdiyi teleqramında sovet hakimiyyətinin Ermənistanın işğal edilmiş ərazilərində asayişin pozulmasının əleyhinə olduğunu və Aleksandropolun boşaldılmasını tələb etdiyini yazan G.Çiçerin vurğulayırdı ki, bu tələbin yerinə yetirilməməsi Türkiyə ilə sovet Ermənistanı arasında müharibə sayılacaqdır. O, Kazım Qarabəkir Paşanın hərəkətlərini "xuliqanlıq" adlandıraraq bildirirdi ki, Aleksandropolun türklərin əlində olması sovet hakimiyyətinin möhkəmləndirilməsinə mane olur və daşnakları gücləndirir. Əli Fuad Paşa isə G.Çiçerinlə söhbətində Aleksandropolu boşaldacaqlarını vəd etmişdi[170].

Türk nümayəndə heyəti 1921-ci il fevralın 6-da Moskvaya gəldi. Heyətin tərkibinə xarici işlər naziri, missiyanın rəhbəri Bəkir Sami Kunduh, iqtisadiyyat məsələləri üzrə nazir Yusuf Kamal, TBMM üzvü Os-

---

[167] ARSSA-nın surət fondu, №354, v.2.

[168] Документы внешней политики СССР. Т.III, с.589-607; Советско – турецкие отношения. Сб. документов. 1917-1926 гг. М., 1947.

[169] Чичерин Г. Год восточной политики советской власти. – Газ."Бакинский рабочий", 21.11.1921, №266 (398).

[170] Телеграмма Чичерина Г.К.Орджоникидзе. 03.02.1921. – РГАСПИ, ф.85, оп. с/Турция, д.18, л.8, 18, 19.

man, missiyanın müşavirləri İbrahim Mali və Şövkət Seyfi daxil edilmişdilər[171]. Tərkibdə, həmçinin deputat, doktor Rza Nur və Əli Fuad Paşa da var idi. Bolşeviklərin qərbpərəst hesab etdikləri və etimad bəsləmədikləri Bəkir Sami Moskvaya deyil, Londonda Antanta ölkələri ilə keçiriləcək konfransa getdiyi üçün nümayəndə heyətinə Yusuf Kamal başçılıq edirdi.

Rus – türk konfransı ərəfəsində, fevralın 8-də Kazım Qarabəkir Paşa XI ordu komandanlığına məktub yazaraq türk əsirlərindən ibarət yaradılmış polkun Türkiyəyə keçirilməsi üçün imkan yaradılmasını xahiş etdi[172]. Fevralın 9-da XI ordu komandanlığına yazdığı digər bir məktubunda isə o, qeyd edirdi ki, ermənilər daim Antantaya meyil edəcəklər, türk və rus millətləri arasında nifaq salacaqlar, ermənilərin adətinə görə onlara heç bir vaxt inanmaq olmaz, nifaq salmaq üçün min cür müxtəlif hiyləgərlikləri işə salırlar. Bolşevikə çevrilən ermənilərə inanmamağı XI ordu komandanından xahiş edən Kazım Qarabəkir Paşa əlavə edirdi ki, ermənilər bizim mehriban münasibətləri pozmaq üçün və Antanta xeyrinə təbliğat aparırlar. O, tamamilə düzgün olaraq belə qənaətdə idi ki, bolşevikə çevrilən ermənilər daşnaklarla eyni cür hərəkət edirlər[173].

Keçiriləcək türk – rus konfransına bolşevik xadimlərinin münasibəti birmənalı deyildi. G.Çiçerinin Türkiyəyə qarşı bir sıra tələblər irəli sürməsi vəziyyəti çətinləşdirirdi. Ondan fərqli olaraq, müqavilənin tezliklə bağlanmasını vacib hesab edən Q.K.Orconikidze fevralın 10-da V.İ.Lenin, L.Trotski və İ.Stalinə göndərdiyi teleqramında türk heyətini çox gözlətməməyi, müqaviləni mümkün qədər tez bağlamağı xahiş edir, "erməni məsələsi"ni türk siyasətinin ən yaralı yeri adlandıraraq yazırdı ki, *"vəziyyət ermənilər tərəfindən qızışdırılmış və şişirdilmişdir"*. O, bir çox erməni kommunistinin Türkiyə ilə müharibəyə hazır olduğunu qeyd edir və bu informasiyanı kommunistlərdən deyil, daşnaklardan aldıqlarını vurğulayırdı. Ermənilərin icazə olmadan hətta türk hərbi hissələrinə yaxınlaşdıqlarını yazan Q.K.Orconikidzenin fikrincə, məhz onların təqsiri ucbatından Moskva ilə Ankara arasında münasibətlər kəsilmişdi[174].

Digər bolşevik xadimləri də məsələyə dair baxışlarını bildirdilər. Məsələn, RSFSR-in Gürcüstandakı daimi nümayəndəliyinin müşaviri

---

[171] Список личного состава турецкой миссии в Москве. – РГАСПИ, ф.5, оп.1, д.2224, л.1.

[172] Орджоникидзе Г.К. Ответная телеграмма в Коминтерн Сафарову. 03.03.1922. – РГАСПИ, ф.85, оп. с/Турция, д.76, л.2.

[173] Письмо главнокомандующего восточным фронтом Кязим Карабекира на имя командующего XI армией. 09.02.1921. №177. – РГАСПИ, ф.85, оп. с/Турция, д.37, л.6.

[174] Телеграмма Орджоникидзе Ленину, Троцкому и Сталину. 06.02.1921. – РГАСПИ, ф.85, оп. с/ Турция, д.3, в.1-3.

S.İ.Kavtaradze və RSFSR Xalq Xarici Ticarət Komissarlığının kollegiya üzvü A.L.Şeyneman 13 fevral tarixli məruzələrində Aleksandropolun boşaldılmasına, Naxçıvanı isə strateji məntəqə kimi heç bir zaman həm türklərə və həm də Ermənistana verməməsinə tərəfdar çıxırdılar. Onların fikrincə, diyarın əhalisi və türklər buna razı olmayacaqları üçün Naxçıvanı sovet Rusiyasının protektoratlığı altında özünü idarə edən diyara çevirmək lazım idi. Bunun türkləri də, erməniləri də razı salacağı qənaətində olan S.İ.Kavtaradze və A.L.Şeyneman belə hesab edirdilər ki, Naxçıvan vasitəsi ilə zəngin İran əyalətləri ilə ticarət etmək, həm Ermənistanı yedirtmək, həm də sovet ordularını ərzaqla təmin etmək qayğısından azad olmaq olardı. Naxçıvan Ermənistana verilərdisə, türklər Maku xanlığını tuta bilərdilər. Türklərlə sazişin bağlanması isə azərbaycanlı və erməni əksinqilabçılarının toplaşdığı Gürcüstanın da sovetləşdirilməsini sürətləndirərdi[175].

### *Tiflisdə erməni bolşeviklərinin qəddarlıqları*

Gürcüstandakı hakimiyyətin Antanta ölkələri ilə yaxınlıq etməsi bolşevik Rusiyasının maraqlarına uyğun deyildi. Antanta ölkələrinin Anadoluda qələbə qazanması onların Batumu tutmasına və bütün Cənubi Qafqazı işğal etməsinə gətirərdi. Ona görə də 1921-ci il fevralın 11-də Gürcüstan bolşevik Rusiyası tərəfindən işğal edilərək sovetləşdirildi. Bu işğalın Gürcüstanda yaşayan azərbaycanlılar üçün ağır nəticələri oldu. Erməni millətindən olan Gürcüstan bolşevikləri azərbaycanlılara qarşı qəddarlıqlar etdilər. Türkiyədəki sovet məlumat bürosunun verdiyi informasiyada yazılırdı:

*“Bolşeviklər Tiflisi işğal edərkən erməni bolşevikləri Şeytanbazarda müsəlmanlara qarşı zorakılıq etdilər. Onlar öldürüldülər və əmlakları viran qoyuldu. Bolşeviklərlə birlikdə Axıskaya girən ermənilər də müsəlmanlara qarşı eyni cür hərəkət etdilər”* [176].

Erməni bolşeviklərinin bu qanlı əməlləri onların daşnaklardan fərqlənmədiyini və nifrətin həddi-hüdudunun olmadığını göstərirdi. Lakin bu qətllər sonuncu olmadı.

### *Şuşada qətllər*

Moskva konfransının açılışı ərəfəsində Şuşada da daşnaklar Azərbaycan teatr truppasının üzvləri olan Aparlinskini və Mirpaşanı, həmçinin

---

[175] Доклад Кавтарадзе, Шейнемана. 13.02.1921. – РГАСПИ, ф.85, оп. с/ Турция, д.28, л.6.

[176] Сводка российского информационного бюро в Турции. Гор. Трапезунд. 21.03.1921. – РГАСПИ, ф.544, оп.3, д.96, л.108.

birləşmiş hərbi məktəbin üç kursantını qətlə yetirdilər. Fevralın 24-də onların izdihamlı dəfn mərasimi təşkil edildi. Mərasimdə Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov və xalq maarif komissarı D.Bünyadzadə nitq söylədilər[177]. Onlar bu qətl hadisəsini pislədilər və iki xalq arasında dostluğa çağırdılar.

## *Sovet hökumətinin tələbləri*

Artıq qeyd edildiyi kimi, belə bir şəraitdə bolşevik Rusiyası türklərdən Aleksandropolu boşaltmağı israrla tələb edirdi. Bu da səbəbsiz deyildi. Bolşevik xadimlərinin fikrincə, konfransdan əvvəl türklərin Aleksandropolu boşaltması sovet Rusiyasına böyük üstünlük verərdi. Türklər isə Aleksandropolun əvvəlcədən boşaldılmasının özləri üçün namunasib şərait yarada biləcəyindən çəkinərək, oradan çıxacaqlarını, lakin hələ bunun zamanının gəlmədiyini, həmçinin erməni bolşeviklərinin daşnaklara qarşı fəal mübarizə aparmadıqlarından narahat olduqlarını söyləyirdilər.

Türklərin bu narahatlığı da səbəbsiz deyildi. Çünki ermənilər hər vəchlə rus – türk dostluğunu pozmağa çalışırdılar. Türkiyə üzrə tarixçi, çekist, Türkiyə Kommunist Partiyası Təşkilat Bürosunun üzvü A.A.Alimov 1921-ci il fevralın 18-də Q.K.Orconikidzeyə göndərdiyi teleqramında yazırdı ki, sovet Ermənistanı ilə Ankara arasında normal münasibətlər üçün erməni kommunistlərinin daşnaklara qarşı fəal mübarizə aparması lazımdır[178]. Lakin Ermənistanda bu hal demək olar ki, müşahidə edilmirdi.

Əhməd Muxtar və Bəkir Sami də Q.K.Orconikidzeyə 1921-ci il fevralın 19-da göndərdikləri teleqramda ermənilərin rus – türk dostluğunu pozmağa çalışdıqlarını yazırdılar[179].

Erməni bolşevikləri qarşıdakı rus – türk konfransında "erməni məsələsi"ni müzakirə etməyə çalışdıqları bir zamanda Türkiyə ərazisində "erməni ocağı" yaratmaq üçün səylərini dayandırmayan xarici ölkələrdəki daşnak xadimləri Antanta dövlətlərinə müraciətlər edir, Türkiyə ilə Sevr müqaviləsinin şərtlərini yüngülləşdirmək üçün 1921-ci il fevralın 21-də açılan London konfransına böyük ümidlər bəsləyirdilər. London konfransı ərəfəsində ingilis – erməni komitəsi Antanta Ali Şurasından Türkiyədəki ermənilərin istəklərini təmin etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini xahiş etdi:

---

[177] Похороны жертв дашнаков. – Газ. "Бакинский рабочий", 25.02.1921, № 45(179).

[178] Телеграмма Алимова на имя Г.К.Орджоникидзе. 18.02.1921. – РГАСПИ, ф.85, оп. с/ Турция, д.101, л.3.

[179] Телеграмма Ахмед Мухтара, Бекир Сами на имя Г.К.Орджоникидзе. 19.02.1921. – РГАСПИ, ф. 85, оп. с/ Турция, д.39, в.5-8.

*"1. Türkiyə Ermənistanı deyilən ərazidə tamamilə müstəqil olan erməni ocağı ərazisi yaradılsın. 2. Kilikiyada Livandakına bənzər, ən pis halda Türkiyənin suverenliyi altında xalqların müxtəlifliyindən asılı olmayaraq, tamamilə ondan müstəqil siyasi quruluş yaradılsın. 3.Türkiyə ərazisində türk olmayan xalqlar üçün müvafiq təminatlar yaradılsın"* [180].

Qəribə idi. Erməni xadimləri Çukurobada muxtariyyət qurmağa çalışsalar da, həmin istəyi yerinə yetirmək üçün ərazidə erməni əhalisi mövcud deyildi. Bu zaman Çukurobada cəmi 300 nəfər erməni yaşayırdı[181]. Nəticədə London konfransı da ermənilərin istəklərini təmin edə bilmədi.

Ermənilərin Antanta ölkələrinə müraciəti bolşevik xadimlərini hiddətləndirsə də, onlar Moskva konfransı ərəfəsində türklərin niyyətlərinin daha geniş olduğundan şübhələnirdilər. P.Mdivani fevralın 24-də Ankaradan G.Çiçerinə və Q.K.Orconikidzeyə göndərdiyi teleqramında yazırdı ki, türklərin Ermənistandakı çevrilişə də münasibətləri şübhəlidir. Türklər deyirlər ki, daşnak hökumətini sındırmaq, bolşevik Rusiyasının kömək etdiyi Ermənistanı sındırmaqdan asan idi. Türkiyənin hökumət dairələri P.Mdivani ilə söhbətlərində *"sovet Rusiyasının Ermənistanı yenidən sovetləşdirmək istəyib-istəmədiyini"* eyhamla soruşmuş, bununla da bolşevik olmalarına baxmayaraq, Ermənistanda hələ də daşnak fəaliyyətlərindən imtina edilmədiyinə işarə vurmuşdular. London konfransında türklərin Şərqə doğru hərəkət etmək istəyəcəklərini yazan, gürcü məsələsi və daşnak xadimləri ilə tez qurtarmağı tövsiyə edən P.Mdivaninin fikrincə, Batuma qarşı hər hansı bir hərbi əməliyyat vəziyyəti mürəkkəbləşdirə bilərdi[182].

Artıq qeyd edildiyi kimi, bolşevik Rusiyası rus – türk konfransına əvvəlcə Azərbaycanı, sonra isə Ermənistanı qatmağa çalışırdı. Bu da səbəbsiz deyildi. Çünki sovet hökuməti Azərbaycan ilə Türkiyə arasında ayrıca müqavilənin bağlanmasını istəmirdi. Ermənistan konfransda iştirak edəcəyi təqdirdə isə bolşevik Rusiyası Türkiyəyə təzyiq etmək imkanı qazanar, ermənilərin özlərinə aid olan məsələləri gündəliyə gətirməsi türk nümayəndə heyəti üçün çətinliklər yaradardı.

Türkiyə tərəfi Azərbaycanın və Ermənistanın rus – türk konfransında iştiraklarının əleyhinə çıxırdı. Bunun da bir sıra səbəbləri var idi. Azərbaycan ilə Türkiyə arasında heç bir mübahisəli məsələ yox idi. Türklər

---

[180] Бюллетень информационного отдела при полномочном представительстве РСФСР в Азербайджане, Армении Грузии. №4. Секретно. 14.04.1922. – GMƏYTA, f.612, siy.1, iş 100, v. 62.

[181] Yenə orada.

[182] Телеграмма Мдивани Чичерину, Орджоникидзе об отношении Турции к событиям в Грузии, к перевороту в Армении. 24.02.1921. – РГАСПИ, ф.298, оп.1, д.103, л.1; ф.298, оп.1, д.70, л.1.

Azərbaycan ilə ayrıca müqavilənin bağlanmasını istəyirdilər. Ermənistanın da iştirakının ona görə əleyhinə çıxırdılar ki, Türkiyə Aleksandropol müqaviləsini hələ də qüvvədə hesab edir, Cənubi Qafqaz respublikaları ilə ayrıca müqavilə bağlamağa çalışırdı.

Azərbaycan tərəfi isə bir sıra səbəblərə görə rus – türk konfransında iştirak etməyə can atmırdı. Bununla bağlı olaraq B.Şahtaxtinski Moskvadan 1921-ci il fevralın 26-da xalq xarici işlər komissarı M.Hüseynova yazırdı:

*"Türklərlə Azərbaycan arasında müqavilə Bakıda məxsusi bağlanacaqdır. Türklər konfransda Azərbaycan və Ermənistan nümayəndələrinin iştirak etməsini istəmirlər. Bildirirlər ki, onlarla Azərbaycan arasında qətiyyən heç bir mübahisəli məsələ yoxdur. Azərbaycan ilə müqavilə xüsusi bağlanacaqdır. Ermənistan nümayəndəsinin iştirakına qarşı ona görə çıxırlar ki, onlar Aleksandropol müqaviləsini qüvvədə hesab edirlər və ondan imtina etmək istəmirlər. Rusiya isə bizimlə ayrıca müqavilə bağlanmasının əleyhinədir. O, əvvəlcə Azərbaycanın, sonra isə Ermənistanın nümayəndələrini konfransa qatmaq istəyir. Mən şəxsən konfransda Azərbaycanın iştirakının əleyhinəyəm. Çünki mən orada heç nə haqqında qətiyyətli danışa bilmərəm. Xırda şeylərdə türklərin əleyhinə getmək bizə sərf etmir. Məhz mən onların üzərində təsirə malikəm. Məni Anadoluda çoxlu kombinasiyalar gözləyir və Azərbaycana heç bir aidiyyatı olmayan məsələlər barədə türklərə qarşı konfransda çıxış etsəm, bütün bunların hamısını itirə bilərəm. Rusiya türklərlə danışıqları dostluq və qardaşlıq haqqında aparır, ittifaq haqqında aparmır"* [183].

Beləliklə, bir çox, o cümlədən ərazi-sərhəd məsələlərinin həllinin gözləndiyi konfransa hazırlıq işləri artıq yekunlaşmışdı. Ona başlamaq olardı.

---

[183] Б. Шахтахтинский – М.Д.Гусейнову. 26.02.1921. – ARSSA, f.609, siy.l, iş 94, v.2.

# III FƏSİL

# RUS – TÜRK KONFRANSINDA VƏ MOSKVA MÜQAVİLƏSİNDƏ ƏRAZİ-SƏRHƏD MƏSƏLƏLƏRİ

## *Rus – türk konfransı işə başlayır*

Rus – türk konfransı 1921-ci il fevralın 27-də Moskvada öz işinə başladı[184]. Sovet nümayəndə heyətinin tərkibinə xalq xarici işlər komissarı G.Çiçerin və Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin üzvü Cəlaləddin Qorxmazov daxil idilər. Açılış nitqində G.Çiçerin bildirdi ki, kapital əleyhinə mübarizə Rusiyada kommunist inqilabı formasını almış, Rusiya xalqları azadlıq və öz müqəddəratını təyinetmə uğrunda mübarizə aparan xalqlar arasında xüsusi yer tutmuşdur[185] .

Ondan sonra türk dilində danışan TBMM nümayəndə heyətinin rəhbəri Yusuf Kamal Sevr müqaviləsinin Türkiyə üçün heç bir şey saxlamadığını, onu qəbul etməyin mümkün olmadığını və türk xalqının sonadək döyüşmək qərarına gəldiyini söylədi. Tərəflər işin komissiyalarda davam etdirilməsi barədə razılaşdılar.

Fevralın 28-də siyasi komissiyanın iclasında Yusuf Kamal çıxış edərək bildirdi ki, Əsas Milli Akt (Türkiyənin ərazisini müəyyənləşdirən həmin akt 1920-ci il yanvarın 28-də İstanbulda Osmanlı Deputatlar Palatası tərəfindən hazırlanmış və bütün dövlətlərə elan edilmişdir – M.Q.) heç bir şübhə doğurmadan qəbul edilməlidir və onların hətta bu barədə mübahisə etməyə haqqı yoxdur, düzəliş mümkün deyildir.

İclasda Aleksandropol müqaviləsinə münasibət mübahisələr yaratdı. Müzakirələr zamanı G.Çiçerin qətiyyən qəbuledilməz suallar qoydu. Gərgin keçən danışıqlar onunla sona çatdı ki, Yusuf Kamal bildirdi: Milli Akt və Aleksandropol müqaviləsi toxunulmazdır. Öz fikrini erməni kommunistlərinin maskalanmış daşnak olmaları ilə əsaslandıraraq bildirdi ki, Aleksandropol haqqında məsələ Ermənistana aiddir, bu məsələlər Rusiya ilə deyil, həmin dövlətlə həll edilməlidir, türk nümayəndə heyətinin Gürcüstan, Ermənistan və Azərbaycan ilə danışıqlar aparmağa səlahiyyəti yoxdur. Nümayəndə heyətinin səlahiyyəti yalnız Rusiya ilə siyasi və hərbi ittifaq bağlamaq haqqındadır[186] .

---

[184] Советская Россия и Турция. – Газ. “Бакинский рабочий”, 02.03.1921, №49 (183).

[185] Русско – турецкая конференция. От народного комиссариата по иностранным делам. – Газ.“Правда”, 01.03.1921, №45; Советская Россия и Турция – Газ. “Бакинский рабочий”, 02.03.1921, №49 (183).

[186] Письмо Чичерина Сталину.28.02.1921. – РГАСПИ, ф.159, оп.2, д.57, л.18.

Mübahisələr olduğundan konfrans bir həftə müddətinə təxirə salındı. Gərgin vəziyyətin yaranmasında türklər sovet – türk münasibətlərinin yaxşılaşmasında maraqlı olmayan xalq xarici işlər komissarının müavini, milliyyətcə erməni olan L.Karaxanın təsirinin olduğundan şübhələnirdilər. Lakin L.Karaxan sovet idarəçilik sisteminə və belə məsələlərə təsir etmək gücündə olan dövlət xadimi deyildi. Ən mühüm məsələləri hətta G.Çiçerinin özü də təkbaşına həll edə bilməzdi. Belə məsələlər ölkədə hakim olan RK(b)P MK Siyasi Bürosunda geniş müzakirə olunmalı, qərar qəbul edilməli və nümayəndə heyətinə göstərişlər verilməli idi.

Martın 1-də G.Çiçerin konfransın gedişi barədə MK-nın məsul katibi (qeyri-rəsmi olaraq baş katibi) və təşkilat bürosunun üzvü Nikolay Krestinskiyə məlumat verərək yazırdı:

*"Türkiyə ilə münasibətlər son dərəcə ciddi, böhranlı həddə çatmışdır, türk nümayəndə heyəti bildirir ki, Milli Akta görə Batum, Ardahan və Kars türk əraziləridir və yalnız bir dəfə plebissitə icazə verə bilərlər. Türkiyədə qalan ərazilərə toxunmaq olmaz"* [187].

Konfransın işinin pozulacağından narahatlığını ifadə edən G.Çiçerin qeyd edirdi ki, türk heyəti imperializmə qarşı mübarizədə maraqların ümumiliyinin və inqilabi səylərin vacibliyini bildirmiş, bununla da Aleksandropol müqaviləsinə toxunulmasına qarşı çıxmışdır.

Türklərin mövqeyi haqqında Ankaraya P.Mdivaniyə göndərdiyi 1921-ci il 4 mart tarixli teleqramında məlumat verən G.Çiçerin yazırdı ki, bu, əslində Batumun və bütün Ermənistanın Türkiyəyə verilməsi deməkdir. O, belə yanaşmanı sovet Rusiyası üçün qətiyyən qəbuledilməz hesab edərək vurğulayırdı:

*"Biz əvvəlcə bilmirdik ki, nümayəndə heyəti bizimlə ittifaq bağlamağa, yoxsa əlaqələri kəsməyə və bizə qarşı material hazırlamağa gəlmişdir. İndi alver gedir. Biz Kars və Ardahanı veririk, lakin heç bir halda Batumu verə bilmərik və Aleksandropol dəmiryolundan qərbə doğru 20 kilometrlik zolağı və Arazdan cənuba doğru ərazini tələb edirik. Batumda Gürcüstan, Aleksandropol və İrəvanda Ermənistan olacaqdır. Naxçıvan isə Rusiyadan bilavasitə asılı olacaqdır. Türklər əvvəlcə ittifaq sözündə israr edirdilər. Lakin İngiltərə ilə aparılan danışıqları nəzərə alaraq, biz onlara bu ifadədən istifadə etməyin mümkünsüzlüyünü bildirdik. Türklər söylədilər ki, onların Ermənistan və Gürcüstan ilə münasibətlərinin bizə aidiyyatı yoxdur. Lakin biz bunu qətiyyətlə rədd edirik. Vəziyyət belədir.*

---

[187] Письмо Чичерина Кристинскому. 01.03.1921. – РГАСПИ, ф.159, оп.2, д.57, л.20.

*Türklərə izah etmək lazımdır ki, sovet respublikaları təbii ittifaqdadırlar. Kars və Ardahanın güzəştə gedilməsi maksimum mümkün olandır"* [188].

Çiçerinin bu məktubu konfransın sovet rəhbərliyinin ciddi diqqəti altında olduğunu, Türkiyə ilə münasibətlərin inkişafını xüsusi nəzarətdə saxladığını göstərirdi. Qarşıqlıqlı münasibətlərə dair ən mühüm məsələlər barədə yekun rəyi Siyasi Büro bildirirdi.

### *Konfransın gedişində rus – türk münasibətlərini pozmaq cəhdləri*

Konfrans işini davam etdirərkən iki ölkə arasında münasibətlərdə bəzi çətinliklər hələ də qalırdı. Rus – türk münasibətlərinin inkişafına mane olan başlıca amillərdən biri qatı erməni millətçilərinin fəaliyyəti idi. Doğrudur, daha çox milli partiyaların fəaliyyəti nəticəsində baş verən toqquşmalara və müharibələrə Cənubi Qafqaz sovetləşdirildikdən sonra son qoyulmuşdu. Lakin hakimiyyətə gələn erməni kommunistləri rus – türk münasibətlərini pozmaq üçün müxtəlif üsullardan istifadə edirdilər. Ona görə də Qırmızı ordu komandanlığına göndərdiyi 1921-ci il 5 mart tarixli məktubunda Naxçıvan və Ordubadda ermənilərin rus – türk dostluğunu pozmağa çalışdığını yazan Kazım Qarabəkir Paşa buna çalışan ermənilərin ciddi cəzalandırılmasını xahiş etdi[189].

Erməni xadimlərinin müsəlmanlara düşmən münasibət bəsləmələrini, köhnə düşüncələrindən imtina etməmələrini, rus – türk dostluğunu pozmaq cəhdlərini dayandırmaq, konfransda edilən təzyiqlərlə əlaqədar yaranmış gərgin vəziyyəti aradan qaldırmaq və erməni dəstələrinin müsəlmanlara qarşı qanlı əməllərinin qarşısını kəsmək üçün türk hökuməti bəzi tədbirlər almağa məcbur oldu.Türkiyə hökuməti Batum istiqamətində ölkənin keçmiş sərhədini tutmaq üçün ordu komandanlığına göstəriş verdi. Hökumətindən aldığı sərəncama uyğun olaraq Kazım Qarabəkir Paşa bu barədə 1921-ci il martın 10-da İ.Stalinə və G.Çiçerinə çatdırmaq üçün XI ordu komandanlığına göndərdiyi teleqramında bildirdi ki, ordu hissələri Çorox çayının cənubuna doğru Batum istiqamətində Türkiyənin keçmiş sərhədini tutmaq üçün hərəkət edir. Bu hissələr Batumu gürcü dəstələrindən, əgər oraya Antanta orduları gələrdisə, onlardan da təmizləməli idi.

---

188 Депеша Чичерина в Ангору Мдивани о проведении политики необходимой для укрепления русско – турецких отношений и подписание Московского договора. 04.03.1921. – РГАСПИ, ф.8, оп.1, д.2117, л.1-2.

189 Письмо главнокомандующему восточным фронтом Кязим Карабекиру на имя командующего XI армией. 05.03.1921. – РГАСПИ, ф.85, оп. с/Турция, д. 37, л.33.

*"Ermәni әhalisinin müsәlmanlara düşmәn münasibәtinin faktlarla tәsdiq olunduğunu, bunun heç dә arzuedilәn olmadığını vә bütün müsәlman dünyası üçün narahatverici olduğunu, Batum vә Axalkәlәk rayonlarında ermәnilәrin hәlә dә köhnә düşüncәlәrindәn imtina etmәk barәdә düşünmәdiklәrini"* yazan Kazım Qarabәkir Paşa türk hökumәtinin müsәlmanların belә әzablı vәziyyәtdә qalmasını fikirlәşmәdiyini vurğulayırdı. Bu qәrar Ankarada P.Mdivaniyә, hәmçinin G.Çiçerinә dә bildirilmişdi[190].

Türk ordusunun hәrәkәti sovet hökumәtindә narahatlıq yaratdı. Çünki Batum Cәnubi Qafqazın qapısı olmaqla, sovet respublikalarının hәyatını tәmin edәn bir liman idi.

## *Müqavilә layihәsinin müzakirәsi*

Konfrans tәxirә salındığından yaranmış vәziyyәtdәn çıxmaq üçün Yusuf Kamal daha nüfuzlu sovet xadimlәri ilә görüşmәk qәrarına gәldi. O, martın 6-da İ.Stalin ilә görüşdükdәn sonra danışıqlar bәrpa edildi.

Siyasi komissiyanın martın 10-da axşam saat 19.30-da işinә başlayan iclasında Rusiya nümayәndә heyәti Türkiyәnin Әsas Milli Aktını tanıdığını bildirdi. Bu, sovet dövlәtinin Sevr müqavilәsinin şәrtlәrini rәdd etmәsi, demәli, hәmin müqavilә çәrçivәsindә ermәnilәrin istәklәrini qәbul etmәmәsi demәk idi. G.Çiçerinin fikrincә, bu Akt mәlum sәrhәdlәrin düzәldilmәsini tәlәb edirdi. Rusiya nümayәndә heyәti sәrhәd xәttini belә tәklif edirdi: Qara dәnizdә Sarp, Gediamt dağı, Şavşet sıra dağları, Ardahan dairәsinә qәdәr keçmiş inzibati sәrhәdlәr, daha sonra Ermәnistanda Ağbaba vә Qızıldaş dağları, hәmçinin Aleksandropol sülh müqavilәsi ilә Ermәnistana keçәn әrazilәr.

G.Çiçerin bildirdi ki, Rusiya hökumәti sәrhәdlәrin Arpaçaydan şәrqә vә Arazdan cәnuba doğru müәyyәnlәşdirilmәsindә israr etmәyәcәkdir, lakin hәrbi nöqteyi-nәzәrdәn, hәmçinin kürdlәrin vә digәr bandaların hücumlarına qarşı Aleksandropol – Naxçıvan dәmiryolunun mühafizәsi zәruridir vә Rusiya hökumәti sәrhәddәn 8 km aralıda ordu saxlamamağı Türkiyәdәn xahiş edir. Rusiya bu ümumi şәrtlәr qәbul edildikdәn sonra Türkiyә ilә saziş bağlamağa razı idi. Sәrhәdlәrin dәqiqlәşdirilmәsi detallarını hәr iki tәrәfdәn olan hәrbi ekspertlәr müәyyәnlәşdirәcәkdilәr.

Hәmin sәrhәdi qәbul etdiyini, Arpaçay rayonunda Aleksandropol – İrәvan xәttindә dәmiryolu boyunca orduları geri çәkmәyә razı olduğunu bildirәn türk nümayәndә heyәti onun hәyata keçirilmәsi vasitәsini aşağıdakı kimi görürdü: Rusiya Әsas Milli Aktla elan edilәn prinsiplәri qәbul

[190] Телеграмма Чичерина командиру XI Красной Армии. 10.03.1921. – РГАСПИ, ф.157, оп. 1/с, д.6, л. 21.

edir; müqavilə ilə müəyyənləşdirilən şimal-şərq sərhədləri və ərazi müəyyənləşdirilir; Türkiyə tərəfi İrəvan dəmiryolunun təhlükəsizliyi ilə bağlı yaranan xahişləri yerinə yetirmək öhdəliyini üzərinə götürür və s.

Daha sonra konfrans Ermənistan ilə sərhəd məsələsini müzakirə etməyə başladı. Türkiyə tərəfi göstərilən zonalarda ordu hissələrini saxlamamağa, lakin öz idarəçiliyini və polisini saxlamağa razılığını bildirdi.

Rusiya nümayəndə heyəti kürdlərin bütün sovet respublikaları üçün daimi təhlükə törətdiyini əsas gətirərək sərhədin Araz çayı boyunca müəyyənləşdirilməsini təklif etdi. Cavabında Türkiyə nümayəndə heyəti bildirdi ki, 8 km ərazidən geri çəkilmək onsuz da böyük güzəştdir. Belə ki, o, tüfəng atəşi ikili distansiyasıdır və Araz rayonuna tətbiq edilə bilməz, burada çay kifayət qədər müdafiə hesab edilə bilər və bundan başqa, bura 80-100 kilometrlik ərazidir. Bu isə faktiki olaraq həmin zonanın türk ordusu tərəfindən lazım gəldiyi təqdirdə müdafiəsini çətinləşdirir. Türkiyə tərəfi ordunu 8 km zolaqdan geri çəkməyə razılığını bildirdi. Bu, müstəsna olaraq Arpaçay rayonuna aid edilməli idi. Əgər Rusiya tərəfi bu maddənin Araz rayonuna aid olmasını israr edərdisə, onda türk nümayəndə heyəti həmin zonanın 4 km olması ilə razılaşa bilərdi. Türkiyə hakimiyyətinin sərhədin bu hissəsində mövcud olması mümkün hücumlardan və qəsdlərdən qorunmaq zərurəti ilə bağlı idi. Məsələ konkret olaraq kifayət qədər aydın olmadığından hərbi ekspertlərin müzakirəsinə verildi.

Naxçıvan haqqında məsələnin müzakirəsi zamanı Türkiyə nümayəndə heyəti bildirdi ki, türk ordusu olduğu üçün Naxçıvan Türkiyənin protektoratlığındadır. Bununla belə, Türkiyə bu protektoratlığı üçüncü dövlətə verməməyə dair təəhhüd almaq şərti ilə Azərbaycana verə bilər. Türk heyəti qəti şəkildə dedi:

*"Türk ordusu əhalinin dəfələrlə baş verən qırılmasının yenidən təkrarlanmasına biganə qala bilməz".*

Rusiya nümayəndə heyəti müdaxilənin bu prinsipinin qəbul edilməsinin təhlükəli olduğunu bildirərək əlavə etdi ki, buna bənzər olaraq Karsda da müsəlman olmayan əhali qırılmışdır. Rusiya tərəfi ona görə də rejimi, həmçinin sərhədi müəyyənləşdirmək və Naxçıvanın Azərbaycanın himayəsi altında protektoratlığı məsələsini qoydu. Əgər belə güzəştə yer verilərdisə, onda bu müqavilənin olmamasının nəticəsi idi. Müqavilənin həmin maddəsi pozulardısa, onda bütün müqavilə pozulmuş olardı. Buna görə də *"xüsusi təminatı qətnaməyə daxil etməməyi"* təklif etdi.

Əslində G.Çiçerinin *"xüsusi təminatı qətnaməyə daxil etmək"* barədə fikirlərinin arxasında gələcəkdə Naxçıvanın taleyi ilə bağlı məsələdə sovet hakimiyyətinin istədiyi kimi hərəkət etmək niyyətləri gizlənirdi. Rusiya nümayəndə heyəti bir qədər də irəli gedərək aşağıdakı formulu qəbul edə bilməyəcəyini bildirdi:

*"Türkiyə protektoratlığı, Aleksandropol müqaviləsi ratifikasiya edilməmişdir, türk ordusunun əhaliyə müraciəti belə bir protektoratlıq üçün hüquqi cəhətdən kifayət qədər əsaslandırılmamışdır. Digər tərəfdən, xalqın suverenliyi həyati mövcudluq hüququ üzərində güzəştlərə yol vermir. Nəhayət, Azərbaycanın təmsil olunmadığı konfransda Azərbaycanın yerinə yetirəcəyi öhdəliyi verməyi müqaviləyə daxil etmək çətindir".*

Qəribə bir mövqe idi. G.Çiçerin Gürcüstanın iştirak etmədiyi konfransda Batumu Gürcüstan üçün, Ermənistanın iştirak etmədiyi konfransda Azərbaycandan Ermənistan üçün əlavə torpaqlar qoparmağa çalışır, eyni ilə Azərbaycanın iştirak etmədiyi elə həmin konfransda tarixi Azərbaycan torpağı olan Naxçıvanı alıb Ermənistana vermək istəyirdi. Bu, nə demək idi? Bu, G.Çiçerinin Azərbaycana və Azərbaycan xalqına olan münasibətinin göstəricisi idi.

Naxçıvanın Ermənistana verilməsinə çalışan G.Çiçerin bunun mümkün olmadığını gördükdə, Naxçıvanın Azərbaycan ilə qırılmaz əlaqəsini və onun himayəsi altında muxtariyyətdən istifadə etməsini müəyyənləşdirən formulu tapmağı təklif etdi. Türkiyə nümayəndə heyəti həmin formulun ikinci hissəsini aşağıdakı redaktədə verməyi xahiş etdi:

*"Bu şərtlə ki, Azərbaycan bu protektoratlığı heç bir üçüncü dövlətə güzəştə getməyəcəkdir".*

Naxçıvanın sərhədləri hərbi ekspertlər tərəfindən müəyyənləşdirilməli idi.

Müqavilənin forması məsələsi üzrə tərəflər razılaşdılar ki, hər iki nümayəndə heyəti müqaviləni ağırlaşdırmamaq üçün onun arxasında ideya əhəmiyyətini saxlayırlar, sərhədlərin dəqiq müəyyənləşdirilməsi xüsusi akta daxil ediləcək və eyni hüquqi qüvvəyə malik olacaq, müqavilə isə yalnız əsas qətnamələri özündə əks etdirəcəkdir.

Rusiya nümayəndə heyəti bəyan etdi ki, əgər sərhədlər müəyyənləşdirilərsə, onda maraqlı olan bütün dövlətlərin suverenliyi özü-özündən öz sərhədləri daxilində tam həyata keçiriləcəkdir və bir tərəfdən Türkiyə ilə Ermənistan, digər tərəfdən Gürcüstan ilə müqavilədə heç bir şey onu məhdudlaşdıra bilməz. Rus nümayəndə heyətinin fikrincə, bu, sazişin əsas şərti idi. Nümayəndə heyəti bildirdi ki, onun hökuməti sovet respublikalarının hüquqlarını onların sərhədləri daxilində məhdudlaşdıran silahlı qüvvələrin azaldılması və ya onun üzərində nəzarət qurulması haqqında qətnamələrlə razılaşa bilməz, əgər Türkiyə hökuməti sovet respublikaları ilə danışıqlarda onları belə məhdudlaşdırmaya razı salmağa məcbur edərsə, Rusiya Sovet Respublikası belə hərəkəti özünə qarşı yönəldilmiş kimi qəbul edəcəkdir.

Türk nümayəndə heyəti bu zaman bildirdi ki, bundan belə aydın olur, Rusiya hökuməti Türkiyənin həmin respublikalarla müqavilələr bağlamasına etiraz etmir.

Bundan sonra müqavilənin maddələr üzrə oxunuşuna başlandı. Birinci maddə üzrə Rusiya nümayəndə heyəti təklif etdi ki, Əsas Milli Aktın tanınması haqqında Rusiya hökumətinin bəyanatı sərhədlərin təsvirinin düzəldilməsi düzəlişi ilə dəyişdirilsin. Türkiyə nümayəndə heyəti razılaşaraq, burada sərhədlərin ümumi təsvirini verməyi təklif etdi.

Bu məsələ barədə müzakirələr başa çatdıqdan dərhal sonra, martın 10-da RK(b)P MK-ya məktub göndərib, danışıqların gedişi barədə məlumat verən G.Çiçerin yazırdı ki, Naxçıvan Azərbaycanın protektoratlığı altında və Azərbaycanın bu protektoratlığı digər ölkəyə verməmək şərti ilə muxtar ərazi olaraq qəbul edilmişdir[191]. Bütün bu düzəlişlər Türkiyə ilə sazişin pozulmaz şərti idi.

Türkiyə ilə müqavilə haqqında martın 10-da RK(b)P MK-ya yenidən öz fikirlərini yazan G.Çiçerin bildirirdi ki, müqavilənin əsas tərkib hissəsi Türkiyə ilə ərazi sazişi olacaq, ərazi məsələsi yalnız əsas maddələr, sərhədin müfəssəl təsviri isə xüsusi protokolda olacaqdır. Göndərdiyi məktubuna hələ 1920-ci ildə prinsipcə qəbul edilmiş müqavilə layihəsini əlavə edən G.Çiçerin onu son olaraq formalaşdırmağı təklif etdi. Layihəyə əlavələr və düzəlişlər edilə bilərdi.

Birinci maddədə əraziyə münasibətdə Milli Akt haqqında xatırlatma yerində G.Çiçerin artıq, türk Milli Aktını tanımaq təklifini qəbul etdiyini yazırdı. Bu Akt öz müqəddəratını təyinetmə demək idi[192].

G.Çiçerinin hər iki məktubunu müzakirə edən RK(b)P MK Siyasi Bürosu konfransın gedişini bəyəndi. Konfrans öz işini davam etdirə bilərdi.

Siyasi komissiyanın növbəti iclası martın 12-də işinə başladı. İclasda Rusiya tərəfdən G.Çiçerin və Cəlaləddin Qorxmazov, Türkiyə tərəfdən Yusuf Kamal, Rza Nur və Əli Fuad, rus hərbi ekspertləri Samoylo, Bobrişev, türk hərbi ekspertləri Seyfi və Safvet iştirak edirdilər.

Nümayəndə heyətləri ilk növbədə 10 mart tarixli iclas protokolunu nəzərdən keçirtdilər, söylənilmiş bəzi fikirlərə dair öz mülahizələrini bildirdilər. Türk nümayəndə heyəti protokola daxil ediləcək düzəlişlər və qeydlər haqqında məlumat verdi. Sərhədlərin təxmini təsviri haqqında türklərin qeydinə cavab olaraq rus nümayəndə heyəti bildirdi ki, burada düzəlişlərin edilməsinə ehtiyac yoxdur, çünki türk nümayəndə heyəti sərhəd xəttinin hərbi ekspertlər tərəfindən müəyyənləşdiriləcəyi, protokola daxil ediləcəyi, xəritəyə köçürüləcəyi və hər iki nümayəndə heyəti tərəfindən imzalanacağı təklifi ilə artıq razılaşmışdır.

---

[191] Письмо Чичерина ЦК РКП (б) о территориальном соглашении с турецкой делегацией. 10.03.1921. – РГАСПИ, ф.159, оп.2, д.57, л.25.

[192] Чичерин. О договоре с Турцией. 10.03.1921. – РГАСПИ, ф.159, оп.2, д.57, л.26-27.

Əvvəlki iclaslarda G.Çiçerinin səsləndirdiyi guya *"müsəlman olmayan əhalinin əzişdirilməsi"*nə dair bəyanata gəlincə, türk nümayəndə heyəti bildirdi ki, rəsmi və şəxsi məlumatlara görə Karsda qeyri-müsəlman əhalinin əzişdirilməsinə dair heç bir hadisə məlum deyildir. Hətta amerikan nümayəndə heyəti Kars və İrəvanda olduğu il yarım ərzində təsdiq etmişdi ki, türk əməliyyatları zamanı qeyri-müsəlman əhaliyə toxunulmamışdır. Zorakılıq və əzişdirilmə haqqında söylənən yalan şayiələr adı çəkilən dairədə müsəlman əhalinin məruz qaldığı çoxsaylı vəhşilikləri və əzişdirilmələri ört-basdır etmək üçün işə salınmış bir gediş idi. Belə ki, RSFSR-in xalq xarici işlər komissarı hələ 1920-ci il dekabrın 19-da TBMM xarici işlər nazirinə Rusiya hökumətinin daşnak hökuməti tərəfindən qəddarlığın həyata keçirildiyini, buna türk komandanlığının laqeyd qala bilməsinin mümkün olmadığını qəbul etdiyini yazmışdı. Əllərində çoxlu sənədlərin olduğunu, tərcüməsini yaxın vaxtlarda gətirəcəklərini bildirən türk nümayəndə heyəti TBMM hökuməti tərəfindən daşnakların vəhşiliyi haqqında məcmuə nəşr edildiyini deyərək konkret misallar gətirdi. Bildirdi ki, bu vəhşiliklər əsasən 1918-ci ildə barışıq əldə edildikdən sonra törədilmişdir. Məsələn, Kars Şurası hökuməti ingilis intriqaları nəticəsində devrildikdən sonra dairəni işğal edən Osipyanın dəstələri şəhərin özündə 100 nəfər müsəlmanı və Şuranın 20 üzvünü güllələmişdi. 1920-ci ilin yanvar ayında Kars dairəsində 253 müsəlman kəndi məhv edilmiş, 14 min 620 kişi və qadın qətlə yetirilmiş, Sarıqamış dairəsində 32 müsəlman kəndi məhv edilmiş və 2 min kişi, qadın və uşaq öldürülmüşdü. Bu qırğınlarla bağlı olaraq 1920-ci il yanvarın 30-da general-mayor Ter-Sisovun əmrini oxumaq kifayət idi. O, bildirmişdi ki, əhali tabe olmadığı təqdirdə onların evini və əmlakını dağıdacaq, bütün bunlara görə məsuliyyət əhalinin üzərinə düşəcəkdir.

İclasda hərbi ekspertlərin hesabatları dinlənildi. Müqavilə mətninə sonra akta daxil ediləcək sərhədin dəqiq xəttini müəyyənləşdirən formul qəbul edildi.

Naxçıvan dairəsi ilə Ermənistan arasında sərhəd məsələsi müzakirə edilərkən Rusiya nümayəndə heyəti bildirdi ki, ekspertlərin müəyyənləşdirdiyi xətt İrəvan qəzasının hər hansı bir hissəsində protektoratlığı həyata keçirtmək arzusunda olmayan və son sərhədinin Qurd qapısı olduğunu qəbul edən Azərbaycanın maksimum tələblərini ötüb keçir. Onun fikrincə, bu məsələ sovet respublikaları arasında mövcud olan sıx əlaqələr səbəbindən birinci dərəcəli əhəmiyyət kəsb etməsə də, Şərur-Dərələyəz dairəsinin sərhədlərini etnoqrafik prinsip ilə müəyyənləşdirmək yaxşı olardı.

Məhz bu yerlərdə qəmli hadisələrin baş verdiyini və türk ordusunun çağırıldığını, bütün bu dairənin müsəlmanlardan ibarət olduğunu xatırladan türk nümayəndə heyəti isə əmin olduğunu bildirdi ki, Türkiyə hökuməti

məti Rusiya və bəşəriyyət qarşısında borcunu vermək üçün sovet Azərbaycanı hakimiyyəti altında olan hər şeyi edəcəkdir. Ona görə də bu ərazi Azərbaycana, üzərində protektoratlığı olaraq verilməlidir. Tamamilə təbiidir ki, daimi ordu sərhəd bloklarını keçə bilməz, ancaq qayda-qanun və inzibati zərurəti həyata keçirtmək üçün bütün hissələrə administrasiyanın göndərilməsi üçün öz ərazisinə girmək hüququ olmalıdır.

Rusiya nümayəndə heyəti bildirdi ki, Naxçıvan ilə Ermənistan arasında sərhəd müvəqqəti hesab edilə bilər, əgər gələcəkdə Azərbaycan və Ermənistan arasında birbaşa danışıqlarda hər hansı bir dəyişiklik olarsa, onda bu dəyişikliklər Azərbaycanın öz protektoratlığını güzəştə getməməyə dair öhdəliyini pozması kimi qiymətləndirilə bilməz. Əhalinin yerdəyişməsi səbəbindən məsələnin yekun həlli çətin görünür, çünki son vaxtlarda bu ölkələr arasında baş vermişdir.

Türkiyə nümayəndə heyəti isə qəti olaraq vurğuladı ki, bu məsələ Türkiyənin şərq sərhədlərinin təhlükəsizliyi baxımından xeyli mühüm olduğundan birmənalı olaraq həllini tapmalı, Azərbaycan ilə Ermənistan arasında bu məsələyə dair hər hansı danışıqlar imkanı istisna edilməlidir.

Rusiya nümayəndə heyəti bildirdi ki, belə olan halda Azərbaycanın özünün istədiyi sərhədlərə riayət edilməlidir. Çünki Moskvadan deyilən sərhəd xəttindəki dəyişiklikləri maraqlı olan hökumət və əhalidən soruşmadan müəyyənləşdirmək olmaz.

Türk nümayəndə heyətinin təklifi ilə Şərur-Dərələyəz dairəsini Naxçıvan ərazisində saxlamaq qərara alındı. İrəvan dairəsinin mübahisəli hissəsində sərhəd Gömürlü dağdan (6930) başlayaraq Saraybulaq dağlarına (8071), Ararat stansiyasına gedirdi. Bu, Ermənistan, Azərbaycan və Türkiyə hökumətlərinin nümayəndələrindən ibarət qarışıq komissiya tərəfindən ratifikasiya predmeti olacaqdı. Məsələlər razılaşdırılmaq üçün Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət komissiyaya verilməli idi[193]. Hərbi ekspertlərin tərtib etdikləri protokolun müqavilə ilə eyni zamanda hər iki nümayəndə heyəti tərəfindən imzalanmasına dair razılıq əldə edildi. Türk nümayəndə heyətinin xahişi ilə müqavilə layihəsinə baxmaq növbəti iclasa qədər təxirə salındı[194].

Martın 14-də axşam saat 21-də açılan növbəti iclasda əvvəlcə martın 12-də keçirilmiş iclasın protokolu nəzərdən keçirildi. Türk nümayəndə heyəti protokola daxil edilməli olan düzəlişi söylədi: *"Bu ərazi üzərində protektoratlıq"* ifadələrindən sonra aşağıdakıları əlavə etməyi təklif etdi:

---

[193] Русско – турецкая конференция. Протоколы политической комиссии. 12.03.1921. – ARSSA, f.609, siy.l, iş 94, v.54.

[194] Протокол заседания политической комиссии русско – турецкой конференции. 12.03.1921. – РГАСПИ, ф.298, оп.1, д.104, л.75-83.

*"Daimi ordu, əlbəttə, sərhəd istehkamları xəttini keçə bilməz, lakin təhlükəsizliyi və idarəçiliyi təmin etmək, qaydaları və inzibati zərurəti müdafiə etmək üçün hər hansı hissə öz ərazisinə girə bilmək hüququna malikdir. Möhkəmləndirmə yerləri mühafizə məqsədi ilə sırf texniki tədbirdir və dəmiryolunun təhlükəsizliyinə heç bir aidiyyatı yoxdur".*

Türk nümayəndə heyətinin izahatı nəzərə alındı. Bildirildi ki, *"qaydanı qorumaq üçün təyin edilmiş bütün ordular"* dedikdə, polis və jandarma nəzərdə tutulur.

Rusiya nümayəndə heyəti qeyd etdi ki, bəyanatın son hissəsi yeni qətnamədir, çünki xüsusi zonada heç bir möhkəmləndirmə işləri aparmamaq barədə artıq razılığa gəlinmişdir.

Türkiyə nümayəndə heyəti dedi ki, möhkəmləndirmə dedikdə, daimi ordu deyil, yerli ordular, silahsız fəhlələr tərəfindən həyata keçirilən istehkam işlərini nəzərdə tutur; dəmiryolunun mühafizəsi üçün Türkiyə kiçik istehkamlarını dəmiryolundan 8 km qərbə doğru quracaqdır, daimi ordunu sərhəd ilə kiçik istehkamlar arasında zonaya yeritməyəcəkdir; belə istehkamların tikintisi üzrə aparılan işlər sırf texniki xarakter daşıyır; bunu hərbi ekspertlər artıq müzakirə etmişlər.

Rusiya nümayəndə heyəti bildirdi ki, bu bənd ekspertlərin protokolunda əksini tapmamışıdr. Bundan belə anlaşılır ki, onlar bu barədə razılığa gələ bilməmişlər və onun həllini konfransın özünə vermişlər.

Bundan sonra söz ekspertlərə verildi. Hərbi ekspertlər arasında fikir mübadiləsindən sonra Rusiya nümayəndə heyəti bildirdi ki, hazırkı danışıqlar zamanı yerli məsələlərin əhəmiyyəti ümumi məsələlərin yanında azalır, belələrindən biri Kars ətrafında möhkəmləndirməyə dair məsələdir. Türkiyənin istəyi yerinə yetirilir, çünki adı çəkilən yerdə möhkəmləndirmə işlərinin aparılması tam mənasında onun sərəncamındadır. Rusiya üçün həyati məsələ ticarət dövriyyəsi üçün fövqəladə dərəcədə mühüm arteriya olan dəmiryolunun təhlükəsizliyidir. Onun yaxınlığında hər hansı istehkamın tikilməsi dəmiryolunun təhlükəsizliyini aşağı salır, vətəndaşlara və inzibati idarəçiliyə aid olan bütün məsələlər Türkiyənin səlahiyyətində qalır. Hərbi əhəmiyyətli hər hansı bir şey, təkcə daimi ordu deyil, həmçinin hər hansı istehkam, o cümlədən kiçik istehkamlar xüsusi zonadan uzaq olmalıdır. Bu bənd Rusiya üçün fövqəladə dərəcədə əhəmiyyətlidir.

Türkiyə nümayəndə heyəti cavab verdi ki, onun təklifi daha az əhəmiyyətlidir, çünki dəmiryolunun təhlükəsizliyinin pozulmasını heç bir zaman nəzərdə tutmur, Türkiyənin Karsdan şərqə doğru qarovulları Arpaçayda yerləşir.

Rusiya nümayəndə heyətinin israrından sonra türk nümayəndə heyəti bu məsələdə güzəştə gedərək bildirdi ki, kiçik istehkamlarını kiçik istehkamlardan şərqə doğru tikməyəcəkdir. Rusiya nümayəndə heyəti Türkiyənin

Rusiyaya olan bu dost hissini məmnuniyyətlə qəbul etdi. Türk nümayəndə heyəti cavab verdi ki, Rusiyanın ümumi təhlükəsizliyi ilə bağlı toxunulan bu məsələni özü üçün fövqəladə dərəcədə əhəmiyyətli hesab edir[195].

Martın 16-da saat 16.30-da işə başlayan növbəti iclasda ilk növbədə martın 14-də keçirilmiş iclasın protokolu kiçik dəyişikliklərlə qəbul edildi. Sonra müqavilənin maddə-maddə müzakirəsinə başlandı. İclas axşam saat 20.00-da başa çatdı[196]. Müqavilə artıq imzalanmağa hazır idi.

## *Moskva müqaviləsi*

1921-ci il martın 16-da RSFSR ilə Türkiyə arasında 16 maddədən və əlavədən ibarət olmaqla müqavilə imzalandı. Müqaviləni Rusiya tərəfindən G.Çiçerin və C.Qorxmazov, TBMM hökuməti adından iqtisadiyyat məsələləri üzrə nazir, Kastamonudan TBMM üzvü Yusuf Kamal, Sinopdan TBMM üzvü, maarif naziri Rza Nur və Türkiyənin Moskvadakı fövqəladə və səlahiyyətli səfiri Əli Fuad imzaladılar[197].

Müqavilənin imzalanması üçün 16 mart tarixi təsadüfi seçilməmişdi. Məlum olduğu kimi, 1920-ci il martın 16-da İstanbul Antanta ölkələri tərəfindən işğal edilmişdi. Bu tarixi seçməklə Rusiya və Türkiyə Antanta ölkələrinə qarşı səylərini birləşdirəcəklərini nümayiş etdirirdilər.

Müqavilədə ərazi-sərhəd məsələləri aşağıdakı kimi müəyyənləşdirilirdi. Birinci maddəyə görə tərəflər digər tərəfə zorla qəbul etdirilən istənilən sülh müqaviləsini və beynəlxalq aktları rədd edirdilər. Türkiyəyə aid olan və TBMM hökuməti tərəfindən qəbul edilməyən hər hansı bir beynəlxalq aktı RSFSR hökuməti də rədd edirdi. Türkiyə məfhumu altında

---

[195] Протокол заседания политической комиссии русско – турецкой конференции. 14.03.1921. – РГАСПИ, ф.298, оп.1, д.104, л.84-91.

[196] Протокол заседания политической комиссии. 16.03.1921. – РГАСПИ, ф.298, оп.1, д.104, л.92-98.

[197] Договор между правительствами РСФСР и Турции о дружбе и границах. 16.03.1921. – ARDA, f.28 s., siy.l, iş 58, s. 143-145; Договор между Турцией и Россией. – ARSSA, f.609, siy.l, iş 94, v.93-95; Документы внешней политики СССР.Т.III, с.597-604; Сборник действующих договоров, соглашений и конвенций, заключенных с иностранными государствами. М.,1938, с. 157-163; Договор между правительствами РСФСР и Турции о дружбе и границах. 16.03. 1921. – ARDA, f.28 s., siy.1, iş 67, v.1-4; Договор между Россией и Турцией. – РГАСПИ, ф.298, оп.1, д.104, л.100-104; Договор между Турцией и Россией. 16.03.1921. – ARDA, f.28 s., siy.1, iş 66, v.19-22; Договор дружбы и братства между Турцией и Россией. – Газ. “Бакинский” рабочий”, 23.03.1921, №67 (201); İsmail Soysal. Türkiyenin Siyasal Antlaşmaları. I c. (1920-1945). Ankara, 1983, s. 19-38.

1920-ci il 28 yanvar tarixdə İstanbulda Osmanlı Deputatlar Palatası tərəfindən hazırlanmış, mətbuata və bütün dövlətlərə elan edilmiş Türk Milli Aktına daxil olan ərazilər nəzərdə tutulurdu. Türkiyənin şimal-şərq sərhədləri aşağıdakı kimi müəyyənləşdirilirdi: Qara dəniz sahillərində yerləşən Sarp kəndindən başlayan xətt Hədismta dağlarından, Şavşet dağları – Qanlı dağ xətt ayırıcı kəsiyindən keçir, sonra Ardahan və Kars sancaqlarının şimal inzibati sərhədləri ilə – Arpaçay və Araz çayı boyunca Aşağı Qarasu çayının mənsəbinə qədər gedirdi. Sərhədlərin müfəssəl təsviri və ona aid olan məsələlər hər iki tərəfin imzaladığı müqaviləyə birinci əlavənin A və B bəndlərində və əlavə olunan xəritədə verilirdi.

İkinci maddəyə görə Türkiyə tərəfi sərhədindən şimalda yerləşən Batum şəhəri, limanı və ərazisi üzərində Gürcüstanın suzerenliyinin qurulmasına aşağıdakı şərtlərlə güzəştə gedirdi: 1.Müqavilənin bu maddəsində göstərilən yerin əhalisi hər bir icmanın mədəni və dini hüquqlarının təmin olunduğu inzibati baxımdan geniş yerli muxtariyyətdən istifadə etməli və əhaliyə istəyinə uyğun olaraq torpaq haqqında qanunu müəyyənləşdirməyə imkan verilməli idi; 2.Batum limanından Türkiyəyə göndərilən və ya Türkiyədən göndərilən bütün mallar üçün Türkiyəyə gömrüksüz, heç bir maneə olmadan və hər hansı rüsum toplanmadan, Türkiyəyə Batum limanından xüsusi yığımlar olmadan sərbəst tranzit verilməli idi.

Üçüncü maddəyə görə tərəflər razılaşırdılar ki, Naxçıvan vilayəti müqaviləyə 1-ci əlavənin C bəndində göstərilmiş sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir, bu şərtlə, Azərbaycan bu protektoratı hər hansı bir üçüncü dövlətə güzəştə getməyəcəkdir. Şərqdə Arazın səth relyefinin aşağı yerini, qərbdə isə Dəhnə dağları (3829) – Vəlidağ (4121) – Bağarsıq (6787) – Gömürlü dağdan (6930) keçən xətdə Naxçıvan ərazisi zonasında yaradılan üçbucaq Gömürlü dağdan (6930) başlayan, Seyranbulaq dağlarından (8071) – Ararat stansiyasından keçən və Qarasuyun Araz ilə qovuşduğu yerdə başa çatan göstərilən ərazinin sərhəd xətti Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət komissiya tərəfindən düzəldiləcəkdir.

On beşinci maddə ilə Rusiya tərəfi Cənubi Qafqaz respublikalarına münasibətdə bu respublikaların Türkiyə ilə imzaladıqları müqavilələrin Türkiyə tərəfindən tanınmasına dair öhdəlik götürürdü.

On altıncı maddəyə görə müqavilə ratifikasiya edilməli və mübadiləsi Karsda olmalı idi.

Müqaviləyə olan 1-ci əlavənin A bəndində Türkiyənin şimal-şərq sərhədləri aşağıdakı kimi müəyyənləşdirilirdi: (Rusiya baş qərargahının xəritəsinə əsasən 1/210.000 düymdə 5 verst): Qara dənizdə Sarp kəndi – Qaraşalvar dağları (5014) – Yuxarı Maradidi kəndindən şimala doğu Ço-

rox ilə kəsişir – Sabaur kəndinin şimalından keçir – Hədismta dağları (7052) – Kvakibe dağları – Kavtareti kəndi – Medziban dağları – Herat-kesun dağları (6468) ayırıcı xətləri – Korda dağları ayırıcı xətti ilə Şavşet dağlarının qərb hissəsi ilə keçmiş Artvin dairəsinin əvvəlki inzibati sərhədinə çıxır – Şavşet dağları ilə keçərək Sarı çay dağına (Qara İsal) (8478) – Kviral aşırımına çıxır – oradan Qanlı dağda keçmiş Ardahan dairəsinin əvvəlki inzibati sərhədinə çıxır – oradan da şimala doğru Tlil (Qrmanı) dağına (8357) gedir – Ardahanın əvvəlki sərhədi ilə gedərək Badela kəndindən şimal-şərqə, Posxov çayına çıxır və bu çay ilə cənuba doğru Çançax kəndindən şimala dönür – orada bu çaydan ayrılaraq bu çayın yanından Ayrılanbaş dağlarına (8512) çıxır – Kəllətəpə dağı (8463) və Xarmantəpə dağları (9709) ilə keçir – Qasris Seri dağına (9681) çatır – oradan Qarzamet çay ilə Kür çayına qədər gedir – oradan Kür çayının aşağı hissəsi ilə Kartanakev kəndindən şərqə doğru məntəqəyə gedir, orada Kürdən ayırılır, Qaraoğlu dağı (7259) ayırıcı xətti ilə gedir – oradan Xazapin gölünü iki hissəyə bölür, 7580 hündürlüyünə çıxır və oradan Göydağ dağı (9152) – Üçtəpə (9783) – Taya qala (9716) – 9065 hündürlüyünə gedir, orada Ardahan dairəsinin əvvəlki sərhədindən ayrılır və Böyük Ağbaba dağı (9973) – 8828 (8827) – 7602 ilə gedərək İbiş kəndindən şərqdə doğru keçərək, 7518 yüksəkliyinə, sonra isə Qızıldaş (7439) (7440) yüksəkliklərinə – Yeni Qızıldaş kəndinə (Qızıldaş) – Qara Məmməddən qərbə doğru keçir, Delaver, Baş Qumlu və Tıxnıs kəndlərindən şərqdə yerləşən Cambuşu çaya çıxır – Vartanlı və Baş Şuragəl kəndlərindən keçərək adı çəkilən çay ilə Qalalıdan şimala doğru Arpaçaya, oradan hər yerdə Arpaçayın aşağı hissəsi ilə keçərək Araz çayına çıxır, Arazın aşağı axarı ilə Aşağı Qarasunun Araza töküldüyü yerə çıxır.

Müqaviləyə olan 1-ci əlavənin B bəndində yazılırdı ki, sərhəd xətti 1-ci əlavənin A bəndində göstərildiyi kimi, Arpaçay və Arazın aşağı hissələri ilə keçdiyindən TBMM hökuməti kiçik istehkamlarını Aleksandropol – İrəvan dəmiryolundan hazırkı müqavilədə çəkilmiş Arpaçay rayonunda 8 km, Araz rayonunda isə 4 km geri çəkir.

1-ci əlavənin B bəndinin I paraqrafında Arpaçay zonası aşağıdakı kimi təsvir edilirdi: A). Vartanlıdan cənub-şərqə doğru – Uzun Kilsədən şərqə doğru – Bozyar dağından (5096) – 5082 – 5047 – Karmirvəng – Üçtəpədən şərqə (5578) – Arazoğludan şərqə doğru – Anidən şərqə doğru – Yeni Köydən qərbdə Arpaçaya çatır. B).Arpaçaydan şərqə doğru 5019 yüksəkliyinə – birbaşa olaraq 5481 yüksəkliyinə – Qızıl Qüllədən şərqə doğru 4,1/2 verstdə – Borçalıdan şərqə doğru 2 verstdə – sonra Diqor çay – bu çay bounca Düz Keçid kəndinə qədər gəlir və Qarabağ xarabalıqlarından şimala doğru düz gedir və Arpaçaya çıxır.

1-ci əlavənin B bəndinin II paraqrafında Araz zonası aşağıdakı kimi müəyyənləşdirilirdi. Xaraba Əlican ilə Süleyman (Dizə) kəndi arasında birbaşa xətt. TBMM hökuməti Aleksandropol – İrəvan dəmiryol xətti və digər tərəfdən göstərilən dəmiryol xəttindən 8 və 4 verstlik məsafədə heç bir istehkam tikməməyi, daimi ordu saxlamamağı öhdəsinə götürürdü. Lakin qayda-qanunu, təhlükəsizliyi və lazımi inzibati işləri görmək zərurətini qorumaq üçün göstərilən zonada ordu saxlamaq hüququnu özündə saxlayırdı.

1-ci əlavənin C bəndinin Naxçıvanın ərazisi aşağıdakı kimi müəyyənləşdirilirdi: Ararat stansiyası – Saraybulaq (8071) – Gömürlü dağ (6839), (6930) – 3080 – Sayatdağ (7668) – Qurdqulaq (Kürdqulaq) kəndi – Qəməsürdağ (8160) – 8022 yüksəkliyi – Küküdağ (10282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi.

Moskva müqaviləsinin imzalanması böyük əhəmiyyət daşıyırdı. Müqavilədə prinsipial xarakter daşıyan bir sıra maddələr var idi. Tərəflər zorla onlara sırıdılmış müqavilələri və hər hansı beynəlxalq aktları rədd edirdilər. Sovet hökuməti TBMM hökumətinin qəbul etmədiyi aktları, o cümlədən Sevr müqaviləsini qəbul etmirdi. Moskva müqaviləsi Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında münasibətləri tənzimləmək və möhkəmləndirmək üçün əlavə zəmin hazırlayırdı.

Müqavilənin Azərbaycan üçün də əhəmiyyəti var idi. Türk diplomatiyasının səyləri ilə Azərbaycanın ərazi bütövlüyü qorundu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsi tarixi gerçəkliyə uyğun olaraq qətiləşdi. Bununla əlaqədar olaraq N.Nərimanov I Ümumazərbaycan qurultayında etdiyi nitqində deyirdi:

*"Sovet Rusiyası və Türkiyə ilə müqaviləyə əsasən Naxçıvan, Azərbaycanın protektoratlığı altında müstəqil respublika elan olunur. Orada bizim nümayəndəmiz olacaqdır və biz bütün münasibətlərdə Naxçıvana xidmət edəcəyik"*[198].

Moskva müqaviləsi 1921-ci il iyulun 5-də TBMM-də müzakirə edildi[199]. RSFSR Mərkəzi İcraiyyə Komitəsi iyulun 20-də, TBMM isə iyulun 31-də müqaviləni təsdiq etdi. Ratifikasiya sənədləri Kars konfransı ərəfəsində, sentyabrın 22-də bu şəhərdə mübadilə edildi[200].

---

198 Нариманов Н. Избранные произведения. Т.2, с.500.

199 Türkiye – Rusya muahednamesi hakkında layiheyi kanuniye. – T.C. BCA. 030.18.01.03.29.13.

200 Документы внешней политики СССР. Т. III, с. 604.

# IV FƏSİL

## KARS KONFRANSINA HAZIRLIQ DÖVRÜNDƏ ERMƏNİSTANIN İDDİALARI VƏ AZƏRBAYCANA EDİLƏN TƏZYİQLƏR

### *Türkiyə və Cənubi Qafqaz respublikaları yeni dövrün astanasında*

Moskva müqaviləsi Türkiyə və Cənubi Qafqaz respublikaları arasında münasibətləri tənzimləmək üçün yeni imkanlar açırdı. Bu münasibətlərin çoxlu tərəfləri, o cümlədən ərazi-sərhəd məsələləri var idi.

Müqavilə imzalandıqdan sonra Ankaraya dönərkən yolüstü Bakıda olan Yusuf Kamal xalq xarici işlər komissarı M.Hüseynov ilə söhbətində Moskva müqaviləsini tamamlamaq və inkişaf etdirmək üçün Azərbaycan – Türkiyə müqaviləsini bağlamağı təklif etdi. Bu ideya təkcə Azərbaycan və Türkiyə arasında deyil, bütün Cənubi Qafqaz respublikaları ilə müqavilə bağlanmasını nəzərdə tuturdu. Azərbaycan da Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında belə bir müqavilənin bağlanmasına maraq göstərirdi. M.Hüseynovun fikrincə, Cənubi Qafqaz respublikalarının Türkiyə ilə müqavilə münasibətlərinə girmələrini təkcə bu respublikalar arasında həmrəylik mülahizələri təşkil etmirdi, onun ciddi praktik əsasları mövcud idi. O, Yusuf Kamala dedi ki, Azərbaycan və Türkiyə arasında xüsusi rəğbət münasibətləri olduğundan, fikir ayrılıqları üçün heç bir səbəb olmadığından müqaviləni artıq mövcud olan faktiki dostluq münasibətlərini formalaşdırmaqla imzalamaq olar. Türkiyənin digər respublikalar ilə münasibətlərinə gəlincə isə onlar əvvəlcədən mübahisəli məsələlərin həlli barədə razılaşmalı idilər. Bu işdə Azərbaycan ilə Türkiyə arasında tarixi əlaqələr mühüm rol oynaya bilərdi. Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında bağlayıcı əlaqələrdə əhəmiyyəti gündən-günə artan Azərbaycan həmin rolu səmimi olaraq həyata keçirtməli idi.

Yusuf Kamal Bakıdan sonra Tiflisə gedərək Gürcüstan rəhbərləri ilə də eyni məsələni müzakirə etdi. Danışıqlar nəticəsində müqavilə bağlanmasına dair prinsipial razılaşma əldə edildi[201].

Beləliklə, bu zaman Türkiyə və Cənubi Qafqaz respublikaları qarşılıqlı münasibətlərində yeni bir dövrün astanasında idilər. Lakin bir sıra səbəblərdən bu münasibətlərin qurulmasında heç də hər şey rəvan getmirdi. Hər şeydən əvvəl, Moskva müqaviləsində sərhədlərin müəyyənləşdirilməsindən bəzi sovet xadimləri narazı qalmışdılar. Onlar "*müqavilə nəticəsində*

---

[201] Закавказско – турецкая конференция в Карсе (Беседа М.Д.Гусейновым, наркоминделом АССР). – Газ. "Бакинский рабочий",09.10.1921, №230 (362).

*Türkiyənin guya üstünlük əldə etdiyi və Bakını tutmaq üçün böyük perspektivlər qazandığı"* qənaətində idilər. Guya bu üstünlükləri əldə etməklə Türkiyə tərəfdən Cənubi Qafqazın və sovet Rusiyasının həyati əsəbi olan Bakının müdafiəsi çətinləşirdi. Bununla bağlı olaraq Xalq Xarici İşlər Komissarlığının katibi Tsyurupa, Puqaçov və b. RK(b)P MK-ya, G.Çiçerin, İ.Stalin və Q.Orconikidzeyə 1921-ci il 31 mart tarixli məktublarında yazırdılar:

"*Ardahan və İqdırın strateji məntəqə kimi Türkiyəyə verilməsi Cənubi Qafqazı ağır vəziyyətə salır. Bununla İrəvan və Aleksandropol sərhəd rayonlarına çevrilmişdir. Müharibə olacağı təqdirdə onların müdafiəsini təşkil etmək mümkün olmayacaqdır. Karsın türklərə keçməsi böyük üstünlük verir, dəmiryolu türklərin zərbəsi altına düşür, Axiska və Axalkələkə yol açılır, Batum Cənubi Qafqazdan ayrılır, Tiflis təhlükə altına düşür, bütün Cənubi Qafqazın və sovet Rusiyasının həyati əsəbi olan Bakının müdafiəsi ağır şərtlərə düçar olur.* ***Türklər Bakını tutmaq üçün böyük perspektivlər qazanırlar:1. Naxçıvan – Biçənək aşırımı – Görus – Şuşa –Yevlax – Bakı; 2. Naxçıvan – Ordubad – Xudafərin körpüsü – Yevlax – Bakı (və ya Xudafərin körpüsü – Qarabağ çölü – Bakı). Bütün bu yollarda (Meğri – Nüvədi istisna olmaqla) türklərə rəğbət bəsləyən müsəlmanlar yaşayırlar, onlar ordunu ərzaq və yolla təmin edər, Cənubi Qafqazın müdafiəsi sıfıra enər*** (seçmə bizimdir – M.Q.). *Erməni kommunistləri sərhədin Arpaçay və Arazdan müəyyənləşdirilməsini "yeni Brest", "xüsusi zolaq yaratmaq" adlandırırlar*"[202].

"Yeni Brest" "xüsusi zolaq" yaratmaq nə demək idi? Bu tövsiyələri verməklə məktub müəllifləri nəyi nəzərdə tuturdular? Bakıya gedən yollar üzərində ermənilərə yeni ərazilər verməklə "etibarlı ünsürlər"dən ibarət bufer zolaq, strateji maraqlar üçün "ikinci erməni ocağı"nı yaratmağımı düşünürdülər? Qeyd etmək lazımdır ki, məktubda göstərilən Meğri – Nüvədidə də ermənilər deyil, müstəsna olaraq azərbaycanlılar yaşayırdılar. Görünür, məktub müəllifləri bu məsələni ya dəqiq bilməmiş, ya da gələcəkdə həmin ərazinin Ermənistana verilməsi üçün saxta bir zəmin hazırlamaq niyyəti güdmüşlər.

Türkiyənin Cənubi Qafqaz respublikaları ilə ayrı-ayrılıqda müqavilə bağlamaq istəyindən narahat olan bolşevik Rusiyası ilk növbədə Azərbaycan və Türkiyənin yaxınlaşmasına yol vermək istəmirdi. Ona görə də imzalanacaq müqavilənin layihəsini əvvəlcədən Mərkəzlə razılaşdırmağı təklif edərək Azərbaycana təzyiqlər göstərməyə başladı. 1921-ci il aprelin 1-də RK(b)P MK Siyasi Bürosuna məktub göndərərək, Qafqaz respublikalarının Türkiyə ilə müqavilə layihəsinə dair Büro üzvlərinin öz düşüncələrini Xalq Komissarları Sovetinə yazmalarını xahiş edən G.Çiçerin vurğulayırdı:

---

[202] Письмо секретаря Цюрупы, Пугачева ЦК РК(б)П, Чичерину, Сталину. 31.03.1921. – РГАСПИ, ф.85, оп. с/Турция, д.29, л.32-34, 41.

*"Türklərin taktikası bizdən ala bilmədiklərini ayrı-ayrı müqavilələr bağlamaqla Qafqaz respublikalarından sıxıb almaqdan ibarətdir. Türklərə Qafqaz respublikalarını ayırmaq üçün süni manevrlər etməyə imkan verməmək üçün Qafqaz sovet respublikaları öz aralarında fövqəladə dərəcədə sıx mütəşəkkil fəaliyyət göstərməli və türklər ilə qarşıdakı danışıqlarda bizimlə tam əlaqədə olmalıdırlar.* ***Bununla belə, qorxmaq olar ki, bu münasibətdə hər şey əlverişli olmayacaqdır və xüsusən Azərbaycan tərəfdən. Əgər biz hər hansı arzuolunmaz meyillərə yol verməmək üçün tədbirlər almasaq, belə hallar asanlıqla baş ver bilər*** (seçmə bizimdir – M.Q.). *Buna görə də vacibdir ki, Mərkəzi Komitə qəti şəkildə və konkret olaraq müəyyənləşdirsin ki, Qafqaz sovet respublikaları Türkiyə ilə imzalayacaqları müqaviləni öncədən bizim hökumətimizin bəyənməsi üçün təqdim etsinlər"*[203].

Azərbaycan tərəfdən heç də hər şeyin əlverişli olmayacağını və bunun qarşısını almaq üçün tədbirlər görülməsini, müqavilə layihəsinin əvvəlcədən Mərkəzi hökumətin bəyənməsi üçün təqdim edilməsini vacib hesab edən G.Çiçerinin təklifini V.İ.Lenin aprelin 2-də bəyəndi. L.B.Kamenev və M.İ.Kalinin də ona tərəfdar oldular, L.Trotski isə bitərəf qaldı. RK(b)P MK Siyasi Bürosunun aprelin 3-də keçirilən iclasında (protokol №8, §1) Qafqaz respublikalarının Türkiyə ilə bağlayacaqları müqavilənin sovet Rusiyası nümayəndələrinə əvvəlcədən göndərilməsinə dair məsələ G.Çiçerinin təklifi əsasında müzakirə edildi və müvafiq qərar qəbul olundu[204]. G.Çiçerin aprelin 4-də Q.K.Orconikidze və İ.D.Oraxelaşviliyə göndərdiyi teleqramında Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında müqavilə layihəsinə dair fikirlərini belə ifadə edirdi:

*"Əvvəlcədən Ermənistan və Azərbaycan nümayəndələri ilə görüşün, ayrı-ayrı danışıqlar zamanı sürpriz çıxmasın. Türkiyə ilə Gürcüstan arasında müqaviləni əvvəlcədən müzakirə edin, əlavələr edilib-edilməyəcəyini soruşun. Əgər türk heyəti hansısa yeni təkliflər irəli sürərsə, onda onlara diqqətlə baxın. Bu halda bizimlə birbaşa əlaqəyə girin, soruşun. Türkiyə və Ermənistan arasında müqavilə isə Gürcüstanla olan müqavilədən bəzi hissələri ilə fərqlənməlidir. Onda ən əvvəldə yazılmalıdır ki, tərəflər müharibə vəziyyətinin başa çatdığını elan edirlər, bütün əvvəlki müqavilələri ləğv edirlər, xüsusən Aleksandropol müqaviləsini. Biz rus – türk konfransında türklərə milyon dəfə demişik ki, Aleksandropol müqaviləsini qəbul etmirik. Əgər türklər onu yenidən irəli sürsələr, bizim bəyanatımıza istinadən deyin ki, onu qəbul etmirik. Bu barədə xüsusi bir kağız da göndərə bilərik. Əgər Ermənistana*

---

[203] Письмо Чичерина в Политбюро ЦК РКП(б). 01.04.1921. – РГАСПИ, ф.2, оп.1, д.18011, л.1.

[204] Заседания Политбюро ЦК РКП(б). 03.05.1921 (пр. №8). – РГАСПИ, ф.17, оп.3/ПБ, д.145, л.1.

*Aleksandropol müqaviləsi yenidən qəbul etdirilməyə çalışılacaqsa, onda Rusiya Respublikası heç bir şey qarşısında qalmayacaqdır.*

*Biz Türkiyə ilə Qafqaz respublikalarının suveren hüquqlarını pozan heç bir qətnaməni və müqaviləni qəbul etməyəcəyik. Ermənistan ilə müqavilədə müharibə vəziyyətinin dayandırılmasından başqa Aleksandropol müqaviləsinin ləğvi maddəsinin daxil edilməsi vacibdir. Ermənistan ilə Türkiyə arasında sərhəd haqqında maddədə rus – türk müqaviləsinin əlavə protokolunda olan Arpaçay və Araz çayı arasında xüsusi bir zolaq haqqında qətnamə olmalıdır.* ***Azərbaycan ilə müqaviləyə xüsusi diqqət yetirmək lazımdır ki, türklərin B. Şahtaxtinski ilə hazırladıqları layihədə olan maddələr olmasın, burada Türkiyə faktiki olaraq Azərbaycanın protektoratı rolunda çıxış edir*** (seçmə bizimdir M.Q.). *Türklər bütün ölkələrin müsəlmanları üzərində protektorat rolunu oynamaq istəyirlər. Buna heç cür yol vermək olmaz və xüsusən Azərbaycan qəti şəkildə Türkiyənin digər ölkələrin müsəlmanlarının himayəçisi olmaq cəhdlərindən özünün müstəqilliyini qorumalıdır"*[205].

Q.K.Orconikidze və İ.D.Oraxelaşviliyə teleqram göndərməklə kifayətlənməyərək Azərbaycana da təzyiqlər edən G.Çiçerin aprel ayında M.Hüseynova yazdığı qeydlərində vurğulayırdı:

"*Türklərin xətti Azərbaycanda protektorat rolunu oynamağı hər vasitə ilə göstərməkdən ibarətdir. Onun daxili işlərinə qarışmaq üçün himayəçisi olmaq istəyirlər. Cənubi Qafqaz respublikaları bizimlə danışmadan türklərlə müqavilə imzalamasınlar. Türklər bütün dünya müsəlmanları üzərində protektoratlıq qurmaq istəyirlər*"[206].

M.Hüseynov aprelin 12-də G.Çiçerinə cavab məktubunda yazırdı:

*"Sizin qeydlərinizi aldım. Türklər heç vaxt və heç bir formada Azərbaycan üzərində protektorat rolunu oynaya bilməzlər. Əgər indi danışıqlarda Cənubi Qafqaz respublikalarının cəbhəsini yaratmaq lazımdırsa biz, türklərə bu danışıqlarda iştirak edəcəyimizi deyə bilərik. Lakin biz türklərə Tiflisdə danışmaq bəhanəsi ilə Bakını tərk etmələrini təklif edə bilmərik"*[207].

Qeyd etmək lazımdır ki, bu zaman Bakıda olan türklər Moskva müqaviləsini imzaladıqdan sonra Ankaraya dönənlər idi. Rusiya – Türkiyə müqaviləsi imzalandıqdan sonra Ankaraya gedərkən yolüstü Bakıda olan Yusuf Kamal Azərbaycan SSR xalq xarici işlər komissarı M.Hüseynova ayrıca olaraq Azərbaycan – Türkiyə müqaviləsini bağlamağı təklif etmişdi. Lakin M.Hüseynov ona etiraz edərək bildirmişdi ki, biz onsuz da qar-

---

[205] Телеграмма Чичерина Орджоникидзе, Орахелашвили. 04.04.1921. – РГАСПИ, ф.298, оп.1, д.106, л 3.

[206] Записка Чичерина наркоминделу Гусейнову. – ARSSA, f.609, siy.1, iş 94, v. 196.

[207] М.Гусейнов – Чичерину. 12.04.1921. – ARSSA, f. 609, siy.1, iş 94, v. 204-206.

daşıq, onu kağıza köçürmək artıq şeydir. Bununla əlaqədar olaraq "Bakinskiy raboçiy" qəzetinə verdiyi müsahibəsində M.Hüseynov deyirdi:

*"Mən Yusuf Kamal bəyə bütün Cənubi Qafqaz respublikaları ilə ümumi müqavilə bağlamağı, bir sıra mübahisələri, Naxçıvan üçbucağı məsələsini həll etməyi, Gümrü (Aleksandropol) müqaviləsini ləğv etməyi təklif etdim. Beləliklə, Azərbaycanla ayrılıqda deyil, bütün Cənubi Qafqaz respublikaları ilə vahid müqavilə münasibətləri qurmaq barədə ümumi fikir birliyi barədə tam razılıq əldə olundu"*[208].

Türklər hər bir respublika ilə ayrı-ayrılıqda müqavilə bağlamaq şərtilə Karsda konfrans keçirtmək istəyirdilər. Əgər Ermənistan və Gürcüstan razı olardısa, Azərbaycan da konfransın Karsda keçirilməsinə etiraz etmirdi[209].

G.Çiçerin aprelin 12-də M.Hüseynova təkrarən yazırdı:

*"Cənubi Qafqaz respublikaları Türkiyə ilə ümumi müqavilə bağlamalıdırlar. Əgər türklər imtina etsələr, onda Tiflisdə birgə konfransın keçirilməsinə nail olmaq lazımdır"*[210].

M.Hüseynova aprelin 13-də göndərdiyi qeydlərində G.Çiçerin yazırdı:

*"Biz Aleksandropolun tamamilə azad edilməsini türklərdən tələb edirik. Bu, ağrılı məsələdir.* ***Qarabəkirin Aleksandropolu azad etmək istəməməsi Ermənistanda sovet hakimiyyəti üçün fəlakətli vəziyyət, Bakı üçün təhlükə yaradar*** (seçmə bizimdir M.Q.). *Onun intizamsız dəstələri diyarı boş bir yerə çevirir. Mən Əli Fuada təhdidedici bir nota göndərdim. Türk komandanlığından Aleksandropolu təcili azad etməyi tələb etmək lazımdır. Əks-təqdirdə hərbi toqquşma ola bilər. Türklər müqavimət göstərərlərsə, məsuliyyət onların üzərində qalacaqdır"*[211].

Türkiyə tərəfi Aleksandropolu boşaldacağını, oraya bolşevik ordularının girəcəyini, lakin bunun hələ zamanı gəlmədiyini bildirirdi. Belə ki, Kazım Qarabəkir Paşa 14 aprel tarixdə Qafqaz cəbhəsi Hərbi-İnqilabi Şurasının nümayəndəsi Dubrovskiyə göndərdiyi 313 saylı məktubunda da Aleksandropolu boşaldacaqlarını və oraya bolşevik ordularının girəcəyini vurğuladı[212].

---

[208] Закавказско – турецкая конференция в Карсе (Беседа с тов. М. Д. Гусейновым, наркоминделом АССР). – Газ. "Бакинский рабочий", 09.10.1921, №230(362).

[209] Телеграмма Гусейнова Орджоникидзе, Орахелашвили, Мравяну. – ARSSA, f. 609, siy.1, iş 94, v.199.

[210] Чичерин – Гусейнову. 12.04.1921. – ARSSA, f. 609, siy.1, iş 94, v. 214.

[211] Записка Чичерина на имя Гусейнова. 13.04.1921. – ARSSA, f.609, siy.1, iş 94, v. 215.

[212] Письмо Кязима Карабекир Паши военному представителью РВС Кавфронта Дубровскому. 14.04.1921.№313. – РГАСПИ, ф.85, оп. с/Турция, д.45, л.1-6.

Erməni bolşevikləri də Aleksandropolun boşaldılmasını təkidlə tələb edirdilər. Ermənistan K(b)P MK katibi A.A.Mravyan 1921-ci il aprelin 16-da Q.K.Orconikidzeyə göndərdiyi teleqramında Aleksandropolun boşaldılmasını arzu edir, orada daşnak dəstələrinin və hərəkətlərinin pis iz qoyduğunu etiraf edirdi[213].

Ermənistan SSR xalq xarici işlər komissarı A.Bekzadyan da elə həmin gün RK(b)P MK, V.İ.Lenin, G.Çiçerin, İ.Stalin və Kominterinin İcraiyyə Komitəsinə yazdığı məktubunda Moskva müqaviləsinə etirazını bildirərək vurğulayırdı ki, ilk gözə çarpan odur, Rusiya Ermənistanın hesabına Türkiyəyə ərazi güzəştləri etmiş, bu ərazilərin gənc və kiçik bir sovet respublikası üçün saxlanılmasına cəhdlər etməmişdir. O, Ermənistan nümayəndəsinin konfransın işindən kənarlaşdırılmasından, ona aid olan məsələlərin müzakirəsi üzrə təkliflərinin saya salınmamasından, Ermənistana dair məsələlərin müzakirəsi üçün komissiya yaradılmasına dair vəd verilsə də, yerinə yetirilməməsindən narazılıq edirdi.

A.Bekzadyan türk nümayəndə heyətinin 1918-ci ilin mart ayında erməni silahlı dəstələri tərəfindən dinc müsəlman əhalinin qırılmasına dair Moskva konfransında verdiyi bəyanatını "qəribə" adlandırır, əksinə, ermənilərin guya 1914-1921-ci illərdə qırıldığını iddia edirdi. O, Türkiyənin bütün Cənubi Qafqaz müsəlmanlarının, xüsusən sovet Azərbaycanının himayəçisi və müdafiəçisi olmağa iddia etməsini qəbul etməyərək, "türklərə kim bu səlahiyyəti vermişdir" deyə yazır, hesab edirdi ki, Cənubi Qafqaz müsəlmanlarının ən yaxşı müdafiəçisi sovet Rusiyası ola bilər. Göründüyü kimi, A.Bekzadyan bu fikirləri ilə G.Çiçerinin məlum mövqeyini təkrarlayırdı.

Naxçıvan və Şərur-Dərələyəz məsələsində Rusiyanın öz mövqelərini qorumaq üçün lazımi dəyanət göstərmədiyini yazan A.Bekzadyan türk nümayəndə heyətinin "Naxçıvan məsələsi"ni və Naxçıvanda muxtariyyət yaradılması təklifini "Türkiyənin şərq sərhədlərinin təhlükəsizliyi" ilə əlaqələndirməsinə qarşı çıxaraq, yanlış olaraq bunu sovet Ermənistanına hücum imkanı, "təcavüzkarlıq niyyəti" kimi qiymətləndirirdi. Guya "erməni ərazilərinin verilməsini" ermənilərin hüquqlarının pozulması hesab edən, Rusiyanın millətlərin öz müqəddəratını təyinetmə hüququnu pozduğunu bildirən A.Bekzadyan Batum məsələsində rus nümayəndə heyətinin israr etdiyini, ermənilərin hüquqlarının qorunmasında isə lazımi mövqeni nümayiş etdirə bilmədiyindən narazılıq edərək, bunu Şərqdə inqilab üçün ziyanlı sayırdı. O, Ermənistanda qalan iki iri mərkəzin – İrəvan və Aleksan-

---

[213] Телеграмма Мравяна на имя Г.К.Орджоникидзе. 16.04.1921. – РГАСПИ, ф.85, оп. с/Турция, д.39, л.1-5.

dropolun kamalçı Türkiyənin təhlükəsi qarşısında olduğu qənaətində idi. Naxçıvan və Şərur-Dərələyəz məsələsinin həlli ilə Ermənistanın Zəngəzuru idarə edə bilməyəcəyini, Sarıqamış, Kars, Kağızman və digər ərazilərdən məhrum olan Ermənistanın kommunizm qurmaq üçün oralardan lazım olan yanacaq, tərəvəz və s. aldığını yazan A.Bekzadyan bütün bu məsələləri sovet Ermənistanı üçün ölüm-dirim məsələsi hesab edirdi[214].

Erməni kommunistlərinin fəaliyyətinin daşnaklarınkından fərqlənmədiyini göstərən bu məktub həm əsassız erməni iddialarının genişliyini təsdiq edir, həm də Kars konfransı ərəfəsində təzyiq mənası daşıyırdı. Ermənistan rəhbərləri təkcə məktublar yazmaqla kifayətlənmirdilər. Onlar Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlıları sıxışdırır və çıxıb getməyə məcbur edirdilər.

### *Ermənistandan azərbaycanlıların köçürülməsi: məqsəd nədir?*

Hələ 1905-1907-ci illərdəki qarışıqlıq dövründə gəlib azərbaycanlılara məxsus Cəlaloğlu kəndinə yerləşən ermənilər yerli əhalini daim təzyiq altında saxlayırdılar. Dözülməz şəraitdən məcburən köçüb Karsa getmək istəyən azərbaycanlıların mal və mülkünü XI ordu komandanlığı almış, heç bir şeysiz sərhəddən buraxmışdı. Bu vəhşilik hərəkətinə qəti şəkildə etiraz edən Kazım Qarabəkir Paşa bolşevik ordu komandanlığına bir məktub da göndərdi[215].

Az sonra Ermənistandan azərbaycanlı əhalinin köçürülməsinə dair məsələ müzakirə edildi. Artıq qeyd edildiyi kimi, G.Çiçerin Türkiyə ilə sərhədboyu ərazilərdə türklərə rəğbət bəsləyən müsəlmanların olduğunu vurğulamış və onu təhlükə olaraq görmüşdü. Elə buna görə də Rusiya xalq xarici işlər komissarının müavini L.Karaxan 1921-ci il aprelin 16-da Ermənistanın Türkiyə ilə sərhəd ərazilərindən müsəlmanların Türkiyəyə köçürülməsi məsələsini qaldırdı. Sərhəd rayonlarındakı əhalinin bir qismi Türkiyəyə köçürüldü[216].

Azərbaycanlıların köçürülməsinin anlamı nə idi? Bu, ermənilər üçün türksüz Ermənistan və xaricdən gətirilən ermənilər üçün yaxşı şərait

---

[214] Доклад наркоминдела Армении Бекзадяна в ЦК РКП, Ленину, Чичерину, Сталину, исполком Коминтерну о договоре РСФСР с Турцией. 16.04.1921. – РГАСПИ, ф.17, оп. 84, д.238, л.2-7.

[215] Письмо военного представителя РВС Кавфронта Дубровского на имя Кязиму Карабекир Паши. 14.04.1921. – РГАСПИ, ф.85, оп. с/Турция, д.45, л.1-6.

[216] Г.К.Орджоникидзе. Пометки на письме дипломатического представителя правительства ВНСТ в Азербайджане. 11.12.1922. – РГАСПИ, ф.85, оп. с/Турция, д.68, л.3-4.

yaratmaq, sovet rəhbərliyi üçün sərhəddə təhlükəsizliyi təmin etmək, azərbaycanlılar üçün isə canlarını xilas etmək demək idi.

### *Kars konfransına hazırlıqlar*

Bu zaman bolşevik Rusiyası Cənubi Qafqaz respublikalarının Türkiyə ilə keçiriləcək konfransda birlikdə hərəkət etmələri üçün əlavə tədbirlər gördü. 1921-ci il mayın 7-də Bakıda Cənubi Qafqaz respublikaları nümayəndələrinin müşavirəsi keçirildi. Müşavirədə Qafqaz cəbhəsi Hərbi-İnqilab Şurasının üzvü Q.K.Orconikidze, RSFSR-in Zaqafqaziya respublikaları yanındakı nümayəndəsi B.V.Leqran, Gürcüstan SSR nümayəndəsi İ.(Mamiya) Oraxelaşvili, Ermənistan SSR nümayəndəsi A.Bekzadyan, Azərbaycan SSR nümayəndələri M.Hüseynov və B.Şahtaxtinski iştirak edirdilər.

Sədri Oraxelaşvili, katibi isə Azərbaycan SSR xalq xarici işlər komissarının müavini A.A.Andreyev olan müşavirənin gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdi: 1. Zaqafqaziya respublikaları və TBMM hökuməti arasında birgə konfrans. 2. Zaqafqaziya – Türkiyə konfransının yeri və vaxtı. 3. Zaqafqaziya respublikaları və TBMM hökuməti arasında danışıqların əsası. 4. Zaqafqaziya respublikalarının hər birinə aid məsələlərin müzakirəsinin qaydası. 5. Moskva müqaviləsinin inkişafında əlavələr və dəyişikliklər.

Müşavirə başlayanda gündəlikdə duran məsələlərin və müşavirənin xarakterini müəyyənləşdirməyi təklif edən M.Hüseynov bunun ilkin müşavirə, yoxsa konfrans olub-olmadığını soruşdu. Ondan sonra çıxış edən Bekzadyan dedi ki, müşavirəyə konfrans kimi baxmaq olmaz, çünki Ermənistan hökuməti bu məsələni müzakirə etməmişdir, konfransı çağırmaq üçün respublikaların qərarları olmalı, mübahisəli məsələlər yerində öyrənilməlidir. Müşavirənin konfransa hazırlıq məqsədi daşıdığını deyən Bekzadyan Ermənistanın Naxçıvan ilə şimal-qərb sərhədinin doğru və dəqiq müəyyənləşdirilməsinə, TBMM ilə Zaqafqaziyanın ümumi müqaviləsinin tərəfi kimi çıxış etməsi fikrinə müsbət yanaşdı.

Müşavirəni Zaqafqaziya respublikalarının konfransı adlandırmağı təklif edən M.Hüseynov dedi ki, əgər Bekzadyan Ermənistan hökumətinin bu məsələni müzakirə etmədiyini bildirirsə, onda əlaqə saxlayıb məsləhət ala, ya da İrəvana gedib hökumətinin mövqeyini öyrənə bilər. O, Moskva müqaviləsində əsas məsələlərin həll edildiyini, yalnız sadə formallıqların qaldığını, onu da Zaqafqaziya respublikalarının öz aralarında həll etmələrini təklif etdi.

Məsələlərin dəqiq və yerində öyrənildikdən sonra həllini təklif edən Leqran konfransın açılmasına əngəl və onun təxirə salınması üçün əsas olmadığını bildirdi.

Məsələ ətrafında hay-küy qaldırmağın, guya respublikalar arasında fikir birliyinin, razılığın olmadığını bildirməyin lüzumsuz olduğunu deyən

Orconikidze qəti olaraq vurğuladı ki, məsələ belə durur: biz konfransı qısa vaxtda açırıq və o, bütün məsələləri həll edir. Bu isə aramızda müxtəlif səslərin və fikir ayrılıqlarının olmadığını sübut edir. Orconikidze konfransı təxirə salmağın mümkün olmadığını bildirdi.

Çıxış edən Şahtaxtinski Orconikidzenin fikirlərini müdafiə etdi.

Konfransın əhəmiyyətini xüsusi şişirtməməyi təklif edən Oraxelaşvili kəskin məsələlərin yaranmasına əsas olmadığını, Moskva konfransının demək olar ki, bütün məsələləri həll etdiyini, ondan geri çəkilməyin lazım olmadığını, Gürcüstan üçün Batumdan başqa bütün digər məsələlərin mühüm olmadığını söyləyərək, onları sadə məsələlər adlandıraraq əlavə etdi: bizim bir mürəkkəb məsələmiz vardır: Naxçıvanın Ermənistan ilə şimal-qərb sərhədini müəyyənləşdirmək.

Təkrar çıxış edən M.Hüseynov "müşavirəni hamı üçün məcburi olan qərarlar qəbul edən konfrans adlandırılmaq olarmı" sualını verdi.

Müşavirəyə konfrans xarakteri verməyin əleyhinə çıxan Bekzadyan Ermənistan SSR İnqilab Komitəsinin Moskva müqaviləsi ilə az tanış olduğunu, bəzi məsələlərin yerində öyrənilməsinin vacibliyini, müşavirənin ilkin xarakter daşıdığını dedi.

Leqran iki müxtəlif məsələni müəyyənləşdirməyi təklif etdi: Birincisi, TBMM hökuməti ilə Zaqafqaziya respublikaları arasında müqavilənin əsasını Moskva müqaviləsi təşkil edir. İkincisi, Zaqafqaziya – Türkiyə konfransında Zaqafqaziya respublikaları birgə çıxış edirlər.

M.Hüseynov həlli zəruri olan məsələləri müəyyənləşdirməyi, konfrans açılmazdan əvvəl bütün mübahisəli məsələləri xüsusi müşavirədə həll etməyi, konfransın isə bu qərarları formal olaraq möhkəmləndirməsini təklif etdi.

Oraxelaşvili bildirdi ki, müşavirənin məsələləri və qərarları bütün iştirakçılar üçün təkcə konfransda deyil, eyni zamanda yerlərdə də məcburidir.

Leqran əvvəlki mövqeyini yenidən təkrar etdi.

Bekzadyan çıxışında Moskva konfransında türk tərəfinin mandatının olmamasını əsas gətirərək, Zaqafqaziya respublikalarının bir tərəf kimi iştirak etməsinin əleyhinə olduğunu, bu məsələlərin araşdırılmasının vacibliyini bildirdi. Yerlərdə həll ediləcək məsələlərin müşavirədə müəyyənləşdirilməsini təklif etdi.

Leqran isə yuxarıda irəli sürdüyü iki məsələ barəsində qərar qəbul olunmasını təklif etdi.

Müşavirənin konfrans adlandırılmasına dair təklifini təkrarlayan M.Hüseynov siyasi və texniki səbəblər ucbatından onun əhəmiyyətini azaltmamağı təklif etdi.

Türkiyə ilə müqaviləni imzalamaq üçün xüsusi hazırlıq işlərinin görülməməsi ilə bağlı məsələlərin olmadığını bildirən Orconikidze vurğuladı

ki, nə qədər tullansaq da, bütün əsas, başlıca və əhəmiyyətli məsələləri həll edən Moskva müqaviləsindən yuxarı tullana bilməyəcəyik. Partiya intizamı baxımından da Moskvanın qərarlarının məcburi olduğunu söyləyən Orconikidze konfransın əhəmiyyətini azaltmamağı, yalnız Türkiyə ilə müqaviləyə dair məsələlərlə məhdudlaşmamağı, Moskvanın Zaqafqaziyanın bütün nümayəndələrini çağırdığını qeyd etdi və bildirdi ki, həmin nümayəndələr Moskvadan geri döndükdən sonra bu müşavirəni geniş proqramla konfrans adlandırmaq olar. Orconikidze iki məsələni fərqləndirməyi təklif etdi: bütün xarici və daxili məsələlər həll edilmişdir və türklər başlıca olaraq Moskva müqaviləsinə əsasən Zaqafqaziya respublikalarının sərhədlərinin tanınmasına imza atmaqla nail olmuşlar.

Leqran qərarları qəbul etmək təklifini təkrar etdi.

Orconikidze Türkiyə ilə konfransda bütün Zaqafqaziya respublikalarının birgə çıxış edəcəyini bildirdi.

Oraxelaşvili Naxçıvan sərhədinə dair məsələni müzakirə etməyi təklif etdi. Bu barədə tarixi arayış verən Şahtaxtinski bildirdi ki, Çiçerin ondan Naxçıvan ilə Ermənistanın şimal-qərb sərhədinin doğru olaraq haradan keçdiyini soruşduqda o, "Qurd qapısından" cavabını vermişdi. Əlavə etdi ki, xüsusi komissiya hərbi mütəxəssisləri cəlb edərək, Naxçıvanın şimal-qərb sərhədini çəkərkən İrəvan quberniyasının cənub küncünü Naxçıvana qatmışdır. Şahtaxtinski məsələnin həllini, bilən yoldaşlarla yerində təklif etdi.

Leqran Naxçıvanın Ermənistan ilə şimal-qərb sərhədini müəyyənləşdirmək üçün Azərbaycan, Türkiyə və Ermənistan nümayəndələrindən ibarət komissiya yaratmaq təklifini irəli sürdü.

Bekzadyan bildirdi ki, yerə baxmadan sərhədi çəkmək olmaz.

Orconikidze Azərbaycan və Ermənistan nümayəndələrinə sərhədi yerində doğru çəkməyi tapşırmağı təklif etdi.

Birinci məsələ üzrə müşavirə belə bir qərar qəbul etdi ki, TBMM hökuməti ilə danışıqlarda bütün Zaqafqaziya respublikaları bir müqavilə tərəfi kimi birgə iştirak edəcəklər.

İkinci məsələyə dair qəbul edilən qərarda yazılırdı ki, Zaqafqaziya respublikalarının nümayəndələri Moskvadan geri dönməyənədək konfransın vaxtını müəyyənləşdrimək olmaz. Lakin konfransın keçiriləcəyi yer kimi Bakı və ya Tiflisi təyin etmək arzuedilən olardı. Əgər TBMM hökuməti konfransı Karsda keçirməyi təklif edərdisə, ona maneəçilik olmayacaqdı. Lakin yer məsələsini ultimativ şəkildə qoymaq olmazdı.

Üçüncü məsələ üzrə müşavirə belə bir qərar qəbul etdi ki, TBMM hökuməti ilə Zaqafqaziya respublikaları arasında danışıqların əsasını 16 mart tarixli Moskva müqaviləsi təşkil etməlidir.

Dördüncü məsələ haqqında qəbul edilən qərarda yazılırdı ki, ilk növbədə Ermənistan ilə Türkiyə, ikinci növbədə Gürcüstan, üçüncü növ-

bədə Azərbaycan ilə Türkiyə arasında müqavilə münasibətlərinin qurulmasına dair məsələlər müzakirə ediləcəkdir.

Beşinci məsələ üzrə qəbul edilən qərarda deyilirdi ki, Moskva müqaviləsinin III paraqrafı ilə Ermənistan və Naxçıvan arasında sərhədin düzəldilməsi hüququ Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət komissiyaya verilmişdir. Ona görə də bu məsələ Zaqafqaziya – Türkiyə konfransında müzakirə edilməli idi. Azərbaycan və Ermənistan nümayəndələri sərhədi yerlərdə etnoqrafik prinsiplərə əsasən, həm də əhalinin baxışlarını nəzərə alaraq müəyyənləşdirməyə başlamalı idilər.

Müzakirələr nəticəsində ümumi razılıq əldə edildi. Türkiyə ilə keçiriləcək konfransda üç Cənubi Qafqaz respublikasının bir tərəf kimi, birlikdə ümumi müqavilə imzalamalarına dair təklif edəcəkləri haqqında qərar qəbul olundu. Artıq qeyd edildiyi kimi, keçiriləcək danışıqların və imzalanacaq müqavilənin əsasını 1921-ci il 16 mart tarixli Rusiya – Türkiyə müqaviləsi təşkil etməli idi[217].

Bolşevik Rusiyası Cənubi Qafqaz respublikalarının Türkiyə ilə keçiriləcək konfransında ümumi müqavilə bağlanmasına və sərhəd məsələlərinə dair komissiyada özünün bərabərhüquqlu, bütövlükdə isə konfransda məşvərətçi səslə iştirak etməkdə israrlı idi. Bununla əlaqədar olaraq B.V.Leqran 1921-ci il mayın 24-də M.Hüseynova yazırdı:

*"Azərbaycan XXİK və Ermənistan XXİK Türkiyə ilə müqaviləni işləyib hazırlamalı idilər. Belə bir müqavilə hazırlanmışdırmı, türklərdən xəbər varmı? Türklər qoşunlarını çəkdikdən sonra* (may ayında türk qoşunlarının Aleksandropoldan çıxarılması nəzərdə tutulur – M.Q.) *münasibətlərin gələcək inkişafı barədə təşəbbüsün onlar tərəfindən gəlməli olmasına baxmayaraq, susurlar. Rusiya sərhəd məsələləri komissiyasında Türkiyə və Qafqaz respublikaları ilə bərabər hüquqda, danışıqlarda isə məşvərətçi səslə iştirak etmək istəyir. Çünki müqavilə üç Qafqaz respublikası ilə Türkiyə arasında imzalanmalıdır"*[218].

Erməni xadimləri isə qarşıdakı konfransda əsassız ərazi iddialarının təmin olunacağına ümid edirdilər. Məsələn, ermənilərin İstanbulda fransız dilində nəşr etdikləri "Le Reveil" qəzeti 2 iyun tarixli nömrəsində (№19) menşevik Gürcüstanının Ankara hökuməti yanında keçmiş diplomatik nümayəndəsi, hazırda isə Ermənistanda diplomatik nümayəndə Simon Mdivanidən müsahibə almışdı. O bildirmişdi ki, Qafqaz gerçəkliklərindən uzaq olan ermə-

---

[217] Протокол совещания представителей Закавказских республик. 07.05.1921. – РГАСПИ, ф. 85, оп.с/Турция, д.105, л.1-6; Протокол совещания представителей Закавказских Республик. Г. Баку. 07.05.1920. – ARDA, f. 28 s., siy.2, iş 27, v. 29-30.

[218] Письмо Леграна на имя М.Д.Гусейнова. 24.05.1921. – ARSSA, f. 609, siy. 1, iş 96, v. 3-4.

nilər Türkiyənin 6 vilayəti və Aralıq dənizinə çıxış barədə düşünür, Avropanın onlara Batumu, Qara dənizdə liman verəcəyinə inanırdılar. S.Mdivaninin sözlərinə görə Tiflisdə olarkən Bəkir Sami ermənilərlə görüşündə bildirmişdi:

*"Kamalçıların və Ankara hökumətinin erməni xalqına qarşı heç bir iddiası yoxdur. Türklər şimal təhlükəsinə qarşı müstəqil Qafqaz görmək istəyirlər"*[219].

Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında bağlanacaq müqavilənin Moskva müqaviləsindən doğmasını zəruri hesab edən G.Çiçerin iyunun 13-də Türkiyə səfiri Əli Fuada göndərdiyi notada yazırdı:

*"Türk nümayəndə heyətinin Azərbaycan Respublikasına, sonra isə Gürcüstan Respublikasına onların hər biri ilə separat müqavilə bağlamaq təklifi bu iki respublika tərəfindən rədd edilməmişdir; lakin ona belə bir şərt əlavə olunmuşdur ki, müqavilə Moskva müqaviləsindən doğmalıdır və Türkiyə ilə Ermənistan sovet respublikası arasında da bağlanmalıdır...Türkiyənin və bu üç sovet respublikasının konfransında hazırlanmalıdır"*[220].

Rusiya diplomatiyasının baxışına görə *"...konfrans sovet Rusiyası və Türkiyə arasında Moskvada bağlanmış müqaviləni tamamlamalı idi"*[221]. Lakin ərazi-sərhəd məsələlərinin həlli təkcə Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan sovet rəhbərlərini düşündürmürdü, eyni zamanda, Qafqaz mühacirətinin nümayəndələri də bu zaman fəallaşmışdılar.

## *Qafqaz siyasi mühacirəti nümayəndələrinin müqavilə və sazişlərə münasibəti*

Müstəqillik şəraitində ermənilərin əsassız iddiaları ucbatından dil tapa bilməyən, işğaldan sonra isə mühacirətdə yaşamağa məcbur olan Azərbaycan Respublikasının Paris sülh konfransında nümayəndə heyətinin başçısı Ə.Topçubaşov, Ermənistan nümayəndə heyətinin başçısı A.Aqaronyan, Şimali Qafqaz Respublikası nümayəndə heyətinin başçısı A.Çermoyev, Gürcüstan Respublikasının fövqəladə səfiri və səlahiyyətli nümayəndəsi A.Çxenkeli Bakıda keçirilən müşavirədən təxminən bir ay sonra – 1921-ci il iyunun 10-da Parisdə 10 maddədən ibarət bir bəyannamə imzaladılar[222]. Bəyannamədə Qafqaz xalqları arasında bütün, ilk növbədə sərhəd mübahisələrinin arbitraj vasitəsi ilə həll edilməsi zəruri sayılır, Qafqaz dövlətləri ərazilərinin toxunulmazlığı və tam müstəqilliyi əsasında qonşu dövlətlərlə – Rusiya, Türkiyə və İranla mehriban qonşuluq

---

219 Бюро печати при Наркоминдела ССР Армении. Турция и Кавказ. Бюллетень №2. 10.06.1921. – GMƏYTA, f.612, siy. 1, iş 114, v. 4.
220 Документы внешней политики СССР. Т. IV, с. 176.
221 Yenə orada, s. 287.
222 Декларация. 10.06.1921. – ARDA, f.28 s., siy.1, iş 38, v. 53-54.

və dostluq münasibətlərinin qurulması istənilir, göstərilirdi ki, bu günədək Türkiyədə "erməni məsələsi"nin həll edilməməsi Qafqaz dövlətləri arasında ittifaqı həyata keçirtməkdə başlıca maneədir. Bəyannaməni imzalayanlar Qafqaz ölkələrinin ərazilərinin verilməsinə dair qonşu dövlətlərin müqavilə və sazişlərini qəbul etmirdilər.

Artıq qeyd edildiyi kimi, Kars konfransında Azərbaycanın Türkiyəyə yaxınlaşması ehtimalından narahat olan bolşevik Rusiyası onun qarşısını almaq üçün bəzi addımlar atdı. Bu addımlardan biri Ermənistanın yenidən Azərbaycana qarşı əsassız ərazi iddialarını irəli sürməsi oldu.

### *Mərkəzi hökumət Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürməsini təşviq edir. Qarabağa dair məsələ müzakirə edilir*

Kars konfransına hazırlıqlar dövründə Ermənistan sovet hökuməti hələ daşnakların Qazaxda işğal etdiyi Azərbaycan yaylaqlarını və meşələrini geri qaytarmaq, kəndliləri həmin yerlərə buraxmaq istəmir, Qarabağ regionuna iddialar irəli sürürdü. Digər tərəfdən, Cənubi Qafqazın üç respublikası arasında ərazi mübahisələri qızışırdı. Ona görə də RK(b)P MK Qafqaz Bürosu hələ 1921-ci il 2 may tarixli iclasında (protokol №2) S.Kirovun sədrliyi altında Cənubi Qafqaz respublikaları arasında daxili sərhədləri dəqiqləşdirmək üçün Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələrindən ibarət komissiya yaratmışdı[223].

Bundan az bir vaxt keçmiş "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə dair məsələ üzrə əsas müddəalar" adlı bir sənəd hazırlandı[224]. Bu sənəd mahiyyətinə görə təkcə Dağlıq Qarabağın deyil, Azərbaycanın digər ərazilərinin də qopardılaraq Ermənistana birləşdirilməsi məqsədini güdürdü. Sənəddə vurğulanırdı ki, Dağlıq Qarabağ yüksək olmayan təbii dağ aşırımları sərhədi ilə aran Qarabağdan ayrılmışdır. Beşinci maddədə yazılırdı ki, Dağlıq Qarabağın Ermənistan Respublikasına keçməsi ilə Qarabağ və Zəngəzur arasındakı dar dağ zolağı olan Kürdüstanda təbii olaraq ona keçməlidir. Sənəddə qeyd edilirdi ki, bu rayon özünəməxsus coğrafi yerləşməsinə və əhalisinin arasında millətçi meyillərin olduğuna görə bəzi mürəkkəbliklər ola bilər. Şuşadan şimalda Gorus şossesi üstündə yerləşən və əhalisi cəmi 27 min nəfər olan bu rayon altı kənd icmasından ibarət idi. Millətçi meyilləri aradan qaldırmaq üçün bu rayondan ibarət Er-

[223] Протокол №2 заседания Кавбюро ЦК РКП(б). 02.05.1921. – РГАСПИ, ф.64, оп.1, д.1, л.57.

[224] Основные положения по вопросу о присоединении Нагорного Карабаха к Республике Армении. 1921. – РГАСПИ, ф.64, оп.1, д.137, л.7-7 об..

mənistanın idarəçiliyi altında, çarəsiz qaldıqda isə Azərbaycanın protektoratlığı altında xüsusi kanton yaratmaq olardı.

Əslində bu sənəd Ermənistanın daha geniş niyyətlər güddüyünü göstərirdi. Belə ki, altıncı maddədə yazılırdı ki, Kürdüstandan cənuba Həkəri çayının axarı boyunca daha çox erməninin məskunlaşdığı Qaladərəsi və Cəmilli icmaları yerləşmişlər. Bu həmin zolaqdır ki, ondan şosse yolu keçir və tək inzibati vahid qurmaq, vahid idarəçilik üçün Dağlıq Qarabağ yalnız bu yolla Zəngəzurla birləşə bilər və bu birləşmə olmadan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin heç bir mənası qalmır. Göründüyü kimi, Ermənistan və Qarabağın dağlıq hissəsinin birbaşa əlaqəsinin olmadığını bilərək sənədi hazırlayanlar onların arasında yerləşən tarixi Azərbaycan ərazilərinin də qopardılmasını planlaşdırırdılar.

Bütün bunları əsas götürən Ermənistan hökuməti 1921-ci il 21 may tarixdə heç bir hüquqi əsas olmadan Dağlıq Qarabağ regionunun Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. Ermənistan K(b)P MK 1921-ci il 23 may tarixli plenumunda (protokol №4) Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi və Akop İonisyanın Dağlıq Qarabağda səlahiyyətli nümayəndə təyin olunması haqqında qərar qəbul etdi. Zəngəzur komissiyasının bəyanatı haqqında Pirumovun məruzəsini dinlədi. Məlum məsələyə dair Azərbaycana nota verilməsi məqsədəuyğun sayılmadı. Belə bir qərar qəbul olundu ki, RK(b)P MK Qafqaz Bürosunun qarşıdan gələn plenumunda Dağlıq Qarabağ haqqında məsələyə aydınlıq gəlməyənə qədər Azərbaycana nota verməkdən imtina edilsin[225].

Beləliklə, bu hərəkəti ilə Ermənistan tərəfi Kars konfransına hazırlıqlar aparıldığı bir zamanda Dağlıq Qarabağ regionunun özünə birləşdirilməsi üçün konkret addımlar atdı. Heç şübhəsiz, Mərkəzin işarəsi ilə edilən bu hərəkət konfrans ərəfəsində Azərbaycana təzyiq etmək, onu bir küncə sıxışdırmaq və rəsmi Bakını fakt qarşısında qoymaq məqsədi güdürdü.

Ermənistanın bu hərəkətindən bir neçə gün sonra, 1921-ci il iyunun 3-də RK(b)P MK Qafqaz Bürosunun plenumu (protokol №6) keçirildi. Plenumda Q.Orconikidze, F.Maxaradze, N.Nərimanov, A.Myasnikov, İ.Oraxelaşvili, A.Nazaretyan, Y.Fiqatner, Azərbaycan K(b)P MK katibliyinin büro üzvlüyünə namizəd Kaminski və Gürcüstan K(b)P MK üzvü Ş.Eliava iştirak edirdilər. Plenumun axşam iclasının gündəliyinə üç məsələ daxil edilmişdi: 1. Azərbaycan məsələsi. 2. Zəngəzur məsələsi. 3. Köçərilər haqqında[226].

Q.Orconikidzenin sədrlik etdiyi iclasda geniş müzakirələrdən sonra müvafiq qərarlar qəbul edildi. Birinci və üçüncü məsələ üzrə qəbul olun-

---

[225] Протокол №4 заседания ЦК КП (b) Армении. 23.05.1921. – РГАСПИ, ф.64, оп.1, д.105, л.5 об..

[226] Протокол №6 вечернего заседания Пленума Кавбюро ЦК РКП(б). 03.06.1921. – РГАСПИ, ф.64, оп.1, д.1, л.76 об..

muş qərarlar protokolda yazılmış, ikinci məsələyə dair qərarın yerində isə "protokola əlavəyə bax" qeydi yazılmışdır. Bütövlükdə, iclasın protokolu məxfi deyildi. Bununla belə, "Zəngəzur haqqında məsələyə dair" 7 bənddən ibarət qərar "tamamilə məxfi" qrifi ilə qəbul edildi. Birinci maddədə yazılırdı ki, iyun ayının sonunadək Zəngəzur ləğv edilsin. İkinci bənddə vurğulanırdı ki, təcili olaraq hərbi əməliyyatlara hazırlıqlara başlanılsın. Üçüncü bənddə qeyd edilirdi ki, hazırlıqlarla yanaşı Ermənistan hökuməti Zəngəzur hökuməti nümayəndələrinin bəyanatına cavab olaraq Zəngəzura öz bəyanatını göndərsin. Dördüncü bəndə görə bəyanatı göndərməklə yanaşı Meğrini təcili tutmaq üçün tədbirlər görmək lazım idi. Qəribə idi. Qəbul edilən qərar Zəngəzur haqqında olsa da, onun beşinci bəndi Dağlıq Qarabağa aid idi. Belə ki, beşinci bənddə yazılırdı ki, Ermənistan hökumətinin bəyanatında Dağlıq Qarabağın Ermənistana məxsus olması göstərilsin. Altıncı bənddə vurğulanırdı ki, bəyanatın elan edilməsi ilə hərbi əməliyyatların başlanması arasında Gürcüstan və Azərbaycan hökumətləri vasitəçilik üçün nümayəndələrini Zəngəzura göndərsinlər. Yeddinci bənddə qeyd edilirdi ki, eyni vaxta Zəngəzur və Kürdüstan ləğv edilsin[227].

Göründüyü kimi, qəbul edilən məxfi qərarda Dağlıq Qarabağın Ermənistan məxsus olmasına dair bəyanat vermək haqqında Ermənistan hökumətinə tapşırıq verilməsi Azərbaycanın ərazi bütövlüyünə edilən ağır qəsd idi. Qafqaz Bürosu belə bir qərarı Mərkəzin bilavasitə göstərişi olmadan qətiyyən qəbul edə bilməzdi. Bu addım Kars konfransı ərəfəsində Azərbaycana təzyiq etmək, onu özündən asılı salmaq, həm də Cənubi Qafqazın üç respublikası arasında S.M.Kirovun sədrliyi altında ərazi mübahisələrinə baxacaq komissiyada Azərbaycandan tarixi torpağını qopartmaq üçün zəmin hazırlamaq məqsədi güdürdü.

Belə bir qərarın qəbul edilməsi Ermənistanı daha da fəallaşdırdı. Az sonra, iyunun 12-də Ermənistan SSR XKS Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi haqqında dekret verdi. A.Myasnikov və M.Karabekyanın imzaladıqları dekretdə yazılırdı:

*"Azərbaycan Sosialist Sovet Respublikası İnqilab Komitəsinin bəyannaməsinə və Ermənistan və Azərbaycan sosialist respublikaları arasındakı razılaşmaya əsasən sovet Ermənistan İnqilab Komitəsi elan edir ki, bundan sonra Dağlıq Qarabağ Ermənistan Sosialist Sovet Respublikasının ayrılmaz tərkib hissəsidir"*[228].

---

[227] Приложение к протоколу №6 вечернего заседания Пленума Кавбюро ЦК РКП(б). 03.06.1921. – РГАСПИ, ф.64, оп.1, д.1, л.77; Приложение к протоколу №6 Постановление Кавбюро ЦК РКП по Зангезурскому вопросу. Сов. секретно. 03.06.1921. – ARDA, f.410a, siy.1s, iş 98, v.5.

[228] Карабах – Советской Армении. – Газ. "Бакинский рабочий", 22.06.1921, № 138(271).

Dekretdən açıq şəkildə bir daha məlum olur ki, əgər Ermənistan Dağlıq Qarabağı *"birləşdirdiyini"* elan edirdisə, deməli, bu ərazi əvvəllər ona məxsus olmamışdır. Çünki dövlət, torpağı olan və üzərində idarəçiliyi olan ərazisini yenidən özünə birləşdirdiyini bəyan etməz. *"Bundan sonra Dağlıq Qarabağ Ermənistan Sosialist Sovet Respublikasının tərkib hissəsidir"* yazılması da göstərir ki, bu ərazi heç bir zaman ermənilərin etnomədəni təsiri altında olmamışdır.

Digər tərəfdən, dekretdə iki respublika arasında "*razılaşma"* ifadəsi yazılsa da, belə bir razılaşma olmuşdurmu? Biz Dağlıq Qarabağ regionunun Ermənistana verilməsi haqqında Azərbaycan hökumətinin razılığına dair heç bir arxiv sənədinə rast gəlmədik. İki respublika arasında bu məsələ üzrə heç bir hüquqi, siyasi sənəd də imzalanmamışdır. Elə isə Ermənistan XKS-nin bəyanatında yer tutan bu yalanlar nə ilə bağlı olmuşdur? Görünür, ya Mərkəz Azərbaycanı belə bir "razılığa" getməyə şifahi şəkildə məcbur etmiş, ya da Ermənistan tərəfi saxtakarlıq edərək "razılaşma" olduğunu bəyan etmişdir.

Ermənistan XKS-nin dekreti Ermənistan K(b)P MK-nın 15 iyun tarixli iclasında (protokol № 8) müzakirə edildi. Müzakirə nəticəsində aşağıdakı qərar qəbul edildi:

*"Dağlıq Qarabağın Sovet Ermənistanına birləşdirilməsi haqqında dekret dərc edilsin".*

İclasın gündəliyinin beşinci maddəsi Qarabağa nümayəndə göndərmək haqqında idi. Müzakirə nəticəsində A.Mravyan, Pirumov, Akop İonisyan, Ter-Simonyan və digər şəxslərdən ibarət qrupun Qarabağa göndərilməsi haqqında qərar qəbul edildi[229].

Qərara uyğun olaraq Ermənistan İnqilab Komitəsi iyunun 19-da hökumət dekretini mətbuatda dərc etdi. A. Mravyan Dağlıq Qarabağda Ermənistanın fövqəladə komissarı təyin olundu. Mətbuatda dərc edilən məlumatda yazılırdı:

*"Ermənistan XKS Qarabağa yoldaş Mravyanı fövqəladə komissar təyin etmişdir. Yaxın günlərdə təyinat yerinə gedəcəkdir*" [230].

Bu zaman Ermənistan İnqilab Komitəsi bütün xalq komissarlarının imzaladığı bəyanatı Zəngəzurun idarəçilərinə göndərdi. Bəyanatda aşağıdakılar təklif edilirdi:

*"Ermənistan fəhlə-kəndli hökuməti törənmiş toqquşmanı dinc yolla sona çatdırmaq təklifi ilə sizə bir daha müraciət edir.* ***Zəngəzur özünü***

---

[229] Протокол №8 заседания ЦК КП Армении. 15.06.1921. – РГАСПИ, ф.64, оп.1, д.105, л.11 об..

[230] В Советской Армении. Комиссар Карабаха. – Газ. "Бакинский рабочий", 23.06.1921, № 139(273).

***idarə əsasında*** (seçmə bizimdir – M.Q.) *özünün fəhlə-kəndli hökümətinin ayrılmaz tərkib hissəsində olmalıdır. Ermənistan İnqilab Komitəsi sovet hakimiyyətinə qarşı çıxış edənlərə münasibətdə geniş amnistiya, siyasi təşkilatlara və mətbuata tam azadlıq vəd edir. Bütün Zaqafqaziyada sovet hakimiyyəti qurulmuşdur, Dağlıq Qarabağ Ermənistana birləşdirilmişdir və təkcə Zəngəzur hüdudlarında hakimiyyət hələ qurulmamışdır. Sovetlərin hakimiyyəti yaranmış qeyri-müəyyən şəraitlə barışa bilməz və sizə təklif edir ki, bizim rəsmi bəyanatımıza cavab verəsiniz"*[231].

Bu bəyanat bir neçə baxımdan diqqəti cəlb edir. Birincisi, bir daha təsdiq edir ki, Zəngəzur erməni dairələrinin iddia etdikləri kimi, heç vaxt Ermənistanın hakimiyyəti altında olmamışdır. İkincisi, bəyanatda Zəngəzura özünü idarəetmənin verilməsi vəd edilsə də, bu və digər vədlər yerinə yetirilməmişdir.

Ermənistanın Dağlıq Qarabağ regionuna olan əsassız iddialarına və özbaşına hərəkətlərinə qarşı Azərbaycanın cavabı özünü çox da gözlətmədi. N. Nərimanovun sədrliyi, İslam Hacıbəylinin katibliyi və xalq komissarları Qarayev, Bağırov, Qasımov, Talıblı, Sultanov, Azərbaycan MİK üzvü Şahbazov, Şahtaxtinski, Kazımov, Vəzirov, Əliyev, Tağıyev, Çvanov, Azərbaycan MİK üzvü Hacıyev, XKS-nin işlər müdiri Şirvaninin iştirak ilə keçirilən Azərbaycan SSR XKS-nin 26 iyun tarixli iclasında xalq hərbi-dəniz komisssarı Ə.Qarayevin Dağlıq Qarabağa və Naxçıvan diyarına səfərlərinə dair məruzəsi dinlənildi. Qəbul edilən qərara görə sovet Ermənistanının Dağlıq Qarabağa iddialarına dair məsələ ilə tanış olmaq üçün Şahtaxtinski, Vəzirov və Əliyevdən ibarət kooptasiya hüquqlu üçlük təşkil edildi; Xalq Komissarları Sovetinə müvafiq məsələyə dair müfəssəl məruzə hazırlamaq tapşırıldı. Bununla bağlı olaraq Orconikidzeyə, Ermənistan Hərbi-İnqilab Komitəsinin sədri Myasnikova, xalq hərbi işlər komissarı Qarayevə və sovet Ermənistanı tərəfindən Qarabağa səlahiyyətli nümayəndə təyin edilmiş Mravyana, bu məsələ həll edilənədək onun vəkalətinin ləğv edildiyi haqqında teleqram göndərmək qərara alındı[232].

Qərara uyğun olaraq iyunun 27-də N.Nərimanov Azərbaycan SSR XKS adından Q.Orconikidzeyə ve A.Myasnikova, surətini Ə.Qarayevə və A.Mravyana teleqram göndərdi. Teleqramda A.Mravyanın Dağlıq Qarabağda Ermənistanın fövqəladə nümayəndəsi kimi görünməsi misli

---

[231] Положение должно быт выяснено. – Газ. "Бакинский рабочий", 22.06.1921, № 138(271).

[232] Заседание СНК Азербайджана. 26.06.1921. – ARSSA, f. 1, siy. 169, iş 249/II, v. 48; Протокол заседания СНК Азербайджана. 26.06.1921. – ARDA, ф.411, siy.1, iş 12, v.1; f.379, siy.3, iş 9, v.9.

görünməmiş siyasi və taktiki səhv kimi qiymətləndirilir və dərhal geri çağırılması tələb edilirdi[233].

Azərbaycan K(b)P MK Siyasi və Təşkilat Bürosunun həmin gün, iyunun 27-də keçirilən iclasında (protokol №20, 1-ci bənd ) "Azərbaycan ilə Ermənistan arasında sərhədlər haqqında" məsələ müzakirə edildi. İclasda Nərimanov, Kaminski, Bünyadzadə, Sultanov, Qasımov, Mirzoyan, Qarayev, Axundov və Qutin iştirak edirdilər. İclasın sədri Kirov, katibi Lozner idi. İki respublika arasında sərhəd haqqında məsələ Tiflisdə komissiyanın işi ilə əlaqədar olaraq müzakirə edildi. 5 bənddən ibarət aşağıdakı qərar qəbul edildi: Siyasi və Təşkilat Bürosu Dağlıq Qarabağ haqqında məsələnin Bekzadyan tərəfindən qoyuluşunu qəbulolunmaz hesab etdi, bildirildi ki, Dağlıq Qarabağın Azərbaycana qəti iqtisadi meyilini nəzərə alaraq, məsələ bu mənada həll edilməlidir; buna görə də inzibati və iqtisadi baxımdan məqsədəuyğun olması sayılaraq müvafiq olaraq erməni və türk əhalisinin yaşadığı yerlərin Ermənistana və Azərbaycana ayrılmasına dair təkliflər də qəbuledilməz hesab edildi; Nərimanovun bəyanatından aydın olduğu kimi, məsələnin yeganə həlli erməni və müsəlman kütlələrinin sovet quruculuğuna geniş cəlb edilməsi ola bilər; bu məsələnin gələcək inkişafı və müzakirəsi Tiflisdən məlumat alınana qədər açıq saxlanıldı; Təşkilat və Siyasi Büronun fikrini Tiflisə çatdırmaq Nərimanova tapşırıldı[234].

Azərbaycan tərəfi iyunun 27-də məsələni Tiflisdə Qafqaz Bürosunun müzakirəsinə verdi. M.Hüseynovun məlumatından sonra məsələ açıq saxlanıldı.

N.Nərimanovun sədrliyi, İ.Hacıbəylinin katibliyi, xalq komissarları Bünyadzadə, Məlikov, Vəzirov, Şahtaxtinski, T.Əliyev, Bağırov, Tağıyev, Qədirli, Ordubadski, Xalq Ərzaq Komissarlığının kollegiya üzvü İsmayılovun iştirakı ilə Azərbaycan SSR XKS-nin iyunun 28-də keçirilən iclasında "Ermənistan tərəfindən Muravyanın (Mravyan – M.Q.) Azərbaycan XKS-dən xəbərsiz Qarabağa səlahiyyətli təyin edilməsi ilə əlaqədar olaraq Dağlıq Qarabağın sovet Ermənistanına verilməsi haqqında məsələ" müzakirə edildi. Məsələnin Qafqaz Bürosunda müzakirəsi üçün N.Nərimanovun Tiflisə səfəri nəzərə alınaraq, Azərbaycan K(b)P MK Siyasi və Təşkilat Bürosunun 27 iyun tarixli iclasının qərarı əsas kimi qəbul olundu[235].

---

233 Телеграмма Н.Нариманова Орджоникидзе и Мясникову (копия Мравяну и Караеву). 27.06.1921. – РГАСПИ, ф.85, оп.13, д.98.

234 Заседание Орбюро и Политбюро ЦК АКП (б). Протокол №20. 27.06.1921. – ARSSA, f.1, siy.74, iş 123, v. 88; Протокол №20 заседания политического и организационного бюро ЦК АКП(б). 27.06.1921. – ARSSA, f.1, siy.31, iş 186a, v.49-50; ARDA, f.28s., siy.1, iş 135, v.2; Справка о Нагорном Карабахе. – ARSSA, f.1, siy.31, iş 168a, v.39.

235 Протокол заседание СНК Азербайджана. 28.06.1921. – ARSSA, f.1, siy.169, iş 249/II, v. 48; ARDA, f.379, siy.3, iş 9, v.10.

Ermənistan və Azərbaycan arasında mübahisəni nəzərə alaraq RK(b)P MK-nın Qafqaz Bürosu plenumunun 1921-ci iyulun 4-də keçirilən iclasında (protokol №11) beşinci məsələ kimi Dağlıq Qarabağ haqqında məsələ müzakirə edildi[236]. Müzakirə zamanı iki müxtəlif fikrin olduğu aydınlaşdı. Qarabağın Azərbaycanın hüdudlarında **saxlanılmasının** (verilməsi deyil. Sənəddə belə yazılmışdır. Seçmə bizimdir – M.Q.) lehinə N.Nərimanov, F.Maxaradze, A.Nazaretyan, əleyhinə Q.Orconikidze, A.Myasnikov, S.Kirov və Y.Fiqatner səs verdilər. Qarabağın bütün əhalisi arasında rəy sorğusu keçirilməsinin lehinə N.Nərimanov və Y.Fiqatner səs verdilər. Qarabağın Ermənistanın tərkibinə **qatılması** (sənəddə belə yazılmışdır. Seçmə bizimdir – M.Q.) təklifinin lehinə Q.Orconikidze, A.Myasnikov, Y.Fiqatner və S.Kirov səs verdilər. Yalnız Dağlıq Qarabağda ermənilər arasında plebissit keçirilməsi təklifinin lehinə Q.Orconikidze, A.Myasnikov, Y.Fiqatner, S.Kirov və A.Nazaretyan səs verdilər. Yekunda belə bir qərar qəbul edildi: Dağlıq Qarabağ Ermənistan SSR tərkibinə qatılsın. Rəy sorğusu yalnız Dağlıq Qarabağda keçirilsin.

Tarixi gerçəkliyi əks etdirməyən bu ədalətsiz qərara etiraz edən N.Nərimanov konkret dəlillərini söylədi. Bundan sonra Q.Orconikidze səhv mövqeyindən imtina etdi. Q.Orconikidze və A.Nazaretyan qərara yenidən baxmaq barədə məsələ qaldırdılar.

RK(b)P MK Qafqaz Bürosu plenumunun RK(b)P MK üzvü İ.Stalin, Qafqaz Bürosunun üzvləri Q.Orconikidze, F.Maxaradze, S.Kirov, A.Nazaretyan, İ.Oraxelaşvili, Y.Fiqatner, N.Nərimanov və A.Myasnikovun, Azərbaycan SSR xalq xarici işlər komissarı M.Hüseynovun iştirakı ilə 1921-ci iyulun 5-də keçirilən iclasında Dağlıq Qarabağ məsələsi yenidən müzakirə edildi (protokol №12). Aşağıdakı qərar qəbul edildi:

"*a) yuxarı və aşağı Qarabağın iqtisadi əlaqəsini, yuxarı Qarabağın Azərbaycan ilə daimi əlaqələrini və azərbaycanlılarla ermənilər arasında milli sülhün zəruriliyini nəzərə alaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında* ***saxlanılsın*** *(seçmə bizimdir – M.Q.), Dağlıq Qarabağa Şuşa şəhəri inzibati mərkəz olmaqla geniş muxtariyyət verilsin; b) Azərbaycan MK-ya tapşırılsın ki, Muxtar Vilayətin sərhədlərini müəyyənləşdirib, təsdiq üçün RKP MK-nın Qafqaz Bürosuna təqdim etsin; v) Qafqaz Bürosu MK Rəyasət Heyətinə tapşırılsın ki, Muxtar Vilayətin sərhədlərini müəyyənləşdirib, təsdiq üçün RKP MK-nın Qafqaz Bürosuna təqdim etsin; q) Qafqaz Bürosu MK Rəyasət Heyətinə tapşırılsın ki, Dağlıq Qarabağın fövqəladə komissarının namizədliyi haqqında Ermənistan MK və Azərbaycan MK ilə danışsın; d) Dağlıq Qarabağ*

[236] Протокол №11 вечерного заседания Кавбюро ЦК РКП(б). 04.07.1921. – РГАСПИ, ф.64, оп.1, д. 1, л. 114.

*vilayətinin hüdudları Azərbaycan MK tərəfindən müəyyən edilsin və Qafqaz Bürosu MK-nın təsdiqinə verilsin"*[237].

Kars konfransı ərəfəsində belə bir qərarın qəbul edilməsi bir neçə baxımdan diqqəti cəlb edirdi. Hər şeydən əvvəl, Ermənistan tərəfi Moskva müqaviləsi ilə artıq müəyyənləşdirilmiş sərhədlərin dəyişdirilməsinə çalışsa da, bu, mümkün deyildi. Ona görə də belə bir şəraitdə Azərbaycanın tarixi torpaqlarında ermənilər üçün muxtariyyət, "ikinci erməni ocağı"nın yaradılmasına dair qərarın qəbul edilməsi ermənilərin "sakitləşdirilməsi"nə, Azərbaycanın təzyiq altında saxlanılmasına yönəlmişdi. Mərkəzi hakimiyyət bu addımı ilə Azərbaycan və erməni xalqları arasında düşmənçilik üçün yeni zəmin hazırlamış oldu.

Dağlıq Qarabağ regionuna Azərbaycan tərkibində muxtariyyət ayrılması diyarın azərbaycanlı əhalisini hiddətləndirdi. Onlar etiraz edirdilər. Şuşa qəza İcraiyyə Komitəsinin sədri Mahmudbəyov XKS sədri N.Nərimanova və xalq daxili işlər komissarı H.Sultanova "Şuşa qəzasında vəziyyət haqqında" yazdığı məktubunda vurğulayırdı. *"Dağlıq Qarabağın taleyi məsələsinə keçərək sizi əmin edirəm ki, onun erməni əhalisinin hər hansı bir formada Azərbaycan SSR-dən ayrılması xəyallarından belə keçmir, o səbəbdən ki, o, gözəl başa düşür ki, arandan ayrıldıqda özü öləcəkdir; ikincisi, o, ac, kasıb, heç bir şeyi olmayan Zəngəzurda sirkulyar məktublardan başqa bir şey almayacaqdır; üçüncüsü, bilir ki, Azərbaycan SSR ərazisində olduğu təqdirdə onların daim gur, tələb edən və ümid verən səsi olacaq, onların tələbi ilk növbədə yerinə yetiriləcək, bunu Ermənistan SSR edə bilməyəcəkdir. Qəza İcraiyyə Komitəsinin sədri daha sonra yazırdı ki, bütöv bir vilayətin taleyini həll edərkən imkan daxilində əhalinin özündən özünü idarə etmək üçün hansı hökuməti seçdiyini soruşmaq mane olmazdı. Bu istəksiz və Dağlıq Qarabağın əhalisinin yarıdan çoxunun iradəsini nəzərə almadan siz Mərkəzdə həll edirsiniz, onu diqqətdən kənarda saxlayırsınız"* [238].

### *Azərbaycana və Türkiyəyə edilən təzyiqlər*

Erməni – türk düşmənçiliyini qızışdıran qüvvələr bu zaman dinc dayanmamışdılar. Kars konfransı ərəfəsində bəzi Qərb ölkələri türk – erməni münasibətlərini yenidən kəskinləşdirməyə çalışırdılar. Bu məqsəd tama-

---

[237] Протокол №12 заседания Пленума Кавбюро ЦК РКП (б). 05.07.1921. – ARSSA, f.1, siy.2, iş 25, v.107-108; РГАСПИ, ф.64, оп.1, д.1, л. 122.

[238] Письмо председателья Шушинского уездисполькома Махмудбекова предсовнаркома тов. Нариманову, копию – наркомвнутдел тов. Султанову. – ARSSA, f.1, siy.31, iş 186b, v.31.

milə başadüşülən idi. Lakin başa düşülməyən Türkiyənin dost hesab etdiyi Rusiyanın paytaxtı Moskvada dərc olunan "İzvestiya" qəzetinin 1921-ci il 25 iyun tarixli sayında Tiflisdəki amerikan komissiyasına istinadən guya türklərin Aleksandropolda vəhşilik törətməsi haqqında yalan məlumatın dərc edilməsi idi. Bolşevik Rusiyası hökuməti Türkiyəyə həm dost kimi baxır, həm də ciddi nəzarət altında olan bir qəzetdə türkləri gözdən düşürən uydurma məlumatın dərc edilməsinə imkan verirdi. Bu, nə üçün edilirdi? Burada hansı məqsədlər güdülürdü? Bu, Kars konfransı ərəfəsində Türkiyəyə təzyiq etmək anlamına gəlmirdimi?

Həmin məlumata etiraz edən Moskvadakı türk səfirliyi redaksiyaya bir məktub göndərdi. "İzvestiya" qəzetinin 13 iyul tarixli nömrəsində dərc edilən etiraz məktubunda qeyd olunurdu ki, avropalıların Şərqə doğru hücumu xaç yürüşləri dövrünə gedib çıxır. Onlar türkləri qəddar qatil kimi göstərməyə çalışır, daşnaklar isə üç dəniz arasında Ermənistan qurmaq istəyirdilər. Daha sonra məqalədə yazılırdı ki, Şərqi Anadoluda döyüşən 100 minlərlə rus əsgəri erməni bandalarının vəhşilik hərəkətlərinin şahidi olmuş, yüzlərlə kənd erməni dəstələri tərəfindən dağıdılmışdır[239]. Səfirliyin etiraz məktubunda erməni bandalarının qanlı hərəkətlərinə dair konkret faktlar da verilirdi.

Bu zaman Azərbaycanın Karsda özünü müstəqil apara bilməsi ehtimalından narahat olan bolşevik Rusiyası hələ də təzyiqlərini davam etdirirdi. B.V.Leqran iyulun 22-də M.Hüseynova və N.Nərimanova, surətini G.Çiçerinə və Q.Orconikidzeyə göndərdiyi teleqramında *"ilkin razılaşmaya uyğun olaraq siz Karsda digər respublikalardan ayrıca çıxış etməyəcəksiniz. Bizi fakt qarşısında qoysanız, bu yolverilməz olar. RSFSR nümayəndəsindən xəbərsiz gələcəkdə addımlar atmayacaqsınız"* xəbərdarlığını edir, daha sonra isə vurğulayırdı:

*"Siz təcrid olunmuş halda hərəkət etməməlisiniz. Respublikalarla razılaşmalısınız. Mən sizdən təkidlə xahiş edirəm ki, gələcəkdə RSFSR-in səlahiyyətli nümayəndəsinin xəbəri olmadan belə hərəkətlər etməyin"*[240].

Konfrans ərəfəsində sovet – türk münasibətlərinə mane olmağa çalışan erməni dairələri də fəaliyyətlərini artırmışdılar. Onlar ən iyrənc üsullardan belə, istifadə edirdilər. Məsələn, 1921-ci il 25 iyul tarixli məlumata görə ermənilər rus – türk münasibətlərini pozmaq üçün Qarakilsədə – Arpaçaydan qərbdə 2 nəfər rus qırmızı ordu əsgərini öldürmüşdülər. Bununla kifayətlənməyən erməni milisləri özlərini pis aparır, müsəlman kəndlərinə hücumlar edirdilər. Bolşevik adı altında erməni bandaları müsəlmanları qırır və əraziləri yerli əhalidən təmizləyirdilər.

---

[239] События в Армении. – Газ. "Известия", 13.07.1921, №151(1294).

[240] Телеграмма Леграна на имя Гусейнова и Нариманова. 22.07.1921. – РГАСПИ, ф.85, оп. с/Турция, д.100, л.3; Телеграмма Леграна М.Д.Гусейнову. 22.07.1921. – ARSSA, f. 609, siy.1, iş 96, v. 47.

Ermənilər həmçinin yeni ərazilər, xüsusən Karsı almaq üçün qarşıdakı konfransa böyük ümidlər bəsləyirdilər. Bununla bağlı olaraq Azərbaycanın Karsdakı konsulu İslam Hacıbəyli Ankaradakı səlahiyyətli nümayəndə İ.Əbilova sonralar, oktyabrın 1-də yazdığı məktubunda vurğulayırdı:

"*Ermənilər tezliklə Karsın ruslar tərəfindən alınıb onlara veriləcəyinə ümid edirlər*"[241].

Konfransa hazırlıq işləri aparılarkən ermənilər həm Karsın alınıb onlara veriləcəyinə ümid edir, həm də Azərbaycandan Dağlıq Qarabağ regionunu tələb edirdilər. Lakin Karsın ermənilərə verilməsi yalnız bir xəyal idi. Çünki bu məsələnin həll olunduğu Moskva müqaviləsini pozmaq mümkün deyildi.

### *Dağlıq Qarabağ haqqında məsələ yenidən müzakirə edilir*

1921-ci il iyulun 19-da Azərbaycan MİK Rəyasət Heyətinin iclasında Qafqaz Bürosunun 5 iyul tarixli qərarı və N.Nərimanovun Tiflisə səfərinin yekunlarına dair məsələ müzakirə edildi[242]. Nərimanovun məruzəsindən sonra belə bir qərar qəbul edildi ki, Dağlıq Qarabağ sovet konstitusiyası çərçivəsində başda İcraiyyə Komitəsi olmaqla, daxili özünüidarə hüququ verilməklə sovet Azərbaycanının ayrılmaz tərkib hissəsi olaraq qalır.

İyulun 20-də isə AK(b)P MK Siyasi və Təşkilat Bürosunun iclasında "Qarabağ haqqında" məsələ (protokol №22, 6-cı bənd) müzakirə edildi. Ə.Qarayev Qarabağdakı vəziyyət haqqında məlumat verdi. Qarabağın konstitusiyasının hazırlanması üçün xalq daxili işlər, ədliyyə və xarici işlər komissarlıqlarının (XXİK müavini Andreyev) nümayəndələrinin daxil olduqları komissiyanın yaradılmasına dair qərar qəbul edildi. Şuşa qəza Partiya Komitəsinin katibi Adıgözəlov müavin olaraq saxlanıldı. Qərarın surətləri Ədliyyə Komissarlığına (Çvanov), Xalq Daxili İşlər Komissarlığına (Sumianov) və Xalq Xarici İşlər Komissarlığına (Andreyev) göndərildi. İclas gündəliyinin 7-ci bəndi üzrə Andresovun (Andresyan) Ermənistana ezam edilməsinə dair qərar qəbul edildi[243].

Azərbaycan XKS-nin 1921-ci il 26 iyul tarixində keçirilən iclasında da Ə.Qarayev Dağlıq Qarabağ haqqında məruzə etdi. Bir neçə gün sonra, Azərbaycan K(b)P MK bu məruzənin stenoqramını hökumətdən tələb etdi. Lakin XKS-nin işlər müdiri Şirvani 4 avqust tarixli 681 saylı məktubunda

---

[241] Письмо консула АССР в Карсе И.Гаджибейли И.Абилову. 01.02.1921. – ARSSA, f.276, siy.5, iş 1, v.91.

[242] Заседание ЦИК Азербайджана. 19.07.1921. – РГАСПИ, ф.64, оп. 1, д.31, л.122.

[243] Протокол №22 заседания политическо-организационного Бюро ЦК АКП(б).20.07.1921. – РГАСПИ, ф.64, оп. 1, д.92, л.51; ARSSA, f.1, siy.2, iş 18, v.94.

bildirdi ki, Qarayev iclasda məruzəsini şifahi etmişdir, indi stenoqram aparılmır və buna görə də stenoqramı göndərmək mümkün deyildir[244].

1921-ci il avqustun 1-də isə L.Mirzoyanın iştirakı ilə Şuşa qəzasının 2-ci sahəsi sovetlərinin fövqəladə qurultayı keçirildi. Qurultayda 47 nümayəndə, L.Mirzoyan, Şuşa qəza İcraiyyə Komitəsi daxili işlər şöbəsinin rəisi, 2-ci sahə İcraiyyə Komitəsinin üzvləri iştirak edirdilər. İclasın sədri M. Danielyan, katibi isə A.Kamalyan idi. Üçüncü məsələ kimi "Qarabağ məsələsi" müzakirə edildi. L.Mirzoyan məsələ üzrə məruzə etdi. O, bildirdi ki, məsələ rəsmi olaraq deyil, kəndlilərin rəyi ilə tanış olmaq üçün müzakirəyə qoyulur. Bildirdi ki, iqtisadi, mənəvi, siyasi və milli baxımdan Qarabağ Azərbaycanın mərkəzi Bakı ilə sıx bağlıdır. Bu faktorlar Qarabağı hansı siyasi quruluşa aid etməyimiz məsələsini artıq əvvəlcədən həll edir. Dağlıq hissədəki əhaliyə münasibətdə milli nifrətin olması mümkünlüyünü nəzərdən qaçırmayaraq yoldaşlar dağlıq hissədə Mərkəzə (Bakıya) birbaşa tabe olan xüsusi inzibati vahid yaratmağa dair Zaqafqaziya Komitəsinin qərarını düzgün və məqsədəuyğun hesab edirlər[245].

Qeyd etmək lazımdır ki, Mirzoyan məruzəsində birbaşa olaraq "*muxtariyyət*" ifadəsini işlətmir, Qarabağın dağlıq hissəsindən *"xüsusi inzibati vahid ayrılması"nı* deyirdi. "Xüsusi inzibati vahid" isə sözün tam mənasında muxtariyyət demək idimi? Mirzoyanın bu fikri də sual doğuran məsələlərdən biridir. Bir məsələni vurğulamaq lazımdır ki, həmin illərdə bolşevik xadimləri "özünü idarə edən ərazi", "xüsusi inzibati vahid" ifadələrini tez-tez işlədirdilər. Görünür, onlar manevr edərək bununla hər iki tərəfdə olan muxtariyyət əleyhdarlarını sakitləşdirməyə çalışırdılar.

Azərbaycan K(b)P MK Siyasi və Təşkilati Bürosunun avqustun 8-də keçirilən iclasında "Qarabağda vəziyyət haqqında Mirzoyan və Qarayev yoldaşların məruzəsi" (protokol № 27, 3-cü bənd) müzakirə edildi. İclasda S.Kirov, N.Nərimanov, Q.Kaminski, L.Mirzoyan, M.Qasımov, S.Əfəndiyev, H.Sultanov, Qutin, Ə.Qarayev və R.Axundov iştirak edirdilər. İclasın sədri Kirov, katibi isə Lozner idi. Əslində məruzəni yalnız L.Mirzoyan hazırlamış, Ə.Qarayev isə ona qələmlə bəzi qeydlər etmişdi. Erməni kəndlisinin Bakı ilə sıx əlaqəsi olmadan yaşaya bilmədiyini deyən L.Mirzoyan buna görə də Qarabağ məsələsinin həlli üçün aşağıdakıları təklif etdi: Azərbaycan XKS-yə, Azərbaycan MİK-ə və partiya baxımından birbaşa tabeliyində olan, mərkəzi Xankəndi olmaqla, bütün Dağlıq Qarabağ inzibati vahidi ayrılsın. Onun fikrincə, bu, bütün Qarabağ məsələsini həll edəcəkdi.

---

[244] Управделами СНК АзССР Ширвани в ЦК АКП. 04.08.1921. №681. – ARDA, f.411, siy.1, iş 12, v.4.

[245] Протокол чрезвычайного сьезда Советов 2-го участка Шушинского уезда, приглашенного председателем Совнаркома тов. Левоном Мирзояном. 1-го августа 1921 г. Сел. Кендхурт. – ARSSA, f.1, siy.2, iş 18,v.119-120.

Burada bir məsələ diqqəti cəlb edir. RK(b)P Qafqaz Bürosunun 5 iyul tarixli iclas qərarında Muxtar Vilayətin inzibati mərkəzi Şuşa şəhəri göstərilsə də, Mirzoyan Xankəndini təklif edirdi. Bu da səbəbsiz deyildi. Həmin dövrdə Şuşa şəhəri əhalisinin mütləq əksəriyyəti azərbaycanlı idi, onlar da Muxtar Vilayətin tərkibinə daxil olmaq istəmirdilər.

İclasda qəbul edilən qərara əsasən Şuşa qəza Partiya Komitəsi aşağıdakı tərkibdə təsdiq edildi: Surxay Adığözəlov, Mahmudbəyov, Danielyans, Atayev, Səfərov, Avakyan, Əlihəsən Qəmbərov. Əliheydər Qarayev Qarabağın müvəqqəti fövqəladə səlahiyyətlisi təsdiq edildi[246].

Azərbaycan K(b)P MK Siyasi Bürosunun 26 avqust tarixli iclasında (protokol №15, 3-cü bənd) "Türkiyə ilə müqaviləni imzalamaq üçün Azərbaycan SSR-dən nümayəndənin göndərilməsi haqqında" məsələ müzakirə edildi. İclasın sədri Kirov, katibi Lozner idi. İclasda Qasımov, Hüseynov, Nərimanov və Yeqorov iştirak edirdilər. Kars konfransında Azərbaycanın nümayəndəsi Şahtaxtinski təsdiq edildi[247].

Kars konfransı açılan gün, sentyabrın 26-da keçirilən AK(b)P MK Siyasi və Təşkilat Bürosunun iclasında (protokol №30, 8-ci bənd) "Qarabağ işi" yenidən müzakirə edildi. İclasda Kirov, Nərimanov, Axundov, Qarayev, Əfəndiyev, Stukalov, Mirzoyan, Bünyadzadə, Hüseynov iştirak edirdilər. İclasın sədri Kirov, katibi isə Lozner idi. Səs çoxluğu ilə aşağıdakı qərar qəbul edildi:

*"Qafqaz Bürosundan xahiş edilsin ki, Dağlıq Qarabağın muxtar vahidə ayrılması haqqında öz qərarına yenidən baxsın; buna qədər muxtariyyət elan etməməli. Səs çoxluğu ilə qəbul edilir. Nərimanov və Bünyadzadə əleyhinə çıxaraq təklif edirlər ki, Qafbüronun Dağlıq Qarabağa muxtariyyət vahidi ayrılmasına dair qərarı qısa zamanda yerinə yetirilsin; bu məsələyə dair material toplamaq üçün Qarayev, Əfəndiyev, Stukalov və Mirzoyandan ibarət xüsusi komissiya yaradılsın, onlar Azərbaycan MİK sessiyası başa çatanadək təcili olaraq Qarabağa getsinlər; bu komissiyaya tapşırılısn ki, Qarabağa gələn kimi partiya və sovet işinə rəhbərlik etsin; Cavanşir qəza partiya təşkilatı buraxılsın. Tərkibi Babayev, Həsənov, Gerasimov, Avilyan və Əlibaba Rəhimov olmaqla müvəqqəti təşkilat bürosu təsdiq edilsin"*[248].

---

[246] Протокол №27 заседания политическо-организационного Бюро ЦК АКП(б). 08.08.1921. – ARSSA, f.1, siy.2, iş 18,v.114-114a.;f.1, siy.2, iş 19, v.3.
[247] Протокол №15 заседания политбюро ЦК АКП(б). 26.08.1921. – ARSSA, f.1, siy.2, iş 17,v.1.
[248] Протокол № 30 заседания организационного и политического бюро ЦК АКП(б). 26.09.1921. – ARSSA, f.1, siy. 31, iş 186a, v.51-52; Справка. – ARSSA, f.1, siy.31, iş 186a, v.39-41.

Nə baş verirdi? Bir müddət əvvəl Dağlıq Qarabağa muxtariyyət verməyi israr edən S.M.Kirovun rəhbərliyi altında Azərbaycan K(b)P MK Siyasi və Təşkilat Bürosu nə üçün birdən-birə müvafiq qərarların icrasını dayandırmağı təklif edirdi? Dağlıq Qarabağa muxtariyyət verilməsi süni olduğu üçün müvafiq qərarların icrasını yubadan N.Nərimanovun "muxtariyyətin yaradılmasına dair müvafiq qərarların təcili olaraq yerinə yetirilməsinə" dair israrlı təklifi bəs nə ilə bağlı idi?

Artıq qeyd edildiyi kimi, Qarabağa muxtariyyət verilməsi məsələsi hələ 1919-cu ildə meydana çıxmışdı. Kars konfransına hazırlıqlar aparıldığı zaman – 1921-ci ilin iyun ayında isə Ermənistan və Azərbaycan arasında sərhəd məsələsi gündəliyə gətirilmişdi[249]. Ondan sonrakı dövrdə Dağlıq Qarabağın Azərbaycan daxilində saxlanılmasına və ona muxtariyyət verilməsinə dair müvafiq qərarlar çox böyük çətinliklə qəbul edilmişdi. Beləliklə, bu diyarı Azərbaycandan qopartmaq istəyənlər öz istəklərinə çatmamışdılar. Süni olduğu və ərazi bütövlüyünü parçaladığı üçün Nərimanov başda olmaqla Azərbaycan hökuməti bu prosesi müəyyən qədər ləngitmişdi.

Dağlıq Qarabağa muxtariyyət verilməsinə dair qərarın Kars konfransı ərəfəsində Azərbaycan K(b)P MK Siyasi və Təşkilat Bürosunun 26 sentyabr tarixli iclasında təxirə salınması haqqında qərar qəbul edilməsi nə ilə bağlı idi? Məlum olduğu kimi, Azərbaycan K(b)P MK müstəqil deyil, Mərkəzdən asılı idi. Görünür, Mərkəzə bu barədə yerdə qəbul edilən bir qərar lazım olmuşdu. Bəs, Mərkəzin məqsədi nə idi? Bilindiyi kimi, erməni dairələri Moskva müqaviləsində ərazi-sərhəd məsələlərinin həllindən narazı qalmışdılar. Ancaq Moskva müqaviləsini pozmaq və Naxçıvanı qopartmaq mümkün deyildi. Ona görə də ermənilər Azərbaycandan digər əraziləri qopartmaq üçün canfəşanlıq edirdilər. Kars konfransına da böyük ümidlərlə baxırdılar. Lakin bu konfransda Cənubi Qafqaz respublikaları arasında deyil, onların Türkiyə ilə ərazi-sərhəd məsələləri məhz Moskva müqaviləsi əsasında tənzimlənəcəkdi. Deməli, belə bir qərarı qəbul etdirməklə Mərkəz Azərbaycanı təzyiq altında saxlamaq və qorxutmaq məqsədi güdmüşdür. Artıq qeyd edildiyi kimi, Mərkəzi hakimiyyət Karsda Azərbaycan və Türkiyənin yaxınlaşa bilməsi ehtimalından narahat idi və bu addımı atmaqla həm Azərbaycana təzyiq edir, həm də artıq Dağlıq Qarabağ regionunun nəzərdə tutulan muxtariyyətindən imtina edilməsi və onun Ermənistana verilməsi təhlükəsinin olduğundan xəbər verirdi. Mərkəz bu qərarı qəbul etməklə Azərbaycan rəhbərliyini yerində oturtmaq, "boyundan yuxarı" tullanmamaq barədə xəbərdarlıq etmək istəmişdir.

Bu zaman Kars konfransına hazırlıq işləri artıq başa çatmışdı. Türkiyə və Cənubi Qafqaz respublikaları bütün, o cümlədən ərazi-sərhəd məsələlərini tənzimləməyə hazır idilər.

---

[249] Справка. – ARSSA, f.1, siy.31, iş 186a, v.39-41.

# V FƏSİL

# MOSKVADA BAŞLANAN İŞ KARSDA YEKUNLAŞIR: ƏRAZİ-SƏRHƏD MƏSƏLƏLƏRİ HƏLL EDİLİR

## *Kars konfransında ərazi-sərhəd məsələlərinə dair müzakirələr*

Kars valiliyinin binasında 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək keçirilən konfransda Azərbaycan hökumətini xalq fəhlə-kəndli nəzarəti komissarı Behbud Şahtaxtinski, Ermənistan hökumətini xalq xarici işlər komissarı Askanaz Mravyan, xalq daxili işlər komissarı Poqos Makinisyan, Gürcüstan hökumətini xalq hərbi və dəniz işləri komissarı Şalva Eliava, xalq xarici işlər və maliyyə komissarı Aleksandr Svanidze, Türkiyə hökumətini Böyük Millət Məclisinin Ədirnəpoldan olan deputatı Kazım Qarabəkir Paşa, deputat Vəli, keçmiş ictimai işlər naziri Muxtar, Türkiyənin Azərbaycandakı səlahiyyətli nümayəndəsi Memduh Şövkət Esendal, vasitəçi kimi Rusiyanı isə Latviyadakı səlahiyyətli nümayəndə Yakov (Yakub) Qanetski təmsil edirdilər[250].

Konfransın məqsədi Türkiyə və Cənubi Qafqaz respublikaları arasında münasibətləri tənzimləmək, Moskva müqaviləsinin onlar tərəfindən qəbul edilməsi idi.

Açılış nitqində Kazım Qarabəkir Paşa ümumi işə uğurlar arzuladı[251].

Ondan sonra çıxış edən Y. Qanetski Karsa gəlməkdə məqsədin böyük işi başa çatdırmaq olduğunu dedi:

*“Siz buraya gəlmisiniz ki, dinc dostluq müqaviləsi bağlayasınız və bütün dünyaya göstərəsiniz ki, Zaqafqaziya respublikalarının xalq kütlələri və qəhrəman türk xalqı öz maraqlarını başa düşərək bütün xarici düşmən qüvvələrin səylərinə baxmayaraq, qardaşlıq, sülh və dostluq şəraitində yaşamaq istəyirlər”* [252].

Daha sonra qeyd etdi:

*"Burada çox böyük bir hadisə baş verir. Qüdrətli türk və erməni xalqları sözdə deyil, işdə aralarındakı düşmənçilikdən əbədi olaraq imtina edəcəklərini bütün dünyaya sübut edəcəklər. Onlar bir-birinə sıyrılmış qılıncla deyil, hərarətli qardaşlıq sevgisi ilə gəlirlər. Milli nifaq deyil, xalq-*

---

[250] Протокол №1. Речь тов. Я.С.Ганецкого. – ARDA, f.28 s., siy.1, iş 81, v.1-4; Документы внешней политики СССР. Т. IV, с. 371-372.

[251] Документы внешней политики СССР. Т.IV, с. 373-374.

[252] Протокол №1. Речь тов. Я.С.Ганецкого. – ARDA, f.28 s., siy.1, iş 81, v. 1-4; Документы внешней политики СССР. Т. IV, с. 371.

*lar dostluğu mübarizə aparan xalqları möhkəmləndirə, bütün dünyaya xoşbəxtlik gətirə bilər. Yalnız bu şüar altında biz qalib gələ bilərik"*[253].

Y.Qanetskidən sonra üç Cənubi Qafqaz respublikası adından çıxış edən A.Mravyan "qardaş türk xalqının imperializmə və zorakılığa qarşı mübarizədə qalib gəlməsini Cənubi Qafqaz xalqlarının arzuladıqlarının konfransda qeyd edilməsini və möhkəmləndirilməsini" vacib sayaraq bildirdi ki, biz buraya düşmənçilik hissləri ilə gəlməmişik, burjua-millətçi hökumətlərin qoyub getdikləri və həll edilməyən mirası, mübahisəli, lənətə gəlmiş məsələləri aradan qaldırmaq üçün gəlmişik. Bizi bu məsələlər və düşmənçilik hissləri deyil, öz ölkəsinin azadlığı uğrunda mübarizə aparan zəhmətkeş türk xalqının mübarizəsi qarşısında rəğbət düşündürür, bu hisslər bizi həyəcanlandırır və öz ölkəsinin müdafiəsinə qalxan xalqın qalib gələcəyi və düşmənin məğlub olacağı hissi düşündürür[254]. Konfransın Zaqafqaziya xalqlarının qardaş türk xalqına münasibətdə bu hisslərini möhkəmləndirəcəyini qeyd edən A.Mravyan daha sonra dedi ki, bu konfransa qalib və məğlub kimi gəlməmişlər. O, ümid etdiyini bildirdi ki, rus xalqının inqilabi mübarizəsi türk xalqı üçün Qərb imperializminə qalib gəlməkdə, hazırda Anadolu çöllərində Antantanın nökərlərinə qarşı apardığı mübarizədə bir nümunə olacaqdır. Cənubi Qafqaz xalqları adından əmin olduğunu bildirdi ki, konfrans türk xalqı ilə dostluq və qardaşlıq müqaviləsinin möhkəm əsaslarını yaradacaq, bu müqavilənin əsasında irəlidə bütün mübahisəli məsələlər daha asan və tezliklə həll olunacaqdır.

Konfransın işini sürətləndirmək üçün Y.Qanetski iki komissiyanın yaradılmasını təklif etdi. Bunlardan biri sərhəd, digəri isə iqtisadi məsələlər ilə məşğul olmalı idi. Komissiya müəyyənləşdirilməsi nəzərdə tutulan sərhədə baxacaqdı. Əgər onlar sabah səhər işə başlasaydılar, günün ikinci yarısında işlərinin nəticələri haqqında məruzə edə bilərdilər.

Sərhəd komissiyasının tərkibində yalnız ekspertlərin olmasına dair Y.Qanetskinin təklifi ilə Kazım Qarabəkir Paşa razılaşdı. Y.Qanetski sərhəd komissiyasında yalnız ekspertlərin iştirak edəcəyini, bu komissiyaya B.Kuznetsovun sədr təyin edildiyini bildirdi. Onun fikrincə, əgər bir neçə komissiya yaradılardısa, onlardan biri Sarpda, digəri isə Kavtaretidə işə başlayardı. Çoxlu komissiyanın yaradılması problemlər doğura bilərdi. Y.Qanetski dediyini sübut etmək üçün Rusiya ilə Polşa arasında sərhədin daha böyük olduğunu, müəyyənləşdirilərkən bir komissiyanın işlədiyini söylədi. Kazım Qarabəkir Paşa bir komissiyanın yaradılması təklifi ilə ra-

---

[253] Протоколы и стенограммы заседаний Карсской конференции Закавказских Советских Социалистических Республик с Турцией. 26.09.1921. – ARDA, f.28 s., siy.1, iş 81, v. 1-8; Документы внешней политики СССР. Т. IV, с 372.

[254] Документы внешней политики СССР.Т. IV, с. 372-373.

zılaşdı. Y.Qanetski Ani şəhəri məsələsini qaldırdı. Bu şəhər və sərhəd haqqında yaxın zamanlarda qərar qəbul olunacağına ümidini ifadə etdi. Kazım Qarabəkir Paşa Ankaradan cavab alınan kimi söyləyəcəklərini bildirdi. Əgər cavab olmasaydı, müqavilə layihəsindəki maddə dəyişdirilməyəcəkdi.Y.Qanetski bu fikirləri diqqətə aldığını və sərhədə dair maddə ilə məsələnin başa çatmış olduğunu dedi. Kazım Qarabəkir Paşa da sərhəd haqqında məsələnin həll edildiyini bildirdi.

Konfransın sentyabrın 27-də keçirilən ikinci iclasında etdiyi çıxışında Kazım Qarabəkir Paşa birinci iclas protokoluna belə bir əlavə etdi ki, türk xalqı ona zorla qəbul etdirilən Sevr sülh müqaviləsini qəbul etməmişdir. O, həmçinin protokolların məzmunu ilə tanış olmağı, hər bir şəxsin oxumasını və sonra hər bir protokolu hamının imzalamasını təklif etdi.

Y.Qanetski bütün sovet nümayəndələri adından təklif etdi ki, sərhəd komissiyası məruzə təqdim etsin və sərhəd haqqında məsələnin həllinə başlanılsın. O, konfransın işini sürətləndirmək üçün komissiyanın yalnız həll edilməyən məsələlər haqqında məlumat verməsini, razılaşdırılan məsələlərə dair konfransda müzakirə açmamağı təklif etdi. Komissiyanın hər bir üzvü bu sənədə imza atmalı idi. Məsələ barəsində türk nümayəndə heyətinin fərqli bir fikri yox idi. Yalnız detallar barəsində fikir ayrılığı ola bilərdi. Bu məsələlər iki başlıca qrupa bölüşdürülə bilərdi: məsələlərin bir qismini nümayəndələr yerində həll edə bilməzdilər. Məsələn, türk heyəti Ani şəhərinin xarabalıqları (Ani şəhəri 1319-cu ildə baş vermiş güclü zəlzələ nəticəsində dağılmışdı – M.Q.) haqqında hökumətinin rəyini soruşmuşdu. İkinci qrup məsələlər xırda sərhəd məsələləri idi. Onları yerində həll etmək olardı. Bu komissiyanın tərkibində tərəflərdən nümayəndələr daxil edilirdi. Sərhəd məsələsinə münasibətdə türk nümayəndə heyəti öz hökumətindən tamamilə aydın direktiv almışdı: sərhədlər Moskva konfransında müəyyənləşdirildiyi kimi təyin edilməli idi. Yalnız Ani şəhərinin xarabalıqları ilə bağlı məsələ qalırdı. Bu barədə türk nümayəndə heyəti hökumətinin cavabını gözləyirdi.

Komissiya üçün şübhəli olan məsələlərin müzakirəsinə başlamağı təklif edən Y.Qanetski onların barəsində qərara gələ biləcəklərini söylədi, Ani şəhəri ilə bağlı türk nümayəndə heyətinin hökumətinin rəyini öyrənmək istəyini xeyirxahlıq kimi qiymətləndirərək, bu yerə dair qərarı gözləyəcəklərini bildirdi.

Sərhədin qəti olaraq Arpaçaydan müəyyənləşdirilməsini təklif edən Kazım Qarabəkir Paşa Ani şəhərinin güzəştə gedilməsinin yalnız ayrı maddə ilə Türkiyənin Ermənistana rəğbət bəsləməsi formasında ola biləcəyini dedi. Onun fikrincə, təfərrüatları konfransda müzakirə etmək lazım idi. Bütün bu məsələlərə qarışıq komissiya və hərbçilər tərəfindən yerində baxıla, lakin əgər konfrans israr etsəydi, müzakirə edilə bilərdi.

Y.Qanetski bildirdi ki, türk nümayəndə heyətinin dediyi kimi, əgər sərhədlər Moskva müqaviləsinə əsasən müəyyənləşdiriləcəksə, onda Ani şəhəri Türkiyə tərəfində qalacaqdır. Ayrıca maddə olarsa, onda Ani şəhəri Ermənistana keçir və iki maddə bir-biri ilə uyğun gəlmir. Türk nümayəndə heyətinin mövqeyinin işi sürətləndirmədiyini bildirən Y.Qanetki bu məsələni açıq saxlamağı təklif edərək dedi: əgər qənaətbəxş cavab olarsa, onda Ani şəhərinin Ermənistana keçdiyini və Türkiyənin Ani şəhərini Ermənistana güzəştə getdiyini müvafiq bəyannamədə yaza bilərik.

Kazım Qarabəkir Paşa isə söylədi ki, sərhədlər Moskva konfransında qəti olaraq qəbul edildiyi və rus hökuməti tərəfindən sanksiya aldığı, prinsipcə Qafqaz respublikaları tərəfindən qəbul edildiyi üçün indiki zamanda hər hansı bir dəyişiklik müharibə aparan türk xalq kütlələrində xoşagəlməz təəssürat, həmçinin Avropada da müvafiq rəy yaradar. Ona görə də Moskva konfransında müəyyənləşdirilən sərhədlərin yenidən cızılmasını mümkünsüz hesab edən türk nümayəndə heyəti erməni nümayəndə heyətinin Ani şəhərinin xarabalıqlarına dair mövqeyinə tərəfdar çıxaraq, Ankara hökuməti ilə əlaqəyə girmək və bu şəhərin xarabalıqları haqqında ayrıca maddəni müqaviləyə daxil etmək istəyini bildirdi. Lakin onun Moskva müqaviləsi ilə müəyyənləşdirilən sərhədlərin dəyişdirilməsi anlamına gəlmədiyini bildirən türk nümayəndə heyəti bunun üçün ayrıca maddə daxil edilməsini istədi.

Bu məsələdə kiçik bir anlaşılmazlığın olduğunu deyən Y.Qanetski bildirdi ki, nümayəndə heyəti Ani şəhərinin Ermənistana keçməsinə dair siyasi əhəmiyyət daşıyan ayrıca maddənin olmasına etiraz etmir. Əgər belə bir maddə olacaqsa, onda sərhədlə bağlı bir maddə digərini ləğv edir. O, türk nümayəndə heyətinin təklifinin doğru olmadığını bildirərək, aşağıdakıları əlavə etdi: biz hesab edirik ki, türk nümayəndə heyəti və hökuməti hazırda Cənubi Qafqazda, başlıcası isə Ermənistanda olan şəraiti bilir. Əgər türk heyəti Ani şəhərini güzəştə getmək istəyirsə, onda mənim təklifimi rədd etməməlidir. Bu, Avropada da yaxşı qarşılanar.

Kazım Qarabəkir Paşa sərhədlərin dəyişdirilməsinə razı olmadıqlarını, eyni zamanda erməni nümayəndə heyəti üçün xoş bir şey etmək, Ani şəhərinin xarabalıqlarını güzəştə getmək istədiklərini dedi. Lakin türk nümayəndə heyətinin əvvəlki bəyanatından belə çıxırdı ki, sərhəd, göstərilmədən, Ani şəhəri daxil edilmədən gedir, Arpaçaydan keçir, sonra isə ayrıca maddə ilə Ani şəhərinin Ermənistana verildiyi göstərilirdi. Moskva müqaviləsi ilə müəyyənləşdirilmiş sərhədlərin dəyişdirilməsinin az məlumatlı türk əhalisində pis, Ankara hökumətinin çox güzəştə getməsi barədə təəssürat yaradacağını bildirən Kazım Qarabəkir Paşa təklifinin mahiyyətini aşağıdakı kimi izah etdi: sərhəd Arpaçaydan keçir, sonra isə ayrıca maddədə Türkiyənin Ani şəhərinin xarabalıqlarını Ermənistana

güzəştə getdiyi yazılır. Türk heyəti Moskva müqaviləsinin A əlavəsini qəbul etməyi və sonda Ani şəhərinin xarabalıqlarının Ermənistana güzəştə gedilməsini yazmağı təklif edirdi.

Burada ziddiyyət yarandığını deyən Y. Qanetski bildirdi ki, sərhədi indi dəyişməklə onu qəti olaraq çəkmək olmaz. Daha sonra dəmiryolu boyunca olan zonalar göstərilmişdi. İkinci maddədə isə belə şərh olunurdu ki, türk hökuməti orada məlum istehkamlar qurmayacaqdır. Onun fikrincə, bunun sərhədlərlə heç bir əlaqəsi yox idi. Y.Qanetski dedi ki, biz təkcə Ermənistan deyil, həmçinin Cənubi Qafqaz üçün əsaslı olan məsələni qaldırırıq, Türkiyə nümayəndə heyəti və Türkiyə hökuməti bizim təkliflə razılaşsaydı, bütün Cənubi Qafqaz respublikaları fövqəladə dərəcədə məmnun olardılar. O, daha sonra maddəni oxudu, sərhədin Arpaçaydan keçdiyini bildirdi. Maddənin sonunda Ani şəhərinin Ermənistana güzəştə gedilməsi ilə bağlı ayrıca maddə olacağı qeyd edilirdi. Kazım Qarabəkir Paşa Y.Qanetskinin təklifini qəbul etdi. Ankaradan cavab alınanadək Ani şəhəri ilə bağlı məsələ açıq saxlanıldı.

Y.Qanetski sərhəd komissiyasının sərhədin Moskva müqaviləsi ilə təyin olunmasını qəbul etdiyini və cəmi dörd bəndin açıq qaldığını deyərək, sözü komissiyanın üzvü B.Kuznetsova verdi. V.Kuznetsov komissiyada sərhəd məsələsinə baxılarkən Yeni Qızıldaş və Vartanlı kəndlərinin kimə məxsus olduğunun açıq qaldığını dedi. Kazım Qarabəkir Paşa bütün dörd bəndin birlikdə oxunmasını xahiş etdi. B.Kuznetsov bildirdi ki, ikinci bənd Kavtareti kəndi, üçüncü bənd Sabaur kəndi, dördüncü bənd isə Sarp kəndinin kimə məxsus olması barədədir.

Sərhədlərin çəkilməsinə dair məlum qaydanın olduğunu deyən Kazım Qarabəkir Paşa bildirdi ki, əgər konfrans onu qəbul edərsə, çətinliklər aradan qalxar. Sərhədləri çəkərkən kənd kimi təsadüfi məntəqələr əsas götürülməməlidir. Kəndlər dağıla, yana və məhv edilə bilər. Sərhədlər çəkilərkən təbii sərhədlər, məsələn, çaylar əsas götürülür. Çayın bir sahilində olan kənd digər tərəfdə, digəri isə başqa tərəfdə qalır. Əgər kənd əhalisi razı olmasa, istədiyi tərəfə keçə bilər. Kazım Qarabəkir Paşa təbii sərhədlərin çəkilməsini təklif etdi. Sərhədlərin bu qaydada çəkilməsi ən doğru idi.

Y.Qanetski həmin təkliflə razılaşdı. Moskva konfransında Rusiya məhz bu prinsipi seçmişdi. Türk heyəti sərhədin yerində müəyyənləşdirilməsini təklif etdi. Bu işi ortaq komissiya yerinə yetirməli idi. Komissiya bəzən də etnoqrafik prinsipi əsas götürmüşdü. Moskva müqaviləsində sərhədin Vartanlı, Qızıldaş və Kavtareti kəndlərindən keçməsi müəyyənləşdirilmişdi. Sərhəd Sarp kəndindən başlayırdı. Kəndin Qafqaz tərəfində qalan hissəsinin Türkiyə tərəfinə keçməsinə etiraz edilmədi. Kazım Qarabəkir Paşa mövcud vəziyyətdə sərhədin təbii sərhəddən – Sarp kəndindəki çay-

dan başlamasını təklif etdi. Moskva müqaviləsi görünür, bu çayı nəzərdə tutmuşdu. Kazım Qarabəkir Paşa uzaqdan xəritə üzərində bu və ya digər məntəqədə sərhədin cızılmasının mümkünsüzlüyünü bildirərək, ortaq komissiyanın yerlərə göndərilməsini təklif etdi. Komissiya coğrafi, iqtisadi və digər amilin üstünlüyünü yerində öyrənməli idi. Türk nümayəndə heyətinin sərhədə dair Moskva müqaviləsinin tam mətnini saxlamaq və ortaq komissiyanın bunu yerində təyin etməsi təklifi ilə Y.Qanetski razılaşdı[255].

Sentyabrın 28-də keçirilən növbəti iclasda etdiyi çıxışında Kazım Qarabəkir Paşa komissiyanın sərhədlərə dair ümumi formulu artıq müəyyənləşdirdiyini və əgər etiraz olmazsa, müzakirələrə başlamağı təklif etdi. Y.Qanetski bildirdi ki, sərhədlərə dair maddəni burada rus dilinə çevirməyəcəklər, çünki maddə çoxlu adlar olan sırf texniki xarakter daşıyır. O, komissiyanın bu maddənin son mətnini fransız dilində təqdim etməsini təklif etdi. Çünki müqavilə fransız dilində tərtib ediləcəkdi. Burada isə texniki anlaşılmazlıqlar olmayacaqdı.

Y.Qanetski komissiyanın sərhəd məsələsində yekun qərara gəldiyini bildirdi. Komissiya hər iki hissənin tərcüməsində Moskva müqaviləsinin mətninə riayət etməyə çalışmışdı. Ona görə də hər iki hissəni bir maddədə birləşdirməyi təklif edən Y.Qanetski əlavə etdi ki, bu zaman Moskva müqaviləsinin mətni ilə heç bir anlaşılmazlıq olmayacaqdır. Bundan sonra birinci paraqraf qəbul edildi. Digər paraqrafların müzakirəsinə başlanıldı. Y.Qanetski bütün coğrafi adların rus dilində oxunmasına ehtiyac olmadığını bildirdi. Çünki komissiyada bu adlara toxunulmuşdu. Lakin maddədə iki yerin izahata ehtiyacı olduğunu dedi. Maddənin Cənubi Qafqaza aid hissəsinin mətnində komissiyanın paritet əsasda formalaşdırılması barədə yazılmışdı. Kazım Qarabəkir Paşa müqavilənin türk mətnində nələrin yazıldığını dedi. Lavrov komissiyanın Cənubi Qafqaz hissəsinə aid mətnini oxuyan zaman Kazım Qarabəkir Paşa mətndə yazılmış "dövlətlərin sərhədləri" ifadəsi oxunan zaman onu dayandıraraq belə bir sual verdi: "dövlətlərin sərhədləri nə deməkdir?" Y.Qanetski bunun iki dövlət arasında sərhəd olduğunu dedi. O, sərhədin bir komissiya tərəfindən aparıldığını, komissiyanın hər bir hissəsinin öz hökuməti qarşısında məsuliyyət daşıdığını bildirərək əlavə etdi: başqa bir məsələdir ki, komissiya bir neçə hissəyə, sahəyə parçalana bilər, bu, texniki məsələdir. Müqavilədə isə bir komissiyanın olduğu göstərilməlidir. Kazım Qarabəkir Paşa bildirdi ki, bir və ya iki komissiyanın olması əsaslı mahiyyət daşımır, lakin praktik olaraq bir neçə komissiyanın təyin edilməsi daha münasibdir, ona görə də əgər bir komissiya yaradılacaqsa, onda onu yerdə toplamaq, sonra isə bir

255 Протокол № 2 заседания Карсской конференции. 27.09.1921. – ARDA, f. 28 s., siy.1, iş 81, v.12-17.

neçə qrupa bölmək olar. Əgər dərhal bir neçə qrup yaradılarsa, onda onlardan biri Sarpda, digəri isə Kavtaretidə işə başlayar və s., iş daha möhkəm olar. Y.Qanetski bir komissiyanın olmasında israr etdi. Çünki komissiya rəsmi orqan idi. Bu komissiyanın bir hissəsi bir hökumətin, digər hissəsi isə başqa bir hökumətin qarşısında məsuliyyət daşıyacaqdı. Əgər çoxlu komissiyalar olardısa, onda bir-biri ilə əlaqələndirilməyən çoxlu problemlər də yarana bilərdi. Y.Qanetski Rusiya ilə Polşa arasında sərhədlər müəyyənləşdirilərkən ortaya çıxan problemləri xatırladaraq bildirdi ki, sərhəd buradakından uzun olsa da, orada bir komissiya işləmişdi. Kazım Qarabəkir Paşa bir komissiyanın yaradılmasına razılığını bildirdi. Komissiyanın tərkibinə RSFSR nümayəndəsinin də daxil edilməsinə dair Y.Qanetskinin xahişinə Kazım Qarabəkir Paşa razı oldu. Ani şəhəri ilə bağlı məsələnin həll edimədiyini xatırladan Y.Qanetski bildirdi ki, türk nümayəndə heyəti cavab alan kimi, sərhəd məsələsi son olaraq həll olunacaq və müqaviləyə daxil ediləcəkdir. Kazım Qarabəkir Paşa alınan cavaba uyğun olaraq maddədə dəyişiklik ediləcəyini bildirdi. Əgər cavab olmasaydı, onda mətn dəyişdirilməyəcəkdi. Bununla da sərhəd məsələsinin müzakirəsi başa çatdı[256].

Sentyabrın 30-da keçirilən dördüncü iclasda Y.Qanetski təqdim olunan müqavilə layihəsinin bütün Cənubi Qafqaz respublikalarının nümayəndələri tərəfindən imzalanması təklifini irəli sürdü. Kazım Qarabəkir Paşa bütün ümumi maddələri şərh etməyi və bu respublikalara aid olan maddələri ardıcıl düzməyi, sərhədlər haqqında maddəni hər bir respublika ilə ayrı maddədə bağlamağı təklif etdi. Onun fikrincə, əvvəlcə bütün respublikalara, sonra isə hər bir respublikaya aid olan maddələr verilməli idi. Məsələn, Ermənistana aid maddələr sərhəddən başlayaraq, sonra Ermənistana aid bütün məsələlər, sonra Gürcüstana aid məsələlər, sərhədə dair maddələrdən başlayaraq, bu respublikaya dair olan bütün məsələlərə aid maddələr, sonra Azərbaycana dair maddələr, sərhədə dair başlayan maddələr, sonra isə Azərbaycana dair olan bütün məsələlərə dair maddələr. Əvvəldə verilmiş ümumi maddələrdən sonra hər bir respublikaya aid maddələr verilməli idi. O, təklif etdi ki, birinci maddə sərhədlər haqqında olsun, bütün bu maddələrin məcmusu hər bir respublikanın səlahiyyətli nümayəndəsi tərəfindən imzalanan bir ümumi traktatda tərtib edilsin.

Müqavilə layihəsi ilə bütün Cənubi Qafqaz respublikalarının nümayəndələrinin tanış olub-olmaması məsələsi ilə maraqlanan Kazım Qarabəkir Paşa bildirdi ki, əgər məqbul cavab olarsa, onda işi davam etdirəcəklər. Bütün nümayəndələrin layihə ilə tanış olduqlarını, yekdilliklə onu qəbul etdiklərini, Cənubi Qafqaz respublikalarının bir ümumi siyasi mərkəz ya-

---

[256] Протокол № 3 заседания Карсской конференции. 28.09.1921. – ARDA, f. 28 s., siy.1, iş 81, v.7-12.

ratdıqlarını və həmin mərkəz vasitəsi ilə respublikaların siyasi və iqtisadi məsələlərini həll etdiklərini bildirən Y.Qanetski dedi ki, bu respublikalar daxildə müstəqildirlər, lakin sürətli inqilabi fəaliyyət üçün birləşməyə qərar vermişlər. Y.Qanetski türk nümayəndə heyətinin təklifini qəbul etməyərək, vahid bir müqavilənin bağlanmasında israr etdikdə, Kazım Qarabəkir Paşa iclasa 20 dəqiqəlik fasilə verilməsini xahiş etdi.

Saat 8-də yenidən öz işinə başlayan iclasda çıxış edən Kazım Qarabəkir Paşa Cənubi Qafqaz respublikalarının hökumətləri arasında mövcud olan siyasi və iqtisadi birlikdən məmnunluğunu bildirdi. Şərqdə həmin birləşməni mövcud halda Türkiyə üçün bir qüvvə hesab edərək dedi ki, Moskva danışıqları zamanı bu barədə heç bir şey məlum deyildi. Kars konfransına dəvət zamanı Cənubi Qafqaz respublikalarının hökumətləri ayrıca nümayəndələr göndərməyi təklif etmiş və ayrıca müqavilələrin bağlanacağına güman edirdilər. Türk nümayəndə heyətinin Qafqaz respublikalarına hər cür güzəştə getdiyini bildirən Y.Qanetski bu məsələdə də razılığa gəlinəcəyinə ümid ifadə etdi[257].

Məsələnin müzakirəsi mübahisəli və gərgin oldu[258]. Hər bir respublika ilə ayrıca müqavilə bağlamağı təklif edən Kazım Qarabəkir Paşa dedi:

*"Hökumətimiz hər bir respublika ilə ayrıca müqavilə bağlamaq haqqında bizə göstəriş vermişdir"*[259].

O daha sonra bildirdi:

*"Moskva sovet hökuməti Güney Qafqaz respublikalarını müstəqil tanıdığını bildirir. Ona görə də biz onların hər biri ilə müstəqil dövlətlər kimi ayrıca müqavilə bağlamaq istəyirik. Bu barədə bizə Mustafa Kamal Paşa göstəriş vermişdir"* [260].

Ankara ilə danışdıqdan sonra öz hökumətinin mövqeyini bir daha konfrans iştirakçılarının nəzərinə çatdıran Kazım Qarabəkir Paşa dedi:

*"Müqavilə hər bir respublika ilə ayrıca bağlanmalıdır".*

Üç respublika ilə birlikdə vahid bir müqavilə bağlamağı təklif edən Y.Qanetski mövqeyini aşağıdakı dəlillərlə əsaslandırdı: işi yüngülləşdirmək və sürətləndirmək lazımdır; ayrılıqda bağlana biləcək müqavilədə bir res-

---

[257] Протокол №4 заседания Карсской конференции Закавказских Советских Социалистических Республик с Турцией. 30.09.1921. – ARDA, f.28 s., siy.1, iş 81, v.25-33.

[258] Протоколы и стенограммы заседаний Карсской конференции Закавказских Советских Социалистических Республик с Турцией. 26.09. – 30.09.1921. – ARDA, f. 28 s., siy.1, iş 81.

[259] Протокол №4 заседания конференции Закавказских Советских Республик с Турцией. 30.09.1921. – ARDA, f.28 s., siy.1, iş 81, v.30.

[260] Yenə orada.

publika digər respublikanın işinə qarışa bilər; burada bütün nümayəndə heyətləri iştirak edir; onlar məsələləri birlikdə həll edirlər; vahid bir müqavilənin imzalanması respublikalar üçün əlverişlidir; Moskva müqaviləsi imzalandıqdan sonra Cənubi Qafqazda vəziyyət dəyişmişdir; üç qardaş xalq birləşməyə doğru gedir; bu müddət ərzində sıx siyasi mərkəz yaratmışlar; üç xalq Türkiyə ilə müqavilə bağlamağa getməyi sevinclə qarşılamışdır; üç respublika birlikdə vahid müqavilə imzalanmasına Türkiyə ilə sıx ittifaq kimi baxır; vahid bir müqavilənin imzalanması Güney Qafqaz və türk xalqlarının ümumi düşməninə qarşı mübarizədə yeni imkanlar açır.

Məsələyə aydınlıq gətirən Azərbaycan nümayəndəsi Behbud Şahtaxtinski dedi:

*"İnqilabi zərurət bizi vahid müqavilə bağlamağa məcbur edir. Bu vahid müqavilədə Cənubi Qafqaz respublikaları üçün məqsədəuyğunluq və fayda, Türkiyə üçün isə bizim ümumi düşmənimizə qarşı nümayiş görürük. Qeyd etməliyəm ki, bu respublikalar artıq iqtisadi, siyasi və hərbi cəhətdən birləşmişlər. Bizim aramızda ən ciddi ərazi müəyyənləşdirilməsi vardır. Bu respublikalardan hər biri müstəqil vahid kimi çıxış edir. Bütün bu vahid müqaviləyə baxmayaraq, hər bir respublikaya aid ayrıca fəsillərin olmasında ümumi işimizə fayda deyil, ziyan görürük. Bizi respublikamızda, evimizdə kütlələr başqa cür başa düşərlər. Buna görə də mən Azərbaycan Respublikası adından müqavilənin vahid olmasını və bu müqavilədə hər bir respublikaya aid ayrıca fəsillərin olmamasını israr edirəm. Azərbaycan inanır ki, Cənubi Qafqaz respublikalarının simasında Türkiyə və Rusiya vahid cəbhədirlər"*[261].

B.Şahtaxtinskinin çıxışından sonra Kazım Qarabəkir Paşa bildirdi ki, türk nümayəndə heyəti verdiyi teleqramın cavabında aldığı təlimata uyğun olaraq məlumat vermişdir, bu məsələ türk nümayəndə heyətinin səlahiyyəti xaricindədir. O, yenidən öz hökumətinə məlumat verəcəyini dedi. Y.Qanetski türk nümayəndə heyətinin etdiyi təkliflə əlaqədar olaraq cari məsələlərlə məşğul olmağı irəli sürdü. Kazım Qarabəkir Paşa yekun bazanı müəyyənləşdirmək üçün layihəni oxumağı təklif etdi. Onun fikrincə, müqavilənin forması haqqında qərar yalnız Cənubi Qafqaz respublikaları ilə TBMM hökuməti arasında müvafiq münasibətlər qurulduqdan sonra qəbul ediləcəkdi. Y.Qanetski bu qaydaya etiraz etmədi. Onu doğru bildiklərini, lakin "bu respublikaların Türkiyə hökuməti ilə münasibətləri" ifadəsini başa düşmədiyini söylədi. Kazım Qarabəkir Paşa dedi ki, məsələ ondan ibarətdir, bu, diplomatik yolla TBMM hökumətinə və xarici nümayəndəliklərə necə çatdırılsın.

---

261 Yenə orada.

Y.Qanetski layihədə dəqiq razılaşmanın vacibliyini, çoxlu anlaşılmazlığın olduğunu qeyd edərək, xarici təmsilçilik barədə razılığını bildirdi. Konfrans ilə bağlı məsələlərə gəlincə isə respublikaların səlahiyyətli nümayəndələrə mandat verib göndərdiyini dedi. Əgər bu nümayəndə heyətlərinin özlərinin həll edə bilməyəcəyi hər hansı bir məsələ olardısa, onu hökumətlərindən soruşa bilərdilər. Konfrans həll edə bilmədiyi məsələni hökumətlərin icrasına verə bilərdi. Türk nümayəndə heyətinin yenidən öz hökuməti ilə əlaqə yaratmaq istəyini başa düşmədiklərini bildirən Y.Qanetski hər bir nümayəndə heyətinin səlahiyyəti olduğunu və türk nümayəndə heyətinin bununla razılaşmasını, müvafiq maddələrin müzakirəsinə başlamağı xahiş etdi. O, müqavilənin maddələrini müzakirə etməyi, formasını isə türk nümayəndə heyətinin öz hökumətindən cavab almasına qədər açıq saxlamağı təklif etdi. Kazım Qarabəkir Paşa anlaşılmazlıq olmaması üçün türk nümayəndə heyətinin mövqeyini redaktə etməyi vacib hesab edərək bildirdi ki, biz Cənubi Qafqaz respublikalarının müqavilənin imzalanmasına dair təklifini qəbul edə bilmərik. Biz bu barədə hökumətimizdən soruşduq, hökumətimiz bizə növbəti fəaliyyət üçün ümumi müqavilə bağlamaq göstərişini verdi. Cənubi Qafqaz respublikalarına aid olan bütün məsələlər ümumi, sonra isə hər bir respublikaya aid olan mübahisəli məsələlər ayrı verilsin. Türk nümayəndə heyəti etiraf etdi ki, müqavilənin Cənubi Qafqaz respublikalarının təklif etdiyi formada imzalanmasını, yəni bütün məsələlərin ümumi maddələrə yerləşdirilməsini, iqtisadi, siyasi və hərbi ittifaq barədə məlumatı öz hökumətinin diqqətinə çatdırmalıdır. Cənubi Qafqaz respublikaları arasındakı münasibətlər barədə hökumətinə məlumat verməyi lazım bilən Kazım Qarabəkir Paşa öz hökumətinin yalnız bu məlumat ilə kifayətlənməyəcəyini, onun iki formada qəbul edilməsinin mümkünlüyünü bildirdi: məsələ hökumətlər arasında həll edilən kimi hər bir müqavilə onların razılığı ilə imzalanacaq və ya türk nümayəndə heyətinin istəyinə uyğun olaraq hər bir ölkəyə aid olan maddələr xüsusi qayda ilə ayrıca bir rubrikada veriləcəkdir. Hər iki halı türk nümayəndə heyəti zəruri hesab edirdi. Bu məsələnin aydınlaşdırılması üçün türk nümayəndə heyətinin güzəştə getməsini xahiş edən Y.Qanetski bildirdi ki, ümumi qəbul olunmuş beynəlxalq qaydaya görə əgər beynəlxalq konfranslarda hər hansı bir nümayəndə heyəti ölkəsinin hökumətinin mövqeyini öyrənib bəyan edirsə, bu, rəsmi mövqe olur. Əgər türk nümayəndə heyəti etiraz etməsəydi, hər bir nümayəndə heyəti ayrılıqda ölkəsinin mövqeyini TBMM hökumətinə çatdırmaq üçün təqdim edərdi. Respublikaların xarici siyasət üzrə nümayəndələrinin bu gün, imkan olmasa, sabah TBMM xarici işlər komissarına müvafiq məlumatı çatdırması qərara alındı. Türk nümayəndə heyətinin sədri isə onu lazımi yerə çatdırmalı idi. Bəyannamə-

nin TBMM xarici işlər komissarına çatdırılacağını deyən Kazım Qarabəkir Paşa əlavə etdi ki, respublikaların nümayəndələrinin bəyanatı, bəyannaməsi qaneedicidir, lakin bu formanın diplomatik yollarla müəyyənləşdirilməsi vacibdir. Əgər son ana qədər burada iştirak edən bütün nümayəndələr ayr-ayrı dövlətləri təmsil edirlərsə, sonradan aydın olur ki, bu dövlətlər siyasi ittifaq təşkil etmişlər, təbii olaraq hüquqi baxımdan türk nümayəndə heyəti onların bəyannaməsini qəbul edə bilməz. Lakin sülh müqaviləsinin imzalanması üçün danışıqları ölkələri adından aparan bu nümayəndələr əlbəttə, bəyannamələrini ayrılıqda Ankaraya təqdim edə bilərlər. Bəyannaməni türk nümayəndə heyətinin adına deyil, Ankaraya göndərməyi xahiş edən türk nümayəndə heyəti həmin sənədi ünvanına çatdıra bilərdi. Cənubi Qafqaz respublikaları arasında olan məsələlərin daxili məsələ olduğunu deyən Y.Qanetski bəyannamənin TBMM hökumətinə göndərilməsi məsələsində türk nümayəndə heyətinin arzuladığı formallığı gözləyəcəklərini dedi. Hər bir respublikanın xalq xarici işlər komissarı TBMM hökuməti adına müvafiq bəyannamə verəcəkdi. Beləliklə, üç bəyannamə TBMM hökumətinə təqdim edilmək üçün türk nümayəndə heyətinin sədrinə çatdırmaq xahişi ilə veriləcəkdi. Y.Qanetski dedi ki, Azərbaycan adından bu bəyannamənin altında xalq xarici işlər komissarının deyil, Azərbaycan Xalq Komissarları Soveti sədrinin müavininin imzası olacaqdır. Bu zaman Kazım Qarabəkir Paşa Rusiya hökumətinin öz tərəfindən Cənubi Qafqaz respublikaları arasında ittifaq haqqında məlumat verməsinin zəruri olduğunu bildirdi. Bu barədə hökumətinə təcili məlumat verəcəyini deyən Y.Qanetski eyni zamanda təəccüb edərək, bu tələbin konfrans ilə heç bir ümumi əlaqəsinin, türk nümayəndə heyətinin bəyanatının başa düşülən olmadığını bildirdi. Kazım Qarabəkir Paşa rus nümayəndə heyətindən bu xahişin edilməsini yubanmaların və ləngimələrin aradan qaldırılması zərurəti ilə əlaqələndirdi. Y.Qanetski dedi ki, əgər söhbət hökumətinin mövqeyinin öyrənilməsindən gedirsə, onun bəyanatı hökumətinin rəsmi mövqeyi olduğundan bu, kifayətdir. O, Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında münasibətləri Moskva müqaviləsi əsasında formalaşdırmaq üçün buraya gəldiklərini deyərək, türk nümayəndə heyəti tərəfindən qaldırılan çoxlu formallıqları başa düşmədiyini, müvafiq formallıqların respublikalar tərəfindən ediləcəyini bildirdi.

Y.Qanetski konfransın gedişində yuxarıda göstərilən məsələ ətrafında mübahisələrə dair G.Çiçerinə göndərdiyi 3 oktyabr tarixli teleqramında səhər iclasında sovet tərəfinin təqdim etdiyi müqavilə layihəsinin müzakirə edildiyini bildirərək yazırdı ki, türklər hər bir Cənubi Qafqaz respublikasının ayrıca paraqrafda göstərilməsini təklif edirlər. Bununla razılaşmadığını yazan Y.Qanetski qeyd edirdi ki, onlar bu barədə Ankaradan soruşmağa qərar ver-

mişlər. Türklər Türkiyə ilə Cənubi Qafqaz respublikalarının ərazisinə aid əvvəllər imzalanmış müqavilələrin ləğvini istəmişdilər. Təklif qəbul edilmişdi. İkinci maddədə türklər Milli Aktı tanımağı təklif etmişdilər. Bu da qəbul edilmişdi. Naxçıvan və Batum məsələsində qızğın mübahisələr getmişdi. Türklər bu maddələrin hər birinə aid həmin vilayətlərin muxtariyyətinə dair ümumi əsaslarını dəqiq müəyyənləşdirən əlavə olmasını və konfransda müvafiq respublikalarla türklərin birgə müəyyənləşdirilməsini israr etmişdilər. Batum limanından türklərin istifadəsinə dair məsələ barədə mübahisələr dörd saat davam etmişdi. Onlar öz bəyannamələrini təqdim edəcəkdilər. Bu da əlavə olacaqdı. Əlavələr təklifi ilə razılaşdığını yazan Y.Qanetski döyüşün ağır keçdiyini vurğulayırdı. Kazım Qarabəkir Paşa bir neçə dəfə bildirmişdi ki, Yusuf Kamal Moskva müqaviləsinin dəqiq mənasına istinad edərək, onların tələbini bəyənir. Türklər üç dəfə demişdilər ki, onlar Ankaradan soruşacaqlar. Y.Qanetski bu barədə güzəştə getdiklərini və nəhayət, türklərin razılaşdığını bildirirdi. Başqa bir təklifə görə Azərbaycan, Gürcüstan və Ermənistan Türkiyəyə köçmək istəyən müsəlmanlara mane olmamalı idilər. Bu, Y.Qanetski tərəfindən rədd edilmişdi[262].

Y.Qanetskinin qeydləri ilə tanış olan G.Çiçerin elə həmin gün, oktyabrın 3-də Yusuf Kamala göndərdiyi notada yazırdı:

*"... Cənubi Qafqaz respublikaları arasında qarşılıqlı münasibətlər haqqında Kars konfransında türk nümayəndə heyətinin qaldırdığı məsələ ilə əlaqədar olaraq izah etməyi özümə şərəf bilirəm ki, ... bu respublikaların arasında sıx siyasi və iqtisadi ittifaq vardır, onlara aid olan siyasi və iqtisadi məsələləri birlikdə həll edirlər"*[263].

B.Şahtaxtinski isə Karsdan xalq xarici işlər komissarı M.Hüseynova yazırdı ki, konfrans heç bir ixtilaf olmadan keçir, yaxın günlərdə Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında müqavilə qəti olaraq bağlanacaqdır[264].

Konfransda yaranmış vəziyyət Rusiyanın Ankaradakı nümayəndəsi S.Naçarenusu narahat etdiyindən, o, oktyabrın 11-də G.Çiçerinə göndərdiyi teleqramında yazırdı ki, fransız nümayəndəsi Franklin Buyon ilə əldə olunmuş ilkin razılığa əsasən Türkiyə tərəfi Moskva müqaviləsini pozmaq üçün vasitələr axtarır və həmçinin Qafqazda keçmiş hökumətlərin bərpasına yardım etməyi öhdəsinə götürür. Əgər bu öhdəliyi yerinə yetirməyi Türkiyə həqiqətən qəbul etsə, onda maksimum ehtiyatlı olmaq,

---

[262] Телеграмма Ганецкого Чичерину. 03.10.1921. – РГАСПИ, ф.298, оп.1, д.108, л.8-12.

[263] Документы внешней политики СССР. Т. IV, с 392.

[264] Закавказско – турецкая конференция. – Газ. "Коммунист", Баку, 02.10.1921, №224 (4250); Закавказско – турецкая конференция. – Газ. "Бакинский рабочий", 04.10.1921, №226(358).

münasibətləri pozmaq üçün heç bir əsas verməməliyik. O, xahiş edirdi ki, qafqazlı yoldaşlar, xüsusən Gürcüstan və Ermənistan bunu diqqətə almalı, bütün sərhəd məsələlərində xeyli ehtiyatlı olmalıdırlar. Bu öhdəlik götürülərdisə, kiçik bir ehtiyatsızlıq müqavilənin pozulması üçün rəsmi əsas ola bilərdi. O, G.Çiçerindən yardım etməyi xahiş edir, *"hərarətli qafqazlı yoldaşlara müvafiq təlimat verməyi vacib hesab edir, əks-təqdirdə çətin düzələn ağır bir zərbə vuracaqlarını"* bildirirdi[265].

Kars konfransında iştirak edən nümayəndə heyətlərinin hökumətlərindən cavablar alındı və TBMM-ə təqdim edildi. Artıq bütün məsələlər razılaşdırılmışdı. Bundan sonra yalnız müqavilənin imzalanması qalırdı.

### *Kars konfransı davam edərkən Bakıda Qarabağda vəziyyətə dair məsələ müzakirə edilir*

Kars konfransı öz işini davam etdirərkən Ermənistan və Azərbaycan arasında sərhəd, Dağlıq Qarabağda vəziyyətə dair məsələlər Bakıda və Tiflisdə müzakirə edilirdi. RK(b)P MK Qafqaz Bürosu 1921-ci il oktyabrın 3-də Azərbaycan K(b)P MK katibi Kirova Azərbaycan və Ermənistan arasında sərhəddə toqquşmalara dair Myasnikovun cavab məktubunu (№4538) göndərdi[266].

Oktyabrın 6-da Azərbaycan K(b)P MK Təşkilat Bürosunun iclası (protokol №16) keçirildi. İclasda Kirov, Bünyadzadə, Mirzoyan, Qarayev və Əfəndiyev iştirak edirdilər. İclasın sədri Kirov, katibi Lozner idi. Gündəliyin üçüncü məsələsi kimi "Qarabağ məsələləri" müzakirə edildi. 10 maddədən ibarət qərar qəbul olundu. Qərarda yazılırdı ki, komissiya 9 oktyabrdan gec olmayaraq Stukalov istisna olmaqla yerlərə getsin; partiya qaydası ilə xalq maliyyə komissarı Tağıyevə təklif edilsin ki, Azərbaycan MİK və XKS-nin qəzaların hər birinə üç milyard rubl ayırmaq barədə qərarını həyata keçirsin; dörd qəzanın pulu Qarabağa gedən komissiyaya nağd olaraq verilsin; Xalq Maliyyə Komissarlığına təklif edilsin ki, Cavanşir qəzasında ixtisar edilmiş ştatlarla qəza maliyyə şöbəsi təşkil etsin; xalq hərbi və dəniz işləri komissarı Qarayevə təklif edilsin ki, Qarabağda milis üçün 500 komplekt geyimi komissiyanın sərəncamına versin; xalq daxili işlər komissarı Bağırova təklif edilsin ki, komissiya ilə birlikdə Qarabağa məsul işçiləri göndərsin və s[267].

---

[265] Щифротелеграмма Нацаренуса Чичерину. Сов. секретно. 26.10.1921. – РГАСПИ, ф.5, оп.1, д.2203, л.176.
[266] Секретарь Кавбюро ЦК РКП(б) – ЦК тов. Кирову. 03.10.1921. №4538. – ARSSA, f.1, siy. 2, iş 104, v. 203.
[267] Протокол №16 заседание организационного бюро ЦК АКР. – 06.10.1921. ARSSA, f.1, siy.31, iş 186a, v.53-54.

AK(b)P MK Təşkilati və Siyasi Bürosunun Kirovun sədrliyi və Loznerin katibliyi ilə 8 oktyabr tarixində keçirilən iclasında (protokol №32, 3-cü bənd) isə "Qarabağ komissiyasının tərkibi haqqında məsələ" müzakirə edildi. İclasda Hüseynov, Mirzoyan, Axundov, Bünyadzadə, Stukalov, Qarayev, Nərimanov və Əfəndiyev iştirak edirdilər. Əfəndiyevin əvəzinə Qarabağ komissiyasının tərkibinə Bünyadzadə daxil edildi[268].

### *Kars müqaviləsi*

1921-ci il oktyabrın 13-də Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında RSFSR-in iştirakı ilə 20 maddədən və 3 əlavədən ibarət olan Kars müqaviləsi imzalandı[269]. Sənəddə ərazi-sərhəd məsələləri aşağıdakı kimi tənzimlənirdi.

Müqavilənin birinci maddəsinə əsasən tərəflər bütün əvvəlki qeyri-bərabərhüquqlu müqavilələri ləğv edirdilər.

İkinci maddəyə görə tərəflər zorla digərinə qəbul etdirilən sülh müqavilələrini və başqa beynəlxalq aktları qəbul etmirdilər. Azərbaycan, Gürcüstan və Ermənistan hökumətləri zorla qəbul etdirilən müqavilələri və Türkiyə Millət Məclisinin qəbul etmədiyi Türkiyəyə aid olan beynəlxalq aktları qeyri-bərabərhüquqlu müqavilə kimi rədd edirdilər. Hazırkı müqavilədə "Türkiyə" ifadəsi dedikdə, 1920-ci il yanvarın 28-də Türk Milli Aktına daxil edilən, İstanbulda Osmanlı Deputatlar Palatası tərəfindən hazırlanan və qəbul edilən, mətbuatda və bütün dövlətlərə məlumat verilən ərazilər başa düşülürdü. Öz növbəsində, TBMM hökuməti Azərbaycan, Ermənistan və Gürcüstana aid olan və hazırda Ermənistan, Azərbaycan və Gürcüstan sovet hökumətləri kimi təmsil olunan bu respublikaların müvafiq hökumətləri tərəfindən qəbul edilməyən beynəlxalq aktları qəbul etmirdi.

Dördüncü maddədə sərhəd məsələləri tənzimlənirdi. Yazılırdı ki, Türkiyənin şimal-şərq sərhədləri (Rusiya baş qərargahının xəritəsi üzrə düymdə (1/21.000 düymdə 5 verst) Qara dəniz sahilində yerləşən Sarp kən-

---

[268] Протокол №32 заседания организационного и политического бюро ЦК АКП. 08.10.1921. – ARSSA, f.1, siy.2, iş 18, v.158.

[269] Карсский договор. – ARDA, f.28 s., siy.1, iş 5, v.136-141; iş 69, v. 9-19; iş 123, v. 122-125; ARSSA, f. 609, siy.1, iş 94, v. 111-115; Документы внешней политики СССР. Т. IV, с. 420-429; Atatürkün Milli dış politikası. Milli Mücadele dönemine ait 100 belge. 1919-1923. C. 1. Ankara, 1994, s. 571-579; Договор Закавказских республик с правительством Большого Национального Собрания Турции. – Газ. "Коммунист", Баку, 30.10.1921, №248 (449); 31.10.1921, №249 (450); Карсский договор. – GMƏYTA, f.281, siy.2, iş 18, v.136-149; Conference de Kars. 13.10.1921. – ARDA, f. 28 s., siy.1, iş 58, v. 171; İsmail Soysal. Türkiyenin Siyasal Antlaşmaları (1920-1945). Ankara, 1983, s. 41-47.

dindən başlayır, Hedismta dağlarından, Şavşet dağları ayırıcı xəttindən – Qanlı dağdan keçir; sonra isə Ardahan və Kars dairələrinin keçmiş şimal inzibati sərhədi ilə Arpaçayın və Araz çayının aşağı axarı ilə Aşağı Qarasu çayının mənsəbinə qədər gedir (sərhədin belə təsviri və ona aid məsələlər müqaviləni bağlayan hər iki tərəfdən imzalanan I və II əlavələrdə və əlavə olunan xəritədə müəyyənləşdirilmişdir. Müqavilə mətni arasında və xəritədə fərqlilik olacağı təqdirdə mətnə həlledici əhəmiyyət verilir). Dövlət sərhədini təfərrüatı ilə yerdə çəkmək və həmçinin xəritəyə olan IV əlavədəki sərhəd işarələrini müəyyənləşdirmək bərabər iştirakçıların və Rusiya nümayəndəsinin iştirakı ilə təşkil edilmiş ortaq sərhəd komissiyasına tapşırılırdı.

Beşinci maddəyə görə Türkiyə hökuməti, sovet Ermənistanı və sovet Azərbaycanı hökumətləri razılaşırdılar ki, Naxçıvan vilayəti hazırkı müqavilənin III əlavəsində göstərildiyi sərhədlərlə Azərbaycanın protektoratlığı altında muxtar ərazi təşkil edir.

Altıncı maddə ilə Türkiyə tərəfi sərhədindən şimalda yerləşən, müqavilənin 4-cü maddəsində göstərildiyi və Batum dairəsi tərkibinə daxil olan Batum şəhəri, ərazisi və limanı üzərində suzerenliyi Gürcüstana güzəştə getməyə aşağıdakı şərtlərlə razılaşırdı: 1.Müqavilənin mövcud maddəsində göstərilən əhali inzibati, hər bir icmaya onun mədəni və dini hüquqlarını təmin edən və əhalinin arzusuna uyğun olaraq torpaq qanununu təmin edən geniş yerli muxtariyyətdən istifadə edirdi. 2. Türkiyədən göndərilən və ona göndərilən hər cür mallar üçün sərbəst tranzit verilirdi, Batum limanından keçən mallar üçün rüsum, hər hansı bir yubatma olmayacaq və hər hansı bir vəsait tələb olunmayacaqdı. Bu maddənin tətbiqi üçün hazırkı müqavilə imzalandıqdan sonra hər iki maraqlı tərəfin nümayəndələrindən ibarət komissiya yaradılırdı.

İyirminci maddəyə görə müqavilə ratifikasiya edilməli idi. Ratifikasiya sənədləri İrəvanda mübadilə olunmalı idi. Müqavilə beş nüsxədən ibarət tərtib edilmişdi.

Müqaviləyə olan birinci əlavədə Türkiyənin şimal-şərq sərhədi aşağıdakı kimi müəyyənləşdirilirdi: (Rusiya baş qərargahının xəritəsinə əsasən 1/21.000 düymdə 5 verst): Qara dənizdə Sarp kəndində Qaraşalvar dağları (5014) ayırıcı ilə – çayın R.Ç. istiqamətinə doğru – Yuxarı Maradidi kəndindən şimala – Yuxarı Maradidi kəndindən şimalda Çoroxu kəsir və Sabaur kəndinin şimalından keçir – Hedismta dağı (7052) – Kvakibe dağı – Kavtareti kəndi – Medziban dağları – Heratkesun dağı (6468) ayırıcı xətti – Korda dağları (7910) ayırıcı xətti ilə gedərək, Şavşet sıra dağlarının qərb hissəsinə doğru keçmiş Artvin dairəsinin inzibati sərhədinə çıxır – Şavşet sıra dağları ayırıcı xəttini keçərək Sarı çay dağına (Qara İsal) (8478) – Kvirial aşırımına çıxır – oradan Kanun dağda keçmiş Ardahan dairəsinin ərazisinə çıxır – oradan şimala doğru Tlil (Qrmanı) (8357) dağlarına gedir –

Ardahan dairəsinin elə həmin sərhədi ilə Badela kəndindən şimal-şərqə Posxov çayına çıxır və bu çay ilə cənuba doğru Çançax kəndinə gedir – orada çaydan ayrılaraq – ayırıcı xətlə Ayrılanbaş dağlarına (8512) çıxır – Kəllətəpə dağı (8463) və Xarmantəpə dağı ilə (9709) keçir – Kasris Seri dağına (9681) çatır – oradan Karzamat çayı ilə Kür çayına qədər gedir – oradan Kür çayının aşağı axarı ilə Kartanakev kəndindən şərqə doğru çıxır, Kür çayından ayrılır – Qara oğlu (7259) dağları ayırıcı ilə keçir – oradan Xazapin gölünü iki hissəyə bölərək 7580 (7560) yüksəkliyinə çıxır, oradan Göydağa (9152) – Üçtəpə dağı (9983) ilə gedir, burada Gürcüstan ilə sərhəd sona çatır və Ermənistan ilə sərhəd başlayır: Tayaqala (9716) – (9065) yüksəkliyi, orada Ardahan dairəsinin sərhədindən uzaqlaşır və Böyük Ağbaba dağlarından (9973 və ya 9963) – 8828 və ya 8827 – 7602 keçir – oradan düz xətlə 7518 yüksəkliyinə gedir – İbiş kəndinin şərqindən keçir, sonra isə Qızıldaşa (7439 və ya 7440 və ya 7490) – Yeni Qızıldaş kəndinə, oradan çay boyunca Yeni Qızıldaşdan keçərək çayın Qara Məmməddən şimal-qərbdə yerləşən döngəsinə qədər gedir – ayırıcı xətt üzrə Dilavər, Böyük Qumlu və Tixnis kəndlərindən şərqdə yerləşən Vartanlı və Baş Şuragəl kəndlərindən keçərək Camuşbu çayına çıxır, bu çay ilə Kalala və ya Qalalı kəndlərindən şimalda Arpaçaya çıxır – oradan daim Arpaçayın aşağı axarı ilə Araz çayına, Arazın aşağı axarı ilə Ermənistan ilə sərhədin sona çatdığı Urmiyə kəndinə qədər gedir və Azərbaycan ilə sərhəd başlayır – sonra isə Arazın aşağı axarı ilə Aşağı Qarasunun Araza töküldüyü yerə çıxır. Burada Azərbaycan ilə sərhəd sona çatır.

Müqaviləyə olan ikinci əlavə iki paraqrafdan ibarət idi. Birinci paraqrafda yazılırdı ki, birinci əlavədə yazıldığı kimi, sərhəd xətti Arpaçay və Araz çayının aşağı axarı ilə keçdiyindən TBMM hökuməti kiçik istehkamlarını Aleksandropol – İrəvan dəmiryol xəttindən 8 verst geriyə çəkməyi öhdəsinə götürür. Hazırda onun Arpaçay rayonunda təsviri adı çəkilən dəmiryolundan Araz çayı rayonunda 4 verst aralıdır. Məhdudlaşdırılan yuxarıdakı rayonların xətləri Arpaçay rayonu üçün aşağıdakı kimi göstərilirdi. Arpaçay zonası: A).Vartanlıdan cənub-şərqə doğru Uzun Kilisdən şərqə, Bozyar dağından (5096) – 5082 – 5047 keçərək – Karmirvəng – Üçtəpədən (6578 və ya 5578) şərqə – Arazoğludan şərqə doğru gedərək Anidən şərqə – Yeniköydən qərbə doğru Arpaçaya çatır. B).Yenidən Arpaçaydan şərqə doğru 5019 yüksəkliyindən – birbaşa 5481 – Qızıl qüllədən 4 verstdən daim şərqə – Borcalıdan 2 verst şərqə – sonra Dihor çayla – Düz Keçid kəndinə qədər gedir, birbaşa Qarabağ xarabalıqlarından şimala doğru Arpaçaya çıxır.

İkinci əlavənin ikinci paraqrafında Araz zonası müəyyənləşdirilirdi: Xaraba Alıcan və Süleyman Dizə kəndi arasındakı xətt. Bir tərəfdən, Aleksandropol – İrəvan dəmiryol xətti ilə məhdudlaşdırılan, göstərilən də-

miryolundan 8 və 4 verstlik digər xətlərdə TBMM hökuməti daimi ordu saxlamamağı, istehkamlar tikməməyi öhdəsinə götürürdü. Lakin qayda-qanunu qorumaq üçün zəruri inzibati hüququ özündə saxlayırdı.

Müqavilənin üçüncü əlavəsi Naxçıvanın ərazisinə aid idi. Burada Naxçıvanın ərazisi aşağıdakı kimi göstərilirdi: Urmiyə kəndi – oradan birbaşa xətlə Arazdayan stansiyası (onu Ermənistan SSR üçün saxlayır) – sonra düz xətlə Daşburun dağına (3142) – şərqi Daşburun dağı (4108) ayırıcı ilə – “Rodn.” (Bulaq) (cənub) yazısından cənuba Cəhənnəm dərəsi çayı ilə kəsişir – Bağırsaq dağlarına (6607 və ya 6587) və buradan keçmiş İrəvan dairəsi və Şərur-Dərələyəz qəzalarının inzibati sərhədləri ilə 6629 yüksəkliyindən Gömürlü dağa (6839 və ya 6930) doğru gedir və oradan 3080 yüksəklikdə Sayat dağ (7368) – Qurdqulaq (Kürdqulaq) kəndi – Qəməsur dağ (8160) – 8022 yüksəkliyi – Küküdağ (1028) – keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi ilə gedir.

### *Müqavilənin imzalanmasının əhəmiyyəti və ona münasibət*

Müqavilənin imzalanmasının böyük tarixi əhəmiyyəti var idi. Bununla da Moskvada başlanan iş Karsda yekunlaşdı. Kars müqaviləsi Moskva müqaviləsinin müddəalarını möhkəmləndirdi. Türkiyə ona zorla qəbul etdirilən Sevr müqaviləsinə qarşı Rusiya ilə birlikdə Azərbaycan, Gürcüstan və Ermənistanın da dəstəyini aldı. Bu həm də o demək idi ki, bolşevik Ermənistanı Sevr müqaviləsində Türkiyə ərazilərində yaradılması nəzərdə tutulan “Ermənistan”dan imtina edirdi. Türkiyə və Cənubi Qafqaz respublikaları arasında sərhəd məsələləri tənzimləndi[270]. Bu respublikalar Moskva müqaviləsini qəbul etdilər. Türkiyə Cənubi Qafqaz respublikaları ilə mehriban qonşuluq münasibətləri və işgüzar əlaqələr qurmaq üçün hüquqi-siyasi zəmin hazırladı, sərhədlərinin təhlükəsizliyini təmin etdi. “Naxçıvan məsələsi” tarixi və etno-mədəni gerçəkliyə uyğun olaraq ədalətli həllini tapdı. Ermənistanın bu tarixi Azərbaycan ərazisini ələ keçirtmək niyyətləri boşa çıxdı.

Kars müqaviləsinin imzalanmasına münasibət bildirən Gürcüstanda nəşr edilən “Pravda Qruzii” qəzeti 1921-ci il 16 oktyabr tarixli nömrəsində konfransa həsr olunmuş xüsusi bir məqalə dərc etmişdi. Məqalədə yazılırdı ki, beləliklə, Cənubi Qafqazın sovet respublikaları və Türkiyəni bağlamağa başlayan dostluq telləri indi müqavilə ilə möhkəmləndirilmişdir, əvvəllər aralarında düşmənçilik edən dövlətlər arasında sülh dövrü başlanır. Əvvəllər gah çar hökuməti, gah da daşnakların və menşeviklərin

---

[270] Карсская конференция. – Газ. “Известия”, 12.10.1921, №254(1397).

cinayətkar şovinist siyasəti nəticəsində sülh və sakit həyatın nə olduğunu bilməyən Cənubi Qafqaz, onun zəhmətkeş əhalisi indi dinc və məhsuldar əməklə məşğul olmaq dövrünə keçir. Türkiyənin müharibəyə qoşulmasını cinayətkar daşnak siyasətinin nəticəsi kimi qiymətləndirən məqalədə yazılırdı ki, indi vəziyyət dəyişmiş, Ermənistanda daşnak hökuməti devrilmiş və sovet Ermənistanı dinc yolla, sevgi ilə Türkiyə və Ermənistan arasında olan bütün mübahisəli məsələləri həll edir və həll etmişdir. Qəzetin mövqeyinə görə Kars konfransı Cənubi Qafqazın və Kiçik Asiyanın siyasi həyatında nəhəng əhəmiyyət daşıyacaqdı[271].

Lakin Kars müqaviləsinin təsdiqi prosesi asan deyildi. Onu uzun və mürəkkəb bir yol gözləyirdi. Çünki müqavilənin əleyhinə olan qüvvələr fəaliyyətlərini dayandırmamışdılar. Xüsusən, Ermənistanın sovetləşməsindən sonra xaricə qaçan Daşnaksütyun Şərq bürosunu hələ düşmən işğalı altında olan İstanbulda quraraq, Türkiyə və İrandakı fəaliyyətlərə rəhbərlik edir, Təbriz vasitəsi ilə Ermənistanla əlaqə saxlayır, silah və sursat toplayırdı[272]. Bununla bağlı olaraq Zaqafqaziya Fövqəladə Komissiyasının 1921-ci il oktyabr tarixli məlumatında yazılırdı ki, Təbrizdə daşnakların silah anbarı vardır, ona Aram nəzarət edir[273]. Şərq bürosu Kars müqaviləsinin imzalanmasının əleyhinə çıxırdı.

### ***Qarabağda vəziyyət müzakirə edilir***

Əvvəllərdə qeyd edildiyi kimi, təşkil edilən komissiya Qarabağa gedərək fəaliyyətə başladı. 1921-ci il oktyabrın 21-də Azərbaycan K(b)P MK Təşkilat Bürosunun üzvlərinin iştirakı ilə birlikdə Qarabağın (Şuşa, Cavanşir, Qubadlı və Qaryagin qəzalarının) məsul işçilərinin birgə konfransı keçirildi. İclasda Təşkilat Bürosunun üzvləri Bünyadzadə, Mirzoyan və Qarayev, Şuşa qəzasından Livşiç, Qriç, Şamil, Atayev, Qriqoryan, Avkayan, Cavad, Qəniyev, Axundov, Arzanyan, Cəfərov, Abidxanov, Qaryagin qəzasından Avetisov, Qarayev, Əsəd, Məmmədov, Aslanov, Vəliyev, Stepanyan, Qəhrəmanyan, Çilingəryan, Musaelyan, Cavanşir qəzasından Babayev, Qubadlı qəzasından Hüsü Hacıyev, Sultanov, sovet işçiləri ittifaqından B. Əhmədov, Qarabağ rayon həmkarlar bürosundan

---

271 Карсский договор. – Газ. “Правда Грузии”, Тифлис, 16.10.1921, №188; РГАСПИ, ф.298, оп.1, д.108, л. 41-42.

272 Об армянской революционной партии Дашнакцутюн. Циркулярное письмо Президиума Чрезвычайной Комиссии Грузии. № 3. Совершенно секретно. Тбилиси, Электропечатная Грузчека, 1922, с. 13. – ARMTNA, PR-41064, IV cild, v. 18.

273 Выписка из доклада по секретному отделению № 1 за октябрь месяц 1921 г. – ARMTNA, PR-41065, v. 678.

B.Səfərov, təmizləmə üzrə komissiyanın üzvləri Bednov və Paruşin iştirak edirdilər. Qarayevin "Qarabağda vəziyyət haqqında" məruzəsi dinlənildi. Məruzə əsasında qərarlar qəbul edildi. Qarabağda sakitliyi və qayda-qanunu yaratmaq üçün banditizmə qarşı mübarizə metodlarını dəyişdirmək vacib hesab edildi. Bütün iri və kiçik quldurlar güllələnməli idi. İcraiyyə komitələri quldurları güllələyə bilərdilər. Quldurları gizlədən kəndlər 10 milyon rubl cərimə edilməli idi. Qarabağ işçilərinin konfransı Dağlıq Qarabağa ayrıca muxtar vilayət ayrılmasını məqsəduyğun hesab etmədi. Bildirildi ki, qərarda qəbul edilən tədbirlər Qarabağ məsələsinin həllidir[274].

Həqiqətən də Qarabağın dağlıq hissəsinə muxtariyyət istəyənlər içərisində quldurlar, cinayətkar elementlər çox idi. Onlar qarışıqlıq yaradır, əhalini qarət edir və narazılıqlardan öz məqsədləri üçün istifadə edirdilər. Konfransda qəbul edilən qərarların yerinə yetirilməsi quldurlara ağır zərbə vurardı və əhali rahat nəfəs ala bilərdi.

Qarabağ məsələsi Azərbaycan K(b)P MK Təşkilat Bürosunun 1921-ci il 24 oktyabr tarixli iclasında (protokol №20, 2-ci bənd) müzakirə edildi. Mirzoyan, Bünyadzadə, Qarayev, Axundov və Əfəndiyevin iştirak etdiyi iclasın sədri Kirov, katibi Lozner idi. Məsələ üzrə beş bənddən ibarət aşağıdakı qərar qəbul edildi: banditizmə qarşı mübarizə metodunu dəyişmək, amnistiyadan imtina edərək güllülənməyədək amansız təqibə keçilsin; Azərbaycan Fövqəladə Komissiyasına təklif edilsin ki, vilayətdə banditizmə qarşı mübarizə üçün öz orqanlarına müvafiq əmr versin; dağıdılmış kəndlərə, Şuşa və Kürdüstan qaçqınlarına yardım üçün pul ayrılsın; 4 qəza icraiyyə komitələrinə təcili olaraq yarım milyard rubl pul verilsin; Xalq Torpaq Komissarlığına yerlərdə torpaq mübahisələrini həll etmək üçün səlahiyyətli komissiya göndərmək tapşırılsın[275].

Qərarların icra edilməsi Qarabağda vəziyyəti sabitləşdirə, quldurların fəaliyyətini əvvəlcə məhdudlaşdıra, sonra isə ona son qoya bilərdi. Bu dövrdə mürəkkəb proseslər Anadoluda da davam edirdi.

## *Ermənilərin narahatlığı və Azərbaycanın xahişi*

Ermənilər bu zaman türk ordusunun bir-birinin ardınca qələbələr qazanmasından və paytaxtın İstanbuldan Ankaraya köçürülməsindən nara-

---

[274] Протокол заседание конференции ответственных работников Карабаха (Шушинского, Джеванширского, Кубадлинского и Ларягинского уездов) совместно с членами Оргбюро ЦК от 21-го октября 1921 г. – ARSSA, f.1, siy.2, iş 74, v.23-23a.

[275] Протокол №20 Организационного Бюро ЦК АКП(б). 24.10.1921. – ARSSA, f.1, siy.2, iş 15, v.15-15a.

hat idilər. Belə güman edirdilər ki, İstanbul azad edildikdən sonra onlara qarşı sərt tədbirlər tətbiq edilə bilər. Onların bu narahatlığına son qoyulmasına Azərbaycan yardım etdi. Dövlətə qarşı çıxan ermənilərə münasibətdə sərt davranmaq haqqı olsa da, Türkiyə hökumətindən belə etməməyi Azərbaycan sovet hökuməti xahiş etdi. N.Nərimanov 1921-ci il noyabrın 1-də Azərbaycanın Ankaradakı səlahiyyətli nümayəndəsinin müavini Məbud Zeynalova göndərdiyi teleqramında yazırdı ki, Cənubi Qafqazda alınmış məlumata görə İstanbulun əməkçi erməni xalqı Türkiyə paytaxtının İstanbuldan Ankaraya köçürülməsindən narahatdır. Qazanılan qələbələr münasibəti ilə TBMM sədri Mustafa Kamal Paşanı təbrik edən N.Nərimanov xahiş edirdi:

*"Zəhmətkeş erməni xalqını sakitləşdirmək və ümumi düşmənlər tərəfindən ümumi işə mane olmaq məqsədi ilə törədilə biləcək təxribatçılıq hərəkətlərindən xilas olmaq üçün addımlar atın. Bizə dost olan Türkiyənin erməni zəhmətkeşlərini sakitləşdirmək üçün qəbul etdiyi tədbirləri Zaqafqaziya hökumətinə çatdırmaqdan məmnun olaram*"[276].

Azərbaycanın bu xeyirxah münasibətinə baxmayaraq, xarici ölkələrdəki daşnaklar antitürk fəaliyyətlərini davam etdirir, böyük dövlətlərin diqqətini öz günahları ucbatından ermənilərin düşmüş olduqları vəziyyətə yönəltməyə çalışırdılar.

### *Daşnakların ABŞ-dan və Rusiya – İngiltərə danışıqlarından yararlanma cəhdlərinin boşa çıxması. Terror davam edir*

Kars müqaviləsi imzalandığı dövrdə xarici ölkələrdəki daşnaklar böyük dövlətlərdə təbliğat apararaq "erməni məsələsi"nin həllinə nail olmağa ümid edirdilər. Onlar ABŞ-da xeyli fəal idilər. Belə ki, çoxlu xahişlərdən sonra, 1921-ci il noyabrın 21-də ABŞ Prezidenti Uorren Hardinq Vaqan, Kürkcan, Vardan, Malkolm və digər erməniləri qəbul etdi. Prezidentə Ermənistana dair yalan məlumatlar əsasında hazırlanmış memorandum təqdim edən bu şəxslər bildirdilər ki, Ermənistanın Moskvadakı nümayəndəsi S.M.Ter-Qabrielyanın məlumatına görə 10 min erməninin Mesopotamiyadan Batuma, oradan da Ermənistana gətirilməsinə Böyük Britaniya hökuməti artıq başlamışdır, Batuma gələn 3 min nəfər açıq səma altındadır. Ona görə də S.M.Ter-Qabrielyan ermənilərin köçürülməsinin dayandırılmasını xahiş edirdi. Dediklərinə görə RSFSR xalq xarici ticarət komissarı L.Krasin bu məsələyə dair Böyük Britaniya hökuməti ilə əlaqəyə girməli idi və

[276] Телеграмма Н.Нариманова заместителю полпреда АССР Мабуду Зейналову. 01.11.1920. – GMƏYTA, f.612, siy.1, iş 115, v. 243.

ermənilərin gətirilməsi üçün Böyük Britaniya hökuməti 5 min funt sterlinq ayırmışdı. Zaqafqaziya mətbuat bürosunun məlumatına görə Mixail Varandyan və Qavril Romada ermənipərəst L.Luçattinin müşayiətilə İtaliyanın xarici işlər naziri ilə görüşərək, Antanta Ali Şurasının toplantılarında Ermənistanı müdafiə etməyi xahiş etmişdilər. Onların dediklərinə görə aclıq çəkən Ermənistan üçün Kanadada taxıl toplanılmasına başlanmışdı.

Erməniləri dinləyən Uorren Hardinq də özünün xələfi Vudro Vilson kimi hərəkət etdi. Ermənilərə humanitar yardım edəcəklərini, köçürülmələrinə diqqət yetirəcəklərini bildirsə də, "erməni məsələsi"nin həlli üçün konkret bir söz demədi.

Buna baxmayaraq, daşnaklar fəaliyyətlərini genişləndirir, hətta terror hərəkətlərini davam etdirirdilər. Belə ki, İttihad və Tərəqqi Partiyasının qurduğu hökumətdə Baş Nazir işləmiş Səid Halim Paşa 1921-ci il dekabrın 6-da Romada erməni terrorçusu tərəfindən öldürüldü. Bu, ağır itki olmasına baxmayaraq, türk xalqı terror aktlarının bütün erməni xalqının üstünə atılmasına qarşı çıxırdı. Bununla bağlı olaraq türk mətbuatı yazırdı ki, bütün terror aktlarının erməni xalqı üzərinə atılması erməni xalqını ayıltmalı və o, Türkiyə ilə yaxınlaşmaq yolunu tutmalıdır.

Bu zaman Parisdə iki erməni nümayəndə heyəti – Türkiyə erməniləri nümayəndə heyətinin başçısı Poqos Nübar Paşa və Ermənistan daşnak hökumətinin nümayəndə heyətinin başçısı Avetis Aqaronyan arasında birgə fəaliyyət barədə razılıq əldə edilmişdi[277]. Onlar Londonda keçirilən rus – ingilis danışıqlarına ümid bəsləyirdilər.

Daşnakların Rusiya – İngiltərə danışıqlarından yararlanma cəhdləri və ümumiyyətlə, belə bir danışığın aparılması Türkiyəni narahat etdiyindən xarici işlər naziri Əhməd Muxtar nota göndərərək G.Çiçerindən yayılan xəbərlərə aydınlıq gətirilməsini və Türkiyənin də İngiltərə ilə danışıqlara başlamasını Rusiyanın arzulayıb-arzulamadığına dair mövqeyini bildirməsini istədi. Ermənistan və Gürcüstan haqqında məsələlərin də yer aldığı notada daşnakların qəddarlıqlar etdiyi xatırladılırdı.

Əhməd Muxtarın notasına dekabrın 14-də göndərdiyi cavab notasında G.Çiçerin düşmənlərin rus və türk xalqları arasında anlaşılmazlıqlar toxumu səpmək istədiklərini yazaraq, Cənubi Qafqazda sülhün və sakitliyin olması üçün iki ölkənin razılaşdırılmış fəaliyyət göstərməsini arzulayır, Avropada apardıqları siyasət barədə bir-birinə məlumat vermələrinin vacibliyini bildirirdi. Ermənistan haqqında məsələdə Türkiyə ilə razılaşan Rusiya tərəfinin baxışına görə Ermənistan və Türkiyə arasında sülh xalqların öz müqəddəratını təyinetmə prinsipinə əsaslanmalı idi. Daha sonra Rusiya hökuməti etiraf edirdi:

---

[277] Из сводки политической жизни Закавказских республик, в т.ч. о турецко закавказских отношениях. – РГАСПИ, ф.157, оп.1/с., д.11, л.14-18.

*"Sovet hökuməti razıdır ki, daşnak hökuməti qəddarlıq etmişdir, buna da Ermənistan ilə sərhəddəki türk orudusu komandanlığı laqeyd qala bilməz. Bununla belə, sovet hökuməti qəti surətdə əmindir ki, qonşu xalqlara dostluq hissləri olan insanlardan ibarət yeni Ermənistan sovet hökuməti Ermənistanda müsəlman əhalisinə olan öz siyasətini köklü surətdə dəyişmişdir və onları yalnız qardaşları kimi görür"*[278].

G.Çiçerin, həmçinin Aleksandropol qəzasınının, Kars vilayətinin şimal və şərqində yerləşən bütün məntəqələrin tezliklə boşaldılmasını arzu edirdi.

### *Mixail Frunzenin Türkiyəyə səfərində Kars müqaviləsinin təsdiqi haqqında məsələ*

Kars müqaviləsi imzalandıqdan bir müddət sonra, 1921-ci ilin dekabr ayında Hərbi İnqilab Şurasının Ukraynadakı nümayəndəsi, Ukrayna və Krım silahlı qüvvələrinin komandanı M.F.Frunze başda olmaqla Ukrayna nümayəndə heyəti Ankaraya gəldi[279]. Formal olaraq Ukrayna adından səfərə gəlsə də, M.Frunze əslində bolşevik Rusiyasını təmsil edirdi. Onun məqsədi Ukrayna və Türkiyə arasında Türkiyə – Rusiya müqaviləsinə bənzər müqavilə bağlamaq olsa da, müzakirə ediləcək məsələlər çox idi. Bunlardan biri Kars müqaviləsinin təsdiqinə dair məsələ idi.

1921-ci il dekabrın 21-də Türkiyə Böyük Millət Məclisində çıxış edən M.Frunze iki ölkə arasında dostluqdan və ümumi düşmənə qarşı birgə fəaliyyət göstərməyin əhəmiyyətindən danışdı[280].

Dekabrın 25-də M.Frunze və İ.Əbilovun Mustafa Kamal Paşa ilə görüşündə bir sıra, o cümlədən, Kars müqaviləsinin təsdiqinə dair məsələ müzakirə edildi. Mustafa Kamal Paşanın G.Çiçerinin qərbpərəst, L.Karaxanın isə erməni olması ilə bağlı narahatlığına aydınlıq gətirən M.Frunze bildirdi:

*"Rusiyada partiya və onun Mərkəzi Komitəsi vardır. Ölkənin daxili və xarici siyasətinə o, rəhbərlik edir. Çiçerin yaxşı kommunistdir. O, 20 ildən artıq Qərbi Avropada yaşadığından ola bilsin, Qərbə rəğbət bəsləyir. Lakin biz bunu hiss etmirik. O, Şərq məsələsinə düzgün yanaşır. Karaxan isə Çiçerinin siyasətinə təsir göstərə bilməz, o, böyük xadim deyildir"*[281].

---

278 Нота советского правительства народному комиссару по иностранным делам Ахмед Мухтару. 14.12.1921. –ГАРФ, ф.5402, оп.1, д. 542, л.1-5.

279 Полномочное представительство АССР в Турции. Бюллетень информационного отдела. Прибытие Украинской миссии. 15.12.1921. №22. – ARDA, f.28 s., siy.1, iş 230, v.56-57.

280 Советско – турецкие отношения. Сб. документов. Т.I. 1917-1926. М.,1947, с. 782-783.

281 Полномочный представитель АССР в Турции И.Абилов – наркоминделу АССР. 04.01.1922.№1. – ARDA, f.28 s., siy.1, iş 68,v.8.

M.Frunze və İ.Əbilovun 1922-ci il yanvarın 4-də Mustafa Kamal Paşa ilə keçirilən növbəti görüşünün sonuna yaxın xarici işlər naziri Yusuf Kamal gəldi[282]. O, danışığı kəsdiyi üçün üzr istəyərək, Mustafa Kamal Paşanı başqa bir otağa apardı. Görünür, vacib və təcili bir işi var idi. O, geri döndükdən sonra İ.Əbilov bildirdi ki, M.Frunze xəstə olduğu üçün Yusuf Kamal ilə görüşə bilməyəcəkdir, buna görə də onunla vidalaşmaq istəyir. Elə burada M.Frunze ilə danışmaq istədiyini deyən Yusuf Kamal bildirdi ki, onu dost olaraq qəbul edir və səmimi münasibəti gördünüz. Buna görə də açıq danışmaq istədiyini deyən Yusuf Kamal vurğuladı ki, ona görə sona saxladım, siz bizim alver etdiyimizi düşünməyəsiniz. Bizim Rusiyaya olan şübhələrimizin və etimadsızlığımızın bir hissəsi artıq getmişdir, yaxınlarda tamamilə yox olacaqdır. O, Xalq Xarici İşlər Komissarlığının Türkiyəyə qarşı fəaliyyətinin əlverişli təəssürat yaratmadığını qeyd edərək bildirdi ki, hələ Moskvada müqavilə imzalamaq üçün danışıqlar apararkən G.Çiçerinin danışmaq istəmədiyi aydın şəkildə görünürdü. Onun Qərbə meyili açıq-aşkar idi. İlk iclaslardan o, qətiyyən qəbuledilməz suallar qoydu. Ona görə də iclaslar bir həftə təxirə salındı. Yalnız İ.Stalin ilə danışdıqdan sonra o, G.Çiçerinə təsir etdi və danışıqlar bərpa edildi. Lakin yenə də G.Çiçerinin barışmazlığı ucbatından danışıqlar dayandı. Yusuf Kamal "bu, L.Karaxanın təsiri altında oldumu? Bilmirəm. Ancaq bu həqiqətdir ki, G.Çiçerin öz fəaliyyətində Şərqə deyil, daha çox Qərbə rəğbət bəsləyir" dedi. G.Çiçerin hansısa qəzet məlumatına istinadən Yusuf Kamala demişdi ki, Türkiyə Antantanın təzyiqlərinə tab gətirə bilməz, yaxşı olmazmı, siz onlara güzəşt gedib, saziş imzalayasınız.

M.Frunze cavabında dedi ki, Rusiyada partiya və onun Mərkəz Komitəsi vardır. Partiyanın fəaliyyətinə və bütün siyasətə MK rəhbərlik edir. G.Çiçerinin şəxsiyyətinə gəlincə isə o, yaxşı kommunistdir, ola bilsin, 20 ildən artıq Qərbi Avropada yaşadığı üçün görünür, Qərbə müəyyən rəğbəti vardır. Biz bunu hiss etmirik. O, bütün fəaliyyətində Şərq məsələsinə doğru yanaşır. Qeyd etdi ki, G.Çiçerin birinci olaraq Y.Upmal kimi bəzi yoldaşların bacarıqsız siyasətinə qarşı çıxmışdır. M.Frunze dedi ki, sizin Moskvadakı iclaslarınızda yaranan fasilələrə gəlincə isə bilirsiniz, orada Kars, Batum və b. xeyli dərəcədə mürəkkəb məsələlər dururdu. Bütün bu məsələlər yalnız G.Çiçerin tərəfindən təkbaşına həll edilə bilməzdi və onlar MK-da və Xalq Komissarları Sovetində müzakirə edilməli idi. Bundan başqa, Cənubi Qafqaz respublikaları, Ermənistan və Gürcüstan həmin məsələlərdə maraqlı idilər. Bu məsələlər müzakirə edilərkən Moskvada

---

[282] 2-я беседа Фрунзе и Абилова с Мустафы Кямал Паши. Сов.секретно. 04.01.1922. – ARDA, f.28s., siy.l, iş 68, v.1-7.

olduğunu bildirən M.Frunze MK-nın iclasında iştirak etmişdi. Məsələlərin həllinə ümumi siyasət baxımından yanaşılmış və millətlərin öz müqəddəratını təyinetmə prinsipi, Şərqə istiqamətlənmə əsas götürülmüşdü. Bu sahələrin hərbi-siyasi əhəmiyyətini yaxşı başa düşdüklərini deyən M.Frunze Batum vilayətinin güzəştə gedilməsinin Türkiyə üçün hansı strateji əhəmiyyət daşıdığını başa düşdüklərini söylədi. L.Karaxana gəlincə, M.Frunze bildirdi ki, o, sovet siyasətinə təsir etmək gücündə olan böyük bir xadim deyildir.

Səfərdən sonra Bakıya gələn M.Frunze 1922-ci il yanvarın 24-də Mərkəzi Fəhlə Klubunda Bakı Sovetinin iclasında Ankaraya səfəri haqqında məruzə etdi. Məruzədən sonra M.Frunzeyə suallar verildi. Suallardan biri Türkiyənin şərq vilayətləri haqqında idi. Cavabında erməni əhalisinin bir hissəsi və türk əhalisi arasında tamamilə dostluq münasibətlərinin olduğunu deyən M.Frunze əlavə etdi ki, hansı muxtariyyətdən söhbət gedə bilər, bu ərazidə erməni əhalisindən 5-10% qalmışdır. Qalanları imperialist müharibəsi dövründə çıxarılmışdır[283].

### *Daşnakların Fransadan yararlanma cəhdləri iflasa uğrayır*

"Erməni məsələsi" deyilən bir məsələ olmasa da, daşnak xadimləri ciddi cəhdlə digər dövlətləri bu işə qatmağa çalışırdılar. Bununla bağlı olaraq 1922-ci il yanvarın 8-də "Vakt" qəzetinə verdiyi müsahibəsində İ.Əbilov deyirdi:

*"Daim erməni xalqının əleyhinə olan partiyanın ləğvi ilə həmişəlik "erməni məsələsi" də ləğv edilmişdir və ermənilərlə azərbaycanlılar arasında heç bir düşmənçilik yoxdur. Əlbəttə, əsrlər boyu davam edən mübarizə həmin andaca məhv edilə bilməz, əsas səbəb – bu səbəblərdən biridaşnaklardır – ləğv edildikdən sonra zaman onun nəticələrini silib atacaqdır"*[284].

Lakin fəaliyyətlərindən əl çəkməyən daşnakların Avropaya göndərdikləri Poqos Nübar Paşa bu zaman Fransanın Baş Naziri ilə görüşdü. O, Antanta ölkələrinin Türkiyəyə qarşı ittifaqı barədə danışmaq istədi, eyni zamanda, ermənilərin Türkiyəyə olan iddialarını əsaslandırmağa çalışsa da, dedikləri soyuq qarşılandı[285]. Fransada da daşnakların ümidləri puça çıxdı.

[283] Доклад Фрунзе на заседании Баксовета. 24.01.1922. – Газ. "Бакинский рабочий", 26.01.1922, №18(451).
[284] Бюллетень информационного отдела полномочного представительства АССР в Турции. 02.02.1922. №66. – ARDA, f.28 s., siy.1 s, iş 125, v. 98.
[285] Докладная записка генерального консула РСФСР в Анкаре Михайлова на имя Г.К.Орджоникидзе. 17.01.1922. – РГАСПИ, ф.85, оп. с/Турция, д.96, л.60.

### *Müqavilənin təsdiq edilməsi məsələsinə dair müzakirələr*

Kars müqaviləsi imzalandıqdan sonra Rusiya – Türkiyə diplomatik-siyasi münasibətlərində ən çox müzakirə edilən məsələlərdən biri onun təsdiqlənməsi barədə idi. Türkiyə tərəfi müqavilənin təsdiqinin yubadılmasından narahat idi. B.V.Leqran bu yubanmanı Ermənistan və Gürcüstanda sovetlər qurultayının hələ toplanmaması ilə əlaqələndirirdi. Azərbaycana gəlincə isə müqavilə Gürcüstan və Ermənistan ilə eyni vaxtda təsdiq edilməli idi.

Müqavilənin təsdiqi məsələsi İ.Əbilovun 1922-ci il yanvarın 26-da Yusuf Kamal ilə görüşündə müzakirə edildi[286]. Azərbaycan və Gürcüstan tərəfindən müqavilənin təsdiqində problem olmayacağını bilən türkləri daha çox Ermənistanın mövqeyi narahat edirdi. Bu da səbəbsiz deyildi. Əvvəla, Kars müqaviləsinin nəticələrindən narazı qalan bəzi erməni xadimləri yenə də qonşularına, ilk növbədə Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürməkdə davam edir, konfransın qərarlarının azərbaycanlılar üçün faydalı olduğunu söyləyirdilər. İkincisi, bolşevik Rusiyası müqavilə imzaladıqdan sonra Cənubi Qafqazda yeni şərait yaradıldığını bildirirdi. Üçüncüsü, türklər G.Çiçerinin Qərbə meyilli olmasından, ona RSFSR xalq xarici işlər komissarının müavini, milliyyətcə erməni olan L.Karaxanın təsirinin olub-olmamasından narahat idilər. Dördüncüsü, təbliğat aparan daşnaklar ABŞ və Avropa ölkələrini "erməni məsələsi"nin həllinə cəlb etmək istəyirdilər.

Söhbət zamanı Türkiyə tərəfinin Zaqafqaziya respublikalarının federasiyası haqqında sualına aydınlıq gətirən İ.Əbilov bildirdi ki, bununla bağlı hələlik dəqiq məlumatı olmasa da, ancaq konfederasiya haqqında məsələ artıq müsbət mənada həll edilmişdir, Zaqafqaziya Federasiyası inqilabi Türkiyə hökumətinə münasibətdə əvvəlki siyasətinə sadiq qalacaq, bu məsələdə dəyişiklik olmayacaq, əksinə TBMM hökuməti ilə dostluq münasibətlərinin qorunub saxlanılmasına və möhkəmləndirilməsinə çalışılacaqdır.

Kars müqaviləsinin Türkiyə tərəfindən təsdiqinin yubadılması səbəbi barədə İ.Əbilovun sualına cavabında Yusuf Kamal Zaqafqaziya Federasiyasının yaradılması xəbərini aldıqdan sonra ratifikasiyanı təxirə saldıqlarını söylədi. İ.Əbilov Kars müqaviləsinin təsdiqinin yubadılması haqqında məsələyə dair Yusuf Kamalın əvvəlki sualına da aydınlıq gətirərək bildirdi ki, yubanma federasiya yaradıldığı üçün baş verir, məsələ 1-2 ay ərzində həll ediləcək, sona çatdıqdan sonra Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR tərəfindən təsdiq ediləcəkdir. İ.Əbilovun cava-

---

[286] Беседа И.Абилова с коминделом БНСТ Юсуф Кемал беем. 26.01.1922. – ARDA, f. 28 s., siy. 1, iş 68, v.17.

bından razı qalmayan Yusuf Kamal söylədi ki, müqavilə Zaqafqaziya Federativ Respublikası ilə deyil, Azərbaycan, Gürcüstan və Ermənistan ilə imzalanmışdır, müqavilə ayrıca təsdiq olunmalıdır, onlara Ermənistanın ali orqanının ratifikasiya etdiyi sənəd lazımdır[287].

N.Nərimanovun Zaqafqaziya İttifaq Şurasının sədri, B.Şahtaxtinskinin isə xalq xarici işlər komissarı təyin edilməsi xəbərini sevindirici fakt kimi qiymətləndirən Yusuf Kamal federasiyadan sonra dostluq münasibətlərinin dəyişməyəcəyinə ümidini ifadə etdi. TBMM-də deputatlar və xarici əlaqələr komissiyasının üzvləri ona müqavilənin ratifikasiyasının yubadılmasının səbəbləri barədə suallar vermişdilər. O isə rəsmi məlumat olmasa da, tezliklə ratifikasiya ediləcəyini söyləmişdi. Yusuf Kamal bildirdi ki, müqavilə hər bir respublika tərəfindən ayrıca təsdiq edilməlidir. Onun fikrincə, müqavilənin İttifaq Şurası tərəfindən təsdiqi düzgün deyildi və Türkiyə üçün qəbuledilməz idi. Müqavilə Türkiyə Böyük Millət Məclisinə verilmişdi. Ukrayna ilə müqavilə də TBMM-də idi. Ukrayna ilə müqavilənin Kars müqaviləsindən əvvəl ratifikasiya edilməsi Yusuf Kamala görə həm Türkiyə, həm bə respublikalar üçün arzuedilməz olardı. Ona görə də Yusuf Kamal Kars müqaviləsinin hər bir respublika tərəfindən ayrılıqda təsdiq edilməsi məsələsində və sürətləndirilməsində kömək etməyi, federasiya haqqında məsələdə isə rəsmi məlumat verməyi xahiş etdi, buna TBMM hökumətinin münasibət bildirəcəyini dedi. Əlavə etdi ki, Kars müqaviləsi imzalanan zaman federasiya və onun ümumi nümayəndə heyəti yox idi. Türklər Karsda federasiyanın ümumi nümayəndə heyəti ilə deyil, Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR-in müstəqil nümayəndələri ilə iş görmüşdülər.

İ.Əbilov bildirdi ki, müqavilənin ratifikasiyasının İttifaq Soveti və ya hər bir ayrı respublika ilə olmasının heç bir fərqi yoxdur, Karsda bütün üç respublikanın birlikdə çıxış etməsi bu respublikaların gələcək konfederasiyası haqqında məsələni əvvəlcədən həll etmişdir. Ona görə də müqavilənin həm İttifaq Soveti, həm də hər bir respublika ilə ayrı-ayrılıqda təsdiq edilməsi doğru olacaqdır.

Ratifikasiyanın forması və sürətləndirilməsi haqqında fikirlərini söylədiyini, lakin dostcasına və açıq danışacağını deyən Yusuf Kamal bildirdi ki, müqavilənin Azərbaycan tərəfindən ratifikasiyasında tələskənlik və zərurət yoxdur, bu, bizi Gürcüstan ilə də o qədər maraqlandırmır. Müqavilənin Ermənistan tərəfindən ayrıca ratifikasiya edilməsini isə fövqəladə mühüm hesab edən Yusuf Kamal bildirdi ki, Şərq məsələsinə həsr edilmiş konfransa dəvət vardır, Qərbdə erməni xadimlərinin işi və təbliğatı sayə-

---

[287] Письмо И.Абилова наркоминделу АССР. 03.02.1922. №2. – ARDA, f.28s., siy. 1, iş 68, v.99.

sində "erməni məsələsi" ətrafında şərhlər və müzakirələr gedir. Bu məsələ konfransda İngiltərə və ABŞ arasında da müzakirə edilə bilərdi. Əgər türklərin əlində həm daşnaklar, həm də erməni kommunistləri ilə imzalanan müqavilə olardısa, onda öz maraqlarını qoruya bilərdilər. Əgər Kars müqaviləsi Cənubi Qafqaz respublikaları tərəfindən ayrılıqda deyil, İttifaq Soveti tərəfindən təsdiq edilərdisə, onda deyilə bilərdi, bu, erməni xalqının iradəsi deyildir, digər iki respublika tərəfindən ona sırıdılmışdır. Beləliklə, Ermənistan tərəfindən müqavilənin müstəqil ratifikasiya edilməsi fövqəladə dərəcədə mühüm və zəruri idi. Yusuf Kamal ona görə də İbrahim Əbilovdan xahiş etdi ki, Nəriman Nərimanov ilə əlaqə qursun, Kars müqaviləsinin hər bir respublika ilə ayrı-ayrılıqda ratifikasiyasına kömək etsin və sürətləndirsin. İ.Əbilov bildirdi ki, əgər bu məsələ Türkiyəni həqiqətən belə maraqlandırırsa, onda N.Nərimanov ilə şəxsən əlaqə saxlayacaq və müqavilənin ratifikasiyasının türklər istəyən mənada müsbət həllini xahiş edəcəkdir.

Müqavilənin ratifikasiyasının yubadılmasından rus – türk münasibətlərini pozmağa çalışan dairələr istifadə edə bilərdilər. Ona görə də Azərbaycan tərəfi müqavilənin təsdiqinin sürətləndirilməsi üçün fəaliyyətini artırdı.

### *Kars müqaviləsinin təsdiqi*

Kars müqaviləsi 1922-ci il yanvarın 22-də TBMM-də qəbul edildi[288]. 1922-ci il martın 3-də Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin III sessiyasının iclasında müqavilə yekdilliklə təsdiq olundu[289]. Martın 16-da isə Ümumrusiya Fəhlə, Kəndli, Qırmızı ordu və Kazak deputatları soveti Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin iclasında (protokol №21) Kars müqaviləsi təsdiq edildi[290]. Türkiyə Böyük Millət Məclisinin martın 16-də keçirilən iclasında Kars müqaviləsinin və Ukrayna –Türkiyə müqaviləsinin ratifikasiyası məsələsi müzakirə edildi. Xarici işlər nazirinin müavini Cəlal çıxış edərək qardaşlıq münasibətlərinin möhkəmləndirilməsinin TBMM hökumətinin arzusu olduğunu bildirdi.

---

[288] Türkiye – Ermenistan, Azerbaycan ve Gürcistan muahednamesi hakkında layiheyi kanuniye. – T.C. BCA. 030.18.01. 04.45.14.

[289] Письмо полномочного представительства АССР при правительстве РСФСР зав.отделу Востока НКИД РСФСР. 05.04.1922. – ARDA, f. 28 s., siy. 1, iş 77, v. 197.

[290] Выписка из протокола №21 заседания Президиума Всероссийского Центрального Исполнительного Комитета Совета Рабочих, Крестьянских, Красноармейских и Казачьих Депутатов от 16 марта 1922 г. – РГАСПИ, ф. 157, оп.3, д.69, л.9.

Ondan sonra Burdurdan olan deputat Sübhi çıxış edərək dedi:

*"16 mart bizim üçün ən qəmli bir gündür. 1920-ci ilin həmin günündə İstanbulu Antanta ölkələri işğal etmişdilər. Eyni zamanda bu tarix xoşbəxt bir gündür. Bu gün Moskva müqaviləsi imzalanmışdır."*

Karsdan olan deputatlar müqavilənin həmin gün paylandığını və oxuya bilmədiklərini əsas gətirərək müzakirəni təxirə salmağı təklif etdilər[291].

Deputat Rza Nur çıxış edərək, müqavilənin təsdiqinin bir neçə baxımdan vacibliyini, yubanmaya bir neçə səbəbdən yol verməyin mümkünsüzlüyünü söylədi. Azərbaycan hökumətinin müqavilənin təsdiqinin nə üçün yubadıldığını soruşduğunu deyərək, təsdiqinin həmin gün keçirilməsinin vacibliyini bildirdi.

Ərzurumdan olan deputat Hüseyn Avni çıxışında dedi ki, müharibələr nəticəsində imzalanmış keçmiş müqavilələr cinayətkar sənədlər idi, imperialistlər özlərinin maliyyə balansları naminə xalqlar arasında qırğınlar törətmişlər. Rus xalqı ilk dəfə olaraq buna qarşı üsyan etmişdir. O, bildirdi ki, əgər 16 mart tarixi əvvəllər bizim üçün bədbəxtlik günü idisə, indi nəinki bizim, həmçinin ruslar üçün xoşbəxtlik günüdür, azərbaycanlı qardaşlarımız, Gürcüstan və Ermənistan kommunistləri bizim mehriban qonşularımız olmuşlar.

Ədirnəpoldan olan deputat Şərəf martın 16-da türk xalqının Sevr müqaviləsi adlandırılan kağız parçasını cırıb atdığını dedi.

Həmdulla Sübhi isə çıxışında dedi:

*"Napoleon Tilzitdə rus çarı I Aleksandr ilə görüşərkən III Sultan Səlimin ölüm xəbərini aldıqda, Türkiyənin yaxınlarda məhv olacağını, "xəstə adam" Türkiyənin bölüşdürülməsi planını səbirsizliklə gözlədiyini söyləmişdi. Lakin türklər Krımda və Silistriyada qələbə qazandılar. Əbdülhəmidin dövründə Türkiyə məzarda idi. Hamı onun öləcəyini gözləyirdi. Lakin konstitusiyanın elan edilməsi ilə ölkədə möcüzəli bir bahar oldu. Balkan müharibələri dövründə hamı Türkiyə üzərinə hücuma keçdi. Lakin o, mövcudluğunu qoruyub saxladı. Dünya müharibəsində Almaniya dizi üstə çökərkən, Türkiyə müstəqil yaşamaq üçün mübarizəyə başladı. Martın 16-dan biz güclənməyə başlamışıq".*

Batumdan olan deputatlar çıxış edərək müqavilənin milli əlamətə zidd olduğunu əsas gətirərək, rədd olunmasını təklif etdilər. Lakin bu təklif qəbul olunmadı.

Səsvermədə iştirak edən 187 deputatdan 172-si Kars müqaviləsinin lehinə, 12 nəfər əleyhinə səs verdi, 3 nəfər isə bitərəf qaldı[292]. Ratifikasiya

---

[291] Бюллетень информационного отдела при полномочном представительстве РСФСР в Азербайджане, Армении и Грузии. №9-10. 30.04.1922. – GMƏYTA, f.612, siy.1, iş. 98, v.52-57.

qramotalarının mübadiləsi üçün Rza Nur başda olmaqla nümayəndə heyəti təsdiq edildi[293]. Martın 20-də Ermənistan, iyunun 14-də isə Gürcüstan Mərkəzi İcraiyyə Komitələri müqaviləni təsdiq etdilər[294].

Bununla Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında qarşılıqlı münasibətlərdə yeni bir səhifə açılırdı. Mustafa Kamal Paşa TBMM-in qurulmasının 2-ci ildönümü münasibəti ilə 1922-ci ildə etdiyi nitqində deyirdi:

*"Erməni xalqının həqiqi maraqlarına deyil, kapitalizmin xeyrinə həll edilməsinə çalışılan "erməni məsələsi" adlandırılan məsələ Kars müqaviləsində ən doğru həllini tapmışdır. Yüzilliklər boyu yanaşı yaşayan hər iki əməkçi xalq arasında xoşbəxtlikdən dostluq münasibətləri bərpa edilmişdir*"[295].

Kars müqaviləsinin təsdiq fərmanlarının təqdim edilməsi mərasimi İrəvanda olmalı idi. Karsa gələrək ratifikasiya üçün cavab gözləyən Türkiyə nümayəndə heyəti bu barədə Zaqafqaziya hökumətinə müraciət etdi. Zaqafqaziya İttifaq Şurasının sədri P.Mdivani və kollegiya üzvü N.Nəcəfov 1922-ci il avqustun 2-də Azərbaycan SSR XKS-yə göndərdikləri 72 №-li məktubda mübadilə üçün nümayəndənin təyin edilməsini xahiş etdilər[296].

Azərbaycan K(b)P MK Rəyasət Heyətinin 1922-ci il 20 avqust tarixli iclasında Türkiyə nümayəndə heyəti ilə Kars müqaviləsinin təsdiq sənədlərinin mübadiləsi haqqında məsələ müzakirə edildi. Həmid Sultanov təsdiq fərmanlarının mübadiləsində Azərbaycanın rəsmi nümayəndəsi təyin olundu[297].

1922-ci il sentyabrın 11-də İrəvanda Ermənistan SSR Xalq Komissarları Sovetinin iclas zalında ratifikasiya fərmanları mübadilə edildi.

---

[292] Ратификации Карсского и Украинского договоров. – ARDA, f.28s., siy.1, iş 234, v.14; Бюллетень информационного отдела при полномочном представительстве РСФСР в Азербайджане, Армении и Грузии. №9-10. 30.04.1922. – GMƏYTA, f.612, siy.1, iş 98, v.52-57.

[293] Бюллетень информационного отдела при полномочном представительстве РСФСР в Азербайджане, Армении и Грузии. №6-7. 06.04.1922. Г. Тифлис. Ратификация Карсского и Украинского договоров. – GMƏYTA, f. 612, siy.1, iş 95, v.14.

[294] Сборник действующих договоров, соглашений и конвенций, заключенных с иностранными государствами. Вып. III. М.,1922, с. 57.

[295] Бюллетень информационного отдела при полномочном представительстве РСФСР в Азербайджане, Армении и Грузии. №6-7. 06.04.1922. Тифлис. – GMƏYTA, f.612, siy.1, iş 95, v.38.

[296] Председатель Союзного Совета Б.Мдивани, член коллегии Наджафов – в Совнарком АССР. 02.08.1922. №72. – ARSSA, f.1, siy.74, iş 128, v.31.

[297] Протокол №36 заседания президиума ЦК АК(б)П. 20.08.1920. – ARSSA, f.1, siy.74, iş 128, v.122; В отдел внешних сношений при Союзном Совете. Август 1922 г. №981. – ARDA, f. 28 s., siy.1, iş 40, v. 6.

Toplantıda çıxış edən Türkiyə nümayəndəsi bundan sonra da sovet respublikaları ilə əbədi və pozulmaz əlaqələrin olmasını arzu etdi. Kars müqaviləsi həmin gündən qüvvəyə mindi[298].

Beləliklə, Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında ərazi-sərhəd məsələləri tənzimləndiyindən münasibətlərdə yeni bir dövr açıldı. Lakin bu dövr heç də asan görünmürdü. Onu çətin sınaqlar gözləyirdi. Bu da səbəbsiz deyildi.

[298] Сборник действующих договоров, соглашений и конвенций, заключенных с иностранными государствами. Вып. III, с.57; Документы внешней политики СССР.Т.IV, с.429; Обмен ратификации Карсского договора. – Газ. "Известия", 16.10.1922, №208(1647).

# VI FƏSİL

# ƏRAZİ MÜBAHİSƏLƏRİ VƏ ZORAKILIQLAR

## *Azərbaycanlıların torpaqlarının ələ keçirilməsi*

Kars müqaviləsi imzalandıqdan sonra münasibətlər normallaşmağa doğru getdiyi bir zamanda bəzi erməni bolşevik xadimləri ərazi iddialarından hələ də əl çəkməmişdilər və daşnakların hökmranlığı illərində türklərə, müsəlmanlara qarşı yürüdülən siyasəti davam etdirirdilər. Erməni bolşeviklərinin siyasəti mahiyyətcə daşnaklarınkından fərqlənmirdi. Daşnakların hökmranlığı dövründə tarixi torpaqlarından didərgin düşən azərbaycanlıların evlərinə dönmələrinə bu dəfə erməni bolşevikləri imkan vermirdilər. Azərbaycanda Ermənistandan qovulan qaçqınların sayı artırdı. Azərbaycanlıları evlərinə yaxın buraxmamaqda erməni bolşevikləri və kəndlilərinin başlıca məqsədi onlara məxsus torpaqları ələ keçirtmək, evlərinə xarici ölkələrdən gələn erməniləri yerləşdirmək və türksüz Ermənistan yaratmaq idi.

Bu zaman xüsusən Naxçıvanda vəziyyət ağır idi. Diyar Ermənistandan qovulan qaçqınlarla dolmuşdu. Yaranmış ağır şəraitlə bağlı olaraq Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin sədri 1922-ci il mayın 27-də İttifaq Sovetinə göndərdiyi məktubunda yazırdı:

*"Qafqazda inqilab olanadək iki-üç il daşnakların hökmranlığı altında erməni kəndlilərinin fanatik hissəsi əsrlərlə qonşu olan azərbaycanlılara qarşı silah işlətdilər, ölüm-dirim mübarizəsi başladı. Andranikin, Yaponun və b. daşnak dəstə başçılarının təzyiqləri altında hər şeylərindən məhrum olan azərbaycanlılar daimi yaşayış yerlərini tərk etdilər. Onların bir qismi Naxçıvan diyarında sığınacaq tapdı. Diyarın əhalisi ərzaq ehtiyatını həmin insanlarla bölüşdürdü. Lakin bu, dənizdə bir damla idi. Qaçqınlar xəstəliklərə düçar oldular. Zəngəzur sovetləşdirildikdən sonra onların daimi yaşayış yerlərinə qayıtmalarına ümidləri artdı, qabaqcıl dəstələri Zəngəzura qayıtdı. Lakin Zəngəzurda onları qəbul etmədilər. Həmin şəxslər evlərinə yerləşmiş ermənilərlə dalaşmağa başladılar. Ermənistan Salmas və Xoydan olan erməni qaçqınlarını yerləşdirdiyi üçün azərbaycanlıları daimi yaşayış yerlərinə qəbul etmədi"*[299].

Naxçıvana gələn Zəngəzur İnqilab Komitəsinin sədri S.Q.Arutunyan açıq şəkildə bildirdi ki, azərbaycanlı qaçqınları qəbul etməyəcəklər, çünki Zəngəzurda 100 min nəfər əhali olduğu halda, 300 min desyatinə

---

[299] Председатель НахЦИК-а в Союзный Совет. – GMƏYTA, f.612, siy.1, iş 27, v. 170-171.

yaxın əkin və otlaq sahəsi vardır[300]. Bir neçə gün sonra Ermənistan XKS Azərbaycana həmin mövqeni təsdiq edən bir teleqram da göndərdi.

Qaçqınlar məsələsi həllini gözlədiyindən Zaqafqaziya hökuməti bu məqsədlə bir komissiya yaratmışdı. 1922-ci il iyunun 9-da Qaçqınların məsələsi üzrə komissiyanın iclası (protokol №1) keçirildi. İclasda Gürcüstan xalq torpaq komissarı Todriya, Ermənistan xalq torpaq komissarı Erzikyan, Azərbaycandan M.Hüseynov, Naxçıvanın nümayəndəsi F.Bağırov, məşvərətçi səslə Kakabadze, Ter-Qazaryan və Əliyev iştirak edirdilər.

Birinci məsələ kimi Naxçıvan qəza İcraiyyə Komitəsinin sədri Heydərovun və məsul katibin müavini Musayevin teleqramı müzakirə edildi. Teleqramda Qubadlı qəzasından Zəngəzur qəzasına dönən qaçqınlara yerli hakimiyyət orqanlarının maneələr törətdiyi vurğulanırdı. Məsələnin müzakirəsi zamanı xüsusi bir fikir söyləyən M.Hüseynov və F.Bağırov bildirdilər ki, Ermənistan SSR-dən olan və torpaqlarına hələ ermənilər yerləşdirilməyən azərbaycanlı qaçqınlar, Zəngəzur qəzası istisna olmaqla özlərinin Ermənistandakı əvvəlki yaşayış yerlərinə qaytarılmalıdırlar. Lakin bu fikir nəzərə alınmadı. Məsələ üzrə qəbul edilən qərarda yazılırdı ki, Ermənistan SSR ərazisində sərbəst torpaq fondu olmadığı üçün Ermənistandan qaçqın düşmüş və hazırda Azərbaycan SSR və Naxçıvanda olan 28 min nəfərədək azərbaycanlı qaçqını sərbəst torpaqlarda yerləşdirmək Azərbaycan SSR hökumətinə tövsiyə edilsin, onların kəndlərində Ermənistan SSR-də olan erməni qaçqınlar yerləşdirilsin. Bununla Ermənistan SSR hökuməti təminat verirdi ki, mövcud şəraitdə Azərbaycandan və Ermənistan SSR ərazisindən olan qaçqınlar keçmiş yerlərinə qayıtmayacaqlar.

İkinci məsələ Naxçıvan diyarının Ordubad qəzasına Zəngəzurdan gəlmiş qaçqınlar haqqında idi. Bu məsələ üzrə birinci maddəyə bənzər qərar qəbul edildi, yəni onların da keçmiş yaşayış yerlərinə qayıtmaları uyğun görülmədi.

Üçüncü məsələ üzrə Təbrizdə olan 300 nəfər erməninin Ermənistanda, 500 nəfər azərbaycanlının Naxçıvanda yerləşdirilməsinə dair qərar qəbul edildi.

Dördüncü məsələ Kerçdən 500 nəfər erməninin ailələri ilə birlikdə Suxumiyə köçmək istəmələri barədə idi. Gürcüstanın səlahiyyətinə aid olduğu üçün bu məsələnin həlli həmin respublikaya həvalə edildi.

Beşinci məsələ Batumda olan 6 min 660 nəfər yunan, 7 min nəfərədək erməni və 360 nəfər assuriyalı qaçqın haqqında idi. Batumun qaçqınlardan boşaldılmasına dair qərar qəbul olundu. Ermənilərin və assuriyalıların Axalkələk qəzasında yerləşdirilməsi Gürcüstan SSR Xalq Tor-

---

[300] Протокол заседания информационного характера по вопросу о беженцах Зангезура. – GMƏYTA, f.612, siy.1, iş 27, v.175.

paq Komissarlığından xahiş edildi. Buna qədər yunanlar artıq Gürcüstan ərazisində yerləşdirilmişdilər[301].

Qaçqınlar məsələsi komissiyanın 12 iyun tarixli iclasında təkrarən müzakirə edildi. Komissiyanın məruzəsi ilə Erzinkyan çıxış etdi. Əvvəlki iclasda qəbul olunmuş qərarlar təsdiq edildi[302].

Elə həmin iclasda Naxçıvan xalq sosial təminat komissarının məruzəsi dinlənildi. O, Ermənistan hökumətinin Zəngəzurdan olan qaçqınları daimi yaşayış yerlərinə qayıtmaq üçün qəbul etməkdən imtina etdiyini, Ermənistana ermənilərin yerləşdirilməsinə dair daşnak siyasətinin davam etdirildiyini, Ermənistan nümayəndəsi Manusyanın 2 min puda qədər olan taxılı yalnız ermənilərə payladığını və azərbaycanlıların ehtiyaclarını nəzərə almadığını diqqətə çatdırdı. Zəngəzur qaçqınlarının geriyə qaytarılmasına dair Naxçıvanda xüsusi bir qərar qəbul edilsə də, kağız üzərində qalmışdı.

Qəribə idi. Bir neçə il əvvəl sovetləşdirilən zaman ac olan Ermənistana Azərbaycan yardım edərək erməniləri ölümdən qurtarmış, respublikanı zülmətdən çıxarmışdı. Azərbaycan yenə də Ermənistana yardımlar edirdi. Lakin həmin yardımları alan Yerevan onu yalnız ermənilərə paylayır, azərbaycanlılara vermirdi. Bu hərəkətin insanlıqla heç bir əlaqəsi yox idi. Lakin Naxçıvan nümayəndəsinin söylədikləri nəzərə alınmadı.

Müzakirə zamanı Qaçqınların məsələləri üzrə komissiyanı daimi komissiyaya çevirmək haqqında qərar qəbul edildi. Komissiyanın tərkibinə Ermənistandan Surxay Karabekyan, Gürcüstandan Kakabadze, Azərbaycandan N.Nəcəfov daxil edildilər.

Daimi komissiyanın iclasları əsl siyasi döyüşü xatırladırdı. Erməni bolşevikləri tarixi torpaqlarından qovulmuş azərbaycanlıların geri dönməsinə icazə vermir, bunun üçün müxtəlif bəhanələr gətirir, yuxarı hakimiyyət orqanlarına müraciətlər edirdilər. Məsələn, İttifaq Soveti yanında Qaçqınların məsələləri üzrə daimi komissiyanın erməni əsilli üzvü Zaqafqaziya Diyar Partiya Komitəsinə göndərdiyi məktubda yazırdı ki, Ermənistanda qaçqınların yerləşdirilməsi üçün bir qarış da torpaq yoxdur. Guya qaçqınların bir qisminin yerləşdirilməsi digərlərinin torpaq payının azaldılması hesabına mümkün olmuş və onlar torpaqsız kəndliyə çevrilmişlər, bütün Ermənistanda ən ağır vəziyyət Zəngəzur qəzasındadır. Məktubda daşnakların hökmranlığı dövründə ərazilərin genişləndirilməsi üçün amansız mübarizə aparıldığı və Zəngəzurdan azərbaycanlıların məhz bu dövrdə qovulduqları vurğulanırdı. Komissiya üzvünün yazdığına görə sovet haki-

---

[301] Протокол заседания комиссии по беженским вопросам. 09.06.1922. – GMƏYTA, f.612, siy.1, iş 27, v.15-16.

[302] Выписка из протокола заседания президиума Союзного Совета. 12.06.1922. – GMƏYTA, f.612, siy.1, iş 27, v.40.

miyyəti qurulduqdan sonra öz torpaqlarına qayıtsalar da, onların torpaqları artıq erməni kəndlilərinə keçmişdi. Geri qayıdan qaçqınlara torpaq verilməsi xeyli çətin idi. Daha sonra yazılırdı ki, Zəngəzur qəza İcraiyyə Komitəsi yaranan mübahisələri aradan qaldırmış, yerli azərbaycanlılar üçün az olsa da, torpaq payı ayırmışdır. Məktubda azərbaycanlıların Zəngəzur qəzasına bundan sonra qayıtmalarının çətinliklər yarada biləcəyi qeyd edilir, gələcəkdə ciddi mürəkkəbliklərin yaranmaması üçün məsələni *"Azərbaycanın nəhəng sərbəst torpaq fondu hesabına həll edilməsi"* istənilir, Qubadlı qəzasında 10 min desyatin münbit torpaq olduğu yazılır, Zəngəzur və Qubadlı qəzalarının birgə torpaq fondunun yaradılması təklif edilirdi[303].

Erməni tərəfinin Azərbaycan ilə birgə torpaq fondu yaratmaq təklifi səbəbsiz deyildi. Bununla Ermənistan bolşevikləri əvvəlcə ümumi torpaq fondu yaratmaq, sonra isə fonda daxil olan torpaqları mübahisəli elan edib, tədricən ələ keçirtmək niyyəti güdürdülər.

Ümumi torpaq fondunun yaradılması təklifinə Azərbaycan tərəfinin münasibətini xalq torpaq komissarı sonralar, 1922-ci il noyabrın 8-də RK(b)P Zaqafqaziya Diyar Partiya Komitəsinə göndərdiyi məktubunda şərh edərək vurğulayırdı ki, Azərbaycanda qalan Qubadlı və Ermənistana keçən Zəngəzur qəzalarının ümumi torpaq fondunun yaradılmasına dair təklifə mahiyyətcə etiraz etmir, lakin Qubadlı qəzasının torpaqları əvvəlcə azərbaycanlı əhalinin sərəncamında olmuş, milli toqquşmalar nəticəsində isə onlar hazırda Azərbaycanın müxtəlif qəzalarına səpələnmişlər və yaşayırlar. Onun fikrincə, Qubadlı qəzasından hansısa torpaq payının verilməsindən əvvəl müsəlman qaçqınların sayını dəqiqləşdirmək lazım idi. Yalnız bundan sonra hansı torpaqların ümumi fonda daxil ediləcəyini müəyyənləşdirmək olardı. Zəngəzur qəzasının 405 min desyatin ərazisi Ermənistana keçmişdi. Burada geniş meşələr və əkin sahələri var idi. Həmin ərazinin otlaq sahəsi olan 140 min desyatini əsrlər boyu azərbaycanlılar tərəfindən istifadə edilmişdi[304]. Erməni bolşevikləri özlərinə məxsus tərzdə həyasızlıq edərək bütün bunları qəbul etmək istəmirdilər.

Ermənistanda azərbaycanlılara münasibət dəyişməmiş, onların evlərinə ermənilər yerləşdirilmişdi. Evsiz-eşiksiz qalan azərbaycanlılar isə Azərbaycana üz tuturdular. İş bununla da bitmirdi. Ermənistanın rəsmi orqanları azərbaycanlıları həm tarixi torpaqlarından qovur, həm də İrəvandakı Türkiyə diplomatlarına qarşı zorakılıq hərəkətləri edirdilər.

---

[303] Член постоянной Беженской Комиссии при Союза Советов в Президиуме ЗАКК Райкома. – GMƏYTA, f.612, siy.1, iş 7, v.83-84.

[304] Письмо наркомзема АССР в Заккрайком РКП. Доклад по вопросу об образовании общего для уездов Кубатлинского и Зангазерского земельного фонда с целью обеспечения беженцев и безземельных. 08.11.1922. – GMƏYTA, f.612, siy.1, iş 27, v.110-111.

### *Türk diplomatlarına qarşı zorakılıq*

Ermənistanın yürütdüyü siyasət səbəbindən bu zaman Cənubi Qafqazda bir sıra anlaşılmazlıqlar baş verirdi. Məsələn, Türkiyə konsulu İrəvandan Təbrizə gedərkən Ermənistan SSR Fövqəladə Komissiyasının əməkdaşları tərəfindən həbs edilmiş və döyülmüşdü. Həmçinin, Türkiyənin Moskvadakı hərbi attaşesi də təqib olunmuş və əzişdirilmişdi.

Bu xoşagəlməz məsələlər Türkiyə və Ukrayna arasında imzalanmış müqavilənin təsdiqinə dair qramotaların mübadiləsi üçün Xarkova gələrək, 1922-ci il iyunun 22-də M.Frunze ilə görüşən Türkiyənin Ukraynadakı səfiri Rizan Robey tərəfindən qaldırıldı. O, Mustafa Kamal Paşanın şəxsi məktubunu M.Frunzeyə təqdim etdi. Mustafa Kamal Paşa Rizan Robeyə Moskva ilə qarşılıqlı münasibətləri tənzimləmək tapşırığı vermişdi. Söhbət zamanı səfir bildirdi ki, ümumiyyətlə, Cənubi Qafqaz respublikalarındakı türk nümayəndələrinə kəskin münasibət Türkiyəni narahat edir. O, son dövrlərdə ümumi vəziyyəti aydınlaşdırmalı və anlaşılmazlıqları aradan qaldırmalı, hərbi attaşe ilə baş verən insidenti Dövlət Siyasi İdarəsi orqanlarının səhvlərini etiraf etməsi və ya sovetlərə daha münasib bir formada tənzimləməli, Türkiyəyə əlavə hərbi yardım edilməsinə nail olmalı idi. Açıq danışan Türkiyə səfiri V.İ.Lenin, İ.Stalin və ya L.Trotski ilə şəxsən görüşmək istəyirdi. V.İ.Leninin məzuniyyətdə olduğunu bildirən M.Frunze İ.Stalin ilə görüşü mümkün hesab etdi.

Səfir ilə görüşdən sonra, iyunun 23-də M.Frunze Xarkovdan İ.Stalinə göndərdiyi tamamilə məxfi teleqramında yazırdı ki, türklər sizinlə görüşmək istəyirlər, çünki sizə böyük etimad bəsləyirlər. O, qeyd edirdi ki, L.Karaxana gəldikdə, türklər onu erməni kimi Türkiyə ilə ittifaqın düşməni hesab edirlər. Təbrizə gedən türk konsulunun ermənilər tərəfindən döyülməsi barədə məlumat verərək şikayət edən M.Frunze Dövlət Siyasi İdarəsi orqanlarının fəaliyyətini türklərin ağrılı hesab etdiklərini yazır, görünür, buna əsas olduğunu və ona diqqət etməyi vacib hesab edirdi[305].

Dövlət Siyasi İdarəsinin belə hərəkətləri və erməni xadimlərinin türk düşmənçiliyi ağır döyüşlər aparan Türkiyədə sovet dövlətinə qarşı şübhələr yaradırdı. Lakin iş təkcə şübhələrlə bitmirdi. Erməni dəstələri qanlı hərəkətlərini Anadoluda da davam etdirirdilər.

### *İzmirin yandırılması.*
### *Türk ordusunun İstanbulu azad etməsi narahatlıq yaradır*

Türk ordusu bu zaman İzmiri azad etdi. Ermənilər tərk edərkən şəhəri yandırdılar. Ankaradakı sovet səfiri S.Aralov sonralar, 1922-ci il

---

[305] Шифротелеграмма №138 М.Ф.Фрунзе И.В.Сталину. Секретно. 23.06.1922. – РГАСПИ, ф.5, оп.2, д.311, л.1.

oktyabrın 19-da G.Çiçerinə göndərdiyi teleqramında bununla bağlı olaraq yazırdı ki, sovet müxbirlərinin məlumatına görə İzmirdə yanğınları ermənilər törətmişlər[306].

Bir-birinin ardınca zəfərlər qazanan türk ordusunun İstanbulu işğalçılardan azad etməyə hazırlaşması Ermənistan rəhbərliyini narahat edirdi. Ermənistan K(b)P MK katibi İoanisyan İ.Stalinə və surətini V.İ.Leninə göndərdiyi 1922-ci il 10 oktyabr tarixli şifrəli teleqramında yazırdı:

"*Yaxın zamanlarda Kamalın İstanbulu tutması mümkün olduğu üçün Türkiyənin paytaxtında gərgin millətlərarası münasibətlər yaranmışdır. Bütün məlumatlara görə ermənilərin kütləvi qırğını və talanları qaçılmazdır. Millətçi partiyaların nümayəndələri və əhalinin imkanlı təbəqəsi şəhəri tərk etmişlər və tərk etməkdə davam edirlər, Antanta ölkələrində sığınacaq tapırlar. Orta elementlər və zəhmətkeşlər kütləsi isə burjuaziyanın təqsiri ucbatından millətçi ehtirasların qurbanı olmaq qorxusundan sovet ölkələrinə üz tuturlar. Xaricdəki ermənilərin arasında antisovet partiyaların və qruplaşmaların təsirini ləğv etmək və Ermənistanın geniş kütlələrinin gözündə partiyanın nüfuzunu artırmaq, qırğın və talanların qarşısını almaq üçün Ankara hökumətinə dost təsiri etmək və lazım gəldiyi təqdirdə sovet federasiyasının hüdudlarında erməni qaçqınlarını qəbul etmək və onlara sığınacaq vermək zəruridir*" [307].

Bu məsələ ilə bacarıqla alver edən İoanisyan gələn erməniləri *"sovet federasiyası hüdudlarında qəbul etməyi və onlara sığınacaq verməyi"* və *"onların üzərində antisovet qrup və partiyaların təsirini azaltmağı"* təklif etməklə əslində, onların təkcə Ermənistan deyil, həmçinin Azərbaycan və Gürcüstan ərazilərində də yerləşdirilməsinə çalışırdı. Bu isə yalnız humanist mahiyyət daşımır, hiyləgər bir manevr olub, yeni ərazilər qopartmaq məqsədi güdürdü.

Ermənistan tərəfinin narahatlıqları davam edərkən türk ordusu İstanbulu düşməndən azad etdi. Türk hakimiyyəti erməni bandalarının əvvəlki illərdə mülki türk əhaliyə qarşı törətdikləri qanlı əməlləri bağışlayaraq şəhərdəki ermənilərə toxunmadı, onların can və mal güvənliyi qorundu.

Oktyabrın 11-də Türkiyə və Antanta ölkələri arasında Mudanyada barışıq imzalandı. Bundan sonra Antanta ölkələri ilə sülh müqaviləsini imzalamaq və Türkiyənin yeni sərhədlərini qəbul etdirmək üçün Lozan konfransına hazırlıqlara başlandı.

Sovet hakimiyyəti də öz növbəsində ermənilərə münasibətdə bəzi addımlar atdı. İoanisyanın yuxarıda göstərilən müraciətindən sonra sovet

---

[306] Телеграмма Аралова Чичерину. 19.10.1922. – РГАСПИ, ф.159, оп.2, д.58, л.52.

[307] Шифротелеграмма секретаря ЦК КП Армении Иоанисяна Сталину, копия Ленину. 10.10.1922. – РГАСПИ, ф.5, оп.2, д.92, л.43.

rəhbərliyi ermənilərin vəziyyətinə dair məsələni gündəliyə gətirdi. Zaqafqaziya Diyar K(b)P MK-nın 1922-ci il oktyabrın 20-də keçirilən iclasında (protokol №6) İstanbuldan olan qaçqın ermənilər haqqında məsələ müzakirə edildi və iki bənddən ibarət qərar qəbul olundu. Qərarın birinci bəndində vurğulanırdı:

"*İttifaq Soveti adından Mustafa Kamala dostcasına müraciət edilsin ki, Türkiyədəki zəhmətkeş erməni əhalisinə qarşı türk ordusu tərəfindən heç bir hərəkət edilməsin*".

İkinci bənddə yazılırdı:

"*Türkiyədən Cənubi Qafqaza gələn erməni qaçqınları müvafiq orqanlar tərəfindən filtrasiyadan keçirilsin. Öz nümayəndəsini göndərmək Ermənistana təklif edilsin. Gələn qaçqınlar Ermənistana doğru yönəldilsin*"[308].

Gələn ermənilər Ermənistanda tarixi yurd-yuvalarından didərgin salınmış azərbaycanlıların evlərinə yerləşdirilirdilər. Məqsəd Ermənistanı erməniləşdirmək və yeni ərazilər tutmaq üçün süni zəmin hazırlamaq idi.

## *Qarabağa dair məsələlər müzakirə edilir*

Bu zaman, Azərbaycan K(b)P MK Rəyasət Heyətinin 1922-ci il oktyabrın 24-də keçirilən iclasında (protokol №48) gündəliyin səkkizinci məsələsi kimi "Qarabağın qəzalarında vəziyyətə dair yoldaş Bağırovun məruzəsi" müzakirə edildi. Qəbul edilən qərarda katibliyə tapşırıldı ki, Bağırov ilə birlikdə bütün materiallara və sənədli məlumatlara baxıb Rəyasət Heyətinin təsdiqinə versin[309].

Təkcə Cənubi Qafqazda yeni əraziləri qopartmaq niyyətlərini reallaşdırmaq üçün çalışmaqla məhdudlaşmayan erməni xadimləri Antanta ölkələri və Türkiyə arasında Lozanda keçiriləcək konfransa da böyük ümidlər bəsləyirdilər. Bu məqsədlə antitürk fəaliyyətlərini artırmışdılar.

## *Lozan konfransı ərəfəsində şərait*

Lozan konfransı ərəfəsində güclü antitürk kampaniyası aparılırdı. Bunun da bir sıra səbəbləri var idi. Türk mətbuatının yazdığına görə antitürk təbliğatının əsas səbəbi amerikalıların xristianları himayə etməsi idi. Bu zaman Amerika missionerləri bütün dünyada türklər əleyhinə təbliğat

---

[308] Выписка из протокола №6 заседания пленума ЗК ЦК РКП(б). 20.10.1922. – GMƏYTA, f.612, siy.1, iş 27, v.97.

[309] Протокол №48 заседания Президиума Центрального Комитета Азербайджанской Коммунистической Партии (б-ов). 24.10.1923. – ARSSA, f. 1, siy.3, iş 11, v.34-34a.

üçün milyardlarla vəsait xərcləyirdilər. Onlar müsəlmanların xristian zülmündən xilas olmasını heç cür qəbul edə bilmirdilər. Ermənilər də türklər əleyhinə çoxlu vəsait xərcləyirdilər. Missionerlər böyük şəhərlərdə əhali arasında müharibə təbliğatı aparırdılar[310].

İstanbuldan vurulub çıxarıldıqdan sonra Antanta ölkələri şəhərdə qalan xristianların vəziyyətindən narahat idilər. Məsələn, ABŞ dövlət katibi Çarlz Evans Hyuz İstanbuldakı ali komissar M.L.Bristola 1922-ci il oktyabrın 24-də yazırdı ki, siz hesab edirsiniz, türklər şəhərə yenidən girdikdən sonra İstanbulun xristian əhalisi salamat qalacaqdır? Ali komissar isə vəziyyəti sabitləşdirmək üçün zəmanətlər almağı vacib hesab edirdi[311]. Bununla, Antanta ölkələri öz maraqları naminə milli azlıqlar məsələsini istismar edirdilər.

Bu zaman Ermənistan rəhbərliyi Azərbaycana qarşı əsassız ərazi iddialarından əl çəkmir, yeni torpaqlar qoparmağa çalışırdı. Ermənilərin xarici ölkələrdən gətirildiyi bir şəraitdə sovet rəhbərliyi Cənubi Qafqaz respublikalarının ərazisi barədə dəqiq məlumatların verilməsini tələb etdi.

## *Azərbaycan və Ermənistan arasında ərazi məsələləri*

Həmin tələblər yerinə yetirildi. Azərbaycan SSR Xalq Torpaq Komissarlığı 1922-ci il oktyabrın 25-də Xarici İşlər üzrə Katibliyə Azərbaycanın ərazisi haqqında bir arayış təqdim etdi[312]. Sənəddə yazılırdı: "Azərbaycan SSR-in bütün ərazisi 7.989.105 desyatindir. Onun:

| | |
|---|---|
| 1.798.482 des. | – kənd təsərrüfatında istifadə üçün yararlı deyildir. Yaşayış məntəqələridir; |
| 55.278 des. | – evlərə bitişik təsərrüfat sahələridir. |
| 72.862 des. | – bağlardır. |
| 1.598.846 des. | – əkin yerləridir. |
| 170.573 des. | – biçənək yerləridir. |
| 1.818.916 des. | – örüşlərdir. |
| 166.860 des. | – digər kənd təsərrüfatı sahələridir (tarla, süni bağlar və s.). |

[310] Бюро печати и информаци и приполномочном представительстве РСФСР в Турции. Обзор политической жизни Анатолии за ноябрь 1922 г. – GMƏYTA, f.612, siy.1, iş 86, v. 8-9.
[311] Papers Relating to the Foreign Relations of the United States. 1922.Vol.II. Washington, 1938, p. 943.
[312] АССР. Наркомземледелия – в секретариат по иностранным делам АССР. 25.10.1922. №5850. – ARDA, f.28 s., siy.1, iş 155, v.19-20.

| | |
|---|---|
| 912.000 des. | – qışlaqlardır. |
| 507.000 des. | – yaylaqlardır. |
| 7.903 des. | – gil və daşlıqdır, istifadəsiz sahələrdir. |
| 896.415 des. | – meşələrdir. |

Azərbaycan, Ermənistan və Gürcüstan arasında razılığa əsasən Azərbaycan ərazilərindən: a) keçmiş Qazax qəzasından Ermənistana 379.984 desyatin; b) keçmiş Zəngəzur qəzasından Ermənistana 405.000 desyatin; c) keçmiş Tiflis qəzasından Azərbaycana 79.600 desyatin ərazi verilmişdir.

Beləliklə, 1922-ci ildə Azərbaycan SSR-in ərazisi belə olmuşdur:

7.989.105 des. – 379.984 des. – 405.000 des. + 79.600 des. = 7.283.721 des."

Azərbaycan SSR-in Ermənistan ilə mübahisəsiz ərazisi Qazax və Borçalı qəzalarının köhnə inzibati sərhədləri ilə keçir, sonra Qazax qəzasından Aleksandropol və Yeni Bəyazid qəzaları ilə Maralca dağlarına qədər gedirdi. Oradan Göyçə gölünə birbaşa enir, Çubuqlu kəndindən şərqə doğru təqribən 1,½ verst keçir, sonra Göyçə gölünü tən yarıdan bölür, onun cənub sahili ilə qərb istiqamətində gedirdi. Göyçə gölünün cənub sahilində sərhəd Zağalı və Gödəkbulaq kəndləri arasından başlayır, sonra Yarnızlı, Qızıl Vəng və Yuxarı Alçalı kəndlərinin yanından Göyçə gölünün cənub sahilinin dağ rayonu ilə Qızıl Xarabaya, 10859 yüksəkliyinə və Ağmahan (beş verstlik, vərəq E9/, qərbdə Kiçik Ağdağ dağına doğru, İrəvan və Yeni Bəyazid qəzalarının sərhədinə qədər gedir, azərbaycanlıların yaşadıqları dağlıq rayonları erməni kəndlərinin tutduğu sahillərdən ayırırdı. Sonra sərhəd Kiçik Ağdağ dağından əvvəlcə şimal-qərb istiqamətinə doğru Toğmahan gölü istiqamətində, sonra isə qərb istiqamətində Təzəkənd kəndinə, daha sonra Gərni çayı ilə Yuxarı Ağbaş kəndinə doğru gedir, onun qarşısından şimala doğru 3620 yüksəkliyə (beş verstlik, E9) qalxır, oradan cənub-qərbə Uluxanlıya doğru, daha sonra Araz çayına qədər, oradan da Rəncbər kəndindən şimala gedirdi. Rəncbər kəndindən Araz çayında sərhəd birbaşa qərbə doğru gedir, Sürməli və Eçmiadzin qəzalarının və Kars vilayətinin keçmiş inzibati sərhədlərində keçmiş rus – türk sərhədində Təndürək dağlarına qədər uzanırdı[313].

Azərbaycan ərazilərinə dair arayışın hazırlanmasına dair verilən tələblər sovet rəhbərliyinin gizli niyyətlərinin olduğundan xəbər verirdi. Həmin niyyətlərin üzə çıxması özünü çox da gözlətmədi.

---

[313] Пом. завполитзотдела Наркоминдела АССР. Описание границы бесспорной территории Азербайджанской ССР с Арменией (1920 г.).**25.11.1922**. – ARDA, f.28 s., siy.1, iş 53, v.11.

# VII FƏSİL

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNİN YARADILMASI VƏ LOZAN KONFRANSINDA "ERMƏNİ MƏSƏLƏSİ"NİN DƏFN EDİLMƏSİ

## *Dağlıq Qarabağ məsələsi yenidən müzakirə edilir*

Sovet rəhbərliyinin göstərişinə uyğun olaraq Dağlıq Qarabağ məsələsi bu zaman yenidən gündəliyə gətirildi. S.Kirov və Q.Orconikidzenin təşəbbüsü ilə Zaqafqaziya Diyar Komitəsi Rəyasət Heyətinin 1922-ci il oktyabrın 27-də keçirilən iclasında Azərbaycan K(b)P MK-ya Qafqaz Bürosunun 1921-ci il 5 iyul qərarının reallaşdırılması tapşırıldı. Bundan sonra Azərbaycan K(b)P MK Rəyasət Heyətinin 1922-ci il 30 oktyabr tarixli iclasında Qarabağ muxtariyyətinə dair məsələləri işləyib-hazırlamaq üçün S.Ağamalıoğlunun sədrliyi altında Karakozov və Svidirovdan ibarət komissiya yaradıldı[314]. Azərbaycan K(b)P MK-nın və Azərbaycan K(b)P Bakı Komitəsinin noyabr ayında keçirilən birgə plenumunda məsələnin həlli üçün komissiya təşkil etmək Rəyasət Heyətinə tapşırıldı[315].

## *Erməni dairələri fəallaşırlar*

Belə bir şəraitdə erməni bolşevik xadimləri də fəaliyyətlərini artırmışdılar. Onlar bir tərəfdən, Türkiyədəki ermənilərin hüquqlarının qorunması məsələsini saxtakarlıqla istismar edir, digər tərəfdən isə xaricdən ermənilərin gətirilməsi üçün ciddi səylər edirdilər. A.F.Myasnikov 1922-ci il noyabrın 15-də İ.Stalin, V.İ.Lenin və G.Çiçerinə göndərdiyi teleqramında yazırdı ki, tarixən formalaşmış şərait səbəbindən türklərlə ermənilər arasında münasibətlər xeyli düşməncəsinədir, İstanbulun 150 minlik erməni əhalisi və Frakiyanın 5 min nəfərədək erməni koloniyası bu ərazilərin Türkiyənin əlinə keçəcəyi təqdirdə mövcud olub-olmayacaqlarından narahatdırlar. İstanbul ermənilərinin hazırda xeyli hiddətləndiklərini, bir çoxunun şəhəri tərk etdiyini hiyləgərcəsinə yazan A.F.Myasnikovun fikrincə, erməni rəsmi nümayəndələrinin Zaqafqaziya İttifaq Sovetinə göndərdikləri bəyanatına görə onlar son vaxtlaradək Antanta ölkələrinin

---

[314] Выписка из протокола №49 заседания Президиума Центрального Комитета Азербайджанской Коммунистической Партии. 30.10.1922. – ARSSA, f.1, siy.31, iş 186a, v.26; f.1, siy.74, iş 129, v.40.

[315] Выписка заседания Пленума ЦК АКП, БК АКП с присутствием ответственных работников. Ноябрь, 1922. – ARSSA, f.1, siy.31, iş 186a, v.26.

əlində alət olmuşdular və yalnız son zamanlarda öz talelərini sovet Rusiyası ilə bağlayan Türkiyə ermənilərinin hüquqlarının qorunması danışıqlar mövzusu olmalı idi. Onun yazdığına görə *"Zaqafqaziya Diyar Komitəsi belə hesab edirdi ki, həm zəhmətkeş erməni kütlələrinin, həm də xaricdəki erməni koloniyalarının sovet hakimiyyətinə rəğbət bəsləməsi üçün Türkiyə, Avropa və Amerikanın əməkçi erməni xalqının və digər təbəqələrinin istəyini yerinə yetirmək lazımdır".* A.Myasnikov Amerika, Bolqarıstan və İstanbuldakı yoldaşların və həmçinin Türkiyə ermənilərinin bəyanatlarına əsaslanaraq, Zaqafqaziya Diyar Komitəsi adından aşağıdakı tədbirlərin həyata keçirilməsini aşağıdakı kimi xahiş edirdi:

*"1. RSFSR kamalçı Türkiyədən gələcəkdə İstanbul və Frakiyanın əməkçi erməni əhalisinin həyatı və ləyaqətini qorumağı dostcasına xahiş etsin. 2. Antanta ölkələri ermənilərdən Türkiyəyə və sovet Rusiyasına qarşı özlərinin imperialist mübarizəsində istifadə etdikləri üçün, əgər imkan olarsa, Lozan konfransındakı sovet nümayəndə heyəti Türkiyə, Avropa və Amerikanın zəhmətkeş ermənilərini müdafiə etsin. 3. Sülhə can atdıqlarından İstanbuldan və digər yerlərdən 5 min nəfərədək erməni sənətkara öz əmlakları ilə Rusiyanın və Cənubi Qafqazın müxtəlif şəhərlərinə yerləşmək üçün sovet respublikalarında sığınacaq verilsin"* [316].

Bu xahişlər öz nəticəsini verdi. Azərbaycan ərazilərindən ermənilərə torpaq verilməsi üçün müxtəlif vasitələrdən istifadə edilməsinə başlanıldı. G.Çiçerin də milli azlıqlar üçün özünüidarəni yaratmağı mümkün hesab edirdi.

## *G.Çiçerin: "Milli azlıqlar üçün hər hansı formada özünüidarəni yaratmaq yaxşı olardı"*

Bu zaman işini davam etdirən Lozan konfransında müzakirə edilən məsələlərdən biri milli azlıqlar haqqında idi. 1922-ci il noyabrın 29-da Lozandan İ.Stalinə yazdığı məktubunda ən çətin məsələnin milli azlıqlar haqqında olduğunu qeyd edən G.Çiçerinin fikrincə,Versal sülh müqaviləsinin qərarlarına və müxtəlif ölkələrlə imzalanan müvafiq müqavilələrə görə Millətlər Cəmiyyəti hökumətlərin milli azlıqlara münasibətinə nəzarət etməli, təkcə dil, məktəb və din deyil, həmçinin "həyat və azadlıq" təmin edilməli idi. O, Millətlər Cəmiyyətinin hər yerdə, həmçinin Latviyada milli məsələlərə qarışmasına imkan verəcəyini güman edirdi. G.Çiçerinin baxışına görə həmin prinsipi Türkiyəyə tətbiq etmək qətiyyən qəbuledilməz idi, çünki bu, Antanta ölkələrinə Türkiyənin daxili işlərinə qarışmağa

---

[316] Шифротелеграмма секретаря Заккрайкома РКП Мясникова Сталину, Ленину, Чичерину. 15.11.1922. – РГАСПИ, ф.5, оп.2, д.108, л.3.

imkan verəcəkdi, necə ki, I Nikolay Şərqi xristianlar vasitəsi ilə qarışdırmışdı. Milli azlıqlara belə bir hüququn verilməsini, bu prinsipin təmin olunmasının Türkiyəyə verilməsini onun suveren hüququ hesab edən G.Çiçerinin fikrincə, bu, faktiki olaraq Türkiyəyə hər hansı bir qırğına kartblanş vermək idi, ermənilərin əzişdirilməsi dövründə Lobanov-Rostovskinin və II Vilhelmin də siyasəti belə olmuşdu. Milli azlıqlar üçün hər hansı bir formada özünüidarənin yaradılmasını yaxşı olsa da, xeyli çətin hesab edən G.Çiçerin yazırdı ki, əvvəllər Türkiyədə hər bir dini inanca millət kimi baxılırdı, onlara dini əsasda özünüidarə verilirdi, nəticədə Osmanlıda vahid millət yox idi, bu formanı kamalçılar görünür, qətiyyətlə rədd edəcəklər. Xalq xarici işlər komissarı Çexiya ərazisini nəzərdə tutaraq qeyd edirdi ki, digər bir sistem keçmiş alman dil ərazisi olan Bohemiya kimidir. Bu isə Türkiyə üçün xeyli təhlükəli olar, Egey dənizinin sahilləri yunan vilayətlərinə çevrilər, Kilikiyada fransız işğalı zamanı sağ qalan ermənilər üçün erməni muxtar ərazisi yaradılar, digərləri də meydana çıxa bilər. Bu, Türkiyənin milli mövcudluğu üçün ciddi təhlükə olardı. Antantanın ermənilərlə sıx ittifaqının belə sistemin həyata keçirilməsinə ziyan verəcəyi qənaətində olan G.Çiçerin yazırdı ki, vəziyyətin çıxılmaz olduğunu görərək milli azlıqlar məsələsinin yalnız Türkiyəyə aid olmadığına dair məsələni qoymaq olar. Soruşmaq olar ki, nə üçün məhz təkcə Türkiyəyə qarşı bu prinsip tətbiq edilir? Sovet dövlətinin məqsədlərini gerçəkləşdirmək naminə milli azlıqlar məsələsini bütün dünya üçün qoymaq istəyən G.Çiçerin bu məsələyə dair ayrıca konfrans çağırılmasını təklif edirdi. Orada Şərqi Qalitsiya, Rumıniyada macarlar və bütövlükdə zülm altında inləyən xalqlar haqqında danışıla bilərdi.

Ərazi məsələlərinə də toxunan G.Çiçerin yazırdı:

*"Bu məsələlər ümumən milli əlamətlərə görə həll edilmişdir. Biz Moskva müqaviləsini qəbul etmişik və demək olar ki, bütün dövlətlər Türkiyənin sərhədlərini tanımışlar"* [317].

G.Çiçerin Millətlər Cəmiyyətinin milli azlıqlardan istifadə edərək sovet Rusiyasının daxili işlərinə qarışacağından, ermənilərin düşdüyü vəziyyətdən sovet dövlətinə qarşı istifadə edəcəyindən və ictimai rəyi ona qarşı yönəldəcəyindən narahat idi.

### *Ermənilərin yerləşdirilməsi sürətləndirilir*

Zaqafqaziya Diyar Komitəsi Rəyasət Heyətinin 1922-ci il 2 dekabr tarixli iclasında (protokol №46) İttifaq Sovetinin Qaçqınların məsələsi üzrə daimi komissiyasına Qubadlı və Zəngəzur qəzalarında qaçqınlara

[317] Письмо Чичерина Сталину. 29.10.1922. – РГАСПИ, ф.159, оп.2, д.19, л.17-18.

torpaq ayrılması üçün fondun öyrənilməsi məqsədi ilə məlumat toplamaq tapşırıldı[318]. Zəngəzur qəza Partiya Komitəsinin katibi Təvəkkülyan və qəza İcraiyyə Komitəsinin sədri Arutunov Ermənistan K(b)P MK-ya göndərdikləri teleqramda azərbaycanlı qaçqınlara "torpaq verilməsi məsələsinin həllinə dair" özünəməxsus təkliflərini yazdılar. Artıq qeyd edildiyi kimi, əvvəllər Qubadlı və Zəngəzur qəzalarında ümumi torpaq fondu yaratmağı təklif edən bu şəxslər yazırdılar ki, azərbaycanlı bəylər torpaqlarını verməmək üçün guya azərbaycanlı qaçqınları Zəngəzur dağlarının torpaqsız ərazilərinə qovurlar və azərbaycanlı qaçqınların keçmiş torpaqları artıq 5-6 ildir torpaqsız erməni kəndlilərinə verilmişdir[319]. Onların fikrincə, azərbaycanlıların geri dönmələri milli münasibətləri kəskinləşdirərdi.

ZSFSR İttifaq Şurası yanında Qaçqınların məsələsi üzrə daimi komissiyanın 1922-ci ilin dekabr ayında İttifaq Şurasına göndərdiyi izahat qeydində yazılırdı ki, Cənubi Qafqaza ilk dəfə qaçqınlar Türkiyə cəbhəsində 1915-ci ilin iyul ayında olan döyüşlərdən sonra, həmin ilin avqust ayında gəlmiş, Cənubi Qafqazda, sonra isə Rusiyanın dərinliklərində yerləşdirilən 250 min nəfərə qədər olan bu ermənilər özləri ilə çoxlu problemlər gətirmişlər. Çar hökuməti Qafqaz canişininin dəftərxanasının büdcəsindən qaçqınların yerləşdirilməsi üçün 1916-cı ildə 2 milyon 200 min qızıl pul ayırmışdı. Məruzədə qaçqınların bir yerdən digər bir yerə köçürülməsinin vəziyyəti ağırlaşdırdığı qeyd edilir, onların birdəfəlik daimi olaraq bir yerdə yerləşdirilməsi, torpaq və təchizat verilməsi, Cənubi Qafqazda qaçqınlar məsələsinin mərkəzləşdirilmiş halda həlli təklif olunurdu. Bu zaman Cənubi Qafqazda 320 min qaçqın toplanmışdı. Onlardan 15 mini Gürcüstanda, 15 mini Azərbaycanda, 150 mini Şimali Qafqazda, 110 mini Ermənistanda, qalanları isə digər yerlərdə idi[320].

Erməni dairələri bir tərəfdən, azərbaycanlı qaçqınları Ermənistandakı tarixi torpaqlarındakı ev-eşiklərinə yaxın buraxmır, digər tərəfdən isə Azərbaycan ərazilərinə əsassız iddialarını davam etdirirdilər.

### *Dağlıq Qarabağ haqqında məsələ müzakirə edilir*

Belə bir şəraitdə Qarabağın muxtariyyətinə dair komissiyanın üzvləri A.Karakozov, Şadunç, Manusyan və A.Mirzəbekyan 1922-ci ilin de-

---

[318] Выписка из протокола №46 заседания президиума Заккрайкома. 02.12.1922. – GMƏYTA, f.612, siy.1, iş 27, v.98.

[319] Телеграмма секретаря Зангукома Тавакаляна, предисполкома Арутюнова ЦК КП Армении. – GMƏYTA, f.612, siy.1, iş 27, v.109.

[320] Письмо председателя беженской комиссии при Союзном Совете ССР З.Ракатадзе, члены комиссии М.Карабека, Наджафова и секретаря Исаакяна в Союзный Совет ССРЗ. – GMƏYTA, f.612, siy.1, iş 27, v.1-3.

kabr ayında Azərbaycan K(b)P MK Rəyasət Heyətinin iclasında həm dağ, həm də aran Qarabağa vahid inzibati muxtariyyət verilməsi məsələsini qaldırdılar[321]. Göründüyü kimi, bu dəfə Qarabağın təkcə dağlıq deyil, həm dağlıq, həm də aran hissələrinə vahid inzibati muxtariyyət verilməsi məsələsi qoyulmuşdu. Bu isə erməni iddalarının genişləndiyini göstərirdi.

Ə.Qarayevin sədrliyi altında İ.Dövlətov, L.Mirzoyan və digər şəxslərdən ibarət komissiya bu məsələni araşdıraraq Zaqafqaziya Diyar Komitəsinin müzakirəsinə təqdim etdi. Muxtariyyətin yaradılması haqqında məsələ 1922-ci il dekabrın 14-də RK(b)P-nin Zaqafqaziya Diyar Komitəsinin iclasında müzakirə olundu və belə bir qərar qəbul edildi:

*"...1. ASSR Xalq Komissarları Sovetinin nəzdində RK(b)P MK-ya bilavasitə müraciət etmək hüququ olan Şuşada yerləşən Dağlıq Qarabağ işləri üzrə xüsusi komitə yaradılsın. 2. Şuşada 7 nəfərdən – Şuşa, Cavanşir və Qaryagin qəza icraiyyə komitələrinin sədrləri və üzvlərindən, göstərilən hər bir qəzadan bir nəfər nümayəndədən ibarət komitə yaradılsın. 3. İkinci maddədə göstərilən komitənin sədri Karakozov təyin edilsin. O, göstərilən qəzalardan 3 nəfər nümayəndəni müəyyənləşdirsin. 4. Birinci bənddə göstərilən komitəni yaratmaq üçün Kirov, A.Mirzəbekyan və Karakozovdan ibarət komitə yaradılsın. 5. Azərbaycan XKS-ə təklif edilsin ki, Qarabağın erməni əhalisinin ehtiyacı olan qədər vəsait buraxsın. 6. AKP MK-ya təklif edilsin ki, Dağlıq Qarabağı işçilərlə gücləndirsin. 7. Bütün bu qərarlar bir həftə müddətində həyata keçirilsin"* [322].

Qərar bir daha göstərirdi ki, Azərbaycana dair məsələlərin həlli azərbaycanlılara deyil, qeyri-yerli xalqın nümayəndələrinə həvalə edilirdi. Bu isə Mərkəzin Azərbaycana olan münasibətini özündə əks etdirirdi.

Azərbaycan K(b)P MK Rəyasət Heyətinin 1922-ci il 15 dekabr tarixli iclasında (protokol №56) Zaqafqaziya Diyar Komitəsinin "Qarabağ haqqında" müvafiq qətnaməsi birinci məsələ kimi müzakirə edildi. İclasda Kirov, Xanbudaqov, Çaqin, Pleşakov, Quliyev, R. Axundov, Qarayev, Bağırov və Qasımov iştirak edirdilər. İclasın sədri Kirov, katibi isə İnozemtsov idi.

Qəbul edilən qərara görə Zaqafqaziya Diyar Komitəsinin qətnaməsi yerinə yetirilmək üçün qəbul edildi; Azərbaycan SSR XKS yanında Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya Kirov, Mirzəbekyan və Karakozovdan ibarət təşkil edildi; Dağlıq Qarabağ Komitəsinin tərkibi 7 nəfərdən ibarət təsdiq olundu: Şuşa, Cəbrayıl, Cavanşir qəzaları icraiyyə komitələrinin sədrləri və Komitənin nəzərdə tutulan üç nəfər üzvü katibliklə birlikdə Rəyasət Heyətində təsdiq edilməli və müvafiq sovet

---

[321] Справка. – ARSSA, f.1, siy.31, iş 186 a, v.40.

[322] Выписка из протокола №9 заседания пленума Заккрайкома РКП. 14.12.1922. Г.Баку. – ARSSA, f. 1, siy. 85, iş 215, v. 141.

orqanlarından keçirilməli idi; Azərbaycan MİK və XKS-yə təklif edildi ki, Dağlıq Qarabağ işləri üzrə Komissiyanın və Komitənin təşkil edilməsi haqqında 7 gün müddətində dekreti dərc etsin; XKS-yə təcili olaraq Komitənin ehtiyacı olan məbləği buraxmaq təklif edildi; üç qəzanın ehtiyacı olan vəsait Komitə vasitəsi ilə verilməli idi; Dağlıq Qarabağ işləri üzrə Komitəyə Azərbaycanın mərkəzi orqanları və Mərkəzi Komitə ilə birbaşa əlaqə qurmaq hüququ verilirdi; Komitə adı çəkilən üç qəzada bütün torpaq mübahisələrini tənzimləyirdi; Komitə bütün texniki işləri yerli icraiyyə komitələrindən keçirirdi; Komitəyə Xankəndində məktəb və xəstəxana açmaq tapşırılırdı; Karakozov Azərbaycan K(b)P MK tərkibinə daxil edilirdi və bu qərar MK plenumunun təsdiqinə verilməli idi[323].

Göründüyü kimi, Azərbaycana dair ən mühüm məsələnin həlli üçün yaradılan Mərkəzi Komissiyada bir nəfər də olsun azərbaycanlı yox idi. Kirov, Mirzəbekyan və Karakozovun isə bu məsələdə tutduqları mövqe məlum idi.

Azərbaycan K(b)P MK Rəyasət Heyətinin 17 dekabr tarixli qərarı ilə A.Karakozov başda olmaqla Dağlıq Qarabağ işləri üzrə komitə təsdiq edildi[324]. Onun tərkibinə Şuşa qəza İcraiyyə Komitəsinin sədri Ağazadə, Cəbrayıl qəza İcraiyyə Komitəsinin sədri Məmmədxanov, Trakozin və Şadunç daxil edildilər. Dağlıq Qarabağ komitəsində işləmək üçün Papezyanı Ermənistan XKS-nin katibi, Fanokolyansı isə Zəngəzur qəza komitəsinin katibi vəzifəsindən azad etmək RK(b)P Zaqafqaziya Diyar Komitəsindən xahiş edildi. Azərbaycan SSR Fövqəladə Komissiyasının sədri M.Bağırova yuxarıda adları sadalanan tərkibi təcili olaraq XKS-dən keçirtmək tapşırıldı. A.Karakozova komitənin fəaliyyəti üçün zəruri olan vəsaitin smetasını təcili olaraq tutub, XKS-nin həmin gün axşam keçiriləcək iclasına təqdim etmək həvalə edildi.

Bu qərar qəbul edilən gün Azərbaycan SSR MİK və XKS-nin birgə iclasında Dağlıq Qarabağ haqqında dörd bənddən ibarət qərar qəbul olundu. Qərarı Azərbaycan MİK sədrinin müavini M.Qasımov, XKS sədri M.Quliyev və MİK katibi Mahmud Xanbudaqov imzalamışdılar. Qərara əsasən Dağlıq Qarabağ əhalisinin sovet, təsərrüfat və mədəni quruculuq sahələrində ehtiyaclarını üzə çıxartmaq, sürətli və tam ödəmək məqsədi ilə Azərbaycan SSR XKS yanında Kirov, Karakozov və Mirzbekyandan ibarət Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya təsis edilirdi; eyni zamanda

---

[323] Протокол №56 заседания Президиума ЦК АКП(б). 15.12.1922. – ARSSA, f.1, siy.31, iş 186a, v.55-56; ARDA, f.379, siy.3, iş 58, v.175-175a.

[324] Протокол №57 заседания Президиума ЦК АКП(б). 17.12.1922. – ARSSA, f. 1, siy. 74, iş 129, v. 180; ARSSA, f.1, siy. 31, iş 186a, v.28; ARSSA, f. 1, siy. 169, iş 249/I, v. 28.

Şuşa şəhərində Qarabağ işləri üzrə Karakozov sədr olmaqla, 7 nəfər – Şadunç, Təvəkkülyan, Papzyan (Papezyan, Papazyan – M.Q.) və Şuşa, Cəbrayıl və Qaryagin qəzaları icraiyyə komitələrinin sədrləri üzv daxil olmaqla komitə təşkil edilirdi; Komitəyə Azərbaycan SSR-in bütün mərkəzi müəssisələri ilə birbaşa və müstəqil münasibətlər qurmaq hüququ verilirdi; Komitə texniki işi yerli icraiyyə komitələrinin aparatı vasitəsi ilə aparırdı[325].

Az sonra Komitə yerlərdə vəziyyəti öyrənərək Azərbaycan K(b)P MK-nın Rəyasət Heyətinə bir layihə təqdim etdi.

Qarabağın dağlıq hissəsində yaşayan ermənilər üçün muxtariyyət yaratmağa hazırlaşan Azərbaycan hökuməti Mərkəzin təzyiqləri altında 1922-ci ildə Göyçə və Dilican ərazilərini Ermənistana verdi. Lakin erməni dairələri bununla da sakitləşmədilər.

### *G.Çiçerin köçürülən ermənilər üçün "milli ocaq", özünü idarə edən kantonlar yaradılmasını təklif edir*

Bu zaman, Lozan konfransı dövründə çoxlu erməni Cənubi Qafqaza gəlmişdi. 72,8 %-i əsasən Türkiyədə doğulan bu şəxslər Batum, Axıska və Axalkələkdə yerləşdirilmişdilər[326]. Türkiyəyə qarşı iddialarının və düşmənçiliyinin həddi-hüdudu olmayan bu şəxslərin bir çoxu mülki türk əhalisinə qarşı qanlı qırğınlarda iştirak etmişdi. Onların gəldikləri yerdə Türkiyə əleyhinə böhtan xarakterli təbliğat aparmaları türkləri hiddətləndirirdi.Yaranmış şərait Rusiyanın Ankaradakı nümayəndəsi Q.Astaxovun 1922-ci il dekabrın 18-də xarici işlər nazirinin müavini Rauf ilə keçirtdiyi görüşdə müzakirə edildi. Görüş haqqında L.K.Karaxana, Doletskiyə, N.Nərimanova və Q.Orconikidzeyə göndərdiyi məktubunda Q.Astaxov yazırdı ki, ermənilərin müsəlmanlar üzərində törətdikləri vəhşiliklər TBMM-də ciddi narazılığa səbəb olmuşdur. Erməni iddialarından danışan Rauf bildirmişdi ki, Türkiyə yalnız onunla dost olan bir Ermənistan tanıyır. Ordu hər bir əmri yerinə yetirməyə hazırdır[327].

---

[325] Постановление АзЦИКа и Совнаркома АССР о Нагорном Карабахе. 17.12.1922. – ARDA, f.411, siy.1, iş 48, v.201; Выписка из протокола №41 заседания Совета Народных Комиссаров АССР. 17.12.1922. – ARSSA, f. 1, siy. 85, iş 249, v. 423.

[326] Сотрудник представительства препроводителя переписи беженцев Л.А.Чилингарова представителю уполномоченного Союзного Совета ССР Закавказья. Армянские беженцы в Батуме. 22.12.1922 . – GMƏYTA, f.612, siy.1, iş 89, v.3a.

[327] Телеграмма Астахова Карахану, Долецкому, Нариманову, Орджоникидзе. 18.12.1922. – GMƏYTA, f.612, siy.1, iş 115, v.5.

Beynəlxalq şəraitdən istifadə edən erməni xadimləri "erməni məsələsi"ni həll etmək istəyirdilər. Bu niyyət Beynəlxalq Erməni Cəmiyyətinin nümayəndələrinin dekabrın 23-də Lozanda G.Çiçerin ilə görüşündə aydın şəkildə özünü göstərdi. Cəmiyyətin 4 nəfərdən ibarət Rəyasət Heyətinin başında isveçrəli professor Navil dururdu. Onlar G.Çiçerindən ermənilər üçün sovet Rusiyasında bir "milli ocaq" yaradılması işinə qarışmağı xahiş etdilər.

Bu, qəribə bir mövqe idi. Axı, mənbələr də sübut edirdi ki, ermənilər Cənubi Qafqazda aborigen deyildilər. Çarizm dövründə gətirilib azərbaycanlı torpaqlarına yerləşdirilmişdilər. Daha sonra isə qarışıqlıq zamanlarında gəlmələr üçün tarixi türk, Azərbaycan torpaqlarında hələ 1918-ci ildə "milli ocaq" – Ermənistan adlı bir dövlət qurulmuş və o, 1920-ci ildə sovetləşdirilmişdi. "Milli ocaq" deyərkən, bu şəxslər nəyi nəzərdə tuturdular?

Həmin istək Q.Nuraduqyanın G.Çiçerin ilə görüşündə də səsləndirildi. Dekabrın 24-də səhər tezdən G.Çiçerinin yanına gələn Q. Nuraduqyan bildirdi ki, daşnaklar keçmiş partiya haqq-hesablarını kənara qoyaraq onlarla əlbir işləyirlər, sovet Rusiyasının ermənilər üçün etdiklərindən riqqətə gəlmiş və ona qarşı mübarizə aparmaqdan imtina etmişlər. G.Çiçerin onlara dedi ki, indi nə qədər erməninin yerləşdirilməsi haqqında məsələyə Moskvada baxılır. Soyuq iqlimə uyğunlaşacaqlarına şübhə edən Q.Nuraduqyan ermənilərin "*ölkənin cənub ərazilərinə yerləşdirilməsini*" istəyirdi. O, hiyləgərliklə bildirdi ki, "erməni məsələsi" İngiltərə və Amerikada ictimai rəyi hiddətləndirir, Fransada isə ona laqeyd yanaşırlar. Həmin məsələdə İngiltərə və Fransa arasında fikir ayrılığı mövcud idi. Guya Lozan konfransında komissiyanın iclasında Kerzon türklərə qarşı sərt çıxış edərək bildirmişdi ki, müharibəyədək Türkiyədə 3 milyon erməni var idi, indi onlardan 150 mini qalmışdır. Soruşmuşdu: qalanları haradadır? İnsident yaranmışdı. Bundan sonra "Dan" qəzeti İngiltərənin əleyhinə olan məqalə dərc etmişdi. Lord Kerzona ingilis cəmiyyəti və Amerika kilsə federasiyaları təzyiqlər edirdi. İsmət Paşa isə erməni "milli ocağı"nın yaradılmasına heç cür yol vermirdi[328].

G.Çiçerin görüşdən sonra, dekabrın 24-də M.Litvinova yazırdı:

*"Ermənilərə gəlincə, türklər ən qəti şəkildə israr edirlər ki, Türkiyədə qalan ermənilər bütün digər türk vətəndaşları kimi ümumi əsaslarla olmalıdır. Ermənilər üçün milli ocağın olmasını türklər rədd edirlər*"[329].

"Erməni məsələsi" böhranlı ana gəlib çatmışdı. G.Çiçerin dekabrın 26-də Litvinova göndərdiyi məktubunda qeyd edirdi ki, "erməni məsələsi" böhranlı ana gəlib çatmışdır, bazar ertəsi və ya çərşənbə günü komissiyanın həlledici iclası olacaqdır. Ermənilərin taleyinin dünyada həssas-

[328] Письмо Чичерина Литвинову. 24.12.1922. – РГАСПИ, ф.159, оп.2, д.19, л.142.
[329] Письмо Чичерина Литвинову. 24.12.1922. – РГАСПИ, ф.159, оп.2, д.19, л.127.

lıqla qarşılandığı, *"yalnız Rusiyanın müdaxiləsi ilə qalan erməni əhalisinin xilas ediləcəyinə və erməni "milli ocağı"nın yaradılmasına nail olunacağı"* qənaətinə gələn G.Çiçerin vurğulayırdı:

*"Ermənilər ona görə əziyyət çəkirlər ki, Antanta onlardan silah kimi istifadə etdi. Qoy, o, bunun hamısını yesin. İndiyədək Antanta Kirmanşahda, Təbrizdə və Qaradağın dağlarında daşnakları sovet respublikalarına qarşı silahlandırır. Qoy, Antanta istifadə etdiklərinə görə kompensasiya versin".*

Beynəlxalq Erməni Cəmiyyətinin nümayəndələri G.Çiçerinə hiyləgərcəsinə bildirmişdilər ki, ermənilər Antantanın onlardan silah kimi istifadə etməsinə razılaşmağa məcbur qalmış, başqa yolları olmamışdır. G.Çiçerin erməni xadimlərinə demişdi ki, əgər erməni "milli ocağı" yaratmaq mümkün olmasa, onda onları müxtəlif ölkələrdə yerləşdirmək lazımdır. O, *"Rusiyanın cənubunda nə qədər ermənini yerləşdirmək barədə məsələni öyrənəcəklərini"* söyləmişdi. Ukrayna nümayəndəsi X.Rakovski isə demişdi ki, ermənilərin bir qismini Ukraynada yerləşdirmək olar.

Lozanda milli azlıqlar məsələsi müzakirə edilərkən türk nümayəndə heyəti iclas zalına gəlmədi. Komissiya erməni nümayəndə heyətini dinlədi. İsmət Paşa bununla əlaqədar olaraq göndərdiyi etiraz notasında yazmışdı:

*"Erməni hökumətinin bu erməni nümayəndə heyətinə heç bir aidiyyatı yoxdur. Çünki erməni hökuməti elə sovet hökumətinin özüdür, Türkiyə təbəələrinin konfransda beynəlxalq hüquqi tanınması cəhdləri qəbul edilməzdir"* [330].

İsmət İnönü tamamilə haqlı idi. Konfransa gələn ermənilərin Ermənistan SSR-ə heç bir aidiyyatı yox idi. Sovet Rusiyasını təmsil edən G.Çiçerin isə sanki erməniləri müdafiə etməkdən, onlara "milli ocaq" yaratmağa çalışmaqdan başqa bir niyyəti güdmürdü.

Bu zaman İttifaq Şurasının Gürcüstandakı Qərb ermənilərinin işləri üzrə səlahiyyətli nümayəndəsi M.Karabekyan 1922-ci il dekabrın 30-da Qaçqınların məsələsi üzrə daimi komissiyaya göndərdiyi məktubunda Batumdakı erməni qaçqınlarının məsələsini həll etmək üçün təkliflərini irəli sürdü[331]. Onun yazdığına görə erməni qaçqınların 69%-i Qırmızı ordu kazarmalarında yaşayırdı. 96%-i əkinçiliklə məşğul olmuş bu qaçqınların 76%-i gəldikləri yerlərdə hambal işləyirdi[332].

---

330 Письмо Чичерина Литвинову. 26.12.1922. – РГАСПИ, ф.159, оп.2, д.19, л.154.

331 Письмо уполномоченного Союзного Совета по делам западных армян в Грузии М.Карабекяна в Постоянную Комиссию при Союзном Совете по делам беженцев. 30.12.1922. №2144. – GMƏYTA, f.612, siy. 1, iş 27, v.7.

332 Армяне-беженцы в Батуме (Краткое обследование по материалам переписи беженцев). 25.11.-15.12. 1922. – GMƏYTA, f.612, siy.1, iş 27, v.9-12.

Lakin Lozanda milli azlıqlar məsələsinin müzakirəsindən Rusiya kənarlaşdırıldı. Bundan sonra G.Çiçerin 1923-cı il yanvarın 26-da Beynəlxalq Erməni Cəmiyyətinə bir məktub göndərdi[333]. O yazırdı ki, Lozan konfransında Rusiya, Ukrayna və Gürcüstan "erməni məsələsi"nin həllindən uzaqlaşdırıldılar, buna baxmayaraq, *"sovet hökuməti erməni qaçqınlarını qəbul etməyə hazırdır".*

Bundan bir gün sonra Rusiya, Ukrayna və Gürcüstan nümayəndə heyətləri Lozan konfransının sədrinə verbal nota göndərdilər[334]. Notada onlar "erməni məsələsi"nin həllindən uzaqlaşdırılmalarına etiraz edir, erməni əhalisinin taleyindən narahatlıq hissi keçirtdiklərini qeyd edərək vurğulayırdılar ki, Rusiya, Ukrayna və Gürcüstan ərazilərində müəyyən qədər erməni yerləşdirə bilərlər.

G.Çiçerin ermənilərin sovet ərzilərində yerləşdirilməsi barədə məlum notanı verdikdən sonra Beynəlxalq Erməni Cəmiyyətinin nümayəndələri yenidən onun yanına gələrək təklifin reallaşdırılmasını nəzərdə tutan memorandumu təqdim etdilər[335].

Az sonra xalq xarici işlər komissarının müavini Litvinov *"ermənilərə torpaq verilməsinə dair"* SSRİ hökuməti adından xarici ölkələrə teleqram göndərməyin münasib olub-olmadığı barədə G.Çiçerinin fikirlərini soruşdu. Cavabında G.Çiçerin yanvarın 27-də yazırdı:

"*Hamıya demək lazımdır, bir sıra formallıqları həll etmədən beynəlxalq aləmdə SSRİ hökuməti adından çıxış etmək olmaz. Hər şeydən əvvəl, SSRİ konstitusiyası ittifaq hökumətinə daxil olan dörd respublika tərəfindən təsdiq edilməlidir. Belə bir təsdiq isə olmamışdır. Bundan sonra münasibətlərin olduğu bütün hökumətlərə SSRİ hökumətinin mövcud olmağa başlaması haqqında məlumatlar göndərilməlidir. Bu zaman ortaya çıxan bir sıra mürəkkəbliklərin müzakirəyə çıxarılması gərəkdir. Bundan ötrü mütəxəssislərin köməyi lazımdır. Hökumətlərlə belə bir saziş bağlanmalıdır ki, RSFSR-in imzaladığı müqavilələr SSRİ-yə keçir. Digər tərəfdən, Ukrayna və Qafqaz respublikaları ilə bağlanan müqavilələrin taleyini müəyyənləşdirmək gərəkdir. Kars müqaviləsi ilə bağlı məsələ kifayət qədər mürəkkəb olacaqdır. Əgər bütün müqavilələr SSRİ-yə keçirsə, onda Kars müqaviləsi mövcudiyyətini itirir. Orada Moskva müqaviləsində olmayan maddələr vardır. SSRİ ilə bərabər hansı müqavilələrin*

---

[333] Письмо тов. Чичерина на имя председателя международной филармянской Лиги. 26.01.1923. – Газ. "Известия", 08.02.1923, № 28(1765).

[334] Вербальная нота РУГ делегации на имя председателей Лозанской конференции 27.01.1923 (аналогичная нота послана американской миссии на Лозанской конференции). – Газ."Известия", 08.02.1923, № 28 (1765).

[335] Армянская делегация у тов. Чичерина. – Газ."Правда", 01.02.1923, №22.

*qüvvəyə minməsi barədə xüsusi sazişlər lazımdır. Xarici ölkələrdəki təmsilçilər, Moskvadakı xarici ölkə təmsilçiləri yeni qramotalar təqdim etməli idilər. Kifayət qədər mürəkkəb olan bu məsələlər dəqiq təhlil edilməlidir. SSRİ hökuməti adından bu formallıqlar edilmədən xaricdə çıxış etmək olmaz və xaric qarşısında keçmiş hökumət qüvvədə qalır"* [336].

Moskvanın qəti mövqeyini bilmədən G.Çiçerinin məsələni ermənilərlə müzakirə etməsi qəribə idi. Bunu onun yanvarın 27-də müavini M.Litvinova göndərdiyi məktub da təsdiq edirdi. O, yazırdı:

"*Bizim ermənilərə torpaq ayırmaq barədə bəyanatımız hər şeydən əvvəl, Beynəlxalq Erməni Cəmiyyətində verilmişdir. Biz istəməzdik ki, dövlətlər bunu özlərinin daxili işlərinə qarışmaq kimi qiymətləndirsinlər. Bəyanat çox güclü təəssürat yaratmışdır*" [337].

L.Karaxana yazdığı 28 yanvar tarixli məktubunda da G.Çiçerin Moskvanın bu məsələ barədə nə edəcəyini bilmədiyini, yalnız nəzəri olaraq bəzi məsələləri müzakirə etdiyini etiraf edirdi[338]. Onunla görüşə Beynəlxalq Erməni Cəmiyyətinin nümayəndə heyəti ilə birlikdə, Amerika-Erməni cəmiyyətinin sədri B.L.Montqomeri, America Near East Reliefin, Amerika kilsələr federasiyasının nümayəndələri də gəlmişdilər. Nümayəndə heyəti adından B.L.Montqomerinin bu məsələ barədə danışıqlar aparmaq üçün mandatı var idi. G.Çiçerin onlardan məsələnin bütün tərəflərini Moskvada müzakirə etmək üçün təməl olacaq təkliflərini yazılı şəkildə vermələrini xahiş etmişdi. Nümayəndələr yaddaş qeydlərini təqdim edəcəklərini söyləmişdilər. Bu işdə sovet hökumətinin iştirakının zəruri olduğunu bildirən G.Çiçerinin fikrincə, sovet tərəfinin maraqları qorunmalı və bilinməli idi ki, hansı elementlər ölkəyə gəlir. Kazaklara tətbiq edildiyi kimi, onlar da filtrasiyadan keçirilməli idilər. Sovetlərin vəsaiti, gətirilən ermənilərin də kifayət qədər pulu olmadığından G.Çiçerin bu işdə ermənilərin mühacirətinə maliyyə yardımı verən və nəqliyyat ayıran təşkilatların, imkanları çox olan Beynəlxalq Erməni Cəmiyyətinin iştirakını təklif etmişdi. Daha çox Amerikanın vəsait verəcəyini ehtimal edən xalq xarici işlər komissarı America Near East Relief və Amerika Qırmızı Xaç təşkilatının iştirakını istəyirdi. O, erməni nümayəndələrinə seçkili orqan yaratmağı təklif etmişdi. Çünki xaricdəki erməni təşkilatları bir-biri ilə didişirdilər. Bu zaman ermənilərin iki təşkilatı var idi. Onlardan birinə

---

[336] Чичерин – Литвинову. Лозанна. 27.01.1923. № 92. – РГАСПИ, 159, оп.2, д.19, л.309.

[337] Чичерин – Литвинову. Лозанна. 27.01.1923. № 93. – РГАСПИ, 159, оп. 2, д. 19, л. 311.

[338] Чичерин – Карахану. Лозанна. 28 .01.1923. – РГАСПИ, 159, оп.2, д.19, л. 319-320.

Q.Nuraduqyan və M.Papacanov, digərinə isə daşnak A.Aqaronyan başçılıq edirdi. Əvvəllər bir-biri ilə didişən bu təşkilatlar sonradan barışaraq birlikdə işləməyə başlamışdılar. A.Aqaronyan hiyləgərliklə G.Çiçerinə demişdi ki, daşnaklar sovet hökumətinə olan əvvəlki münasibətlərindən imtina etmişlər. G.Çiçerin isə cavabında bildirmişdi ki, bu məsələləri erməni komissarlığının və erməni milli hərəkatının Dro kimi tanınmış xadimlərinin yaşadığı Moskvada müzakirə etmək lazımdır. Ermənilər əsasən Yunanıstanda yaşayırdılar. Onları gəmilərlərlə Qara dənizdən keçərək gətirmək lazım idi. Erməni qaçqınlar kütləsinin vəziyyətinin çox faciəli olduğunu qeyd edən G.Çiçerin köçürülmənin tezliklə həyata keçirilməsini və bu işə erməni kommunistlərini, Xalq Xarici İşlər Komissarlığını və Dövlət Siyasi İdarəsini cəlb etməyi təklif edirdi.

G.Çiçerin fevralın 3-də M.Litvinova yazdığı digər bir məktubunda göstərirdi ki, onun yanına Osmanlı dövlətinin xarici işlər naziri işləmiş, daşnaklara nifrət edən Q.Nuraduqyan gələrək, özünü Türkiyə erməniləri milli təşkilatının səlahiyyətli nümayəndəsi kimi təqdim etmişdi[339].

Lozanda görüşlərini başa çatdıran B.L.Montqomeri və digərləri erməni nümayəndələri ilə birlikdə İstanbula, oradan da Yerevan, Kuban, Don və Moskvaya getdilər. ABŞ hökuməti və Near East Relief ermənilərin mühacirətini maliyyələşdirməyə razılıq verdi. Bundan sonra Lozanda ermənilərlə işi V.V.Vorovski aparmalı idi. Sovet diplomatı Vorovski Lozanda ermənilərin məsələsi ilə məşğul ikən Bakıda Azərbaycan K(b)P MK katibi S.M.Kirovun başı Dağlıq Qarabağ regionunda işləmək üçün Ermənistandan daşnak maskası geymiş erməni kommunistlərinin göndərilməsini xahiş etməyə qarışmışdı.

### *Dağlıq Qarabağda işləmək üçün Ermənistandan kadrlar tələb edilir*

Azərbaycan K(b)P MK katibi S.M.Kirov 1922-ci ilin əvvəllərində RK(b)P Zaqafqaziya Diyar Komitəsinin rəhbəri A.Myasnikova və Ermənistan K(b)P MK-ya teleqram göndərərək Təvəkkülyanı və Manusyanı Qarabağ üçün ezam etməyi və onlara təcili olaraq A.Karakozovun olduğu yerə getməyi təklif etməyi xahiş etdi[340].

Bununla kifayətlənməyən S.M.Kirov 1923-cü il yanvarın 22-də A.Karakozovla birlikdə Ermənistan K(b)P MK katibi A. İoanisyana və surətini Lukaşinə göndərdiyi teleqramda Qarabağda işləmək üçün Təvək-

[339] Чичерин – Литвинову. №98. Лозанна. 03.02.1923. – РГАСПИ, ф.159, оп.2, д.19, л.333.
[340] Секретарь ЦК АКП Киров – Заккрайком Мясникову и АКП Армении. – ARSSA, f.1, siy.4, iş 32, v. 162.

klüyanı, Akopyanı, Aydınyansı, Vartanyanı, Axtinskini və Manusyanı ezam etməyi xahiş etdi.[341] S.Kirov yenidən Myasnikova müraciət etməli oldu. O, 30 yanvar tarixli "məxfi", "təcili" teleqramında Myasnikovdan təkrarən xahiş edirdi:

*"Qarabağda işləmək üçün Ermənistandan Təvəkkülyanı, Aydınyansı, Vartanyanı, Manusyanı ezam etməyinizi xahiş edirik. Qarabağa göndərilən işçilərlə Qarabağda işi yoluna qoymaq olmur"* [342].

Bu şəxslərin Qarabağa ezam edilmək üçün istənilmələri nə ilə bağlı idi? Məgər Azərbaycanda bu məsələləri dərindən bilən və onlarla məşğul olmaq bacarığı olan xadimlər yox idi? Heç şübhəsiz, var idi. Sadəcə Mərkəz həmin məsələlərdə azərbaycanlılara etibar etmir, Azərbaycanın ərazisini göz görə-görə əsassız iddialar irəli sürən bir ünsürün əli ilə parçalayır və özündən asılı vəziyyətə salırdı. Axı, məlum idi ki, Ermənistandan dəvət edilən şəxslərin hamısı Dağlıq Qarabağın Azərbaycandan qopardılmasının tərəfdarı idilər. Sovet rəhbərliyinin bu addımları, xüsusən Lozan konfransı dövründə ermənilərin gətirilməsi məsələsi müzakirə edilərkən Azərbaycan üçün təhlükəli anın yaxınlaşdığından xəbər verirdi.

## *Sovet hökuməti ermənilərin gətirilməsi məsələsini müzakirə edir*

1923-cü il martın 23-də Xalq Torpaq Komissarlığı Kollegiyasının üzvü Mesyaçevin sədrliyi altında ermənilərin mühacirəti üzrə komissiyanın iclası keçirildi. İclasda Rusiyaya 200 min erməninin gətirilməsi məsələsi müzakirə edildi. 12 bənddən ibarət qəbul edilən qərara görə Mesopotamiya və İrandan gətirilənlər ən yaxın yol ilə Türküstana göndərilməli idi. Bütün ermənilərin 90%-i əkinçiliklə məşğul olduğundan, onların Rusiyada yerləşdirilməsi üçün torpaq fondu ayrılmalı, gətirilənlərin sayı 200 min nəfərdən çox olmamalı, köçürülmə 4 il ərzində, hər il 50 min nəfər olmalı idi. Köçürülmə və yerləşdirilmə, bütün işlərin həcmi və sürəti köçürmə üçün vəsaitin olub-olmaması ilə bağlı idi. Ermənilərin daşınması, çıxarılması və yerləşdirilməsi, onlara torpaq fondu axtarılmana dair xərclər xaricdən ermənilərin köçürülməsi ilə məşğul olan təşkilatlar tərəfindən ödənilməli idi. Yerləşdirmə fondu 200 min nəfər üçün nəzərdə tutulurdu. Onların 20 mini Samara, 20 mini Saratov, 20 mini Çarıtsın, 15 mini Stavropol

---

[341] С.Киров и А.Каракозов – А.Иоанисяну и Лукашину. 22.01.1923. – ARSSA, f.1, siy.4, iş 32, v. 155.

[342] Секретарь ЦК АКП Киров – Заккрайком Мясникову и АКП Армении. 30.01.1923. – ARSSA, f.1, siy.4, iş 32, v. 153.

quberniyalarında, 5 mini Kuban – Qara dəniz sahillərində, bundan çox olardısa, 15 mini Cənubi Qafqazda, 40 mini Türküstanda, 95 mini Qırğızıstanda yerləşdirilməli idi. 200 min erməninin gətirilməsi nəzərdə tutulsa da, əslində rəqəmlərdən də göründüyü kimi, bu, 220 min edirdi. Yerləşdirmə üçün ilk növbədə Volqaboyu quberniyalar nəzərdə tutulmalı idi. İran və Mesopotamiyadan çıxanlar Türküstanda, ikinci növbədə Şimali Qafqaz və Ural vilayətlərində, Qırğızıstanda, üçüncü növbədə Türküstanın digər quberniyalarında yerləşdirilməli idi. 50 min nəfər erməninin yerləşdirilməsi smetasının və planının hazırlanması işi Mərkəzi Torpaq Komitəsinə tapşırılırdı. Bunun üçün 2 həftə vaxt verildi. Plan və smetaya ermənilərin gətirilməsi üçün vəsaitin ayrılması müddəti və buraxılması, bu işlə bağlı olaraq bütün təşkilati işlərin edilməsi, erməni fəhlə drujinalarının yerləşdirilməsi və işə düzəldilməsi daxil idi. Mərkəzi Torpaq Komitəsi 1 ay yarım ərzində ikinci növbənin yerləşdirilməsi planını və smetasını hazırlamalı idi. Qırğızıstan və Türküstanın muxtariyyət özünəməxsusluğu olduğundan məsələni həmin muxtar respublikaların, həmçinin Zaqafqaziyanın müvafiq orqanları ilə həll etməli idi. XXİK ermənilərin gətirilməsi və yerləşdirilməsi üçün vəsaitin ayrılmasının imkanları detallarını aydınlaşdıracağı üçün ermənilərin gətirilməsinə rəhbərlik edəcək aparatın yaradılması məsələsi açıq saxlanıldı. Mesyaçev müvafiq orqanlarla və şəxslərlə həmin məsələnin mümkünlüyünü müzakirə etməli idi[343].

SSRİ xalq xarici işlər komissarının müavini bu qərarı 1923-cü il martın 28-də B.L.Montqomeriyə göndərdi. Məktubda yazılırdı:

*"Rusiya, Ukrayna və Gürcüstan nümayəndələri verbal nota ilə Lozan konfransının sədrinə və Amerika nümayəndə heyətinə, həmçinin orada "erməni məsələsi"ndə maraqlı olanlara Rusiya və Ukrayna hökumətlərinin öz ərazilərində xeyli sayda ermənini yerləşdirməyi nəzərdə tutduqlarını bildirmişlər. Onların sayı yaxın zamanlarda dəqiqləşdiriləcəkdir.* ***Bu bəyanat ilə bağlı olaraq nəzərdə tutulanları həyata keçirtmək üçün Ermənistan SSR nümayəndələri konkret addımlar müəyyənləşdirmişlər, müvafiq sovet orqanlarının işləyib hazırladıqları plana görə hər il sovet ərazisinə 50 min ermənini qəbul etmək mümkün olacaqdır. Erməniləri özünü idarə edən kantonlarda Mərkəz Volqaboyu, Cənubi Qafqaz, Qırğızıstan Respublikası və Türküstanda yerləşdirmək nəzərdə tutulmuşdur. Məskunlaşan ermənilər sovet Rusiyasında milli azlıqların istifadə etdikləri hüquqlardan istifadə edəcəklər*** (seçmə bizimdir – M.Q.). *Ermənilərə verilən torpaq fondları, onların məskunlaşması, daşınması, evlərin tikintisi erməniləri xaricdən gətirən təşkilatların hesabına olacaqdır. Onun smetası sovet orqanları tərəfindən tutulub xarici təşkilatlara*

---

343 Протокол заседания комиссии по эмиграции армян. О переселении в Россию 200.000 армян. 23.03.1923. – GMƏYTA, f. 617, siy.1, iş 69, v.40-40a.

*təqdim ediləcəkdir. Sovet Rusiyasının bu qədər ermənini köçürməsi, yerləşdirməsi və şərait yaratması üçün imkanları yoxdur"*[344].

Məktubda yazılan "e*rmənilləri özünü idarə edən kantonlarda... Cənubi Qafqazda...yerləşdirmək nəzərdə tutulmuşdur"* ifadələri Azərbaycana qarşı edilən qəsdin olduğunu göstərirdi. Çünki Cənubi Qafqazda azərbaycanlılara məxsus torpaqlarda ermənilər üçün artıq bir dövlət qurulmuşdu. Ermənistanda ermənilər üçün *"özünü idarə edən kanton"* necə yaradıla bilərdi? Gürcüstanda da gətirilən ermənilərə ayrıca kantonlarda torpaq payı ayrılması mümkünsüz idi. Deməli, məktubda açıq yazılmasa da, niyyətin məhz Azərbaycan ərazisində həyata keçirilməsi istəyi aydın olurdu.

Montqomerinin Avropaya döndükdən sonra sovet təşkilatları ilə birlikdə *"nəhəng əhəmiyyət daşıyan və böyük çətinlikləri olan bu işin həllinə yardımçı olacağına"* ümid edən xalq xarici işlər komissarının müavini bildirirdi ki, RSFSR hökuməti *"ermənilərin sovet ərazisində yerləşdirilməsi məsələsinə həddindən artıq böyük əhəmiyyət verir və bu iş qısa müddətdə başa çatdırılacaqdır".*

Məktub göndərildikdən bir müddət sonra gətirilən ermənilərin Cənubi Qafqazda yerləşdirilməsi imkanlarının öyrənilməsi üçün tədbirlər müəyyənləşdirildi. SSRİ xalq xarici işlər komissarının müavini L.Karaxan 1923-cü il aprel ayının əvvəllərində RSFSR-in ZSFSR hökuməti yanında baş konsulu vəzifəsini icra edən Lvoviçə ermənilərin qəbul edilməsi imkanları, şəraiti və onlara yardım göstərilməsi məsələsini öyrənməyi tapşırdı. Lvoviç bu barədə aprelin 26-da 336/ş №-li məktubu ilə ZSFSR xalq xarici işlər komissarı M.Hüseynova[345] və 8 may tarixli 949 №-li məxfi məktubu ilə ZSFSR XKS sədri İ. (Mamiya) D. Oraxelaşviliyə və Zaqafqaziya Diyar Komitəsinin katibi A.Myasnikova[346] bir məktub göndərdi.

ZSFSR XKS-nin 1923-cü il 10 may tarixli iclasında (protokol №16) L.Karaxanın müraciəti əsasında Mesopotamiyadan 2 min 500 nəfər ermənin Ermənistana gətirilməsi məsələsi müzakirə edildi[347]. Lakin Ermənistanın mövcud şəraitdə bu qədər adamı qəbul etmək imkanı olmadığı bildirildi.

Bir neçə il sonra Ermənistan XKS-nın məsələyə dair hazırladığı arayışda yazılırdı ki, sovet hakimiyyətinin qurulduğu ilk illərdə erməniləl-

---

[344] Письмо заместителя народного комиссара по иностранным делам на имя Монтгомери. 28.03.1923. – GMƏYTA, f.617, siy.1,iş 69, v. 41-41a.

[345] И.об.генконсула РСФСР в ЗСФСР Львович – наркоминделу Гусейнову. Сов. секретно. 26.04.1923. №366/ш. – GMƏYTA, f.617, siy.1, iş 69, v.38.

[346] И.об.генконсула РСФСР в ЗСФСР Львович – предсовнаркома Орахелашвили, секретарю Заккрайкома Мясникову. Сов. секретно. 07.05.1923. – GMƏYTA, f.617, siy.1, iş 69, v.39.

[347] Протокол №16 заседания распорядительного Совета Народных Комиссаров. 10.05.1923. – GMƏYTA, f.617, siy.1, iş 69, v.1.

rin Cənubi Qafqaza gətirilməsi tarixini əsasən 2 dövrə bölmək olar: 1921-1923 və 1924-1925-ci illər. Bu tarixlərə qədər, 1918-1920-ci illərdə Ermənistandan adamlar daşnak hökmranlığı zülmündən baş götürüb xaricə, əsasən İrana mühacirət etmişdilər. Mühacirətin başlıca səbəbi daşnakların təxribatları və dinc əhaliyə qarşı qəddarlıq hərəkətləri idi. Sənəddə Ermənistanın türk əhalisinin milli qırğınlar zəminində daimi yaşayış yerlərini tərk etməsi faktı etiraf edilirdi. Sovet hakimiyyəti qurulduqdan sonra Ermənistan hökuməti dekret verərək amnistiya elan etmiş, mühacirlərin geri qayıtmasını təşkil etməyə başlamışdı. Bu iş əsasən 1922-ci ildən normal qaydaya düşmüşdü. Köçürməni Xalq Daxili İşlər Komissarlığının təşkil etdiyi Mərkəzi Köçürmə şöbəsi həyata keçirirdi. 1922-ci ildə 9 min 162 nəfər erməni Ermənistana gətirilmişdi. Onlar Mesopotamiya, İran və Rusiyadan köçürülənlər idi. Ölkə daxilində 2 min 757 erməni yerləşdirilmişdi. Mesopotamiyadan gələn 7 min 709 nəfər erməniyə Vedibasarada 140 ev tikilmiş, pul, ərzaq və digər yardımlar edilmişdi. 1923-cü ildə İrəvan qəzasına 38 min 500, Eçmiadzin qəzasına 33 min 400, Leninakan qəzasına 28 min, Yeni Bəyazid qəzasına 8 min 100 nəfər, Lori Pəmbək qəzasına 7 min 600, Qarakilsə qəzasına 5 min, Dərələyəz qəzasına 1 min 400, Dilican qəzasına 4 min 500 nəfər erməni yerləşdirilmişdi. Bütövlükdə, Ermənistana 126 min erməni gətirilmişdi. 1000 nəfər Basarkeçər rayonunda yerləşdirilmişdi. 1923-cü ilin may ayından etibarən İran və Türkiyədən ermənilər gətirilməyə başlamışdı. İrandan gələn 166 nəfər Zəngibasarda yerləşdirilmişdi[348]. Gəlmə ermənilər qaçqına çevrilmiş azərbaycanlıların evlərini ələ keçirtmişdilər. Gəlmələr təkcə Ermənistanda azərbaycanlılara məxsus evlərdə deyil, eyni zamanda Azərbaycanda da yerləşdirilirdilər. Məsələn, təkcə 1922-1923-cü illərdə Mosul şəhərindən gətirilən 8 mindən artıq erməni Azərbaycan SSR-in müxtəlif bölgələrinə yerləşdirilmişdi[349].

Ermənistandan qaçqın düşmüş azərbaycanlıların isə Azərbaycanda yerləşdirilməsində çətinliklər var idi. 1923-cü il mayın 22-də Azərbaycan XKS-nin xüsusi səlahiyyətli komissiyasının iclasında İrəvandan qaçqın düşmüş azərbaycanlıların Nuxa qəzasının Nic kəndində məskunlaşdırılmasına dair məsələ müzakirə edildi və müvafiq qərar qəbul olundu. Lakin kənddə yaşayan ermənilər azərbaycanlı qaçqınların həmin kəndə yerləşdirilməsinə etiraz etdilər. Ona görə də qəbul edilən qərara əsasən kənddəki 300 evdən azərbaycanlılar çıxarıldılar. Onların boşaltdıqları 80 evə qonşu kəndlərdən gətirilən ermənilər yerləşdirildilər[350].

---

[348] СНК ССР Армении. Беженский вопрос. – GMƏYTA, f.617, siy.1, iş 506, v.277-282.

[349] ARMTNA. 1931.

[350] Постановление особо-уполномоченной Комиссии Азсовнаркома. 22.05.1923. – GMƏYTA, f.617, siy.1, iş 168, v.1.

## *“Erməni məsələsi” Lozanda dəfn edilir*

Lozan konfransında ermənilər istəklərinə çata bilmədilər. Ov.Kaçaznuni bununla əlaqədar olaraq sonralar yazırdı:

*“Türkiyə Ermənistanı* (Türkiyənin şərq vilayətləri nəzərdə tutulur – M.Q.) *– həm dövlət, həm home, həm də beynəlxalq diplomatik məsələ kimi yoxdur, məsələ Lozanda bağlanmış və dəfn edilmişdir”* [351].

Düşdükləri vəziyyət üçün ermənilər bir-birilərini və Qərb ölkələrini təqsirləndirməyə başlamışdılar. İttihamlar hətta mətbuat səhifələrinə də çıxmışdı. Ankarada dərc olunan “Dan” qəzetinin 1923-cü ilin baharında Türkiyəyə münasibətdə barışdırıcı mövqe tutan xarici erməni mətbuatına həsr edilmiş məqalələrində ermənilərin bu ölkədə sakit, rahat və imtiyazlı həyat sürmələri xatırlanırdı. Məqalə müəllifləri ermənilərin əllərinə silah alaraq öz dövlətləri olan Türkiyəyə qarşı çıxış etmələrini Qərb ölkələrinin təxribatı kimi qiymətləndirir, azlıq təşkil etdikləri yerlərdə Ermənistan yaratmaq ümidi ilə müxtəlif zorakılıq hərəkətləri törətdiklərini etiraf edərək yazırdılar ki, Türkiyənin şərq vilayətləri iqtisadi və mədəniyyət baxımdan türk xarakteri daşıyır, burada “erməni məsələsi”ni həll etmək üçün sosial-iqtisadi və inzibati zəmin yoxdur və mövcud ola da bilməz[352].

Türkiyə ərazisində istəklərinə çata bilməyən erməni dairələri əsassız iddialarını Cənubi Qafqazda daha da genişləndirdilər. Xarici ölkələrdən gətirilən ermənilərin bu regiona da yerləşdirilməsi davam edirdi. Onlar istəklərinə Azərbaycan ərazilərində nail oldular. Bu, Azərbaycan torpaqlarında süni şəkildə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması oldu.

## *Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılır*

Lozanda konfrans davam edərkən S.Kirovun sədrliyi altında Bakıda Azərbaycan K(b)P MK Rəyasət Heyətinin 1923-cü il 20 iyun tarixli iclasında (protokol №20, 1-ci bənd) “Qarabağ komitəsinin üzvlərinin təklif etdiyi Qarabağ məsələsinin həlli layihəsi” müzakirə edildi. İclasın sədri Kirov, katibi isə İnozemtsov idi. İclasda Rəyasət Heyətinin üzvləri Kirov, Xanbudaqov, Qarayev, Mirzoyan, Bağırov, üzvlüyə namizədlər Konuşkin, Vareykis, Çaqin, Azərbaycan KP MK üzvü Azərbaycan MİK sədrinin müavini Qasımov, Azərbaycan Gənclər İttifaqı Komitəsinin katibi Rəhmanov, MK-nın şöbə müdirləri Maşkeviç və Əfəndiyev iştirak edirdilər.

---

[351] Качазнуни Ов. Дашнакцутюн больше нечего делать!, с. 47.

[352] Существует ли армянский вопрос? Из обзора турецких газет о политической жизни Турции, по вопросу мирного договора в Лозане, внешней политике, в т.ч. об отношениях к советским республикам. – РГАСПИ, ф.157, оп.1/с., д.15, л.25-26.

Qeyd etmək lazımdır ki, hələ 1923-cü il 20 may tarixində Qarabağ komitəsinin üzvləri olan Karakozov, Mirzabekyan, Manusyan tərəfindən Bakıda imzalanmış müvafiq layihə 6 bənddən ibarət idi. Layihədə yazılırdı ki, dağlıq və aran Qarabağ iqtisadi baxımdan bir-biri ilə sıx bağlıdır. Yaylaqlar, torpaq, meşə, meşələrdən istifadə, yerli sənaye, ticarət, nəqliyyat və yol inşaatı, kooperasiya və su təsərrüfatı, kənd təsərrüfatında ziyanvericilərə qarşı mübarizə, heyvandarlıq həm dağ, həm də aran üçün ümumidir. Vurğulanırdı ki, Azərbaycan Fövqəladə Komissiyası tərəfindən Qarabağdakı bandalar darmadağın edilməyənədək Dağlıq Qarabağın ermənilər düzəndə sərbəst hərəkət edə bilmirdilər. Dağlıq Qarabağın kəndliləri arandakı torpaqlardan icarə qaydası ilə istifadə edirdilər. Yazılırdı: nə qədər ki, Mərkəz (Bakı nəzərdə tutulurdu – M.Q.) öz qüvvələrinin böyük və yaxşı hissələrini neft cəbhəsinə atır və başlıca diqqətini Bakı və onun rayonlarına cəmləşdirir, nə qədər ki, çoxlu müsəlman qüvvələri çatışmır, nə qədər ki, 3 il ərzində idarəçilik, maarif, yer quruluşu, nəqliyyat, kooperasiya, ticarət və s. planlı işin aparılmasına heç bir işarə də yoxdur, nə qədər ki, Qarabağın böyük hissəsi özünün coğrafi vəziyyətinə görə Mərkəzdən ayrı düşmüşdür, nə qədər ki, azlığın maraqlarını və hüquqlarını qorumaq gərəkdir, bütün bunlar üçün Qarabağda inzibati idarəçilik islahatları həyata keçirilməlidir. Bunun üçün onlar təklif edirdilər ki, vilayətdə dörd qəza ləğv edilsin, iki inzibati vahid – Kürdüstanla mərkəzi Şuşa olmaqla Dağlıq, mərkəzi Ağdam olmaqla Aran Qarabağ yaradılsın[353].

İclasda aşağıdakı qərar qəbul edildi:

*"a) həm dağlıq və həm də aran Qarabağı* ***bir inzibati vahidə*** (seçmə bizimdir – M.Q.) *ayırmaq zəruri hesab edilsin; b) Ə.Qarayev sədr olmaqla, Ə.Qarayev, M.Bağırov, İ.Dövlətov, L.Mirzoyan və M. (Mahmud – M.Q.) Xanbudaqovdan ibarət komissiyaya tapşırılısn ki, üç gün ərzində məsələni xırdalığına qədər işləyib hazırlasın və MK Rəyasət Heyətinə bəyənilmək üçün təqdim etsin; v) A.Karakozov və X. Şadunça Zaqafqaziya Diyar Komitəsinin plenumunda Qarabağ məsələsinin müzakirəsində iştirak etmək üçün getmək təklif edilsin; e) E. Xanbudaqov özünün xüsusi rəyində qaldı. Hansı ki, əlavə olunur*" [354].

E.Xanbudaqovun 20 iyun tarixli xüsusi rəyində yazılırdı ki, Qarabağ məsələsinin qəti həlli forması üçün Dağlıq Qarabağa muxtariyyət vahidi ayrılmasına dair Azərbaycan XKS-nin 1920-ci il may tarixindəki

---

[353] Проект разрешения Карабахского вопроса. – ARSSA, f.1, siy.4, iş 8, v.113; f.1, siy.4, iş 51, v.7.

[354] Протокол №20 заседания Президиума ЦК АК(б)П. 20.06.1923. – ARSSA, f.1, siy.31, iş 186a, v.57; f.1, siy.4, iş 8, v.110.

dekretinin həyata keçirilməsi zəruridir[355]. Hər hansı digər qərar Qarabağda milli azlığın tələbatını ödəyə bilməz. Və əgər məlum məsələ başqa hər hansı bir formada həll olunarsa, onda biz onu dəfələrlə müzakirə etməli olacağıq. E.Xanbudaqov bu rəyini yazarkən Dağlıq Qarabağda fövqəladə komissar vəzifəsinin və İnqilab Komitəsinin yaradılmasına dair N.Nərimanovun 1920-ci il 20 may tarixli dekretini nəzərdə tuturdu.

Zaqafqaziya Diyar Komitəsinin 1923-cü il iyunun 27-28-də keçirilən plenumunda Ə.Qarayev (sədr), İ.Dövlətov, L.Mirzoyan və b. ibarət komissiyanın qərarı əsasında Dağlıq Qarabağın muxtar vilayətə çevrilməsi haqqında qərar qəbul edildi. Aran və dağlıq Qarabağın bir inzibati vahidə ayrılması təklifi qəbul edilmədi.

Azərbaycan K(b)P MK Rəyasət Heyətinin 1923-cü il iyulun 1-də S.M.Kirovun sədrliyi və İnozemtsovin katibliyi, üzvlər L.Mirzoyan, Ə.Qarayev, Q.Musabəyov, R.Axundov, üzvlüyə namizədlər P.Çagin və İ. Vareykisin iştirakı ilə keçirilən iclasında (protokol №22) "Qarabağ haqqında məsələ" (3-cü bənd) müzakirə edildi. Zaqafqaziya Diyar Komitəsinin qərarı təsdiq olundu. Azərbaycan MİK-ə təklif olundu ki, Rəyasət Heyətinin adından Dağlıq Qarabağa muxtariyyət verilməsi barədə dekret versin, İcraiyyə Komitəsi başda və Xankəndi mərkəz olmaqla, Qarabağ Muxtar Vilayəti yaratsın. Dekretdə göstərilməli idi ki, vilayətin inzibati sərhədləri və digər məsələlər xüsusi komissiya tərəfindən müəyyənləşdiriləcəkdir. Vurğulanmalı idi ki, torpağın (otlaqlar, meşələr, bağlar, əkin yerləri) və suyun faktiki sahibi hazırkı istifadəçiləridir. İcraiyyə Komitəsi yaradılana qədər Qarabağı idarə etmək üçün A.Karakozov başda olmaqla 5 nəfərdən ibarət İnqilab Komitəsi yaradılırdı. İnqilab Komitəsinin digər üzvləri katiblik tərəfindən müəyyən ediləcəkdi. 5 nəfərdən ibarət Vilayət Partiya Komitəsi yaradılmalı idi. Vilayət Partiya Komitəsinin katibi Manusyan təsdiq edilirdi. Vilayət Partiya Komitəsinin digər üzvlərini müəyyənləşdirmək katibliyə tapşırıldı. İnqilab Komitəsinə 2 aydan gec olmayaraq sovetlər qurultayını çağırmaq tapşırıldı. Muxtar Qarabağın inzibati sərhədlərini, Kürdüstanın vəziyyətini, aran Qarabağın inzibati hüdudlarını müəyyənləşdirmək üçün Ə.Qarayevin sədrliyi altında A.Karakozov, Sviridov, Ç.İldırım və D.Bünyadzadədən ibarət komissiya yaradılması təklif edildi. Komissiya 7 gün ərzində MK-nın Rəyasət Heyətinə özünün yekun rəyini verməli idi. Təbliğat şöbəsinə bu islahatın əhəmiyyətini əhaliyə izah etmək üçün türk və erməni dillərində təbliğat aparmaq tapşırıldı[356].

---

[355] Особое мнение по делам Нагорного Карабаха. 20.06.1923. – ARSSA, f.1, siy.4, iş 8, v.115.

[356] Протокол №22 заседания Президиума ЦК АК(б)П. 01.07.1923. – ARSSA, f.1, siy.31, iş 186a, v.58-59; f. 1, siy.74, iş 132, v.145-146; f. 1, siy.4, iş 8, v.115a.

İyulun 1-də Azərbaycan K(b)P MK Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında dekret verdi[357].

Azərbaycan SSR MİK Rəyasət Heyətinin iyulun 4-də iclası keçirildi. İclasın sədri M.Qasımov, katibi isə M.Xanbudaqov idi. İclasda M.Məmmədyarov, Hacıbaba, Vatsex, Novruzov, M.Qədirli (xalq səhiyyə komissarı), F.Ordubadski (xalq xarici ticarət komissarının müavini), Sviridov (Zaqafqaziya Xalq Daxili İşlər Komissarlığı) və Teymur Əliyevin ( Zaqafqaziya xalq yer quruluşu komissarı) iştirakı ilə "Dağlıq Qarabağ haqqında" məsələ (protokol №14) müzakirə edildi. Aşağıdakı məzmunda qərar qəbul edildi:

*"1. a) Qarabağın dağlıq hissəsində mərkəzi Xankəndi olmaqla və başda İcraiyyə Komitəsi olmaqla Qarabağ Muxtar Vilayəti yaradılsın. b) İcraiyyə Komitəsi yaradılanadək Dağlıq Qarabağın idarə edilməsindən ötrü A.Karakozovun sədrliyi altında İnqilab Komitəsi yaradılsın. v) İnqilab Komitəsinə 2 aydan gec olmayaraq sovetlər qurultayını çağırmaq tapşırılsın. q) Ə.Qarayevin sədrliyi altında A.Karakozov, Sviridov, D.Bünyadzadə və Ç.İldırım üzvlər olmaqla, komissiya yaradılsın. Komissiyaya müəyyənləşdirmək tapşırılsın: 1.Muxtar Qarabağın sərhədlərini. 2.Aran Qarabağın inzibati hüdudlarını. 3. Kürdüstanın vəziyyətini*" [358].

Azərbaycan SSR MİK Rəyasət Heyətinin 1923-cü il 7 iyul tarixli 5 saylı dekreti əsasında Azərbaycan SSR-in tərkib hissəsi kimi Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil edildi[359]. MİK sədrinin əvəzində müavini Mirbəşir Qasımov (MİK sədri Səmədağa Ağamalıoğlu olmuşdur) və MİK katibi Mahmud Xanbudaqovun imzaladıqları dekret 5 maddədən ibarət idi.

---

[357] Справка. – ARSSA, f.1, siy.31, iş 186 a, v.41.

[358] Протокол №14 заседания Президиума Азербайджанского Центрального Исполнительного Комитета Советов. 04.07.1923. – ARDA, f.379, siy.1, iş 7492, v.14; f.379, siy.3, iş 67, v.2; ARSSA, f.1, siy.125, iş 303, v.29; Выписка из протокола Президиума Азербайджанского Центрального Комитета Советов. 04.07.1923. – ARSSA, f.1, siy.31, iş 186a, v.38; Выписка из журнала постановлений Президиума Азербайджанского Центрального Комитета Советов. 04.07.1923. – ARSSA, f.1, siy.4, iş 51, v.6.

[359] Декрет Азербайджанского Центрального Исполнительного Комитета Советов от 7 июля 1923 года об образовании Автономной Области Карабаха. – ARDA, f.379, siy.3, iş 73, v.135-136; Образование автономной области Нагорного Карабаха. Декрет Азербайджанского Центрального Комитета Советов. 07.07.1923. Об образовании "автономной области Нагорного Карабаха". – Собрание узаконений и распоряжений Рабоче-Крестьянского Правительства А.С.С.П. за 1923 г. I-XII. № 7, ст 298. Баку, Издание Народного Комиссариата Юстиции А.С.С.П.,1925, с. 384-385; ARSSA, f.1, siy.125, iş 303, v. 29; Газ. "Бакинский рабочий", 09.07.1923, № 151 (879)

Birinci maddədə yazılırdı ki, Dağlıq Qarabağın erməni hissəsindən Azərbaycan SSR-in tərkib hissəsi kimi mərkəzi Xankəndində olan muxtar vilayət yaradılsın. İkinci maddəyə görə muxtar vilayətin idarəçilik orqanları Vilayət İcraiyyə Komitəsi və yerli sovetlər idi. Üçüncü maddədə yazılırdı ki, Vilayət İcraiyyə Komitəsi qurulana qədər Müvəqqəti İnqilab Komitəsi yaradılmalıdır. İki aydan gec olmayan bir müddətdə daimi İcraiyyə Komitəsini seçmək üçün sovetlər qurultayı çağırılmalı idi. Dördüncü maddəyə görə İcraiyyə Komitəsinin bütün zəruri maliyyə və texniki vasitələri Azərbaycan MİK-in sərəncamı ilə Azərbaycan SSR-in ümumi vəsaitlərindən təchiz edilirdi. Beşinci maddəyə görə vilayət haqqında əsasnaməni işləyib hazırlamaq və inzibati vahidi faktiki olaraq Qarabağ Muxtar Vilayətinə vermək, həmçinin Muxtar Vilayətin sərhədlərini müəyyənləşdirmək üçün Dağlıq Qarabağ, aran Qarabağ, Kürdüstan və Azərbaycan SSR mərkəzi hakimiyyət nümayəndələrindən ibarət ortaq komissiya qurulmalı idi. Komissiya işini 1923-cü il avqustun 15-dək başa çatdırmalı idi.

Bu qərar qəbul edildikdən sonra Qarabağ məsələsi üzrə komitə ləğv olundu. Birinci vilayət sovetlər qurultayı çağırılanadək Müvəqqəti İnqilab Komitəsi yaradıldı[360].

Artıq əvvəllərdə də qeyd edildiyi kimi, RK(b)P Zaqafqaziya Diyar Komitəsinin 1921-ci il 5 iyul tarixli qərarında Muxtar Vilayətin inzibati mərkəzinin Şuşa şəhəri olduğu göstərilmişdi. Azərbaycan MİK-in 7 iyul tarixli dekretində isə inzibati mərkəz olaraq Xankəndi göstərilirdi. Bu ziddiyyət artıq vurğulandığı kimi, onunla bağlı idi ki, Şuşa şəhəri əhalisi Muxtar Vilayətin tərkibinə qatılmalarını istəmirdilər. Ona görə də MİK qərarında inzibati mərkəzin Şuşa şəhəri olduğu yazılmamışdı. Lakin erməni xadimləri Şuşa şəhərinin Muxtar Vilayətin tərkibinə qatılmasına dair niyyətlərini az sonra, iyulun 21-də reallaşdırdılar.

İyulun 7-də Qarabağ və Kürdüstan muxtariyyətlərinin sərhədlərini müəyyənləşdirən komissiyanın iclası keçirildi. İclasın sədri Ə.Qarayev, katibi isə Manusyan idi. İclasda komissiyanın üzvləri İldırım, Sviridov, Şuşa qəzasından kommunist təşkilatından Manusyan, İcraiyyə Komitəsindən Bəşir Bünyadov, Qaryagin qəzasından kommunist təşkilatından Kafyan, İcraiyyə Komitəsindən Məmmədxanov, Cavanşir qəzasından kommunist təşkilatından Əmiraslanov, İcraiyyə Komitəsindən Xaçaturov iştirak edirdilər. Gündəliyin birinci məsələsi "Qarabağın aran hissəsində hakimiyyət orqanlarının quruluşu haqqında", ikinci məsələ "Kürdüstan haqqında" idi. Birinci məsələ haqqında Qarayev məlumat verdi. Müzakirələr nəticəsində qəbul edilən qərara əsasən aran Qarabağın qəzalarından ibarət, mərkəzi Ağdam olmaqla vilayət idarəçiliyi quruldu. Sviridova

[360] Справка. – ARSSA, f.1, siy.31, iş 186 a, v.30.

tapşırıldı ki, Qarabağ qəzaları icraiyyə komitələrinin sədrləri ilə birlikdə sahaba qədər Qarabağın aran hissəsinin vilayət inzibati idarəçilik sxemini hazırlasın. İkinci məsələ üzrə qəbul edilən qərara görə Kürdüstan muxtariyyəti yaradıldı və onun sərhədi Dağlıq Muxtar Qarabağın sərhədləri müəyyənləşdirilərkən təyin ediləcəkdi[361].

Azərbaycan K(b)P MK Rəyasət Heyətinin Kirovun sədrliyi altında iyulun 14-də keçirilən iclasında (protokol №25, 1-ci bənd) "Muxtar Qarabağ Vilayətinin (DQMV sənədlərdə bəzən Muxtar Qarabağ Vilayəti və ya Muxtar Qarabağ Dağlıq Vilayəti kimi də yazılır – M.Q.) konstitusiyasının hazırlanması üzrə komissiyanın işi haqqında" məsələ müzakirə edildi. İclasda Büro üzvləri Kirov, Mirzoyan, üzvlüyə namizədlər Vareykis, Çaqin, MK üzvü Qasımov, Azərbaycan MİK katibi M.Xanbudaqov, xalq daxili işlər komissarının müvaini Sviridov, Qarabağ qəzalarından Məmmədxanov, Əmiraslanov, Çalyan, Manusyan, B.Bünyadov, MK-ının şöbə müdirləri Maşkeviç və Erfrut iştirak edirdilər. İclasın sədri Kirov, katibi isə İnozemtsov idi.

Aşağıdakı kimi qərar qəbul edildi: komissiyanın işi başa çatdırılmadığı üçün Ə.Qarayevin sədrliyi altında komissiya yaradıldı. Komissiyanın tərkibinə Bünyadzadə, İldırım, Sviridov, Karakozov, Mahmud Xanbudaqov, Çalyan və Manusyan daxil edildilər. Komissiya öz işini Rəyasət Heyətinin 16 iyul tarixində keçiriləcək iclasına qədər başa çatdırmalı idi. Qarayevin səfəri ilə əlaqədar olaraq komissiyanı toplamaq Bünyadzadəyə tapşırıldı[362].

Azərbaycan K(b)P MK Rəyasət Heyətinin iyulun 16-da keçirilən iclasında Kürdüstan muxtariyyəti yaradılmasından imtina olundu. Kürdüstan qəzasının yaradılması qərara alındı.

Azərbaycan SSR MİK və XKS-nin M.Qasımovun sədrliyi, T.Əliyevin katibliyi, Bünyadzadə, Məmmədyarov, Novruzov, Musabəyov, Kazımov, Şahbazi, Əfəndiyev, Bəylərbəyov, Çikarev, Stepanov, Rodionov, Qorobçenko, Bukreev, Borisov, Qaber-Korn, Abramov, İbrahimov, Ordubadski, Cəbiyev və Azərbaycan K(b)P MK katibi Ə.Qarayevin iştirakı ilə iyulun 21-də keçirilən iclasında "Qarabağ məsələsi üzrə komissiyanın məruzəsi" dinlənildi. Məruzəni D.Bünyadzadə etdi. Qəbul edilən qərara görə dağıdılmş Skobelevsk rus kənd icmasının torpağı Muxtar Vilayətə verildi; Şuşa şəhəri DQMV-yə daxil edildi; Qarabağın

---

[361] Протокол заседания комиссии по определению границ автономного Карабаха и Курдустана. 07.07.1923. – ARSSA, f.1, siy.31, iş 186 a, v.60; f.1, siy.4, iş 8, v.170.

[362] Протокол №25 заседание Президиума Президиума Центрального Комитета Азербайджанской Коммунистической Партии (б-ов). 14.07.1923. – ARSSA, f. 1, siy. 74, iş 132, v. 157; f.1, siy.4, iş 8, v.157 ; f.1, siy.31, iş 186a, v.61.

düzən hissəsində iki qəza təşkil edildi; sənəddə yazıldığı kimi, kürdlərin tutduğu ərazilərdə Kürdüstan qəzası yaradıldı; XKS-yə bu qəzaların dəqiq sərhədlərini və inzibati mərkəzlərini müəyyənləşdirmək tapşırıldı; DQMV İnqilab Komitəsi tərkibində 5 nəfər – Karakozov (sədr) və üzvlər Bünyadzadə, Kostonyan, Kafiyev (Kafyan, Kafiyan – M.Q.) və Çalyandan ibarət olmaqla təşkil edildi; DQMV-nin əsasnaməsini son olaraq işləyib hazırlamaq Karakozov, Bünyadzadə, Çalyan, Vareykis və Manusyandan ibarət komissiyaya tapşırıldı; komissiyanın çağırılması Karakozova tapşırıldı; komissiyanın iş müddəti bir həftə ərzində müəyyən edilməli idi; bu muxtariyyətin məqsədlərinin və əhəmiyyətinin izah edilməsi üçün Azərbaycan MİK kəndlilərə müraciətnamə buraxmalı idi[363].

Göründüyü kimi, artıq bu qərar ilə Şuşa şəhəri də Muxtar Vilayətin tərkibinə qatıldı. Belə bir addım Şuşa qəzası əhalisinin iradəsinə tamamilə zidd idi.

İyulun 23-də Azərbaycan K(b)P MK Rəyasət Heyətinin iclasında (protokol №27, 17-ci bənd) "Dağlıq Qarabağ Muxtar Vilayətinin əsasnaməsi" haqqında məsələ yenidən müzakirə edildi. İclasda Rəyasət Heyətinin üzvləri Kirov, Mirzoyan, Qarayev, Musabəyov, Bünyadzadə, Krılov, namizəd Vareykis, Mərkəzi Partiya Nəzarətindən Çikarev, MK-nın şöbə müdirləri Maşkeviç, Erfurt, MK üzvü, Azərbaycan MİK sədrinin müavini Qasımov iştirak edirdilər. İclasın sədri Kirov, katibi isə V.Matyuşkin idi. Müzakirələrdən sonra layihəyə bəzi dəyişikliklər edildi. İclasda Dağlıq Qarabağ işləri üzrə komitə ləğv edildi. Onun bütün əmlakı Muxtar Vilayət İnqilab Komitəsinə verildi[364].

Muxtar Qarabağ Dağlıq Vilayətinin əsasnaməsini hazırlayan komissiyanın iyul ayının sonlarında geniş bir iclası (protokol №1) keçirildi. İclasda komissiya üzvləri Bünyadzadə, Karakozov, M.Xanbudaqov, Manusyan, Çalyan, İldırım, həmçinin Şuşa qəza İcraiyyə Komitəsinin sədri B.Bünyadov, Qaryagin qəza İcraiyyə Komitəsinin sədri Məmmədxanov iştirak edirdilər. İclasın sədri Bünyadzadə, katibi isə M.Xanbudaqov idi. "Dağlıq Qarabağ Muxtar Vilayətinin əsasnaməsi", "Dağlıq və aran Qarabağın, Dağlıq Qarabağın Kürdüstanla və Dağlıq Qarabağ ərazisinə daxil olan kəndlərlə sərhədləri haqqında", "Aran Qarabağın idarəçilik forması və inzibati bölgüsü haqqında", "Kürdüstanın idarəçilik forması inzibati bölgüsü haqqında" məsələlər müzakirə edildi. Birinci

[363] Декрет ЦИК Азербайджана об образовании Курдистанского уезда. 21.07.1923. – ARSSA, f. 1, siy. 125, iş 303, v. 33 ; ARDA, f.379, siy.3, iş 67, v.63.

[364] Протокол №27 заседание Президиума Центрального Комитета Азербайджанской Коммунистической Партии (б-ов). 23.07.1923. – ARSSA, f.1, siy.4, iş 8, v.173; f. 1, siy. 74, iş 132, v. 173 ; f.1, siy 31, iş 186a, v.62.

məsələ üzrə qəbul edilən qərara görə 1923-cü ildə quberniya icraiyyə komitələri üçün qəbul edilmiş əsasnamə Muxtar Qarabağ Dağlıq Vilayəti üçün də əsas olaraq götürüldü. Vilayətdə bütün kargüzarlıq, məhkəmə işləri, məktəblərdə təhsil ana dilində aparılırdı. İkinci məsələ üzrə qəbul edilən qərara görə Cavanşir qəzasının 46, Şuşa qəzasının 117, Qubadlı qəzasının 33 kəndi Dağlıq Qarabağ Muxtar Vilayətinə verildi. Cəmi 196 kənd DQMV-yə daxil edildi. Komissiyanın iclasında Şuşa şəhərinin və Xonaşendinin dağ, yoxsa aran Qarabağa daxil edilməsi məsələsi müzakirə edildi. Səsvermə keçirildi. Böyük səs çoxluğu ilə Şuşa və Xonaşendi aran Qarabağa aid edildi. Yalnız üç nəfər bu təklifin əleyhinə səs verdi. Buna baxmayaraq, Karakozov bildirdi ki, Şuşa və Xankəndi Dağlıq Qarabağa qatılmalıdır. Muxtar Vilayət erməni əhalisi üçün yaradılsa da, komissiyanın iclasında Qarabağın bəzi azərbaycanlı kəndlərinin də onun tərkibinə daxil edilməsi haqqında qərar qəbul olundu[365].

Azərbaycan MİK Kiçik Rəyasət Heyətinin 1923-cü il avqustun 1-də keçirilən iclasında (protokol №34) "Dağlıq Qarabağa ayırma ilə əlaqədar məsələlər" gündəliyin 3-cü məsələsi kimi müzakirə edildi. İclasın sədri M.Qasımov, katibi isə T.Əliyev idi. Qəbul edilən qərara görə DQMV haqqında əsasnamə təsdiq edildi və məsələ Rəyasət Heyətinin təsdiqinə verildi; Kürdüstan qəzasının mərkəzi Pirican hesab edildi; Cəbrayıl qəzasının mərkəzi Qaryagindən Cəbrayıla keçirildi; Ağdam qəzasında mərkəz Ağdam hesab edildi; Xalq Daxili İşlər Komissarlığına təklif edildi ki, DQMV-yə ayırmalarla və yeni qəzaların inzibati hüdudları ilə əlaqədar olaraq bütün tədbirləri həyata keçirtsin; XKS-yə təkilf edildi ki, Dağlıq Qarabağa və Cəbrayıl, Ağdam və Kürdüstan qəzalarına kredit ayrılmasına ilk növbədə qayğı göstərsin.

İclasda 8-ci məsələ kimi Naxçıvanda və DQMV-də məhkəmə orqanlarının təşkili haqqında dekret layihəsi müzakirə və layihə təsdiq edildi[366].

1923-cü il 6 avqust tarixində Azərbaycan MİK sədrinin müavini M.Qasımov, XKS sədri M.Quliyev, xalq daxili işlər komissarının müavini Sviridov, Azərbaycan MİK katibi Məmmədov Azərbaycan SSR MİK-in əmrini imzaladılar. 7 bənddən ibarət olan əmrə əsasən Qarabağın dağlıq

---

365 Протокол №1 заседание комиссии по выработке положения автономной области Нагорного Карабаха, установлению границ между низменным и Нагорным Карабахом, а также между нагорным Карабахом и Курдистаном и определению форм административного управления низменного Карабаха и Курдистана. Июль 1923 (ориентировочно). – ARSSA, f.1, siy.31, iş 186a, v.63-65; f.1, siy.169, iş 249/I, v. 63-64.

366 Протокол №34 заседание Малого Президиума ЦИК Азербайджана. 01.08.1923. – ARDA, f. 379, siy. 2, iş 3082, v. 47-47a.

hissəsində muxtariyyət qurulması ilə əlaqədar olaraq Qarabağın digər hissələrində Ağdam mərkəz olmaqla Ağdam, Cəbrayıl mərkəz olmaqla Cəbrayıl qəzaları və keçmiş Qubadlı qəzası ləğv edilərək mərkəzi Pirican (indiki Zəngilan – M.Q.) olmaqla Kürdüstan qəzası təşkil edildi[367].

Həmin tarixli əmr ilə Kürdüstan və Cəbrayıl qəzalarının və Muxtar Dağlıq Qarabağın hüdudları müəyyənləşdirildi. Dağlıq Qarabağdan kənarda yerləşən bir çox kəndlər və ərazilər Dağlıq Qarabağa verildi. Buna dair müvafiq arayış hazırlandı[368].

Azərbaycan əhalisi respublika ərazisi ilə bağlı hansı proseslərin getdiyini başa düşmək istəyirdi. Hələ çarizm dövründən gətirilib Qarabağın dağlıq hissəsində yerləşdirilən ermənilərə muxtariyyət ayrılması və Şuşa şəhərinin də zorla onun tərkibinə qatılması azərbaycanlı əhalini hiddətləndirmişdi. Onlar Azərbaycanın rəsmi orqanlarına göndərdikləri məktublarında bunu açıq şəkildə ifadə edir və etirazlarını bildirirdilər. Məsələn, Şuşa şəhərinin səlahiyyətli nümayəndələri Rüstəm Əliyev, İbrahim Musayev, Bəşir Sarabi və Hacı Şəmşiyev 1923-cü il avqustun 9-da şəhər əhalisi adından Azərbaycan MİK-ə göndərdikləri ərizədə bir əsrdən çox Qarabağın rus militarizminin tapdağı altında olduğuna diqqət yetirir, rejimin qara qüvvələrini xalqlar üzərinə göndərdiyini, Qarabağın mərkəzi olan Şuşa şəhərinin dağıdıldığını, sovetləşmənin bu qardaş qırğınına son qoyduğunu, Şuşa şəhərinin və qəzasının Kürdüstan ilə bütün sahələrdə, o cümlədən iqtisadi baxımdan bağlı olduğunu yazaraq, bu xahişlərinin rədd edilməməsini istəyirdilər. Yazırdılar ki, əgər hər hansı dövlət və digər mülahizələrdən bizim istəyimiz yerinə yetirilməsə, onda Dağlıq Qarabağın mərkəzi Şuşada saxlanılsın və Xankəndinə keçirilməsin. Ərizə müəllifləri məsələləri yerində öyrənmək üçün partiya komissiyası göndərilməsini xahiş edirdilər[369].

Əhalisinin mütləq əksəriyyətinin azərbaycanlılar olmasına baxmayaraq, Şuşa şəhərinin Muxtar Vilayətin tərkibinə verilməsi daha bir tarixi ədalətsizlik idi. Qeyd etmək lazımdır ki, 1923-cü il əhalinin siyahıya alınmasına görə Şuşa şəhərində 6965 nəfər əhali yaşayırdı. Onların 6682 nəfəri azərbaycanlı, 45 nəfəri rus, 209 nəfəri erməni, 19 nəfəri İran

---

[367] Приказ Азербайджанского Центрального Исполнительного Комитета. 06.08.1923. – ARSSA, f.1, siy.31, iş 186a,v.18-20; f.1, siy.169, iş 249/II, v.18-20; ARDA, f.379, siy. 3, iş 89, v.1-1a.

[368] Справка о границах Курдистанского и Джебраильского уездов и Автономного Нагорного Карабаха. – ARSSA,f.1, siy.31, iş 186b, v.29-30.

[369] Заявление уполномоченных гор. Шуши Рустама Алиева, Ибрагима Мусаева, Башира Сараби и Гаджия Шамшиева в АзЦИК. 09.08.1923. – ARSSA, f.1, siy.4, iş 51, v.36-37.

Azərbaycanından olanlar, 2 nəfəri alman, 3 nəfəri dağ yəhudisi, 5 nəfəri digər millətlərin nümayəndələri idi[370].

Azərbaycan hakimiyyəti muxtariyyətin yaradılmasını əhaliyə izah edirdi. 1923-cü il avqustun 12-də Atamovun sədrliyi, Mirzoyevin katibliyi ilə keçirilən iclasda B.Bünyadov və H.Hacıyev məruzə etdilər. Məruzə nəticəsində qəbul edilən qərarın birinci bəndində yazılırdı ki, biz kəndlilər milli məsələlərin həlli üzrə sovet hakimiyyətinin düzgün qərarlarını alqışlayırıq, xüsusən Qarabağın muxtariyyətini erməni və müsəlman kəndliləri arasında qardaşlığın rəhni kimi hesab edirik, bu, mədəni, iqtisadi cəhətdən inkişaf etməyə imkan verir[371].

Azərbaycan K(b)P MK Rəyasət Heyətinin 1923-cü il 3 sentyabr tarixli iclasında (protokol №36, 1-ci paraqraf, bənd "q") "Qarabağ haqqında əsasnamənin erməni və türk dillərində nəşr edilməsi haqqında qərar qəbul olundu. Həmin qərar MİK katibi M. Xanbudaqova sentyabrın 4-də (№2839/D) göndərildi. Lakin Azərbaycan MİK bu qərarın icrasını gecikdirirdi. Ona görə də S.M.Kirov 11 sentyabr tarixdə MİK katibi M. Xanbudaqova məxfi bir teleqram (№2943\D) göndərdi. Bildirdi ki, MK Rəyasət Heyətinin müvafiq qərarını təcili icra etsin və tez bir zamanda MK-ya məlumat versin[372].

Azərbaycanlı əhali Muxtar Vilayətdə çalışan azərbaycanlı xadimləri satqınlıqda təqsirləndirirdilər. Elə buna görə də Dağlıq Qarabağda işləyən bəzi azərbaycanlı işçilər də geri çağırılmalarını xahiş edirdilər. Belə ki, Bəşir Bünyadov 1923-cü il sentyabrın 8-də Azərbaycan K(b)P MK-ya yazdığı məktubunda xahiş edirdi ki, onu Qarabağdan geri çağırsınlar və "mənəvi ölüm"dən xilas etsinlər, çünki Qarabağın yenidən təşkilindən sonra orada qalmağın mənası yoxdur və əhalinin müsəlman hissəsi ona xəyanətkar kimi baxır[373].

Sentyabrın 18-də Muxtar Qarabağ Dağlıq Vilayəti MİK-in qərarı ilə Xankəndi şəhərinin adı dəyişdirilərək, 1918-ci ildə azərbaycanlılara qarşı soyqırımının təşkilatçılarından biri olmuş bolşevik Stepan Şaumyanın şərəfinə Stepanakert qoyuldu.

Azərbaycan K(b)P MK Rəyasət Heyətinin 1923-cü il oktyabrın 8-də keçirilən iclasında (protokol №40, 1-ci bənd) Dağlıq Qarabağ üzrə komissiyanın işi müzakirə edildi. İclasda Rəyasət Heyətinin üzvləri Kirov,

---

[370] Статистический справочник по Азербайджану на 1926 год. Под. ред. В.Смирнова. Баку, 1927, с.20.

[371] Резолюция заседание от 12.08.1923. –ARSSA, f.1, siy.38, iş 186b, v.39.

[372] Секретарь ЦК АКП Киров – тов. Ханбудагову (АзЦИК). 11.09.1923. №2943/Д. – ARSSA, f.1, siy.4, iş 51, v.56.

[373] Заявление Биниятова ЦК А.К.П. 08.09.1923. – ARSSA, f.1, siy.4, iş 9, v.166.

Xanbudaqov, Qarayev, Quliyev, Mirzoyan, Bünyadzadə, R.Axundov, Pleşakov, Krılov, namizədlər Çaqin, Konuşkin, MK-nın şöbə müdirləri Şahbazov, İşkova, Maşkeviç, Mərkəzi Nəzarət Komissiyasından Vasek, MK üzvləri Qasımov, Məmmədxanov, Karakozov, Azərbaycan Kommunist Gənclər İttifaqı MK-dan Sorokin iştirak edirdilər. İclasın sədri Kirov, katibi İnozemtsov idi. İclasda "Dağlıq Qarabağa muxtar vilayət verilməsi haqqında MK qərarlarını həyata keçirən komissiyanın qaydaların təhqiqi üzrə məruzəsi" dinlənildi. Qərara alındı ki, Muxtar Vilayətin yaradılması haqqında qərarın əhali, xüsusən türk əhalisi arasında təbliği başa çatmamışdır. Qarayevə muxtariyyətin mahiyyəti haqqında daha geniş təbliğat aparmaq tapşırıldı[374].

MK Rəyasət Heyətinin qərarlarına uyğun olaraq M.Bağırov, E. Xanbudaqov və İ. Dövlətov 1923-cü il oktyabrın 16-da Qarabağa səfər etdilər. Yerlərdə vəziyyətlə tanış olduqdan sonra M.Bağırov Azərbaycan K(b)P MK-ya "Qarabağın vəziyyəti haqqında məruzə qeydlər"ini yazıb təqdim etdi. Məruzə Qarabağdakı vəziyyəti real əks etdirirdi. Bağırov yazırdı ki, Qarabağ keçmiş zamanlarda 4 qəzadan – Zəngəzur, Qaryagin, Şuşa və Cəbrayıldan ibarət idi. Bu qəzalar Yelizavetpol quberniyasının tərkibinə daxil idilər. Aran Qarabağda tamamilə türklər məskunlaşmışdır, Qarabağın dağlıq hissəsində isə ermənilər üstünlük təşkil edirlər, onların arasında ayrı-ayrı kəndlərdə türklər də yaşayırlar. İqtisadi və coğrafi cəhətdən Qarabağın bütün qəzaları bir-biri ilə sıx bağlı idi. Daha sonra Bağırov vilayətdə buraxılan səhvlərdən yazırdı. Bildirirdi ki, qarışıqlıq dövründə ermənilərin Sarov kəndini tutan müsəlman kolanılıların onların kəndini, ermənilərin isə tutduqları kolanılıların yerlərini boşaltmağa dair bizim Mərkəzi orqanların bir neçə qərarı var idi. Bizim yoldaşların məsələyə cinayətkarcasına yanaşması nəticəsində sarovlular öz kəndlərinə keçmək əvəzinə kolanılıların yerlərində qalmışlar. Beləliklə, 5 min nəfərədək kolanılı qeyri-müəyyən vəziyyətdə qalmışdır. Kolanılıların Qarabağın ən narahat elementləri olduğunu yazan Bağırov vurğulayırdı ki, əgər onlar indiyədək susurlarsa, yalnız hakmiyyət tərəfindən məsələnin ədalətli həll olunacağını gözləyirlər. Daha sonra qeyd edirdi ki, yerlərdəki məsul işçilər ağır səhvlərə yol vermişlər, hətta müsəlman qəbiristanlıqlarını ermənilərə vermişlər və hazırda müsəlman torpaqlarını bu yerlərlə qətiyyən əlaqəsi olmayan ermənilər əkib-becərirlər, müsəlmanlar isə oturub məsələnin həllini gözləyirlər. Yazırdı ki, Xankəndi, Şuşa və Abdallar rayonunda bir sıra müsəlman kəndləri vardır: əhalisi 8 min

[374] Протокол №40 заседание Президиума Центрального Комитета Азербайджанской Коммунистической Партии (б-ов). – ARSSA, f.1, siy.31, iş 186a, v.66-67.

nəfərədək olan Xəlfəli, Zarıslı, Müsəlmanlar və digərləri Xankəndindən deyil, Abdallardan daha yaxşı idarə oluna bilərlər. Bu kəndləri Xankəndiyə ona görə aid etmişlər ki, bu kəndlərin arasında əhalisi 1500 nəfər olan erməni Qaradərəsi kəndi yerləşir. Bütün bu rayon nədənsə Xankəndiyə birləşdirilmişdir? Həmçinin əhalisi müstəsna olaraq müsəlman olan 10 min nəfərədək Şuşa şəhəri də Kürdüstan qəzasına birləşmək istəyir. Cavanşır qəzasında onlarla müsəlman kəndi arasında bir erməni kəndi olduğu üçün, bu müsəlmanların başı üstündən bütün qəza Xankəndinə birləşdirilmişdir. Bağırov bu məsələləri Muxtar Vilayətdə işləyən məsul şəxslərin səhvləri və şəraiti bilməməsi ilə əlaqələndirirdi. Bağırov təkliflərini irəli sürür və hətta Muxtar Vilayətdə çalışan Çaliyanın (Çalyan) geri çağırılmasının vacib olduğunu bildirirdi [375].

M.Bağırovun məktubu Dağlıq Qarabağın muxtariyyətinin və ona ərazilər ayrılmasının süni surətdə, özbaşınalıqla və azərbaycanlıların maraqları qətiyyən nəzərə alınmadan, məsuliyyətsizliklə edildiyini göstərirdi. Məhz bu fəaliyyət nəticəsində azərbaycanlılar ağır vəziyyətə düşmüşdülər.

Azərbaycanlılar yaşayan kəndlərin DQMV-nin tərkibinə daxil edilməsi əhalidə kəskin narazılıq yaradırdı. Belə kəndlərdən biri Ağdam qəzasının Şirvanlı sahəsinin Sırxavənd kəndi idi. Ermənilərin yaşamadığı, sakinləri azərbaycanlı olan Sırxavəndın DQMV-yə verilməsi etirazlar doğurdu. Bakıya çoxlu şikayət məktubları göndərildi. Azərbaycan SSR xalq daxili işlər komissarının müavini 1923-cü il 20 oktyabr tarixli 12347 saylı yekun rəyində şəxsən E.Xanbudaqova yazırdı:

*"Sarxavənd (Sırxavənd) kəndinin Şirvanlı sahəsinə birləşdirilməsi məsələsinə dair Azərbaycan FK-nın təqdim etdiyi 5077 saylı 3 səhifəlik yazışmasına baxdıq və belə bir qənaətə gəldik ki, adı çəkilən kəndin əhalisi bir tərəfdən, qətiyyən erməni dilində bilmir, digər tərəfdən isə göstərilən kənd daha çox ticarət mərkəzi olan Ağdama meyil edir. Sırxavənd kədlilərinin xahişini yerinə yetirərək onu Ağdam qəzasının Şirvanlı (sahəsinə birləşdirməyi tövsiyə edərdim"* [376].

Məsələni araşdırmaq üçün Azərbaycan K(b)P MK işlər müdiri hələ 1923-cü il oktyabrın 5-də 3415 saylı "tamamilə məxfi" məktubunu Ağdam qəza Partiya Komitəsinə göndərmişdi. Qəza Partiya Komitəsinin məsul katibi Sultanov və təşkilat şöbəsi müdirinin əvəzi X.Xudiyevin 22 dekabr 1923-cü il tarixində göndərdikləri "tamamilə məxfi" cavab

---

[375] "Докладная записка о состоянии Карабаха" члена ЦК АКП М.Д. Багирова. – ARSSA, f.1, siy.4, iş 10, v.4-9.

[376] Замнаркомвнуддел. Заключение. Лично т. Ханбудагову. 20.11.1923. №12347. – ARDA, f. 379, siy.3, iş 1733, v.69.

məktubunda yazırdılar ki, müsəlman kəndi olan Sırxavənd özünün coğrafi yerləşməsinə görə Crabet rayonunun içərilərində 2-3 erməni kəndinin arxasında yerləşir və onun soveti erməni Kiçan kəndi ilə qarışmışdır. Qəza Partiya Komitəsi milli və iqtisadi baxımdan Sırxavənd kəndinin Ağdam qəzasının Şirvanlı sahəsinə birləşdirilməsini zəruri hesab edir[377].

Bu məktub 29 dekabr tarixində Azərbaycan MİK-in Dağlıq Qarabağ üzrə komissiyasına göndərildi. Azərbaycan K(b)P MK isə 1923-cü il 31 dekabr tarixli 3949 saylı məktubunda məsələnin müzakirəsini komissiya gəlib araşdırana qədər dayandırmağı təklif etdi. Eyni zamanda bu məsələyə dair 9 səhifəlik yazışmanı da əlavə etdi[378].

Uzun müzakirələrdən sonra Sırxavənd kəndi alınıb DQMV-nin tərkibinə daxil edildi. Qeyd etmək lazımdır ki, 1921-ci il məlumatına görə Sırxavənd kəndinin 514 nəfərlik əhalisinin hamısı yalnız azərbaycanlılar idi.

M.Qasımovun sədrliyi altında 1923-cü il noyabrın 23-də keçirilən sovetlərin II çağırış Azərbaycan MİK plenumunun IV sessiyasının iclasında “Dağlıq Qarabağ Muxtar Vilayətinin əsasnaməsi haqqında” məsələ müzakirə edildi. Məruzə ilə M.Xanbudaqov çıxış etdi. Məsələnin Rəyasət Heyətinin müzakirəsinə verilməsinə dair qərar qəbul edildi.[379]

Bundan az sonra, 1923-cü ilin noyabrın 27-də Azərbaycan tərəfi Dağlıq Qarabağda aclıq çəkən sakinlərə yardım etdi. Bu barədə Azərbaycan XKS işlər müdiri Məmmədov Azərbaycan K(b)P MK-ya yazdığı 25 dekabr tarixli 1495/s saylı məxfi məktubu ilə məlumat verdi[380].

1923-cü il dekabrın 17-də Azərbaycan K(b)P MK Rəyasət Heyətinin iclasında (protokol №57) “Dağlıq Qarabağ komitəsinin tərkibi haqqında” məsələ müzakirə edildi. Qəbul edilən qərara görə tərkibi Karakozov, Şuşa (?), Cavanşir (Ağazadə), Cəbrayıl (Məmmədxanov), Tavakozin, Papzyan və Şadunçdan ibarət olan komitə təsdiq edildi. RK(b)P Zaqafqaziya Diyar Komitəsindən xahiş edildi ki, Ermənistan XKS katibi Papezyanı və Zəngəzur qəza komitəsinin katibi Fanokolyansı Dağlıq Qarabağ komitəsində işləmək üçün Ermənistanda işdən azad etsin. M.Bağırova tapşırıldı ki, göstərilən tərkibi təcili olaraq XKS-dən keçirsin.

---

377 Ответственный секретарь Султанов, за зав.орготделом Х.Худиев. Управление делами ЦК АКП (б-ов). Совершенно секретно. 22.12.1923. №5069/д. – ARDA, f.379, siy.3, iş 1733, v.64.

378 Секретарь ЦК АКП – Комфракции АзЦИК-а. 31.12.1923. Секретно. – ARDA, f.379, siy.3, iş 1733, v.63.

379 Протокол заседания 4-й очередной сессии пленума Азербайджанского Центрального Комитета Советов 2-го созыва от 23-го ноября 1923 г. – ARDA, f. 379, siy.3, iş 145, v. 46.

380 Управделами Совнаркома Мамедов в ЦК АКР на №№ 3236/Д и 3284/Д. Совершенно секретно. 25.12.1923. №1495/с. –ARSSA, f.1, siy.4, iş 51, v.85.

Karakozova tapşırıldı ki, komitənin ehtiyacı olan smetanı təcili tərtib edib, XKS-nin axşam iclasına təqdim etsin. Karakozova 2 həftəlik Yerevana ezamiyyətə getməyə icazə verildi[381].

Həm Karakozovun, həm də Ermənistan rəhbərliyinin Dağlıq Qarabağ məsələsinə dair mövqeyi məlum idi. Onlar yaradılan muxtariyyət üçün daha çox ərazilər və səlahiyyətlər qoparmağa çalışırdılar. Karakozovun Yerevandakı görüşlərinin başqa bir məqsəd daşıdığını düşünmək yanlışlıq olardı.

Beləliklə, sovet rəhbərliyi Azərbaycanın tarixi ərazisinin vahidliyinə xələl gətirərək süni surətdə DQMV-ni yaratdı. Azərbaycanın ərazi bütövlüyünə qəsdin edilməsi bir sıra daxili və xarici amillərlə bağlı idi. Hər şeydən əvvəl, partiya və sovet orqanlarında məsul vəzifələrə yerləşmiş ermənilər Azərbaycandan Qarabağın dağlıq hissəsini qopartmaq üçün çalışırdılar. Onlar sayca azərbaycanlılardan və gürcülərdən çox idi. Belə bir fakt diqqəti cəlb edir ki, 1923-cü il iyunun 1-nə olan məlumata görə Zaqafqaziya Diyar Partiya Komitəsində işləyən cəmi 80 nəfər əməkdaşın 12 nəfəri (15%) gürcü, 28 nəfəri (35%) erməni, 2 nəfəri (2,5%) azərbaycanlı, 25 nəfəri (31,2%) rus, 13 nəfəri (16,5%) isə digər millətlərin nümayəndələri idi. Zaqafqaziya Diyar Gənclər Təşkilatları İttifaqında çalışan 24 nəfərin 8-i (33,3%) erməni, 13-ü (54,2%) rus, 3-ü (12,5%) isə digər millətlərin nümayəndələri idi. Burada azərbaycanlı və gürcülərdən kimsə yox idi. Zaqafqaziya Həmkarlar İttifaqları Komitəsinin Bürosundakı 18 nəfərin 2-si (11,1%) gürcü, 6-sı (33,3%) erməni, 8-i (44, 5%) rus, 2-si (11,1%) digər millətlərin nümayəndələri idi. Burada da azərbaycanlılar təmsil olunmurdular. Ermənilər digər strukturlarda da özlərinə yer etmişdilər. Belə ki, Gürcüstanda vilayət, şəhər, rayon partiya təşkilatı katibliyinin tərkibinin 20 nəfəri (83, 3%) gürcü, 1 nəfəri (4,2%) erməni, 1 nəfəri (4,2%) osetin, 2 nəfəri (8,3%) digər millətlərin nümayəndələri idi. Azərbaycanlılar və ruslar burada təmsil olunmurdular. Azərbaycanda həmin səviyyədə olan katiblərin 2-si (7,4%) erməni, 12-si azərbaycanlı (44,4%), 10-u (37,0%) rus, 3-ü (11,1%) digər millətlərin nümayəndələri idi. Ermənistanda həmin səviyyələrdə olan katiblərin hamısı – 9 nəfəri (100%) erməni idi[382].

Bu mənzərə hər şeydən əvvəl, sovet Ermənistanında digər millətlərə münasibətdə yürüdülən siyasətin daşnak siyasətindən həm fərqlənmədiyini,

---

[381] Выписка протокола №57 заседания Президиума Центрального Комитета Азербайджанской Коммунистической Партии (б-ов). – ARSSA, f.1, siy.31, iş 186b, v.28.

[382] Закрытое письмо-отчет Заккрайкома РКР №1. 16.08.1923. –ARSSA, f.1, siy.4, iş 43, v.244, 248, 249.

həm də ərazilər qopartmaq üçün partiya təşkilatlarında güclü təsirə malik olduqlarını göstərirdi. Erməni xadimlərini yeni torpaqlar ələ keçirtmək və digər respublikaları zəiflətmək düşündürürdü. Zaqafqaziyanın hakimiyyət orqanlarının milli tərkibinin bu göstəricisi isə sovet siyasətinin çarizm dövründəkindən fərqlənmədiyini təsdiq edirdi. Mərkəzi hakimiyyət özündən daha çox asılı saxlamaq üçün Azərbaycanı zəif görməkdə maraqlı idi.

İkincisi, artıq qeyd edildiyi kimi, gələcəkdə Türkiyənin siyasətinin Qərbə yönələcəyindən, Cənubi Qafqaza gələ bilmək və azərbaycanlı bolşevikləri sovet hakimiyyəti əleyhinə qaldırmaq, Bakı neftini tutmaq ehtimalından narahat olan bəzi sovet diplomatları və siyasətçiləri "yeni bir erməni ocağının" qurulmasında maraqlı idi.

Üçüncüsü, bəzi sovet rəhbər işçiləri erməni xadimlərinin hiyləgərliyinin əsl məqsədini başa düşməyərək "yeni erməni ocağı" yaratmağa tərəfdar olmaqla erməni ictimai rəyinin guya bolşevik hakimiyyətinin xeyrinə dəyişiləcəyinə ümid edirdilər.

Nəhayət, Azərbaycan rəhbərliyinin Mərkəzin təzyiqləri qarşısında tab gətirə bilməməsi də azərbaycanlılara məxsus ərazidə muxtar qurumun yaradılmasına gətirdi.

Tarixi, coğrafi-siyasi, etnik-mədəni gerçəkliyi əks etdirməyərək süni surətdə Muxtar Vilayətin yaradılmasının ağır nəticələri oldu. Bununla, Azərbaycanın vahid ərazisi bölündü. Yerli rəhbərlər Azərbaycanın ərazi bütövlüyü üçün təhlükəni aradan qaldıra bilmədilər. Azərbaycanda milli dövlətçiliyin inkişafı üçün maneənin əsası qoyuldu və gələcək milli nifaqa zəmin hazırlandı. Müxtəlif dövrlərdə köçürülmüş ermənilər üçün muxtariyyət yaradan sovet dövlətinin siyasəti mahiyyətcə çarizmin və Müvəqqəti hökumətin siyasətindən fərqlənmirdi.

Azərbaycan hökuməti ermənilərə mədəni-milli inkişaf üçün bütün şəraiti yaratdı. Muxtar Vilayətinin yaradılması ilə Dağlıq Qarabağı Ermənistana birləşdirmək istəyənlər öz istəklərinə çata bilməsələr də, bütövlükdə, ermənilərin niyyətləri yerinə yetirildi.

1924-cü il fevralın 14-də Dağlıq Qarabağ haqqında əsasnamənin layihəsinə baxan komissiyanın iclası (protokol №2) keçirildi. T.Şahbazinin sədrlik etdiyi iclasda Vəlibəyov və Karakozov iştirak edirdilər. Qərara alındı ki, əsasnamənin deklarativ hissəsi əvvəlki redaksiyada saxlanılsın; Muxtar Vilayətin inzibati ərazisi Qaryagin, Ağdam və Kürdüstan qəzalarına verilən kəndlər daxil edilməklə göstərilsin; Vəlibəyov və Karakozova Muxtar Vilayətin hakimiyyət orqanları (Vilayət İcraiyyə Komitəsi) haqqında əsasnamənin mətnini tərtib etmək tapşırıldı[383].

[383] Протокол №2 заседания комиссии по рассмотрению проекта положения о Нагорном Карабахе от 14 февраля 1924 г. – ARDA, f. 379, siy.3, iş 1733, v.1.

Azərbaycan K(b)P MK Rəyasət Heyətinin 1924-cü il aprelin 17-də Kirovun sədrliyi ilə keçirilən iclasında (protokol №75) 5-ci məsələ kimi "Qarabağ Muxtar Vilayəti məsələləri" müzakirə edildi. İclasda Rəyasət Heyətinin üzvləri Kirov, Bağırov, Bünyadzadə, Qarayev, Quliyev, Mirzoyan, Musabəyov, Pleşakov, Xanbudaqov, üzvlüyə namizədlər Çaqin, Konuşkin, AK(b)P MK-dan M.Qasımov, Nəzarət Komissiyasından Vasek, MK-nın şöbə müdirləri Maşkeviç, Şahbazov, İşkova, Rubanov, türkcə "Kommunist" qəzetinin redaktoru Cəbiyev iştirak edirdilər. Məsələ üzrə Kirov məruzə etdi. Qəbul edilən qərarda yazılırdı ki, Dağlıq Qarabağa muxtariyyət ayrılması üçün məsələlərin həlli üzrə yaradılan komissiyanın işinin uğursuz olduğu etiraf edilsin və Musabəyov (sədr), Bünyadzadə, Bağırov, Karakozov, Dövlətov, Q.Cəbiyev üzvlər olmaqla yeni komissiya qurulsun. Komissiyaya tapşırılırdı ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazisini qəti olaraq müəyyənləşdirsin; həm Muxtar Vilayətin daxilində, həm də onunla ona bitişik qəzalarla torpaq məsələlərini həll etsin; bütün Qarabağda millətlərarası möhkəm mehriban qonşuluq münasibətləri qurmaqla bağlı bütün digər məsələləri aydınlaşdırsın; Musabəyovun məsuliyyəti altında komissiya işi 1924-cü il mayın 1-dək başa çatdırmalı idi. Komissiya öz işinin nəticəsi haqqında AK(b)P MK Rəyasət Heyətinə məruzə etməli idi[384].

1924-cü il mayın 5-də Azərbaycan K(b)P-nin VI qurultayında etdiyi məruzəsində S.Kirov Dağlıq Qarabağın muxtariyyətinin məhz sovet hökumətinin hökmü ilə süni surətdə yaradıldığını aşağıdakı kimi etiraf edirdi:

*"Bizim üçün bu sahədə ən iri, ən mühüm nailiyyət, ola bilsin tam olmasa da, hər halda xeyli dərəcədə Qarabağ deyilən məsələ həll edilmişdir.* ***Bu məsələ Zaqafqaziya Federasiyasının diqtə etdiyi məsələlər cərgəsinə aiddir...*** (seçmə bizimdir – M.Q.)... *Bu məsələ bizdə çoxdan yaranmışdır,* ***hər halda iki il əvvəl*** (seçmə bizimdir – M.Q.). *Bu muxtariyyətin yaradılması keçmişdən ayrılmaq deməkdir. Bu keçmiş zamanlar xalqların bir-biri ilə davalaşması idi. Muxtariyyətin yaradılması ilə unudulmuş məsələlər sanki yenidən qaldırılır. Praktika göstərir ki, bu məsələyə cəsarətlə getmək lazımdır. Bu məsələni nəhayət, biz həll etdik və şübhəsiz, düzgün həll etdik. Bütün məsələ bununla bağlıdır ki, muxtariyyəti necə hüquqi baxımdan real məzmunla dolduraq*" [385].

S.Kirov "tam olmasa da" ifadəsini deməklə, nəyi nəzərdə tuturdu? Dağlıq Qarabağın Ermənistana verilməməsinimi, yoxsa muxtariyyət yara-

---

[384] Протокол №75 яаседание Президиума Центрального Комитета Азербайджанской Коммунистической Партии (болшевиков). – ARSSA, f.1, siy.74, iş 136, v.44-45.

[385] Доклад тов. Кирова на VI съезде АК(б)П. 05.05.1914. – Газ. "Бакинский рабочий", 07.05.1924, №101; ARSSA. f.1, siy.31, iş 186b, v.4-5.

dılmaqla Azərbaycanda saxlanılmasınımı? Dağlıq Qarabağın saxlanılması təzyiqlər altında olan Azərbaycan üçün tam olmasa da, müəyyən nailiyyət idi. Muxtariyyətin yaradılması isə gələcək iddialar, ixtilaflar və milli nifaq üçün yer saxlayırdı.

Erməni xadimləri Muxtar Vilayətin qəbul olunacaq əsasnaməsinə daha çox hüquqların daxil edilməsini istəyirdilər. Bu baxımdan Karakozovun Azərbaycan K(b)P MK katibi Kirova 1924-cü il 3 iyun tarixində yazdığı məktub diqqəti cəlb edir. O, vurğulayırdı:

*" Xalq Ədliyyə Komissarlığının kollegiyası Naxçıvan diyarında ali məhkəmə təşkil etməyi qərara almışdır, bizdə isə yox. Ali məhkəmənin Qarabağda şöbəsinin açılması haqqında Azərbaycan MİK-in dekreti mövcuddur. Mənim fikrimcə, bundan geri çəkilmək (konstitusiyasını dəyişdirmək) siyasi baxımdan münasib deyildir. Digər tərəfdən, Dağlıq Qarabağ muxtar vilayət adlandırılsa da, əslində özünün konstitusiyasının məzmununa görə Naxçıvan diyarından heç nə ilə fərqlənmir. Ona görə də təklif edirəm ki, Naxçıvan diyarına aid olan bütün qərarların Qarabağa da şamil edilməsi məqsədəuyğun olardı"* [386].

Azərbaycan K(b)P MK katibliyinin 1924-cü il iyulun 1-də keçirilən iclasında (protokol №9) Dağlıq Qarabağ haqqında əsasnamə hazırlamaq üçün Azərbaycan SSR Fövqəladə Komissiyasının sədri M.Bağırovun sədrliyi altında Teymur Əliyev və A.Karakozovdan ibarət komissiya yaradıldı[387].

İyulun 3-də Azərbaycan K(b)P MK Rəyasət Heyətinin iclasında (protokol №10) DQMV-nin konstitusiya layihəsi haqqında məsələ müzakirə edilərək bəyənildi[388]. Lakin 1924-cü il noyabrın 26-da DQMV-nin əsasnaməsi qəbul edildi[389]. Sənəddə yazılırdı:

*"1. DQMV Azərbaycan SSR-in tərkib hissəsidir. 2. DQMV-də bütün kargüzarlıq, məhkəmə və məktəblərdə təhsil ana dilində aparılır. 3. DQMV Azərbaycan Respublikasının orqanlarında proporsional prinsipi ilə iştirak edir".*

Əsasnaməyə görə Şuşa şəhəri və Xankəndi daxil olmaqla qəzanın 123 kəndini birləşdirən 16 kənd cəmiyyəti (Qışlaqkənd, Malıbəyli, Pircamallı, Xankəndi, Çanaxçı, Şuşikənd, Arabadüz, Enişkənd, Kağarzin, Skobolev, Sus, Tağ, Taqaver, Çartaz, Xanabad, Tuğ), Cavanşir qəzasının

---

386 А.Каракозов – С.М.Кирову. 03.06.1924. –ARSSA, f.1, siy. 74, iş 142, v.100.
387 Выписка из протокола №9 секретариата ЦК АК(б)П. 01.07.1924. – ARSSA, f.1, siy.74, iş 137, v.95.
388 Протокол №10 заседания Президиума Центрального Комитета АК(б)П. 03.07.1924.– ARSSA, f.1, siy.74, iş 137, v.96.
389 Положение об Автономной Области Нагорного Карабаха. – ARDA, f.379, siy.3, iş 1733, v.2.

54 kəndi əhatə edən 7 kənd cəmiyyəti (Həsənriz, Dövşalı, Qəssabət, Marağa, Minqrel, Orlovo-Denisovo, Talış), Qaryagin qəzasının 32 kəndi əhatə edən 3 kənd cəmiyyəti (Aragül, Hadrut, Ədilli), Qubadlı qəzasının Qaladərəsi kənd cəmiyyəti Muxtar Qarabağ Dağlıq Vilayətinin tərkibinə daxil edildi [390]. Beləliklə, əgər 1923-cü ildə DQMV-yə 196 kənd verilmişdisə, 1924-cü il əsasnaməsinə görə daha bir neçə kənd verildi və onların sayı 211-ə çatdı. Bu, Azərbaycana vurulan ağır bir zərbə idi.

1926-cı ildə keçirilən əhalinin siyahıya alınmasının ilkin yekunlarına görə DQMV-də 125 min 159 nəfər yaşayırdı[391]. Bütün SSRİ-dəki 1 milyon 567 min 500 nəfər erməninin yalnız 743 min 600 nəfəri və ya 47,5 %-i Ermənistan SSR ərazisində yaşayırdı. Gürcüstanda 307 min erməni var idi. Azərbaycandakı 282 min ermənin 111,7 min nəfəri Dağlıq Qarabağda, qalanları respublikanın digər ərazilərində yaşayırdı. 1926-cı il siyahıya alınmasına əsasən azərbaycanlıların sayı 2 milyon 314 nəfər idi[392]. Onların 1 milyon 438 min nəfəri və ya 84,3%-i Azərbaycanda, o cümlədən 88 min 400 nəfəri Naxçıvan diyarında, 12 min 600 nəfəri Dağlıq Qarabağda, 137 min 900 nəfəri Gürcüstanda, 76 min 900 nəfəri Ermənistanda yaşayırdı[393]. Ermənistandakı azərbaycanlılar tarixən kompakt halda məskunlaşmışdılar.

Göründüyü kimi, sovet rəhbərliyi Ermənistanda kompakt şəkildə yaşamalarına baxmayaraq, azərbaycanlılar üçün deyil, Azərbaycanda yaşayan ermənilər üçün muxtariyyət yaratdı. Muxtariyyətin qurulması Mərkəzin Azərbaycan xalqına olan münasibətinin konkret göstəricisi idi. Bununla da sovet rəhbərliyi Azərbaycanı daim özündən asılı saxlamaq və təzyiq etmək üçün imkan qazandı. Muxtariyyətin yaradılması Azərbaycanın altına qoyulmuş "bomba" oldu.

Sovet rəhbərliyinin təzyiqləri altında Muxtar Vilayət yaradıldıqdan sonra ermənilər sakitləşməli idi. Lakin belə olmadı. Zorla əldə etdikləri ilə kifayətlənməyən bəzi ermənilər türk düşmənçiliyini davam etdirirdilər. Düşmənçilik hərəkətlərindən biri İrəvanda törədildi.

---

[390] Положение об Автономной Области Нагорного Карабаха. – ARSSA, f.1, siy.74, iş 137, v.98-99; Решение ЦИК Азербайджана об автономной Нагорно-Карабахской области. 1924. – ARSSA, f. 1, siy. 169, iş 249/II, v. 33-34; О границах Автономной Области Нагорного Карабаха. – ARDA, f.379, siy. 3, iş 1733, v.34-35; ARSSA, f.1, siy.31, iş 186, v.33-34; Проект положения об Автономной Области Нагорного Карабаха. – ARDA, f.379, siy.3, iş 1733, v.29-31.

[391] Всесоюзная перепись населения. 17.12.1926.Краткие сводки.Вып.IV,с. VIII.

[392] Населения СССР. 1987. Статистический сборник. М.,1988, с.11.

[393] Всесоюзная перепись населения. 17.12.1926. Краткие сводки. Вып. IV. Народность и родной язык населения СССР. М.,1928, с. VIII.

## *İrəvan insidenti*

Lozan konfransı başa çatdıqdan bir neçə ay sonra, 1923-cü il oktyabrın 5-6-da erməni milisləri İrəvandakı Türkiyə nümayəndəliyinə soxularaq türk bayrağını təhqir etdilər. Etiraz əlaməti olaraq Türkiyə nümayəndəsi Xeyrəddin İrəvanı tərk edərək Moskvaya gəldi. Milislərin Türkiyə nümayəndəliyinə soxulmasına dair Ermənistan SSR-in Moskvadakı səlahiyyətli nümayəndəsi S.M.Ter-Qabrielyan öz maraqlarına uyğun olaraq G.Çiçerinə oktyabrın 8-də yalan məlumat verdi. Onun məlumatlarına əsaslanaraq elə həmin gün İ.Stalinə yazdığı məktubunda insidentin türk bayrağının endirilməsi ilə bağlı olmadığını yazan G.Çiçerinin fikrincə, bu məsələyə ayrıca baxılmalı idi. O, qeyd edirdi ki, Xalq Komissarları Soveti sədrinin müavini (əslində söhbət Ermənistan SSR Xalq Xarici İşlər Komissarlığından gedir – M.Q.) məsul şəxslərin icazəsi olmadan savadsız və üsulsuz bir kağız yazmış, bayrağın təhqir edilməsi olmamışdır. Milislərlə insidentə gəlincə, əsgərlər türk səlahiyyətli nümayəndəsinin evinin birinci mərtəbəsində olmuşlar. Xeyrəddin ikinci mərtəbədə oturur. Ev birdir. Milis binaya daxil olmamışdır. Milis həyətə daxil olmamış, qapının kandarında post qoymuş, cinayət axtarış üzrə rəis gəldikdə isə post götürülmüşdür. Türkiyə nümayəndəliyindən üzr istənilmişdir. Beləliklə, bəzi diqqətsizliklər olmuşdur, lakin ciddi deyildir. Cinayət axtarış üzrə rəis işdən azad edilmişdir. G.Çiçerin daha sonra yazırdı ki, tamamilə aydındır, vəzifəli şəxslər hər hansı bir yanlışlığa görə repressiya edilməlidir. Lakin məsələ ondan ibarətdir ki, hər hansı bir formada türk hökumətindən üzr istəmək lazımdırmı? G.Çiçerin İrəvan hakimiyyətinin bu istiqamətdə atdığı addımı tamamilə kifayət hesab edir, türk hökumətindən üzr istəməyi lüzumsuz sayırdı.

İnsidentin erməni və türk nümayəndələri tərəfindən tamamilə fərqli şərh edildiyini qeyd edən, Türkiyə nümayəndəsi Xeyrəddinin aldatdığını, yoxsa yanlış informasiyanın mənbəyinin başqa bir yerdə olduğunu müəyyənləşdirə bilmədiklərini yazan G.Çiçerinin fikrincə, kifayət qədər ehtiyatlı olan İsmət (İsmət İnönü nəzərdə tutulur – M.Q.) əgər başqası bunu ona deməmişsə və yanlış məlumat verməmişsə, sovetlərlə münasibətləri kəskinləşdirməyə getməzdi. Buna görə də o, təklif edirdi ki, Naçarenus türklərə birbaşa deməlidir: kimlərsə faktları təhrif etməklə münasibətləri pozmaq istəyir[394].

İnsident Türkiyədə narahatlıqla qarşılandı. Moskvadakı türk səfiri Əhməd Muxtar bu hadisə ilə bağlı olaraq oktyabrın 16-da G.Çiçerinə birinci notasını təqdim etdi. Notada erməni milisinin hərəkətlərinə qəti şəkildə etiraz edilirdi.

---

[394] Письмо Чичерина Сталину. 08.10.1923. – РГАСПИ, ф.159, оп.2, д.57, л.130.

Türkiyə tərəfi nota verməklə kifayətlənmədi. Noyabrın 5-də axşam Xeyrəddin G.Çiçerin ilə görüşərək insidentə dair hökumətinin haqlı tələblərini söylədi. Həmin tələblərə görə Xeyrəddin İrəvana qayıtmalı və türk nümayəndəliyinə hücum edən milis dəstəsinin iştirakı ilə və onların gözü qarşısında türk bayrağı qaldırılmalı idi.

G.Çiçerin türk tərəfinin təklifini bütün Şərq qarşısında alçalma kimi qiymətləndirirdi. Bunun türk səfirinin təşəbbüsü olduğunu güman edən G.Çiçerinin yazdığına görə Əhməd Muxtar əvvəllər də dəfələrlə öz fikirlərini türk hökumətinin mövqeyi kimi və ya bunu fakt kimi təqdim etmişdi. O, bir müddət əvvəl G.Çiçerinə bildirmişdi ki, əgər tələb olunan bəzi haqlar türk konsullarına verilməsə, onda Türkiyədəki bütün sovet konsullarını geri çağırmaq tələb ediləcəkdir. Bu isə SSRİ-ni ağır bir vəziyyətə salırdı. Lakin İsmət Paşa həmin məsələdə Əhməd Muxtarı müdafiə etməmişdi. G.Çiçerin ona görə də Xeyrəddinin İrəvana qayıtması və türk bayrağının qaldırılması tələbinin Əhməd Muxtara aid olduğunu güman edirdi.

Münaqişə, görünür, rus – türk münasibətlərini pozmağa çalışan erməni xadimləri tərəfindən törədilmişdi. G.Çiçerinin fikrincə, münaqişə SSRİ-nin Türkiyədəki nüfuzuna zərbə vurmaq üçün edilmişdi. Çünki SSRİ-nin Türkiyədə geniş xalq kütlələri, xırda və orta burjuaziya arasında xeyli nüfuzu var idi, insanlar ona rəğbət bəsləyirdilər. G.Çiçerin yazırdı ki, insident və türklərin təhqir edilməsi Türkiyənin SSRİ siyasətinə təsir edir, Sovet İttifaqının nüfuzunu düşürür, sovet rəhbərliyinin erməniləri himayə etməsi haqqında rəy yaradır. Bununla belə, türklərə güzəştə gedilməsini bütün Şərq qarşısında alçalma hesab edən G.Çiçerinin yazdığına görə bu zaman türk səfiri Əhməd Muxtar məxfi məlumatlara əsasən SSRİ-nin dağılmaq vəziyyətində olduğu qənaətində idi. Alçalmağa getmək G.Çiçerinin fikrincə, dağılmanı, iflası və zəifliyi göstərərdi. O, Qafqazdakı yoldaşlardan doğru cavab almadığından şikayət edirdi. İ.D.Oraxelaşvili və S.M.Ter-Qabrielyan bir cavab verə bilmirdilər. Ermənistan xalq xarici işlər komissarının müavini Lukaşin əvvəlcə bildirmişdi ki, türk bayrağının endirilməsini heç kim tələb etməmişdir. Sonra isə demişdi ki, insident onun katibinin müavininin Xeyrəddinə şifahi məktub göndərməsi nəticəsində olmuşdur.

Baş vermiş insident haqqında türk versiyası belə idi: Ermənistan SSR Fövqəladə Komissiyası bir təxribatçını "silah satmaq" adı altında türk nümayəndəliyinin əsgərinin yanına göndərmişdi. Əsgər tapançanı alarkən onun üzərinə Fövqəladə Komissiyanın əməkdaşları yürümüşdülər. Təxribatçı qaçaraq türk nümayəndəliyində gizlənmişdi. Az sonra bir dəstə silahlı adam türk nümayəndəliyinə hücum etmişdi. Əhməd Muxtar onları çekist, Lukaşin isə milis adlandırırdı. Divardan aşan bu adamlar Xeyrəddindən türk bayrağını tələb etmişdilər. O isə bildirmişdi ki, bunu yalnız

rəsmi müraciət olacağı təqdirdə edə bilər. Belə bir rəsmi müraciəti kağız formasında Lukaşinin katibinin müavini göndərmişdi. Həmin kağız nümayəndəliyə zorakı hücumun tərkib hissəsi olmuşdu.

G.Çiçerin İrəvandakı yoldaşlardan cavab almadıqları üçün pis vəziyyətə qaldıqlarından şikayət edirdi. Sovet nümayəndələri əvvəlcə inkar etdiklərini artıq təsdiqləyirdilər. G.Çiçerinin fikrincə, bu, türk diplomatiyası qarşısında sovet xadimlərini zəif vəziyyətə düşürürdü. Onu Türkiyə hökumətinin belə alçaldıcı tələblərdə necə iştirak etməsi də maraqlandırırdı. İrəvandan konkret və tam bir cavab almaq istəyən G.Çiçerin yazırdı:

*"Məgər partiya erməni kommunistlərindən ciddi bir cavab ala bilmirmi?"*

Vəziyyətdən agah olmadıqları üçün qərar qəbul edə bilmədiklərini, İrəvandakı yoldaşların hərəkətlərini ciddi qiymətləndirən G.Çiçerin İ.Stalinə yazırdı ki, o, indi üç həftə müddətində baş vermiş insident üçün Əhməd Muxtarın qarşısında xoşagəlməz vəziyyətdədir[395].

İrəvan insidenti mətbuatda işıqlandırılmış və bütün türk ictimaiyyətini hiddətləndirmişdi. İlk vaxtlar qəzəbli olan mətbuat türk səfirliyinə hücumu və türk bayrağının təhqir edilməsini hiddətlə pisləyirdi. Türkiyədə ermənilər əleyhinə əhval-ruhiyyə artırdı. Mətbuat bu hadisədə məsuliyyəti sovet Rusiyasının üzərinə qoyur və hökumətdən tələb edirdi ki, Türkiyəyə münasibətdə səmimiliyini qorusun. Daha ehtiyatlı olan rəsmi mövqe isə bunu daşnakların rus – türk dostluğunu pozmağa yönəldilən cəhdi kimi qiymətləndirir, münaqişənin tərəflərə xələl gətirməyəcək bir halda həllini zəruri sayırdı. "Tovhidi Əfkar" və ermənilərin "Cağadamart" qəzetlərindən başqa bütün mətbuat rus – türk dostluğunun qorunmasının vacibliyini vurğulayırdı[396].

İnsident aradan qaldırıldı. Xeyrəddin İrəvana qayıtdı. Lakin az sonra xarici ölkələrin Cənubi Qafqazdakı diplomatik nümayəndəlikləri ləğv edildi. Bütün xarici siyasət fəaliyyəti Mərkəzin əlində cəmləşdirildi.

Bu zaman ermənilərin Cənubi Qafqaza yerləşdirilməsi işi davam etdirilirdi. Başlıca məqsəd tarixdə olmamış "Böyük Ermənistan" qurmaq üçün yeni ərazilər ələ keçirtmək idi.

---

[395] Письмо Чичерина Сталину, копии членам Политбюро, членам коллегии НКИД и Орахелашвили, Элиаве и Тер-Габриеляну. 05.11.1923. – РГАСПИ, ф.159, оп.2, д.57, л.141-143.

[396] Письмо Сурица Чичерину. 14.11.1923. – РГАСПИ, ф.159, оп.2, д.56, л.119-125.

# VIII FƏSİL

# ERMƏNİLƏRİN CƏNUBİ QAFQAZA YERLƏŞDİRİLMƏSİ, AZƏRBAYCAN VƏ TÜRKİYƏ ƏLEYHİNƏ FƏALİYYƏTLƏR

## *Ermənilərin gətirilməsi davam etdirilir*

Ermənistan rəhbərliyi xaricdən daha çox ermənininin gətirilməsini istəsə də, bunun üçün tələb olunan vəsaiti respublika büdcəsindən xərcləməkdə maraqlı görünmür, əsasən Mərkəzdən maliyyə vəsaitini qopartmağa çalışırdı. Mərkəzi hökumət isə fərqli düşünürdü. G.Çiçerin 1923-cü il noyabrın 19-da İ.Stalinə, RK(b)P MK Siyasi Bürosu və XXİK kollegiyasının üzvlərinə yazırdı ki, A.Myasnikovdan alınan şifrəli teleqramdan aydın olur, İstanbuldan 250 min nəfər ermənininin köçürülməsinə dair Lozanda aparılan işdən onun xəbəri yoxdur. Ermənilərin yalnız öz hesablarına köçürülməsi şərtini irəli sürən G.Çiçerinin yanına bu məqsədlə hətta Amerika kilsəsi nümayəndələri də gəlmişdilər. Bununla bağlı olaraq o, yazırdı:

*"Biz heç bir zaman ermənilərin köçürülməsi üçün öz pullarımızı xərcləməyi nəzərdə tutmamışıq"* [397].

A.Myasnikov isə yalnız 10 min ermənininin, xüsusən sənətkarların Qafqaza köçürülməsini mümkün sayaraq, gəlmələri Gürcüstan və Ermənistan arasında bölüşdürməyi təklif edirdi. Onun fikrincə, sənətkarlar öz vəsaitləri hesabına Qafqaza gələ bilərdilər. Bu qədər ermənininin qəbulu üçün imkanın olmasını yaxşı qiymətləndirən G.Çiçerin qeyd edirdi ki, sənətkarlar öz hesablarına yaşaya və köçüb gələ bilməzlər. A.Myasnikovun qaldırdığı məsələ büdcə ilə bağlı idi. G.Çiçerin yazırdı ki, müvafiq büdcə vəsaitinin tapılması yaxşı olardı. A.Myasnikov isə vəsaitin tapılması barədə bir söz demirdi. Çünki Ermənistanın ermənilərin köçürülməsi üçün maliyyə imkanı yox idi.

Erməniləri xarici ölkələrdən gətirərək Ermənistana yerləşdirməkdə sovet dövlətinin başlıca məqsədi Cənubi Qafqaz regionunun türk, müsəlman əhalisi ilə Türkiyənin coğrafi bağlılığını zəiflətmək, mümkün olardısa qırmaq, sərhəd rayonlarına özünə "etibarlı ünsürlər"i yerləşdirmək, demoqrafik şəraiti dəyişdirmək, Qərb dövlətlərini gələcəkdə sovet ərazilərinə yaxın buraxmamaq, ermənilərin saxta təbliğatı nəticəsində Avropa ölkələrində və ABŞ-da yaradılmış uydurma əzabkeş obrazı haqqında ictimai rəyi öz tərəfinə çəkmək idi. Lakin sovet dövləti həmin

---

[397] Письмо Чичерина Сталину, всем членам Политбюро и членам коллегии НКИД. 19.11.1923. – РГАСПИ, ф.159, оп.2, д.57, л.146.

niyyətlərini reallaşdırmaq üçün özünün maliyyə vəsaitlərini xərcləməkdə maraqlı deyildi.

Ermənistan rəhbərlərinin məqsədi isə sovet dövlətinin bu siyasətindən istifadə edərək tarixi torpaqlarında yaşayan azərbaycanlıları sıxışdırmaq, onların hər cür şəraiti olan evlərinə və təsərrüfatlarına gəlmə erməniləri yerləşdirmək, demoqrafik şəraiti dəyişdirmək, Ermənistanı erməniləşdirmək, əraziləri tədricən genişləndirmək və gələcəkdə "Böyük Ermənistan" yaratmaq üçün zəmin hazırlamaq idi.

Sovet dövləti məqsədinə nail olmaq üçün konkret qərarlar qəbul etdi. RK(b)P MK Siyasi Bürosunun 1923-cü il noyabrın 22-də keçirilən iclasında (protokol №47) "Türkiyədən olan qaçqın ermənilər haqqında" məsələ müzakirə edildi[398]. Məsələyə dair qəbul edulən məxfi qərarda 10 min nəfər ermənінin Türkiyədən SSRİ hüdudlarında qəbul edilməsinə etiraz olunmurdu. Amma həmin köçürmə üçün dövlət büdcəsindən maliyyə vəsaiti ayrılmayacaqdı.

Türkiyədən gətirilən ermənilərin bir qismi Cənubi Qafqaza, o cümlədən Azərbaycana yerləşdirildi. Bununla kifayətlənməyən, sovet hökuməti Moskva və Kars müqavilələrini kobudcasına pozaraq, 1923-cü ildə Naxçıvanın azərbaycanlılar yaşayan 9 kəndini Ermənistana verdi. Lakin verilən kəndlər sonuncu olmadığı kimi, ermənilərin Cənubi Qafqaza gəlişi də dayanmamışdı. Gəlmələr özləri ilə düşmənçilik hissləri və yeni əsassız ərazi iddiaları gətirirdilər.

Türkiyənin Canik vilayətində yaşayan 200-dək erməni Ermənistana köçmələrinə icazə verilməsi barədə 1924-cü ildə Samsundakı sovet konsulluğuna müraciət etdi. Türk hökuməti İstanbuldakı patriarx vasitəsi ilə onların Türkiyədə qalması imkanlarını öyrənmişdi. Çoxu fəhlə və kəndli olan bu şəxslərin arasında imkanlı xırda və iri tacirlər də var idi.

Həmin məsələ haqqında SSRİ Xalq Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin bölmə müdiri Pastuxov XXİK-in ZSFSR yanında səlahiyyətli nümayəndəsi Y.Y.Strauyana və ZSFSR-in Moskvadakı nümayəndəsi S.M.Ter-Qabrielyana martın 31-də 339/VB №-lı məxfi məktubla məlumat verdi və ZSFSR hökumətinin razılıq verib-verməməsini soruşdu[399]. ZSFSR hökuməti ermənilərin yerləşdirilməsinə icazə verdi[400]. Az sonra, 1924-cü ildə 3 min 507 nəfər erməni Ermənistana gətirildi[401].

---

[398] Решение Политбюро ЦК РК(б)П о беженцах армян из Турции. 22.06.1922. Протокол №47. Секретно. – РГАСПИ, ф.17, оп.3, д.395, л.1.

[399] Зав. п/отделом Ближнего Востока НКИД СССР Пастухов – уполномоченному НКИД в Тифлисе Страуяну, представителю Закавказских Республик в Москве Тер-Габриеляну. 31.03.1924. №ВБ/339. Секретно. – GMƏYTA, f.617, siy.1, iş 370, v.58.

Zaqafqaziya MİK Kiçik Rəyasət Heyətinin 1925-ci il mayın 19-da keçirilən iclasında (protokol №12) xaricdən gətirilən bir qrup erməninin Naxçıvana yerləşdirilməsi haqqında qərar qəbul edildi[402]. 1925-ci ildə İstanbuldan 508, Yunanıstandan isə 460 nəfər erməni gətirildi. Sovet hökuməti strateji niyyətləri naminə gəlmələr üçün əlverişli şərait yaradaraq, onları üç il müddətində bütün vergiləri ödəməkdən azad etdi[403].

Ermənistan SSR XKS və İqtisadiyyat Şurasının işlər müdiri V.Malxazya və Əmək miqrasiyası üzrə komissiyanın katibi K.Qorçunyan 1925-ci il dekabrın 22-də ZSFSR XKS və Ümumittifaq İqtisadi Şurasının işlər müdirinə məktub yazaraq, xaricdən gətirilmiş 10 min nəfər erməninin 1925-1926-cı illərdə, eyni zamanda 35 min nəfər torpaqsız kəndlinin 5 il ərzində respublika daxilində yerləşdirilməsinə dair müraciət etdi[404]. Ermənistan hökuməti 10 min nəfər ermənini yerləşdirmək üçün 1 milyon 462 min 202 rubl, 35 min nəfər ermənini yerləşdirmək üçün isə 4 milyon 554 min 490 rubl vəsait istəyirdi[405]. Onların 70%-ni Sərdarabad düzənliyində və Araz çayı boyunca yerləşdirmək nəzərdə tutulmuşdu. 10 min erməninin bir hissəsi artıq Batuma gəlmiş, digər hissəsi Ermənistana yerləşmişdi, qalan hissəsi isə 1926-cı ilin yazında gəlməli idi. Ermənistan tərəfi bu qədər məbləğin ayrılmasını *"həm SSRİ, həm də Ermənistan SSR xarici siyasətinin qarşılıqlı münasibətləri kimi zəruri"* hesab edirdi. Həmin siyasət ermənilərin yerləşdirilməsini, onlar üçün təsərrüfatların yaradılmasını və maddi yardım verilməsini nəzərdə tuturdu. Ermənistan rəhbərliyi gətirilən

---

[400] Секретарь представительства ЗСФСР – управделами Совнаркома ЗСФСР Иванишвили. 03.04.1924. №92/сек. – GMƏYTA, f.617, siy.1, iş 370, v.59.

[401] СНК ССР Армении. Беженский вопрос. – GMƏYTA, f.617, siy.1, iş 506, v.277-282.

[402] Решение Малого Президиума Зак.ЦИК-а.19.05.1925. Протокол № 12. – GMƏYTA, f.607, siy. 1, iş 327, v. 2.

[403] СНК ССР Армении. Беженский вопрос. – GMƏYTA, f.617, siy.1, iş 506, v.277-282.

[404] СНК ССР Армении – в управление делами СНК и ВЭС ЗСФСР. 22.12.1925. №168/16197. – GMƏYTA, f.617, siy.1, iş 506, v.220. СНК ССР Армении – в управление делами СНК и ВЭС ЗСФСР. 22.12.1925. №168/16197. – GMƏYTA, f.617, siy.1, iş 506, v.220.

[405] Выписка из протокола №4 заседания комиссии трудовой иммиграции СНК ССРА. 14.12.1925. – GMƏYTA, f.617, siy.1, iş 506, v.226; Обоснование расчетов, произведенных ЗНКФ по представленной СНКомом ССР Армении, смете расхода по приему, переброске на месте, размещению и устройству 10.000 душ беженцев, прибывающих из заграницы в ССР Армению на 1925/1926 б.год. – GMƏYTA, f.617, siy.1, iş 506, v.266-266 a; Смета расходов НКЗ ССР Армении по приему, переброске на месте, размещению и устройству 10.000 душ беженцев, прибывающих из-за границы в ССР Армения. 1925-1926. – GMƏYTA, f.617, siy.1, iş 506, v.267-269.

ermənilər üçün əlverişli şərait yaradılmayacağı təqdirdə SSRİ-nin nüfuzunun guya düşəcəyindən hiyləgərliklə istifadə edərək yazırdı:

*"Əgər biz bu imkanları yaratmasaq, onda 10 min nəfərin gəlməsi həm ölkə və həm də hökumət üçün çıxılmaz vəziyyət yaradar; belə vəziyyətin əks-sədası SSRİ hüdudlarından kənarda eşidilər və onun nüfuzuna güclü xələl gətirər. Onların yerləşdirilməsi həmçinin pambıqçılığın məhsuldarlığını 70% artırar"* [406].

Ermənistan rəsmilərinin İttifaq büdcəsindən almaq istədikləri məbləğin şişirdildiyini bildirən, gələn ermənilərin ehtiyacının yerlərdə ödənilməsini ən yaxşı metod hesab edən ZSFSR xalq maliyyə komissarının müavini Y.M.Qenkin yazırdı ki, 10 min nəfər erməninin köçürülməsi və yerləşdirilməsi üçün Xalq Maliyyə Komissarlığının imkanı yoxdur. İkinci smetada artıq qeyd edildiyi kimi, 35 min erməninin beş il müddətində (1925-1926-cı, 1926-930-cu illərdə) hər il 7 min nəfər olmaqla yerləşdirilməsi nəzərdə tutulmuşdu. Y.M.Qenkin bu məbləğin ödənilməsinə respublika orqanları tərəfindən müvafiq qaydada baxılmasını tövsiyə edirdi[407].

ZSFSR XKS və Ümumittifaq İqtisadi Şurasının işlər müdiri bu məsələyə baxmaq üçün 1926-ci il yanvarın 4-də ZSFSR Maliyyə Komissarlığına göndərdi[408]. Yanvarın 28-də təkrarən müraciət edərək işin sürətləndirilməsini istədi[409]. Gətirilən ermənilər yerləşdirildi.

1927-1929-cu illərdə də Türkiyədəki ermənilərin bir qismi SSRİ-də yaşamaq üçün müraciət etdilər. Onların Cənubi Qafqaza gəlişi davam edərkən Ermənistan rəhbərləri də Azərbaycana qarşı əsassız ərazi iddialarını dayandırmamışdılar. Ermənistan rəhbərliyi torpaq qopartmaq üçün əsassız iddia etdiyi əraziləri Mərkəzin köməyi ilə əvvəlcə "mübahisəli" elan edir, sonra isə müzakirəyə çıxardaraq, yenə də həmin Mərkəzi hökumətin yardımı ilə onları ələ keçirdirdi.

### *Ərazi iddiaları*

Azərbaycan, Ermənistan və Gürcüstan arasında ərazi mübahisələri olduğu üçün Zaqafqaziya MİK Rəyasət Heyətinin 1924-cü il 30 yanvar tarixli qərarı ilə ZSFSR-in tərkibinə daxil olan bu respublikalar arasında

---

[406] Наркомзем А.Эрзинкян. Объяснительная записка. – GMƏYTA, f.617, siy.1, iş 506, v.276.

[407] СНКомам ССР Армении препровождены Заксовнаркомам. 29.01.1926. №21.32425. Управляющий делами СНК и ВЭС-а ЗСФСР – в ЗНКФин. 04.01.1926. №2581. – GMƏYTA, f.617, siy.1, iş 506, v.224.

[408] Управляющий делами СНК и ВЭС-а ЗСФСР – в ЗНКФин. 04.01.1926. №2581. – GMƏYTA, f.617, siy.1, iş 506, v.222.

[409] Управляющий делами СНК и ВЭС-а ЗСФСР – в ЗНКФин. 28.01.1926. – GMƏYTA, f.617, siy.1, iş 506, v.223.

Torpaq, meşə və sudan istifadəqə dair mübahisələrin həlli üzrə komissiya yaradıldı. Komissiya az sonra "Zaqfederasiya respublikaları arasında torpaq və meşə mübahisələrinin həlli üzrə komissiya" adlandırıldı. Onun tərkibinə sədr, MİK Rəyasət Heyətinin təyin etdiyi iki nəfər, üç respublikadan 6 nəfər (hər respublikadan 2 nəfər) daxil edildi. Mütəxəssislərdən də ibarət əməkdaşları olan komissiyanın vəzifəsi respublikalar arasında inzibati-təsərrüfat sərhədlərini müəyyənləşdirmək və sərhəd yerlərində mübahisəli ərazilərin mənsubiyyəti məsələsini tənzimləmək idi.

Zaqafqaziya MİK hələ 1924-cü il 4 sentyabr tarixli II çağırış ikinci sessiya iclasında Zaqafqaziya XKS-ə bu komissiyanın işində iştirak etməyi tövsiyə etmişdi[410]. Məsələyə Zaqafqaziya MİK Torpaq Komissiyasının 1927-ci il 9 yanvar tarixli iclasında baxıldı. Zaqafqaziya MİK Rəyasət Heyətinin 1927-ci il 11 yanvar tarixli iclasında (protokol №2, §5) Torpaq Komissiyasının 9 yanvar tarixli iclas protokolunun (№38) 1-ci bəndi – "Ermənistan SSR-in Zəngəzur və Meğri qəzaları ilə Azərbaycan SSR-in Kürdüstan və Qaryagin qəzalarının inzibati-təsərrüfat sərhədlərinin müəyyənləşdirilməsi məsələsi" Mixa Tsaxakayanın sədrliyi altında müzakirə edildi. Məsələni Zaqafqaziya MİK-in Torpaq Komissiyası təqdim etdi.Torpaq Komissiyasının 9 yanvar tarixli iclas protokolunun 1-ci bəndi təsdiq edildi. Qərara görə Zəngəzur və Kürdüstan qəzaları arasında sərhəd Gorusçaydan Susantəpə dağlarındakı kurqanın cənubuna qədər 64°12' 075/39°9'4525 təsdiq edilirdi. Azərbaycana məxsus Nüvədi, Eynadzor və Tuğut kəndləri torpaqları ilə birlikdə Ermənistan SSR-in Meğri qəzasına verilirdi. Oxçuçay və Bəsitçay hövzəsində yerləşən və əhalisi türk (azərbaycanlı) olan 21 kənd Zəngəzur və Qaryagin qəzaları arasında mübahisəli ərazi kimi qalırdı. Həmin ərazilərin bu və ya digər tərəfə mənsub olması məsələsi açıq saxlanıldı. Sərhədi xırdalığına qədər düzgün müəyyənləşdirmək üçün ilk imkan olduqda Zaqafqaziya MİK üzvü V.Sturuanın sədrliyi altında Azərbaycan və Ermənistan xalq torpaq komissarları yerlərə göndəriləcək, onların sərəncamına yerölçən də veriləcəkdi.

Qərarın 7-ci bəndində Qazax və Dilican qəzaları arasında Şınıx Ayrım rayonunda inzibati-təsərrüfat sərhədlərinin müəyyənləşdirilməsi üçün Azərbaycan və Ermənistan MİK-lərə iki həftə vaxt verildi. Onlar digər yerlərdəki mübahisəli məsələləri də həll edib nəticələri barədə Zaqafqaziya MİK Rəyasət Heyətinə qərar qəbul etmək üçün məlumat verməli idilər[411].

---

[410] Протокол №12 заседания Президиума Закавказского Центрального Комитета Советов Рабочих, Крестьянских, Красноармейских и Матросских депутатов от 20-го июня 1927 года. – ARDA, f.379, siy.3, iş 940, v. 41-44.

[411] Протокол №2 заседания Президиума Закавказского Центрального Исполнительного Комитета Советов Рабочих, Крестьянских, Красноармейских и Матросских депутатов от 11 января 1927 года. – ARDA, f.379, siy.3, iş 940, v. 2-3.

Bundan sonra məsələnin dərindən öyrənilməsi üçün müvafiq strukturlara göstərişlər verildi və sənədlər hazırlandı. Zaqafqaziya MİK-in məsləhətçisi M.Skiditskinin 1927-ci il sentyabrın 21-də hazırladığı "Zaqafqaziya respublikaları arasında hansı ərazi iddiaları olmuşdur?" adlı arayışda yazılırdı:

*"1. 1921-ci ildən sonra Azərbaycan və Ermənistan arasında ümumi ərazisi 17816 desyatin olan 61 sahədə mübahisələr olmuşdur. Bunların 6750 desyatin ərazisi olan 46 sahə üzrə Zaqafqaziya MİK-in yekun qərarı qəbul edilmişdir. Qərara əsasən 3050 desyatin ərazi Azərbaycan SSR-in, 3700 desyatin ərazi isə Ermənistan SSR-in tərkibinə daxil edilmişdir.*

*2. Azərbaycan ilə Gürcüstan arasında ərazisi 122230 desyatin olan 14 sahədə mübahisələr vardır. Ərazisi 69595 desyatin olan 6 sahədə mübahisələr qəti olaraq həll edilmişdir. Bu torpaq sahəsinin 5158 desyatini Azərbaycana, 64437 desyatini isə Gürcüstana verilmişdir.*

*3. Ermənistan ilə Gürcüstan arasında ərazisi 21600 desyatin olan 3 sahədə mübahisələr vardır. Son olaraq yalnız bir məntəqədə mübahisə həll edilmişdir. 290 desyatin sahə Ermənistana verilmişdir.*

*4. Ermənistan ilə Naxçıvan Muxtar SSR (Azərbaycan SSR) arasında ərazisi 35917 desyatin olan 2 sahədə mübahisə isə həll edilməmişdir.*

*Bütün yuxarıda göstərilən 80 sərhəd ərazisinin sahəsi 227583 desyatindir. Bu ərazilər əkin, meşə və yaylaqlardan ibarətdir. Ərazisi 76635 desyatin olan 53 sahə üzrə mübahisələr son olaraq həll edilmişdir. Azərbaycana 8208 desyatin ərazi saxlanılmış, Ermənistana 3990, Gürcüstana isə 64437 desyatin ərazi verilmişdir"* [412].

Arayışda yazılırdı ki, respublikalar arasında ərazi mübahisələri yalnız iqtisadi əsasda yaranmışdır, bəzi hallarda isə qonşu torpağa ehtiyacı olan sərhəd kəndinin əhalisi ya hər iki respublikanın, ya da yalnız bir respublikanın kəndinin istifadə etdiyi mübahisəli ərazini icarə yolu ilə ələ keçirtmək istəmişdir. Bəzən də sərhəd kəndinin əhalisi öz təsərrüfat şəraitini yaxşılaşdırmaq üçün heç bir zaman istifadə etmədiyi qonşu respublikanın ərazisinə iddia edirdi. Başqa bir halda isə iddia əhali deyil, qonşu respublikanın hökumət nümayəndələri tərəfindən irəli sürülürdü. Arayışda yazıldığı kimi, məsələn, Ermənistan rəhbərliyi Azərbaycana məxsus Şınıx-Ayrım rayonundakı ərazilərin bir qismini, Gürcüstan rəhbərliyi isə Eldar düzünü ələ keçirtmək üçün müraciət etmişdi. Zəngəzur və Cəbrayıl qəzaları yaxınlığındakı ərazidə Ermənistan ilə Azərbaycan arasında baş verən mübahisənin motivi isə fərqli idi. Ermənistan dağ-mədən sənayesi müəssisələrini işçi qüvvəsi ilə təmin etmək üçün Azərbaycan ərazisində yaşayan əhalini yaşadıqları ərazi ilə birlikdə öz ərazisinə qatmağa çalışırdı.

---

[412] Какие были территориальные споры между республиками Закавказья? – GMƏYTA, f.607, iş 1790, v. 148-149.

M.Skiditskinin yazdığına görə sərhəd ərazilərdəki kəndlərin mübahisə etdiyi sahələr üzrə narazılıqlar Torpaq kodeksinə uyğun olaraq həll edilmiş, tərəflərin istəkləri bərabər səviyyədə təmin olunmuşdu. Həll edilməyən ərazilərdə isə Torpaq kodeksinin tələblərini tətbiq etmək mümkün olmamışdı.

Bundan başqa, respublikaların arasında digər torpaq mübahisələri də var idi. Bunlar əsasən yaylaqların icarəyə götürülməsi üstündə baş verirdi. Ermənistan ilə Azərbaycan arasında belə ərazilər, sahəsi 115038 desyatin olan 183 məntəqədə var idi. Bütün bu mübahisələr həll edilmiş, göstərilən ərazilərdən Ermənistanda yerli ermənilər və türklər (azərbaycanlılar) üçün 75933 desyatin verilmiş, Azərbaycan heyvandarları üçün isə 39105 desyatin saxlanılmışdı.

Bu mübahisələrin də baş verməsi üçün səbəb iqtisadi motivlər idi. Əvvəllər azərbaycanlılara məxsus olmuş, lakin sonralar sovet hakimiyyəti tərəfindən alınaraq Ermənistana verilmiş yaylaqlardan Azərbaycan kəndliləri istifadə edərək təsərrüfatlarını möhkəmləndirmək və inkişaf etdirmək istəyirdilər.

Əsassız ərazi iddialarını davam etdirən erməni bolşevikləri əslində daşnakların siyasətini davam etdirirdilər. Bu da səbəbsiz deyildi. Çünki Ermənistanda dövlət və hakimiyyət orqanlarına yerləşən bolşevik nasional-uklonistlər 1923-1927-ci illərdə Ermənistanda hakimiyyətdə olan daşnaklara qarşı münasibətdə barışdırıcı mövqe tuturdular. Bununla bağlı olaraq sonralar RK(b)P Zaqafqaziya Diyar Komitəsinin birinci katibi Lavrentiy Beriya "Pravda" qəzetində dərc etdirdiyi məqaləsində yazırdı ki, Ermənistan K(b)P MK-nın birinci katibi A.Xancyan millətçilərə qarşı mübarizə aparmamış, daşnakların qalıqlarını məhv etməmiş, 20-30-cu illərdə sovet Ermənistanının mətbuatında əksinqilabi daşnaklar və onların "spesifizm"dən olan nökərlərini zamanında kifayət qədər tənqid etməmişdir. A.Xancyan "Xorortayn Hayastan" ("Sovet Ermənistanı") qəzetinin əməkdaşlarına demişdi ki, qəzetin səhifələrində Daşnaksütyunun əleyhinə məqalə verməyə heç bir ehtiyac yoxdur, bu, yersiz olardı. O, uzun illər boyu Parisdə yaşayan yazıçı A.Çobanyan ilə yazışır, erməni ziyalıları içərisində qatı millətçi elementləri himayə edirdi[413].

Daşnaklar xarici ölkələrdən ermənilərin gətirilərək Ermənistan SSR-ə yerləşdirilməsinə müsbət yanaşırdılar. 1928-ci ildə sovet xarici kəşfiyyatının əldə etdiyi bir məlumatda yazılırdı ki, erməni cəmiyyətinin liberal dairələri adından danışan Atabəyov adlı birisi Ermənistanın erməniləşdirilməsini belə etiraf etmişdi:

---

[413] Берия Л. Развеять в прах врагов социализма. – Газ. "Правда", 19.08.1936, №228(6834).

*"Rusiya 1828-ci ildə, yəni 100 il əvvəl İrəvan quberniyasını özünə birləşdirəndə orada 120 min əhali var idi. 100 il ərzində onların sayı 1 milyon 800 min nəfərə çatdı"* [414].

Azərbaycana qarşı əsassız ərazi iddialarını davam etdirən erməni kommunistləri Qazax və Dilican qəzaları arasında yerləşən Şınıx-Ayrım rayonu üzrə mübahisəyə dair məsələni Zaqafqaziya MİK Rəyasət Heyətinin 1929-cu il fevralın 18-də M.Tsaxakaynın sədrliyi ilə keçirilən iclasında (protokol №3, 1-ci bənd, 3A) müzakirəyə çıxartdılar. Qəbul edilən qərarda yazılırdı ki, Ermənistan SSR xalq torpaq komissarı A.Erzinkyan və Azərbaycan SSR xalq torpaq komissarı D.Bünyadzadə arasında razılaşma təsdiq edildi: 11 min 659 desyatin ərazisi (2751 desyatin meşə, 3621 yaylaq və 5287 desyatin əkin, otlaq sahələri) olan Şınıx-Ayrım rayonunun bütün sahəsi Qazax rayonunda saxlanıldı. 4 min desyatin sahəsi olan mübahisəli meşə ərazisi Dilican qəzasına verildi. Ermənilər yaşayan Başkənd kəndi əraziləri ilə birlikdə Ermənistan SSR-ə verildi. 12 min desyatin olan Alagöllər adlı otlaq sahəsi Kürdüstan qəzasının tərkibində saxlanıldı. Ermənistan SSR-in Zəngəzur qəzası ilə Azərbaycan SSR-in Kürdüstan qəzası arasında sərhədlər tərəflər arasında 24, 25, 26 avqust 1928-ci ildə əldə edilmiş saziş protokoluna əsasən təsdiq edildi. Əvvəllər Ermənistana verilmiş Nüvədi, Eynadzor və Tuğut kəndlərinin Ermənistan SSR-in Meğri, yoxsa, Azərbaycan SSR-in Cəbrayıl qəzalarına verilməsi məsələsi yenidən müzakirə edildi. Bu üç kənd torpaq sahələri ilə birlikdə Ermənistan SSR-in Meğri qəzasına verildi. Əhalisi azərbaycanlılardan ibarət olan 21 kənd Cəbrayıl qəzasında saxlanıldı. 9 kənd Ermənistana verildi.

Meğri qəzasının Karçevan kəndi ilə Naxçıvan MSSR-in Ordubad qəzasının Kilit kəndi arasında torpaq haqqında məsələ də müzakirə edildi. Mübahisəli hesab edilən ərazi iki yerə bölüşdürüldü: Sahənin qərbindəki təqribən 4555 desyatin ərazi Kilit kəndində saxlanıldı, şərq hissəsindəki təqribən 522 desyatin ərazi isə Karçevan kəndinə verildi[415].

Zaqafqaziya MİK Rəyasət Heyətinin 1929-cu il 18 noyabr tarixli iclasında (protokol №11, 10-cu bənd) komissiyanın hesabatı nəzərə alındı. Zaqafqaziya MİK Rəyasət Heyətinin qərarı ilə Q.Musabəyovun sədrliyi altında 1928-ci il noyabrın 19-da yaradılmış komissiyaya 1930-cu il yan-

---

[414] К деятельности национально-политических восточных групп. № 06429. 30/ III -28 г. Выписка из архивного дела №213. Мусаватисты и дашнаки. Сов.секретно, л. 331-337. – ARMTNA, ÇF-852, v. 114.

[415] Протокол №3 заседания Президиума Закавказского Центрального Исполнительного Комитета Советов Рабочих, Крестьянских, Красноармейских и Матросских депутатов от 18 февраля 1929 года. – ARDA, f.379, siy.3, iş 2035, v.1-4.

varın ilk günlərindən gec olmayaraq toplaşıb, bütün qalan mübahisəli məsələləri həll etmək tapşırıldı. Zaqafqaziya MİK bu qərarın həyata keçirilməsi zamanı yaranan bütün prinsipial məsələlər haqqında Torpaq Komissiyasına 1930-cu il aprelin 1-dən gec olmayaraq məlumat verməli; MİK-in 18 fevral tarixli qərarı aprel ayınadək həyata keçirilməli idi[416].

Ölkə daxilində ərazi məsələləri ədalətsizcəsinə ermənilərin xeyrinə həll edildiyi bir vaxtda xarici ölkələrdəki daşnaklar da fəaliyyətlərini dayandırmamışdılar. Onlar bir neçə istiqamətdə fəaliyyət göstərirdilər.

### *Cənubi Azərbaycanda daşnak fəaliyyətləri*

Sovet xarici kəşfiyyatının əldə etdiyi məlumata görə Azərbaycan sovetləşdirildikdən sonra Qarabağda baş verən proseslərə münasibətdə daşnakların və farsların mövqeyi ilə üst-üstə düşürdü. Sənəddə yazılırdı ki, daşnakların və farsların ermənilərin hərəkətlərində məqsədləri tam aydın idi: Azərbaycan türklərinin məhvini təmin etmək. Onların fikrincə, Azərbaycanda antisovet üsyan təşviq edilməli idi. Çünki belə kiçik üsyanlar sonda ermənilərin rəqibləri olan Azərbaycan türklərinin qırılmasına və zəifləməsinə gətirib çıxaracaq, sovet rəhbərliyinin etimadını qazanan tərəf sərbəst fəaliyyət üçün imkanı əldə edəcəkdi. Məqsəd Azərbaycan türklərinin sayını azaltmaq idi. Agentura məlumatında saxtakarlıqla yazılırdı: çünki daşnaklar və farslar başa düşürlər ki, guya türklər və Azərbaycan türkləri onlar üçün həmişə böyük bədbəxtliklər törədəcəklər.

Məlumatdan aydın olurdu ki, Təbrizdə azərbaycanlı, gürcü və erməni mühacir nümayəndələrinin müşavirəsində söz alan bir daşnak demişdi:

*“a) Van və onun rayonları qədim zamanlardan ermənilərə məxsusdur, türklər onu güc hesabına almışlar, buna görə də zamanı gəldikdə, onu birlikdə tələb etməliyik; b) Gürcüstana və Azərbaycana erməni qaçqınlarını yerləşdirmək lazımdır”* [417].

Sovet kəşfiyyatının məlumatına görə 20-ci illərdə Gilanda yerləşmiş erməni ailələrinin sayı 135 idi. Onların 70-i daşnaklara, 65-i sovetlərə rəğbət bəsləyirdi [418].

---

[416] Протокол №11 заседания Президиума Закавказского Центрального Комитета Советов Рабочих, Крестьянских, Красноармейских и Матросских депутатов от 18 ноября 1929 года. – ARDA, f.379, siy.1, iş 2035, v.106-107.

[417] Сведения, данные Али оглы Шамил беем из Карабаха представителю Мах в январе. Выписка из архивного дела № 2. Мусаватисты и дашнаки. Сов. секретно, л. 124-128. – ARMTNA, ÇF-852, v. 80-82.

[418]Записки тов. Б. (на задания т. Лебедева) о контрреволюционных организациях в Гиляне. Дашнаки и мусаватисты. Выписка из архивного дела № 12, л. 36-37. – ARMTNA, ÇF-852, v. 38.

Düşmənçilik və əsassız ərazi iddiaları 1927-ci il oktyabrın 1-də Təbrizdə keçirilən daşnak günündə də özünü göstərdi[419]. Toplantıda 1000 nəfərdən çox adam iştirak edirdi. Çıxış edənlər Daşnaksütyunun erməni cəmiyyətində oynadığı roldan danışdılar. Toplantının sonunda iki bənddən ibarət qətnamə qəbul edildi. Birinci bənddə Daşnaksütyuna rəğbət və təşkilata yardım etmək vurğulanır, ikinci bənddə isə Kommunist Partiyasından və sovet Ermənistanından aşağıdakılar tələb edilirdi:

*"a) Ermənistanda terror və təqiblər rejiminə son qoysun; b) Ermənistana onun tərkib hissələri olan Kars, Sürməli, Qarabağ, Naxçıvan, Axalkələk və erməni Borçalısı birləşdirilsin. Özünü müdafiə etmək üçün erməni xalqına silahlanma hüququ verilsin; c) Hər hansı bir partiya mənsubiyyətindən və istiqamətindən asılı olmayaraq bütün siyasi məhbuslar və sürgün olunanlar azadlığa buraxılsınlar; d) Ermənistana dönmək istəyənlər üçün qapılar açılsın".*

Daşnaklar bu istəklərini reallaşdırmaq üçün ciddi cəhdlə çalışırdılar. Artıq qeyd edildiyi kimi, SSRİ-də yaşamaq üçün 1927-1929-cu illərdə müraciət etmiş Türkiyə ermənilərinin bir qismi mərkəzi hökumətin müdaxiləsindən sonra 1930-cu ildə Azərbaycana da yerləşdirilmişdi. Özlərinə yer edən bu şəxslər az sonra əvvəlki işlərini bərpa edir, daşnak fəaliyyətləri ilə məşğul olur və iki xalq arasında düşmənçiliyi təbliğ edirdilər. Bu isə müvafiq sovet orqanlarının diqqətindən yayınmırdı. Belə ki, 1930-cu ilin aprel ayında Naxçıvan MSSR Noraşen rayonunun Ulya Noraşen kənd sakinləri Partev Xaçaturoviç Simonyans, Anuşavan Armenakonoviç Karaxanyan, Ayrik Aleksandroviç Karaxanyan İrandakı daşnaklarla əlaqə saxladıqları, Daşnaksütyunun özəyini yaratmaq üçün pul vəsaitləri topladıqları üçün həbs edildilər. Azərbaycan SSR Dövlət Siyasi İdarəsi Naxçıvan şöbəsinin əməliyyat müvəkkili Vakulçikin təqdimatı və şöbənin müvəqqəti rəisi Orbelyanın təsdiqindən sonra cinayət işi başladıldı[420]. Məhkəmənin hökmü ilə Anuşavan Armenakoviç Karaxanyan və P.X.Simonyans həbs edilərək üç il müddətinə Şərqi Sibirdəki həbs düşərgəsinə göndərildilər.

Bütün fəaliyyətləri ilə daşnaklar Qafqaz xalqlarının birliyinə hər vəchlə mane olurdular. Sovet xarici kəşfiyyatının 1931-ci il 12 yanvar tarixli məlumatına görə Daşnaksütyunun Qafqaz Döyüş Mərkəzinin rəhbəri polkovnik M.Q.Cavaxovun Rəştdəki türk konsulu ilə görüşündə geniş məsələlər müzakirə edilmişdi. M.Q.Cavaxovun fikrincə, qarşıda baş verə biləcək müharibədə Rusiya (SSRİ – M.Q.), Almaniya, Türkiyə və İtaliya

---

[419] Дашнаки. № 251 от 29/XI-27 г. Выписка из архивного дела №23. Сов. секретно, л.449-450. – ARMTNA, ÇF-852, v. 127.

[420] Дело по обвинению Караханяна А.А., Симоняна П.Х. – ARMTNA, PR-40702, v.52-53.

ilə bir ittifaqa girəcəkdi. Türkiyənin vitse-konsulu isə demişdi ki, Türkiyə bu müharibədə iştirak etmək istəmir, çünki ondan heç nə udmayacaqdır, əvvəlki müharibə bunu göstərdi. M.Q.Cavaxov bildirmişdi ki, Tiflisdən Türkiyəyə qaçan və sonra İran təbəəliyini qəbul edən fabrik sahibi Maqakanın fikrincə, Türkiyə iki hissəyə bölünməli, bir hissəsi Yunanıstana, digər bir hissəsi isə "Böyük Ermənistan"a verilməli idi. Qafqaz xalqlarının dinc şəraitdə yaşamasına ermənilərin imkan vermədiyini etiraf edən M.Q.Cavaxov demişdi:

*"Keçmişin təcrübəsindən aydındır, Qafqaz xalqları sülh şəraitində birgə yaşaya bilmirlər. Həmişə bir-biri ilə didişirlər. Nəticədə onlara başqaları yiyələnir.* ***Ən başlıcası isə ermənilər heç kimə sakitlik verməyəcəklər, ənənələrinə uyğun olaraq daim digər xalqların daxili işlərinə qarışacaqlar*** (seçmə bizimdir – M.Q.). *Qafqaz xalqlarının həyatı ya Rusiya, ya da Türkiyə ilə birlikdədir"* [421].

Daşnakların Tehran, Təbriz və İsfahanda xarici büroya tabe olan mərkəzi komitələri fəaliyyət göstərirdi. Təbrizdəki özək xeyli güclü idi[422]. Şəhərdə 15 min nəfər erməni yaşayırdı. Təşkilatın üzvlərinin sayı isə 300 nəfər idi.

Əsassız ərazi iddialarını reallaşdırmaq üçün daşnaklar silah ehtiyatı yığırdılar. Onların silah anbarları Təbrizin 30 km-dəki Muxumbar kəndində, Təbrizin özündə və Cənubi Azərbaycan Culfasının 30 km-də, Araz çayının sahilindəki Daraşan monastırında yerləşdirilmişdi. Monastırda pulemyot, 600 ədəd Mauzer tipli tapança saxlanılırdı. Əlavə olaraq 5 min Mauzer və 3 min Naqan tipli tapançanın alınmasına dair tapşırıq verilmişdi[423].

Cənubi Azərbaycandan xəlvəti olaraq sovet ərazilərinə keçən daşnaklar silah gətirir və xalqlar arasında düşmənçilik təbliğ edirdilər. Onlar bir neçə istiqamətdə sovet ərazilərinə keçirtdilər. Bu yollar Zəngəzur, Meğri, Mincivan, Naxçıvan, Culfa və Xudafərin idi[424].

Cənubi Qafqaza keçən daşnaklar gizli özəklər yaradırdılar. Məsələn, daşnakların Naxçıvanda partiya özəklərini qurmaq cəhdləri güclənmişdi. Onlar əsasən Təbriz təşkilatı ilə əlaqələr saxlayırdılar. Lakin daşnaklar Ermənistan SSR ərazisində fəaliyyətlərini bilavasitə genişləndirmək istəmədikləri üçün İran – SSRİ sərhədində olan ərazilərə xüsusi diqqət yetirirdilər. Bu da səbəbsiz deyildi. Heç əbəs deyildir ki,

---

[421] Выписка из архивного дела №60. Дашнаки. Встреча Джавахова с турецким вице-консулом. КРО Аз.ГПУ. 12.01.1931. – ARMTNA, ÇF-852, v.1-3.
[422] Деятельность дашнаков в Персии. Сов.секретно. Выписка из архивного дела №276, л. 13-27. ARMTNA, ÇF-852, v. 12-19.
[423] Yenə orada, v. 14-15.
[424] Yenə orada, v. 18.

Zaqafqaziya Dövlət Siyasi İdarəsi Xarici Kəşfiyyat İdarəsinin 1931-ci il 20 yanvar tarixli tamamilə məxfi məlumatında vurğulanırdı:

*"Daşnaklar erməni xalqını antisovet avantüraya cəlb etmək istəmirlər, əksinə belə hesab edirlər ki, belə avantüranı törətmək lazımdır, ondan erməni xalqı deyil, gürcülər və azərbaycanlılar ziyan çəkəcəklər"* [425].

Daşnaklar öz mübarizələrinin fəal olduğunu göstərmək üçün bütün vasitələri, xüsusən terror aktlarını törətməyi məqbul hesab edirdilər. Bununla əlaqədar olaraq daşnak Xovsen Tatevosyan demişdi:

*"Daşnakların fəal mübarizəsini göstərmək üçün bir neçə terror aktı törətmək lazımdır"* [426].

Bu fikirlər, yarandığı vaxtdan bəri Daşnaksütyunun öz məqsədinə çatmaq üçün seçdiyi mübarizə formasından – terrordan imtina etmədiyini göstərirdi. Belə hərəkətlər isə digər qonşu xalqlara qarşı qanlı avantüra demək idi.

Daşnaklar belə avantüranı törətməklə yanaşı, Ermənistanın erməniləşdirilməsi və türksüz Ermənistan yaratmaq üçün geniş fəaliyyət göstərir, erməni bolşevik rəhbərliyinin səylərini müdafiə edirdilər. Sovet dövləti də onların istəyini yerinə yetirirdi.

### *Ermənilərin Cənubi Qafqaza gətirilməsi və Ermənistanın erməniləşdirilməsi davam etdirilir. Milli nifaq qızışdırılır*

Ümumittifaq Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsi (ÜİK(b)P MK) Siyasi Bürosunun 1931-ci il 10 may tarixli iclasında (protokol №37) ermənilərin ZSFSR-ə gətirilməsi haqqında məsələ gündəliyin 25-ci maddəsi kimi müzakirə edildi[427]. Lakin təxirə salındı. Bir müddət sonra, iyunun 16-da keçirilən Siyasi Büro iclasında (protokol №43) məsələ yenidən müzakirə edildi. Müvafiq qərar "xüsusi qovluqda" qrifi ilə qəbul olundu.

SSRİ MİK və XKS 1931-ci il iyulun 10-da 11-132-s №-li "1917-ci il oktybarın 25-dən sonra xaricə getmiş və xarici ölkə vətəndaşlığını qəbul etmiş və ya xarici ölkə vətəndaşlığına qəbul olunmaq üçün ərizə vermiş keçmiş Rusiya təbəələri haqqında" məxfi bir qərar qəbul etdi. MİK sədri

---

[425] Выписка из архивного дела № 35. Дашнаки. Сов.секретно, л. 21. – ARMTNA, ÇF-852, v. 23.

[426] Выписка из архивного дела №75. Геворк Чакичян вернулся в Каир. Дашнаки, л. 168-170. – ARMTNA, ÇF-852, v.87-88.

[427] Заседание Политбюро ЦК ВК (б) П. 10.05.1931. Протокол №37. – РГАСПИ, ф. 17, оп. 3, д. 830.

M.İ.Kalinin, XKS sədri V.Molotov (Skryabin) və MİK katibi A.A.Yenukidzenin imzaladıqları qərarda yazılırdı ki, onlar SSRİ vətəndaşı hesab edilmirlər[428].

Bəzi xarici ölkələrin xüsusi xidmət orqanlarının erməniləri Azərbaycan SSR ərazilərinə köçürməyə nail olmaları və sonradan onların əli ilə müxtəlif iğtişaşlar törətmək planları SSRİ rəhbərliyinə məlum idi. Bu baxımdan ZSFSR XKS yanında DSİ-nin sədri L.Beriyanın SSRİ Dövlət Siyasi İdarəsinin sədri V.R.Menjinskiyə yazdığı 1931-ci il 1 avqust tarixli məktubu diqqəti cəlb edir. O, vurğulayırdı ki, "İngilis" kəşfiyyatına dair aparılan təhqiqat zamanı aşkar olunmuş və maraq kəsb edən əsas obyektlər aşağıdakılardır: "Ermənistana Yardım Komitəsi" – Ermənistan partiya rəhbərliyinin təşəbbüsü ilə yaradılsa da, faktiki olaraq xarici kəşfiyyatın, əsasən də ingilis kəşfiyyatının əlində vasitəyə çevrilmişdi. Komitənin ölkə xaricində 146 dayaq məntəqəsi fəaliyyət göstərirdi. Xarici kəşfiyyatın tapşırığı ilə təşkilatın Ermənistana heç bir aidiyyatı olmayan rayonlarda – Orta Asiya respublikalarında və Rusiyanın müxtəlif rayonlarında nümayəndəlikləri açılır və onlar tərəfindən verilmiş tapşırıqlar icra edilirdi. Təşkilata ingilis xüsusi xidmət orqanının zabiti Safrastyan başçılıq edirdi.

Digər bir təşkilat İngiltərədə yaradılmış erməni təşkilatı olan "Anqlokom" idi. Tərkibində ingilis kəşfiyyatının rezidenturasının da fəaliyyət göstərdiyi təşkilatın üzvləri uşaq evlərinə yardım adı altında Ermənistana səfərlər edirdilər. Keçirilən görüşlərdə qonşu xalqlara qarşı düşmənçilik hissləri qızışdırılır, əsassız ərazi iddiaları təbliğ edilir, valideyn himayəsindən məhrum olan bu uşaqlar sanki gələcək terrorçular kimi yetişdirilirdi.

Bir çox ölkələrdə dayaq məntəqələri olan "Erməni mühacirləri təşkilatı"nın başlıca fəaliyyət sahəsi müxtəlif ölkələrdən erməniləri Cənubi Qafqaz respublikalarının ərazilərinə köçürmək idi. İngiltərə kəşfiyyatının nəzarətində fəaliyyət göstərən həmin təşkilatın səyləri ilə artıq qeyd edildiyi kimi, hələ 1922-1923-cü illərdə İraqın Mosul şəhərindən Azərbaycanın müxtəlif bölgələrinə 8 mindən artıq erməni köçürülmüşdü. Köçürülən erməni qruplarının tərkibində ingilis kəşfiyyatının əməkdaşları da var idi.

Bu fəaliyyətlərdə ABŞ-dakı erməni təşkilatları da müəyyən rol oynayırdılar. Əsas fəaliyyəti "xalq hərəkatı" adı altında terror-təxribat aktları törətməkdən və amerikan kəşfiyyat tapşırıqlarını yerinə yetirməkdən ibarət olan "Amerikom" daşnak təşkilatının başında amerikan kəşfiyyatının nümayəndəsi dayanırdı. Terror-təxribat fəaliyyətləri ilə yanaşı, xaricdə yaşayan ermənilərin SSRİ ərazisinə köçürülməsi ilə məşğul olan bu təşkilatın üzvləri amerikan kəşfiyyatının tapşırıqlarını yerinə yetirirdilər[429].

---

[428] Решение ЦИК СССР и Совнаркома. 10.07.1931. №11-132 с. Секретно. – GMƏYTA, f.607, siy. 2, iş 1573, v.36.
[429] ARMTNA. 1931.

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi işi ilə İrandakı "İran erməniləri təşkilatı" da məşğul olurdu. Təşkilat bir neçə min erməni ailəsini Azərbaycan ərazilərinə köçürməyə nail olmuşdu.

Ermənilər SSRİ-yə gəlmək üçün müraciətlərini davam etdirirdilər. SSRİ XXİK həmin müraciətlər haqqında məsələyə dair 1932-ci il 14 mart tarixli 263 №-li tamamilə məxfi məktubunu ZSFSR MİK-ə göndərdi. Məktubda Türkiyədən gələn ermənilərin vətəndaşlığa qəbul edilməsi məsələsi qaldırılırdı. Zaqafqaziya MİK katibi Həmid Sultanov Azərbaycan SSR MİK İşlər İdarəsinə 1932-ci il martın 27-də 479-s №-li məxfi məktub göndərərək Türkiyə ermənilərinin SSRİ vətəndaşlığına qəbul edilməsi məsələsini təcili həll etməyi xahiş etdi[430]. Məsələ həll olundu. Ermənilərin bir hissəsi Azərbaycan ərazilərinə yerləşdirildi.

Bundan bir neçə il sonra, 1936-cı ilin may ayında Parisdən 2 min nəfər erməni Ermənistana gətirildi. Onlar RK(b)P Zaqafqaziya Diyar Komitəsinin birinci katibi L.Beriyaya və ZSFSR XKS sədri Qəzənfər Musabəyova may ayının 22-də göndərdikləri məktubda *"yad ölkədən yeni vətənə gəldiklərinə şərait yaradıldığı üçün"* təşəkkür etdilər[431].

Ermənilərin xarici ölkələrdən gətirilərək yerləşdirilməsi ilə Ermənistanda demoqrafik şərait də süni surətdə dəyişdirilirdi. "Daşnaksütyun Partiyasının əksinqilabi rolu" adlı arayışda bununla bağlı olaraq yazılırdı:

*"Ermənistanda əgər 1920-ci ildə 774 min nəfər əhali var idisə, xaricdən ermənilərin gətirilməsi nəticəsində 1936-cı ildə 1200 min nəfər oldu və ya 55% artdı"*[432].

Ermənilərin sayının süni surətdə artırılması ilə paralel olaraq Ermənistanda digər antiazərbaycan fəaliyyətlər də həyata keçirilirdi. Bunlardan biri tarixi torpaqlarında yaşayan azərbaycanlılara məxsus yaşayış yerlərinin adlarının dəyişdirilməsi idi. Qeyd etmək lazımdır ki, azərbaycanlılara məxsus yaşayış yerlərinin adlarının dəyişdirilməsi işi 30-cu illərin əvvəllərində müvəqqəti dayandırılsa da, 1935-ci il yanvarın 3-dən yenidən başlanmış və buna dair Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin ilk fərmanı imzalanmışdı. Həmin fərmana uyğun olaraq 29 rayonda azərbaycanlılara məxsus 72 yaşayış məntəqəsinin adı dəyişdirilmişdi. Bütövlükdə, 1930-1939-cu illərdə 100-ə, bir il sonra – 1940-cı ildə isə 30-a yaxın yaşayış yerinin adı dəyişdirilərək erməniləşdirilmişdi[433].

---

[430] Секретарь ЗАКЦИК Г.Султанов – в Управление Делами ЦИК АССР. 27.03.1932. №470 с. Секретно. – GMƏYTA, f. 607, siy.2, iş 1573, v.10.

[431] Mühacirətdən qayıtmış ermənilər Beriya və Musabəyov yoldaşlara. – "Kommunist" qəzeti, Bakı, 23.05.1936, №118(4744).

[432] Контрреволюционная роль партии Дашнакцутюн. – ARMTNA, L-164, v. 194.

[433] Mustafa N. Vandalism: genocide against historical names. Baku, 2006, p.7-43.

Erməni kommunist xadimləri xaricdən gətirilənlərin hesabına Ermənistanı erməniləşdirmək, türksüz Ermənistan qurmaq yolunda fəaliyyət göstərdikləri bir zamanda, xarici ölkələrdə düşmən fəaliyyətlərini dayandırmayan daşnaklar da Türkiyə əleyhinə ən iyrənc üsullardan istifadə edirdilər.

## *20-30-cu illərdə Daşnaksütyunun Türkiyə əleyhinə qiyamlarda kürdlərdən istifadə etmək cəhdləri*

Həmin fəaliyyət üsullarından biri kürdlərdən hiyləgərcəsinə istifadə etmək və türk-kürd düşmənçilyini alovlandırmaq idi. Daşnaklar Türkiyə ərazisindəki kürd qiyamlarını açıq şəkildə qızışdırırdılar. Sovet xarici kəşfiyyatının məlumatına görə Türkiyədə xilafətin ləğv edilməsinə etiraz olaraq 1925-ci ildə Şeyx Səidin başçılığı altında baş verən qiyamda daşnak agenti Gevork Xalacyan iştirak etmişdi[434]. Bu iştirakı erməni xadimlərinin özləri də etiraf edirdilər. Məsələn, sovet xarici kəşfiyyatı 1928-ci ildə M.Q.Cavaxovun yazdığı məktubu ələ keçirtmişdi. Həmin məktubda ermənilərin kürdlərin qiyamlarına yardım etməsi aşağıdakı kimi təsdiqlənirdi:

*"Ermənilərlə türklər arasında tarixi, qan düşmənçiliyi vardır. Onu heç nə ilə söndürmək mümkün deyildir. Ermənilər Türkiyə əleyhinə olan hər hansı hərəkata yardım edəcəklər. Təki, bu hərəkat Türkiyəyə qarşı yönəlsin. Məsələ ondadır ki, ermənilər türklərin hesabına Böyük Ermənistan ideyası ilə yaşayırlar"* [435].

Xarici ölkələrdə yaşayan daşnaklar Türkiyənin şərq vilayətlərini ayırıb sovetlərin nüfuzu altına vermək üçün fəaliyyət göstərirdilər. Bundan ötrü Türkiyədə şəraitin pisləşməsini, qiyamların baş verməsini və ya ölkənin müharibəyə qatılmasını gözləyirdilər.

Daşnaklar müsəlman ad və soyadları ilə kürdlərin arasına daxil olaraq Türkiyədə qarışıqlıq yaradır və dövləti zəiflədirdilər. Sovet xarici kəşfiyyatının 1929-cu il 2 avqust tarixli 5№-li agentura məlumatında bununla bağlı olaraq yazılırdı ki, "Ararat (Ağrı) kürdlərinin görkəmli xadimi" olan Zelam (onun əsl adı Artaşes Muradyan idi) SSRİ ilə Türkiyə arasındakı sərhədin 15-ci sahəsinin komendantı Mamonova məktub göndərərək görüşmək istəmiş və fayda verə biləcəyini demişdi[436]. Cəlali və Xaluqanlı

---

[434] Курды и дашнаки. №00880 от 18/XI-30 г. Сов.секретно. Выписка из архивного дела №39, л.507-513. – ARMTNA, ÇF-852, v.108-111.

[435] Письмо начальника КБЧ БРП, полковника Джавахова на имя Верховного Круга БРП. Братство русской правды. Выписка из архивного дела № 27. Дашнаки, курды, монархисты. Сов. секретно, л. 19-23. – АМНБАР, ЧФ-852, л. 21.

[436] Внеочередная пограничная разведывательная сводка 41-го Нахичеванского погранотряда. 2/VIII-29 г. № 5. Выписка из архивного дела № 118. Курды, дашнаки. Сов.секретно, л. 93. – ARMTNA, ÇF-852, v. 65-66.

kürd tayfaları arasında xeyli məşhur olan Zelam və yanındakı iki nəfər sovet sərhəd məntəqəsi komendantı ilə görüşə gələrkən tərksilah edilmiş, həbs olunaraq Ermənistan SSR DSİ-yə təhvil verilmişdilər.

30-cu illərdə də əsas diqqəti Türkiyə ermənilərinin "azad edilməsi"nə yönəldən xarici ölkələrdəki daşnaklar bunun üçün müxtəlif vasitələrdən istifadə edirdilər. Onlar hətta Ermənistan haqqında bir material hazırlayıb Lazar Biçeraxova da təqdim etmişdilər. Ermənilərin istəklərinin əks olunduğu həmin arayışda çarizm dövründə Türkiyədən 90 min, İrandan 40 min nəfər erməninin Cənubi Qafqaza köçürüldüyü etiraf edilirdi[437].

Daşnaksütyun kürd qiyamçılarına da müraciət etmişdi. Sovet xarici kəşfiyyatının 1937-ci il 8 noyabr tarixli 4309/İst.084 №-li məlumatında Dersim və Sasunda baş verən kürd qiyamları barədə müfəssəl informasiya verilərək vurğulanırdı ki, daşnaklar ölkədə gedən prosesləri diqqətlə izləyirlər və daxildə fəaliyyət göstərən qüvvələrə bütün vasitələrlə yardım edirlər. Daşnak nümayəndələri hətta Dersimdə Seyid Rza ilə görüşüb, onunla dost olduqlarını bildirmişdilər. Daşnaksütyunun müraciətində deyilirdi:

*"Bizim rəhbərliyimiz ilə və məsləhətlərimizə uyğun olaraq kürd kəndləri, yəni kürd tayfaları türklərə qarşı mübarizə üçün vahid rəhbərlik altında birləşdilər"* [438].

Daşnaklar kürd qiyamçılarını pul vəsaiti və ərzaqla da təmin edirdilər. Sovet xarici kəyfiyyatının verdiyi məlumata görə hətta kürd – erməni komitəsi də fəaliyyət göstərirdi. Onların məqsədi Türkiyə, İran və İraq torpaqlarında "Kürdüstan", bununla yanaşı "Böyük Ermənistan" yaratmaq idi.[439] Lakin müəyyən xarici ölkələr tərəfindən qızışdırılan bəzi kürd tayfalarının iddia etdikləri torpaqları ermənilər də istəyirdilər. Bu məsələdə onların maraqları toqquşduğundan daşnaklar öz niyyətlərinə çatmaq üçün kürdləri Türkiyə dövləti əleyhinə qiyamlara təşviq edərək hiyləgərliklə zəiflətməyə çalışırdılar.

Daşnaksütyun, həmçinin xarici ölkələrdə nəşr edilən və düşmənçilik hissi yaradan qatı millətçi mətbuat orqanlarını və kitabları Türkiyəyə gətirərək milli nifaqı yaymağa səylər edirdi. Bu isə Türkiyə hökumətinin diqqətindən kənarda qalmırdı.

---

[437] Материал об Армении (составлен и передан Бичерахову Загранбюро партии Дашнакцутюн). Выписка из архивного дела № 276. Дашнаки. Сов. Секретно, л. 81-84. – ARMTNA, ÇF-852, v. 60-62.

[438] Воззвание Загранбюро дашнаков связи с курдским восстанием. 08.11.1937. №4309/ИСТ.084. Выписка из архивного дела №75. Дашнаки и курды. Документально. Перевод с армянского, л. 108-114. – ARMTNA, ÇF-852, v.71-74.

[439] Курдо – армянский комитет. Дашнаки и курды. Выписка из архивного дела №3, л.11. – ARMTNA, ÇF-852, v. 128.

## *Türkiyə hökumətinin erməni təbliğatına qarşı tədbirləri*

Xarici ölkələrdəki ermənilərin əsassız ərazi iddialar ilə dolu təbliğatına qarşı Türkiyə hökuməti müəyyən tədbirlər aldı. Türkiyə Cümhuriyyəti Daxili İşlər Nazirliyinin 1928-ci il 4 noyabr tarixli 3756/134 nömrəli məktubu əsasında noyabrın 11-də Türkiyə hökuməti erməni daşnak komitəsinin Parisdə ermənicə nəşr etdirdiyi "Harac" qəzetinin ölkəyə gətirilməsinin qadağan edilməsi haqqında qərar qəbul etdi[440].

Buna baxmayaraq, xarici ölkələrdəki digər erməni mətbuat orqanlarında da Türkiyə əleyhinə məqalələr dərc edilir və həmin orqanların nüsxələri Türkiyəyə gətirilərək yayılırdı. Belələrindən biri Parisdə çıxan və Daşnaksütyun komitəsinin orqanı olan "Mardgoçt" ("Enerji") adlı qəzet idi. Həmin qəzetin ölkəyə gətirilməsi Türkiyə Daxili İşlər Nazirliyinin 1933-cü il 4 may tarixli 4501 saylı məktubuna əsasən hökumətin 10 may tarixli iclasında qəbul edilən qərarla qadağan edildi.[441]

Parisdə ermənicə nəşr edilən "Droşak" ("Bayraq") adlı məcmuədə də türk milləti və hökuməti əleyhinə məqalələr yazıldığı üçün həm erməni dilində, həm də başqa dillərdə çap edilən belə nəşrlərin Türkiyəyə gətirilməsinin qarşısının alınmasına dair Daxili İşlər Nazirliyinin 1934-cü il 25 aprel tarixli 3329 saylı təqdimatı hökumətin 26 aprel tarixli iclasında müzakirə olundu və müvafiq qərar qəbul edildi[442].

Türkiyəyə böhtanların atılması, əsassız ərazi iddialarının irəli sürülməsi və uydurma "Böyük Ermənistan" qurulması haqqında çağırışlar Daşnaksütyunun rəhbərlərindən biri olan Simon Vraçyan tərəfindən Parisdə nəşr olunmuş "Ermənistan sabiq Cümhuriyyətinin tarixçəsi" adlı kitabçada da edilmişdi. Ona görə də Türkiyə Daxili İşlər Nazirliyinin 1934-cü il 21 may tarixli 5131 saylı məktubu əsasında həmin kitabçanın həm ermənicə, həm də başqa dillərdə olan nüsxələrinin ölkəyə gətirilməsinin qadağan edilməsi haqqında hökumətin həmin gün keçirilən iclasında müvafiq qərar qəbul olundu[443].

Sivaslı Karapet Tapikyan adlı birisi "Kiçik Ermənistan və onun paytaxtı olan Sivas – tehcirde. Sivastan Hələbe qədər gördüklərimiz – erməni uşaqlarına xatirə" adlı yalanlarla dolu bir kitab yazmış və hələ 1924-cü ildə Boston şəhərində Hayrenik mətbəəsində onu nəşr etdirmişdi. Başdan-başa iftiralarla dolu kitabda Türkiyə tarixi kobudcasına saxtalaşdırılır, güya ermənilərin olmazın əzablar çəkdikləri yazılır, Türkiyəyə qarşı

---

440 T.C.Başvekaleti. Kararname. –T.C. BCA. 030.18.01.02.1.1.14.
441 T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.36.33.6.
442 T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.44.25.15.
443 T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.45.35.4.

əsassız ərazi iddiaları irəli sürülür və "Böyük Ermənistan" qurmaq istəkləri ifadə edilirdi. Ona görə də Türkiyə Daxili İşlər Nazirliyinin 1934-cü il 10 iyul tarixli 6623 saylı məktubu əsasında həmin kitabın ölkəyə gətirilməsinin qadağan edilməsi məsələsi hökumətin 10 sentyabr tarixli iclasında müzakirə olundu və müvafiq qərar qəbul edildi[444].

Türkiyə əleyhinə yazılar Boston şəhərində çıxarılan ermənicə "Droşak" ("Bayraq") qəzetində də dərc edilirdi. Ona görə də Türkiyə Mətbuat qanununun 51-ci maddəsinə uyğun olaraq Daxili İşlər Nazirliyinin 1934-cü il 15 noyabr tarixli 2505/712 saylı məktubu əsasında hökumətin 17 noyabr tarixli iclasında bu qəzetin ölkəyə gətirilməsi qadağan edildi[445].

Misirdə Sahak Mesrop mətbəəsində dərc edilən "Arti-Hayastan" ("Bugünkü Ermənistan") adlı kitabda Türkiyə əleyhinə yazılar dərc edilmişdi. Mətbuat qanununun 51-ci maddəsinə uyğun olaraq Daxili İşlər Nazirliyinin 1935-ci il 15 yanvar tarixli 36 saylı məktubuna əsasən hökumətin 16 yanvar tarixli iclasında həmin kitabın ölkəyə gətirilməsi qadağan edildi[446].

Bu zaman hətta sovet Ermənistanında nəşr edilən kitab və məcmuələrdə də Türkiyə əleyhinə yazılar dərc olunur və ölkəyə gətirilərək yayılırdı. Ermənicə "Əsərlər məcmuəsi", "Emma", "Həyat həsrəti" adlı kitablar tamamilə antitürk xarakteri daşıyırdı. Zərərli olduğu, türk və erməni xalqları arasında düşmənçilik təbliğ etdiyi üçün həmin nəşrlərin ölkəyə gətirilməsi Daxili İşlər Nazirliyinin 1935-ci il 11 mart tarixli 258 saylı təqdimatı əsasında hökumətin 13 mart tarixli iclasında qadağan edildi[447].

Misirdə ermənicə dərc edilən "Arev" ("Günəş") qəzetində də Türkiyə əleyhinə yazılar verilirdi. Ona görə də həmin nəşrin ölkəyə gətirilməsini və satışını qadağan etmək haqqında Daxili İşlər Nazirliyinin 1936-cı il 31 yanvar tarixli 171 saylı təklifi əsasında fevralın 10-da hökumət qərar qəbul etdi[448].

Bütün bunlar azmış kimi, hətta Türkiyənin daxilində bəzi erməni mətbuat orqanlarında da türk xalqı əleyhinə yazılar dərc edilir, türk tarixinə böhtanlar atılır və əsassız iddialar irəli sürülürdü. Belələrindən biri İstanbulda ermənicə dərc edilən "Aztarar" ("Müjdə") qəzeti idi. Həmin fəaliyyətlərin qarşısını almaq məqsədi ilə Türkiyə Mətbuat qanununun 50-ci maddəsinə uyğun olaraq Daxili İşlər Nazirliyinin 1937-ci il 27 yanvar tarixli 647 saylı təklifinə əsasən hökumətin həmin gün keçirilən iclasında qəzetin dərci müvəqqəti olaraq dayandırıldı[449].

---

[444] T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.46.49.5.
[445] T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.49.22.15.
[446] T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.51.4.4.
[447] T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.52.19.12.
[448] T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.61.10.15.
[449] T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.71.6.9.

İzmirdəki Amerikan Kollecindən məzun olan Meri S.Banker tərəfindən ingiliscə yazılmış və Çikaqoda nəşr edilmiş "My Beloved Armenia" ("Sevimli Ermənistan") adlı kitab da zərərli xarakter daşıyırdı. Ona görə də Mətbuat qanununun 51-ci maddəsinə uyğun olaraq Daxili İşlər Nazirliyinin 1937-ci il 2 sentyabr tarixli 5724/33/A11 saylı məktubuna uyğun olaraq hökumətin 28 sentyabr tarixli iclasında həmin kitabın Türkiyəyə gətirilməsinin və satışının qadağan edilməsi haqqında qərar qəbul olundu[450].

Parisdə çıxan ermənicə "Pamper" ("Səbr") məcmuəsində də zərərli yazılar dərc edilir, Türkiyəyə gətirilir və satışı təşkil edilirdi. Onun qarşısını almaq üçün Daxili İşlər Nazirliyinin 1938-ci il 13 sentyabr tarixli 4120/33/A/1 saylı məktubu əsasında Mətbuat qanununun 51-ci maddəsinə uyğun olaraq hökumətin 17 oktyabr tarixli iclasında həmin nəşrin ölkəyə gətirilməsini və satışını qadağan edən qərar qəbul olundu[451].

Maşeh Seropyan tərəfindən yazılaraq Beyrutda nəşr edilmiş ermənicə "Erməni məsələsi" adlı kitab zərərli məzmun daşıyırdı. Kitabda tarix saxtalaşdırılır, Türkiyəyə qarşı əsassız ərazi iddiaları sürülür və düşmənçilik təbliğ edilirdi. Ona görə də Daxili İşlər Nazirliyinin 1939-cu il 3 may tarixli 1975/3 saylı məktubuna əsasən Mətbuat qanununun 51-ci maddəsinə uyğun olaraq hökumətin 11 may tarixli qərarı ilə bu nəşrin ölkəyə gətirilməsi və satışı qadağan edildi[452].

Ermənilər tərəfindən Beyrutda çıxarılan və yazıları Türkiyə üçün zərərli olan ermənicə " Ararat" adlı qəzetdə də əsassız ərazi iddiaları irəli sürülürdü. Ona görə də qəzetin ölkəyə gətirilməsinin qadağan edilməsi haqqında Daxili İşlər Nazirliyinin 1939-cu il 16 avqust tarixli 3576 saylı məktubu ilə hökumət tərəfindən 31 avqust tarixində qərar qəbul edildi[453].

30-cu illərin sonlarına yaxın dünya yeni bir böyük müharibənin astanasında idi. Beynəlxalq şərait mürəkkəb və ağır olaraq qalırdı. Böyük dövlətlər arasında dünyanı yenidən bölmək, ucuz xammal mənbələri, əlverişli satış bazarları və strateji mövqelərə yiyələnmək uğrunda mübarizə kəskinləşmişdi. Nəticədə, 1939-cu il sentyabırn 1-də İkinci dünya müharibəsi başladı. Bundan yararlanmaq üçün fəaliyyətlərini genişləndirən erməni təşkilatları Türkiyəyə qarşı iddialarını artırdılar. Əsassız iddiaların daha bir konkret nümunəsi erməni təşkilatlarının saxta xəritələr tərtib etmələri oldu. Belə xəritələrdən biri Almaniyada Leyptsiq şəhərində nəşr edilmiş "Der Grosse Weltatlas" ("Dünyanın böyük atlası") idi. Xəritədə Türkiyə ərazisində uydurma "Ermənistan" və "Kürdüstan" göstərilmişdi.

[450] T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.79.82.14.
[451] T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.85.91.10.
[452] T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.86.40.18.
[453] T.C.Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.88.83.15.

Türkiyə hökuməti həmin xəritəni toplatdırmışdı. Xəritənin ölkəyə gətirilməsinin qarşısını almaq üçün Daxili İşlər Nazirliyi hökumət qarşısında 21 avqust 1939-cu il tarixli 3118/33/A/11 saylı məktubunda müvafiq təkliflə çıxış etdi. Mətbuat qanununun 51-ci maddəsinə uyğun olaraq hökumət 1 avqust tarixində xəritənin ölkəyə gətirilməsinin qadağan edilməsi haqqında qərar qəbul etdi[454].

30-cu illərin sonlarından etibarən SSRİ-nin Türkiyəyə qarşı əsassız iddialar irəli sürməsi nəticəsində qarşılıqlı münasibətlərdə ehtiyatlılığın, sonra isə soyuqluğun yaranması daşnaklarda yeni ümidlər doğurdu. SSRİ xalq xarici işlər komissarı V.Molotovun 1940-cı ildə Berlinə səfəri haqqında yayılan xəbərlər İran Azərbaycanında hay-küy yaratdı. Belə şayiələr gəzirdi ki, artıq İran Azərbaycanının taleyi həll olunur və həmin ərazi yaxınlarda sovetlərin olacaqdır. Bu xəbərlərdən həyəcanlanan daşnaklar bolşevik hakimiyyəti ilə sıx əlaqələr qurmaq üçün səylərə başladılar. SSRİ xarici kəşfiyyatının "Yadrin" kod adlı agenti ilə söhbətində daşnak David Papazyan bildirmişdi:

*"Daşnaklar hadisələrin gedişini diqqətlə izləyirlər, bir şey aydındır, SSRİ ilə Türkiyə arasında müharibə olacağı təqdirdə onların tədbirləri və imkanları Rusiya tərəfdə olacaq, əgər buna bolşevikləri inandıra bilsələr. Daşnaklar Sovet İttifaqına kömək etmək istəyir və buna hazırdır, ancaq Türkiyənin erməniləri qırmasından qorxurlar"* [455].

Lakin Berlin danışıqlarında SSRİ-nin Batumdan Qara dəniz boğazlarına, Bakıdan Fars körfəzinə qədərki ərazilərə nəzarət etmək iddiasını faşist Almaniyasının rədd etməsi ilə sovet – alman münasibətləri pozuldu. Almaniya SSRİ-yə qarşı müharibəyə hazırlaşmağa başladı.

Dünya müharibəsində yaranmış şəraitdən istifadə edən xarici ölkələrdəki erməni təşkilatları fəaliyyətlərini daha da artırdılar. ABŞ-dakı "Yerpar" ("Yanaşma") adlı erməni cəmiyyətinin mətbuat orqanı olan "Hayastan Qoçank" ("Ermənistanın çağırışı") adlı məcmuədə Türkiyə əleyhinə yazılar dərc edilir, ərazi iddiaları irəli sürülür və qondarma "Böyük Ermənistan" təbliğatı aparılırdı. Məcmuə Türkiyəyə gətirilir və yayılırdı. Bu hərəkətlərin qarşısını almaq üçün Türkiyə Mətbuat İdarəsinin 1941-ci il 23 yanvar tarixli 442/464 saylı məktubu əsasında Mətbuat haqqında qanunun 51-ci maddəsinə uyğun olaraq hökumət 1941-ci il 5 fevral tarixində həmin məcmuənin ölkəyə gətirilməsini və satışını qadağan edən qərar qəbul etdi[456].

---

[454] T.C. Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.88.83.20.
[455] Положение в Иранском Азербайджане.16.12.1940. Выписка из архивного дела №84. Дашнаки, л.156-159. – ARMTNA, ÇF-852, v.76-78.
[456] T.C. Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.93.129.20.

## *Almaniyanın SSRİ-yə hücumu və xarici ölkələrdəki erməni fəaliyyətləri*

Almaniya 1941-ci il iyunun 22-də SSRİ-yə hücum etdi. Müharibədə bitərəf qalacağını bəyan etdikdən sonra Türkiyəyə Sovet İttifaqının münasibəti müsbətə doğru dəyişdi. Sovet mətbuatında Türkiyə əleyhinə dərc edilən yazıların sayı da azaldı. Belə olduqda xarici ölkələrdəki daşnaklar faşist Almaniyası ilə əməkdaşlıq edərək müharibənin sonunda Ermənistanın müstəqilliyinə nail olmaq və digər qonşu respublikaların ərazilərini tutmaq üçün fəaliyyətlərini genişləndirdilər. Onlar SSRİ – Türkiyə münasibətlərini pozmaq üçün də səylər etməyə başladılar. Məsələn, SSRİ xarici kəşfiyyatının “Neft” kod adlı agentinin 1941-ci ilin iyul ayında İstanbuldan erməni dilində verdiyi məlumatda yazılırdı ki, guya yerli türk dairələri Rusiya möhkəm olduqca Türkiyənin bitərəflik siyasəti yürüdəcəyini, şərait pisləşdikdə isə ona qarşı çıxacağını və Qafqaza hücum edəcəyini deyirlər. Rusiya möhkəm dayanacaqdısa, Türkiyə bitərəfliyini pozmayacaqdı. İstanbuldakı erməni kilsəsinin başçısı Melik- Tangiyan yaxın adamlarına demişdi:

*“Ermənilərin fiziki mövcudluğu SSRİ-nin qələbəsindən asılıdır, əks halda ermənilər məhv ediləcəkdir. İndi ermənilər rus silahının uğurları və Stalinin qalib gəlməsi üçün dua etməlidirlər. Dini şura və bütün erməni koloniyası belə bir mövqedədir”* [457].

İranda da fəaliyyətlərini artıran daşnaklar silah anbarları yaratmışdılar. Sovet xarici kəşfiyyatının verdiyi məlumatlara görə Təbrizdə daşnakların silah anbarları var idi. Hələ 1920-ci ildə daşnaklar Ermənistandan qaçan zaman özləri ilə həmin silahları gətirib Armenak Aftandilyanın direktor olduğu erməni məktəbində yerləşdirmişdilər. Silah anbarı haqqında yalnız yeddi nəfərin məlumatı var idi. Onların iki nəfəri öldükdən sonra bu barədə bilən beş nəfər qalmışdı. Silah anbarının olması gizli saxlanılırdı. İran hakimiyyətinin məktəbi alarkən bundan xəbərdar olacağını bilən daşnaklar etibarlı adamları cəlb edərək silahların yerini dəyişdirib, kilsəyə yerləşdirdilər. Kilsənin erməni gözətçisi daşnak olmadığı üçün məsələni gizli saxlamaq məqsədi ilə onu işindən uzaqlaşdırdılar. Bununla bağlı olaraq sovet xarici kəşfiyyat məlumatında yazılırdı:

*“Ümumiyyətlə, ermənilər özlərinin sirlərini ciddi mühafizə edirlər”*[458].

Erməni təşkilatları Misirdə də fəaliyyətlərini artırmışdılar. Qahirədə Sahaq-Mesrop mətbəəsində nəşr edilən ermənicə “Baxçalıq və Baxçalıqlı”

---

[457] Выписка из архивного дела №140. Дашнаки. Перевод с армянского. Источник “Нефть”. VII-41 г. – ARMTNA, ÇF-852, v.33.

[458] К вопросу о дашнакском оружии. – ARMTNA, ÇF-852, v.191-192.

adlı kitabda Türkiyə əleyhinə fikirlər yer almışdı. Kitab ölkəyə gətirilərək yayılırdı. Bunun qarşısını almaq üçün Mətbuat İdarəsinin 1941-ci il iyulun 3-də 4137/3869 saylı məktubu əsasında Mətbuat haqqında qanunun 51-ci maddəsinə uyğun olaraq hökumətin 10 iyul tarixli qərarı ilə həmin kitabın ölkəyə gətirilməsi və yayılması qadağan edildi[459].

Xarici ölkələrdəki erməni təşkilatlarının fəaliyyəti sovet siyasətinə yarayırdı. Stalinqrad ətrafında döyüşdəki qələbəyədək SSRİ-nin Türkiyə siyasəti olduğu kimi qaldı. Yalnız Stalinqrad ətrafında qələbədən sonra Stalinin Türkiyəyə münasibəti dəyişdi. Durğunluqdan pozulma mərhələsinə daxil olan münasibətlər iki ölkə arasında düşmənçiliyə çevrildi. Bu isə ermənilərin işinə yarayırdı. Onlar bu soyuqluqdan istifadə edərək, öz maraqlarını reallaşdırmaq üçün fəaliyyətlərini genişləndirdilər.

### *Ermənilər San-Fransisko konfransına müraciət edirlər*

Xarici ölkələrdəki erməni təşkilatları və Ermənistan SSR rəhbərliyi SSRİ ilə Türkiyə arasında münasibətlərin soyuqlaşmasından öz məqsədləri üçün yararlanmağa çalışırdılar. Onlar yenidən böyük dövlətləri aldatmaq üçün müxtəlif yollardan istifadə etməyə başladılar. Sovet xüsusi xidmət orqanları ilə sıx əlaqələri olan xarici ölkələrdəki erməni təşkilatları 1945-ci il aprelin 25-dən iyunun 26-dək ABŞ, Çin, SSRİ və Böyük Britaniya tərəfindən San-Fransiskoda çağırılmış və 50 dövlətin iştirak etdiyi, Birləşmiş Millətlər Təşkilatının məqsəd, prinsip və səlahiyyətlərinin müzakirə edildiyi konfransa bir müraciət göndərdilər. Müraciətdə sanki İkinci dünya müharibəsi illərində ermənilərin nasional-sosialistlərlə heç bir əlaqəsi və legioner dəstələrinin faşist Almaniyası tərəfindən vuruşmaları olmamış kimi saxtakarlıqla bildirilirdi ki, guya ermənilər müttəfiqlərlə bir yerdə hərəkət etmiş, 4 milyon erməni qələbənin qazanılmasında iştirak etmişdir və buna görə də Türkiyə ərazisindəki "erməni torpaqları sovet Ermənistanına birləşdirilməlidir". Faşistlərlə əməkdaşlıq etmələrini tez bir zamanda "unudan" erməni təşkilatları heç bir əsas gətirmədən digər millətlərlə yanaşı bərabər hüquqlar tələb edirdilər[460]/

Müraciətdə yazılanlar tamamilə yalan idi. Çünki müharibə dövründə dünyada heç 4 milyon nəfər erməni yaşamamışdı. Erməni və rus mənbələrinin məlumatına görə 1920-ci ildə Ermənistanın bütün əhalisi cəmi 700 min nəfər olmuşdu. Onun bir hissəsini azərbaycanlılar təşkil edirdi. Sonrakı illərdə Ermənistanın erməniləşdirilməsi məqsədi ilə xarici

---

[459] T.C. Başvekaleti. Kararname. – T.C. BCA. 030.18.01.02.35.60.3.

[460] Обращение национальных армянских советов Египта и Ливана к Генеральной Ассамблеи. – Газ. "Коммунист", Ереван, 30.01.1946, № 25(3401).

ölkələrdən ermənilərin gətirilməsi nəticəsində respublikada ermənilərin sayı süni surətdə artırılmış və müharibə ərəfəsində 1,5 mln.-dək olmuşdu. Bu da bütün SSRİ əhalisinin 1,1%-ni təşkil edirdi. 1941-1945-ci illərdə cəmi 500 min nəfər erməni sovet ordusu sıralarına çağırılmışdı. Müharibədə ermənilərin itkisi 300 min nəfərdən çox idi[461]. Digər erməni mənbələrində isə yazılır ki, müharibə ərəfəsində Ermənistan SSR-də 1,3 mln.-dək erməni yaşayırdı. Ermənistandan kənarda SSRİ ərazisində yaşayan ermənilərin sayı isə 1,5 mln. nəfər idi[462].

Göründüyü kimi, SSRİ-də yaşayan bütün ermənilərin sayı cəmi 2,8 mln.-dək idi. Xarici ölkələrdəki ermənilərin sayı isə 1 mln. nəfər deyildi. Soruşulur: dünyada 4 milyon erməni olmadığı halda, bu qədər erməni müharibədə necə iştirak edə və "qəhrəmanlıq" göstərə bilərdi?

Sovet rəhbərliyinin göstərişi əsasında hazırlanmış bu müraciət Türkiyəyə qarşı təzyiq vasitəsi olduğundan həm SSRİ və Ermənistan SSR rəhbərlərinin, həm də xarici ölkələrdəki erməni təşkilatlarının işinə yarayırdı. İdeoloji fərqlərə baxmayaraq, onlar birlikdə hərəkət edirdilər.

Müharibə, SSRİ-nin daxil olduğu antihitlerçi koalisiyaya 1945-ci ilin fevral ayında qatılan Türkiyənin də qələbəsi ilə sentyabrın 2-də başa çatdı. Lakin bu, hələ iki ölkənin 20-ci illərdəki münasibətlərə dönmələri demək deyildi. Onları qarşıda ciddi sınaqlar gözləyirdi. Belə vəziyyət ermənilərin işinə yarayırdı. Çünki onlar hələ XX əsrin əvvəllərinə aid çarizm sənədlərində yazıldığı kimi, *"qarışıq vəziyyətlərdən bacarıqla istifadə edən ünsür"* idi.

---

[461] Армения и армяне в Великой Отечественной войне. – gimo.ru/study/dean/-docs/6420/documents1514118phtml.

[462] Армяне в Великой Отечественной войне 1941-1945 гг.-noev.kavcheg.-1gb.ru/article.asp; Микоян К. Армяне в Великой Отечественной войне 1941-1945 гг. (К 55-й годовщине поведы советского народа над фашистской Германией). – old.nasledie.ru/oboz/N08_00/08_24/HTM; Armeina-Erevan. – ok.ru/-armeniaere/ topics.stgpace=12.

# IX FƏSİL

# İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRAKI İLK İLLƏRDƏ ƏRAZİ QOPARTMA CƏHDLƏRİ VƏ NƏTİCƏLƏRİ

## *Azərbaycana edilən təzyiqlər*

Müharibə başa çatdıqdan sonra təzyiqlər təkcə Türkiyəyə qarşı deyil, sovet rəhbərliyi və SSRİ-ni təşkil edən müttəfiq respublikalardan biri olan Ermənistan SSR tərəfindən digər müttəfiq respublikaya – Azərbaycana qarşı da edilirdi. Belə ki, 1945-ci ildə Moskvada ÜİK(b)P MK Siyasi Bürosunun üzvləri Anastas Mikoyan və Lavrentiy Beriya Azərbaycan rəhbəri Mircəfər Bağırov ilə görüşərkən sovet ordu hissələrinin İranda olmasını və azərbaycanlıların orada baş verən milli-azadlıq mübarizəsini nəzərdə tutaraq, *"Cənubi Azərbaycan məsələsinin həll olunması ilə əlaqədar olaraq Azərbaycan SSR-in ərazisi xeyli genişlənəcəkdir"* deyib, Azərbaycan SSR DQMV-nin Ermənistana, Zaqatala, Balakən və s. ərazilərinin isə Gürcüstana birləşdirilməsini təklif edərək, təzyiq etməyə başladılar. M.Bağırov cavabında *"bu barədə danışmağın hələ tez olduğunu"* bildirdi[463].

Sovet rəhbərliyinin belə bir mövqe tutmasının bir sıra səbəbləri var idi. Məlum olduğu kimi, bu zaman İ.Stalin özünü "möhtəşəm" hesab etsə də, görünür, belə bir addımı atmaqla bir neçə məqsəd güdürdü. Hər şeydən əvvəl, guya "Cənubi Azərbaycan Şimali Azərbaycana birləşdirildikdən sonra Azərbaycan SSR-in ərazisinin böyük olacağını" "əsas" gətirərək, Ermənistan və Gürcüstan üçün ərazilər qopartmaqla, xarici ölkələrdən gətirilməsi düşünülən ermənilər üçün torpaqlar əldə etməyə çalışırdı. İkincisi, Türkiyəyə qarşı düşündüyü ərazi işğalları və boğazlar üzərində nəzarət qazanmaq planlarını gələcəkdə həyata keçirəcəyi zaman azərbaycanlıların türk xalqına olan qardaşlıq hisslərinin artacağından və etirazların olacağından ehtiyat edərək, Azərbaycanı təzyiq altında saxlamaq və küncə sıxışdırmaq istəyirdi.

M.Bağırovun cavabından sonra məsələnin qapandığını zənn etmək olardı. Lakin belə olmadı. Ermənistan rəhbərləri və erməni təşkilatları digər bir istiqamətdə fəaliyyətlərini artırdılar. Xarici ölkələrdəki bir sıra ermənilər və Ermənistan SSR rəhbərliyi xaricdən ermənilərin SSRİ-yə gətirilməsinə dair müraciətlər etməyə başladılar. Ermənistan rəhbərliyi Mərkəz qarşısında respublika XKS yanında Xarici ölkələrdən gətirilən ermənilərin qəbul edilməsi və yerləşdirilməsi üzrə komitə yaratmaq

---

[463] ARMTNA. 1945.

haqqında vəsatət qaldırdı. Sovet hakimiyyətinə düşmən münasibət bəsləmələrinə, çoxlarının Ermənistanı heç görməməsinə baxmayaraq, SSRİ rəhbərliyi bu müraciətə isti münasibət bəslədi. Həmin münasibət sovet hökumətinin müvafiq qərarının qəbul edilməsində özünü göstərdi.

## *SSRİ hökuməti xarici ölkələrdən ermənilərin gətirilməsi haqqında qərar qəbul edir*

SSRİ Xalq Komissarları Sovetinin sədri İ.V.Stalin və XKS-nin işlər müdiri M.Smirtyukov 1945-ci il 21 noyabr tarixdə 4 bənddən ibarət 2947 saylı qərarı imzaladılar. Sənəddə Ermənistanda sovet hakimiyyətinin qurulmasının 25 illiyi ilə əlaqədar olaraq SSRİ Xalq Komissarları Soveti qərara alırdı:

*"1. Xaricdə yaşayan ermənilərin sovet Ermənistanına gəlməsi barədə müraciətlərini və Ermənistan SSR rəhbər orqanlarının vəsatətini nəzərə alaraq Ermənistan SSR Xalq Komissarları Sovetinə xaricdən gəlmək istəyən ermənilərin gətirilməsini təşkil etməyə icazə verilsin. 2. Ermənistan SSR hökumətinin Ermənistan SSR XKS yanında Xaricdən gətirilən erməni mühacirlərin qəbulu və yerləşdirilməsi üzrə komitə yaratmaq barədə təklifi qəbul edilsin. 3. Ermənistan SSR XKS-yə vətənə qayıdan ermənilərə tikəcəkləri yaşayış evinin dəyərinin 50%-i həcmində dövlət krediti verməyi təmin etmək tapşırılsın. 4. SSRİ-yə gələn ermənilər yeni yaşayış yerlərinə gətirdikləri əmlaka görə gömrük rüsumunun tutulmasından azad edilsinlər"* [464].

Qərarda "mühacirlər", "vətənə qayıdan" ifadələrinin yazılması tamamilə səhv idi. Çünki gətirilən ermənilərin demək olar ki, hamısı Ermənistanda doğulmamış, orada yaşamamış və bu ərazini görməmişdilər.

Hökumətin qərarına uyğun olaraq Ermənistan SSR XKS yanında Xaricdən gətirilən erməni mühacirlərin qəbulu və yerləşdirilməsi üzrə komitə yaradıldı. Bu komitə Suriya, Livan, İran, Yunanıstan, Bolqarıstan və Rumıniyadan ermənilərin gətirilməsi üçün müraciətlər göndərərək, işi təşkil etməyə başladı.

Xarici ölkələrdən erməniləri gətirməkdə SSRİ rəhbərliyinin başlıca məqsədi İkinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlərdə iki sistem ölkələri arasında nüfuz qazanmaq uğrunda gedən amansız diplomatik-siyasi mübarizədə Türkiyə torpaqlarına yiyələnmək, gəlmələri Türkiyə ilə sərhəd rayonlarda yerləşdirməklə Türkiyə ilə Cənubi Qafqazın

---

[464] Постановление Совета Народных Комиссаров СССР о мероприятиях по возвращению армян из-за границы в советскую Армению. 21.11.1945. №2947. – ГАРФ, ф.5446, оп.1, д.266, л.355.

türk və müsəlman xalqları arasında coğrafi yaxınlığı qırmaq, Qara dəniz boğazları üzərində nəzarət qazanmaq, oradan Aralıq dənizinə çıxmaq, daha sonra isə Hind okeanına enmək kimi strateji niyyətlərini reallaşdırmaq istiqamətində addımlar atmaq idi. Sovet rəhbərliyi göstərilən ərazilərdə Qərb ölkələrinin nüfuzuna və ticarətinə mane olmağa çalışırdı.

Ermənistan SSR rəhbərliyi və xarici erməni təşkilatları isə erməniləri gətirməklə tarixi torpaqlarında yaşayan azərbaycanlıları tədricən sıxışdırmaq, demoqrafik şəraiti dəyişdirib türksüz Ermənistan yaratmaq, respublikanı erməniləşdirmək, gələcəkdə Türkiyə və Azərbaycan torpaqları hesabına əraziləri genişləndirmək və tarixdə heç bir zaman olmamış xəyali "Böyük Ermənistan" qurmaq üçün növbəti bir addım atmaq istəyirdilər. Bu niyyət özünü çox da gözlətmədi. Ermənistan rəhbərliyi Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə çıxış etməyə başladı. Bu məsələdə erməni kommunistləri və daşnaklar arasında heç bir fərq yox idi.

### *Ermənistan rəhbərliyi Azərbaycanın Dağlıq Qarabağ regionuna əsassız iddialar irəli sürür*

Ermənistan K(b)P MK katibi Q.A.Arutunov (Arutunyan) "hazırda Azərbaycan SSR-in tərkibinə daxil olan Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə qatılmasına" baxılması haqqında 1945-ci ilin noyabr ayında İ.V.Stalinə bir məktub yazdı[465]. O, bütün tarixi gerçəklikləri kobudcasına saxtalaşdıraraq yazırdı:

*"Ermənistan ərazisinə bitişik olan Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildən Azərbaycan SSR-in tərkibinə daxil edilmişdir. Bu vilayətin əhalisi əsasən ermənilərdir. 153 min nəfər əhalinin 137 min nəfəri ermənidir. Dağlıq Qarabağın kənd təsərrüfatı Ermənistanın dağlıq hissəsi ilə eynidir. Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi onun inkişafına xeyli kömək edər və təsərrüfata rəhbərliyi yaxşılaşdırardı. Əhaliyə ana dilində mədəni-kütləvi və siyasi xidmət Ermənistanın respublika orqanları tərəfindən rəhbərlik edildikdə güclənərdi. Dağlıq Qarabağ Vilayətinin Ermənistanın tərkibinə daxil edilməsi yerli kadrların Ermənistanın ali məktəblərində ana dilində ali təhsil almalarına imkan verərdi. Digər tərəfdən, Ermənistan SSR Dağlıq Qarabağdan kadrlar ala bilərdi. Onlar işgüzarlıqları ilə fərqlənirlər. Hazırda təbii olaraq onlardan Azərbaycanda tam istifadə edilə bilmir.*

*Bütün bunlara əsaslanaraq və Dağlıq Qarabağ əhalisinin arzusunu nəzərə alaraq Ermənistan Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti*

[465] Письмо Г. Арутунова Сталину. Ноябрь 1945 г. – ARSSA, f.1, siy.222, iş 48, v.1; T.C. BCA. 930.01.1.7.1.

*Azərbaycan SSR-in Dağlıq Qarabağ Vilayətini Qarabağ vilayəti kimi Ermənistan SSR tərkibinə qatılması məsələsinə baxmağı ÜİK(b)P MK və İttifaq hökuməti qarşısında qaldırır.*

*Bu məsələ müsbət həll ediləcəyi təqdirdə Ermənistan MK və Xalq Komissarları Soveti hökumət qarşısında Qarabağın keçmiş mərkəzi olan, sovet hakimiyyətinin qurulması ərəfəsində dağıdılmış Şuşa şəhərinin bərpası barədə məsələ qaldıracaqdır*".

Həmin məktubu ÜİK(b)P MK katibi G.Malenkov 1945-ci il noyabrın 28-də Azərbaycan K(b)P MK katibi Mircəfər Bağırova göndərərək, Ermənistan K(b)P MK-nın təklifi barədə fikrini bildirməsini istədi[466].

Yalan və əsassız iddialarla dolu olan məktuba cavab vermək üçün Azərbaycanın müvafiq orqanlarından alınan materiallar əsasında Qarabağ bölgəsinin tarixi və Azərbaycana bağlı olmasına dair arayışlar hazırlandıqdan sonra M.Bağırov 1945-ci il dekabrın 10-da 330 №li məktubla G.Malenkova cavab verdi[467]. 5 səhifədən ibarət olan məktubda yazılırdı ki, Ermənistan KP MK katibi Q.Arutunovun Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə birləşdirilməsi haqqında təklifi ilə əlaqədar olaraq Sizin teleqramınıza cavab olaraq məlumat verirəm:

*"Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qədim zamanlardan Qarabağ xanlığının tərkibinə daxil olmuşdur. Xanlığın mərkəzi 1747-ci ildən Pənahabad şəhəri olmuşdur. Qala kimi Pənah xan Qarabağlı tərəfindən tikilmişdir. Qarabağ çar Rusiyasına birləşdirilmişdir. İndiki Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi sonralar Yelizavetpol quberniyasının Şuşa, Cəbrayıl, Qaryagin və Qubadlı qəzalarının tərkibinə daxil olmuşdur. 1918-1920-ci illərdə Azərbaycanda müsavatçıların və Ermənistanda daşnakların hökmranlığı dövründə bütün Qarabağın ərazisində Müsavat hökuməti tərəfindən mərkəzi Şuşa (keçmiş Pənahabad) olmaqla Qarabağ general-qubernatorluğu təşkil edilmişdir. Müsavatçıların və daşnakların təşkil etdiyi millətlərarası qırğınlar nəticəsində Şuşa, həmçinin Azərbaycan və Ermənistanın digər çoxlu şəhərləri dağıdılmış və xarabalığa çevrilmişdir. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ilk vaxtlar bütün Qarabağın təsərrüfat-siyasi həyatına rəhbərliyi vahid Vilayət İnqilab Komitəsi həyata keçirtmişdir.*

---

[466] Секретарь ЦК ВКП(б) Маленков – секретарю ЦК КП(б) Азербайджана тов. Багирову. 28.11.1945. – ARSSA, f.1, siy.169, iş 249-I, v.7; ARSSA, f.1, siy.31, iş 186 a, v.1; Qasımov (Qasımlı) M. İkinci dünya müharibəsindən sonrakı ilk illərdə Ermənistanın Azərbaycana ərazi iddiaları. – Qarabağ dünən, bu gün və sabah. 1-ci Ümumrespublika elmi-əməli konfransı. Tezislər. Bakı, 2002, s.133.

[467] Секретарь ЦК КП(б) Азербайджана М.Д.Багиров – ЦК ВКП(б) товарищу Маленкову. 10.12.1945. №330. –ARSSA, f.1, siy.169, iş 249/ I, v.8-12; ARSSA, f.1, siy.31, iş 186 a, v.3-6.

*1923-cü ildə Qarabağın əhalisi üstün olaraq ermənilərdən ibarət dağlıq hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi haqqında məsələ qalxdı. Lakin bu ərazinin Ermənistan SSR ilə ümumi sərhədi olmadığından və ondan əhalisi yalnız azərbaycanlılardan ibarət olan Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfür rayonları ilə ayrıldığından partiya orqanlarının göstərişi əsasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə 1923-cü il iyulun 7-də mərkəzi kiçik Xankəndi, indiki Stepanakert şəhəri olmaqla Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır. Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi heç bir zaman Ermənistan SSR ərazisi ilə bitişik olmamışdır və bitişik deyildir".*

Daha sonra məktubda yazılırdı ki, sovet hakimiyyəti dövründə Azərbaycanda, Dağlıq Qarabağda vilayətin təsərrüfat-siyasi və mədəni inkişaf üzrə möhtəşəm işlər görülmüşdür. Buna parlaq nümunələrdən biri DQMV-nin indiki paytaxtı Stepanakert şəhəridir. Bu şəhər təkcə Azərbaycanda deyil, bütün ölkədə baxımsız və dağıdılmış kənddən gözəl, abad və mədəni şəhərə çevrilmişdir. M.Bağırov vurğulayırdı ki, Azərbaycan SSR-də ali təhsil müəssisələrində və texnikumlarda tələbələrin 20,5%-i ermənidir. Onların da çoxu Dağlıq Qarabağ Muxtar Vilayətindəndir.

Dağlıq Qarabağdan olan çoxlu yoldaşlar respublika rəhbər təşkilatlarında, sovet, təsərrüfat kadrları – Azərbaycan K(b)P və MK katiblərinin müavinləri, xalq komissarları və xalq komissarlarının müavinləri və s. vardır.

M.Bağırov yazırdı ki, buna baxmayaraq, biz Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR tərkibinə qatılmasına etiraz etmirik, lakin Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olan və indi də əhalisi əsasən azərbaycanlılardan ibarət olan Şuşa rayonunun Ermənistan SSR-ə verilməsinə razı deyilik. Şuşa şəhəri əsası qoyulduğu zamandan bəri Qarabağın təkcə inzibati-siyasi və mədəni mərkəzi deyil, eyni zamanda Azərbaycan xalqının fars işğalçılarına qarşı öz istiqlalı uğrunda mübarizəsində müstəsna rol oynamışdır. Şuşada qanlı işğalçılardan biri olan, Zaqafqaziya xalqlarının qatili fars çarı Ağa Məhəmməd Şah Qacar öldürülmüşdür. Bu şəhərdə Azərbaycan xalqının zəngin mədəniyyəti formalaşmışdır. Onunla nəhəng siyasi və mədəniyyət xadimləri olan İbrahim xan, Vaqif, Natəvan və digərlərinin adları bağlıdır[468].

Azərbaycan rəhbəri qeyd edirdi ki, eyni zamanda ÜİK(b)P MK-nın diqqətinə çatdırmağı vacib hesab edirik: DQMV-nin Ermənistan SSR tərkibinə daxil edilməsi məsələsi müzakirə edilərkən Azərbaycan Respublikası ilə sərhədə bitişik və əhalisi üstün olaraq azərbaycanlılardan ibarət olan Ermənistan SSR-in Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.

---

[468] Yenə orada.

Mədəni və iqtisadi cəhətdən bu rayonların son dərəcə geri qaldığını nəzərə alaraq, onların Azərbaycana verilməsi əhaliyə maddi-məişət və mədəni-siyasi xidmət göstərilməsinə imkan verər.

Bütün yuxarıda göstərilənlərlə yanaşı, M.Bağırov ÜİK(b)P MK-dan bir neçə məsələyə də baxmağı xahiş edərək yazırdı ki, Gürcüstandan olan yoldaşlar Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR tərkibinə qatılması məsələsini qaldırırlar. Baxmayaraq ki, göstərilən rayonlarda 79 min nəfər əhalinin 9 min nəfəri ingiloydur. Biz bu məsələyə baxılmasına etiraz etmirik. Lakin eyni zamanda Gürcüstan SSR-in əhalisi demək olar ki, azərbaycanlılardan ibarət olan və Azərbaycan SSR-ə bilavasitə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR tərkibinə qatılmasına dair məsələyə baxılmasını xahiş edirik.

Nəhayət, M.Bağırov xahiş edirdi ki, Azərbaycan SSR-ə bitişik olan və keçmişdə Bakı quberniyasının tərkibinə daxil olmuş Dağıstan MSSR-in Dərbənd və Qasımkənd rayonlarının Azərbaycanın tərkibinə qatılması məsələsinə baxılsın. Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarət idi, onların yarısından çoxu heyvandarlıqla məşğul olur və ilin doqquz ayını Azərbaycan ərazisində keçirirdilər.

M.Bağırov bu məsələlər üzrə maraqlı respublikalardan nümayəndələrin daxil olduğu ÜİK(b)P MK-nın komissiyasını yaratmağı məqsədəmüvafiq hesab edirdi.

Beləliklə, Azərbaycan rəhbəri tarixi gerçəkliyə və mövcud reallığa əsaslanan tutarlı bir cavab verdi, Ermənistanın əsassız iddialarını darmadağın etdi. Lakin iş bununla bitmirdi. Çünki Q.Arutunovun məktubu saxtakarlıqlarla dolu olsa da, hissiyatlarla, "boş yerdən" yazılmamışdı. Artıq qeyd edildiyi kimi, hələ sovet hakimiyyətinin ilk illərində Ermənistan rəhbərliyi Qarabağ bölgəsini qoparmağa çalışmış, lakin istəyinə nail ola bilməmişdi. Buna baxmayaraq, Azərbaycan ərazisində süni surətdə DQMV təşkil edilmişdi. Bu əraziyə iddia uzun illər qaldırılmamışdı. İkinci dünya müharibəsi başa çatdıqdan sonra yaranmış əlverişli şəraitdən yararlanmaq istəyən Ermənistan rəhbərliyi bu dəfə istəklərinə nail olacağını düşünərək əsassız ərazi iddialarını yenidən gündəliyə gətirmişdi. Təhlükəli bir meyil yenidən canlanırdı. Onun da konkret hədəfi var idi: DQMV-ni Azərbaycandan qopartmaq, Ermənistan ərazilərini genişləndirmək və xarici ölkələrdən gətirilən ermənilər üçün yaxşı şərait yaratmaq.

Sovet idarəçilik sisteminin təcrübəsi göstərir ki, müttəfiq respublikaların rəhbərləri bu və ya digər məsələyə dair məktublar yazmazdan əvvəl bir qayda olaraq, onu Mərkəzdəki müəyyən rəsmi şəxslərlə şifahi şəkildə razılaşdırırdılar. Belə olduqda sual yaranır: Q.Arutunov məktubunu yazmazdan əvvəl sovet xadimlərindən kiminlə danışmışdır? Adətən

ən yüksək vəzifəli sovet xadimləri belə ağrılı məsələlərin altına girmirdilər. Çünki bunun həm ölkə, həm də onların karyerası üçün ağır nəticələri ola bilərdi. Güman ki, Q.Arutunov bu barədə A.Mikoyan və sovet lideri İ.Stalin ilə danışmışdır. Elə isə yenə də sual yaranır: İ.Stalin doğrudanmı Dağlıq Qarabağ regionunu Ermənistana vermək istəyirdi? Yoxsa, onun başqa niyyətləri var idi? Hadisələrin sonrakı gedişi göstərdi ki, sovet rəhbərliyi strateji niyyətlərini reallaşdırmaq naminə xarici ölkələrdə yaşayan ermənilərin SSRİ-yə gətirilməsinə şərait yaratmaq üçün Azərbaycan rəhbərliyinə təzyiqlər etmiş, daha sonra erməni dairələrinin diqqətini Türkiyə əleyhinə yönəltmiş, Türkiyəyə qarşı ərazi iddiaları irəli sürərkən vahid xarici siyasətin mövcud olduğu sovet dövründə Azərbaycan rəhbərliyinin Türkiyəni müdafiə etməsi mümkün olmasa belə, Azərbaycan xalqının narazılığının qarşısını almaq niyyəti güdmüş, əslində Azərbaycan rəhbərliyini təzyiq altında saxlamışdır.

Əsassız iddiaların hansı nəticələr doğuracağını başa düşən İ.Stalin Ermənistanın əsassız iddialarını, Azərbaycanın isə tarixi gerçəkliyə uyğun olan təkliflərini rədd etdi. Bu da səbəbsiz deyildi. Ermənistanın avantürist tələbləri yerinə yetirilərkən M.Bağırovun etdiyi təkliflər əsasında ərazi məsələlərinə baxılardısa, SSRİ-də milli münasibətlər qarışardı. Çünki belə ərazi məsələləri təkcə Cənubi Qafqazda deyil, digər respublikalarda da mövcud idi. Azərbaycan rəhbərliyinin təklifi qəbul edilərdisə, SSRİ tərkibində olmasına baxmayaraq, Ermənistanın yalnız bir xarici dövlətlə – Türkiyə ilə sərhədi olar, Türkiyənin türk dünyası ilə birbaşa quru əlaqələri yaranardı. Dərbəndin Azərbaycana qaytarılması ilə Rusiya da ərazi itirmiş olardı. Deməli, İ.Stalini ermənilərin Azərbaycana qarşı əsassız iddialarını yerinə yetirmək deyil, daha geniş niyyətlər –Türkiyə ərazilərinə, Qara dəniz boğazlarına yiyələnmək və ya onların üzərində nəzarəti ələ keçirtmək düşündürürdü. Həmin niyyətlərin həyata keçirilməsində ermənilər sadəcə bir vasitə idi.

## *Azərbaycanlılara məxsus yaşayış yerlərinin adları dəyişdirilir*

Ermənistan rəhbərliyinin əsassız iddiaları rədd edilsə də onlar respublika daxilində bəzi niyyətlərini reallaşdırdılar. Respublika ərazisindəki azərbaycanlılara məxsus tarixi yaşayış yerlərinin adlarının dəyişdirilməsi davam etdirildi. Belə ki, təkcə 1945-ci ildə 30-dan çox yaşayış yerinin adı dəyişdirilərək erməniləşdirildi[469].

---

[469] Mustafa N. Vandalism: genocide against the historical names, p.7-43.

## *Türkiyəyə qarşı ərazi iddiaları irəli sürülür*

Bu zaman Türkiyə ərazilərini, Qara dəniz boğazları üzərində nəzarəti ələ keçirtmək üçün fəaliyyətini artıran SSRİ rəhbərliyi gürcü amilindən də istifadə etməyə başladı. Mərkəzin göstərişlərinə uyğun olaraq gürcü alimlərinin Türkiyədən "tarixi torpaqlarını" tələb edən məqalələri dərc edildi. Akademiklər S.Canaşia və N.Berdzenişvili gürcü dilində dərc edilən "Kommunisti" qəzetində, az sonra isə "Pravda", "İzvestiya" və "Krasnaya Zvezda" qəzetlərində dərc etdirdikləri məktublarında yazırdılar ki, onlar dünya ictimaiyyətinin diqqətini Türkiyənin zəbt etdiyi gürcü torpaqlarının geri alınmasına cəlb etmək istəyirlər. Tarixə özünəməxsus şəkildə səyahət edən bu şəxslər "Ardahan, Artvin, Oltu, Tortum, İspir, Bayburt, Gümüşxana, Şərqi Lazıstan, Trabzon və Giresunu" tələb edirdilər[470].

Məktubun dərcindən bir neçə gün sonra, dekabrın 29-da Zaqafqaziya müsəlmanları idarəsinin üzvü, Acarıstan qazısı Rasix Beridze "Zarya Vostoka" qəzetində dərc etdirdiyi məqaləsində Türkiyəni "işğalçı" adlandıraraq, torpaqların "geri qaytarılmasını" tələb etdi. O, gürcü müsəlmanları adından həmin ərazilərin qaytarılmasını və gürcü alimləri S.Canaşia və N.Berdzenişvilinin sovet mətbuatında dərc olunmuş məktubunu müdafiə edərək, "Ardahan, Artvin, Oltu, Tortum, İspir, Bayburt, Gümüşxana, Şərqi Lazıstan, Trabzon və Giresunun geri qaytarılmasını" tələb etdi[471].

Onun ardınca 1946-cı il yanvarın 5-də gürcü patriarxı Kallistrat "Kommunisti" qəzetinə bir müraciət göndərdi. Həmin müraciət yanvarın 8-də "Kommunisti", yanvarın 11-də isə "Zarya Vostoka" qəzetlərində dərc edildi. Başdan-başa düşmənçilik ruhunda olan məktubda "XV əsrdə müsəlman Türkiyəsinin ayaqları ilə xristian dünyasının ürəyinə daxil olaraq İstanbulu işğal etdiyini" yazan patriarx da "Ardahan, Artvin, Oltu, Tortum, İspir, Bayburt, Gümüşxana, Lazıstan-Çaneq, Trabzon və Giresunun geri qaytarılmasını" tələb edirdi[472].

Əlbəttə, sovet idarəçilik sistemi şəraitində həm Acarıstan qazısının, həm də patriarxın özbaşına belə iddialar irəli sürməsi mümkün deyildi. Göstərişin sovet rəhbərliyindən verildiyi şübhəsiz idi. Elə buna görə də res-

---

[470] Джанашиа С., Бердзенишвили Н. Письмо в редакцию газеты "Коммунист". О наших законных требованиях к Турции. – Газ. "Правда", 20.12.1945, №301 (10072).

[471] Расих Беридзе. Турки-захватчики должны возвратить наши земли. – Газ. "Заря Востока", Тбилиси, 29.12.1945, №257(6633).

[472] Католикос-патриарх всей Грузии Каллистрат. Католикос Грузии о законных требованиях грузинского народа к Турции. Письмо в редакцию газеты "Коммунист". – Газ. "Заря Востока", Тбилиси, 11.01.1946, №8 (6642).

publika rəhbərliyinin mövqeyinin bəyan edilməsi özünü çox da gözlətmədi. Gürcüstan K(b)P MK katibi K.Çarkviani 1946-cı il fevralın 28-də "Pravda" qəzetində dərc olunmuş və respublikada sovet hakimiyyətinin qurulmasının 25 illiyinə həsr edilmiş məqaləsində bu iddiaları daha da möhkəmləndirdi. O, yazırdı ki, gürcü xalqının həyata keçirilməyən bir arzusu qalır:

"*O da Ardahan, Artvin, Oltu, Tortum, Bayburt, İspir, Gümüşxana və Lazıstanın geri qaytarılmasıdır*" [473].

Bir müddət keçmiş, mayın 30-da professor E.Takaşvili "Zarya Vostoka" qəzetində guya Türkiyənin işğal etdiyi gürcü torpaqları haqqında bir məqalə dərc etdirdi. O da gürcü xalqının qanuni tələblərinin yerinə yetirilməsini istəyirdi[474].

Heç şübhəsiz, müttəfiq respublikaların müstəqil olmadığı sovet dövründə gürcü xadimləri Türkiyəyə qarşı ərazi iddialarını özbaşına irəli sürə bilməzdilər. SSRİ-də Moskvanın, Kommunist Partiyasının həyata keçirtdiyi vahid xarici siyasət xətti mövcud idi. Qonşu bir ölkə, xüsusən Türkiyə ilə ərazi məsələlərinin SSRİ-ni təşkil edən bir müttəfiq respublika tərəfindən müstəqil surətdə gündəliyə gətirilməsi mümkün deyildi. Hətta ərazi iddiaları barədə kimsə düşünsəydi belə, onu bütün mətbuatın partiyalı və total nəzarət altında olduğu bir şəraitdə qəzet səhifələrində dərc etdirə bilməzdi[475].

Yaranmış əlverişli şəraiti görən erməni xadimləri də Türkiyəyə qarşı əsassız ərazi iddiaları ilə çıxış etməyə başladılar. Belə fəaliyyətlər həm Türkiyənin daxilində, həm də xarici ölkələrdə genişləndi.

### *Türkiyədəki ermənilərin fəaliyyətləri*

Sovet dövləti erməniləri sovet Ermənistanına gəlməyə dəvət etdiyi ilk zamanlarda Türkiyədəki ermənilər də fəallaşmışdılar. Qəribə idi. Türkiyə dövlətinin qanunlarına əsasən bu ölkədə fəaliyyət göstərən erməni mətbuat orqanlarında sovet siyasəti təbliğ edilirdi. İstanbulda dərc edilən və mövqeyi ilə Sovet İttifaqının bir orqanı halına gələn və onun lehinə təbliğat aparan, kommunist ideologiyası və dünyagörüşünü yayan "Nor Lur" ("Yeni xəbər") qəzetində şübhəli yazılar dərc edilirdi. Məsələn, qəzet 1946-cı il 22 yanvar tarixli sayındakı baş məqaləsində ermənilərin mühacirətinə diqqəti cəlb

---

[473] Царквиани К. 25-летие советской Грузии. – Газ. "Правда" , 25.02.1946, №48 (10130).

[474] Такашвили Е. О грузинских землях, захваченных Турцией. – Газ. "Заря Востока", Тбилиси, 30.05.1946, №107(6741).

[475] Qasımov (Qasımlı) M. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı, 1993.

edir, bir sıra yalan dəlillər gətirərək, "ermənilərin daim məşəqqət və əzab içində yaşadıqlarını, ana vətəndən kənarda qalan ermənilərin hələ də iztirab çəkdiklərini, milli varlıqlarını itirərək digər millətlərlə assimilyasiya olunmaq təhlükəsi qarşısında qaldıqlarını, sovet Ermənistanına mühacirətin milli varlığı qorumaqda bir vasitə və lüzumlu hərəkət olduğunu yazır, bunu təşviq edir, Türkiyədəki ermənilərin sovet Ermənistanına mühacirətlərinin haqlı olduğunu, guya Türkiyədə xoş bir gün görmədiklərini" vurğulayaraq, türk hökumətini heç bir fakt göstərmədən əsassız yerə tənqid edirdi. Qəzet sovet Ermənistanına rəğbət oyandırmaqla və ermənilərin müstəqilliyini təşviq etməklə müəyyən bir məqsəd güdürdü.

"Nor Lur" qəzetinin həmin tarixli sayında Z.Bibəryan adlı birisi dərc etdirdiyi "Tarixdən işarələr" adlı məqaləsində ermənilərin əzabkeş obrazını saxtakarlıqla yaratmağa cəhd edərək yazırdı:

*"Bir həqiqət vardır: xaricdəki ermənilər Ermənistana mühacirət edirlər. Erməni xalqı əsrlərdən bəri, xüsusən son 30 ildə vətənsiz, hamisiz və müdafiəsiz bir halda sürünmək acısını zəhərlə kifayət qədər dadmış və hələ də dadmaqdadır. Qədəh artıq boşalmışdır və erməni xalqı bu qədəhin zəhərini son damlasına qədər tamamilə içmişdir. Getdiyi hər bir yerdə ermənin istədiyi tək bir şey mal və can güvənliyi, iş və vətəndaşlıq baxımından bərabərlik, dil və mədəniyyət azadlığıdır. Ermənilər yeni vətənlərində* (sovet Ermənistanı nəzərdə tutulur – M.Q.) *özlərinə xas olan xarakterlərinin vəsfi olan və başlarına fəlakət gətirən səmimiyyətlə xidmətə başlamışlar. Bəzi ölkələr ermənilərin qüdrət və xidmətini təqdir etmiş, onlara hürriyyət, bərabərlik və yaşamaq haqqı vermişlər. Fəqət, bəzi ölkələr təhrik, təəssüf və qısqanclıq kimi müxtəlif səbəblərin nəticəsi olaraq bərabər yaşam haqqını ondan əsirgəmişlər".*

Müəllif yenə də uydurma mülahizələrlə yazırdı:

*"Erməni xalqı siyasi müstəqilliyini və dövlət olaraq varlığını itirdikdən sonra daim iztirablar çəkmiş, son Kilikiya dövlətinin dağılmasından sonra erməni xalqı cəhənnəmi bir faciəyə düçar olmuşdur. Bu misli görünməmiş faciənin son pərdəsi 1923-cü ildə qapanmışdır".*

Onun fikrincə, faciənin son pərdəsi 1923-cü ildə qapansa da, yara gizli-gizli qanamaqda davam edirdi. Müəllifin iddiasına görə indi dünyada bir "yəhudi məsələsi" olduğu kimi, bir "erməni məsələsi" də var idi, çünki bütün bir millətin yarısının vətənindən uzaq qürbətlərdə yaşaması millətlərarası bir qanqrenin olduğu demək idi. Guya ermənilər qürbətdə əzmli və israrlı çalışmaları, fitri qüdrət və qabiliyyətlərlə qazana bildiyinin üstünə vermiş, üstə vermədiyi zamanlarda vətənsiz səfil olmuşlar. Hüzur və rifah içində yaşadıqları zamanda belə, gözlərini Şərqə – ana vətənə dikmişlər, vətən qurmaq üçün çalışmışlar. Müəllif yenə də belə bir yalan uydururdu:

*"Ermənilər cüzi istisnalar ilə heç bir zaman "pulun olduğu yer vətəndir" prinsipini özləri üçün qəbul etməmişlər. Əgər ermənilərin düşdüyü vəziyyətə digər millətlər düşsəydilər, onlar dura bilməzdilər".*

Dünya müharibəsindən sonra yaranmış beynəlxalq şəraitə işarə edən müəllif qeyd edirdi:

*"Belə bir şəraitdə ermənilər üçün qurtuluş qapısı açılmaqdadır. Bu, son ümid və fürsətdir. Ana vətən itirdiyi övladlarını qucağına çağırır. Zaman bunun üçün əlverişlidir. Ermənilər İkinci dünya müharibəsindən qəti bir dərs almışlar. Bu da sinif, zəngin və ya kasıb fərqi olmadan hamının ana vətənə dəvət edilməsidir".*

Müəllif sonda qurtuluş, istiqlal və idealizm baxımından ən mükəmməl və əlverişli olan bu fürsəti heç bir erməninin qaçırmayacağına əminlik ifadə edirdi[476]. Qəzet SSRİ-nin qüvvə və qüdrətini, anqlo-saks dövlətləri ilə fikir fərqlərində və anlaşılmazlıqlarda sovetlərin haqlı olduğunu, sovet Rusiyasının ermənilərin dostu və hamisi olduğunu yazır, ermənilər arasında sovetlərin lehinə təbliğat aparırdı.

"Nor Lur" qəzetinin 1946-cı il 2 fevral tarixli sayında sovet Ermənistanına mühacirət etmək istəyən ermənilərin sənədlərinin qəbulu haqqında elan verilmişdi. Elanda yazılırdı ki, getmək istəyənlər müraciətlərini İrəvan şəhəri, Nalbandyan küçəsi 18-ə göndərməlidirlər[477].

Qəzetin 9 fevral tarixli sayında da SSRİ-ni təbliğ edən məqalə dərc edilmişdi. Məqalə müəllifi İstanbul Universitetinin hüquq fakültəsindən məzun olmuş Aram Pəhlivanyan adlı birisi idi.

İstanbulda dərc edilən "Marmara" qəzetində də SSRİ-nin siyasəti təbliğ edilir, sovet Rusiyasının ermənilərin dostu olduğu vurğulanırdı[478].

"Nor Lur" qəzetinin 1946-cı il 23 fevral tarixli sayında "İki dünya arasında mübarizə" adlı məqalədə Sovet İttifaqının haqlı olduğu yazılırdı[479]. Qəzetin 1946-cı il 19, 23, 26 fevral, 2, 5, 9 mart tarixli saylarında dərcinə davam etdiyi "Kapitalizm insanlıq üçün fəlakət amilidir" adlı məqaləsində sovet dünyagörüşü təbliğ edilir, ABŞ və İngiltərə dövlət adamlarının İkinci dünya müharibəsinin sonlarında keçirilən danışıqlarda və konfranslarda irəli sürdükləri şərtlərin yalnız kapitalistlərin mənfəətinə, bəşəriyyət üçün zərərli olduğu yazılırdı[480].

Bu hərəkətlərin başlıca məqsədi Türkiyəni daxildən zəiflətmək, SSRİ maraqlarına xidmət və türk – erməni düşmənçiliyini təbliğ etməkdən başqa

---

[476] T.C. BCA. 030.01.101.623.4.
[477] T.C. BCA.030. 01.101.623.6.
[478] T.C. BCA. 030. 01.101.623.6.
[479] T.C. BCA. 030. 01.101.623.6.
[480] T.C. BCA. 030. 01.101.623.6.

bir şey deyildi. Türkiyə Mətbuat və Yayın Ümumi Müdiri Nedim Veysel İlkir 1946-cı il 2 aprel tarixində Baş Nazirliyin Xüsusi Katibliyinin müdirinə yazdığı 2301 saylı məktubunda vurğulayırdı ki, 50 illik fəaliyyətində türk düşmənçiliyini təbliğ edən "Nor Lur" qəzetinin sahibi, xaraktercə zəif olan Vahan Toşikyan türk dostu deyildir və erməni – türk düşmənçiliyini yayır. Maddi vəziyyəti son dövrlərdə pis olan bu şəxsin psixoloji problemləri də var idi. Qəzetdən əldə etdiyi qazancı mənasız yerlərə xərclədiyi üçün ailəsi ağır vəziyyətə düşmüşdü. İndiyədək heç bir partiyaya və cərəyana meyil etməyən qəzetin müəyyən qrupların əlində alət olması mümkün idi[481]. Qəzet nəşrini davam etdirir və düşmənçiliyi yayırdı.

### *Əsassız ərazi iddiaları davam edir. Amerikan radio şərhçisi Blok: "Avropa və Asiya ölkələrinin bir-biri ilə alver və mübarizə etmək üçün ermənilərdən piyadalar kimi istifadə etmələri metodundan daha qalmaqallı bir şey yoxdur"*

Erməni mətbuatının SSRİ lehinə təbliğat apardığı bir zamanda, 1946-cı il yanvarın 24-də Londonda BMT Baş Məclisinin birinci sessiyası öz işinə başladı. ABŞ və müttəfiqləri Baş Məclisin gündəliyinə SSRİ qoşunlarının İranda olması və Moskvanın bu ölkənin daxili işlərinə müdaxiləsinə dair məsələni daxil etmək istəyirdilər. Buna cavab olaraq sovet rəhbərliyi yenidən erməni amilindən istifadə etməyə başladı. Sovet rəhbərliyinin göstərişlərinə uyğun olaraq "Misirdə Erməni Şurası"nın sədri Saruxanyanın və katibi Balayanın imzası ilə 1946-cı il yanvarın 24-də BMT Baş Məclisinə bir müraciət göndərildi. Tarixin kobudcasına saxtalaşdırıldığı müraciətdə yazılırdı ki, "Misirdə Erməni Şurası" guya türklər tərəfindən işğal edilmiş erməni ərazilərinin sovet Ermənistanına verilməsi məsələsinə BMT Baş Məclisinin sessiyasında baxmağı xahiş edir. Müraciətdə guya erməni ərazilərinin böyük bir hissəsinin türk hakimiyyəti altında qaldığı vurğulanır, saxtakarlıqla qeyd edilirdi ki, bu torpaqların qanuni sahibləri vətənlərindən qovulmuşlar və doğma torpağa birləşə bilmirlər. Daşnaklardan ibarət olan "Misir Erməni Şurası" Ermənistanın probleminin tezliklə və ədalətlə 1945-ci ilin iyun ayında San-Fransisko konfransına təqdim edilən memorandum əsasında həllini tələb edir, ideoloji fərqlərə baxmayaraq, milli maraqları qorumaqda yeganə və qanuni hüququ olan kommunistlərin sovet Ermənistanı olduğunu özünəməxusus şəkildə təsdiq edirdi[482].

---

[481] T.C. BCA. 030.01.101.623.6.
[482] Обращение национальных армянских советов Египта и Ливана к Генеральной Ассамблее. – Газ. "Коммунист", Ереван, 30.01.1946, № 25(3401).

Eyni tarixdə Livan ermənilәri də BMT Baş Məclisi sessiyasının sədrinə bir teleqram göndərdilər.Teleqramda guya "Türkiyənin əlində olan erməni torpaqlarının sovet Ermənistanına birləşdirilməsi" Suriya və Livanda yaşayan 200 min erməni adından tələb edilir, saxtakarlıqla yazılırdı ki, ermənilər bu torpaqlardan zorla qovulmuş, əmlakları alınmışdır. Teleqramda faşist Almaniyası tərəfindən döyüşmüş ermənilərin qanlı əməllərinin üstündən sükutla keçilərək həyasızcasına qeyd edilirdi ki, guya ermənilər bütün dünya müharibəsi ərzində müttəfiqlərə sadiq qalmış, təqribən 4 milyon erməni əsgəri Qırmızı ordunun, on minlərlə erməni isə digər müttəfiq orduların sıralarında olmuşlar. Teleqram müəllifləri utanmazcasına digər millətlərlə bərabər hüquqlar tələb edir, ümid edirdilər ki, BMT erməni – türk münaqişəsini ədalətli həll edəcəkdir[483].

Yalanlarla dolu bu müraciətlərdə tarixi həqiqətlər kobudcasına saxtalaşdırılır, Türkiyə əraziləri erməni torpaqları kimi qələmə verilir, əsassız ərazi iddiaları irəli sürülür, faşist Almaniyası tərəfdən döyüşərək qanlı cinayətlər törətmiş erməni legioner dəstələri haqqında susulur, bir kəlmə belə, deyilmirdi.

Artıq əvvəllər də qeyd edildiyi kimi, İkinci dünya müharibəsində guya 4 mln. ermənininin müttəfiqlər tərəfindən iştirakı haqqında yazılanlar tamamilə cəfəngiyat idi. Çünki həmin dövrdə nəinki Ermənistanda, heç bütün dünyada 4 milyon nəfər erməni mövcud deyildi. Bu qədər erməni olmadığı halda onlar müharibədə necə iştirak edə bilərdilər? Müharibədə iştirak edən ermənilərin sayını 8 dəfə artıraraq şişirtmək nəyə görə lazım idi? Müraciəti hazırlayanlar özlərinə xas olan xüsusiyyətlərə və həyat tərzinə sadiq qalmışdılar. Bu xüsusiyyət ondan ibarət idi ki, hansı şərait olursa-olsun ermənilər daim öz rollarını şişirdərək gözə girməyə, saxtakarlığa, hiyləgərliyə və özlərinin uydurma əzabkeş obrazını yaratmağa sadiq qalmışdılar.

Müraciəti daşnaklar imzalasalar da, ideoloji fərqlərə və sovet hakimiyyətinə düşmən münasibət bəsləmələrinə baxmayaraq, onlar kommunistlərin hakimiyyətdə olduğu Ermənistan SSR-i ermənilərin yeganə və qanuni hüququ olan hakimiyyəti kimi qəbul edirdilər. Maraqlısı o idi ki, bir zamanlar daşnakların hakimiyyətini devirərək Ermənistanı sovetləşdirən Mərkəz isə həmin məsələlərə Türkiyənin Qərb ölkələri ilə yaxınlaşmasının SSRİ-yə ziyan vuracağı nöqteyi-nəzərdən yanaşaraq onları müdafiə edirdi.

Ermənistan SSR rəhbərliyi isə hiyləgər davranır, nitqlərində Türkiyə əleyhinə danışmırdı. Məsələn, SSRİ Ali Soveti İttifaq Sovetinə seçkiqabağı təbliğat və təşviqat kampaniyası dövründə Yerevan qarnizonu zabitləri qarşısında 1946-cı il yanvarın 26-da etdiyi çıxışında Ermənistan K(b)P MK-

[483] Yenə orada.

nın katibi Q.A.Arutunyan (Arutunov) SSRİ-nin qonşu ölkələrlə münasibətləri məsələsi üzərində dayanarkən bildirdi ki, Sovet İttifaqı ilə sərhəddə yerləşən bütün dövlətlərlə, o cümlədən Türkiyə və İran ilə münasibətlər dostcasınadır, lakin biz irticaçı elementlərin bu ölkələri SSRİ-yə qarşı mümkün plasdarma çevirmək cəhdlərinə imkan verməyəcəyik[484].

Bütün bunlar göstərirdi ki, əslində sovet dövləti Türkiyənin Qərb ölkələri ilə yaxınlaşamasının əleyhinə olmuş, onların Türkiyə ərazisi vasitəsi ilə SSRİ-yə yaxın olmalarına yol vermək istəməmiş, məqsədinə nail olmaq üçün xarici ölkələrdəki erməni təşkilatlarını ayağa qaldıraraq erməni – türk münasibətlərini istismar etmiş, ABŞ və müttəfiqlərini Türkiyə ilə əməkdaşlıqdan çəkindirmək üçün şantaj və hədə-qorxudan istifadə etmişdir. Bu siyasət hadisələrin sonrakı gedişində də özünü göstərdi. Belə ki, 1946-cı il fevralın 1-də ABŞ-dakı "Ermənilərə ədalətli münasibət uğrunda Amerika mübarizə komitəsi" BMT-yə müraciət göndərərək, guya "Türkiyənin işğal etdiyi əyalətlərin Ermənistana qaytarılması barədə ABŞ Prezidenti Vudro Vilsonun qərarının yerinə yetirilməsini" istədi. "Amerikada Erməni Milli Şurası"nın "erməni torpaqlarının qaytarılması və ermənilərin repatriasiyası tələblərini" müdafiə edən komitə BMT-dəki ABŞ nümayəndə heyətini bu təşkilatda hər hansı bir məsələ olarkən erməni xalqının ehtiyaclarına dostcasına yanaşmağa çağırırdı.

Komitənin müraciətini şərh edən amerikan radio şərhçisi Blok deyirdi:

*"Avropa və Asiya ölkələrinin bir-biri ilə alver və mübarizə etmək üçün ermənilərdən piyadalar kimi istifadə etmələri metodundan daha qalmaqallı bir şey yoxdur"* [485].

Həqiqətən də tarix sübut edirdi ki, böyük dövlətlər əvvəlcə öz məqsədlərini həyata keçirtmək üçün ermənilərdən şahmat oyunundakı piyadalar kimi istifadə etmiş, sonra isə onların bəzi əsassız və ədalətsiz iddialarını yerinə yetirərək, xalqlar arasında düşmənçilik toxumları səpərək "parçala və hökm sür" siyasətini yürütmüşlər.

Ermənistan rəhbərləri Türkiyə əleyhinə açıq danışmasalar da, erməni tarixçiləri yazdıqları cızma-qaralarında Azərbaycan və Türkiyə ərazilərinin bir hissəsini erməni torpaqları hesab edirdilər. Məsələn, Gürcüstanda sovet hakimiyyətinin qurulmasının 25 illiyi münasibəti ilə dərc etdirdiyi məqaləsində tarix elmləri namizədi S.Yeremyan Ani, Dvin, Kars, Karin (Ərzurumu

---

[484] Встреча избирателей Ереванского гарнизона с кандидатом в депутаты Совета Союза Григорием Артемьевичем Арутуняном. – Газ. "Коммунист", Ереван, 31.01.1946, № 26(3402).

[485] Требование в США возвращения армянских земель советской Армении. – Газ. "Коммунист", Ереван, 06.02.1946, № 31(3407).

nəzərdə tuturdu – M.Q.), Naxçıvan, Manazkert, Xlat və digərlərini tarixdə olmayan "Böyük Ermənistan"ın bir hissəsi hesab edirdi[486].

Bu əsassız iddialar təkcə Ermənistan SSR-də dərc edilən qəzetlərdə yer almırdı, eyni zamanda sovet hakimiyyət orqanlarının Moskvada təşkil etdikləri toplantılarda da səsləndirilirdi. Belə ki, 1946-cı il fevralın 20-də Moskvada SSRİ XKS yanında Ali məktəb işləri üzrə komitə nəzdindəki ümumittifaq mühazirə bürosunun salonunda Ermənistan SSR Elmlər Akademiyasının müxbir üzvü A.K.Civeleqov yalanlarla dolu "Ermənistan və Türkiyə" adlı bir mühazirə oxudu. O, guya Ermənistandan Van vilayətinin, Bitlis və Ərzurumun qopardılması tarixi üzərində dayanaraq, Osmanlı dövlətinin erməniləri və erməni kilsəsini Bizans zülmündən qorumasını "unudaraq", ermənilərin türk hakimiyyəti altında yaşamasını "faciəli tale" adlandırdı. Tarixi kobudcasına saxtalaşdıraraq, XIX və XX əsrlərdə, xüsusən 1877-1878-ci illər rus – türk müharibəsindən sonra guya ermənilərə qarşı törədilmiş qırğınlardan bəhs etdi, Birinci dünya müharibəsindən söz açdı, Kars, Ardahan vilayətlərinin, Sürməli qəzasının tutulduğunu dedi. Son vaxtlar dünyanın müxtəlif ölkələrindəki yüzlərlə erməni ailəsinin Ermənistana gəldiyini, onların "erməni torpaqlarının birləşdirilməsini" tələb etdiklərini deyərək, bildirdi ki, dünyanın hər yerindən BMT Baş Məclisinə, Ermənistan SSR hökumətinin və bütün ermənilərin yaxınlarda seçilmiş katolikosu VI Gevorqun adına erməni koloniyalarından müraciətlər daxil olur, onlar nəhayət, bütün erməni torpaqlarını Ermənistan sovet respublikasının öz bayrağı altında bir yerə toplayacağına ümid edirlər[487].

Erməni dairələrinin əsassız iddiaları beynəlxalq münasibətlərdə dünya ağalığı iddiasına düşən SSRİ və ABŞ liderliyində Qərb ölkələri arasında qarşıdurmanın kəskinləşdiyi bir zamanda baş verirdi. 1946-cı il martın 5-də Böyük Britaniyanın keçmiş baş naziri Uinston Çerçilin ABŞ-ın Missuri ştatının Fulton şəhərindəki Vestminster kollecində radio ilə etdiyi məşhur nitqindən sonra SSRİ rəhbərliyi erməni amilindən istifadəni və Türkiyəyə qarşı etdiyi təzyiqlərini daha da artırdı. Sovet orqanlarının təhriki ilə ABŞ-dakı "Ermənilərin hüquqları uğrunda Amerika mübarizə komitəsi" və "Amerikada Erməni Milli Şurası" 1946-cı il aprelin 26-da Nyu Yorkda Karneqi Hollda 2700 nəfərin iştirakı ilə kütləvi mitinq təşkil etdi. Həmin mitinqdə ermənilərin müxtəlif yollarla ələ aldıqları ABŞ nümayəndələr palatasının Demokrat Partiyasından olan üzvü Seller və senator Tobi bütün beynəlxalq normaları ayaqlar altına ataraq, heç bir əsas göstərmədən, Türkiyə

[486] Еремян С. Многовековая дружба. Требование в США возвращения армянских земель советской Армении. – Газ. "Коммунист", Ереван, 24.02.1946, № 47(3423).
[487] Армения и Турция. – Газ. "Коммунист", Ереван, 26.02.1946, № 47(3424).

ərazisinin bir hissəsinin sovet Ermənistanına birləşdirilməsini tələb etdilər. Daha sonra çıxış edən Nyu York bələdiyyəsinin üzvü Smit, nümayəndələr palatasının üzvü Sei, Nyu York protestant kilsəsi federasiyasının katibi Surli və digərləri də Türkiyə ərazilərinin Ermənistana qatılmasını həyasızcasına tələb etdilər. Mitinqin aparıcısı Smit, fəxri sədrləri isə mitropolit Beniamin və erməni arxiyepiskopu Nersesyan idi[488].

Mitinq iştirakçıları tarixi həqiqətlərin başdan-başa saxtalaşdırıldığı və yalanlarla dolu bir qətnamə qəbul etdilər. Qətnamədə Türkiyədə ermənilərin rahat bir şəkildə yaşayıb-işləmələri "unudularaq" yazılırdı ki, guya türk zülmünün qurbanı olan yüz minlərlə erməni hazırda xarici ölkələrin ərazilərində, xüsusən Yaxın və Orta Şərqdə, Aralıq dənizi ölkələrində ağır şəraitdə yaşayırlar; xeyli sayda erməni vətənə qayıtmaq istəyini bildirmişdir; sovet Ermənistanına qayıtmaq yalnız Türkiyənin Ermənistandan zorla qopardığı erməni vilayətlərinin sovet Ermənistanına birləşdirilməsindən sonra mümkün ola bilər. Müraciətdə amerikan hökumətinin Vudro Vilson zamanından bəri erməni xalqına dost münasibət bəslədiyi, Kars, Ardahan, Ərzurum, Trabzon, Van və Bitlisi birləşdirmək istədiyi xatırladılır; son 25 ildə sovet Ermənistanının iqtisadiyyat və mədəniyyət sahələrində böyük uğurlar qazandığı, erməni əsgərlərinin sovet ordusu sıralarında, Amerika ermənilərinin isə ABŞ silahlı qüvvələri tərkibində hitlerçi faşistlərə qarşı vuruşduqları heyrətamiz dərəcədə şişirdilərək qeyd edilirdi. Amerika erməniləri BMT-ni bu qətnaməyə uyğun olaraq "erməni məsələsi"ni həll etməyə və ona həssaslıqla yanaşmağa çağırırdılar. Müraciətin mətni BMT-nin bütün üzvlərinə, ABŞ Prezidenti Harri Trumenə və dövlət katibi Ceyms Birnsə göndərildi[489].

Bundan sonra, may ayının 6-da keçirilən ABŞ-ın 16 erməni təşkilatının konfransı BMT baş katibi Tryuqve Liyə məktub göndərərək, Baş Məclisin gündəliyinə "erməni məsələsi"ni daxil etməyi tələb etdi[490]. Müraciətdə yenə də ermənilərin sayı süni surətdə şişirdilərək yazılırdı ki, dünyada olan 4 milyon erməni sovet Ermənistanının Kars, Ardahan, Ərzurum, Trabzon, Bitlis və Vanı almasını istəyir. Guya bu ərazilər V.Vilsonun qərarları ilə Ermənistana verilməli idi. Müraciətdə Türkiyədən torpaqların qopardılması, ermənilərin "repatriasiyası" tələb edilir və Türkiyəyə böhtanlar atılırdı.

---

[488] Митинг американских армян в Нью-Йорке. – Газ. "Коммунист", Ереван, 04.05.1946, № 104(3480).

[489] Митинг американских армян в Нью-Йорке. – Газ. "Коммунист", Ереван, 01.05.1946, № 103(3479).

[490] Обращение конференции шестнадцати армянских организаций США к Трюгве Ли. – Газ. "Коммунист", Ереван, 09.05.1946, № 108(3484).

BMT Təhlükəsizlik Şurasına yalan dolu bir məktub göndərən Kaliforniyadakı erməni kilsəsinin arxiyepiskopu Qalfayan da Türkiyənin şərq vilayətlərinin Ermənistana birləşdirilməsini istəyərək, belə bir sual edirdi: əgər bu dəfə də Ermənistan böyük dövlətlərin riyakarlığına və rəqabətinə qurban veriləcəksə, onda bəşəriyyət ədalətdən danışmağa cürət edə bilərmi?

Bir müddət keçmiş "Nyu York Tayms" qəzetində yuxarıda adı çəkilən Smitin məqaləsi dərc edildi. O, Suriya, Livan, Misir və Yunanıstandakı ermənilərin guya ağır vəziyyətdə yaşadıqlarından bəhs edir, lakin ABŞ-ın bəzi dairələrinin ermənilərin tələblərinə qarşı çıxdığını vurğulayırdı. Smitin yazdığına görə həmin dairələr ermənilərin tələblərinin SSRİ-nin strateji maraqlarına xidmət etdiyi qənaətində idilər.

Gerçəkdən də bəzi amerikan dairələrinin *"ermənilərin tələblərinin SSRİ-nin strateji maraqlarına xidmət etdiyinə dair"* gəldikləri qənaətlər tamamilə düzgün idi. Sovet rəhbərliyi Qara dəniz boğazları üzərində nəzarəti ələ keçirtmək, Aralıq dənizinə, oradan Hind okeanına çıxaraq nüfuzunu yaymaq və soyuq müharibə şəraitində ABŞ başda olmaqla Qərb ölkələrinin Aralıq dənizindən Honkonqa qədərki ərazidə ticarətinə mane olmaq kimi strateji maraqlarını güdürdü. Bu məqsədə nail olmaq üçün ermənilər sadəcə bir vasitə idi.

Ermənilərin əsassız ərazi iddiaları davam edirdi. 1946-cı il may ayının 13-də "Amerikada Erməni Milli Şurası"nın Filadelfiya bölməsinin sədri Şahinyan 10 min nəfərədək olan erməni koloniyasının Türkiyədən torpaqların alınıb sovet Ermənistanına birləşdirilməsi tələblərini dəstəklədiklərini bildirdi[491].

Bir qədər də irəli gedən "Livanda Erməni Milli Şurası"nın may ayının 15-də BMT Təhlükəsizlik Şurasının sədrinə göndərdiyi teleqramda Suriya və Livandakı on minlərlə ermənin Orta Şərqdə sülhün təmin olunmasının başlıca problemi olan erməni – türk münaqişəsinin Təhlükəsizlik Şurasında müzakirəsini tələb etdiyini yazdı. O, tarixi saxtalaşdıraraq qeyd edirdi:

*"Ermənilər Türkiyənin "işğal etdiyi ərazilərin, müsadirə edilmiş əmlakın, həmçinin 1,5 mln. adamın ölümünə görə təzminat kimi göstərilən ərazilərin sovet Ermənistanına birləşdirilməsini tələb edir*" [492].

Belə bir şəraitdə SSRİ – Türkiyə münasibətləri sovet rəhbərliyinin əsassız iddiaları səbəbindən pozulmuşdu. Sovet İttifaqı Türkiyəyə qarşı ciddi hazırlıqlara başlamışdı. Sovet rəhbəri Stalinin göstərişinə uyğun olaraq müvafiq orqanlar tərəfindən 1921-ci il oktyabrın 3-dən 1946-cı il fev-

---

[491] Движение в США за поддержку решения "Армянского национального совета". – Газ. "Коммунист", Ереван, 15.05.1946, № 112(3488).

[492] Телеграмма Армянского национального совета Ливана председателю Совета Безопасности". – Газ. "Коммунист", Ереван, 17.05.1946, № 115(3491).

ralın 18-dək olan müddətdə SSRİ – Türkiyə münasibətlərinə dair görüşlərin stenoqramlarından və digər sənədlərdən ibarət 59 səhifəlik bir qovluq hazırlandı[493]. Sovet dövlətinin Türkiyəyə qarşı iddialarını "əsaslandırmaq" üçün müharibənin ilk illərində Almaniyanın Türkiyədəki səfirliyinin hərbi attaşesinin birinci köməkçisi işləmiş, sonra hərbi əməliyyatlar zamanı SSRİ-yə əsir düşmüş alman ordusunun keçmiş podpolkovniki Baron fon Vanhengeymdən 1946-cı il 15 may tarixli bir bəyanat da alındı. O da böhtan ataraq müharibə dövründə Türkiyənin guya bitərəf qalmadığını, Almaniyaya iqtisadi yardımlar etdiyini, xrom satdığını, SSRİ-yə aid bir sıra məlumatları Almaniyaya verdiyini iddia edirdi[494].

Sovet rəhbərliyinin münasibətini bilən xaricdəki erməni dairələri fəaliyyətlərini daha da genişləndirdilər. 1946-cı il iyun ayının 17-də "Ermənilərin hüquqları uğrunda Amerika mübarizə komitəsi" və "Amerikada Erməni Milli Şurası" Nyu Yorkda bir ziyafət təşkil etdi. 800-dən çox adamın iştirak etdiyi ziyafətdə yenə də tarix kobudcasına saxtalaşdırıldı. Guya 1,5 milyon qaçqın erməni adından Türkiyənin "tutduğu erməni vilayətləri"nin sovet Ermənistanına birləşdirilməsinə dair BMT-yə müraciət göndərilməsi məsələsi müzakirə edildi. Ermənilərin ələ aldığı professor Çembers çıxış edərək tarixi türk torpaqlarının Ermənistana verilməsini xahiş etdi. Yekunda qəbul edilən yalanlarla dolu qətnamədə yazılırdı ki, guya ABŞ Prezidenti V.Vilsonun "Türkiyənin əlində saxladığı erməni vilayətlərinin Ermənistana verilməsinə dair" Millətlər Cəmiyyətinin 1920-ci ildəki qərarı yerinə yetirilməmişdir, yüz minlərlə erməni digər ölkələrdə yaşayır və Ermənistan onları qəbul edə bilər. BMT-dəki ABŞ nümayəndə heyətinə bu təşkilata təqdim edilmək üçün göndərilən qətnamədə "erməni məsələsi"nin Kars, Ardahan, Ərzurum, Trabzon, Van və Bitlisin sovet Ermənistanına birləşdirilməsi yolu ilə həlli istənilirdi[495].

Ermənilər hay-küy içində idilər. Əsassız ərazi iddialarına həsr olunmuş toplantılar ABŞ-da Filadelfiya, Qrovidens, Boston, Detroyt və Çikaqoda da təşkil edildi. "Ermənilərin hüquqları uğrunda Amerika mübarizə

---

[493] Запись бесед Сталина И.В., Молотова В.М. с Исмет Пашой, с министром иностранных дел Турции Сараджоглу, запись беседы Кемаль Ататюрка с Караханом, письмо Вердера Э. На имя Сталина И.В. с приложеним его брошюры "Единственно возможный мир", копии записок Сталина И.В. Ленину В.И., телеграммы Орджоникидзе Г.К. и Нацаренусу по вопросам взаимоотношений между РСФСР и Турцией. 3 октября 1921 г. -18 февраля 1946 г. – РГАСПИ, ф.588, оп.11, д.388, л.1-59.

[494] Заявление Барона фон Вангенгейма, бывшего подполковника германской армии. 15.05.1946. – РГАСПИ, ф.17, оп.121, д.549, л.35-41.

[495] Обращение армянских беженцев к организации Обьединенных Наций. – Газ. "Коммунист", Ереван, 20.05.1946, № 143(3519).

komitəsi"nin iyul ayının 1-də Detroytda keçirtdiyi və min nəfərin iştirak etdiyi mitinqdə BMT-yə müraciət qəbul edildi. Həmin müraciətdə də Türkiyənin əlində olan guya "erməni vilayətləri"nin sovet Ermənistanına birləşdirilməsi yolu ilə "erməni məsələsi"nin həlli xahiş edilirdi.[496]

Bununla kifayətlənməyən həmin komitə ABŞ İdxal-İxrac Bankının Türkiyəyə istiqraz verməsinə etiraz olaraq iyulun 6-da dövlət katibinin müavini Din Açesona etiraz məktubu göndərərək, türk torpaqlarının sovet Ermənistanına birləşdirilməsini tələb etdi. Onlar iddialarının əks olunduğu məktubun surətini dövlət katibinin köməkçisi Kleytona, senatın xarici əlaqələr komitəsinin sədri Koppeliyə, nümayəndələr palatasının xarici əlaqələr komitəsinin sədri Bluma və İxrac-İdxal Bankının sədri Martinə də göndərdilər[497].

Erməni təşkilatları digər ölkələrdə də fəaliyyətlərini genişləndirdilər. Məsələn, Braziliyada San Pauloda ermənilərin bir çoxunun Ermənistanda doğulmamasına və bu ərazini heç görməməsinə baxmayaraq, sovet Ermənistanına "repatriasiya" edilməsi üzrə komitə yaradıldı. Komitə ermənilərin "repatriasiyası"nın qan qardaşları ilə birgə yaşamaq, öz vətənlərinin tərəqqisi və xoşbəxtliyi üçün çalışmağa kömək edəcəyini bildirən qətnamə qəbul etdi[498].

Ermənilərin müxtəlif yollarla ələ keçirtdiyi bir neçə fransız ictimai xadimi iyulun 7-də BMT-yə müraciət edərək türk torpaqlarının sovet Ermənistanına birləşdirilməsinə dair çağırış etdi[499].

Xarici ölkələrdəki erməni təşkilatlarının fəallaşmasının bir sıra səbəbləri var idi. Hər şeydən əvvəl, üzərində sovet xüsusi xidmət orqanlarının da təsiri olan bu təşkilatlar aldıqları təlimata uyğun olaraq hərəkət edirdilər. Bəzi xarici ölkə ictimai dairələrinin nümayəndələrinin Türkiyədən ermənilər üçün torpaq tələb etmələri də aydın idi. Çoxunun Ermənistan SSR-in harada yerləşdiyini heç bilmədiyi və Türkiyəni görmədiyi, ədalət hissini itirən və xalqlar arasında düşmənçiliyi təbliğ edən bu şəxslər erməni təşkilatlarının müxtəlif vasitələr, o cümlədən rüşvətlə ələ aldığı adamlar idi.

Sovet rəhbəri Stalin müharibədən qalib çıxmış SSRİ-nin Qara dəniz boğazları üzərində nəzarət qazanacağına və Türkiyədən torpaqlar

---

[496] Заявление армян в Детройте. – Газ. "Коммунист", Ереван, 07.07.1946, № 158(3534).

[497] Заявление " Американского комитета борьбы за права армян" к Ачесону. – Газ. "Коммунист", Ереван, 09.07.1946, № 159(3535).

[498] Резолюция бразильского комитета содействия репатриация армян. – Газ. "Коммунист", Ереван, 09.07.1946, № 159(3535).

[499] Французские деятели о присоединении к Армении областей, отторгнутых Турцией. – Газ. "Коммунист", Ереван, 09.07.1946, № 159(3535).

qoparacağına ümid edirdi. Amma yanılmışdı. Bu zaman Qərb ölkələri ilə müttəfiq olmamasına və tək qalmasına baxmayaraq, Türkiyə dövləti sovetlərin avantürist tələbləri qarşısında geri çəkilmədi və onları qətiyyətlə rədd etdi. Türk xalqı qəti etiraz etdi. Seyhandan seçilmiş millət vəkili Sinan Tekelioğlu TBMM-in 1946-cı il 14 avqust tarixli iclasında çıxış edərək dedi:

*"Görürük ki, ruslar bu gün bizdən boğazları istəyir. Fransız kommunistləri də erməniləri təhrik edərək Kilikiyada bir erməni cümhuriyyəti qurmaq istəyirlər. Türk milləti adına bu kürsüdən bildirirəm ki, türk milləti bütün varlığı, bütün qüvvət və qüdrəti ilə milli şef İsmət İnönü ətrafında toplanaraq hər cür təhlükəyə sinə gərəcəkdir. Torpağından bir qarışını heç kimə verməməyə əhdi-peyman etmişdir"* [500].

Ermənilərin Azərbaycandan Dağlıq Qarabağ regionunu və Türkiyədən ərazilər qopartmaq iddiaları boşa getsə də, onlar fəaliyyətlərini dayandırmamışdılar. Həmin fəaliyyət ermənilərin xarici ölkələrdən Ermənistan SSR-ə gətirilməsinə dair SSRİ hökumətinin qərarının həyata keçirilməsi və Ermənistanın erməniləşdirilməsi yolunda atılan konkret addımlarla müşayiət olunurdu.

### *Ermənistanın erməniləşdirilməsi yolunda növbəti addım*

Ermənistan SSR rəhbərliyi bu zaman xarici ölkələrdən ermənilərin gətirilməsinə ciddi hazırlaşırdı. Gəlmələr üçün Nor Bəyazid rayonunda 200 mənzil, o cümlədən Nor Bəyaziddə 56 mənzil ayrılmışdı. Həmin mənzillərin təmiri sürətlə aparılırdı. Bu rayonda 315 ailə yerləşdirilməli idi. Mənzillərin ayrılması işi davam edirdi. 100 yeni evin tikintisinə başlanılmışdı. Rayon əhalisi xarici ermənilərə yardım fonduna 700 min rubl pul köçürtmüşdü[501].

Sovet hökuməti ermənilərin gətirilməsi məsələsi üzrə konkret tədbirlər həyata keçirtdi. Belə ki, SSRİ Nazirlər Soveti 1946-cı il iyunun 21-də Ermənistan SSR-də xarici ölkələrdən gətirilən ermənilərin yerləşdirilməsi üzrə mühüm tədbirləri müəyyənləşdirən qərar qəbul etdi. Bu qərar nazirliklərin, yerli sovetlərin və kolxozların maliyyə vəsaitləri hesabına evlərin tikintisini nəzərdə tuturdu. Mərkəzi hökumət hər birində 200 ev olmaqla üç yeni qəsəbənin salınmasına icazə verdi. Gəlmələrə kənd yerlərində ev tikmək üçün 25 min, şəhər yerlərində və qəsəbələrdə isə ev tikmək üçün 30 min rubl ssuda verilirdi. Ssuda, verildikdən 2 il sonra 15 il müddətində hissə-hissə geri qaytarılmalı idi. İttifaq hökuməti 1946-cı ildə

[500] TBMM Tutanak Dergisi. Dönem VIII. Cilt 1. 14.08. 1946, s.56.

[501] Норбаяазетцы готовятся к приему зарубежных армян. – Газ. "Коммунист", Ереван, 22.05.1946, № 118(3494).

həmin məqsəd üçün 50 milyon rubl kredit ayırdı. Ermənistan mətbuatı bunu *"erməni xalqına Stalin qayğısı"* kimi qiymətləndirirdi[502].

Livan və Suriyadan ermənilərin gətirilməsi davam etdirilirdi. Bu ölkələrdən Batuma gətirilən ermənilərin ikinci qrupu 1946-cı il iyulun 16-da xüsusi eşelonlarla sovet Ermənistanına göndərildi. Gəlmələr Kirovakan və Leninakanda yerləşdirildilər. Birinci qrup əvvəllər gətirilmişdi. Ermənilər gətirilmə ərəfəsində Ermənistan K(b)P MK katibi Q.A.Arutunyana və özlərinin yazdıqları kimi *"böyük rəhbər və erməni xalqının dostu Stalinə"* təşəkkür məktubu göndərdilər. Gətirilənlərin qarşılanma mərasimi Yerevanda təşkil edildi. Əhali onları şüarlar yazılmış plakatlarla qarşıladı[503].

Sovet mətbuatının verdiyi məlumata görə Livan və Suriyadan olan təqribən 2500 erməni iyul ayının 12-də SSRİ-nin "Rossiya" paroxoduna mindirilərək sovet Ermənistanına yerləşdirilmək üçün yola salınmışdı[504]. Paroxod iyulun 17-də Batum limanına gəldi. Əslində cəmi 2243 nəfər erməni gətirilmişdi. Onları Ermənistan SSR Nazirlər Soveti yanında Xaricdən gətirilən ermənilərin qəbulu və yerləşdirilməsi üzrə komitənin sədr müavini A.Martirosyan və Ermənistan SSR daxili işlər nazirinin müavini P.Akopov qarşıladılar. Gətirilənlərin hamısı yataqxanalara yerləşdirildi[505]. Onlar gəlmə ermənilərin üçüncü qrupu idi.

Digər ölkələrdən də ermənilərin gətirilməsi təşkil edildi. İyulun 21-də İrandan Ermənistan SSR-in Artaşat rayonuna ermənilərin birinci dəstəsi gətirildi. Rayonda onları Ermənistan SSR torpaq işləri naziri S.Kazaryan, A.Martirosyan və b. qarşıladılar[506].

Ermənilərin Avropa ölkələrindən də gətirilməsi işləri davam etdirildi. Məsələn, hələ iyulun 19-da Buxarestdə Ermənistan SSR-ə göndərilən 1100 nəfərə müvafiq sənədlər təqdim edildi. Toplantıda çıxış edən "Ermənistan cəbhəsi" təşkilatının sədri Danielyan dedi:

*"Xaricdəki ermənilər tarixi günlərini yaşayırlar. Onlar yenidən öz vətənlərini qazanmışlar. Erməni xalqının əsl doğum gününü sovet Ermənistanının yaradılmasını hesab etmək olar"* [507].

---

[502] Сталинская забота об армянском народе. – Газ. "Коммунист", Ереван, 31.12.1946, № 307(3686).

[503] Новая партия зарубежных армян прибыла в советскую Армению.– Газ. "Коммунист", Ереван, 18.07.1946, № 168(3544).

[504] Отьезд группы армян из Сирии и Ливана в СССР. – Газ. "Коммунист", Ереван, 17.07.1946, № 167(3543).

[505] Прибытие третьей группы зарубежных армян в Батуми. – Газ. "Коммунист", Ереван, 18.07.1946, № 168(3544).

[506] Прибытие на родину первой группы зарубежных армян из Ирана.– Газ. "Коммунист", Ереван, 20.07.1946, № 169(3545).

[507] Отьезд армян из Румынии в Советский Союз. – Газ. "Коммунист", Ереван, 23.07.1946, № 170(3547).

Ancaq bu qədər deyil, daha çox, 1742 nəfər erməni avqustun 5-də Rumıniyadan "Rossiya" gəmisində Batuma gətirildi[508]. Onların əksəriyyəti toxucu, pinəçi və inşaatçı idi. Gətirilənlər Yerevan, Leninakan, Alaverdi və b. yerlərdə yerləşdirildilər[509].

Ermənilərin İrandan da gətirilməsi davam edirdi. İyulun 22-də İrandan Artaşat rayonuna ermənilərin ikinci dəstəsi gətirildi. Gətirilən 466 nəfərin hamısı mənzillərlə təmin edildi[510].

Elə həmin tarixdə Beyrutdan Yerevana gələn 1100 nəfərlik ikinci erməni dəstəsi Batumdan xüsusi qatarla gətirildi. Ermənistan SSR Nazirlər Soveti yanında Xaricdən gətirilən ermənilərin qəbulu və yerləşdirilməsi üzrə komitənin sədri V.Astvaçaturyanın və b. şəxslərın qarşıladığı gəlmələrin 350 nəfəri Leninakana yerləşdirildi[511].

Suriya, Livan, Rumıniya və İran ilə yanaşı olaraq sovet hökuməti Bolqarıstandan da ermənilərin gətirilməsini təşkil etdi. İyulun 24-də "Aniva" paroxodunda Varnadan Batuma 789 nəfər göndərildi[512]. Onlar Yerevana iyulun 28-də gəlib çatdılar. Gəlmələri Ermənistan SSR Nazirlər Soveti yanında Xaricdən gətirilən ermənilərin qəbulu və yerləşdirilməsi üzrə komitənin sədri V. Astvaçaturyan və b. şəxslər qarşıladılar. Bu zaman gətirilən 2555 nəfərdən ibarət 72 ailə Yerevanda, 324 nəfər Leninakanda, 178 nəfər Kirovakanda, 32 nəfər isə Oktemberyan rayonlarında yerləşdirildilər[513].

İyulun 26-da Eçmiadzin stansiyasına xüsusi qatarla İrandan 284 nəfər gətirildi. Onları Ermənistan SSR yeyinti sənayesi nazirinin müavini Canpoladyan və b. rəsmi şəxslər qarşıladılar.[514]

Gəlmə ermənilərə respublikada xüsusi diqqət göstərilirdi. İyulun 29-da Ermənistan Filarmoniyasının zalında xaricdən gətirilən erməni gənclərlə görüş oldu. Ermənistan Lenin Kommunist Gənclər İttifaqı Yerevan təşkilatının katibi Sarkisyan toplantını açdı. Məruzə ilə çıxış edən LKGİ MK

---

508 В Батуми прибыла группа армян из Румынии. – Газ. "Коммунист", Ереван, 07.08.1946, № 184(3560).

509 Прибытие первой группы армян из Румынии.– Газ. "Коммунист", Ереван, 11.08.1946, № 188(3564).

510 Прибытие второго каравана армян из Ирана.– Газ. "Коммунист", Ереван, 23.07.1946, № 170(3547).

511 Прибыл из Бейрута третий караван армян возвращающихся на родину. – Газ. "Коммунист", Ереван, 23.07.1946, № 170(3547).

512 Прибытие армян из Болгарии.– Газ. "Коммунист", Ереван, 26.07.1946, № 174(3550).

513 Прибытие в Ереван первой группы армян из Болгарии.– Газ. "Коммунист", Ереван, 30.07.1946, № 177(3553).

514 Прибытие новой партии армян из Ирана.– Газ. "Коммунист", Ереван, 27.07.1946, № 175(3551).

katibi Q.Ələkyan respublikada görülən işlərdən danışdı. Sonra söz alan Tüfəkçiyan *"erməni xalqının xilaskarı olan Stalinə"* təşəkkür etdi. Toplantının yekununda Stalinə və Arutunyana müraciətlər qəbul edildi[515].

Ermənilərin gətirilməsi işi davam etdirilirdi. Livandan ermənilərin növbəti – dördüncü qrupu avqustun 10-da SSRİ-yə məxsus "Pobeda" paroxodunda göndərildilər. Onları yola salmağa minlərlə erməni gəlmişdi.[516]

Avqustun 12-də isə Tehrandan 666 nəfərlik iki qrup Ermənistana yola salındı. Buna qədər avqustun 11-dək İrandan Ermənistana 9339 nəfər göndərilmişdi[517].

Erməniləri gətirməklə Ermənistanı erməniləşdirməyə çalışan sovet rəhbərliyi artıq qeyd edildiyi kimi, konkret məqsədlər güdürdü. Bütün bunlar sovet dövlətinin strateji məqsədlərinin həyata keçirilməsi üçün bir vasitə idi.

### *Xarici ölkələrdəki ermənilərin əsassız iddiaları davam edir*

Ermənilərin Ermənistana gətirilməsi ilə yanaşı xaricdəki erməni təşkilatları hay-küylü mitinqlər keçirərək, tarixi türk torpaqlarını həyasızlıqla tələb edirdilər. 1946-cı il avqust ayının ortalarında Argentinada Buenos-Ayresdə 3 min erməni mitinq keçirərək həmin iddialarını bəyan etdilər. Mitinqin sonunda isə böyük dövlətlərin xarici işlər nazirlərinin 1946-cı il aprelin 25-dən mayın 16-dək və iyunun 15-dən iyulun 12-dək Parisdə keçirilmiş və Rumıniya, Bolqarıstan, Macarıstan və Finlandiya üçün sülh müqavilələrinin əsasən işlənib hazırlandığı ikinci sessiyasına "Türkiyə hakimiyyəti altında olan erməni torpaqlarının probleminə baxmağa dair" tarixin kobudcasına saxtalaşdırıldığı bir müraciət etdilər. Qəribə idi. Parisdə xarici işlər nazirlərinin ikinci sessiyası artıq öz işini başa çatdırmışdı. Bəs elə isə gecikmiş bir məktubun göndərilməsi nə üçün lazım idi? Görünür, erməni təşkilatları XİNŞ-in 1946-cı il noyabrın 4-dən dekabrın 11-dək Nyu Yorkda keçiriləcək növbəti – üçüncü sessiyasına ümid edirdilər.

### *Gətirilənlərə qayğı göstərilir və azərbaycanlılara məxsus yaşayış yerlərinin adları dəyişdirilir*

Bu zaman Ermənistana xaricdən gətirilən ermənilərin sovet vətəndaşlığına qəbul edilməsi məsələsi həllini gözləyirdi. Ermənistan rəhbərliyi

---

515 Встреча с прибывшей из-за границы армянской молодежью. – Газ. "Коммунист", Ереван, 30.07.1946, № 177(3553).

516 Отьезд из Ливана четвертый группы армян. – Газ. "Коммунист", Ереван, 13.08.1946, № 189(3565).

517 Отьезд армян из Ирана в советскую Армению. – Газ. "Коммунист", Ереван, 18.08.1946, № 194(3570).

onu həll etmək üçün bəzi tədbirlər gördü. Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinın 1946-cı il sentyabrın 10-da M.P.Papyanın sədrliyi ilə keçirilən iclasında xaricdən respublikaya gətirilən ermənilərə Ermənistan SSR vətəndaşlığı vermək haqqında məsələ müzakirə edildi. Qərara əsasən 9002 nəfər sovet vətəndaşlığına qəbul edildi.

Bundan sonra Ermənistanın türksüzləşdirilməsi üçün növbəti addım atıldı. Belə ki, Ermənistan SSR Ali Sovetinin Rəyasət Heyəti Mikoyan və Sisiyan rayon icraiyyə komitələrinin bu rayonlarda bəzi yaşayış məntəqələrinin və kənd sovetlərinin adlarının dəyişdirilməsinə dair təklifinə baxaraq təsdiq etdi[518]. Adları dəyişdirilən həmin məntəqələrdə azərbaycanlılar yaşayırdılar.

Bütün bunların hamısı Mərkəzin razılığı ilə edilirdi. Heç əbəs deyildir ki, ermənilərin gətirilməsi məsələsinə münasibət bildirən Yazıçılar İttifaqının sədri Avetik İsaakyan Ermənistan sovet yazıçılarının 1946-cı ilin sentyabr ayında keçirilən II qurultayında etdiyi giriş nitqində deyirdi:

*"Ermənilərin arzusunu böyük rəhbər Stalin həyata keçirtdi. Mövcud şəraitdə xaricdəki ermənilərin müqəddəs vəzifəsi onların Ermənistana gətirilməsinə kömək etməkdir"* [519].

### *Erməni təşkilatları təzyiqləri artırır*

Xarici ölkələrdəki erməni təşkilatları fəaliyyətlərini daha da artırmışdılar. Belə ki, 1946-cı il sentyabr ayının əvvəllərində "Amerikadakı Erməni Milli Komitəsi" "Ermənilər nə istəyirlər?" adlı bir kitabça nəşr etdi, eyni zamanda ermənilərin Ermənistana gətirilməsi üçün ianələr toplamaq işini genişləndirdi. Yalanlar üzərində yazılmış kitabçada tarixi gerçəkliyə zidd olaraq qeyd edilirdi ki, ermənilər ancaq ədalət – tarixi torpaqlarının Ermənistana birləşdirilməsini istəyirlər[520].

Sentyabrın 19-da Beyrutdan Livan və Suriya ermənilərinin növbəti dəstəsi "Vyaçeslav Molotov" gəmisində Batuma gətirildi. Bu dəfə gətirilənlərin sayı 2427 nəfər idi[521].

---

[518] В Президиуме Верховного Совета Армянской ССР. – Газ. "Коммунист", Ереван, 11.09.1946, № 213(3592).

[519] II съезд советских писателей Армении. Из вступительного слова председателя Союза советских писателей Армении тов. Ав. Исаакяна.– Газ. "Коммунист", Ереван, 28.09.1946, № 222(3607).

[520] Требование американских армян. – Газ. "Коммунист", Ереван, 15.09.1946, № 217(3596).

[521] Группа зарубежных армян прибыла на родину.– Газ. "Коммунист", Ереван, 21.09.1946, № 222(3601).

1946-cı il oktyabr ayının ortalarında Yunanıstandan Ermənistana 2380 nəfər gətirildi. Onlar Ermənistan K(b)P MK katibi Q.Arutunova məktub yazaraq *"erməni xalqının dostu Stalinin yalnız atalıq qayğısı nəticəsində arzularının həyata keçdiyi üçün təşəkkür etdilər*". Məktub erməni xalqının böyük dostu olan Stalinə *"uzun-uzun ömür"* arzusu ilə sona çatırdı[522].

## *Gəlmələr üçün şərait yaradılır*

Respublika rəhbərliyi gəlmələr üçün hər cür şəraiti yaratmağa çalışırdı. 1946-cı ilin sonuna olan məlumata görə gəlmələr üçün təkcə şəhərlərdə deyil, respublikanın 28 rayonunda yeni evlər tikilirdi. Tikilən 2400 fərdi evdən 1100-ü Yerevan ətrafında inşa edilirdi. Bundan əlavə sahəsi 41.000 kv. m. olan çoxmərtəbəli binalar inşa olunurdu. Rayonlarda tikilən 1080 fərdi evdən 147-si hazır idi və gəlmələr ora yerləşdirilmişdi. Artaşat rayonunda tikilməkdə olan 140 evdən hazır olan 45, Basarkeçər rayonunda 31 evdən 22, Oktemberyan rayonunda 16 evə gəlmə ermənilər yerləşdirilmişdi. Hər birində 200 ev olan 3 qəsəbə Beriya, Eçmiadzin və Vedi rayonlarında salınırdı. Yerevan, Spandaryan və Stalin rayonlarında yeni evlərə 59 ailə yerləşdirilmişdi. Gəlmə ermənilərin fərdi ev tikməsi üçün 33 milyon 40 min rubl kredit ayrılmışdı[523].

Bütün bunların hamısı yalnız sovet rəhbəri Stalinin qayğısı sayəsində mümkün olmuşdu. Heç əbəs deyildir ki, Ermənistanda sovet hakimiyyətinin qurulmasının 26-cı ildönümü münasibəti ilə "Kommunist" qəzetində dərc edilmiş baş məqalədə yazılırdı:

*"Stalin yoldaşın qayğısı nəticəsində beşilliyin tikintisinə Ermənistana xaricdən gətirilmiş 50 min erməni qoşulmuşdur"* [524].

Bütövlükdə, 1946-cı ilin sonu üçün SSRİ Xalq Komissarları Sovetinin 1945-ci ildə qəbul edilmiş qərarına uyğun olaraq xarici ölkələrdən 50 mindən çox erməni Ermənistana gətirilmişdi[525].

Xarici ölkələrdəki erməni təşkilatları və Ermənistan rəhbərliyi bu gətirilmədən öz məqsədləri – Türkiyəyə qarşı əsassız ərazi iddialarını həyata

---

[522] Из Греции прибыла большая группа армян. – Газ. "Коммунист", 24.09. Ереван, 1946, № 228(3629).

[523] Новые дома для зарубежных армян. – Газ. "Коммунист", Ереван, 26.11.1946, № 279(3658).

[524] Радостный праздник армянского народа. – Газ. "Коммунист", Ереван, 29.11. 1946, № 280(3659).

[525] Сталинская забота об армянском народе. – Газ. "Коммунист", Ереван, 31.12.1946, № 307(3686).

keçirtmək, Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlıları sıxışdırıb çıxartmaq, gəlmə erməniləri yerləşdirməklə respublikanı erməniləşdirmək, əraziləri genişləndirmək və gələcəkdə uydurma "Böyük Ermənistan" qurmaqdan ötrü zəmin hazırlamaq üçün istifadə etmək istə-yirdilər.

Artıq qeyd edildiyi kimi, ermənilərin gətirilməsi ilə Stalin böyük bir strateji niyyət güdürdü. Bu məsələdə sovet dövlətinin məqsədi onlardan Türkiyəyə qarşı planlarının həyata keçirilməsində istifadə etmək, ABŞ və digər Qərb dövlətlərinin Türkiyə ərazisi vasitəsi ilə Cənubi Qafqaza yaxınlaşmasına yol verməmək idi.

Bu zaman ÜİK(b)K MK Siyasi Bürosu Türkiyə ərazisində əməliyyat keçirtmək barədə tamamilə məxfi bir qərar da qəbul etmişdi. Lakin həmin qərarın həyata keçirilməsi təxirə salındı. Qərarın təxirə salınmasına təsir edən bir sıra amillər var idi. Hər şeydən əvvəl, Qərb ölkələri, xüsusən ABŞ hökuməti Türkiyəyə qarşı əsassız iddiaları müdafiə etmədi. Bir çox amerikan rəsmisi açıq bildirirdi:

*"Türkiyəyə qarşı erməni iddialarının arxasında əslində SSRİ-nin strateji niyyətləri – Qara dənzi boğazlarına yiyələnmək, oradan Aralıq dənizi və Hind okeanına enmək, Aralıq dənizindən Honkonqa qədərki ərazidə Qərb ölkələrinin ticarətinə və maraqlarına zərbə vurmaq və öz nüfuzunu yaymaq dayanır".*

Digər bir səbəb onunla bağlı idi ki, SSRİ xalqları verdikləri böyük itkilər hesabına müharibədə qazanılan qələbədən sonra artıq yorulmuşdular. Onlar sakit həyat istəyirdilər. SSRİ rəhbərliyi də artıq ölkənin dinc quruculuq dövrünə qədəm qoyduğunu elan etmişdi. Bütün ölkə qəzetləri müharibədən sonrakı dinc quruculuğa və sakit həyata keçiddən bəhs edən məqalələr dərc edirdilər. Lakin bu quruculuq prosesləri ilə yanaşı SSRİ rəhbərliyi öz strateji niyyətlərindən də imtina etməmişdi. Həmin niyyətlərin həyata keçirilməsində Ermənistan rəhbərliyi və xarici ölkələrdəki erməni təşkilatları bir vasitəyə çevrilmişdilər. Qərb ölkələrinin də bacarıqla istifadə etdikləri xaricdəki erməni təşkilatları böyük siyasətdəki şahmat oyunundakı kimi piyadalar rolunu oynayırdılar.

Xarici ölkələrdəki erməni təşkilatları əsassız ərazi iddialarını reallaşdırmaq və gələcəkdə uydurma "Böyük Ermənistan" qurmaq üçün müxtəlif üsullardan istifadə edirdilər. Bunlardan biri də silah-sursat ehtiyatı toplamaq idi.

### *Təbrizdə daşnakların silah-sursat anbarı*

Türkiyəyə qarşı əsassız ərazi iddialarını davam etdirən, Azərbaycanın Dağlıq Qarabağ regionunun qopardılmasına cəhd edən və bu məq-

sədlə hətta silahlı mübarizəyə qoşulmağa hazır olan Daşnaksütyun artıq qeyd edildiyi kimi, silah və sursat ehtiyatı da yığmağa davam edirdi. Daşnakların Cənubi Azərbaycanda başlıca məntəqəsi Təbriz idi. Burada onlar silah anbarı yaratmışdılar. Anbar Lilavadakı erməni kilsəsində yerləşirdi. 1946-cı ildə 15-ci Qafqaz korpusunun Əks-Kəşfiyyat SMERŞ əməkdaşlarının səyləri nəticəsində həmin anbardan 50 min tüfəng patronu, 19 tüfəng, Naqan və Mauzer tipli 23 tapança, 3 min bomba fitili, 25 ədəd qumbara, 500 kiloqram partlayıcı maddə (dinamit, amonal və b.) digər silah növləri götürüldü. Kilsədə silah və sursat saxlanılması haqqında yayılan xəbərdən hiddətlənən yerli azərbaycanlılar bəyan etdilər ki, ermənilər onlara qarşı üsyan hazırlayırlar və düşmənləridir, haqq-hesab çəkmək lazımdır. Bəzi mollalar da məscidlərdə etdikləri moizələrdə həmin silahların yerli əhaliyə qarşı istifadə ediləcəyini söyləyirdilər. Bundan sonra ermənilərin döyülməsi barədə çağırışlar da səsləndirildi. Hətta bəzi ermənilər də hiddətlənmişdilər. Onlar silahları saxlayan və İran Azərbaycanındakı erməniləri zərbə altına qoyan daşnakları, xüsusən Təbrizdəki erməni eparaxiya şurasının rəisi arxiyepiskop Nerses Melik- Tangiyanı, zərgər Aykak Kosayanı, ədəbiyyatçı Qayk Əcəmyanı, erməni məktəbinin keçmiş gözətçisi, həmin vaxt ticarətlə məşğul olan Ovanes Qabrielyanı və onun oğlu Andranik Qabrielyanı təqsirləndirirdilər[526]. Yeni silah anbarlarının olması mümkünlüyünü nəzərə alan və yerli əhali ilə ermənilər arasında münaqişənin qarşısını kəsmək üçün sovet ordu komandanlığı bir sıra həbslər həyata keçirtdi. Daşnak kitabxanasını saxlayan, "Otarakan" ləqəbi ilə məqalələr yazan, 20 ildən artıq "Masis" adlı təqvim nəşr edən və öz məktəbində qatı millətçi daşnak yetişdirən Qayk Əcəmyan, Ovanes Qabrielyan və Andranik Qabrielyan həbs edildilər. Eçmiadzin kilsəsində keçirilən seçkilərə getməyən, mahiyyətcə qatı daşnak olan və 1929-cu ildən ingilis kəşfiyyatı ilə əlaqə quran Nerses Melik-Tangiyan hər ay həmin təşkilatdan 2 min tümən pul alırdı.

Qeyd etmək lazımdır ki, SSRİ rəhbərliyi xarici ölkələrdəki ermənilərin ABŞ kəşfiyyatının nəzarətində olan Antilas kilsəsinin deyil, sovet xüsusi xidmət orqanlarının nəzarətində olan Eçmiadzin ətrafında toplaşmasında maraqlı idi. Ona görə də Eçmiadzinin rolunu azaltmağa çalışan erməni din xadimlərini daim gözdən salır və onları təqib edirdi.

Sovet xarici kəşfiyyatının məlumatına görə ermənilərin Ermənistana gətirilməsindən danışan zərgərlik emalatxanasının sahibi, qatı daşnak Qayk (Ayrik) Sevonyan demişdi ki, ermənilər sovet Ermənistanına köçürülən zaman yalnız Daşnaksütyun Türkiyənin dağıdılmış vilayətlərini bər-

---

[526] О мероприятиях, в связи с обнаружением дашнакского оружейного склада в Табризе (Иран). – ARMTNA, ÇF-852, v.189-190.

pa edə bilər. Bununla bağlı olaraq SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyi (DTN) 2-ci idarəsinin 1-ci şöbəsinin "Təbrizdə yaşayan daşnakların "erməni məsələsi"nə dair əhval-ruhiyyəsi haqqında" 1946-cı il 28 iyun tarixli 1/6373 №-li arayışında yazılırdı:

"*Təbrizdə yaşayan daşnaklar həm xarici ölkələrdən ermənilərin sovet Ermənistanına köçürülməsində, həm də Türkiyənin ələ keçirtdiyi torpaqların geri qaytarılması məsələlərində müsbət mövqedədirlər. Böyük Britaniya və ABŞ kəşfiyyatı ilə sıx bağlı olan daşnaklar çoxlu ermənilərin köçürülməsinə mane olmaq üçün antisovet təbliğatı və köçürülənlər arasından agentlərin cəlb edilməsi işini gücləndirmişlər*" [527].

Belə bir şəraitdə fəaliyyətinin yeni bir mərhələsinin astanasında olan Ermənistan rəhbərliyi xaricdən ermənilərin gətirilməsini davam etdirirdi. Gəlmələr milli nifaqı daha da qızışdırırdılar. Bu özünü Azərbaycan SSR-in Dağlıq Qarabağ regionundakı bəzi erməni ziyalılarının əhval-ruhiyyəsində də qabarıq şəkildə göstərirdi.

### *DQMV-də bəzi erməni ziyalılarının əhval-ruhiyyəsi*

Qatı millətçi erməni dairələrinin Azərbaycanın Dağlıq Qarabağ regionunda düşmənçiliyi yayması nəticəsində ermənilərin arasında separatçı əhval-ruhiyyə artırdı. Şəraiti öyrənən Azərbaycan SSR dövlət təhlükəsizliyi naziri general-mayor S.S.Yemelyanov 1946-cı il avqustun 24-də M.Bağırova tamamilə məxfi bir arayış göndərdi. 3 səhifədən ibarət olan arayış "DQMV-nin erməni ziyalılarının bəzi hissəsi arasında mənfi əhval-ruhiyyə haqqında" adlanırdı[528]. Dağlıq Qarabağda erməni ziyalılarının qeyri-sabit hissəsi arasında mənfi əhval-ruhiyyə barədə Azərbaycan SSR DTN-ə daxil olan ilkin materiallar əsasında hazırlanmış arayışda yazılırdı ki, əhval-ruhiyyənin bədbin olması, maddi vəziyyətdən narazılıq və Dağlıq Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsi haqqında cəhdlər haqqında ayrı-ayrı faktlar qeydə alınmışdır. Azərbaycan Yazıçılar İttifaqının Dağlıq Qarabağ filialının məsul katibi, Hadrut rayonunun Dumı kəndinin sakini, bitərəf, iki illik ədəbiyyat kurslarını bitirmiş və Qırmızı ordu sıralarında xidmət etmiş, 1945-ci ildə tərxis edilmiş Boqdan Canyan demişdi:

*"Hər şey məni cana yığmışdır və həyat tamamilə bezdirmişdir. Orduda olarkən mən ciddi cəhdlə evə can atırdım, indi evə gəlmişəm, ya-*

---

[527] Справка 2.1 отдел. МГБ СССР №1/6373 от 28/VI-46 г. – ARMTNA, ÇF-852, v.267.

[528] Министр Госбезопасности Азербайджанской ССР генерал-майор Емельянов – тов. Багирову. Справка об отрицательных настроениях среди некоторой части армянской интеллигенции НКАО. 24.08.1946. – ARSSA, f.1, siy.169, iş 249/I, v.13-15.

*şamaq əzabdır. Bu nə həyatdır, axı, biz yaşamırıq, əzab çəkirik. Açığını deyim, mən əvvəllər sovet quruluşuna hörmət edirdim, indi isə ona başqa cür baxıram və heç cür başa düşmürəm ki, nəyə görə yenə də bir qrup adam firavan, digərləri isə qul vəziyyətində yaşayır".*

Arayışda qeyd edilirdi ki, Boqdan Canyan Yazıçılar İttifaqının filialının katibi vəzifəsini qanedici icra etmir, nəticədə yazıçı İsrael Petrosyanın ideoloji cəhətdən səbatsız olan oçerkinin mətbuatda dərci hadisəsi baş vermişdir. Hərbi əsirlikdə olmuş antisovet əhval-ruhiyyəli ayrı-ayrı adamlarla əlaqə saxlayan Boqdan Canyan onları müdafiə edirdi. SSRİ-də zəhmətkeşlərin həyat şəraitini xarici ölkələrlə müqayisə edən bu yazıçı kəskin şəkildə demişdi:

*"Xarici fəhlələr min dəfə daha yaxşı şəraitdə yaşayırlar, nəinki bizdə. Bizdə necə fəhlə quruluşudur ki, fəhlə və kəndlilərimiz yarıac-yarıtox yaşamaqdan ölürlər".*

Azərbaycanın Dağlıq Qarabağ regionunun Ermənistana birləşdirilməsinə tərəfdar olan B.Canyan demişdi:

*"DQMV Ermənistanın tərkibinə daxil olsaydı, onda bizim mədəniyyətimiz yenidən çiçəklənərdi. Biz erməni mədəniyyətindən geri qalırıq, erməni operasını və ümumiyyətlə, nailiyyətlərini görmürük. Biz Ermənistanla üzvi şəkildə bir olmalıyıq".*

Belə əhval-ruhiyyə vilayətin ali təhsil müəssisələrinin müəllim heyəti arasında da qeydə alınmışdı. Məsələn, Pedaqoji İnstitutun dosenti Sarkis İvanoviç Voskerçyan ermənilərin saxta əzabkeş obrazını yaratmağa cəhd edərək demişdi:

"*Heç bir xalq bizim kimi belə əzaba dözməzdi. Yalnız onun sayəsində biz tab gətirdik, lakin bu nə qələbədir – İngiltərə "erməni məsələsi"ni tam həll etməyə icazə vermir, məhz o, SSRİ-nin Bosfora yaxın olmasını istəmir. Bunun hamısında Qarabağın köhnə rəhbərləri təqsirkardır, onların təqsiri ucbatından DQMV indi Ermənistanın tərkibində deyildir, o zaman heç Türkiyə də lazım olmazdı. Şuşanı bərpa edər və ermənilərə yaşamağa verərdilər".*

Stepanakert Qiyabi Pedaqoji İnstitutunun Bakıdan ezam edilmiş müəllimi Karo Arutunov ilə söhbətində Stepanakert rayon Daqran kənd sakini, Yerevan Dövlət Universitetinin tələbəsi Qayk Xaçaturyan demişdi ki, Yerevanda təhsil alarkən mən o qədər bilik aldım, Qarabağda on il ərzində ala bilməzdim. Ermənistanda Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında məsələ qaldırılmışdır. Biz tələbələr də belə məsələni qoyduq və tələb etdik ki, bizim üçün Qarabağın Ermənistana nəyə görə birləşdirilməməsinə dair məruzə oxusunlar. Suala cavab olaraq bir professor bizə izah etdi ki, bunu həll etmək mümkün deyildir, çünki bunu bütün xalq deyil, yalnız Qarabağın ziyalıları tələb edirlər.

Cavab olaraq Karo Arutunyan isə hiyləgərliklə demişdi:

*"Professor səhv edir, xalq da Ermənistana birləşmək istəyir, lakin bütün bəla ondan ibarətdir ki, bu məsələni indi qoymaq olmaz".*

Stepanakert rayon torpaq şöbəsinin baş aqronomu Vaho Xeçoyan isə məclislərin birində demişdi ki, biz yazıq xalqıq, nə zamansa böyük mədəniyyətin nümayəndələri olmuşuq. İçək onun gələcəyi sağlığına və arzu edək ki, o, kəmiyyəti və mədəniyyəti üzrə böyük ailə olsun.

Stepanakert axşam universitetinin direktoru Qraçiy Mkrtıçyan Bakıya gəlib qayıtdıqdan sonra saxtakarlılqa demişdi:

*"Mən fikirləşirdim ki, bunlar söhbətlərdir, lakin faktlarla əmin oldum ki, Bakıda müstəsna olaraq azərbaycanlılara diqqət yetirirlər. Orada qəbul edilmişdir ki, nə vaxtsa hansısa iş tələb edirsən, cavab verirlər, milli əlamətə görə yaramırsan".*

Stepanakert Qiyabi İnstitutunda müvəqqəti işləyən Azərbaycan Dövlət Pedaqoji İnstitutunun müəllimi Qurgen Gerasimoviç Antonyan xaricdən ermənilərin sovet Ermənistanına köçürülməsi haqqında məsələyə toxunaraq bildirmişdi:

*"Suriyadan gələn ermənilər orada bütün varidatlarını satmışlar və bütün kapitallarını özləri ilə gətirmişlər, lakin onlar bizdə bu vəsaitlərin hamısını 50 gün ərzində xərcləyəcəklər. Əgər bizdə hansı həyatın olduğunu bilsəydilər, onlar heç bir zaman gəlməzdilər. Onları sadəcə aldatmışlar. Xaricdə bizim çoxlu təbliğatçılarımız vardır, ermənilərə təbliğat aparırlar ki, onlar SSRİ-yə gəlsinlər, bunun üçün bizim həyatımızı gözəl təsvir edirlər. Ermənilər də ona uyur və gəlirlər".*

S.S.Yemelyanov arayışın sonunda adı çəkilən şəxslərin siyasi simasının və belə əhval-ruhiyyənin yayılmasının mənbələrinin öyrənilməsinin davam etdirildiyini yazırdı. Arayışla tanış olan M.Bağırov onu müzakirə üçün Azərbaycan KP MK Bürosunda müzakirəyə təqdim etdi. Lakin arxiv fondlarının materiallarında bu məsələnin necə müzakirə olunduğuna və hansı qərarın qəbul edildiyinə dair heç bir məlumata rast gəlmədik.

Qeyd etmək lazımdır ki, ermənilərin sıxışdırılmasına dair DQMV-dəki bəzi erməni ziyalılarının söylədiklərinin heç bir əsası olmayıb, başdan-başa cəfəngiyat, böhtan, qarayaxma idi. Çünki ermənilər Azərbaycan K(b)P MK-da, hökumətdə, sovet və təsərrüfat orqanlarında məsul vəzifələrdə yerləşmişdilər. Erməni gənclər Azərbaycanın ali məktəblərində təhsil alırdılar. Erməni dilində Bakıda qəzet və jurnallar dərc edilir, radio verlişləri yayımlanırdı. Azərbaycan hakimiyyəti ermənilərə xoş münasibət bəsləyirdi. Azərbaycan xalqı bütün pislikləri bağışlayaraq ermənilərə isti qucağını açmışdı. Bəzi "erməni ziyalıları"nın dedikləri çarizmin dövrü sənədlərində yazılanların və amerikalıların söylədiklərinin – *"nə qədər*

*yaxşılıqlar edilsə də, erməni ünsürü "azdır" deyərək, narazı qalır"* – həqiqət olduğunu göstərirdi.

### *Sovet rəhbərliyi gətirilən ermənilərə xüsusi qayğı göstərir*

Belə bir şəraitdə Ermənistan K(b)P MK və respublika Nazirlər Soveti Moskvaya müraciət göndərərək xaricdən gətirilən ermənilərin SSRİ vətəndaşlığına qəbulunu sürətləndirməyi xahiş etdilər. SSRİ Ali Soveti Rəyasət Heyəti həmin məsələni müzakirə etdi. Bundan sonra Rəyasət Heyətinin sədri N.Şvernik 1946-cı il avqustun 8-də ÜİK(b)P MK Siyasi Bürosuna, İ.V.Stalinə "Vətənə – sovet Ermənistanına qayıdan erməni millətindən olan şəxslərin SSRİ vətəndaşlığı almaları qaydaları haqqında" bir məktub göndərdi. Müvafiq qanun layihəsi də əlavə edildi. Məktubda SSRİ Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin bəyəndiyi bu layihənin təsdiq və mətbuatda dərc edilməsi xahiş olunurdu[529].

Müraciət və layihə ÜİK(b)P MK Siyasi Bürosunda müzakirə edildi və bəyənildi. Bundan sonra layihə yenidən SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında müzakirə edildi. SSRİ daxili işlər naziri S.N.Kruqlovun təqdim etdiyi bu məsələ üzrə müvafiq qərar layihəsi təsdiq olundu[530].

Qəbul edilən sənəd başdan-başa qüsurlarla dolu idi. Hər şeydən əvvəl, artıq qeyd edildiyi kimi, xarici ölkələrdən gətirilərək Ermənistana doldurulan və daha sonra isə SSRİ vətəndaşlığı verilən ermənilər bu respublika ərazisində doğulmamış və çoxları Ermənistanı görməmişdi. Layihədə onlar üçün əlverişli şəraitin yaradılmasının nəzərdə tutulması sovet dövlətinin Türkiyəyə münasibətdə strateji məqsədlərinin həyata keçirilməsinə xidmət edirdi.

Sovet dövlətinin xüsusi qayğı göstərməsinə baxmayaraq, gəlmələrin bir çoxu onlar üçün yaradılan məişət-yaşayış şəraitindən, ərzaq çatışmazlığından, əvvəllər şəhərlərdə yaşayanlar isə Ermənistanda kənd yerlərində yerləşdirilmələrindən narazılıq edirdilər. Bununla bağlı olaraq SSRİ daxili işlər naziri S.Kruqlov ÜİK(b)P MK Siyasi Bürosunun üzvü, MK katibi

---

[529] Письмо председателя Президиума Верховного Совета СССР Н.Шверника в Политбюро ЦК ВК(б), тов. Сталину И.В. "О порядке приобретения гражданства СССР лицами армянской нацинальности, возвращаюшимися на родину в советскую Армению". 08.08.1946. – РГАСПИ, ф.17, оп. 121, д.530, л.12-13.

[530] Заседание Президиума Верховного Совета СССР. 3-й пункт. О порядке приобретения гражданства СССР лицами армянской нацинальности, возвращаюшимися на родину в советскую Армению. – РГАСПИ, ф.17, оп. 121, д.530, л.18.

A.A.Jdanova 1946-cı il 8 sentyabr tarixli 4203/4 saylı tamamilə məxfi məktubunda yazırdı:

"*Ermənistan SSR Daxili İşlər Nazirliyinin məlumatına əsasən cari ilin 20 avqust tarixinə olan vəziyyətə görə Ermənistana 26.000 xarici erməni gətirilmişdir...*

*Köçürülənlərin bir hissəsi yaradılmış yaşayış-məişət şəraitindən, ərzaq çatışmazlığından, şəhər əhalisinin bir hissəsinin kənd yerlərində yerləşdirilməsindən narazılıq edirlər"* [531].

Narazılıqlara baxmayaraq, xaricdən ermənilərin gətirilməsi işi davam etdirilirdi. Həm ermənilərin gətirilməsi, həm də onların şəraitinin yaxşılaşdırılması haqqında Mərkəzə müraciət edən Ermənistan rəhbərliyi gəlmələr üçün evləri tikməyin və şərait yaratmağın çətin olduğunu söyləməklə ölkə büdcəsindən əlavə vəsaitlər almaq, azərbaycanlıları deportasiya etmək və onların hər cür şəraiti olan evlərinə gətirilən erməniləri yerləşdirmək üçün rəy yaratmaqla məşğul idi. Bu baxımdan, Ermənistan K(b)P MK katibi Q.Arutunovun sovet rəhbəri Stalinə yazdığı 1946-cı il 10 oktyabr tarixli 787/s saylı tamamilə məxfi məktubu diqqəti cəlb edir. O, qeyd edirdi ki, "vətənə dönmək" istəyən xarici ermənilərə icazə verilməsinə dair SSRİ hökumətinin 1945-ci il 21 noyabr tarixli qərarının yerinə yetirilməsi zamanı Suriya, Livan, İran, Yunanıstan, Bolqarıstan və Rumıniyadan ermənilərin gətirilməsi təşkil edilmiş, 1946-cı il oktyabrın 8-nə olan məlumata görə Ermənistan SSR XKS və Ermənistan K(b)P MK-nın müəyyənləşdirdiyi 30-35 min əvəzinə 48 min 671 nəfər gətirilmişdir. Beləliklə, 1946-cı il üçün qəbul planını başa çatmış hesab etmək olar. Q.Arutunovun yazdığına görə ötən müddət ərzində Suriya və Livandan 17 min 992, İrandan 19 min 584, Yunanıstandan 4 min 974, Bolqarıstandan 4 min 383, Rumıniyadan 1 min 738 nəfər gətirilmişdi. Gəlmə ermənilər əhalinin verdiyi müvəqqəti sığınacaqlara, şəhərlərə, rayon mərkəzlərinə, kəndlərə göndərilmiş və yerləşdirilmişdilər. Əmək qabiliyyətli əhalinin hamısı sənaye müəssisələrində və kənd təsərrüfatında işə düzəldilmişdi. 9 min 455 nəfərin sovet təbəəliyinə qəbulu üçün sənədlər hazırlanmışdı.

Q.Arutunov yazırdı ki, xarici ermənilərin qəbulu zamanı aşağıdakı çətinliklər yaranmışdır: birincisi, yaşayış sahəsi ilə kifayət qədər təmin olunmamaları və əhalinin verdiklərinin yaşayış otaqları üçün tamamilə uyğun gəlməməsi bir çox hallarda gələnlərdə narazılıq yaratmışdır, yeni evlərin tikintisi lazımi sayda meşə və inşaat materiallarının çatışmaması səbəbindən yubanmaqla aparılmışdır. İkincisi, gətirilən əhali fəhlə və kəndli deyil, xarici ölkələrdə şəhərlərdə yaşamış sənətkarlar – pinəçilər,

---

[531] Письмо министра внутренних дел С.Круглова тов. Жданову А.А. 08.09.1946. №4203/4. Совершенно секретно. – РГАСПИ, ф.17, оп. 121, д.530, л.7-8.

dərzilər, zərgərlər və bərbərlər idi. Rayon mərkəzlərinə göndərilən zaman onlar narazılıq edir, xarici ermənilərin qəbulu üçün məhdud yaşayış imkanları olan Yerevan şəhərinə dəyişməyə çalışırdılar. Üçüncüsü, gələn ermənilərin bir hissəsi, xüsusən İran, Suriya və Livandan gələnlərin geyimi Ermənistandakı qış şəraitinə uyğun gəlmirdi. Onların qazandıqları pul paltar və ayaqqabı almağa kifayət etmirdi. Dördüncüsü, kənd yerlərində yerləşdirilən İran və Suriyadan gətirilən ermənilər hər gün çay içdikləri üçün yerli əhalidən fərqli olaraq böyük miqdarda qənd ilə təchiz edilmələri məsələsini qoyurdular.

Mövcud imkanları nəzərə alaraq 1947-ci ildə xaricdən ermənilərin gətirilməsi planını işləyib hazırlayan Ermənistan K(b)P MK və Ermənistan SSR Nazirlər Soveti onu SSRİ Nazirlər Sovetinə təqdim etdi. Həmin plana görə 1947-ci ildə 63 min erməninin aşağıdakı ölkələrdən gətirilməsi nəzərdə tutulmuşdu: İrandan 20 min; Suriyadan 15 min; Yunanıstandan 15 min; Fransadan 7 min; Misirdən 3 min; Cənubi Amerikadan 2 min; ABŞ-dan 1 min.

Q.Arutunov Stalindən aşağıdakı məsələlərə dair göstəriş verməyi xahiş edirdi:

*"Birincisi, 1947-ci il üçün ermənilərin gətirilməsi və onun yerinə yetirilməsi üçün tədbirlər planına baxılsın; ikincisi, 1947-ci ildə repatriasiyanı hazırlamaq və təşkil etmək üçün SSRİ Xarici İşlər Nazirliyinə bu ölkələrə öz nümayəndələrini göndərmək haqqında göstəriş verilsin; üçüncüsü, xüsusi ehtiyacı olan gətirilən ermənilərin sənaye malları və qışda ayaqqabılarla, həmçinin İran və Suriyadan gələnlərin qəndlə təmin edilməsi üçün xüsusi fond ayrılsın"* [532].

Məktubla tanış olan Stalin 1946-cı il oktyabrın 14-də dərkənar yazaraq ÜİK(b)P MK katibi A.A.Jdanova göndərdi. A. Jdanov isə məktubun surətini SSRİ Nazirlər Sovetinin sədr müavini N.A.Voznesenskiyə yolladı.

Q.Arutunov 1946-cı il noyabrın 8-də 879/s saylı eyni məzmunlu məktubunu A.A.Jdanova da göndərdi. Məktubdan aydın olurdu ki, 1946-cı ildə xaricdən 50 min erməni gətirilmişdi. Bütövlükdə isə 200 min erməninin Ermənistana gətirilməsi gözlənilirdi[533].

Ermənilərin gətirilməsinə xüsusi qayğı göstərən sovet rəhbərliyi onların yerləşdirilməsi üçün hər çür şəraiti olan hazır evlər əldə etmək barədə düşünürdü. Belə evlər tarixi torpaqlarında – Ermənistanda yaşayan azərbaycanlılarda var idi.

---

[532] Письмо секретаря ЦК КП(б) Армении Арутунова Сталину О ходе приема зарубежных армян в советскую Армению. 08.10.1946. №787/с. – РГАСПИ, ф.17, оп.121, д.530, л.3-6.

[533] Письмо секретаря ЦК КП(б) Армении Арутунова Жданову О приема зарубежных армян.08.11.1946.№879/с.–РГАСПИ, ф.17, оп.121,д.530, л. 9-10.

Ermənilər yerləşdirildikdən sonra Ermənistanda azərbaycanlıların yaşadıqları tarixi yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi işi davam etdirildi. Belə ki, təkcə 1946-cı ildə verilən fərmanlara əsasən azərbaycanlılar yaşayan 123-dən çox yaşayış məntəqəsinin adı erməni adları ilə əvəz edilərək, süni surətdə erməniləşdirildi[534].

### *Azərbaycan əraziləri Ermənistana verilir*

Ermənistan hakimiyyəti həm respublika ərazisində tarixi torpaqlarında yaşayan azərbaycanlıları sıxışdırır, Azərbaycanın Dağlıq Qarabağ regionunda milli nifaqın xəlvəti olaraq qızışdırılmasını təşviq edir, həm də Azərbaycanın digər rayonlarına ərazi iddialarını davam etdirirdi. Dağlıq Qarabağı ələ keçirə bilməyən Ermənistan SSR rəhbərləri digər yerlərdə də Azərbaycan ərazilərinə iddialarını irəli sürdülər. Bu dəfə sovet rəhbərliyi həmin iddiaları yerinə yetirdi. 1946-cı ildə Qazax rayonundan 40 kv. km. meşə sahəsi, Tovuz rayonu ərazisindən 7,6 kv. km. ərazi Ermənistana verildi.

### *Cənubi Azərbaycandakı daşnaklar Türkiyədən ərazilər tələb edirlər*

Bu zaman Cənubi Azərbaycandakı daşnaklar fəaliyyətlərini daha da genişləndirmişdilər. Tehrandan Təbrizə gələn Daşnaksütyunun xarici bürosunun nümayəndəsi Varos Babayan 1946-cı il noyabrın 22-də daşnaklarla bir müşavirə keçirtdi. Beynəlxalq şəraitin kəskinləşməsindən narahatlığın ifadə edildiyi müşavirədə bildirildi ki, SSRİ ilə Türkiyə arasında müharibə olarsa, daşnaklar Sovet İttifaqını müdafiə edəcəklər[535]. Bütün daşnaklar belə düşünürdü. Məsələn, Marağadakı sovet kəşfiyyatının rezidenti ilə söhbətində qatı daşnak, bir zamanlar Aleksandropol (Gümrü) şəhərinin başçısı olmuş doktor Qayk Sarkisoviç Melkonyan bildirmişdi:

*"Bizim vəzifələrimiz və tələblərimiz tamamilə aydındır. Biz Türkiyədən ermənilərə məxsus rayonların alınıb Ermənistana birləşdirilməsinə nail olmalıyıq. Bu vəzifəni yerinə yetirən zaman biz öz missiyamızı başa çatmış hesab edəcəyik və başımızı gilyotinin altına qoymağa hazırıq. Biz, həmçinin hesab edirik ki, nəhayət, İran Azərbaycanı haqqında da məsələ həll ediləcəkdir, bədbəxt əhali bu əzablı həyatdan azad olacaqdır"* [536].

---

[534] Mustafa N.Vandalism: genoside against the historical names, p.7-43.
[535] Выписка из архивного дела №130. Дашнаки. Сов.секретно, л. 56-57. – ARMTNA, ÇF-852, v. 50-51.
[536] Yenə orada.

## *Tarix saxtalaşdırılır*

Türkiyə və Azərbaycandan ərazilər tələb etməklə yanaşı, Ermənistanda nəşr olunan kitablarda Azərbaycan xalqına qarşı hörmətsizlik edilir və gerçək tarix saxtalaşdırılırdı. Həmin "əsərlər"in başlıca məqsədi Azərbaycanın tarixi Naxçıvan, Qarabağ və digər ərazilərinin guya erməni torpağı olduğunu "sübut etmək", Ermənistana birləşdirmək idi. Məsələn, 1946-cı ildə İrəvanda Marietta Şaginyanın "Sovet Zaqafqaziyası" adlı kitabı nəşr edilmişdi. Çoxlu sayda səhvlər olan bu kitabda tarixi həqiqətlər kobudcasına təhrif edilir və Cənubi Qafqaz xalqlarına böhtan atılırdı. Azərbaycanın Dağlıq Qarabağ regionunu saxtakarlıqla "qədim erməni torpağı" kimi qələmə verən M.Şaginyan burada heyvandarlığın geriləməsini "köçəri müsəlmanların" iranlılarla ticarət edərək xəstə heyvanları gətirmələri, bunun nəticəsində mal-qaranın qırılması ilə əlaqələndirir, böhtan ataraq Azərbaycan xalqını geri qalmış, kobud hesab edir, M.Füzulinin əsərlərini ərəbcə yazdığını vurğulayır və Azərbaycan qadınını çadrada təsvir edirdi[537].

Bu cızma-qara Azərbaycanın narazılığına səbəb oldu. Azərbaycan Yazıçılar İttifaqının sədri Mirzə İbrahimov M.Şaginyanın kitabına qəti etiraz etdi. Səhvini başa düşən müəllif 1947-ci il mayın 26-da M.İbrahimova yazdığı məktubunda kitabında təhqiredici deyil, iyrənc yerlərin olduğunu etiraf etdi, buraxdığı səhvlər üçün üzr istədi[538]. Üzr istəməsinə baxmayaraq, kitab artıq nəşr edilmişdi və ermənilər tərəfindən oxunurdu.

Azərbaycan rəhbəri M.Bağırov da bu saxtakarlığa kəskin münasibət bildirdi. M.Şaginyanın kitabı haqqında ÜİK(b)P MK katibi A.A.Jdanova 1947-ci il iyulun 21-də 139 №-li bir məktub göndərdi[539]. Yuxarıda yazılanları eynən sadaladıqdan sonra M.Bağırov belə bir sual edirdi:

*"Yalnız aydın deyildir, Armenqizə* (Ermənistan Dövlət Nəşriyyatı – M.Q.) *20-25 il əvvəl yazılmış bu oçerkləri yenidən nəşr etmək nəyə görə lazımdır".*

M.Bağırov özü də suala aşağıdakı kimi cavab verirdi:

*"Görünür, Azərbaycan, erməni və gürcü xalqlarının ifşa edilmiş düşmənlərinin təsiri altında"*[540].

Lakin bu məktubun ciddi bir təsiri olmadı. Mərkəz sanki özü belə nəşrlərə rəvac verirdi.

---

[537] Справка о книге М.Шагиняна "Советское Закавказье". 21.06.1947. №139. – ARSSA, f.1, siy.35, iş 161, v.131-136.

[538] Письмо М.Шагинян М.Ибрагимову. 26.05.1947. – ARSSA, f.1, siy.35, iş 161, v.137.

[539] М. Багиров – Жданову. 21.07.1947. № 139. – ARSSA, f.1, siy.35, iş 161, v. 131-136.

[540] Yenə orada.

Bu zaman SSRİ-nin siyasəti xarici ölkələrdəki, o cümlədən Türkiyədəki bəzi erməni mətbuatında təbliğ edilirdi.

### *Türkiyədəki ermənilərin fəaliyyətləri*

Türkiyədəki erməni mətbuatı 1947-ci ildə də SSRİ siyasətini təbliğ edən məqalələr dərc etdi. Məqalələrdə guya mədəni bir millət olan ermənilərin müqəddəratının çox acı bir iş olduğu vurğulanır, saxta əzabkeş obrazı yaradılır, Lozan müqaviləsinin ermənilər üçün guya xoş olmayan tərəflərinə diqqət yetirilirdi. Yazılırdı ki, bu gün ermənilər parçalanmış və məhv olmuş bir vəziyyətdədirlər. Məqalələrdə yaranmış şəraitdən çıxış yolu da göstərilirdi:

"*Vaxt itirmədən təşkilatlanmaq lazımdır. Bu gün məsələ millət və ya camaat olaraq bizim tarixi varlığımızın şərəf məsələsidir".*

İstanbulda dərc olunmasına baxmayaraq, səhifələrində Türkiyə həyatına yer ayırmayan "Carakayt" ("Şüa") qəzeti də Sovet İttifaqını təbliğ etməklə məşğul idi. Türklər qəzeti "tam bir sovet orqanı" adlandırırdılar[541].

Ermənilərin sovet Ermənistanına gətirilməsi məsələsində respublika rəhbərliyinin, qatı millətçilərin və xarici ölkələrdəki erməni təşkilatlarının məqsədləri üst-üstə düşürdü. Bu, özünü Daşnaksütyunun XIV qurultayında müzakirə edilən məsələlərdə aydın şəkildə göstərdi.

### *Daşnaksütyun:"Kütləvi repatriasiya, xüsusən erməni torpaqlarının azad edilməsi və Ermənistanın sərhədlərinin genişləndirilməsi ilə əlaqədardır"*

1947-ci il sentyabrın 16-dan oktyabrın 26-dək Misirin paytaxtı Qahirədə Daşnaksütyunun XIV qurultayı keçirildi[542]. Bu barədə SSRİ dövlət təhlükəsizliyi nazirinin müavini general-mayor S.İ.Oqolçov 1948-ci il yanvarın 6-da Azərbaycan SSR dövlət təhlükəsizliyi naziri general-mayor S.Yemelyanova 0-25 №-li tamamilə məxfi məktubunda məlumat verdi[543]. Məlumatda qurultayın noyabr ayında, SSRİ DTN ikinci baş idarəsinin rəis

---

[541] T.C. BCA. 030.01.101.626.6.

[542] Зам. начальника 2-го Главного Управления МГБ СССР генерал-майор Утехин – министру госбезопасности Азербайджанской ССР генерал-майору тов. Емельянову. Обзор материалов о 14 съезде партии Дашнакцутюн и об активизации дашнаками антисоветской деятельности. 17.08.1948. № 2 /г/. – ARMTNA, L-164, v.37-47.

[543] Зам. министра государственной безопасности СССР генерал-майор Огольцов – министру госбезопасности Азербайджанской ССР генерал-майору тов. Емельянову. 06.01.1948. № 0-25. – ARMTNA, L-164,v.4-6.

müavini G.V.Utexinin bir müddət sonra, 1948-ci il avqustun 17-də S.Yemelyanova göndərdiyi 2/Q/ №-li tamamilə məxfi məktubuna olan əlavə materiallarda isə sentyabrın 16-dan oktyabrın 26-dək keçirildiyi göstərilirdi.

Daşnaksütyunun Fransa, Yunanıstan, Suriya, Livan, Misir, İran, İraq və ABŞ təşkilatlarından nümayəndələr, həmçinin ingilis kəşfiyyatının erməni dilini yaxşı bilən əməkdaşı kapitan Vilyams qurultayda iştirak edirdilər. İntellijens Servisin agentləri olan Ter-Minasyan və Qaspar İpəkyan qurultaydan əvvəl ingilis kəşfiyyat nümayəndələri ilə görüşmüşdülər. Amerika ermənilərinin rəhbəri Simon Vraçyan isə Qahirəyə gəlməmişdən əvvəl ABŞ kəşfiyyat nümayəndələri ilə görüşlər keçirtmişdi.

Qurultayda təşkilatın praktik fəaliyyətinə dair aşağıdakı məsələlər müzakirə edildi:

a) Təşkilatın SSRİ-yə, digər böyük dövlətlərə və Türkiyəyə münasibəti;

b) Təşkilatın siyasi istiqaməti, II İnternasionala, “kürd və erməni məsələləri”nə münasibəti;

c) Ermənistana "repatriasiya" haqqında;

d) sovet Ermənistanına münasibət;

e) “erməni məsələsi”;

f) xarici erməni koloniyalarının işi haqqında;

g) “kürd məsələsi”;

h) Kanayan Dro haqqında və b.

Geniş müzakirələrdən sonra qurultay təşkilatın siyasi platforması haqqında direktiv qəbul etdi[544].

Daşnaksütyunun təcavüzkarlıq məqsədlərini açıq-aşkar göstərən direktivdə yazılırdı:

*“Vahid, müstəqil və azad Ermənistanın qurulması tələbləri üzərində qəti durmaq; məqsədlərimizə – vahid, müstəqil və azad Ermənistana çatmaq üçün Sevr sazişi ilə Vilson sərhədlərinin qurulmasına nail olmaq; Daşnaksütyun bu məsələyə münasibətdə barışmaz mövqe tutanları erməni xalqının düşməni hesab edəcək, ona qarşı mübarizə aparacaq, bu məsələnin həllinə kömək edən qüvvələrlə əməkdaşlıq edəcəkdir. Mövcud qarışıq bir zamanda Daşnaksütyunun mərkəzi məsələsi erməni xalqının fiziki cəhətdən qorunmasıdır. Qurultay qeyd edir ki, həm Birinci, həm də İkinci dünya müharibəsində müttəfiqlərin yolunda qan tökmələrinə və verilən bütün vədlərə baxmayaraq, erməni xalqı aldadılmışdır. Sovet İttifaqı erməni torpaqlarının birləşdirilməsini, hətta Cənubi Qafqaz daxilində bir-*

---

[544] Директива четырнадцатого конгресса дашнаков о политической платформе партии Дашнакцутюн. – ARMTNA, L-164, v.16-36; ARSSA, f.1, siy.35, iş 161, v. 17-37.

*ləşdirilməsini istəməmişdir. İngiltərə və Amerika da öz növbəsində SSRİ-nin genişlənməsini görərək, "erməni məsələsi"nin həlli üçün heç bir təklif irəli sürməmişlər. Əksinə, onlar türk torpaqlarının bütövlüyünün müdafiəsinə qalxmışlar. Bununla bağlı olaraq qurultay qərara alır ki, "erməni məsələsi"nin həlli üçün xaricdə SSRİ əleyhinə geniş mübarizə aparılsın; İngiltərə, Amerika və Fransa hakim dairələrində siyasi axınlarda vahid, müstəqil və azad Ermənistan qurulması üçün fəal iş aparılsın; Daşnaksütyun sovet Ermənistanında tətillərin keçirilməsini məqsədəuyğun hesab etmir; müharibə olacağı təqdirdə Daşnaksütyun yadellilərin Qafqaza hücumunda könüllüləri ilə iştirak etməyəcəkdir; müharibə şəraitində prinsipial siyasi və hərbi qərarların qəbul edilməsi üçün mərkəzi komitələrin rəyləri nəzərə alınacaqdır; sovet dövləti və quruluşu ilə mübarizə aparan Daşnaksütyun xaricdəki ermənilərin geniş yardımlarını təmin edəcəkdir; erməni xalqı olduğu ölkədə həm dinc, həm də müharibə dövründə öz vətəndaşlıq borcunu yerinə yetirməlidir; erməni xalqının hüquqlarını tanımayınca Türkiyəyə qarşı mübarizə aparmaq; Türkiyəyə qarşı mübarizədə uğur qazanmaq üçün Yaxın Şərq xalqları ilə əməkdaşlıq qurmaq".*

XIV qurultay ermənilərin SSRİ-yə köçürülməsinə dair 6 bənddən ibarət direktiv qəbul etdi[545]. Qərarda tarixi gerçəkliklə heç bir əlaqəsi olmayan "repatriasiya" ifadəsi yazılsa da, gətirilməsi nəzərdə tutulan ermənilər əslində əvvəllər Cənubi Qafqazdan gedənlər deyildilər. Onların çoxu Cənubi Qafqazı görməmişdi. Qərarın birinci bəndində yazılırdı ki, Daşnaksütyun "repatriasiya"ya mühüm və siyasi iş kimi baxır. İkinci bəndə görə "repatriasiya" "erməni məsələsi"nin digər tərəflərinin uğurlu həlli zərurəti ilə bağlı idi. Üçüncü bənddə yazılırdı ki, kütləvi "repatriasiya", xüsusən erməni torpaqlarının azad edilməsi və Ermənistan sərhədlərinin genişləndirilməsi ilə əlaqədardır. Dördüncü bənddə vurğulanırdı ki, "repatriasiya" son illərin hadisələrinin göstərdiyi kimi, bir tərəfdən daşnaklara qarşı mübarizə kimi istifadə edilir, digər tərəfdən isə erməni koloniyalarını dağıtmaq məqsədi güdür. Beşinci bənddə yazılırdı ki, "repatriasiya" pozulmuş, dağılmış və iflasa uğramış koloniyalarda həyata keçirilmək əvəzində, mütəşəkkil koloniyalarda onları maddi və mədəni cəhətdən dağıtmaq üçün həyata keçirilir. Altıncı bənddə vurğulanırdı ki, Sovet İttifaqında da erməni kütlələri vardır, onlar da bir yerə toplanılıb "repatriasiya" edilməlidir, lakin bu kütlələr düşünülmüş şəkildə inkar edilir. Bununla bağlı olaraq qurultay qərara alırdı ki, "repatriasiya" ilə prinsipcə razı olmaqla bərabər, tədbirləri ciddi şəkildə tənqid etmək, Ermənistanda mövcud real vəziyyəti aydınlaş-

---

[545] Директива четырнадцатого конгресса дашнаков о политической платформе партии Дашнакцутюн. – ARMTNA, L-164, v. 21.

dırmaq, yoldaşları və rəğbəti olanları "repatriasiya" məsələsində xalqı təşviq etməmək barədə xəbərdar etmək lazımdır. Daşnaksütyun mövcud şəraitdə mütəşəkkil və təmin olunmuş erməni koloniyalarından kütləvi "repatriasiya"ya qarşı çıxır, erməniliyi mədəniyyət kimi qorumağa kömək etməyi qarşıya qoyurdu. O, erməni milli-mədəni hərəkatının inkişafı üçün normal şərait yaradılmasına çalışacaqdı.

Direktivin "İdeologiya" hissəsində yazılırdı ki, xarici hadisələrin təsiri altında və erməni xalqının fiziki varlığını qorumaq məqsədi ilə Büro vahid, müstəqil və azad Ermənistan ideyasını diqqətdən kənarda saxlamış və Qafqazda ümumi müttəfiqlik andına sadiq qalmış, direktivləri bəyanərək və göndərərək, beləliklə, Ermənistanın cənub sərhədlərində torpaq tələblərindən imtina etmişdir.

"*Ermənistanın cənub sərhədləri*" dedikdə, ad çəkilməsə də, əslində Azərbaycan əraziləri nəzərdə tutulurdu.

Daşnaksütyun xaricdə yaşayan erməni yazıçı və şairlərinin 1948-ci ildə qurultayını keçirtmək niyyətində idi. Bununla, əslində sovet Ermənistanındakı Yazıçılar İttifaqına qarşı bir antisovet mərkəz yaratmaq düşünülürdü. Amerikalılar üçün antisovet fəaliyyət proqramı işləyib hazırlayan daşnak liderlərindən biri Vahan Navasardyanın fikrincə, daşnaklar Cənubi Qafqazda, xüsusən kommunistlərin hakimiyyətdə olmasına baxmayaraq, Ermənistanda təsirlərini qoruyub saxlamışdılar.

Daşnaksütyun Sovet İttifaqına köçürülən ermənilərdən öz agentlərini göndərmək məqsədi ilə istifadə edir, terrorçu-təxribatçı və qatı millətçi hərəkətlərin yerinə yetirilməsi məqsədini güdürdü.

Qurultayda Daşnaksütyunun orqanlarına müraciət qəbul edildi[546]. Sənəddə təşkilatın 1938-ci ilin sentyabr ayında keçirilmiş XIII qurultayından ötən dövr ərzindəki şərait, yeni qurultayın qəbul etdiyi qərarlar haqqında məlumat verilir, *"türk və bolşevik zülmü altında olan erməni torpaqlarının birləşdirilməsi*", *"birləşmiş, müstəqil və azad Ermənistan arzusunun yalnız arzu olaraq qaldığı"* qeyd edilir, təşkilatın "erməni məsələsi"nin həlli uğrunda çalışacağına dair niyyət ortaya qoyulurdu. Bu, təşkilatın "böyük idealı" idi.

Direktivin 6 bənddən ibarət olan "Kürd məsələsi" adlı hissəsində yazılırdı:

*"1. Keçmiş müqaviləmiz əsasında bizim və kürd təşkilatlarının arasında qarşılıqlı münasibətləri bərpa etmək üçün səylər etmək. Türkiyəni erməni və kürd xalqlarının ümumi düşməni hesab etmək və həm siyasi, həm də işgüzar səyləri birləşdirərək Türkiyəyə qarşı yönəltmək. 2. Erməni və kürd*

---

546 Органам Партии. – ARMTNA, L-164, v.52-54.

*siyasi sazişinin əsası olaraq Sevr sazişini qəbul etmək, çünki bu, bizimlə kürdlər arasında son saziş olaraq qəbul edilmişdir. 3. Daşnaksütyunun öz işləri uğrunda Türkiyə daxilində mübarizəni davam etdirən kürd təşkilatları və rəhbərləri ilə əlaqəsini qurmaq. 4. Əvvəllər olduğu kimi, gələcəkdə də bizim partiyamız kürd hərəkatından İrana və İraqa qarşı mübarizəni ayırsın. 5. Bu siyasi istiqaməti erməni və kürd xalqlarının dostluq və taleyinin ümumiliyi hisslərini təkmilləşdirmək və yaymaqla bizimlə əməkdaşlıq edən kürd rəhbərlərinə çatdırmaq. 6. Türkiyəyə qarşı mübarizə aparan kürd təşkilatlarına imkanlar daxilində mənəvi və maddı yardım etmək və bizimlə kürdlər arasında vahid siyasi cəbhəni qorumaq"* [547].

Kanayan Dro haqqında məsələ müzakirə edilərkən qurultay qeyd etdi ki, onun müharibədə Almaniya tərəfindən iştirakı erməni xalqının fiziki mövcudluğunu qorumaq və daşnakların Ermənistanda hakimiyyətini bərpa etmək zərurətindən doğmuşdur. Qurultay Droya daşnak döyüşçülərindən və antisovet elementlərdən ibarət "ordu", açıq yazılmasa da, əslində terror qrupu təşkil etməyi tapşırdı. Həm Türkiyəyə, həm də Cənubi Qafqaza yaxın olduğundan "ordu"nun yerləşdiyi yer İraq müəyyənləşdirildi. Dro daim Qahirədə yaşamalı,Yaxın Şərq ölkələrinə səfərlərə çıxmalı idi.

Sonralar, 1948-ci ilin fevral ayında Dro Livanda keçirilən daşnak konfransında etdiyi nitqində demişdi ki, Livandakı daşnak təşkilatı 1200 nəfər döyüşçüyə rəhbərlik edə biləcək 20-25 rəhbər hərbi kadrların hazırlanması işi ilə ciddi məğul olmalıdır[548].

Bəs Kanayan Dro kim idi? Dro 1881-ci ildə Türkiyənin İqdır şəhərində anadan olmuşdu. Ermənistan SSR DTN-nin 1951-ci il 31 oktyabr tarixli arayışından məlum olurdu ki, o, 1903 və yaxud 1905-ci ildən Daşnaksütyunun üzvü olmuşdu. Bakının qubernatoru knyaz M.Nakaşidzeni və general Alixanov-Avirskini öldürdüyü üçün terrorçu kimi daşnaklar içərisində xeyli məşhurlaşmışdı. Birinci dünya müharibəsi başlayan kimi erməni silahlı, terror dəstələrinin formalaşdırılmasında fəal rol oynamışdı. Onların birinin başçısı kimi çar Rusiyasının Türkiyə üzərinə hücumunda iştirak etmişdi. 1914-cü il dekabrın 3-də yaralandıqdan sonra Tiflis xəstəxanasında müalicə olunmuşdu. Xəstəxanaya gələn imperator II Nikolay onu Georgi xaçı ilə təltif etmişdi. Sağaldıqdan sonra cəhbəyə gedən

---

[547] Директива XIV конгресса дашнаков о политической платформе партии Дашнакцутюн. Июнь 1947 г. – ARSSA, f.1, siy.35, iş 161, v.17-37.
[548] Зам. начальника 2-го Главного Управления МГБ СССР генерал-майор Утехин – министру госбезопасности Азербайджанской ССР генерал-майору тов. Емельянову. Обзор материалов о 14 съезде партии Дашнакцутюн и об активизации дашнаками антисоветской деятельности. 17.08.1948. №2/Г/. – ARMTNA, L-164, v. 37-47.

Dro 1916-cı ilədək döyüşmüşdü. 1917-ci il fevral inqilabı baş verən zaman o, İrəvan əsgər deputatları sovetinin üzvü idi. 1917-ci ilin payızından etibarən erməni polklarını yaratmağa başlamışdı. 1918-ci ildə Dro Ermənistan hökuməti polklarının birinin komandiri kimi Türkiyəyə qarşı müharibədə iştirak etmişdi. 1918-ci il iyunun 4-də Batum sülh müqaviləsi imzalandıqdan sonra o, İrəvana qayıdıb daşnak ordularının komandirlərindən biri olmuşdu. Ermənistanda daşnak hakimiyyəti dövründə İrəvan qarnizonunun rəisi işləmişdi. 1920-ci ildə Sürməli dəstəsinə başçılıq edərək türklərə qarşı vuruşmuşdu. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra Dro "erməni işi"ni İnqilab Komitəsinə təhvil vermiş, bir qrup zabitlə birlikdə Moskvaya göndərilmişdi. 1923-cü ildə Tiflisə gələrək həbs olunmuş daşnaklarla sovet hakimiyyətinin xeyrinə bəyanat qəbul etmək üçün xüsusi müşavirə keçirtmişdi. Müşavirənin nəticəsində Tiflis və Moskva qəzetlərində daşnakların sovet hakimiyyətini müdafiə edən bəyanatı dərc olunmuşdu. Bundan sonra bir çox daşnak həbsdən azad edilmiş, Dro isə Moskvaya qayıtmışdı. Burada 1925-ci ilədək yaşayan Dro həmin ildə viza alaraq Fransaya getmiş, oradan isə Rumıniyaya keçərək Qukasovun neft mədənlərinin birində direktor işləmişdi. Rumıniyada Dro geniş antisovet fəaliyyətə başlamış, Daşnaksütyunun xarici bürosunun ali orqanına üzv seçilmişdi. Balkanlarda daşnakların fəaliyyətinə rəhbərlik etmişdi. Rumınların siqurantsa və almanların dəniz kəşfiyyatı ilə əlaqələr qurmuşdu. O, İkinci dünya müharibəsi illərində xüsusilə fəal antisovet işlərlə məşğul olmuşdu. Dro alman faşizmi vasitəsi ilə SSRİ-nin məğlub edilməsinə və Ermənistanda köhnə qaydaların bərpa olunmasına ümid bəsləmişdi. Hələ müharibə başlamazdan əvvəl Dro və daşnak Ermənistanının maliyyə və daxili işlər naziri vəzifələrində işləmiş Sarkis Araratyan Avstriyanın Baden şəhərinə gedərək Hitler hökumətinin üzvləri ilə əlaqələr qurmuşdular. Sonra onlar Berlinə, oradan da Parisə getmiş, Daşnaksütyun liderləri olan Aleksandr Xatisyan və Arşak Camalyan ilə müşavirə keçirtmişdilər. Dro burada Hitler hökumətin nümayəndələrinin daşnaklarla əməkdaşlıq qurmaq təklifləri haqqında məlumat vermiş, sonra digər daşnak xadimləri ilə Berlindən Badenə gedərək Hitler hökumətinin nümayəndələri ilə ikinci görüşünü keçirtmişdi. Danışıqların nəticəsində daşnaklar faşist Almaniyası ilə əməkdaşlıq etmək barədə razılığa gəlmişdilər. Avropada daşnakların siyasi rəhbərliyini gücləndirmək və antisovet fəaliyyətini faşistlərlə əlaqələndirmək üçün Dro faşistlərin razılığı ilə Siyasi Şura yaratmışdı. Bu şuranın tərkibinə Kanayan Dro, Sarkis Araratyan, Vahan Papazyan, David Vazgezaryan, Saak Ter-Tovmasyan və Miqran Papazyan daxil olmuşdular.

Siyasi Şuranın daimi rəhbəri və Avropadakı daşnakların fəaliyyətinin təşkilatçısı olan Dro onların Hitler hakimiyyəti və hərbi komandan-

lıqla əlaqəsini həyata keçirtmişdi. Hitler kəşfiyyatının xidmətində durmaqla Dro SSRİ-yə qarşı kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini genişləndirmişdi.

Dro 1941-1943-cü illərdə daşnakların xarici bürosunun və Balkanlarda daşnakların rəhbəri olmuş, faşist Almaniyası tərəfindən işğal edilmiş Fransa, Bolqarıstan, Rumıniya və Yunanıstanda yaşayan daşnak nümayəndələrinin müşavirəsini keçirtmişdi. Həmin müşavirədə daşnakların alman faşistləri ilə əlaqələrinin gücləndirilməsi məsələləri müzakirə edilmişdi.

1942-ci ilin əvvəllərində Rudolf Gessin razılığı ilə Dro "Dromedar" adlı kəşfiyyat orqanı yaratmışdı. Bu, Almaniyanın kəşfiyyat orqanı olan "Abvertrupp-101"-ə tabe idi.

Casus və təxribat məqsədləri ilə Dro erməni hərbi əsirlərinin və mülki şəxslərinin əməkdaşlığa cəlb edilməsi, müəyyən hazırlıqdan sonra onların sovet ordu hissələrinin arxasına keçirilməsi ilə məşğul olmuş, hərbi xarakterli kəşfiyyat məlumatları toplamaqla bərabər təxribat, terrorçu və antisovet qiyamlar törətmək sahəsində də fəaliyyət göstərmişdi. Dro erməni milli legionlarının yaradılmasında da fəal iştirak etmişdi. Legionlar Lyublin şəhərində, Pulava və Rembertovo (Polşa), Simferopol və Rostov-Don şəhərlərində təşkil edilmişdi. Dronun rəhbərliyi altında Stavropol, Pyatiqorsk, Budyonovsk, Nalçik və digər şəhərlərdə yaradılan "erməni komitələri" ermənilər arasında faşistpərəst təbliğat aparmış, Hitler orduları üçün vəsait toplamışdılar[549].

Dro 1942-ci ilin mart ayında Simferopolda məktəb təşkil etmişdi[550]. Təhsil müddəti bir ay olan həmin məktəbin başlıca məqsədi Qafqazda təxribatlar, qiyamlar və terror törətmək üçün adamlar hazırlamaq idi. Agentlər Qafqaza təyyarə ilə 4-5 nəfərlik qruplarla atılırdı. Erməni radistlərinin bir qrupu Rumıniyada Buxarestdə Blanar küçəsi ev 16-da hazırlanırdı. Sevastopol məktəbində müəllimlərdən iki nəfəri daşnak, bir nəfəri alman, iki radist təlimatçı isə alman hərbçisi idi. Tərcüməçi alman ordusunun leytenantı Mixelson idi. Sovet ordusunun hücumu zamanı "Dromedar" kəşfiyyat orqanı təxribat məqsədləri üçün sovet hissələrinin arxasında özünün kifayət qədər yüksək ixtisaslı və peşəkar casuslarını yerləşdirə bilmişdi. Onlar faşizmlə əməkdaşlıq edən vətən xainləri idi.

Stavropol, Rostov-Don və başqa şəhərlərdə erməni kilsələri açılmışdı. Yaradılan "Kilsə şuraları", "Erməni dini icmaları" və "Kilsə xey-

---

549 Начальник 3 отд. 1 отдела МГБ Армянской ССР Крхамбаров. Справка на Канаяна Драстамата (Дро) Матрисовича. 31.10.1951. Сов. секретно.– ARMTNA, L-164, v.56-62; Azərbaycan SSR Nazirlər Soveti yanında DTN-nin Birinci Baş Kəşfiyyat İdarəsinin Dro barədə materialları.– ARMTNA,L-862, v. 3.

550 Школа разведчиков-диверсантов в Симферополе. – ARMTNA, ÇF-852.

riyyəçiliyi" fəal antisovet təbliğat aparmış və daşnak ehtiyacları üçün vəsait toplamışdılar.

Ukrayna, Qafqaz və Krımın işğal edilmiş ərazilərini gəzən Dro daşnak özəkləri yaratmışdı. O, ermənilər arasında "müstəqil Ermənistan" ideyasını təbliğ etmiş və Qafqaz xalqlarını faşistlərlə əməkdaşlıq etməyə səsləmişdi.

Ermənilərin məskunlaşdığı ərazilərə baş çəkən Dro qatı antisovet çıxışları ilə seçilmişdi. Məsələn, 1942-ci ildə Pyatiqorskda verilən ziyafətdə etdiyi nitqində o demişdi:

*"Mənim şəxsi kəşfiyyatım vardır, biz onu Qırmızı ordunun arxasına göndəririk. O, bizə Ermənistanda baş verənlər barədə müntəzəm məlumat verir, orada əhali bizi – daşnakları şanlı alman ordusu ilə birlikdə səbirsizliklə gözləyir, alman orduları gəlməyənədək üsyan qaldırmamaq barədə mənim göstərişlərimə baxmayaraq, Ermənistanda kortəbii üsyan baş verir".*

Bir nəfər erməni hərbi əsirlə etdiyi söhbətində Dro demişdi:

*"Sizi bura ona görə gətirmişik ki, qərargahı qoruyasınız və heç olmasa, erməni xalqı qarşısında günahlarınızı yuyasınız. Siz onun tarixini bilməlisiniz və həyatınızı vətən uğrunda, onun müstəqilliyi, Rusiyadan ayrılması uğrunda qurban verməlisiniz. Biz erməni hissələri yaradırıq, onlar da hazırda alman hissələri ilə birlikdə sovetləri vurur. Cəbhədə artıq iki erməni batalyonu döyüşür"* [551].

Faşist Almaniyası məğlubiyyətə uğradıqdan sonra Dro, dostları, həmçinin erməni legionerlərinin bir hissəsi Almaniya, Fransa, İtaliya və digər ölkələrdəki amerikan-ingilis işğal zonalarında yaradılmış milli düşərgələrə toplaşmışdılar. Burada Dro ABŞ və Böyük Britaniya kəşfiyyatının tapşırığı ilə ermənilərin Birləşmiş Ştatlara və Kanadaya köçməsini təbliğ etməklə məşğul olmuşdu.

Dro 1947-ci il iyulun 3-də Münhendə olarkən bildirmişdi ki, Almaniya və Avstriyanın qərb zonalarında olan ermənilər qışa qədər Amerikaya köçəcəklər. Bununla yanaşı olaraq, o, erməni düşərgələrində SSRİ-yə qarşı casuslar göndərmək üçün erməniləri cəlb etmək işi ilə məşğul olmuşdu. SSRİ-yə qarşı yeni müharibə olacağı təqdirdə Dro geri dönməyən ermənilərdən silahlı banda kimi istifadə etmək niyyətini güdmüşdü[552].

---

[551] Yenə orada.

[552] Зам. начальника 2-го Главного Управления МГБ СССР генерал-майор Утехин – министру госбезопасности Азербайджанской ССР генерал-майору тов. Емельянову. Обзор материалов о 14 съезде партии Дашнакцутюн и об активизации дашнаками антисоветской деятельности. 17.08.1948. №2/Г/. – ARMTNA, L-164, v. 37-47; Начальник 3 отд. 1 отдела МГБ Армянской ССР Крхамбаров. Справка на Канаяна Драстамата (Дро) Матрисовича.

Müharibə sona çatdıqdan sonra amerikan kəşfiyyatı ilə əlaqə quran, ABŞ vətəndaşlığını qəbul edən, SSRİ-yə qarşı casus fəaliyyətində daşnak qruplarından istifadə etməyin mümkünlüyünü onunla müzakirə edən Dro Türkiyə və İran vasitəsi ilə casus fəaliyyətini həyata keçirtməyi təklif etmişdi[553]. Həmin məqsədlə külli miqdarda vəsait almışdı. Sovet xarici kəşfiyyatının məlumatına görə Dro amerikalılardan 40 min dollar pul alaraq Qahirədə daşnak klubu qurmuşdu. Onun son məqsədi klubu casus mərkəzinə çevirmək idi[554].

Qurultay Daşnaksütyunun Türkiyəyə və Azərbaycana qarşı düşmənçiliyinin davam etdirilməsində yeni bir addım oldu.Təşkilat üzvlərinə konkret hədəflər göstərildi. Mütəşəkkil terror qruplarının hazırlanması üçün geniş fəaliyyətə başlanıldı. Bu qrupların məqsədi türklərə qarşı qanlı aktları həyata keçirtmək, daxildən Türkiyəni zəiflətmək, qorxu xofu yaratmaq və gələcəkdə uydurma "Böyük Ermənistan" qurmaq üçün zəmin hazırlamaq idi.

Daşnaksütyunun qurultayı keçirilən zaman beynəlxalq münasibətlərdə başqa bir məsələ ətrafında diplomatik-siyasi mübarizə qızışmışdı. Bu da SSRİ-nin Türkiyəyə qarşı əsassız ərazi iddiası üstündə BMT-də sovet və türk diplomatları arasında gedən bir savaş idi.

### *Əsassız ərazi iddiaları*

1947-ci il oktyabrın 24-də Türkiyənin BMT-dəki daimi nümayəndəsi Səlim Sarper təşkilatın Siyasi Komissiyasında ölkəsinə qarşı SSRİ-nin əsassız ərazi iddialarının əleyhinə çıxış etdikdən sonra sovet dövləti adından xarici işlər nazirinin müavini A.Vışinski yeni bir nota verərək bildirdi ki, Kars və Ardahan Gürcüstana məxsusdur. Sovet dövlətinin notası Türkiyəyə qarşı yönəldiyi üçün daşnakların ürəyindən olmalı idi. Lakin belə olmadı. Bu da səbəbsiz deyildi. Daşnaksütyunun Misirdəki mətbu orqanı olan "Husaber" ("Ümid") 1947-ci il dekabrın 9-da bununla bağlı olaraq yazırdı:

*"A.Vışinski türk torpaqlarının Gürcüstana məxsus olduğunu deyərkən Gürcüstanı və Ermənistanı deyil, Rusiyanı nəzərdə tutur. Rusiya*

---

31.10.1951. Сов.секретно. – ARMTNA, L-164, v.62; Azərbaycan SSR Nazirlər Soveti yanında DTN-nin Birinci Baş Kəşfiyyat İdarəsinin Dro barədə materialları. – ARMTNA, L-862, v. 3.

553 Зам. начальника 2-го Главного Управления МГБ СССР генерал-майор Утехин – министру госбезопасности Азербайджанской ССР генерал-майору тов. Емельянову С.Ф. 20.01.1950. №2/Б/05593. – ARMTNA, L-164, v.75-76.

554 Зам. начальника 2-го Главного Управления МГБ СССР полковник Шубняков – министру госбезопасности Азербайджанской ССР генерал-майору тов. Емельянову С.Ф. 14.02.1948. № 2/Б/ 12826. – ARMTNA, L-164, v.77.

*Karsı öz torpağı kimi görmək istəyir. Buna görə də A.Vışinski Ermənistan əvəzində Gürcüstanı dedi, Gürcüstan deyərkən Rusiyanı nəzərdə tutdu. A.Vışinski və onun ağaları hər şeyi Rusiya üçün istəyirlər. Deməli, bu tələb səmimi deyildir. Bu və ya digər respublika bir örtükdür. A.Vışinski və "Pravda" bu tələbləri yalnız Rusiya üçün edirlər. Ermənistan nə üçün susur? Nə üçün sovet Ermənistanında dünən Kars və digər torpaqların Ermənistana verilməsi ilə bağlı müraciət edən, eyni cür düşünən və eyni qəlbli ermənilər etiraz etmirlər. Biz bunun ədalətli, vahid və qətiyyətli cavabını bir neçə sözlə bilirik. Gözləyək, bilək, bu dəfə Ermənistan təkcə türklər deyil, rus bolşevikləri arasında da laxlayan əmlak olacaqdır. A.Vışinski Kars və Ardahanın Gürcüstan adından Rusiya üçün tələb edildiyini bildirmiş, o, rəsmi adam olduğundan bu sualın cavabı bitmişdir".*

Qəzet qeyd edirdi ki, ikinci məsələyə – Ermənistanın mövqeyinə gəldikdə isə burada iki cavab vardır: Birincisi, rəsmi – məcburi, ikincisi, həqiqi – hiyləgər. Erməni kommunistlərinin mövqeyi rəsmi və məcburi olmalı idi. İkinci həqiqi cavab dünya ermənilərinin və onların rəhbərlərinin cavabıdır. Tərəddüd etmədən bildirmək olar ki, bu gün sovet Ermənistanında və məhdud Sovet İttifaqında erməni vətəndaşı, adi erməni insanı məhz Daşnaksütyunun düşündüyü kimi düşünür. Atalar sözü vardır: adamlar susanda daşlar qışqırır. Erməni kommunistlərinin əksəriyyəti ölkənin ağır vəziyyəti üçün xaricdəki ermənilərdən daha çox narahatlıq keçirirlər, onlar aldanmışlar.

Daşnakların Tehranda çap edilən "Alik" qəzeti də sonralar, 1948-ci il 18 və 19 fevral tarixli saylarında A.Vışinskinin çıxışına etiraz olaraq bir məqalə dərc etmişdi. Müəllifi Xanyan olan "Bizim siyasi vəziyyətimiz və qarşıdakı fəaliyyətlər" adlanan məqalədə bütün tarix saxtalaşdırılır, Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürülürdü. Məqalədə yazılırdı:

"*Erməni kommunistlərindən kim razılaşa bilər ki, ermənilərin məskunlaşdığı Qarabağın dağlıq hissəsi və Gəncə Azərbaycanın tərkibində qalsın? Xəritəyə baxın: Azərbaycanın Naxçıvan diyarı ilə bir əlaqəsi varmı? Gürcüstan da bu bölüşdürmədə payını almış, gürcülərdən iki dəfə çox olan ermənilərin yaşadıqları Axalkələk (Cavax) və Borçalı rayonunu ələ keçirtmişdir. Ermənistan həm türklərin tutduqları, həm də Azərbaycana və Gürcüstana hədiyyə etdiyi ərazilərini geri almalıdır. Erməni kommunistlərinin bunu istəmədiyini söyləmək doğru olmazdı. Onlar bunu istəyirlər, ancaq bacarmırlar. Daşnakların erməni kommunistləri ilə ümumi dil tapmaq istəmədiklərini söyləmək doğru olmazdı. Həqiqət odur ki, indi Moskva daşnaklarla ümumi dil tapmaq istəmir. Rusiya imperiyası "ermənisiz Ermənistan" istəyirdisə, qırmızı Rusiya "torpaqsız Ermənistan" istəyir.*

*A.Vışinski hər hansı gürcü torpağını Ermənistan üçün desəydi, vəzifəsində 24 saat qala bilərdimi? Əlbəttə, yox*”[555].

Qəzetlərdə dərc edilən bu fikirlər bir daha təsdiq edirdi ki, zahirən bir-birinə düşmən olmalarına baxmayaraq, daşnaklar və erməni kommunistlərinin ərazi qopartmaq məqsədi ilə qonşu xalqlara qarşı nifrət hissləri aşılamaqda heç bir fərq mövcud deyildi. Fərqli olan yalnız fəaliyyət üsulları idi.

A.Vışinskinin çıxışını Türkiyədəki “Ulus” qəzeti “Vışinski Kars və Ardahanı tələb edir” başlığı ilə dərc etmişdi. Digər qəzetlər də Rusiyanın türk ərazilərinin Gürcüstana birləşdirilməsini tələb etdiyini yazırdı. Məqalə müəlliflərinin fikrincə, bu hərəkətlər SSRİ-nin ya müharibəyə can atması, ya da plebissit keçirtməyə çalışması demək idi[556].

Türkiyə bir tərəfdən Sovet İttifaqı, digər tərəfdən isə daşnakların əsassız iddiaları ucbatından süni surətdə yaradılmış şəraitdə ağır atəş altına düşmüş bir ölkə idi. Bütün bunlara baxmayaraq, türklər qətiyyən boyun əymədilər, Karsın azad edilməsinin 27-ci ildönümünü bayram etdilər. Bu, əslində Türkiyəyə qarşı yönəlmiş ərazi iddialarına tutarlı bir cavab idi. Beləliklə, sovet iddiaları qətiyyətlə rədd edildi. Bundan sonra sovet mətbuatı və radiosunun Türkiyə əleyhinə təbliğatı daha da artdı. Eyni fəaliyyətləri daşnaklar da genişləndirdilər.

### *Daşnak fəaliyyətləri*

Daşnak fəaliyyətləri İranda da genişlənmişdi. Bu, özünü 1948-ci il yanvarın 26-31-də İranda keçirilən daşnak konfransında göstərdi[557]. Konfransda belə bir məlumat verildi ki, Ermənistanın yerləşdiyi ərazi nəzərə alınaraq mümkün hərbi əməliyyatlar başlayacağı, Sovet İttifaqına hücum olacağı təqdirdə daşnakların xarici bürosu sovet Ermənistanı hüdudlarında yaşayan ermənilərin mövcudluğuna dair anqlo-sakslardan təminat almışdır. Anqlo-saksların hücum edəcəkləri və türklərin Salmasdan çıxaraq cənubda Bakıya hücum edəcəkləri təqdirdə isə türk ordusu erməniləri qırmayacaq, İranın bir hissəsi sovetlərin təsiri altına düşəcəyi halda isə daşnak liderlərinin fiziki mövcudluğu qorunacaqdır. Ona görə də konfransda təşkilatın təhlükəsizlik qüvvələrinin yaradılması tövsiyə edildi.

---

[555] Ханян. Наше политическое положение и предстоящая деятельность. Перевод статьи, опубликованной в армянской газете “Алик”, издающейся в г. Тегеране, от 18 и 19 февраля 1948 г. – ARSSA, f.1, siy.35, iş 161, v.39-45.

[556] Посольство СССР в Турции. Обзор турецкой прессы за период с 1 по 31 октября 1947 года. – ARDA, f.28 c., siy. 4, iş 87, v. 171.

[557] Зам. нач. 2-го Главного Управления МГБ СССР полковник Шубняков – министру госбезопасности Азербайджанской ССР генерал-майору тов. Емельянову С.Ф. 06.03.1950. №1/3/2197. – ARMTNA, L-164, v.82.

Daşnaklar təkcə İranda deyil, Azərbaycan SSR-də də fəaliyyət göstərirdilər. Daşnaksütyunun XIV qurultayı başa çatdıqdan sonra SSRİ DTK sədrinin müavini general-mayor S.İ.Oqolçov Azərbaycana məktub göndərərək əvvəllər bu təşkilatda olmuş, sonralar onun sıralarını tərk etmiş üzvlərini və onların xarici kəşfiyyatla əlaqəsini təcili şəkildə öyrənmək, bu zaman mühacirətdə olan partiya üzvlərinin qohumları ilə əlaqələri məsələsinə xüsusi diqqət yetirmək, millətçi antisovet erməni siyasi partiyalarının üzvlərinin qeydiyyatını aparmaq, arxivdən götürüb öyrənmək və onların ən ciddisini araşdırmaq haqqında göstəriş verdi. Məktuba 1948-ci il fevralın 15-dək cavab verilməli idi.

S.İ.Oqolçovun göstərişinə uyğun olaraq Azərbaycanda daşnakların üzə çıxarılması istiqamətində aparılan araşdırma onların hələ də fəaliyyət göstərdiyini təsdiq etdi. Azərbaycan SSR dövlət təhlükəsizliyi naziri S.S.Yemelyanov və Azərbaycan SSR DTN 5-ci şöbəsinin rəisi podpolkovnik A.Popovun imzaları ilə 1948-ci il fevralın 17-də SSRİ DTN II Baş idarəsinin rəisi general-mayor Y.P.Pitovranova tamamilə məxfi bir arayış göndərildi[558]. Arayışdan aydın olurdu ki, verilən təlimata uyğun olaraq Azərbaycanda Daşnaksütyunun üzvləri və antisovet erməni millətçiləri üzrə araşdırma aparılmış, yuxarıda qeyd edilən kontingentin 118 nəfər olduğu müəyyənləşdirilmişdi. Onlardan 1 nəfəri rezident, 19 nəfəri agent, 98 nəfəri isə məlumat verən idi. Bütövlükdə, keçmiş daşnak və antisovet şəxslərdən Azərbaycanda 300 nəfər, o cümlədən Bakıda 57 nəfər qeydə alınmışdı. Onların 197 nəfəri Daşnaksütyunun keçmiş üzvü, 108 nəfəri antisovet millətçi, 72 nəfəri isə həbsxanalardan çıxmış şəxslər idi. Xalqlar arasında düşmənçilik təbliğatı ilə məşğul olan həmin şəxslər gizli daşnak təşkilatı ilə əlaqə də qurmuşdular. "Podryadçik" ləqəbli Mixail Arkadyeviç Qriqoryan hələ 1943-cü ilin yanvar ayında "Strela" ləqəbli agentə demişdi ki, Bakıda gizli daşnak təşkilatı fəaliyyət göstərir, Yerevan və Tiflisdəki təşkilatla əlaqə saxlayır. O, agentə bu təşkilata üzv olmağı, Bakıda gizli mətbəə yaratmaqda kömək göstərməyi xahiş etmişdi. Sovet ordusu Stalinqrad ətrafında qələbə qazandıqdan sonra isə demişdi ki, təşkilat müvəqqəti olaraq öz fəaliyyətini dayandırır, hər şey ABŞ və İngiltərənin SSRİ ilə münasibətlərindən asılı olacaqdır. "Podryadçik"in evinə şübhəli adamlar gəlib gedirdi. Keçmişdə Bakı və Yerevanda daşnak avantürasının rəhbərlərindən biri və əvvəllər Daşnaksütyunun üzvü olmuş "Çujoy" ləqəbli A.İ.Kiçibekyan, Zəngəzur qəzasında daşnak avantürasının rəhbərlərindən biri olmuş A.A.Babayan isə Ermənistan sovetləşdirildikdən sonra 1929-cu ilədək xaricdəki daşnaklarla əlaqə saxlamışdı.

---

[558] Министр госбезопасности Азербайджанской ССР генерал-майор Емельянов – начальнику 2-го Главного Управления МГБ СССР генерал-майору тов. Питовранову. 17.02.1948. – ARMTNA, L.164, v.7-15.

Azərbaycan SSR DTN Naxçıvanda "Vesna" kod adı altında araşdırma aparmış, daşnak təşkilatı ilə əlaqələri olan 16 nəfəri öyrənmişdi. Onların 14 nəfəri həbs edilərək müxtəlif müddətlərdə azadlıqdan məhrum edilmiş, həbsxanadan çıxdıqdan sonra isə qeydiyyata götürülmüşdülər.

Daşnak təşkilatları digər şəhər və rayonlarda da fəaliyyət göstərirdilər. Keçmişdə antisovet dəstələr yaratmış Kirovabad (Gəncə) şəhər sakini Saruxan Petrosoviç Oqanesyan 1947-ci ilin əvvəllərində "Svoy" ləqəbli agentə bildirmişdi ki, Kirovabadda və Şaumyan kənd rayonunda gizli daşnak təşkilatı fəaliyyət göstərir və Ermənistandakı gizli təşkilat ilə əlaqə saxlayır. O, hətta agentə bu təşkilata daxil olmağı da təklif etmişdi.

Geniş fəaliyyət göstərsələr də, Azərbaycana və Türkiyəyə qarşı əsassız ərazi iddialarını gerçəkləşdirə bilməyən ermənilər SSRİ-yə gəlmək istəkləri barədə müraciətlərini davam etdirirdilər. Həmin istək sovet dövlətinin maraqlarına uyğun gəlirdi. Ermənilərin Ermənistana gəlmək və sovet rəhbərliyinin isə Türkiyə ilə sərhəd rayonlara "etibarlı elementləri" yerləşdirmək niyyətlərinin reallaşdırılması nəticəsində Azərbaycan yeni bir təhdid ilə üz-üzə qaldı. Bu da azərbaycanlıların Ermənistanda tarixi torpaqlarından deportasiya edilməsi oldu.

## *Azərbaycanlıların deportasiyası*

1947-ci il noyabrın 21-də ÜİK(b)P MK Siyasi Bürosunun iclasında "Azərbaycan K(b)P MK məsələsi" müzakirə edildikdən[559] ( bu məsələnin nədən ibarət olmasına dair arxivlərdə heç bir məlumata rast gəlmədik – M.Q.) bir neçə gün sonra, dekabrın 3-də Azərbaycan K(b)P MK katibi M.Bağırov və Ermənistan K(b)P MK-nın katibi Q.Arutunov sovet rəhbəri İ.Stalinə bir məktubla müraciət etdilər[560]. Onlar məktubda "son illərdə Azərbaycan və Ermənistan respublikalarının təsərrüfat həyatında baş verən dəyişikliklərlə bağlı olaraq yaranmış bəzi məsələlər barəsində fikir mübadiləsi edilməsi nəticəsində" İ.Stalinin qarşısında bir sıra məsələləri qaldırır, Mingəçevir su elektrik stansiyasının tikintisi ilə əlaqədar olaraq yeni suvarılan torpaqlarda və pambıqçılıq rayonlarında işçi qüvvəsinə ehtiyac əmələ gəldiyini, həmçinin pambıq istehsalının çoxaldılmasının Azərbaycan SSR-in bu rayonlarında əhalinin artırılması məsələsini irəli sürdüyünü zəruri etdiyini yazır, bu məsələnin real həllini Ermənistanda

---

[559] Политбюро ЦК РК(б)-ВКП(б). Повестки дня заседаний. 1919-1952. Каталог.Т.III.1940-1952. М., 2001, с. 497.

[560] Секретарь ЦК КП(б) Азербайджана М.Д.Багиров, секретарь ЦК КП (б) Армении Г.А.Арутунов – И.В.Сталину. – ARSSA, f.1, siy.33, iş 227, v.1-2.; T.C. BCA. 930.01.1.7.1.

yaşayan 130 min nəfər azərbaycanlı əhalinin həmin rayonlara köçürülməsində görürdülər. M.Bağırov və Q.Arutunovun fikrincə, azərbaycanlı əhalinin köçürülməsi xarici ölkələrdən Ermənistana gələn ermənilərin qəbulu və yerləşdirilməsi üçün şəraiti yaxşılaşdırardı. Azərbaycanlı əhalinin köçürülməsi nəticəsində boşalmış torpaq sahələri və mənzillərdən xarici ölkələrdən ermənilər Ermənistana köçürülən zaman istifadə edilə bilərdi.

M.Bağırov və Q.Arutunov bütün bu mülahizələri nəzərə alaraq İ.Stalindən aşağıdakı məsələlərə sanksiya verməsini xahiş edirdilər:

"*1. Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin Azərbaycan SSR-in əhalisi az olan pambıqçılıq rayonlarına köçürülməsi, boşalan torpaqların və mənzillərin xarici ölkələrdən Ermənistan SSR-ə qayıdan ermənilərin qəbulu və yerləşdirilməsi üçün istifadə edilməsi.*

*2. Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə köçürülmənin şərtlərinin və qaydalarının işlənib hazırlanması, həmçinin köçürülmənin həyata keçirilməsinə rəhbərlik etmək üçün birgə komissiya yaradılmasına icazə verilməsi.*

*3. Bu tədbirlər üzrə xərclərin İttifaq büdcəsindən maliyyələşdirilməsi".*

Stalinə göndərilən məktubda yazılan "qayıdan ermənilər" ifadəsi tarixi gerçəkliyi qətiyyən doğru əks etdirmirdi. Çünki əvvəllərdə qeyd edildiyi kimi, həmin şəxslər Ermənistanda doğulmamış, orada yaşamamış və çoxları heç bu ərazini görməmişdi.

Məktubun Azərbaycan arxivlərində saxlanılan ikinci nüsxəsində M.Bağırovun imzası olmadığından belə bir sual yaranır: Azərbaycan rəhbəri bu məktubla Moskvaya nə üçün müraciət etmişdir? Suala cavab vermək üçün arxiv fondlarında heç bir sənədə rast gəlmədiyimiz üçün yalnız müəyyən mülahizələr yürütmək olar. Görünür, İ.Stalin Türkiyədən ərazilər ala bilmədikdən sonra xarici ölkələrdən gətiriləcək ermənilərin "ümumi vətən" olan SSRİ-ni təşkil edən Azərbaycan ərazilərində yerləşdiriləcəyi ilə M.Bağırovu ola bilsin, qorxutmuş, o isə bu təhlükəni sovuşdurmaq üçün daha az olan bəlanı – azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından köçürülməsi təklifini qəbul etməyə məcbur olmuşdur. Digər tərəfdən, qeyd etmək lazımdır ki, sovet xadimləri sənədlərin ikinci nüsxəsinə adətən imza atmırdılar. Səbəb nə olursa-olsun, bir şey aydındır ki, məhz bu müraciətdən bir neçə gün sonra, 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti xaricdən ermənilərin "repatriasiyası"nın davam etdirilməsi haqqında qərar qəbul etdi. Əslində bu, artıq qeyd edildiyi kimi, "repatriasiya" deyil, gətirilmə, köçürülmə idi.

Yenə də belə bir sual doğur. Əgər müraciət M.Bağırov və Q.Arutunovun şəxsi təşəbbüsü olsaydı, bu qədər qısa bir zamanda Mərkəz tərəfindən qərar hazırlana və qəbul edilə bilərdimi? Heç şübhəsiz, xeyr! Fikri-

mizcə, bütün bunların hamısı əvvəlcədən düşünülmüş, planlaşdırılmış və Mərkəzin hökmü ilə edilmişdi.

M.Bağırov və Q.Arutunovun müraciətindən 20 gün sonra, 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin sədri İ.V.Stalinin və Nazirlər Sovetinin işlər müdiri Y.Çadayevin imzası ilə Azərbaycan SSR-in Kür-Araz ovalığına Ermənistan SSR-dən 100 min nəfər azərbaycanlının köçürülməsi haqqında 4083 №-li qərar qəbul edildi[561]. 11 bənddən ibarət olan qərarın birinci bəndinə əsasən 1948-1950-ci illərdə Ermənistan SSR-dən könüllülük əsasında azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməli idi. Köçürülmə könüllü adlandırılsa da, qərarda 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə 50 min adamın köçürülməsinin planlaşdırılması əslində onun könüllü deyil, zorakı, deportasiya olduğunu göstərirdi.

İkinci bənddə Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülənlərlə dövlətin verdiyi şərtlər ilə güzəştləri kolxozçular və digər azərbaycanlı əhali arasında izah etmək, köçürülənlərin yerlərindən ayrılmağa 10 gün qalmış kolxozlardan əmək haqqlarını tam almaq, köçürülənlərin şəxsi istifadəsində olan əmlakının, mal-qarasının və quşlarının köçürülməsini təmin etmək tapşırılırdı.

Üçüncü bəndə görə nazirlik, müəssisə və təşkilatların rəhbərləri köçürülən şəxsləri işdən azad etməli idilər.

Dördüncü bənd Kür-Araz ovalığına köçürülən şəxslərə verilən güzəştləri müəyyənləşdirirdi. Köçürülənlər hər bir ailə başına 2 tona qədər mal-qarasını və əmlakını dövlət hesabına pulsuz apara bilərdi. Köçkün ailələrinə geri qaytarmamaq şərtilə ailə başçısına 1000, ailənin hər bir üzvünə 300 rubl verilməli idi. Köçürülənlərin yerləşdikləri yerdə ailə başçısına 1,5 sentner, hər bir ailə üzvünə isə 0,5 sentner taxıl verilməli idi.

Beşinci bəndə görə köçürülən əhali kənd təsərrüfatı məhsullarını (taxıl, kartof) və həmçinin karantin şərtləri ilə əlaqədar olaraq aparılması qadağan edilən mal-qarasını məskunlaşdığı yerdə eyni miqdarda ərzaq və mal-qaranı almaq hüququ ilə çıxdığı yerdə qəbzlə tədarük orqanlarına verə bilərdi.

Altıncı bəndə əsasən Kənd Təsərrüfatı Bankına ehtiyacı olan köçürülənlərə təsərrüfat başına yaşayış evləri və həyətyanı tikililəri inşa etmək üçün aldıqları ildən üç il sonra 10 il müddətinə qaytarmaq şərti ilə 20 min

---

[561] Постановление Совета Министров СССР о переселении колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-Араксинскую низменность Азербайджанской ССР. 23.12.1947. №4083. – ГАРФ, ф.5446, оп.1, д.319, л.26-29; ARSSA, f.1, siy.33, iş 227, v. 14-17.

rubladək kredit vermək tapşırılırdı. Ehtiyacı olan köçürülənlərə ailə başına mal-qara almaq üçün 3 min rubl uzunmüddətli ssuda verilməli idi. Ssuda alanlar aldıqlarının üçüncü ilindən başlayaraq 5 il müddətində onu qaytarmalı idilər.

Yeddinci bənddə Nəqliyyat Nazirliyinə Ermənistan SSR Nazirlər Sovetinin tələbinə uyğun olaraq azərbaycanlı əhalini, onların əmlakını və malqarasını xüsusi eşelonlarda və dezinfeksiya edilmiş vaqonlarda Azərbaycan SSR-ə daşımaq tapşırılırdı. Azərbaycanlı əhalinin daşınması xərclərini Dəmiryolu idarəsi mərkəzləşdirilmiş qaydada həyata keçirtməli idi.

Səkkizinci bəndə görə SSRİ Səhiyyə Nazirliyi bütün köçürülənlərin çıxdığı yerdə və yolda tibbi baxışını təmin etməli idi. Eşelonları müşayiət etmək üçün tibbi heyət və lazımi dərmanlar ayrılmalı idi.

Doqquzuncu bənddə SSRİ Maliyyə Nazirliyinə Azərbaycan SSR-in 1948-ci il büdcəsində azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülməsini nəzərə almaq tapşırılırdı.

Onuncu bəndə əsasən Ermənistan SSR və Azərbaycan SSR Nazirlər Sovetləri bu qərarın yerinə yetirilməsi üçün konkret tədbirləri bir ay müddətində hazırlayıb SSRİ Nazirlər Sovetinə məruzə etməli idilər.

On birinci maddədə yazılırdı ki, Ermənistan SSR Nazirlər Sovetinə azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar olaraq boşalmış tikililərinə və yaşayış evlərinə Ermənistan SSR-ə gətirilən xarici ermənilərin yerləşdirilməsi üçün istifadə etməyə icazə verilsin.

Sənəd konkret məqsədlər – xaricdən gətirilən ermənilərin yerləşdirilməsi və azərbaycanlıların tarixi torpaqlarından çıxarılması üçün qəbul edilmişdi. Bu, azərbaycanlıların deportasiya edilməsinə dair hökumətin rəsmi qərarı idi.

Ermənistan xarici ölkələrdən gətirilən erməniləri azərbaycanlılara məxsus hər cür şəraiti olan evlərə yerləşdirməyə imkan qazansa da, Azərbaycan tərəfi Ermənistandan deportasiya edilənlərin yerləşdirilməsinə hazır deyildi. Kreditlərin ayrılması, yardımların verilməsi barədə məsələlərin qərarda əksini tapması da bunu aydın şəkildə göstərirdi. Xarici ölkələrdən ermənilərin gətirilib azərbaycanlılara məxsus torpaqlarda yerləşdirilməsi əslində İ.Stalinin mövqeyinin çarizmin və Müvəqqəti hökumətin siyasətindən fərqlənmədiyini göstərirdi.

Qərarın icrasına hazırlıqlara başlandı. Lakin köçürülmə qeyd edildiyi kimi, könüllü deyil, zorakı idi. Çünki köçürüləcək əhalinin sayı əvvəlcədən müəyyənləşdirilir və buna dair plan qoyulurdu. Köçürülənlərə daşınar əmlaklarını özləri ilə aparmağa imkan vermirdilər. Dəmiryolunda vaqonlar çatışmırdı. Hər cür şəraiti olan evlərini və təsərrüfatlarını Ermə-

nistanda qoyan və yeni yerə köçürülənlər üçün heç bir şərait yox idi. Onlar ilan mələyən çöllərdə qalmışdılar. Köçürülməsi nəzərdə tutulan azərbaycanlıların evlərini sata, bu barədə qəzetlərdə elan verə bilməmələri, Ermənistan rəhbərliyinin isə onları heç bir şeysiz çıxıb getməyə təhrik etməsi vəziyyəti daha da ağırlaşdırırdı.

Bəzi erməni xadimləri azərbaycanlıların köçürülməsinin Ermənistan iqtisadiyyatına vuracağı ziyandan narahat olsalar və bu əndişə real olsa da, əslində onlar hiyləgərliklə manevr edirdilər. Çünki sovet hökumətinin göstərişlərini yerinə yetirməyə borclu olan bu şəxslərin həmin qərarın icrasından boyun qaçırmaları mümkün deyildi.

Yaranmış şəraitdə SSRİ Nazirlər Soveti Ermənistandan azərbaycanlı əhalinin köçürülməsi ilə bağlı əvvəlki qərarına əlavə olaraq İ.V.Stalinin və Y.Çadayevin imzaları ilə 1948-ci il martın 10-da 14 bənddən və bir əlavədən ibarət "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi üzrə tədbirlər haqqında" 754 №-li yeni bir qərar qəbul etdi[562]. Bu qərar əvvəlkindən daha irticaçı idi. Çünki köçürülən kolxozlara, kolxozçulara və digər azərbaycanlı əhaliyə daşınar əmlakının bir çoxunu özü ilə aparmağa icazə verilmirdi. Belə ki, qərarın birinci bəndinə əsasən Ermənistan SSR-dən Kür-Araz ovalığına tamamilə köçürülən kolxozlara özləri ilə bütün istehsal vasitələrini (kənd təsərrüfatı maşınlarını, invertarları, canlı və mexaniki qoşqu vasitələrini, bütün cinslərdən olan mal-qaranı və quşları, arı ailələrini, nəqliyyat vasitələrini və digər əmlaklarını, həmçinin natural və başqa fondlarını) yardımçı müəssisələr (dəyirmanlar, yarma maşınları, elektrostansiyalar və digər mədəni-məişət tikililəri) istisna olmaqla daşımağa icazə verilirdi.

İkinci bəndə görə Ermənistan SSR-dən kolxozlardan köçürülən kolxozçuların payına düşən daşınar əmlakı (kənd təsərrüfatı maşınlarını, invertarları, canlı və mexaniki qoşqu vasitələrini, bütün cinsdən olan mal-qaranı və quşları, arı ailələrini, nəqliyyat vasitələrini, natural və digər fondları) köçürülmə anında köçürülən kolxozçuların tərkibinə daxil olduğu kolxozlara verilir, onların payına düşən daşınmaz əmlakın (çoxillik əkilmiş ağaclar, dəyirmanlar, elektrik stansiyaları, digər təsərrüfat və məişət tikililərinin) dəyəri yerləşmə yerlərində kolxozlara Azərbaycan SSR Nazirlər Sovetinin və Ermənistan SSR Nazirlər Sovetinin müəyyənləşdirdiyi müddətdə verilirdi.

---

[562] Постановление Совета Министров СССР о мероприятиях по переселению колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-Араксинскую низменность Азербайджанской ССР. 10.03.1948. №754. – ГАРФ, ф.5446, оп.1, д.327, л.285-290; ARSSA, f.1, siy.33, iş 227, v.21-25.

Üçüncü bəndə əsasən Azərbaycan SSR Nazirlər Soveti və Ermənistan SSR Nazirlər Soveti köçürülən kolxozların, kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-də qoyub gəldikləri əmlakının dəyərinin ödənilməsi qaydasını bir ay müddətində müəyyənləşdirməli idilər.

Dördüncü bənddə Ermənistan SSR Nazirlər Sovetinə və Azərbaycan SSR Nazirlər Sovetinə Ermənistandan köçürülən kolxozçulara çıxdıqları yerdə evlərini satmağa kömək etmək tapşırılırdı.

Beşinci bəndə əsasən Azərbaycan SSR Nazirlər Soveti yanında evakuasiya olunan əhalinin və köçürülən kolxoz təsərrüfatlarının yerləşdirilməsi şöbəsi yenidən təşkil edilərək Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürülmə idarəsinə çevrilirdi.

Altıncı bəndə görə həmin idarəyə köçürülən əhaliyə və kolxozlara torpaqları becərmək, həmçinin yardımçı təsərrüfatlarını tikmək, zəruri şəraitlərini qurmaq üçün texniki yardım və tikinti materialları ilə təmin etmək tapşırılırdı.

Yeddinci bəndə əsasən Azərbaycan SSR Azköçürülmətikinti kontorunu eyni adlı trestə çevirmək və onun nəzdində Salyan, Əlibayramlı (indiki Şirvan – M.Q.), Sabirabad və Puşkin (indiki Biləsuvar – M.Q.) rayonlarında tikinti-montaj kontorları yaratmağa icazə verilirdi.

Səkkizinci bənddə Azərbaycan SSR Nazirlər Sovetinə kolxozçuların və digər azərbaycanlı əhalinin köçürüldüyü müddətdə Ermənistan SSR-də (Yerevan şəhərində) nümayəndəlik təşkil etməyə, əhalinin köçürülməsi ilə əlaqədar olaraq hazırlıq işlərini (layihələşdirmə, yardımçı müəssisələrin tikintisi, meşə sənayesi təsərrüfatı, materialların alınması, tikinti materialları və nəqliyyat vasitələri) görmək üçün 1948-ci ildə 11 milyon rubl vəsait xərcləməyə, 1948-ci ildə respublikaının kənd əhalisindən 700 nəfərinin Molotov vilayətində meşə materiallarını Kür-Araz ovalığında torpaqların becərilməsi üzrə hazırlamağa icazə verilirdi.

Doqquzuncu bəndə əsasən Kür-Araz ovalığında torpaqların becərilməsi üzrə idarəyə 1948-ci ildə binaların, yardımçı müəssisələrin tikintisini aparmağa, maliyyə-smeta hesabına uyğun olaraq köçürüləcək tikililəri gələcəkdə daha da genişləndirməyə, Molotov vilayətindən 1948-1950-ci illərdə hər il 100 min kubmetr meşə məmulatı hazırlamağa icazə verilirdi.

Onuncu bəndə görə SSRİ-nin bir sıra nazirlik və təşkilatları qərara qəbul edilmiş əlavədə göstərilən avadanlıq və materialları 1948-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinə yuxarıda göstərilən idarə üçün verməli idilər.

On birinci bənddə Kür-Araz ovalığına köçürülmüş kolxozlara və kolxozçulara satmaq üçün tikinti materiallarını və avtomobilləri Azərbaycan SSR-ə daşımaq Sentrsoyuza tapşırılırdı.

On ikinci bəndə əsasən Nəqliyyat Nazirliyi 1948-ci ildə yuxarıda adı çəkilən idarəyə Lənkəran, Salyan, Sarıcalar, Saatlı, Qırmızıkənd,

Dayıkənd, Papanin, Yeni Osmanlı, Daşburun, Ucar və Masallı stansiyalarında hər birində relslərin uzunluğu 600 metr olan sahədə yükləmə və boşaltma üçün yerlər ayrılmalı idi.

On üçüncü bəndə əsasən SSRİ Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan SSR-in meşə tədarükü təşkilatlarına satmaq üçün atçılıq zavodlarından lazımsız 50 at verməli idi.

On dördüncü maddəyə görə SSRİ Nazirlər Soveti yanında Dövlət Ştat Komissiyası bir ay müddətində Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürülmə idarəsinin, Azköçürülmətikinti trestinin və onun tikinti-montaj kontorlarının, həmçinin Azərbaycan SSR Nazirlər Sovetinin Ermənistan SSR-də Yerevan şəhərində nümayəndəliyinin ştat cədvəlini təsdiq etməli idi.

Qərara olan əlavədə 1948-ci ildə Kür-Araz ovalığında suvarılan torpaqların mənimsənilməsi üzrə idarəyə verilən material və avadanlıqların siyahısı təsdiq edildi. Lakin ayrılması nəzərdə tutulan material və avadanlıqlar köçürülmüş kolxozçuların və kolxozların problemlərini həll etmək üçün kifayət etmirdi.

Azərbaycan KP MK 1948-ci il 19 mart tarixli iclasında həmin qərarın həyata keçirilməsi ilə əlaqədar olaraq tədbirləri müəyyənləşdirdi[563]. SSRİ Nazirlər Sovetinin qərarının qəbulundan sonra Azərbaycan SSR-in Ermənistan SSR Nazirlər Soveti yanındakı nümayəndəsi təyin edildi. Bu şəxs M.Məmmədov oldu. O, 1948-ci il aprelin 12-də Azərbaycan K(b)P MK katibi M.Bağırova və Nazirlər Sovetinin sədri Teymur Quliyevə 1948-ci ildə Ermənistandan azərbaycanlıların köçürülməsinə dair Ermənistan SSR Nazirlər Sovetinin qəbul etdiyi planı göndərdi. Plana görə 1948-ci ildə 2378 təsərrüfat, 11 min 244 nəfər köçürülməli idi. Bunlardan 1159 təsərrüfat, 6360 nəfər yazda, 1119 təsərrüfat, 4884 nəfər payızda köçürülməli idi. Köçürülmə 53 yaşayış məntəqəsini əhatə etməli idi. Bunlar əsasən ermənilərin və azərbaycanlıların qarışıq yaşadığı kolxozlar idi. Köçürüləcək iki kənd böyük idi. Bunlardan biri Noyemberyan rayonunun 245 təsərrüfatı və 1179 nəfər əhalisi olan Lambalu kəndi, digəri isə Zəngibasar rayonunun 238 təsərrüfatı və 1410 nəfər əhalisi olan Mehmandar kəndi idi. Azərbaycan bu iki kəndi ayrı-ayrı kolxozlara paylaşdırmadan 1948-ci ildə qəbul etməyə hazır deyildi. Azərbaycan nümayəndəsi həmin kəndlərin 1948-ci ildə köçürülmə planına salınmasını təklif etsə də, erməni nümayəndəsi razı olmayaraq bildirmişdi ki, onlar Ermənistan üçün ilk növbədə xalq təsərrüfatı əhəmiyyəti kəsb edir. Həmin kolxozların özləri də ayrı-ayrı yerlərə parçalanaraq Azərbaycan ərazisində yerləşmək istəmirdilər. Köçürülənləri

---

[563] Выписка из протокола №640 заседания Бюро ЦК КП(б) Азербайджана.19.03.1948. – ARSSA, f.1, siy. 33, iş 227, v. 19.

bir sıra məsələlərin həlli maraqlandırırdı. Hər şeydən əvvəl, onların əmlaklarını satması üçün şərait yaradılmalı idi. Lakin bu məsələdə böyük çətinliklər yaranmışdı. Artaşat rayonunun Zovaşen və Bapçraşen, Zəngibasar rayonunun Köykünbət kəndlərinin əhalisi evlərini digər kəndlərin əhalisinə satmaq istəsələr də, bunu bilən erməni millətindən olan kolxoz sədrləri imkan verməmiş və qadağan etmişdilər. Azərbaycanlılar bununla bağlı kollektiv şəkildə müraciət də etmişdilər.

Plana uyğun olaraq Yerevan şəhərindən 65 təsərrüfat və 230 nəfər köçürülməli idi. Bu adamlar iki il əvvəl ləğv edilmiş Yerevan ətrafındakı kolxozun üzvləri idi. Yerevanda azərbaycanlıların çoxu mənzillərini Azərbaycanda yaşayan ermənilərlə dəyişməyə, bu barədə mətbuatda elan verməyə icazə almaq istəyirdilər. Həmin suala Azərbaycanın Yerevandakı nümayəndəsi cavab verə bilmirdi. Köçürülənlər dağətəyi və dağ rayonlarında yerləşdirilmələrini istəyirdilər. Onlar əsasən Gəncə, Şamxor (indiki Şəmkir – M.Q.) Tovuz, Ağstafa, Qazax və Azərbaycanın digər rayonlarında yerləşdirilmə məsələlərini qoyurdular. M.Məmmədov buna görə də M.Bağırov və T.Quliyevdən Ermənistan rəhbərləri Q.Arutunyan və A.Q.Karapetyan ilə azərbaycanlıların evlərini satmasına kömək göstərilməsinə dair onların yerlərə dəqiq göstəriş vermələri barədə danışmağı xahiş edirdi. Çünki bu, onun fikrincə, köçürülmə məsələsini həll etmək üçün həlledici amil idi[564].

Plana görə 1948-ci ildə Artaşat, Basarkeçər, Eçmiadzin, Noyemberyan, Oktemberyan, Beriya rayonu, Vedi, Zəngibasar, Kotayksk rayonlarındakı və İrəvan şəhərindəki 45 min 685 nəfər azərbaycanlı əhalinin 11 min 244 nəfəri və ya 2378 təsərrüfat köçürülməli idi. Yuxarıda qeyd edildiyi kimi, yazda 1159 təsərrüfat və ya 6360 nəfər, payızda isə 1119 təsərrüfat və ya 4884 nəfər köçürülməli idi[565].

Azərbaycan K(b)P MK Bürosunun 1948-ci il 13 aprel tarixli iclasında (protokol № 647, §1) "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-ə köçürülməsi ilə əlaqədar olaraq kütləvi izahat işi haqqında" 8 bənddən ibarət qərar qəbul edildi[566]. Sə-

---

[564] Представитель Совета Министров Азербайджанской ССР в Советской Армении М.Мамедов – секретарю ЦК КП(б) Азербайджана Багирову М.Д., председателю Совета Министров Азербайджанской ССР Т.Кулиеву. 12.04.1948. – ARSSA, f.1, siy.33, iş 227, v.3-6.

[565] Сводный план переселения азербайджанского населения из Армянской ССР в Азербайджанскую ССР в 1948 году. – ARSSA, f.1, siy.33, iş 227, v.7; План переселения азербайджанского населения из Армянской ССР в Азербайджанскую ССР в 1948 году. – ARSSA, f.1, siy.33, iş 227, v. 8-10.

[566] Заседание Бюро ЦК КП(б) Азербайджана.13.04.1948. О массовой разъяснительной работе в связи с переселением колхозников и другого азербай-

nəddə yazılırdı ki, Mingəçevir sisteminin tikintisi ilə əlaqədar olaraq torpaqlardan geniş və tam istifadə etmək imkanı açılır. Əhaliyə izah olunmalı idi ki, Ermənistandan köçmə könüllü olub, hökumətin qərarına uyğun həyata keçirilir və köçürülənlərə güzəştlər verilir. Ermənistan K(b)P MK-dan azərbaycanlı əhali arasında izahat işləri aparmaq xahiş edilirdi. Azərbaycan SSR-in iqtisadi, mədəni inkişafına dair mühazirələr oxunmalı, kinofilmlər göstərilməli, köçürülənlərin qarşısında şair və yazıçılar çıxış etməli, köçürülmənin mədəni və iqtisadi əhəmiyyəti izah olunmalı,"Sovet Ermənistanı" qəzeti Azərbaycanın uğurlarına həsr edilmiş məqalə dərc etməli idi. Yaradıcı təşkilatlar izahat işi ilə bağlı təkliflərini verməli, Maarif Nazirliyi isə köçürülən uşaqları Azərbaycan dilində ədəbiyyatla təmin etməli, həmçinin Ermənistan SSR-də yaşayan azərbaycanlılar arasında dövri mətbuatı və Azərbaycan dilində ədəbiyyatı yaymalı idi.

Bu qərar da azərbaycanlıların Ermənistandan köçürülməsinin könüllü olmadığını göstərirdi. Onun forması 30-cu və İkinci dünya müharibəsi illərindəki deportasiyalar – əhalinin bir gecədə yük vaqonlarına doldurulub haraya deportasiya olunduqlarını bilmədikləri kimi olmasa da, mahiyyətcə zorakı köçürmə idi.

Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il dekabr tarixli qərarı ilə Şamxor, Ağstafa və Xanlar rayonlarında yerləşən köçürülənlərin kolxoz təşkil etməsi üçün 1 milyon 964 min 249 manat 81 qəpik vəsait ayrıldı[567]. Lakin bu məbləğ problemi həll etmək üçün yetərli deyildi.

Azərbaycanlıların köçürülməsinə dair qəbul edilən qərarlar sonuncu olmadı. SSRİ Nazirlər Soveti sədrinin müavini N.Bulqaninin və Nazirlər Sovetinin işlər müdiri M.Pomazkeviçin imzaları ilə bir neçə il sonra, 1950-cı il 6 sentyabr tarixli 8 bənddən ibarət 3850 №-li qərar qəbul edildi[568]. Bu qərar əvvəlkilərin davamı olsa da, əhatə dairəsinə görə daha geniş olub, həm Ermənistandan azərbaycanlıların köçürülməsinin davam etdirilməsini, həm də Azərbaycanın dağ və dağətəyi rayonlarındakı kəndlərdən əhalinin köçürülməsini nəzərdə tuturdu. Qərarın birinci bəndinə əsasən 1951-1955-ci illərdə Ermənistandan 15 min ailə, o cümlədən 1951-ci ildə 1500 ailə, 1952-ci ildə 2500 ailə Kür-Araz ovalığına köçürülməli idi.

---

джанского населения из Армянской ССР в Азербайджанскую ССР. Протокол № 647. §1. – ARSSA, f.1, siy.33, iş 27, v. 19-21.

[567] Постановление Совета Министров Азербайджанской ССР О распределении средств денежных неделимых фондов колхозов, переселенных по специальному решению. Декабрь 1948 г. – ARSSA, f.1, siy.33, iş 219, v.20.

[568] Постановление Совета Министров СССР О переселении в колхозы Кура-Араксинской низменности Азербайджанской ССР. 06.09.1950. №3850. – ГАРФ, ф.5446, оп.1, д.432, л.249-252.

Bundan əlavə, Azərbaycanın dağ və dağətəyi rayonlarından Kür-Araz ovalığına 5000, 1952-ci ildə 700 ailə köçürülməli idi.

İkinci bəndə görə əvvəlki qərarlarda nəzərdə tutulan güzəştlər yeni köçürülənlərə də aid edilirdi. Respublika daxilində köçürülənlərə ailə başına 500 rubl, hər bir ailə üzvünə 250 rubl verilirdi.

Üçüncü bəndə görə əgər köçürülənlərə torpaq sahəsi çatmazdısa, onda həmin torpaq sahəsi müvafiq yerdəki kolxozdan alınıb onlara verilməli idi.

Dördüncü bənddə 1951-1955-ci illərdə köçürülən rayonlarda 20 min evin tikilməsi nəzərdə tutulurdu. 1951-ci ildə 1500, 1952-ci ildə 2500 ev, əvvəlki illərdə köçürülənlər üçün 3500 ev tikilməli idi.

Beşinci bəndə əsasən Azköçtikintitresti Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə idarəsinin tabeçiliyinə verilir, əlavə tikinti kontorları yaradılır, rayon icraiyyə komitələrində köçürmə üzrə təlimatçı ştatı ayrılırdı.

Altıncı bənddə SSRİ Pambıqçılıq Nazirliyinə yeni kolxozları baş plana daxil etmək tapşırılırdı.

Yeddinci bəndə əsasən SSRİ Meşə və Kağız Sənayesi Nazirliyi 1950-ci ilin III və IV kvartallarında inşaat işləri üçün köçürülənlərə 15 min kubmetr taxta-şalban göndərməli idi.

Səkkizinci bəndə görə Azərbaycan SSR Nazirlər Soveti tikinti işlərində işləmək üçün respublika daxilində 1950-1951-ci illərdə kənd əhalisindən 500, 1951-ci ildə 350 fəhlə ayırıb Kür-Araz ovalığına göndərməli idi.

Bu qərar Mərkəzi hökumətin Azərbaycana vurduğu yeni bir ağır zərbə idi. Əgər əvvəlki illərdə azərbaycanlılar Ermənistandan deportasiya edilmişdilərsə, həmin qərarla Azərbaycan daxilində qədim tarixi olan kəndlər də köçürülür və əhali ağır bir vəziyyətə düşürülürdü.

1951-ci il yanvarın 1-ə olan məlumata görə köçürülmüş 4633 ailənin evi yox idi. Onlar digər kolxozçuların evində sığınmağa məcbur olmuşdular. Köçürülənlər üçün 5 min evin tikintisi nəzərdə tutulsa da, bu plan yalnız 20,3% yerinə yetirilmişdi[569]. Digər bir məlumata görə isə 1951-ci il yanvarın 1-i üçün 4 min 779 təsərrüfatın evi yox idi. Köçürülənlərdən 215 ailə Ermənistandakı daimi yaşayış yerinə qayıtmışdı. Azərbaycan SSR Nazirlər Soveti 1951-ci il iyunun 7-də keçirtdiyi iclasında qəbul etdiyi 738 №-li sərəncamı ilə bu vəziyyəti müzakirə edərək qəbulolunmaz hesab etdi[570]. Əlavə tədbirlər də müəyyənləşdirildi.

---

[569] Зам. начальника главного переселенческого управления при Совете Министров СССР Л. Дмитриев – секретарю ЦК КП(б) Азербайджана Якубову Т. 22.06.1951. №159 с. Секретно. – ARSSA, f.1, siy.37, iş 154, v. 239.

[570] Письмо Главного Переселенческого Управления при Совете Министров Союза ССР  секретарю ЦК КП (б) Азербайджана Кафарзаде С. Справка о

M.Bağırov 1952-ci il 23 yanvar tarixli 659№-li məktubunda SSRİ Nazirlər Soveti sədrinin müavini G.Malenkova köçürülmə barədə məlumat verdi. Məktubdan 1948-1951-ci illərdə Ermənistandan 37 min 378 nəfər və ya 8 min 759 ailənin köçürüldüyü məlum olurdu. Planda nəzərdə tutulan 1100 təsərrüfat əvəzinə 900 təsərrüfat 1951-ci ildə köçürülmüşdü. 1952-ci ildə 2 minə yaxın ailənin evi yox idi. Onlar kolxozçuların evində müvəqqəti məskunlaşmışdılar[571].

Azərbaycanlıların acınacaqlı vəziyyətini aradan qaldırmaq çətin idi. Hökumət qəbul etdiyi qərarları tam şəkildə yerinə yetirə bilmir, nəzərdə tutulan evləri tikə, adamları işlə təmin edə bilmirdi. Bundan fərqli olaraq Ermənistandan daimi yaşayış yerlərindən çıxarılan azərbaycanlıların hər cür şəraiti olan evlərinə xaricdən gətirilən ermənilər yerləşdirilirdilər. Boş qalan azərbaycanlı evləri isə ermənilər tərəfindən talan edilirdi.

## *Ermənilərin Cənubi Qafqaza gətirilməsi davam etdirilir: məqsəd nədir?*

Bəs xarici ölkələrdən ermənilər Ermənistana nə üçün gətirilirdi? Artıq yuxarıda qeyd edildiyi kimi, sovet dövləti heç bir təhdid olmasa belə, onları Türkiyə ilə sərhəd rayonlarda yerləşdirməklə, əsasən "təhlükəsizlik tədbirlərini" təmin etməyi düşünürdü. Bu, ermənilərin də maraqlarına uyğun idi. Onlar türksüz Ermənistan yaratmaq, bu ərazini erməniləşdirmək, Azərbaycan və Gürcüstandan yeni torpaqlar qopartmaq məqsədlərini güdürdülər. Ermənilərin Ermənistana gətirilməsinin və azərbaycanlıların deportasiyasının məqsədləri – konkret olaraq əraziləri genişləndirmək üçün qonşu respublikalara torpaq iddialarının irəli sürülməsi daşnak mətbuatında öz əksini tapmışdı. Məsələn, Tehranda dərc edilən "Alik" qəzetinin 1948-ci il 14 aprel tarixli sayında dərc edilmiş "İmmiqrasiya və biz" adlı məqalədə açıq şəkildə yazılırdı:

*"Bizim əleyhdarlarımız utanmadan bəyan edirlər, guya Daşnaksütyun ermənilərin köçürülməsinin əleyhinədir və xaricdə başqa bir Ermənistan qurmaq istəyir. Bu böhtanlar partiya əleyhinə yönəldilmişdir. Paris, Nyu York və Suriyadakı mütərəqqi elementlər müraciət edənədək o, bütün dünyaya səpələnmiş ermənilərin vətənlərinə qayıtmalarını qətiyyət-*

---

ходе подготовки жилых домов для переселенцев и о мероприятиях по возвращению самовольно выбывших переселенческих хозяйств. 09.07.1951. – ARSSA, f. 1, siy.37, iş 154, v. 240-242.

[571] М.Дж.Багиров – Совет Министров Союза ССР, тов. Маленкову Г.М. о ходе переселения в Кура-Араксинскую низменность Азербайджанской ССР. 23.01.1952. №659. – ARSSA, f.1, siy.38, iş 230, v. 20-21.

*lə tələb etmişdi. Əgər bizim əleyhdarlarımızı mətbuatda söylədiyimiz bu fikirlər təmin etmirsə, onda Moskvaya müraciət edə, görə bilərlər ki, biz köçürülməni həyata keçirtmək üçün Sovet İttifaqına qarşı hansı tələbləri irəli sürmüşük. Daşnaklar heç bir zaman immiqrasiyanın əleyhinə olmamışlar və indi də deyillər. Lakin son iki ilin təcrübəsi göstərir ki, immiqrasiyanın iki forması vardır. Birincisi, məcazi mənada immiqrasiya. Bu, xaricdəki ermənilərin fikirlərini qarışdırmaq, qardaşı doğma qardaşına qarşı qaldırmaq və antidaşnak mübarizəsini qızışdırmaqdır. İkincisi, immiqrasiya bizim daşnak anlamındadır. Bunun əsas məqsədi bizim miniatür vətənimizin iqtisadi-mədəni səviyyəsini yüksəltmək üçün Ermənistana bütün lazımi və faydalı əhval-ruhiyyəli qüvvələrin qayıtmasıdır. Birinci forma qəbuledilməz və mənfidir. İkincisi isə maraqların mövcud olması baxımından müsbət və faydalıdır. Erməni xalqının maraqlarını ifadə edən siyasi partiya kimi Daşnaksütyun immiqrasiyanın başlanmasının əleyhinə ola bilməz. Çünki siyasi quruluşundan və harada olmasından asılı olmayaraq vətən cəmiyyətsiz, xalqsız mövcud ola bilməz. Vətən vətən olaraq qalır. Əhali olmadan vətəndən vətən olmaz. Hansı erməni istəmir ki, 1 milyon əvəzinə 3-4 milyon təmiz qanlı erməni öz torpağında yaşasın. Kütləvi immiqrasiyanı yalnız təəssüf ki, işğalçıların və qonşu qardaş respublikaların əlində olan torpaqlarını erməni xalqına qaytaran zaman həyata keçirtmək lazımdır. Məgər daşnaklar istəmirlərmi bir neçə min, Yerevanın təsdiq etdiyi kimi, 400 min erməni yad ölkələrdən öz vətənlərinə dönsün və təkcə miniatür sərhədlərin hüdudlarında yerləşməsinlər, bunun ardınca həm də ayrı düşmüş rayonlarda yerləşsinlər. Torpağımız yoxdur, yaşayış şəraitimiz yoxdur deyərək, müharibəyə qədər bizə şikayət edən zaman yalnız daşnaklar vətənə köçürülməni tələb etdilər. Qarabağ, Gəncə, Axalkələk və Naxçıvan əsl sahiblərinə qaytarılmadığı bir zamanda əhalinin bu hissəsini harada yerləşdirmək olar"* [572].

Göründüyü kimi, daşnaklar ermənilərin Ermənistana gətirilməsinə geniş mənada yanaşaraq, "vətəndən ayrı düşmüş" rayonlarda yerləşdirilməsini istəyir, Azərbaycan torpaqları olan Qarabağ, Gəncə və Naxçıvana, Gürcüstan tərkibində olan Axalkələkə iddialar irəli sürürdülər. Bu isə ermənilərin gətirilməsinin əsl məqsədlərini aydın şəkildə göstərirdi.

Xarici ölkələrdəki erməni təşkilatlarının fəaliyyəti təkcə bununla kifayətlənmirdi. Onlar məqsədlərinə çatmaq üçün geniş təbliğat işləri aparır və terrora hazırlaşırdılar. Bu özünü Qnçakın Yaxın Şərq ölkələri təşkilatının 1948-ci il aprelin 25-27-də Beyrutda keçirilən fövqəladə

---

572 Иммиграция и мы. Перевод стати из тегеранской армянской газеты "Алик" от 14.04.1948. – ARSSA, f. 1, siy.35, iş 161, v. 47-49.

konfransında göstərdi[573]. Konfransda təşkilati məsələlər müzakirə edildi. “Ararat” qəzetinin maliyyələşdirilməsi qənaətbəxş hesab edilmədi.

Həmin ilin aprelin 27-ə olan məlumata görə Livanda Daşnaksütyun MK-nın tapşırığına uyğun olaraq 25-30 nəfərlik döyüşçü qrupunun yaradılması adı altında terrorçular hazırlanması nəzərdə tutulsa da, cəmi 12 nəfər seçilmiş, komandir heyəti üçün aşağıdakı iki məktəb yaradılmışdı[574]:

a) terrorçular hazırlayan məktəb;

b) siyasi kəşfiyyat işini öyrənmək üzrə məktəb.

Terrorçular hazırlayan məktəb üçün məsul şəxs Vartan Soqomonyan, kəşfiyyat üzrə isə məsul şəxs isə əvəllər sovet kəşfiyyatının “02” kod adlı agenti olmuş bir atlet idi. Məktəbin hər ikisinin rəhbəri Karo Sasuni idi.

Ermənilərin Ermənistana gətirilməsi davam etdirilərkən erməni təşkilatlarının Naxçıvana olan iddiaları da genişlənmişdi. “Alik” qəzetinin 1948-ci il 25-26 avqust tarixli sayında Saak Etçyanın “Naxçıvanın Ermənistan üçün əhəmiyyəti” adlı məqaləsi dərc edilmişdi. Tarixi həqiqətləri kobudcasına saxtalaşdıran və əsassız ərazi iddialarını irəli sürən müəllif yazırdı:

*“Hər dəfə Ermənistanın xəritəsinə baxanda başı tamamilə qırxılmış bir oğlan uşağını, Naxçıvana baxanda isə məhv edilmək üçün başı kəsilmiş gənci xatırladır. 1921-ci il Moskva və Kars müqavilələri ilə türklər Naxçıvanı Azərbaycanın adına yazdılar. O zaman Cənubi Qafqaz hökumətləri bu müqaviləyə hər hansı bir dəyişiklik etmək hüququndan məhrum edilmişdilər. Bu gün sovet hökuməti 27 illik intriqalardan sonra Türkiyə ilə münasibətlərini qıraraq həmin müqaviləni qüvvədən düşmüş hesab etmiş, Naxçıvanın Azərbaycandan alınıb Ermənistana verilməsi zamanı gəlmişdir. Bu, Sovet İttifaqının və ermənilərin maraqlarına xidmət edəcəkdir”.*

Naxçıvanın “qədim erməni torpağı” kimi qələmə verilməsinin heç bir elmi-tarixi, siyasi, mədəni və etnoqrafik əsası yox idi. Ən qədim zamanlardan Naxçıvan diyarı türk, Azərbaycan yurdu idi. Hələ XIX əsrdə rus müəllifi Eriçevin etiraf etdiyi kimi, “təmiz tatar (azərbaycanlı – M.Q.) şəhəri olan Naxçıva”nın[575] tarixini saxtalaşdıraraq, onu Ermənistanın

---

[573] Зам.нач.2-го Главного Управления МГБ СССР генерал-майор Утехин – министру госбезопасности Азербайджанской ССР генерал-майору тов. Емельянову. О чрезвычайной конференции Гнчакской партии стран Ближнего Востока. 03.11.1948 . №2/Г/. – ARMTNA, L-164, v. 69-71.

[574] Зам.нач.2-го Главного Управления МГБ СССР генерал-майор Утехин – министру госбезопасности Азербайджанской ССР генерал-майору тов. Емельянову. О боевых группах. 03.11.1948. №2/Г/. – ARMTNA, L-164, v. 69-71.

[575] Ерицев А. Армяне. – В кн: Живописная Россия. Отечество наше в его земельном, историческом, племенном, экономическом и бытовом значении. Под общей редакцией П.П.Семенова, вице-председателя императорского географического общества. Т.IX. Кавказ. СПб., М., 1883, с.200.

tarixi və coğrafi hissəsi hesab edən Saak Etçyan SSRİ-nin və erməni xalqının siyasi, iqtisadi və hərbi ehtiyaclarının Naxçıvan diyarının Ermənistana qaytarılmasını tələb etdiyini yazaraq vurğulayırdı ki, şübhə yoxdur, Naxçıvan Moskva müqaviləsi ilə bəzi siyasi niyyətlər üçün Ermənistandan ayrılmış, ittihadçı və kamalçı Türkiyə bunda pantürkçü məqsədlər güdmüş, onu sistemli olaraq həyata keçirtmişdir. Müasir Türkiyənin guya panislamizmi həyata keçirtdiyi, ona yardımçı kimi pantürkizmi qüvvə kimi istifadə etdiyi barədə səhv qənaətə gələn müəllif saxtakarlıqla yazırdı ki, öz siyasətini həyata keçirtmək üçün pantürkizm qətiyyətli formada vasitədir, guya Birinci dünya müharibəsi illərində ittihadçı pantürkçülər özlərinin siyasi məqsədlərinə 100% nail olmuşlar, 5 milyon ermənini, yunanı, kürdü, yezidi və assuriyalını qırmışlar. Onun sözlərinə görə guya bununla kifayətlənməyən pantürkçülər 1914-1920-ci illərdə İran Azərbaycanında, Urmiyə, Salmas və Qaradağ rayonlarında 70 min erməni və assuriyalını hərbi əməliyyatların gedişində öldürmüşdülər. Müəllif qeyd edirdi ki, indi onlar İzmir sahillərindən və Kəşmirdən Çin Türküstanına qədər 150-160 milyonluq ittifaq qururlar. Bu, pantürkçü və panislamçı çöllərdə Sovet İttifaqının kiçik dostu olan İrəvan düzündə kiçik Ermənistan Naxçıvansız boğazı kəsilmişdir, Naxçıvan özünün iqtisadi-coğrafi şəraiti ilə Azərbaycandan və Sovet İttifaqından ayrı düşmüşdür, sovet Ermənistanı olmadan mədəni cəhətdən inkişaf edə bilməz. Müəllif heç bir tarixi mənbəyə istinad etmədən, özündən uydураraq yazırdı ki, 1942-1943-cü illərdə türklər almanlarla razılığa əsasən Şimali İrandan keçərək Bakıya girməli idi. Qaradağ və Muğan çölləri vacibdir, o, Naxçıvan – Zəngəzurdan Qarabağa yoldur, tezliklə türklər Genc – Malazgird və Karin – Malazgird – Bəyazid dəmiryollarını birləşdirəcəklər. Daha sonra müəllif Naxçıvanın 3 min il və daha çox tarixi erməni torpağı olması "haqqında" sayıqlamalarını vurğulayır, “kor bolşeviklərin” səhvlərini düzəltməyə çağırır, bu torpağın qaytarılmasını tələb edərək yazırdı ki, tarixən bizim bədbəxt vətənimiz üç vadiyə arxalanmışdır: Ararat, Taron və Xarberd. Son iki vadini türklər vətəndən ayrı salmışlar. O, sovet hökumətinin erməniləri Naxçıvan, Qoxtan, Ordubad, Yeni Culfa, Şahtaxtıda yerləşdirməsini və həmin ərazilərin Ermənistana birləşdirməsini təklif edərək saxtakarlıqla yazırdı ki, əgər 200 min erməni olan Dağlıq Qarabağ Azərbaycanın tərkibində muxtariyyət kimi mövcud ola bilirsə, onda Naxçıvan da böyük hüquqlarla muxtariyyət kimi Ermənistanın daxilinə qatılmalıdır, bunu yaxın vaxtlarda tələb etmək lazımdır. Onun fikrincə, bu tələbləri erməni koloniyaları, katolikos, partiarx və din xadimləri etməli idi. Müəllif “Naxçıvan məsələsi”ni Ermənistan üçün vacib və ciddi zəruri, həyati və vətənpərvərlik məsələsi hesab edirdi[576].

[576] Саак Етчян. Значение Нахичевани для Армении. Перевод дашнакской газеты

Müəllifin yazdığı bu cızma-qara gerçəklikləri qətiyyən düzgün əks etdirmirdi və tamamilə səhv idi. Rəsmi statistikaya görə 1939-cu ildə DQMV-nin bütün əhalisi 150,8 min nəfər idi. Onun yalnız 110,1 min nəfəri (84,4 %) erməni, 18,0 min nəfəri (13,8 %) azərbaycanlı, 1,8 min nəfəri (1,4 %) rus idi[577]. İkinci dünya müharibəsi illərində bütün ölkədə olduğu kimi, Azərbaycan SSR DQMV-də də əhalinin sayı təbii olaraq azalmışdı. Soruşulur: real vəziyyəti olduğu kimi deyil, kobudcasına saxtalaşdıraraq Muxtar Vilayətdəki ermənilərin sayını süni surətdə iki dəfəyə qədər artırmaqda hansı məqsədlər güdülürdü? Cavab aydındır: əsassız ərazi iddialarına həqiqət donu geyindirmək.

Xarici ölkələrdən ermənilərin gətirilərək Ermənistana yerləşdirilməsinə münasibət heç də birmənalı deyildi. Ermənilərin kütləvi şəkildə gətirilməsinə mane olmağa çalışan ABŞ-da belə hesab edirdilər ki, o, həyata keçirilərdisə, xaricdəki antisovet erməni qüvvələrinin bazası, antikommunist təbliğat zəifləyər və sovet sisteminə olan rəğbət artardı. ABŞ xadimlərinin fikrincə, ermənilərin fərdi şəkildə köçürülməsi faydalı olardı. Ermənilərin özləri də kütləvi şəkildə deyil, yalnız bəziləri Ermənistana gəlməyə çalışırdılar. Belə olduqda ermənilərdən SSRİ-yə qarşı agentura-kəşfiyyat məqsədləri üçün istifadə edilə bilərdi. Eyni zamanda Ermənistana gedən bir neçə erməninin geri qayıtmasını təşkil etmək, bununla bağlı olaraq həmin şəxslərin sovet quruluşu haqqında mənfi fikirlərinin əks olunduğu bəyanatı yayıla bilərdi. Bu da xarici ölkələrdəki antisovet qüvvələrin işinə yarayardı.

Əlbəttə, köçürülməni həyata keçirən sovet hökuməti Ermənistan sərhədlərinin genişləndirilməsi məqsədlərini, ermənilərin istəklərini deyil, ilk növbədə soyuq müharibə şəraitində Türkiyəyə qarşı geniş strateji niyyətlərinin həyata keçirilməsini düşünürdü. Ona görə də sovet rəhbərliyi Türkiyə və İran ilə sərhəd ərazilərdən azərbaycanlıları köçürərək onların torpaqlarına daha "etibarlı ünsürləri" yerləşdirirdi. Bu baxımdan ermənilərin Ermənistana gətirilməsi istəkləri ilə sovet xarici siyasət niyyətləri üst-üstə düşürdü. Ermənilər həmin məqsədlərin reallaşdırılmasında bir vasitə idi. Sovet rəhbərliyi, həmçinin müxtəlif vaxtlarda ölkədən xaricə getmiş və ya müharibədən sonra vətənə qayıtmayan mühacirlər arasında antisovet əhval-ruhiyyənin olmasını, onların qatı antisovet təbliğatda iştirak etməsini istəmir və daha güclü koloniyaları dağıtmağa çalışırdı. Sovet gerçəkliklərini yaxşı bilən həmin şəxslərin ölkədə qohumları və tanışları yaşayırdı. Onların apardığı hər hansı bir təbliğat daha təsirli olduğundan "dəmir pərdə", tikanlı məftillərlə əhatə olunmuş SSRİ üçün arzu edilən deyildi.

Daşnaksütyun isə bir qədər fərqli düşünürdü. Ermənilərin zəif və pərakəndə koloniyalarından köçürülməsinə tərəfdar olan bu təşkilat mütəşəkkil

---

"Алик" за №190-191 от 25/26 августа 1948 г. – ARSSA, f.1, siy.35, iş 161, v.50-54.
[577] Bax: НКАО, 50 лет в дружной советской семье. Степанакерт, 1973.

koloniyalardan köçürülməsinin antisovet ermənilərin sosial bazasını zəiflətmək məqsədi güddüyü qənaətində idi. Bununla belə, Daşnaksütyun ermənilərin köçürülməsində ikili və ehtiyatlı mövqe tutaraq, kütləvi köçürülməni "erməni torpaqlarının azad edilməsi" və Ermənistan sərhədlərinin genişləndirilməsi vəzifələrinin yerinə yetirilməsində bir vasitə olaraq görürdü[578].

Xarici ölkələrdəki erməni dairələrinin əsassız ərazi iddialarının davam etdiyi bir zamanda Azərbaycan bir sıra tədbirlər aldı. Bunlardan biri Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasının 25 illiyinin qeyd edilməsi oldu.

## *DQMV-nin yaradılmasının 25 illiyi qeyd edilir*

Azərbaycan K(b)P MK Bürosunun 1948-ci il 6 aprel tarixli iclasında (protokol № 645, §7) Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasının 25 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul edildi[579]. Sənəddə yazılırdı ki, Azərbaycanın qardaş xalqlarının mehriban ailəsində DQMV böyük uğurlar qazanmış, vilayətdə sənaye, kənd təsərrüfatı, mədəniyyət sahəsində nailiyyətlər əldə edilmiş, energetika bazası yaradılmış, zəhmətkeşlərin məişət-mədəniyyət həyatı tanınmaz dərəcədə dəyişmişdir. Bütün vilayətdə məktəb, mədəni-maarif müəssisələri yaradılmış, Müəllimlər İnstitutu, dövlət teatrı, kino-teatrlar, klublar şəbəkəsi qurulmuşdur. Vilayətdə 2 vilayət, 4 rayon qəzeti dərc edilirdi. Qərarda Azərbaycan K(b)P MK Bürosu DQMV-nin yaradılmasının 25 illik yubileyinin keçirilməsinə icazə verilməsini və zəhmətkeşlərin qabaqcıl nümayəndələrinin təltif edilməsini ÜK(b)P MK-dan xahiş edirdi.

Mərkəzlə aparılan yazışmalardan sonra bu məsələyə dair daha bir addım atıldı. Azərbaycan K(b)P MK Bürosunun 1948-ci il mayın 5-də keçirilən iclasında (protokol № 657, § 5) DQMV-nin 25 illiyinə hazırlıq və onun keçirilməsi haqqında 7 bənddən ibarət qərar qəbul edildi[580]. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri M.B.Qasımovun sədrliyi altında komissiya yaradıldı. Komissiyanın tərkibinə T.İ.Quliyev, H.A.Se-

---

[578] Программа борьбы народов магометанских стран и народов стран, находящихся под большевистским ярмом. –ARMTNA, L-164, v.55-58.

[579] Заседание Бюро ЦК КП (б) Азербайджана. 06.04.1948. О проведении 25-летнего юбилея образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. Протокол № 645.§7. Сов.секретно. – ARSSA, f.1, siy.33, iş 26, v. 175-176.

[580] Заседание Бюро ЦК КП(б) Азербайджана. 05.05.1948. О подготовке и проведении 25-летия Нагорно-Карабахской Области. Протокол № 657.§5. Сов. секретно. – ARSSA, f.1, siy.33, iş 30, v.12-13.

yidov, T.Q.Qriqoryan və M.Z.Babayev daxil edildilər. Qərara əsasən əhali arasında kütləvi-izahat işləri aparılmalı, DQMV haqqında xüsusi kino-oçerk çəkilməli, İncəsənət idarəsi, Bədən Tərbiyəsi və İdman Komitəsi isə tədbirlər planı işləyib hazırlamalı idilər. DQMV-nin 25 ildə əldə etdiyi uğurlara həsr olunmuş kitabça, gənc şairlərin şeirlər məcmuəsi, "Kommunist", "Bakinskiy raboçiy" və "Kommunist" (ermənicə) qəzetləri DQMV-nin nailiyyətlərindən bəhs edən məqalələr dərc etməli idi.

Buna dair Azərbaycan tərəfinin müraciəti ÜİK(b)P MK katibliyinin 1948-ci il 8 may tarixli iclasında (protokol №348) müzakirə edildi və müvafiq qərar qəbul olundu. Qərarda yazılırdı:

"*1. Azərbaycan K(b)P MK-ya, Azərbaycan SSR Ali Sovetinə və Nazirlər Sovetinə, Azərbaycan K(b)P Dağlıq Qarabağ Vilayət Komitəsinə və Vilayət Xalq Deputatları Sovetinə Dağlıq Qarabağ Muxtar Vilayətinin 25 illiyinin 1948-ci ilin iyul ayında bayram edilməsinin keçirilməsinə icazə verilsin. 2. Siyasi Büronun müzakirəsinə verilsin*" [581].

Qeyd etmək lazımdır ki, qərarın ikinci bəndi arxiv sənədlərində qələmlə pozulmuşdur. Katibliyin bu qərarı şifahi sorğu yolu ilə ÜİK(b)P MK Siyasi Bürosunun 1948-ci il 12 may tarixli P63/63 saylı qərarı ilə təsdiq edildi. Qərara səs verən Büro üzvlərinin adları sənəddə qələmlə yazılmışdır[582].

Bayram ərəfəsində Azərbaycan hakimiyyəti Muxtar Vilayətdə yaşayıb-işləyən bir sıra qabaqcıl işçilərin dövlətin orden və medalları ilə təltif edilməsi məsələsini Mərkəz qarşısında qaldırdı. SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Şvernikin və Rəyasət Heyətinin katibi A.Qorkinin 13 iyul tarixdə imzaladıqları fərmana uyğun olaraq yubiley münasibəti ilə vilayətin kənd təsərrüfatı, sənaye, elm, mədəniyyət və incəsənət işçilərinin 10 nəfəri Lenin ordeni, 20 nəfəri Qırmızı Əmək Bayrağı ordeni, 30 nəfəri Şərəf nişanı ordeni, 25 nəfəri Əmək igidliyinə görə 22 nəfəri Əməkdə fərqlənməyə görə medalları ilə təltif edildilər[583].

Vilayət zəhmətkeşləri iyulun 17-də İ.V.Stalinə minnətdarlıq məktubu göndərdilər. 25 ildə Muxtar Vilayətin böyük inkişaf yolu keçdiyi, çar müstəmləkəçilərinin və burjua millətçilərinin şəhər və kəndləri, əkin sahə-

---

[581] Выписка из протокола заседания секретариата ЦК ВКП(б) о праздновании 25-летия Нагорно-Карабахской области. 08.05.1948. №СТ348/261-чс. – РГАСПИ, ф.17, оп.163, д.1511, л.96.

[582] Решение Политбюро ЦК ВКП(б) о праздновании 25-летия Нагорно-Карабахской области. 12.05.1948. №П63/63. – РГАСПИ, ф.17, оп.163, д.1511, л.96.

[583] Muxtar Dağlıq Qarabağ Vilayətinin kənd təsərrüfatı, sənaye, elm, mədəniyyət və incəsənət işçilərini orden və medallarla təltif etmək haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı. 13 iyul 1948-ci il. – "Kommunist" qəzeti, Bakı, 25.07.1948, №147 (7844).

lərini xarabalığa çevirdikləri, zəhmətkeşləri aclığa və ölümə məhkum etdikləri qeyd olunan məktubda vurğulanırdı ki, indi Qarabağı tanımaq olmur, bura çiçəkli bir diyara çevrilmişdir. Vilayətdə sənaye məhsulu 1923-cü il ilə müqayisədə 9 dəfə artmışdı. Dağlıq Qarabağda energetika bazası yaradılmışdı. Vilayət, Azərbaycanın ən gözəl guşələrindən birinə çevrilmişdi. Sovet hakimiyyəti illərində vilayətin siması dəyişmiş, məktəblərdə Azərbaycan, erməni və rus dillərində 36 min şagird təhsil alırdı. Bu, inqilabdan əvvəlkindən 12 dəfə çox idi. Yüzlərlə oğlan və qız Bakıda təhsil alırdı. Məktubda yazılırdı:

"*Mərkəzdən uzaq olan Xankəndinin keçmiş xan malikanələrinin yerində Azərbaycanın ən gözəl sosialist şəhərlərindən biri – vilayətin sənaye, mədəniyyət mərkəzi olan və Şaumyanın şanlı adını daşıyan Stepanakert adlandırılmışdır.*

*Şuşa sovet Azərbaycanının sağlamlıq ocağına çevrilmişdir. Gözəl mənzərəli Şuşanın sanatoriyalarında, istirahət evlərində və pioner düşərgələrində hər il minlərlə zəhmətkeş və onların balaları müalicə olunur və istirahət edirlər.*

*İnqilaba qədər natəmiz və xarabalıq olan, yolxucu xəstəliklərin hökm sürdüyü Qarabağ kəndləri indi dəyişmişdir. Hazırda kəndlilərimiz abad evlərdə yaşayır, bütün uşaqlarımız məktəblərdə oxuyurlar, hər bir kənddə mədəniyyət və tibb ocaqları yaradılmışdır*".

Məktubda Azərbaycan hakimiyyəti altında vilayətin iqtisadiyyat, elm, təhsil, mədəniyyət və incəsənət sahəsində qazandığı uğurlar sadalanır və vurğulanırdı:

*"Rəhbər partiya, sovet və təsərrüfat işçiləri, Azərbaycan respublikasının elm və mədəniyyət xadimləri arasında Dağlıq Qarabağdan bir çox erməni vardır... Bilik xəzinəsi Dağlıq Qarabağ zəhmətkeşlərinin üzünə açılmışdır"* [584].

Vilayətin yaradılmasının 25 illiyi münasibəti ilə Azərbaycan K(b)P MK katibi M.Bağırov, Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri M.B.Qasımov iyulun 20-də DQMV Xalq Deputatları Sovetinin sədri E.Akopova və Azərbaycan K(b)P Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin katibi T.Qriqoryana təbrik məktubu göndərdilər[585]. Məktubda DQMV-nin 25

---

[584] Письмо трудящихся НКАО тов.Сталину в связи с 25-летием образования автономной области, для опубликования в центральной печати. – ARSSA, f.1, siy.33, iş 333, v.8-15 ; "Kommunist" qəzeti, Bakı, 24.07.1948, №146 (7843).

[585] Председатель Президиума Верховного Совета Азербайджанской ССР М.Б.Гасымов, председатель Совета Министров Азербайджанской ССР Т.Кулиев, секретарь ЦК КП (б) Азербайджана М.Д.Багиров – председателю ис-

ildə böyük inkişaf yolu keçdiyi, vilayətdə 120-dən çox mədəniyyət evi, kənd klubu, 60 oxu zalı, 14 kitabxana, 6 qəzet, teatr və məktəbin olduğu, sənaye məhsulunun 8 dəfə artdığı, 2500 müəllim, yüzlərlə həkim, aqronom, şair, yazıçı və artistin işlədiyi vurğulanırdı.

Yubiley tədbirləri çərçivəsində DQMV şairlərinin şeirlər məcmuəsi, şair Canyanın kitabı nəşr, "Ədəbiyyat qəzeti"ndə yazıçı Quruncyanın DQMV haqqında məqaləsi dərc edildi. Kino-oçerk hazırlandı. Stepanakert teatrında iki yubiley tamaşası oynanıldı.

İyulun 23-də Stepanakertdə keçirilən ədəbiyyat gecəsində M.Davtyan məruzə etdi. Yubiley gecəsində incəsənət xadimlərindən Hüseynağa Hacıbababəyov, Xan Şuşinski (İsfəndiyar Aslan oğlu Cavanşir), Baykov, Fatma Mehrəliyeva, Şveç, Ayromyans, A.Cavanşirov, N.Qriqoryan, Nikifirov və b. iştirak etdilər. Yubiley tədbirlərindən sonra Stepanakert teatrının iki aparıcı artisti Moskva və Leninqrada yaradıcılıq ezamiyyətinə göndərildi. Mühazirəçilər qrupu DQMV-də zəhmətkeşlər qarşısında çıxışlar etdilər. Kitabxanalarda 25 sərgi təşkil edildi. Azərbaycan hökuməti vilayətdə mədəni-maarifin inkişafı üçün 100 min rubl ayırdı[586].

"Kommunist" qəzetinin 24 iyul tarixli sayı başdan-başa DQMV-yə həsr edilmişdi[587]. Baş məqalə "Lenin – Stalin milli siyasətinin parlaq təntənəsi" adlanırdı. Məqalədə yazılırdı ki, istər inqilabdan əvvəl, istərsə də sovet hakimiyyəti illərində azərbaycanlılarla ermənilər qardaş olmuşlar. Həmişə azərbaycanlıların dostu ermənilərin dostu, ermənilərin düşməni də azərbaycanlıların düşməni olmuşdur. Vilayətin 25 ildə keçdiyi inkişaf yolunun işıqlandırıldığı məqalədə yazılırdı:

*"Vilayət tamamilə dəyişmiş, böyümüş, tərəqqi etmiş və tanınmaz olmuşdur. 25 il bundan qabaq Xankəndindən olanlar indi Stepanakertə getsələr, sovet üsul-idarəsinin gücünü, sovet adamlarının fədakar əməyinin qüvvəsini görər, respublikamızın böyük mərkəzlərindən biri olan Stepanakert şəhərinin yüksəldiyinə tamaşa edərlər".*

Məqalədən aydın olurdu ki, bu zaman vilayətdə 210 məktəbdə 36 min şagird təhsil alırdı, Müəllimlər İnstitutu, çoxlu texnikum, musiqi məktəbi, 120-dən çox mədəniyyət evi və klub, 60 qiraət koması, 14 kitabxana,

---

полкома НКАО Совета Депутатов трудящихся тов. Акопову Е., секретарю Нагорно-Карабахского Обкома КП(б) Азербайджана тов. Григоряну Т. – ARSSA, f.1, siy.33, iş 333, v.3-6; "Kommunist" qəzeti, Bakı, 24.07.1948, №146 (7843).

[586] Справка о реализации постановления ЦК КП(б) Азербайджана о подготовке и проведении 25-летия Нагорно-Карабахской автономной области. 05.05.1948. – ARSSA, f.1, siy.33, iş 333, v.1-2.

[587] Lenin – Stalin milli siyasətinin parlaq təntənəsi. – "Kommunist" qəzeti, Bakı, 24.07.1948, №146(7843).

12 kino-teatr, 14 radiostansiya, erməni dilində 4 qəzet var idi. Şuşa şəhəri sovet Azərbaycanının kurort və sağlamlıq mərkəzinə çevrilmişdi.

"Kommunist" qəzetinin həmin tarixli sayında Muxtar Dağlıq Qarabağ Vilayəti Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri E.Akopovun "Xalqların Lenin – Stalin dostluğu bayrağı altında" adlı məqaləsi dərc edildi. Məqalədə yazılırdı ki, Muxtar Dağlıq Qarabağ Vilayətinin yubileyi bütün Azərbaycan zəhmətkeşlərinin və sovet xalqının bayramıdır. Daha sonra məqalədə 25 il ərzində keçilən yola nəzər yetirilir, iqtisadi inkişafın yüksək səviyyədə olduğu qeyd edilir və vurğulanırdı ki, əgər 1923-cü ildə vilayətdə cəmi 80 birinci dərəcəli məktəb var idisə, indi 210 məktəb, Müəllimlər İnstitutu, Pedaqoji, Kənd Təsərrüfatı, Tibb texnikumları və musiqi məktəbi vardır. 1923-cü ildə vilayətdə xalq maarifinin inkişafına Azərbaycan hökuməti 200 min manat ayırmışdısa, 1948-ci ildə təkcə Maarif Nazirliyinin xətti ilə məktəb işinə 42 milyon 258 min manat pul ayrılmışdı. 1923-cü ildə vilayətdə cəmi 4 həkim var idisə, 1948-ci ildə vilayətdə 13 xəstəxana, 8 müalicəxana, 22 kənd həkim məntəqəsi, 63 feldşer məntəqəsi var idi. Bunlarda 124 həkim, 117 feldşer, 256 tibb bacısı, 96 mama və bir sıra digər tibb işçiləri çalışırdı. 1944-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının Stepanakert şöbəsi açılmışdı[588].

Qəzetin həmin sayında "Vahid ailənin görkəmli nailiyyətləri" başlığı altında xalqlar dostluğundan bəhs edən məqalələr verilmişdi. Onların arasında şair Baqrat Ulubabyanın "Qarabağlı haqqında mahnı" şeiri diqqəti cəlb edirdi. Osman Sarıvəllinin Azərbaycan dilinə çevirdiyi həmin şeirdə aşağıdakı misralar da yer almışdı:

*"Oktyabr xilas etdi zülmətdən bu torpağı,*
*– Qarabağlı xilas oldu zülmətin girdabından...*
*– Burda böyük şəhər qurduq Şaumyanın adına.*
*– Yaşıl dağlar arasında qərar tutmuş bu şəhər...*
*– İnqilabın ağ günəşi üzünə gülməsəydi,*
*– Öz taleyin sovetlərə bağlaya bilməsəydi,*
*– Qarabağın bu gün belə gülməzdi qaş-qabağı,*
*– Belə gümrah görünməzdi bu nemətlər torpağı,*
*– Oktyabr ona bir qanad verdi,*
*– Böyük Sovet İttifaqı əbədi həyat verdi.*
*– Azərbaycan ana kimi açdı ona döşünü,*
*– Qarabağlı bu dostluqda tapdı əziz xoş günü"* [589].

---

588 Akopov E. Xalqların Lenin – Stalin dostluğu bayrağı altında. – "Kommunist" qəzeti, Bakı, 24.07.1948, №146(7843).

589 Ulubabyan B. Qarabağlı haqqında mahnı. – "Kommunist" qəzeti, Bakı, 24.07.1948, №146(7843).

Bayram münasibəti ilə SSRİ Nazirlər Soveti və ÜİK(b)P MK Muxtar Dağlıq Qarabağ Vilayət Zəhmətkeş Deputatları Sovetinə və Azərbaycan K(b)P Dağlıq Qarabağ Vilayət Komitəsinə təbrik məktubu göndərdilər[590]. Məktubda 25 ildə vilayətdə qazanılan uğurlara diqqət yetirilir və yubiley münasibəti ilə zəhmətkeşlər təbrik edilirdilər.

SSRİ Ali Soveti Rəyasət Heyəti də Muxtar Dağlıq Qarabağ Vilayət Zəhmətkeş Deputatları Sovetinə təbrik məktubu göndərdi[591]. Məktubda Muxtar Vilayətin 25 ildə keçdiyi inkişaf yolu xatırladılırdı.

İyulun 24-də axşam saat 8-də Stepanakertdə Dağlıq Qarabağ Vilayət Zəhmətkeş Deputatları Sovetinin təntənəli sessiyası keçirildi. Sessiyada Bakı, Dərbənd, Naxçıvan MSSR, Kirovabad (indiki Gəncə – M.Q.), Nuxa (indiki Şəki – M.Q.), Ağdam və Azərbaycanın digər rayonlarından nümayəndələr iştirak edirdilər. Rəyasət Heyətində Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev, Azərbaycan K(b)P MK katibi H.Seyidov, Azərbaycan K(b)P Dağlıq Qarabağ Vilayət Komitəsinin katibi T.Qriqoryan, Vilayət Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri E.Akopov, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi S.Cəfərov, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri C.Məmmədov və b. oturmuşdular.

Sessiyanı Vilayət Zəhmətkeş Deputatları Sovetinin deputatı Q.Şaxramanyan açdı. Azərbaycan SSR-in dövlət himni səsləndirildi. Məruzə ilə çıxış edən E.Akopov vilayətə həmişə qayğı göstərən Azərbaycan K(b)P MK-ya və Azərbaycan SSR Nazirlər Sovetinə minnətdarlığını bildirdi.

Sonra Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev çıxış edərək, vilayətin 25 ildə qazandığı uğurlar üzərində dayandı, qarşıda duran vəzifələrdən geniş söhbət açdı.

Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyəti, Nazirlər Soveti və Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsi adından Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri C. Məmmədov çıxış etdi.

Böyük bir konsert oldu. Konsertdə SSRİ xalq artisti Bülbül, Azərbaycan SSR xalq artistlərindən Hüseynağa Hacıbababəyov, Qurban Pirimov, V.Baykov, Xan Şuşinski və Stepanakert şəhər artistləri mahnılar ifa etdilər[592].

---

[590] SSRİ Nazirlər Soveti və ÜİK(b)P MK-nın Dağlıq Qarabağ Vilayət Komitəsinə təbrik məktubu. – "Kommunist" qəzeti, Bakı, 24.07.1948, №146(7843).

[591] SSRİ Ali Soveti Rəyasət Heyətinin Muxtar Dağlıq Qarabağ Vilayət Zəhmətkeş Deputatları Sovetinə təbrik məktubu. – "Kommunist" qəzeti, Bakı, 24.07.1948, №146(7843).

[592] Dağlıq Qarabağ Vilayət Zəhmətkeş Deputatları Sovetinin təntənəli iclası. 24 iyul 1948-ci il. –"Kommunist" qəzeti, Bakı, 25.07.1948, №147(7844).

İyulun 25-də Stepanakertdə zəhmətkeşlərin bayram nümayişi keçirildi. Tribunada Azərbaycan K(b)P MK katibi H.Seyidov, Azərbaycan K(b)P Dağlıq Qarabağ Vilayət Komitəsinin katibi T.Qriqoryan, Dağlıq Qarabağ Vilayət Zəhmətkeş Deputatları Sovetinin sədri E.Akopov, Bakı, Kirovabad, Naxçıvan MSSR, Ağdam və Azərbaycanın digər yerlərindən gəlmiş nümayəndələr dayanmışdılar. Nümayişçilərin əllərində daşıdıqları plakatlarda vilayətin 25 ildə keçdiyi inkişaf yolunu əks etdirən rəqəmlər yazılmışdı. Xalqlar dostluğuna dair səslənən və ən çox alqışlarla qarşılanan şüar *"Yaşasın xalqların milli sülh və əməkdaşlığının nümunəsi olan sovet Azərbaycanı!"* idi[593].

Ötən 25 ildə qazanılan uğurlar Azərbaycanın diqqəti nəticəsində bu tarixi ərazisi olan vilayətin inkişaf etdiyini, çarizm və sovet dövrlərində buraya gətirilərək yerləşdirən ermənilərin ağ günə çıxdığını göstərirdi. Lakin Azərbaycanın belə xeyirxah münasibətinə baxmayaraq, həm bəzi erməni kommunistləri, həm də daşnaklar Türkiyə və Azərbaycana qarşı düşmənçilik fəaliyyətlərini davam etdirirdilər. Xarici ölkələrdəki erməni təşkilatları və Ermənistandakı yazıçı, şair və tarixçilər yazılarında Azərbaycan tarixini kobudcasına saxtalaşdırır və əsassız iddialar irəli sürürdülər. Məsələn, Tehrandakı "Alik" qəzetinin 1949-cu il yanvarın 25 və 27-də daşnak lideri S.Vraçyana həsr etdiyi məqaləsində Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ, Gürcüstanın Axalkələk regionlarına, Türkiyənin Kars və Ardahan vilayətlərinə əsassız iddialar əks olunmuşdu[594].

Belə fəaliyyətlərə biganə qala bilməyən Azərbaycan rəhbərliyi açıq və qəti mövqeyini bildirdi. Bu, Azərbaycan K(b)P-nin XVII qurultayında özünü aydın şəkildə göstərdi.

### *Azərbaycan K(b)P-nin XVII qurultayında erməni millətçilərinə münasibət*

Azərbaycan K(b)P-nin 1949-cu il yanvarın 25-28-də keçirilən XVII qurultayında etdiyi çıxışında Azərbaycan SSR dövlət təhlükəsizliyi naziri S.Yemelyanov respublikada millətçi, ziyanlı elementlərin hələ də olduğunu bildirdi[595].

Çıxış edən ermənicə "Kommunist" qəzetinin redaktoru Əmirxanyan isə dedi ki, bir sıra faktlar göstərir, daşnaklar təkcə ideoloji cəhətdən bizə

---

[593] Stepanakertdə zəhmətkeşlərin bayram nümayişi. –"Kommunist" qəzeti, Bakı, 27.07.1948, №148(7845).

[594] Справка о статье лидера дашнакской к-р организации Врачяна С. в газете "Алик" от 25, 27 января 1949 г. – ARSSA, f.1, siy.35, iş 161, v.56-59.

[595] Выступление Емельянова С.Ф. на съезде КП(б) Азербайджана. 25-28.01.1949. – ARSSA, f.1, siy.35, iş 9, v.252-271.

ziyan vurmurlar, imkan daxilində təxribata və hətta terrora qədər getmək istəyirlər[596].

Qurultayda etdiyi yekun nitqində M.Bağırov Azərbaycan K(b)P Dağlıq Qarabağ Vilayət Komitəsinin katibi Tiqran Qriqoryanın yazılı izahatına əsasən bildirdi ki, Stepan Şaumyanın kiçik oğlu Sergey Şaumyan 1947-ci ilin yayında Bakıya gələrək Əzizbəyovun (görkəmli siyasi və elm xadimi Şamil Əzizbəyov nəzərdə tutulur – M.Q.) evində qalmış, faşistlər tərəfindən həbs edilmiş daşnak A.Avakyanla burada, görünür, ermənicə "Kommunist" qəzetinin redaktoru Qriqoryanın (T.Qriqoryan sonralar Azərbaycan K(b)P Dağlıq Qarabağ Vilayət Komitəsinin katibi seçilmişdi – M.Q.) vasitəsi ilə 1947-ci ilin yayında görüşmüş, bu daşnak ilə atası Stepan Şaumyan haqqında kitab yazmaq barədə razılaşmışdır.

M.Bağırov daha sonra dedi ki, azərbaycanlıların Şamaxı, Kürdəmir və b. yerlərdə qırılmasında ad çıxarmış Lalayanın əmisi oğlu G.Xolopov (Georgi Konstantinoviç Xolopyan) Leninqrada getmiş, burada S.M.Kirova həsr edilmiş "Buxtanın işıqları" adlı bir kitab yazmışdır. Azərbaycan tərəfi həmin kitab haqqında rəy yazmış, lakin Mərkəzdə onu başa düşməmişdilər. Nikolay Tixonov "Kultura i jizn" qəzetində dərc etdirdiyi məqaləsində G.Xolopovu gənc yazıçı adlandırmışdı. "Zvezda" jurnalının növbəti nömrələrinin birində dərc ediləcək məqalələrin siyahısında G.Xolopovun "Kirovun həyatının Həştərxan dövrü" məqaləsinin də adı var idi. M.Bağırov sual edirdi: məgər bu daşnakdan başqa Kirov haqqında yaza biləcək bir sovet adamı yoxdurmu? 1918-ci il hadisələrinin doğru yazılmasının vacibliyi üzərində dayanan, Amazasp, Abram Velunç, polkovnik Avetisovun sovet hakimiyyəti uğrunda mübarizə aparmadıqlarını deyən M.Bağırov vurğuladı ki, mən şahidiyəm, təəssüf olsun, bəzi yoldaşların tövsiyəsi ilə mən Amazasp dəstəsinin nümayəndəsi olmuşam və görmüşəm, onlar Qubada nə etmişlər, hələ Şamaxını və b. yerləri demirəm. Baxın, Şahverdiyev, Sumbatov, Novikov S.Şaumyanın heç kimin yanında hörməti olmayan, həm məişət, həm də şəxsi məsələləri çox da qanmayan kiçik oğlu Levonu, onun birinci arvadını xatırlayırlar. Əlavə etdi ki, erməni kilsəsinin yanında Babayan yaşayırdı. Biz 26 komissarın qalıqlarını buraya gətirən kimi, Levonun ilk işi bu varlı adamın qızı ilə evlənmək oldu. Levon bu barədə yazmalı idi. Lakin o, 26-ların güllələnməsinin 30 illiyindəki çıxışında Məşədi Əzizbəyovun adını söyləməmiş, "Literaturnaya qazeta"dakı məqaləsində də onun adını yazmamışdı. Bir zamanlar 15 illik qeyd edilərkən İ.Stalin öz nitqində ilk növbədə Məşədi Əzizbəyovun adını söyləmişdi.

---

[596] Выступление редактора газеты "Коммунист" (на армянском языке) Амирханяна на XVII съезде КП(б) Азербайджана. 28.01.1949. – ARSSA, f.1, siy.35, iş 9, v.400.

Sergey Şaumyanın belə bir zamanda Bakıya gəlməsi təsadüfi deyildi. Bu işi S.Yemelyanov araşdırmışdı. Sergeyin onunla belə bir danışıq aparmasını A.Avakyan inkar etmişdi. G.Xolopovun kitabında da daşnak ifadəsi olmasa da, daşnak təbliğatı var idi.

Daha sonra İ.E.İonesyanın yaxınlarda nəşr edilmiş "XVII əsrdə rus diplomatiyası və erməni məsələsi" adlı kitabı üzərində dayanan M.Bağırov sual etdi:

*"Bu məsələ aktualdırmı? İkincisi, kitabı lazımi qaydada yazmamaq nə üçün gərək idi? Cavabında özü də dedi: xanlar və bəylər xan və feodal olmuşlar, elə də qalırlar. Lakin onların bəziləri bizə faydalı olmuşdur. Məsələn, Qubalı Fətəli xan kimi. O da digər xanlar kimi asmış, güllələmiş, xüsusən, kəndliləri sevməmişdir. Lakin onun iki şeyi bizim üçün əhəmiyyətlidir: Birincisi, farslara qarşı mübarizə aparmışdır. İkincisi, Rusiya meyilli olmuşdur. O, xanlıqların birləşdirilməsi xəttini şəxsən aparmışdır. Birləşmə özü mütərəqqi hal idi. İ.E.İonesyan isə kitabında Fətəli xana monaxların, kilsə xidmətçilərinin və b. dili ilə böhtan atır".*

Levon və Sergey Şaumyanların keçmiş hadisələr haqqında kitab yazmağa haqları olmadığını bildirən M.Bağırov *"məgər Levon Şaumyan Lalayevin qohumu olan G.Xolopovu tanımır, onu nə üçün ifşa etmir"* deyə soruşdu. Əlavə etdi ki, farslar Azərbaycan xalqının olmadığını sübut etmək istəyirlər. Tehranda Xaqani küçəsi var idi. İran hökuməti onun adını dəyişərək, ingilis Braunun adını vermişdir. G.Xolopov bir şey yazır, İran şahı digər şeyi edir. Ancaq məqsəd eynidir. Lakin yanaşma fərqlidir. İranda Fətəli xanı satqın, İran xalqına xəyanət edən şəxs adlandırırlar, İ.E.İonesyan da kitabında onu xəyanətkar adlandırır.

Heydər Hüseynova, Mirzə İbrahimova, xüsusən Səməd Vurğuna və Azərbaycan alimlərinə müraciət edərək belə hallara qarşı mübarizə aparmağın vacibliyini bildirən M.Bağırov birbaşa vurğuladı ki, dağlar, qızılgüllər və s. haqqında yazmağa son vermək vaxtıdır. Axırıncı dəfə "Oqonyok" jurnalında hansısa Azərbaycan şairinin turac haqqında dərc edilmiş şeirini oxuduğunu xatırladaraq dedi: "Turac əlbəttə, yaxşıdır, xüsusilə plovla, ancaq bizdə digər qartal da var, aslan da var. Bunların haqqında da yazmaq lazımdır" [597].

Böyük əhəmiyyət daşıyan bu nitqi ilə M.Bağırov Azərbaycan əleyhinə yönəlmiş fəaliyyətlərin qarşısını almaqda azərbaycanlı ziyalıları ayıq olmağa, milli maraqları qorumağa və tarixin saxtalaşdırılmasına imkan verməməyə çağırırdı. Söylənilən faktlar bir daha göstərirdi ki, Azərbaycanda yüksək vəzifələr tutan bir sıra erməni kommunistləri maskalanaraq əslində daşnak siyasətini davam etdirirdilər.

---

[597] Заключительное выступление М.Багирова на XVII съезде КП(б) Азербайджана. 28.01.1949. – ARSSA, f.1, siy.35, iş 9, v.563-571.

### *Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılmasının 25 illiyinin qeyd edilməsi haqqında qərar*

Qurultaydan bir neçə gün keçmiş Azərbaycan rəhbərliyi əsassız erməni iddialarının qarşısının alınması üçün yeni addımlar atdı. Azərbaycan K(b)P MK Bürosu 1949-cu il fevralın 1-də keçirilən iclasında (protokol №1, §6) Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 25 illiyinin qeyd edilməsi haqqında qərar qəbul etdi[598]. Qərarda yazılırdı ki, Naxçıvan MSSR-in yaradılması Naxçıvan zəhmətkeşlərinin və bütün Azərbaycan xalqının həyatında əlamətdar hadisədir. Ötən 25 ildə Muxtar Respublikada sənaye, kənd təsərrüfatı və mədəniyyət sahəsində inkişaf əldə edilmişdi. İbtidai və orta məktəblərdə 29 min şagird təhsil alırdı. Burada 7 mədəniyyət evi, 62 klub, 22 kitabxana, 2 dövlət teatrı, filarmoniya, 6 kinoteatr, Azərbaycan EA-nın bazası yaradılmışdı. 5 rayon və 1 Muxtar Respublika qəzeti dərc edilirdi.

Bu zaman Naxçıvan MSSR-in ərazisi 5088 kv.km. idi[599]. Muxtar Respublikada 6 rayon – Naxçıvan, Noraşen (indiki Şərur rayonu – M.Q.), Şahbuz, Ordubad, Əbrəqunis (indiki Culfa rayonu ərazisinə qatılmışdır – M.Q.) və Culfa rayonları var idi. Azərbaycanın Naxçıvanda Türkiyə və İran ilə sərhədi 233 km təşkil edirdi. Əgər sovetləşməyə qədər Naxçıvanda 10 məktəb, 32 müəllim (onlardan 2-si qadın), 1800 şagird var idisə, 1949-cu ildə 194 məktəb, 29 min 693 şagird, 1115 müəllim (onlardan 310-u qadın) var idi. Naxçıvanda 27 uşaq bağçası, 3 yetim uşaq evi, muzeylər, kitabxanalar, Müəllimlər İnstitutu, texnikumlar, Elmlər Akademiyasının bazası, 62 kolxoz klubu, 19 xəstəxana və 4 poliklinika tikilmişdi. Sənaye, xüsusən yerli sənaye və mədəniyyət inkişaf etmişdi.

### *M.Bağırovun İ.Stalinə məktubları*

Büro iclasından sonra, 1949-cu il fevralın 2-də İ.Stalinə yazdığı məktubunda M.Bağırov Azərbaycan K(b)P-nin XVII qurultayı haqqında məlumat verdi, məktubuna sənədləri və qurultaydakı yekun nitqini də əlavə edərək göndərdi, ondan vaxt tapıb yekun nitqini oxumasını xahiş etdi, orada vacib məsələlərə toxunduğunu vurğuladı. O, Sergey Şaumyan

---

[598] Заседание Бюро ЦК КП(б) Азербайджана.01.02.1949. О проведении 25-летия Нахичеванской АССР. Протокол № 1.§6. – ARSSA, f.1, siy.35, iş 35, v.18-19.

[599] Секретарь Нахобкома КП(б) Азербайджана Ю.Н.Юсифов, зампредседателя совмина Нахичеванской АССР Рагимов Р.К. Справка о достижениях Нахичеванской Советской Социалистической Республики за 25 лет. – ARSSA, f.1, siy.33, iş 331, v.1-7.

haqqında söylədikləri barədə sovet rəhbərinə məlumat verərək, onun anti-sovet elementlərlə əlaqələrdə dərinə getdiyini ehtimal etdiyini yazır, SSRİ Yazıçılar İttifaqına və digər yaradıcı təşkilatlara Azərbaycan xalqının tarixi, respublika partiya təşkilatının tarixi, Azərbaycan mədəniyyəti, ədəbiyyatı və sənətinə dair məsələlərdə Azərbaycan rəhbərliyinə etinasızlıq göstərməmələrinə, onunla məsləhətləşmələrinə dair göstəriş verməsini xahiş edirdi[600].

1949-cu ilin mart ayının əvvəllərində İ.Stalinə yeni bir məktub göndərən M.Bağırov məlum məsələyə dair 14 sənədi də əlavə etdi. Bu sənədlərin 10-u ermənilərin ölkə daxilində və xaricdə Azərbaycan əleyhinə fəaliyyətləri haqqında idi. M.Bağırov yazırdı ki, daşnaklar son illərdə sovet Ermənistanının ərasizini Azərbaycan SSR (Dağlıq Qarabağ, Naxçıvan MSSR, Kirovabad və b.) və Gürcüstan SSR əraziləri hesabına genişləndirmək üçün xaricdə fəal təbliğat aparır, Azərbaycan və gürcü xalqlarına böhtan atmaqdan çəkinmirlər, Daşnaksütyunun XIV konqresinin qərarları bunu təsdiq edir. O, qeyd edirdi ki, Tehran ermənilərinin “Alik” qəzetinin 1948-ci il 18 və 19 fevral tarixli sayında dərc edilən məqalə, 1948-ci il 14 aprel tarixli sayında “İmmiqrasiya və biz”, 1948-ci il 25 və 26 avqust tarixli 190 və 191-ci saylarında “Naxçıvanın Ermənistan üçün əhəmiyyəti” adlı məqalələri, nəhayət, “Alik” qəzetinin 1949-cu il yanvarın 25 və 27-də daşnak lideri Vraçyan haqqında məqalənin dərci bunu sübut edir. Amerikalıların və ingilislərin sovet Azərbaycanının Cənubi Azərbaycana təsirinin artmasından narahat olduqlarını yazan M.Bağırov İranın bütün zəhmətkeşlərinin Azərbaycan SSR-ə arxa kimi baxdıqlarını vurğulayır, bunun sübutu kimi İran Xalq Partiyasının orqanı olan “Mərdom” qəzetində 1949-cu il fevralın 3-də dərc edilmiş “Azərbaycan – bizim xalqın mübarizəsinin ön barrikadasıdır” adlı məqaləsini göstərirdi. M.Bağırov bütün bunlarla yanaşı, son illərdə Ermənistanda Cənubi Qafqazda, xüsusən Azərbaycanda baş verən hadisələrə həsr edilmiş bəzi kitab və məqalələrin çapının həyəcan doğurduğunu yazırdı. Həmin kitab və məqalələrin müəllifləri səlahiyyətli, obyektiv deyil, şübhəli idilər. Onların böhtan və təxribatları mahiyyətinə görə daşnak cızma-qaraları ilə üst-üstə düşürdü. Bunlarla bağlı olaraq Azərbaycan tərəfi SSRİ Yazıçılar İttifaqına və MK-ya müraciət də etmişdi. M.Şaginyanın “Sovet Zaqafqaziyası” adlı kitabı haqqında M.Bağırov hələ 1947-ci il iyulun 21-də MK katibi A.A.Jdanova bir məktub da göndərmiş, G.Xolopovun “Buxtada işıqlar” kitabı haqqında 1948-ci il sentyabrın 30-da G.M.Malenkova müraciət etmişdi. Lakin Mərkəz buna lazımi reaksiya verməmişdi. M.Bağırov qeyd edirdi ki, görünür, yoldaşlar

---

[600] Письмо секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова И.В.Сталину. 02.02.1949. №49. – ARSSA, f.1, siy.35, iş 127, v.11-13.

bizi anlamamışlar. Eyni zamanda "Oqonyok" jurnalında və "Literaturnaya qazeta" da yaxşı olmayan məqalələr dərc edilmişdi. M.Bağırov yazırdı ki, qardaş Azərbaycan və erməni xalqları arasında satqınları ifşa edən kitablar yazılmamışdır, bəzi müəlliflər şübhəli mənbələrdən, guya insanların xatirələrindən istifadə edirlər, belə kitablarda isə hadisə və faktlar təhrif edilir. O, Levon Şaumyanın "Literaturnaya qazeta" və "Oqonyok" jurnalında dərc etdirdiyi məqalələrində 1918-ci il hadisələrindən yazarkən onu saxtalaşdırdığını və tarixi həqiqətləri təhrif etdiyini bildirirdi. Yazırdı ki, bu məsələlərdə Azərbaycan K(b)P Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibi Tiqran Qriqoryan ideoloji səhvlərə yol vermişdir[601].

Qurultaydakı çıxışındakı məsələləri İ.Stalinin diqqətinə çatdıran M.Bağırov zərərli baxışların M.Şaginyanın "Sovet Zaqafqaziyası" adlı əsərində də olduğunu qeyd edirdi. O, məktubunun sonunda yazırdı:

*"Yaranmış bir çox incə məqamın həllində Sizdən başqa heç kim bizə kömək edə bilməz, buna görə də yenidən Sizə müraciət edirəm ki, bu işin qaydaya salınmasına yardım edəsiniz"* [602].

Bu məktub erməni fəaliyyətlərinin ölkə maraqları və xalqlar arasında dostluq üçün nə qədər təhlükəli olduğundan xəbər verirdi. Ona görə də M.Bağırovun fikrincə, yaranmış vəziyyət qəti qərarların qəbul olunmasını tələb edirdi.

## *M.Bağırovun A.Mikoyana məktubu*

İ.Stalinə müraciət etməklə kifayətlənməyən M.Bağırov 1949-cu il martın 25-də SSRİ Nazirlər Soveti sədrinin müavini Anastas Mikoyana da bir məktub və məktuba əlavə olaraq Daşnaksütyunun XIV qurultayının direktivlərini, "Alik" qəzetində 1948-ci il fevralın 18 və 19-da dərc olunmuş "Bizim siyasi vəziyyətimiz və qarşıdakı fəaliyyət", 1948-ci il aprelin 14-də dərc edilmiş "İmmiqrasiya və biz", 1948-ci il 25 və 26 avqust tarixli 190-191-ci nömrələrindəki "Naxçıvanın Ermənistan üçün əhəmiyyəti" məqalələrini, qəzetin 1949-cu il yanvarın 25-27-də daşnak lideri Vraçyan haqqında dərc etdiyi arayışı, H.Hastelin layihəsini, amerikan kəşfiyyatı ilə əlaqədə şübhəli bilinərək həbs edilən Z.M.Suvaryan haqqında arayışı, "Azərbaycan – bizim xalqın mübarizəsinin ön barrikadasıdır" məqaləsini, M.Şaginyanın "Sovet Zaqafqaziyası" adlı kitabına dair məktubu, G.Xolo-

---

[601] М.Д.Багиров. Отчетный доклад ЦК КП(б) Азербайджана. Стенограмма. 25-28.01.1949. – ARSSA, f.1, siy.35, iş 9, v. 75,55.

[602] Секретарь ЦК КП(б) Азербайджана М.Д.Багиров – тов.Сталину И.В. Март 1949 г. – ARSSA, f.1, siy.35, iş 78, v.3-5; f.1, siy. 35, iş 127, v.92-94.

povun "Buxtada işıqlar" kitabı haqqında məktubu və A.A.Avakyan barəsində arayışı göndərdi[603].

A.Mikoyana "sən" deyərək müraciət etdiyi məktubunda M.Bağırov Azərbaycanda və ondan kənarda antisovet qüvvələrin fəaliyyətindən söz açır, daşnakların sovet Ermənistanının hər şeydən əvvəl, sovet Azərbaycanı və sovet Gürcüstanı hesabına ərazilərini artırmaq istəyinin xüsusi yer tutduğunu yazırdı. Bundan sonra M.Bağırov İ.Stalinə təqdim etdiyi konkret faktları A.Mikoyan üçün də sadalayırdı. Azərbaycan rəhbərinin fikrincə, daşnakların tələbləri adi tələblər deyildi, onlar xarici qüvvələrin köməyi ilə öz agentlərini gətirilən ermənilərin simasında praktik iş üçün göndərirdlər. Bununla bağlı olaraq, məktubda konkret faktlar, o cümlədən Z.M.Suvaryanın fəaliyyəti qeyd edilirdi. M.Bağırov Stepan Şaumyanın oğullarının davranışlarının yolverilməz olduğunu, Levon Şaumyanın "Literaturnaya qazeta" və "Oqonyok"da dərc olunmuş məqalələrində kifayət qədər şübhəli çıxışlar etdiyini, M.Əzizbəyov haqqında şəxsi fikirlərini və Sergey Şaumyanın Bakıda olarkən Azərbaycan K(b)P MK-dan xəbərsiz hansısa A.Avakyan ilə görüşərək atası haqqında kitab yazdırmaq üçün danışıqlar apardığını qeyd edir, A.Mikoyandan məşğul olmasına baxmayaraq, göndərdiyi bütün sənədlərə baxmasını xahiş edirdi[604].

M.Bağırov yazırdı ki, 1882-ci ildə Qarakənddə doğulan, törətdiyi əməllərə görə repressiya olunacağından qorxaraq 1913-cü ildə ABŞ-a qaçan Z.M.Suvaryan 1916-1920-ci illərdə Daşnaksütyunun üzvü olmuşdur. Yazıçı Avetik İsaakyanın himayəsi ilə DQMV-nin Martuni rayonunda Qarakənd kəndində yerləşən Z.M.Suvaryan Cənubi Qafqazı şəxsi maşını ilə gəzərək keçmiş tanışları ilə görüşmüş və demişdi ki, mən qarabağlıyam və Qarabağa gedirəm, gəlmişəm ki, "Böyük Ermənistan" olsun. Qarabağın Ermənistana birləşdirilməsi haqqında referendum keçirəcəyəm. Vurğulamışdı ki, Qarabağ Ermənistandan yaxşı, gözəl bir ölkədir. O, Bakıda erməni dilində nəşr edilən "Kommunist" qəzetinin baş redaktoru Tiqran Qriqoryan ilə onun mənzilində görüşmüş, masa arxasında Azərbaycan SSR təhsil nazirinin müavini Barxudaryan və yazıçı Mark Davtyan ilə tanış olmuşdu. T.Qriqoryan Azərbaycan K(b)P Dağlıq Qarabağ Vilayət Komitəsinin birinci katibi seçildikdən sonra Z.M.Suvaryan onunla əlaqə saxlamış və himayəsinə keçmişdi. Z.M.Suvaryan şəxsi maşını ilə Yerevana gedərək yazıçı Avetik İsakyanı DQMV-yə gətirmiş

---

603 Опись материалов, приложенных к письму т. Микояна А.И. – ARSSA, f. 1, siy. 35, iş 78, v.64.

604 Письмо М.Багирова А.Микояну. 25.03.1949. – ARSSA, f.1, siy.35, iş 78, v.65-68; f.1, siy.35, iş 127, v.95-98.

və vilayətin Ermənistana birləşdirilməsi haqqında kəndlərdə əhali ilə söhbət etmişdi[605].

Ermənistan SSR DTN-nin 2-ci şöbəsinin rəis müavini mayor Stepanyan və 1-ci şöbənin 2-ci bölməsinin rəisi mayor Krxambarov 1948-ci il 26 iyul tarixli 3/4420 №-li məktubunda Azərbaycan SSR DQMV üzrə DTN-nin Martuni rayon şöbəsinin rəisi mayor Sevumova yazırdılar ki, Suvaryan "Papik" kod adlı agent ilə söhbətində "Böyük Ermənistan"ın olması, Qarabağın Ermənistana birləşdirilməsi haqqında və yuxarıda qeyd edilən digər fikirlərini bildirmişdir. Nyu Yorkda dərc edilən "Lraber" qəzetinin baş redaktoru Patrik Selen onu "mütərəqqi adam" kimi qiymətləndirmişdi[606].

S.Şaumyan haqqında kitab yazmaq istəyən A.A.Avakyan isə millətçi erməni ziyalılarının təsiri altında idi. Ermənistan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alan bu adam Stepanakertdə ikiillik müəllimlər institunda pedaqogika və psixologiya müəllimi işləyirdi. Qatı millətçi olaraq tələbələr və müəllimlər arasında düşmənçilik təbliğatı aparırdı. Stepan Şaumyanın oğlu 1947-ci ildə Bakıda olarkən atası haqqında kitab yazmağı ona təklif etmişdi. 1948-ci il noyabrın 2-də həbs edilən A.A.Avakyan sonralar Ermənistandan qovuldu[607].

M.Bağırovun İ.Stalin ilə yanaşı A.Mikoyana da məktub göndərməsi səbəbsiz deyildi. Bununla o, A.Mikoyanın təsirinin böyük olduğu Ermənistan SSR rəhbərliyinin idarəçiliyi altında respublikada nələrin baş verdiyini onun diqqətinə çatdırır, dolayısı yolla həmin işlərdə iştirakçı olduğuna işarə vurur, baş verən proseslərin qarşısının alınmasının vacibliyini vurğulayır, əks-təqdirdə acı nəticələri olacağına dair xəbərdarlıq edirdi.

### *Naxçıvan MSSR-in 25 illiyinin bayram edilməsi*

Azərbaycan tərəfi məktublar göndərməklə kifayətlənmədi. Digər addımlar da atdı. Azərbaycan K(b)P MK Bürosu 1949-cu il 30 mart tarixli iclasında (№12, 4-cü bənd) Naxçıvan MSSR-in 25 illiyinə hazırlıq və

---

[605] Министр госбезопасности Азерб. ССР генерал-майор Емельянов. Справка на арестованного МГБ Азерб.ССР по подозрению в причастности к американским разведывательным органам Суваряна Захара Мусаевича. 23.02.1949. – ARSSA, f.1, siy.35, iş 161, v.119-121.

[606] Зам. нач. 2 отд. МГБ Арм. ССР майор Степанян, нач. 1отд. 2 отдела МГБ Арм.ССР майор Крхамбаров – начальнику Мартунинского РО МГБ Нагорно-Карабахской Автономной области Азербайджанской ССР майору Севумову. 26.07.1948. №3/4420. Сов.секретно. – ARSSA, f.1, siy. 35, iş 161, v.122.

[607] Справка на Авакяна Артавазда Александровича. 25.03.1949. – ARSSA, f.1, siy. 35, iş 161, v. 148-151.

keçirtmək haqqında əlavə qərar qəbul etdi[608]. Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevin sədrliyi altında komissiya yaradıldı.

Yubiley münasibəti ilə Naxçıvanın qabaqcıl zəhmətkeşləri, elm və mədəniyyət xadimləri SSRİ Ali Soveti Rəyasət Heyətinin 1949-cu il 27 may tarixli fərmanı ilə dövlətin yüksək orden və medalları ilə təltif edildilər. Təltif edilənlər arasında Azərbaycan SSR Nazirlər Soveti yanında Naxçıvan MSSR DTN 5-ci bölməsinin rəisi, baş leytenant Heydər Əliyev də var idi. O, Əmək igidliyinə görə medalına layiq görülmüşdü[609].

May ayının 28-də "Kommunist" qəzetində Naxçıvan MSSR-in 25 illiyinə həsr olunmuş bir məqalə dərc edildi. Məqalədə 25 il ərzində Muxtar Respublikanın misilsiz dərəcədə tərəqqi edərək ölkənin gözəl diyarlarından birinə çevrildiyi, mədəniyyət, sənaye və kənd təsərrüfatının inkişaf etdiyi, Şərqin qapısında qüdrətli və qabaqcıl bir diyara çevrildiyi vurğulanırdı. Ötən illər ərzində Muxtar Respublikada şəhərlərin siması tamamilə dəyişmiş, onun duzu, ipəyi və konservi bütün ölkədə şöhrət qazanmışdı[610].

Bayram münasibəti ilə SSRİ Nazirlər Soveti və ÜİK(b)P MK mayın 28-də Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinə təbrik məktubu göndərdilər. Məktubda vurğulanırdı ki, öz varlığının 25 ili ərzində Naxçıvan MSSR keçmiş çar Rusiyasının geridə və qaranlıqda qalmış ucqarı olan bir ölkədən çiçəklənən muxtar respublikaya çevrilmişdir. Respublikada yeni sənaye sahələri yaradılmış, fabriklər, zavodlar, mədənlər və elektrik stansiyaları tikilmişdir. Kənd təsərrüfatı tamamilə dəyişmiş, əhali arasında savadsızlıq aradan qaldırılmışdır. Məktubda Naxçıvan zəhmətkeşlərinin alman-faşist işğalçılarına qarşı mübarizədə və arxa cəbhədə qəhrəmanlıqlar göstərdikləri vurğulanırdı[611].

SSRİ Ali Sovetinin Rəyasət Heyəti də may ayının 28-də təbrik məktubu göndərdi. Məktubda ötən 25 ildə qazanılan uğurlar, xüsusilə çoxlu məktəb binalarının tikildiyi, Müəllimlər İnstitutunun, Kənd Təsərrüfatı və

---

[608] Заседание Бюро ЦК КП (б) Азербайджана. 30.III.1949, №12, п.4. – ARSSA, f.1, siy.35, iş 43, v.74-75.

[609] Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının kənd təsərrüfatı, sənaye, elm, mədəniyyət və incəsənət işçilərinin orden və medallarla təltif edilməsi. – "Kommunist" qəz., Bakı, 28.05.1949, №103(8059); 31.05.1949, №105(8061); №106(8062).

[610] Lenin – Stalin partiyasının bayrağı altında. –"Kommunist" qəz., Bakı, 28.05.1949, №103(8059).

[611] SSRİ Nazirlər Soveti və ÜİK(b)P MK-nın Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinə təbrik məktubu. –"Kommunist" qəz., Bakı, 28.05.1949, №103(8059); Газ. "Заря Востока", Тбилиси, 28.05.1949, №103(7514).

Tibb texnikumlarının, Pedaqoji və Musiqi məktəblərinin, teatr, xeyli sayda klub və kitabxanaların, müalicə ocaqlarının açıldığı vurğulanırdı[612].

Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti, Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K(b)P MK da həmin tarixdə Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinə təbrik məktubu göndərdilər. Məktubda 25 ildə Naxçıvan MSSR-in iqtisadiyyat, sənaye, kənd təsərrüfatı və mədəniyyət sahəsində qazandığı uğurlar, Azərbaycan SSR Elmlər Akademiyasının bazasının yaradıldığı və s. qeyd edlirdi[613].

Yubiley münasibəti ilə "Kommunist" qəzetində Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri C.Məmmədovun məqaləsi dərc edildi. Məqalədə Naxçıvanın mövcud vəziyyəti inqilabdan əvvəlki dövrlərlə müqayisə edilir, 25 ildə keçilən yola, qazanılan uğurlara nəzər salınırdı. Müəllif yazırdı:

*"Sovet Naxçıvanı vətənimizin sərhədlərində işıqlı sosializm mayakıdır və onun müvəffəqiyyəti Arazın o tayında yaşayan, öz azadlığı və demokratiya uğrunda İran irticaçılarına qarşı... mübarizə aparan qardaşlarımızı – azərbaycanlıları ruhlandırır"* [614].

May ayının 28-də Naxçıvan zəhmətkeşləri sovet rəhbəri İ.V.Stalinə bir məktub göndərdilər. Məktubda muxtar respublikanın 25 il ərzində keçdiyi yola nəzər salınır, müharibədə qələbə qazanılmasında Muxtar Respublika zəhmətkeşlərinin ön və arxa cəbhələrdəki fədakarlıqları xatırlanırdı[615].

"Kommunist" qəzetinin 28 may tarixli sayında yubiley münasibəti ilə həmçinin "Qəhrəmanlar" adlı məqalə, İslam Səfərlinin "Naxçıvan" şeiri dərc edildi.

Mayın 28-də Naxçıvan MSSR Ali Sovetinin yubiley sessiyası keçirildi. Axşam saat 7-də öz işinə başlayan sessiya iclasının rəyasət heyətində Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev, Azərbaycan K(b)P MK katibi H.Həsənov, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi S.Cəfərov, SSRİ Ali Soveti Millətlər Soveti sədrinin müavini Çimnaz

---

[612] SSRİ Ali Soveti Rəyasət Heyətinin Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə təbrik məktubu. – "Kommunist" qəz., Bakı, 28.05.1949, №103(8059); Газ. "Заря Востока", Тбилиси, 28.05.1949, №103(7514).

[613] Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin, Azərbaycan SSR Nazirlər Sovetinin, Azərbaycan K(b)P MK-nın Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinə təbrik məktubu. –"Kommunist" qəz., Bakı, 28.05.1949, №103(8059).

[614] Məmmədov C. Naxçıvan MSSR-in 25 illiyi. –"Kommunist" qəz., Bakı, 28.05.1949, №103(8059.

[615] Naxçıvan MSSR kolxozçuları, fəhlələri və ziyalılarının İ.V.Stalinə məktubu. – "Kommunist" qəz., Bakı, 28.05.1949, №103(8059).

Aslanova, Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin katibi Y.Yusifov, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri C.Məmmədov, Muxtar Dağlıq Qarabağ Vilayəti İcraiyyə Komitəsinin sədri E.Akopov, Dağıstan MSSR ictimai təminat naziri V.Sarkiyev və b. oturmuşdular.

Sessiya iclasını Naxçıvan MSSR Ali Sovetinin sədri Vəliyev açdı. Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinin katibi Y.Yusifov Muxtar Vilayətin 25 illiyi haqqında məruzə etdi. Sonra Azərbaycan SSR Nazirlər Sovetinin sədri Teymur Quliyev çıxış etdi. Ondan sonra təbrik çıxışı edən Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin sədri M.Papyan bildirdi:

*"Qardaş Ermənistan zəhmətkeşləri Naxçıvan Muxtar Respublikasına hədiyyə olaraq bir su elektrik stansiyası göndərmişlər*".

Muxtar Dağlıq Qarabağ Vilayət Zəhmətkeş Deputatları Sovetinin sədri E.Akopov da təbrik çıxışı etdi və "Dağlıq Qarabağ zəhmətkeşlərinin qardaşcasına dostluğu əlaməti olaraq" Qarabağ xalçaçıları tərəfindən toxunmuş böyük bir xalça hədiyyə verdi. Yubiley sessiyası başa çatdıqdan sonra konsert oldu[616].

Yubiley münasibəti ilə mayın 29-da Gürcüstan SSR Ali Sovetinin Rəyasət Heyəti, Gürcüstan SSR Nazirlər Soveti və Gürcüstan K(b)P MK Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə, Naxçıvan MSSR Nazirlər Sovetinə və Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinə təbrik məktubu göndərdilər. Məktubda vurğulanırdı ki, Naxçıvan zəhmətkeşlərinin müvəffəqiyyətləri Arazın o tayında zəhmətkeş kütlələrin amansız istismar edildiyi, aclıq, terror və dilənçiliyin hökm sürdüyü nəzərə alınarkən xüsusi ilə gözəl diqqətə çarpır[617].

Təbrik məktubunu, həmçinin Ermənistan SSR Ali Sovetinin Rəyasət Heyəti, Ermənistan SSR Nazirlər Soveti və Ermənistan K(b)P MK da göndərmişdilər. Məktubda yazılırdı:

*"Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan MSSR 25 il ərzində şanlı yol keçmişdir... Naxçıvan MSSR xalqı ilə əsrlərdən bəri qardaşcasına dost erməni xalqı respublikanın müvəffəqiyyət və qələbələri ilə fəxr edir"* [618].

---

[616] Naxçıvan MSSR Ali Sovetinin yubiley sessiyası. –"Kommunist" qəz., Bakı, 29.05.1949, №104(8060).

[617] Gürcüstan SSR Ali Soveti Rəyasət Heyətinin, Gürcüstan SSR Nazirlər Sovetinin və Gürcüstan K(b)P MK-nın Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinə təbrik məktubu. –"Kommunist" qəz., Bakı, 29.05.1949, №104(8060).

[618] Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin, Ermənistan SSR Nazirlər Sovetinin və Ermənistan K(b)P MK-nın Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinə təbrik məktubu. –"Kommunist" qəz., Bakı, 29.05.1949, №104(8060).

Yubiley münasibəti ilə Zaqafqaziya hərbi dairəsinin komandanlığı da Muxtar Respublika rəhbərlərinə təbrik məktubu göndərdi[619].

Mayın 29-da Naxçıvan şəhərində zəhmətkeşlərin bayram nümayişi keçirildi. Nümayişdən sonra, axşam Naxçıvan MSSR Nazirlər Soveti və Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsi M.C.Bağırov adına mədəniyyət evində qəbul təşkil etdi. Qəbulda yubiley şənliklərinə gəlmiş qonaqlar, Naxçıvanın qabaqcıl zəhmətkeşləri, elm, mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər[620]. Qəbulda maraqlı bir konsert oldu.

Naxçıvan MSSR-in yaradılmasının 25 illiyinin qeyd edilməsinin böyük tarixi əhəmiyyəti var idi. Bu, Azərbaycanın qədim yurduna əsassız iddia edənlərə qəti bir cavab idi. Onlar bədbinliyə və ağır böhrana düşürdülər. Bayram tədbirləri Naxçıvan sakinlərinin, bütövlükdə Azərbaycan xalqının özünəinamını və ruhunu yüksəldirdi. Yubileydə müxtəlif respublikalardan nümayəndələrin iştirak etməsi Cənubi Qafqaz xalqları arasında dostluğun və mehriban qonşuluğun nə qədər faydalı, daşnak fəaliyyətlərinin isə ziyanlı olduğunu göstərirdi.

### *Sovet rəhbərliyinin tədbirləri*

Ölkəyə gətirilən ermənilərin təxribatçılıq hərəkətləri və Qərb dövlətlərinin onlardan agentura və daxildə milli nifaqı qızışdırmaq məqsədləri üçün istifadə etməsi SSRİ rəhbərliyini müəyyən qərarlar qəbul etməyə vadar etdi. 1949-cu ilin əvvəllərində ermənilərin Ermənistana gətirilməsi dayandırıldı. Ermənilərin gətirilməsi ilə etdiyi səhvi başa düşən sovet rəhbərliyi qəti addımlar atdı. 1949-cu il aprelin 4-də Vaşinqtonda, məqsədi Avropanı sovet təsirindən qorumaq olan NATO-nun yaradılması haqqında pakt imzalanan gün, 1949-cu il aprelin 4-də ÜK(b)P MK Siyasi Bürosu "Ermənistan SSR və Azərbaycan SSR ərazilərində yaşayan daşnakların sürgün edilməsi haqqında" 126 saylı qərar qəbul etdi[621]. Qərarda yazılırdı:

---

[619] Zaqafqaziya hərbi dairəsi qoşunları komandanı vəzifəsini müvəqqəti icra edən ordu generalı Antonovun, qərargah rəisi qvardiya general-polkovniki Kuzakovun, siyasi idarə rəisinin müavini polkovnik Maisyanın Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, Azərbaycan K(b)P Naxçıvan Vilayət Komitəsinə təbrik məktubu. – "Kommunist" qəz., Bakı, 29.05.1949, №104(8060).

[620] Naxçıvan zəhmətkeşlərinin bayram nümayişi. –"Kommunist" qəz., Bakı, 29.05.1949, №104(8060).

[621] Решение Политбюро ЦК ВКП(б) о выселении дашнаков, проживающих в Армянской и Азербайджанской ССР. 04.04.1949. №126. – РГАСПИ, ф. 17, оп.162, д.40, л.140-141.

*“Ermənistan və Azərbaycan SSR-i siyasi baxımdan etibarsız elementlərdən təmizləmək məqsədi ilə ÜİK(b)P MK Siyasi Bürosu qərara alır: 1. SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinə (Abakumov yoldaşa) Ermənistan və Azərbaycan SSR-də yaşayan daşnakları Daxili İşlər Nazirliyi orqanlarının nəzarəti altında əbədi olaraq Altay diyarına sürgün etmək tapşırılsın. 2. Sürgün edilənlərə özləri ilə onlara məxsus olan qiymətli şeyləri, ev əşyalarını (geyim, qab-qacaq, kiçik kənd təsərrüfatı, sənətkarlıq və ev invertarlarını) və ailə başına ümumi çəkisi 1000 kiloqrama qədər ərzaq ehtiyatı götürməyə icazə verilsin. 3. SSRİ Daxili İşlər Nazirliyinə (Kruqlov yoldaşa) sürgün edilənlərin konvoyla, dəmiryolu ilə daşınması və Altay diyarında yeni məskunlaşma yerində onların üzərində nəzarəti təmin, qaçmaq imkanlarını istisna, həmçinin onların yerləşməsini və işə düzəldilməsini təmin etmək tapşırılsın”.*

Daşnakların Ermənistan və Azərbaycan SSR-dən sürgün edilmələri müsbət olsa da, onlar əslində uzaq bir türk diyarına – Altaya sürgün edilirdilər. Bununla sovet rəhbərliyi həmin diyarda əhalinin etnik tərkibinin dəyişdirilməsi üçün özünəməxsus bir addım atırdı.

Qeyd etmək lazımdır ki, elə həmin tarixdə – aprelin 4-də ÜİK(b)P MK Siyasi Bürosu Qara dəniz sahillərində və Cənubi Qafqazda yaşayan Türkiyə vətəndaşlarının, vətəndaşlığı olmayan türklərin və sovet vətəndaşlığını qəbul etmiş keçmiş türk vətəndaşlarının Tomsk vilayətinə əbədi sürgün edilmələri haqqında 127 saylı qərar qəbul etdi. Qərarda yazılırdı:

*“1. SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinə (Abakumov yoldaşa) Qara dəniz sahillərində və Zaqafqaziyada yaşayan bütün türk vətəndaşlarını, vətəndaşlığı olmayan türkləri və sovet vətəndaşlığını qəbul etmiş keçmiş Türkiyə vətəndaşlarını Daxili İşlər Nazirliyi orqanlarının nəzarəti altında əbədi olaraq Tomsk vilayətinə sürgün etmək tapşırılsın. 2. Sürgün edilənlərə özləri ilə onlara məxsus qiymətli şeylərini, ev əşyalarını (geyim, qab-qacaq, kiçik kənd təsərrüfatı, sənətkarlıq və ev invertarlarını) və ailə başına 1000 kiloqramadək ərzaq ehtiyatı götürməyə icazə verilsin. 3. SSRİ Daxili İşlər Nazirliyinə (Kruqlov yoldaşa) sürgün edilənlərin konvoyla, dəmiryolu ilə daşınması və Tomsk vilayətində yeni məskunlaşma yerində onların üzərində nəzarəti təmin, qaçmaq imkanlarını istisna, həmçinin onların yerləşməsini və işə düzəlməsini təmin etmək tapşırılsın”* [622].

Bu qərar strateji bir niyyət güdürdü. Sovet rəhbərliyi Qara dəniz sahillərini və Cənubi Qafqazı türklərdən təmizləmək və Türkiyə ilə sərhəd

---

[622] Решение Политбюро ЦК ВКП(Б) о выселении турецких граждан, турок не имеющих гражданства и бывших турецких граждан, принятых в советское гражданство проживающих на Черноморском побережье и в Закавказье. 04.04.1949. №127. – РГАСПИ, ф.17, оп. 162, д.40, л.141.

rayonlarına "etibarlı ünsürləri" yerləşdirməklə Qərb ölkələrinin Türkiyə vasitəsi ilə regiona yaxınlaşmasının qarşısını almağa çalışırdı. Bununla da ərazilərin tarixi və etno-mədəni mənsubiyyəti itirilirdi.

Belə bir şəraitdə Gürcüstan K(b)P MK ÜİK(b)P MK-ya müraciət edərək respublika ərazisindən 650 ailədən ibarət 1950 nəfər daşnakın sürgün edilməsini xahiş etdi. Müraciətə baxan ÜİK(b)P MK Siyasi Bürosu 1949-cu il aprelin 11-də 180 №-li qərar qəbul etdi. Qərarda yazılırdı:

*"Gürcüstan SSR-i siyasi baxımdan etibarsız elementlərdən təmizləmək məqsədi ilə ÜİK(b)P MK Siyasi Bürosu qərara alır: 1. Gürcüstan K(b)P MK-nın respublika ərazisindən 650 ailədən ibarət 1950 nəfər daşnakın sürgün edilməsi haqqında təklifi qəbul edilsin. 2. SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinə (Abakumov yoldaşa) Gürcüstan SSR-də yaşayan daşnakları Daxili İşlər Nazirliyi orqanlarının nəzarəti altında əbədi olaraq Altay diyarında məskunlaşdırmaq üçün sürgün etmək tapşırılsın. 3. Sürgün edilənlərə özləri ilə onlara məxsus olan şəxsi qiymətli şeylərini, ev əşyalarını (geyim, qab-qacaq, kiçik kənd təsərrüfatı, sənətkarlıq və ev invertarlarını) və ailə başına ümumi çəkisi 1000 kiloqramadək ərzaq ehtiyatı götürməyə icazə verilsin. 4. SSRİ Daxili İşlər Nazirliyinə (Kruqlov yaldaşa) sürgün edilənlərin konvoyla, dəmiryolu ilə daşınması və Altay diyarında yeni məskunlaşma yerində onların üzərində nəzarəti təmin, qaçmaq imkanlarını istisna, həmçinin onların yerləşməsini və işə düzəlmələrini təmin etmək tapşırılsın"* [623].

Sovet rəhbərliyi həyata keçirtdiyi belə tədbirlərin əhatə dairəsini daha genişləndirərək yunanlara da aid etdi. ÜİK(b)P MK Siyasi Bürosu 1949-cu il 17 may tarixində Qara dəniz sahillərindən – Krım, Xerson, Nikolayev, Odessa və İsmail vilayətindən yunanların Krasnodar diyarına, Gürcüstan və Azərbaycandan isə daimi olaraq Qazaxıstan SSR-in Cambul vilayətinə sürgün edilməsi haqqında 37 saylı qərar qəbul etdi[624].

Yuxarıda qeyd olunan hər üç qərarın qəbul edilməsinə təsir edən başlıca amillər Türkiyə və Yunanıstanın Trumen doktrinasına əsasən yardımlar alması, ABŞ-ın və digər Qərb ölkələrinin Türkiyə ərazisi vasitəsi ilə Cənubi Qafqaza yaxınlaşması və 1949-cu ildə NATO blokunun yaradılması idi. Həmin qərarların qəbul edilməsi ilə paralel olaraq sovet mətbuatında Türkiyə əleyhinə dərc edilən məqalələrin də sayı artdı. Belə ki, jurnalist

---

[623] Решение Политбюро ЦК ВКП(Б) о выселении дашнаков, проживающих в Грузинской ССР. 11.04.1949. №180. – РГАСПИ, ф.17, оп. 162, д.40, л.144.

[624] Решение Политбюро ЦК ВКП(Б) о выселении греческих подданных, не имеющих в настоящее время гражданства и бывших греческих подданных, принятых в советское гражданство. 17.05.1949. №37. – РГАСПИ, ф.17, оп. 162, д.40, л.185.

İ.Ruxadzenin “Novoe vremya” jurnalının 1949-cu il 27-ci sayında dərc edilmiş “İndiki Türkiyədə (Jurnalistin qeydləri)” adlı məqaləsi Bakıda Azərbaycan dilində nəşr edilən “Kommunist” qəzetinin 19, 20 iyul tarixli saylarında dərc olundu[625]. Türkiyəni SSRİ-yə düşmən obrazında təqdim edən məqalənin məqsədi bu ölkəyə qarşı nifrət hissi aşılamaqdan ibarət idi. Buna bənzər yazılar Ermənistanda və xarici ölkələrdə çap edilən elmi jurnallarda və məcmuələrdə dərc olunur və hətta Türkiyəyə də gətirilirdi.

### *Türkiyə hökumətinin saxta erməni təbliğatına qarşı tədbirləri*

Ermənistanda ermənicə “Sovet Ermənistanı” adlı jurnal və Fransada Erməni Milli Cəbhəsi tərəfindən nəşr edilən “1920-1945-ci illərdə sovet Ermənistanı” adlı məcmuədə Türkiyəyə qarşı ərazi iddiaları irəli sürülürdü. Ona görə də hökumətin 1949-cu il 17 fevral tarixli iclasında Türkiyə Daxili İşlər Nazirliyinin 1949-cu il 17 fevral tarixli 91116/27-11/7599 saylı məktubuna əsasən həmin nəşrlərin ölkəyə gətirilməsinin qadağan edilməsinə və artıq yayılanların toplanmasına dair qərar qəbul edildi[626].

Beyrutdakı ermənilər də antitürk fəaliyyətlərini davam etdirirdilər. Onlar hətta müxtəlif fotoqrafları Türkiyəyə gətirərək yayırdılar. Bunun qarşısını almaq üçün hökumət 10 oktyabr tarixli iclasında Daxili İşlər Nazirliyinin 1950-ci il 4 oktyabr tarixli 12272-1842/50741 saylı məktubuna əsasən həmin fotoqrafların ölkəyə gətirilməsinin qadağan edilməsi, yayılanların isə toplanması haqqında qərar qəbul etdi[627].

Daşnaklar təkcə Türkiyəyə qarşı əsassız iddialarla çıxış etmirdilər. Onlar eyni zamanda SSRİ əleyhinə fəaliyyətlərdə Qərb ölkələrinin əlində bir alətə çevrilmişdilər.

Bu zaman bəzi hallarda hətta Türkiyə ərazisindən də istifadə edilirdi. Soyuq müharibənin kəskinləşdiyi bir şəraitdə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi daşnakların bu ölkəyə qarşı deyil, sovetlər əleyhinə fəaliyyətinə kömək edir, onları təşkilatlandırır və istiqamətləndirirdi. Hətta Suriya və Livanda erməni terrorçuları hazırlanırdı. Əsas məqsəd SSRİ-yə dair kəşfiyyat materialları toplamaq, sovet quruluşundan narazı olan elementləri üzə çıxartmaq, sabotaj yaratmaq, gizli təşkilatlar qurmaq, milli münasibətləri kəskinləşdirmək və s. idi. Heç əbəs deyildir ki, Dro Ankaraya gələrək riyakarlıqla bildirmişdi ki, nə qədər kommunizm vardır, daşnaklar Türkiyəyə qarşı iddialar irəli sürməyəcəklər.

---

[625] Ruxadze İ. İndiki Türkiyədə (Jurnalistin qeydləri) . – “Kommunist” qəz., Bakı, 19.07.1949, №140(8096); 20.07.1949, №141(8097).

[626] T.C. BCA. 030.18.01.02.118.100.18.

[627] T.C. BCA. 030. 18. 01.02. 123.98.14.

Daşnaklar həm də sovet xarici kəşfiyyatı ilə bağlı olduqlarından SSRİ rəhbərliyi onların fəaliyyətləri haqqında məlumatları zamanında ala bilirdi. Belə ki, SSRİ DTN Daşnaksütyunun xarici bürosunun üzvü Dronun 1950-ci ilin aprel ayında Ankarada olması barədə məlumat əldə etmişdi. DTN 5-ci idarəsinin rəisi polkovnik Volkovun və 5-ci idarənin 2 bölməsinin rəisi polkovnik Dubrovinin bu barədə 1950-ci il aprelin 13-də Azərbaycan SSR dövlət təhlükəsizliyi naziri S.T.Yemelyanova göndərdikləri 5/2/2/16282 №-li tamamilə məxfi məktubda verdikləri məlumatda yazılırdı ki, Dro Sovet İttifaqı əleyhinə türk hökuməti ilə gizli saziş imzalamışdır. Həmin sazişə görə guya türk hökuməti gələcəkdə Sovet İttifaqına qarşı müharibəyə hazırlaşmaq üçün ölkə ərazisinin bir hissəsini Türkiyədə yaşayan ermənilərə verməli idi. Guya müharibənin sonunda sovet Ermənistanından torpaqlar alınacaq və Türkiyənin himayəsi altında erməni dövləti yaradılacaqdı. Məktubdan məlum olurdu ki, saziş imzalandıqdan sonra Dro Ankara radiosu ilə çıxış da etmişdi[628]. Məlumatı alan S.Yemelyanov rəhbər heyəti məlumatlandırmağa və əməliyyat işində bunu nəzərə almağa dair tapşırıq verdi.

SSRİ dövlət təhlükəsizliyi nazirinin müavini general-leytenant S.İ.Oqolçov isə 1950-ci il aprelin 29-da Ermənistan SSR dövlət təhlükəsizliyi naziri polkovnik Qorxmazyana, Gürcüstan SSR dövlət təhlükəsizliyi naziri general-leytenant N.M.Ruxadzeyə, Azərbaycan SSR dövlət təhlükəsizliyi naziri S.T.Yemelyanova, Türkmənistan SSR dövlət təhlükəsizliyi naziri polkovnik L.F.Qalkinə 0-2040 №li tamamilə məxfi bir məktub göndərdi[629]. Məktubdan aydın olurdu ki, daşnak təşkilatları amerikan kəşfiyyatının nəzarəti altına keçmiş və antisovet fəaliyyətlərini gücləndirmişdilər. Onları ABŞ təhlükəsizlik orqanı maliyyələşdirirdi və qarşılarına SSRİ-də təxribat işləri aparmaq vəzifələrini qoymuşdu. İranda daşnakların daimi nümayəndəsi Qriqor Mxitaryan (partiya təxəllüsü Mxo,

---

[628] Начальник 5-го Управления МГБ СССР полковник Волков, начальник 2-го отдела 5 Управления МГБ СССР полковник Дубровин – министру госбезопасности Азербайджанской ССР генерал-майору тов. Емельянову. 13.04.1950. №5/2/2/16282. – ARMTNA, L -164, v.83.

[629] Заместитель министра госбезопасности СССР генерал-лейтенант Огольцов – министру госбезопасности Армянской ССР полковнику тов. Корхмазяну, министру госбезопасности Грузинской ССР генерал-лейтенанту тов. Рухадзе, министру госбезопасности Азербайджанской ССР генерал-майору Емельянову, министру госбезопасности Туркменской ССР полковнику тов. Галкину. 29.04.1950. №0-2040. Сов. секретно. – ARMTNA, L-164,v. 84-88.

Dodo) İranın SSRİ ilə sərhəd rayonlarında Sovet İttifaqına daşnak agenturası göndərmək üçün keçid məntəqələri yaratmağa dair tapşırıq almışdı.

Dro 1949-cu ilin oktyabr və 1950-ci ilin dekabr aylarında İranda yaşayan Qriqor Mxitaryana iki məktub göndərmişdi. İrandakı daşnakların fəaliyyətini bəyənən və maddi yardım göstəriləcəyini vəd edən Dro birinci məktubunda tövsiyə edirdi ki, bütün məsələlərdə Tehrandakı amerikan nümayəndələri ilə məsləhətləşsin və Ermənistan SSR ilə olan kanallardan istifadə etməsin, daha çox digər yerlərdəki əlaqələri bərpa etsin.

İkinci məktubda kəşfiyyat işinin təşkilinə dair göstəriş verən Dro SSRİ ərazisində olan qaçaqmalçılar ilə əlaqə yaradıb, onlardan orduların hərəkəti, yaşayış tərzi və b. barədə rəsmi sənədləri almağı tövsiyə edirdi. SSRİ ilə sərhəddə ticarət firması adı altında bir və ya iki ötürücü məntəqə qurulmalı idi. O, bir neçə gəncin radio işini öyrənməsi üçün yer müəyyənləşdirməyi təkilf edir, rəsmi sovet adamları ilə heç bir əlaqə qurmamağı məsləhət görürdü.

S.İ.Oqolçovun məktubunda daşnak kəşfiyyatına qarşı aşağıdakı tədbirlərin həyata keçirilməsi tövsiyə edilirdi: gizli daşnak fəaliyyətlərini araşdırarkən onların agenturasının sovet ərazisinə keçid yollarını, Sovet İttifaqındakı əlaqə kanallarını üzə çıxarmağa əsas diqqət yönəldilməli, mümkün keçid məntəqələrində xüsusi nəzarət qoyulmalı; daşnak emissarları sovet ərazilərində vaxtında üzə çıxarılmalı və onların həbsi üçün daşnak emissarları adı altında agentura kombinasiyası praktikadan keçirilməli; qeyri-leqal yollarla xaricə göndərmək və daşnak təşkilatları daxilinə yeritmək üçün xüsusi agentura hazırlanmalı idi.

Dro Beyrutda daşnak kəşfiyyat mərkəzi yaratmışdı. Bu mərkəzin tərkibinə Dro ilə yanaşı Daşnaksütyunun xarici bürosunun üzvü Movses Ter-Qalustyan, Livan daşnakları təşkilatı MK-nın üzvləri Karo Sasuni və Onik Topuzyan daxil idilər[630]. SSRİ-yə keçmək üçün İran ərazisində 3 məntəqə hazırlanmalı, hər bir məntəqəyə məsul şəxs cavab verməli, emissarlar qaçaqmalçıların köməyi ilə casusluq, təxribat törətmək və adam oğurlamaq üçün SSRİ ərazisinə keçməli idilər. Məktubda daşnakların casus kanallarının üzə çıxarılmasına dair göstəriş verilirdi.

SSRİ DTN Birinci idarəsinin 3-cü bölməsi rəisinin Azərbaycan SSR dövlət təhlükəsizliyi nazirinin müavini polkovnik Padarova göndərdiyi 1951-ci il 21 fevral tarixli 1/3-4249 №-li tamamilə məxfi məktubunda yazılırdı ki, daşnak kəşfiyyatının iki formada təşkili nəzərdə tutu-

---

[630] Начальник 2-го Главного Управления МГБ СССР полковник Шубняков – зам.министру госбезопасности Азербайджанской ССР полковнику тов. Керимову. 05.02.1951.№2/Г/10795.Сов. секретно. – ARMTNA, L-164,v.89-90.

lur: yerli və ümumpartiya[631]. Yerli kəşfiyyat MK-ya tabe olub, yerli kommunist partiyaları və digər mütərəqqi təşkilatların fəaliyyətini izləməli; ümumpartiya kəşfiyyatı isə Sovet İttifaqına qarşı fəaliyyət göstərməli idi. Məlumatlara görə həmin ilin aprel-may aylarında keçiriləcək qurultayda Ermənistan SSR-dəki antisovet elementlərdən istifadə olunması və təxribatçı qrupların göndərilməsi məsələləri müzakirə ediləcəkdi.

İrandakı daşnakların 1951-ci il avqustun 19-30-da Tehranda keçirilən 15-ci konfransı da düşmənçiliyin artırılması və terror dəstələrinin hazırlanmasına xüsusi diqqət verilməsi baxımından yadda qaldı[632]. Bununla bağlı olaraq SSRİ dövlət təhlükəsizliyi nazirinin müavini general-mayor Y.P.Pitovranov həmin ilin oktyabrın 1-də Azərbaycan SSR dövlət təhlükəsizliyi naziri general-mayor S.T.Yemelyanova göndərdiyi P-7322 №-li məktubunda yazırdı ki, agentura yolu ilə alınmış məlumata əsasən konfransda oktyabr ayının ortalarında Qahirədə keçiriləcək qurultaya nümayəndələr və Mərkəzi Komitə seçilmişdir. Qurultay başa çatdıqdan sonra Daşnaksütyunun rəhbərlərindən biri olan Yeqişe Pəhləvi Tehrana gələrək daşnakların hərbi hazırlığı və döyüş qruplarının yaradılması işi ilə məşğul olmuşdu.

Y.P.Pitovranov məktubunda bir ay müddətində İran daşnaklarının rəhbər orqanlarına agenturanın yeridilməsinə dair planın işlənib hazırlanmasını və bu barədə konkret təklifin verilməsini, İranda daşnak və amerikan kəşfiyyatının üzvləri kimi təkrarən SSRİ-yə göndərilməsini, bu agenturanın SSRİ-də daşnak və amerikan casus şəbəkəsini və həmçinin daşnakların sovet ərazisində qeyri-leqal əlaqələrini üzə çıxartmaq planını işləyib hazırlamağı təklif etdi.

Tapşırığı alan xüsusi xidmət orqanı əməkdaşları xarici ölkələrlə əlaqəsi olan daşnaklar və millətçi əhval-ruhiyyəli şəxslər, xüsusən son illərdə ölkəyə gəlmiş ermənilər arasında işləməyə başladılar. Başlıca məqsəd Sovet İttifaqına göndərilən daşnak emissarlarının və casuslarının üzə çıxarılması idi. İrandan keçən bütün şəxslərin istintaqı zamanı əsas diqqət onların daşnaklarla əlaqəsinin olub-olmamasının aydınlaşdırılmasına yönəldilməli idi.

Azərbaycan SSR DTN 1-cı bölməsinin rəisi polkovnik M.Mustafayev Azərbaycan SSR DTN 5-ci şöbəsinin rəisi V.Kəmərskiyə 1951-ci il 28 noyabrda tarixdə 1\1092 №-li tamamilə məxfi məktub yazaraq Təb-

---

[631] Начальник 3-го отдела 1-го Управления МГБ СССР – зам. министру госбезопасности Азербайджанской ССР полковнику тов. Падарову. 21.02.1951. №1/34249. Сов.секретно. – ARTMNA, L -164, v.91-92.

[632] Заместитель министра госбезопасности СССР генерал-майор Питовранов – министру госбезопасности Азербайджанской ССР тов. Емельянову. 01.10.1951. П-7322. Сов.секретно. – ARMTNA, L -164, v. 93-96.

rizdəki daşnak əməliyyat mərkəzinə yerləşdirmək üçün bir neçə erməninin tövsiyə olunmasını xahiş etdi və onların şəxsi işlərini istədi. Xaricdəki daşnakların qeyri-leqal əlaqələrini üzə çıxartmaq və onların arasına agentləri yerləşdirmək üçün plan işlənib hazırlandı. Azərbaycan SSR DTN 5-ci şöbəsinin 3-cü bölməsinin rəisi podpolkovnik Q.Kalustovun imzası və 5-ci şöbənin rəisi podpolkovnik V.Kəmərskinin razılığı ilə hazırlanan tamamilə məxfi plan DTK sədri S.T.Yemelyanova təqdim edildi[633]. Burada 7 nəfər agentin kod adlar altında daşnaklar arasına yerləşdirilməsi nəzərdə tutulmuşdu. Lakin S.T.Yemelyanov hansı səbəbdənsə üstünə "təxirə salınsın" yazaraq sənədin icrasını dayandırdı. Görünür, Mərkəz daşnaklara aid olan bir işin Azərbaycanda yerinə yetirilməsini istəməmiş, ya özü bilavasitə, ya da Ermənistan DTN vasitəsi ilə onunla məşğul olmaq qərarına gəlmişdi. Belə yanaşma sovet idarəçilik praktikasında mövcud idi.

Bundan sonra Daşnaksütyunun tarixinə dair sənədlər daha dərindən öyrənilməyə başlandı. Azərbaycan SSR dövlət təhlükəsizliyi nazirinin müavini Quliyev və şöbə müdiri V.Kəmərski ÜK(b)P MK Marksizm-Leninizm İnstititunun Azərbaycan filialı arxivinin müdir müavini Abayşviliyə müraciət edərək, Daşnaksütyun Partiyasının nizamnaməsini, Daşnaksütyun haqqında tarixi oçerki, A.Mikoyan haqqında 1918-1919-cu illərə aid sənədlər külliyyatından sol daşnaklar, Daşnaksütyuna, Cənubi Qafqazda erməni – azərbaycanlı münasibətlərinə dair sənədləri,[634] İ.Şaxdinin "Daşnaksutyun Qafqazda rus ağqvardiyasının və ingilis komandanlığının xidmətində" adlı kitabını da iki həftə müddəti üçün istədilər.

Daşnaksütyunun nizamnaməsinə görə partiya döyüş qrupları yaradır və hər bir qrupda 10 terrorçu olurdu[635]. Təşkilatın nizamnaməsi terroru iki cür müəyyənləşdirirdi: siyasi və təşkilati. Yalnız mərkəzi komitələr və məsul orqanlar terrorun törədilməsinə dair qərar verə bilərdilər.

Daşnaksütyun haqqında olan oçerkdə qeyd edilirdi ki, yeni-yeni xalqlarla tanışlıq ermənilərin ticarətə olan sevgisini, bununla yanaşı başqalarını aldatmağa və zəngin olmağa həvəslərini artırmışdır. Onlar nəinki

---

633 Начальник 3-го отд. 5 отдела МГБ Азербайджанской ССР подполковник Калустов. План мероприятий 5-го отдела МГБ Азербайджанской ССР по перехвату нелегальных каналов связи дашнакских зарубежных кругов и внедрения нашей агентуры в их среду. Ноябрь 1951 г. – ARMTNA, L -164, v. 100-106.

634 Зам. министра госбезопасности Азербайджанской ССР полковник Кулиев, начальник отдела МГБ Азербайджанской ССР подполковник Кемарский – зам. зав. партархивом Азербайджанского филиала ИМЭЛ ЦК ВКП(б). – ARMTNA, L -164, v.107.

635 Устав Армянского Революционного Союза Дашнакцутюн. Утвержден общим собранием в 1907 году. ARSSA, f.63, iş 221-1907, v. 1-15.

insanın gündəlik, həmçinin dövlətlərin həyatında kapitalın necə böyük güc olduğunu başa düşmüşlər[636].

Qeyd etmək lazımdır ki, 50-ci illərin əvvəllərində Daşnaksütyunun min nəfərə qədər şəxsin üzv olduğu Tehrandakı gənclər təşkilatının yeniyetmələr, qadınlar və gənclik qanadı fəaliyyət göstərirdi. Təşkilat üzvlərini əsasən terror fəaliyyətlərinə hazırlayırdı. Belə ki, İranın Aslandüz tərəfindən keçib sovet sərhədini Jdanov (indiki Beyləqan – M.Q.) rayonunun Daşburun ərazisindən 1951-ci ilin sentyabr ayında pozaraq terror aktı törətmək, sovet generallarından birini öldürmək məqsədi ilə keçən Robert Babalyan (əsl adı Ruben Asaturoviç Babalyan) tutuldu. İstintaq zamanı onun dediklərindən aydın olurdu ki, daşnaklara həftədə iki dəfə təşkilatın atəş tirində tapançadan 25 və 50 metrə məsafəyə, bəzən isə dağlara aparılaraq tüfəngdən atəş açmaq, silahla adam öldürməkdən başqa arağa zəhər, siqaret külü və qulağa zibil tökməklə öldürməyi öyrədir, əyani olması üçün bu üsulları itlərin üzərində tətbiq edirdilər. İt 23 saat huşsuz vəziyyətdə uzanıb qalırdı. Obyekti huşsuz olarkən səs-küysüz öldürməyi tövsiyə edirdilər. Digər zəhərlərdən də istifadə etməyi məsləhət görürdülər.

28 yaşdan yuxarı olan daşnaklar "Erməni klubu" adlandırılan təşkilata üzv olurdular. Oraya gənclərin girişi qadağan edilmişdi. Həbs edilən R.Babalyan Hərbi Tribunal tərəfindən 1952-ci il fevralın 29-da 25 il həbs cəzası aldı[637].

Həyata keçirilən tədbirlər müəyyən qədər təsirli olsa da, daşnaklar fəaliyyətlərini yenə də davam etdirirdilər. Onlar məqsədlərinə çatmaq üçün əlverişli şəraitin yaranmasını gözləyirdilər.

## *Ermənistanda azərbaycanlılara məxsus yaşayış yerlərinin adları dəyişdirilir*

Ermənistan SSR daxilində isə kommunist rəhbərlik özünəməxsus üsullarla əslində daşnak siyasətini davam etdirirdi. Bu üsullardan biri azərbaycanlılara məxsus olan tarixi yerlərin adlarının dəyişdirilməsi idi. Xaricdən gətirilən ermənilərin yerləşdirildikləri yaşayış məntəqələrinin azərbaycanlı adları dəyişdirilərək erməniləşdirilir, təhsil və mədəniyyət ocaqları bağlanırdı. Məsələn, 1947-1950-ci illərdə azərbaycanlılara məxsus 80-dən çox yaşayış yerinin adı dəyişdirilmişdi[638]. Ermənistan SSR

[636] Дашнакцутюн (Союз). Армянская Революционная Федеративная Партия. Исторический очерк. – ARSSA, f.134, iş 85-1908/1909, v. 39-43.
[637] Дело №550 по обвинению Бабаляна Роберта (Рубена Асатурович). – ARMTNA, №PS 10651, v. 1.
[638] Mustafa N. Vandalism: genocide against the historical names, p. 7-43.

Ali Soveti Rəyasət Heyətinin 1950-ci il 19 sentyabr tarixli fərmanı ilə aşağıdakı dəmiryol stansiyalarının azərbaycanlı adları dəyişdirilmişdi: Kolagirən – Tumanyan, Hamamlı – Spitak, Ortakilsə – Maisyan, Tomardaş – Vardakar, Arpaçay – Axuryan, Buğdaşen – Baqravan, Qaraqulaq – Gedap, Ələyəz – Araqats, Boğudlu – Arteni, Qaraburun – Qarmraşen, Qamışlı – Sovetaşen, Uluxanlı – Masis, İmanşahlı – Mxçyan, Qəmərli – Artaşat, Şirazlı – Ayqavan olmuşdu.

Buna bənzər digər tədbirlər də görüldü. Ermənistan SSR Ali Sovetinin 1951-ci il 19 mart tarixli fərmanına uyğun olaraq Dilican rayonu İcevanla, Əzizbəyov rayonu Mikoyan rayonu ilə, Ələyəz rayonu Abaranla, Qarabağlar rayonu Vedi ilə, Qukasyan rayonu Amasiya ilə birləşdirildi. Yenidən təşkil olunan rayonlarda kadr məsələri həll edildikdən, yəni azərbaycanlı işçilər vəzifələrindən uzaqlaşdırıldıqdan bir müddət sonra həmin rayonları yenidən ayırdılar[639].

Ümumilikdə, 1951-1959-cu illərdə Ermənistanda azərbaycanlılara məxsus 20-dək yaşayış məntəqəsinin adı dəyişdirilmişdi[640].

50-ci illərdə adları dəyişdirilən yaşayış məntəqlərinin sayının az olmasının başlıca səbəbi artıq əvvəlki illərdə yaşayış məntəqələrinin adının dəyişdirilməsi, ermənilərin xaricdən gətirilməsinin sovet dövləti tərəfindən məhdudlaşdırılması və qatı millətçiliyə qarşı sərt mövqenin tutulması ilə bağlı idi. Lakin bu siyasət uzun sürmədi.

Xarici ölkələrdəki daşnak fəaliyyətləri və Ermənistan SSR rəhbərlərinin yürütdüyü siyasət əslində onların məqsədlərinin mahiyyətcə bir-birindən fərqlənmədiyini göstərirdi. Fəaliyyətin başlıca hədəfi qonşularının ərazilərini qopartmaqla tarixdə olmayan "Böyük Ermənistan" qurmaq üçün bir addım atmaq idi.

---

[639] Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, 1998, s.118-119.
[640] Mustafa N. Vandalism: genocide against historical names, p.7-43.

# X FƏSİL

## CƏNUBİ QAFQAZDA VƏ XARİCİ ÖLKƏLƏRDƏ FƏALİYYƏTLƏR

### *Ermənistanda alimlər "vahid axın" nəzəriyyəsini təbliğ edirlər*

Sovet İttifaqında kommunist ideologiyasının hakim olmasına baxmayaraq, Ermənistan SSR-də alim, yazıçı və jurnalistlər "ümumi maraqlar naminə" erməni cəmiyyətini siniflərsiz, siniflərin fövqündə duran kimi təbliğ edir, "vahid axın" nəzəriyyəsini əsaslandırmağa çalışırdılar. Bu nəzəriyyə ümumi məqsədlər naminə Daşnaksütyun və Ermənistan Kommunist Partiyası arasında ideoloji fərqlərin aradan qaldırılmasını, onların barışdırılmasını, daşnakların və erməni kommunistlərinin birlikdə fəaliyyət göstərməsini nəzərdə tuturdu.

Millətçi "vahid axın" konsepsiyasının başlıca daşıyıcısı Ermənistan SSR Elmlər Akademiyasının ictimai elmlər bölməsinin rəhbəri, professor Aşot İoanisyan idi. O, Daşnaksütyunun qurucularından biri olan Mikael Nalbandyan haqqında yazdığı məqaləsində bu tezisini əsaslandırmağa çalışmışdı.

"Vahid axın" nəzəriyyəsinin təbliğinə çar Rusiyasının Cənubi Qafqazda yürütdüyü siyasətə həsr edilmiş əsərlərdə də rast gəlinirdi. Məsələn, Abqar İoanisyanın 1947-ci ildə nəşr edilən "Rusiya və XVIII əsrin 80-ci illərində erməni azadlıq hərəkatı" adlı monoqrafiyasında Cənubi Qafqaz xalqları dini əlamətə görə - müsəlman və xristianlara bölünürdü. Bütün ermənilərin katolikosunun mövqeyindən fərqlənməyən bu ziyanlı yanaşmada Azərbaycan xalqının Rusiya ilə əlaqələri barədə susulur, bəzi xanların Türkiyəyə meyil etməsi bütün Azərbaycan xalqının adına yazılır, beləliklə, tarixdən bəhs edən bir kitab konkret məqsədlər güdən siyasət alətinə çevrilir, Azərbaycan xalqının Mərkəzin gözündən düşürülməsinə cəhd edilirdi.

Azərbaycanın etirazlarından və Mərkəzin göstərişindən sonra Ermənistan KP MK Ab. İoanisyanı tənqid etdi. Müəllif öz səhvləri barədə kütləvi mətbuatda deyil, "Ermənistan SSR EA-nın xəbərləri"ndə (1950, №4) bir məqalə dərc etdirdi. Lakin bu məqalənin elə bir təsiri olmadı. Çünki "Xəbərləri" geniş kütlələr deyil, bir qrup alim, araşdırıcı oxuyurdu.

Mərkəzin tapşırığına əsasən Ermənistan KP-nin 1952-ci il sentyabrın 20-22-də keçirilən XVI qurultayında MK katibi Q.A.Arutunov SSRİ-dəki hakim marksist-leninçi ideologiyaya zidd olduğu üçün ayrı-ayrı erməni tarixçilərinin və ədəbiyyatşünaslarının baxışlarını tənqid etdi[641]. Lakin bu, sərt deyil, sanki çarəsizlikdən edilən yüngülvari bir tənqid idi.

---

[641]До конца разоблачить вредную теорию "единого потока" – Газ. "Коммунист", Ереван, 09.01.1953, №7(5637).

Qurultaydan sonra, “Pravda” qəzetinin Ermənistan üzrə müxbiri Q.Ayryanın da həmin nəzəriyyənin əleyhinə olan bir məqaləsi dərc edildi. Yerevanda rus dilində çap edilən “Kommunist” qəzetində də 1953-cü ilin yanvar ayında dərc edilən bu məqalədə “vahid axın” nəzəriyyəsinin tərəfdarı olan müəlliflər tənqid olunurdu.[642]

Erməni tarixçi, ədəbiyyatçı və iqtisadçılarının əsərlərində qatı millətçilik məsələləri 1953-cü il yanvar ayının ortalarında Ermənistan SSR EA-nın ictimai elmlər bölməsinin iclasında müzakirə edildi. Əsas müəllifi Aşot İoanisyan olan bu məsələnin elə onun rəhbərlik etdiyi ictimai elmlər bölməsinin iclasında müzakirə edilməsi ikrah hissi doğururdu. Ən başlıcası ona görə ki, bir şəxs özünün yanlış baxışlarını özü necə tənqid edə bilərdi? İclasda professorlar A.Tərtəryan, V.Parsamyan, V.Rştuni, M.Nersisyanın və b. əsərlərində səhvlərin olduğu qeyd olundu və “vahid axın” nəzəriyyəsini təbliğ etdikləri pislənildi. Onlar səhvlərini etiraf etdilər[643].

Belə müzakirələr və edilən tənqidlər səthi olub, yalnız ümumi və başlıca hədəfləri qorumaq üçün edilirdi. Heç əbəs deyildir ki, az sonra həmin tarixçilərə yüksək vəzifələr və elmi adlar verildi. Bununla onlar tənqiddənkənar oldular və saxtakarlıqla dolu “tədqiqatlar”ını aparmaq üçün əlverişli şərait qazandılar. Ermənistan rəhbərliyi isə məqalə və kitab yazan “alimləri” qorumaq üçün onları deyil, yazdıqlarını nəşr edən nəşriyyat rəhbərlərini yüngülcə tənqid etməklə kifayətləndi. Belə ki, 1958-ci il yanvarın 25-də etdiyi məruzəsində Ermənistan KP MK-nın birinci katibi S.A.Tovmasyan tarix araşdırmaları sahəsində mövcud olan səhvləri etiraf edərək deyirdi ki, bəzi nəşriyyat rəhbərlərinin və dövri nəşrlərin məsuliyyətsizliyi ucbatından səhvlərlə dolu olan boz, zəif əsər və məqalələr nəşr edilir. Bir sıra tarix və ədəbiyyat əsərlərində keçmişin ideologiyalaşdırılmasına rast gəlinir[644].

Ermənistan rəhbərinin belə səthi tənqidlər etməsi səbəbsiz deyildi. Bütün bunlar 40-cı illərin sonlarından başlayaraq sovet rəhbərliyinin daşnaklara və qatı millətçilərə qarşı sərt mövqe tutması qarşısında olan qorxularla bağlı idi. Əsərləri yazanlar düzgün yola dəvət edilmir, yalnız nəşriyyatlar yüngülcə tənqid edilirdi. Amma heç kimə sirr deyildi ki, SSRİ-də ciddi senzuranın olduğu bir şəraitdə belə məqalələri və əsərləri nəşr etmək mümkün deyildi. Əgər belə yazılar işıq üzü görürdüsə, bəs onda senzura

---

642 Айрян Г. Решительно искоренять недостатки в научной работе. – Газ. “Коммунист”, Ереван, 15.01.1953, №12(5642).

643 До конца ликвидировать рецидивы буржуазного национализма. – Газ. “Коммунист”, Ереван, 29.01.1953, №23(5653).

644 Доклад первого секретаря ЦК КП Армении тов. С.А.Товмасяна на XIX сьезде КП Армении. – Газ. “Коммунист”, Ереван, 26.01.1958, №22(7189).

hara baxırdı? Deməli, Ermənistan rəhbərinin məlum çıxışı Mərkəzin gözünə "kül üfürmək" və özünü sığortalamaq məqsədi güdürdü. Doğrudur, həmin tənqiddən sonra daşnaklar və xaricdə yaşayan ermənilər haqqında mətbuatda dərc edilən yazıların sayı bir qədər azaldı. Lakin bu vəziyyət çox da davam etmədi. Qəzetlərdə xarici ermənilər haqqında yazıların dərci davam etdirilirdi. Sovet rəhbərliyi xarici ölkələrdəki ermənilər və daşnak təşkilatları arasındakı münasibətlərdə uçurum yaratmaq üçün təbliğat işlərini artırdı. Yerevanda nəşr edilən "Kommunist" qəzetində 1959-cu il iyul ayının 4-də Q.Nikoqosyanın "Xarici ermənilər sülh uğrunda mübarizədə" adlı məqaləsi dərc edildi[645]. Xarici ölkələrdə nəşr edilən erməni mətbuatının materialları əsasında hazırladığı məqaləsində müəllif yazırdı ki, - daşnaklar sovet Ermənistanı ilə xarici ermənilər arasında uçurum yaratmaq istəyirlər. Daşnakların yüngül tənqid edildiyi məqalənin başlıca məqsədi xaricdəki ermənilərin Varşava Müqaviləsi Təşkilatının üzvü olan SSRİ-nin siyasətini müdafiə etdiyini təbliğ etmək idi.

## *Daşnaklar xarici ölkələrdə fəaliyyətlərini genişləndirirlər*

Bu zaman xarici ölkələrdəki erməni təşkilatları NATO üzvü olan Türkiyəyə qarşı təbliğat işlərini daha da artırmışdılar. Belə fəaliyyətlərin yürüdüldüyü ölkələrdən biri Suriya idi. Suriyada yaşayan Arşak Alboyacıyan yazdığı ermənicə "Kayseri tarixi" adlı kitabında zəfərlərlə dolu qurucu və şərəfli türk tarixini saxtalaşdırır və Türkiyəyə qarşı əsassız ərazi iddiaları irəli sürürdü. Erməni təşkilatları bu kitabın Türkiyəyə gətirilərək yayılması üçün cəhdlər edirdilər. Həmin hərəkətlərin qarşısını almaq məqsədi ilə Türkiyə Daxili İşlər Nazirliyi 1951-ci il dekabrın 25-də 15111-440/73651 saylı məktubunda kitabın Türkiyəyə gətirilməsinin və yayılmasının qarşısının alınmasına dair hökumətə təklif verdi. 5680 saylı qanunun 31-ci maddəsinə uyğun olaraq hökumətin 31 dekabr tarixli iclasında müvafiq təklif üzrə qərar qəbul olundu[646].

Hədəfləri uydurma "Böyük Ermənistan" qurmaq olan erməni təşkilatları məqsədə çatmaq üçün Türkiyəni dərindən öyrənməyə çalışır və hətta dərc olunan məqalələrdə buna dair çağırışlar da edirdilər. Məsələn, Qahirədə çap olunan "Husaber" ("Ümid") qəzetinin 1952-ci il 17 aprel tarixli sayında "Türkiyəni tanıyaq" adlı bir məqalə çap edilmişdi. Məqalədə yazılırdı ki, yurdumuz coğrafi mövqeyi etibarı ilə Türkiyə ilə həmhüduddur. Uzun əsrlər boyu ermənilər gah türklərin arasında, gah da

---

[645] Никогосян Г. Зарубежные армяне в борьбе за мир. – Газ. "Коммунист", Ереван, 04.07.1959, №156(7629).
[646] T.C. BCA. 030.18.01.127.95.11.

türklərə yaxın və bəzən də onlarla qonşu olaraq yaşadıqları üçün davaları da Türkiyə və türk milləti ilədir. Türkiyəni tanımağı və bu məmləkət içində cərəyan edən hadisələri yaxından təqib etməyi borc və vəzifə olaraq irəli sürən məqalədə bütün böyük və kiçik dövlətlərin qonşu və hətta qonşu olmayan ölkələri öyrənmək üçün büroları olduğu vurğulanırdı. Ermənilərdə isə belə bürolar olmadığından həmin vəzifəni qəzetlər yerinə yetirirdi. Müəllifin fikrincə, qəzet Rusiya və Türkiyənin əleyhinə və lehinə söylənən bütün fikirləri və görülən işləri tərəfsiz olaraq təhlil etməli idi. Məqalədə qeyd edilirdi ki, Rusiya dünyanın digər qismindən dəmir pərdə ilə ayrıldığından orada cərəyan edən hadisələri müşahidə etməkdən daha çox təxmin və təsəvvür etmək olar. Qəzetin qənaətinə görə Türkiyədə isə şərait fərqli idi. Bu ölkədə Demokrat Partiyası hakimiyyətə gəldikdən sonra mətbuat nisbətən azad və sərbəst idi. Cümhuriyyət Xalq Partiyası və Demokrat Partiyası bir-birilərini mütəmadi olaraq tənqid edir, daxili və xarici siyasətin problemlərini açıq şəkildə söyləyirdilər. Bu isə Türkiyə haqqında məlumat toplamağa imkan verirdi. Hətta İsmət İnönü bir dəfə söyləmişdi ki, Türkiyənin NATO-ya girməsi ilə məmləkətin xarici təhlükəsizliyi təminat altına alınmış oldu. Bu fikirləri təhlil edən qəzet yazırdı:

*"Nə taleli məmləkət... Onun xarici təhlükəsizliyi zatən həmişə belə, ikinciyə qarşı üçüncü bir dövlət tərəfindən qorunmuşdur".*

Qəzet qeyd edirdi ki, dünən Türkiyəni Qərb müttəfiqlərinə qarşı qoruyan Sovetlər İttifaqı idisə, bu gün eyni müttəfiqlər "xəstə adam"ın təhlükəsizliyini dünənki müttəfiq olan sovet Rusiyasına qarşı təminat altına alırlar. Türkiyə beləliklə, atəşdən daim başqasının əli ilə çıxmaq çarəsini tapır. Ona görə də guya İsmət İnönü xarici təhlükəsizliyin təmin olunmasından məmnun olsa da, daxili təhlükəsizliyə əmin deyildi[647].

İstanbulda ermənicə dərc edilən "Jamanak" ("Zaman") qəzetinin 1952-ci il 18 may tarixli sayındakı "Amerikada Erməni Milli Şurasının fəaliyyəti münasibəti ilə bir neçə söz" adlı baş məqaləsində Martiros Koç Nyu Yorkdan Sara Ertoğrul tərəfindən göndərilmiş və "Vətən" qəzetində, daha sonra isə "Jamanak" qəzetinin 17 may tarixli sayında dərc edilmiş məqaləsinə dair baxışlarını yazır və bu komitənin fəaliyyətini tənqid edirdi. O, qeyd edirdi ki, müxtəlif adlar altında fəaliyyət göstərən Amerikadakı erməni təşkilatlarının türklük əleyhindəki göstəriləri keçmiş hərəkətlərinin ilki deyildir. O, "Amerikada Erməni Milli Şurası" adını daşıyan bu təşkilatın mahiyyətinin nə olduğunu bilmədiklərini, ancaq bu təşkilatı idarə edənlərin sadəcə Türkiyədə deyil, bütün dünyada və hətta özlərinin yaşadıqları Amerikada cərəyan edən hadisələrdən tamamən bixəbər olduqlarını yazaraq qeyd edirdi ki, Türkiyə əleyhinə təbliğatı vaxtilə Amerikada edənlər şöhrət

647 T.C. BCA. 030.01.102.634.2.

və hətta maddi mənfəət təmin edəcək qədər rəğbət qazanmışlar. Müəllif sual edirdi: "Fəqət indi belədirmi?". Onun fikrincə, Amerikadakı bu təşkilatı idarə edənlər Türkiyənin BMT üzvü olduğunu, ABŞ-ın Marşal planına uyğun olaraq milyonlarla dollar yardım aldığını və Qərb demokratiyası prinsiplərinə sadiq olduğunu, öz övladlarını bu yolda Koreyada fəda etdiyi üçün bütün dünyanın təqdirini qazandığını, Qərb mədəniyyətini qorumaq və yeni bir müharibəyə qarşı qurulan Atlantik paktına qoşulduğunu, bütün vətəndaşlarına hürriyyət və bərabərlik təmin etdiyini və amerikalıların da buna canlı şahid olduqlarını, Türkiyəyə səfərə gələn keçmiş Türkiyə vətəndaşı olan ermənilərin buradakı dəyişiklikləri görmələrini əcaba bilmirlərmi? Onlar bunlardan bixəbərdirlərmi? Müəllif belə qənaətə gəlirdi ki, Türkiyə erməniləri xarici komitələrin əlində alət olmayacaqdılar və kimsənin onların adından danışmağa haqqı yox idi[648].

Belə yanaşma xarici ölkələrdəki erməni təşkilatları ilə Türkiyədə yaşayan ermənilər arasında Türkiyəyə baxışda müəyyən fərqlərin olduğunu göstərirdi. İlk baxışda belə görünürdü ki, Türkiyə erməniləri xaricdəki erməni təşkilatların əlində alət olmaq istəmirlər. Lakin bu, hiyləgər bir manevr idi. Çünki başlıca məsələdə - uydurma "Böyük Ermənistan" qurulmasında erməni təşkilatları arasında fərq yox idi.

Digər ölkələrdəki erməni təşkilatları SSRİ-yə qarşı düşmənçilik, ABŞ-ın müttəfiqi olan Türkiyəyə münasibətdə manevr etsələr də, əsassız ərazi iddialarını davam etdirirdilər. Bu baxımdan İrandakı daşnakların 1955-ci il fevralın 17-23-də Tehranda keçirilən konfransı yadda qalan oldu. 10 daşnak təşkilatından 29 nümayəndənin həlledici səslə iştirak etdiyi konfransda MK-nın yeni tərkibi və Qahirədə keçiriləcək XVI qurultaya 3 nümayəndə seçildi[649]. Xarici büronun tövsiyəsi əsasında konfrans aşağıdakı məzmunda qətnamə qəbul etdi:

" *Nə qədər ki, daşnaklar ilə bolşeviklər arasında ziddiyyətlər mövcuddur və bolşeviklər daşnaklara qarşı yönəlmiş təbliğatdan imtina etməmişlər, biz onlarla barışa və əməkdaşlıq edə bilmərik.*

*1. Biz bolşeviklərin əleyhinə olan qruplarla əməkdaşlıq etməliyik. Biz istənilən əlverişli hadisədən istifadə edərək onların köməyi ilə öz azadlığımıza nail olmalıyıq. Belə qruplaşma ABŞ hökumətidir. Birinci yerdə*

---

[648] T.C. BCA. 030.01.102.634.12.

[649] Зам. начальника 4 отдела 4 управления Комитета Госбезопасности при Совете Министров СССР подполковник Шумских, и.о. начальника 1 отделения 4 отдела 4 управления Комитета Госбезопасности при Совете Министров СССР подполковник Караев – начальнику 4 отдела Комитета Госбезопасности при Совете Министров Азербайджанской ССР полковнику тов. Мамедову. 20.04.1956. №4/4/1-344. – ARMTNA, L -164, v.309-311.

*durur. İkinci yerdə isə İngiltərə və Fransa durur. Onların köməyi ilə istənilən imkandan istifadə edərək biz azadlıq hüququmuzu təmin etməliyik. Amerika Türkiyəyə böyük diqqət yetirdiyindən biz bu məqamdan elə istifadə etməliyik ki, Türkiyə Ermənistanı işğal edərkən erməni xalqına ziyan vurmasın, əksinə onun təhlükəsizliyi, azadlığı və müstəqilliyini təmin etsin.*

*2. Biz Ermənistanda daxili inqilab haqqında qətiyyən düşünməməliyik. Lakin biz Ermənistan ərazisində şifahi, əgər mümkünsə, yazılı təbliğatın, həmçinin radio ilə təbliğatın aparılmasından imtina etməməliyik, rusların "Yunion Militari" təşkilatı kimi davranmalıyıq. Avropada yerləşən bu təşkilat ən müxtəlif üsullarla böyük təbliğat apararaq, təyyarələr və gəmilərlə çoxlu sayda vərəqələri, broşürləri və kitabları göndərərək müxtəlif sovet respublikalarında yayır və sovet xalqını gələcək inqilaba hazırlayır.*

*3. Türkiyə hazırda antibolşevik blokundadır, lakin biz onunla dost ola bilmərik, biz yalnız Amerika vasitəsi ilə azadlıq hüququmuzu, həmçinin o erməni ərazilərini tələb edə bilərik ki, onlar hazırda türklərin əlindədir. Əgər əlverişli hadisə baş verərsə, biz Türkiyə ilə danışıqlar aparmalıyıq və xüsusi siyasi şərtlərlə ərazilərimizin hüquqlarını təmin etməliyik. Hər bir halda daim bunu nəzərdə saxlamalıyıq ki, ilk əlverişli anda biz keçmiş erməni torpaqlarını Türkiyədən tələb etməliyik.*

*4. Eçmiadzin ilə əlaqələri qırmaq lazım deyildir. Lakin nə vaxtadək bolşeviklər Eçmiadzinin adından xaricdə pis niyyətlər üçün istifadə edəcəklər, şübhəsiz, bizim Eçmiadzinə münasibətdə sevgi, etimad siyasəti həyata keçirməyimiz doğru olmazdı. Bununla bağlı olaraq bizim Antilasdakı Kilikiya katolikosu* (ermənilər Çukurobanı Kilikiya, buradakı kilsəni isə Antilas kilsəsi adlandırırlar – M.Q.) *ilə əlaqələrimiz genişləndirilməlidir, mümkün qədər xaricdəki erməni əhalisi (Yerevandakılar istisna olmaqla) Antilasa meyil etməlidirlər. Biz gələcəkdə Avropanın və digər ölkələrin erməni əhalisini Antilasla bağlayan dini mərkəz yaratmağa cəhd etməliyik"* [650].

Konfransın qərarları yaranmış şəraitdə erməni təşkilatlarının hədəflərinə çatmaq üçün seçdikləri taktikanın nə qədər dərindən düşünülmüş və məkrli olduğunu göstərirdi.

Həmin taktika Daşnaksütyunun 1955-ci il aprelin 20-dən mayın 22-dək Qahirədə "Husaber" klubunda keçirilən XVI qurultayında da özünü göstərdi[651]. Daşnaklar qurultayın keçirilməsinə dair Misir rəsmiləri ilə danışıqlar aparmışdılar. Gündəliklə tanış olan Misir hakimiyyəti qeyri-

---

[650] Yenə orada, v. 311.

[651] Начальник 4 отдела 4 управления Комитета Госбезопасности при Совете Министров СССР полковник Федоров – начальнику 4 отдела Комитета Госбезопасности при Совете Министров Азербайджанской ССР полковнику тов. Мамедову. 29.06.1955. № 4/4-654. – ARMTNA, L-164, v.319.

leqal keçiriləcəyi halda ona icazə vermişdi. Misir hökumətinin belə addımı daşnakların antisovet hərəkətlərinin bu zaman yaxşı olan SSRİ – Misir münasibətlərinə mənfi təsir edə bilməsi ehtimalı ilə bağlı idi. Müxtəlif ölkələrdən 36 nümayəndənin iştirak etdiyi qurultayın sədrləri ABŞ-dan Eduard Saakyan və İrandan Artaşes Babalyan, katibi isə Kanadadan Jak Muradyan idi.

Müzakirə olunan məsələlər üzrə qurultay aşağıdakı qərarları qəbul etdi:

*"1.Sovet Ermənistanına münasibət barədə. Ermənistanda açıq çevriliş uğrunda mübarizə aparmaqdan imtina etmək. Çünki bu, qurbanlardan başqa bir şey gətirməyəcəkdir. Bununla belə, bütün mümkün vasitələrlə antisovet təbliğatı aparmaqda davam etmək: mətbuat, radio, həmçinin sovet Ermənistanına qeyri-leqal yollarla vərəqələr, büroşürlər və digər antisovet təbliğat ədəbiyyatı göndərmək. 2.Türkiyəyə münasibət üzrə mövqe haqqında. Amerikalılardan təminat almaq ki, müharibə olacağı təqdirdə sovet Ermənistanına hücumu yalnız amerikan və ya digər ölkələrin ordusu etsin, təki türklər hücum etməsin. Türkiyə ilə heç bir əməkdaşlıq edilməsin. Zərurət olduqda türk hakimiyyəti ilə Türkiyədən kənarda danışıqlar aparılsın. Tarixi erməni torpaqları türklər tərəfindən tutulduğu müddətdə Daşnaksütyun Türkiyəyə düşmən münasibətdə qalır. Lazım gəldikdə Türkiyə ilə amerikalıların vasitəçiliyi ilə danışmaq lazımdır. Partiya mətbuatında antitürk təbliğatını aparmaqdan imtina etmək. Türkiyəyə münasibətdə siyasət dəyişdiyindən və ABŞ-ın tövsiyəsi ilə "Vahid və müstəqil Ermənistan" şüarı "Vahid və müstəqil erməni xalqı" şüarı ilə əvəz edilsin. 3.Ramkavar və Qnçak təşkilatlarına münasibət barədə qəbul edilən qərarda bu təşkilatlarla münasibətləri normallaşdırmaq və xaricdə razılaşdırılmış iş görmək, millətçi təşkilatlara münasibətdə çevik siyasət yürütmək. 4.Eçmiadzinə münasibət haqqında. Eçmiadzinin xaricdə fəaliyyətini bitərəfləşdirmək və Antilasın xaricdəki bütün erməni kilsələrinin mərkəzinə çevrilməsinə nail olmaq, Kilikiya katolikosluğu ətrafında müstəqil erməni koloniyaları yaratmaq istiqamətində işləmək".*

Bu qərar Daşnaksütyunun yeni şəraitdə fəaliyyət taktikasını müəyyənləşdirir və üzvlərini səfərbər edirdi. SSRİ xarici kəşfiyyatının məlumatlarına görə 1955-ci ilin may ayı üçün xarici ölkələrdəki daşnak təşkilatlarının tərkibində 10 min nəfər var idi. Müxtəlif xeyriyyə, mədəniyyət cəmiyyətlərinin üzvləri və onlara rəğbət bəsləyənlər buraya daxil deyildi[652].

[652] Зам. нач. 4 отдела 4 упр. КГБ при Совете Министров СССР полковник Симутин, нач. 1 отд. 4 отдела 4 упр. КГБ при СМ СССР полковник Чванов – зам. начальнику 4 отдела КГБ при Совете Министров Азербайджанской ССР капитану тов. Гусейнову И. 14.09.1955. №4/4/1-792. – ARMTNA, L -164, v.324.

SSRİ Nazirlər Soveti yanında DTK Birinci baş idarəsinin məlumatlarına görə amerikan – ingilis kəşfiyyat orqanları Sovet İttifaqına qarşı təxribatçılıq fəaliyyətlərində daşnak təşkilatlarından istifadə edirdilər. Daşnaklar xaricdə öz agenturasını hazırlamaq və ölkə ərazisinə keçirtmək üçün praktik işlər görürdülər. Xaricdəki daşnakların rəhbərləri Dro Kanayan, Ervand Navasardyan və başqaları bu məqsədlə İrana xüsusi əhəmiyyət verirdilər[653]. Onlar Tehranda operativ mərkəzi və xüsusi kəşfiyyat məktəbini, həmçinin SSRİ – İran sərhədində müşahidə-keçirici məntəqələr yaratmış, qatı millətçi təbliğatın aparılması üçün agentlər tutmuşdular və s.

Daşnaklar İrandakı kəşfiyyat xidməti fəaliyyətini amerikalılarla əlaqəli şəkildə həyata keçirdirdilər. SSRİ Nazirlər Soveti yanında DTK 4-cü idarəsinin 4-cü şöbəsinin rəis müavini polkovnik Simutin 1956-cı il aprelin 6-da Azərbaycan SSR Nazirlər Soveti yanında DTK 4-cü şöbəsinin rəisi podpolkovnik İsmayılova göndərdiyi 4/4/1-377 №-li tamamilə məxfi məktubunda yazırdı ki, 1955-ci ilədək İranda daşnak kəşfiyyatına Daşnaksütyunun xarici bürosunun səlahiyyətli nümayəndəsi Tiqran Baqdasaryan rəhbərlik etmişdir. 1955-ci ilin iyul ayında ölən bu şəxs Tehrandakı amerikan kəşfiyyatının nümayəndələri və İran ordusu baş qərargahının 2-ci şöbəsinin (kəşfiyyat) rəisi ilə əməkdaşlıq etmişdi[654]. Öldükdən sonra daşnak kəşfiyyatına rəhbərlik İranın cənubunda yerləşən Abadan şəhərində əvvəllər yaşamış Ervand Fındıkyana tapşırılmışdı. O, daşnak kəşfiyyatının metodlarını təkmilləşdirmiş və SSRİ-dəki daşnaklarla gizli yazışma işini təşkil etmişdi. Daşnaklar izlərini itirmək üçün müxtəlif üsullardan yararlanırdılar. Məsələn, SSRİ ərazisinə adam və material göndərmək üçün sərhəddə yerləşən Alacücə kəndinin sakini olan azərbaycanlı Həsən ağa (və ya Mirzə ağa) Hacı Tağızadədən də istifadə edirdilər.

Sadə azərbaycanlıları aldadaraq istifadə etməklə daşnaklar ənənəvi çirkin əməllərinə sadiq qalaraq konkret məqsəd güdürdülər. Onlar sovet orqanları tərəfindən ələ keçəcəyi təqdirdə, Azərbaycan SSR-dəki azərbaycanlıların təqib edilməsinə və gələcəkdə Cənubi Qafqazda daşnakların fəaliyyətinə əngəl ola biləcək qüvvənin zəiflədilməsinə çalışırdılar.

Daşnaklar aşağıdakı rayonlara daha çox maraq göstərirdilər: 1. Maku (Üçkilis monastırı). 2.Culfa (Daraşan monastırı). 3.Qaradağ (erməni

---

[653] Председатель Комитета Госбезопасности при Совете Министров Азербайджанской ССР полковник Гуськов. План агентурно-оперативных мероприятий по усилению чекистской работы по азербайджанским и армянским буржуазным националистам. 03.06.1955. – ARMTNA, L -164, v.312-318.

[654] Зам. начальника 4 отдела 4 управления Комитета Госбезопасности при Совета Министров СССР Симутин – начальнику 4 отдела Комитета Госбезопасности при Совете Министров Азербайджанской ССР подполковнику Исмаилову. 06.04.1956. №4/4/1-337. Сов.секретно. – ARMTNA, L-164, v.307.

kəndləri olan Vina, Keyvani və Qaraqlux). Həmin yerlərə daşnaklar müntəzəm olaraq müəllim, ibtidai məktəblərin təşkilatçıları və ya ovçu adı ilə gələrək qatı millətçi təbliğat aparırdılar.

Sovet xüsusi xidmət orqanlarının daşnaklara qarşı tədbirləri sırf SSRİ maraqları baxımından olub, soyuq müharibə dövründə iki sistem ölkələri arasında gedən amansız mübarizəni özündə əks etdirirdi.

Bu zaman xarici ölkələrdəki erməni təşkilatları hazırladıqları saxta xəritələrdə Türkiyə ərazisinin bir hissəsini Ermənistan olaraq göstərirdilər. Belə xəritələrdən biri 1956-cı ilin aprel ayında "B.O.A.C Eastern Mediterranean-Pakistan Kompaniyası"na aid olan təyyarənin sərnişinləri üçün nəzərdə tutulmuş sxemin arxa səhifəsində yerləşdirilmişdi. Xəritədə Ərzurum və Van vilayətlərinin böyük bir hissəsi Ermənistan olaraq göstərilmişdi. Xəritə və broşürlər ilə yanaşı "Fatih" başlıqlı ingiliscə mətbuatın və Hələbdə nəşr edilən "Əl Vətən" adlı ərəbcə qəzetin 26 avqust 1956-cı il tarixli 1205-ci sayında da Türkiyə ərazilərinin bir hissəsi Ermənistan olaraq göstərilirdi. Xəritəni əldə edən İstanbul valisi və bələdiyyə rəisi ord. professor, doktor Fəxrədddin K. Gökay onu 16 aprel tarixdə Baş Nazir Adnan Menderesə göndərdi[655]. Daxili İşlər Nazirliyinin 1956-cı il 21 noyabr tarixli 91116-28/81-104399, 91111-986/104400, 91116-1/24-3/104401 saylı məktublarına əsasən 5680 saylı qanunun 31-ci maddəsinə görə hökumətin 29 noyabr tarixli iclas qərarı ilə yuxarıda göstərilən nəşrlərin ölkəyə gətirilməsi və yayılması qadağan edildi[656].

Argentinada Buenos-Ayresdə və Fransada Marseldə də erməni təşkilatlarının ermənicə nəşr etdikləri və düşmənçilik təbliğatının yer aldığı "Ermənin dünya işığı" adlı kitab Türkiyəyə gətirilərək yayılırdı. Bu hərəkətlərin qarşısını almaq üçün Türkiyə Daxili İşlər Nazirliyinin 1956-cı il 28 avqust tarixli 12532-1535/2-73754 saylı məktubuna əsasən 5680 saylı qanunun 31-ci maddəsinə görə hökumətin 14 sentyabr tarixli qərarı ilə həmin kitabın ölkəyə gətirilməsi və yayılmasının qadağan edilməsi haqqında qərar qəbul edildi[657].

1959-cu il iyulun 31-də Türkiyənin Avropa İqtisadi Birliyinə üzvlük üçün müraciət etməsi erməniləri və SSRİ rəhbərliyini hərəkətə gətirdi. Xarici ölkələrlə yanaşı Ermənistanda qatı millətçi ermənilər 50-ci illərin sonlarından etibarən SSRİ-də, xüsusən Cənubi Qafqazda düşmənçiliklərini daha da artırdılar. Sovet rəhbərliyi Türkiyənin Avropa İqtisadi Birliyinə üzv qəbul edilməsini strateji maraqları baxımından arzuolunmaz hesab edirdi. SSRİ-nin bu mövqeyindən Cənubi Qafqazdakı ermənilər öz

---

[655] T.C. BCA. 030.01.116.734.10.
[656] T.C. BCA. 030.18.01.145.98.3.
[657] T.C. BCA. 030.18.01.02.144. 75. 20.

məqsədləri üçün yararlanmağa başladılar. Ermənistanda qatı milətçilik daha da artırdı.

### *Cənubi Qafqazda daşnak fəaliyyətləri*

Ermənistanda artmaqda olan qatı millətçilik özünü hətta Azərbaycan idmançıları ilə keçirilən yarışlarda da göstərirdi. Belə ki, 1959-cu il oktyabrın 11-də Kirovabadda yerli "Toxucu" və Leninakanın "Şirak" komandaları arasında keçirilən futbol oyunu zamanı erməni azarkeşlərin özlərini pis aparması nəticəsində azərbaycanlı gənclərlə toqquşma oldu. Bundan bir gün sonra, oktyabrın 12-də erməni dilində təxribatçı-millətçi şüarlarla dolu vərəqələr şəhər küçələrində yayıldı. Vərəqələrdə ermənilər işə çıxmamağa çağırılır, azərbaycanlılara qarşı kin və böhtan xarakterli müraciət edilirdi[658].

Vərəqələrin müəllifləri DTK Kirovabad şəhər şöbəsi tərəfindən müəyyən edilərək nəzarətə götürüldü. Onlardan biri 1927-ci ildə Martuni rayonunda (Xocavənd) anadan olmuş, 8 illik təhsil almış Kirovabad cihazqayırma zavodunun çilingəri Arutun Ervandoviç Arakelyan idi. Azərbaycan SSR DTK tərəfindən saxlanılan A.E.Arakelyan dindirilərkən vərəqələri özünün hazırladığını və yaydığını bildirdi. Profilaktik söhbət edildikdən sonra onu sərbəst buraxdılar. A.E.Arakelyanın vərəqələri özünün hazırlaması barədə dediklərinin heç bir əsası yox idi. Çünki 8 illik təhsili olan bir adamın belə yazılar hazırlamağa səviyyəsi çatmazdı. O, yalnız verilən tapşırığı yerinə yetirmişdi.

Qatı millətçilər 60-cı illərdə də Azərbaycana qarşı olan düşmənçilik hərəkətlərini genişləndirdilər. Bu, özünü Qafan rayonunda yerli futbol komandası ilə Bakının "Neftçi" futbol komandası arasında keçirilən oyunda göstərdi. Bir qrup ermənininin azərbaycanlı azarkeşlərə hücum etməsi və "Neftçi" komandasının oyunçularını daşa basması nəticəsində oyun dayandırıldı.

Bu hərəkətlər sovet Ermənistanında gənclərin qatı millətçilik və düşmənçilik ruhunda tərbiyə edilməsinin qəmli göstəricisi idi. Qonşu xalqlara nifrət erməni cəmiyyətində müəyyən qrupların həyat normasına çevrilmişdi.

---

[658] Ст. уполномоченный 4-го отд-я 2 отдела КГБ при Совете Министров Азербайджанской ССР капитан Мирзоян, начальник 4-го отделения подполковник Багиров. Справка о состоянии агентурно-оперативной работы по линии армянских националистов. 07.08.1962. Сов.секретно. – ARMTNA, L-164, v.343-344.

## *N.S.Xruşşovun Ermənistana səfəri erməniləri ruhlandırır*

Artıq qeyd edildiyi kimi, Türkiyə ərazisində NATO hərbi obyektlərinin mövcud olması Sovet İttifaqını narahat edirdi. Sovet rəhbərliyinin fikrincə, Türkiyə bununla ABŞ-ı və digər NATO ölkələrini SSRİ-yə qonşu etmişdi. Həmin obyektlərdəki qurğular Türkiyə ərazisindən SSRİ-nin içini görə hətta bəzi telefon danışıqlarını dinləyə bilirdilər.

Avropa İqtisadi Birliyinə üzv olmağa dair Türkiyənin müraciəti sovetlərin qayğısını daha da artırmışdı. Üzv olacağı halda, Türkiyə dövləti Avropa ölkələrini də SSRİ-yə qonşu edirdi. Türkiyə ərazisi həmin ölkələr üçün də SSRİ-nin içini görən gözlər və eşidən qulaqlar olurdu.

ABŞ-ın xarici ölkələrdəki daşnaklardan Türkiyə vasitəsi ilə SSRİ əleyhinə istifadə etməsi sovet rəhbərliyinin də buna qarşı bəzi tədbirlər almasına səbəb oldu. Bütün bu və ya digər səbəblərdən SSRİ rəhbərliyi müvafiq addımlar ataraq, xaricdəki ermənilərə yenidən isti münasibət bəsləməyə başladı. Sov. İKP MK-nın birinci katibi, SSRİ Nazirlər Sovetinin sədri N.S.Xruşşovun 1961-ci ilin may ayında Ermənistana səfəri bu baxımdan təsirli oldu. Səfər Ermənistanda sovet hakimiyyətinin qurulmasının 40 illiyi münasibəti ilə edilmişdi[659]. Ancaq məlumdur ki, Ermənistanda sovet hakimiyyəti 1920-ci ilin noyabr ayında qurulmuş, 40 illiyi isə 1960-cı ilin noyabr ayında tamam olmuşdu.

Səfər ərəfəsində Ermənistan KP MK-nın birinci katibi S.A.Tovmasyan bütün ermənilərin katolikosunu qəbul edərək, sovet rəhbəri ilə planlaşdırılan qarşıdakı görüşdə qaldırılacaq məsələləri müzakirə etdi.

Səfərinin gedişində N.S.Xruşşovun Yerevanda ABŞ, Fransa, Braziliya, Argentina, Rumıniya, Bolqarıstan və b. ölkələrdən yubiley tədbirlərinə gələn ermənilərlə görüşü təşkil edildi[660]. Görüşdə xarici ölkələrdəki erməni kilsələrinin rəhbərləri iştirak edirdilər. Xarici ermənilərin nümayəndələri N.S.Xruşşova sovet Ermənistanının 40 ildə qazandıqları uğurlardan fəxr duyduqlarını söylədilər, Ermənistanda sovet hakimiyyətinin qurulmasını ermənilərin *"ikinci doğuşu"* kimi qiymətləndirdilər, ermənilərin 19-15-ci ildə guya soyqırıma məruz qalmaları və Türkiyə ərazisindəki "erməni torpaqlarının" alınmasının, xarici ölkələrdən ermənilərin Ermənistana gətirilməsinin əhəmiyyətli olduğunu vurğuladılar. Erməni nümayəndələri əvvəlki illərdə Rusiya və digər dövlətlərə münasibətdə istifadə etdikləri ənənəvi metoddan yenidən yararlanaraq, hiyləgərliklə bildirdilər ki, *"sovet rəhbərliyi bu işi görərsə, dünya ermənilərinin rəğbətini qazanar".*

---

659 Пребывание Н.С.Хрущева в Армении. – Газ. "Коммунист", Ереван, 10.05.1961, №109(8199).

660 Беседа Н.С.Хрущева с группой зарубежных армян. – Газ. "Коммунист", Ереван, 08.05.1961, №107(8197).

N.S.Xruşşovun səfəri başa çatdıqdan az sonra Ermənistan SSR Nazirlər Sovetinin sədri A.Y.Koçinyan Fransa, ABŞ, Livan, Suriya və b. ölkələrdən Yerevana gəlmiş erməni kilsə rəhbərləri ilə görüşərək qarşıdakı fəaliyyət planını müzakirə etdi. Yerevanda görüş və keçirilən müzakirələr öz nəticəsini çox da gözlətmədi. Sovet rəhbərliyi Ermənistan SSR ərazisindən Türkiyə əleyhinə fəaliyyətlərdə ermənilərdən və kürdlərdən daha geniş şəkildə istifadə etməyə başladı. Xarici ölkələrdəki ermənilər də antitürk fəaliyyətlərini genişləndirdilər.

### *Xarici ölkələrdəki ermənilər fəaliyyətlərini artırırlar*

N.S.Xruşşovun səfərindən sonra daşnakların xarici ölkələrdə dərc etdirdikləri məqalələrdə Türkiyəyə qarşı əsassız ərazi iddiaları dolu təbliğat işləri daha da genişləndirildi. Bu baxımdan Boqdan Qembarskinin Polşada “Napravlenie” qəzetində 1961-ci ildə dərc etdirdiyi “Mənim köhnə türk tanışıma məktub” diqqəti cəlb edirdi[661]. Türkləri uydurma 1915-ci il hadisələri üstündə ittiham etməyə cəhd edən müəllif tarixi gerçəkləri kobudcasına saxtalaşdıraraq yazırdı ki, guya Kilikiyada, Van gölü ətrafında, Suriyada, Rusiya Azərbaycanında və Kars vilayətində əhalinin 60%-ni təşkil edən ümumən 3 milyon erməni həlak olmuşdur. Belə bir uydurma hesablama aparırdı ki, guya əgər ermənilər qırılmasaydı, 1961-ci ildə 10 milyon təşkil edəcəkdilər, əslində isə onların sayı yalnız 4 milyon nəfərə qədərdir. Qəribədir, az sonra müəllif özünü inkar edərək, 1915-1920-ci illərdə 2 milyon ermənini öldürüldüyünü vurğulayır və Tələt Paşanın adından belə bir yalan sitat gətirirdi:

*“Artıq “erməni məsələsi” yoxdur, çünki erməni yoxdur”.*

O, Tələt Paşanın 1921-ci ildə bir erməni tələbə, Ənvər Paşanın isə 1922-ci ildə rus patrulu tərəfindən öldürüldüyünü yazır, bir qədər də irəli gedərək İstanbulu "dünya erməni mədəniyyətinin mərkəzi" hesab edirdi. Eyni zamanda bu fikirləri ilə ermənilərin öz məqsədlərinə çatmaqda terrordan bir vasitə kimi istifadə etdiklərini təsdiq edirdi. Məktubda yazılanlar harada yaşamasından asılı olmayaraq erməni terror-siyasi təşkilatları ilə bağlı olan şəxslərin qonşu xalqlara düşmən münasibət bəslədiyini və qatı millətçilik xəstəliyinə tutulduğunu göstərirdi.

### *Cənubi Qafqazda düşmənçilik hissləri qızışdırılır*

Sovet rəhbərinin səfərindən sonra təkcə əsassız ərazi iddiaları genişləndirilmədi, eyni zamanda xarici ölkələrdən ermənilərin Ermənistana

[661] Богдан Гембарский. Письмо моему старому знакомому-турку. – Польша, Газ. “Направление”, 26.11.1961, №47; ARMTNA, L-164, v.325-337.

gətirilməsi işinə yenidən başlanıldı. Belə bir fakt diqqəti cəlb edir ki, Ermənistana xarici ölkələrdən 1920-ci ildən 1961-ci ilin ortalarınadək 200 min, 1962-1973-cü illərdə isə 26 min 100 nəfərdən çox erməni gətirilmişdi. Onlar həm Ermənistanda, həm də Azərbaycanda düşmənçilik təbliğatı aparır və milli nifaqı qızışdırırdılar. Məsələn, 1962-ci ilin əvvəllərində Xankəndində naməlum şəxslər belə bir şayiə yaymışdılar ki, guya şəhərdə yerləşən tikiş fabriki Nuxa ipək kombinatının, avtobaza isə Ağdam şəhərində yerləşən avtobazanın tabeçiliyinə verilir. Ona görə də həmin müəssisələrin işçiləri kütləvi iğtişaşlara və azərbaycanlılardan qisas almağa çağırılırdı. Azərbaycan K(b)P Dağlıq Qarabağ Vilayət Komitəsinin birinci katibi Şahnazarovun adına 1962-ci il mayın 10-da belə bir məzmunda məktub daxil olmuşdu:

*"Sizə məlumat veririk, Şahnazarov, erməni şəhəri olan Stepanakerti türklərə satmısınız, Nuxa mexaniki kombinatını (?) qaryaginlilərə, qalanlarını isə Ağdama. Ermənilərin qəddar düşməni, həyatınla risk edirsən, sənin babaların nə qədər erməni qırmışlar, indi isə sən başlamısan, sən salamat qalmayacaqsan, heyvərə. Sən bunu bilməlisən. Bu bəyanat 272 nəfərin bəyanatıdır. Biz özümüz bilirik, biz kimik və sən kimsən."*

Digər bir təxribat da törədildi. Belə bir şayiə yayılmışdı ki, guya DQMV-nin əhalisi arasında sorğu keçirilmiş və ermənilər vilayətin Ermənistana birləşdirilməsinə dair müraciətə imza atmışlar. 1962-ci ilin may ayında Azərbaycan SSR Nazirlər Soveti yanında DTK-nın DQMV üzrə şöbəsinə məlumat daxil olmuşdu ki, Stepanakert və Yerevan şəhərlərində yaşayan bəzi millətçi əhval-ruhiyyəli ermənilər vilayətdə təsərrüfatda olan qüsurlardan istifadə edərək Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsinə dair təxribatçı şayiələr yayırlar. Onlar belə şayiələri həm DQMV-də, həm də Ermənistan SSR-də yayaraq, Moskvaya müraciətlər edirdilər. Guya edilən müraciətə Mərkəzdən belə bir cavab verilmişdi ki, məsələnin müsbət həlli DQMV əhalisinin razılığından sonra mümkündür. Bu şayiəni yayanlardan biri 1924-cü ildə Martuni rayonunun Qarakənd kəndində doğulmuş, yeddiillik təhsili olan, 1946-cı ildən Sov.İKP üzvü, Stepanakert avtobazasında dəzgahçı olan Sergey Soqomonoviç Asriyan idi. S.Asriyan DQMV-nin Ermənistana birləşdirilməsi haqqında imza toplanması işi ilə bir neçə gün ərzində gizli surətdə məşğul olmuşdu. Sadə sakinlərlə yanaşı Kommunist Partiyasının üzvlərinin də imza atdıqları həmin müraciəti müvafiq orqanlar S.Asriyandan aldılar. Müraciətə avtobazanın 43 əməkdaşı və ailələri imza atmışdı. Məsələ üzrə 1962-cı il mayın 25-də izahat verən S.Asriyan dedi ki, o, cəmi 183 imza toplamış və siyahının ilk iki vərəqini avtobazanın sürücüsü Yuri Ohanesoviç Arakelyan vasitəsi ilə dayısı, Yerevan Dövlət Universitetinin professoru Arakel Gevorkeviç Arakelyana göndərmişdir. Guya imza toplanması həmin professorun təşəbbüsü ilə olmuşdu.

Y.O.Arakelyan Yerevana getdikdən sonra S.Asriyana demişdi ki, siyahını onun dayısına çatdırmışdır. Lakin Y.O.Arakelyan təhqiqatçılara bildirmişdi ki, siyahını verməmiş, cırıb avtobazanın tualetində atmışdır. Təhqiqat zamanı Y.O.Arakelyanın dediklərinin həqiqətə uyğun gəlmədiyi məlum oldu. DQMV-nin Ermənistana birləşdirilməsinə dair imza toplanması kampaniyası təşəbbüsü Arakel Gevorkoviç Arakelyandan gəlmişdi. Bundan əlavə, imza toplanması cəhdlərinin Stepanakert avtobazasında, Ticarət Nazirliyinin avtokolonunda və Vilayət Dövlət Sığorta İdarəsində də edildiyi müəyyənləşdirildi. Birinci halda bu təşəbbüsü Y.O.Arakelyanın qardaşı sürücü Edik Ohanesoviç Arakelyan, ikinci halda isə onun bacısının əri, mühasib Sergey Baxşiyeviç Ayrapetyan etmişdi. S.Asriyan barədə məsələ Stepanakert rayon Partiya Komitəsinin bürosunda müzakirə edildi və o, Sov.İKP üzvlüyündən çıxarıldı[662].

Bu zaman Azərbaycan SSR Nazirlər Soveti yanında DTK Yerevanda işləyən bir qrup qarabağlı erməninin Moskvaya məktub göndərərək DQMV-nin Ermənistana birləşdirilməsini xahiş etməsi barədə məlumat almışdı. Guya məktuba alimlər, elm və incəsənətin müxtəlif sahələrinin tanınmış adamları, o cümlədən professor Arakel Arakelyan, xalq rəssamı Martiros Saryan da imza atmışdılar. Bu işin təşkilatçısı DQMV-nin Hadrut rayonunda doğulmuş, Yerevan Dövlət Universitetinin dosenti, fizika-riyaziyyat elmləri namizədi Nikolay Qasparyan idi.

Təxribatçi, millətçi təzahürlər Yerevan Politexnik İnstitutunun və Pedaqoji İnstitutunun, həmçinin bəzi texnikumların tələbələri arasında da mövcud idi. Yerevan Pedaqoji İnstitutunun tələbəsi Aqaronov DQMV-də yaşayan valideynlərinə göndərdiyi məktubunda yazırdı ki, onlar Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün nümayiş-mitinq təşkil etməyə hazırlaşırlar.

Təxribatçı hərəkətlərin qarşısının alınması üçün müəyyən tədbirlər həyata keçirildi. Lakin xarici ölkələrdən dəstəklənən əsassız ərazi iddialarını dayandırmaq mümkün olmadı.

Sovet xüsusi xidmət orqanlarının məlumatına görə hələ 1961-ci ilin noyabr ayının sonlarında ABŞ kəşfiyyatının nümayəndəsi Livana gələrək Daşnaksütyunun xarici bürosunun rəhbər xadimlərindən olan Ter-Qalustyan, Aram Saakyan, Ervand Navasardyan və başqaları ilə görüşmüşdü[663]. Bu barədə məlumat alan SSRİ Nazirlər Soveti yanında DTK 2-

---

[662] ARMTNA. 1962.

[663] Комитет Государственной Безопасности при Совете Министров СССР. 2 Главное Управление – начальнику 2 отдела Комитета Госбезопасности при Совета Министров Азербайджанской ССР подполковнику тов. Алиеву Г.А. 07.02.1962. №2.II-383. Сов.секретно. – ARMTN muzeyinin materialları.

ci baş idarəsindən 1962-ci il fevralın 7-də Azərbaycan SSR Nazirlər Soveti yanında DTK 2-ci şöbəsinin rəisi podpolkovnik Heydər Əliyevə göndərilən tamamilə məxfi məktubda yazılırdı ki, Livanda keçirilən müşavirədə daşnakların SSRİ-yə qarşı kəşfiyyat fəaliyyətinin aktivləşdirilməsi, xarici ermənilərin Sovet İttifaqına gətirilməsinə dair sovet hökumətinin qərarını pozmağa yönəlik tədbirlərin qəbul edilməsi, həmçinin casus fəaliyyətləri üstündə Suriyada 1961-ci ildə həbs edilmiş daşnakların azad olunması haqqında məsələ müzakirə edilmiş, amerikalılar həmin məqsədlə 50 min dollar xərcləmişlər[664].

Bu məsələlər üzrə Daşnaksütyunun xarici bürosu tərəfindən həmhüdud ölkələrin ərazilərindən gətirilmiş ermənilərin xətti ilə təxribat törətmək məqsədilə agentura hazırlamaq və Ermənistan SSR-ə göndərmək; SSRİ-yə turist qrupları və ayrı-ayrı ermənilərin qohumlarının yanına getmələrindən casus məqsədləri üçün istifadə etmək; ermənilərin Sovet İttifaqına qarşıdakı köçürülməsini bütün vasitələrlə, o cümlədən köçürülməyə fəal kömək edən şəxslərə qarşı terror aktlarının törədilməsinə qədər pozmaq barədə qərar qəbul edilmişdi. Daşnaklar bu işi erməni əhalisinin olduğu bütün ölkələrdə həyata keçirtmək niyyətində idilər. Onlar ümumi sərhədin olduğu İrana xüsusi yer verirdilər.

Məktubda qeyd olunan məsələlər öyrənildi və müvafiq tədbirlər həyata keçirildi. Heydər Əliyev və DTK 4-cü bölməsinin rəisi podpolkovnik F.Bağırov 1962-ci il iyunun 20-də SSRİ Nazirlər Soveti yanında DTK 2-ci baş idarəsinin II şöbəsinin rəisi polkovnik V.M.Xamazyuka 2-3804 №-li tamamilə məxfi cavab məktubu göndərdilər[665]. Məktubda Azərbaycan SSR ərazisində 60 nəfər keçmiş daşnak və digər erməni burjua millətçisinin qeydə alındığı yazılırdı. Onlar əsasən Bakı, Kirovabad, Stepanakert və Naxçıvanda yaşayırdılar. Həmin kontingentdən əvvəllər təhlükəsizlik orqanları tərəfindən 15 nəfər öyrənilmiş, müxtəlif vaxtlarda iş dayandırılmış və arxivə verilmişdi. Bu iş üzrə adı keçən şəxslər arasında operativ diqqəti cəlb edən bir neçə adam var idi. Onlardan biri 1897-ci ildə anadan olmuş, Ermənistan SSR Gorus rayonu Xundzoresk kəndinin sakini, Bakıda yaşayan Sumbat Martirosoviç Şahzadov, digəri isə Azərbaycan SSR DQMV Mardakert rayonu Leninakan kəndində yaşayan 1873-cü ildə anadan olmuş keçmiş daşnak Avak Ayrapetoviç Babayan idi. O, Gorus rayo-

---

[664] Yenə orada.

[665] Начальник II отдела КГБ при Совете Министров Азербайджанской ССР подполковник Г.Алиев, начальник 4-го отделения подполковник Багиров – начальнику II отдела 2 главного Управления Комитета Госбезопасности при Совете Министров Союза ССР полковнику товарищу Хамазюку В.М. 20.06.1962. Сов.секретно. – ARMTNA, L-164, v. 356-363.

nunun sakini olmuşdu. Müharibədən sonra Fransadan qayıtmayan oğulları Aleksan Babayan və Asçatur Babayan ilə 1946-cı ildən etibarən məktublaşırdı. Avak Babayan uzun müddət SSRİ-nin şimalında sürgündə olmuşdu. Vəziyyətinin ağırlığı haqqında oğullarına məktub yazdıqdan sonra Fransadan bağlamalar almağa başlamışdı.

Bütün bunlara dair Ermənistan SSR DTK-ya məlumat verildi. Eyni zamanda DQMV-də ayrı-ayrı şəxslər tərəfindən millətçi təzahürlərin qarşısının kəsilməsi üçün zəruri tədbirlər həyata keçirildi.

Lakin düşmənçilik hərəkətləri dayanmamışdı. Belə hərəkətləri edənlərdən biri A.Mnaçakanyan idi. Onun Bakıdan Livan, pr.Beyrut B.P.756 ünvanda yaşayan Jirair Tosunyan adlı bir şəxsə məktub göndərdiyi 1962-ci il iyunun 12-də "PK" (Poçt nəzarəti) xidməti vasitəsi ilə müəyyənləşdirildi. Təhqiqat zamanı məktub müəllifinin 1913-cü ildə anadan olmuş, Ermənistan SSR Elmlər Akademiyasının əməkdaşı işləyən tarix elmləri doktoru Armavir Navasardoviç Mnaçakanyan olduğu üzə çıxdı. O, 1962-ci il iyunun 9-dan 19-dək Bakıda Partiya Tarixi İnstitutunun filialında Azərbaycan tarixi muzeyinin direktoru Püstəxanım Əzizbəyova və digər alimlərin tərtib etdikləri "Sovet Rusiyasının Zaqafqaziya xalqlarına yardımı" adlı kitabın rəyləşdirilməsi məqsədi ilə ezamiyyətdə olmuşdu. Lakin A.N.Mnaçakanyan təkcə elmi ezamiyyət məsələləri ilə məşğul olmamış, gizli daşnak niyyətlərini həyata keçirtmək üçün J.Tosunyana məktubla yanaşı erməni tarixçisi Q.Vardanyanın 1962-ci ildə Ermənistanda nəşr edilmiş "Bolşeviklərin Zaqafqaziyada millətçiliyə qarşı mübarizə tarixi" adlı kitabından ayrı-ayrı vərəqləri də göndərmişdi. Məktubunda A.N.Mnaçakanyan yazırdı ki, yaxın keçmişdə erməni azadlıq hərəkatından bəhs edən bu kitabın da səhifələrini oxuyun, necə də yanlış izah edirlər, oxuyun və özünüz bu məsələyə dərindən bələd olun. "Eritasart Hayastan" ("Gənc Ermənistan") və "Ararat" qəzetlərindən olan ifadələri görürsünüz, başqa cür izah edilir və ələ salınır. Bu məsələlərin dərin kökləri vardır. Sizin qəzet ədalətsiz tənqidə qarşı çıxış etmir. Ədalət deyir ki, Q.Vardanyanın kitabında tarix yoxdur, həyasız böhtan, yalan, axmaq və qaranlıq adamın axmaqlığı vardır. Lakin onun bu baxışları kimlərəsə xoş gəlir, hətta elə şəxslərə ki, onlar öz nitqlərində sizin sözləri sitat gətirirlər, yoxsa belə axmaqlıqlar nəşr edilməzdi.

Qeyd etmək lazımdır ki, A.N.Mnaçakanyan hələ 1956-cı il oktyabrın 3-də "Sovetakan Hayastan" ("Sovet Ermənistanı") qəzetində dərc etdirdiyi məqaləsində bolşevikləri Qərb ermənilərinin (Türkiyənin şərq vilayətləri nəzərdə tutulur – M.Q.) milli-azadlıq mübarizəsinə və bütövlükdə "erməni məsələsi"nə laqeyd qaldıqlarına görə tənqid etmişdi. Q.Vardanyan isə kitabında A.N.Mnaçakanyanın bu tezisini tənqid edərək

yazmışdı ki, belə ittihamları daşnaklar bolşeviklərə bildirirdilər. Daha sonra Q.Vardanyan yazırdı ki, A.N.Mnaçakanyan tarixi faktları təhrif edir, Qnçakın ziyanlı və millətçi fəaliyyətini əsassız yerə tərifləyir, bolşeviklərin onlara verdikləri qiyməti təftiş edir.

A.N.Mnaçakanyan hətta Qnçak təşkilatının Nyu Yorkda nəşr edilən "Molodaya Armeniya" adlı jurnalının 1957-ci il 17 yanvar tarixli sayında dərc etdirdiyi "Gecikmiş etiraf" adlı məqaləsində də eyni fikirləri vermişdi. Onun bu səhv mövqeyini "Voprosı istorii KPSS" jurnalının 1958-ci il 4-cü nömrəsində M.A.Zotov və Q.N.Şanşiev ciddi tənqid etmişdilər[666].

Şəxsiyyəti operativ maraq kəsb etdiyindən və Yerevanda yaşadığından Azərbaycan SSR DTK A.N.Mnaçakanyanın haqqında "K" sənədi müfəssəl arayışla 1962-ci il iyunun 30-də Ermənistan SSR DTK-ya nəzarət üçün göndərdi. Lakin bunun elə bir nəticəsi olmadı. Belə ki, A.N.Mnaçakanyan az sonra, 1965-ci ildə "Erməni xalqının faciəsi rus və dünya ictimai fikrinin qiymətləndirilməsində" adlı kitabını nəşr etdirdi. Burada 1890, 1915-1916-cı illərdə guya Osmanlıda ermənilərin düşdüyü faciələrə rus və dünya ictimai fikrinin münasibətini müəllif, tarixi kobudcasına saxtalaşdıraraq, istədiyi kimi təqdim edirdi. Əslində Ermənistandakı müvafiq qurumlar onun fəaliyyətini təşviq edirdilər.

Elə şəxslər də var idi ki, onlar erməni millətçiləri cərgəsinə daxil olmasalar da, xarici ölkələrdə qohumları yaşadığından və yazışmalar apardıqlarından əməliyyat marağı kəsb edirdi. Məsələn, 1962-ci ilin aprel ayında agent "İvanov" məlumat vermişdi ki, Kirovabad şəhər sakini Yerem Abramyan Yerevanda (?) yaşayan dayısı Yeqor Xristoforoviç Ter-Avetikyandan bir məktub almışdır[667]. Dayısı yazmışdı ki, əgər imkan olsa, yaxınlarda bir qrup erməni ilə birlikdə SSRİ-yə daimi yaşamağa gələcəkdir.

Bəs Y.X.Ter-Avetikyan kim idi? Məşhur daşnaklardan biri olan Y.X.Ter-Avetikyan Azərbaycanın Dağlıq Qarabağ bölgəsində daşnak avantürası zamanı polkovnik rütbəsində olmuş, silahlı dəstələrin qərargah rəisi vəzifəsində işləmiş, 1920-ci ildə İrana mühacirət etmiş, burada Daş-

---

666 Зотов М.А., Шаншиев Г.Н. Против нарушения ленинского принципа партийности в науке (О некоторых изданиях армянского филиала института марксизма-ленинизма при ЦК КПСС). – Журн."Вопросы истории КПСС", 1958, №4, с.170-177.

667 Məktubun göndərildiyi ünvan sənəddə səhv olaraq Yerevan göstərilmişdir. Azərbaycan SSR Nazirlər Soveti yanında DTK 2-ci şöbəsinin rəisi podpolkovnik H.Əliyevin və 4-cü şöbənin rəisi podpolkovnik F.Bağırovun SSRİ Nazirlər Soveti yanında DTK 2-ci baş idarəsinin 2-ci şöbəsinin rəisi polkovnik V.M.Xamazyuka yazdıqları tamamilə məxfi məktubda göndərilən məktubun ünvanı düzgün olaraq İran kimi göstərilmişdir. – ARMTNA, L-164, v.361.

naksütyun rəhbərliyinə daxil olmuş və qatı millətçilik fəaliyyətini davam etdirmişdi. 1956-cı ildən etibarən Azərbaycan SSR Kirovabad və Daşkəsən şəhərlərində yaşayan qohumları ilə yazışırdı. SSRİ DTK 4-cü idarəsinin 1957-ci il 25 aprel tarixli 4/s/771 №-li tamamilə məxfi məktubundan aydın olurdu ki, təhlükəsizlik orqanları Y.X.Ter-Avetikyanın SSRİ-yə səfəri ilə bağlı tədbirlər həyata keçirtmişdi. Nəticədə o, keçmişdə törətdiyi əməllərə görə repressiya olunacağından qorxaraq gəlməkdən imtina etmişdi.

Azərbaycan SSR Nazirlər Soveti yanında DTK 2-ci şöbəsinin 4-cü bölməsinin baş əməliyyat müvəkkili kapitan Mirzoyan və 4-cü şöbəsinin rəisi podpolkovnik F.Bağırov 1962-ci il avqustun 7-də tamamilə məxfi qrifi altında hazırladıqları arayışda yazırdılar ki, Azərbaycan ərazisində 60 nəfərədək keçmiş daşnak və digər erməni millətçiləri vardır[668]. Onlar əsasən Bakı, Kirovabad, Stepanakert və Naxçıvanda yaşayırdılar. Məsələn, Martunidə doğulmuş, Bakıda yaşayan daşnak Sergey Qriqoryeviç Stepanyan (əslində o, Bədəlov Sergey Sarkisoviç idi) 1918-1919-cu illərdə Dağlıq Qarabağ regionunda silahlı dəstələrə başçılıq etmiş, dinc azərbaycanlı əhalini məhv və talan etmişdi. İkinci dünya müharibəsindən sonra 1949-cu ildə Altay vilayətinə sürgün edilmiş, 1955-ci ildə isə oradan qayıtmışdı.

Tbilisidə doğulmuş, Bakıda yaşayan Aram Fadaeviç Verdiyan (Usikoviç) daşnak dəstələrinin rəhbərlərindən və təşkilatçılarından biri olmuşdu. 1918-1920-ci illərdə azərbaycanlıların kütləvi surətdə öldürülməsində fəal iştirak etmişdi.

Bütün bu faktlar ölkə ərazisində, o cümlədən Azərbaycanda daşnakların öz fəaliyyətlərini gizli olaraq davam etdirdiklərini, xalqlar arasında dostluğa ziyan vurduqlarını və niyyətlərini həyata keçirtmək üçün əlverişli anın gəlməsini gözlədiklərini göstərirdi. Sovet rəhbərliyinin daşnaklara qarşı gördüyü tədbirlər isə soyuq müharibə şəraitində iki sistem ölkələri arasında gedən amansız mübarizədə SSRİ-nin maraqlarının təmin edilməsi üçün qəbul edilirdi. Xarici dövlətlər daşnaklardan SSRİ-yə qarşı istifadə etdikləri üçün, sovet dövləti də Ermənistan SSR-dəki ermənilərdən və kürdlərdən Türkiyəyə qarşı istifadə edirdi. Bir məsələni vurğulamaq lazımdır ki, daşnakların və Ermənistandakı ermənilərin Azərbaycana və Türkiyəyə baxışlarında fərq mövcud deyildi. Hər ikisi Azərbaycana da, Türkiyəyə də düşmən münasibət bəsləyirdilər. Ermənistan SSR-dəki bir çox erməni kommunistləri əvvəllər də qeyd edildiyi kimi, əslində kommunist

---

[668] Ст.оперуполномоченный 4-го отд-я 2 отдела КГБ при Совете Министров Азербайджанской ССР капитан Мирзоян, начальник 4-го отделения подполковник Багиров. Справка о состоянии агентурно-оперативной работы по линии армянских националистов. 07.08.1962. Сов.секретно. – ARMTNA, L-164, v.338-353.

maskası altında daşnak siyasətini davam etdirirdilər. Hətta Moskvada ən yüksək mövqelər tutan erməni kommunistlərinin daşnaklardan heç bir fərqi yox idi. Onlar da sovet rəhbərliyindən əsassız ərazi iddialarının yerinə yetirilməsini xahiş edirdilər. Beləlÿrindən biri A.Mikoyan idi.

### *A.Mikoyanın xahişi və N. Xruşşovun cavabı*

Sovet dövlət hakimiyyətində tutduğu mövqeyindən sui-istifadə edən A.Mikoyan 1964-cü ilin əvvəllərində SSRİ rəhbəri N.S.Xruşşova Azərbaycan SSR DQMV-nin Ermənistana birləşdirilməsinə dair avantürist bir təklif etdi. Ermənilərə isti münasibət bəsləməsinə baxmayaraq, N.S.Xruşşov həmin təklifi rədd etdi və bildirdi ki, DQMV-dəki ermənilərin Ermənistana bir sutka ərzində köçürülməsi üçün 12 min hərbi yük maşını verməyə hazırdır[669]. Rüsvay olan A.Mikoyan geri çəkildi.

N.Xruşşovun belə bir sərt cavab verməsi səbəbsiz deyildi. O, ermənilərin Cənubi Qafqaza gətirilib yerləşdirilməsi, DQMV-nin yaradılması tarixini və ermənilərin iddialarının əsassız olduğunu yaxşı bilirdi. Eyni zamanda başa düşürdü ki, SSRİ-də ərazi mübahisələri çoxdur və belə bir addımın atılması ölkədə pis hadisələrə gətirib çıxara bilər. Bunun da acınacaqlı nəticələri olar.

Bu zaman daşnaklar təkcə Azərbaycana qarşı fəaliyyət göstərmirdilər. Onların hədəfində Türkiyə də başlıca yer tuturdu. 50-ci illərin sonları – 60-cı illərin əvvəllərindən etibarən ermənilərin Türkiyə əleyhinə fəaliyyətləri artmışdı. Bu da səbəbsiz deyildi.

### *Uydurma erməni soyqırımı məsələsi gündəliyə gətirilir*

Artıq qeyd edildiyi kimi, Türkiyənin 1952-ci ildə NATO-ya üzv olması, bir neçə il sonra isə amerikan hərbi obyektlərini öz ərazisində yerləşdirməklə ABŞ-ı SSRİ-nin qonşusu etməsi sovet rəhbərliyinin ciddi narahatlığına səbəb olmuşdu. O, Türkiyəni NATO-nun əlində SSRİ-yə qarşı yönələn bir ölkə olaraq görmək istəmirdi.

50-ci illərin sonlarından etibarən Türkiyənin Avropa İqtisadi Birliyinə üzv olmaq üçün müraciət etməsi SSRİ rəhbərliyinin narahatlığını daha da artırdığından ona hər vasitə ilə mane olmağa çalışırdı. Belə vasitələrdən biri tarixdə heç bir zaman olmayan "erməni soyqırımı" deyilən bir məsələnin gündəliyə gətirilməsi oldu.

İş təkcə bununla bitmirdi. 50-ci illərin sonları – 60-cı illərin əvvəllərində etibarən SSRİ –Türkiyə münasibətlərini normallaşdırmaq üçün atı-

---

[669] Помпеев Ю. Кравовый омут Карабаха. Баку, 1992, с.19-20.

lan addımlar da ABŞ-da narahatlıq yaratmışdı. Belə bir şəraitdə baş verən Kipr hadisələrində amerikan hökumətinin ABŞ-ın müttəfiqi olan Türkiyənin haqlı mövqeyini müdafiə etməməsi ermənilərin işinə yaradı. Xüsusən, ABŞ Prezidenti Lindon Consonun 1964-cü il 5 iyun tarixdə İsmət İnönüyə göndərdiyi məlum məktubu Türkiyədə çoxlu suallar doğurdu[670]. Ermənilər yaranmış şəraitdən yararlanmaq üçün hərəkətə keçdilər. SSRİ DTK-nın nəzarətində olan Eçmiadzin kilsəsinin başçısı I Vazgen 1964-cü il avqustun 16-da, ABŞ MKİ-nin nəzarətində olan Antilas katolikosu I Xoren isə üç gün sonra, avqustun 19-da bəyanat yaydılar[671]. Bəyanatların hər ikisində 1915-ci il uydurma erməni soyqırımının ildönümünün yaxınlaşdığı bildirilirdi. I Vazgenin müraciətində 1965-ci ilin bütün erməni xalqı və kilsəsi üçün matəm ili elan olunması təklif edilirdi. Aprelin 24-də bütün erməni kilsələrində matəm tədbirləri, konfranslar keçirilməli, ədəbiyyatlar nəşr edilməli və ölənlərin xatirəsi anılmalı idi. Müxtəlif yerlərdə tərtib edilsələr də, müraciətlərin hər ikisi mahiyyətcə eyni idi. Belə yanaşma təkcə 1915-ci ildə Birinci dünya müharibəsinin gedişində hərbi əməliyyatlar zamanı, qarışıqlıq dövründə baş vermiş hadisələrlə bağlı olmayıb, Türkiyənin Avropa Birliyinə üzvlüyünə və Kipr məsələsində milli maraqlarının reallaşdırılmasına mane olmaq niyyətləri güdürdü.

1964-cü ilin dekabr ayından etibarən bəzi xarici ölkələrdəki erməni təşkilatları 50 il əvvəl olub-olmadığı bilinməyən və əslində olmayan "soyqırımı" bəhanə edərək Türkiyə əleyhinə geniş çirkin, böhtan dolu kampaniyaya başladılar. Bunun üçün bütün mümkün vasitələrdən istifadə edilirdi.

Türkiyəyə qarşı əsassız ərazi iddiaları 1965-ci ildə daha da genişləndi. Uydurma soyqırım günü Livanda Beyrutda ermənilər küçələrə çıxaraq Türkiyə əleyhinə mitinq keçirtdilər və antitürk şüarlar səsləndirdilər.

Türkiyə əleyhinə düşmənçilik Ermənistanda uydurma erməni soyqırımının 50 illiyinin keçirildiyi günlərdə özünü daha qabarıq şəkildə göstərdi. Aprelin 20-də Yerevan Dövlət Universitetinin yeni binasında Ermənistan Elmlər Akademiyasının və Universitetin ermənilərin uydurma soyqırımının 50 illiyinə həsr edilmiş elmi sessiyası oldu. Şübhəsiz, Mərkəzin icazəsi olmadan SSRİ-ni təşkil edən bir respublikada belə bir sessiyanın keçirilməsi mümkün deyildi.

Sessiyanı giriş sözü ilə EA-nın prezidenti V.A.Ambartsumyan açdı. Hüquq elmləri doktoru, professor A.Yesayan başdan-başa yalanlar üzərində hazırlanmış "Osmanlı imperiyasında erməni xalqının soyqırımı və beynəlxalq imperializm" adlı məruzə ilə çıxış etdi. Digər çıxışçılar da ta-

---

[670] Bax: Гасымлы М. СССР – Турция: от нормализации отношений до новой холодной войны (1960-1979 гг.) М., 2008, s.88.
[671] Şimşir N. Bilal. Ermeni meselesi. 1774 -2005. Ankara, 2005, s.220-223.

rixdə heç bir zaman olmayan uydurma soyqırımından söz açaraq, onu "əsaslandırmağa" çalışdılar[672].

Aprelin 21-də isə Yerevanda incəsənət işçiləri evində Ermənistanın ali məktəblərində təhsil alan xarici ölkələrdən olan erməni tələbələrin iştirakı ilə uydurma soyqırımına həsr edilmiş gecə keçirildi[673]. Gecəni giriş sözü ilə xaricdə yaşayan ermənilərlə mədəni əlaqələr komitəsinin sədri V.Amazaspyan açdı. Çıxış edən şair Gevorq Emin tarixi həqiqətləri kobudcasına saxtalaşdıraraq, Türkiyənin şərq vilayətlərini nəzərdə tutub dedi: "Sultan Türkiyəsinin hakimləri Qərbi Ermənistanın şəhər və kəndlərinin dinc əhalisini məhv etmiş, günahsız insanların qanını tökmüşlər".

Akademik A.Şaginyan, tələbələr A.Arabyan, M.Adamyan, T.Torosyan və şair Silva Kaputikyan da böhtan dolu çıxışlar etdilər. S.Kaputikyan nitqində vurğuladı ki, bu günləri biz özünəməxsus qeyd edirik, Matenadaranda abidə tikirik.

Aprelin 24-də isə A.Spandaryan adına Yerevan Dövlət Akademik Opera və Balet Teatrının binasında şəhər ictimaiyyəti nümayəndələrinin uydurma soyqırımına həsr edilmiş toplantısı keçirildi. Rəyasət Heyətində Ermənistan rəhbərləri Y.Zarobyan, A.Koçinyan, H.Arutunyan, E.Asatryan, O.Baqdasaryan, D.Draqunskiy, , M.Melkonyan, Q.Ter-Qazaryan, B. Muradyan, S.Arakelyan, S.Poqosyan, nazirlər, yazıçı, şair və alimlər əyləşmişdilər. Bütün ermənilərin katolikosu I Vazgen, həmçinin Suriya, Fransa, Livan, İran və digər ölkələrdən gəlmiş 200-ə yaxın erməni də toplantıda iştirak edirdi.

Toplantını açan Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin sədri H.Arutunyan bu günü bir daha təkrarlanmayacağı inamı ilə xatırlayaraq, "soyqırımı" siyasətini ittiham etdi. Məruzə edən Ermənistan EA-nın prezidenti V.A.Ambartsumyan bütün tarixi gerçəklikləri kobudcasına saxtalaşdıraraq, erməni silahlı bandalarının dinc türk, müsəlman əhalini qəddarlıqla kütləvi şəkildə öldürməsi haqqında heç bir kəlmə işlətməyərək, ədalət hissini itirərək bildirdi ki, guya "sultan Türkiyəsinin müstəmləkəçiləri əvvəlcədən hazırladıqları planı həyata keçirtdilər, Qərbi Ermənistanda erməni əhalisini kütləvi şəkildə məhv etdilər" [674].

Bu fikirlər tamamilə cəfəngiyyat və qarayaxma idi. Əslində Birinci dünya müharibəsi illərində erməni bandaları dinc türk, müsəlman əhalini Şərqi Anadoluda, Cənubi Azərbaycanda və Cənubi Qafqazda amansızlıqla öldürmüşdülər.

---

[672] Научная сессия. – Газ."Коммунист", Ереван, 23.04.1965, №95 (9402).
[673] Живет и процветает армянский народ. Встреча со студентами-армянами из-за рубежа. – Газ."Коммунист", Ереван, 23.04.1965, №95 (9402).
[674] Собрание представителей общественности Еревана. – Газ. "Коммунист", Ереван, 1965, 25 апреля, №96 (9403).

İclas keçirilən zaman düşməncəsinə bir hadisə baş verdi. Yerevan küçələrinə çıxaraq qatı antitürk şüarları və Türkiyəyə qarşı əsassız ərazi iddiaları səsləndirən 25 min gənc əbədi məşəl önünə getdikdən sonra aralarından bir qrup ayrılaraq toplantının keçirildiyi teatr binasına daxil olaraq qarışıqlıq saldı. Bu, erməni gənclərinin əhval-ruhiyyəsini Mərkəzə göstərmək üçün Ermənistan rəhbərliyi tərəfindən hiyləgərliklə hazırlanmış bir oyun idi. Heç əbəs deyildir ki, sonralar erməni qəzetləri həmin hadisəni yalnız matəm günü kimi deyil, "milli tarixin yaddaş səhifəsi" kimi qiymətləndirirdi[675]. Ermənistan mətbuatında Q.Qaloyan, Dj.Kirokosyan, M.Nersisyan və başqalarının uydurma soyqırımına həsr olunmuş məqalələri dərc edildi[676].

Həmin gün sahəsi 200 hektardan çox olan Çiçernakaberd parkında uydurma "soyqırım" qurbanlarının xatirəsinə ucaldılacaq abidənin təməli qoyuldu. Bununla da uzun illər boyu uydurulmuş tarix, təbliği genişləndirilən türk düşmənçiliyi və nifrət pozulmaz daşlara həkk edilirdi. Artıq türkə nifrət edən, gerçək tarixi bilməsə belə, həmin hadisələr barəsində xəstə təfəkkürlü istəyinə uyğun olaraq əvvəlcədən nəticə çıxaran bir erməni gəncliyinin yetişdirilməsi çətin iş deyildi. Belə bir abidənin tikilməsi iki dünya sistemi ölkələri arasında mübarizənin getdiyi bir şəraitdə NATO blokunun üzvü olan Türkiyəyə qarşı sovet siyasətinin həyata keçirilməsinə yarayırdı. Bununla da Ermənistan sovet – türk münasibətlərində bir alətə çevrilirdi.

### *Erməni iddialarına Türkiyədən cavab*

Xarici ölkələrdəki ermənilərin Türkiyə əleyhinə fəaliyyətlərinə cavab özünü çox da gözlətmədi. Karsdan seçilmiş millət vəkili Həsən Ərdoğan Türkiyə Millət Məclisinin hələ 1965-ci il 21 aprel tarixli iclasında söz alaraq qonşu ölkələrdəki Anadolu əsilli ermənilərin Türkiyə əleyhinə nümayişlər təşkil etmək istədiklərini diqqətə çatdıraraq dedi:

"*Dostlar, xaricdəki ermənilər türklərin ermənilərə qarşı törətdikləri soyqırımının 50 illiyini qeyd edəcəklər. Təəssüf olsun ki, bu ildönümü ermənilərin türklərə qarşı törətdikləri soyqırımının, faciələrin 50-ci ildönümüdür. Bu, bizim üçün, Şərqlilər üçün hüznvericidir. Biz Atatürkün cızdığı yol*

---

[675] Самян Р. Цицернакаберд. – Газ. "Коммунист", Ереван, 24.04.1989, №97 (16664).

[676] Галоян Г., Киракосян Дж. От трагедии к возрождению. – Газ. "Коммунист", Ереван, 24.04.1965, №96 (9403); Нерсисян М., Ушаков Н. Геноцид – тягчайшее преступление перед человечеством. – Газ. "Коммунист", Ереван, 25.04.1965, №97 (9404).

*ilə gedən yeni türk dövləti bunları tarixə gömdük və bunların yenidən alovlanmasını istəmirik. Fəqət vətəndaşlarımızın qəlbindən silinməmişdir"* [677].

Millət vəkili daha sonra erməni silahlı bandalarının 1914-1918-ci illərdə Van, Kars, Ərzurum, Adana, Antep və digər yerlərdə dinc türk, müsəlman əhalinin amansızlıqla öldürməsinə dair konkret faktları diqqətə çatdırdı. Bunlar dəhşətli faktlar idi.

Uydurma soyqırımının 50 illiyinin Ermənistan SSR-də qeyd edilməsindən sonra Türkiyə hökuməti bəzi tədbirlər almalı oldu. Baş Nazir İsmət İnönünün istəyinə uyğun olaraq Baş Nazirliyin V İdarəsi tərəfindən 1965-ci il aprelin 28-də bir arayış hazırlandı. Arayışda yazılırdı ki, 1965-ci ilin yanvar ayında BMT Baş Məclisində çıxış edən Kipr Respublikasının xarici işlər nazirinin uydurma erməni soyqırımı hadisələrinə istinad etməsi Türkiyə əleyhinə fəaliyyətin mənşəyi haqqında fikir yürütməyə əsas verir. Türkiyə tərəfi müvafiq nazirliklərə və idarələrə xəbər alınan kimi bu fəaliyyətlərə qarşı çalışmalar aparmaq barədə göstəriş və təlimatlar vermişdi. Xarici İşlər Nazirliyi də məsələ ilə bağlı olaraq bir sıra dövlətləri xəbərdar etmiş, ermənilərin 50 il əvvəlki hadisələrdən siyasi məqsədlər üçün istifadə etmək niyyətlərini bildirmişdi. Xarici ölkələrdəki diplomatik nümayəndəliklərə müvafiq məlumat və avadanlıq verilmişdi. Arayışda həmin çalışmaların fayda verdiyi vurğulanırdı. Tarixi həqiqətlərin təhrif edilməsi surətilə Türkiyə Cümhuriyyəti ilə heç bir əlaqəsi olmayan bəzi hadisələrin yarım əsr sonra müəyyən siyasi məqsədlər və niyyətlərə uyğun bir şəkildə ortaya atılmaq istənməsi bu kampaniyanın keçirildiyi bəzi ölkələrin mətbuatının da diqqətindən kənarda qalmamışdı. Həqiqətləri görən bir çox erməni həmin kampaniyaya alət olmamışdı. Türkiyənin erməni əsilli vətəndaşları da verdikləri bəyanatlarında kampaniyanın gerçək mahiyyətini üzə çıxartmış və etiraz əlaməti olaraq hətta aprelin 24-də İstanbulda Taksim meydanına gedərək Cümhuriyyət abidəsinə çiçək də qoymuşdular[678].

Bu zaman ermənilərin Livan və Suriyada da Türkiyə əleyhinə mitinqlər keçirtmələri türk hakimiyyətinin etirazına səbəb oldu. Uşakdan seçilmiş millət vəkili Əhməd Taxtaqılınc Türkiyə Millət Məclisinin 1965-ci il 4 may tarixli iclasındakı çıxışında dedi ki, heç bir dövlət Türkiyə qədər xəyanətlər görməmişdir, tarixi gerçəklikləri xaricdə yaymaq lazımdır[679].

Türkiyənin müttəfiqi olan bəzi Qərb ölkələrinin də erməniləri müdafiə etməsi türk hökumətinin qayğılarını artırırdı. Tokatdan seçilmiş mil-

---

677 Türkiye Millet Meclisi Tutanak Dergisi. Dönem 1. Cilt 38. Toplantı 4. 92. Birleşim. 21.04.1965, s.231-232.

678 T.C. BCA. 030.01.64.395.9.

679 Türkiye Millet Meclisi Tutanak Dergisi. Dönem 1. Cilt 38. Toplantı 4. 97. Birleşim. 04.05.1965, s.449.

lət vəkili Zeyyat Kocamemi Millət Məclisinin 1965-ci il 25 may tarixli iclasında etdiyi çıxışında həmin hərəkatlərə cavab olaraq dedi:

*"Dostlar, bir də son günlərin aktual mövzularından erməni hadisəsi vardır. Zamanında özümüzü kafi dərəcədə müdafiə edib təbliğatımızı apara bilmədiyimiz qənaətindəyəm. Hələ San-Stefano müqaviləsindən etibarən "Vilayəti Sidde" deyə Şərq vilayətlərimizi bir erməni respublikası halına gətirmək istəyənlərin hərəkətlərini bir-bir onların üzünə vurmaq lazım idi. İddia etdikləri kimi, türkün heç bir zaman zülmə vasitə olmadığını bütün açıqlığı ilə bildirmək lazım gəlirdi. Türk onların iddia etdiyi kimi, ədalət yaymağa deyil, ölüm saçmaya getmiş olsaydı, onda Qanuninin* (Qanuni Sultan Süleyman nəzərdə tutulur – M.Q.) *orduları Avropanın içərilərinə yürürkən istila etdiyi məmləkətlərin xalqı əllərində səbətlər, alış-veriş etmək üçün ordunun yolunu gözləməzdilər. Türklər bir xristianlıq mücadiləsinə girib xaçlı səfərləri yaratmaq niyyətində olsaydılar, Fatih* (Fateh Sultan Mehmet nəzərdə tutulur – M.Q.) *İstanbula girdikdə patrikxananı himayəsinə almaz və ondan sonra gələnlər də onu bu günə qədər türklüyün sinəsində yaşatmazdılar. Əgər türk azlıqda qalan xalqları müdafiə etməsəydi, 300 il hökmranlıq etdiyi Kiprdə bu gün tək bir rum qalmaz və qarşımıza Kipr davası deyilən bir dava çıxmazdı. Dostlar, bunlar söylənməsi lazım gələn şeylərdir və biz kafi qüvvətlə bunları dünya ictimai rəyinə çatdırmalıyıq"* [680].

Millət Məclisinin 1965-ci il 29 may tarixli iclasında çıxış edən millət vəkili Turxan Feyzioğlu isə dedi:

*"Dostlar, bir demaqoq Afinada çıxır, Böyük İskəndərin yolunu getməkdən danışır. Birisi çıxır, vaxtilə Stalinin istəməyə cürət etdiyi və türk millətindən qəti cavab aldığı şərq vilayətlərini bu dəfə xaçlı zehniyyəti içində Ermənistan elan etməyə dost bildiyimiz ölkələrdə təhrik edir. Amerikanın və Avropanın qəzetlərində Türkiyənin əleyhinə sözlər söylənilir. Bir həddini bilməz yunan millət vəkili "Anadolunu rumlarla ermənilər arasında bölüşdürmək lazım gəlir və türkləri bu Kiçik Asiya səhnəsindən əbədiyyən silib süpürmək gərəkdir. Qərb ən böyük səhvini 1920-ci ildə etdi" deyərək nitqlər edir. Türkiyə bu mövzuları siyasət vasitəsi etməyə haqqı olan bir məmləkət deyildir*" [681].

Türkiyə millət vəkillərinin söylədikləri türk millətinin iradəsini ifadə edirdi. Tarixdə etmədiyini heç bir qüvvə türk millətinə qəbul etdirə bilməzdi. Türkiyə torpaqları hesabına "Böyük Ermənistan" xülyasını gerçəkləşdirməyə türk milləti boyun əyə bilməzdi.

---

[680] Türkiye Millet Meclisi Tutanak Dergisi. Dönem 1. Cilt 40. Toplantı 4. 115. Birleşim. 25.08.1965, s.564.

[681] Türkiye Millet Meclisi Tutanak Dergisi. Dönem 1. Cilt 41. Toplantı 4. 19. Birleşim. 29.08.1965, s.456.

Əsassız ərazi iddiaları Azərbaycana qarşı da davam etdirilirdi. Bu, gizli olaraq yaradılmış ayrı-ayrı təşkilatların fəaliyyətlərində də özünü göstərirdi.

### *Gizli fəaliyyətlər*

Uydurma erməni soyqırımı deyilən bir məsələnin 50 illiyi qeyd edildikdən sonra Ermənistanda bəzi gizli təşkilatlar qurulmuşdu. Belə qeyri-qanuni təşkilatlardan biri "Erməni Gənclər İttifaqı" idi. Proqramı və nizamnaməsi olan həmin təşkilatın iki nümayəndəsi 1965-ci ilin noyabr ayında Azərbaycanın DQMV-nin Martuni rayon mərkəzinə gələrək orada ezamiyyətdə olan vilayət mərkəzi kitabxanasının metodisti, Yerevan Dövlət Universitetinin tarix fakültəsini bitirmiş, kommunist Benik Mixayloviç Saakyan ilə görüşmüşdülər. Onlar Saakyana həmin təşkilatın dörd nüsxədən ibarət proqram və nizamnaməsini verərək bildirmişdilər ki, məxfiliyi qorumaq şərti ilə 200 nüsxə çoxaldaraq vilayətdə yaşayan ermənilər arasında paylasın, eyni zamanda təşkilatın yerli nümayəndəliyini qursun.

Təşkilat Sov.İKP-nin XXIII qurultayına qədər Azərbaycanın DQMV, Naxçıvan və digər torpaqlarını, üzvlərinin təbirincə deyilsə, "Ermənistana qaytarmaq" məqsədi ilə müraciət hazırlamalı və ermənilər arasında təbliğat aparmalı idi. Lakin önləyici tədbirlər nəticəsində Saakyan saxlanıldı və həmin vərəqələr ondan götürüldü. Dindirilmə zamanı Saakyan bildirdi ki, Yerevana imtahan verməyə getdiyi zaman universitetin professor və müəllim heyəti onu və digər tələbələri DQMV-nin Ermənistana birləşdirilməsi üçün təbliğat aparmaq məqsədi ilə cəlb etmişlər. Hətta tələbələrdən birinə – Levon Asıkoviç Bəyləryana təbliğat işini rahat aparmaq üçün avtomobil veriləcəyi də vəd edilmişdi. Tapşırığa əsasən Bəyləryan tətil vaxtı DQMV-yə gedərək təbliğat aparmalı idi. Saakyan DQMV-də olarkən Arkadi adlı Yerevan sakini Stepanakertə gələrək onunla görüşmüş, "Erməni Gənclər İttifaqı"nın proqram və nizamnaməsini, təşkilat üzvünün andiçmə mətnini, 1921-ci ildə çap edilmiş "Xorutian Hayastan" ("Qədim Ermənistan") qəzetindən çıxarışı, "Nyu York Türk Tələbələri İttifaqının 1965-ci il 19 aprel tarixli məktubu"nun surətini və "Erməni Gənclər İttifaqı"nın həmin məktub haqqında rəyini təqdim etmiş və çoxaldıb yaymaq tapşırığını vermişdi. Keçirilmiş tədbirlər zamanı həmin sənədləri gətirən şəxslər – Arkadi Stepanoviç Ayrapetyan və Spartak Apetkanoviç müəyyənləşdirilərək saxlanıldılar[682].

Digər ziyanlı fəaliyyətlər də mövcud idi. Xankəndi şəhərindəki 2 saylı orta məktəbin 10-cu sinif şagirdi, eyni zamanda məktəbin komsomol

---

[682] ARMTNA.1966.

təşkilatının katibi, 1948-ci il təvəllüdlü Marsel Aykazoviç Petrosyan 1966-cı ilin mart ayında şagirdlər arasında antiazərbaycan əhval-ruhiyyəli təbliğat aparmaqla məşğul olmuşdu. O, ermənilərdən ibarət "Cənclər təşkilatı" yaratmışdı. Başlıca məqsədi DQMV-nin Ermənistana birləşdirilməsi istiqamətində fəaliyyət göstərmək olan həmin təşkilat mayın 9-10-da təxribat xarakterli vərəqələr hazırlayaraq Stepanakertdə yaymağa başlasa da, qrupun bütün üzvləri dərhal saxlanıldılar, valideynlərinin iştirakı ilə profilaktik söhbətlər edildikdən sonra sərbəst buraxıldılar[683].

Erməni terror-siyasi təşkilatlarının qatı millətçi təbliğatı aparmağa məktəbliləri cəlb etməsi səbəbsiz deyildi. Çünki müvafiq orqanlar belə fəaliyyətlərin üstünü açdıqda şagirdləri adətən cinayət məsuliyyətinə cəlb etmir, onlarla və valideynləri ilə profilaktik söhbətlər etdikdən sonra sərbəst buraxırdılar. Buna baxmayaraq, həmin şagirdlərin yaddaşına belə çirkin işləri daim həkk olunur, onlar özlərini "qəhrəman" kimi hiss edirdilər.

### *Ermənistan rəhbərliyinin manevrləri*

Ermənistan rəhbərliyi isə bu zaman hiyləgərliklə manevrlər edirdi. Erməni xadimləri Ermənistan Kommunist Partiyasının iclaslarında tarixdə heç bir zaman olmayan uydurma erməni soyqırımı ifadəsini işlətməkdən belə çəkinmir, mövcud şəraitdə bu qondarma məsələnin ehtiyatlı, hisslərə qapılmadan və məqsədə aparan yoluna üstünlük verirdilər. Ermənistan KP-nın 1966-cı ilin mart ayında keçirilən XXIV qurultayında etdiyi məruzəsində MK-nın birinci katibi A.E.Koçinyanın söylədikləri bunu aydın şəkildə göstərirdi. O, deyirdi:

*"Bir sıra gənclər bu faciəni doğru mövqedən qiymətləndirə bilməyərək soyqırımı sağlam təfəkkürlə və siyasi ağılla deyil, hissiyatlarla qiymətləndirirlər. 1965-ci il aprelin 24-də baş verən xoşagəlməz təzahürlərin səbəblərini bunda axtarmaq lazımdır. Lakin heç kim bu tarixin qeyd edilməsinin əhəmiyyətini azalda bilməz. Bu tarix Sovet İttifaqı Kommunist Partiyası tərəfindən insana nifrət soyqırım siyasəti kimi məhkum edilmiş, erməni xalqının dirçəlişini və xalqlar dostluğunu təbliğ etmək kimi göstərilmişdir. Demək lazımdır ki, sovet Ermənistanı zəhmətkeşləri, bütün erməni xalqı ermənilərin qırılmasının 50 illiyinin qeyd edilməsini razılıqla qarşılamışdır. Bu hadisəni qeyd etməklə biz qanlı soyqırımın günahsız qurbanlarını xatırladıq. Məlumdur ki, Ermənistan hökumətinin qərarı ilə bu qurbanların xatirəsini əbədiləşdirmək məqsədilə Yerevanda abidə tikilmişdir"*[684].

---

[683] ARMTNA.1966.

[684] XXIV съезд Коммунистической Партии Армении. Доклад первого секретаря ЦК Компартии Армении тов. А.Е.Кочиняна. – Газ. "Коммунист", Ереван, 04.03.1966, № 53 (9669).

Erməni kommunistlərinin rəhbərinin fikirləri əslində daşnakların mövqeyi ilə tamamilə üst-üstə düşürdü. A.E.Koçinyan da 1965-ci il 24 aprel hadisələrini eyni ilə daşnaklar kimi *"erməni xalqının dirçəlişi günü olaraq"* qiymətləndirirdi. Fərq yalnız fəaliyyətin metodlarında idi. Belə ki, əgər daşnaklar uydurma soyqırımına hay-küylə yanaşırdılarsa, A.E.Koçinyan *"siyası ağılla və sağlam təfəkkürlə"* yanaşmağı tövsiyə edirdi.

Tarixdə olmayan erməni soyqırımının təbliğ edilməsində sovet rəhbərlərinin "xidmətləri" də danılmaz idi. Qəribə idi: sovet liderləri bir tərəfdən, xalqlar arasında dostluqdan, beynəlmiləlçilikdən danışır, digər tərəfdən isə Ermənistanda millətçiliyin qızışdırılmasının dayandırılması üçün tədbirlər görmürdülər.

Xarici ölkələrdə yaşayan erməni təşkilatları isə Türkiyənin əleyhinə saxtakarlıqla dolu kitabların nəşrini artırır, onları Türkiyəyə gətirərək yaymağa çalışırdılar. Bu fəaliyyətlər Türkiyədə ciddi narahatlıq yaratdığından türk hökuməti ona qarşı müəyyən tədbirlər almağa məcbur olurdu.

### *Erməni fəaliyyətlərinə qarşı Türkiyənin tədbirləri*

Türkiyə Xarici İşlər Nazirliyinin təqdimatına əsasən Daxili İşlər Nazirliyinin 1966-cı il 13 aprel tarixli 9.A.İ.12532-2/13-1844-1226/38660 saylı məktubuna uyğun olaraq hökumətin 1966-cı il 3 may tarixli iclasında Beyrutda Kersan Aqaronyanın 1965-ci ildə ərəbcə nəşr etdirdiyi "Erməni məsələsi ərəb ictimai rəyi önündə", Keğan Aqaronyan və Nezaret Topalyanın 1965-ci ildə ermənicə nəşr etdirdikləri "1915-1965: böyük qətliamı anmanın təsiri", Afinada 1965-cı ildə yunanca nəşr edilən "Erməni qətliamının 50-cı ildönümü üçün müraciət", Beyrutda Massis Araratyanın 1965-cı ildə erməni, ingilis və fransız dillərində nəşr etdirdiyi "Həyat simfoniyası", Beyrutda Sarkis Kazaryanın 1965-cı ildə nəşr etdirdiyi "Faciə izləri" kitablarının Türkiyəyə gətirilməsi və yayılması qadağan edildi[685].

Ermənilər həm uydurma soyqırımın tanıdılması üçün çalışır, həm Türkiyəyə qarşı əsassız ərazi iddiaları irəli sürür, həm də Azərbaycanın Dağlıq Qarabağ regionunu qopartmaq üçün fəaliyyətlərini davam etdirirdilər. Bütün bunların hamısı uydurma "Böyük Ermənistan" qurulması üçün edilirdi. Məqsədə nail olmaq üçün bütün mümkün vasitələrdən, xüsusən təxribatçılıqdan geniş istifadə olunurdu.

### *Təxribatçılıq işləri*

1966-cı il sentyabrın 12-də Yerevan şəhərindən Stepanakertə 3 nəfər təxribatçı – 1927-ci il təvəllüdlü A.S.Tovmasyan, 1937-ci il təvəl-

[685] T.C. BCA. 030.18.01.195.32.7.

lüdlü B.M.Cavadyan və 1937-ci il təvəllüdlü R.S.Xaçaturyan gəlmişdilər. Səfər ərəfəsində məlumat alan Azərbaycanın xüsusi xidmət orqanları qrupun üzvlərini nəzarətə götürmüşdülər. Özləri ilə gətirdikləri təxribat xarakterli vərəqələri yaymağa cəhd edərkən həmin şəxslər saxlanıldılar və onlardan aşağıdakı materiallar müsadirə edildi: Dağlıq Qarabağın erməni əhalisinə təxribat xarakterli müraciət – 28 nüsxə; şair Silva Kapitukyanın əsərləri – 6 nüsxə; "Erməni Vətənpərvərlər İttifaqı"nın bütün erməni xalqına müraciəti – 12 nüsxə; türklərin ermənilərə qarşı "zorakılığının" 50 illiyi ilə bağlı süar – 1 nüsxə; Azərbaycanın siyasi xəritəsi – 1 nüsxə və s.

Həyata keçirilən tədbirlərə baxmayaraq, erməni təxribatçıları fəaliyyətlərini nəinki dayandırmır, əksinə, yeni forma və metodlardan istifadə edirdilər. Belə ki, 1966-cı illərin əvvəllərindən başlayaraq qatı millətçi dairələr Azərbaycan SSR DQMV-də və Ermənistanda şayiələr yayırdılar ki, guya artıq Sov.İKP MK-da Dağlıq Qarabağ regionunun Ermənistana birləşdirilməsi barədə qərar qəbul edilmişdir. Təxribatçılar vərəqələr yayaraq bu "şad xəbəri" qısa müddətdə bütün erməni əhaliyə çatdırmağı planlaşdırırdılar. Müvafiq məlumatı alan Azərbaycan SSR DTK-dan Azərbaycan KP MK-nın birinici katibi Vəli Axundova göndərilən məktubda yazılırdı:

*"Son 10-12 gün ərzində Muxtar Vilayətdə Moskvada DQMV-nin Ermənistan birləşdirilməsi barədə məsələnin artıq müsbət həll olunması barədə şayiələrin yayılması sürətlənmişdir. Bununla əlaqədar olaraq Sov.İKP MK-nın və sovet hökumətinin ünvanına millətçilər tərəfindən təşəkkür məktubları yazılır və həmin məktublara imzaların toplanması 42 saylı Tikinti-Montaj İdarəsində, Mərkəzi Xəstəxanada, Tibb Texnikumunda və müxtəlif məktəblərdə geniş yayılır*".

Azərbaycan hökuməti müəyyən tədbirlər həyata keçirtdi. 1967-ci ildə DQMV-də fəaliyyət göstərən cinayətkar ünsürlərdən təşkil olunmuş və azərbaycanlıların tarixi torpaqlarından qovulmasını, vilayəti Ermənistana birləşdirilməsini təşkil etməyi planlaşdıran və bu məqsədlə 1200-dən artıq müvafiq vərəqələr yayan milliyyətcə erməni gənclərdən ibarət qrup zərərsizləşdirildi. Belə vərəqələri hazırlayanlardan 13 nəfər, yayanlardan isə 17 nəfər saxlandı[686].

Azərbaycan ərazilərində təxribatçılıq fəaliyyətlərinin qarşısı alınsa da, rəsmi dairələrin qərarları ilə uydurma soyqırımı qurbanlarına Yerevanda abidə qoyulması işi sürətlə gedirdi. Aparılan güclü yalan təbliğatın təsiri altında ermənilər həmin abidənin açılışı gününü səbirsizliklə gözləyirdilər.

---

686 ARMTNA.1966.

### *Uydurma soyqırımı qurbanlarına abidələr qoyulur*

1967-ci ildə Yerevanda uydurma soyqırımı abidəsinin açılışı oldu. 200 min adamın iştirak etdiyi bu mərasim türk düşmənçiliyinin qızışdırılması və əsassız ərazi iddialarının artması ilə yadda qaldı.

Bundan sonra sözdə soyqırımının tanıdılması istiqamətində Qərb ölkələrində təbliğat işləri daha da artırıldı. Saxta təbliğat bəzən konkret nəticələr də verirdi. Belə ki, Türkiyənin müttəfiqi olan ABŞ-ın Kaliforniya ştatında Montebello şəhərində 1967-ci ilin aprel ayında uydurma erməni soyqırımı qurbanlarına abidə qoyulması onun təzahürü oldu. Türkiyə və SSRİ arasında münasibətlərin normallaşması prosesinin getdiyi və əməkdaşlığın artdığı bir şəraitdə ABŞ-da belə bir abidənin qoyulması bir sıra suallar doğururdu: Birləşmiş Ştatlar nə üçün NATO üzrə müttəfiqinin ədalətli mövqeyini deyil, uydurma erməni soyqırımının olduğunu iddia edənlərin maraqlarını yerinə yetirirdi? ABŞ hökuməti tarixdə olmayan bir hadisənin siyasət alətinə çevrilməsinə nə üçün razılıq verirdi? Abidənin qoyulmasına icazə verməklə Birləşmiş Ştatlar hökuməti türk və erməni xalqları arasında dostluğa çalışır, yoxsa düşmənçiliyi daha da dərinləşdirirdi?

Cavablar aydın idi: ABŞ hökuməti SSRİ – Türkiyə yaxınlaşmasını və əməkdaşlığının genişləndirilməsini arzu etmir, onun qarşısını almaq üçün Türkiyəyə müxtəlif vasitələrlə təzyiqlər edirdi. Belə təzyiq vasitələrindən biri uydurma erməni soyqırımı iddiaları idi. Abidənin qoyulması əslində olmayan bir tarixi hadisənin siyasət alətinə çevrilməsi cəhdi olduğundan xoşagələn bir şey olmayıb, ədalət hissinin tamamilə itirilməsi demək idi. Bu hərəkət ilə ABŞ hökuməti türk və erməni xalqları arasında yumşalmaya xidmət etmir, düşmənçiliyi qızışdırır, “parçala və hökm et” siyasəti yürüdür, eyni zamanda milli nifaqı yaymaqla SSRİ-ni daxildən zəiflətməyə çalışırdı. Belə çoxbaşlı oyun qatı millətçi erməni dairələrini daha da ruhlandırırdı. Onlar həm xarici ölkələrdə, həm də Sovet İttifaqında fəaliyyətlərini davam etdirirdilər.

### *Stepanakertdə təxribat*

Erməni dairələri qatı millətçi təbliğatı, əsassız ərazi iddialarını və düşmənçiliyi DQMV-də də artırmışdılar. Belə ki, 1967-ci il iyunun 23-dən 24-ə keçən gecə Stepanakertin bəzi küçələrində divarlara erməni dilində 300 vərəqə yapışdırılmışdı. Ölçüsü 8x9 sm. olan vərəqələrdə Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında əsassız tələblər və millətçi xarakterli saxta mülahizələr irəli sürülürdü. Bununla əlaqədar olaraq, Azərbaycan SSR DTK sədri Heydər Əliyev Azərbaycan KP MK-nın

birinci katibi V.Y.Axundova 1967-ci il 26 iyun tarixli 10/579 №-li məxfi məktubunda yazırdı:

*"İyunun 23-dən 24-ə keçən gecə Stepanakertdə bəzi küçələrdə erməni dilində 8x9 sm. ölçüdə 300 vərəqə yayılmışdır. Həmin vərəqələrdə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələb edilir və millətçi fikirlər irəli sürülür. Vərəqənin müəlliflərini axtarıb tapmaq və digər lazımi tədbirləri görmək üçün Stepanakertə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar ciddi cəzalandırılmışlar"* [687].

1967-ci ildə baş verən digər bir hadisə də münasibətləri gərginləşdirdi. İlin əvvəllərində Stepanakertdə məişət zəminində azərbaycanlılarla ermənilər arasında münaqişə olmuş və N.V.Movsesyan adlı bir şəxs qətlə yetirilmişdi. Keçirilmiş məhkəmə iclasları zamanı erməninin ölümündə iki nəfər azərbaycanlının əli olması təsdiq olunmuş və onlardan biri ölüm cəzasına, digəri isə 15 il həbs cəzasına məhkum edilmişdi. Məhkəmədə şübhəli şəxs qismində dindirilən digər azərbaycanlı isə bəraət almışdı. Verilmiş ağır cəzalara baxmayaraq, erməni millətçiləri qərarı ədalətsiz hesab edir və iğtişaşa çağırırdılar. Onlar Movsesyanın ölümünü milli zəminə istiqamətləndirməyə cəhd edirdilər.

İyulun 3-də məhkəmə iclasının keçirildiyi şəhərdəki yay kinoteatrının zalına daxil olan quduzlaşmış kütlə dustaqları mühafizəçilərdən alaraq xüsusi amansızlıqla öldürdü. Təqsirləndirilən, sonradan isə bəraət alan Zöhrab Məmmədovun başının dərisini soyaraq, dustaq maşını ilə birlikdə yandırdılar. Bu vəhşiliyə əvvəlcədən hazırlaşan qatillər daşları şəhərə maşınlarda gətirmişdilər. İstintaq materiallarından aydın olur ki, daşların çəkisi 260 qramdan 14 kq.-dək idi. Cinayət işi açıldı[688]. Cinayətkarlar cəzalarını aldılar. Bir neçə nəfər həbs edildi.

Qanlı hadisənin törədilməsində başlıca məqsəd milli nifaqı qızışdırmaq, azərbaycanlıların DQMV ərazisindən köçürülməsinə və vilayətin Ermənistana birləşdirilməsinə nail olmaq idi.

Həyata keçirilən tədbirlər nəticəsində məlum oldu ki, həbs olunan ermənilərin qisasını almaq üçün DQMV-də yaşayan azərbaycanlılara və müxtəlif partiya fəallarına qarşı yeni hücumlar hazırlanır, bu məqsədlə hətta Ermənistan ərazisində terrorçu qrup yaradılmış və onlar əldə etdikləri silah-sursatı Yerevan şəhəri yaxınlığında gizlətmişlər. Həmin yer dövlət orqanları tərəfindən təsbit edildi. Oradan 4 ədəd Kalaşnikov tipli

---

687 Председатель Комитета Государственной Безопасности при Совете Министров Азербайджанской ССР Г.Алиев – первому секретарю ЦК КП Азербайджана товарищу Ахундову В.Ю. 26.06.1967. №10/579. Секретно. – ARMTN muzeyinin materialları.

688 ARMTNA. 1967.

avtomat, 2 ədəd pulemyot, bir neçə ədəd Naqan və Mauzer tipli tapançalar, eləcə də həmin silahlar üçün nəzərdə tutulmuş külli miqdarda patron və digər ehtiyat hissələri götürüldü. Silahların Ermənistan SSR ərazisində dislokasiya edilmiş sovet hərbi hissələrinin anbarlarından oğurlandığı məlum oldu. SSRİ Prokurorluğu bu işi Azərbaycan SSR Prokurorluğundan alaraq öz icraatına götürdü. Lakin onun nə ilə nəticələndiyi barədə heç bir məlumat verilmədi[689].

Ümumiyyətlə, Ermənistandakı qatı millətçilərin DQMV-yə səfər edərək əhali ilə görüşlər keçirmələri, şər və böhtan xarakterli fikirlər söyləmələri, vilayətin yaxınlarda Ermənistana birləşdiriləcəyi barədə şayiələr yaymaları, bu istiqamətdə vilayətdə yaşayan ermənilərə müraciətlərin hazırlanması və imza toplanmasının təşkil edilməsi, millətçi çağırışlar əks olunmuş vərəqələrin Ermənistanda hazırlanaraq DQMV-yə gətirilməsi, Ermənistanda tarixin saxtalaşdırılması istiqamətində böyük işlərin aparılması, yalanlarla dolu kitabların nəşr edilməsi və dərsliklərə salınması düşmənçiliyi qızışdırırdı. Davakar millətçilər Azərbaycan torpaqlarının Ermənistana verilməsi haqqında Moskvaya məktublar göndərirdilər. Ermənistandan gətirilən vərəqələr Yerevan Politexnik İnstitutunun mətbəəsində hazırlanırdı. Qatı millətçilər öz çirkin əməllərinə əsasən aşağı siniflərdə təhsil alan şagirdləri cəlb edirdilər. Göstərilən işlərə Yerevan Dövlət Universitetinin müəllimi, fizika-riyaziyyat elmləri namizədi Nikolay Qasparyan başçılıq edirdi. Bütövlükdə, 1967-ci ildə 30 nəfər tərəfindən hazırlanmış 1241-dən çox vərəqə və məktub (bunlardan 1200-ü vərəqə, digərləri isə məktub şəklində) olsa da, 1968-ci ildə bu qəbildən olan ümumilikdə 17 nəfər tərəfindən hazırlanmış 53 vərəqə aşkar edilmişdi. Keçirilmiş tədbirlər zamanı bir çox qruplar aşkar edilərək ləğv edilmiş, onlardan çoxlu miqdarda vərəqələr və həmin vərəqələri hazırlamaq üçün lazım olan avadanlıqlar aşkar edilərək götürülmüşdü.

Bu zaman Ermənistan rəhbərliyi təkcə DQMV-ni deyil, Azərbaycanın digər ərazilərini də qopartmaq üçün fəaliyyətini artırmışdı. Həmin iddiaları yerinə yetirmək üçün bütün vasitələrdən istifadə edilirdi.

### *Azərbaycan torpaqlarına iddialar*

Azərbaycana qarşı əsassız ərazi iddialarından əl çəkməyən Ermənistan rəsmi dairələri hələ 1952-1953-cü illərdə 20-ci illərin hansısa xəritələrini ortaya çıxartmış, Gədəbəy rayonunun Tağlar kəndinin (sənəddə xutor yazılmışdır – M.Q.) Ermənistan SSR-in Şəmşəddin rayonuna birləşdirilməsi haqqında məsələ qaldırmışdılar. Ərazisi 730 hektar olan həmin

---

[689] ARMTNA. 1967.

kənd Gədəbəy rayonunun M.İ.Kalinin kolxozuna məxsus idi. Qeyd etmək lazımdır ki, bu dövrdə bütün ölkədə mübahisəli torpaq məsələlərinin həlli ilə SSRİ Kənd Təsərrüfatı Nazirliyi məşğul olurdu. Nazirlik məsələni araşdırdıqdan sonra kəndi Gədəbəy rayonunda saxlamışdı. Lakin bununla razılaşmayan ermənilər 1967-ci ildə yenidən həmin kəndə iddia irəli sürdülər. SSRİ Nazirlər Soveti 1968-ci il iyunun 10 və 20-də, Sov.İKP MK isə həmin il iyunun 23-də Ermənistan ilə Azərbaycan arasında iki qarışıq rayonda yaranmış torpaq mübahisəsini həll etmək üçün göstəriş verdi. Azərbaycan SSR, Ermənistan SSR və SSRİ Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri məsələni araşdırdılar. Ərazi məsələsinə dair danışıqlar iki-üç il davam etdi. Ermənistan rəsmiləri iki respublika arasında sərhədlərin girintili-çıxıntılı olmasını məqsədəuyğun saymayaraq, hamarlanmasını təklif edirdilər. Danışıqların nəticəsində xəritələr hazırlanmışdı.

Azərbaycan KP MK katibi V.Axundov, Ermənistan KP MK katibi A.Koçinyan və SSRİ kənd təsərrüfatı naziri V.Maçkeviç Sov.İKP MK-ya və SSRİ Nazirlər Sovetinə "Azərbaycan SSR və Ermənistan SSR-in ayrı-ayrı kolxozları arasında mübahisələrin yoxlanılması və onların həllinə dair qəbul edilmiş tədbirlər haqqında" yazdıqları məktubda vurğulayırdılar:

*"1. Zaqafqaziya MİK-in 1928-ci il qətnaməsi ilə təsdiq olunmuş Azərbaycan SSR və Ermənistan SSR arasında sərhədlərin dəyişdirilməsinin mümkünsüzlüyü qəbul edilmişdir. Bununla əlaqədar olaraq Gədəbəy və Şəmşəddin rayonlarının və hər iki tərəfin müvafiq təsərrüfat rəhbərlərinin iştirakı ilə bu sərhəd naturada müəyyənləşdirilmişdir və beləliklə, iki rayonun təsərrüfatları arasında torpaq mübahisəsi tənzimlənmişdir. 2. Ermənistan SSR Şəmşəddin rayonunun meşə təsərrüfatı ərazisində yerləşən Azərbaycan SSR Gədəbəy rayonunun Tağlar kəndinin və bir hissəsi Azərbaycan SSR Qubadlı rayonu ərazisində yerləşən Ermənistan SSR Gorus rayonunun Şurnuxi kəndinin gələcək inkişafı üçün perspektivlərin olmadığını nəzərə alaraq, onlarda yeni tikinti işləri aparmaq qadağan edilmişdir. Sakinlərə kənd təsərrüfatı işləri üçün müvəqqəti istifadə etmək məqsədi ilə lazımi torpaq ayrılmışdır. Azərbaycan SSR Nazirlər Sovetinə və Ermənistan SSR Nazirlər Sovetinə bu torpaqların 5 il müddətinə verilməsini rəsmiləşdirmək üçün göstəriş verilmişdir. 3. Azərbaycan SSR Gədəbəy rayonunun kolxozçuları və Ermənistan SSR Şəmşəddin rayonunun kolxozçuları arasında gələcəkdə torpaq sahələrindən istifadə məsələlərində münaqişələrin yaranmaması üçün lazımi izahat işləri aparılmışdır. 4. Ermənistan SSR və Azərbaycan SSR ali sovetlərinin rəyasət heyətlərinə tapşırılmışdır ki, iki respublikanın Paritet komissiyasının Zaqafqaziya MİK-in 1927-1929-cu illərdəki qərarlarına uyğun olaraq həyata keçirtdikləri Ermənistan və Azərbaycan SSR arasında sərhədlərin qrafik təsvirini təsdiq etsinlər. 5. Azərbaycan və Ermənistan kənd təsərrüfatı nazirliklərinə tap-*

*şırılmışdır ki, respublikaların ali sovetləri tərəfindən sərhədlər təsdiq edildikdən sonra sərhəd xətləri naturaya köçürülsün və gələcəkdə onun pozulmasına imkan verilməsin*"[690].

Məsələyə dair Azərbaycan KP MK katibi V.Axundovun və Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini A.İbrahimovun imzası ilə "Azərbaycan SSR və Ermənistan SSR arasında respublika sərhədləri haqqında qərar" qəbul edildi.[691] Dörd bənddən ibarət olan qərarda yazılırdı:

*"1. Azərbaycan SSR və Ermənistan SSR arasında respublika sərhədi üçün Zaqafqaziya MİK-in 1928-ci ildə təsdiq etdiyi materiallar əsas götürülsün. 2. Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinə tapşırılsın: a) Azərbaycan SSR və Ermənistan SSR arasında respublika sərhədinin təsvirini Azərbaycan SSR Rəyasət Heyətinin təsdiqinə versin. Sərhəd xətti müəyyənləşdirilərkən və bütün mübahisəli sahələrdə sərhəd işarələri qoysun; b) Bir ay müddətində Ermənistan SSR Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdıraraq Ermənistan SSR Şəmşəddin rayonunun meşə təsərrüfatı ərazisində yerləşən Gədəbəy rayonunun Tağlar xutorunun və Qubadlı rayonu ərazisində yerləşən Ermənistan SSR Gorus rayonunun Şurnuxi kəndinin sakinləri üçün 5 il müddətinə torpaq sahəsi ayrılması barədə lazımi materialları Azərbaycan SSR Nazirlər Sovetinə təqdim etsin. 3. Gədəbəy rayon İcraiyyə Komitəsinə tapşırılsın ki, Tağlar xutorunda yeni tikinti işlərini aparmağı qadağan etsin. 4. Azərbaycan SSR Əmək Ehtiyatlarından istifadə üzrə Dövlət Komitəsinə, Respublika Kənd Təsərrüfatı Nazirliyinə və Gədəbəy rayon İcraiyyə Komitəsinə Tağlar xutorundan kolxozçuların yaxın illərdə perspektivli kəndlərdən birinə köçürülməsi barədə təkliflərini bir ay müddətinə Azərbaycan SSR Nazirlər Sovetinə təqdim etmək tapşırılsın*".

Məsələyə dair Azərbaycan KP MK Bürosu 1968-ci il noyabrın 26-da (protokol № 86, 27-ci bənd) qərar qəbul etdi[692]. 2 bənddən ibarət olan qərarda yazılırdı:

*"1. Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın: a) Bir ay müddətinə Azərbaycan və Ermənistan SSR arasında respublika sərhədinin qrafik*

---

[690] Секретарь ЦК КП Азербайджана В.Ахундов, секретарь ЦК КП Армении А.Кочинян, министр сельского хозяйства СССР В.Мацкевич – ЦК КПСС, Совет Министров СССР. О результатах проверки и принятых мерах по разрешению спора между отдельными колхозами Азербайджанской ССР и Армянской ССР. 05.11.1968. – ARSSA, f. 1, siy.55, iş 69, v. 245-246.

[691] Постановление ЦК КП Азербайджана и Совета Министров Азербайджанской ССР о республиканской границе Азербайджанской ССР и Армянской ССР. – ARSSA, f. 1, siy.55, iş 69, v. 243.

[692] Постановление Бюро ЦК КП Азербайджана. 26.11.1968. Протокол № 86. §27. О республиканской границе между Азербайджанской ССР и Армянской ССР. – ARSSA, f. 1, siy.55, iş 69, s.241.

*təsvirini hazırlasın, Zaqafqaziya MİK-in 1927-1929-cu illərdə təsdiq etdiyi qərarları onların əsas materialı kimi qəbul etsin və müvafiq sənədləri Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin təsdiqinə versin; b) Ermənistan SSR Nazirlər Soveti ilə razılaşmaya uyğun olaraq Azərbaycan SSR Gədəbəy rayonunun Tağlar xutorunun və Ermənistan SSR Gorus rayonunun Şurnuxi kəndi sakinlərinin ehtiyacları üçün 5 il müddətinə torpaq sahəsi ayrılması məsələsini həll etsin; v) Yaxın illərdə Tağlar xutorundan kolxozçuların Gədəbəy rayonunu perspektivli kəndlərindən birinə köçürülməsi məsələsinə baxsın və həll etsin. 2. Gədəbəy rayon İcraiyyə Komitəsinə Tağlar xutorunda yeni tikinti işləri aparmağı qadağan etmək tapşırılsın".*

Qeyd etmək lazımdır ki, Azərbaycan KP MK katibi V.Axundovun imzaladığı bu qərarın "v" bəndi elə onun özü tərəfindən də qələmlə pozulmuşdur. Lakin araşdırma zamanı bunun nə üçün edilməsinə dair heç bir məlumata rast gəlmədik.

Qərara uyğun olaraq iki respublika arasında sərhədin qrafik təsviri hazırlandı. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri M.İsgəndərov və katibi Z.Şükürovanın imzası ilə 1969-cu il mayın 7-də "Azərbaycan SSR ilə Ermənistan SSR arasında sərhədin qrafik təsvirinin təsdiq edilməsi haqqında" Rəyasət Heyətinin müvafiq qərarı (№805-VII) təsdiq edildi[693]. Qərarda yazılırdı ki, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan SSR ilə Ermənistan SSR arasında Zaqafqaziya MİK tərəfindən təsdiq edilmiş sərhədin qrafik təsvirinin dürüstləşdirilməsinə dair Paritet komissiyasının Azərbaycan SSR Nazirlər Soveti tərəfindən təqdim olunan materiallarını nəzərdən keçirərək qərara alır:

*"1. Azərbaycan SSR ilə Ermənsitan SSR arasında Zaqafqaziya MİK tərəfindən təsdiq edilmiş sərhədin göstərilən respublikaların Paritet komissiyası tərəfindən 1:25.000 miqyaslı topoqrafik xəritələrin vərəqlərinə keçirilmiş və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən təqdim olunmuş qrafik təsviri bəyənilsin. 2. Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, respublika sərhədi təsvirinin müvafiq sahələrdə Ermənistan SSR nümayəndələri ilə birlikdə naturaya köçürülməsini bu il noyabrın 1-dək təmin etsin".*

Azərbaycan KP MK Bürosunun 1969-cu il 21 may tarixdə keçirilən iclasında (pr.№100, 4-q) iki respublika arasında sərhədin coğrafi təsvirinin təsdiqinə dair Azərbaycan Ali Sovetinin qərar layihəsi bəyənildi[694]. Azər-

---

[693] Azərbaycan SSR ilə Ermənistan SSR arasında sərhədin qrafik təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı. – Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetinin məlumatı. 15.05.1969. Bakı, 1969, №9 (310), s.133.

[694] Протокол заседания Бюро ЦК КП Азербайджана. 21.05.1969. Об утверждении графического начертания границы между Азербайджанской ССР и Армянской ССР. Сов.секретно. – ARSSA, f.1, siy.56, iş 35, v.9.

baycan SSR Ali Soveti Rəyasət Heyətinin təqdim etdiyi Azərbaycan SSR və Ermənistan SSR arasında sərhədin topoqrafik xəritəsi təsdiq edildi[695].

1969-cu ilin iyul ayında Heydər Əliyev Azərbaycana rəhbər seçilən kimi bu məsələyə yenidən baxmağı Moskva qarşısında qoydu. Sov.İKP MK 1969-cu il 5 avqust tarixli iclasında "Ermənistan SSR Şəmşəddin rayonunun və Azərbaycan SSR Gədəbəy rayonunun bəzi kolxozları arasında qeyri-normal qarşılıqlı münasibətlər haqqında" qərar qəbul etdi. Məsələ Azərbaycan KP MK Bürosunun 1969-cu il 12 avqust tarixli iclasında müzakirə edildi. İki bənddən ibarət qərar qəbul olundu. Birinci bənddə iki respublikanın müvafiq kolxozları arasında mübahisəli torpaqlardan istifadə haqqında məsələyə bir ay müddətinə baxmaq və mübahisəni həll etmək barədə Sov.İKP MK katibliyinin Azərbaycan və Ermənistan KP MK-ya, Nazirlər Sovetinə və SSRİ Kənd Təsərrüfatı Nazirliyinə tapşırıq verdiyi vurğulanırdı. İkinci bənddə Ermənistan KP MK-nın ayırdığı işçi komissiya ilə birlikdə mübahisəni həll etmək üçün razılaşdırılmış layihəni işləyib hazırlamaq və iki həftə müddətinə Azərbaycan KP MK-ya təqdim etmək tapşırıldı[696]. İki qonşu xalq arasında normal münasibətlərin yaradılması zəruri sayıldı.

Bir müddət sonra Qazax rayonu ilə İcevan rayonunun sərhədində Ermənistan KP MK-nın birinci katibi A.E.Koçinyanla görüşən Heydər Əliyev 1903-cü ildə çar Rusiyası hakimiyyət orqanları tərəfindən çap edilmiş, azərbaycanlılara və ermənilərə məxsus torpaqları özündə əks etdirən xəritəni ona təqdim etdi. Fakt qarşısında qalan Ermənistan rəhbərliyi geri çəkildi. Tərəflər bundan sonra heç bir ərazi məsələsini irəli sürməmək haqqında razılığa gəldilər.

Torpaqların verilməsi barədə qərarın icrasının dayandırılması qatı millətçi erməni dairələrində ümidsizlik yaratsa da, onlar fəaliyyətlərindən imtina etməmişdilər, imkan düşdükcə Azərbaycan torpaqlarına əsassız iddialar irəli sürür, niyyətlərini reallaşdırmaq üçün daha məkrli üsullardan istifadə edirdilər. Belə üsullardan biri Ermənistanda azərbaycanlılara məxsus tarixi yer adlarının dəyişdirilməsi idi.

---

[695] Об утверждении географического начертания границы между Азербайджанской ССР и Армянской ССР. Протокол №100 заседания Бюро Центрального Комитета Коммунистической Партии Азербайджана. 21.05.1969.4-г. Сов.секретно. – ARSSA, f.1, siy.56, iş 35, v.5.

[696] Протокол заседания Бюро ЦК КП Азербайджана. 12.08.1969. Постановление секретариата ЦК КПСС. 05.08.1969. О ненормальных взаимоотношениях между некоторыми колхозами Шамшаддинского района Армянской ССР и Кедабекского района Азербайджанской ССР.Пр.№107,§3.Сов.секретно. – ARSSA, f.1, siy. 56, iş 49, v. 3.

## *Ermənistanda azərbaycanlılara məxsus yaşayış məntəqələrinin adları dəyişdirilir*

Ermənistan rəhbərliyi açıq şəkildə ərazi iddiaları irəli sürməyi arxa plana keçirsə də, respublika ərazisində tarixən azərbaycanlılara məxsus yaşayış məntəqlərinin adlarını dəyişdirmək və Ermənistanı erməniləşdirmək siyasətini davam etdirirdi. Belə bir fakt diqqəti cəlb edir ki, 1960-1969-cu illərdə Ermənistanda azərbaycanlılara məxsus olan 70-dək yaşayış məntəqəsinin adı dəyişdirilmişdi[697].

Bu zaman erməni təşkilatları və qatı millətçi dairələri Türkiyəyə qarşı da fəaliyyətlərini artırmışdılar. Onlar Türkiyə haqqında düşmənçilik hissləri aşılayan kitablar nəşr edərək ölkəyə gətirməyə və yaymağa cəhdlər edirdilər.

## *Türkiyənin tədbirləri*

Türkiyə hökuməti isə xarici ölkələrdəki ermənilərin yalanlar üzərində yazılmış bəzi kitab və jurnallarının ölkəyə gətirilməsi və yayılmasının qarşısını almaq üçün tədbirlər gördü. Belə ki, Türkiyə Xarici İşlər Nazirliyinin müvafiq məlumatına uyğun olaraq Daxili İşlər Nazirliyinin 1968-ci il 8 noyabr tarixli 1-9.A.1/91116-17-1, 12531-2-17,12531-2-18,12531-175 saylı məktublarına əsasən 5680 saylı qanunun 31-ci maddəsinə görə Nazirlər Şurasının 5 dekabr tarixli qərarı ilə İsveçdə Stokholmda türkcə "Bülleten"in, Cenevrədə fransızca "Anselmo", Braziliyada San-Pauloda ispanca "Ermənistan", Beyrutda Hamzakayın mətbəəsində ermənicə nəşr edilən "Türk ermənisi əsgər və əsgərliyi" adlı kitabların Türkiyəyə gətirilməsi və yayılmasının qadağan edilməsinə dair qərar qəbul edildi[698].

Ermənilərin türk düşmənçiliyi və fəaliyyətləri Türkiyə Millət Məclisində də etirazlara səbəb oldu. Məsələn, Ankaradan seçilmiş millət vəkili Alparslan Türkeş Millət Məclisinin 1969-cu il 1 yanvar tarixli iclasında dedi ki, keçən zamanlarda ermənilər Livanda və Amerikada Türkiyə əleyhinə bir sıra hərəkətlər etmişlər, hətta BMT-yə gedərək Türkiyəyə qarşı bir müraciət etmişlər. A.Türkeşin fikrincə, bu işlərin arxasında yunan təbliğatı dayanırdı[699].

Heç şübhəsiz, erməni fəaliyyətlərinə müəyyən yunan dairələri yardım edirdilər. Lakin bütövlükdə, ermənilərin müvafiq fəaliyyətləri bəzi böyük dövlətlər tərəfindən də təşviq olunurdu.

---

[697] Mustafa N. Vandalism: genocide against the historical names, p.7-43.
[698] T.C. BCA. 030.18.01.02.228.88.8.
[699] Türkiye Millet Meclisi Tutanak Dergisi. Dönem 2. Cilt 31. Toplantı 4. 35. Birleşim. 23.01.1969, s. 448.

### *Ermənilərin gətirilməsi davam edir*

Ermənistanda da Azərbaycan və Türkiyə əleyhinə gizli fəaliyyətlər artırdı. SSRİ-ni təşkil edən müttəfiq respublikalardan biri kimi Ermənistanda müəyyən qruplar, qatı millətçi əhval-ruhiyyəli ziyalılar düşmənçiliyi qızışdırırdılar. Düşmənçiliyi ölkəyə daha çox xaricdən gələn ermənilər gətirirdilər. 70-ci illərin əvvəllərində də sovet hökuməti ermənilərin Ermənistana gətirilməsi işini davam etdirirdi. Məsələn, 1970-ci ildə İrandan gələn 140 nəfər erməni Leninakan, Kirovakan, Razdan, Eçmiadzin və Oktemberyan rayonlarında yerləşdirildilər. Onların qarşılanması münasibəti ilə Yerevan dəmiryol vağzalında keçirilən mitinqdə Ermənistan SSR Nazirlər Soveti yanında Xaricdən gətirilən ermənilərin qəbulu və yerləşdirilməsi üzrə komitənin sədri D.Ohanesyan nitq söylədi. Onun sözlərindən məlum olurdu ki, təkcə 1970-ci ildə İran, Livan, Fransa, İraq, Bolqarıstan, Rumıniya və digər ölkələrdən Ermənistana 1200 nəfər gətirilmişdi. İlin sonunadək daha 4 min ermənинin qəbul edilməsi nəzərdə tutulurdu[700]. Gəlmələr antitürk əhval-ruhiyyədə olan şəxslər idi. Onlar əhali arasında qatı millətçilik təbliğatını qızışdırır, SSRİ-də milli münasibətləri kəskinləşdirir, bir müddət sonra isə xaricə, başlıca olaraq ABŞ-a və Avropa ölkələrinə köçüb gedirdilər. Məsələn, təkcə 1970-ci ildə Azərbaycan SSR Xarici İşlər Nazirliyi əvvəllər SSRİ-yə köçürülmüş 75 nəfər erməniyə xarici ölkələrə çıxıb getməyə icazə verdi[701]. Onlardan 24 nəfər Fransaya, 21 nəfər Livana, 10 nəfər ABŞ-a, 10 nəfər Kiprə və b. ölkələrə getdilər.

### *Azərbaycan əleyhinə fəaliyyətlər*

Azərbaycanın Dağlıq Qarabağ regionunun Ermənistana birləşdirilməsi və ermənilərin guya qorunması məqsədi ilə 1970-ci ildə Yerevanda növbəti bir təxribatçı təşkilat yaradılmışdı. Rəhbəri 1951-ci ildə anadan olmuş A.V.Xaçaturyan olan təşkilatın DQMV-də yaradılması nəzərdə tutulan qollarından biri vərəqələr yaymalı, üzvlük haqqı yığmalı, həmin vəsait hesabına üzvlərinin səfər xərclərini ödəməli, silah və sursat almalı idi. Təşkilatın uydurmalarla dolu olan proqramında əvvəlcə *"bütün erməni torpaqlarının birləşdirilməsi, sonra isə xarici ölkələrin xüsusi xidmət orqanlarının planına uyğun olaraq Ermənistanın SSRİ-nin tərkibindən çıxarılması"* nəzərdə tutulurdu.

---

[700] Новые граждане советской Армении. – Газ."Коммунист", Ереван, 25.04.1970, №97 (10932).

[701] Отчет Министерства Иностранных Дел Азербайджанской ССР за 1970 год. – ARDA, f. 28 s., siy.1s., iş 17, v. 2.

“Vətənpərvərlər İttifaqı” adlı digər təxribatçı qrupa 1950-ci ildə Qafan şəhərində anadan olmuş E.S.Baqdasaryan başçılıq edirdi. Qrup 1968-ci ildə Qafanda yaradılmışdı. E. Baqdasaryan ətrafına Qafandakı 27 saylı internat məktəbin 6-10-cu sinif şagirdlərini toplayaraq qatı millətçi ideyalar yayırdı. O, Azərbaycan televiziyasının Qafanda yayımını terror törətməklə dayandırmaq üçün 1968-ci il aprelin 19-da qrup üzvlərinə tapşırıq vermişdi. Lakin bir gün əvvəl E.Baqdasaryan oğurluq etdiyi üçün həbs olunduğundan bu terror aktını reallaşdırmaq mümkün olmamışdı.

Təşkilat sonralar DQMV-də yerləşmişdi. Gerçək tarixdən xəbərsiz olan qatı millətçilərin fikrincə, guya Dağlıq Qarabağ və Naxçıvan qədim erməni torpağı idi. Həmin torpaqların Ermənistana birləşdirilməsi təşkilatın başlıca məqsədlərindən birini təşkil edirdi. Niyyətlərini həyata keçirtmək üçün təşkilat üzvlərinə azərbaycanlılara qarşı fiziki zorakılıqlar edərək onları həmin torpaqlardan qovmaq, öldürmək və əmlaklarını talamaq tapşırığı verilmişdi. Artıq qeyd olunduğu kimi, E.Baqdasaryan oğurluq etdiyi üçün həbs edilmiş, 1970-ci ildə həbsdən azad edildikdən sonra bir müddət Qafanda yaşamış, daha sonra Yerevana gedərək şair Ovanes Şirazla görüşmüşdü. Şair ondan Qafanda nə qədər azərbaycanlının yaşadığını soruşmuşdu. Bu zaman Qafanda əhalinin 30%-i azərbaycanlılar idi və şəhərdə onların 4 saylı orta məktəbi fəaliyyət göstərirdi. O.Şiraz ona Qafana dönməyi və təşkilatın fəaliyyətini davam etdirmək üçün cinayət əməllərinə meyilli olan gəncləri ətrafına toplamağı və azərbaycanlılara məxsus məktəbin bağlanması üçün çalışmağı tapşırmışdı.

Aldığı təlimata uyğun olaraq E.Baqdasaryan təbliğatını orta məktəblərdə aparmağa üstünlük vermişdi. Təşkilatın Ermənistanda üç qrupu fəaliyyət göstərirdi. Qrupun birinin vəzifəsi azərbaycanlılara məxsus müxtəlif obyektləri, o cümlədən mənzilləri, əkin sahələrini və s. yandırmaq, ikinci qrupun vəzifəsi azərbaycanlılara qarşı kin və nifrət təbliğatı aparmaq, onların qovulması və fiziki məhvinə dair çağırışlar olan vərəqələr hazırlamaq və yaymaq, üçüncü qrupun vəzifəsi isə azərbaycanlıları döymək və fiziki məhv etmək idi. Təşkilat üzvləri bir neçə il sonra, 1972-ci il aprelin 24-də Qafan şəhərində yerləşən, azərbaycanlılara məxsus orta məktəbi benzin dolu şüşə butulkaları atmaqla yandırmağa cəhd etmişdilər. Lakin məktəbin azərbaycanlı gözətçisinin və yanğınsöndürmə xidmətinin zamanında müdaxilə etməsi nəticəsində yanğını söndürmək mümkün olmuşdu. Qrup üzvləri bir neçə azərbaycanlını döyərək ağır bədən xəsarəti yetirmişdilər.

Qrupun rəhbəri 1973-cü ilin mart ayından başlayaraq mütəmadi olaraq Stepanakertə səfər edirdi. O, burada görüşdüyü bir neçə erməni gəncini yaratdığı qondarma təşkilata cəlb edə bilmişdi. Fəaliyyətində E.Baqdasaryan daha çox orta məktəb şagirdləri ilə işləməyə üstünlük ve-

rirdi. Onun təşkilatının özəyini ziyalılar deyil, İpək kombinatının fəhlələri təşkil edirdi. Təşkilat üzvlərindən üzvlük haqqı adı altında pul vəsaiti yığılırdı. Müxtəlif yerlərdə işləyənlərdən aylıq 10 rubl, tələbələrdən və yetkinlik yaşına çatmayanlardan isə 5 rubl alınırdı. Yığılan vəsait təxribat xarakterli vərəqələrin hazırlanması və yayılmasına, bu məqsədlə çap maşınının alınmasına, təşkilat üzvlərinin səfərlərinin maliyyələşdirilməsinə, eləcə də terror-təxribat hadisələrində istifadə olunan digər vasitələrin alınmasına xərclənməli idi. Bundan əlavə, həmin vəsaitin bir hissəsi xaricdə nəşr edilən "Qolos Ameriki" ("Amerikanın səsi") və "Beyrut" qəzetlərinin nəşrinə kömək üçün nəzərdə tutulmuşdu. Üzvlük haqqından əlavə təşkilata ayrı-ayrı şəxslər də pul vermişdilər. Bir müddət sonra pul verənlər aldadıldıqlarını başa düşmüş, pullarını geri istəsələr də, E.Baqdasaryan "soyqırımı" günündən sonra qaytaracağını demişdi. Təşkilat üzvlərinin yaydıqları avantürist çağırışlı vərəqələrdə yazılırdı ki, qarabağlılar, nə üçün yatırsınız, nə üçün etiraz etmirsiniz, Qarabağ Ermənistana birləşdirilənə qədər öz hüquqlarınızı tələb edin. Digər vərəqədə isə guya qədim erməni torpaqları olan Qarabağ, Ermənistan və Naxçıvandan azərbaycanlıların qovulmasının vacibliyi bildirilirdi. E.Baqdasaryanın dediyinə görə onların fəaliyyətini xarici ölkələrdəki ermənilər də müdafiə edirdilər. O, Azərbaycan televiziyası proqramlarının DQMV-də yayımlanmasının əleyhinə idi və onun qarşısını almaq üçün Şuşa şəhərində yerləşən ötürücünün partladılmasına dair 1974-cü il yanvarın 29-da qrupun üzvləri ilə birlikdə müzakirə aparmış və müvafiq qərar qəbul etmişdi, partlayıcı maddə tapmaq göstərişi verərək, qrup üzvlərindən Aruşan Qazaryanı və Akop Gevorkyanı Gorus rayonuna göndərmişdi. Lakin E.Baqdasaryan 1974-cü il 18 fevral tarixdə həbs olunduğu üçün Şuşada teleötürücünün partladılmasının və digət terror-təxribat hərəkətlərinin qarşısı alınmışdı.

E.Baqdasaryan 1974-cü il 23 iyul tarixində Azərbaycan SSR Ali Məhkəməsinin hökmü ilə 4 il müddətinə azadlıqdan məhrum edildi. Məhkəmənin hakimi milliyyətcə rus, xalq iclasçıları, prokuror, katib və vəkil isə erməni olduğundan o və qrupun digər üzvləri canlarını yüngül cəza almaqla qurtara bildilər[702].

Həmin dövrdə azərbaycanlıların DQMV-dən qovulmasını təbliğ edənlərdən biri, terror dəstəsinə başçılıq edən, 1921-ci ildə anadan olmuş "Paşa" ləqəbli R.A.Danielyan idi. O, azərbaycanlı əhaliyə qarşı düşmənçilik fəaliyyəti və təbliğatı apardığı, o cümlədən xuliqanlıq etdiyinə görə 1967 və 1970-ci illərdə iki dəfə həbs edilmişdi. Lakin havadarlarının köməyi ilə qısa müddət ərzində azadlığa çıxa bilmişdi. Bundan ruhlanan

---

[702] ARMTNA. 1974.

R.Danileyan ətrafına daşnak təfəkkürlü, cinayətə meyilli şəxsləri toplayaraq, silah-sursat ələ keçirtmək planları çızmışdı. 1971-ci ilin iyul ayında həmin məqsədlə Stepanakert şəhərindəki 39828 saylı hərbi hissədə xidmət edən erməni Q.Dadayan ilə əlaqəyə girərək ondan bir neçə ədəd RQ-72 markalı əl qumbarası almışdı. Qumbara alınarkən "Lələ" ləqəbli V.M.Ağacanyan və A.Arutunyan da onunla olmuşdu. Qrup hədəf kimi şəhərdəki mehmanxananı seçmişdi. Təlimlər keçmək məqsədi ilə çağırılan ehtiyatda olan zabitlərə hücum edən qrup üzvləri onları qumbaralarla hədələmiş və ehtiyatda olan 5 nəfər azərbaycanlı zabitə bədən xəsarəti yetirmiş, hücumdan sonra qaçıb gizlənmişdilər. 1972-ci noyabrın 15-də banda üzvlərindən bir neçəsi həbs edildi. Axtarış zamanı onların evindən silah və sursat çıxdı. Cinayətkarlar müxtəlif müddətlərdə azadlıqdan məhrum edildilər[703].

Bu zaman Türkiyə də hər tərəfdən atəş altında olan bir ölkəyə çevrilmişdi. Xarici ölkələrdəki erməni təşkilatları Türkiyəyə qarşı əsassız iddialarını artırır, həmin məqsədə nail olmaq üçün erməni gənclərini və xarici ictimai rəyi türklər əleyhinə hazırlayır, sözdə soyqırımı qurbanlarına abidələr qoyur, yaratdıqları silahlı qruplaşmalar vasitəsi ilə terrora hazırlaşırdılar. Türklərə qarşı planlaşdırılan terror aktları özünü çox da gözlətmədi.

---

[703] ARMTNA. 1972.

# XI FƏSİL

## TERROR AKTLARI VƏ AZƏRBAYCAN ƏLEYHİNƏ FƏALİYYƏTLƏR

### *Terror yenidən baş qaldırır*

60-cı illərin sonu – 70-ci illərin əvvəllərində iki dünya sistemi ölkələri arasında münasibətlərdə ciddi dəyişikliklər, qarşıdurmadan gərginliyin zəifləmdilməsi prosesinə, SSRİ – Türkiyə münasibətlərində əvvəlcə normallaşma, sonra isə əməkdaşlığa keçid baş verdikdə erməni terror təşkilatları əsassız iddialarını həyata keçirtmək üçün 20-ci illərdən etibarən dayandırdıqları qanlı terror aktlarına yenidən başladılar. Terror aktları tarixdə heç bir zaman olmayan "Böyük Ermənistan" yaratmaq yolunda dünya ictimai rəyinin diqqətini çəkməkdə bir vasitə kimi düşünülmüşdü. Terrorçuların hədəfində xarici ölkələrdə çalışan türk diplomatları, bankları, hava limanları, vağzal binaları və agentlikləri var idi. Terror aktlarının xronologiyası geniş, nəticələri isə ağır idi.

İlk terror aktı Türkiyənin müttəfiqi olan ABŞ ərazisində törədildi. "Sultan Əbdülhəmidin sarayından oğurlanmış bir tablonun Türkiyəyə göndərilməsi üçün təşkil edilmiş mərasimə" dəvət olunan Türkiyənin Los Ancelos şəhərindəki baş konsulu Mehmet Baydar və konsul müavini Bahadır Demir Ərzurumda doğulmuş, 1946-cı ildə ABŞ-a köçərək vətəndaşlığı qəbul etmiş 77 yaşlı terrorçu Qurgen Yanukyan tərəfindən 1973-cü il yanvarın 27-də ABŞ-ın Kaliforniya ştatının Santa Barbara şəhərində Baltimor mehmanxanasında xüsusi yemək otağında qətlə yetirildilər. Mehmet Baydar xəstəxanaya aparılarkən yolda vəfat etdi. 30 yaşındakı Bahadır Demir isə St. Francis xəstəxanasında öldü. Onun başından beş güllə çıxarıldı.

Hadisə belə olmuşdu: üç ay əvvəl Qurgen Yanukyan Türkiyənin Los Ancelosdakı baş konsulluğuna göndərdiyi məktubunda yazmışdı:

*"Məndə Əbdülhəmid sarayından oğurlanmış bir tablo vardır. Bunu Türkiyəyə, sizlərə hədiyyə etmək istəyirəm. Santa Barbara şəhərinə sizləri bu məqsədlə dəvət edirəm. Burada birlikdə yemək yeyər, eyni zamanda bu tablonu kiçik və səmimi toplantıda sizə təqdim edərəm*" [704].

Məktub müəllifinin hiyləgərliyini və məkrli niyyətini başa düşməyib dəvəti qəbul edən baş konsul və müavini Santa Barbara şəhərinə getmişdilər. Səmimi qarşılanan türk diplomatlarını otelin özəl yemək salonuna aparmışdılar. Yanukyan və dəvət olunanlar masa arxasına oturduqdan az sonra aralarında mübahisə düşmüşdü. Bir qədər keçmiş atəş səsləri

[704] İki konsolomuz tuzağa düşürüldü. – "Milliyet", İstanbul, 29.01.1973.

eşidilmişdi. Otel xidmətçiləri içəri girdikdə konsulların güllələndiklərini görmüşdülər. Hadisə yerinə gələn otel müdirinə Yanukyan *“mənim ailəmdən 26 nəfəri türklər və ruslar öldürmüşlər. Mən intiqamımı aldım”* demiş, sonra isə polisə zəng edərək, “*bir münaqişə nəticəsində iki nəfəri öldürdüm, gəlin, məni tutun”* söyləmişdi.

Cinayəti törətməmişdən əvvəl Yanukyan Santa Barbaradakı “Nyus Press” qəzetinə bir məktub göndərmiş, cinayəti açıq edəcəyini, polisə təslim olacağını və bunun dünyada yeni miqyaslı bir savaşın başlanğıcı olacağını yazmışdı[705]. Məktubla yanaşı qəzetə erməni dilində 119 səhifəlik bir kitab da göndərmişdi.

Bəs Yanukyan kimi idi? Yanukyan 1917-ci il oktyabr çevrilişindən sonra Suzan adlı bir rus həkim qadın ilə evlənmiş, Avropa ölkələrində yaşamış, daha sonra isə ABŞ-a köçmüşdü. Xəttatlıq sənəti sayəsində qısa müddətdə varlanmışdı. Özünü pyes, roman müəllifi və filosof kimi təqdim edirdi. Hadisədən əvvəl türk konsulluğu belə bir məzmunlu anonim məktub almışdı:

*“Yaxınlarda böyük şiddət hadisəsinə hazır olun”* [706].

Cinayət hadisəsi üzrə məhkəmə prosesi keçirildi. Qatilə ölüm hökmü kəsildi. Lakin cani bir müddət keçmiş səhhəti ağır olduğu üçün həbsdən azad edildi. 1984-cü il dekabrın 31-də ümumi əfv yolu ilə həbsxanadan çıxan Yanukyan az sonra öldü[707].

Baş vermiş hadisə Ağ evdə narahatlıqla qarşılandı. Belə cinayətlər üzrə təhqiqatları adətən yerli polis aparırdısa, ABŞ Prezidenti Riçard Nikson bundan sonra onların Federal Təhqiqat Bürosu (FTB) tərəfindən aparılacağını bildirdi[708].

Bu hadisə dəlilik deyil, Kaliforniyada qurulan erməni terror təşkilatlarının fəaliyyətinin tərkib hissəsi və bilavasitə nəticəsi olduğundan bölgədə yaşayan türklər həyatları üçün qorxu keçirirdilər. Yerli ermənilərin bir qisminin Yanukyanı qəhrəman kimi təbliğ etməsi vəziyyəti daha da ağırlaşdırırdı.

Lakin heç də bütün ermənilər belə düşünmürdülər. Məsələn, Türkiyə erməniləri patrikliyi və baş yepiskop Sinork Kalustyan cinayəti nifrətlə ittiham etdi[709]. Los Ancelosdakı erməni klubu da hadisədən utanc hissi keçirtdiyini bildirdi[710].

Baş verən hadisəyə FTB bir sirr pərdəsi qoydu. FTB-nin qrup rəhbəri Robert Ryan “tutulanın və öldürülənlərin adlarından başqa bir şey

---

[705] FBİ ermeninin suç ortağını arıyor. – “Milliyet”, İstanbul, 31.01.1973.
[706] Olaydan önce türkler tehdit edilmişti. – “Milliyet”, İstanbul, 30.01.1973.
[707] ASALA ve cinayetleri. – “Milliyet”, İstanbul, 28.04.1988.
[708] İki konsolomuz tuzağa düşürüldü. – “Milliyet”, İstanbul, 29.01.1973.
[709] Ermeni patriki cinayeti şiddetle takbih etti. – “Milliyet”, İstanbul, 30.01.1973.
[710] FBİ ermeninin suç ortağını arıyor. – “Milliyet”, İstanbul, 31.01.1973.

söyləyə bilmərik" dedi. Mətbuat və televiziya kanalları da qanunlara uyğun olaraq istintaqa təsir etməmək adı altında məlumat vermədilər.

Türkiyənin xarici işlər naziri Haluk Bayülken bəyanat verərək hadisədən üzüntü keçirtdiklərini bildirdi. Bundan sonra ABŞ-ın Ankaradakı səfiri Villiam Handliy türk hökumətinə başsağlığı verərək hadisəni pislədi. Səfir Handliyi yanvarın 28-də nazirliyə dəvət edən Haluk Bayülken ABŞ-dakı türklərin mallarının və canlarının təhlükəsizliyinin qorunmasını tələb etdi. Eyni zamanda Vaşinqtondakı türk səfiri Melih Esenbel ABŞ dövlət katibinin müavini Cozef Con Sisconun qəbuluna gedərək, hadisəyə hökumətinin etirazını çatdırdı[711]. Başsağlığı verən C.C. Sisco müvafiq tədbirlərin həyata keçiriləcəyini bildirdi. BMT-dəki türk nümayəndəsi, keçmiş xarici işlər naziri Osman Olcay Nyu Yorkda amerikan heyəti ilə görüşərək, Türkiyədə İsrail baş konsulu öldürüləndən on dəqiqə sonra İsrail baş konsulluğuna gedib başsağlığı verdiyini, amerikalılardan isə belə bir yaxşı hərəkət görmədiklərini dedi[712]. Bundan sonra Mehmet Baydarın dul qalmış həyat yoldaşına uzun və çox hörmətcil bir başsağlığı məktubu yollayan ABŞ dövlət katibi Vilyam Rocers xarici işlər naziri Haluk Bayülkenə də başsağlığı göndərərək bildirdi ki, FTB təhqiqatı başa çatdıran kimi türk hökumətinə məlumat veriləcəkdir.

ABŞ ərazisində ilk terror aktını törədən ermənilər digər ölkələrdə də fəaliyyətlərini genişləndirdilər. Onlar Fransanın Marsel şəhərində Türkiyə baş konsuluğunun yerləşdiyi Avenue de Prado küçəsində, erməni kilsəsinin həyətində 1973-cü il fevralın 11-də uydurma soyqırımı abidəsi qoydular[713]. Parisdəki Türkiyə səfirliyinin kəskin etirazlarından sonra abidənin üstündən "Türkiyə" və "türk" ifadələri çıxarılsa da, sözdə "1915-ci il soyqırımı" ifadələri saxlanıldı. Abidənin açılış mərasiminə Türkiyənin NATO üzrə müttəfiqi olan Fransanın gənclər və idman naziri Jozef Komiti sədrlik edirdi. Toplantıya Marsel şəhərinin bələdiyyə sədri Gaston Defferenin qatılması türk milləti tərəfindən hiddətlə qarşılandı. Baş verən hadisəyə etiraz olaraq Türkiyə səfiri Ankaraya çağırıldı. Xarici İşlər Nazirliyinə dəvət olunan Ankaradakı Fransa səfirinə qəti etiraz edildi. Xarici işlər naziri Haluk Bayülken fevralın 14-də Millət Məclisində etdiyi çıxışında bildirdi ki, hələ 1971-ci ildə abidənin qoyulması barədə xəbər alınsa, etirazlar edilsə də, ona mane ola bilməmişlər. Onun fikrincə, abidənin qoyulmasına yaxınlarda keçiriləcək parlament seçkiləri təsir etsə də, bu, türk – fransız dostluğuna xələl gətirməyəcəkdi[714].

---

711 Amerikan elçisi. – "Milliyet", İstanbul, 29.01.1973.
712 FBİ ermeninin suç ortağını arıyor. – "Milliyet", İstanbul, 31.01.1973.
713 Şimşir N. Bilal. Ermeni meselesi, s.338.
714 Türkiye Millet Meclisi Tutanak Degisi. Dönem 3. Cilt 33. Toplantı 4. 57. Birleşim. 14.02.1973, s.552-554.

Bir müddət keçmiş, 1973-cü il aprelin 4-də Parisdə iki erməni terror qruplaşması polislərin gözü önündə Türkiyə konsulluğunun və Türk Hava Yollarının binaları qarşısında bomba partlatdı[715].

Baş verən terror hadisələri türk ictimaiyyətini hiddətləndirirdi. Türkiyə Millət Məclisinin 1973-cü il 5 aprel tarixli iclasında çıxış edərək son günlərdəki erməni sabotajları barədə danışan Hataydan seçilmiş millət vəkili Hüsnü Özkan xarici işlər naziri Haluk Bayülkenə bir neçə sual verdi. Suallara cavab verən xarici işlər naziri alınan tədbirlərdən, Fransa hökumətinə etiraz etdiklərindən və yaranmış şəraitdə türk millətinin birliyinin vacibliyindən danışdı[716].

Ordudan seçilmiş millət vəkili Memduh Ekşi və İstanbuldan seçilmiş millət vəkili Nuri Eroğan Millət Məclisinin 30 aprel tarixli iclasında erməni fəaliyyətlərinə – abidə qoyulmasına, Livanda terror dəstəsi qurmalarına etiraz edərək, xarici işlər naziri Haluk Bayülkendən izahat istədilər və hökuməti zəiflik göstərməkdə təqsirləndirdilər. Çıxış edən nazir Ankaradakı Fransa səfirinin nazirliyə çağırılaraq etiraz edildiyini, hökumətinin proqramı barədə məlumat verərək, hansı təbliğat işlərinin görüləcəyini söylədi[717].

Parlamentin 23 may tarixli iclasında da terror aktlarına dair məsələ gündəliyə gətirildi. Millət vəkili Nuri Eroğan ermənilərin Türkiyə əleyhinə fəaliyyətlərinə və 24 aprelə verdiyi mənaya toxunaraq tədbirlər alınmasının vacibliyini söylədi[718].

Yaranmış şəraitdə Türkiyə hökuməti xarici ölkələrdəki ermənilərin bir sıra mətbuat orqanlarının və kitablarının ölkəyə gətirilməsinin və yayılmasının qarşısını almaq üçün tədbirlər gördü. Daxili İşlər Nazirliyinin 1973-cü il 29 avqust tarixli A.1.91116/1-84-221439, 12532-2420-221440, 221441 saylı məktublarına uyğun olaraq, 5680 saylı qanunun 31-ci maddəsinə görə hökumətin 24 sentyabr tarixli qərarına əsasən Qərbi Almaniyada türkcə "Festival" qəzetinin, "Birlik" jurnalının, İranda farsca "Qatliam-i ermeniyan" ("Ermənilərin qətliamı") kitabının ölkəyə gətirilməsini və yayılmasını qadağan edən qərar qəbul edildi[719].

---

715 Paris konsolosluğu ve THY saldırıya uğradı. – "Milliyet", İstanbul, 05.04.1973.

716 Türkiye Millet Meclisi Tutanak Dergisi. Dönem 3. Cilt 36. Toplantı 4. 90. Birleşim. 05.04. 1973, s. 484-485.

717 Türkiye Millet Meclisi Tutanak Dergisi. Dönem 3. Cilt 37. Toplantı 4. 101. Birleşim. 30.04. 1973, s. 5-10.

718 Türkiye Millet Meclisi Tutanak Dergisi. Dönem 3. Cilt 37. Toplantı 4. 114. Birleşim. 23.05.1973, s. 531.

719 T.C. BCA. 030.18.01.305.71.3.

Bütün bunlara baxmayaraq, xarici ölkələrdəki erməni təşkilatları Türkiyə əleyhinə fəaliyyətlərini və təhdidlərini davam etdirirdilər. Məsələn, Nyu Yorkda yerləşən Türkiyə informasiya xidməti 1973-cü il oktyabrın 26-da bir poçt bağlaması almışdı. Bağlamadan Santa Barbarada türk diplomatlarını öldürən "Q.Yanukyan terror qrupu"nun məktubu və bomba çıxmışdı. Təhlükəsizlik xidmətinin əməkdaşları bombanı zərərsizləşdirmişdilər.

Terrorun başlanması Türkiyə üçün yeni bir problem yaratmışdı. Türk hökumətini ən çox narahat edən məsələ mehriban qonşuluq münasibətlərinin olduğu SSRİ-ni təşkil edən müttəfiq respublikalardan biri, sovet rəhbərliyindən icazəsiz hərəkət etməyə ixtiyarı olmayan Ermənistan SSR rəsmilərinin baş verən hadisələrə münasibəti, erməni xalqının, ziyalılarının düşüncələri və Cənubi Qafqazdakı şərait idi. SSRİ-nin Qafqazda Türkiyə üçün yaxşı qonşuya çevrilməsi prosesi erməni dairələrinin əsassız iddiaları ucbatından çətin gedirdi. Xarici ölkələrdəki türk vətəndaşlarının və Türkiyədəki bir sıra binaların erməni terror təşkilatlarının hədəfinə tuş gəlməsinin qarşısının alınması hökumətin həll etməli olduğu problemlərdən biri idi. Lakin hökumət ermənilərin törətdikləri terrorun qarşısını ala bilmirdi.

Türkiyədə müəyyən dairələr terrorun başladılmasında sovetlərin əlinin olduğundan şübhələnirdilər. Ancaq şübhələr nə qədər çox olsa da, fakt-faktlığında qalırdı: terror aktları ilk olaraq Varşava Müqaviləsi Təşkilatının üzvü olan SSRİ-də deyil, Türkiyənin NATO üzrə müttəfiqi olan ABŞ-ın ərazisində törədilmişdi.

Məlum olduğu kimi, 1974-cü il yayında Türkiyə üçün əlverişsiz beynəlxalq şərait yarandı. Kiprdə türklərə qarşı qətliamlar başladı. Türk hökuməti qəti addımlar atmağa məcbur oldu. Kiprdə yaşayan türklərin fiziki mövcudluğunu qorumaq üçün həmin ilin iyulun 20-də Türkiyənin adaya ordu çıxardaraq barış hərəkatına başlaması NATO üzrə müttəfiqləri tərəfindən etirazla qarşılandı. ABŞ Türkiyəyə qarşı silah embarqosu tətbiq etdi.

Bu addım ermənilərin işinə yaradı. Yaranmış şəraitdən yararlanan erməni təşkilatları terroru daha da artırdılar. Növbəti terror aktı Brüsseldə törədildi. Belə ki, 1977-ci il yanvarın 2-də şəhərdəki Türkiyə Bankı partladıldı. Bir gün sonra Londondakı Türkiyə Bankı bomba partladılması nəticəsində dağıdıldı. Hər iki akta görə məsuliyyəti ASALA-nın bölməsi olan "Yeni erməni müqaviməti" üzərinə götürdü. Beyrutdakı Türkiyə səfirliyinin hərbi attaşesi Nahid Karakaya və attaşe İlhan Özbakan ASALA terror təşkilatının üzvləri tərəfindən mayın 2-də atəşə tutuldular. Həmin il mayın 14-də Parisdəki Türkiyə turizm bürosunun binasına qoyulmuş bombanın partlaması nəticəsində bir nəfər yaralandı. Terror aktına görə də məsuliyyəti "Yeni erməni müqaviməti" və "Gənclərin etirazı qrupu" öz üzərlərinə götürdülər. İstanbulun Yeşilköy hava limanında mayın 29-da bomba partladılması nəticəsində 5 nəfər öldü, 42 nəfər

yaralandı. Həmin gün İstanbulun Sırkeçi vağzalında bomba partladılması nəticəsində 1 nəfər öldü, 10 nəfər yaralandı. Bu terror aktına görə məsuliyyəti "20 may erməni təşkilatı" üzərinə götürdü.

İsveçrənin Sürix şəhərində mənşəcə türk olan Hüseyn Bülbülə məxsus dükan iyunun 6-da partlayış nəticəsində yerlə yeksan edildi. Türkiyənin Vatikandakı səfiri Taha Kerim evinin qarşısında iki erməni terrorçusu tərəfindən vuruldu. Bu qətlə görə məsuliyyəti "CSAQ" (Commandos of Justice of the Armenian Genocide) erməni terror təşkilatı üzərinə götürdü.

Türkiyə ardı-arası kəsilməyən terror aktları ilə üz-üzə qalmışdı. Terror üçün işarənin haradan və hansı ölkədən gəldiyi bir müəmma olaraq qalırdı. Onu sübut etmək üçün heç bir rəsmi sənəd və tutarlı dəlil yox idi.

Regionda mürəkkəb proseslərin getdiyi bir zamanda erməni terror təşkilatlarının Türkiyə əleyhinə fəaliyyəti daha da artırdı. 1978-ci il iyunun 2-də Türkiyənin İspaniyadakı səfiri Zeki Günerel Madriddə iş yerinin qarşısında öldürüldü. Onunla birlikdə həyat yoldaşı Rekle Günerel, təqaüddə olan keçmiş səfir Beşir Balaşoğlu və səfirin milliyyətcə ispan olan sürücüsü Antonio Torres də qətlə yetirildilər. Dekabrın 6-da İsveçrədə Cenevrədə Türkiyə konsulluğunun binası qarşısında partlayış baş verdi. Buna görə məsuliyyəti "Yeni erməni müqaviməti" öz üzərinə götürdü.

Artıq qeyd edildiyi kimi, erməni terror təşkilatlarının aktları üçün göstərişin haradan verildiyini müəyyənləşdirmək mümkün deyildi. Çünki bu barədə türk hökumətinin əlində dəqiq məlumat yox idi. Amma danılmaz bir həqiqət var idi: xarici ölkələrdəki erməni təşkilatlarının üzərində ABŞ MKİ və SSRİ DTK-nın təsiri daim olmuşdu. Kipr barış hərəkatından sonra ABŞ-ın Türkiyəyə qarşı silah embarqosu tətbiq etməsi isə erməni təşkilatlarının işinə yaramışdı.

SSRİ rəhbərliyi də bu zaman xarici ölkələrdəki ermənilərlə aparılan işi genişləndirmişdi. Belə ki, terror aktları törədildikdən bir müddət sonra, 1978-ci il dekabrın 27-də Sov.İKP MK "Xaricdəki ermənilərlə işi gücləndirmək haqqında" qərar qəbul etdi[720]. Qərara uyğun olaraq Ermənistan SSR-də sovet xarici siyasətin təbliği ilə məşğul olan idarə və təşkilatlar xaricdəki "mütərəqqi" erməni ictimai təşkilatlarını və onların mətbu orqanlarını sovet Ermənistanının və SSRİ-nin nailiyyətlərini təbliğə və əməkdaşlığa cəlb etməyə başladılar. İdeoloji istiqamətlərindən asılı olmayaraq xarici ölkələrdə fəaliyyət göstərən erməni təşkilatlarını Türkiyəyə qarşı ümumi düşmənçilik birləşdirirdi.

---

[720] Решения ЦК КПСС. Об усилении работы с зарубежными армянами. 27.12.1978. Сов. секретно. – РГАНИ, ф.89, оп.13, д.4, л.1-9.

Başlıca məqsədi Türkiyə ərazisində fəaliyyət göstərmək üçün terrorçular hazırlamaq olan "Erməni azadlıq cəbhəsi" 1979-cu ildə yaradıldı. Həmin ilin iyulun 8-də erməni terrorçuları Türkiyənin Parisdəki aviasiya nəqliyyat şirkətində, əmək məsələləri attaşesinin binasında və turizm bürosunda partlayışlar törətdilər. Avqustun 22-də Cenevrədəki türk konsulu Niyazi Edalinin maşınına qoyulmuş bombanın partlaması ilə şəhərin iki sakini yaralandı. Bu hadisədən beş gün sonra Almaniyanın Frankfurt şəhərində Türk Hava Yollarının ofisi qarşısında bomba partladılması nəticəsində bir neçə adam yaralandı. Həmin ilin oktyabrın 4-də Danimarkada Kopenhagendə Türk Hava Yollarının ofisi qarşısında bomba partladılması ilə adamlar həlak oldu. Binaya xeyli ziyan dəydi. Hollandiyadakı Türkiyə səfiri Özdemir Benlerin 27 yaşlı oğlu, Delft Texniki Universitetinin doktorantı Ahmet Benler şəxsi avtomobilində oktyabrın 12-də bir neçə şəxsin gözü qarşısında erməni terrorçusu tərəfindən öldürüldü. Oktyabrın 30-də İtaliyanın Milan şəhərində Türk Hava Yollarının ofisinin yerləşdiyi binada baş verən partlayış nəticəsində xeyli ziyan dəydi. Roma şəhərində Türkiyə səfirliyinin binasında noyabrın 8-də bomba partladıldı. Bu hadisədən 10 gün sonra Parisdəki Türk Hava Yollarının ofisinin yerləşdiyi binada partlayış törədildi. Dekabrın 17-də Londonda Türk Hava Yollarına məxsus binada baş verən partlayış nəticəsində xeyli ziyan dəydi. Bu hadisədən bir neçə gün sonra, dekabrın 22-də Türkiyənin Fransadakı səfirliyinin turizm məsələləri üzrə attaşesi Yılmaz Şolpan Yelisey meydanında erməni terrorçusu tərəfindən qətlə yetirildi. Elə həmin gün Hollandiyada Amsterdamda Türk Hava Yollarının ofisi qarşısında güclü partlayış törədildi. Binaya və ətrafa xeyli ziyan dəydi.

Bütün bunlar Türkiyənin erməni terroru ilə üzbəüz qaldığını göstərir və türk ictimai rəyinə ağır təsir edirdi. Lakin terrorçuların haradan təlimat aldığını dəqiqləşdirmək çətin idi. Söylənənlər yalnız mülahizələr olaraq qalırdı.

Erməni terror təşkilatları xarici ölkələrdə türk diplomatlarına və binalarına qarşı terroru həyata keçirtdikləri bir zamanda Ermənistan SSR-də kommunist rəhbərlər və qatı millətçi qruplar Azərbaycana qarşı əsassız iddialarını davam etdirirdilər.

## *Qatı millətçilik*

Azərbaycan hökuməti qatı millətçi erməni qruplarının ziyanlı fəaliyyətlərinə qarşı müvafiq tədbirlər aldı. Məsələn, Azərbaycan SSR DTK-nın 5-ci şöbəsi 1973-cü ilin avqust ayında respublika ərazisində "Erməni millətçiləri" adı altında əməliyyat işini apardı. Daşnaksütyun ilə əlaqəsi olan bəzi şəxslər həbs edildilər[721].

---

[721] Армянские националисты. – ARMTNA, L-164.

Ermənistanda da qatı millətçi qruplar var idi. Belə ki, SSRİ DTK-nın 1975-ci il üçün fəaliyyətinə dair hesabatında Ermənistanda millətçi qrupların mövcud olduğu vurğulanırdı[722]. Eyni vəziyyət 1976,[723] 1977,[724] 1978-ci illər[725] üçün hazırlanmış hesabatlarda da əksini tapmışdı. Həmin qrupların başlıca məqsədi türk düşmənçiliyini və əsassız ərazi iddialarını təbliğ etmək idi.

### *Dağlıq Qarabağ regionuna əsassız iddialar*

Erməni dairələri 70-ci illərdə "Dağlıq Qarabağ məsələsi"ni yenidən gündəliyə gətirsələr də, həmin niyyətlərin qarşısı alındı.[726] 1977-ci ildə SSRİ, 1978-ci ildə isə Azərbaycan SSR konstitusiyalarının layihələri müzakirə olunarkən bəzi ermənilər mərkəzi orqanlara müraciət edərək "Dağlıq Qarabağ məsələsi"ni qaldırdılar. Lakin Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev bu zaman Krımda istirahət edən Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev ilə görüşərək erməni avantüristlərinin əsassız iddialarını puça çıxardı.

Bütün bunlarla yanaşı olaraq Azərbaycan hökuməti Dağlıq Qarabağ regionunun sosial-iqtisadi inkişafı, dağlıq və aran hissələrinin təsərrüfat, iqtisadi cəhətdən daha sıx birləşdirilməsi üçün tədbirlərini daha da genişləndirdi. Bəzi erməni dairələrinin Dağlıq Qarabağın Azərbaycanın digər rayonları ilə guya iqtisadi və təsərrüfat əlaqələrinin olmadığını bildirərək, əhalinin ümumi sayında ermənilərin çoxluğunu əsas gətirərək vilayətin Ermənistana birləşdirilməsi niyyətlərinin qarşısını qətiyyətlə kəsmək, yuxarı Qarabağın aran Qarabağ və digər rayonlarla əlaqəsini daha da sıxlaşdırmaq, strateji əhəmiyyətli kommunikasiyaların sayını artırmaq məqsədi ilə Ağdam – Stepanakert dəmiryolunun tikintisi üçün Moskvadan icazə

---

[722] Отчет о работе Комитета Государственной Безопасности за 1975 год от 30 марта 1976 года. №709-А/ОВ, s.8-9// The National Security Archive of the USA.The Washington University in Washington.

[723] Отчет о работе Комитета Государственной Безопасности за 1976 год от 28 февраля 1977 года. №414-А/ОВ, s.8 // The National Security Archive of the USA.The Washington University in Washington.

[724] Отчет о работе Комитета Государственной Безопасности за 1977 год от 27 марта 1978 года. №577-А/ОВ, s.11 // The National Security Archive of the USA.The Washington University in Washington.

[725] Отчет о работе Комитета Государственной Безопасности за 1978 год от 2 апреля 1979 года. №646-А/ОВ, s.6-7 // The National Security Archive of the USA.The Washington University in Washington.

[726] Qasımlı M. Azerbaycan Cumhuriyeti. – Türkler. C.19. Ankara, 2002, s. 145.

alındı. 1979-cu ilin yanvar ayında həmin dəmiryolu istifadəyə verildi[727]. Vilayətdə tikinti-quruculuq işləri genişləndirildi.

Azərbaycan hökumətinin gördüyü işlər Mərkəzi mətbuat orqanlarında da işıqlandırılırdı. Məsələn, Xankəndindən olan iki nəfər qocaman erməni bolşevikinin xahişi ilə müxbir İ.Y.Mesxinin "Oqonyok" jurnalının 1979-cu il 34-cü nömrəsində Dağlıq Qarabağa həsr edilmiş "Biz Qarabağdanıq" adlı oçerki dərc olunmuşdu. Oçerkdə Dağlıq Qarabağın sosial-iqtisadi və mədəni həyatında qazanılan uğurlardan, millətlərarası dostluqdan söhbət açılırdı. Jurnalın işıq üzü görməsindən az sonra qatı millətçi ermənilərdən biri, əslən Qarabağdan olan, atası Bakıda fəhlə işləyərək ailəsini keçindirmiş Yerevan şəhər sakini, İkinci dünya müharibəsinin iştirakçısı, istefada olan zabit, həkim Georgi Karapetoviç Ter-Akopov 1980-ci ilin mart ayında redaksiyaya beş səhifəlik bir məktub göndərərək, oçerkdə yazılan məsələlərə etirazını bildirmişdi. Qaranlıq və bədxah ruhda yazılmış məktubda irəli sürülən əsassız və uydurma iddialar aşağıdakılardan ibarət idi: guya müxbir İ.Y.Mesxi oçerki ilə oxucuları çaşdırır; müharibə illərində SSRİ-nin əhalisi azalsa da, müharibədən sonrakı dövrdə ölkə əhalisi təxminən iki dəfə, çarizm zülmü altında inləyən xalqlar daha çox artmışdır; Azərbaycanın əhalisi 1920-1978-ci illərdə 3,1, Naxçıvan MSSR-in əhalisi 2,7, Ermənistanın əhalisi isə 4,2 dəfə artmışdır; lakin Dağlıq Qarabağda tam tərsinə olan vəziyyət yaranmış, burada əhali heç 1913-cü il səviyyəsinə çatmamışdır; 1913-cü ildə burada 176, 1923-cü ildə 158, 1979-cu ildə 161 min nəfər əhali yaşayırdı; Dağlıq Qarabağ yeganə milli qurumdur ki, orada "yerli əhali" olan ermənilər azalmağa doğru getmişdir; bütün ölkədə iqtisadiyyat geniş inkişaf edir, fabrik-zavodlar, yollar tikilir, 40 min əhalisi olan Stepanakert üçün 26 kilometrlik Ağdam – Stepanakert dəmiryolunun tikintisi isə şişirdilir, axı, hələ müharibə dövründə Stepanakertə kiçik dəmiryolu var idi, Bakı – Ağdam dəmiryolu isə çoxdan işləyir; Qarabağın istedadlı adamları öz istəklərini illərlə yerinə yetirə bilmədiklərindən çıxıb gedirlər, onları iri şəhərlər özlərinə çəkir; Stepanakeptdə çoxdandır yaşayış evləri tikilmir, adamlar uzun illərdir mənzil növbəsində gözləyirlər; buna baxmayaraq, xan sarayının şairi Vaqifə 18 metrlik mavzoley ucaldılır, xan qızı şairə Natəvan mədh edilir, ermənilərdən olan 15 akademik, 16 bəstəkar və 23 general unudulur; Muxtar Vilayət yaradılarkən əhalinin 94%-ni təşkil edən erməni xalqı çoxəsrlik tarixində məgər, öz sırasından xatirəsinin əbədiləşdirilməsinə layiq olan adamlar yetişdirə bilməmişdirmi; xalq məktəbə, uşaq müəssisələrinə ehtiyac duyduğu və erməni memarlıq abidələrinin bir-birinin ardınca dağı-

[727] Ağdam – Stepanakert dəmiryolu xətti açıldı. – "Kommunist" qəzeti, Bakı, 13.01.1979, № 11 (17050).

dıldığı bir zamanda belə tikililər lazımdırmı; erməni əhalisinin yaratdığı iki milli ərazidən biri olan Ermənistan SSR-də əhali artdığı, elm, təhsil, mədəniyyət inkişaf etdiyi halda, Dağlıq Qarabağda bütün bunlar geriyə gedir; indiyədək heç bir respublikada yerli əhalinin köçməsinə rast gəlinməmişdir; yerli ermənilər sıxışdırılır, Azərbaycan xalqının mədəni sərvətləri isə dirçəldilir, diyarın əhalisinin çox hissəsini təşkil edən yerli erməni xalqının mədəni irsi barədə isə susulur. Məktub müəllifi qəsdən bütün tarixi gerçəklikləri kobudcasına saxtalaşdıraraq, 4,5 min kvadrat kilometr ərazisi olan Dağlıq Qarabağın Azərbaycan tərkibinə ədalətsiz yerə qatıldığını iddia edirdi[728].

Jurnalın baş redaktoru A.Safronov həmin məktubu 1980-ci il martın 28-də Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə göndərərək, redaksiyanın müəllifə cavab verərkən istifadə etməsi üçün, imkan olarsa, mülahizələrini söyləməyi xahiş etdi.[729] A.Safronovun məktubu Azərbaycan KP MK-da 1980-ci il aprelın 8-də 1569 №-lə qeydiyyatdan keçirildi. Aprelın 10-da məktubla tanış olan Heydər Əliyev dərhal *"mənimlə danışın. B.S.Gevorkovu tanış edin"* dərkənarı yazaraq MK katibi K.Bağırova göndərdi. Bundan sonra Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin katibi B.S.Gevorkov ilə əlaqə saxlanıldı. O, MK-ya 11 may tarixində 59s №-li məxfi bir arayış təqdim etdi[730]. Mayın 13-də Azərbaycan KP MK-da 1569 №-lə qeydiyyatdan keçirilən arayışda G.K.Ter-Akopovun məktubunda irəli sürülən iddiaların əsassızlığı zəngin fakt və materiallarla təkzib olunurdu.

Heydər Əliyev iyunun 23-də A.V.Safronova ünvanlanan 252 №-li məktubu imzaladı. Ona 7 səhifəlik müvafiq arayış da əlavə edildi[731]. Məktubda yazılırdı:

*"Ter-Akopovun Yerevandan redaksiyaya göndərdiyi məktubla tanış olduq, müəllifin söylədikləri əsassız və saxta olduğundan onları təkzib etməyin heç mənası da yoxdur. Bununla belə, redaksiyanın məktub müəllifinə müvafiq cavab verməsi üçün Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağın sovet hakimiyyəti illərində keçdiyi inkişaf yolu barədə kifayət qədər faktiki material olan arayışı Sizə göndəririk*".

---

[728] Г.К.Тер-Акопов – главному редактору журнала "Огонек" Сафронову А.В. Март 1980 г. – ARSSA, f.1, siy. 67, iş 196, v.131-135.
[729] Главный редактор журнала "Огонек" А.Сафронов – первому секретарю ЦК КП Азербайджана Г.Алиеву. 28.03.1980. – ARSSA, f.1, siy.67, iş 196, v.136.
[730] Секретарь Нагорно-Карабахского обкома КП Азербайджана Б.Кеворков. Справка. 11.05.1980. №59 с. – ARSSA, f.1, siy.67, iş 196, v.119-130 .
[731] Первый секретарь ЦК КП Азербайджана Г. Алиев – главному редактору журнала "Огонек" Сафронову А.В. – ARSSA, f.1, siy.67, iş 196, v.137-144.

Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması və statusuna dair hüquqi və siyasi məsələlərin rəsmi partiya, dövlət sənədləri və arxiv materialları əsasında, istinad göstərilməklə tutarlı şəkildə izah olunduğu arayışda yazılırdı ki, Azərbaycanla iqtisadi və daimi əlaqəsini, azərbaycanlılarla ermənilər arasında daimi sülhün zəruriliyini nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılmış, 1923-cü ildə partiyanın qərarı ilə Muxtar Vilayət yaradılmış və bu qərar yekdilliklə qəbul edilmişdir.

Tamamilə düzgün olaraq vurğulanırdı ki, Dağlıq Qarabağda əhalinin azalmasının 1913-cü illə müqayisə edilməsinin heç bir əsası yoxdur. Çünki həmin dövrdə muxtar vilayət mövcud deyildi. Onun ərazisinə Yelizavetpol quberniyasından Şuşa, Cavanşir, Cəbrayıl, Zəngəzur qəzaları və respublikanın indiki rayonlarının bəzisi də daxil edilmişdi. Ona görə də müqayisənin istinad nöqtəsi kimi Muxtar Vilayətin yaradılması ili götürülməlidir. 1923-cü ildə vilayətin əhalisi 158 min nəfər idi. Böyük Vətən müharibəsi illərində vilayətin əhalisi təbii olaraq azalmışdı. 1980-ci il aprelin 1-ə olan məlumata görə vilayətin əhalisi 163,1 min nəfər olmuşdu. Bu isə vilayət əhalisinin azalmadığını göstərirdi. Arayışda vilayətdə obyektiv miqrasiya prosesləri getdiyindən, əhalinin və ölkənin həyatında beynəlmiləlləşmə baş verdiyindən burada 49 millətin nümayəndəsinin yaşadığı qeyd olunurdu. Əhalinin 76%-ni ermənilər təşkil edirdi.

Vilayətin iqtisadi inkişafı məsələlərinə aydınlıq gətirilərək yazılırdı ki, inqilabadək Dağlıq Qarabağın sənayesi kiçik yarımkustar emalatxanalardan ibarət olmuşdur. 70-ci illərdə isə vilayətdə yüzlərlə məhsul istehsal edən və malları nəinki ölkənin müxtəlif yerlərinə göndərilən, eyni zamanda xaricə ixrac olunan 45 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Sovet hakimiyyəti illərində vilayətdə sənaye məhsulu istehsalı 724 dəfə artmışdı. Əvvəlki beşillikdə vilayətdə sənaye məhsulu istehsalının həcmi 24%, 1976-1980-ci illərdə 50,3%, əmək məhsuldarlığı 17,1% əvəzinə 37,6 % olmuşdu. Bu müddət ərzində 80-dən çox yeni sənaye məhsulunun istehsalına başlanmışdı. Stepanakertdə ildə 6 min maşın təmir edən zavod yaradılmışdı. Vilayətdə aqrar-sənaye kompleksi də inkişaf etmişdi. 1976-1979-cu illərdə kənd təsərrüfatı məhsullarının orta illik məcmu artımı planda nəzərdə tutulan 16,8% əvəzinə 49,1% olmuş, əmək məhsuldarlığı beşillik planda nəzərdə tutulan 15,6% əvəzinə 42,8% artmışdı. Üzümçülük, maldarlıq, bağçılıq inkişaf etmişdi. Dağlıq Qarabağ bütün bu sahələr üzrə inkişaf baxımından Cənubi Qafqazda yaradılmış muxtar vilayətlərin hamısını geridə qoyurdu.

Ağdam – Stepanakert dəmiryolunun tikintisinə dair də tutarlı fakt və materiallar verilərək yazılırdı ki, dəmiryol xəttinin tikinti xərclərinin 50%-ni SSRİ Dəmiryol Nazirliyi, 50%-ni isə Azərbaycan SSR hökuməti

ayırmışdır. Bu yol DQMV-nin Azərbaycan ilə əlaqəsini gücləndirir, nəqliyyatın inkişafına və vilayətdə istehsal edilən məhsulların ölkənin müxtəlif şəhərlərinə daşınmasına müsbət təsir edir.

Qeyd edilirdi ki, son illərdə vilayət əhalisinin sosial-iqtisadi həyatı da xeyli yüksəlmiş, onuncu beşillikdə əhalinin pul gəlirləri doqquzuncu beşilliyin müvafiq dövrü ilə müqayisədə 39,1% artmış, pərakəndə ticarət 18,3%, əhaliyə göstərilən məişət xidməti 52% çoxalmışdır. Əhalinin təbii qazla təmin edilməsi 1980-ci il yanvar ayının 1-i üçün 95% olmuşdu. Yevlax – Stepanakert – Şuşa qaz boru kəmərinin inşası vilayət mərkəzinin və Şuşa kurort şəhərinin problemlərinin həllinə kömək etmişdi.

Vilayətdə mənzil tikintisinə xüsusi diqqət yetirildiyi yazılır və vurğulanırdı ki, 1971-1975-ci illərdə dövlət vəsaiti hesabına 93,7 min kvadrat metr ev, 2000-dən çox mənzil, 16681 şagird yeri olan ümumtəhsil məktəbləri, 1590 yerlik uşaq məktəbəqədər müəssisələri tikilmiş, Stepanakertin su təchizatının genişləndirilməsi vilayət mərkəzinin təminatının yaxşılaşdırılmasına imkan vermişdir.

Muxtar Vilayətin mədəni inkişafı haqqında da geniş məlumat verilirdi. Qeyd edilirdi ki, inqilabadək bu ərazidə şəxsi adamlara məxsus olan yalnız üç mədəni-maarif müəssisəsi fəaliyyət göstərmişdir. Əhalinin 90%-dən çoxu savadsız idi. 70-ci illərdə isə vilayətin əhalisi başdan-başa savadlı olmuşdu. Vilayətdə 193 ümumtəhsil məktəbi, o cümlədən 147 erməni məktəbi fəaliyyət göstərirdi. Stepanakert Pedaqoji İnstitutunda dərslər Azərbaycan, rus və erməni dillərində keçirilirdi. Vilayətdəki 5 texnikumdan 4-də, 5 texniki-peşə təhsili məktəbindən 4-də dərslər erməni dilində idi. Kitab fondu 1,5 mln. olan 196 kütləvi kitabxana, 202 klub, mədəniyyət evi, 195 kinoteatr və kinoqurğusu, M.Qorki adına Stepanakert dram teatrı, Dövlət mahnı və rəqs ansamblı, erməni və rus dillərində dublyajı nəşr olunan “Sovetakan Karabax” qəzeti, 5 rayon qəzeti (4-ü erməni, 1-i Azərbaycan dilində) var idi. Vilayətdə 2,5 saat yayımlanan radio verilişlərindən 2 saatdan çoxu erməni dilində idi. Bütün vilayətdəki şair və yazıçıların 95%-i erməni dilində yazırdı.

Arayışda vilayətdə abidələrin qoyulması məsələsinə də aydınlıq gətirilirdi. Erməni xadimlərinə abidələr qoyulduğuna dair faktlar sadalandıqdan sonra vurğulanırdı ki, əhalisi əsasən azərbaycanlılardan ibarət olan Şuşada indi Azərbaycan ədəbiyyatının klassiki Vaqifə abidə qoyulur. Qeyd edilirdi ki, Vaqif Qarabağ xanının vəziri – xarici işlər naziri vəzifəsinə uyğun gələn vəzifədə işləmiş və onun xarici siyasət fəaliyyəti Zaqafqaziya hakimlərinin İran şahına qarşı mübarizəsinə dair müqavilənin imzalanması ilə nəticələnmişdir. O, Rusiya ilə əlaqələrin qurulmasına və inkişafına üstünlük vermişdir.

Zəngin fakt və materiallar əsasında hazırlanmış arayış əsassız erməni iddialarına və yalanlarına tutarlı bir cavab idi. Eyni zamanda bu arayış qatı millətçiliyin nə qədər ziyanlı olmasına dair bir həyəcan təbili çalırdı.

Görülən işlərlə kifayətlənməyən Azərbaycan hakimiyyəti DQMV-nin sosial-iqtisadi, mədəni inkişafına xüsusi qayğısını davam etdirirdi. Belə ki, 1981-ci il iyunun 16-da DQMV haqqında Azərbaycan SSR qanunu qəbul edildi. IV fəsil, 68 maddədən ibarət olan qanunda yazılırdı ki, SSRİ və Azərbaycan SSR konstitusiyalarına görə DQMV Azərbaycan SSR-in tərkibindədir. DQMV-nin hüquqi vəziyyəti SSRİ və Azərbaycan SSR konstitusiyalarına və mövcud qanunla, SSRİ və Azərbaycan SSR-in digər qanunları ilə tənzimlənir. DQMV-də Əskəran, Hadrut, Mardakert, Şuşa və vilayət tabeliyində olan Stepanakert şəhəri vardır. Muxtar Vilayətin ərazisi Vilayət Xalq Deputatları Sovetinin razılığı olmadan dəyişdirilə bilməzdi. Vilayətin inzibati sərhədlərinin dəyişdirilməsi, təşkili, ləğvi, rayon, şəhər, qəsəbə və digər yaşayış məntəqələrinin adları, həmçinin Muxtar Vilayətin rayon inzibati mərkəzlərinin müəyyənləşdirilməsi və yerlərinin dəyişdirilməsi SSRİ və Azərbaycan SSR qanunları ilə ola bilərdi[732].

Azərbaycan hakimiyyəti DQMV-də yaşayan ermənilərə qayğını artırmasına baxmayaraq, tarixdə heç bir zaman olmayan "Böyük Ermənistan" yaratmaq niyyətlərini gerçəkləşdirmək üçün Ermənistanda türk düşmənçiliyi genişləndirilir və tarixi torpaqlarında yaşayan azərbaycanlılar sıxışdırılmaqla respublika erməniləşdirilirdi.

### *Ermənistanda azərbaycanlılara məxsus yaşayış yerlərinin adları dəyişdirilir*

Ermənistanın erməniləşdirilməsi siyasətinin formalarından biri artıq qeyd edildiyi kimi, azərbaycanlılara məxsus tarixi yaşayış yerlərinin adlarının dəyişdirilməsi idi. 1970-1979-cu illərdə Ermənistanda azərbaycanlılara məxsus 100-dən çox yaşayış yerinin adı dəyişdirilərək erməniləşdirildi[733].

### *Terror şiddətlənir*

Belə bir şəraitdə xarici ölkələrdəki erməni təşkilatları terror fəaliyyətlərini davam etdirirdilər. Bu, İranda baş verən inqilabdan, SSRİ-nin Əfqanıstana hərbi müdaxiləsindən və Türkiyədəki çevrilişdən sonra regionda yaranmış mürəkkəb şəraitdə diqqəti daha çox cəlb edirdi. İranda 1978-

[732] Закон Азербайджанской Советской Социалистической Республики о Нагорно-Карабахской Автономной Области. 16.06.1981. Баку, 1981.
[733] Mustafa N.Vandalism: genocide against the historical names, p.7-43.

1979-cu illər inqilabının gedişində şah rejiminin devrilməsi nəticəsində ABŞ-ın bu ölkədən qovulmasından və SSRİ-nin geniş strateji məqsədləri naminə 1979-cu ildə Əfqanıstana hərbi müdaxiləsindən sonra beynəlxalq münasibətlərdə gərginliyin zəifllədilməsi prosesindən geri çəkildiyi bir zamanda erməni terror təşkilatları türklərə qarşı fəaliyyətlərini daha da artırdılar. Terror aktlarının xronologiyasının izlənilməsi onun genişliyini və necə qəddarlıqla həyata keçirildiyini sübut edir. Belə ki, 1980-ci il yanvarın 10-da Tehranda Türk Hava Yollarının ofisinin yerləşdiyi bina qarşısında törədilən partlayış nəticəsində dağıntı əmələ gəldi. Bundan bir müddət keçmiş, fevralın 2-də Belçikada Brüsseldə Türk Hava Yollarına məxsus binada partlayış baş verdi. İnsan tələfatı olmasa da, xeyli dağıntı əmələ gəldi. Dörd gün sonra İsveçrədə Berndə Türkiyə səfirliyinin binası qarşısında erməni terrorçu Maks Klıncyan maşınında oturmuş türk səfiri Doğan Türkmenə atəş açdı. Sui-qəsdçini sonralar Madriddə həbs etdilər, istintaq və mühakimə etmək üçün İsveçrəyə verdilər. Martın 10-da İtaliyada Romada Plazza Della Republika meydanında Türk Hava Yollarının ofisinin yerləşdiyi bina qarşısında güclü partlayış baş verdi. Romada Baş kilsənin yanında üç nəfər erməni terrorçusu Türkiyənin Vatikandakı səfiri Vecdi Turala aprelin 17-də atəş etdi. Terror nəticəsində səfir, cangüdəni və sürücüsü yaralandı.

Erməni terror təşkilatları Fransada, xüsusən Lion şəhərində fəal idilər. Lionun ermənilər tərəfindən mərkəz kimi seçilməsi səbəbsiz deyildi. Şəhərin 2 mln. nəfər əhalisinin 80 min nəfəri erməni idi. Türkiyə, Suriya və Livandan gələn ermənilərin çoxu burada sovet xüsusi xidmət orqanlarının nəzarəti altında olan Sosialist və Kommunist partiyalarının üzləri idi. Həmin partiyalar isə Sov.İKP ilə sıx əməkdaşlıq edir və hətta ondan maliyyə yardımları alırdılar.

Bu dövrdə Türkiyə əleyhinə fəaliyyət göstərən 8 gizli erməni təşkilatı var idi. Təkcə Lionda 3 erməni təşkilatı işləyirdi. Fransanın bir çox şəhərlərində olduğu kimi, Lionda da fransız senatorlarının dəstəyi ilə üç erməni abidəsi qoyulmuşdu.

Lion şəhərindəki türk baş konsulu Okan Gezer ermənilərdən tez-tez təhdid dolu məktublar alırdı. Məktublarda Türkiyəyə qarşı əsassız torpaq iddiaları irəli sürülür və qisas alınacağı yazılırdı. Tarixdə heç bir zaman olmayan uydurma erməni soyqırımı günü – 1980-ci il aprelin 24-də şəhərdə konsulluğun 400 metr yaxınlığında keçirilən mitinqə 5 min erməni toplaşmışdı. Onlar Türkiyə əleyhinə şüarlar səsləndirirdilər. Konsulluq binası demək olar, mühafizəsiz qalmışdı.

Marseldə də fəallaşan erməni terrorçuları şəhərdəki Türkiyə konsulluğunun binasına bomba qoymuşdular. Lakin Fransa polisi bombanı mayın 17-də zərərsizləşdirdi.

Türk diplomatlarına qarşı erməni terroru təkcə Fransada törədilmədi. Yunanıstanda da erməni təşkilatları fəal idilər. Türkiyənin Afinadakı səfirliyinin əməkdaşı Qalib Özmen və ailə üzvləri erməni terrorunun hədəfinə tuş gəldilər[734]. Terror aktı nəticəsində Q.Özmen və 14 yaşlı qızı Esmer həlak oldu, həyat yoldaşı Sevil Özmen və oğlu Alper isə ağır yaralandılar. Q.Özmenin böyük oğlu Kaan qatili qovsa da, tuta bilmədi. Xarici ölkələrin birinin Afinadakı bürosuna zəng edən bir naməlum şəxs bu hadisəni erməni təşkilatının törətdiyini dedi. Qətli Akop Akopyan adlı bir terrorçu öz üzərinə götürdü. Yunan mətbuatı Q.Özmenin təhlükəsizlik xidmətinin əməkdaşı olduğunu və erməniləri izlədiyini iddia edən bir xəbər yaydı[735].

Terror xəbəri Ankaraya çatan kimi Türkiyə tərəfi Yunanıstan hökumətinə etiraz notası versə də, bunun elə bir nəticəsi olmadı. Erməni terrorçuları Yunanıstanda fəaliyyətlərini yenə də davam etdirirdilər.

Artıq qeyd edildiyi kimi, terror aktlarının törədilməsinə işarəsinin haradan verildiyi barədə dəqiq bir söz söyləmək çətin idi. Çünki bu xarakterli gizli sənədləri əldə etmək mümkün deyildi. Amma aydın idi ki, ideoloji-siyasi istiqamətlərindən asılı olmayaraq, müxtəlif erməni qruplarını Türkiyəyə qarşı qatı nifrət birləşdirirdi. Erməni siyasi və terror təşkilatları həm də sovet xüsusi xidmət orqanlarının təsiri altında idilər. Terror aktlarının Türkiyənin NATO-dakı müttəfiqi olan ölkələrin ərazilərində törədilməsi onların münasibətlərini pozmaq məqsədini güdürdü. Bu təşkilatlar üzərində Qərb ölkələrinin, o cümlədən ABŞ xüsusi xidmət orqanlarının da təsiri var idi. Qərb ölkələri həmin təşkilatlardan bir çox hallarda SSRİ-yə qarşı öz məqsədlərinə nail olmaq üçün istifadə edirdilər.

Fransanın Lion şəhərində "Erməni gizli azadlıq ordusu" terror təşkilatının üzvü olan iki nəfər 1980-ci il avqustun 5-də türk konsulluğunun binasına soxularaq konsulun oturduğu yerin göstərilməsini tələb etdi. Təhlükəsizlik xidməti əməkdaşlarının işə qarışması nəticəsində terrorçular konsulu qətlə yetirə bilməsələr də, iki vətəndaşı öldürdülər, bir neçə adamı yaraladılar. Yaralı bir türk diplomatı qaçıb xəbər verdikdən sonra polis özünü hadisə yerinə yetirdi[736].

Hadisədən sonra Türkiyə hökuməti terrorçuların dərhal tutulması və verilməsini Fransadan tələb etdi[737]. Terror aktı haqqında proqram hazır-

---

[734] Atinada ermeniler bir diplomatımızı ve kızını öldürdüler. – "Tercuman", İstanbul, 01.08.1980.

[735] Atinada şehit edilen diplomatımızla kızının cenazeleri bugün getiriliyor. – "Hürriyet", İstanbul, 06.08.1980.

[736] Faruk Zabçı. Ermeniler Lyon Konsolosluğumuzu vurdular. – "Hürriyet", İstanbul, 06.08.1980.

[737] Fransadan mütecavizlerin bulunmasını istedik. – "Hürriyet", İstanbul, 06.08.1980.

layan Lion radiosu Fransada ermənilərin törətdikləri cinayətləri bir-birinin ardınca sadaladıqdan sonra studiyaya dəvət edilmiş bir erməni törədilən hadisəyə həyasızcasına "haqq qazandıraraq" dedi:

*"Biz Türkiyədən torpaqlarımızı istəyirik".*

Bu zaman "Erməni gizli azadlıq ordusu" və Kürd Fəhlə Partiyası (PKK) birgə bəyanat yayaraq Türkiyədən intiqam alacaqlarını və türk torpaqlarını ələ keçirəcəklərini bildirdilər. Həmin təşkilatların birgə bəyanat verməsi təəccüblü deyildi. Çünki onların hər ikisi üzərində sovet xüsusi xidmət orqanlarının təsiri var idi. PKK sovetlərin maliyyə və təşkilati dəstəyi ilə yaradılmışdı. "Kürd hərəkatı"nın sıralarında və rəhbərliyində mənşəcə erməni olan, lakin kürd adı və soyadı ilə yerləşdirilmiş çoxlu terrorçu fəaliyyət göstərirdi[738]. Hər iki təşkilat terror aktlarını bir qayda olaraq, sovet xüsusi xidmət orqanlarının işarəsi ilə və nəzarəti altında həyata keçirirdi. Amma təəccüblü olan başqa bir şey idi. Erməni təşkilatlarının əsassız iddia etdikləri Türkiyə ərazilərinə PKK da iddia edirdi. Həmin ərazilər kimə çatacaqdı? Təbii ki, SSRİ hökuməti türklərin öz ərazilərini ermənilərə və kürdlərə verməyəcəyinə əmin idi. Buna baxmayaraq, həmin təşkilatlardan öz məqsədləri naminə istifadə edərək Türkiyəni zəiflətmək və türk cəmiyyətində problemlər yaratmağa çalışırdı.

1980-ci il avqustun 11-də Nyu Yorkda Türkiyənin BMT-dəki nümayəndəliyinin və türk konsulluğunun yerləşdiyi Türk evinin qarşısına üstünə türk diplomatlarından qisas alınacağına dair yazının olduğu kağız yapışdırıldı. Binaya "Erməni qrupu" imzası qoyulmuş partlamayan bombalar atıldı.

İran inqilabından və Əfqanıstana sovet müdaxiləsindən sonra Türkiyənin NATO üzrə müttəfiqlərinin mövqeyində qalması onun bədxahlarının hiddətinə səbəb olurdu. 1980-ci il 12 sentyabr çevrilişindən sonra Türkiyədə qurulan yeni hökumətin xarici siyasət fəaliyyəti də həmin qüvvələri təmin etmirdi. Ona görə də yenidən mümkün təzyiq vasitələri işə salındı. Hərbi çevrilişdən sonra erməni terroru daha da genişləndi. Terrorun qarşısını almaq Türkiyənin başlıca problemlərindən biri olmuşdu.

Çevrilişdən az sonra, sentyabrın 26-da Parisdə türk səfirliyinin mətbuat məsələləri üzrə müşaviri Səlcuq Bakkalbaşı ASALA terror təşkilatı üzvlərinin açdığı atəşlə yaralandı. Müşavir ömürlük əlil oldu. İtaliyada Milanda Türk Hava Yollarının ofisi qarşısında oktyabrın 3-də ASALA-nın törətdiyi partlayış nəticəsində iki nəfər italiyalı yaralandı. Bu hadisədən üç gün sonra Los Ancelosdakı Türkiyənin baş konsulu Kamal Arkanın yaşadığı evə yandırıcı butulka atıldı. Evə edilən telefon zəngində partlayışın ermənilər naminə törədildiyi bildirildi. Nyu York şəhərində erməni terror-

---

[738] Qasımlı M. Taşnaklar kürtleri nasıl kullandı? – "Türk dünyası Tarih dergisi", İstanbul, 2011, Eylül, sayı 297, s. 53-54.

çuları tərəfindən qaçırılmış avtomobilə qoyulmuş bomba oktyabrın 12-də türklərə məxsus mehmanxananın yaxınlığında partladıldı. Həmin tarixdə Londonda Türkiyə turizm və informasiya bürosunun binası qarşısında ASALA terrorçuları partlayış törətdi. Noyabrın 9-da Fransada Strasburq şəhərində Türkiyə konsulluğunun yerləşdiyi binanın yaxınlığında erməni terrorçuları tərəfindən törədilən partlayış nəticəsində binaya ziyan dəydi. Bundan bir neçə gün sonra, noyabrın 19-da İtaliyada Romada Türkiyə turizm bürosunun və Türk Hava Yolları ofisinin yerləşdiyi binanın qarşısında ASALA tərəfindən partlayışlar törədildi. Avstraliyanın Sidney şəhərində erməni terror qrupu baş konsul Şerik Erseki və təhlükəsizlik məsələləri üzrə attaşe Engin Severi dekabrın 17-də qətlə yetirdi.

Türkiyənin Fransadakı baş konsulluğunu tutmaq planını Yan Kaskayanın yaratdığı "Ölümə gedənlər eskadronu" 1981-ci ildə həyata keçirtməyə cəhd etdi. Nəticədə binaya xeyli ziyan dəydi. Aleks Yenikomeciyan adlı bir terrorçu Parisdəki türk səfirliyinin iqtisadiyyat məsələləri üzrə müşaviri Ahmet Erbeylinin maşınında yanvarın 14-də partlayış törətdi. Martın 4-də ASALA-nın iki nəfər terrorçusu avtomobildə olan Türkiyənin Fransadakı səfirliyinin əmək məsələləri üzrə müşaviri Reşat Moralıya və Parisdəki Anadolu bankının nümayəndəsi İlkay Karakoça atəş açdı. Moralı öldürüldü. Avtomobildə olan üçüncü şəxs – yaralanan Teselli Arı isə xəstəxanada vəfat etdi.

Terror aktına etiraz olaraq Parisdəki türklər yürüş keçirtdilər. Lakin Fransa televiziyası bu aksiyalarının ciddi bir xəbər əhəmiyyəti daşımadığını bildirərək çəkib göstərmədi.

Türkiyə hökuməti baş verən terror aktları əleyhinə diplomatik fəaliyyətini artırdı. Türkiyənin Birləşmiş Millətlər Təşkilatı yanındakı daimi nümayəndəliyi türk diplomatlarına qarşı törədilən terror aktlarını dayandırmaq üçün BMT baş katibinə müraciət etdi. Diplomatların mühafizəsi üçün müvafiq ölkənin məsuliyyətinin artırılmasının vacibliyini önə çəkdi. Xarici İşlər Nazirliyinin informasiya idarəsinin verdiyi məlumata görə hər bir terror aktı üzrə verilən notalarda hadisənin baş verdiyi ölkələrin hökumətlərinin cinayətkarları izləmə, cəzalandırma və bənzəri hadisələrin təkrarlanmaması üçün aldığı tədbirləri əhatə edən bir məruzə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində qəbul edilən diplomatların qorunmasına dair qərardan geri çəkildikcə, baş katibə çatdırılacağı bildirildi[739].

Öldürülən diplomatların meyitləri Ankarada Gülhanə Hərbi Tibb Akademiyasının morqundan alındıqdan sonra cənazələri Baş Nazirliyin binasının qarşısında qoyuldu. Mərasimdə Ankaradakı xarici ölkə təmsilçi-

[739] BM-yə nota verdik. – "Cumhuriyet", İstanbul, 13.03.1981.

ləri də iştirak edirdilər[740]. Baş Nazir Bülent Ulusu, müavinləri, dövlət başçısı Kenan Evren, Milli Təhlükəsizlik Şurasının üzvləri və Fransanın Ankaradakı səfiri Emil Kazıyen Jou da burada idilər. Onlar şəhidlərin ailələrinə başsağlığı verdilər. Əmək naziri Turhan Esener hər iki şəxsə tuşlanan güllənin insan azadlığına qarşı yönəldiyini deyərək vurğuladı:

*"Türk milləti qonaqpərvər, gülərüz, səbrli və insan haqlarına hörmət edən bir xalqdır. Amma məsum və mühafizəsiz olan xarici ölkələrdəki təmsilçilərə qarşı törədilən bu terror aktları insanlıq əleyhinədir. Bu canilərin tutularaq ədalət məhkəməsi qarşısında durmasına ümid edirik".*

Mərasimdən sonra qadınlar Ankaradakı Fransa səfirliyinin binasına səssiz yürüş edərək qara çələng qoydular. Hiddətlənmiş türk ictimai rəyi təkcə terrorçulara deyil, bu aktların törədildiyi ölkələrə də qarşı yönəlmişdi.

Lakin terror davam edirdi. Erməni terrorçuları 1981-ci il martın 12-də Tehranda Türkiyə səfirliyinə basqın edərək mühafizəçiləri öldürdülər. Basqınçılar tutularaq məhkəməyə verildi. Aprelin 3-də Türkiyənin Danimarkadakı səfirliyinin əmək məsələləri üzrə attaşesi Kavit Demir Kopenhagendə ASALA terror təşkilatının üzvləri tərəfindən atəşə tutuldu. Kaliforniyada Los Ancelosda erməni terrorçularının Anahaym Konven mərkəzinə yerləşdirdikləri bombanın iyunun 3-də partlaması nəticəsində türk xalq rəqs ansamblının konserti dayandırıldı. İyunun 9-da İsveçrədə Cenevrədə türk konsulluğunun katibi Mehmet Savaş Ergüz iş yerindən çıxarkən terrorçu M.Camdostyan tərəfindən öldürüldü. Onun həbs edilməsindən sonra yeni terror təşkilatı olan "9 iyun" yaradıldı. Ara Toranyanın başçılıq etdiyi terror qrupu iyunun 11-də Parisdə Türk Hava Yollarının ofisinin yerləşdiyi binanı tutdu. Lakin fransız təhlükəsizlik xidmətinin əməkdaşları onları zərərsizləşdirə bildi. Sentyabrın 15-də Danimarkada Kopenhagendə "Altıncı erməni azadlıq ordusu" tərəfindən Türk Hava Yollarına məxsus binanın qarşısında bomba partladılması nəticəsində bir neçə nəfər yaralandı. Parisdə dörd nəfər erməni terrorçu sentyabrın 24-də türk konsulluğunu tutdu. Atılan güllələrlə konsul Kaya İnalı və təhlükəsizlik xidmətinin əməkdaşı Kemal Özen ağır yaralandı. Terrorçular 56 nəfəri girov götürdülər. K.Özen xəstəxanada vəfat etdi. Terrorçuların Türkiyədəki "siyasi məhbusların" azadlığa buraxılması barədə tələbi rədd edildi. Bundan sonra onlar Fransadan siyasi sığınacaq istəyərək təslim oldular. Romadakı Türkiyə səfirliyinin ikinci katibi Gökbörk Erceokan oktyabrın 25-də erməni terrorçusunun atəşinə tuş gəldi. Ağır yaralanan ikinci katib terrorçuya cavab atəşi açsa da, o, qaça bildi.

Erməni terrorçuları 1982-ci ildə də türk diplomatlarına və binalarına qarşı aktlarını dayandırmadılar. ASALA terrorçuları həmin il yan-

---

[740] Cenaze toreninde ermeni terörü ve Fransa kınandı. – "Cumhuriyet", İstanbul, 13.03.1981.

varın 13-də Türkiyənin Torontodakı konsulluğunun binası qarşısında partlayış törətdilər. Binaya xeyli ziyan dəydi.

ABŞ ərazisində erməni terror təşkilatlarının törətdiyi aktlar amerikan hökumətinin narahatlığına səbəb oldu. Birləşmiş Ştatların müdafiə nazirinin siyasi məsələlər üzrə köməkçisi F.S.Ayklın bununla bağlı olaraq 1982-ci il martın 11-də verdiyi bəyanatında deyilirdi:

*"Ən təhlükəli və bununla belə, diqqətdən kənarda qalmış terror təşkilatlarından biri –"Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" rəsmi olaraq elan etmişdir ki, onun strateji məqsədi Türkiyənin şərq hissəsini öz nəzarəti altına almağa nail olmaq, onu necə deyərlər, Türkiyə idarəçiliyindən "azad etmək" və Ermənistan Sovet Sosialist Respublikasına birləşdirməkdir... "Erməni gizli ordusu"nun fəaliyyətinin bilavasitə Moskvadan idarə edilib-edilməməsindən asılı olmayaraq, o, yaxşı hazırlıq keçmiş və günahsız adamları amansızlıqla qətlə yetirən ordudur. O, Türkiyənin müttəfiqi olan dövlətlərə və qanunpərəst erməni icmasına təhlükə törədir"* [741].

ABŞ-ın müdafiə naziri K.Uaynberger də konqresin nümayəndələr palatasında bəyanat verərək türk diplomatlarının və vətəndaşlarının öldürülməsini pislədi. Lakin bu bəyanatların elə bir təsiri olmadı. Terror aktları yenə də davam edirdi. Belə ki, martın 12-də üç nəfər silahlı erməninin Türkiyənin Kanadadakı səfirliyinin binasını atəşə tutması nəticəsində kanadalı təhlükəsizlik xidmətinin əməkdaşları öldürüldü.

Uydurma soyqırımı günü – aprelin 24-də isə Almaniya Federativ Respublikasının Dortmund şəhərində yerləşən bir neçə türk ticarət şirkətinin binasını "Yeni erməni müqaviməti təşkilatı"nın terrorçuları bomba ilə dağıtdı. ABŞ-ın Boston şəhərindəki fəxri türk konsulu Orhan Gündüz mayın 4-də maşınında erməni terrorçusu tərəfindən qətlə yetirildi. ABŞ Prezidenti Ronald Reyqan terrorçuların axtarılıb tapılmasına dair göstəriş verdi. Buna baxmayaraq, terrorçular mayın 18-də ABŞ-ın Florida ştatının Tampa şəhərində türk konsulluğuna soxulmaq istədilər[742]. Portuqaliyanın Lissabon şəhərində Türkiyə səfirliyinin inzibati-təsərrüfat məsələləri üzrə attaşesi Erkut Akbay və xanımı Nadide Akbay iyunun 7-də yaşadıqları evin qarşısında erməni terrorçuları tərəfindən öldürüldülər. İyulun 1-də dörd nəfər erməni terrorçusu Türkiyənin Amsterdamdakı baş konsulu Kemalettin Demirerin avtomobilini atəşə tutdu. Terrorçulardan biri sonradan həbs edildi. Ankarada Esenboğa hava limanında ASALA terrorçuları avqustun 7-də gözləmə zalında oturan sərnişinlərə atəş açdılar. Bir terrorçu restorandakı 20 nəfəri girov götürdü. Təhlükəsizlik xidmətinin əmək-

---

741 http: \\ www / mksduduks.com\ asala\indekx 1.html.

742 Armenian allegations: Myth and Reality. A Handbook of Facts and Documents, 1987.

daşları ilə atışma nəticəsində 9 nəfər öldü, 82 nəfər yaralandı. Terrorçu Levon Əkməkçiyan həbs edilərək məhkəmə qarşısında dayandı. Parisdə Türkiyə səfirliyinin turizm üzrə attaşeliyinin mühafizəçilərini avqustun 12-də erməni terrorçuları atəşə tutdular. Binaya ziyan dəydi. Türkiyənin Kanadadakı səfirliyinin hərbi məsələlər üzrə attaşesi polkovnik Atilla Altikat avqustun 27-də gündüz erməni terrorçusu tərəfindən maşınında öldürüldü. Bolqarıstanın Burqas şəhərindəki Türkiyə konsulluğunun inzibati-təsərrüfat məsələləri üzrə attaşesi Bora Suelkanı sentyabrın 9-da evində erməni terror təşkilatı ASALA-nın əməkdaşı qətlə yetirdi. Qatil evdə belə bir məzmunlu məktub qoymuşdu:

*"Türk diplomatını biz – haqq-ədalət kombatı erməni xalqının soyqırımına etiraz olaraq öldürmüşük".*

ABŞ-ın Los Ancelos şəhərindən olan beş nəfər erməni terrorçusu oktyabrın 26-da Pensilvaniya ştatında Filadelfiya şəhərindəki türk konsulluğunun binasında və baş konsul Kanot Erbeyin otağında partladıcı qurğunu quraşdırarkən həbs edildilər.

1983-cü il yanvarın 22-də isə Parisdə iki nəfər erməni terrorçu Türk Hava Yollarının ofisinin yerləşdiyi binaya əl qumbaraları atdı. Yalnız təsadüf nəticəsində ölən olmadı. Terrorçulardan bir nəfəri həbs edilərək məhkəməyə verildi. Brüsseldə Türk Hava Yollarının ofisində erməni terror təşkilatları tərəfindən fevralın 2-də partlayışlar törədildi. Fevralın 28-də isə Parisdə Türkiyənin "Marmara Travel Agency" şirkətinin binasına ASALA tərəfindən qoyulan bombanın partlaması nəticəsində 9 nəfər fransız mənşəli əməkdaş yaralandı. Türkiyənin Belqraddakı səfiri Qalib Balkar və sürücüsü Necati Keyer martın 9-da terror təşkilatının üzvləri olan Krikor Levonyan və Rafi Elbekyan tərəfindən atəşə tutuldular. Səfir qətlə yetirildi, sürücüsü isə ağır yaralandı. Yuqoslaviya orqanları terrorçuları həbs etdi. Lakin az sonra azad edilən terrorçular Yunanıstanda sığınacaq tapdılar. Martın 31-də bir nəfər Türkiyənin "Tercüman" qəzetinin Frankfurtdakı şöbəsinə zəng vuraraq redaksiyanın binasını partlatmaqla hədələdi.

Bu azmış kimi, mətbuatda ermənilərin hərəkətlərinə haqq qazandırmağa çalışan bəzi yazılar, o cümlədən aprelin 23-də "Nyu York Tayms" qəzetində Karl Meyerin uydurma erməni soyqırımına həsr edilmiş yalanlarla dolu bir məqaləsi dərc edildi. Məqalədə tarixi hadisələr kobudcasına saxtalaşdırılmışdı.

Cavab olaraq Türkiyənin ABŞ-dakı səfiri Şükrü Elekdağın mayın 5-də göndərdiyi məktub mayın 11-də həmin qəzetdə dərc edildi. Təkzibedilməz faktlar əsasında yazılmış məqalədə Böyük Britaniya Xarici İşlər Nazirliyinin məlumatlarına əsasən Osmanlı imperiyasında 1914-cü ildə 1,3, həmin ildə Osmanlıda keçirilən siyahıya almaya görə isə 1,2 milyon erməni-

nin yaşadığı qeyd edilirdi. Rəqəmləri amerikan missionerləri şişirtmiş, ermənilərin acılarını artırmış, türklərin halına isə diqqət etməmişdilər[743].

Bütün səylərə baxmayaraq, erməni terroru davam edirdi. Belə ki, Belçikada Türkiyənin "Marmara Travel Agency" və səfirliyin mədəniyyət-informasiya mərkəzinin ofisləri qarşısında mayın 24-də ASALA tərəfindən partlayışlar törədildi. İyunun 16-da həmin təşkilata mənsub olan terrorçular İstanbulun Kapalıçarşı ticarət mərkəzində atəş açdılar, qumbaralar ataraq 2 nəfəri öldürdülər, 21 nəfəri yaraladılar. Brüsseldəki Türkiyə səfirliyinin attaşesi Dursun Aksoy iyulun 14-də erməni terrorçuları tərəfindən maşınında qətlə yetirildi. Bundan bir gün sonra Parisdə Orli hava limanında yerləşən Türk Hava Yollarının kassası qarşısında törədilən partlayışda 8 nəfər öldürüldü. Onların arasında 4 fransız, 2 türk, 1 amerikalı, 1 isveçrəli var idi. Hadisədə 60 nəfər yaralandı. Həbs edilən ASALA-nın Fransadakı şöbəsinə başçılıq edən Suriya mənşəli 29 yaşlı Varocan A.Q. Karapetyan və adamları terror aktını törətdiklərini etiraf etdilər. İyulun 27-də beş nəfər erməni terrorçusundan ibarət qrup Türkiyənin Lissabondakı səfirliyinin binasına girməyə cəhd etdi. Onlar səfirin müavinini, həyat yoldaşını və övladlarını girov götürdülər. Terrorçuların əllərindəki bombanın partlaması nəticəsində səfirin həyat yoldaşı və dörd nəfər terrorçu öldü. Terrorçulardan biri təhlükəsizlik xidməti əməkdaşları ilə atışmada öldürüldü. Bir nəfər polis əməkdaşı qətlə yetirildi. Cinayətə görə məsuliyyəti "Erməni azadlıq ordusu" terror təşkilatı üzərinə götürdü. Baş verən terror hadisəsi ABŞ-da həyəcanla qarşılandı. Bu hadisə ilə əlaqədar olaraq iyulun 28-də ABŞ Prezidenti Ronald Reyqanın verdiyi bəyanatda deyilirdi:

*"Türkiyənin Lissabondakı səfirinə qarşı Portuqaliyada dünənki sui-qəsd türk diplomatlarına və digər günahsız adamlara qarşı qəddar, nizamsız aksiyalar seriyasından sonuncu olmuşdur."Erməni azadlıq ordusu"nun məsuliyyət daşıdığı dünənki sui-qəsd nəticəsində səfirin həyat yoldaşı ölmüş, uşağı yaralanmışdır. Elə iki həftə bundan əvvəl Brüsseldə türk diplomatı evindən çıxarkən qətlə yetirilmiş, bir gün əvvəl isə Türkiyənin yeddi nəfər vətəndaşı Paris hava limanında öldürülmüşdür. Həmin günlərin dəhşətlərinə heç bir real və yaxud uydurma inciklik bəraət qazandıra bilməz. ABŞ xalqı və hökuməti adından Türkiyə hökumətinə və günahsız qurbanların ailə üzvlərinə dərin hüznlə başsağlığı verirəm. Lakin başsağlığı ilə kifayətlənmək azdır. Mən sivil cəmiyyətlərdə belə vəhşi və insanlıqdan kənar*

---

[743] Письмо посла Турецкой Республики в США Шюкру Элекдага в редакцию газета "Нью Йорк Таймс". 05.05.1983. – "Армянский геноцид": миф и реальность. Баку, 1992, с.262-263.

*hərəkətlərə son qoymaq üçün təcili və daha əlaqəli tədbirlər görmək barədə bu günlərdə digər dövlətlərin rəhbərləri ilə danışacağam"* [744].

Lakin çağırışlar bir nəticə vermədi. Erməni terroru davam edirdi. Keçirilən məhkəmə iclasları isə sanki terrorçulara bəraət qazandırmaq məqsədi güdür, onları terrorçu deyil, erməni millətçisi kimi qəbul edirdi. Hətta Fransa Prezidenti Fransua Mitteran Vyanada etdiyi söhbətlərdə erməni terrorçularını yanlış olaraq "mübarizə qəhrəmanları" kimi təqdim etmişdi.

Kobud səhv və tarixin saxtalaşdırılması olan belə yanaşmanın erməni diasporası və lobbisinin təsiri ilə edildiyi şəksiz olub, erməni təəssübkeşliyini özündə əks etdirir, hansı məqsəd olursa-olsun, ona qan tökməklə, terror törətməklə çatmağı təşviq edirdi. Terrorçu necə "mübarizə qəhrəmanı" ola bilərdi?

Yaranmış şərait TBMM-də müzakirə edildi. İstanbuldan seçilmiş millət vəkili Recep Ercüment Konukman Vyana şəhərində dörd nəfər erməni terrorçusunun işi üzrə keçirilən məhkəmə iclası hazırlıqlarını faciə olaraq qiymətləndirdi. Onun fikrincə, bu, son illərdə gedərək artan bir şəkildə, başda Fransa olmaq üzrə, Yunanıstan və digər bəzi dövlətlərin mətbuat orqanlarının, televiziya və radiolarının Türkiyə, türk milləti və türk tarixi haqqında məlum məqsədlər üçün edilən hər cür saxtakarlıqlarının davam etməsi demək idi. Vyanada məhkəmə prosesi isə bunun bir parçası idi[745].

80-ci illərdən etibarən erməni terror təşkilatlarının fəaliyyət sahəsi İranda xüsusilə genişlənmişdi. Bu da səbəbsiz deyildi. Çünki İran inqilabı baş verdikdən sonra onun liderləri SSRİ, ABŞ və İsraili "üç şeytan" adlandırmışdılar. Türkiyə isə İranın düşməni olan ABŞ-ın müttəfiqi idi. Belə şəraitdə SSRİ hökuməti Türkiyə ilə İran arasında münasibətlərin soyuqlaşdırılması üçün müxtəlif vasitələrdən istifadə edirdi. Həmin vasitələrdən biri erməni terroru idi.

1984-cü il martın 28-də iki erməni terrorçusu Tehranda Türkiyə vətəndaşı İsmayıl Pamukçunu ağır yaraladı. Səfirliyin birinci katibi Hasan Servet Ötkem də terror nəticəsində yaralandı. ASALA bu terror aktına görə məsuliyyəti öz üzərinə götürdü.

İran polisi Türkiyə səfirliyinin binası qarşısında üç nəfər erməni terrorçusunu həbs etdi. Səfirliyin maliyyə müşavirinin maşınına bomba qoyan terrorçu partlayış nəticəsində öldü.

Erməni terror qrupları xarici ölkələrdəki türkləri təhdid etməkdə davam edirdilər. Onlar 1984-cü il martın 29-da Türkiyənin Los Ancelosdakı konsulluğuna göndərdikləri məktubda bu şəhərdə keçirilən olimpiadada

---

[744] ABŞ Prezidenti Ronald Reyqanın 1983-cü il 28 iyul tarixli bəyanatı. – Armenian allegations: Myth and Reality. A Handbook of Facts and Documents,1987.

[745] TBMM Tutanak Dergisi. Dönem 17. Cilt 1. Birleşim 28.31.01.984, s.450-451.

türk idmançılarının iştirakının qarşısını kəsmək üçün ölümlə hədələdilər. Aprelin 8-də isə ASALA Livandan Türkiyəyə uçan bütün təyyarələri partlatmaqla təhdid etdi.

ASALA aprelin 26-da Türkiyənin Baş Naziri Turqut Özala məktub göndərərək, İrana qarşıdakı səfərini təxirə salmağı tələb etdi, əks-təqdirdə təyyarəsini partladacağını bildirdi. Bu hadisədən iki gün sonra, aprelin 28-də və 29-da iki hadisə baş verdi. Bunlardan biri Turqut Özalın təyyarəsi Tehrana enməzdən iki saat əvvəl iki nəfər erməni terrorçusunun Türkiyə səfirliyinin katibinə və həyat yoldaşına açdığı atəş, ikincisi isə Paris yaxınlığında fransız rəsmilərinin iştirakı ilə uydurma erməni soyqırımı abidəsinin açılışı oldu. Ərzurumdan seçilmiş millət vəkli Hilmi Nalbantoğlu TBMM iclasında çıxış edərək, İranda türk səfirliyinin katibinin həyat yoldaşının yaralanmasını və Paris yaxınlığında abidə qoyulmasını qınadı, terrorçuların öz fəaliyyətlərindən vaz keçəcəklərini xəyal adlandırdı, Fransaya qarşı qəti mövqe ortaya qoymağın zamanı gəldiyini bildirdi[746].

Mayın 3-də keçirilən iclasda çıxış edən İzmirdən seçilmiş millət vəkili Rüştü Şardağ isə erməni terrorizminə qarşı dost və müttəfiq ölkələrin mövqeləri və alınması lazım gələn tədbirlər üzərində dayandı, terrorun İranda törədilməsini pislədi, Türkiyədə fəaliyyət göstərən xarici məktəblərin qapadılmasını tələb etdi, hamının – gərək iqtidar, gərək müxalifət, gərək də müstəqil deputatların, sosial vəziyyətinin necə olmasından asılı olmayaraq, bütün Türkiyə vətəndaşlarının Fransanın riyakarlığını, İranın soyuqqanlığını, Amerikanın laqeydliyini və digər ölkələrdəki davranışları diqqətlə izlədiklərini dedi.

Qeyd etmək lazımdır ki, Rüştü Şardağ bir müddət əvvəl İrana səyahət etmiş və ermənilərin yaşadıqları yerləri də gəzib dolaşmışdı. Burada yaşayan ermənilər ermənicə bilmir, Türkiyəyə sevgi dolu hisslərlə danışırdılar. Millət vəkili sual edirdi: necə olmuşdu ki, terror bir il ərzində İrana da daxil olmuşdu? İranda rejim xaini hesab edilən şəxslər bir anın içində həbs edilib edam olunsalar da, terrorçular sərbəst gəzir, ölkə rəhbəri tərəfindən Türkiyəyə qarşı istifadə edilirdilər. Millət vəkilinin fikrincə, İran bu hərəkətinə görə cavab verməli idi. Onun dediyinə görə Fransa hökuməti Türkiyənin notasını qəbul etməmişdi və Türkiyə daim nota verəcək bir ölkə də deyildi. Nota yerinə gərəkli davranışı göstərmək lazım idi. O, Türkiyədə olan Fransa məktəblərinin və mədəniyyət mərkəzlərinin nə üçün bağlanmadığını sual etdi. Millət vəkili Atatürkdən bir davranışı misal gətirdi. Bir zamanlar İtaliyanın rəhbəri Benito Mussolini Türkiyəyə qarşı xoş olmayan bir hərəkət etdikdən sonra Atatürk Ankaradakı İtaliya səfirini yanına çağırıb, qulağından tutaraq demişdi: "Duçeyə söylə, onu Antalyada göz-

---

[746] TBMM Tutanak Dergisi. Dönem 17. Cilt 3. Birleşim 59. 01.05.1984, s.460.

ləyirəm”. Millət vəkili Atatürkdən nümunə götürərək, hökumətin qəti davranış göstərməsini istədi. Bir jurnalist amerikalı məsul bir şəxsə qəzetlərdə Şardağın əvvəllər söylədiyi çap edilmiş fikirlərini göstərərkən amerikalı demişdi ki, Şardağ bunları danışır, amma Türkiyə bizə qarşı bir tədbir ala bilməz, çünki Türkiyənin bizə qarşı boynu əyridir, imzalanan müqavilələri dəyişdirə bilməz. Millət vəkilinin fikrincə, tarixdə ən ağır vəziyyətlərində Türkiyə özündə güc tapmış və millətin əzmkarlığını nümayiş etdirə bilmişdi. Şardağ, hökuməti ortaya qəti iradə qoymağa çağırdı[747].

Türkiyənin səylərinə baxmayaraq erməni terror təşkilatları fəaliyyətlərini dayandırmamışdılar. Belə ki, 1984-cü il iyunun 20-də Türkiyənin Avstriyadakı səfirliyinin sosial məsələlər üzrə müşavirinin köməkçisi Erdoğan Özenin maşını partladıldı. O, həlak oldu, bir neçə avstriyalı polis yaralandı. İstanbulda Topkapı sarayının qarşısında maşına sentyabrın 3-də bomba qoymaq istəyən iki nəfər livanlı erməni bombanın vaxtından əvvəl partlaması nəticəsində öldü. BMT-nin Vyanada yerləşən sosial və humanitar məsələlər mərkəzinin əməkdaşı Enver Ergün noyabrın 19-da maşınında qətlə yetirildi. 1984-cü ilin dekabr ayında AFR-də Münhendə türk konsulluğunun binası qarşısında bir bomba partladıldı[748]. Ətrafa çoxlu ziyan dəydi.

Terror aktları Türkiyənin müttəfiqlərini hərəkətə gətirdi. ABŞ dövlət katibi Corc Şults 1985-ci il martın 4-də ABŞ konqresi nümayəndələr palatasının sədri Tomas Oneliyə göndərdiyi məktubunda belə hadisələrin qarşısının alınmasının vacibliyini bildirdi. Lakin yenə də erməni təşkilatlarının türklərə qarşı terroru dayanmadı.

Terror aktlarının törədilməsi üçün göstərişlər hansı ölkədən verilirdi? Artıq qeyd edildiyi kimi, bu suala cavab vermək çətindir. Çünki istifadəsi mümkün olan arxiv sənədlərində buna dair heç bir məlumat yoxdur. Ola bilsin, hətta bir neçə on ildən sonra belə, dəqiq məlumat əldə etmək mümkün olmayacaqdır. Amma fakt faktlığında qalır ki, soyuq müharibə illərində türk diplomatlarına qarşı ilk terror aktı Türkiyənin müttəfiqi olan ABŞ ərazisində törədildi. Bəlkə işarə SSRİ DTK-dan gəldi? Belə bir faktı da unutmaq olmaz ki, hələ 20-30-cu illərdən etibarən xarici ölkələrdəki erməni təşkilatları çoxlu erməninin işlədiyi SSRİ Baş Kəşfiyyat İdarəsi ilə sıx əməkdaşlıq edirdilər. Bəlkə terror aktları üçün işarə Yunanıstandan gəldi? Suallar çox olsa da, dəqiq cavab tapmaq mümkün deyildi. Ancaq soyuq müharibə şəraitində erməni təşkilatlarının SSRİ və ABŞ xüsusi xidmət orqanlarının əlində bir-birinə qarşı vasitəyə çevrildiyi şəksiz idi.

Terror aktları təkcə Türkiyəyə qarşı törədilmirdi. Eyni zamanda Azərbaycanda baş verdi.

---

[747] TBMM Tutanak Dergisi. Dönem 17.Cilt 3. Birleşim 61.03.05.1984, s.487-489.
[748] Başkonsolosluğumuza bombalı sabotaj. – “Hürriyet”, İstanbul, 28.12. 1984.

## *Bakıda terror aktı*

1984-cü il sentyabrın 8-də gündüz saat 13.50 radələrində Bakıda Nərimanov prospektində Azərbaycan Politexnik İnstitutunun qarşısında ictimai nəqliyyatda – dövlət nömrə nişanı 90-11 AQT olan 106 saylı marşrut avtobusda terror aktı törədildi[749]. Partlayış nəticəsində sərnişin F.İ.Surxəlizədə aldığı yaradan sonradan xəstəxanada öldü, sərnişinlər, T.X.Mehdiyeva, Q.D.Mansurova və E.S.Zorina isə yaralandılar.

Azərbaycan SSR DTK bu terror aktına dair cinayət işini "Avtobus əməliyyatı" adı altında araşdırdı. Çətin olmasına baxmayaraq, iş uğurla nəticələndi. Cinayətkarlara 1985-ci il 15 may tarixində Azərbaycan SSR Ali Məhkəməsinin iclasında hökm oxundu. Patlayışı törədənlər Q.S.Vartanov psixi xəstə olduğu üçün cinayət məsuliyyətindən azad edilərək xüsusi tipli psixiatrik xəstəxanada müalicəyə göndərildi, İ.M.Maxovski isə 15 il azadlıqdan məhrum edildi. O, 5 il həbsxanada yatdıqdan sonra cəzasının qalan hissəsini islah-əmək koloniyasında çəkdi.

Əməliyyat-axtarış və istintaq işləri nəticəsində məlum oldu ki, bu terror aktını erməni Qexrix Surenoviç Vartanov və İqor Mixayloviç Maxovski törətmişlər. İ.M.Maxovskini bu cinayət əməlinə Q.S.Vartanov cəlb etmişdi. Terror aktı üçün ilk addım Bakıda Dənizkənarı parkda hələ iyul ayında atılmışdı. Vartanov əldəqayırma bomba hazırlamaqla adamları öldürməyi Maxovskiyə təklif etməklə terror aktının ideya müəllifi olmuş və müvafiq texniki ləvazimatı vermişdi. Peşəkar deyil, naşı olan bu şəxslər bombanı hazırlamışdırlar. Sonra Vartanov bombanı Montin qəsəbəsində Kolxoz bazarının yanında avtobusun sonuncu dayancağında avtobusun 5 və 6-cı cərgələrinin arasında yerləşdirmişdi.

Bütün bunlar erməni terror təşkilatlarının qanlı əməllərinin xronikasını göstərməklə yanaşı, əsassız iddialara çatmaq üçün seçdikləri yolun antiinsani və nə qədər təhlükəli olduğunu, onlardan istifadə edən dövlətlərin isə öz maraqları naminə beynəlxalq hüquq normalarını ayaqlar altına atdıqlarını göstərirdi. Belə münasibət erməni təşkilatlarını daha da həvəsləndirirdi.

---

[749] Кузнецов О. Взрыв на проспекте Нариманова. Террористический акт на общественном транспорте Баку 8 сентявря 1984 года. – Журн. "İrs. Наследие. Heritage". М., 2015, № 1(73), s.52-47; Приговор Судебной коллегии по уголовным делам Верховного суда Азербайджанской ССР от 15 мая 1985 года по делу Маховского И.М. – Архив Верховного суда Азербайджанской Республики, д. 43-1985, л. 373-379.

## *İddialar davam edir*

80-ci illərin əvvəllərindən etibarən erməni kommunistləri uydurma soyqırımının tanıdılmasına dair Moskvaya etdikləri müraciətlərin sayını artırmışdılar. İdeoloji-siyasi yönümünün müxtəlifliyindən asılı olmayaraq bütün erməni təşkilatlarını türk düşmənçiliyi hissləri birləşdirirdi. Ermənistanda antitürk ədəbiyyatın nəşri çoxalırdı. Bədii ədəbiyyatda türklər təhqir olunurdu. Xarici ölkələrdəki və respublika daxilindəki ermənilər kin-küdurət içində idilər.

Sovet – türk sərhədinin Ermənistandan keçən hissəsindəki rayonlarında yaşayan və türk televiziyalarını maneəsiz seyr edən ermənilər çox vaxt SSRİ-də baş verən hadisələr haqqında ilk olaraq Türkiyədən xəbər tutmalarından hiddətlənirdilər. Rəsmi dairələr bu yayımların qarşısını almaq istəsələr də, texniki imkanlar kifayət qədər deyildi. Erməni millətçi dairələri Ermənistanda baş verən hər hansı xoşagəlməz hadisə üçün Türkiyəni, ABŞ-ı və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Sov.İKP MK Siyasi Bürosunun üzvü Heydər Əliyevi təqsirləndirirdilər.

Belə bir zamanda, 1983-cü ildə Yerevanda idman sarayının açılışı ilə eyni vaxtda ağır atletika üzrə beynəlxalq yarış da başlamalı idi. Gözlənilən bu hadisə ilə fəxr edən ermənilər ona ciddi hazırlaşmışdılar. Yerli sənaye çoxlu hədiyyələr, hətta "Yerevan 1983. Ağır atletika üzrə beynəlxalq yarış" sözləri yazılmış suvenirlər də istehsal etmiş və satışa çıxartmışdı. Lakin sovet hökuməti səbəbini izah etmədən yarışın yerini gözlənilmədən dəyişərək, Moskvada keçirilməsinə dair qərar verdi. Bu qərarın qəbul edilməsi barədə müxtəlif şayiələr dolaşırdı. Xarici ölkələrdə fəaliyyət göstərən antisovet radiostansiyalar əsasən aşağıdakı mülahizələr irəli sürürdülər: *"Azərbaycan rəhbəri Əliyevin ermənilər əleyhinə intriqaları", "Moskva erməni idmansevərlərinin maraqlarının əleyhinə olaraq Türkiyəyə və ABŞ-a siyasi güzəştə getdi", "Ac Moskva Ermənistana gətirilmiş ərzağı* və *qidanı noyabr bayramı ərəfəsində paytaxt əhalisinin tələbatını ödəmək üçün yarışın yerini dəyişdirdi*" və s.[750].

Yarışın yerinin dəyişdirilməsi səbəbsiz deyildi. Ermənistanda beynəlxaq idman yarışından istifadə edilərək gənclərin beyni düşmənçilik hissləri ilə doldurulur və xalqlar arasında düşmənçilik təbliğat artırılırdı. Xarici ölkələrin xüsusi xidmət orqanları da bu işi qızışdırırdılar. Ermənistana xarici ölkələrdən idmançı adı altında xüsusi xidmət orqanlarının əməkdaşlarının gəlişi gözlənilirdi. Onların yarışlardankənar fəaliyyəti vəziyyəti kəskinləşdirə bilərdi. Yerevana gələcək Türkiyə idmançılarına qarşı terror aktları törədilməsi ehtimalı qalırdı. Bu isə yenicə yaxşılaşmağa başlayan SSRİ – Türkiyə münasibətlərinə ziyan vurardı.

---

[750] Чехонин Б.И. Журналистика и разведка. М., 2002, с.230.

Ona görə də yarışın Moskvada keçirilməsinə qərar verilmişdi. Bu isə ermənilər tərəfindən faciə kimi qiymətləndirilmişdi.

Heydər Əliyev ilə bağlı məsələyə gəlincə isə qeyd etmək lazımdır ki, bu dövrdə o, Azərbaycanın rəhbəri deyil, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov.İKP MK Siyasi Bürosunun üzvü olaraq Moskvada işləyir, bir sıra digər sahələr kimi idmana da nəzarət edirdi, ölkəni idarə edən görkəmli dövlət xadimlərindən biri idi.

Ermənilərin məsələlərə yanaşması kobud səhv, qatı millətçiliyin genişlənməsi isə ziyanlı idi. Bu sovet rəhbərlərini narahat edirdi. Elə buna görə də "Ermənistan partiya təşkilatlarında Sov.İKP MK-nın 1983-cü ilin iyun plenumunun qərarlarının yerinə yetirilməsi haqqında" Sov.İKP MK sonralar, 17 oktyabr 1984-cü il tarixində qərar qəbul etdi. Sənəddə yazılırdı ki, son vaxtlar Ermənistanda millətçilik əhval-ruhiyyəsini qızışdıran əsərlər yazılır və tarixi həqiqətlər təhrif edilir. Bu qərar Ermənistanda qatı millətçiliyə müəyyən zərbə olsa da, əsassız ərazi iddialarını dayandıra bilmədi.

### *Kəmərli hadisəsi*

Belə iddialardan biri 1983-cü ildə oldu. Ermənistan rəhbərliyi Azərbaycanın Qazax rayonunun Kəmərli kəndinin 1675 ha. torpaq sahəsinə iddia irəli sürdü. Bu ərazi Ermənistan SSR Noyemberyan rayonunun Dovex kəndi ilə Kəmərli kəndi arasında yerləşirdi. Kəmərli kəndinin sakinləri həmin əsassız iddiaya etiraz olaraq rayon Partiya Komitəsinə, İcraiyyə Komitəsinə və respublika Nazirlər Sovetinə müraciət etmiş, lakin qaneedici cavab almadıqlarından pul toplayaraq kənd məktəbinin müəllimi Y.Süleymanovu, sovxoz fəhlələri İ.Orucovu və C. Mustafayevi 1984-cü ilin oktyabr ayında Sov.İKP MK-ya şikayətə göndərmişdilər[751]. Mərkəzin müvafiq tapşırığından sonra Azərbaycan KP MK vəziyyəti diqqətlə öyrənmək və normallaşdırmaq üçün tədbirlər görmək haqqında Qazax rayon Partiya Komitəsinə göstəriş vermişdi. Lakin bu, edilməmiş, şikayətçilər inandırıcı cavab ala bilməmişdilər.

Sovet rəhbərliyi ərazinin Ermənistana verilməsini Azərbaycandan tələb edirdi. Moskvanın göstərişlərini yerinə yetirən respublika rəhbərliyi Qazax rayonuna nümayəndə heyəti göndərdi. 1984-cü il oktyabrın 23-də Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Ş.A.Rasizadə, Azər-

---

[751] Председатель КГБ Азербайджанской ССР Юсифзаде З.М., прокурор Азербайджанской ССР Заманов А.Т., министр внутренних дел Азербайджанской ССР Велиев Д.Д. – ЦК КП Азербайджана. – ARSSA, f.1, siy.73, iş 17, v. 60-62.

baycan KP Qazax rayon Partiya Komitəsinin katibi A.Q.Süleymanov, rayon İcraiyyə Komitəsinin sədri B.Eyyubov, Dimitrov adına sovxozun direktoru İ.Bəbirov və kənd sovetinin sədri M.Aslanov ilkin baxış məqsədi ilə "mübahisəli ərazi"yə baxdılar. Nəzərdə tutulan torpaq sahəsinin Ermənistana veriləcəyini bildirən Ş.Rasizadə qeyd etdi ki, son qərar iki respublika nümayəndələrindən ibarət komissiya tərəfindən oktyabrın 24-də qəbul ediləcəkdir. Ərazidən qayıtdıqdan sonra sovxoz direktoru İ.Bəbirov və kənd sovetinin sədri M.Aslanov ərazinin Ermənistana verilməsinin nəzərdə tutulduğunu kənd sakinlərinə dedilər. Bundan sonra əhali ayağa qalxdı. Oktyabrın 24-də təxminən saat 10-da sovxoz direktoru İ.Bəbirov Qazax rayon Partiya Komitəsinə gələrək, torpaqların verilməsi üçün komissiyanın gəlişindən əhalinin narazılıq etdiyini, kənddə vəziyyətin narahatlıq doğurduğunu Ş.Rasizadə, A.Süleymanov və B.Eyyubova söyləsə də, rayonun partiya və sovet rəhbərliyi vəziyyətin normallaşdırılması üçün heç bir tədbir görmədi.

Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini Ş.Rasizadə, Azərbaycan KP Qazax rayon Partiya Komitəsinin birinci katibi A.Süleymanov, rayon İcraiyyə Komitəsinin sədri B.Eyyubov, Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyinin torpaqdan istifadə və yer quruluşu baş idarəsinin rəisi A.Dadaşov, Ermənistan SSR Nazirlər Soveti sədrinin birinci müavini V.Movsesyan, Ermənistan KP MK Noyemberyan rayon Partiya Komitəsinin katibi R.Mamyan, həmin rayonun Dovex sovxozunun direktoru Q.Mehrabyan, Noyemberyan meşə təsərrüfatı idarəsinin rəisi Q.Avakyan, Ermənistan Yer quruluşu-layihə institutunun baş mütəxəssisi Q.Vardanyan və digərləri (cəmi 8 nəfər) üç Niva və UAZ-69 markalı maşınlarda oktyabrın 24-də Qazax rayonunun Kəmərli kəndində Dimitrov adına sovxozda təxminən saat 13-də Bataqlı bulaq deyilən yerə gəldilər. Bulaq Kəmərli kəndindən təqribən 6 km aralıda yerləşirdi.

Vəzifəli şəxslərin gəlişindən xəbər tutan və həyati mənafelərinə toxunan məsələnin belə qoyuluşundan narazı olan Kəmərli kəndinin əsasən qadın, yeniyetmə və uşaqlardan ibarət 150 nəfər sakini onlarla görüşə getdi. Qazax rayon meşə təsərrüfatı idarəsinin meşəbəyisi, Kəmərli kənd sakini M.Orucov, sürücülər M.Kərimov, A.Mustafayev, A.Dərgahquliyev, K.Hüseynov və b. adamları maşınlarla hadisə yerinə daşıyırdılar. Kənddən təqribən 3,5 km aralıda komissiya üzvlərinin olduğu maşınları qarşılayan əhali etirazını bildirdi. Sakinlərdən C.Qəhrəmanov, N.Neymətov, İ.Əhmədov, Ş.Vəliyev, R.İsmayılov, M.Bünyadov, O.Orucov, B.Orucova, Ş.Məmmədova, Yetər adlı qadın və digərləri daha fəal idilər. Sovxoz direktoru İ.Bəbirov, ilk partiya təşkilatı katibi D.Yolçiyev, kənd sovetinin sədri M.Aslanov, məktəbin müəllimi M.Rəhimov, həmçinin kənd sakinləri C.Mustafayev, İ.Orucov, Y.Süleymanov və b. xüsusi narazılıqlarını bildirdilər.

Sakinlər Ş.Rasizadə, V.Movsesyan, A.Süleymanov, R.Mamyan və Q.Mehrabyanın oturduğu iki maşını çevirdilər. Lakin maşınlar dərhal təkərləri üstündə qoyuldu. Maşında oturan vəzifəli şəxslər çıxdıqda isə kənd sakinləri onları təhqir etməyə başladılar, V.Movsesyan, Ş.Rasizadə, Q.Mehrabyan və B.Eyyubovu döydükdən sonra zorla Kəmərli kənd klubuna gətirdilər. Torpağın Kəmərli kəndinə məxsus olması və alınmayacağına dair akt tərtib edərək imzalamalarını tələb etdilər. Yalnız tələb yerinə yetirildikdən sonra onları klubdan bayıra buraxdılar. Klubda qayda-qanun yaratmağa çalışan Kəmərli kənd sovetinin sədri M.Aslanov bədən xəsarəti aldğı üçün xəstəxanaya aparıldı[752].

Münaqişə zamanı Noyemberyan meşə təsərrüfatı idarəsinin direktoru Avakyanda olan topoqrafik xəritələr itdi. Həmin xəritələr bir müddət sonra Kəmərli kənd sakini Mehrabovdan tapıldı. Mehrabov xəritələri sovxoz direktoru İ.Bəbirova vermişdi. O isə xəritələrin axtarılmasına baxmayaraq, yerini deməmişdi. Axtarılan xəritələri Qazax rayon daxili işlər şöbəsinin əməkdaşları İ.Bəbirovdan götürdülər.

Sov.İKP MK yaranmış şəraiti araşdırmaq üçün Qazax rayonuna nümayəndə göndərdi. Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırovun tapşırığı ilə həmin şəxslə birlikdə Azərbaycan KP MK katibləri V.Konovalov və İ.Məmmədov da Qazax rayonuna gəldilər[753]. Moskvadan gələn nümayəndə məsələyə dair arayış hazırladı. Yaranmış vəziyyət Sov.İKP MK katibliyində müzakirə olunduqdan sonra qəbul edilən qərar Azərbaycana və Ermənistana göndərildi.

Baş verən hadisənin səbəblərini və şəraiti öyrənmək, vəziyyəti normallaşdırmaq, günahkarları məsuliyyətə cəlb etmək üçün Qazax rayonuna respublika prokurorluğu, DİN və DTK-nın rəhbər işçiləri göndərildi. Azərbaycan SSR və Ermənistan SSR prokurorluqlarının başladıqları cinayət işi birləşdirilərək bir icraata verildi. SSRİ prokurorluğu baş istintaq idarəsinin prokuroru B.Astaşinin rəhbərlik etdiyi və hər iki respublika prokurorluğunun əməkdaşlarının daxil olduğu istintaq qrupu təşkil edildi. Bir neçə adam cinayət məsuliyyətinə cəlb olundu.

---

752 Зам.зав.отделом организационно-партийной работы ЦК КП Азербайджана Р.Ахундов, зам.зав.отделом административных органов ЦК КП Азербайджана И.Глушенко, руководитель лекторской группы ЦК КП Азербайджана Н.Джебраилов, инспектор отдела организационно-партийной работы ЦК КП Азербайджана Р.Мамедов, член партийной комиссии при ЦК КП Азербайджана Л.Цепляев – ЦК КП Азербайджана. Справка об инциденте в селении Кемерли Казахского района. – ARSSA, f.1, siy.73, iş 17, v.55-59.

753 Заседание Бюро ЦК КП Азербайджана. 12.11.1984. Об инциденте в с. Кемерли Казахского района. – ARSSA, f.1, siy.73, iş 17, v.76.

Hadisəni öyrənmək üçün Azərbaycan KP MK xüsusi komissiya yaradaraq Qazax rayonuna göndərdi. 30-dan çox fəhlə, briqadir, kommunist, komsomolçu, bitərəf, rayon Partiya Komitəsinin büro üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri ilə görüşərək münaqişənin səbəblərini müfəssəl öyrənən, rayonun və sovxozun vəzifəli şəxslərinin məsuliyyətini müəyyənləşdirən komissiya əhatəli bir arayış hazırladı. Azərbaycan KP MK-nın partiya-təşkilat işi şöbəsinin müdir müavini R.Axundov, MK-nın inzibati orqanlar şöbəsinin müdir müavini İ.Qluşenko, MK-nın mühazirəçilər qrupunun rəhbəri N.Cəbrayılov, təşkilat-partiya şöbəsinin təlimatçısı R.Məmmədov və MK yanında partiya komissiyasının üzvü L.Çeplyayaev hazırladıqları 5 səhifəlik arayışı MK-ya təqdim etdilər[754].

Arayışda yazılırdı ki, baş vermiş hadisə torpaq məsələsinin həllini öyrənmək üçün məsul olan Ş.Rasizadə, A.Süleymanov və B.Eyyubovun məsələyə səthi yanaşdığını göstərir. Məsələnin həlli zamanı kənd sakinləri arasında izahat işlərini aparmaq əvəzinə Ş.Rasizadə və onu müşayiət edən şəxslər oktyabrın 23-də əraziyə baxış keçirtmiş, özlərinin ehtiyatsız hərəkətləri və ifadələri ilə sakinlər arasında torpaq məsələsinin Dovex kəndinin xeyrinə tam həll edildiyinə dair əssasız şayiə və uydurmaların yayılmasına səbəb olmuşlar. Torpağın guya oktyabrın 24-də Ermənistan SSR-ə veriləcəyi barədə xəbər kəndə çox sürətlə yayılmış və böyük narazılıq yaratmışdı. Xüsusən, iki həftə idi kənddə belə şayiə gəzirdi ki, artıq Dovex kəndinin sovxoz direktoru Q.Mehrabyan meşə massivindəki torpaq sahəsini kənd əhalisi arasında bölmüşdür.

Komissiyanı belə bir fakt narahat etməmişdi ki, kənddən çıxarkən bir qrup sakin onların yolunu kəsib, baş verən hadisənin mahiyyətinin izahını istəmişdilər. Buna baxmayaraq, onlar adamlarla söhbət etməyi və gəlişlərinin məqsədini izah etməyi lazım bilməmişdilər.

Arayışda qeyd edilirdi ki, rayonun partiya, sovet və inzibati orqanları kənddə olan vəziyyət haqqında dəqiq məlumat olmadan tamamilə məsuliyyətsizlik edərək, onu əslində nəzarətsiz və hadisələrin sonrakı inkişafını öz axarına buraxmışlar. Hətta sovxoz direktoru İ.Bəbirovun evinin oktyabrın 23-də hücuma məruz qalması və daşa basılması haqqında həyəcanlı xəbərlərə baxmayaraq, müvafiq nəticələr çıxarılmamış, kənddə və-

---

[754] Зам.зав.отделом организационно-партийной работы ЦК КП Азербайджана Р.Ахундов, зам.зав.отделом административных органов ЦК КП Азербайджана И.Глушенко, руководитель лекторской группы ЦК КП Азербайджана Н.Джебраилов, инспектор отдела организационно-партийной работы ЦК КП Азербайджана Р.Мамедов, член партийной комиссии при ЦК КП Азербайджана Л.Цепляев – ЦК КП Азербайджана. Справка об инциденте в селении Кемерли Казахского района. – ARSSA, f.1, siy.73, iş 17, v.55-59.

ziyyəti sabitləşdirmək üçün lazımi tədbirlər görülməmiş və komissiyanın gəlişinin həqiqi məqsədi sakinlərə izah edilməmişdi. Bununla yanaşı, erməni işçilərlə görüşə gedən Ş.Rasizadə və A.Süleymanov onları Kəmərli kəndinə getməyin məqsədəuyğun olmadığına inandıra bilməmişdilər. İlk partiya təşkilatı katibi D.Yolçuyev, yerli həmkarlar komitəsinin sədri İ.Mustafayev, komsomol komitəsinin katibi S.Məmmədov, sovxoz direktoru İ.Bəbirov, kənd sovetinin sədri M.Aslanov vəziyyəti sağlamlaşdırmaq üçün konkret tədbirlər görmək, yayılan şayiələrin yalan olduğuna inandırmaq, onları ətraflarında birləşdirmək əvəzinə, passivlikləri ilə özlərini təcrid etmiş və müəyyən dərəcədə vəziyyətin kəskinləşdirilməsinə kömək etmiş, vaxtında həyəcan təbili çalmamış və insident zamanı hadisə yerində olmamışdılar. Arayışı hazırlayanların fikrincə, partiya üzvləri və komsomolçular prinsipsiz mövqe tutmuş, baş verən hadisəyə laqeyd qalmış və gedişini dəyişməyə cəhd etməmiş, onların bəziləri hətta münaqişədə iştirak etmişdi. Vurğulanırdı ki, rayonun inzibati orqanları lazımi informasiyaya malik olsalar da, fəaliyyətsizlik göstərmiş, önləyici-profilaktik, münaqişə zamanı isə ayrı-ayrı şəxslərin antiictimai hərəkətlərinin qarşısını kəsmək üçün konkret tədbirlər görməmişlər. Hətta rayon Partiya Komitəsinin katibi A.Süleymanovun sovxoz direktorunun evini daşa basan ayrı-ayrı adamlara münasibətdə tədbirlər görmək üçün kəndə getməyə dair göstərişlərini yerinə yetirmək üçün operativlik göstərilməmiş və verdiyi tapşırıq vaxtında yerinə yetirilməmişdi.

Qeyd edilirdi ki, fəhlələrin əmək və məişət şəraitinin yaxşılaşdırılmasına lazımi qayğı göstərilmir, sovxozda sosial və məişət obyektlərinin – məktəb, poliklinika, xəstəxana, uşaq bağçaları, yasli, hamam, artezian quyuları, kənd təsərrüfatına texniki xidmət stansiyası, kənd təsərrüfatı texnikası üçün anbar, ATS, çörək sexi, kənd sovetinin inzibati binasının kəskin çatışmazlığı müşahidə olunur. Qazax rayonunun sosial-iqtisadi və mədəni inkişafına dair Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1981-ci il 29 may tarixli qərarının pis yerinə yetirildiyi yazılırdı. Kəmərli kəndində su kəməri və sosial-məişət obyektlərinin olmaması da sakinləri respublika orqanlarına şikayət etməyə vadar edirdi. Rayonda ideoloji, kütləvi-siyasi iş zəif qurulmuşdu. Son üç ildə rayon rəhbərləri A.Süleymanov və B.Eyyubov Dimitrov adına sovxozda Lenin cümə günlərində fəhlələrlə görüşüb onların əhval-ruhiyyəsini öyrənməmiş, rayon Partiya Komitəsi isə ideoloji işdə təcrübəli ideoloji işçilərin, yaradıcı ziyalıların, əmək və müharibə veteranlarının əməyindən istifadə etməmişdi.

Məsələyə dair Azərbaycan SSR DTK sədri Z.Yuzifzadə, Azərbaycan SSR prokuroru A.Zamanov, Azərbaycan SSR daxili işlər naziri C.Vəliyev də MK-ya üç səhifədən ibarət arayış təqdim etdilər. Arayışda

yazılırdı ki, rayonun partiya və sovet orqanları, sovxoz ilk partiya təşkilatı və inzibati orqanlar kənddə mənəvi-siyasi mühit haqqında məlumatlı olmuş, lakin yaranmış böhranlı şəraitin ciddi nəticələnə biləcəyinə lazımi diqqət yetirməmişlər[755].

Arayışlar, onları hazırlayanların məsələyə səthi yanaşdıqlarını göstərirdi. Belə yanaşma münaqişənin köklərini, yəni Ermənistanın əsassız ərazi iddialarını ötr-basdır etmək və təqsiri bəzi azərbaycanlı işçilərin üstünə yıxmaq cəhdindən başqa bir şey deyildi. Əslində münaqişənin başlıca səbəbi Ermənistanın əsassız ərazi iddialarında idi.

Azərbaycan KP MK Bürosunun 1984-cü il 12 noyabr tarixli iclasında (protokol №150) “Qazax rayonunun Kəmərli kəndində münaqişə haqqında” məsələ müzakirə edildi[756]. İclasa Qazax rayon Partiya Komitəsinin katibləri A.Q.Süleymanov, M.B.Məhəmmədov, İ.S.Çəndirli, rayon İcraiyyə Komitəsinin sədri B.Ş.Eyyubov, Kəmərli kənd Dimitrov adına sovxozun direktoru İ.M.Bəbirov, sovxoz partiya təşkilatının katibi D.M.Yolçuyev, sovxoz həmkarlar ittifaqı komitəsinin sədri İ.İ.Mustafayev, Qazax rayon daxili işlər şöbəsinin rəisi R.M.Bağışov, rayon prokurorunun əvəzi M.C.Hacıyev, DTK rayon bölməsinin sədri S.Q.Mustafayev, respublika prokuroru A.K.Zamanov, daxili işlər naziri C.C.Vəliyev, kənd təsərrüfatı naziri M.Q.Əskərov, respublika ədliyyə nazirinin birinci müavini Z.A.Zülfüqarov, Üzümçülük və Şərabçılıq üzrə Dövlət Komitəsi sədrinin birinci müavini A.M.Əsədullayev, respublika Ali Məhkəməsinin sədr müavini H.H.Talıbov, MK-nın təşkilat şöbəsi müdirinin birinci müavini L.Q.Qubçenko, MK-nın təşkilat şöbəsinin müdir müavini R.V.Axundov, mühazirəçilər qrupunun rəhbəri M.K.Cəbrayılov və şöbənin təlimatçısı R.M.Məmmədov dəvət edilmişdilər[757].

İclası Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov açdıqdan sonra məsələyə dair MK-nın təşkilat-partiya şöbəsinin müdir müavini R.V.Axundov məlumat verdi.

Çıxış edən Ş.Rasizadə bildirdi ki, son il yarım ərzində Ermənistan ilə sərhəddə olan 11 rayonda məsələ həll edilmiş, Büroda bu barədə dəfə-

---

[755] Председатель КГБ Азербайджанской ССР Юсифзаде З.М., прокурор Азербайджанской ССР Заманов А.Т., министр внутренних дел Азербайджанской ССР Велиев Д.Д. – ЦК КП Азербайджана. – ARSSA, f.1, siy. 73, iş 17, v. 60-63.

[756] Заседание Бюро ЦК КП Азербайджана. 12.11.1984. Об инциденте в с. Кемерли Казахского района. Секретно. – ARSSA, f.1, siy.73, iş 157, v. 65-71.

[757] Зав.отделом организационно-партийной работы ЦК КП Азербайджана Н.Мамедов – ЦК КП Азербайджана. 11.11.1984. – ARSSA, f.1, siy.73, iş 17, v.59.

lərlə məlumat verilmişdir[758]. Onun sözünü kəsən K.Bağırov münaqişənin kökləri haqqında heç bir söz söyləməyərək dedi ki, söhbət mübahisəli torpaq məsələsindən getmir, münaqişədən gedir.

Ş.Rasizadə söylədi:

*"Biz ən qaynar nöqtələrdə olduq, ev-ev, sahə-sahə gəzdik. Xalq toplaşıb etiraz edirdi. Günahkaram. Mən ora gedəndə buna qədər bir neçə dəfə yoldaşları MK-ya, İ.A.Məmmədovun yanına dəvət etmişdik. Meşə massivi məsələsi o vaxt yarandı ki, siz tapşırıq verdiniz və mən rayona getdim. Soruşdum ki, xalqın xəbəri varmı, orada vəziyyət necədir? Mənə dedilər ki, elə bir şey yoxdur, xalq bilir. Buna qədər orada Hüseynbəyov* (kənd təsərrüfatı nazirinin birinci müavini Nadir Hüseynbəyov nəzərdə tutulur – M.Q.) *olmuş və həmin hektarların sərhədini müəyyənləşdirmişdi. Əlbəttə, mən ehtiyat etməliydim. Süleymanovdan soruşdum ki, DTK rayon şöbəsinin rəisi haradadır? Cavabında dedi ki, məzuniyyətdədir. Soruşdum ki, milis rəisi bilirmi?"*

Ş.Rasizadənin söylədiklərindən məlum olurdu ki, əraziyə gələrkən orada əvvəllər Moskvada şikayətdə olmuş üç nəfəri görmüşdü. O, bulağa və meşə massivinə baxmış, bundan sonra ətrafına 10-15 adam toplaşmışdı. Ş.Rasizadə onlara demişdi:

*"K.Bağırov yoldaş K.Dəmirçiyan yoldaşla razılaşmışdır, sərhədləri elə müəyyənləşdirəcəklər ki, sizin su ehtiyatlarınıza toxunulmasın".*

Axşam saat 7-dək orada olan Ş.Rasizadə sonra kəndə gəlmişdi. Sakinlər toplaşmışdı. Səhər tezdən sovxoz direktoru gəlib demişdi ki, kənd camaatı onun evini daşa basmışdır. Ş.Rasizadə A.Süleymanovdan milis heyəti göndərməyi xahiş etmişdi. Bundan sonra Ş.Rasizadə V.Movsesyan ilə görüşə getmişdi. Onlar sərhəddə görüşmüşdülər. V.Movsesyan ona yol ilə getməyi təkid etmişdi. Ş.Rasizadə isə oraya getməməyi məsləhət görmüşdü. Heç bir zaman fiziki hərəkətlərin tətbiq olunacağını təsəvvür etmədiyini deyən Ş.Rasizadə fikirləşmişdi ki, xalqdır da, həmişəki kimi toplaşır. Ş.Rasizadənin oraya getməmək barədə təkidlərinə baxmayaraq, V.Movsesyan meşə massivinə baxmaq üçün tapşırıq aldığını söyləmişdi. Ş.Rasizadə və V.Movsesyan gedib həmin yerə baxmışdılar. Ş.Rasizadənin söylədiklərindən belə məlum olurdu ki, guya orada köhnə erməni kilsəsinin qalıqları var idi və V.Movsesyan ona baxmaq istəyirdi. Qəbiristanlıq isə hündür bir yerdə idi. Hardasa 300-400 il orada heç nə görünmürdü, yalnız yarımdəyirmi bir daş var idi. V.Movsesyan sonra demişdi ki, indi geriyə gedək. Geriyə döndükdə isə kənd sakinləri onlara qarşı fiziki güc tətbiq etmişdilər. Bundan sonra Ş.Rasizadə və A.Süley-

---

[758] Стенограмма выступления т. Расизаде Ш.А. на заседании Бюро ЦК КП Азербайджана. 12.11.1984. – ARSSA, f.1, siy.73, iş 17, v.63-64.

manov V.Movsesyandan üzr istəmişdilər. Səhəri gün Ş.Rasizadə ona zəng edərək təkrarən üzr istəmiş və Bakıya qayıtmışdı.

Ş.Rasizadə bütün bunlarda günahkar olduğunu deyərək soruşdu:

*"Bəs, mən nə edəydim? Mən birinci katib, rayon İcraiyyə Komitəsinin sədri ilə birlikdə idim. Soruşdum ki, bilirlər, yoxsa yox? Dedilər-bilirlər. Kimə inanmalıydım? Və bu hadisə baş verdi. Mən hər halda daha ehtiyatlı olmalıydım və bu sahəyə getməməliydim. Mən üzr istədim. Fiziki və mənəvi cəhətdən əzab çəkdim və indi də çəkirəm".*

K.Bağırov dedi ki, siz adi adam deyilsiniz, rəhbərsiniz, bu şəraitdə birinci olaraq hər şeyə siz münasibət bildirməliydiniz.

Bundan sonra müzakirələr başladı. Çıxış edən Qurban Xəlilov bildirdi:

*"Birinci dəfədir, belə hadisə Büro iclasında müzakirə edilir. Ona görə ki, xalqlar dostluğunun ənənəvi tarixi vardır. Bu hadisə həyəcanlıdır, onun ciddi siyasi və ictimai əhəmiyyəti vardır, ayrı-ayrı adamlar çirkin niyyətləri üçün istifadə edə bilərlər. Biz buna rəvac vermişik. Soruşulur: səbəb nədir? Danışıqlar bir il deyil, çoxdan gedir. Hökumət bu işlə məşğuldur. Belə hesab edirəm ki, işin bu səviyyəyə çatmasına təsir edən əsas səbəblərdən biri birinci katib A.Süleymanovun və Nazirlər Soveti sədrinin müavini Ş. Rasizadənin oktyabrın 23-də özlərini düzgün aparmamalarıdır. İnsanlar sizin maşınınızı saxlayırlar, onu ağacla döyəcləyirlər, onları necə dinləməmək olar? Siz maşını ayın 23-də saxlamalı və yoldaşlara vəziyyəti izah etməli idiniz ki, nə etmək lazımdır. Eyni səhvi siz növbəti gün də etmisiniz. Mən İcraiyyə Komitəsinin sədrindən soruşdum ki, maşını nə zaman saxlayıb adamlarla söhbət etdiniz? Bəli, amma formal olaraq, məsələni həll etmişlər. Sovxoz direktoru kəndin rəhbəridir. Əgər kollektiv onu eşitmirsə, onda o, direktor deyildir. O, səhər tezdən rayona gəlib vəziyyət barədə məlumat verə və hadisədən yayınmaq olardı"* [759].

Q.Xəlilov təqdim edilmiş qərar layihəsi ilə razılaşaraq bildirdi ki, Ş.Rasizadə və A.Süleymanov ciddi partiya cəzası almalıdırlar, kimsə işdən də azad oluna bilər, yoldaşlar məsuliyyət hiss etməlidirlər.

Ondan sonra danışan Svetlana Qasımova Qazaxda baş verən hadisəni sıradan biri hesab etməyərək bildirdi ki, ona partiya qiyməti verilməli, pislənilməli, bu faktı törədən yoldaşların hərəkətlərinə prinsipial qiymət verilməlidir. O, rayon rəhbərliyini ictimai həyatdan uzaq düşməkdə, işləri bilməməkdə ittiham edərək, vəzifələrindən azad olunmasını təklif etdi. Bildirdi ki, qonşu olan iki rayon beynəlmiləl əlaqələri gücləndirmək üçün işlər görsəydi, rayon rəhbərləri yerində olsaydı, xoşagəlməz fakt olmaz və qonşu rayonların çoxlu sosial-iqtisadi məsələləri birgə, Ermənistan SSR və Azər-

---

[759] Заседание Бюро ЦК КП Азербайджана. 12.11.1984. Об инциденте в с. Кемерли Казахского района. Секретно. – ARSSA, f.1, siy.73, iş 17, v.72-85.

baycan SSR rayonlarının səyləri ilə həll edilərdi. Onun fikrincə, guya Qazax rayon rəhbərliyinin düzgün olmayan hərəkətləri arzuolunmaz nəticələrə gətirib çıxarmışdı. S.Qasımova da təqdim edilən layihəyə tərəfdar çıxdı.

Layihəni bəyənən, hadisəni "siyasi insident" adlandıran Süleyman Tatlıyev bunun MK-nın apardığı ideoloji, siyasi tərbiyə və zəhmətkeşlərin beynəlmiləlçilik tərbiyəsi işinə böyük zərbə vurduğunu dedi. Münaqişənin səbəbləri barədə danışaraq, rəhbərlərin hələ də xalqla bir yerə toplaşa, müzakirə apara, məsələləri izah edə bilmədiklərini, haradasa isə bir qismi verib, digər yerdən bir qismi götürməyi müzakirə edə bilmədiklərini söylədi. Üzünü Ş.Rasizadəyə tutaraq dedi:

*"Sizə tapşırılmışdı, gedib əraziyə baxın, hardasa meşə massivini saxlayın, hardasa digər sovxozlardan götürün və kompensasiya edin. Mənə elə gəlir, götürmək olardı, hətta yaxşı torpaq götürmək olardı ki, vəziyyət bu həddə gəlib çıxmasın. Əgər Ş.Rasizadə, A.Süleymanov və digərləri sakinləri bir yerə yığıb desəydilər ki, məsələ müzakirə edilir, baxılır, son qərarda sizin rəyiniz nəzərə alınacaq, bu hadisə olmazdı. Əgər ciddi iş aparılsaydı, onda münaqişə də baş verməzdi".*

S.Tatlıyev inzibati orqanları da tənqid edərək dedi ki, bu məsələ bir-iki gün ərzində deyil, aylarla yetişmişdir.

İsa Məmmədov çıxışında bildirdi:

*"Baş verən hadisə ictimai və siyasi baxımdan ziyanlıdır. Hadisədən xəbər tutanlar hamısı həyəcanlıdır. Bu, bizim respublika üçün biabırçılıqdır".*

Ş.Rasizadə və A.Süleymanovun ciddi partiya cəzasına layiq olduğunu söyləyən İ.Məmmədov sual etdi: "Biz bu hadisənin qarşısını ala bilərdikmi?" Cavabında da "bəli" dedi. Əlavə etdi ki, rayonda baş verən münaqişə bir günün işi deyildir. Xuliqan hərəkətləridir, burada kütlə var idi, bir nəfər deyil, kommunistlər var idi. O, A.Süleymanovu və Ş.Rasizadəni də təqsirkar hesab edərək bildirdi ki, Ş.Rasizadə oktyabr ayının 23-də sakinləri yığıb açıq şəkildə izah etməliydi ki, belə bir sərhəd var. Məsələ həll olunur. Ağır məsələdir, lakin adamlar burada işləyirlər. O isə əksinə olaraq qorxmuş və qaçmışdır. İ.Məmmədov da MK-nın qərar layihəsini bəyəndi.

Fuad Musayev dedi:

*"Son vaxtlar bu məsələ ilə bağlı olaraq tez-tez toplaşırlar. Bütün Büro üzvləri və bütün xalqımız hadisədən narahatdır. Mən bir daha təkrar edirəm, heç bir vaxt, bizim heç birimiz xatırlamır ki, sovet xalqı, sovet adamları belə kütləvi əzişdirməni təşkil etsinlər".*

Hadisənin başvermə səbəbini soruşan F.Musayev özü də cavab verdi ki, MK-nın bütün tapşırıqlarına məsuliyyətlə yanaşmaq lazımdır, məsələləri səthi həll etmək olmaz. O, baş verənləri "qlobal hadisə" adlandırdı və K.Bağırovun tapşırıqlarının yerinə yetirilmədiyini vurğuladı:

*"Birinci gündən deyirdik ki, komissiyada nəsə düzgün həll edilmir".*

O, A.Süleymanovu ittiham edərək dedi:

*"Belə adam rayona rəhbərlik edə bilməz, komissiya bizi bu məsələdən uzaqlaşdırmışdır. Bu məsələ yeni deyil, ona çoxdan baxmaq olardı, əgər bizdən asılı deyilsə, onda K. Dəmirçiyan yoldaşa müraciət etmək olar".*

"Kəmərli kəndi ətrafında yaranmış şəraitin səbəblərinin tam aydın olduğunu" özünəməxsus şəkildə qeyd edən MK-nın ikinci katibi V.N.Konovalov məsələnin bəzi aspektləri və cəhətləri üzərində dayandı. Onun fikrincə, yerli hakimiyyət orqanları lazımi səviyyədə, vəziyyətə hakim olmamışdılar, bu hadisə qorxulu və təhlükəli olub, ideoloji işi qurmaq üçün siqnal idi. V.Konovalov yerli hakimiyyət orqanlarını tənqid edərək, onların ciddi cəzalandırılmasını istədi, münaqişənin Ermənistanda mənfi siyasi reaksiya, həm Azərbaycanda, həm də Ermənistanda ən mənfi nəticə doğurduğunu deyərək, əlavə etdi:

*"Bizim hansı çətinliklərlə üzləşəcəyimizi söyləmək çətindir".*

Mənfi proseslərin getdiyini deyərək, yeni rayon rəhbərliyini formalaşdırmağı təklif etdi. Onun fikrincə, Ermənistanda hadisələr pis istiqamətdə cərəyan edirdi. Sovxoz direktoru xəstəxanada idi, V.Movsesyanın isə beyni zədələnmişdi. Bu hadisə Ermənistanda antisovet elementlərin fəallaşmasına material vermişdi. O, üzünü Ş.Rasizdəyə tutub, onun keçdiyi yolu xatırlatdıqdan sonra dedi ki, Siz adi işçi deyilsiniz, oraya rəhbər kimi getmişdiniz. V.Konovalov və İ.Məmmədov rayona gedən kimi, bizim iradlarımıza dərhal reaksiya verirlər, Siz nəticə çıxarmırsınız, tədbirlər görmürsünüz.

Özündən əvvəl danışanlarla razılaşan DTK sədri Ziya Yusifzadə rayon rəhbərliyinin hərəkətlərini cinayətə bərabər hesab edərək dedi ki, məsələ 20 gün deyil, il yarımdır müzakirə edilir. Dəfələrlə vəziyyət haqqında məruzə edilmiş, MK göstərişlər vermişdir. Təsərrüfat işlərinə başı qarışan rayon rəhbərliyi ideoloji işi unutmuş, iki xalq arasında dostluğa xələl gəlmişdir. Nazirlər Soveti sədrinin müavini, Ali Sovetin deputatı əzişdirilir, hələ başqalarını demirəm, bu, nəyə lazımdır? Onun fikrincə, məsələləri xalqın çiyinlərinin arxasında həll etmək olmazdı. Burada adamların yaşadığını qeyd etdikdən sonra üzünü K.Bağırova tutaraq dedi:

*"Vəziyyət bir-iki aya yaranmamışdır ki? Baxın, Noyemberyan rayonunda hansı hadisələr baş verir?"*

Z.Yusifzadə də təqdim edilən qərar layihəsi ilə razılaşdı.

Çıxış edən Lidiya Rəsulova əvvəllər baş vermiş bir hadisəni xatırlayaraq dedi:

*"Biz meşələrin qorunması və bərpası məsələsi ilə əlaqədar olaraq Qazax rayonuna Qarayazı qoruğuna getmişdik. O zaman sakinlər A.Süleymanovu və məni əhatəyə aldılar. Ola bilsin ki, onlar hadisələri öz söz-*

*ləri ilə qabaqladılar, torpaqlarını almamağı bizə başa saldılar. Deməli, münaqişəyə qədər insanlarda şübhələr var idi. Bu regionun əhalisi digər regionların əhalisindən belə məsələlərdə daha həssasdır. Burada insanlar daha emosionaldırlar, bununla bağlı olan ayrı-ayrı hadisələrə daha tez reaksiya verirlər. Məsələni xalqa izah etmək olardı".*

Hadisənin əhalinin inkar edilməsi nəticəsində baş verdiyi qənətində olan L.Rəsulovanın fikrincə, xuliqan hərəkətlər ziyanlı ictimai-siyasi xarakter daşıyırdı. O, rəhbər işçilərin əhali ilə tez-tez görüşməsinin vacibliyini vurğulayaraq, təqdim edilən qərar layihəsi ilə razılaşdı.

Cahangir Müslümzadə çıxışında A.Süleymanovu özünü reklam etməkdə, əhali ilə ehtiyatlı işləməməkdə təqsirləndirərək dedi ki, əgər o, ağıllı, ehtiyatlı olsaydı, dərindən istiqamət götürə bilsəydi, belə hadisələr olmazdı. Qərar layihəsinə dair konkret təklifini söyləyərək bildirdi ki, birinci səhifədə yazılmışdır:

*"İnsident yerli əhalinin müəyyən hissəsi arasında qeyri-sağlam milli münasibətlərin nəticəsidir", onu belə bir redaksiyada vermək olar: "...uzun müddət ərzində yığılıb qalmış qarşılıqlı ərazi iddiaları nəticəsində Dimitrov sovxozunda yaranmış vəziyyətin düzgün qiymətləndirilməməsinin nəticəsi..."*

O da qərar layihəsi ilə razılaşdı.

C.Müslümzadənin məsələyə yanaşması münaqişənin gerçək köklərini özündə əks etdirirdi. Lakin təklif nəzərə alınmadı.

Yekunda çıxış edən Kamran Bağırov baş verənləri hadisə, münaqişə, toqquşma adlandırdı və buna prinsipial, partiya və siyasi qiymət verməyin vacibliyini bildirdi. Büronun bu məsələni Sov.İKP MK-nın tələbinə uyğun olaraq dərindən müzakirə etdiyini dedi[760]. Onun fikrincə, Sov.İKP MK məsələyə ciddi siyasi qiymət vermişdi. Belə ki, MK-nın bütün katiblərinin tanış olduğu Sov.İKP MK-nın arayışında münaqişəyə yerli əhali arasında qeyri-sağlam münasibətlərin nəticəsi, uzun müddət ərzində yığılıb qalmış qarşılıqlı ərazi iddialarının toplandığı Dimitrov sovxozunda yaranmış şəraitin düzgün qiymətləndirilməməsi kimi yanaşılırdı.

K.Bağırovun fikrincə, hamını narahat edən, hiddətləndirən məsələ rayon rəhbərliyinin, təsərrüfat rəhbərlərinin, partiya təşkilatı katibinin və rayon inzibati orqanları rəhbərlərinin yerində olmaması idi. Ş.Rasizadəyə hiddətlənərək dedi ki, hadisə ona görə siyasi cəhətdən ziyanlıdır, o, işə, fəaliyyətə, təşkilati, siyasi, kütləvi-siyasi fəaliyyətə ziyan vurmuş, partiyanın etibar etdiyi bir sıra məsul şəxslər məsuliyyətsiz olmuş, çoxlu məsələ-

---

[760] Заседание Бюро ЦК КП Азербайджана. 12.11.1984. Об инциденте в с. Кемерли Казахского района. Выступление первого секретаря ЦК КП Азербайджана тов. К.М.Багирова. Секретно.– ARSSA,f.1,siy.73, iş 17,v.65-71.

lərin həllində rollarını başa düşməmişlər. K.Bağırov dedi ki, bu gün aydın olur, həmin yoldaşlar baş verən hadisələr barədə nəinki əhalini məlumatlandırmamış, həmçinin kənd əhalisinin sosial, iqtisadi və həyati əhəmiyyət kəsb edən məsələlərinin həllinə kömək etməmişlər. Hətta partlayış baş verən anda adamlar siyasi cəhətdən yerində olmamışlar. Rayon rəhbərliyini kəskin tənqid edən K.Bağırov dedi:

*"Məgər orada sovet hakimiyyəti yoxdurmu?"*

Bəzi rəhbərlərin əllərini yanlarına salaraq laqeyd qalmaları faktının həyəcanlı olduğunu qeyd edərək vurğuladı:

*"Biz necə laqeyd qala bilərik, Sov.İKP MK qarşımıza məsələni həll etmək, kökündən həll etmək və geniş planda həll etmək vəzifəsini qoymuşdur. Biz bu gün baxdıq, cəzalandırdıq, azad etdik, partiyadan çıxardıq, hələ inamla demək olmaz ki, sabah orada vəziyyət lazımi səviyyədə olacaqdır".*

K.Bağırov A.Süleymanovdan soruşdu ki, biz sənə etimad göstərsək, sən orada işləri təmin etmək gücündəsənmi? Əlavə etdi:

*"A.Süleymanov bu gün söz verər, amma sabah deyər, sözdür də demişdir. Nəzərə alın ki, biz burada belə münasibətə yol verməyəcəyik. Ən xırda xəbərə, ən xırda siqnala biz ikinci dəfə Büroda baxacağıq və bu, A.Süleymanovun işdən azad olunması və partiyadan çıxarılması olacaqdır. Siz birinci katib vəzifəsindən azad olunmağa layiqsiniz. B.Eyyubov da buna layiqdir. Lakin biz nəzərə alırıq ki, gənc rəhbərlərsiniz, partiya sizə etimad göstərilmişdir, vəziyyətin ciddiliyini, indiki ciddi tələbatı başa düşürsünüz. İndi həqiqətən tərbiyə, təsərrüfat sahəsində geniş iş aparmaq lazımdır".*

Baş verən hadisə üçün təhrikçinin sovxoz direktoru olduğunu deyən K.Bağırov R.Baxışovun və İ.Mustafayevin vəzifələrində qala bilməyəcəklərini vurğuladı. O, iclasda iştirak etməyən kənd sovetinin sədrini də kəskin tənqid etdi. İlk partiya təşkilatının katibi D.Yolçuyevin və sovxoz həmkarlar komitəsinin sədri İ.Mustafayevin partiya məsuliyyəti məsələsinə baxmağı rayon Partiya Komitəsinə tapşırdı. K.Bağırov dedi ki, onlar ciblərində partiya bileti daşımalarına baxmayaraq, insidentdə iştirak etmiş, məsuliyyətsiz olmuş və yetkinlik göstərməmişlər. "Ş.Rasizadənin çox pis bir rəngdə olduğunu" deyən K.Bağırov vurğuladı:

*"Bu, çoxdan onun xarakterindədir, hadisələrə səthi yanaşır. Əgər o, bu hadisələrin qarşısını ala bilsəydi, biz bu gün ağır vəziyyətdə qalmazdıq. Hətta hiss olunmadı ki, Ş.Rasizadə vicdanının ləkəli olduğunu hiss edir. Hiss olunmur. Biz onun işdən azad olunmasını, yerdə qərar qəbul edə bilmədiyini yaza bilərik. Lakin uzun illər boyu məsul vəzifədə işlədiyini, keçmiş xidmətlərini nəzərə alaraq biz humanistlik göstərməliyik. Amma onu ciddi cəzalandırmalı, şiddətli töhmət yazmalıyıq*".

K.Bağırov Büro üzvlərinin rəyini soruşdu. Onlar razılıqlarını bildirdilər. K.Bağırov bundan sonra "hər yerdə hər şey yaxşıdır" kimi deyilən

sözlərə inanmayacaqlarını, kənddə işlərin gücləndirilməsinin zəruriliyini söyləyərək əlavə etdi ki, xalqa demək lazımdır, biz onları heç vaxt suya və lazım olan şeylərə möhtac qoymayacağıq.

K.Bağırov respublikalar, ayrı-ayrı rayonlar, şəhərlər, kollektivlər və birliklər arasında beynəlmiləlçilik əlaqələrinin gücləndirilməsinin zəruriliyini vurğuladı. Kəndlərə ciddi yardım edilməsi və sosial-mədəni obyektlərin tikintisi istiqamətində işlərin görülməsinin əhəmiyyətindən danışdı.

MK Bürosu məsələyə dair 10 bənddən ibarət qərar qəbul etdi[761]. Qərarda yazılırdı ki, Qazax rayonunun Kəmərli kəndində (Dimitrov adına sovxoz) baş vermiş insident zamanı Azərbaycan və Ermənistanın bir sıra məsul şəxsləri zədə almışlar, bu, yerli əhalinin bir hissəsi arasında qeyri-sağlam millətlərarası münasibətlərin, sovxoz kollektivində yaranmış şəraitə partiya və sovet orqanlarının düzgün qiymət verməməsinin nəticəsində olmuşdur. Münaqişə üçün bilavasitə bəhanə Azərbaycan SSR Qazax rayonunun Kəmərli kəndi ilə Ermənistan SSR Noyemberyan rayonunun Dovex kəndi arasında yerləşmiş 1675 ha. sahəsi olan meşə massivindən istifadə üstündə mübahisə olmuşdur. Kəmərli kəndi əhalisi arasında vəziyyətin kəskinləşməsi Dimitrov adına sovxozda kütləvi-siyasi və ideya-tərbiyə işinin başlı-başına buraxılmasının və əhaliyə yanlış məlumat verilməsinin bilavasitə nəticəsidir. MK-nın və respublika Nazirlər Sovetinin Qazax rayon Partiya Komitəsinə (A.K.Süleymanov yoldaş) və rayon İcraiyyə Komitəsinin sədri (B.Ş.Eyyubov yoldaş) torpaqdan istifadənin qarşıdakı dəyişikliyi ilə əlaqədar olaraq Kəmərli kəndinin kommunistləri və əhalisi arasında zəruri təşkilati, siyasi iş aparmaq barədə göstərişlərinə baxmayaraq, bu, lazımi formada edilməmişdir. Vəziyyətin kəskinləşməsinə, göstərilən kəndlərin sakinlərinin qarşılıqlı iddialarına dair ən mötəbər məlumatlara baxmayaraq, rayon Partiya Komitəsi və rayon İcraiyyə Komitəsi siyasi səbatsızlıq göstərmiş, hadisələrin gedişini nəzarətsiz, öz axarına buraxmışlar. Hətta oktyabrın 23-də sovxoz direktoru İ.Bəbirovun evi daşa basılarkən və rayon mərkəzinə gedən yol kənd əhalisi tərəfindən bağlanarkən vəziyyətin sabitləşdirilməsi üçün bütün lazım olan tədbirlər görülməmiş, kommunistlər və sakinlər komissiyanın kəndə gəlməsinin və torpaq məsələsinin həllinin perspektivləri barədə məlumatsız qalmışlar. Belə şəraitdə sovxoz direktoru İ.M.Bəbirov, partiya təşkilatı katibi C.M.Yolçuyev, kənd sovetinin sədri M.M.Aslanov, kəndin partiya-təsərrüfat fəalları partiya yetkinliyi və vətəndaş qeyrəti göstəməmişlər. Vəziyyətin normallaşdırılmasına dair konkret tədbirlər görmək, şayiələrin yalan olmasına inandırmaq əvəzinə onlar özlərini işdən kənarlaşdırmış, geri qal-

[761] Заседание Бюро ЦК КП Азербайджана. 12.11.1984. Об инциденте в с. Кемерли Казахского района. Секретно. – ARSSA, f.1, siy.73, iş 157, v.10-15.

mış əhval-ruhiyyənin ardınca getmiş və faktiki olaraq münaqişənin yaranmasına kömək etmişlər.

Qərarda yazılırdı ki, rayon daxili işlər (R.M.Bağışov yoldaş) və DTK (S.Q.Mustafayev yoldaş) şöbələri kənddəki vəziyyət haqqında dolğun məlumatlara malik olmamışlar. Milis tərəfindən operativ tədbirlər həyata keçirilməmiş, Partiya Komitəsinin göstərişindən sonra da onun fəaliyyəti gecikmişdir. Hüquq mühafizə orqanlarının xidməti vəzifələrinə məsuliyyətsiz yanaşmaları Kəmərli kəndinin əhalisinin kütləvi şəkildə xuliqanlıq hərəkətlərində iştirakına şərait yaratmışdır.

Yerdə torpaq məsələsinin öyrənilməsinin tapşırıldığı respublikanın rəhbər işçiləri (Ş.A.Rasizadə yoldaş) yerli əhalinin qeyri-sağlam əhval-ruhiyyəsi, meşə massivinə güclü marağı olması barədə məlumatı olmasına baxmayaraq, şəxsi nüfuzuna ümid edərək işi ilk partiya təşkilatına, sovxoz və İcraiyyə Komitəsinin təsərrüfat fəallarına arxalanmadan aparmışdır. Oktyabrın 23-də Ş.Rasizadə və onu müşayiət edən şəxslər yerə baxarkən özlərinin məsuliyyətsiz fəaliyyətləri və ifadələri ilə kənd sakinləri arasında şayiələrin və uydurmaların yayılmasına kömək etmişlər. Əhalinin böyük bir qrupunun yolu kəsərək, onların maşını dayandıraraq, danışıqlara girməsi xahişi faktına diqqət yetirməmişlər. Bu xahiş diqqətsiz qalmışdır.

Qərarda qeyd edilirdi ki, oktyabr ayında Kəmərli kəndinin bir qrup sakini torpaq məsələsi ilə əlaqədar olaraq MK-da qəbulda olmuşlar. Bununla bağlı olaraq Qazax rayon Partiya Komitəsinə tapşırılmışdı ki, şəraiti diqqətlə öyrənsin və sağlamlaşdırılması üçün tədbirlər görsün. Lakin bu, edilməmişdir. Rayon Partiya Komitəsi, rayon İcraiyyə Komitəsi bir neçə il ərzində Kəmərli kəndinin sosial, mədəni-məişət xidməti məsələlərinə laqeyd qalmış və diqqətsiz qoymuşlar.

Qərarın birinci bəndində yazılırdı ki, Kəmərli kəndində baş verən münaqişə ictimai və siyasi cəhətdən ziyanlı xarakter daşıyır və respublikanın bütün partiya, sovet və təsərrüfat orqanları ondan kütlələrin təşkilati, kütləvi-siyasi və beynəlmiləl tərbiyəsi işinin səviyyəsini artırmaq üçün lazımi nəticələr çıxarmalıdırlar. Qərarda bu istiqamətdə rayon rəhbərliyinin apardığı iş qeyri-qənaətbəxş hesab edilirdi. Rəhbərlik real vəziyyəti, əhalinin ehtiyaclarını və əhval-ruhiyyəsini bilmədən işi qurmaqda təqsirləndirilirdi.

İkinci bəndə əsasən rayon Partiya Komitəsinin birinci katibi A.K.Süleymanova, rayon İcraiyyə Komitəsinin sədri B.Ş.Eyyubova şəxsi uçot vərəqəsinə yazılmaqla şiddətli töhmət verildi. Onlar işlərindəki çatışmazlıqları aradan qaldırmasaydılar, vəzifələrindən azad olunacaqdılar.

Üçüncü bənddə yazılırdı ki, Kəmərli kəndi əhalisini xuliqanlıq hərəkətlərinə sövq etdiyi, sovxozda vəziyyətin sağlamlaşdırılması üçün tədbirlər görmədiyi, rəhbər səlahiyyətlərindən özünü kənarlaşdırdığı, siyasi səbatsızlıq göstərdiyi üçün direktor İ.M.Bəbirov partiyadan və vəzifədən

çıxarılsın. Rayon Partiya Komitəsinə ilk partiya təşkilatının katibi C.M.Yolçuyevin, həmkarlar təşkilatının sədri İ.İ.Mustafayevin, kənd sovetinin sədri M.M.Aslanovun partiya məsuliyyətinə cəlb edilməsi məsələsinə baxmaq tapşırılırdı.

Qərarın dördüncü bəndinə əsasən rayon daxili işlər şöbəsinin rəisi R.M.Bağışov vəzifəsindən azad edildi və partiya sıralarından çıxarıldı. Azərbaycan SSR DTK sədri Z.Yusifzadəyə tapşırıldı ki, DTK rayon şöbəsinin rəisi S.Q.Mustafayevin vəzifəyə uyğun gəlməsi məsələsinə baxsın. Respublika prokurorluğuna yaranmış vəziyyəti dərindən təhqiq və qızışdırıcıları cinayət məsuliyyətinə cəlb etmək tapşırıldı.

Beşinci bəndə görə rayon Partiya Komitəsi əhali arasında ideya-siyasi və mənəvi tərbiyə işlərini gücləndirməli, adamlarla fərdi işə xüsusi diqqət yetirməli, Qazax rayonu ilə Noyemberyan rayonu arasında sosializm yarışını, iqtisadi, ictimai-siyasi və mədəni əlaqələri genişləndirmək üçün əlavə tədbirlər hazırlamalı və həyata keçirtməli idi.

Qərarın altıncı bəndinə əsasən Ş.A.Rasizadəyə şiddətli töhmət verilirdi.

Yeddinci bənddə respublika Nazirlər Sovetinə Kəmərli kəndinin zəruri sosial-mədəni və məişət məqsədli obyektlərlə təmin edilməsi üçün tədbirlər hazırlamaq tapşırıldı.

Səkkizinci bənd ilə Azərbaycan KP-nin bütün vilayət, şəhər, rayon komitələrinə kadrlara olan tələbləri artırmaq tövsiyə edilirdi.

Doqquzuncu bənddə MK katibləri V.N.Konovalova və İ.A.Məmmədova tapşırılırdı ki, Büro qərarını Qazax rayon Partiya Komitəsinin plenumuna çatdırsın, həmçinin Dimitrov adına sovxozda bu məsələ ilə bağlı olaraq partiya və təsərrüfat fəallarının toplantısını keçirtsinlər.

Onuncu bəndə əsasən qərarın icrasına nəzarəti MK-nın şöbələri həyata keçirtməli idi.

Qərara uyğun olaraq MK-nın ikinci katibi V.Konovalov və katib İ.Məmmədov rayona ezam edildilər. Məsələ rayon Partiya Komitəsinin plenumunda geniş müzakirə edildi. MK qərarı yerinə yetirildi.

Respublika rəhbərliyi Kəmərli hadisəsini Ermənistanın əsassız ərazi iddiası kimi deyil, yanlış olaraq yerli kəndlərin arasında milli münasibətlərdəki səhvlər kimi qiymətləndirdi. Məsələyə yanaşmada və onun həllində Azərbaycan rəhbərliyinin mövqeyi itaətkar idi. Kəmərli kəndinin sakinləri isə dövrün bütün sərt şərtlərinə baxmayaraq, qəti iradə ortaya qoydular. Qəzəblənən əhalinin sovet və partiya işçilərini döyməsi əslində Azərbaycana qarşı əsassız ərazi iddialarına etiraz olaraq Kəmərli sakinlərinin üsyanı, cəsarətli hərəkəti idi. Əgər Azərbaycan hakimiyyəti xalq ilə bir yerdə hərəkət etsəydi, bu hadisələr olmaya, torpaq qopardılmağa bilərdi. Əsassız iddialarının yerinə yetirilməsi erməni dairələrini daha da şirnikləşdirir və fəaliyyətlərini genişləndirməyə rəvac verirdi.

# XII FƏSİL

## "SOYQIRIMI"NI TANITMA, SOVET YARDIMLARINI ALMA VƏ XARİCİ ÖLKƏLƏRDƏN ERMƏNİLƏRİ GƏTİRMƏ CƏHDLƏRİ

### *Uydurma soyqırımı məsələsi müzakirə edilir*

80-ci illərin ortalarından etibarən Ermənistanın əsassız iddiaları bir neçə istiqamətdə genişlənmişdi. İlk növbədə qatı millətçi alim, yazıçı, şair və jurnalistlərin Türkiyə və türklər əleyhinə yazdıqları "əsərlərin" nəşri artırdı.

Erməni dairələrinin fəaliyyət istiqamətlərindən biri tarixdə heç bir zaman olmayan uydurma soyqırımı məsələsini yenidən gündəliyə gətirmək oldu. Ermənistan KP MK sovet rəhbərliyindən 24 aprel gününü "Soyqırımı qurbanlarının xatirə günü" kimi qeyd etməyə icazə almağa çalışırdı. Bu məqsədlə Ermənistan KP MK-nın birinci katibi Karen Dəmirçiyan Sov.İKP MK-ya məktub yazaraq, Ermənistan SSR Ali Sovetinin müvafiq fərmanına Siyasi Büronun razılıq verməsini istədi.

Müraciət Sov.İKP MK katibliyində müzakirə edildi. MK katibliyi respublika fərmanının bütün müsbət və mənfi tərəflərini təhlil edərək Siyasi Büronun müzakirəsinə verdi. Məsələ Siyasi Büronun 1985-ci il fevralın 21-də keçirilən iclasının gündəliyinə daxil edildi. İclasda "Erməni soyqırımının 70 illiyi ilə əlaqədar tədbirlər haqqında" məsələ müzakirə olundu[762]. Sov.İKP MK-nın baş katibi Konstantin Çernenko xəstə olduğundan iclası MK katibi M.S.Qorbaçov aparırdı.

Büro iclasını açan M.Qorbaçov dedi ki, "soyqırımı"nın 50 illiyi ölkədə əvvəllər qeyd edilməmiş, bu, xeyli mənfi təzahür doğurmuş, "soyqırımı"nın 60 illiyi haqqında L.İ.Brejnev və M.A.Suslov arasında da müzakirə olmuşdu, o vaxt keçirilən tədbirlər MK tərəfindən bəyənilmişdi, bu dəfə isə "soyqırımı"nın 70 illiyi münasibəti ilə Ermənistan KP MK əlavə tədbirlərin qəbul edilməsi haqqında müraciət etmişdir. Təklif Ermənistan partiya təşkilatı rəhbərlərinin hesab etdiyi kimi, guya sinfi düşməni ittiham etməkdən imtina olunmasına yönəlmiş, sovet hökuməti "soyqırımı"na münasibətini bildirməmişdi. Bu məsələyə dair burjua mətbuatında hay-küy qaldırılmışdı. M.S.Qorbaçov ABŞ konqresi nümayəndələr palatasının "24 apreli insana qeyri-insani münasibət və ermənilərin soyqırımı" kimi elan edən qətnamə qəbul etdiyini, Fransa və digər ölkələrin hökumət dairələrinin fəal işlədiyini dedi. Ermənistan rəhbərliyi "soyqırımı"nın 70

---

[762] Заседание Политбюро ЦК КПСС. 21.02.1985. Пункт 6. О мероприятиях в связи с 70-летием геноциде армян. – The National Security Archive of the USA.The George Washington University in Washington.

illiyi ilə əlaqədar olaraq Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanının verilməsinə, həmçinin Ermənistan KP MK-nın birinci katibinin radio və televiziya ilə çıxış etməsinə, çıxışın mətninin respublika mətbuatında dərcinə icazə almaq istəyirdi.

Qərarın qəbul edilməsinə tərəfdar olan M.S.Qorbaçovdan sonra danışan K.Dəmirçiyan hiyləgərliklə məsələni "mürəkkəb və ciddi" qiymətləndirərək bildirdi ki, bu məsələ respublikanın bütün əhalisini və xaricdəki erməni koloniyasını narahat edir, nəzərə almaq lazımdır, xaricdə (Livan, ABŞ, Fransa, Avstriya, Kanada və b. ölkələrdə) 3 mln.-dək erməni yaşayır. O, fikrini 1965-ci ildə 100 min nəfərədək adamın küçələrə çıxması və etdikləri çox təhlükəli hərəkətlərlə, hər il "soyqırımı" abidəsinə 200-300 minədək adamın baş çəkməsi ilə əsaslandırmağa çalışdı. Onun sözlərinə görə bunu nəzərə alan Sov.İKP MK Ermənistan rəhbərliyinə tədbirlər hazırlamağı tapşırmışdı. Guya tədbirlər "soyqırımı" qurbanlarının xatırlanması prosesini daha idarəedən etməli idi. K.Dəmirçiyan özünəməxsus tərzdə yalan danışaraq bildirdi ki, "soyqırımı"nın 70 illiyi ətrafında məsələləri ABŞ MKİ və digər təxribatçı təşkilatlar qızışdırır, tarix saxtalaşdırılır, konfranslar keçirilir, guya ruslar tərəfə keçən türk əhalisinin öldürüldüyü deyilir. O, öz fikirlərini daşnakların təbliğatına cavab verilməsi və əks tədbirlərin görülməsi zəruriliyi ilə riyakarcasına əsaslandırmağa və bununla Siyasi Büro üzvlərini çaşdırmağa çalışırdı. Sanki uydurma soyqırımı məsələsinə münasibətdə erməni kommunistləri ilə daşnaklar arasında heç bir fikir ayrılığı yox idi.

Müzakirəyə qatılan SSRİ Nazirlər Sovetinin sədri N.Tixonov K.Dəmirçiyandan soruşdu:

*"Bu fərmana uyğun olaraq belə gün hər il keçiriləcəkdir?"*

"Bəli, hər il" cavabını verən K.Dəmirçiyan bildirdi ki, biz hər il abidə önünə gedirik, əklil qoyuruq, MK-nın birinci katibi 10-12 dəqiqəlik çıxış edir, indiki tədbirlər ona əlavədir. Öz fikirlərini "sübut etmək" üçün yenidən saxtakarlıq edərək, onu xarici ölkələrdəki fəaliyyətlərlə, daşnakların birləşməsi ilə əlaqələndirməyə çalışdı, Türkiyənin ABŞ-dakı səfirinin (bu zaman Türkiyənin ABŞ-dakı səfiri Şükrü Elekdağ idi – M.Q.) konqresmenlərdən qəbul olunan qərarın ləğvini xahiş etdiyini dedi. N.Tixonov yenidən sual etdi:

*"Siz necə hesab edirsiniz, Sizin radio və televiziya ilə çıxışınız ermənilər və türklər arasında nifaqı daha da qızışdırmayacaq ki?"*

Cavabında K.Dəmirçiyan dedi ki, biz adətən çıxışda sovet Ermənistanının uğurlarından və həmçinin "ermənilərin soyqırımı"nın sultan Türkiyəsi tərəfindən edildiyini deyirik.

Siyasi Büronun üzvü, Moskva şəhər Partiya Komitəsinin birinci katibi V.V.Qrişin dedi ki, 70 il biz bu məsələ üzrə respublika Ali Soveti Rə-

yasət Heyətinin fərmanı olmadan keçinmişik, indi fərman qəbul etməyi təklif edirlər. Bunu nə üçün etmək lazımdır? Cavabında K.Dəmirçiyan yenə də yalan uydurаraq, bunu guya respublikadakı şərait və hər bir erməni ailəsinin “soyqırımı”na məruz qalması ilə əlaqələndirdi.

Məsələnin Ermənistan rəhbərliyi tərəfindən qızışdırıldığı qənaətində olan N.Tixonov yenidən sual etdi:

*“Respublikada şərait yuxarıdan qızışdırılmır ki?”*

K.Dəmirçiyan hiyləgərliklə *“bu mövzu ermənilərin ağlından və qəlbindən çıxmır, mən xüsusi qeyd etmək istəyirəm ki, tədbirlər antitürk istiqamət daşımır. Hər il 250-270 min adam küçələrə çıxır. Biz prosesləri idarə etmək istəyirik”* cavabını verdi.

Bundan sonra M.S.Qorbaçov sözü SSRİ DTK sədrinin müavini F.D.Bobkova verdi. 1965 və 1967-ci illərdə baş vermiş hadisələri xatırladan F.D.Bobkov “soyqırımı”nın 70 illiyində 300 minədək adamın küçələrə çıxmasının mümkünlüyünü bildirdi. O, 1967-ci ildən ötən müddətdə nələrin dəyişdiyi üzərində dayanaraq dedi:

*“Birincisi, çoxlu burjua xadimləri “soyqırımı”nın tanınması barədə bəyanatlar verirlər. İkincisi, antisovet qruplar fəaliyyətlərini, o cümlədən Ermənistan ərazisində genişləndirmişlər. Bu qrupların 100 nəfərədək nümayəndəsi həbs edilmişdir. Üçüncüsü, bu məsələ müəyyən qədər türk hakimiyyəti tərəfindən qızışdırılır. Onlar hətta sübut etmək istəyirlər ki, ermənilərin özləri soyqırımı törətmişlər. Dördüncüsü, terror aktlarının, xüsusən “Erməni terrorçu azadlıq ordusu” tərəfindən artması narahatlıq doğurmaya bilməz”.*

Onun dediyinə görə təklif edilən tədbirlər əhalinin daha yaxşı təşkil edilməsinə və təşəbbüsü DTK-nın öz əlinə götürməsinə imkan verərdi.

Sözdə soyqırımı deyilən bir məsələnin tarixini, xarici ölkələrdəki daşnakların fəaliyyət üsullarını mükəmməl bildiyindən məsələnin müzakirəsinin hissə qapılmadan keçirilməsini təklif edən xarici işlər naziri A.A.Qromıko *“albəttə, bu, sultan Türkiyəsinin və çar Rusiyasının qanlı cinayətidir”* deyərək, əlavə etdi ki, məlumdur, Lenin zamanında, 6 il dövlətə başçılıq etdiyi zaman “soyqırımı” ilə bağlı məsələlər yaranmamışdı. Bu zaman MK katibi B.N.Ponomaryov dedi ki, o vaxt Türkiyədə inqilab idi. Sözünə davam edərək A.A.Qromıko bildirdi ki, Türkiyə ilə münasibətləri əbədiləşdirmək lazımdırmı? Cavabında elə özü də düzgün olaraq dedi:

*“Mən fikirləşirəm, sovet hakimiyyətinə daşnaklar türklərdən çox nifrət edirlər, daşnaklar bizim üçün meyar ola bilməzlər”.*

A.A.Qromıko birmənalı olaraq bildirdi ki, bütün bunların hamısı xaricdə edilir, həm də xaricdəki ermənilərin səsinin arxasında xaricdə keçirilən hər hansı bir aksiya inandırıcı deyildir. Bu fərman daimi matəm gününü təsbit etməli idi. Onun fikrincə, ölkədə nə qədər matəm günü olardı, Batının (Batı xan nəzərdə tutulur – M.Q.) hücumlarından başlayaraq.

Əlavə etdi ki, biz hətta V.İ.Leninin ölüm gününü qeyd etmirik. Sovet dövlətinin strateji maraqlarını dəqiq ifadə edərək respublika fərmanının əleyhinə çıxan A.A.Qromıko Ermənistan rəhbərliyinin ittifaq mətbuatında "soyqırımı" haqqında məqalə dərc edilməsi təklifinə qarşı çıxaraq dedi:

*"Mənə elə gəlir ki, biz bu işi özümüzün "ağır artilleriyamıza" daxil etməməliyik. Respublika KP MK-nın birinci katibinin çıxışını dərc etmək olar. Əgər türklər öz ərazilərində Sovet İttifaqına qarşı yönəldilmiş nüvə raketlərini yerləşdirsəydilər, bu, daha təhlükəli olardı".*

O, təkliflərin hamısına bir də baxmağı, onları minimuma endirməyi, hər birinin lazımlığı haqqında bir daha düşünməyi təklif etdi.

MK katibi M.V.Zimyanın "Pravda" qəzetində məqalə dərc edildiyini, lakin "soyqırımı"na yalnız bir abzas həsr olunduğunu, hazırda ABŞ-ın Türkiyə ilə SSRİ arasında münasibətləri korlamaq istəyinin açıq-aşkar olduğunu deyərək, hansısa tədbirlərin keçirilməsinin vacibliyini, lakin dövlət deyil, ictimai əsasda keçirilməsini mümkün hesab etdi. Bildirdi ki, respublika fərmanı sovet–türk münasibətlərinin şübhəsiz, kəskinləşməsinə gətirəcəkdir. Onun fikrincə, tədbirlər Ermənistanda ictimai əsaslarla keçirilməli, Türkiyəyə münasibətdə heç bir şey deyilməməli idi.

Ermənistan KP MK-nın təkliflərini oxuduqda həyəcanlandığını deyən N.Tixonov 1984-cü ildə etdiyi rəsmi səfərini nəzərdə tutaraq vurğuladı ki, Türkiyədə olarkən türk rəhbərləri Sovet İttifaqını dost ölkə adlandırmış, öz ərazilərində SSRİ-yə qarşı yönəlmiş raketlərin yerləşdirilməsinə imkan verməmişlər. Qeyd etdi ki, respublika fərmanı sovet – türk münasibətlərində gərginlik yaradacaq, istər-istəməz bu işə Moskva qatılacaqdır. Soruşulur: bundan kim udacaqdır? Özü də cavab verdi: amerikalılar udacaqdır.

N.Tixonov Türkiyədə olarkən ölkə Prezidentinin və Baş Nazirinin Ermənistanda rəsmi şəxslərin çıxışlarına istinad edərək, bu respublikada antitürk əhval-ruhiyyəsi barədə 40 dəqiqə şikayət etdiklərini dedi. Uydurma "soyqırımı"nın 70 illiyinə dair respublika fərmanının verilməsinin əleyhinə çıxaraq dedi:

*"Ümumiyyətlə, yaxşı xatırlamaq lazımdır, türklərin əlində həm Dardanel, həm də Bosfor yerləşir, Montrödə imzalanmış müqaviləyə uyğun olaraq onların boğazları böyük qıfıl ilə bağlamaq imkanları vardır*".

Bildirdi ki, SSRİ-də böyük faciələr daha çoxdur, məsələn, Belarusiyada faşistlər hər dörd adamdan birini öldürmüşlər. O da amerikalıların SSRİ-nin fin, yunan və türklərlə münasibətlərini istəmədiklərini, "soyqırımı" ildönümü vasitəsi ilə qonşu ölkələrlə münasibətlərini pozmağa çalışdıqlarını dedi. N.Tixonov zəhmətkeşlərin bütün təbəqələri ilə əzmlə işləməyi, dövlətlərarası münasibətlərə toxunmamağı Ermənistan partiya təşkilatına tövsiyə etdi.

V.V.Qrişin ABŞ-da qəbul edilən qətnamələrin SSRİ və sovet Ermənistanının maraqları üçün qəbul edilmədiyini, buna görə də onlara əsaslanmamağı, Mərkəzi mətbuatda imperialist qüvvələrin milli hissləri qızışdırmasını ifşa edən məqalə ilə çıxış etməyi təklif etdi. O da respublika fərmanının verilməsinin əleyhinə çıxdı.

Ermənistanda hər il keçirilən tədbirlərdən qəti dönüş etməyin yolverilməzliyini bildirən DTK sədri V.M.Çebrikov vurğuladı ki, Türkiyə ilə münasibətlərdə heç bir mürəkkəbliyə yol vermədən xalqın adət etdiyi əvvəlki tədbirlər keçirilməlidir.

Geniş müzakirələrdən sonra müvafiq qərar qəbul edildi. Qərarda Ermənistan KP MK-ya "soyqırımı"nın 70 illiyinin ənənəvi formalaşmış ictimai tədbirlərlə keçirtməyə,"Pravda" qəzetində bu məsələyə dair Sovet Federasiyası daxilində erməni xalqının tarixi nailiyyətini əks etdirən redaksiya məqaləsi dərc etməyə icazə verildi.

Sov.İKP MK Siyasi Bürosunda keçirilən bu müzakirə bir neçə baxımdan diqqəti cəlb edirdi. Göstərirdi ki, Ermənistan SSR rəhbərliyinin uydurma soyqırımı məsələsində mövqeyi daşnakların mövqeyindən qətiyyən fərqlənmir. İclası aparan MK katibi M.S.Qorbaçovun da mövqeyi Ermənistan SSR rəhbərliyinin mövqeyi, deməli, dolayısı yolla daşnakların mövqeyi ilə üst-üstə düşürdü. Bu, nə demək idi? Belə yanaşma M.S.Qorbaçovun təsadüfi, qeyri-ciddi bir dövlət adamı olduğunu, məsələnin mahiyyətini bilmədiyini, bilsə də qərəzli şəkildə buna getdiyini və erməni dairələrinin təsiri altında olduğunu göstərirdi. Sual olunur: MK katibi nəyin hesabına erməni dairələrinin təsiri altına düşə bilərdi? Hədə-qorxununmu? Bu, sovet sistemi şəraitində mümkün deyildi. Verilən rüşvət və hədiyyələrin hesabına yaranmış rəğbətinmi? SSRİ-də sonralar baş verən proseslər rüşvət və hədiyyəvermə mülahizələrinin həqiqət olduğunu təsdiq etdi. Bununla belə, Siyasi Büronun digər üzvlərinin məsələyə yanaşması SSRİ-ni idarə edən şəxslərin ciddi dövlət adamları olduğunu, ermənilərin avantürasına uymadıqlarını, sovet–türk münasibətlərinə xüsusi əhəmiyyət verdiklərini göstərirdi. Bu yanaşma həm tarixi həqiqətlərə sadiq qalmaq, həm də əsl dövlət adamına xas olan keyfiyyətlər idi.

Ermənistan rəhbərliyinin təklifi rədd edilsə də, erməni dairələrinin fəaliyyətinə digər bir istiqamətdə şərait yaradıldı. Sov.İKP MK-nın orqanı olan "Pravda" qəzetində 1985-ci il aprelin 24-də Ermənistan Elmlər Akademiyasının prezidenti, Yerevan Dövlət Universitetinin rektoru S.Ambartsumyanın tarixi həqiqətlərin başdan-başa saxtalaşdırıldığı bir məqaləsi dərc edildi. Məqalədə yazılırdı ki, bəşəriyyətə qarşı törədilən cinayətlər içində "soyqırımı" ən ağırıdır. Müəllifin fikrincə, 70 il əvvəl Osmanlı Türkiyəsi hökmdarlarının erməni əhalisi üzərində qəddarlığı "soyqırımı"nın

ən böyük aktıdır. Heç bir mənbəyə istinad etmədən S.Ambartsumyan bunun nəticəsində 1,5 mln. nəfər günahsız adamın öldüyünü yalandan yazaraq qeyd edirdi ki, bolşeviklər həmin "soyqırımı"nı pisləmişlər, Rusiya Sosial Demokrat (bolşevik) Partiyasının 1915-ci ilin payızında keçirilən Simmervald konfransının qətnaməsində erməni xalqına qarşı imperialist siyasəti pislənilmişdir, həmin qətnamənin altında V.İ.Leninin imzası vardır. Müəllif bu hadisəni Hitlerin slavyan və başqa xalqlara qarşı törətdiyi cinayətlərlə eyniləşdirir, bəzi Qərb ölkələrində səslənən "soyqırımı deyil, yalnız əhalinin bir yerdən başqa yerə köçürülməsi olmuşdur" fikirlərini imperialist baxışları kimi qiymətləndirirdi[763].

Məqalənin dərc edilməsi tarixi həqiqətlərin kobudcasına saxtalaşdırılması olub, türk xaqlına böhtan atılması demək idi. Bu isə sovet – türk münasibətləri üçün heç də yaxşı bir şey deyildi.

## *Türkiyənin mövqeyi*

Artıq qeyd edildiyi kimi, bu zaman uydurma "soyqırımı"nın 70 illiyini ABŞ-da da qəbul etdirmək istəyən ermənilər fəaliyyətlərini artırmışdılar. Onlar konqresə dörd qərar layihəsi təqdim etmişdilər. Lakin ABŞ-dakı Türkiyə səfiri Şükrü Elekdağın və Türkiyədən göndərilən iki parlament nümayəndə heyətinin səyləri, Baş Nazir Turqut Özalın səfəri zamanı apardığı danışıqların nəticəsində həmin qərar layihələri keçmədi. 24 aprel tarixinin "İnsanın insana zülmü və erməni soyqırımı qurbanlarını anma günü" olaraq qəbul edilməsini istəyən qatı millətçi erməni qruplarının ələ aldıqları konqresmenlərin gündəliyə gətirdikləri 192 saylı təklifi 1985-ci il mayın 12-də ABŞ konqresinin nümayəndələr palatası rədd etdi. Konkret siyasi məqsədlər güdən bu təklifdə təkcə tarixi gerçəkliklər saxtalaşdırılmırdı, eyni zamanda o, Türkiyə–ABŞ münasibətlərini pozmağa, Türkiyəni Qərbdən uzaqlaşdırmağa yönəlmişdi.

Əsassız erməni iddiaları qarşısında geri çəkilməyən Türkiyə tərəfi özünün qəti mövqeyini bəyan etdi. TBMM-in 1985-ci il mayın 14-də keçirilən iclasında Konyadan seçilmiş millət vəkili Sabri Irmak xarici işlər naziri Vahid Halefoğluna yazılı bir sorğu verdi. Sorğuda yazılırdı:

*"1. Uzun zamandan bəri, həmən-həmən sürəkli olaraq xarici mətbuat orqanlarında "erməni soyqırımı" iddiaları ilə bağlı olaraq xəbər və yorumlar görülməkdədir. Millətimiz qondarma iddialar vəsilə edilərək dünya ictimai rəyində yerdən-yerə vurulmaqdadır. Hökumətimiz qəlib-*

---

[763] Амбарцумян С. Осужден человечеством. – Газ. "Правда", 24.04.1985, №114 (24371).

*ləşmiş sözlər və yollar xaric yeni və təsirli işlər görməyi düşünürmü? 2. Ölkəmiz əleyhinə təbliğat kampaniyaları xarici ölkələrin xalqlarının bizləri yetərincə tanımaması səbəbi ilə əks olunur. Belə bir vəziyyətdə xaricdəki təmsilçilərimizin kokteyl və xaricilər arasındakı dost toplantıları istisna olmaqla olduqları ölkə xalqı ilə daha geniş və içtən əlaqələr qurmaları üçün Xarici İşlər Nazirliyinin təlqin və tövsiyə təlimatları varmı? Bu məsələdə hər hansı bir təcrübə mövcuddurmu?"*

Millət vəkilinin sualına cavabında xarici işlər naziri Vahid Halefoğlu dedi:

*"Erməni dairələri xarici təhrik və təşviqlərlə 1890-cı illərdən etibarən başlatdıqları üsyanlarla paralel olaraq dünya ictimai rəyində saxta bir təbliğat aparırlar. Son 10 ildə artan bu iddiaların tarixi gerçəkliklərə zidd olduğunu təsdiq etmək məqsədi ilə türk və xarici arxiv sənədlərinə əsasən aparılan çalışmalar sürətləndirilmişdir. Bu fəaliyyətlər lazımi bir səviyyədə olmasa da, ancaq təsirsiz də deyildir. Ermənilər türklərin apardıqları çalışmaların erməni davasına zərbə endirdiklərini yazırlar. Bu çərçivədə arxiv materiallarının yayınlanması artmalıdır. Xarici ölkələrdəki nümayəndəliklər məqalə müəllifləri və qəzetlər ilə əlaqə qurub gerçək tarixi anladacaqlar"* [764].

Vahid Halefoğlu ölkəyə qarşı yönəldilmiş iftiralara diplomatlarla yanaşı vətəndaşların da cavab verməsinin şərəfli bir vəzifə olduğunu bildirdi. Onun fikrincə, atılan iftiraya cavab verilməsi məsələsində hamı əl-ələ fəaliyyət göstərməli idi.

İstanbuldan seçilmiş millət vəkili Ömər Fərrux İlter TBMM-in 1985-ci il 6 iyun tarixli iclasında 24 aprel tarixinin "İnsanın insana zülmü və erməni soyqırımı qurbanlarını anma günü" olaraq qəbul edilməsini istəyən 192 saylı təklifin ABŞ kongresi tərəfindən rədd olunması məsələsi barədə danışaraq bildirdi ki, Kipr hadisəsindən sonra ABŞ-ın Türkiyəyə qarşı tətbiq etdiyi embarqo türk xalqına və dövlətinə qarşı bir sıra iftiraların başlanmasına səbəb olmuşdur. O, türk dövlətinin və millətinin heç bir xalqa zülm etmədiyini bir daha xatırladaraq, belə hərəkətlərin Türkiyəni və türk millətini ləkələməyə, Türkiyə – ABŞ münasibətlərini pozmağa yönəldiyini, dünya ictimai rəyində mənfi fikrin formalaşmasına təsir etdiyi vurğuladı. Osmanlı imperatorluğunun son zamanlarında ölkəsinin Şərq hissəsində ermənilərlə bağlı cərəyan edən hadisələri bəhanə edərək yürüdülən bu kampaniya Amerikada yaşayan ermənilər və tərəfdarlarının maddi və mənəvi yardım və imkanları ilə gündəliyə gəlmiş, 1984-cü ildə konqresə qərar layihələri təqdim edilmişdi. Həmin layihələr konqresdə bəlli bir səviyyəyə qədər götürülmüşdü. Lakin Vaşinqtondakı Türkiyə səfirinin səyləri nəticəsində heç bir qərar qəbul edilməmişdi.

---

[764] TBMM Tutanak Dergisi. Dönem 17. Cilt 16. Birleşim 98.14.05.1985, s.307-308.

Artıq qeyd edildiyi kimi, 1985-ci ildə eyni dairələr uydurma soyqırımının 70-ci ildönümü iddiası ilə böyük bir kampaniya başlatmış və genişləndirmişdilər. Bunun nəticəsi olaraq konqresə dörd qərar layihəsi təqdim edilmişdi. Millət vəkili Türkiyədən son beş ay içində ABŞ-a iki ayrı-ayrı parlament nümayəndə heyətinin göndərilməsini, belə qərarların qəbul edilməsinin türk – amerikan əməkdaşlığına zərər vuracağını söyləmələrini müsbət qiymətləndirdi[765].

Erməni qrupları əsassız iddialarını Avropa Parlamentində və yenidən ABŞ konqresində müzakirəyə çıxartmaq üçün səylərini davam etdirirdilər. Qərar layihələri də hazırlanmışdı. Bununla bağlı olaraq 1985-ci il dekabrın 3-də TBMM iclasında söz alıb danışan Bitlisdən seçilmiş millət vəkili Kamran İnan bu hadisəni yeni bir həmlə ilə üz-üzə qalmaq kimi qiymətləndirdi. Türkiyənin də üzv olduğu NATO ölkələrindəki həmin hərəkətlərə ölkəsinin biganə qalmayacağını, böyük etiraz etməyin vacib olduğunu söylədi. Bildirdi ki, NATO nizamnaməsinin beşinci maddəsinə görə "üzv ölkələrin torpaq bütünlüyünün mühafizəsində bütün üzv dövlətlər bütün güclərini və qüvvələrini istifadə edəcəklər" – yazılmışdır. Baş verən hadisələri türk dövlətinin varlıq və torpaq bütünlüyünə yönəlik cərəyan və beşinci maddənin pozulması kimi qiymətləndirən millət vəkili türk dövlətinin bu işlərə səssiz qalmayacağını dedi. Onun fikrincə, ABŞ bir tərəfdən Türkiyəni terrora hədəf olan və bundan zərər görən və terrorizmə qarşı mübarizə aparan bir ölkə kimi görür, digər tərəfdən isə ABŞ konqresi terrorun bir halqasını təşkil edəcək qərar layihəsi hazırlayırdı. Belə yanaşmanı izah etmək mümkün deyildi və türk milləti bunu qəbul edə bilməzdi. O, parlamentdə təmsil olunan üç partiyanın və iki nəfər müstəqil millət vəkilinin təkliflərini TBMM rəhbərliyinə təqdim etdi[766].

Təkliflərdə hazırlanan qərar layihəsi Türkiyə – ABŞ münasibətlərinə pozmağa yönəlmiş səylər kimi qiymətləndirilirdi. Belə bir qərar layihəsi iki ölkə arasında dostluğa zərbə vuracaq, terrorizmə qarşı mübarizə aparan ABŞ siyasəti ilə təzad təşkil edəcək, Amerikanın etibarına və inamına kölgə düşürəcəkdi. Təkliflərdə iki ölkə arasında əməkdaşlığın və ittifaqın yara almadan mühafizəsində Türkiyə qədər ABŞ-ın da mənfəətinin olduğu vurğulanır, konqresə dostluq münasibətlərini qorumaq çağırışı edilirdi.

Bu etirazların təsiri oldu. ABŞ konqresi tarixin saxtalaşdırıldığı qətnaməni qəbul etmədi.

---

765 TBMM Tutanak Dergisi. Dönem 17. Cilt 17. Birleşim 108. 06.06.1985, s.355-357.

766 TBMM Tutanak Dergisi. Dönem 17. Cilt 21. Birleşim 36. 03.12.1985, s.188-190.

### *Ermənilərin SSRİ-yə gətirilməsinə dair yeni qərar*

ABŞ-da və SSRİ-də "soyqırımı"nın tanıdılması istəklərini reallaşdıra bilməyən erməni dairələri digər bir vasitəyə əl atdılar. Onlar xarici ölkələrdəki ermənilərin Ermənistana gətirilməsi məsələsini gündəliyə gətirdilər. Artıq qeyd edildiyi kimi, köçürülmə sovet dövründə əvvəllər – 20-30, 40-50 və 60-70-ci illərdə də həyata keçirilmişdi. Bu dəfə də sovet hökuməti Ermənistan rəhbərliyinin təkliflərini bəyəndi. SSRİ Nazirlər Soveti 1985-ci il iyunun 20-də "1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında" qərar qəbul etdi[767].

Yalanlar əsasında qəbul edilən qərarda tarixi həqiqətlər başdan-başa saxtalaşdırılmışdı. Belə ki, qərarda yazılmış "repatriasiya" ifadəsi yanlış idi. Çünki Ermənistana gətirilməsi nəzərdə tutulan ermənilər burada doğulmamış, yaşamamış və çoxu heç bu ərazini görməmişdi. Gətirilənlər xalqlar arasında düşmənçiliyi qızışdıran şəxslər idi. Lakin Ermənistan hakimiyyəti bu qərarın qəbul edilməsi ilə də kifayətlənmədi.

### *Sovet rəhbərliyi xaricdəki erməni mətbuat orqanlarına yardım edir*

Həmin qərarın qəbul edilməsindən bir il sonra, 1986-cı il iyunun 25-də Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan Sov.İKP MK-ya 14-1240/ss №-li tamamilə məxfi bir məktub yazdı[768]. Məktubda hiyləgərliklə vurğulanırdı:

"*Sov.İKP MK-nın 1978-ci il 27 dekabr tarixli "Xarici ermənilərlə işin gücləndirilməsi haqqında" qərarına uyğun olaraq respublikanın idarə və təşkilatları xarici siyasət təbliğatını həyata keçirdərək sovet Ermənistanının, bütövlükdə Sovet İttifaqının nailiyyətlərinin təbliğinə, dövlətimizin sülhsevər xarici siyasətinin müdafiə edilməsinə mütərəqqi xarici erməni təşkilatlarının və onların mətbu nəşrlərinin cəlb edilməsi sahəsində fəaliyyətlərini genişləndirmişlər. Xaricdəki mütərəqqi erməni qəzetləri, o cümlədən kommunistlərin himayəsi altında nəşr olunan "Kanç" (Livan), "Aşxar" (Fransa), "Lraber" (ABŞ), "Sevan" (Argentina) son illərdə müntəzəm olaraq çoxlu maliyyə çətinlikləri keçirirlər və onlara maliyyə yardımlarının göstərilməsi üçün dəfələrlə müraciət etmişlər".*

---

[767] Секретаръ ЦК КП Армении К.Демирчиян – ЦК КПСС. Секретно. – РГАНИ, ф.89, оп.11, д.40, л. 1.

[768] Секретаръ ЦК КП Армении К.Демирчиян – ЦК КПСС. 25.06.1986. Сов.секретно. Особая папка. – РГАНИ, ф.89, оп.13, д. 4, л.1-9.

K.Dəmirçiyan qeyd edirdi ki, bununla belə, ABŞ, Latın Amerikası, Livan və Fransada burjua-millətçi partiyası olan Daşnaksütyünun mətbu orqanları həmin ölkələrdəki erməni icması daxilində təsirini gücləndirmək və antisovet işi fəallaşdırmaq üçün müxtəlif mənbələrdən daim maliyyə yardımları alır, tirajlarını artırır və dövri nəşrlərinin keyfiyyətini yaxşılaşdırırlar. Hazırda yuxarıda göstərilən mütərəqqi qəzetlər üçün ağır vəziyyət yaranmış, maliyyə çatışmazlığı ucbatından bağlanmaq təhlükəsi qarşısın- da qalmışlar. Redaksiyalardan alınan məlumatlara görə "Aşxar" qəzetinin nəşri üçün ildə 394 min frank tələb olunurdu. Bunun 132 min frankı redaktorun və bir köməkçisinin, 170 min frankı mətbəənin icarəsi, kağız və iki nəfər fəhlənin, 60 min frankı qəzetin yayılması, 20 min frankı nəqliyyat, 12 min frankı redaksiyanın digər xərcləri idi. Qəzetin Fransa, İsveçrə və Qərbi Avropanın digər ölkələrində satışı və abunəsindən 50 min, sovet "Beynəlxalq kitab" xətti ilə abunədən 125 min, turizmdən 70 min, ianələrdən isə 10 min frank gəlir götürülürdü. Gələn gəlir cəmi 255 min frank idi. Beləliklə, illik büdcə kəsiri 139 min frank və ya 19 min 201 dollar təşkil edirdi.

"Lraber" qəzetinin illik xərci 73 min dollar idi. Onun 16 min 500 dolları bir redaktora, 18 min 800 dolları redaksiya binasının icarəsinə, 11 min 600 dolları kağız alınmasına, 8 min dolları bir yığıcıya, 5 min 500 dolları mətbəəyə, 6 min dolları qonorara, 2 min 280 dolları poçt xərclərinə, 2 min 600 dolları qəzetin yayılmasına sərf olunurdu. 1 min 720 dolları isə nəzərdə tutulmayan xərclər idi. Qəzetin gəliri 53 min 44 dollar təşkil edirdi. Bunun 32 min 544 dolları "Beynəlxalq kitab" xətti ilə abunədən, 15 min 500 dolları reklam və məlumatların çapından, 5 min dolları abunəçilərdən daxil olurdu. Beləliklə, qəzetin illik büdcə kəsiri 19 min 956 dollar təşkil edirdi.

Həftəlik "Kanç"qəzetinin illik xərci 960 min Livan funtu idi. Bunun 385 min funtu iki redaktorun, bir inzibati işçinin və bir köməkçinin, 130 min funtu bir yığıcının maaşına, 40 min funtu qəzetin yayılmasına, 65 min funtu qonorara, 40 min funtu kağız alınmasına, 125 min funtu mətbəəyə, 30 min funtu Livan – Suriya marşrutu ilə nəqliyyata, 15 min funtu poçta, 80 min funtu redaksiya binasının icarəsinə, 25 min funtu redaksiyanın digər xərclərinə gedirdi. 25 min funtu nəzərdə tutulmayan xərclər idi. Qəzetin illik gəliri 170 min funt idi. Bunun 85 min funtu Livan, Suriya və digər ölkələrdəki satışdan, 55 min funtu "Beynəlxalq kitab" xətti ilə abunədən, 10 min funtu məlumatların çapından, 20 min funtu isə ianələrdən gələn gəlir idi. Beləliklə, büdcə kəsiri 790 min funt və ya 20 min 233 dollar təşkil edirdi.

Həftəlik "Sevan" qəzetinin illik xərci 40 min dollar idi. Bunun 9 min 600 dolları bir redaktorun, 5 min dolları yığıcının maaşına, 700 dolları qəzetin yayılmasına, 2 min dolları qonorara, 8 min dolları kağız

alınmasına, 3 min dolları mətbəəyə, 2 min dolları poçta, 8 min 400 dolları redaksiya binasının icarəsinə, 1 min 300 dolları nəzərdə tutulmayan xərclərə gedirdi. Qəzetin gəliri 30 min dollar idi. Bunun 15 min 600 dolları "Beynəlxalq kitab" xətti ilə abunədən, 9 min 400 dolları reklam və məlumatların çapından, 5 min dolları ianələrdən gələn gəlir idi. Beləliklə, qəzetin büdcə kəsiri 10 min dollar idi.

K.Dəmirçiyanın yazdığına görə yuxarıda göstərilən təşkilatlara və redaksiyalara yardım edilməsi təklifini ABŞ, Fransa, Argentina və Livandakı sovet nümayəndəlikləri, həmçinin Livan Kommunist Partiyası (J.Xau) da bəyənmişdilər.

Ermənistan KP MK-nın birinci katibi özünün təbirincə, xaricdəki mütərəqqi erməni təşkilatlarının və onların mətbu orqanlarının fəaliyyətini aktivləşdirmək, erməni cəmiyyətlərində daşnak təbliğatına qarşı durmaq məqsədi ilə "Lraber", "Kanç", "Aşxar" qəzetlərinin hər birinə 20 min, "Sevan" qəzetinə 10 min dollar illik maliyyə yardımı ayrılmasını xahiş edirdi. K.Dəmirçiyan həmin qəzetlərin nəşri üçün lazım olan illik xərclər haqqında maliyyə məlumatlarını məktuba əlavə edərək Sov.İKP MK-ya göndərmişdi. MK katibi A.Yakovlev və DTK sədri V.Çebrikov məsələni araşdıraraq onu SSRİ Maliyyə Nazirliyi ilə razılaşdırmış, Sov.İKP MK-nın müvafiq qərar layihəsini hazırlayaraq avqustun 7-də tamamilə məxfi məktubla təqdim etmişdilər[769].

Ermənistan rəhbərliyinin istəyini yerinə yetirən Sov.İKP MK 1986-cı il avqustun 14-də bu məsələyə dair 19-17-qs-ST №-li tamamilə məxfi qərar qəbul etdi[770]. Qərarda yazılırdı ki, xaricdəki mütərəqqi erməni qəzetlərinin redaksiyalarına maliyyə yardımı edilməsinə dair Ermənistan KP MK-nın təklifi qəbul edilsin. "Kanç" (Livan), "Aşxar" (Fransa), "Lraber" (ABŞ) qəzetlərinin hər birinə ildə 14 min 80 rubl xarici valyuta (20 min ABŞ dolları), "Sevan" (Argentina) qəzetinə 7 min 40 rubl xarici valyuta (10 min ABŞ dolları) yardım göstərilsin. SSRİ Maliyyə Nazirliyi bu məbləği SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə 60 min xarici valyuta ilə ayırsın[771]. Qərar yerinə yetirildi. Qeyd olunan qəzetlər hər il müvafiq vəsaiti almağa başladılar.

---

769 Чебриков В., Яковлев А. – ЦК КПСС. Об оказании финансовой помощи редакциям прогрессивных армянских газет за рубежом. 07.08.1986. Сов.секретно. Особая папка. – РГАНИ, ф. 89, оп. 13, д. 4, л. 3.

770 Постановление ЦК КПСС. Об оказании финансовой помощи редакциям прогрессивных армянских газет за рубежом. 14.08.1986. Сов. секретно. Особая папка. – РГАНИ, ф. 89, оп. 13, д. 4, л. 1.

771 Выписка из протокола №19 заседания Секретариата ЦК КПСС. 14.08.1986. Об оказании финансовой помощи редакциям прогрессивных армянских газет за рубежом. №Ст-19/17гс. Сов.секретно. Особая папка. – РГАНИ, ф. 89, оп. 13, д. 4, л. 2.

Bu qəzetlərin Türkiyə haqqında dərc etdiyi məqalələr daşnak mətbuat orqanlarındakı yazılardan fərqlənmirdi. Çünki onlarda da əsassız ərazi iddiaları irəli sürülür və türk düşmənçiliyi təbliğ edilirdi. Sadəcə, yardım alan qəzetlərdə sovet sistemi şəraitində Ermənistan SSR-in qazandığı uğurların işıqlandırılmasına yer verilir və SSRİ siyasətinə isti münasibət hiss olunurdu. Qeyd etmək lazımdır ki, həm daşnak, həm də yardımların ayrıldığı mətbuat orqanları üzərində SSRİ DTK-nin təsiri var idi.

### *Ermənilərin gətirilməsi davam etdirilir*

M.Qorbaçovun məlum münasibəti qatı millətçi erməni dairələrinin antitürk fəaliyyətinin genişlənməsinə təsir edirdi. Onlar yenə də bir neçə istiqamətdə fəaliyyət göstərirdilər: tarixdə heç bir zaman olmayan uydurma erməni soyqırımının tanınmasını tələb edir; Türkiyəyə qarşı əsassız ərazi iddialarını irəli sürür; xarici ölkələrdən ermənilərin Ermənistana gətirilməsini istəyirdilər.

Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan 1986-cı ilin noyabr ayında Sov.İKP MK-ya məxfi bir məktub yazaraq xarici ölkələrdən ermənilərin gətirilməsini xahiş etdi. O, qeyd edirdi ki, Ermənistanda sovet hakimiyyəti qurulduğu ilk illərdən Sov.İKP MK-nın qərarları ilə müxtəlif xarici ölkələrdən ermənilərin gətirilməsi həyata keçirilmişdir. Məktubdan sovet hakimiyyəti illərində Ermənistan SSR-ə xaricdən 230 min nəfərdən çox erməninin gətirildiyi məlum olurdu. K.Dəmirçiyan yazırdı ki, məlumata görə Yaxın və Orta Şərq ölkələrində (İran, Suriya, Livan, İraq, İordaniya) yaşayan ermənilər içərisində Ermənistan SSR-ə daimi yaşamaq üçün gəlmək istəyənlər vardır. Məktubun sonunda o, "repatriasiyanın mühüm siyasi əhəmiyyətini nəzərə alaraq, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1985-ci il 20 iyun tarixli "1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında" qərarının fəaliyyət müddətinin 1990-cı ilin sonunadək uzadılmasını"[772] xahiş edirdi.

Artıq əvvəllərdə də qeyd edildiyi kimi, bu məktubda da "repatriasiya" ifadəsinin yazılması başdan-başa yalan olub, tarixi gerçəkliklərə qətiyyən uyğun gəlmirdi. Çünki gətirilənlər Ermənistanda doğulmamış, yaşamamış, bəziləri hətta heç oranı görməmişdi.

Bu məktubun mahiyyətinə nəzər yetirərkən belə sual doğur: Dəmirçiyan nə üçün ermənilərin gətirilməsi müddətinin 1990-cı ilin sonunadək uzadılmasını təklif edirdi? SSRİ-də baş verən sonrakı hadisələr

[772] Секретаръ ЦК КП Армении К.Демирчиян – ЦК КПСС. Ноябрь 1986 года. Сов.секретно. Особая папка. – РГАНИ, ф.89, оп.11, д.40, л.3.

göstərdi ki, erməni dairələri Azərbaycandan DQMV-ni qoparmağa hazırlaşır və bunun üçün əlverişli məqamın yaranmasını gözləyirdilər. Heç əbəs deyildir ki, Dəmirçiyanın həmin məktubu imzalamasından bir il sonra – 1987-ci ildə Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə qarşı əsassız ərazi iddialarını irəli sürdü.

Məktubla tanış olan Sov.İKP MK katibi Y.Liqaçov 1986-cı il 22 noyabr tarixdə "MK-ya təklif hazırlayın" dərkənarı yazaraq MK-nın şöbə müdirləri N.İ.Savinkinə və Y.Z.Razumovskiyə göndərdi. Məsələni araşdıran Sov.İKP MK-nın inzibati orqanlar şöbəsinin müdiri N.Savinkin və MK-nın partiya-təşkilat işi şöbəsinin müdir müavini N.Zolotaryev 1987-ci il mayın 7-də MK-ya müvafiq məxfi məktubla müraciət etdilər[773]. Məktubda yazılırdı:

*"Sov.İKP MK-nın şöbələri tərəfindən sovet əhalisi arasında mühacirət əhval-ruhiyyəsinin olması barədə təkliflər hazırlanmışdır. Bu materiallarda ermənilərin SSRİ-yə repatriasiya edilməsi barədə məsələyə də toxunulur. Qeyd edilənləri nəzərə alaraq, Ermənistan KP MK-nın müraciətinə yuxarıda göstərilən bütün material müzakirə olunarkən son olaraq baxılmasını mümkün hesab edərdik*".

Y.Liqaçov, A.Lukyanov, Y.Razumovski, A.Dobrının və b. həmin təkliflə razılaşdılar.

Qeyd etmək lazımdır ki, SSRİ-yə köçmək istəyən ermənilər kommunist və ya sosialist deyil, xalqlar arasında düşmənçiliyi yayan daşnaklar idi. Onların bir çoxu xarici ölkələrin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edirdilər.

Müraciətin yerinə yetirilməsi təxirə salınsa da, erməni dairələri fəaliyyətlərini daha da genişləndirdilər. Xarici ölkələrdən gələn ermənilər özləri ilə SSRİ-nin milli münasibətlər baxımından ən zəif yeri olan Cənubi Qafqaza qatı millətçilik, düşmənçilik və kin-küdurət gətirirdilər. Qatı millətçiliyin konkret hədəfi var idi: Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlıları qovmaq, türksüz Ermənistan yaradaraq Ermənistanı erməniləşdirmək, Gürcüstan və Azərbaycan ərazilərini ələ keçirtmək, Türkiyədən torpaqlar qopartmaq və "Böyük Ermənistan" qurmaq üçün yeni bir addım atmaq. Uydurma soyqırımını tanıtma tələbi ermənilərin əzabkeş obrazını yaradaraq həmin məqsədlərə çatmaq üçün yalnız bir vasitə idi. Onlar bu yolda bütün mümkün olan vasitələrdən istifadə edirdilər.

### *Əsassız erməni iddialarına Türkiyədən cavab*

Erməni dairələri 1987-ci ildə Avropa Parlamentinin siyasi işlər komissiyasında "erməni məsələsi"nə dair bir qərarın qəbul edilməsinə nail

---

[773] Н.Савинкин, Н.Золотарев – ЦК КПСС. 08.05.1987. Сов. секретно. Особая папка. – РГАНИ, ф.89, оп.11, д.40, л.1.

oldular. 23 səsə qarşı 25 səslə qəbul edilən qərarda saxtakarlıqla iddia edilirdi ki, guya Türkiyədə 1915-ci ildə ermənilərə ədalətsiz davranılmışdır, Türkiyədə ermənilərin azlıq haqları təminat altında deyildir, insan hüquqları və mədəni haqlar məhdudlaşdırılır, dil, din və təhsil məsələlərində ermənilərə ədalətlə davranılmır, onların mədəni varlığına sayğı göstərilmir.

Avropa Parlamenti bu qərarı ilə səlahiyyətləri çərçivəsini aşır, uğursuz tarixçi rolunu oynayır, tarixi həqiqətləri kobudacsına saxtalaşdırır, bir qədər də irəli gedərək müasir Türkiyədə ermənilərin hüquqlarının pozulduğunu əsassız yerə iddia edirdi. Belə mövqenin görünən tərəfi uydurma erməni soyqırımı olsa da, pərdəarxası isə Türkiyənin Avropa İqtisadi Birliyinə üzv olmasına əngəllər törətmək idi.

Başdan-başa yalan məlumatlar əsasında qəbul edilmiş bu ədalətsiz qərara Türkiyə tərəfinin cavabı özünü çox da gözlətmədi. TBMM-in 1987-ci il 10 mart tarixli iclasında həmin hərəkətlərə qarşı qəti etiraz edildi. Dənizlidən seçilmiş millət vəkili İsmayıl Şengün çıxış edərək bildirdi:

*"Bu iddiaların heç biri tarixi gerçəkləri əks etdirmir. 1915-ci il hadisələrində Osmanlı imperatorluğunda yalnız ermənilər deyil, hər millətdən çox insan iztirab çəkmişdir, dövlətə qarşı çıxan ermənilərin bir qismi ölkənin bir yerindən digər yerinə köçürülmüşlər. Köçürülənlərdən geri dönənlər olmuşdur. Bir qismi isə Türkiyədən ayrılmışlar. Ancaq 1915-ci il hadisələrində dövlətin nüfuzunun azaldığı bir zamanda silahsız və müdafiəsiz türk topluluqları da böyük zülm görmüş və haqsızlığa uğramışlar. Nədənsə xarici ölkələr türk xalqına erməni komitəçi və çətələrinin etdiyi zülmü və vəhşəti görmürlər. Türkiyədə vətəndaş Mehmet nədirsə, vətəndaş Ohanes, Davit və Antonyans da odur. Türk qanunları çoxluğa və azlığa ayrılıq qoymur. Türkiyə dövləti türk mədəni varlıqlarına olduğu qədər yəhudi, erməni və yunan mədəni varlığına da sayğı göstərir*".

Millət vəkili sual edirdi:

*"Belə olduqda Avropa Parlamentinin məqsədi nədir? Özü də cavab verirdi ki, bu, bir ssenarinin başlanğıcıdır. Yəni bu günə qədər isbatlanmamış xəyali soyqırımını Türkiyənin tanınması istəniləcək, təzminat tələb ediləcək və erməni torpağı deyə torpaq istəniləcəkdir*".

İsmayıl Şengün ABŞ-da da baş verən proseslərə toxundu. Çünki ermənilər bu zaman nümayəndələr palatasına bir qərar layihəsi təqdim etməyə hazırlaşırdılar. Layihədə yazılırdı:

*"24 aprel 1915 tarixinin, insanın insana zülmünü anma milli günü olaraq təsbit edilməsi və 1915-1923-cü illər arasında (Türkiyə Cümhuriyyətinin quruluşundan öncə) Osmanlı imperatorluğu hökumətləri tərəfindən törədilən soyqırımına qurban gedib, hər il 24 apreldə yer üzündəki bütün ermənilər və dostları tərəfindən anılan 1,5 milyon erməni əsilli adamı, Amerikan xalqının eyni gündə anması xüsusunda çağırış etmək və*

*bunu elan etmək üzrə, Amerika Birləmiş Ştatları Prezidentinə səlahiyyət və vəzifə verilməsi qərarlaşdırılmışdır*"[774].

Layihə başdan-başa yalan məlumatlar əsasında hazırlanmışdı. Çünki dövrün tarixi sənədləri də sübut edirdi ki, 1915-ci ildə Şərqi Anadoluda "soyqırımı" deyilən bir şey olmamış, ancaq Şərqi Anadoluda ermənilərin banda fəaliyyətlərindən ölən, aclıqdan və xəstəlikdən qırılan, davamlı müharibənin çilə və iztirabını çəkən xristianlar qədər və hətta onlardan da çox müsəlmanlar olmuşdur. Millət vəkili birmənalı olaraq dedi ki, tarix bu məsələdə obyektiv və tərəfsiz qiymətini verməmişdir. Türkiyə dövləti dünya elm adamlarına arxivlərini açmışdı. Digər ölkələrin də arxivlərini açması lazım idi. ABŞ-da bir çox tarixçi və tədqiqatçılar nümayəndələr palatasına açıq məktub göndərərək, "erməni soyqırımı" deyilən bir məsələnin olmadığını bildirmişdilər.

Nümayəndələr palatası belə bir layihəni müzakirə etməklə özünü tarixçilərin yerinəmi qoyurdu, türk millətini ittihammı edirdi? Qərar layihəsində "1915-1923-cü illər dönəmi, Türkiyə Cümhuriyyətinin quruluş öncəsi" deyə yazılırdı. Halbuki, yeni türk dövləti – TBMM hökuməti 1923-cü ildə deyil, 23 aprel 1920-ci ildə qurulmuşdu. Qərar layihəsinin qəbul ediləcəyi təqdirdə Türkiyə – ABŞ münasibətlərinə xələl gələcək, Türkiyəni ABŞ əleyhinə çevirməyə çalışan təşkilatlara əlavə imkan verəcəkdi. Ona görə də Türkiyə Prezidenti belə bir qərarın qəbul ediləcəyi halda ABŞ-a nəzərdə tutulan səfərini təxirə salacağını və türk – amerikan əlaqələrinin zərər görəcəyini bildirdi.

TBMM də məsələyə münasibətini bildirdi. Parlamentin 1987-ci il 12 mart tarixli iclasında siyasi partiya qrupları adından qrup rəhbərləri və müstəqil millət vəkilləri adından İstanbul millət vəkili Bülend Ulusu Avropa Parlamenti siyasi işlər komissiyasının sözdə erməni məsələsinə dair qərar layihəsi qəbul etməsinə qarşı təkliflərini TBMM-ə təqdim etdilər. Təkliflərdə Avropa Parlamentinin Türkiyə əleyhinə olan əsassız iddiaları haqsız, yersiz və qəsdli qərar layihəsi olaraq qiymətləndirilirdi. Avropa Parlamentinin siyasi işlər komissiyası səlahiyyəti olmadığı halda 70 il əvvəl olduğu yalandan iddia edilən hadisələrə saxtakar tarixçilər kimi yanaşıb, ermənilərə ədalətsiz davranıldığını deyərək, yüz minlərlə türkün əleyhinə olan hadisələr barədə susmuş, qərar qəbul edərək onu plenar iclasa təqdim etmişdi. Bu, qərarı qəbul edənlərin nə dərəcədə subyektiv və qərəzli olduqlarını sübut edirdi və eyni zamanda Türkiyənin daxili işlərinə kobud müdaxilə idi. Qərar xristian azlıqların mədəni mirasının guya yox edilməsi barədə yanlış təsəvvür yaradır və onun qorunmasını tələb edirdi. Bu, Türkiyənin imicini zədələmək və dini hisslərin istismar edilməsi

---

[774] TBMM Tutanak Dergisi. Dönem 17. Cilt 37. Birleşim 74. 10.03.1987, s. 386-387.

demək olduğundan, yalnız Səlib yürüşləri dövrünün zehniyyəti ilə müqayisə edilə bilərdi. Türkiyədə ermənilər daxil olmaqla xristian və yəhudi vətəndaşlar qanun qarşısında tamamən bərabər idilər.

Məlum olduğu kimi, türk dövlət ənənəsində din, dil və irq ayrı-seçkiliyi heç bir zaman olmamışdı və yox idi. Əslində bu cəhdlər olmayan bir "erməni soyqırımı" məsələsi yaratmağa yönəlmişdi. TBMM Avropa Parlamentindən məlum qərar layihəsinin rədd olunmasını istəyir, avropalı parlamentarilərin qəsdli və yalan məlumatların iddialarına alət olmayacağına ümid edirdi[775].

İstanbuldan seçilmiş millət vəkili Rəşit Ülkər də TBMM-in 1987-ci il 24 mart tarixli iclasında Avropa Parlamentinin siyasi işlər komissiyasının "erməni soyqırımı" iftirası ilə bağlı olaraq qəbul etdiyi qərara qarşı bütün qurum və quruluşların birlikdə etiraz etməsinin vacibliyini bildirdi. Onun dediyindən məlum olurdu ki, əsassız erməni iddialarına İran və sovet Ermənistanı erməniləri də qatılmışdı.[776] Millət vəkili əsl soyqırımının erməni bandaları tərəfindən türklərə qarşı törədildiyini vurğuladı.

Parlamentin 1987-ci il 25 mart tarixli iclasında da məsələ yenidən gündəliyə gətirildi. Siyasi partiyalar adından sədr müavinləri və müstəqil deputatların adından isə Antalyadan seçilmiş millət vəkli Ümit Haluk Bayülken ABŞ konqresində bəzi dəyişikliklərlə yenidən gündəliyə gətirilən erməni iddialarına dair qərar layihəsinə qarşı TBMM-in mövqeyini Xarici İşlər Nazirliyinin xətti ilə ABŞ-a göndərmək üçün təqdim etdi. Təkilflərdə qərar layihəsinin türk – amerikan dostluğunu pozmağa yönəldiyi, türk xalqını etmədiyi "soyqırımı" iddiası ilə məhkum etmək, bu məqsədlə Türkiyənin torpaq bütünlüyünün pozulmasına zəmin hazırlamaq niyyətlərinin olduğu vurğulanırdı. ABŞ konqresində bəzilərinin "soyqırımını anma günü"nə dair qərar layihəsinin qəbulunun guya heç bir praktik əhəmiyyət daşımayacağı və nəticəsi olmayacağı, yalnız rəmzi xarakter daşıyacağı haqqında mülahizələrin heç bir əsası yox idi. Çünki bu məsələdə gediləcək kiçik bir güzəşt rəmzi bir jestdən çox Türkiyəni parçalamağa yönələn bir plan üçün yaşıl işıq yandırmaq demək idi. Türkiyənin NATO üzrə müttəfiqi olan bir ölkənin konqresində belə bir qərar layihəsinin qəbul edilməsi ittifaqın təməl fəlsəfə və prinsiplərinə zidd idi. Bu qərar qəbul edilərdisə, onda erməni terrorçuları daha da həvəslənəcəkdilər[777].

Qəbul edilən qərar ABŞ-a göndərildi. Müraciət təsirli oldu. Saxta dəlillərlə ABŞ konqresində gündəliyə gətirilən layihə türk diplomatiyasının səyləri nəticəsində rədd edildi.

---

[775] TBMM Tutanak Dergisi.Dönem 17.Cilt 37.Birleşim 76.12.03.1987, s.502-504.
[776] TBMM Tutanak Dergisi.Dönem 17. Cilt 38. Birleşim 80. 24.03.1987, s.10-11.
[777] TBMM Tutanak Dergisi.Dönem 17.Cilt 38. Birleşim 81.25.03.1987, s. 91-92.

Türk hökuməti 1987-ci il aprelin 14-də Avropa İqtisadi Birliyinə üzv olmaq üçün rəsmi müraciət etdikdən sonra ona qarşı yenidən təzyiqlər başladı. Belə təzyiqlərdən biri Avropa Parlamentindən gəldi. Qərbi Avropanın 12 ölkəsini təmsil edən Avropa Parlamentinin iyunun 18-də keçirilən iclasında 518 üzvdən 130-nun səsi ilə uydurma erməni soyqırımına dair bir qərar qəbul edildi. Parlament üzvlərinin dörddə üçü səsverməyə qatılmadı. Qərarda bu məsələ ilə uzaqdan-yaxından əlaqəsi olmayan Kipr məsələsi və türk – yunan əlaqələri də yer almışdı.

Həmin qərar TBMM-in iyunun 19-da keçirlən iclasında müzakirə edildi. Xarici işlər naziri Vahid Halefoğlu və bir neçə millət vəkli bu barədə danışdılar. Xarici işlər naziri çıxışında qəbul edilən qərarı tarixi gerçəkliklərə zidd, haqsız, təkyönlü bir qərar olaraq qiymətləndirdi və türk hökumətinin onu rədd etdiyini bildirdi. Əslində qərar Türkiyəyə qarşı terroru həyata keçirən erməni təşkilatlarına mənəvi dəstək verirdi. Kipr məsələsini müzakirə yolu ilə həll etməyə qadir olmayanlar erməni terror təşkilatlarının kölgəsində gizlənirdilər. Xarici işlər nazirinin fikrincə, belə qərarlarla Türkiyəyə təzyiq etmək istəyənlər yanılırdılar. Çünki türk milləti xarici təzyiqlər altında heç bir zaman geri çəkilməmişdi. Xarici İşlər Nazirliyi "erməni məsələsi"nin gerçək üzünü Avropa Parlamentinin üzvlərinə izah etmiş və onlar da bunu anlamışdılar.

İclasda çıxış edən partiya qrup rəhbərləri və üzvləri də qərarı qınayaraq, onun satışa çıxarıldığını söylədilər. Millət vəkilləri sual edirdilər:

"*Qərar hansı ölkə üçün qəbul edilmişdir: Almaniya, Fransa, Amerika, yoxsa Rusiya üçün?*"

SHP qrupu adına danışan Ərdal İnönü qəbul edilən qərarı son dərəcə yanlış, haqsız və Türkiyə əleyhinə açıqca tərəf tutan, erməni terrorunu həvəsləndirən bir qərar olaraq qiymətləndirdi. Avropa Parlamenti bu hərəkəti ilə insanlığın ortaq bir varlığı olan tarixə və tarixi gerçəkliklərə qarşı hörmətsizlik etmişdi. Avropa xalqlarında elm inkişafın və müasirliyin təməllərindən biri kimi qəbul edildiyi bir zamanda qəbul edilən qərar tarixi gerçəklikləri kobudcasına saxtalaşdırırdı və tamamilə yanlış idi. Ərdal İnönü bu qərarın heç bir parçasını qəbul etmədiklərini söylədi. Tərəfsiz tarixçilər "soyqırımını" qəbul etməmişdilər, çünki belə bir şey olmamışdı. Avropa Parlamenti bu qərarında bugünkü türk hökumətindən heç bir siyasi, maddi və hüquqi tələbdə olmadığını yazsa da, Türkiyə ilə "ermənilərin təmsilçiləri" arasında dialoq başladılmasını təklif edirdi. Bu dialoq hansı məqsədlə qurulacaqdı? Bununla onlar əslində Türkiyəni aldatmaq və sözdə soyqırımını qəbul etdirmək istəyirdilər. Dünyada heç bir parlamentin digər ölkənin daxili işlərinə belə qarışmağa haqqı yox idi. Qəbul edilən qərar Türkiyə əleyhinə ağır nəticələr verə biləcək bir qərar idi. Çünki "erməni soyqırımı" deyilən bir məsələdə Türkiyənin rəsmi

tezisləri ilk dəfə olaraq bir beynəlxalq qurum tərəfindən rədd edilmişdi. Ermənilər isə Strasburq küçələrində əllərində bayraq gəzdirərək bunu bayram edirdilər. Türkiyə üçün "erməni problemi", Osmanlı dövlətinin və Türkiyə Cümhuriyyətinin "soyqırımı" ilə heç bir əlaqəsi yox idi[778].

Avropa Parlamentinin bu qərarından sonra Türkiyə hökuməti digər tədbirlər də gördü. Avropa İqtisadi Birliyinin üzvü olan ölkələrin Ankaradakı səfirləri Xarici İşlər Nazirliyinə dəvət edilərək onlardan cavab istənildi. İngiltərə hökuməti Avropa Parlamentinin bir çox, o cümlədən bu qərarından rahatsız olduğunu bildirdi. AFR hökuməti 70 il əvvəl olmuş bir hadisəni tarixçilərin qiymətləndirməsini daha doğru hesab edirdi. Avropa Şurası Parlament Assambleyasının 1987-ci il 29 iyun-2 iyul tarixləri arasında Lozanda keçiriləcək yaz sessiyasında Avropa Parlamentinin qərarını qınayan imza toplanması üçün bir dəftər qoyuldu. Bir neçə gün ərzində 27 deputat həmin dəftərə imza atdı[779]. Lakin bu tədbirlər kifayət etmirdi.

Sonrakı illərdə də erməni dairələri uydurma soyqırımı ilə bağlı məsələləri müxtəlif ölkələrin parlamentlərində gündəliyə gətirdilər. Ancaq bu dövrdə onlar Türkiyəyə qarşı əsassız iddialarla yanaşı olaraq sovet rəhbəri M.S.Qorbaçovun münasibətini bilərək əsas hədəf kimi Azərbaycanı seçmişdilər.

### *Düşmənçilik hissləri qızışdırılır*

Erməni dairələri Azərbaycana qarşı əsassız ərazi iddialarına nail olmaq üçün Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin üzərinə böhtan dolu hücuma keçdilər. M.Qorbaçov ermənilərə havadarlıq edir və necə fəaliyyət göstərmələrinə dair işarə verirdi. Qatı antitürk erməni qrupları başa düşürdülər ki, Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində qaldıqca Azərbaycanın Dağlıq Qarabağ regionuna olan əsassız iddialarını reallaşdıra bilməyəcəklər.

Dağlıq Qarabağ regionunda sosial-iqtisadi, mədəni sahələrdə həyata keçirilən quruculuq işlərini bəzi erməni alimləri, ziyalıları yanlış olaraq antierməni siyasəti, panturanizm və pantürkizm kimi qiymətləndirir, təkcə ölkə daxilində deyil, xarici ölkələrdə də qatı antiazərbaycan siyasətini və təbliğatını artırırdılar. Erməni alimləri Heydər Əliyevi guya antierməni siyasəti yeritməkdə, pantürkist məktəb, millətçi azərbaycanlı gənclər və alimlər məktəbi yaratmaqda ittiham edir, böhtan dolu şikayət məktublarını

---

[778] TBMM Tutanak Dergisi. Dönem 17. Cilt 43. Birleşim 120. 19.03.1987, s.75-90, 95-96.

[779] TBMM Tutanak Dergisi.Dönem 17.Cilt 43.Birleşim 123.17.07.1987,s.385-387.

Sov. İKP MK-nın baş katibi M.S.Qorbaçova göndərirdilər. Məktub müəllifləri Heydər Əliyevi türkçülükdə və pantürkizmdə təqsirləndirirdilər. 400 min erməni Heydər Əliyevin əleyhinə olan məktuba imza ataraq Moskvaya göndərmişdi. Erməni xadimləri Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasını, müttəhimlər kürsüsündə oturdulmasını istəyir, onu Azərbaycanı türkləşdirməkdə ittiham edir, Kremldəki "türk paşası" adlandırırdılar. Akademik Suren Eyvazyan 1987-ci ilin mart ayında M.S.Qorbaçova yazdığı məktubunda Heydər Əliyevi 1969-1982-ci illərdə pantürkizm siyasəti yürütməkdə təqsirləndirir, cinayət məsuliyyətinə cəlb edilərək müttəhimlər kürsüsündə oturdulmasını tələb edirdi[780].

Bütün bunlarla paralel olaraq Ermənistanda qatı türk düşmənçiliyi də artırdı. Uydurma soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış Çiçernakaberd xatirə kompleksinə əklillər qoyan yerevanlıların və yaxın rayonların sakinlərinin sayı əvvəlki illərlə müqayisədə 1987-ci il aprelin 24-də daha çox idi. Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyan, Ermənistan SSR Nazirlər Sovetinin sədri V.Sarkisyan, Ermənistan KP MK-nın ikinci katibi Y.Koçetkov və digər rəsmi şəxslər abidəyə əklil qoyub, ölənlərin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər[781]. Bu hərəkətlər respublikada düşmənçilik hisslərini və əsassız iddiaları daha da artırırdı.

Belə bir şəraitdə Heydər Əliyevin üzərinə böhtan dolu hücumlar dayanmaq bilmirdi. Onun həbsini tələb edən İ.Muradyan adlı birisi məktubunda yazırdı:

*"Əliyev, siz mənim tərəfimdən Naxçıvanda, Dağlıq Qarabağda və Azərbaycan SSR-də erməni əhalisinin soyqırımında iştirak etməkdə ittiham edilirsiniz. Respublika KP MK-nın birinci katibi vəzifəsində işlədiyiniz müddətdə Müsavat hökumətinin, sonradan isə Azərbaycan SSR-in partiya-hökumət rəhbərliyinin 1920-1987-ci illərdə həyata keçirtdiyi erməni əhalisinin soyqırımı siyasəti indiyədək görünməyən qüvvə ilə güclənmişdir...*

*Siz və tərəfdarlarınız durğunluq dövründə mümkün olan bütün üsullardan istifadə edərək bu deyimi Azərbaycan SSR partiya-hökumət rəhbərliyinin antierməni, Türkiyəyönümlü münasibəti ilə tam doğrultmusunuz.*

*Hakimiyyətiniz dövründə və sonrakı illərdə (1967-1987-ci illər) on minlərlə erməni Sizin pantürkçü kadr siyasətinizdən xilas olaraq respublikanı tərk etmişdir. Qədim erməni vilayəti Naxçıvan demək olar ki, tamamilə erməni əhalisindən məhrum olmuşdur. Dağlıq Qarabağda (Arsaxda) isə əhali praktik olaraq artmır. Erməni vilayətinin sosial-iqtisadi inkişafına*

---

[780] D'Agustino A. Gorbachev's Revolution. New York, New York University Press, 1998, p. 108.

[781] У мемориального комплекса "Цицернакаберд". – Газ. "Коммунист", Ереван, 25.10.1987, №100 (16079).

*bütün vasitələrlə mane olunur, erməni mədəniyyət və memarlıq abidələri vəhşicəsinə məhv edilir, tarixin misilsiz saxtalaşdırılması həyata keçirilir, dövlət səviyyəsində antierməni və Türkiyəyönümlü təbliğat təşkil edilir. Erməni vilayətləri sovet Ermənistanından keçilməz sədlərlə ayrılmışdır.*

*Sizə Sovet Azərbaycanının hökumətini təşkil edən N.Nərimanovdan və onun pantürkçü komandasından miras qalmış qədim erməni torpaqlarında bütün erməni adları məhv edilir. Bu komandanın üzvlərindən biri, hökumətin naziri Ə.Qarayev əlaltılarına deyirdi: "Erməniləri zəiflətmək məqsədi ilə sizə tanış olan və çoxlu qoşun olan yerlərdə bir rus əsgərini öldürün və bu cinayətdə erməniləri ittiham edin. Bilirsiniz, ruslar nə edəcək?! Bu lənətə gəlmiş qəbilə ayağa qalxa bilməsin deyə, üzdə olan heç bir insanı, yaxud varidatı salamat qoymayın". XI Qırmızı ordu Zaqafqaziyaya gəldikdən dərhal sonra Müsavat Partiyasının gizli şəkildə yoxa çıxmasına təəccüblənmək lazım deyildir. Bu, sizin sələflərinizdir, Əliyev!*

*Sizin hakimiyyətiniz dövründə slavyanlara və ermənilərə nifrət hissi, milli təkəbbürlü və müştəbeh tərbiyə almış yeni gənc ziyalı nəsli yaranmışdır. Bu, Sizin demək olar ki, ən böyük cinayətinizdir: "intellektualların" mənəviyyatını müalicə etmək üçün onilliklər lazımdır. Məsələn, yuxusunda həm Ermənistana, həm ermənilərə və hətta ruslara yer olmayan Bosfordan Baykaladək böyük Turan görən Sizin və Azərbaycan SSR Elmlər Akademiyasının akademiki Z.Bünyadovun yaratdığı pantürkçü tarix məktəbini necə zərərsizləşdirmək olar?. . .*

*1987-ci il aprelin 10-da vətəndaşlar Z.S.Məlikşahnazaryan və İ.M.Muradyan SSRİ Prokurorluğuna ərizə və müvafiq materiallar göndərmişlər. Materiallarda Sizə qarşı Azərbaycan SSR-də erməni əhalisinin "milli və irqi bərabərliyinin pozulması"nda (Azərbaycan SSR Cinayət Məcəlləsi, maddə 67) iştirak etməkdə ittiham var. Bu isə əslində soyqırımının həyata keçirilməsidir. Sizin müdafiənizə bütün kral ordusu qalxmışdır – partiya və hüquq-mühafizə orqanlarının funksionerləri. Sizi xilas etmək üçün onlar nə qədər demoqoqiya və digər uydurmalar işlətməli oldular. Lakin niyə görə? Güman ki, ancaq tarix üçün.*

*SSRİ Prokurorluğuna bir neçə dəfə müraciət etdikdən sonra mən aşağıdakı məktubu aldım: ...*

*Sizin...ərizənizə baxılmışdır. Ərizədə göstərilən məsələlər prokurorluq orqanlarının səlahiyyətlərinə daxil deyildir...*

*Hətta prokurorluq də Sizin cinayətlərinizin qarşısında gücsüzdür".*

İ.Muradyan öz sözləri ilə deyilsə, düşünmək üçün belə bir informasiya da verir, əslində isə erməni terrorçularının qanlı fəaliyyətlərinin olduğunu təsdiq edirərək yazırdı:

*"Erməni xalqının soyqırımına görə erməni qisasçıları" tərəfindən Türkiyənin və Müsavat Azərbaycanının aşağıdakı görkəmli dövlət xadimləri qətlə yetirilmişdir:*

*1.1918-ci ilin sentyabrında Bakı şəhərində erməni qırğınını təşkil edən Müsavat Azərbaycanının Prezidenti* (Baş Nazir – M.Q.) *Xan Xoyski Tbilisi şəhərində Aram Yerkanyan tərəfindən öldürülmüşdür.*

*2.1915-ci ildə erməni soyqırımını təşkil edənlərdən biri, Türkiyənin daxili işlər naziri Tələt Paşa 1921-ci il martın 15-də Berlin şəhərində Soqomon Teyleryan tərəfindən öldürülmüşdür.*

*3.1918-ci ilin sentyabrında Bakıda erməni qırğınında günahkar olan Müsavat Azərbaycanının daxili işlər naziri Xan Cavanşirov* (Behbud xan Cavanşir – M.Q.) *1921-ci il iyulun 19-da İstanbul şəhərində Misak Talvakyan tərəfindən öldürülmüşdür.*

*4.1915-ci il erməni soyqırımında günahkar olan Türkiyə Prezidenti Səid Halim* (o, prezident deyil, baş vəzir idi – M.Q.) *1921-ci il dekabrın 6-da Roma şəhərində Arşavir Şirakyan tərəfindən öldürülmüşdür.*

*5. Minlərlə erməni uşağını Qara dənizdə batırmaq əmrini vermiş Türkiyə hökumətinin üzvü Bahəddin Şakir 1922-ci il aprelin 17-də Berlin şəhərində Aram Yerkanyan və Arşavir Şirakyan tərəfindən öldürülmüşdür.*

*6.1915-ci il erməni qırğınının təşkilatçılarından biri olan Türkiyənin dəniz naziri Camal Paşa 1922-ci il iyulun 25-də gündüz saat 5-də Tbilisi şəhərində Petros Ter-Petrosyan və Zare Məlikşahnazaryan tərəfindən öldürülmüşdür. Qətlin təşkilatçısı Artaşes Gevorkyandır.*

*7.1915-ci il erməni soyqırımının təşkilatçılarından biri, sonradan Buxara əmirinin qoşunlarının komandanı olmuş Türkiyənin hərbi naziri Ənvər Paşa 1922-ci il avqustun 5-də Buxara əmirliyində məsciddən çıxarkən öldürülmüşdür. Ənvər Paşanın məhvini Dağlıq Qarabağın Taqavert kəndindən olan Akop Yakovleviç Melkumyanın (sonradan komandir olmuşdur) başçılığı ilə Qırmızı ordunun eskadronu həyata keçirtmişdir. Ənvəri bilavasitə Dağlıq Qarabağdan olan Saruxanyan qətlə yetirmişdir.*

*Bununla bağlı olaraq, sovet Ermənistanı hökumətinin rəhbəri Aleksandr Fyodoroviç Myasnikyan bəyan etmişdir ki, erməni soyqırımının təşkilatçılarından sonuncusu məhv edilmişdir. Aleksandr Fyodoroviç ancaq bir şeydə səhv etmişdir ki, Ənvər heç də sonuncu deyildi.*

*1956-cı ildə Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırov xalq düşməni kimi sovet məhkəməsinin hökmü ilə güllələnməyə məhkum edilmişdir. Məlum olduğu kimi, ittihamda M.C.Bağırovun pantürkçü fəaliyyəti göstərilməmişdir.*

*Son illərdə erməni terrorçuları Türkiyə diplomatlarına qarşı 130 sui-qəsd törətmişlər.*

*Siz isə Əliyev, hələ sağ-salamat yaşamalısınız ki, nəhayət, müttəhimlər kürsüsündə əyləşəsiniz"* [782].

Bu məktub bir neçə baxımdan diqqəti cəlb edirdi. Hər şeydən əvvəl, məktub müəllifi ermənilərin bir qrupunun terrorçu olduğunu, terror yolu ilə məqsədlərinə nail olmağa çalışdıqlarını təsdiq edirdi. İkincisi, bu məktub erməni qısqanclığının və düşmənçiliyinin həddi-hüdudunun olmadığını göstərirdi. Üçüncüsü, müəllif bununla əslində, regionda baş verən bütün qanlı hadisələr üçün qatı millətçi ermənilərin günahkar olduqlarını və məsuliyyət daşıdıqlarını təsdiqləyirdi.

Qeyd etmək lazımdır ki, Türkiyə və Azərbaycan xadimlərinə qarşı terroru həyata keçirən ermənilərin bəzilərinin adları Fövqəladə Komissiyanın uzun illər boyu məxfi saxlanılmış mötəbər arxiv materiallarında başqa cür göstərilir. Belə ki, Camal Paşanı Tiflisdə Böyük Pyotr küçəsində Moskvadan gələn göstərişə uyğun olaraq Gürcüstan Fövqəladə Komissiyasının agenti, keçmişdə məşhur quldur olmuş Serqo Labadze öldürsə də[783], qətlin izini itirmək və türk – erməni düşmənçiliyini qızışdırmaq üçün bolşeviklər onu Daşnaksütyunun üstünə atmışdılar. Eyni zamanda Behbud xan Cavanşiri İstanbulda öldürən ermənininin adı uzun illər boyu məxfi saxlanılmış arxiv sənədlərində Torlaqyan kimi yazılır[784].

M.Qorbaçovun işarəsi ilə qatı millətçi erməni dairələrinin Heydər Əliyevin əleyhinə qarşı başladıqları çirkin kampaniya az sonra öz nəticəsini verdi. Sov.İKP MK-nın 1987-ci il oktyabr plenumunda Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdi[785]. SSRİ Ali Sovetinin Rəyasət Heyəti səhhəti ilə əlaqədar olaraq pensiyaya getməyə dair onun SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad edilməsi barəsində xahişini yerinə yetirdi[786]. Heydər Əliyevin vəzifələrindən çıxması respublika üçün fəlakətlər doğurdu. Azərbaycana münasibət dəyişdi, hər şey qarışdı, ölkədə azərbaycanlılar sıxışdırılmağa başlandı. Əsassız iddialar irəli sürən erməni dairələri üçün əlverişli şərait yaranmışdı.

---

782 Qasımlı M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987). Bakı, 2006, s.367-371.

783 Qasımlı M. Cemal Paşanın öldürülmesi. – "Orhun" dergisi, İstanbul, 2004, Haziran, №64; ARMTNA, PR- 41065, cild IV, v.183-184.

784 Информационные материалы полномочного представительства Азербайджанской ССР в Анкаре. – ARDA, f.28, siy.1, iş 68, v. 81.

785 XXVII созыв. Октябрьский пленум ЦК КПСС (21.10.1987). – РГАНИ, ф.2, оп.5, д.81, л. 5-6; ф.2, оп.5, д.83, л. 98-100; ф.2, оп.5, д. 86, л.118-120.

786 В Президиуме Верховного Совета СССР. – Газ. "Известия", 25.10.1987, №298(22105).

# XIII FƏSİL

# ERMƏNİSTANIN AZƏRBAYCANA HƏRBİ TƏCAVÜZÜ VƏ NƏTİCƏLƏRİ

## *Azərbaycanın daxili işlərinə Ermənistanın müdaxiləsinin başlanması*

Mövcud şəraitdə Türkiyəyə qarşı niyyətlərini həyata keçirə bilməyəcəklərini dərk edən qatı millətçi erməni dairələri 1980-ci illərin ortalarından etibarən birbaşa hədəfin Türkiyə olmadığını bildirərək, ona qarşı əsassız torpaq iddialarını arxa plana keçirdərək, tarixdə heç bir zaman olmayan uydurma erməni soyqırımının tanıdılmasından imtina etməyərək, qondarma "tarixi həqiqətləri bərpa etmək" adı altında Azərbaycanın bəzi rayonlarının Ermənistana birləşdirilməsi tələbi ilə kampaniyanı genişləndirdilər. Aparılan antitürk kampaniyası Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi kimi konkret hədəf güdməyə başladı. Ermənistandan gələn millətçi əhval-ruhiyyəli şəxslər DQMV-nin rayonlarında vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılması məqsədilə yüksək dairələrə müraciət etmək, Ermənistan SSR və DQMV-dən Moskvaya nümayəndələr göndərmək üçün kütləvi imza toplamaq kimi qızışdırıcılıq fəaliyyəti ilə məşğul olurdular[787]. Bu şəxslərin fəaliyyəti A.Aqanbekyan, S.Mikoyan, S.Kaputikyan, Z.Balayan və b. tanınmış ermənilər tərəfindən müdafiə edilirdi.

M.S.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aranbeqyanın 1987-ci ilin payızında Parisdə "Humanite" qəzetində dərc edilən müsahibəsi ilə hər şey qarışdı. O bildirirdi ki, DQMV-nin Ermənistana birləşdirilməsi haqqında M.Qorbaçovla danışmış və razılıq almışdır. Bundan sonra azərbaycanlılar və ermənilər arasında münasibətlər gərginləşdi.

Dağlıq Qarabağ münaqişəsini Azərbaycan cəmiyyəti doğurmamışdı. Münaqişənin başlanması Ermənistanın əsassız ərazi iddiaları ilə Azərbaycanın daxili işlərinə kobud müdaxiləsinin bilavasitə nəticəsi idi. Belə ki, 80-ci illərin ortalarından etibarən Ermənistanda bir çox müəssisə və kooperativlər yarımleqal şəraitdə odlu silah və partlayıcı maddələr istehsal edərək DQMV-yə göndərir, sovet Ermənistanı rəhbərlərinin himayəsi altında qanunsuz silahlı birləşmələri silah və sursatla, rabitə vasitələri, o cümlədən nəqliyyatla təmin edir, Ermənistandakı azərbaycanlı kəndlərini və Azərbaycanın sərhədboyu yaşayış məntəqələrini qorxu altında saxlayırdılar.

---

[787] Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде – ЦК КП Азербайджана. 07.03.1988.Секретно. – ARMTNA, 10/192. v. 22-25.

Əsassız iddialarını həyata keçirtmək üçün erməni dairələri əvvəlki dövrlərdəki taktikalarına sadiq qalaraq Mərkəzi hakimiyyət orqanları ilə yaxınlaşmağa, azərbaycanlılar haqqında mənfi rəy yaratmağa başladılar, bir müddət sonra isə azərbaycanlı əhalidən ov silahlarının yığılmasına dair göstərişin verilməsinə nail oldular. M.S.Qorbaçovun məsləhətçiləri əsasən ermənilər idi. O, ərafındakı erməni xadimlərinin təsiri altında idi.

Münaqişənin başlanmasına SSRİ-də gedən bir sıra daxili faktorlar təsir etmişdi. Belə ki, başlamış olduğu yenidənqurma, aşkarlıq və demokratikləşdirmə siyasətinin uğursuzluğa düçar olduğunu görən M.Qorbaçov yerlərdə günahkarlar axtarmağa və onları cəzalandırmağa cəhdlər edir, müttəfiq respublikaların mərkəzdənqaçma meyillərinin qarşısını almaq və onları təzyiq altında saxlamaq məqsədi ilə münaqişədən istifadə edirdi.

SSRİ-nin dağılmasında maraqlı olan bəzi Qərb dövlətləri də milli münasibətləri qızışdırırdılar. Onlar Sovet İttifaqını güclü bir dövlət kimi görməkdə maraqlı deyildilər. Ölkəni daha tez dağıtmağın yolu milli münasibətləri kəskinləşdirməkdən keçirtdi. SSRİ-nin mövcudluğu zəncirində ən zəif yer milli münasibətlər, burada isə Cənubi Qafqazdakı erməni – azərbaycanlı münasibətləri idi. Bu münasibətlərin çar Rusiyasının regionu işğal etməsindən sonra başlayan tarixi kökləri var idi.

Münaqişə etnik və dini deyil, Ermənistanın əsassız ərazi iddiaları ilə başlayan siyasi münaqişə idi. Azərbaycanlılar Cənubi Qafqazda aborigen olmayan ermənilərə XIX əsrdə isti qucaqlarını açmış, torpaq vermiş və bir tikə çörəyini onlarla bölmüşdülər. Erməni və Azərbaycan xalqları uzun illər boyu daim mehriban bir şəraitdə birgə yaşamışdılar. Dağlıq Qarabağ münaqişəsinin kökləri "etnik amilin üstünlüyündə"[788] deyil, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarında idi.

Məqsədə nail olmaq üçün antiazərbaycan, antitürk siyasəti Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmışdı. Bu respublikada azərbaycanlıların sıxışdırılması, tarix və mədəniyyət abidələrinin dağıdılması davam etdirilirdi. Yerli və xarici ölkə kütləvi informasiya vasitələrinin diqqət ayırması qızışdırıcılığa əlavə impuls verirdi. Erməni diasporası və kilsəsi də düşmənçiliyi fəal müdafiə edirdi. DQMV-də təxribatçılıqla məşğul olanlar Sov.İKP MK-nın məsul işçiləri V.A.Mixaylova, A.V.Krıçinə və b. istinad edirdilər. 1988-ci ilin yanvar ayından etibarən separatçılar xeyli fəallaşdılar. Fevral ayında isə Stepanakertdəki müəssisələrin işçiləri tətil edərək işi pozdular. Tətilçilər DQMV-nin Ermənistana birləşdirilməsini tələb edirdilər.

---

[788] Jack F. Matlock, Jr.The former Soviet Union: Etnonationalism and US interest and values. – Ethnic conflict and regional instability: implications for missions. Edited by Robert L.Pfaltzgraff, Jr., Richard H.Shultz, Jr., Washington, U.S.Government printing office, 1994, p.181.

1988-ci il fevralın 18-də etdiyi çıxışında M.Qorbaçovun SSRİ-də milli münasibətlər məsələsinə yenidən baxılmasının vacibliyini söyləməsi vəziyyəti daha da gərginləşdirdi. Bu çıxış müttəfiq respublikaların ittifaqdan ayrılması cəhdlərinə mane olmaq və Sov.İKP MK Siyasi Bürosundan uzaqlaşdırdığı rəqiblərinə qarşı bir təzyiq vasitəsi idi.

M.Qorbaçovun çıxışından ruhlanan ermənilər fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin yığıncağını keçirtdilər. Sovetin tərkibindəki 140 deputatdan 110-u erməni, digərləri isə azərbaycanlılar idi. Azərbaycanlı deputatlar yığıncağa buraxılmadılar[789]. Yığıncaqda vilayətin erməni icmasının nümayəndələri DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR ali sovetlərinə müraciət etmək haqqında qərar qəbul etdilər[790]. Bu, Azərbaycan ilə Ermənistan arasında münasibətləri daha da gərginləşdirdi. Vilayətdə azərbaycanlılara qarşı təzyiqlər artdı.

Ermənistandan azərbaycanlıların sıxışdırılması çoxaldı. Fevralın 21-də qatı millətçi ermənilərin təzyiq və təqiblərindən Qafandan qaçmağa məcbur olan 70 nəfər Azərbaycan KP MK-nın qəbul otağına gələrək Ermənistanda yaşamağın mümkün olmadığını bildirdilər. Onları qəbul edən məsul işçilər Ermənistan rəhbərliyinə müraciət etməyi tövsiyə etdilər[791].

Belə bir şəraitdə, fevralın 21-də Sov.İKP MK "Dağlıq Qarabağda hadisələr haqqında" qərar qəbul etdi[792]. Qərarda vilayətdə yaranmış şərait siyasi cəhətdən ciddi qiymətləndirilir, qeyd edilirdi ki, bu regionda milli-ərazi quruluşunun dəyişdirilməsi hərəkətləri və tələbləri Azərbaycan və Ermənistan zəhmətkeşlərinin maraqlarına ziddir, millətlərarası münasibətlərə ziyan vurur, məsuliyyətli qərarlar qəbul edilməsə, çətin düzələn nəticələrə gətirə bilər. Qərarda bütün bunların hamısının ekstremist əhval-ruhiyyəli şəxslərin məsuliyyətsiz çağırışlarına yerli partiya və sovet orqanlarının gözləmə mövqeyi tutmalarının nəticəsi olduğu göstərilirdi. Sov.İKP MK şəraiti normallaşdırmaq üçün bütün məsuliyyəti Azərbaycan və Ermənistan KP MK-nın və şəxsən birinci katiblərin üzərinə qoydu, vilayətin sosial-iqtisadi inkişafına dair tədbirləri işləyib hazırlamağı tapşırdı.

---

[789] Чаладзе Т. Карабахский геноцид: обреченный Ходжалы. Документальная хроника. Баку, 2009, с.19.

[790] События вокруг НКАО в кривом зеркале фальсификаторов (сборник материалов), с. 8-9; Нагорный Карабах: разум победит. Документы и материалы. Баку, 1989, с.81-82.

[791] Меморандум по информации КГБ республики (1987-1989) об обстановке в Армении, Азербайджане и Нагорном Карабахе. – ARMTNA,№ PF-872,v. 4.

[792] Постановление ЦК КПСС от 21 февраля 1988 года о событиях в Нагорном Карабахе. Сов.секретно. – ARSSA, f.1, siy. 83, iş 83, v.9-10.

Azərbaycan KP MK Bürosu fevralın 22-də həmin qərarı müzakirə edərək bəyəndi. Müvafiq qərar qəbul edildi[793]. Büro qərarında Sov.İKP MK qərarı ciddi əhəmiyyətli siyasi sənəd kimi qiymətləndirilir, şəraiti normallaşdırmaq işi Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinə tapşırılırdı. Vilayətin sosial-iqtisadi inkişafı üçün tədbirləri hazırlayıb Azərbaycan KP MK-ya təqdim etmək göstərişi verildi. Əhali arasında təbliğat işləri aparmaq tövsiyə edildi. Mətbuat, radio və televiziyanın imkanlarından istifadə edərək erməni və Azərbaycan xalqları arasında dostluğun təbliği vacib sayıldı. Lakin bu qərarlar yerinə yetirilməmiş ilk qan töküldü.

## ***İlk qan***

DQMV Xalq Deputatları Sovetinin ayrılma barədə qərarına etiraz edən dinc azərbaycanlılara Xankəndi – Ağdam şosse yolu üstündə yerləşən Əskəran qəsəbəsi yaxınlığında erməni silahlıları 1988-ci il fevralın 22-də atəş açdılar. Əli və Bəxtiyar adlı iki azərbaycanlı gənc həlak oldu. Onlar münaqişənin ilk qurbanları idi. SSRİ prokurorluğu təqsirli bilinən şəxsləri həbs etdi[794].

Beləliklə, Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsinin ilk qanlı nəticəsi Əskəranda iki azərbaycanlının öldürülməsi oldu. Münaqişənin ilk qurbanları da məhz azərbaycanlılar oldular.

Bundan sonra şərait daha da pisləşdi. Ermənistanda tarixi-etnik torpaqlarında yaşayan azərbaycanlıların 7 min nəfəri vəhşicəsinə Azərbaycana qovuldu. Hər şeylərini Ermənistanda qoyub gəlməyə məcbur olan və yaşamaq ümidlərini itirən qaçqınların acınacaqlı vəziyyəti yerli əhalinin əhval-ruhiyyəsinə mənfi təsir edirdi.

Belə bir şəraitdə DQMV-də kadr dəyişikliyi edildi. İşdə yol verdiyi nöqsanlara görə Boris Gevorkov fevralın 25-də Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsindən azad edildi. Onun yerinə Vilayət Xalq Deputatları Soveti sədrinin birinci müavini, Vilayət Aqrar-Sənaye Kombinatının sədri işləyən Nikolay Poqosyan gətirildi[795].

---

793 Заседание Бюро ЦК КП Азербайджана. О событиях в Нагорном Карабахе. 22.02.1988. Сов.секретно. – ARSSA, f.1, siy.83, iş 83, v.10-12.

794 Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде. К обстановке в Нагорном Карабахе. 22.04.1988. Секретно. – ARMTNA, 10/407, v.131.

795 Заседание Бюро ЦК КП Азербайджана. О т.т. Погосяне Г.А. и Кеворкове Б.С. 25.02.1988. – ARSSA, f.1, siy.83, iş 83, v.13.

Həmin gün Sov. İKP MK-nın baş katibi M.Qorbaçov Azərbaycan və Ermənistan zəhmətkeşlərinə müraciət etdi[796]. Bu müraciətdən irəli gələn vəzifələrin yerinə yetirilməsi tədbirləri haqqında Sov.İKP MK qərar qəbul etdi[797]. Azərbaycan KP MK Bürosu fevralın 26-da həmin qərarı müzakirə edərək bəyəndi. Respublikada əhali arasında geniş iş aparmaq üçün tədbirlər müəyyənləşdirildi.

Bütün bunlara baxmayaraq, Ermənistan Azərbaycanın daxili işlərinə kobud müdaxiləsini davam etdirir, təcavüzkarlığını ört-basdır etmək üçün Dağlıq Qarabağda "erməni xalqı"nın öz müqəddəratını təyin etməsi, ermənilərin hüquqlarının pozulması və sosial-iqtisadi inkişafının geriliyi barədə heç bir real faktlara əsaslanmayan, saxta mülahizələr irəli sürürdü.



*Ermənistandan – tarixi torpaqlarından vəhşicəsinə qovulmuş azərbaycanlı qaçqınlar*

Ermənistandan azərbaycanlıların qovulması bu zaman artıq kütləvi hal almışdı. Qaçqınlar Azərbaycanın müxtəlif rayonlarına, xüsusən Bakı və Sumqayıt şəhərlərinə üz tuturdular. Evsiz-eşiksiz qalan və yaşamaq üçün elementar şəraiti olmayan insanlar dövlət orqanlarından hüquqlarının

---

[796] Обращения Генерального секретаря ЦК КПСС т. Горбачева М.С. k трудящимся, народам Азербайджана и Армении. 25.02.1988. – Нагорный Карабах: разум победит, с.11-13.

[797] О первоочередных мерах по реализации задач, вытекающих из обращения Генерального секретаря ЦК КПСС т. Горбачева М.С. к трудящимся, народам Азербайджана и Армении. 25.02.1988. – ARSSA, f.1, siy. 83, iş 32, v.14.

qorunmasını tələb edirdilər. Onlardan fərqli olaraq ermənilər Azərbaycanda rahat yaşayır və işləyirdilər.

## *Sumqayıt hadisəsi*

Ermənistandan qovulan azərbaycanlıların bir qismi Sumqayıta üz tutmuşdu. O zamanadək Ermənistanın 20 rayonundan təkcə Sumqayıta 18 min 330 nəfər qaçqın və ya 3030 ailə gəlmişdi. Aralarında 4 rus ailəsinin olduğu qaçqınların çoxu küçələrdə evsiz-eşiksiz qalmışdı. Yaranmış gərgin şəraitdə, 1988-ci il fevralın 26-28-də Sumqayıtda iğtişaş baş verdi. Qarışıqlıqda 32 nəfər öldü. Onların 24 nəfəri erməni, 5 nəfəri azərbaycanlı, qalanları isə digər xalqların nümayəndələri idi. Bədən xəsarəti alan 198 nəfərin 87 nəfəri xəstəxanaya yerləşdirildi. 60 mənzil qarət edildi, 14 avtomaşın yandırıldı, 8 avtomaşın zədələndi, 16 ticarət obyektinin şüşələri qırıldı. Azərbaycan SSR Daxili İşlər Nazirliyinin 17 avtomaşını əzildi[798].

Sumqayıt hadisəsinin baş verməsinin bir sıra səbəbləri var idi. Ermənistan rəhbərliyinə geniş antiazərbaycan kampaniyasına başlamaq və Azərbaycana qarşı təcavüzkarlıq siyasətinə haqq qazandırmaq üçün vasitə kimi lazım olan Sumqayıt hadisəsi əvvəlcədən planlaşdırılmışdı. Bununla Ermənistan rəhbərliyi qanunsuz əməllərinə haqq qazandırmağa, Azərbaycan haqqında mənfi fikir formalaşdırmağa və ermənilərlə azərbaycanlıların bir yerdə yaşamasının mümkün olmadığını göstərməyə çalışırdı. Ermənistanda ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər haqqında gələn dəhşətli xəbərlər və buna dair konkret faktlar da əhalini hiddətləndirmişdi. Mərkəz isə bu hadisədən respublikaya təzyiq vasitəsi kimi istifadə edirdi.

Yaşayış binalarına hücum edənlər əvvəlcədən müəyyənləşdirilmiş və işarələnmiş mənzilləri seçmişdilər. İğtişaşda şəhərin qeyri-yerli əhalisindən ibarət olan cinayətkar elementlər də iştirak etmişdilər. Hadisənin təşkilatçılarından biri ermənilərin qətli və qadınlarının zorlanmasında bilavasitə iştirak edən, buna qədər cinayət əməlləri üstündə bir neçə dəfə həbsxanada yatmış erməni Eduard Qriqoryan idi. Azərbaycan SSR Ali Məhkəməsi sonralar, 1989-cu il 22 dekabr tarixli hökmü ilə E.Qriqoryanı 12 il həbs cəzasına məhkum etdi. Şahidlərin və hadisə qurbanlarının məhkəməyə verdikləri ifadələrindən E.Qriqoryanda ermənilərin yaşadıqları mənzillərin siyahısının olduğu və intiqam almağa çağırdığı aydın olurdu. Onun qurbanlarının hamısı ermənilər idi. Öldürülən ermənilər erməni terror-siyasi təşkilatlarına pul ödəməyən şəxslər idi. Onların siyahısı əvvəlcədən hazırlanmışdı. Əsasən erməni millətindən olan şahidlər məhkə-

---

[798] Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде – ЦК КП Азербайджана. 07.03.1988. Секретно. – ARMTNA, 10/192, v.22-24.

mə prosesində E.Qriqoryanı zorakılığın təşkilatçılarından və fəal iştirakçılarından biri kimi tanıdılar.

Qarışıqlıq zamanı azərbaycanlı ailələr bir çox ermənini mənzillərində gizlədərək ölümdən xilas etdilər. Lakin iğtişaşdan sonra bəzi ermənilər Azərbaycandan çıxıb, əsasən RSFSR ərazisinə getmələrinə yardım göstərilməsinə dair müraciət etdilər. Ermənilərin Azərbaycanda təhlükəsiz yaşayışını təmin etmək üçün respublika Nazirlər Sovetinin sədri Həsən Seyidov başda olmaqla xüsusi hökumət komissiyası yaradıldı. Onların təhlükəsizliyi təmin edildi.

Sumqayıt hadisəsi Sov.İKP MK Siyasi Bürosunun 1988-ci il 29 fevral tarixli iclasında müzakirə edildi[799]. İclasa sədrlik edən M.Qorbaçov Yerevanda vərəqələr yayıldığını diqqətə çatdırdı. Həmin vərəqələrdə ermənilərə mitinq etməyi dayandırmaq, silaha sarılmaq və türklərə qarşı hücuma keçmək çağırışları edilirdi. Yerevanda ordu qərargahına atəş açılmış, güllə qərargah rəisinin otağının pəncərəsinə dəymişdi. M.Qorbaçov onları ekstremist adlandıraraq bildirdi ki, mitinqlərdə bütün çıxışlarda əsas mövzu Qarabağ və onun Ermənistana birləşdirilməsidir. Daha sonra o, erməni yazıçıları Silva Kapitukyan və Zori Balayan ilə etdiyi söhbəti xatırlatdı. Tarixi gerçəklikləri bilməyən, bilsə də məqsədyönlü şəkildə saxtalaşdıran M.Qorbaçov onlarla söhbətində bu tarixin çətin olduğunu demişdi. M.Qorbaçovun yanlış qənaətinə görə hadisələrin iki səbəbi var idi: bir tərəfdən DQMV-də çoxlu diqqətsizliklər olmuşdu, ikincisi isə ermənilərdə daim olan hissiyyat başlanğıc rolu oynamışdı. M.Qorbaçov saxtakarlıq edərək Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin birinci katibinin 14 il ərzində bir dəfə də olsun Yerevana getmədiyini, Ermənistana aparan yolların baxımsız olduğunu, mədəniyyət əlaqələrinin kəsildiyini, bütün bunların düşünülərək edildiyini dedi. Daha sonra qeyd etdi ki, Dağlıq Qarabağda Türkiyə televiziya kanallarına baxırlar, Ermənistan televiziyasına isə yox. Bütün bunların insanların hisslərini coşdurduğunu, deyən M.Qorbaçov yenə də tarixi gerçəkliyi kobud şəkildə saxtalaşdıraraq, uydurma soyqırımı qurbanlarının məzarlarının guya Naxçıvanda olmasına diqqəti cəlb edərək, burada 90 erməni abidəsindən yalnız birinin qaldığını, oraya insanların buraxılmadığını, bunun da hissləri qızışdırdığını vurğuladı.

Məsələyə səhv və qərəzli yanaşması M.S.Qorbaçovun bir dövlət rəhbəri kimi ermənipərəst mövqe tutduğunu və erməni dairələrinin yanında üzü kölgəli olduğunu göstərirdi. İlk növbədə ona görə ki, DQMV-nin sosial-iqtisadi cəhətdən geri qalması barədə söylənən fikirlər başdan-başa

---

[799] Заседание Политбюро ЦК КПСС. О дополнительных мерах в связи с событиями в Азербайджанской и Армянской ССР. 29.02.1988. Сов. секретно. – РГАНИ, ф. 89, оп.42, д. 18, л. 1-11.

səhv idi. Çünki rəsmi statistika da təsdiq edirdi ki, DQMV ölkədə ən inkişaf etmiş muxtar qurumlardan biri idi. Bu inkişafa məhz Azərbaycan SSR-in qayğısı nəticəsində nail olunmuşdu. İkincisi, heç əbəs deyildir ki, ölkədə dolaşan bəzi şayiələrə görə Qorbaçovun arvadı Raisa Maksimovna Qorbaçova DQMV-nin Azərbaycandan alınıb Ermənistana verilməsi üçün ermənilərdən bahalı hədiyyələr və rüşvət almışdı. Bu barədə xarici ölkələrin mətbuatında məlumatlar da dərc edilmişdi.

İclasda qaçqınlar məsələsinə də toxunuldu. M.Qorbaçov Ermənistandan azərbaycanlıların qaçması faktının olduğunu təsdiq edərək 55 nəfərin qovulduğunu dedi. Sov. İKP MK katibi, Siyasi Büro üzvlüyünə namizəd Georgiy Razumovskiy isə 200 nəfər azərbaycanlının Ermənistandan getdiyini, Azərbaycanda isə qorxan 200 nəfər erməninin məktəbdə yerləşdirildiyini, daha 500 nəfərin də toplandığını qeyd etdi.

Sov.İKP MK-nın təşkilat-partiya şöbəsi müdirinin müavini E.Razumov çıxış edərək azərbaycanlının Ermənistandan çıxıb gedərkən qaçdığını deyil, guya qonaq getdiyini dediyini, ona görə də hesabı Azərbaycan üzrə aparmağın lazım olduğunu bildirdi. Əlavə etdi ki, azərbaycanlı Ermənistandan Azərbaycana gəlir və orada birbaşa deyir, mən artıq Ermənistana qayıtmıram.

Vilayətdə yeni rəhbərin təyin olunması məsələsinə toxunan M.Qorbaçov Ermənistandan ona zəng edib, *"sizin üçün bütün Ermənistanı ayağa qaldırmışıq, bəs siz niyə gözləyirsiniz"* deyildiyini Siyasi Büro üzvlərinin diqqətinə çatdırdı.

SSRİ DTK sədri Viktor Çebrikov kolxozlardan adamların Stepanakertə axışdığını qeyd etdi.

M.Qorbaçov Stepanakertdə ocaqların qalandığını, kababların bişirildiyini, 500, 1000 nəfərin meydanda qaldığını bildirdi.

SSRİ daxili işlər naziri Aleksandr Vlasov mitinqlərdə iştirak edənlərin sayının 1000 nəfərdən çox olduğunu dedi.

M.Qorbaçov isə vurğuladı ki, Ermənistanda deyirlər, elə etmək lazımdır, mitinq ocağı sönməsin, burada onsuz da Ermənistandan gələn təlimat və əlaqə ilə hərəkət edildiyi açıq-aydın görünür. O, Əskəranda iki azərbaycanlının qətlə yetirilməsini deyil, Sumqayıtda bir neçə erməninin ölməsini nəzərdə tutaraq yenə də saxtakarlıqla ilk ölümün Azərbaycanda olduğunu, bunun da şayiələr yaratdığını söylədi.

Daha sonra M.Qorbaçov Azərbaycanda başlayan hərəkat üzərində dayanaraq, onun tənzim, kombinə edildiyini, bunun xüsusən Naxçıvanda aydın göründüyünü vurğuladı. Əlavə etdi ki, orada da kütlələr toplaşmış, katib gəlmiş, çıxış etmiş və 30 dəqiqədən sonra adamlar dağılışmışlar.

M.Qorbaçov Sumqayıtda 14 nəfərin öldürüldüyü, Viktor Çebrikov isə 110 nəfərin yaralı olaraq xəstəxanaya yerləşdirildiyi barədə məlumat verdi. M.Qorbaçov Sumqayıt hadisəsini ermənilərə cavab kimi qiymətləndirdi.

A.Vlasovun məlumatına görə Sumqayıtda 14 nəfər, o cümlədən 3 qadın öldürülmüşdü. Onlardan 3-ü azərbaycanlı, 6-sı erməni idi. Bədən xəsarəti alan 71 nəfərdən 48-i erməni idi. 47 nəfər hüquq mühafizə orqanları tərəfindən saxlanılmışdı.

Sov.İKP MK Siyasi Bürosunun iclasında baş verən hadisədə Azərbaycan rəhbərliyi təqsirləndirildi. MK katibi A.Yakovlev Sumqayıta ordu yeritməyin, hakimiyyətin gücünü göstərməyin lazım olduğunu söylədi. Şəhərdə komendant saatının tətbiq edilməsinə dair qərar qəbul olundu.

Sumqayıt hadisəsi sonralar, mayın 7-də K.Bağırovun sədrliyi ilə Azərbaycan KP MK Bürosunun iclasında geniş müzakirə edildi[800]. Müzakirə nəticəsində iki qərar qəbul edildi: "Sumqayıt şəhərində şəraitin normallaşdırılması üzrə hökumət komissiyasının hesabatı haqqında";[801] "1988-ci il fevralın 27-29-da Sumqayıt şəhərində faciəvi hadisələrə gətirən səbəblər haqqında"[802]. Büro iclasında şəhərdə şəraiti normallaşdırmaq və milli münasibətləri sabitləşdirmək üçün konkret tədbirlər müəyyənləşdirildi.

Azərbaycan hakimiyyətinin şəraiti sabitləşdirmək cəhdlərinə baxmayaraq, Ermənistanın kobud müdaxilələrini dayandırmaq mümkün olmadı. Ermənistandan azərbaycanlıların qovulması davam edirdi.

### *Münaqişədə erməni kilsəsinin rolu*

İki xalq arasında münasibətlərin kəskinləşdirilməsində erməni din xadimləri xüsusi rol oynayırdılar. Onlar sülh yaratmaqdan çox uzaq idilər. Bakıdakı erməni kilsəsinin dyakonu (aşağı rütbəli keşiş – M.Q.) S.S.Davityan 1988-ci il martın 8-10-da Eçmiadzinə gedərək katolikos I Vazgenin qəbulunda olmuş, sonra isə ieoromonaxlar İsaxanyan, Mkrtıçyan və dyakon Matevosyan ilə görüşmüşdü. Söhbət zamanı Matevosyan Bakı və Sumqayıtdakı şəraitlə maraqlanmış, Bakı ermənilərinin Dağlıq Qarabağ məsələsində bitərəf mövqe tutmasının səbəblərinə dair suallar verərkən bildirmişdi:

---

[800] Протокол №74 заседания Бюро ЦК КП Азербайджана. 07.05.1988. Сов. секретно. – ARSSA, f.1, siy.83, iş 56.

[801] Решение Бюро ЦК КП Азербайджана. Об отчете правительственной комиссии по нормализации обстановки в г. Сумгаите. Протокол №74. 07.05.1988. Сов. секретно. – ARSSA, f.1, siy.83, iş 56, v.2.

[802] Решение Бюро ЦК КП Азербайджана о прицинах, повлекших за собой трагические события в г. Сумгаите 27-29 февраля 1988 года. Протокол №74. 07.05.1988. Сов. секретно. – ARSSA, f.1, siy.83, iş 56, v.3.

*“Onlar böyük işlər görməyə qadir deyillər, böyük işlər böyük qurbanlar tələb edir, onlar isə qorxaqdırlar”.*

S.Davityan cavabında demişdi ki, Ermənistan əhalisinin çıxışları Bakı ermənilərinin vəziyyətinə mənfi təsir edə bilər. Bu zaman kilsə xadimləri soyuqqanlılıqla belə söyləmişdilər:

*“Burada qorxulu heç nə yoxdur, onları* (Bakı erməniləri nəzərdə tutulur – M.Q.) *qurban vermək olar”* [803].

Erməni kilsə xadimlərinin söylədikləri onların iki xalq arasında sülh yaratmaqdan nə qədər uzaq olduğunu, düşmənçiliyi və əsassız ərazi iddialarını qızışdırdığını və bu istiqamətdə qanlı əməlləri törətməyə rəhbərlik etdiyini göstərirdi. Bununla əslində onlar xristianlığa daha bir silinməz ləkə vururdular.

Şəraitin pisləşdiyi bir zamanda Ermənistan hakimiyyəti Yerevanda yerli məscidi bağladı. Məscidin bağlanması azərbaycanlıları hiddətləndirmişdi. Qafqaz müsəlmanları idarəsinin rəisi Şeyxülislam Hacı Allahşükür Paşazadə məscidin açılmasından ötrü I Vazgenə məktub göndərsə də, nəticəsi olmadı. Məsələni həll etmək üçün SSRİ Nazirlər Soveti yanında dini işlər üzrə səlahiyyətli nümayəndə də Ermənistana müraciət etdi. Lakin bu da bir nəticə vermədi[804].

### *Sovet rəhbərliyinin şübhəli cəhdləri*

Ermənistan və Azərbaycan arasında münaqişəyə dair məsələ Sov. İKP MK-da 1988-ci il martın 9-da keçirilən müşavirədə geniş müzakirə edildi[805]. Azərbaycan KP MK-nın birinci katibi K.Bağırovun və Ermənistan KP MK-nın birinci katibi K.Dəmirçiyanın məlumatları dinlənildi. Bəzi mürəkkəbliklərə baxmayaraq, respublikalarda şəraitin normal məcraya düşdüyünü bildirən M.Qorbaçov müəssisələrin və təhsil ocaqlarının işlədiyini, ictimai qayda-qanuna riayət edildiyini söylədi. Sumqayıt hadisəsi üzrə istintaq işi davam etdirilirdi. Sov.İKP MK Siyasi Bürosunun qərarına uyğun olaraq DQMV-də yığılıb qalmış problemləri dərindən və hərtərəfli öyrənmək tapşırılmışdı.

Müşavirədə Siyasi Büro üzvləri Andrey Qromıko, Yeqor Liqaçov, Nikolay Rıjkov, Aleksandr Yakovlev, Pyotr Demiçev, Vladimir Dolgix, Georgiy Razumovskiy, Anatoli Lukyanov, həmçinin Azərbaycan SSR Nazirlər Sovetinin sədri Həsən Seyidov, Ermənistan SSR Ali Soveti

---

[803] Меморандум по информации КГБ республики (1987-1989) об обстановке в Армении, Азербайджане и Нагорном Карабахе.–ARMTNA,№ PF-872,v.3-4.

[804] Yenə orada, v. 4.

[805] Совещание в ЦК КПСС. 09.03.1988. – ARSSA, f. 1, siy.83, iş 32, v.1-2.

Rəyasət Heyətinin sədri Qrant Voskanyan və Ermənistan SSR Nazirlər Sovetinin sədri Vazgen Sarkisyan çıxış edərək şəraiti normallaşdırmağın vacibliyini vurğuladılar.

Müşavirədən sonra Azərbaycan partiya təşkilatının qarşısında duran vəzifələr 1988-ci il martın 13-də keçirilən Azərbaycan KP MK Bürosunun iclasında müzakirə edildi[806]. Qəbul edilən qərarda Sov.İKP MK-nın 9 mart tarixli müşavirəsinin nəticələri bəyənilir, erməni və Azərbaycan xalqları arasında dostluğu möhkəmləndirmək xəttinə dönmədən əməl etmək yerli partiya, sovet və təsərrüfat orqanlarından tələb edilirdi. DQMV-nin sosial-iqtisadi inkişafı layihəsini hazırlamaq üçün Vilayət Partiya Komitəsinə iki həftə vaxt verilirdi. Vilayətdə şəraiti normallaşdırmaq məqsədi ilə təşkilati-siyasi tədbirlər planı təsdiq edildi. Eyni zamanda Sumqayıtda da şəraiti normallaşdırmaq üçün tədbirlər müəyyənləşdirildi.

Səylərə baxmayaraq, Ermənistan tərəfi Azərbaycanın daxili işlərinə kobud müdaxiləsini dayandırmırdı. Bu zaman Ermənistandakı təşkilatlar martın 26-da Yerevanda böyük mitinq keçirtməyə hazırlaşırdılar. Yaranmış şərait Sov.İKP MK Siyasi Bürosunun 1988-ci il 21 mart tarixli iclasında müzakirə edildi[807]. İclasdan əvvəl “Qarabağ” adlandırılan komitənin iclası haqqında teleqram bütün Siyasi Büro üzvlərinə paylanmışdı. M.Qorbaçovun fikrincə, ermənilər deyirdilər ki, *“döyüşü indi udmasaq, heç bir zaman udmayacağıq”.* O, aşkarlıq və açıqlıq şəraitində sovet rəhbərliyinin buna müəyyən qədər səbr etdiyini vurğulayaraq əlavə etdi ki, *“Dağlıq Qarabağda hesab edirlər, onlar erməni xalqını daxildə və xaricdə, eyni zamanda xarici mərkəzlərin diqqətini problemə yönəldə bilmişlər, daxili şərait və xalqın bu ideya ilə silahlandırılması, xaricdəki həmrəylik baxımından onlar xoşbəxt anın gəldiyi qənaətindədirlər”.* Baş verən hadisələri sosializm və çoxmillətli dövlət baxımından qiymətləndirən, ən mühüm siyasi, dövlət əhəmiyyətli hadisə adlandıran, Ermənistan çərçivəsindən kənara çıxdığı qənaətində olan M.Qorbaçovun fikrincə, köklü məsələ, çoxmillətli dövlətin, Lenin tərəfindən əsası qoyulmuş milli siyasətin taleyi həll edilirdi. O, keçmişə qayıdaraq problemin köklərini araşdırmaq, təkrar etmək istəmədiyini, uzun illərdir, tarixçilərin mübahisə etdiklərini, dissertasiya yazaraq müdafiə etdiklərini, akademik olduqlarını, amma bir-birinə heç nə sübut edə

---

[806] Протокол №67 заседания Бюро ЦК КП Азербайджана. 13.03.1988. Сов.секретно. – ARSSA,f.1, siy.83, iş 32, v. 1-5.

[807] Заседание Политбюро ЦК КПСС.21.03.1988. О некоторых неотложных мерах по нормализации обстановки в Азербайджане и Армении в связи с событиями вокруг Нагорного Карабаха. Сов. секретно. – РГАНИ, ф. 89, оп.42, д.19, л. 1-8.

bilmədiklərini, bir masa arxasında oturduqda müxtəlif mövqelərdən danışdıqlarını, fərqli nəticələr çıxardıqlarını, məsələnin nə qədər mürəkkəb olduğunu dedi. M.Qorbaçov yanlış olaraq şəraitin pisləşməsini Azərbaycan hakimiyyətinin fəaliyyəti, guya ermənilərin sıxışdırılması ilə əlaqələndirdi. Tarixi kobudcasına saxtalaşdıraraq belə bir yalan fikir söylədi ki, guya bir zamanlar Naxçıvanda erməni əhalisi demək olar ki, yarıbayarı idi, indi isə 2%-ə qədər qalmış, Dağlıq Qarabağda isə ermənilərin sayı 20 il ərzində 85%-dən 76%-ə düşmüşdür. Tarixi gerçəkliyi əks etdirməyən belə yanaşma M.Qorbaçovun Azərbaycan xalqına mənfi münasibətinin, əssasız erməni iddialarına haqq qazandırmaq istəyinin göstəricisi idi.

Erməni xalqının vəziyyətinin guya ağır olduğunu, bütün dünyaya səpələndiyini, buna görə də onlarda birləşmə hissinin güclü olduğunu qeyd edən M.Qorbaçovun fikrincə, bütün bunlar həm Azərbaycanda, həm də Ermənistanda qızışdırıcılıq və millətçilik üçün təməl idi, yanğın olması üçün bir qığılcım lazım idi. O, təhlükənin vaxtında qiymətləndirilmədiyi qənaətində idi. Siyasi tədbirlərin həyata keçirilməsini təklif edən, inzibati tədbirlərə isə tərəfdar olmayan M.Qorbaçov bildirdi ki, hadisələr nəzarətdə saxlanmasa, Sumqayıt hadisəsinə çevrilə bilər. Daha sonra əlavə etdi:

*"Bütün ekstremist çıxışlarına baxmayaraq, onlar* (Ermənistanda mitinqdə iştirak edənlər – M.Q.) *özlərini ittifaqın daxilində hiss edirlər. Kütlənin təsiri altında antisovet və federasiya əleyhinə çıxışlar da ola bilər".*

K.Dəmirçiyanın "rezini uzatmaqla məşğul olduğunu, Dağlıq Qarabağın Azərbaycandan alınaraq Ermənistana verilməsindən başqa heç bir siyasi qərar istəmədiyini" vurğulayan M.Qorbaçov, ermənilərin Moskvadan Yerevana komissiya çağırıb Qarabağ probleminin həllini istədiklərini qeyd etdi. Məsələnin belə həllinin yolverilməz olduğunu, onun ağır nəticələrinin olacağını bildirən M.Qorbaçov əlavə etdi ki, biz bu iki respublika ilə bacara bilməsək, bilmirəm, nə olacaqdır, ona görə yox ki, biz onlara qarşı sərt mövqedəyik. Ona görə ki, bu, zəncirvari reaksiya doğura, bütün bunlar sadəcə toqquşma ilə deyil, kütləvi qırğınlarla başa çata bilər. M.Qorbaçov, birincisi, ilk qəbul edilən qərarı təsdiq etməyin, ikincisi, zaman udmağın, ictimai rəyə müraciət etməyin zəruriliyini, belə şəraitdə bu və ya digər xalqı ittiham etməyin doğru olmadığını bildirdi, K.Dəmirçiyanın hərəkətlərini qızışdırıcılıq kimi qiymətləndirdi.

MK katibi Yeqor Liqaçov hakimiyyəti başqaları ələ keçirərlərsə, hərbi vəziyyət elan etməyi təklif etdi. Onunla razılaşan M.Qorbaçov ekstremistlərin televiziya ilə rüsvay edilməsinin vacib olduğunu dedi. MK katibi A.Yakovlev isə onların həmin gün efirə verilməsini təklif etdi. Birinci addım kimi ekstremistlərin planlarının Azərbaycan və erməni xalqlarının maraqlarına zidd olduğunu söyləməyin, Yerevanda "Qarabağ" komitəsi-

nin iç üzünü, şüarlarını, kimə xidmət etdiyini göstərməyin, ağıllı təbliğat aparmağın vacibliyini vurğulayan M.Qorbaçov bunu səliqə-sahmanla etməyin lazımlığını, yarlıq vurmamağı tövsiyə etdi. Onun fikrincə, ikinci addım kimi müttəfiq respublikalar baş verən hadisələrə münasibətlərini bildirməli, Azərbaycan və Ermənistana müraciətlər etməli idilər. İlk olaraq Rusiya Federasiyası Ali Sovetinin belə bir müraciət etməsi tövsiyə olundu. M.Qorbaçovun fikrincə, üçüncüsü, hadisələrin gedişi kütləni məsuliyyətsiz hərəkətlərə sövq edə biləcəyindən inzibati tədbirlər planını həyata keçirtmək lazım idi. Bu plan xalq, ictimaiyyət ilə əlaqələri özündə birləşdirməli idi. M.Qorbaçov xalq ilə işləməyi, "Qarabağ" komitəsinin üzvlərini xalqdan ayırmağı təklif edərək dedi:

*"Onları qəhrəman etmək olmaz. Onlar işə çıxırlar, amma işləmirlər. Mitinqlərə az adam çıxarırlar. Görünür, qorxurlar".*

Qəribə idi. Baş katib bu sözləri ilə *"Dağlıq Qarabağın Azərbaycandan alınıb Ermənistana birləşdirilməsindən başqa bir qərarın qəbul edilməsini istəməyən"* K.Dəmirçiyan və Kremldəki söhbətlərdən xəbərdar olan erməni xadimləri vasitəsi ilə ekstremist "Qarabağ" komitəsinin rəhbərlərinə mitinqlərə çox adam çıxartmaq, daha sonra necə hərəkət etmək barədə sanki tövsiyə verir, gələcək fəaliyyətlərini istiqamətləndirirdi.

Növbəti addım kimi, M.Qorbaçov komitəçilərin, xüsusən başçılarının fəaliyyətinin inzibati orqanlar tərəfindən sənədləşdirilməsində görürdü. Əgər bu fəaliyyət qızışdırıcı xarakter alardısa, məsələ üzərində işləməyin, lazım gələrsə, onları həbs etməyin vacibliyini bildirdi.

SSRİ daxili işlər naziri A.V.Vlasov komitəçilərə xəbərdarlıq edildiyini dedi. Y.Liqaçov isə Sumqayıt hadisəsinin istintaqına dair prokurorluğun məlumat verməsini vacib hesab etdi. Onunla razılaşan M.Qorbaçov ordu və Daxili İşlər Nazirliyinin qüvvələrinin yerləşməsini, nisbətini öyrənməyin vacib olduğunu bildirdi, Ermənistan KP MK-nın ikinci katibi Y.P.Koçetkovun mülahizələrini nəzərə almağı müdafiə naziri D.Yazova tapşırdı. Y.P.Koçetkovun fikrincə, guya Azərbaycanda yerləşən ordu hissələrində azərbaycanlılar ermənilərə bir daha dərs vermək üçün hazırlaşırdılar. M.Qorbaçovun təbirincə, əgər yerlərdəki ordu hissələrinə arxayın olunsaydı, o zaman hakimiyyət silahlanmış xalqı qarşısında görə bilərdi. Ona görə də heç bir yerdə silah ələ keçirilməməsi, ekstremist təzahürlərin baş verməməsi üçün tədbirlər görməyi tapşırdı. Təcili olaraq həmin yerlərlə bağlı olmayan ordu hissələri axtarmağın və bunu təcili etməyin vacibliyini bildirdi. Ekstremistlərin radio binasını tutmalarını gözləməyin lazım olmadığını, radio binasını tutandan sonra onlara qarşı hər hansı bir tədbir görüldükdə bütün dünyanın guya onların məhv edilməsi barədə haray-həşir salacaqlarını söylədi.

M.Qorbaçov Siyasi Büro üzvlərinin diqqətinə K.Dəmirçiyanın bir xahişini çatdırdı. O, radio və televiziya ilə işləyən komanda hazırlamağı xahiş etmişdi. Çünki, guya işçilər ona tabe olmurdular.

Azərbaycanlıların və ermənilərin qarışıq yaşadıqları rayonlara ordu hissələri yerləşdirməyi təklif edən M.Qorbaçov daha sonra əlavə etdi ki, Yerevanda hansısa qayda, güc olmalı, xalq bunu görməlidir. O, *"Əfqanıstanda bir şey edə bilmirik, burada isə vətəndaş müharibəsi qızışır"* dedi. Xaricə telefon və teleqraf çıxışlarının, Moskvadan xarici jurnalistlərin Yerevana səfərlərinin məhdudlaşdırılmasını, ekstremistlərin saxlanılmasını vacib hesab edən M.Qorbaçov bütün bunları incə və çevik etməyi, mətbuat qrupunu yaratmağı, baş verən prosesləri işıqlandırmağı, xalqlara hörmətlə yanaşmağı, ekstremistləri təcrid etməyi tövsiyə etdi.

İnformasiyanı mexaniki deyil, seçib verməyi, inzibati xarakterli tədbirlərin görülməsini vacib sayan A.Qromıko təklif edilən tədbirləri bəyənərək, birmənalı olaraq dedi:

*"Hamı bilməlidir ki, hakimiyyət hakimiyyətdir".*

M.Qorbaçov isə əlavə etdi:

*"Hakimiyyət və güc".*

Tədbirləri bəyənən, müdafiədən hücuma keçməyi təklif edən, məsələnin siyasi həllinə tərəfdar çıxaraq siyasi güzəştlərə gedilməsini ölümə bərabər qiymətləndirən Nikolay Rıjkov bildirdi:

*"Ölkədə belə bəlalı nöqtələr çoxdur, zəncirvari reaksiya başlayacaq, onun nəticələrini bu gün təsəvvür etmək, hətta dövlətin sonrakı həyatını təsəvvür etmək çətindir".*

O, bütün hadisələrə qiymət vermək barədə söylənilən fikirlə razılaşaraq, "Pravda" qəzetində yaxşı məqalənin dərc edildiyini xatırlatdı. M.Qorbaçov isə həmin məqalənin ermənilər arasında mənfi reaksiya doğurduğunu bildirdi. N.Rıjkov bununla kifayətlənməməyi, mətbuatda hücuma keçməyi, radio və televiziyanı geniş qatmağı, ümumittifaq rəyi yaratmağı təklif etdi. O, bütün müttəfiq respublikaların ali sovet rəyasət heyətlərinin baş verənlərə münasibətlərini bildirməsini, ittifaqın Ermənistana qarşı qaldırılması kimi qiymətləndirdi. M.Qorbaçov bunun dost müraciəti olacağını dedi. Həmin müraciəti ölkənin taleyi üçün narahatlıq müraciəti kimi qiymətləndirən N.Rıjkov söylədi ki, qoy, insanlar fikirlərini desinlər, ekstremistlər isə hansı təcridə düşəcəklərini anlasınlar. Hadisələri mətbuat, radio və televiziyada geniş işıqlandırmağı, lakin bunu səliqə-sahmanla etməyi təklif edən N.Rıjkov *"bir neçə adamın həbsini minlərlərlə adamım qırılmasından daha yaxşı"* variant adlandıraraq, bu zaman salınacaq haray-həşirə fikir verməməyi deyərək əlavə etdi:

*"Sonra bizdən soruşacaqlar: vəziyyətin bu həddə gəlib çatmasına niyə imkan verdiniz".*

O, baş verənlərin ağır nəticələrinin olacağını bildirdi.

Mətbuatda Dağlıq Qarabağ ətrafındakı prosesləri işıqlandıran rubrikanın açılması təklifinə tərəfdar olan V.İ.Vorotnikovun çıxışına M.Qorbaçov müdaxilə edərək dedi:

*“Onlar həyasızlaşmışlar”.*

Sözünə davam edən V.Vorotnikov *“indi görürlər ki, onları dilə tuturlar, güzəştə gedirlər, izah edirlər. Səbrimizin həddinin olduğunu göstərmək zamanı artıq gəlib çatmışdır. Mənə elə gəlir ki, təkcə erməni ekstremistlərini deyil, azərbaycanlı ekstremistləri də diqqətə almaq lazımdır. Biz buna lazımi qədər diqqət ayırmamışıq. Bu, görünür, gözlənilməz oldu”* dedi.

M.Qorbaçov silah ələ keçirdilməsi halları haqqında DTK-nın müfəssəl məlumat toplamasına dair göstəriş verdi. V.Vorotnikov Yerevanda radio və televiziyanın nəzarətdən çıxması ilə bağlı bildirdi ki, bunların vasitəsi ilə istənilən müraciət ola bilər. M.Qorbaçov ya heyəti dəyişdirmək, ya da texniki qərarların qəbul edilməsinin lazımlığını bildirdi. V.Vorotnikov texniki vasitəni doğru hesab edərək, televiziyanı söndürməyin, o cümlədən Yerevan daxilində telefon rabitəsini kəsməyin mümkünlüyünü söylədi. Bu, onun fikrincə, erməni ekstremistləri üçün müəyyən çətinlik yarada bilərdi. Şəhərdə komendant saatı tətbiq etmədən patrul xidmətini gücləndirməyin lazım olduğunu bildirən V.Vorotnikov azərbaycanlılarda hansısa partlayışın olacağını güman edirdi.

Təklif edilən tədbirləri bəyənən, yerli partiya, sovet və ictimai təşkilatların doğru mövqe tuta bilmədiyini, rəhbərlərin özlərinin xeyli dərəcədə millətçi əhval-ruhiyyədə olduğunu, hərənin bir tərəfə çəkdiyini deyən Y.Liqaçov hər iki respublikada rəhbərliyi möhkəmləndirməyi, DQMV-nin iqtisadi, sosial və mədəni inkişafına dair tədbirlər haqqında qərar verilməsini də təklif etdi.

Çıxışında ordu yeridilməsinin yubadılmasının doğru olmadığını deyərək, patrul xidmətinin keçirilməsini, lakin atəş açılmamasını təklif edən Sov.İKP MK Siyasi Bürosunun üzvü Mixail Solomentsev əlavə etdi:

*“Qoy, gücü görsünlər”.*

D.Yazovun general Kurkotkini (SSRİ müdafiə nazirinin müavini S.K.Kurtorkin nəzərdə tutulur – M.Q.) Ermənistana, general Kulikovu (SSRİ daxili qoşunlarının Minsk diviziyasının komandiri A.S.Kulikov nəzərdə tutulur – M.Q.) Azərbaycana göndərmək təklifinə M.Qorbaçov *“belə çıxır ki, marşalların başçılığı ilə iki cəhbə açırıq”* deyərək, etiraz etdi. M.Solomentsev yenidən bildirdi ki, bu qarışıqlığın içində orada kommunistlər da vardır. Cavab olaraq M.Qorbaçov dedi ki, hamısı kommunistdir. Belə çıxır, biz indi partiyanı buraxmalıyıq, biz mübarizəni burada udmalıyıq. M.Solomentsev fikirlərini söylərkən ən qatı millətçi şəxsləri nəzərdə tuturdu.

Kadr məsələsinə toxunan M.Qorbaçov bildirdi ki, K.Dəmirçiyan işdən azad edilməsini azərbaycanlıların yanında, K.Bağırov isə qəbuluna gələrək xəstə olduğunu, sutkada yalnız iki saat yatdığını, başı ağrıdığını demiş, səhhəti ilə əlaqədar olaraq pensiyaya çıxarılmasını xahiş etmişdi. M. Qorbaçov dedi: *"Biz onları niyə saxlamalıyıq?"* Bu zaman G.Razumovski K.Bağırovun respublikada tennisçi kimi tanındığını, rayonlarda bunu bildiklərindən tennis kortları tikdiklərini dedi. M.Qorbaçov əsəbi halda *"hər şey elə qurulmuşdur ki, qızışan zaman işdən çıxsınlar"* söylədi. Həm K.Bağırovu, həm də K.Dəmirçiyanı *"siyasi meyit"* adlandıran M.Qorbaçov əlavə etdi ki, onların indi işdən çıxması qəhrəman olmaları deməkdir. M.Qorbaçov yaranmış şəraitdə Ermənistan KP MK plenumunun keçirilməsini hakimiyyəti həmin adamlara vermək kimi qiymətləndirdi. Y.Liqaçov Azərbaycanda vəzifəyə Əbdürrəhman Vəzirovun və Ermənistanda isə Suren Arutunyanın gətirilməsini təklif etdi. M.Qorbaçov Ə.Vəzirovu *"yeni adam"* kimi səciyyələndirdi, S.Q.Arutunyanın isə bu mərhələdə hamını qane edəcəyini, məsələyə aprel ayında qayıdacaqlarını bildirdi, Y.Liqaçova müraciətlə hadisələrin pis nəticəsini fikirləşməsini, reaksiyanın necə olmasını, bunun xalq üçün intihar olduğunu deyərək və erməniləri SSRİ ilə qonşu dövlət olan Türkiyəyə qarşı çıxışlara təhrik etməyi açıq-aşkar tövsiyə etdi:

*"Yeri gəlmişkən, bunu da səsləndirmək lazımdır. Qoy, türklərin üzərinə getsinlər. O zaman baş katib mütləq çıxış etməli olacaqdır"* [808].

Baş katib bu ifadələri söyləməklə özündən əvvəlki bəzi sovet rəhbərlərinin yolunu davan etdirirdi. Məlum olduğu kimi, Lenin, Stalin və Xruşşov da zamanında ermənilərdən Türkiyə əleyhinə istifadə etmişdilər.

Cavabında Y.Liqaçov Dağlıq Qarabağ və Ermənistandakı hadisələri Türkiyənin qəti şəkildə pislədiyini deyərək, müttəfiq respublikaların rəyasət heyətlərinin iclaslarını keçirtməyi və müraciət etməyi təklif etdi. Ermənistana və Azərbaycana ilk olaraq Rusiya müraciət etməli idi.

Bir müddət sonra Rusiya, Ukrayna, Gürcüstan, Belarus, Özbəkistan, Qazaxıstan, Litva, Moldova, Latviya, Qırğızıstan, Tacikistan, Türkmənistan və Estoniya SSR ali soveti rəyasət heyətləri münaqişəni dayandırmaq haqqında Azərbaycana və Ermənistana müraciət etdilər[809]. SSRİ Ali Soveti Rəyasət Heyəti isə martın 23-də Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də şəraitə dair müttəfiq respublikaların müraciətinə dair tədbirlər haqqında qərar qəbul etdi[810]. Qərarda mürək-

---

[808] Yenə orada.

[809] Заседание Президиумов Верховных Советов Союзных Республик. – Нагорный Карабах: разум победит, с. 23-40.

[810] О мерах, связанных с обращениями союзных республик по поводу событий в Нагорном Карабахе, в Азербайджане и Армянской ССР. Постановление

kəb milli-ərazi məsələlərinin dövlət hakimiyyət orqanlarına təzyiq yolu ilə həlli cəhdləri pislənilirdi. Lakin həmin müraciətin nəticəsi olmadı. Ermənistandan azərbaycanlıların qovulması və Azərbaycanın daxili işlərinə kobud müdaxilələr dayandırılmadı[811].

Azərbaycan hakimiyyəti Ermənistanın müdaxiləsinin qarşısını ala, respublikanın hüquqlarını qoruya və böhrandan çıxara bilmədi. Belə bir mürəkkəb şəraitdə Azərbaycan KP MK-nın birinci katibi K.Bağırov 1988-ci il mayın 21-də vəzifəsindən azad edildi. Mərkəz bu vəzifəyə uzun illər boyu Azərbaycandan kənarda yaşamış, milli ruha yad olan Əbdürrəhman Vəzirovu, Ermənistanda isə K.Dəmirçiyanın yerinə Suren Arutunyanı gətirdi. Hakimiyyət dəyişikliyi şəraiti nəinki yaxşılaşdırmadı, əksinə daha da ağırlaşdırdı. Böhran dərinləşdi.

### *Ermənistan Azərbaycanın daxili işlərinə müdaxiləni genişləndirir. Azərbaycanlıların Ermənistandan qovulması kütləvi hal alır*

Artıq qeyd edildiyi kimi, hakimiyyət dəyişikliyi Ermənistandan azərbaycanlıların qovulmasını və Azərbaycanın daxili işlərinə kobud müdaxiləni dayandırmadı. Qovulmanın motivləri əsasən aşağıdakılardan ibarət idi: azərbaycanlı əhali ətrafında yaradılmış qeyri-sağlam mənəvi-psixoloji mühit; “Ermənistandan rədd olun” şüarları; silahla hədələnmələri və həyatları üçün təhlükənin olması; ticarət obyektlərində azərbaycanlılara xidmət göstərilməməsi və təhqir olunmaları; Ermənistanın partiya və sovet orqanlarının azərbaycanlıların şikayətlərinə baxmaması[812].

Sovet rəhbərliyinin müraciətlərinə baxmayaraq, ermənilər 1988-ci il iyunun 13-də Yerevanda mitinq keçirtdilər. Ermənistan SSR Ali Soveti bundan bir neçə gün sonra, iyunun 15-də keçirilən iclasında DQMV Xalq Deputatları Sovetinin müvafiq müraciətinə baxaraq, DQMV-nin Ermənistan tərkibinə "girməsinə" razılıq verdi. DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi barədə müsbət qərar qəbul etmək haqqında Bakı və Moskvaya müraciət edildi. Azərbaycan SSR Ali Soveti və onun Rəyasət

---

Президиума Верховного Совета СССР. 23.03.1988. – Нагорный Карабах: разум победит, с.41-42; Проблема Нагорно-Карабахской Автономной области (справочная информация). – ARXİNA. Katiblik. Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyi. 02.01.2003-18.03.2003. Qovluq №S, v.233-236.

[811] Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде – ЦК КП Азербайджана. О некоторых элементах обстановки в республике. 03.04.1988. Секретно. – ARMTNA, 10/312, v.78.

[812] Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде – ЦК КП Азербайджана. О некоторых элементах обстановки в республике. 28.05.1988. Секретно. – ARMTNA, 10/509, v.195.

Heyəti 1988-ci il iyunun 13[813] və 17-də[814] qəbul etdiyi qərarlarda SSRİ konstitusiyasının 78-ci və Azərbaycan konstitusiyasının 70-ci maddələrini əsas gətirərək DQMV-nin Azərbaycan SSR-dən alınaraq Ermənistan SSR-ə birləşdirilməsinin qəbuledilməz və mümkünsüz olduğunu bildirdi.

Müttəfiq respublikalar arasında sərhəd dəyişikliyinin mümkünlüyünü müzakirə etmək üçün ciddi bir əsas olmadığını və SSRİ konstitusiyasının müddəalarını, Azərbaycan SSR və Ermənistan SSR-in qüvvədə olan əsas qanunlarını nəzərə alaraq, məsələnin artıq sona çatdığını hesab etmək olardı. Lakin belə olmadı. Ermənistan Azərbaycanın daxili işlərinə kobud müdaxilələrini daha da genişləndirərək xaricdəki erməni diasporasını da bu işə cəlb etdi. Belə ki, SSRİ-nin Parisdəki səfiriliyi qarşısında iyunun 16-da mitinq keçirən 100 minə yaxın erməni DQMV-nin Ermənistana verilməsini tələb etdi[815].

Ermənistan daha bir kobud müdaxiləyə əl atdı. Ermənistan KP MK Sov.İKP MK-ya müraciət edərək Sumqayıt hadisəsi ilə əlaqədar olaraq həbs olunmuş şəxslərin məhkəməsinin Azərbaycandan alınaraq SSRİ Ali Məhkəməsinin icraatına verilməsini xahiş etdi. Sov.İKP MK katibliyi 1988-ci il iyunun 11-də bu müraciət barədə mülahizələrini bildirmək üçün SSRİ Ali Məhkəməsinin sədri V.İ.Terebilova, SSRİ baş prokuroru A.Y.Suxarevə və SSRİ ədliyyə naziri B.V.Kravçevə məktub göndərdi. Həmin şəxslər iyunun 17-də verdikləri cavab məktubunda hadisə üzrə 84 nəfərin həbs edildiyini, onlardan 82 nəfərinin azərbaycanlı olduğunu yazırdılar. Amma nəyə görəsə, məktub müəllifləri digər iki nəfərin hansı millətə mənsub olduğunu qeyd etməmişdilər. Həmin şəxslərdən biri artıq qeyd edildiyi kimi, hadisələrin təşkilatçısı və başlıca icraçısı, 1959-cu ildə anadan olmuş, 1979, 1981 və 1982-ci illərdə bütövlükdə 9 il 2 ay 13 gün həbsdə yatmış Eduard Robertoviç Qriqoryan idi. Digəri də erməni idi. Məktubda işlərin istintaqının SSRİ prokurorluğu tərəfindən aparıldığı qeyd edilirdi. Bütün istintaq işləri qanunun tələblərinə uyğun aparılmış, üç iş başa çatdırılaraq Azərbaycan SSR Ali Məhkəməsinin icraatında verilmişdi, 26 nəfər barədə 12 iş isə yaxınlarda məhkəməyə göndəriləcəkdi.

---

[813] Постановление Президиума Верховного Совета Азербайджанской ССР о ходатайстве депутатов Совета Народных Депутатов Нагорно-Карабахской Автономной области о передаче области из Азербайджанской ССР в состав Армянской ССР. 13.06.1988 г. – Нагорный Карабах: разум победит, с. 81-82.

[814] Постановление Президиума Верховного Совета Азербайджанской ССР о ходатайстве депутатов Совета Народных Депутатов Нагорно-Карабахской Автономной области о передаче НКАО из состава Азербайджанской ССР в состав Армянской ССР. 17.06.1988 г. – Нагорный Карабах: разум победит, с. 96-97.

[815] Cemalettin Taşkıran. Geçmişten günümüze Karabağ meselesi. Ankara, Genelkurmay Basımevi, 1995, s. 149.

V.Terebilov, A.Suxarev və B.Kravçevin fikrincə, Azərbaycanda və Ermənistanda geniş ictimai əks-səda doğurmuş işləri RSFSR-in vilayət məhkəmələrinə, xüsusən, Volqoqrad, Voronej və Kuybışev vilayətləri məhkəmələrinin icraatına vermək olardı. Onlar həmin işlərin SSRİ Ali Məhkəməsinin icraatına verilməsinə ehtiyac duymurdular[816].

Bununla kifayətlənməyən Y.Liqaçov iyunun 17-də MK katibi A.İ.Lukyanovdan da öz fikirlərini bildirməsini xahiş etdi[817]. Sorğuya iyunun 18-də cavab verən A.Lukyanov *"təklif tamamilə qanunauyğundur, məsələ MK-nın şöbələrində əvvəlcədən işlənilmiş və məqsədəuyğun sayılmışdır, onlarla razılaşmaq olar"* dərkənarını yazdı[818]. Bundan sonra işlərin bəziləri alınaraq RSFSR məhkəmələrinə verildi.

Bu zaman Ermənistandan qovulan azərbaycanlılar kortəbii mitinqlər keçirərək DQMV-də qayda-qanun yaradılmasını, Ermənistanda yaşayan azərbaycanlıların təhlükəsizliyinin təmin edilməsini tələb edirdilər[819]. Azərbaycan hakimiyyəti bu haqlı tələbləri yerinə yetirə bilmir, Moskvada isə zəif, xalqdan ayrı düşmüş respublika rəhbərliyini dinləmək istəmirdilər. Ermənistandan vəhşicəsinə qovulmalarına və evsiz-eşiksiz qalmalarına cavab olaraq qaçqınlar da Azərbaycandakı ermənilərin işdən çıxarılmasını tələb edirdilər [820]. Ermənistandan qovulan azərbaycanlıların sayı bu zaman 18 min 500 nəfəri ötüb keçmişdi [821].

Ermənistandan qovulmuş azərbaycanlıların, Azərbaycandan çıxıb getmiş ermənilərin geri qaytarılması məsələsi sovet rəhbərliyinin göstərişinə uyğun olaraq gündəliyə gətirildi. Bu münasibətlə iyunun 27-30-da Azərbaycana gəlmiş Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini Y.E.Xocanberyana Azərbaycan televiziyası və mətbuatında Ermənistandan qovulan azərbaycanlıların geri qayıtmasına dair çıxış etmək təklif

---

[816] В.И.Теребилов, А.Я.Сухарев, Б.В.Кравчев – ЦК КПСС.17.06.1988. №1-5-86s-88. – РГАНИ, ф.89, оп.33, д.11, л.1.

[817] Е.К.Лигачев – А.И.Лукянову. 17.06.1988. – РГАНИ, ф.89,оп.33, д.11, л.10.

[818] А.И.Лукянов – Е.К.Лигачеву. 18.06.1988. – РГАНИ, ф.89,оп.33, д.11, л.11.

[819] Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде – ЦК КП Азербайджана. Об обстановке в республике. 23.06.1988. Секретно. – ARMTNA, 10/637, v. 265-266.

[820] Председатель КГБ Азербайджанской ССР З.М.Юсифзаде – ЦК КП Азербайджана. Об обстановке в республике. 24.06.1988. Секретно. – ARMTNA, 10/624, v.259.

[821] И.о.председателя КГБ Азербайджанской ССР В.А.Лакончев – ЦК КП Азербайджана. Об обстановке в республике. 28.06.1988. Секретно. – ARMTNA. 10/644, v.277.

olundu. Lakin o, Ermənistanda mənfi reaksiya doğuracağını bəhanə gətirərək, belə bir çıxışdan imtina etdi[822].

1988-ci ilin iyulun əvvəllərindən etibarən Yerevanda və Ermənistanın digər şəhərlərində kütləvi mitinqlər keçirilməyə başladı. Bunun ardınca, iyulun 12-də DQMV Xalq Deputatları Soveti bölgənin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair qərar qəbul etdi[823]. Cavab olaraq iyulun 13-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti SSRİ və Azərbaycan SSR konstitusiyalarına, eləcə də Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Azərbaycan SSR qanununa əsaslanaraq vilayətin Azərbaycan SSR-dən birtərəfli qaydada ayrılmasına dair DQMV Xalq Deputatları Sovetinin 12 iyul tarixli qərarının qanunsuz və heç bir hüquqi qüvvəsi olmadığını bəyan edən qərar qəbul etdi.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti iyulun 18-də Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ haqqında məsələ üzrə qərarları barədə qərar qəbul etdi. Qərarda Ermənistan və Azərbaycan arasında konstitusiya əsasında müəyyənləşdirilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsinin yolverilməzliyi bildirilir, göstərilirdi ki, SSRİ konstitusiyasının 78-ci maddəsinə əsasən müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz. Müttəfiq respublikalar arasında sərhədlər müvafiq respublikaların qarşılıqlı razılığı və SSRİ-nin ali orqanlarının təsdiqi nəticəsində mümkün ola bilərdi[824]. Bu müddəa Ermənistan SSR və Azərbaycan SSR konstitusiyalarında da əksini tapmışdı.

Beləliklə, Dağlıq Qarabağı Azərbaycan SSR-dən qopardaraq tərkibinə qatmaq məqsədilə Ermənistan SSR-in başladığı açıq müdaxilə SSRİ konstitusiyasının kobud şəkildə pozulması ilə müşayiət olunduğundan hüquqi nəticə doğurmadı. SSRİ Ali Sovetinin Rəyasət Heyəti həmin əsassız iddiaları rədd etdi.

Buna baxmayaraq, DQMV-də müəssisələr işləmirdi[825]. Az sonra vilayətdə milli zəmində toqquşmalar baş verdi[826]. Qanlı toqquşmaların

---

822 Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана. Об обстановке в республике. 02.07.1988. Секретно. – ARMTNA, 10/752, v.54-55.

823 Агрессия Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агрессии представленный в международные организации. Баку, май 1994 г. – ARXİNA. 1994. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. Qovluq № 9, v. 16.

824 Постановление Президиума Верховного СССР о решениях Верховных Советов Азербайджанской ССР и Армянской ССР по вопросу о Нагорном Карабахе. 18.07.1988 г. – Нагорный Карабах: разум победит, с.153-155.

825 Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана. Об обстановке в республике. 05.07.1988. Секретно. – ARMTNA, 10/0668, v.290.

qarşısını almaq üçün 1988-ci il iyulun 28-də Dağlıq Qarabağda fövqəladə vəziyyət elan edildi.

Ermənistanda isə azərbaycanlıların hüquqlarının kobudcasına pozulması və onların qəddarlıqla qovulması halları daha da artmışdı. Azərbaycan hakimiyyəti Ermənistandakı azərbaycanlıların hüquqlarını qoruya bilmirdi. Respublika böyük bir humanitar fəlakətlə üz-üzə qalmışdı. Belə ki, 1988-ci il avqustun 1-nə olan məlumata görə Ermənistandan qovulan qaçqınlar Azərbaycanın 45 şəhər və rayonuna toplanmışdı. Onların bəziləri zorla Ermənistana qaytarılsa da, həmin qayıdışın elə bir ciddi nəticəsi olmadı. 1988-ci il oktyabr ayının əvvəllərinə olan məlumata görə Ermənistandan Azərbaycana 28 min 225 nəfər və ya 6 min 516 ailə qovulmuşdu.

Azərbaycanlılar DQMV-dən də zorla qovulurdular. Stepanakert, Əskəran, Martuni və Hadrut rayonlarından Şuşa, Ağdam və digər rayonlara 3 min 69 nəfər və ya 569 azərbaycanlı məcburi köçkün ailəsi gəlmişdi[827]. Onların konstitusiya hüquqları respublika daxilində kobud surətdə pozulmuşdu. Hakimiyyət bu hüquqları qorumaqda gücsüz idi. Mərkəzi hökumət isə Azərbaycan rəhbərliyini saya salmır, azərbaycanlıları qaçqına çevirən və digər müttəfiq respublikanın ərazisini özünə birləşdirməyə çalışan Ermənistanı cəzalandırmırdı.

Yaranmış şərait Azərbaycanda daim yaxşı yaşamış ermənilərə mənfi təsir etdiyindən onlar da çıxıb gedirdilər. DQMV-yə köçməyə icazə verilməsə də, erməni ailələri kütləvi şəkildə Muxtar Vilayətin ərazisinə yerləşdirilirdilər. Belə bir fakt diqqəti cəlb edir ki, əgər 70-ci illərdə Muxtar Vilayətdə yaşayan əhalinin içərisində ermənilərin çəkisi təqribən 75%, azərbaycanlıların çəkisi 25% idisə, 80-ci illərin sonlarında ermənilər artaraq 80%, azərbaycanlılar isə azalaraq 20% olmuşdu. Bunda başlıca məqsəd vilayətdəki ermənilərin ümumi çəkisini artırıb Ermənistana birləşdirmək idi[828].

1988-ci il dekabrın 1-dək Azərbaycanı 50 mindən çox erməni və ya 13 min 131 erməni ailəsi,[829] dekabrın 7-nə olan məlumata görə 78 min 728 nəfər erməni tərk etmişdi. Ermənistandan qovularaq qaçqına çevrilən azərbaycanlıların sayı isə 110 min nəfərə çatmışdı.[830] Onların DQMV-də

---

[826] Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана. Об обстановке в республике. 07.07.1988. Секретно. – ARMTNA, 10/681, v.4.
[827] Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана.Об обстановке в республике. 02.10.1988. Секретно. – ARMTNA, 10/966, v.150.
[828] Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана.Об обстановке в республике. 02.10.1988. Секретно. – ARMTNA, 10/966, v.150.
[829] Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана.Об обстановке в республике. 02.12.1988. Секретно. – ARMTNA, 10/1076, v.219.
[830] Председатель КГБ Азербайджанской ССР – ЦК КП Азербайджана. Об обстановке в республике. 07.12.1988. Секретно. – ARMTNA, 10/1089, v.233.

yerləşdirilməsinə icazə verilmədi. Ermənistanda ev-eşiklərini itirən və könüllü olaraq vilayətə yerləşmiş azərbaycanlı qaçqınlar Mərkəzi və Azərbaycan hakimiyyəti tərəfindən zorla oradan çıxarıldılar.

### *Ermənistanda zəlzələ və Azərbaycanın yardımı*

1988-ci il dekabrın 7-də Ermənistanda 25 min adamın ölümünə və 500 min adamın evsiz-eşiksiz qalmasına səbəb olan dəhşətli zəlzələ baş verdi. Əsassız ərazi iddiaları irəli sürməsinə və tarixi torpaqlarında yaşayan azərbaycanlıların hər şeyini əllərindən zorla alıb qaçqına çevirməsinə baxmayaraq, Azərbaycan tərəfi Ermənistana humanitar yardımla dolu təyyarə göndərdi. Qəribə idi: yardım toplayanlar arasında Ermənistandan vəhşicəsinə qovularaq ev-eşiklərindən məhrum edilmiş azərbaycanlılar da var idi. Lakin təyyarə Ermənistan səmasında vurularaq qəzaya uğradıldı. Təyyarədəkilər həlak oldular. Yalnız bir nəfər xilas ola bildi. O da ömrünün sonuna qədər əlil qaldı.

Yardım aparan təyyarənin vurulması Ermənistanın düşmənçilik siyasətinin nə qədər qəddar olduğunu göstərirdi. Bütün pislikləri unudaraq yardım aparan azərbaycanlıların öldürülməsi dəhşətli bir hadisə idi.

Zəlzələnin nəticələrini aradan qaldırmaq üçün çalışan xarici ölkə xilasedicilərinin rastlaşdığı bir hadisə təyyarə qəzasından da daha dəhşətli idi. Xilasedicilər ermənilər tərəfindən diri-diri doldurulmuş və ağızları qaynaqlanmış qaz borularının içərisindən 30 nəfərədək azərbaycanlı uşağın meyitini tapdılar[831]. Bu, düşmənçilik və nifrət hisslərinin həddinin olmadığını göstərirdi.

Təbii fəlakət Ermənistanın işinə yaradı. Zəlzələdən ziyan görən əhaliyə yardım adı altında xaricdəki erməni diasporası Ermənistana çoxlu silah və sursat göndərdi. Akademik Ramiz Mehdiyevin yazdığı kimi, dünya təbii fəlakətdən ziyan görmüş Ermənistana kömək edərkən humanitar yardım adı altında xaricdən gələrək fəlakət zonasına daxil olan daşnak qrupları və beynəlxalq terrorçular milli münaqişəni qızışdırmaq üçün hər şeyi edirdilər[832].

### *Mərkəzi hakimiyyət Azərbaycanın hüquqlarını pozur*

Bu zaman sovet rəhbərliyi Azərbaycanın hüquqlarını kobudcasına pozan bir addım atdı. SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1989-cu il yan-

---

[831] Azərbaycan SSR Ali Sovetinin Amerika Birləşmiş Ştatlarının senatına müraciəti. 23.12.1992. – ARXİNA.1992.

[832] Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. М., 2014, с.211.

varın 12-də Azərbaycan SSR konstitusiyasına zidd olaraq 10025 №-li qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi İdarə Komitəsi yaratdı. Komitənin tərkibinə 8 nəfər daxil idi. Onların 5 nəfəri Sov.İKP MK, mərkəzi nazirlik və idarələrin nümayəndələri idi. Komitənin tərkibində SSRİ DTK-nın iki nəfər əməkdaşı da var idi. Bu qərarı Sov.İKP MK Siyasi Bürosu 13 yanvar tarixli iclasında müzakirə etdi və P146/41№-li qərarı ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində Xüsusi İdarə Komitəsi yaratdı. Komitənin sədri Arkadiy Volskiy təyin edildi.

Belə bir komitənin yaradılması regionun Azərbaycanın nəzarətindən çıxarılmasında başlıca rol oynadı. Ermənilər Xüsusi Komitənin fəaliyyətini sabotaj edərək Azərbaycanın avtomobil və dəmiryollarına qarşı təxribatlar törətməyə, DQMV-də kütləvi talanlar etməyə, təbii sərvətləri dağıtmağa və meşələri qırmağa başladılar.

Bunlara cavab olaraq 1989-cu il avqustun 12-də Bakıda kütləvi mitinqlər başladı. Mitinq iştirakçıları Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsinin, təcavüzünün və azərbaycanlıların qovulmasının dayandırılmasını tələb edirdilər.

## *Azərbaycan Respublikasının suverenliyi haqqında konstitusiya qanunu*

Belə bir şəraitdə DQMV əhalisinin qondarma səlahiyyətli nümayəndələrinin konqresi 1989-cu il avqustun 16-da keçirilən iclasında Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində muxtariyyətini tanımaqdan imtina etdiyini bəyan etdi. "Konqres" eyni zamanda DQMV-ni Azərbaycan SSR konstitusiyasının və respublikanın digər qanunlarının işləmədiyi "müstəqil ittifaq ərazisi" elan etdi, DQMV-də "müstəsna xalq hakimiyyəti"ni bəyan edən qondarma "milli şura" yaratdı. Bütün bu qanunsuz hərəkətlər Xüsusi Komitənin fəaliyyət göstərdiyi müddətdə baş verdi.

Konstitusiyaya zidd olan bu hərəkətə Azərbaycan tərəfinin reaksiyası gecikmədi. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti avqustun 26-da "Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin səlahiyyətli nümayəndələrinin konqresi"nin qərarını qanunsuz elan edən qərar qəbul etdi[833]. Bir müddət keçmiş, 1989-cu il sentyabrın 23-də Azərbaycan SSR Ali Soveti Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında Azərbaycan SSR-in konstitusiya qanununu qəbul etdi. Qanunun 5-ci maddəsində yazılırdı:

---

[833] Постановление Президиума Верховного Совета Азербайджанской ССР о неконституционной акции в НКАО. 26.08.1989. – Нагорный Карабах: разум победит, с.384-385.

*"Azərbaycan SSR-in suverenliyi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla respublikanın bütün ərazisinə şamil edilir... Azərbaycan SSR-in digər müttəfiq respublikalarla sərhədləri yalnız müvafiq respublikaların qarşılıqlı sazişi üzrə dəyişdirilə bilər".*

Azərbaycan tərəfi Xüsusi Komitənin fəaliyyətindən qəti şəkildə narazılığını bildirdi. Sovet rəhbərliyi 1989-cu il noyabrın 28-də Xüsusi İdarə Komitəsini ləğv etməyə məcbur oldu. Onun əvəzində SSRİ Ali Soveti Xüsusi Komissiyasının nəzarəti altında Dağlıq Qarabağ üzrə Azərbaycan SSR-in Təşkilat Komitəsi yaradıldı.

## *DQMV-nin birləşdirilməsi haqqında qanunsuz qərar*

SSRİ Ali Sovetinin bu qərarını Ermənistan rəhbərliyi etirazla qarşıladı. Hadisələrin gedişində Yerevanda Erməni Milli Hərəkatı quruldu. Onun rəhbərliyinə şərqşünas alim Levon Ter-Petrosyan gətirildi. Hərəkatın başlıca məqsədi Dağlıq Qarabağ regionunu Azərbaycandan qopardıb Ermənistana birləşdirmək idi.

Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında qərar qəbul etdi. Bundan sonra Xankəndində Ermənistan SSR bayrağı qaldırıldı. Ermənistan parlamentinin Dağlıq Qarabağa dair bir müttəfiq respublikanın ərazisinin müəyyən hissəsinin digərinin xeyrinə birtərəfli qaydada ələ keçirdilməsini qanuniləşdirməyə və digər dövlətin ərazisində konstitusiyaya zidd qurumun yaradılmasına yönəldilmiş bu və digər qərarları beynəlxalq hüquqa da zidd idi[834]. Ona görə də dekabrın 2-də Azərbaycan tərəfi həmin qərarın hüquqi əsası olmadığını bəyan etdi.

Belə bir şəraitdə Bakıda Azərbaycan Xalq Cəbhəsi quruldu. Onun rəhbəri şərqşünas alim Əbülfəz Əliyev (Elçibəy) oldu.

Bu zaman Ermənistandan azərbaycanlıların amansızlıqla qovulması davam edirdi. Kütləvi qovulma ölüm və zorakılıq halları ilə müşayiət olunurdu. Azərbaycan SSR prokurorluğunun məlumatına görə 1988-1989-cu illərdə münaqişə zəminində 216 nəfər azərbaycanlı öldürülmüşdü[835].

---

[834] Embassy of the Republic of Azerbaijan in the USA. Legal aspects of the conflict in Nagorno-Karabakh. – ARXİNA. 1993. Münaqişəli problemlər idarəsi. Qarabağ probleminə dair sənədlər. 2-ci hissə. Qovluq № 22, v. 94-94.

[835] Агрессии Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агрессии, представленный в международные организации. Баку, май 1994 г. – ARXİNA. 1994. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. Qovluq № 9, v.26.

Öldürülənlərin əksəriyyəti uşaqlar, qadınlar və yaşlılar idi. Kütləvi zorakılıq və talanlar dövründə hərbiləşdirilmiş qruplaşmalar xüsusi qəddarlığı ilə seçilmişdilər. Azərbaycanlılar tarixən yaşadıqları 172 kənddən qovulmuşdular[836]. Bütövlükdə, Ermənistan ərazisindən 185 min 519 nəfər və ya 40897 azərbaycanlı ailə qovulmuşdu. Onlar əmlaksız və evsiz-eşiksiz qalmışdılar. Ermənistanda azərbaycanlılara məxsus bütün tarixi yer adları dəyişdirilərək erməniləşdirilmişdi. Sonralar, 1991-ci il aprelin 9-da Ermənistan Respublikası Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi qərara əsasən azərbaycanlılara məxsus 94 kəndində adı dəyişdirildi[837]. Ermənistanda azərbaycanlılara aid olan tarix və mədəniyyət abidələri, məzarlar və məscidlər tamamilə dağıdılmış, yerlə yeksan edilmişdi. Azərbaycanlılara qarşı olan münasibəti və onların qovulmasının ağır nəticələrini hətta SSRİ Nazirlər Sovetinin sədri Nikolay Rıjkov da Yerevandakı çıxışında etiraf etmişdi[838].

Vilayətdə də azərbaycanlılara qarşı zorakılıqlar davam edirdi. Belə ki, 1990-cı il yanvarın 2-də Xankəndində ermənilər azərbaycanlıları daşıyan avtobusu daşa basdılar.

Ermənistan SSR Ali Soveti Azərbaycanın daxili işlərinə müdaxiləni davam etdirərək yanvarın 9-da Dağlıq Qarabağı Ermənistanın 1990-cı ilin iqtisadi planına daxil etdi. SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 10-da etiraz edərək "Dağlıq Qarabağ barəsində Ermənistan SSR Ali Sovetinin 1989-cu il dekabrın 1-də və 1990-cı il yanvarın 9-da qəbul etdiyi qərarların SSRİ konstitusiyasına uyğun olmaması haqqında" qərar qəbul etdi. Qərarda Azərbaycan SSR-in razılığı olmadan Ermənistan SSR ilə DQMV-nin birləşdirilməsinin qanunsuz olduğu bildirilirdi. Buna cavab olaraq Ermənistan SSR Ali Soveti Ermənistanda yalnız Ermənistan qanunlarının qüvvədə olduğunu bəyan etdi.

SSRİ və Azərbaycan SSR orqanlarının qərarlarına baxmayaraq, Ermənistan Azərbaycan ərazilərinə qanunsuz silahlı dəstələr göndərməyi, daxili işlərinə kobud surətdə müdaxiləsini və təcavüzünü davam etdirirdi. Mərkəzi hökumətin azərbaycanlıların etirazlarına məhəl qoymaması və hüquqlarını qorumaması nəticəsində Azərbaycanda şərait daha da pisləşirdi. Uğursuzluqlar daxili siyasi sabitsizliyə gətirib çıxardı. Bakıda mitinqlər ara vermirdi. Əhali Ermənistanın müdaxiləsini dayandırmağı, DQMV-də şəraiti normallaşdırmağı və Ermənistandan qovulan insanların

---

[836] Yenə orada, v. 28.

[837] Yenə orada.

[838] Мы сильны, когда мы вместе. Собрание партийно-хозяйственного актива Армянской ССР. 17.01.1989. Выступления председателя Совета Министров СССР Н.И.Рыжкова на собрании руководящего состава Армянской ССР. – Газ. "Правда", 18.01.1989, №18 (25736).

problemlərinin həllini tələb edirdi. Xalqdan ayrı düşmüş Azərbaycan hakimiyyəti isə həmin tələbləri yerinə yetirə bilmirdi. Respublikanın paytaxtında şərait nəzarətdən çıxırdı. Azərbaycanın bölgələrində də vəziyyət kəskinləşmişdi. Azərbaycan Xalq Cəbhəsinin fəalları bir neçə rayonda hakimiyyət orqanlarını ələ keçirtdilər. Yanvarın 11-12-də Lənkəranda mitinqçilər Azərbaycan KP yerli partiya təşkilatının və radionun binalarını tutdular. Bir neçə digər rayonda da belə hallar baş verdi. Təxribatçılar yanvarın 13-də Bakıda ermənilər yaşayan bəzi evlərə hücum etdilər.

Yaranmış ağır şəraitdən istifadə edən Ermənistan silahlı qüvvələri Naxçıvan üzərinə hücumları genişləndirərək yanvarın 15-də Sədərək rayonunun Kərki kəndini işğal etdi. Əhali məcburi köçkünə çevrildi.

Bu zaman respublika idarəolunmaz həddə çatmışdı. Baş verən proseslərin qarşısını almaq üçün yanvarın 17-dən etibarən Azərbaycana əlavə sovet hərbi hissələri gətirilməyə başlandı. Azərbaycana yeridilən sovet əsgərlərinin sayı yanvarın 19-da artıq 24 min nəfərə çatmışdı.

### *1990-cı il 20 yanvar hadisəsi*

M.Qorbaçov başda olmaqla sovet rəhbərliyi etirazları yatırtmaq üçün əsasən Rostov, Kuban, Krasnodar və Stavropolda yaşayan ehtiyat əsgər və zabitlərdən komplektləşdirilmiş qoşun hissələrinin 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda dinc əhaliyə qarşı silah işlətməsi haqqında əmr verdi. Bundan əvvəl isə Azərbaycan televiziyasının enerji bloku partladıldı. Enerji blokunun partladılmasında başlıca məqsəd ordunun şəhərə daxil olması haqqında əhalinin məlumat ala bilməsinə əngəl olmaq idi. Görünür, sovet rəhbərliyi televiziya vasitəsi ilə müraciət ediləcəyindən və bütün Azərbaycan xalqının ayağa qalxacağından qorxmuşdu. Əhali baş verən hadisələrdən xəbər tuta bilmədi.

Qoşun hissələri Bakıda və Azərbaycanın digər ərazilərində görünməmiş vəhşiliklə dəhşətli qətliam törətdi. 130 nəfərdən çox dinc azərbaycanlı öldürüldü, 700 nəfər yaralandı, 12 nəfər itkin düşdü.

20 yanvar hadisəsi nəticəsində Əbdürrəhman Vəzirov respublikadan qaçdı. Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə yanvarın 25-də Ayaz Mütəllibov gətirildi.

Bu zaman Azərbaycan informasiya blokadasında idi. Moskvada sərt nəzarət altında olan Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək keçirtdiyi mətbuat konfransında rəhbərliyin hərəkətlərini ittiham edən bəyanat verdi. Baş verənləri hüquqa zidd, demokratiyaya yad və humanizm prinsiplərinin əleyhinə olan hadisə kimi qiymətləndirdi.

20 yanvar qırğını sovet hakimiyyətinin vətəndaşlarına qarşı törətdiyi ağır cinayət idi. Hadisənin mahiyyətini təhlil edən akademik Ramiz Mehdiyev yazır:

*"Totalitar kommunist rejimin XX əsrdə həyata keçirtdiyi ən qanlı terror aktlarından biri olan bu təcavüz Azərbaycan xalqına qarşı, bəşəriyyətə və humanizmə qarşı dəhşətli cinayətdir"* [839].

20 yanvar hadisəsinin böyük nəticələri oldu. SSRİ-nin mövcudluğuna son qoyan amillərdən biri olan 20 yanvar hadisəsi sovet siyasi sisteminin böhranını, M.Qorbaçovun yenidənqurma siyasətinin iflasını göstərdi və Azərbaycan xalqı ilə hakimiyyət arasında uçurumu daha da dərinləşdirdi. Həlak olanların xatirəsinə ehtiram olaraq Azərbaycanda fabrik və zavodların 40 gün işləməməsi nəticəsində vahid təsərrüfat sistemi olan SSRİ iqtisadi baxımdan dağılmağa başladı. Ordu və hüquq-mühafizə orqanları xalqa qarşı silah tətbiq etməklə özlərinə nifrət qazandılar. Orduya olan inam qırıldı və ölkənin hərb sistemi dağılmağa doğru getdi. Azərbaycanda kommunistlərin bir çoxunun Sov.İKP üzvlüyündən imtina etməsi, partiya biletlərini cırması və yandırması ilə SSRİ-nin ideoloji əsası da dağılmağa başladı.

20 yanvar hadisəsi Azərbaycan xalqının həyatında dönüş mərhələsi oldu. O, bundan sonra Moskva ilə yolunun bir olmayacağını, keçmişə qayıdışın mümkünsüzlüyünü dərk edərək, Mərkəzi və yerli hakimiyyətə etimad bəsləmədi. Müstəqillik və milli azadlıq uğrunda mübarizə qətiləşdi. Xalq nicat yolunu yalnız müstəqillikdə gördü.

Hakimiyyətə gələn Ayaz Mütəllibov da Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsinin qarşısını ala bilmədi. Təkcə Azərbaycanda deyil, bütün SSRİ-də böhranın dərinləşdiyi bir zamanda M.Qorbaçov 1990-cı ilin mart ayında prezident kreslosuna yiyələnsə də, münaqişənin dayandırılması istiqamətində ciddi tədbirlər həyata keçirtmədi. Azərbaycana qarşı təcavüz dayandırılmadı. Ermənistan Azərbaycan ilə sərhəd rayonlarda da azərbaycanlı əhaliyə qarşı silahlı hücumları genişləndirdi. Təkcə 1990-cı il martın 23-24-də Azərbaycanın Qazax rayonunun sərhəd kəndlərinə hücum edən erməni silahlı dəstələri 9 nəfəri öldürdülər, Bağanıs Ayrım kəndində isə 7 nəfər dinc sakini diri-diri yandırılmaqla və doğramaqla vəhşicəsinə qətlə yetirdilər, 1 nəfəri yaraladılar, əmlakları talan edilməklə 13 yaşayış evini yandırdılar[840]. Bu, dəhşətli bir cinayət idi.

Az sonra SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1990-cı il 3 aprel tarixli qərarı ilə Azərbaycan SSR və Ermənistan SSR arasındakı sərhədlərin və konstitusiya ilə müəyyən edilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsinin

---

[839] Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəkləri. Bakı, 2000, s. 30.

[840] Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər). Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi. Toplayan və tərtib edənlər: Fərhad Vahabov, Vəli Axundov, Elman Qasımov. Bakı, 2005, s.11.

yolverilməz olduğunu bəyan etdi[841]. Qərarda Azərbaycan SSR-in razılığı olmadan Ermənistan SSR və Dağlıq Qarabağın birləşdirilməsinin SSRİ konstitusiyasının 78-ci maddəsinə zidd olduğu birmənalı vurğulanırdı.

M.Qorbaçovun ölkədə və dünyada baş verən hadisələri doğru qiymətləndirməməsi əhalinin əhval-ruhiyyəsinə mənfi təsir edirdi. Ermənistanın Azərbaycanın daxili işlərinə kobud müdaxilələri artır, böhran getdikcə - dərinləşirdi. Belə bir zamanda, 1990-cı il mayın 18-də Ayaz Mütəllibov Azərbaycan parlamenti tərəfindən respublika prezidenti seçildi[842]. Ermənistanın hərbi təcavüzünün qarşısının alınmaması və gərginləşən iqtidar – müxalifət münasibətləri Azərbaycanda ictimai-siyasi şəraiti daha da ağırlaşdırırdı.

### *Ermənistan beynəlxalq şəraitdən yararlanır*

Bu zaman beynəlxalq münasibətlərdə qanlı bir hadisə baş verdi. 1990-cı il avqustun 2-də başlayan Körfəz müharibəsi bütün dünyanı silkələdi. Sovet rəhbərliyinin diqqətini Körfəz müharibəsi ilə bağlı diplomatik səylərə yönəltməsi Ermənistanın işinə yaradı. Yaranmış şəraitdən istifadə edən Ermənistan silah və sursat əldə etdi. Həmin silahlardan həm Azərbaycanın Dağlıq Qarabağ regionunda, həm də Ermənistan ilə sərhəd kəndlərdə yaşayan azərbaycanlılara qarşı istifadə edilirdi.

Azərbaycana qaçqınlar gəlməkdə davam edirdi. 1990-cı ilin sentyabrında Azərbaycanda Ermənistandan qovulan 201 min azərbaycanlı, 2,5 min kürd, 1,5 minə qədər rus, süni surətdə törədilmiş münaqişə zəminində Özbəkistandan qovulan 29 min Ahıska türkü var idi. Az sonra Azərbaycanda qaçıqınların sayı 250 min nəfərə çatdı.

### *Ermənistan manevr edir: uydurma soyqırımından imtina etmədən Türkiyə ilə münasibətlər qurmaq istəyir*

Azərbaycanın daxili işlərinə müdaxilənin artdığı və azərbaycanlıların tamamilə qovulduğu bir şəraitdə Ermənistan parlamentinin sədri Levon Ter-Petrosyan uydurma soyqırımının tanıdılması və torpaq tələblərini

---

[841] О несоответствии Конституции СССР актов по Нагорному Карабаху. Постановление Президиума Верховного Совета СССР. 10.01.1990 . – Ведомости Верховного Совета СССР. М.,1990, № 3, с.38; О введении в действие закона СССР о порядке решения вопросов, связанных с выходом союзной республики из СССР. 03.04.1990. – Ведомости Верховного Совета СССР. М., 1990, № 15, с.308.

[842] Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992 – Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü. Ankara, 2001, s.27.

unutmadan, yalnız arxa plana keçirdərək, Türkiyə ilə münasibətləri qurmağa çalışırdı. O, 1990-cı il sentyabrın 26-da BMT-də çalışan ermənilərlə söhbətində bildirdi ki, adamlar və qruplar bir-biri ilə düşmənçilik edə bilərlər, dövlətlər isə yox. Ermənistanın Türkiyə ilə iqtisadi münasibətlər qurmağa ehtiyacı olduğuna diqqəti çəkən L.Ter-Petrosyan dedi:

*"Ermənistan ölkə kimi qurulur və özünü dövlət kimi aparmalıdır. Biz bütün qonşularımızla öz tələblərimizi – soyqırımını və adamların öz torpaqlarından zorla deportasiya edilməsini unutmadan münasibət qurmalıyıq. Lakin biz bunu siyasi məsələyə çevirə bilmərik. Biz Ermənistanda və Türkiyədə əhval-ruhiyyəyə təsir edən problemlərin səbəblərini bir gecədə aradan qaldıra bilmərik. Bu, tədricən baş verməlidir. Birinci addım kimi ticarət, sonra mədəni əlaqələr, nəhayət, qarşılıqlı siyasi münasibətlər gəlməlidir"* [843].

Türkiyə ilə əlaqələrin qurulması üçün yollar axtaran L.Ter-Petrosyanın belə yanaşması radikal erməni dairələrinin mövqeyindən fərqlənirdi. Onun da səbəbləri var idi. Hər şeydən əvvəl, L.Ter-Petrosyan Ermənistanın Azərbaycana təcavüzünün başladığı və SSRİ-nin dağılmağa getdiyi bir şəraitdə "iki cəbhədə döyüşməyin" mümkün olmayacağını başa düşərək Türkiyə ilə ticarət etməklə respublikada sosial-iqtisadi şəraiti yaxşılaşdırmaq niyyətini güdürdü. Bu hiyləgər gediş əslində uydurma soyqırımını tanımaq, torpaq və təzminat tələblərindən imtina etmək demək deyildi. Respublikada yaranmış ağır şəraitdən Türkiyənin sayəsində çıxmaq üçün edilən bir manevr idi.

### *Ölkədə şərait və Azərbaycan*

Bu zaman təkcə Azərbaycanda deyil, bütün ölkədə şərait pisləşmişdi. Yaranmış şərait Sov.İKP MK Siyasi Bürosunun 1990-cı il noyabrın 16-da keçirilən iclasında müzakirə edildi[844]. Hakimiyyətin başlıca qayğısı ölkədə şəraiti sabitləşdirməkdən ibarət idi. İclasda hətta ölkədə mitinq, nümayiş və qarşıdurmanın 6 ay müddətində dayandırılması üçün SSRİ Ali Sovetinin müfaviq qərar qəbul etməsi barədə təklif də səsləndirildi. Milli münasibətlər sahəsində hakimiyyətin siyasətinin yerlərdə doğru başa düşülmədiyi qeyd edildi. Yerlərdə yanlış olaraq belə hesab edirdilər ki, sərhədlərin dəyişdirilməsi dövrü gəlib çatmışdır. Milli münasibətlər mücərrəd səviyyəyə qalxmışdı. Sov.İKP MK Siyasi Bürosu üzvlərinin bəziləri belə hesab edirdi ki, Sov.İKP-nin hakim rolu ləğv ediləcəyi təqdirdə bütün

[843] Беседа Л.Тер-Петросяна с армянскими сотрудниками ООН. – Газ."Коммунист", Ереван, 07.10.1990, №221 (17109).
[844] Заседание Политбюро ЦК КПСС. 16.11.1990. Сов. секретно. – РГАНИ, ф. 89, оп. 42, д.30, л.1-37.

mövqelər əldən gedəcəkdir. Onların fikrincə, ölkədə prezident hakimiyyəti güclü olmalı, ittifaq müqaviləsi imzalanmalı, iqtisadi müqavilənin bağlanması isə lazım deyildi.

İclasda SSRİ-nin saxlanılması üçün referendum keçirilməsinə dair qərar verildi. Lakin ölkədə referendumun keçirilməsinin əleyhdarları da var idi. SSRİ Daxili İşlər Nazirliyinin 1991-ci il 14 mart tarixli məxfi məlumatına əsasən Moskvada keçirilən mitinqlərdə əhali SSRİ-nin saxlanılması üçün referendumun əleyhinə səs verməyə çağırılırdı[845]. Bir neçə gün sonra, martın 17-də referendum keçirildi. Referendumda SSRİ-nin saxlanılması tərəfdarları üstünlük qazandılar. Azərbaycanda isə Naxçıvan Muxtar Respublikasında əhali referendumu boykot etdi.

Belə bir şəraitdə Dağlıq Qarabağ regionunda azərbaycanlılara qarşı silahlı hücumlar ara vermirdi. SSRİ daxili işlər nazirinin birinci müavini İ.F.Şilov Sov.İKP MK-ya 1991-ci il 14 mart tarixli məxfi məktubunda martın 14-də saat 8.30-da Əskəran rayonunda naməlum şəxslərin Şuşada təşkilata məxsus avtobusu avtomat atəşinə tutduğunu və üç nəfər sərnişinin öldürüldüyünü bildirirdi. Onların arasında məzuniyyətdən qayıdan sovet ordusunun qulluqçusu da var idi. Üç nəfər güllə yarası almışdı. Yaralılardan ikisi xəstəxanaya yerləşdirilmişdi. Zərərçəkən altı nəfərin hamısı azərbaycanlılar idi[846].

1991-ci il martın ortalarında SİTA sovet hökumətinin mövqeyini bəyan edərək, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bildirdi. Buna baxmayaraq, Ermənistan Azərbaycanın daxili işlərinə müdaxiləni daha da genişləndirərək SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılmasına dair müraciət etdi[847]. Bu haqda Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti 1991-ci mayın 5-də etiraz qərarı qəbul etdi. Qərarda Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti və ermənilər yaşayan digər məntəqələri barəsində məsələni müzakirə etmək üçün "SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılmasına dair məsələ qaldırmaq haqqında" Ermənistan Respublikası Ali Sovetinin qərarı Azərbaycanın daxili işlərinə kobud müdaxilə, SSRİ konstitusiyasının 76-cı maddəsinə zidd qərar, regionda vəziyyəti yenidən kəskinləşdirmək, erməni və Azərbaycan xalqları arasında düşmənçiliyi qızış-

---

[845] Первый заместитель министра внутренних дел СССР И.Ф.Шилов – ЦК КПСС. Об обстановке в стране. 14.03.1991. – РГАНИ, ф.89, оп 22, д.62,л.1-2.

[846] Первый заместитель министра внутренних дел СССР И.Ф.Шилов – ЦК КПСС. Об обстановке в стране. 14.03.1991. – РГАНИ, ф. 89, оп 22, д. 1, л. 1.

[847] SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılmasına dair Ermənistan Ali Sovetinin əsassız müraciəti haqqında Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin qərarı. 05.05.1991. – ARXİNA.1991.

dırmaq, bu çirkin işə yenidən İttifaqın hakimiyyət orqanlarını cəlb etmək cəhdi hesab edilirdi. Göstərilirdi ki, dördüncü ildir, Ermənistan Azərbaycana qarşı elan olunmamış müharibə aparır, silahlı quldur dəstələri Azərbaycanın sərhədyanı kəndlərinə basqınlar edir, dinc sakinləri, SSRİ Daxili İşlər Nazirliyi daxili qoşunlarının və sovet ordusunun əsgər və zabitlərini, respublikanın hüquq mühafizə orqanlarının əməkdaşlarını öldürürlər, Azərbaycanın yaşayış məntəqələrinin raket və top atəşinə tutulması adi hal olmuşdur. Qərarda evlərin dağıdıldığı və yandırıldığı, bütöv kəndlərin viran qoyulduğu, Naxçıvan Muxtar Respublikasının Kərki kəndinin sakinlərinin zorakılıqla qovulduğu və kəndin Ermənistan tərəfindən ilhaq edildiyi qeyd olunurdu. Vurğulanırdı ki, Ermənistandan DQMV-yə çoxlu terrorçu quldur dəstələri göndərilir, onlar adamları qətlə yetirir, soyğunçuluq edir, evlərə od vururlar. Erməni silahlı dəstələrinin basqınlar zonasına DQMV ərazisindən savayı, respublikanın on bir rayonu və Naxçıvan Muxtar Respublikası da daxil idi. Respublikanın sərhədyanı zonasının hər yerində yaşayış məntəqələri Ermənistan tərəfindən top atəşinə tutulurdu.Yaxşı təlim görmüş quldur dəstələri SSRİ Daxili İşlər Nazirliyinin daxili qoşunlarının, sovet ordusunun əsgər və zabitlərini tərksilah edirdilər. Ölkə rəhbərliyi isə qanunsuz yaradılmış silahlı dəstələrin tərksilah edilməsi üçün uzun müddət tədbirlər görməmişdi. 1988-1989-cu illər ərzində Ermənistandan iki yüz min azərbaycanlı əhali əsrlər boyu yaşadığı ərazidən qəddarcasına qovulmuşdu. Azərbaycanlılar kütləvi surətdə qovulub çıxarılarkən onların bir çoxu qətlə yetirilmiş, qış vaxtı neçə-neçə qaçqın dağlarda soyuqdan ölmüşdü. Ermənistanda bir nəfər də azərbaycanlı qalmamışdı. Erməni yaraqlıları DQMV-də də xeyli azərbaycanlını evindən qovmuşdu. Azərbaycanda isə ermənilər yaşayır və işləyirdilər. Belə şəraitdə ermənilərin həyatı üçün azərbaycanlılar deyil, erməni quldur dəstələri təhlükə törədir, onları girov vəziyyətinə salırdılar. Qanunsuz yaradılmış silahlı dəstələrin tərksilah edilməsinə dair SSRİ Prezidentinin fərmanına Ermənistan rəhbərliyi açıq-açığına etinasızlıq göstərirdi.

Azərbaycan ərazilərinin bir hissəsinə yiyələnmək niyyətini Ermənistan ümumittifaq və dünya ictimaiyyətindən gizlədirdi. Təcavüz və zorakılıq hərəkətləri Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmışdı. Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana birləşdirmək haqqında Ermənistan Ali Sovetinin qanunsuz, konstitusiyaya zidd qərarı ləğv edilməmişdi. Azərbaycan tərəfi SSR İttifaqından konstitusiyasına sadiq qalaraq, hər bir respublikanın, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü dönmədən təmin etməli olduğunu vacib hesab, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha bəyan edirdi. "Dağlıq Qarabağ problemi" adlandırılan problemin Azərbaycan Respublikasının konstitusiyası əsasında həll ediləcəyini bildirirdi.

Bununla bağlı olaraq Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi qərarda yazılırdi:

*"1.SSRİ xalq deputatlarının növbədənkənar qurultayının çağırılmasına dair məsələ qaldırmaq haqqında" Ermənistan Respublikası Ali Sovetinin qərarı suveren dövlət olan Azərbaycan Respublikasının daxili işlərinə kobud müdaxilə sayılsın və bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında məsələyə baxmağa SSRİ Ali Sovetini yenidən vadar etmək və SSRİ xalq deputatlarının buna dair növbədənkənar qurultayını çağırmaq üçün göstərilən hər hansı cəhdə qarşı qəti etiraz bildirilsin. 2.SSRİ konstitusiyasının 81-ci maddəsinə əsasən SSRİ Prezidentindən və SSRİ Ali Sovetindən tələb edilsin ki, Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzünə son qoymaq üçün qəti tədbirlər görsünlər, Ermənistanda qanunsuz yaradılmış silahlı dəstələrin buraxılmasına və DQMV-ni Ermənistana birləşdirmək barəsində Ermənistan Respublikası Ali Sovetinin konstitusiyaya zidd qərarının ləğvinə nail olsunlar".*

Edilən bütün müraciətlərə baxmayaraq, SSRİ rəhbərliyi Ermənistanın təcavüzünü dayandırmadı. Bu isə erməni silahlı bandalarını şirnikləşdirir və basqınlarının artmasına rəvac verirdi. Dağlıq Qarabağ regionunda hərbi əməliyyatları genişləndirməklə yanaşı Ermənistan 1988-ci ildən 1991-ci ilin sonunadək Azərbaycanın Ağstafa, Qazax, Tovuz, Gədəbəy, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarına 304 dəfə silahlı hücum etmiş, 1249 kütləvi artilleriya atəşinə tutmuş, nəticədə 411 nəfər öldürülmüşdü[848]. Hücumlar Naxçıvan, Sədərək və Ordubad istiqamətlərində də edilmişdi.

Belə bir şəraitdə baş verən hadisələrin nə qədər təhlükəli olduğunu dərk edən Mərkəzi hakimiyyət onların qarşısını almaq üçün müəyyən addımlar atdı. 1991-ci ilin aprelində SSRİ-nin mərkəzi hüquq-mühafizə orqanları DQMV-nin inzibati ərazisindən kənarda, cinayətkar mərkəzə çevrilmiş Azərbaycanın Xanlar rayonunun Çaykənd kəndində erməni silahlı qruplarını həbs etdi. Məhz buradan qonşu kəndlər və yollar mütəmadi olaraq bombardman edilir, top atəşinə tutulur, yerli azərbaycanlı əhali qorxu və vahimə içində saxlanılırdı. 1989-cu ildən 1991-ci ilədək Çaykənddə və ətraf ərazilərdə 54 nəfər yerli sakin erməni silahlı dəstələri tərəfindən qətlə yetirilmişdi.

Bu zaman bütövlükdə ölkədə şərait mürəkkəb idi. 1991-ci il avqustun 19-da M.Qorbaçovun devrilməsi üçün edilən çevriliş cəhdinin boşa çıxması SSRİ-nin dağılmasını sürətləndirdi. Ölkədə hər şey qarışmış, ha-

---

[848] Агрессия Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агрессии представленный в международные организации. Баку, май 1994 г. – ARXİNA. 1994. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. Qovluq № 9, v. 31.

mı bir-birinə dəymişdi. Belə bir şəraitdə, 1991-ci il sentyabrın 8-də A.Mütəllibov Azərbaycan Respublikasının Prezidenti seçildi. Lakin ərazilərin azad edilməsi işi davam etdirilmədi.

Çevriliş cəhdi boşa çıxdıqdan sonra dünyada və ölkədə baş verən proseslərin təsiri altında SSRİ-nin dağılmasının qarşısını almaq artıq mümkün deyildi. Yeni bir şərait yaranmışdı.

### *Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə*

Ermənistanın təcavüzünün davam etdiyi bir şəraitdə, 1991-ci il avqustun 30-da Azərbaycan SSR Ali Soveti 1989-cu il 23 sentyabr tarixli konstitusiya qanununu əsas götürərək 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən bəyan olunmuş dövlət müstəqilliyinin bərpasını Azərbaycan SSR hüdudlarında elan etdi[849]. Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında aktın layihəsini hazırlamaq barəsində qərar qəbul edildi[850]. Qeyd etmək lazımdır ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazi Azərbaycan Respublikası müstəqilliyini əldə edənə və beynəlxalq ictimaiyyət tərəfindən tanınana qədər Azərbaycanın tərkib hissəsi olmuşdu[851]. Bu qərar qəbul edildikdən bir neçə gün sonra, sentyabrın 2-də Dağlıq Qarabağ Muxtar Vilayət və Şaumyan rayon Xalq Deputatları Sovetlərinin birgə iclasında Azərbaycanın DQMV və Şaumyan rayonunun inzibati ərazisində qondarma "Dağlıq Qarabağ Respublikası"nın təşkili bəyan edildi. Qondarma qurumun elan edilməsi Ermənistanın təcavüzünü ört-basdır etmək üçün atılmış bir addım idi. Bununla Ermənistan Azərbaycan ərazilərində baş verənlərdə özünün iştirakı olmadığını göstərməyə çalışırdı.

Qondarma qurumun elan edilməsi heç bir hüquqi əsasa malik deyildi. Ermənistanın mövqeyinə görə bu addımın hüquqi əsasını guya müttəfiq respublikanın SSRİ-dən çıxması ilə əlaqədar məsələlərin həlli qay-

---

[849]Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Azərbaycan Respublikası Ali Sovetinin bəyannaməsi. 30.08.1991. – Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31.08.1991. Bakı, 1991, №15-16, s.38-39.

[850]Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında aktın layihəsini hazırlamaq barəsində Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 30.08.1991. – Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31.08.1991. Bakı, 1991, №15-16, s.39.

[851]Проблема Нагорно-Карабахской Автономной Области (справочная информация). – ARXİNA. Katiblik. Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyi. 02.01.2003-18.03.2003. Qovluq №S, v.234.

dası haqqında 1990-cı il 3 aprel tarixli SSRİ qanunu təşkil edirdi[852]. Əslində bu qanunun məqsədi müttəfiq respublikaların ittifaqdan ayrılacağı təqdirdə riayət etməli olduqları xüsusi qaydalar yaratmaqla SSRİ daxilində qarşılıqlı əlaqələri tənzimləməkdən ibarət idi. Müttəfiq respublikanın ayrılma barədə qərarı həmin respublika əhalisinin referendum yolu ilə azad şəkildə ifadə olunmuş iradəsinə əsaslanmalı idi. Qərar müttəfiq respublikanın ali qanunverici orqanı tərəfindən təsdiq olunmalı idi. Müttəfiq respublikanın SSRİ-dən ayrılması mürəkkəb və çoxmərhələli prosedurun yerinə yetirilməsindən, nəhayət, SSRİ Xalq Deputatları Sovetinin müvafiq qərarının qəbulundan sonra qanuni hesab edilə bilərdi. Bununla belə, Sovet İttifaqı beynəlxalq hüququn subyekti olaraq mövcudluğunu dayandıranadək sözügedən qanunun hüquqi qüvvəsi yox idi. Çünki heç bir müttəfiq respublika, o cümlədən Azərbaycan və Ermənistan SSRİ-dən ayrılmaq üçün orada təsbit olunmuş qaydalardan istifadə etməmişdi. Digər tərəfdən, artıq qeyd edildiyi kimi, yalnız Azərbaycanın dövlət müstəqilliyi haqqında məlum sənəd qəbul edildikdən sonra Dağlıq Qarabağ regionunda qondarma qurumun yaradıldığı elan edilmişdi. Ermənistan isə yalnız 1991-ci il sentyabrın 21-də müstəqilliyini elan etdi.

### *İlk sülh səyləri*

Ermənistanın müdaxiləsi və hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün ilk addımlar SSRİ mövcud olduğu bir zamanda RSFSR Prezidenti Boris Yeltsin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev tərəfindən atıldı. Onlar regiona gəldilər. Səfərdən sonra 1991-ci il sentyabrın 20-24-də Jeleznovodskda Boris Yeltsin, Nursultan Nazarbayev, Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibov və Ermənistan Prezidenti Levon Ter-Petrosyan görüşərək münaqişənin həlli yollarını müzakirə etdilər. Sentyabrın 23-də RSFSR, Qazaxıstan, Ermənistan və Azərbaycan prezidentləri birgə bəyannamə imzaladılar. Bəyannaməyə görə Azərbaycanın Dağlıq Qarabağ regionunda silahlı dəstələr tərksilah edilməli, yerli hökumət yenidən təşkil olunmalı, Ermənistan ilə Azərbaycan arasında yüksək səviyyəli görüşlərin keçirilməsi davam etdirilməli, atəşkəs elan edilməli, SSRİ Daxili İşlər Nazirliyinin bölmələri və SSRİ ordu hissələri döyüş böl-

[852] О введении в действие Закона СССР. О порядке решения вопросов, связанных с выходом союзной республики из СССР от 3 апреля 1990 года. Постановление Верховного Совета СССР. – Ведомости Верховного Совета СССР. М.,1990, №15, ст.308.

gəsindən çıxarılmalı idi. Ayrıca imzalanan protokola görə Ermənistan parlamenti Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni ərazisi olduğunu elan edən qərarını, bunun müqabilində də SSRİ Ali Soveti Dağlıq Qarabağa dair qəbul etdiyi qərarlarını ləğv etməli, Ermənistan və Azərbaycan qarşılıqlı olaraq girovları azad etməli idilər[853].

Vasitəçilik səylərinin gedişində Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyəti bir sıra təkliflər işləyib hazırladı. Həmin təkliflər, həmçinin Rusiya və Qazaxıstanın vasitəçilik səyləri oktyabrın 7-də Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətində müzakirə olundu və müvafiq qərar qəbul edildi[854]. Qərarda yazılırdı:

*"1. RSFSR Prezidenti B.N.Yeltsinin və Qazaxıstan Prezidenti N.Ə.Nazarbayevin vasitəçilik səfərinin yekunları haqqında birgə rəsmi məlumatın həyata keçirilməsi sahəsində Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin təklifləri bəyənilsin. 2. Azərbaycan Respublikası Ali Sovetinin daimi komissiyalarına tövsiyə olunsun ki, birgə rəsmi məlumatı həyata keçirtmək üçün nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsini müvafiq nazirliklər və baş idarələr ilə birlikdə təmin etsinlər".*

Bundan sonra Ermənistanın İcevan rayonunda görüş oldu. Lakin görüşlər, imzalanan sənədlər və Azərbaycan tərəfinin hazırladığı təkliflər Ermənistanın müdaxiləsini dayandıra bilmədi. Bəyannamənin şərtlərinin Ermənistan tərəfindən yerinə yetirilməməsi vəziyyəti daha da ağırlaşdırdı. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionuna hərbi sursat və silah göndərməsini, azərbaycanlılara qarşı silahlı hücumlarını davam etdirirdi.

Mərkəzi sovet hakimiyyətində yüksək vəzifəli şəxslərin və xarici ölkələrdəki erməni diasporasının müdafiə etməsi nəticəsində Ermənistanın müdaxiləsi və terror hərəkətləri genişlənirdi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində və Ermənistan ilə həmsərhəd rayonlarında şəraiti normallaşdırmaq istiqamətində Azərbaycan Respublikası hökumətinin həyata keçirtdiyi tədbirlər Ermənistanda kəskin müqavimətə rast gəldi. Ermənistan həmin tədbirlərə Azərbaycanın daxili işlərinə qarışmasını artırmaqla, müdaxiləsini və azərbaycanlılara qarşı zorakılığın miqyasını genişləndirməklə cavab verdi.

---

[853] "Hürriyet" gazetesi, İstanbul, 24.09. 1991.

[854] RSFSR Prezidenti B.N.Yeltsinin və Qazaxıstan Prezidenti N.Ə.Nazarbayevin vasitəçilik səfərinin yekunları haqqında birgə rəsmi məlumatın həyata keçirilməsi sahəsində Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin təklifləri barəsində Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin qərarı. 07.10.1991. – ARXİNA. 1991.

### *Azərbaycanın dövlət müstəqilliyi haqqında konstitusiya aktının qəbul edilməsi və beynəlxalq birliyə ilk müraciətlər*

Belə bir şəraitdə, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktı qəbul edildi[855]. Oktyabrın 29-da isə Azərbaycan Respublikası Ali Soveti dövlət müstəqilliyinin bərpa olunduğu barədə Birləşmiş Millətlər Təşkilatına müraciət qəbul etdi[856]. Azərbaycan Respublikası BMT nizamnaməsinə sadiqliyini və ondan irəli gələn öhdəlikləri yerinə yetirməyə hazır olduğunu bildirərək, nizamnamənin 4-cü maddəsinə müvafiq surətdə BMT üzvlərindən onu təşkilatın üzvlüyünə qəbul etmək məsələsini nəzərdən keçirmələrini xahiş edirdi[857]. Ali Sovet həmin tarixdə müstəqil Azərbaycan Respublikasının tanınması haqqında dünya birliyinin üzvü olan dövlətlərin parlamentlərinə və hökumətlərinə də müraciət haqqında qərar qəbul etdi[858].

Müraciət qəbul edilən zaman Ermənistanın müdaxiləsi davam edir, Azərbaycanda isə daxili ictimai-siyasi şərait getdikcə ağırlaşırdı. Buna görə də Azərbaycan Respublikası Ali Soveti respublikanın Dağlıq Qarabağ Muxtar Vilayətində və sərhədyanı rayonlarında şəraitin kəskin surətdə pisləşməsi ilə əlaqədar olaraq noyabrın 9-da suveren dövlətlərin parlamentlərinə müraciət etdi[859]. Müraciətdə Ermənistan silahlı dəstələrinin Azərbaycan ərazisində törədilən elan olunmamış müharibədə yüzlərlə azərbaycanlını, rusu, ukraynalını, belarusu, digər millət və xalqların nümayəndələrini qətlə yetirdiyi, yaraladığı, şikəst etdiyi, kəndləri yandırdığı və talan etdiyi vurğulanırdı. Sənəddə Azərbaycan Respublikasına qarşı Ermənistanın rəsmi hakimiyyət orqanları tərəfindən idarə olunan və əlaqələndirilən geniş miqyaslı silahlı təcavüz edildiyi, Mərkəzin Azərbaycana hər cür təzyiq etdiyi, kütləvi informasiya vasitələrinin də gərginliyin artı-

---

[855] Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında konstitusiya aktı. 18.10.1991. – Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31.10.1991. Bakı, 1991, № 19-20 (848-849), s.26.

[856] Birləşmiş Millətlər Təşkilatına müraciət haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 29.10.1991. – ARXİNA.1992.

[857] Birləşmiş Millətlər Təşkilatına müraciət. 29.10.1991. – ARXİNA. 1991; Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31.10.1991. Bakı, 1991, №19-20 (848-849), s. 28-29.

[858] Müstəqil Azərbaycan Respublikasının tanınması haqqında dünya dövlətlər birliyinin üzvü olan dövlətlərin parlamentlərinə və hökumətlərinə müraciət haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 29.10.1991. – ARXİNA.1991.

[859] Suveren dövlətlərin parlamentlərinə Azərbaycan Respublikası Ali Sovetinin müraciəti haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı. 09.11.1991. – ARXİNA.1991.

rılması vasitəsinə çevrildiyi, ölkə əhalisinə və dünya ictimaiyyətinə yalan xəbərlər verməklə Azərbaycan haqqında mənfi fikir yaratmağa çalışdığı qeyd olunurdu. Jeleznovodskda RSFSR, Qazaxıstan, Ermənistan və Azərbaycan prezidentlərinin imzaladıqları kommunikenin şərtlərinin Ermənistan tərəfindən yerinə yetirilməməsinin şəraiti ağırlaşdırdığı, Mərkəzin və xarici diasporanın müdafiə etdiyi, rəvac verdiyi erməni terrorizminə lazımınca cavab verilmədiyindən gündən-günə azğınlaşdığı və qəddarlaşdığı bəyan edilirdi. Müraciətdə hər bir suveren dövlət sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü kimi prinsipial məsələdə Azərbaycan ilə həmrəy olmağa çağırılırdı[860].

Lakin bu müraciət bir nəticə vermədi. Ermənistan təcavüzünü daha da genişləndirdi.

## *Ermənistanın Azərbaycana təcavüzü davam edir. DQMV-nin ləğvi haqqında qərar*

1991-ci il noyabrın 20-də dəhşətli bir hadisə baş verdi. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda, Qarakənd kəndi səmasında Azərbaycanın dövlət və siyasi xadimlərinin olduğu vertolyot Ermənistandan göndərilmiş silahlılar tərəfindən vuruldu. Vertolyotdakılar həlak oldular. Bununla da Ermənistan sülh prosesini pozdu və hərbi əməliyyatları genişləndirdi. Cavab olaraq Azərbaycan tərəfi 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğvi haqqında qanun verdi[861]. Azərbaycan SSR Ali Soveti həmin qanunu təsdiq etdi[862].

SSRİ Dövlət Şurası bundan bir gün sonra, noyabrın 27-də Dağlıq Qarabağ Muxtar Vilayətinin SSRİ konstitusiyasında təsbit olunmuş hüquqi statusunun dəyişdirilməsinə yönəlmiş bütün aktları konstitusiyaya zidd olaraq qiymətləndirdi və DQMV-də konstitusiya quruluşunun bərpasını tələb etdi. Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası noyabrın 27-də həmin qərara etirazını bildirdi. Bu barədə Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının qəbul etdiyi qərarda yazılırdı ki, keçmiş SSR İttifaqı Dövlət Şurasının 1991-ci il 27 noyabr tarixli qərarının müstəqil Azərbaycan Respub-

---

860 Suveren dövlətlərin parlamentlərinə Azərbaycan Respublikası Ali Sovetinin müraciəti. 09.11.1991. – ARXİNA. 1991.

861 Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında Azərbaycan Respublikasının qanunu. – Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31.12.1991. Bakı, 1991, № 24 (853), s.16-17.

862 Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında Azərbaycan Respublikası qanununun qüvvəyə minməsi qaydası barəsində Azərbaycan Respublikası Ali Sovetinin qərarı. – Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 31.12.1991.Bakı,1991,№ 24 (853), s.17-18.

likasında hüquqi qüvvəsinin olmadığı qeyd edilsin; Azərbaycan və Ermənistan respublikalarının müstəqilliyi yolunda maneə olan Ermənistan – Azərbaycan münaqişəsinin dinc yolla və tezliklə həll edilməsinin zəruriliyini nəzərə alaraq Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında danışıqlar aparılması məqsədəuyğun sayılsın[863].

Lakin Ermənistan danışıqlardan boyun qaçıraraq Azərbaycan ərazilərinin işğalını genişləndirdi. 1991-ci il noyabr ayının sonlarında Xankəndi ətrafında azərbaycanlılar yaşayan 19 kəndi yandırıldı, əhalisi isə məcburi köçkünə çevrildi.

## *SSRİ-nin dağılması ilə münaqişə iki dövlət arasında müharibəyə çevrilir*

Bu zaman SSRİ mövcudluğunun son günlərini yaşayırdı. 1991-ci il dekabrın 8-də Minsk yaxınlığında Viskul məntəqəsində (Belovejskaya Puşa) görüşən Rusiya, Ukrayna və Belarus prezidentləri 1922-ci il İttifaq müqaviləsinin fəaliyyətinin dayandırıldığını bildirdilər. Beləliklə, SSRİ-nin taleyi həll edildi. Uzun illər boyu dünyanı lərzəyə salan sovet imperiyasının varlığına son qoyuldu.

SSRİ dağıldıqdan bir neçə gün sonra, 1991-ci il dekabrın 10-da Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionundakı ermənilər Dağlıq Qarabağın artıq mövcud olmayan SSRİ tərkibində "müstəqil bir respublika" olması üçün saxta referendum keçirtdilər. Bölgənin azərbaycanlı əhalisi hüquqa zidd olan bu referendumda iştirak etmədi.

1991-ci il dekabrın 21-də Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Özbəkistan və Ukrayna prezidentləri Alma-Atada bəyannamə imzalayaraq Müstəqil Dövlətlər Birliyinin yaradıldığını elan etdilər. Yeni yaradılan Müstəqil Dövlətlər Birliyinin möhkəm, mahiyyətinin isə hələ tam aydın olmaması keçmiş sovet məkanında onsuz da gərgin olan şəraitin normallaşmasına müsbət təsir edə, o cümlədən Ermənistanın Azərbaycanın daxili işlərinə müdaxiləsini və təcavüzünü dayandıra bilmədi. MDB-nin yaradılması tamamilə yeni ictimai-siyasi şərait yaratsa da, Rusiyadakı müəyyən dairələrin imperiya təfəkküründən imtina etməsinə gətirmədi. Ermənistanda yerləşən keçmiş sovet hərbi hissələrinin komandirləri silah və sursatı ermənilərə verərək, Azərbaycan əleyhinə silahlandırdılar.

SSRİ-nin dağılmasından sonra Dağlıq Qarabağ münaqişəsi iki müstəqil dövlət arasında açıq müharibəyə çevrildi. 1992-ci ilin əvvəllərindən

---

[863] SSRİ Dövlət Şurasında Azərbaycan – Ermənistan münasibətlərinə dair 1991-ci il 27 noyabr tarixli qərar haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. №6. – ARXİNA.1991.

etibarən Ermənistanın Azərbaycana qarşı açıq hərbi təcavüzü mərhələsi başlandı. Sovet İttifaqının parçalanmasından və Azərbaycanda daxili çəkişmələr nəticəsində yaranmış ictimai-siyasi sabitsizlikdən istifadə edən Ermənistan xarici hərbi yardımlar alaraq Dağlıq Qarabağ regionunda qanlı hərbi əməliyyatlara başladı. Təcavüzün gedişində azərbaycanlıların tarixən yaşadıqları ərazilər bir-birinin ardınca işğal edilir, yaşayış məntəqələri yandırılır, dinc əhaliyə qarşı amansız terror aktları həyata keçirilirdi[864].

Heç şübhəsiz, bütün bunları həyata keçirtmək üçün Ermənistanın maliyyə-iqtisadi, hərbi və insan potensialı mövcud deyildi. O, Cənubi Qafqazda Rusiyanın təsirini qoruyub saxlamağa çalışan bəzi dairələrə arxalanırdı. Regionda təsirini qorumaq üçün maliyyə imkanları olmadığından Rusiya tərəfi Ermənistanın təcavüzünə dəstək verməklə, münaqişəni alovlandırmaqla məqsədinə nail olmaq istəyirdi. Bununla Rusiya həm Azərbaycanı, həm də Ermənistanı təzyiq altında saxlayır, müstəqil dövlət kimi formalaşmalarına mane olur, silah-sursat sataraq gəlir əldə edir, yaratdığı münaqişələrlə Cənubi Qafqaza nüfuz etmək istəyən Qərb dövlətlərini qorxudaraq qarşılarını almağa çalışırdı. Ermənistan isə bu şəraitdən yararlanaraq Azərbaycan ərazilərini işğal edib, "Böyük Ermənistan" yaratmaq üçün yeni bir addım atmaq niyyəti güdürdü.

Belə bir şəraitdə Azərbaycan rəhbərliyi Ermənistanın hərbi təcavüzünü dayandırmaq məqsədi ilə beynəlxalq təşkilatlara üz tutdu. 1992-ci il yanvarın 13-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası yaranmış şərait haqqında BMT-yə müraciət etdi[865]. Müraciətdə BMT Təhlükəsizlik Şurasından Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının dörd ildən bəri davam edən və cəzasız qalan təcavüzünün pislənilməsi xahiş edilir, yazılırdı ki, Azərbaycan Respublikasının Qarabağ bölgəsinin dağlıq hissəsində şəraiti sabitləşdirmək, mövcud problemləri Azərbaycan Respublikasının konstitusiyasına, beynəlxalq hüquq normalarına və BMT-nin müvafiq sənədlərinə uyğun surətdə həll etmək üçün Azərbaycan Respublikasının tədbirlər görməsinə baxmayaraq, Ermənistan Azərbaycan ərazisinin bir hissəsini qopartmaq kimi cinayətkar məqsədlə ona qarşı təcavüzü gücləndirməkdə davam edir. Müraciətdə Azərbaycan Respublikasının bəzi ərazilərinin işğal edildiyi, Dağlıq Qarabağın ərazi mənsubiyyəti və bu ərazidə yaşayan ermənilərin öz müqəddəratını təyinetmə hüququ barəsində Ermənistanın təbliğatının və

---

[864] Chronology of terrorist acts commited the course of the Armenia – Azerbaijan conflict. – "Diplomatiya aləmi" jurnalı, Bakı, 2008, № 18-19, s. 95-97.

[865] BMT-nin Təhlükəsizlik Şurasına müraciət haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarı. 13.01.1992. – ARXİNA. 1992; Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15.02.1992. Bakı, 1992, № 3 (856), s. 7.

ermәni diasporasının yaydığı uydurmaların tarixi reallıqlara vә beynәlxalq birliyin prinsiplәrinә uyğun gәlmәdiyi qeyd edilirdi. Ermәnistan rәhbәrliyinin silahlı quldur birlәşmәlәrinin Azәrbaycan әrazisinә soxulmasına, millәtçi ünsürlәrin qızışdırılmasına vә әhalinin qanuni hakimiyyәt orqanlarına tabe olmamağa mәcbur edilmәsinә, dinc azәrbaycanlı әhaliyә qarşı kütlәvi terror törәdilmәsinә, onun әmlakının mәhv edilmәsinә, yüzlәrlә kişi, qadın vә uşağın öldürülmәsinә gәtirib çıxarmış hüquqa zidd hәrәkәtlәri ilә ermәni – azәrbaycanlı münaqişәsini qәsdәn genişlәndirmәyә, bu münaqişәni nәinki Yaxın Şәrq vә Orta Şәrq bölgәsindә, hәm dә Avropanın cәnubunda sülh üçün real tәhlükәyә çevirmәyә çalışdığı vurğulanırdı. Azәrbaycan dövlәtinin humanizmә әsaslanaraq vә dövlәtlәrarası ünsiyyәtin әsl demokratik prinsiplәrinә sadiq qalaraq dәfәlәrlә Ermәnistan rәhbәrliyini terror siyasәtindәn vә qonşu dövlәtin daxili işlәrinә qarışmaqdan әl çәkmәyә, danışıqlar prosesinә başlamağa vә bütün problemlәri dinc yollarla hәll etmәyә dair çağırışlarına cavabında Ermәnistanın Azәrbaycan şәhәrlәri vә kәndlәrinә qarşı geniş miqyaslı yeni hәrbi әmәliyyatlar keçirtdiyi, mülki әhalini qırması, әsir götürmәsi vә terror aktları törәtmәsi qeyd edilirdi. Ermәnistanın Dağlıq Qarabağ bölgәsindә qanunsuz hakimiyyәt strukturları yaratmaq vә Azәrbaycan Respublikasının әrazisinin bir hissәsini qoparmağa yönәlmiş fәaliyyәtinin tәcavüz vә dövlәt terrorizmi xarakteri daşıdığı göstәrilirdi. Müraciәtdә Ermәnistanın tәcavüzkarlıq siyasәtinin törәtdiyi tәhlükәni dәrk edәrәk, tәcavüzün vә terrorun qarşısını almaq zәrurәtini әsas götürәrәk BMT Tәhlükәsizlik Şurası yaranmış şәraiti obyektiv qiymәtlәndirmәyә vә BMT-nin sәnәdlәrinә uyğun gәlәn qәrar qәbul etmәyә çağırılırdı[866].

Azәrbaycan Respublikası tәkcә BMT-yә müraciәt etmәklә kifayәtlәnmәdi. 1992-ci il yanvarın 30-da Avropada Tәhlükәsizlik vә Әmәkdaşlıq mәsәlәlәri üzrә Müşavirәyә (ATӘM) üzv qәbul edildi. Yanvarın 31-dә ATӘM Nazirlәr Şurasının birinci iclasında çıxış edәn xarici işlәr naziri Hüseynağa Sadıqov Ermәnistanın Azәrbaycana qarşı әsassız әrazi iddiaları ilә başladığı hәrbi әmәliyyatlar üzәrindә dayandı, azәrbaycanlıların hәmin respublikadan qovulmasına diqqәti cәlb edәrәk, Azәrbaycan hökumәtinin münaqişәnin sülh yolu ilә hәllinә tәrәfdar olduğunu bildirdi vә ATӘM ölkәlәrini Ermәnistanın tәcavüzünü dayandırmağa sәslәdi[867].

---

[866] Azәrbaycan Respublikası Ali Soveti Milli Şurasının Birlәşmiş Millәtlәr Tәşkilatının Tәhlükәsizlik Şurasına müraciәti. 13.01.1992. – ARXİNA. 1992; Azәrbaycan Respublikası Ali Sovetinin mәlumatı. 15.02.1992. Bakı, 1992, № 3 (856), s. 7-8.

[867] Выступление министра иностранных дел Азербайджанской Республики Г.Садыгова на заседании Совета Министров СБСЕ. Прага, 31.01.1992. – OSCE Archive in Prague. 2-nd Ministerilal Council. Journalis 1-2. Prague, 30-31 January 1992. File No:238.

1992-ci ilin fevral ayında ATƏM çərçivəsində Ermənistan – Azərbaycan münaqişəsinin həllinə dair vasitəçilik prosesi başladı[868]. ATƏM Nazirlər Şurasının qərarına uyğun olaraq Çexiya və Slovakiya Respublikasının xarici işlər naziri Karel Şvarçenberg başda olmaqla nümayəndə heyəti fevralın 12-18-də Azərbaycana və Ermənistana səfər edərək[869] hesabat hazırladı[870]. Hesabatda 1987-ci ildən etibarən münaqişənin təkamülü, baş verən hadisələr, ayrı-ayrı dövlətlərin mövqeləri, sülh təşəbbüsləri əksini tapmış və Ermənistanın təcavüzünü aradan qaldırmaq üçün görüləcək işlər barədə tövsiyələr verilmişdi[871].

Nümayəndə heyətinin səfəri davam edərkən Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ regionunda azərbaycanlılar yaşayan Malıbəyli və Quşçular kəndlərini işğal etdi. Təkcə Malıbəyli kəndində 50 nəfər öldürüldü, yaralandı və əsir götürüldü.

ATƏM-in təşəbbüsü Rusiyanı da müəyyən addımlar atmağa sövq etdi. 1992-ci il fevralın 20-də Rusiya Federasiyası Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada görüşünü təşkil etdi. Görüşün

---

[868] CSCE Communication No. 64. Prague, 6 February 1992. To the Points of Contact CSCE Rapporteur Mission to Nagorno-Karabakh, Armenia and Azerbaijan. The attached two letters from the Chairman-in-Office of the Council addressed to Mr. Houssein M. Sadychov and to Mr. Raffi Ovanissian relating to the CSCE Rapporteur Mission to Nagorno-Karabakh, Armenia and Azerbaijan, are circulated at the request of the Chairman-in-Office. – OSCE Archive in Prague. Communication. 1992 a; CSCE Communication No.65. Prague, 6 February 1992. To the Points of Contact CSSE Rapporteur Mission to Armenia, Azerbaijan and Nagorno-Karabakh. The attached memorandum, dated 6 February 1992, from the Chairman-in-Office of the Committee of Senior Officials concerning the abovementioned Mission, is circulated for the information of participating States. – OSCE Archive in Prague. Communication 1992 a.

[869] Azərbaycan Respublikası ilə ATƏT arasında 1992-2008-ci illərdə münasibətlərə dair arayış. – ARXİNA. 2008.

[870] Interim Report of the Rapporteur Mission conducted by K.Schwarzenberg – Czechoslovakia. Communication No.79/reissue dated 26.02. 1992). – OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno-Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.2.

[871] CSCE Communication No. 79. Prague, 24 February 1992. To the Points of Contact Interim report on the situation in Nagorno Karabakh. The attached Interim report on the situation in Nagorno-Karabakh, submitted by the CSCE Rapporteur Mission to Armenia, Azerbaijan and Nagorno-Karabakh, is circulated for the information of participating States in view of the Seventh Meeting of the Committee of Senior Officials to be held on 27-28 February 1992. – OSCE Archive in Prague. Communication 1992 a.

sonunda tərəflər dərhal atəşkəs elan edəcəkləri, blokadaları aradan qaldıracaqları, münaqişənin tənzimlənməsi məsələsində ATƏM prinsiplərinə sadiq qalacaqları, münaqişənin tənzimlənməsini axtarıb tapmaq, atəşkəs haqqında razılaşma mexanizmlərini və təminatı işləyib hazırlamaq üçün sabit danışıqlar prosesini təmin edəcəkləri barədə razılığa gəldilər[872]. Lakin az sonra Ermənistan həmin razılaşmanı pozdu. Xarici işlər naziri Raffi Ovanesyan həyasızlıqla *"Dağlıq Qarabağ münaqişəsinin həllinin Ermənistanın deyil, Azərbaycan ilə Dağlıq Qarabağın daxili işləri"* olduğunu bildirərək, bundan sonrakı müzakirələrə Dağlıq Qarabağ nümayəndələrinin də qatılmasını istədi. Belə mövqe Ermənistanın təcavüzkarlığını ört-basdır etmək və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ermənilərini danışıqların subyekti kimi tanıtmaq məqsədi güdürdü.

Azərbaycanın səylərinə baxmayaraq, Dağlıq Qarabağ regionundakı azərbaycanlılar yaşayan kəndlər bir-birinin ardınca işğal edilərək yandırılır, əhalisi evlərindən didərgin salınır, öldürülür və girov götürülürdü[873]. Ermənistan müxtəlif silah növlərindən və ağır hərbi texnikadan istifadə edərək işğalı qəddarlıqla genişləndirirdi.

Belə bir şəraitdə vasitəçilik missiyası ilə regiona səfər edən İran İslam Respublikasının xarici işlər naziri Əli Əkbər Vilayəti fevralın 25-də Bakıda Azərbaycan rəhbərliyi ilə görüşdü. Daha sonra onun Yerevana səfəri planlaşdırılmışdı. Lakin səfərin gedişində Ermənistan silahlı qüvvələri azərbaycanlılara qarşı dəhşətli bir soyqırımı törətdilər.

## *Xocalıda soyqırımı*

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı birləşmələri və Xankəndində yerləşən 366-cı keçmiş sovet hərbi alayı 7 min nəfər əhalisi olan Xocalı şəhəri üzərinə hücuma keçdi. Strateji əhəmiyyət daşıyan Xocalı şəhəri Ağdam – Şuşa, Əskəran – Xankəndi yolunun üstündə yerləşirdi. Burada Azərbaycanın Dağlıq Qarabağ regionunda yeganə hava limanı var idi. 1991-ci ilin oktyabr ayından Ermənistan silahlı qüvvələri tərəfindən blokadaya alınmış şəhərə gedən bütün avtomobil yol-

---

[872] CSCE Communication No.82. Prague, 26 February 1992. To the Points of Contact Communi que of Meeting of Ministers of Foreign Affairs of Azerbaijan, Armenia and Russia. The enclosed Communique of the Meeting of Ministers of Foreign Affairs of Azerbaijan, Armenia and Russia in Moscow on 20 February 1992, is circulated at the request of the Russian Federation. – OSCE Archive in Prague. Communication 1992 a.

[873] İn Armenian captivity (Tortures, Murders, Terror, Vandalism, Genocide). Bakı, 2008.

ları bağlanmışdı, əlaqə yalnız vertolyotlarla saxlanılırdı. 1992-ci ilin yanvar ayından etibarən şəhərlə vertolyot əlaqəsi də kəsilmişdi. Şəhərdə dinc əhali, əsasən qadınlar, qocalar və uşaqlar qalmışdı. Xocalılara qarşı törədilən soyqırımı nəticəsində 613 nəfər öldürüldü, 1275 nəfər əsir götürüldü, 487 nəfər şikəst edildi. Öldürülənlərin 63 nəfəri azyaşlı uşaq idi[874]. 8 ailə tamamilə məhv edildi.



*Xocalıda soyqırımı qurbanları olan uşaqlar*

Bu, azərbaycanlılara qarşı soyqırımı aktı idi. Xocalıda insanlar yalnız azərbaycanlı olduqları üçün öldürülmüşdülər. Öldürülənlər xüsusi amansızlıqla qətlə yetirilmişdilər. Onların başlarının dəriləri soyulmuş, bədən əzaları kəsilmişdi. Niyyətini həyata keçirtmək üçün ən qəddar üsullara əl atmağa hazır olduğunu göstərən Ermənistan soyqırımı törətməklə dövlət səviyyəsində cinayət etdi. Ermənistanın müdafiə naziri və sonralar prezidenti olan Serj Sarqsyan Böyük Britaniya jurnalisti Tomas de Vaala verdiyi müsahibəsində etiraf edirdi:

*"Xocalıya qədər azərbaycanlılar belə düşünürdülər ki, ermənilər mülki əhaliyə əl qaldırmazlar. Biz bunu (stereotipi) qırdıq"* [875].

Erməni mənşəli müəllif Markar Melkonyan isə yazırdı:

---

[874] Агрессия Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агресии представленный в международные организации. Баку, май 1994 г. – ARXİNA. 1994. Qovluq №9; Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. – ARXİNA. 1994. Qovluq №9, v. 29.

[875] Tomas de Wall. Black Garden. Armenia and Azerbaijan through Peace and War. New York and London, New York University Press, 2003, p.172.

*"Xocalı sakinləri altı mil qət edərək demək olar ki, təhlükəsiz yerə çatmışdılar, lakin əsgərlər onlara çatdılar. Sonra çəkmələrinə bərkidilmiş bıçaqları qablarından çıxarıb adamları doğramağa başladılar"* [876].

Şəhərin məhv edilməsi ilə hava limanı Azərbaycanın nəzarətindən çıxdı[877]. Ermənistandan silah-sursat və silahlı dəstələrin gətirilməsi daha da artdı. Ermənistanı belə cəsarətləndirən Rusiya ordusu və rəhbərliyindəki müəyyən şəxslərin hərbi, siyasi və mənəvi yardımları idi.

Xocalıda soyqırımı Ermənistanın bəşəriyyətə və sivilizasiyaya qarşı törətdiyi ağır cinayətdir. Bu hadisəyə dünya mətbuatı da diqqət yetirdi. ABŞ, [878] Türkiyə [879] və digər ölkələrin mətbuat orqanlarında azərbaycanlıların kütləvi surətdə məhvi təsvir olunan məqalələr dərc edildi.

Azərbaycan hakimiyyətinin Xocalıda baş verənlərin miqyasını xalqdan gizlətmək cəhdləri respublikada ictimai-siyasi şəraiti gərginləşdirdi. Ölkə vətəndaşlarının hiddətinin həddi-hüdudu yox idi. Belə bir zamanda, 1992-ci il fevralın 27-də Ayaz Mütəllibovun Moskvada MDB-nin kollektiv təhlükəsizlik haqqında müqaviləsinə Azərbaycanın qatılması barədə sənədi imzalaması ölkə əhalisinin hiddətini son həddə çatdırdı.

---

[876] Markar Melkonian with Seta Melkonian. My Brother's Road: An American"s Fateful Journey to Armenia. London and New York. I.B.Tauris, 2007, p.213.

[877] Michael P.Crossant. The Armenian-Azerbaijan Conflict, causes and implications. London, Praeger, 1998, p.78; Svente E. Cornell. Turkey and the conflict in Nagorno Karabakh: A delicate balance. – Middle East Studies, 1999, January, No:1, vol. 34, p. 59-60; Kamer Kasım. The Nagorno Karabakh conflict from its inception to the peace process. – Armenian Studies, Ankara, 2001, June-July-August, No:2, s. 172-174.

[878] Thomas Golts. Armenian Soldiers Massacre Hunderds of Fleeing families. – The Sanday Times, 1992, 1 March; Massacre by Armenians. – The New York Times, 1992, 3 March; Killings Rife in Nagorno-Karabakh. – The Washington Post, 1992, 3 March; Anatol Lieven. Massacre Uncovered. – The Times, 1992, 3 March; Brian Killen. Attrocity Reports Horrify Azerbaijan. – The Washington Times, 1992, 3 March; Paul Quinn- Judge. Armenians Killed 1000, Azeris Charge. – The Boston Globe, 1992, 3 March; Jill Smolowe. Massacre in Khojaly. – Time, 1992, 16 March.

[879] Dünya, bu katliama dur demeli. – "Hürriyet" gazetesi, İstanbul, 26.02.1992; Ermeni öldürüyör, dünya susuyor. – "Tercüman" gazetesi, İstanbul, 29.02.1992; Ermeni subaylar ve erler katliama katıldılar. – "Türkiye" gazetesi, İstanbul, 06.03.1992; Ermeni vahşeti lanetleniyor. – "Türkiye" gazetesi, İstanbul, 08.03.1992; Ermeni vahşetine lanet mitingi. – "Zaman" gazetesi, İstanbul, 06.03.1992; Ermeni Dağlık Karabağ'da katliam yapıyor: dünya vahşete seyirçi kalıyor. – "Milli Gazete" gazetesi, İstanbul, 05.03.1992; Ermeniler bir azeri kasabasını ele geçirdi. – "Hürriyet" gazetesi, İstanbul, 27.02.1992; Hocalı tepeleri ceset dolu. – "Güneş" gazetesi, İstanbul, 05.03.1992; Hocalı'da vahşet. – "Cumhuriyet" gazetesi, İstanbul, 02.03.1992; İşte, ermeni vahşetinin belgeleri. – "Zaman" gazetesi, İstanbul, 14.03.1992; Soykırımçı ermeni. – "Zaman" gazetesi, İstanbul, 05.03.1992.



*Öldürülmüş yaşlı kişi və qadınlar*

Azərbaycan Respublikası Ali Sovetinin sədri Elmira Qafarova istefa verdi. Bu vəzifəyə Yaqub Məmmədov seçildi.

Az sonra, martın 6-da Azərbaycan Respublikasının Prezidenti Ayaz Mütəllibov istefa verdi[880]. Bundan sonra Yaqub Məmmədov həm də prezident səlahiyyətlərini həyata keçirtməyə başladı. Lakin Ermənistanın hərbi təcavüzünü dayandırmaq mümkün olmadı. Azərbaycanlıların Dağlıq Qarabağ bölgəsindən qovularaq öz torpaqlarında məcburi köçkünə çevrilməsi daha da artdı.



*Soyqırımı qurbanı olan qadınlar*

[880] Bakü yönetimi çöktü. – "Cumhuriyet" gazetesi, İstanbul, 07.03.1992.

## *Yeni sülh səyləri*

Azərbaycan Respublikası Ermənistanın təcavüzünə dair məsələni yenidən ATƏM-in müzakirəsinə çıxardı. ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) 1992-ci il fevralın 27-28-də Praqada keçirilən 7-ci iclasında ilk dəfə olaraq Ermənistan – Azərbaycan münaqişəsinə dair müzakirələr aparıldı. Müvafiq sənəd qəbul edildi[881]. Dağlıq Qarabağ regionunun Azərbaycan Respublikasına mənsub olmasını təsdiq edən sənəddə sərhədlərin dəyişdirilməməsi şərtilə münaqişənin sülh yolu ilə tənzimlənməsinə çağırış edilirdi[882]. Lakin Ermənistan bu çağırışa məhəl qoymadı.

Azərbaycan tərəfi Ermənistanın hərbi təcavüzünü dayandırmaq üçün səylərini davam etdirirdi. 1992-ci il martın 2-də Azərbaycan Respublikası BMT-yə üzv qəbul edildi.

Martın 3-də Azərbaycan Respublikası parlamenti dünya parlamentlərinə müraciət məktubu göndərərək, Azərbaycanın ərazi bütövlüyünə qəsd edən və Dağlıq Qarabağ regionunda azərbaycanlıları soyqırıma məruz qoyan Ermənistanın təcavüzünü pisləməyə çağırdı[883].

Bu zaman artıq Ermənistan silahlı dəstələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində azərbaycanlılar yaşayan 30-dan çox kəndi yandırmış, 25 mindən çox adamı öz ölkəsində zorla qovaraq məcburi köçkünə çevirmiş, Azərbaycan ilə dövlət sərhədi boyunca irimiqyaslı hərbi əməliyyatları da genişləndirmişdi.

ATƏM martın 5-də tərəflərə atəşkəs çağırışı etdi[884]. Buna məhəl qoymayaraq, məqsədinə nail olmaq üçün bütün mümkün vasitələrdən istifadə edən Ermənistan silahlı qüvvələri 1992-ci il martın 8-də Qazax rayonunun

---

[881] CSCE Seventh Meeting of the Committee of Senior Officials. Prague, 27-28 February, 1992, Journal № 2. – ARXİNA materialları.1992; 27-28 February (Prague) 7th Meeting of the Committee of Senior Officials. Journal No. 2 + Annex & Interpretative statements by Azerbaijan and Armenia.– OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno-Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference.1992-2008, p.2.

[882] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, s. 11-12.

[883] Dünya birliyi dövlətlərinin parlamentlərinə Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının müraciəti. 03.03.1992. – ARXİNA. 1992; Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15.03.1992. Bakı, 1992, № 5 (858), s. 8-9.

[884] CSCE Communication No.89. Prague, 5 March 1992. To the Points of Contact. Observers to monitor a cease-fire in Nagorno-Karabakh. The attached urgent dispatch from the Chairman-in-Office of the Committee of Senior Officials, dated 5 March 1992, is circulated at the request of the Chairman. – OSCE Archive in Prague. Communication 1992 a.

Xeyrimli kəndini işğal edərək yandırdı. Ermənilər martın 10-da Ermənistan ərazisində yerləşən bir rus hərbi bazasına basqın edərək 10 əsgəri girov götürdülər. 5 min Qrad raketi, 5 min top, 5 min tank əleyhinə bomba verilməsi şərti ilə onları azadlığa buraxacaqlarını bildirdilər. Rusiyanın təzyiqindən sonra girovlar azad edilsə də, yeni silah və sursat əldə edən Ermənistan təcavüzünü daha da genişləndirdi. Martın 12-də isə Qazax rayonunun Aşağı Əskipara kəndini işğal edərək yandırdı.

ATƏM-in YVŞK-nın martın 13-14-də Helsinkidə keçirilən 8-ci iclasında münaqişənin dayandırılması və onun dinc siyasi vasitələrlə aradan qaldırılması yolları müzakirə edildi[885]. Bundan sonra müvəqqəti atəşkəs yarandı. Müzakirələrdən bir neçə gün sonra, martın 19-23-də ATƏM-in fəaliyyətdə olan sədri Çexiya və Slovakiyanın nümayəndəsi Yan Kubişin başçılığı altında ATƏM-in nümayəndə heyəti münaqişə bölgəsinə səfər etdi[886]. Səfərdə məqsəd atəşin dayandırılması, ATƏM müşahidəçilərinin münaqişə bölgəsinə yerləşdirilməsi idi. Şəraitlə tanış olan nümayəndə heyəti hesabat hazırladı[887]. Martın 23-24-də Helsinkidə YVŞK-nın 9-cu iclasında atəşin dərhal dayandırılması və ATƏM çərçivəsində sülh konfransını keçirtmək üçün şərait yaratmaq çağırışı edildi.

Məsələ ATƏM Xarici İşlər Nazirləri Şurasının iclasında müzakirəyə çıxarıldı. Nazirlər Şurasının martın 24-də Helsinkidə keçirilən əlavə iclasında Minskdə ATƏM-in himayəsi altında mümkün qədər tez bir zamanda münaqişənin ATƏM prinsip, öhdəlik və müddəaları əsasında sülh yolu ilə tənzimlənməsi istiqamətində danışıqlar üçün forumu təmin edəcək ABŞ, Rusiya, Türkiyə, Fransa, İtaliya, Almaniya, Belarus, İsveç, Finlandiya, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə konfrans çağırmaq qərara alındı[888].

---

885 13-14 March (Helsinki) 8th Meeting of Committee of Senior Officials. Journal. – OSCE Archive in Prague. Decisions, adopted texts and background documentson the [Nagorno-Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.5.

886 19, 23-24 March (Helsinki) 9$^{th}$ Meeting of Committee of Senior Officials. – OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno-Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference.1992-2008, p.6.

887 CSCE Communication No. 117. Prague, p.t. Helsinki. 24 March 1992. To the Points of Contact. Report of the Second CSCE Mission on Nagorno Karabakh The attached Report of the second CSCE mission on Nagorno Karabakh is circulated for the information of participating. – OSCE Archive in Prague. Comunication 1992 a.

888 CSCE. First Additional Meeting of the Council. Helsinki, 24 March, 1992. – ARXİNA; Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi. ATƏM Şurasının

Yenicə yaradılmış MDB-nin İcraiyyə Komitəsi Minskdə yerləşdiyi və Belarus hökuməti ölkənin paytaxt şəhərini çağırılması nəzərdə tutulan həmin toplantıya verdiyi üçün ona Minsk konfransı deyilir.[889] ATƏM Nazirlər Şurasının sədrinə atəşin səmərəli şəkildə dayandırılması və yenidən başlanmaması, habelə məsələnin dinc yolla hərtərəfli nizama salınması məqsədi ilə münaqişə bölgəsinə səfər etmək tapşırıldı.

Konfransa hazırlıq məqsədi ilə İtaliya Xarici İşlər Nazirliyinin yüksək vəzifəli rəsmisi, professor Mario Rafaelliyə sədr mandatı verildi[890]. Onun səfəri ərəfəsində Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ bölgəsi ilə yanaşı Azərbaycanın sərhəd rayonlarına da hücumlarını artırmışdılar. Aprelin 27-də Ermənistan silahlı qüvvələri Qazax rayonunun Barxudarlı və Sofulu kəndlərini işğal edərək yandırdı. Əhali daimi yaşayış yerindən didərgin düşdü. Mayın 6-da isə Ermənistan silahlı qüvvələri Naxçıvan Muxtar Respublikası üzərinə şiddətli hücuma keçərək sərhədboyu yaşayış məntəqələrini top atəşinə tutdu.

Mario Rafaelli başda olmaqla ATƏM-in nümayəndə heyəti mayın 7-də Azərbaycana səfər etdi. Keçirilən görüşlərdə o, regionda sülhün bərqərar olması üçün atəşin uzun müddətə kəsilməsinin, iyun ayının ortalarında keçiriləcək Minsk konfransının çağırılmasının şərtlərinin və iştirakçılarının müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi.

## *Şuşanın işğalı*

Belə bir şəraitdə qonşu İran İslam Respublikası da vasitəçilik səylərini davam etdirirdi. Əvvəlcədən əldə edilmiş razılaşmaya uyğun olaraq 1992-ci il mayın 7-də İran İslam Respublikasının Prezidenti Əkbər Haşemi Rəfsəncaninin vasitəçiliyi ilə Azərbaycan Respublikası Prezidentinin sə-

---

birinci əlavə görüşü. Helsinki, 24.03.1992. Yekun. – "Diplomatiya aləmi" jurnalı. Bakı, 2003, yanvar-mart, №2, s.115-116; Tim Porter. Conflict in Nagorno-Karabkh, Abkhazia and South Ossetia. A Legal Appraisal. Cambridge, Kluwer Law International, 2001, p.83; Summary of Conclusions from the First Additional Meeting of the Council of Ministers. Helsinki, 24 March 1992. – OSCE Archive in Prague. Nagorno Karabakh. Minsk. 1992 B-1993. II. № 652.

[889] Детальное состояние по Нагорному Карабаху. Текст заявление посла Мареска. – ARXİNA. 1993. Dağlıq Qarabağ probleminə dair sənədlər. Qovluq № 20, v.3.

[890] CSCE Communication No. 128. Prague, 7 April 1992. To the Points of Contact. Chairman of the Conference on Nagorno-Karabakh Participating States are informed that the Chairman-in-Office of the CSCE Council has appointed professor Mario Rafaelli, Italy, as Chairman of the Conference on Nagorno-Karabakh under the auspices of the CSCE. – OSCE Archive in Prague. Communication 1992 a.

lahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Yaqub Məmmədov və Ermənistan Prezidenti L.Ter-Petrosyan arasında Tehranda keçirilən görüşün yekununda atəşin dayandırılması, münaqişənin sülh yolu ilə tənzimlənməsi məsələlərini nəzərdə tutan bəyannamə imzalandı.

Lakin İranın vasitəçilik səyləri uğursuz oldu. Azərbaycan nümayəndə heyəti vətənə dönməmiş Ermənistan silahlı qüvvələrinin Şuşa şəhəri üzərinə şiddətli hücumu başladı. Azərbaycan musiqi mədəniyyətinin beşiklərindən biri, ərazisi 290 kv. km, əhalisi 50 min nəfərədək olan Şuşa şəhəri mayın 8-də işğal edildi. Şəhər əhalisinin bir qismi öldürüldü, bir qismi isə yaşayış yerlərini tərk etdi. Şəhərdəki tarix və mədəniyyət abidələri, məscid, kitabxana, klub və məktəblər yerlə yeksan edildi, qədim əlyazmalar yandırıldı. Bununla da Azərbaycanın Dağlıq Qarabağ regionundan bütün azərbaycanlılar qovularaq məcburi köçkünə çevrildilər[891]. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalını başa çatdırdı.



*Dağıdılmış Şuşa şəhəri*

Şuşanın işğalı Azərbaycanda daxili ictimai-siyasi şəraiti kəskinləşdirdi. Ermənistan isə dayanmaq bilmirdi. İşğallarını davam etdirən Ermənistan qoşunları mayın 11-də Qazax rayonunun Qızılhacılı kəndini işğal edərək yandırdı, əhalisini məcbur köçkünə çevirdi.

Xocalıda törədilmiş soyqırımından sonra vəzifəsindən istefa vermiş Ayaz Mütəllibovun mayın 14-də yenidən hakimiyyətə qayıtmağa cəhd et-

[891] Этнополитические конфликты в Закавказье: их истоки и пути решения. Центр международного развития и конфликтологии. Мэрилендский Университет. Kolledj Park Merilend. США, 1996, s. 87; Aslanlı A. Qarabağ problemi: tarixi, mahiyyəti, həll prosesi. Bakı, 2009, s.28.

məsi ölkədəki şəraiti daha da gərginləşdirdi. Buna qəti etiraz edən Azərbaycan Xalq Cəbhəsi 1992-ci il mayın 15-də mövcud hakimiyyəti devirdi. Ayaz Mütəllibov Rusiya hərbi təyyarəsi ilə Moskvaya getdi[892].

### *Laçın rayonunun işğalı*

Azərbaycanda yaranmış mürəkkəb şəraitdən istifadə edən Ermənistan hərbi təcavüzünü daha da genişləndirərək Laçın rayonu üzərinə hücuma başladı. Buna cavab olaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi mayın 14-də ATƏM-ə müraciət edərək, Laçın rayonu ətrafında yaranmış ağır vəziyyətə diqqəti yönəltdi və Ermənistanın hücumlarını dayandırmağa çağırdı[893]. Lakin bu səylər bir nəticə vermədi. Dağlıq Qarabağ regionundan kənarda yerləşən və 123 yaşayış məntəqəsi, 1840 kv. km ərazisi olan Laçın rayonu mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Rayonun təqribən 60 min nəfər əhalisi məcburi köçkünə çevrildi[894]. Beləliklə, Azərbaycanın Dağlıq Qarabağ regionu ilə Ermənistan arasında quru əlaqəsi yaradıldı.



*Yandırılmış Laçın*

---

[892] Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992 – Haziran 1993), s. 45.
[893] CSCE Communication No.173. Prague, 14 May 1992. To the Points of Contact Message from Azerbaijan. – OSCE Archive in Prague. Communication 1992 a.
[894] Агрессия Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агрессии представленной в международные организации. Баку, май 1994 г. – ARXİNA. 1994; Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. ARXİNA. 1994. Qovluq №9, v. 36.

Laçının işğalından bir neçə həftə sonra, 1992-ci il iyunun 1-7-də Mario Rafaellinin sədrliyi ilə Romada Minsk qrupu çərçivəsində görüşlərin ilk mərhələsi keçirildi[895]. 11 ölkənin – ABŞ, Türkiyə, Rusiya, İtaliya, Fransa, Almaniya, İsveç, Finlandiya, Belarus, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirak etdiyi görüşün məqsədi iyunun 23-də açılması nəzərdə tutulan beynəlxalq konfransa hazırlıq idi. Görüşdə Azərbaycan tərəfi atəşkəsin elan olunmasını və səmərəli beynəlxalq nəzarətin qurulmasını təklif etdi[896]. Lakin Ermənistanın mövqeyi səbəbindən Roma görüşündə sənəd qəbul edilmədi. Bununla belə, Minsk qrupu toplantı haqqında geniş hesabat hazırlayaraq ATƏM-ə təqdim etdi[897]. Ermənistan isə işğallarını davam etdirirdi.

Belə bir mürəkkəb şəraitdə, 1992-ci il iyunun 7-də Azərbaycanda prezident seçkiləri keçirildi. Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Əliyev (Elçibəy) Azərbaycan Respublikasının Prezidenti seçildi. Seçkinin səhərisi gün, iyunun 8-də isə Ermənistan silahlı qüvvələri Azərbaycan ilə sərhəddə yerləşən Qazax rayonunun Yuxarı Əskipara kəndini işğal edərək yandırdı.

Azərbaycan rəhbərliyi ölkənin ərazi bütövlüyünün bərpası üçün səylərini artırdı. İyunun 16-da Goranboy rayonu üzərində nəzarət bərpa edildi. Bundan sonra Ermənistan həm atəşkəs elan edilməsini, həm ABŞ və Rusiyadan Azərbaycan hakimiyyətinə təzyiqlər göstərilməsini, həm də Fransadan münaqişənin BMT-də müzakirəyə çıxarılmasını xahiş etməyə başladı.

Romada Minsk konfransına hazırlıq üzrə görüşlərin iyunun 15-20-də keçirilən ikinci mərhələsində[898] Ermənistan tərəfi konfransın Şuşa və

---

[895] 1 June to 7 July (Rome). Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. – OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno-Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.12; 1 June 1992. Preliminary Emergency Meeting of the Minsk Group. – OSCE Archive in Prague. Rome, 1992, session, 1, 2; 4 June 1992. Preliminary Emergency Meeting of the Minsk Group. – OSCE Archive in Prague. Rome, 1992, session, 1, 2; 5 June 1992. Preliminary Emergency Meeting of the Minsk Group. – OSCE Archive in Prague. Rome, 1992, session, 1.2.

[896] Proposal of Azerbaijan. 3 June 1992. – OSCE Archive in Prague. Rome, 1992, 1, 2 session.

[897] Report on the Preliminary Emergency Meeting of the Minsk Grooup. 12 June 1992. – OSCE Archive in Prague. Minsk Conference. File № 809.

[898] Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 15 June 1992. Second session. – OSCE Archive in Prague. Rome, 1992, 1, 2 session; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 16 June 1992.Second session. – OSCE Archive in Prague. Rome, 1992, 1, 2 session; Journal Emergency Prelimi-

Laçının işğalı ilə bağlı əvvəlki dörd bəndlik sənədinə Ağdərənin də adını daxil etmək təklifini irəli sürdü[899]. Bununla razılaşmayan və Ermənistanın təcavüzünü, Şuşa və Laçının işğalını diqqətə çatdıran Azərbaycan tərəfi işğal edilmiş ərazilər azad edildikdən sonra Ermənistan ilə kommunikasiyaları açmağa razı olduğunu bildirdi[900].

Görüşlərin növbəti mərhələsi iyunun 29-dan iyulun 7-dək[901] Romada keçirildi. İyulun 1-də Azərbaycan tərəfi Ermənistanın əldə edilmiş razılaş-

---

nary Meeting of the Minsk Group of the CSCE. Rome.Villa Madama. 17 June 1992. Second session. – OSCE Archive in Prague. Roma, 1992, 1, 2 session; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 18 June 1992. Second session. – OSCE Archive in Prague. Rome, 1992, 1, 2 session; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama.19 June 1992. Second session. – OSCE Archive in Prague. Rome, 1992, 1, 2 session; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 20 June 1992. Second session. – OSCE Archive in Prague. Rome, 1992, 1, 2 session.
Rome, 19 June 1992. Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. 1992. Proposal of the Armenian Delegation. – OSCE Archive in Prague. File: Rome, 1992, 1, 2 session.

[899] Rome, 19 June 1992. Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. 1992. Proposal of the Armenian Delegation. – OSCE Archive in Prague. File: Rome, 1992, 1, 2 session.

[900] Rome, 19 June 1992. Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. 1992. Proposal of the Azerbaijan Delegation.– OSCE Archive in Prague. File: Rome, 1992, 1, 2 session.

[901] Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome.Villa Madama. 29 June 1992. Third session. – OSCE Archive in Prague. CSCE; Preliminary Emergency Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. Third Session, June/July 1992. – OSCE Archive in Prague. CSCE; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama, 30 June 1992. Third session. – OSCE Archive in Prague. CSCE; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 1 July 1992. Third session. – OSCE Archive in Prague. CSCE; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 2 July 1992. Third session. – OSCE Archive in Prague. CSCE; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 3 July 1992. Third session. – OSCE Archive in Prague. CSCE; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 4 July 1992. Third session. – OSCE Archive in Prague. CSCE. Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 6 July 1992. Third session. – OSCE Archive in Prague. CSCE; Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE. Rome. Villa Madama. 6 July 1992. Third session. – OSCE Archive in Prague. CSCE.

maları pozduğunu diqqətə çatdırdı[902]. Uğursuz olmasına baxmayaraq, iyulun 3-də Minsk qrupu atəşi 60 gün müddətində dayandırmaq üçün çağırış etdi[903]. Həmin məqsədlə təxmini tədbirlər cədvəli layihəsi hazırlanaraq tərəflərə təqdim olundu[904]. Buna dair iyulun 9-da daha bir görüş keçirildi[905].

Layihəni qəbul etməyən Ermənistan hücumlarını davam etdirirdi. Ermənistan Respublikası Ali Soveti daha da irəli gedərək Dağlıq Qarabağ bölgəsinin Azərbaycan tərkibində göstərildiyi heç bir qərarı qəbul etməyəcəyi barədə sənəd qəbul etdi. Cavab olaraq Azərbaycan Respublikası Milli Məclisi 1992-ci il iyulun 15-də dövlətlərarası münasibətlərin hamılıqla qəbul olunmuş prinsip və normalarının Ermənistan Respublikasının Ali Soveti tərəfindən kobudcasına pozulması haqqında qərar qəbul etdi[906].

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi isə Ermənistanın təcavüzü nəticəsində yaranmış humanitar fəlakətə dair iyulun 22-də nota verdi[907]. Notada yaranmış ağır vəziyyət təsvir olunur və təcavüzkarın dayandırılması tələb edilirdi.

---

[902] CSCE S5SE/RM. 4. Rome, 1 July 1992. Emergency Preliminary Meeting of the Minsk Group. Rome. 1992. Proposal of the Azerbaijan Delegation. – OSCE Archive in Prague. CSCE.

[903] Appeal by the Minsk Group of the CSCE for an Interruption of military activities. – OSCE Archive in Prague. File: Rome. August, 1992. Minsk Group; Minsk Group Talks on Nagorno-Karabakh. Dispatch.Vol. 3, № 32, August 10, 1992. – United States Information Service.

[904] Примерный график мероприятий по приостановке военных действий. – ARXİNA. 1993. Qarabağ probleminə dair sənədlər.1-ci hissə. Münaqişəli problemlər idarəsi. Qovluq № 22, v. 16- 18.

[905] 9 July 1992 (Helsinki). 14th Meeting of the Committee of Senior Officials. Journal. – OSCE Archive in Prague. Decisions, adopted texts and background documents on the [Nagorno-Karabakh] conflict dealt with by the CSCE/OSCE Minsk Conference. 1992-2008, p.12.

[906] Dövlətlərarası münasibətlərin hamılıqla qəbul olunmuş prinsiplərinin və normalarının Ermənistan Respublikasının Ali Soveti tərəfindən kobudcasına pozulması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı. 15 iyul 1992-ci il. – Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 15.07.1992. Bakı, 1992, №13 (866), s.17-18.

[907] CSCE Communication №. 222. Prague, 27 July 1992.To the Points of Contact - Note Verbale of the Ministry of Foreign Affairs of Azerbaijan concerning the resource list of the humanitarian dimension mechanism, and Letter of the Director of the ODIHR to the Ministry of Foreign Affairs of Azerbaijan The enclosed Note Verbale dated 22 July 1992 from the Ministry of Foreign Affairs of Azerbaijan to the ODIHR in Warsaw concerning the resource list of the human dimension mechanism and the reply dated 27 July 1992 from the Director of the ODIHR are circulated at the request of the ODIHR. – OSCE Archive in Prague. Communication 1992 a.

İyulun 27-də Azərbaycan parlamenti ATƏM-ə müraciət edərək Ermənistanın işğalçılıq siyasətinə diqqəti cəlb etdi və onun hamı tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarını pozduğunu bildirdi[908].

ATƏM-in vasitəçiliyi ilə iyulun 31-dən avqustun 4-dək keçirilən növbəti görüşdə Azərbaycan Ermənistanın təcavüzünün genişlənməsini, azərbaycanlılara qarşı törətdiyi soyqırımını önə çəkdi, yeni təklifləri Minsk qrupunun mandatından geri çəkilmək kimi qiymətləndirdi[909]. Görüşdə sülh üçün təşəbbüslərin edilməsinin vacibliyi bildirildi[910].

Minsk qrupunun müraciətinə cavab olaraq Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə 1992-ci il avqustun 27-də Alma-Atada Azərbaycan, Ermənistan və Qazaxıstan xarici işlər nazirlərinin görüşü keçirildi. Görüşdə məqsəd atəşkəsin elan edilməsi, Azərbaycan və Ermənistan rəhbərlərinin yüksək səviyyədə görüşünün keçirilməsi üçün hazırlıqlara başlamaq idi. Müzakirələrin yekununda birgə bəyannamə imzalandı[911]. Bəyannaməyə görə münaqişə edən tərəflər sentyabrın 1-dən etibarən hərbi əməliyyatları 60 gün ərzində dayandırmağa hazır olduqlarını bildirirdilər. Sənəddə nəzərdə tutulanların yerinə yetirilməsinə dair sentyabrın 3-də İcevan protokolu imzalandı[912]. Protokolun yerinə yetirilməsi üçün Azərbaycan və Ermənistan işçi qrupları arasında sentyabrın 14-16-da Alma-Atada görüş keçirilsə də, nəticəsiz başa çatdı. Görüşlərdən fasilə kimi istifadə edən Ermənistan tərəfi Laçın yolu ilə Azərbaycanın Dağlıq Qarabağ regionuna hərbi sursat və silah gətirilməsini artırdı.

---

[908] CSCE Communication №.221. Prague, 27 July 1992.To the Points of Contact Position taken by the National Parliament of the Republic of Azerbaijan. The attached position taken by the National Parliament of the Republic of Azerbaijan about "the gross violation of general principles and standards of international relations by the Parliament of Armenia" is circulated at the request of Azerbaijan. – OSCE Archive in Prague. Communication 1992 a.

[909] Azerbaijan. 2 August 1992. – OSCE Archive in Prague. CSCE.

[910] Journal Emergency Preliminary Meeting of the Minsk Group of the CSCE.Rome, Villa Madama, 1 August 1992. Fourth session. – OSCE Archive in Prague. CSCE.

[911] CSCE Communication No. 264. Prague, 8 September 1992. To the Points of Contact Memorandum of the Foreign Ministers of Azerbaijan, Armenia and Kazakhstan. The attached Memorandum of the Ministers for Foreign Affairs of the Republic of Azerbaijan, the Republic of Armenia and the Republic of Kazakhstan concerning their meeting in Alma-Ata on 27 August 1992, is circulated at the request of the Chairman in-Office. – OSCE Archive in Prague. Communication 1992 a.

[912] Qasımlı M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996, s. 101-102, 162.

Bu zaman Rusiya tərəfi müəyyən addımlar ataraq, sentyabrın 19-da Soçidə Azərbaycan, Ermənistan və Gürcüstan müdafiə nazirlərinin görüşünü keçirtdi. Razılaşmaların nəticəsində sentyabrın 25-dən etibarən atəşkəsə dair saziş imzalandı. Lakin Ermənistan bu sazişi də pozdu.

Azərbaycan Respublikası Milli Məclisi oktyabrın 7-də ölkənin Müstəqil Dövlətlər Birliyinə daxil olmasının əleyhinə səs verdikdən sonra Rusiya tərəfi Ermənistana etdiyi yardımları daha da artırdı. Nəticədə Ermənistan təcavüzkarlığını daha da genişləndirdi.

Azərbaycan isə ATƏM ilə əməkdaşlığa üstünlük verdi. Mario Rafaelli 1993-cü il yanvarın 10-dan etibarən hərbi əməliyyatların dayandırılmasına və martın 9-da Minsk konfransının açılmasına dair tədbirlər layihəsini işləyib hazırladı[913]. Layihəyə görə münaqişənin tənzimlənməsi prosesi beş mərhələdə həyata keçirilməli, hərbi gərginlik aşağı salınmalı və tərəflər Minsk konfransında problemin tam həlli üçün danışıqlara başlamalı idilər. Mario Rafaelli Ermənistan və Azərbaycan arasında sülh sazişinin, onu həyata keçirtmək üçün təqvimin,[914] həmçinin ümumi sülh proqramının layihələrini də hazırladı[915]. Ümumi sülh proqramının layihəsinə görə problem yeddi mərhələdə tənzimlənməli idi.

Belə bir şəraitdə, 1993-cü il yanvarın 13-də Moskvada səfərdə olan ABŞ Prezidenti Corc Buş Rusiya Prezidenti Boris Yeltsin ilə birgə bəyanat verərək Azərbaycanın Dağlıq Qarabağ regionunda və Ermənistan – Azərbaycan sərhədində döyüşlərdən narahat olduqlarını ifadə edib, münaqişənin Minsk prosesi çəçivəsində həllinin vacibliyini vurğuladılar. Lakin bir müddət keçmiş, fevralın 6-da Ermənistan silahlı qüvvələri Ağdərənin iki böyük kəndi olan Sırxavənd və Çaldıranı işğal etdi. Az sonra daha 6 kənd işğal olundu.

1993-cü il fevralın 26-dan martın 1-dək Romada Mario Rafaellinin başçılığı altında 11 dövlətin iştirakı ilə keçirilən görüşdə aşağıdakı məsələlər üzrə razılıq əldə edildi: atəş dayandırıldıqdan dərhal sonra ATƏM müşahidəçiləri missiyasının regiona göndərilməsi; missiyanı hazırlamaq üçün ATƏM-in ekspertlər qrupunun göndərilməsi; atəşin dayandırılması

---

[913] Календарь мероприятий по приостановке военных действий с 10 января 1993 г. и открытие Минской конференции 9 марта 1993 г. – ARXİNA. 1993. Qarabağ probleminə dair sənədlər. 1-ci hissə. Münaqişəli problemlər idarəsi. Qovluq № 22, v. 21-30.

[914] Соглашение между Республикой Армения и Республикой Азербайджан. – ARXİNA. 1993. Qarabağ probleminə dair sənədlər. 1-ci hissə. Münaqişəli problemlər idarəsi. Qovluq № 22, v. 30.

[915] Всеобьемлющая мирная программа. Первый неофициальный проект не имеющий статуса. – ARXİNA. 1993. Qarabağ probleminə dair sənədlər. 2-ci hissə. Münaqişəli problemlər idarəsi. Qovluq № 22, v. 31-39.

müddəti, müşahidəçilər missiyasının işə başlaması və Minsk konfransının rəsmi açılışı ilə bağlı maddələr də daxil olmaqla sülh prosesinin konkret sənədlərinə dair saziş imzalamaq üçün Minsk qrupunun aprel ayında daha bir görüşünün keçirilməsi[916].

Görüşdən bir neçə gün sonra, 1993-cü il martın 16-da Rusiya Federasiyası və Fransa Respublikasının prezidentləri birgə bəyanatla çıxış edərək, milyonlarla erməni və azərbaycanlıya bədbəxtliklər gətirmiş münaqişənin tezliklə tənzimlənməsinə səylər etdiklərini, hərbi əməliyyatlardan narahatlıq hissi keçirtdiklərini, sülh, xalqların qanuni hüquq və azadlıqlarına hörmət edilməsinə, münaqişələrin dinc siyasi vasitələrlə həllinə tərəfdar olduqlarını bildirərək tərəfləri dialoqa çağırdılar[917]. Bəyanatda Minsk qrupunun səyləri müdafiə olunur və tərəflərə hərbi əməliyyatları dayandırmaq təklif edilirdi. Lakin bu çağırışa da məhəl qoymayan Ermənistan silahlı qüvvələri Vardenis rayonu ərazisindən Kəlbəcər rayonuna zərbələr endirərək hücuma keçdi.

### *Kəlbəcərin işğalı*

Şiddətli hücumlar nəticəsində Kəlbəcər rayonu ətrafında ağır şərait yarandı. Hücumu dayandırmaq məqsədi ilə Azərbaycan Respublikası BMT-yə müraciət etdi. BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi Həsən Həsənov Kəlbəcər rayonunda yaranmış faciəli şəraitə dair 1993-cü il martın 31-də Təhlükəsizlik Şurasının sədrinə məktub göndərdi[918].

Azərbaycan Respublikası aprelin 1-də dünya ölkələrinin parlamentlərinə, Avropa Parlamentinə, ATƏM-ə və BMT-yə müraciət etdi[919]. Müraciətdə Ermənistanın Azərbaycana qarşı apardığı müharibənin yeni mər-

---

[916] Детальное состояние переговоров по Нагорному Карабаху. Текст заявление посла Мареска. – ARXİNA. 1993. Dağlıq Qarabağ probleminə dair sənədlər. Qovluq №20, v.1.

[917] Совместное заявление президента Российской Федерациии президента Французской Республики. Москва, 16 марта 1993 года. – ARXİNA. 1993. Münaqişəli problemlər idarəsi. Qarabağ probleminə dair sənədlər. 2-ci hissə. Qovluq № 22, v. 64.

[918] Письмо постоянного представителя Азербайджана при Организации Объединенных Наций на имя председателья Совета Безопасности. 31.03.1993. – Гасанов Г. Письмо в Совет Безопасности ООН.1992-1993. Баку, 2004, s.73-74.

[919] Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü haqqında dünya ölkələrinin parlamentlərinə, Avropa Parlamentinə, ATƏM-ə və BMT-yə Azərbaycan Respublikası Milli Şurasının müraciəti. 1 aprel 1993-cü il. – ARXİNA. 1993.

hələyə – açıq işğalçılıq mərhələsinə keçdiyi göstərilir və təcavüzkara münasibətin bildirilməsi xahiş edilirdi.

Çağırışlara məhəl qoymayan və təcavüzünü davam etdirən Ermənistan aprelin 2-də Kəlbəcər rayonunu işğal etdi. Rayon ərazisində kütləvi qırğın törədildi[920]. Yüzlərlə adam əsir alındı və itkin düşdü. 3050 kv. km ərazisi və 150 yaşayış məntəqəsi olan Kəlbəcərin işğalı ilə təqribən 60 min adam məcburi köçkünə çevrildi[921]. Onların arasında azərbaycanlılarla yanaşı ruslar, yəhudilər və b. xalqların da nümayəndələri var idi[922]. Rayon ərazisindəki tarix və memarlıq abidələri, klub və kitabxanalar, tarix-diyarşünaslıq muzeyi yerlə yeksan edildi.

Azərbaycan Prezidenti aprelin 3-də BMT Təhlükəsizlik Şurasının sədrinə müvafiq məktub göndərdi. Aprelin 4-də isə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Ermənistanın təcavüzünün davam etməsi və Kəlbəcərin işğalı haqqında bəyanat verdi. BMT yanında Azərbaycanın daimi nümayəndəsi Təhlükəsizlik Şurasının sədrinə aprelin 5-də ölkə rəhbərinin 3 aprel tarixli müraciətini və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 4 aprel tarixli bəyanatını göndərdi[923]. Ermənistanın hərbi təcavüzünə dair əlavə materiallar BMT baş katibinə təqdim edildi. Azərbaycan tərəfi daha bir addım atdı. Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayev xarici işlər naziri Tofiq Qasımovun adından aprelin 5-də ABŞ dövlət katibi Uorren Kristoferə məktubla müraciət edərək, Azərbaycan ərazisində baş verən dəhşətli reallıqlara, Kəlbəcərin işğalına diqqəti cəlb etdi, onun həmin işğalı pisləmək üçün BMT Təhlükəsizlik Şurasına məktub göndərməsini və növbədənkənar iclasını çağırmaq üçün təşəbbüs göstərməsini xahiş etdi. Bundan sonra Təhlükəsizlik Şurasının səd-

---

[920] Kelbecer’de büyük katliam. – “Milliyet” gazetesi, İstanbul, 04.04.1992.

[921] Агрессия Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агрессии представленный в международные организации. Баку, май 1994 г. – ARXİNA. 1994. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. Qovluq №9, v. 36.

[922] Statistic information on the results of the occupation of the Kelbajar region. – ARXİNA. 2002. Katiblik. BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəliyi. Qovluq № S, v. 97-103.

[923] Идентичные письмо президента Азербайджана на имя Генерального секретаря и председателя Совета Безопасности. 03.04.1993; Заявление Министерства Иностранных Дел Азербайджанской Республики. 04.04.1993. – Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993, с.78, 82.

ri BMT baş katibinə müraciət edərək, ATƏM ilə məsləhətləşib münaqişə regionunda şəraitə dair təcili məruzə hazırlamağı xahiş etdi[924].

BMT Təhlükəsizlik Şurasının aprelin 6-da keçirilən iclasında məsələyə dair Təhlükəsizlik Şurası sədrinin bəyanatı qəbul edildi[925]. Bəyanatda Ermənistanın Azərbaycan ilə münasibətlərinin pisləşməsindən, düşmənçilik hərəkətlərinin artmasından, xüsusi ilə "yerli erməni qüvvələrinin" Azərbaycan Respublikasının Kəlbəcər rayonuna müdaxiləsindən ciddi narahatlıq ifadə olunur, sülh və bölgənin təhlükəsizliyi üçün qorxu törədən düşmənçilik hərəkətlərinə dərhal son qoymaq və həmin qüvvələri oradan çıxartmaq tələb edilir, bölgədəki bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı təsdiq edilir, ATƏM çərçivəsində sülh prosesinə tərəfdar çıxılırdı. Eyni zamanda Minsk qrupunun əldə etdiyi ilkin sazişdən sonra yaxın vaxtlarda atəşi dayandırmaq, müşahidəçilərin yerləşdirilməsi cədvəli, siyasi bəyannamənin layihəsi barədə sazişlərin də əlavə olunmasına və Minsk konfransının tezliklə çağırılmasına ümid ifadə edilir, mülki əhalinin iztirablarını azaltmaq üçün münaqişəyə cəlb olunmuş bütün rayonlara humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsi tövsiyə edilirdi.

Bütün müsbət tərəflərinə baxmayaraq, BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatı qüsursuz da deyildi. Belə ki, Kəlbəcərin işğalının Rusiya və Fransanın təklifi ilə "yerli erməni qüvvələrinin" hərəkəti kimi qələmə verilməsi reallığı əks etdirmirdi. Çünki Azərbaycanın Dağlıq Qarabağ regionunun erməni icmasının əraziləri işğal etməyə qadir olan ordu qurmaq üçün insan potensialı, iqtisadi-maliyyə gücü və hərbi-sənaye kompleksi yox idi. Kəlbəcər xaricdən yardımlar alan Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

Qətnamədə belə ifadələrin yazılmasının konkret məqsədləri var idi: Ermənistanın təcavüzkarlığını ört-basdır etmək, separatçı rejimi danışıqların tərəfi kimi qəbul etdirmək.

BMT Təhlükəsizlik Şurası sədrinin göstərilən bəyanatına da məhəl qoymayan Ermənistan təcavüzünü genişləndirmək üçün bölgəyə hərbi texnika və sursat daşınmasını artırdı.

---

[924] Бутрос Бутрос Гали. Доклад о работе организации за период с сорок седьмой до сорок восьмой сессии Генеральной Ассамблеи. Сентябрь 1993. Нью-Йорк, 1993, с. 148.

[925] Təhlükəsizlik Şurası sədrinin bəyanatı. – Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993, с. 89.



*Yandırılmış Kəlbəcər*

## *Soçi görüşü*

BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatından sonra Rusiya hərbi əməliyyatları dayandırmaq üçün münaqişə tərəfləri arasında görüşün keçirilməsi təşəbbüsü ilə çıxış etdi. 1993-cü il aprelin 8-də Soçidə Rusiya, Azərbaycan və Ermənistan nümayəndələrinin görüşü keçirildi. Görüşdə Azərbaycan tərəfindən dövlət katibi Pənah Hüseynov, baş nazirin müavini Abbas Abbasov, Rəhim Qazıyev, Rusiya tərəfindən müdafiə naziri Pavel Qraçov və köməkçisi, Krasnodar vilayəti icra hakimiyyətinin başçısı, Ermənistan tərəfindən isə baş nazirin müavini, müdafiə naziri Vazgen Sarqsyan, güc nazirləri və digər şəxslər iştirak edirdilər[926]. Görüşü açaraq yaranmış şəraiti qısa olaraq şərh edən P.Qraçov Rusiyanın səbrinin tükəndiyini, vasitəçilik səylərinin sona çatmaqda olduğunu, tərəflərin Rusiyasız razılığa gələ biləcəyi təqdirdə ölkəsinin kənara çəkiləcəyini dedi.

Diqqəti Ermənistanın təcavüzünə, Kəlbəcərin işğalına yönəldən Azərbaycan nümayəndələri təcavüzkarın dayandırılmasını tələb edərək, ölkənin mövqeyini bildirdilər. Bu mövqeyə görə işğalçı qüvvələr işğal edilmiş ərazi-

---

[926] Запись переговоров в Сочи. 08.04.1993. – ARXİNA. 1993. Münaqişəli problemlər idarəsi. Qarabağ probleminə dair sənədlər. 2-ci hissə. Qovluq № 22, v. 109-112.

lərdən çıxarılmalı idi. Əgər bu zaman tərəflər arasında etimad olmazdısa, müşahidəçilər, o cümlədən rusiyalı müşahidəçilər də həmin prosesdə iştirak edə bilərdilər. Azərbaycan yalnız bundan sonra atəşi dayandıra bilərdi.

V.Sarqsyan Ermənistanın blokadada saxlandığını saxtakarlıqla bildirərək, ordu hissələrinin Kəlbəcərdən çıxarılmasını Meğri dəmiryolunun açılması ilə əlaqələndirdi.

Azərbaycan nümayəndələri Kəlbəcərin işğalının Dağlıq Qarabağ münaqişəsi ilə heç bir əlaqəsi olmadığını, bu işğalın münaqişəyə açıq müharibə xarakteri verdiyini, Ermənistan tərəfinin Kəlbəcərdən ordu hissələrini çıxartmasından sonra Azərbaycanın Meğri yolunu aça biləcəyini, blokadanı Azərbaycanın yaratmadığını, Ermənistanın Meğri yolunu açdıqdan sonra yüklərin maneəsiz daşınacağını qeyd etdilər. Azərbaycan tərəfi nəqliyyat yolunun açılması problemini Kəlbəcərlə əlaqələndirməyin məqbul olmadığını bildirərək, əvvəlcə Ermənistan silahlı qüvvələrinin Kəlbəcərdən çıxardılmasını, yolların açılmasını, sonra isə münaqişənin dondurulmasını və Azərbaycanın Dağlıq Qarabağ regionunun statusunun müzakirəsini təklif etdi.

Müzakirəyə qoşulan P.Qraçovun köməkçisi Cənubi Qafqazın hər üç respublikasında rus hərbi hissələrinin olduğunu vurğulayaraq, Rusiyanın həmin ərazilərdə sakitlik yaradılmasında maraqlı olduğunu dedi. P. Qraçov isə atəşin dərhal dayandırılmasını təklif etdi. Azərbaycan tərəfi həmin təklifə etiraz etməyərək, Ermənistan silahlı qüvvələrinin Kəlbəcəri boşaltmasını arxa plana keçirtməyin mümkünsüzlüyünü bildirdi. Bundan sonra Pavel Qraçov işinin çox olduğunu deyərək, gürcü nümayəndələri ilə görüşə getdi.

Beləliklə, Soçi görüşü nəticəsiz başa çatdı. Ermənistan Kəlbəcəri boşaltmadı, Azərbaycan da dəmiryolunu açmadı.

### *BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsi*

Azərbaycan Respublikası 1993-cü il aprelin 11-də yenidən BMT baş katibinə müraciət edərək Ermənistanın təcavüzü nəticəsində ərazi bütövlüyünün pozulmasını yeni dünya nizamına təhdid kimi qiymətləndirdi və təcavüzün qarşısının alınması üçün tədbirlərin həyata keçirilməsini xahiş etdi[927]. Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi aprelin 12-də Təhlükəsizlik Şurasının sədrinə Ermənistanın təcavüzkar hərəkətləri haqqında konkret fakt və materialları təqdim etdi[928]. O, məsələyə

---

[927] Письмо президента Азербайджанской Республики на имя Генерального Секретаря. 11.04.1993. – Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993, с. 100.

[928]Письмо постоянного представителя Азербайджана при Организации Объединенных Наций на имя председателя Совета Безопасности. 12.04.1993. – Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993, с.91-94.

dair BMT baş katibinin məruzəsi hazırlanarkən müvafiq məlumatların nəzərə alınması, qondarma "Dağlıq Qarabağın özünümüdafiə qüvvələri"nin silahlarının mənbəyinin müəyyənləşdirilməsi üçün komissiyanın yaradılması, Ermənistanın təcavüzünün dayandırılması, problemin siyasi yolla tənzimlənməsinə mane olan əngəllərin aradan qaldırılması, Azərbaycanın işğal edilmiş ərazilərinin BMT Təhlükəsizlik Şurasının tələbləri əsasında boşaldılması, regionun bütün dövlətlərinin ərazi bütövlüyü və suverenliyi prinsipinə hörmət edilməsinə riayət olunması təkliflərini irəli sürdü.

BMT Təhlükəsizlik Şurası sədrinin xahişinə əsasən baş katib faktları müəyyənləşdirmək məqsədi ilə nümayəndələrini münaqişə zonasına göndərdi. Regiona səfər edən nümayəndə heyəti faktları toplayaraq BMT baş katibinə verdi. Fakt və məlumatları topladıqdan sonra, aprelin 14-də BMT baş katibi məsələyə dair məruzəsini təqdim etdi. Azərbaycan Respublikası aprelin 15-də BMT baş katibinə təkrarən müraciət edərək Ermənistan silahlı qüvvələrinin hücumları faktını təsdiq etmək üçün Kəlbəcərə BMT missiyasını göndərməyi xahiş etdi[929].

BMT Təhlükəsizlik Şurasının 1993-cü il aprelin 30-da keçirilən 3205 saylı iclasında Azərbaycanın Kəlbəcər rayonundan və digər işğal olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb edən 822 saylı (S/RES822(1993) qətnamə qəbul edildi[930]. Qətnamədə yazılırdı:

*"Təhlükəsizlik Şurası, Dağlıq Qarabağ münaqişəsinə dair Təhlükəsizlik Şurasının Sədri tərəfindən edilən 1993-cü il 29 yanvar (S/25199) və 6 aprel (S/25539) tarixli bəyanatlarına əsaslanaraq, baş katibin 14 aprel 1993-cü il 3 tarixli (S/26600) məruzəsini nəzərə alaraq, Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlığını ifadə edərək, silahlı hərbi əməliyyatların genişlənməsini və xüsusilə "yerli erməni qüvvələrinin" Azərbaycan Respublikasının Kəlbəcər rayonuna sonuncu hücumunu həyəcanla qeyd edərək, belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratması ilə əlaqədar narahat olaraq, çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda, xüsusilə Kəlbəcər rayonunda fövqəladə humanitar vəziyyətlə bağlı ciddi narahatçılığını ifadə edərək, regionda bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini bir daha təsdiq edərək,*

---

[929] Письмо президента Азербайджанской Республики на имя Генерального Секретаря. 15.04.1993.– Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993, с. 102.

[930] Резолюция 822 (1993), принята Советом Безопасности на его 3205-м заседании 30 апреля 1993 года. – ARXİNA. 1993; Resolution 822 (1993) Adopted by the Security Council at its 3205th Meeting on 30 Aprel 1993. – Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. 1994. The Ministry of Foreign Affairs of the Azerbaijan Republic. Baku, 1994, p. 13-14.

*həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bəyan edərək və silahlı hərbi əməliyyatların genişlənməsinin bu proses üçün dağıdıcı nəticə verə biləcəyindən dərindən narahat olaraq, möhkəm atəşkəsin əldə edilməsi məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal dayandırılmasını, həmçinin bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın digər bu yaxınlarda işğal olunmuş rayonlarından dərhal çıxarılmasını tələb edir; münaqişənin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Minsk qrupunun sülh prosesi çərçivəsində həll edilməsi məqsədilə maraqlı tərəfləri danışıqları dərhal bərpa etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirən hər hansı hərəkətlərdən çəkinməyə çağırır; mülki əhalinin əzablarını yüngülləşdirmək üçün regionda, xüsusilə münaqişəyə məruz qalmış rayonlarda humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinə çağırır, bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını yenidən təsdiq edir; baş katibdən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Fəaliyyətdə olan sədri, həmçinin Müşavirənin Minsk qrupunun sədri ilə məsləhətləşmədə regionda, xüsusilə Azərbaycanın Kəlbəcər rayonunda, vəziyyətin qiymətləndirilməsini aparmağı və Şuraya növbəti məruzəni təqdim etməyi xahiş edir; məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır.*"

Qətnamədə Azərbaycan ərazilərinin işğal edilməsi faktı etiraf, düşmənçilik hərəkətlərinin və hərbi əməliyyatların dərhal dayandırılması, işğal edilmiş ərazilərin dərhal boşaldılması tələb, bölgədəki bütün dövlətlərin suverenliyi, ərazi bütövlüyü və müstəqilliyi, zor gücünə ərazilər tutulmasının yolverilməzliyi təsdiq edilirdi. Bunlar qətnamənin müsbət tərəfləri idi.

Bununla belə, qətnamə qüsursuz da deyildi. Sənəddə Azərbaycan və Ermənistan arasında münasibətlərin pisləşməsinin səbəbləri göstərilmirdi, Kəlbəcərin "yerli erməni qüvvələri" tərəfindən işğal edilməsi ifadəsinin yazılması yanlış idi. İşğal edilmiş ərazilərin konkret olaraq nə zaman boşaldılacağı və təcavüzkar dövlətə qarşı hansı sanksiyalar tətbiq ediləcəyi də göstərilmirdi.

Qətnamə qəbul edildikdən bir neçə gün sonra, 1993-cü il mayın 3-də ABŞ, Rusiya və Türkiyə sülh təşəbbüsü ilə çıxış edərək, təkliflər planını işləyib hazırladılar[931]. Təxirəsalınmaz tədbirlərin dəqiqləşdirilməsi cədvəli Azərbaycan və Ermənistana göndərildi. Cədvələ görə qüvvələr martın 27-nə olan vəziyyətə gətirilməli, 60 günlük atəşkəs elan olunmalı,

---

[931] U.S. Hopes for Acceptance of Nagorno Karabakh plan. State Department Report. 3 May 1993. – United States Information Service.1993.

müşahidəçilər Kəlbəcərdən erməni qoşunlarının çıxarılmasını təsdiq etməli və Minsk qrupunun məsləhətləşmələri davam etdirilməli idi. Azərbaycan bu təkliflərlə razılaşdı, Ermənistan isə ondan imtina etdi.

Azərbaycan tərəfi BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin yerinə yetirilməsi üçün səylərini artırdı[932]. BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəsi Minsk qrupunun üzvü olan ölkələrin BMT yanındakı daimi nümayəndələri ilə bir sıra ikitərəfli görüşlər keçirərək Ermənistanın beynəlxalq hüquq normalarını pozması, işğalçılıq hərəkətləri barədə məlumat verdi, Azərbaycandakı qaçqın və məcburi köçkünlər üçün BMT-nin humanitar yardımlarının ayrılmasına çalışdı[933].

Ermənistanın xarici işlər naziri Vahan Papazyan isə mayın 11-də BMT baş katibinə məktub göndərərək Ermənistanın Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirakını inkar etdi[934]. Buna cavab olaraq H.Həsənov Ermənistan Respublikasının Azərbaycan dövlətinə qarşı təcavüzünə dair konkret faktları əks etdirən məktubu həm BMT baş katibinə, həm də V.Papazyanın özünə göndərdi[935].

Bundan sonra Ermənistan növbəti bir qanunsuz addım atdı. L.Ter-Petrosyan 1993-cü il mayın 26-da bəyanat verərək "Dağlıq Qarabağ əhalisi"nin təhlükəsizliyi və hüquqları üçün təminat istədi, guya "Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həll etməyə yönələn siyasətindən imtina etdiyinə tam əmin olmadığını" bildirdi[936]. Bu mövqe Ermənistanın təcavüzkarlıq siyasətindən diqqəti yayındırmaq və dinc nizamasalma prosesini uzatmaq niyyəti güdürdü.

---

[932] Гасанов Г. – Гасымову Т. О беседе с постоянным представителем Швеции. 27.05.1993. – ARXİNA. 1993. Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi ilə yazışma. Münaqişəli problemlər idarəsi. Qovluq № 22, v. 1-2.

[933] Гасанов Г. – Гасымову Т. О помощи Азербайджану. 10.05.1993. – ARXİNA. 1993. Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi ilə yazışma. Münaqişəli problemlər idarəsi, v. 42-44; О программе помощи Азербайджану. 20.05.1993 г. – ARXİNA. 1993. Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi ilə yazışma. Münaqişəli problemlər idarəsi. Qovluq № 22, v.13-22;

[934] Письмо министра иностранных дел Республики Армении В.Папазяна на имя Генерального секретаря ООН Бутросу Бутрос Гали. 11.05.1993. – ARXİNA. 1993. Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi ilə yazışma. Münaqişəli problemlər idarəsi. Qovluq № 22, v. 31.

[935] Гасанов Г.– министру иностранных дел Республики Армении. 19.05.1993. – ARXİNA. 1993. Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi ilə yazışma. Münaqişəli problemlər idarəsi.Qovluq № 22, v.23-26.

[936] Заявление президента Республики Армении. 26.05.1993. – ARXİNA. 1993. Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi ilə yazışma. Münaqişəli problemlər idarəsi. Qovluq № 22, v. 4-5.

Buna baxmayaraq, iyunun 3-4-də ATƏM təmsilçiləri Romada görüşüb, münaqişənin tənzimlənməsi üçün təcili bir sənəd hazırlayaraq tərəflərə göndərdilər. Sənədə görə Ermənistan silahlı qüvvələri iyunun 15-dən etibarən Kəlbəcəri boşaltmağa başlamalı və iyunun 20-də bu prosesi başa çatdırmalı, bölgəyə 50 nəfər ATƏM müşahidəçisi gəlməli, avqustun 7-dən gec olmayaraq Minsk konfransı işinə başlamalı idi. Azərbaycan bu planı qəbul etdi. Ermənistan isə bir ay vaxt istədi.

Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyi iyunun 14-də Təhlükəsizlik Şurasının sədrinə Ermənistanın təcavüzkarlıq hərəkətləri barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatını təqdim etdi[937]. Lakin bu zaman Azərbaycanda daxili ictimai-siyasi şərait xeyli gərginləşmişdi.

### *Azərbaycanda böhran*

Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi və hərbi-siyasi uğursuzluqlar daxili ictimai-siyasi, iqtisadi həyata ağır təsir edirdi. Ermənistanın yalan təbliğat aparması Azərbaycan tərəfindən lazımi addımlarla müşayiət olunmur, ölkə bu çirkin təbliğatın qarşısında aciz qalır, beynəlxalq aləmdə sözünü deyə bilmir, müxtəlif ölkələrdə ona qarşı ədalətsiz qərarlar qəbul olunurdu. Azərbaycanın beynəlxalq aləmdə mənfi imici formalaşırdı. Yaranmış mürəkkəb şərait, sosial-iqtisadi, siyasi, hərbi və digər problemlər Azərbaycanı məngənədə sıxır, böhran dərinləşir, iqtisadiyyat dağılırdı.

Ölkə idarəolunmaz həddə gəlib çatmışdı. Hakimiyyətdaxili ziddiyyətlər və ayrı-ayrı qrupların hakimiyyət uğrunda mübarizəsi kəskinləşmişdi. Hakimiyyətin qanadları arasında qarşıdurma yaranmışdı. Xalq ilə hakimiyyət arasında uçurum dərinləşmişdi. Hakimiyyətə olan inam sarsılmışdı. Ölkədə anarxiya tüğyan edirdi. Cinayətkar elementlər fəallaşmışdılar. Vətəndaşların təhlükəsizliyi təhdid altına düşmüşdü. Ölkənin şimal və cənub rayonlarında xarici dövlətlərin təsiri altında separatçı meyillər yaranırdı. Azərbaycan Respublikası dövləti dağılma həddində idi. Ölkəni xarici təcavüzdən qorumalı olan ordu daxili siyasi çəkişmələrin girovuna çevrilmişdi. Orduda ruh düşkünlüyü hökm sürürdü. Hərbi hakimiyyət ilə mülki hakimiyyət arasında ziddiyyətlər dərinləşmişdi. Bəzi siyasi qüvvələr özlərinin silahlı dəstələrini yaratmışdılar. Belə bir şəraitdə dövlətə tabe olmayan bir qrup hərbçi polkovnik Surət Hüseynovun baş-

---

[937] Письмо постоянного представителя Азербайджана при Организации Объединенных Наций на имя председателя Совета Безопасности. 14.06.1993; Заявление министра иностранных дел Азербайджанской Республики. – Гасанов Г. Письма в Совет Безопасности ООН 1992-1993, с. 171-173.

çılığı altında Gəncədə qiyam qaldırıb, Bakıya doğru hərəkət etdi. Beləliklə, Azərbaycan Respublikası 1993-cü ilin may-iyun aylarında bir sıra daxili və xarici amillərin təsiri altında ağır böhrana düşdü. Belə bir şəraitdə Azərbaycan parlamentinin sədri istefa verdi. Görkəmli dövlət və siyasi xadim Heydər Əliyev xalqın tələbi, mövcud hakimiyyətin təkidli xahişləri və konstitusiyaya uyğun olaraq Naxçıvandan Bakıya gəldi. 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən Heydər Əliyev parlamentdə etdiyi nitqində ölkənin qarşısında duran vəzifələrdən danışarkən birmənalı olaraq dedi:

*"Müstəqilliyi, suverenliyi təmin etmək üçün Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları geri qaytarılmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır, müharibə qurtarmalıdır, sülh yaranmalıdır"* [938].

Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy iyunun 17-dən 18-ə keçən gecə Bakını tərk edərək doğulduğu Kələki kəndinə getdikdən sonra Azərbaycan parlamenti iyunun 25-də Heydər Əliyevə eyni zamanda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini verdi.

Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış şəraiti real qiymətləndirən Heydər Əliyev münaqişənin tənzimlənməsi üçün ATƏM-in vasitəçilik səylərini müdafiə etdi[939]. Minsk konfransının sədri Mario Rafaelli 1993-cü il iyul ayının ortalarında Bakı və Yerevana səfər edərək şəraitlə tanış oldu. Heydər Əliyev ilə keçirilən görüşdə Ermənistanın genişlənən təcavüzünün dayandırılması məsələləri müzakirə olundu. Azərbaycan tərəfi təkzibedilməz fakt və materiallar əsasında Ermənistanın təcavüzü haqqında məlumatları Mario Rafaelliyə verdi. Görüşün yekununda keçirilən birgə mətbuat konfransında Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərin boşaldılması planı açıqlandı[940]. Mario Rafaellinin regiona səfərinə dair hazırladığı məruzə iyulun 16-da Vyanada Minsk qrupunun növbəti iclasında dinlənildi. Müzakirələr zamanı Ermənistanın BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsini və ATƏM-in Minsk qrupunun Romada işləyib hazırladığı təxirəsalınmaz tədbirlər cədvəlini yerinə yetirmək istəmədiyi məlum oldu.

---

[938] Əliyev H.Ə. Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış. 15.06.1993. – Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, s.15.

[939] Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin bəyanatı. 05.07.1993. – Müstəqilliyimiz əbədidir. I kitab, s.19-21.

[940] Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin və ATƏM-in Minsk konfransının sədri Mario Rafaellinin birgə mətbuat konfransında bəyanatı. 14.07.1993. – Müstəqilliyimiz əbədidir. I kitab, s.32-42.

## *Ağdam rayonunun işğalı*

Azərbaycanda yaranmış ağır şəraitdən və hakimiyyət boşluğundan istifadə edən Ermənistan tərəfi təcavüzünü daha da genişləndirərək ərazisi 1150 kv. km olan Ağdam rayonunu 1993-cü il iyulun 23-də işğal etdi.

Təqribən 133 min nəfər məcburi köçkünə çevrildi. Şəhər yandırıldı, tarix və mədəniyyət abidələri, təhsil və mədəni-maarif müəssisələri, sənaye obyektləri yerlə yeksan edildi.



*Dağıdılmış Ağdam şəhəri*

## *BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi*

Ağdamın işğalından dərhal sonra, iyulun 24-də Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrinə müvafiq məktubla müraciət etdi[941]. Məktubda Ermənistanın işğalçılıq siyasətinə dair konkret fakt və materiallar, Azərbaycanın 503 yaşayış məntəqəsini işğal etdiyi, ölkədə qaçqın və məcburi köçkünlərin sayının artdığı göstərilir, Ermənistanın dünya birliyi qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmədiyi diqqətə çatdırılır, BMT Təhlükəsizlik Şurasının sədrindən təcavüzkarın dayandırılması, işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılması üçün təxirəsalınmaz tədbirlərin görülməsi tələb edilirdi.

---

[941] Письмо осуществляющего полномочия президента Азербайджанской Республики на имя председателя Совета Безопасности. 24.07.1993.– ARXİNA. 1993; Əliyev H.Ə. BMT Təhlükəsizlik Şurasının sədrinə. Surəti BMT-nin baş katibinə. – Müstəqilliyimiz əbədidir. I kitab, s.44-45.

Azərbaycan Respublikasının tələbinə əsasən toplaşan BMT Təhlükəsizlik Şurası iyulun 29-da keçirilən 3259 saylı iclasında Azərbaycanın Ağdam rayonu və digər işğal olunmuş ərazilərindən işğalçı qüvvələrin tamamilə, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 853 saylı (S/RRES/853 (1993)) qətnaməni qəbul etdi[942]. Qətnamədə yazılırdı:

*"Təhlükəsizlik Şurası, 30 aprel 1993-cü il tarixli 822 (1993) saylı qətnaməsini təsdiq edərək, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Minsk qrupunun sədrinin 27 iyul 1993-cü il tarixində dərc olunmuş məruzəsini nəzərdən keçirərək, Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onlar arasındakı gərginliklə əlaqədar ciddi narahatçılığını ifadə edərək, maraqlı tərəflərin 822 (1993) saylı qətnamənin həyata keçirilməsi üzrə təxirəsalınmaz tədbirlər planını qəbul etməsini alqışlayaraq, hərbi əməliyyatların genişlənməsini və xüsusilə Azərbaycan Respublikasının Ağdam rayonunun işğal edilməsini həyəcanla qeyd edərək, belə vəziyyətin regionda sülh və təhlükəsizliyə təhlükə yaratmasının davam etməsi ilə əlaqədar narahat olaraq, Azərbaycan Respublikasında çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və regionda fövqəladə humanitar vəziyyətlə əlaqədar yenidən ciddi narahatçılığını ifadə edərək, Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək, Ağdam rayonunun və Azərbaycan Respublikasının bu yaxınlarda işğal olunmuş digər rayonlarının işğalını pisləyir; bundan başqa regionda bütün düşmənçilik hərəkətlərini, xüsusilə mülki şəxslərə hücumları və məskunlaşmış rayonların bombardman edilməsini pisləyir; bütün hərbi əməliyyatların dərhal dayandırılmasını, münaqişədə iştirak edən işğalçı qüvvələrin Ağdam rayonundan və Azərbaycan Respublikasının digər bu yaxınlarda işğal edilmiş rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir; maraqlı tərəfləri atəşkəsə dair möhkəm razılaşmalar əldə etməyə və onlara riayət etməyə çağırır; yuxarıdakı 3 və 4-cü maddələr kontekstində regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpa edilməsinə dair özünün əvvəlki çağırışlarını yenidən təsdiq*

942 Резолюция 853 (1993), принятая Советом Безопасности на его 3259-м заседании 29 июля 1993 года. – ARXİNA.1993; U.N.Resolution 853 (1993) Regarding the Armenia/Azerbaijani Conflict United Nations Security Council July 29, 1993. – Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. 1994. The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, p.15-19.

*edir; 822 saylı (1993) qətnamənin həyata keçirilməsi səyləri də daxil olmaqla, ATƏM-in Minsk qrupunun münaqişənin sülh yolu ilə həllinə nail olmaq üzrə davam edən səylərini bəyənir və hərbi əməliyyatların genişlənməsinin bu cəhdlər üçün doğurmuş dağıdıcı nəticələri ilə bağlı ciddi narahatçılığını ifadə edir; yerləşdirilməsi cədvəli ilə ATƏM-in müşahidə missiyasının hazırlanmasını, həmçinin Müşavirənin regionda iştirakının təmin edilməsi təklifinin Müşavirə çərçivəsində nəzərdən keçirilməsini alqışlayır; maraqlı tərəfləri münaqişənin sülh yolu ilə həllinə mane olan hər cür hərəkətlərdən çəkinməyə və ATƏM-in Minsk qrupu çərçivəsində, həmçinin birbaşa əlaqələr vasitəsilə məsələnin qəti həllinin əldə edilməsi məqsədilə onlar arasında danışıqları davam etdirməyə təkidlə çağırır; Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 saylı (1993) qətnamənin və hazırkı qətnamənin müddəalarına riayət edilməsi və bu tərəfin ATƏM-in Minsk qrupunun təkliflərini qəbul etməsi məqsədilə Ermənistan Respublikasının hökumətini öz təsirini göstərməkdə davam etməyi təkidlə çağırır; dövlətləri münaqişənin intensivləşməsinə və ya ərazi işğalının davam etdirilməsinə apara biləcək hər hansı silahın və hərbi sursatın təchiz edilməsindən çəkinməyə təkidlə çağırır; mülki əhalinin artan əzablarını yüngülləşdirmək məqsədilə regionda, xüsusilə münaqişəyə məruz qalmış bütün rayonlarda, humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz təmin edilməsinə bir də çağırır və bütün tərəflərin beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət etməyə borclu olduqlarını bir daha təsdiq edir; baş katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərməyi və qaçqın düşmüş şəxslərin öz evlərinə qayıtmalarına kömək göstərməyi xahiş edir; baş katibdən ATƏM-in fəaliyyətdə olan sədri, həmçinin Minsk qrupunun sədri ilə məsləhətləşmədə vəziyyət barədə Şuraya məruzələr təqdim etməsinin davam etdirilməsini xahiş edir; məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır".*

Beynəlxalq birliyin iradəsini yerinə yetirməyən Ermənistan təcavüzünü genişləndirərək işğallarını davam etdirirdi. Ona görə də Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının sədrinə 1993-cü il avqustun 18-də yenidən müraciət etdi[943]. Müraciətdə Ermənistanın BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələri yerinə yetirmədiyi, işğal altında saxladığı Azərbaycan ərazilərini boşaltmadığı, əksinə digərlərini də işğal etdiyi, azərbaycanlılar yaşayan kəndləri tutub yandırdığı, Füzuli, Cəbrayıl, Qubadlı istiqamətlərində hücumu genişləndirdiyi göstərilir, təca-

[943] Əliyev H.Ə. BMT Təhlükəsizlik Şurasının sədrinə. Surəti BMT-nin baş katibinə. 18.08.1993. – Müstəqilliyimiz əbədidir. I kitab, s.89.

vüzün təcili dayandırılması üçün Təhlükəsizlik Şurasının iclasının çağırılması xahiş edilirdi[944].

Azərbaycan Respublikasının müraciətinə baxan BMT Təhlükəsizlik Şurasının adından onun sədri 1993-cü il avqustun 18-də keçirilən 3264-cü iclasında bəyanat verdi[945]. Bəyanatda Ermənistan ilə Azərbaycan arasında münasibətlərin pisləşməsindən narahatlıq ifadə edilir, Füzuli rayonu istiqamətində hücumlar pislənilir, hərbi əməliyyatların dərhal dayandırılması, işğal olunmuş ərazilərin dərhal boşaldılması tələb edilirdi. Sənəddə Azərbaycan Respublikasının və regionun digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyü bir daha təsdiq edilir, BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair Minsk qrupunun təqdim etdiyi təxirəsalınmaz tədbirlər cədvəlinin dəqiqləşdirilmiş variantına müsbət cavab verməyə, məsələnin sülh yolu ilə həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırılır, münaqişə bölgəsinə silah göndərməkdən çəkinməyə, Ermənistan Respublikasının hökumətini cəlb olunmuş qüvvələrin gələcəkdə hərbi əməliyyatı genişləndirmək üçün vəsait almamalarını təmin etməyə, mülki əhalinin getdikcə artan iztirablarını yüngülləşdirmək məqsədi ilə bölgəyə, münaqişədən zərər çəkmiş bütün zonalara beynəlxalq humanitar yardımın maneəsiz çatdırılmasını təmin etməyə dair əvvəlki çağırışlar təkrar edilir, beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borclu olduqları xatırladılırdı.

## *Füzuli və Cəbrayıl rayonlarının işğalı*

BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatına məhəl qoymayan Ermənistan 1993-cü il avqustun 20-23-də ərazisi 1390 kv. km olan Füzuli və ərazisi 1050 kv. km olan Cəbrayıl rayonlarını işğal etdi. İşğal nəticəsində Füzulidən təqribən 90 min, Cəbrayıldan isə təqribən 50 min nəfər məcburi köçkünə çevrildi. Bu rayonların ərazilərindəki tarix və mədəniyyət abidələri, mədəni-maarif müəssisələri, kənd və qəsəbələr tamamilə yandırıldı.

Azərbaycanın bu iki yaşayış məskəninin işğal edilməsi ilə ölkədə onsuz da ağır olan sosial-iqtisadi şərait daha da pisləşdi. Azərbaycan dövləti yenidən beynəlxalq təşkilatlara müraciət etməli oldu.

---

944 Письмо осуществляющего полномочия президента Азербайджанской Республики, председателя Верховного Совета Азербайджанской Республики Гейдара Алиева на имя председателя  Совета Безопасности. – ARXİNA. 1993.

945 Заявление председателя Совета Безопасности ООН. 18.08.1993. – ARXİNA. 1993.



*Dağıdılmış Füzuli şəhəri*

### *BMT Təhlükəsizlik Şurasının 874 saylı qətnaməsi*

Yaranmış şəraitlə bağlı olaraq Azərbaycan tərəfi 1993-cü il avqustun 23 və 30-da BMT Təhlükəsizlik Şurasının sədrinə müraciətlər etdi[946]. Müraciətlərə cavab verilməmiş Ermənistan silahlı qüvvələri 801 kv. km ərazisi, 95 yaşayış məntəqəsi olan Qubadlı rayonunu avqustun 31-də işğal etdi. Rayonun 30 min nəfər sakini məcburi köçkünə çevrildi[947].

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin bir-birinin ardınca işğal edilməsi və məcburi köçkünlərin əmələ gəlməsi ölkədəki şəraiti ağırlaşdırdı. İşğalın dayandırılması üçün səylərini davam etdirən Azərbaycanın tələbi üzrə toplanan BMT Təhlükəsizlik Şurası 1993-cü il oktyabrın 14-də keçirilən 3292-ci iclasında Ermənistan – Azərbaycan münaqişəsinə dair 874 saylı (S/RES/874 (1993)) qətnaməni qəbul etdi[948].

---

[946] Письмо постоянного представителя Азербайджанана имя председателя Совета Безопасности. 23.08.1993; Письмо постоянного представителя Азербайджана на имя председателя Совета Безопасности. 30.08.1993.– Гасанов Г. Письма в Совет Безопасности ООН 1992-1993, с.267-269.

[947] Агрессия Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агрессии представленный в международные организации. Баку, май 1994 г. – ARXİNA. 1994. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. Qovluq № 9, v. 36.

[948] Резолюция 874 (1993), принятая Советом Безопасности на его 3292-м заседании 14 октября 1993 года. – ARXİNA. 1993; Resolution 874 (1993)



*Dağıdılmış Cəbrayıl*

Qətnamədə yazılırdı:

*“Təhlükəsizlik Şurası, 30 aprel 1993-cü il tarixli 822 saylı (1993) və 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) qətnamələrini təsdiq edərək və 18 avqust 1993-cü ildə Təhlükəsizlik Şurası sədrinin Şuranın adından oxuduğu bəyanata əsaslanaraq, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Dağlıq Qarabağ üzrə Minsk konfransının sədrinin Təhlükəsizlik Şurası sədrinin adına ünvanlanmış 1 oktyabr 1993-cü il tarixli məktubunu nəzərdən keçirərək, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etdirilməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin regionda sülh və təhlükəsizliyə təhlükə yarada biləcəyi ilə əlaqədar dərin narahatçılığını ifadə edərək, 8 oktyabr 1993-cü ildə Moskvada yüksək səviyyədə keçirilən görüşləri qeyd edərək və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə həll edilməsinə töhfə verəcəyinə dair ümidlərini ifadə edərək, Azərbaycan Respublikasının və regionda bütün digər dövlətlərin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək məqsədilə gücdən istifadənin yolverilməzliyini bir daha təsdiq edərək, münaqişə səbəbindən insanların məruz qaldığı əzablar və regionda ciddi fövqəladə humanitar vəziyyətlə əlaqədar və xüsusilə Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin yerlərinin dəyişməsi ilə əlaqədar özünün ciddi narahatçılığını bir daha ifadə edərək, maraqlı tərəf-*

Adopted by the Security Council at its 3292nd Meeting on 14 October 1993. – Aggression of the Republic of Armenia Against the Azerbaijan Republic. Information Bulletin. Baku, The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, 1994, p. 20-22.

*ləri ATƏM-in Minsk qrupuna kömək məqsədilə Rusiya Federasiyası hökumətinin yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi səmərəli və daimi etməyə çağırır; ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini və Minsk qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədiyini yenidən bəyan edir; 28 sentyabr 1993-cü il tarixində ATƏM-in Minsk qrupunun iclasında üzə çıxarılan və Minsk qrupunun doqquz digər üzvünün hərtərəfli dəstəyi ilə Qrupun sədri tərəfindən maraqlı tərəflərə təqdim olunan "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların Yeniləşdirilmiş cədvəli"ni alqışlayır və tərəflərin diqqətinə çatdırır və tərəfləri onu qəbul etməyə çağırır; münaqişədən irəli gələn və Yeniləşdirilmiş cədvəldə bilavasitə nəzərdən keçirilməyən bütün başqa həll olunmamış məsələlərin Minsk prosesi kontekstində sülh danışıqları vasitəsilə tezliklə həll edilməsi vacibliyinə əmin olduğunu ifadə edir; bu yaxınlarda işğal edilmiş ərazilərdən qoşunların çıxarılması və rabitə və nəqliyyat üçün bütün maneələrin aradan qaldırılması da daxil olmaqla, ATƏM-in Minsk qrupunun Yeniləşdirilmiş cədvəlində nəzərdə tutulan qarşılıqlı və təcili addımların dərhal həyata keçirilməsinə çağırır; ATƏM-in Nazirlər Şurasının 24 mart 1992-ci il tarixli mandatına uyğun olaraq, Yeniləşdirilmiş cədvəldə nəzərdə tutulduğu kimi münaqişənin danışıqlar yolu ilə həll edilməsinə nail olmaq məqsədilə tezliklə Minsk konfransının keçirilməsinə çağırır; baş katibdən ATƏM-in Minsk konfransında iştirak etmək üçün nümayəndə göndərmək dəvətinə müsbət cavab verməyi və konfransın açılmasından sonra məsələyə dair başlanan danışıqlara bütün mümkün köməyi göstərməyi xahiş edir; ATƏM tərəfindən yaradılmış müşahidəçilər missiyasını dəstəkləyir; bütün tərəfləri beynəlxalq humanitar hüququ pozmaqdan çəkinməyə çağırır və münaqişəyə məruz qalmış bütün rayonlara humanitar yardımın göstərilməsi üzrə beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsinin təmin edilməsinə dair 822 (1993) və 853 (1993) saylı qətnamələrindəki çağırışlarını təkrar edir; regionda bütün dövlətləri münaqişənin genişlənməsinə gətirib çıxaran və regionda sülh və təhlükəsizliyi pozan hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə təkidlə çağırır; baş katibdən və müvafiq beynəlxalq qurumlardan zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardımın göstərilməsini və qaçqınlara və məcburi köçkünlərə təhlükəsiz şəraitdə və ləyaqətlə öz evlərinə qayıtmağa köməklik edilməsini xahiş edir; baş katibdən, ATƏM-in fəaliyyətdə olan sədrindən və ATƏM-in Minsk konfransının sədrindən Minsk prosesinin gedişi və yerdə vəziyyətin bütün aspektləri və bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrini verməyi davam etdirməyi xahiş edir; məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır".*



*Qubadlı işğaldan sonra*

Bundan bir neçə gün sonra, oktyabrın 16-da Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Minsk konfransının sədrinə məktub göndərərək ölkələri Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin pozulmasının qarşısının alınması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi üçün daha səmərəli səylər göstərməyə çağırdı[949]. Yaranmış şəraiti öyrənmək üçün 1993-cü ilin oktyabr ayının sonlarında regiona səfər edən ATƏM sədri, İsveçin xarici işlər naziri Marqareta af Uqlas Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə görüşərək atəşin dayandırılması və münaqişənin həlli yolları barədə müzakirələr apardı[950]. ATƏM sədri hərbi əməliyyatların genişləndirilməsini dayandırmaq barədə Ermənistan hökumətinə çağırış etdi.

## *Zəngilan rayonunun işğal edilməsi*

Çağırışa məhəl qoymayan Ermənistan oktyabrın 29-da 710 kv. km ərazisi və 83 yaşayış məntəqəsi olan Zəngilan rayonunu işğal etdi[951].

---

[949] Letter by the Minister of Foreign Affairs of Azerbaijan to the chairman of the CSCE Minsk Conference. 16 October, 1993. – OSCE Archive in Prague. Minsk Conference. File No:809.

[950] Əliyev H.Ə. ATƏM-in sədri Marqareta af Uqlas ilə görüşdə çıxış. 26.10.1993. – Müstəqilliyimiz əbədidir. I kitab, s.210-215.

[951] Агрессия Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агрессии представленный в международные организации. Баку, май 1994 г. – ARXİNA. 1994. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. Qovluq №9, v. 36.

Rayonun təqribən 35 min nəfər əhalisi məcburi köçkünə çevrildi, sənaye, səhiyyə müəssisələri, mədəni-maarif ocaqları, tarix və mədəniyyət abidələri dağıdıldı. Zəngilanın işğal edilməsi ilə Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunun ətrafındakı rayonların işğalını başa çatdırdı.

ATƏM-in Minsk qrupunun üzvü olan dövlətlər 1993-cü il noyabrın 2-8-də keçirilən Vyana görüşünün gedişində, noyabrın 4-də Dağlıq Qarabağ münaqişəsinə dair bəyanat verdilər. Bəyanatda döyüş əməliyyatlarının başlanması və yeni ərazilərin güc vasitəsi ilə tutulması ATƏM prinsiplərinin pozulması kimi qiymətləndirilir, işğalçı qüvvələrin Zəngilan və Horadiz rayonlarından birtərəfli qaydada çıxarılmasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə çağırış edilir, Azərbaycanın Dağlıq Qarabağ regionunun statusu məsələsinin atəş dayandırıldıqdan, işğal edilmiş ərazilər boşaldıqdan sonra çağırılacaq Minsk konfransında müzakirə olunacağı vurğulanırdı.

Görüşdə, həmçinin təxirəsalınmaz tədbirlərə dair yeni cədvəl tərəflərə təqdim olundu. Azərbaycan tərəfi bu cədvəlin Parisdə təqdim olunandan o qədər də fərqlənmədiyini əsas gətirərək qəbul etmədi. Cədvəldə Ermənistan işğalçı qüvvələrinin Şuşa və Laçından çıxarılması nəzərdə tutulmur, bu məsələyə Minsk konfransında baxılacağı qeyd edilirdi.



*Dağıdılmış Zəngilan*

Ərazilərinin işğalı ilə barışmayan Azərbaycan Respublikası BMT baş katibinə və Təhlükəsizlik Şurasının sədrinə müraciət edərək beynəlxalq birliyin diqqətini Ermənistanın Azərbaycana qarşı birbaşa təcavüzünə cəlb etdi, təcavüzkara qarşı zəruri tədbirləri görməyə çağırdı. Azərbaycanın tələbinə əsasən toplaşan BMT Təhlükəsizlik Şurası 1993-cü il noyabrın 12-də 884 (S/RES/884 (1993)) saylı qətnaməni qəbul etdi[952].



*Azərbaycanlı məcburi köçkünlər*

Qətnamədə yazılırdı:

*"Təhlükəsizlik Şurası, 30 aprel 1993-cü il tarixli 822 (1993), 29 iyul 1993-cü il tarixli 853 (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 (1993) saylı qətnamələrini təsdiq edərək, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində həyata keçirilən sülh prosesi və ATƏM-in Minsk qrupunun yorulmaz səylərini tam şəkildə dəstəklədi-*

---

[952] Резолюция 884 (1993), принятая Советом Безопасности на своем 3313-м заседании 12 ноября 1993 года. – ARXİNA.1993; Security Council. Resolution 884. – Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin. Baku, The Ministry of Foreign Affairs of the Azerbaijan Republic, 1994, p.23-25; ARXİNA. 1994. Daxil olan sənədlər. Münaqişəli problemlər idarəsi. Qovluq № 22, v.90-91; Compilation of the UN documants on the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict. Baku, 2009, p. 55-57.

*yini təsdiq edərək, ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının fəaliyyətdə olan sədrinin Təhlükəsizlik Şurası sədrinin adına ünvanlanmış 9 noyabr 1993-cü il tarixli məktubunu və ona əlavələri nəzərə alaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etdirilməsi və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı gərginliyin regionda sülh və təhlükəsizliyi təhlükə altına atması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək, atəşkəsin pozulması və buna cavab olaraq gücün həddindən artıq tətbiq edilməsi, xüsusilə Azərbaycan Respublikasında Zəngilan rayonunun və Horadiz şəhərinin işğalı nəticəsində hərbi əməliyyatların genişlənməsini həyəcanla qeyd edərək, Azərbaycan Respublikasının və regionda digər dövlətlərinin suverenliyi və ərazi bütövlüyünü bir daha təsdiq edərək, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığı və ərazi əldə etmək məqsədilə gücün tətbiqinin yolverilməzliyini bir daha təsdiq edərək, son zamanda çoxlu sayda mülki şəxslərin yerlərinin dəyişməsi və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbaycanın cənub sərhədində fövqəladə humanitar vəziyyətin yaranması ilə əlaqədar ciddi narahatçılığını ifadə edərək, hərbi əməliyyatların yenidən başlanması ilə nəticələnən tərəflər arasında əldə edilmiş atəşkəsin pozulmasını, xüsusilə Zəngilan rayonunun və Horadiz şəhərinin işğal edilməsini, dinc əhaliyə qarşı hücumları və Azərbaycan Respublikasının ərazisinin bombardman edilməsini pisləyir; Ermənistan hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq məqsədilə öz nüfuzundan istifadə etməyə və hərbi kampaniyanı genişləndirmək üçün lazımi vasitələrin münaqişəyə cəlb olunan qüvvələrə verilməməsini təmin etməyə çağırır; ATƏM-in Minsk qrupunun doqquz üzvünün 4 noyabr 1993-cü il tarixli bəyannaməsini alqışlayır və onun tərkibində atəşin dayandırılması haqqında olan birtərəfli bəyanatlarla bağlı təklifləri yüksək qiymətləndirir; maraqlı tərəflərdən ATƏM-in Minsk qrupunun 2-8 noyabr 1993-cü tarixində Vyanada keçirilən iclasında edilən düzəlişlərlə "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsi üzrə təxirəsalınmaz addımların Yeniləşdirilmiş cədvəlinə" uyğun olaraq hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, Zəngilan rayonundan və Horadiz şəhərindən işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılmasını və Azərbaycan Respublikasının bu yaxınlarda işğal edilmiş digər rayonlarından işğalçı qüvvələrin çıxarılmasını tələb edir; maraqlı tərəfləri ATƏM-in Minsk qrupuna kömək məqsədilə Rusiya Federasiyası hökumətinin yardımı ilə həyata keçirilən birbaşa əlaqələr nəticəsində əldə edilən atəşkəsi təcili bərpa, onu səmərəli və daimi etməyə və ATƏM-in Minsk prosesi və Minsk qrupunun 2-8 noyabr 1993-cü il tarixli*

*iclasında edilmiş düzəlişlərlə birlikdə "Yeniləşdirilmiş cədvəl" kontekstində münaqişənin danışıqlar vasitəsilə həllinin axtarılmasına təkidlə çağırır; regionda olan bütün dövlətləri münaqişənin genişlənməsinə və regionda sülh və təhlükəsizliyin pozulmasına gətirib çıxara biləcək hər cür düşmənçilik hərəkətlərindən və hər cür müdaxilədən çəkinməyə bir daha çağırır; baş katibdən və müvafiq beynəlxalq qurumlardan Zəngilan rayonunun, Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədinin əhalisi də daxil olmaqla zərər çəkmiş əhaliyə təcili humanitar yardım göstərməyi, qaçqın və məcburi köçkünlərə təhlükəsiz və ləyaqətlə öz evlərinə qayıtmaqda köməklik etməyi xahiş edir; baş katibə, ATƏM-in fəaliyyətdə olan sədrinə və ATƏM-in Minsk konfransının sədrinə Minsk prosesinin gedişi və yerlərdə vəziyyətin bütün aspektləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi, bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcək əməkdaşlıq haqqında Şuraya məruzələrini verməyi davam etdirmək barədə xahişini təkrar edir; məsələ ilə fəal şəkildə məşğul olmağı davam etdirməyi qərara alır."*

Bütün müsbət tərəfləri ilə yanaşı qətnamə qüsursuz da deyildi. Sənəddə *"Ermənistan hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun erməniləri tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq məqsədilə öz nüfuzundan istifadə etməyə və hərbi kampaniyanı genişləndirmək üçün lazımi vasitələrin münaqişəyə cəlb olunan qüvvələrə verilməməsini təmin etməyə çağırır"* fikirlərinin yazılması gerçəkliyi qətiyyən əks etdirmirdi. Çünki Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf rayonları məhz Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Dağlıq Qarabağ regionuna silah və sursat Ermənistandan daşınırdı. Qətnamədə bu ifadələrin yazılması Ermənistanı təcavüzkar dövlət kimi görməmək, separatçı qurumu legitimləşdirmək cəhdləri idi.

Beləliklə, münaqişənin həlli üçün 1993-cü ilin sonunadək hüquqi və siyasi əsaslar yaradıldı. Bu əsaslar beynəlxalq hüququn norma və prinsiplərindən, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrindən, ATƏM və digər beynəlxalq təşkilatların müvafiq sənədlərindən doğurdu. BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Azərbaycan ərazilərinin işğalına cavab olaraq qəbul etdiyi qətnamələrində Azərbaycan Respublikasının və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət olunmasını bir daha təsdiqləyirdi. Təhlükəsizlik Şurası həmin sənədlərində düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının işğal edilmiş bütün ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir, qaçqın və məcburi köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələ-

rinin bərpasına, ATƏM-in Minsk qrupunun səylərini bəyənərək Minsk prosesi çərçivəsində münaqişənin həlli yollarının axtarılmasına çağırırdı. Lakin Ermənistan bu qətnamələrin heç birini yerinə yetirmədi və təcavüz siyasətindən imtina etmədi. Azərbaycan ərazilərini işğal edərkən Ermənistan daha çox Rusiya siyasi və hərbi hakimiyyətindəki bəzi şəxslərin antiazərbaycan mövqeyinə güvənirdi.

Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində başlıca rolun hansı tərəfdə olması üstündə bu zaman Rusiya və ATƏM arasında rəqabət gedirdi[953]. Rusiya münaqişə zonasına sülhməramlı qüvvələr adı altında hərbçilərini göndərməyə və hərbi bazasını qurmağa çalışırdı[954]. Lakin bunun üçün təkcə Rusiyanın istəyi kifayət etmirdi, münaqişədə iştirak edən tərəflərin razılığı lazım idi. Bu məsələdə fikir birliyi isə mövcud deyildi.

### *Atəşkəs elan edilir*

Rusiya tərəfi yuxarıda göstərilən planını qəbul etdirmək üçün səylərini daha da artırdı. 1994-cü il mayın 4-5-də MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının təşəbbüsü ilə Qırğızıstanın paytaxtı Bişkek şəhərində Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair növbəti görüş keçirildi. Görüşdə Azərbaycan və Ermənistan parlamentinin üzvləri iştirak edirdilər. Rusiya tərəfindən hazırlanmış protokolda Azərbaycanın Dağlıq Qarabağ regionunda və ətrafında silahlı münaqişənin dayandırılmasına hər vəchlə kömək edilməsi, tezliklə müvafiq sazişin bağlanması, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsi üçün MDB və MDB Parlamentlərarası Assambleyasının fəal rol oynaması qəbul edilir, hərbi əməliyyatların dayandırılmasına və müşahidəçilərin yerləşdirilməsinə, işğal edilmiş ərazilərdən orduların çıxarılmasına, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıtmalarına dair çağırış edilirdi.

Görüşün yekununda Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasının nümayəndəsi Bişkek protokolunu imzaladı. Bölgənin azərbaycanlı əhalisinin nümayəndəsinə isə belə bir imkan verilmədi. Ona görə də Azərbaycan tərəfi yekun protokoluna imza atmadı. Lakin sonradan Azərbaycan tərəfi və Dağlıq Qarabağ regionunun azərbaycanlı əhalisinin nümayəndəsi bəzi qeydlərlə sənədi imzaladı.

---

[953] Nadia Kirilova Milanova. The conflict over Nagorno Karabakh 1992-2002: Ten years of missed conflict resolution opportunities. Two volumes. Second volume. To the University of Excter as a thesis for the degree of doctor of philosophy in politics. November 2002, p. 296.
[954] Yeltsin Kafkasları zorluyor. – "Zaman" gazetesi, İstanbul, 17.04.1994.

Rusiya Federasiyası Prezidentinin xüsusi nümayəndəsi Vladimir Kazimirovun fikrincə, münaqişənin nizamlanmasına dair Rusiya planının üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdu. Birinci mərhələdə – altı gün ərzində atəşkəs elan edilməli, ikinci mərhələdə – Azərbaycanın Dağlıq Qarabağ regionundan kənarda işğal edilmiş 6 rayon 34 gün ərzində boşaldılmalı, üçüncü mərhələdə – Dağlıq Qarabağ bölgəsinin statusuna dair müzakirələrə başlanılmalı idi. Onun baxışına görə bu planı qəbul etməklə Azərbaycan Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Kəlbəcər rayonlarını geri qaytarır, Şuşa və Laçının taleyi ilə bağlı müzakirələr etmək imkanı qazanırdı[955]. V. Kazimirov Şuşa üçün Qüds (Yerusəlim) kimi ortaq şəhər statusu düşünürdü. Lakin bu plan beynəlxalq hüquq normaları baxımından qüsurlu, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyinə zidd olduğundan rəsmi Bakı tərəfindən rədd edildi.

Rusiya və ATƏM-in səyləri ilə 1994-cü il mayın 9-da Ermənistan və Azərbaycan mayın 12-dən etibarən atəşkəs elan etdilər. Atəşkəsin elan edilməsinin ardınca mayın 16-da Moskvada Rusiya, Ermənistan, Azərbaycan müdafiə nazirlərinin görüşündə hərbi əməliyyatların tamamilə dayandırılması və Böyük siyasi sazişin imzalanmasını nəzərdə tutan sənəd layihəsi müzakirə edildi. V. Kazimirov münaqişəni nizamlamanın birinci mərhələsinın, yəni atəşin dayandırılmasının və atəşkəsin möhkəmləndirilməsinin əsas məsələ olduğunu bildirdi. İkinci mərhələyə qədəm qoymaq üçün Böyük siyasi saziş imzalanmalı, bundan sonra işğal edilmiş ərazilərdən qoşunlar çıxarılmalı idi. Görüşdə V. Kazimirov Azərbaycanın Dağlıq Qarabağ regionunda sülhməramlı qüvvələrin tərkibində Rusiya tərəfinin fəal olması təklifini irəli sürdü. Mətbuatda yayılan məlumatlara görə müdafiə nazirləri hərbi əməliyyatlar bölgəsində əsgərlərin geri çəkilməsini və oraya Rusiya əsgərlərinin yerləşdirilməsini nəzərdə tutan planı imzaladılar[956]. Beləliklə, "nə sülh, nə də hərb" vəziyyəti yarandı[957]. BMT baş katibi müraciət olacağı təqdirdə ATƏM-in nəzərdə tutulan müşahidəçilər missiyasına texniki kömək göstərməyə hazır olduğunu bildirdi[958]. Lakin münaqişə bölgəsinə sülhməramlı qüvvələr yerləşdirilmədi.

---

[955] "Zaman" gazetesi, İstanbul, 11.05.1994.
[956] "Zaman" gazetesi, İstanbul, 17.05.1994.
[957] Maria Raquel de Sousa Freire. Conflict and Security in the former Soviet Union. The Role of the OSCE. A thesis submitted to the University of Kent at Canterbury in the subject of International Relations for the degree of doctor of philosophy. June 2001, p.143; 1st Senior Council Meeting, Chairman's Summary, Annex to SC (1/95) Journal 2, agenda item 5, Mart 31, 1995.
[958] Бутрос Бутрос Гали. Во имя мира и развития. 1994. Годовой доклад о работе организации. Нью-Йорк, 1994, с. 257.

Atəşkəs elan edilsə də, Azərbaycana qarşı Ermənistanın düşmənçilik hərəkətləri dayanmadı. Belə ki, Ermənistan dövlət səviyyəsində terroru genişləndirirdi[959]. Erməni terror təşkilatları üçün Ermənistan və Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionu və ətraf rayonları əlverişli məkana çevrilmişdi. Ermənistan Respublikası terror təşkilatlarını nəinki himayə edir, eyni zamanda onların fəaliyyətini genişləndirməyə şərait yaradırdı. Məhz bu himayənin nəticəsində Ermənistan xüsusi xidmət orqanları və terror təşkilatları 1989-cu ilin iyul ayından 1992-ci ilin noyabrınadək 100-dən çox təxribat törətmişdilər[960]. 1989-1994-cü illərdə Azərbaycan mülki əhalisinə və obyektlərinə qarşı 28 terror aktı həyata keçirilmişdi. Terror aktlarının hədəfi əsasən dinc əhali və mülki obyektlər olmuşdu. 2 mindən çox Azərbaycan vətəndaşı ölmüş, yaralanmış və ya zədə almışdı[961]. 1994-cü ilin mart ayında Bakı metropolitenində törədilən partlayışlar bir sıra xarici ölkələrin kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdı[962]. Sonrakı illərdə Ermənistan terror təşkilatlarının və xüsusi xidmət orqanlarının Azərbaycana qarşı törətdikləri terror aktlarının sayı 32-yə çatdı[963].

### *Azərbaycan ərazilərinin işğalının nəticələri*

Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzünün ağır nəticələri vardır. Azərbaycan ərazilərinin təqribən beşdə biri işğal edilmişdir. İşğal nəticəsində Azərbaycan Respublikasının Ermənistan ilə dövlət

---

959 Organization and implementation of terrorist activities by the Republic of Armenia Against the Republic of Azerbaijan. – ARXİNA. Katiblik. Azərbaycanın Avstriyadakı səfirliyinə göndərilən sənədlər. 05.10.2001-07.11.2001. Qovluq №6, v.177-184; Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya. Bakı, 2003.

960 Агрессия Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агрессии представленный в международные организации. Баку, май 1994 г. – ARXİNA. 1994. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. Qovluq №9, v. 41.

961 Хроника некоторых террористических и диверсионных акций, совершенных в Азербайджане за период 1989-1994 гг. – ARXİNA. 1994. Katiblik. BMT yanında Azərbaycan Respublikasının daimi nümayəndəliyi. Qovluq № S, v.16- 22.

962 Azərbaycan Respublikasının Ankaradakı səfirliyindən Xarici İşlər Nazirliyinə göndərilən məktub. 04.07.1994. – ARXİNA. İKT idarəsi. Azərbaycan Respublikasının Türkiyədəki səfirliyindən daxil olan sənədlər. 29.01.1993-11.08.1994. Qovluq №21, v. 4-5.

963 Organisation and implementation of terrorist activities by the Republic of Armenia Against the Republic of Azerbaijan. – ARXİNA. Katiblik. Azərbaycanın Avstriyadakı səfirliyinə göndərilən sənədlər. 05.10.2001-07.11.2001. Qovluq №6, v.177-184.

sərhədinin 70%-dən çoxu, İran İslam Respublikası ilə sərhədinin 132 kilometri Ermənistan silahlı qüvvələrinin nəzarəti altına düşmüşdür[964].

Bu ərazilər Ermənistanın qanunsuz fəaliyyət meydanına – terrorçular hazırlayan, narkotik maddələr və silah qaçaqmalçılığı ilə məşğul olanlar üçün əlverişli məkana çevrilmişdir. Ermənistan Azərbaycan ərazisində qoşun hissələrini yerləşdirmişdir. Londonda yerləşən Beynəlxalq Strateji Tədqiqatlar İnstitutunun məlumatlarına görə 1993-cü il üçün Azərbaycan ərazisində Ermənistan Respublikasının 8 min nəfər "könüllü" adlandırılan hərbçisi var idi[965].

İşğal nəticəsində Azərbaycan Respublikasına böyük maddi ziyan dəymişdir. İnsan ehtiyatına ağır zərbə vurulmuşdur. Hərbi əməliyyatların gedişində Azərbaycandan 20 min nəfər həlak olmuş, 50 min nəfər yaralanmış və ya əlil olmuş, təqribən 5 min nəfər itkin düşmüşdür. Minlərlə mülki şəxs girov götürülmüşdür. Beynəlxalq humanitar hüququ və konvensiyaları kobudcasına pozan Ermənistan hərbi əsir və girovlara qarşı amansız davranmışdır[966].

Ermənistanın həyata keçirtdiyi etnik təmizləmə və hərbi təcavüzü nəticəsində ərazilərin işğal edilməsi ilə Azərbaycanda qaçqın və məcburi köçkünlər ordusu yaranmışdır. İnsanın ali hüququ olan yaşamaq hüququ Ermənistan dövləti tərəfindən pozulmuşdur. Təqribən 1 milyon nəfər azərbaycanlı qaçqın və məcburi köçkündür[967]. Ev-eşiklərini itirən bu insanlar Azərbaycanın müxtəlif rayonlarında yerləşdirilmişlər.

Ölkənin Dağlıq Qarabağ regionunda və ətrafında Ermənistan silahlı qüvvələrinin apardığı hərbi əməliyyatlar nəticəsində azərbaycanlılara qarşı soyqırımı və etnik təmizləmə siyasəti həyata keçirilmişdir. Xocalıda azərbaycanlılar kütləvi surətdə məhv edilmişdir. Bununla Ermənistan bəşəriyyətə və sivilizasiyaya qarşı dövlət səviyyəsində cinayət törətmişdir. Azərbaycanlıların insan haqları, xüsusən insanın ali hüququ olan yaşamaq hüququ kobud surətdə pozulmuşdur[968].

---

[964] Агрессия Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агрессии представленный в международные организации. Баку, май 1994 г. – ARXİNA. 1994. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. Qovluq №9, v. 34.

[965] The Military balance. 1993-1994. The International Institute for strategic studies. London, 1993, p. 73.

[966] Агрессия Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агрессии представленный в международные организации. Баку, май 1994 г. – ARXİNA. 1994. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. Qovluq №9, v. 46.

[967] Yenə orada, v. 33.

[968] Aras O.N., Dedeyev B., Yılmaz R., İbayev V. Karabağ savaşı. Siyasi-hukuki-ekonomik analiz. Bakı, 2008, s.68-113.

Azərbaycan iqtisadiyyatına böyük ziyan dəymişdir. Məcburi köçkünlərin daimi yaşayış yerlərinə bir daha qayıda bilməməsi və bölgənin Azərbaycana qədim tarixi baxımdan bağlılığını itirmək məqsədi ilə şəhər, kənd və qəsəbələr dağıdılmışdır. İlkin məlumatlara görə təcavüz nəticəsində ölkəyə on milyardlarla ABŞ dolları məbləğində ziyan vurulmuşdur. İşğal ölkənin təsərrüfat həyatını pozmuşdur. Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə 890 yaşayış məntəqəsi, o cümlədən 11 şəhər, 12 qəsəbə, 867 kənd yandırılmış və ya yararsız hala salınmışdır.

Sənayeyə ağır zərbə vurulmuşdur. İşğal edilmiş ərazilərdə 173 sənaye, 122 tikinti, 3225 ticarət obyekti qalmışdır. Bəzi məlumatlara görə Dağlıq Qarabağ regionundan kənarda yerləşən həmin obyektlərin illik istehsal həcmi 12,1 milyard ABŞ dolları təşkil edir. Minlərlə emal müəssisəsi, fabrik və zavod talan edilmişdir. Yüzlərlə kilometr uzunluğunda suvarma kanalları sistemi tamamilə dağıdılmışdır. Bölgə infrastrukturu, o cümlədən minlərlə kilometr su və qaz boru kəmərləri, çoxlu sayda qaz paylama məntəqəsi dağıdılmışdır.

Azərbaycan dəmiryolunun 140 km sahəsi işğal altına düşmüşdür. Vurulan ziyanın təqribi miqdarı 14 milyon, vaqon təsərrüfatına dəyən ziyanın təqribi miqdarı 4 milyon 860 min, yol təsərrüfatına dəyən ziyanın miqdarı isə 10 milyon ABŞ dolları təşkil edir[969]. İşğal altındakı ərazilərdə 4498 km avtomobil yolu qalmışdır. Bunlardan 1065 km respublika əhəmiyyətli yollardır. 110 ədəd körpü işğal altındakı ərazilərdədir[970].

Ölkənin kənd təsərrüfatına ağır zərbə vurulmuşdur. Əkin sahələri məhv edilmişdir. Kənd təsərrüfatı kompleksləri dağıdılmışdır. Heyvandarlığa ziyan dəymiş, yüz minlərlə iri və xırda buynuzlu heyvan işğal edilmiş ərazilərdən Ermənistana aparılmışdır. Azərbaycan otlaqlarının 70%-i işğal altındadır. İşğal edilmiş ərazilərdə 10 minə yaxın taxılbiçən maşın və digər kənd təsərrüfatı maşınları qalmışdır.

Azərbaycan vətəndaşlarının əmlakı Ermənistana daşınmışdır. Sahəsi 9 mln. kv.m. olan 150 min yaşayış tikilisi talan edilmiş, 14 mindən çox şəxsi avtomobil Ermənistana aparılmışdır. Bu ziyanlar təqribən 10 milyard ABŞ dollarına bərabərdir[971].

---

[969] Azərbaycan dəmiryolunun erməni təcavüzü nəticəsində işğal olunan əraziləri haqqında arayış. – ARXİNA. 2003. Katiblik. Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinə göndərilən sənədlər. Qovluq № S, v. 3-4.

[970] Avtomobil yolları təsərrüfatının işğal olunmuş ərazilərdə qalmış avtomobil yolları və yol qurğuları barədə arayışı. – ARXİNA. 2003. Katiblik. Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinə göndərilən sənədlər. Qovluq № S, v.5.

[971] Агрессия Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агрессии представленный в международные организации.

Təcavüz nəticəsində Azərbaycanın sosial həyatına, tarixi minilliklərə gedib çıxan mədəni irsinə, təhsil sisteminə ağır ziyan vurulmuşdur. İşğal zonasında 695 səhiyyə obyekti, 693 məktəb, 855 uşaq bağçası, 787 klub, milyonlarla nüsxə fondu olan 927 kitabxana, 3 teatr, 268 kino qurğusu, 44 məbəd, 9 məscid, 9 tarixi yer dağıdılmışdır[972]. Çoxlu sayda dəyərli əlyazmalar yandırılmışdır. 464 tarixi abidə və muzey məhv edilmişdir[973]. İşğal edilmiş rayonlarda 4 texnikum, 4680 yerlik 11 texniki-peşə məktəbi və 34 məktəbdənkənar müəssisə qalmışdır[974].

Azərbaycanın təbii sərvətləri talan edilmişdir. 260 min hektar meşə sahəsi işğal altındadır. Meşələrin təxminən 20%-i qırılaraq Ermənistana daşınmışdır. İki dövlət qoruğu talan edilmişdir. Ərazinin faunası 50% azalmışdır.

Zəngin faydalı qazıntıları olan yataqlar Ermənistanın işğalı altındadır. Kəlbəcərin Zod qızıl mədənləri talan edilir. Qeyd etmək lazımdır ki, Azərbaycanın qızıl yataqları ehtiyatının 70%-ni özündə birləşdirən Zod yatağında hələ 1976-1990-cı illərdə 27,6 ton qızıl çıxarılmışdı. Bəzi məlumatlara görə Kəlbəcər işğal edildikdən sonra buradan ildə 1,5-2 ton qızıl çıxarılır[975]. Qiymətli daşların yerləşdiyi yataqlar da Ermənistan tərəfindən talan edilir. Kəlbəcərin nadir mineral su mənbəyi olan İstisuyun sərvəti Ermənistana daşınır.

Ermənistanın hərbi təcavüzü nəticəsində Naxçıvan blokadaya salınmış, Azərbaycanın bu ərazisi ilə quru əlaqəsi kəsilmişdir. Bakı ilə Naxçıvan arasında yalnız hava yolu və İran ərazisindən keçməklə əlaqə saxlamaq mümkündür. Naxçıvanın Kərki kəndi işğal edilmişdir. Naxçıvana verilən qazın Ermənistan ərazisindən keçməsi 1991-ci ilin dekabr ayından dayandırılmışdır.

---

Баку, май 1994 г. – ARXİNA. 1994. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. Qovluq №9, v. 50.

[972] Yenə orada, v. 51.

[973] Доклад об ущербе, нанесенном культурному наследию Азербайджанской Республики в результате армянской агрессии. – ARXİNA. 20.05.1993-18.12.1997. Qovluq №2, v.14-19.

[974] Информация правительства Азербайджанской Республики по докладу рабочей группы по современным формам рабства подкомиссии ООН по поощрению и защите прав человека. – ARXİNA. Katiblik. Azərbaycan Respublikasının BMT-yə və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliklərinə göndərilən sənədlər. 31.05.2001-20.08.2001. Qovluq №S, v. 32-40.

[975] Агрессия Республики Армении против Азербайджанской Республики. Доклад по фактам агрессии представленный в международные организации. Баку, май 1994 г. – ARXİNA. 1994. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə əlaqədar məruzə. Qovluq №9, v. 52.

Qazax və Tovuzun bir neçə kəndi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu kəndlərdəki bütün yaşayış evləri və ictimai binalar yandırılmışdır.

Ermənistan atəşkəsi mütəmadi olaraq pozmaqda davam edir. Ermənistan qoşun hissələri atəşkəs xətti boyunca ətraf ərazilərdə yaşayan dinc əhaliyə atəş açır, onları qətlə yetirir, ya birbaşa silahlı qüvvələri ya da onun hərbi yaxud digər dəstəyi sayəsində mövcud olan separatçı rejim vasitəsi ilə Azərbaycanın Dağlıq Qarabağ regionuna və digər işğal etdiyi ərazilərə nəzarəti həyata keçirir. Məlum olduğu kimi, Dağlıq Qarabağ bölgəsinin erməni icmasının nəinki ətraf, hətta keçmiş Muxtar Vilayətin inzibatı ərazisi daxilindəki rayonları tutmaq üçün iqtisadi, hərbi, maliyyə, hərbi-sənaye kompleksi və insan potensialı mövcud deyildir.

Ermənistan işğal etdiyi Azərbaycanın Dağlıq Qarabağ regionunda və digər ərazilərində qanunsuz fəaliyyətlərini bir neçə istiqamətdə davam etdirir. Qədim tarix və mədəniyyət abidələri, binalar, minarələr, məscidlər, saraylar, muzeylər, azərbaycanlılara məxsus yaşayış evləri, obyektlər dağıdılmış, təbii sərvətlər talan edilmiş, zorla məskunlaşdırma aparılmışdır və s.

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin işğalının davam etməsi regionda, qitədə və bütün dünyada təhlükəsizliyə təhdiddir. Rəsmi Yerevanın təcavüzkarlıq siyasəti dövlətlər arasında müxtəlif sahələrdə əməkdaşlığa və regionda demokratik inkişafa ağır zərbə vurur.

Hərbi təcavüzün nəticələrindən yararlanan Ermənistan işğal yolu ilə əldə etdiyi mövcud şəraiti qoruyub-saxlamağa, möhkəmləndirməyə və daimi yaşayış yerlərindən didərgin salınmış azərbaycanlı əhalinin geri dönməsinin qarşısını almağa yönəlmiş fəaliyyəti ilə "fait accompli", yəni "oldu-bitdi" vəziyyəti yaratmağa çalışır.

# NƏTİCƏ

Beləliklə, 1920-1994-cü illərdə xarici ölkələrdəki erməni təşkilatları və Ermənistan rəhbərləri əsasən aşağıdakı istiqamətlərdə fəaliyyət göstərmişlər: Türkiyədən torpaq tələb etmiş, istəklərinə nail ola bilmədikdə Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürmüşlər. Bu niyyət də boşa çıxdıqda ermənilərin xarici ölkələrdən gətirilməsinə, Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlıların deportasiya edilməsinə çalışmışlar. Həmin əsassız iddialarına "don geyindirmək" üçün erməni təşkilatları tarixdə olmayan uydurma soyqırımından bir vasitə kimi istifadə etmişlər.

Bir-biri ilə sıx bağlı olan bu istiqamətlər tək bir məqsəd güdmüşdür: xaricdən gətirilən ermənilər üçün əlverişli şərait yaratmaq, tarixi torpaqlarında yaşayan azərbaycanlıları köçürərək onlara məxsus əraziləri ələ keçirtmək, Ermənistanı erməniləşdirmək, türksüz Ermənistan yaratmaq, Azərbaycanın Dağlıq Qarabağ regionunu və Gürcüstandan torpaqlar qoparaq tarixdə heç bir zaman olmayan "Böyük Ermənistan" qurmaq.

20-ci illərin əvvəllərində Antanta ölkələrinin əlində alətə çevrilən Ermənistanda hökmranlıq edən daşnaklar həm Türkiyəyə qarşı düşmənçilik etmiş, həm də Azərbaycan ərazilərini ələ keçirtmək üçün hərbi əməliyyatlar aparmışlar. Bir sıra beynəlxalq amillər səbəbindən bolşevik Rusiyası və Türkiyənin yaxınlaşması Cənubi Qafqazda yeni geosiyasi şərait yaratmışdır. Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edilərək sovetləşdirilmişdir. Daşnak Ermənistanı isə yenə də Azərbaycana və Türkiyəyə qarşı əsassız ərazi iddialarını davam etdirmişdir.

Ermənistan tərəfi düşmənçiliyi dayandırmağa və mübahisəli məsələləri dinc yolla həll etməyə dair türk təkliflərinə məhəl qoymadığı üçün Türkiyə hərbi əməliyyatlara başlamağa məcbur olmuşdur. Daşnak hökuməti rüsvaycasına məğlub olmuşdur. Ermənistan bolşevik Rusiyası tərəfindən sovetləşdirilmişdir. Mənbələrdə yazıldığı kimi, Ermənistanın sovetləşdirilməsi ilə Türkiyə və Azərbaycan arasına "sovet Ermənistanı pazı" vurulmuşdur. Əvvəlki illərdə yürütdüyü düşmənçilik siyasətinə, dinc türk və müsəlman əhaliyə qarşı törətdiyi soyqırımlarına baxmayaraq, Azərbaycan acınacaqlı vəziyyətdə olan və əhalisi aclıq çəkən Ermənistana yardımlar edərək, erməniləri zülmətdən və ölümdən xilas etmişdir.

Sovet Azərbaycanının dost görmək istəyinə baxmayaraq, mahiyyətinə görə bolşevik Ermənistanı daşnakların düşmənçilik siyasətini müxtəlif vasitələrlə davam etdirmişdir. Erməni bolşevikləri Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ, Naxçıvan və digər ərazilərə əsassız iddiaları irəli sürmüşlər.

Bolşevik Rusiyası həmin iddialardan öz məqsədləri üçün istifadə etmişdir. Strateji niyyətləri naminə bolşevik Rusiyası tarixi Azərbaycan torpağı olan Zəngəzuru Ermənistana vermişdir. Bununla da Türkiyə ilə Azərbaycan və türk dünyası arasında birbaşa quru əlaqəsi kəsilmişdir.

Çarizm dövründə Azərbaycanın Qarabağ regionunun dağlıq hissəsinə köçürülmüş ermənilər üçün muxtariyyət yaradılması məsələsi süni surətdə gündəliyə gətirilmiş və müxtəlif səviyyələrdə müzakirəyə çıxarılmışdır. Bununla paralel olaraq Ermənistan rəhbərliyi xarici ölkələrdən ermənilərin gətirilb yerləşdirilməsi işini davam etdirmişdir.

Gürcüstanın işğal edilməsi ilə bütün Cənubi Qafqaz sovetləşdirilmişdir. Bundan sonra sovet Rusiyası ilə TBMM hökuməti arasında 1921-ci il 16 mart tarixli Moskva müqaviləsi imzalanmışdır. Türkiyənin Rusiya, Ermənistan, Azərbaycan və Gürcüstan ərazi-sərhəd məsələləri tənzimlənmişdir. Lakin erməni bolşevikləri imzalanan Moskva müqaviləsində ərazi-sərhəd məsələlərinin həllindən, xüsusən Naxçıvanın Azərbaycan tərkibində saxlanılmasından narazı qalmışlar. Mərkəzdəki bəzi diplomatlar isə yazdıqları məktublarında Türkiyənin Cənubi Qafqaz istiqamətində üstünlüklər qazandığını vurğulamışlar. Ona görə də erməni bolşevikləri Azərbaycandan Dağlıq Qarabağ regionunu qopartmaq üçün fəaliyyətlərini artırmışlar.

Moskva müqaviləsinin şərtlərinə uyğun olaraq Rusiyanın vasitəçiliyi ilə Türkiyənin Azərbaycan, Gürcüstan və Ermənistan ilə münasibətlərini və ərazi-sərhəd məsələlərini tənzimləmək üçün Kars konfransına hazırlıqlara başlanılmışdır. Sovet Rusiyası bu konfransda Azərbaycanın Türkiyə ilə yaxınlaşa bilməsi və "sürprizlər çıxması" ehtimalından narahat olaraq Bakıya qarşı təzyiq vasitələrini işə salmışdır. Konfrans ərəfəsində Dağlıq Qarabağ məsələsi yenidən müzakirə edilmişdir. Bu müzakirələr konfransda Azərbaycana təzyiq etmək, Türkiyə ilə yaxınlaşmağa yol verməmək və Ermənistanın istəklərini təmin etmək məqsədi güdmüşdür. Moskva müqaviləsinin əsasında 1921-ci il 13 oktyabr tarixdə Karsda imzalanan müqavilə ilə Türkiyə və Cənubi Qafqaz respublikaları arasında münasibətlər tənzimlənmiş, ərazi-sərhəd məsələləri həll edilmişdir.

20-ci illərin əvvəllərində milli azlıqlar məsələsinin həlli ilə demək olar, bütün böyük dövlətlər maraqlanmışlar. Bu, əslində milli azlıqların hüquqlarını qorumaqdan çox, həmin dövlətlərin mənfəətlərinin təmin edilməsinə xidmət etmişdir. Erməni təşkilatları isə hiyləgərliklə *"hansı dövlət erməni işini müdafiə edəcəksə, dünya erməniliyi həmin ölkənin siyasətini müdafiə edəcək və ona rəğbət bəsləyəcəkdir"* kimi saxta təbliğat üsulundan istifadə etmişlər. Antanta ölkələri "erməni məsələsi"nin istismarını davam etdirmişlər. Lakin onların bu səyləri Lozan konfransında iflasa uğramışdır.

Həmin dövrdə Antanta ölkələri SSRİ-ni tanımamaq siyasəti yürütdüklərindən sovet rəhbərliyi də ermənilərin bu niyyətlərindən öz maraqları üçün istifadə etməyə çalışmışdır. Sovet dövləti Antanta ölkələrinin milli məsələdə SSRİ-nin daxili işlərinə müdaxilə etmək niyyətindən, ABŞ-da və Avropa ölkələrində aparılan saxta erməni təbliğatı nəticəsində ermənilərə artan maraqdan öz məqsədləri naminə istifadə edərək, ictimai rəyi tərəfinə çəkməkdən ötrü türk, azərbaycanlı torpaqlarında yaradılmış Ermənistan

SSR-in artıq mövcud olmasına baxmayaraq, ermənilər üçün yeni bir “ocağın”ın yaradılmasını uyğun görmüşdür. Belə bir “ocağın” yaradılması təkcə erməni istəklərinin yerinə yetirilməsi ilə deyil, daha çox sovet Rusiyasının strateji məqsədlərilə bağlı olmuşdur. Türkiyənin guya gələcəkdə Qərb ölkələri ilə yaxınlaşacağından, Cənubi Qafqaza girəcəyindən və azərbaycanlı bolşevikləri Mərkəzi sovet hakimiyyəti əleyhinə qaldıracağından narahat olan Rusiyanın və Ermənistanın bəzi xadimləri ikinci bir “erməni ocağı”nın yaradılmasını təklif etmişlər. Mərkəz belə bir “ocağı” yaratmaqla, Azərbaycanın özünü müstəqil aparmasına əngəl olmaq və onu daim təzyiq altında saxlamaq məqsədi güdmüşdür. Nəticədə Azərbaycan ərazisində coğrafi-tarixi və etnoqrafik-mədəni reallıqlara uyğun olmadan süni surətdə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır.

DQMV-nin yaradılması ilə Azərbaycanın vahid coğrafi-siyasi, tarixi, etnoqrafik-mədəni ərazisinin bir hissəsi süni muxtariyyət forması almış və gələcəkdə iki xalq arasında münaqişə üçün zəmin yaradılmışdır. Ermənistanda yaşayan azərbaycanlılara isə belə bir hüquq verilməmişdir. “Parçala, hökm sür” siyasətinin gerçək üzünü özündə əks etdirən DQMV-nin süni şəkildə yaradılması sovet rəhbərləri Lenin və Stalinin Azərbaycan və erməni xalqlarına münasibətinin göstəricisi olmuşdur.

DQMV-nin yaradılmasından sonra da Azərbaycan ərazilərinə Ermənistan tərəfindən olan təhlükələr sona yetməmişdir. Azərbycan təhdidlərə məruz qalmış, erməni bolşeviklərinin əsassız iddia etdiyi bəzi ərazilər Mərkəz tərəfindən əvvəlcə “mübahisəli” elan edilmiş, sonra isə qopardılaraq Ermənistana verilmişdir.

20-ci illərin sonları – 30-cu illərdə xarici ölkələrdəki erməni təşkilatları Türkiyəyə qarşı da fəaliyyətlərini dayandırmamışlar. Onlar Türkiyə əleyhinə kitab və məcmuələr çap edərək gizli yollarla ölkəyə gətirməyə və yaymağa çalışmışlar. Türk hökuməti qəbul etdiyi qərarlar ilə onların qarşısını kəsmişdir.

Ermənilərin Cənubi Qafqaza, o cümlədən Ermənistana köçürülməsi 30-cu illərdə də davam etdirilmişdir. Köçürülənlərdən Azərbaycan ərazilərinə yerləşənlər də olmuşdur. Onlar respublikaya özləri ilə qatı millətçilik və düşmənçilik hissləri gətirmişlər.

Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlılara məxsus yaşayış yerlərinin adı dəyişdirilmiş və Ermənistan tədricən erməniləşdirilmişdir. Ümumiyyətlə, 1930-1991-ci illərdə Ermənistanda azərbaycanlılara məxsus 668 yaşayış məntəqəsinin adı dəyişdirilmiş və türksüz Ermənistan qurulmasına yönəlik zorakı, antiinsani siyasət yeridilmişdir.

İkinci dünya müharibəsinin başlanması xarici ölkələrdə yaşayan erməni dairələrində müəyyən ümidlər yaratmışdır. Onlar müharibənin yekunlarından yararlanaraq, yeni ərazilər ələ keçirəcəklərinə ümid etmişlər. Müharibə sona çatdıqdan sonra isə Ermənistan SSR rəhbərliyi Azərbaycandan Dağlıq

Qarabağ regionunu qoparmağa cəhd etmişdir. Lakin bu əsassız iddia Azərbaycan tərəfindən rədd edilmişdir. Bununla belə, 40-cı illərdə Tovuz və Qazax rayonlarından bəzi ərazilər Ermənistana verilmişdir. Ermənistan rəhbərliyi digər bir istəyinə – xarici ölkələrdən ermənilərin respublika ərazisinə gətirilməsinə dair sovet hökumətinin qərarının qəbul edilməsinə nail olmuşdur.

Müharibə başa çatdıqdan sonra SSRİ rəhbərliyi Türkiyəyə qarşı ərazi iddiası irəli sürmüş, bu məqsədlə Gürcüstan və Ermənistan respublikalarından istifadə etmişdir. Heç bir müttəfiqi olmayan Türkiyə müharibədən qalib çıxmış SSRİ-nin təhdidləri qarşısında geri çəkilməmiş və əsassız tələblərini qətiyyətlə rədd etmişdir. SSRİ-nin Türkiyəyə qarşı avantürası boşa çıxmışdır.

Belə olduqda Ermənistan rəhbərləri xarici ölkələrdən ermənilərin respublika ərazisinə gətirilməsi məsələsini yenidən qaldırmışlar. Müvafiq qərar qəbul edilmişdir. Sənədlərdə bu köçürülmə "repatriasiya" kimi yazılsa da, o, qətiyyən tarixi gerçəkliyi əks etdirməmişdir. Çünki gətirilən ermənilər Ermənistanda doğulmamış, orada yaşamamış və çoxları bu ərazini heç görməmişdi. Xaricdən gətirilən ermənilərin yerləşdirilməsi üçün şərait olmadığından Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlılar SSRİ Nazirlər Sovetinin qərarlarına əsasən köçürülmüşlər. İlk baxışda planlı görünsə də, bu köçürülmə zorakı, deportasiya olmuşdur. Azərbaycan tərəfi Ermənistandan deportasiya edilən bu qədər adamı qəbul etməyə hazır olmamışdır. Deportasiya edilən azərbaycanlıların bir qismi yerli şəraitə uyğunlaşa bilməyərək müxtəlif xəstəliklərdən həyatdan köçmüşlər. Sağ qalanları isə normal həyat şəraiti qurmaq üçün ömürlərinin çox illərini sərf etmişlər. Gətirilən ermənilər isə Ermənistanda azərbaycanlıların hər cür şəraiti olan evlərinə və mənzillərinə yerləşdirilmişlər.

Aralarındakı ideoloji fərqlərə baxmayaraq, erməni kommunistləri və xarici ölkələrdəki daşnaklar ermənilərin Ermənistana gətirilməsinə *"erməni ərazilərinin və sərhədlərinin genişləndirilməsi və "Böyük Ermənistan" qurulması məqsədlərinin həyata keçirilməsi istiqamətində ciddi bir addım kimi"* baxmışlar.

40-cı illərin sonlarında düşmənçilik hərəkətlərini artıran daşnaklar özlərinə aid olan dövri mətbuat orqanlarında və müxtəlif səviyyələrdə Azərbaycan, Türkiyə və Gürcüstana qarşı əsassız ərazi iddialarını davam etdirmişlər. Onlar Azərbyacandan Naxçıvan, Dağlıq Qarabağ, Gəncə və digər əraziləri, Türkiyədən özlərinin təbirincə deyilsə, "ermənilər yaşamış vilayətləri", Gürcüstandan isə Axalkələki qopartmaq üçün təbliğatı genişləndirmişlər.

Ermənistan SSR-dəki bəzi şair, yazıçı və publisistlər isə nəşr etdirdikləri kitablarında Azərbaycan və Türkiyəyə böhtanlar ataraq, gerçək tarixi kobudcasına saxtalaşdırıb xalqlar arasında düşmənçilyi dərinləşdirməyə çalışmışlar. Xarici ölkələrdən gəlmiş bir çox erməni Azərbaycanın DQMV-ni gəzərək qatı millətçilik və ərazilər qopartmaq üçün təbliğat

aparmışlar. Bəzi erməni kommunistləri də eyni məqsədə nail olmaq uğrunda daşnaklarla birlikdə fəaliyyət göstərmişlər. Gətirilən ermənilərin bir çoxu SSRİ-ni dağıtmaq istəyən xarici ölkələrin xüsusi xidmət orqanlarının tapşırıqlarını yerinə yetirmişlər.

Azərbaycan rəhbərliyi erməni yazıçıları və tarixçiləri tərəfindən tarixin saxtalaşdırılmasının və əsassız iddiaların qarşısını kəsmək üçün tutarlı tarixi dəllillər gətirərək, Mərkəzə müraciət etmişdir. Görülən tədbirlər nəticəsində Azərbaycan, Gürcüstan və digər respublikalarda düşmənçilik təbliğatı aparan daşnakların yaşadıqları aşkar edilmişdir. Onlar ölkənin müxtəlif regionlarına sürgün edilmişlər. Sovet hakimiyyəti xaricdən ermənilərin ölkə ərazisinə gətirilməsini dayandırmışdır.

Həm Ermənistanda, həm də xarici ölkələrdəki bəzi erməni təşkilatları 50-ci illərin sonları – 60-cı illərdə də bir neçə istiqamətdə antitürk, antiazərbaycan fəaliyyətlərini yürütmüşlər. Türkiyənin Avropa İqtisadi Birliyinə üzv olmaq üçün müraciət etməsi Qərb ölkələrini cənub sərhədlərində görmək istəməyən SSRİ rəhbərliyini, Ermənistan SSR rəhbərliyini və xarici ölkələrdəki erməni təşkilatlarını hərəkətə gətirmişdir. Bu yolda Türkiyəyə mane olmaq üçün müxtəlif vasitələr işə salınmışdır. Sovet rəhbəri N.S.Xruşşovun Ermənistana səfəri həm respublika daxilində, həm də xarici ölkələrdəki erməni dairələrinin fəallaşmasına təsir etmişdir. Xarici ölkələrdən gəlmiş erməni xadimləri ilə Yerevanda N.S.Xruşşovun görüş keçirtməsi erməni təşkilatlarını ruhlandırmışdır. Bundan sonra sovet rəhbərliyi əvvəlki siyasətinə dəyişiklik edərək, xarici ölkələrdən ermənilərin gətirilməsinə yenidən icazə vermişdir.

60-cı illərin əvvəllərindən etibarən SSRİ – Türkiyə münasibətlərində baş verən normallaşma prosesi bu dəfə iki ölkənin yaxınlaşmasını istəməyən bəzi Qərb ölkələrində qısqanclıq hissləri yaratmışdır. Onlar həmin prosesə mane olmaq üçün müxtəlif üsullardan istifadə etmişlər. Kiprdə baş verən hadisələr zamanı Türkiyənin adada yaşayan türk xalqının fiziki mövcudluğunu qorumaq üçün müdaxilə etmək istəyi müttəfiqi olan ABŞ-ın etirazına səbəb olmuşdur. Türkiyənin müttəfiqi olan bəzi digər ölkələr də ona təzyiqlər etmişlər. Nəticədə Türkiyə üçün əlverişsiz beynəlxalq şərait yaranmışdır.

Dünyada böyük dövlətlər arasında gedən diplomatik-siyasi və ideoloji mübarizədən öz məqsədlərinə nail olmaq üçün istifadə edən ermənilər fəaliyyətlərini artırmış, “Böyük Ermənistan” qurmaq yolunda əsassız ərazi iddialarını davam etdirmişlər. 1965-ci ildə tarixdə heç bir zaman olmayan uydurma erməni soyqırımının 50 illiyinin qeyd edilməsi ilə Ermənistanda türk düşmənçiliyi yeni bir səviyyəyə qaldırılmışdır. Sözdə erməni soyqırımı abidəsinin qoyulması ilə türk düşmənçiliyi bütün ermənilərin şüuruna daimi həkk edilmişdir. Uydurma erməni soyqırımı deyilən bir məsələ türk ərazilərini ələ keçirərək “Böyük Ermənistan” qurmaq yolunda bir vasitəyə çevrilmişdir.

Belə bir şəraitdə xarici ölkələrdəki erməni təşkilatları Türkiyə əleyhinə nəşr etdikləri qəzet, jurnal və kitabları qanunsuz olaraq ölkəyə gətirib yaymağa çalışmışlar. Hətta nəşr edərək yaydıqları xəritələrdə də Türkiyə ərazilərinin bir hissəsini "Ermənistan" kimi təsvir etmişlər. Türkiyə bu fəaliyyətlərin qarşısını kəsməyə çalışmış və müvafiq hökumət qərarları qəbul edilmişdir.

Uydurma soyqırımı tədbirlərini həyata keçirtməklə yanaşı Ermənistan SSR rəhbərliyi 60-cı illərin sonlarında Azərbaycana qarşı əsassız ərazi iddialarını irəli sürmüş, DQMV-də sakinlər arasında təxribatlar törətməyə və şayiələr yaymağa çalışmışdır. SSRİ rəhbərliyi erməniləri müdafiə etmişdir. Lakin Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra Ermənistanın həmin əsassız ərazi iddialarının qarşısı alınmışdır. 1969-1982-ci illərdə Ermənistan Azərbaycandan torpaq qopara bilməmişdir.

60-cı illərin sonları – 70-ci illərin əvvəllərində beynəlxalq münasibətlərdə iki müxtəlif sistem ölkələri arasında qarşıdurmadan gərginliyin zəiflədilməsi prosesinə keçid baş verdikdə SSRİ – Türkiyə münasibətlərində əməkdaşlığın genişləndirilməsi Qərbdə bəzi dairələri narahat etmiş və xarici ölkələrdəki erməni terror təşkilatları 20-ci illərin ortalarından bəri dayandırdıqları terror aktlarına yenidən başlamışlar. İlk terror aktı Türkiyənin müttəfiqi olan ABŞ ərazisində törədilmişdir. Erməni terrorçuları mülki şəxsləri – diplomatları və konsulları amansız terror aktları ilə qətlə yetirmiş, səfirlik və digər binalara bombalar atmışlar. Terrorun haradan və hansı ölkə tərəfindən təşviq və müdafiə edildiyinə dair dəqiq məlumat əldə etmək mümkün olmamışdır.

1974-cü ildə Kipr barış hərəkatına başladıqdan sonra Türkiyəyə qarşı ABŞ-ın silah embarqosu tətbiq etməsi ilə erməni terrorçuları yenidən fəallaşmışlar. Türk vətəndaşları və binaları terrorun hədəfi olmuşlar.

70-ci illərdə SSRİ və Azərbaycan SSR konstitusiyaları qəbul edilərkən Ermənistan rəhbərliyi Dağlıq Qarabağ regionuna yenidən əsassız iddialar irəli sürsə də, Azərbaycan və sovet rəhbərliyi tərəfindən rədd edilmişdir. Azərbaycan hökuməti DQMV-nin sosial-iqtisadi və mədəni inkişafına xüsusi qayğı göstərmiş, ermənilərlə azərbaycanlılar arasında dostluq və birgəyaşayış üçün geniş tədbirlər həyata keçirtmişdir. Bundan qıcıqlanan bəzi erməni ziyalıları SSRİ orqanlarına iftiralar dolu məktublar yazmışlar. Azərbaycan tərəfi həmin iddiaları təkzibedilməz fakt və materiallarla rədd etmişdir.

Azərbaycanda antierməni siyasəti heç bir zaman olmamış, ermənilərə daim xoş münasibət bəslənmişdir. Ermənilərdən olan partiya və sovet xadimləri Bakıda yüksək vəzifələrdə işləmişlər. Buna baxmayaraq, Ermənistandakı bəzi şəxslər və xarici ölkələrdəki erməni təşkilatları Azərbaycana münasibətdə xoşniyyətli olmamış, əleyhinə daim iftira dolu yalanlar uydurmuşlar.

Əfqanıstana sovet hərbi müdaxiləsindən sonra beynəlxalq münasibətlərdə gərginliyin zəiflədilməsi prosesindən geri çəkilmə baş verdiyi zaman xarici ölkələrdəki erməni terror təşkilatları türklərə qarşı terror aktlarını genişləndirmişlər. Bu, türk ictimai rəyinə ağır təsir etmişdir.

Xarici ölkələrdə terror aktları törədilərkən Ermənistan rəhbərliyi Azərbaycana qarşı yeni əsassız ərazi iddiaları irəli sürmüş, Qazax rayonunun Kəmərli kəndindəki bəzi torpaq sahələrini ələ keçirtmək üçün fəaliyyətə başlamışdır. Kənd əhalisinin kəskin etirazlarına baxmayaraq, əsassız iddia edilən ərazi Mərkəz tərəfindən qopardılaraq Ermənistana verilmişdir.

1985-ci ildə Ermənistan SSR ölkə rəhbərliyindən uydurma erməni soyqırımının 70 illiyinin keçirilməsi üçün respublika hakimiyyətinin fərmanının verilməsinə icazə istəmişdir. SSRİ – Türkiyə münasibətlərinə xələl gətirəcəyindən və 1915-ci il hadisələrində çar Rusiyası da təqsirkar olduğundan bu xahiş rədd edilsə də, mətbuatda uydurma soyqırımına həsr olunmuş məqalələrin dərcinə icazə verilmişdir. Bununla kifayətlənməyən Ermənistan rəhbərliyi digər bir istəyinə də nail olmuşdur. SSRİ Nazirlər Soveti və Sov.İKP xarici ölkələrdən ermənilərin gətirilməsi haqqında qərar qəbul etmişdir. Bir müddət sonra isə xarici ölkələrdəki erməni mətbuat orqanlarına sovetlərin maliyyə yardımı ayırmasına dair Ermənistan rəhbərliyinin xahişi də yerinə yetirilmişdir.

Sovet rəhbəri M.S.Qorbaçovun himayə etdiyi Ermənistan başçıları və xarici ölkələrdəki erməni təşkilatları əlverişli şərait yarandığını görərək, Türkiyəyə qarşı ərazi, uydurma soyqırımını tanıtma, təzminat iddialarını unutmadan, onları arxa plana keçirərək, Azərbaycan qarşı əsassız ərazi iddialarını genişləndirmişlər. Bu iddialar Dağlıq Qarabağ regionunun Azərbaycandan qopardılması kimi konkret hədəf güdmüşdür. Ermənistanın Azərbaycanın daxili işlərinə qarışması və hərbi müdaxiləsi nəticəsində Dağlıq Qarabağ münaqişəsi meydana gəlmişdir. Münaqişənin gedişində Ermənistanda tarixi torpaqlarında yaşayan azərbaycanlılar qovularaq qaçqın olmuş, Dağlıq Qarabağ regionunda azərbaycanlılar yaşayan kəndlər bir-birinin ardınca işğal edilərək yandırılmışdır. Xocalıda mülki azərbaycanlıları – qocaları, uşaqları və qadınları xüsusi amansızlıqla kütləvi şəkildə qətlə yetirməklə, soyqırımına uğratmaqla Ermənistan Respublikası bəşəriyyətə və sivilizasiyaya qarşı dövlət səviyyəsində cinayət törətmişdir.

Azərbaycan musiqi mədəniyyətinin beşiklərindən biri olan Şuşanı zəbt etməklə Ermənistan keçmiş sovet hərbi hissələrinin köməyi ilə Azərbaycanın Dağlıq Qarabağ regionunun işğalını başa çatdırmışdır. Dağlıq Qarabağ regionundan kənarda yerləşən Laçın rayonunun işğalı nəticəsində region ilə Ermənistan arasında birbaşa quru əlaqəsi yaradılmışdır. Sülh səylərinə məhəl qoymayaraq, xaricdən yardımlar alan Ermənistan silahlı qüvvələri 1993-cü

ildə Azərbaycanın Dağlıq Qarabağ regionunun ətrafındakı Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal etmişdir.

Azərbaycan tərəfi Ermənistanın təcavüzünü dayandırmaq və işğalın nəticələrini aradan qaldırmaq üçün beynəlxalq birliyə müraciət etmişdir. Azərbaycanın işğal edilmiş ərazilərini tamamilə, tezliklə və qeyd-şərtsiz boşaltmağa dair BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələri və digər beynəlxalq təşkilatların sənədləri qəbul edilmişdir. Bu sənədlər münaqişənin həlli üçün beynəlxalq hüquqi-siyasi əsas təşkil edir. Lakin həmin sənədlər Ermənistan tərəfindən yerinə yetirilməmişdir.

Ermənistan işğal etdiyi ərazilərdə qanunsuz fəaliyyətlərlə məşğuldur. Terror təşkilatlarının yuva qurduqları bu ərazilərdə narkotik bitkilər əkib-becərilir, qanunsuz məskunlaşdırma həyata keçirilir, azərbaycanlılara məxsus tarix və mədəniyyət abidələri dağıdılır, region erməniləşdirilir.

Azərbaycan ərazilərinin işğalı faktını unutdurmaq üçün Ermənistan tərəfi tarixdə olmayan uydurma erməni soyqırımı məsələsini sürəkli olaraq gündəlikdə saxlayır. Lakin tarixi mənbələr sübut edir ki, ermənilərin iddia etdikləri "soyqırımı"nın heç bir tarixi əsası yoxdur və yalnız siyasi məqsədlər üçün uydurulmuşdur. İlk növbədə ona görə ki, Birinci dünya müharibəsi ərəfəsində Osmanlı dövləti ərazisində 1,5 mln. nəfər erməni yaşamamışdır. Soruşulur: bu qədər erməni olmadığı halda 1,5 mln. erməni necə öldürülə bilərdi? O zaman ermənilər özləri yazırdılar ki, ölən ermənilərin sayı 300 min nəfərdir. Sonrakı dövrlərdə onlar ölülərinin sayını süni surətdə artıraraq, 500 min, 800 min, 1 mln. və 1,5 mln. nəfərə çatdırdılar. Soruşulur: ölənlər də artıb törəyirlərmi? Ölmüş 1,5 mln. insanın ən azı kütləvi məzarlığı olmalıdır. Belə bir məzarlıq Osmanlı dövlətinin ərazilərində yoxdur. Elə isə öldüyü iddia edilən 1,5 mln. adam harada dəfn edilmişdir, yoxsa göyəmi çəkilmişlər? Bu qədər adamı öldürmək üçün neçə il və nə qədər hərbçi lazımdır?

Dövlətə qarşı qiyam qaldıranların, vətənə xəyanət edənlərin, ölkənin təhlükəsizliyini təhdid edənlərin və dinc əhalini öldürənlərin yaşayış yerlərinin dəyişdirilməsi "soyqırımı"dırsa, onda Birinci dünya müharibənin başlanğıcında Rusiyada və İngiltərədə yaşayan almanların mal və mülkünün talan edilməsi, uzaq yerlərə sürgün edilməsinin adı nədir? Axı, Osmanlıda ermənilərin heç də hamısının yaşayış yerləri dəyişdirilməmiş, onların bir hissəsi ölkədə yaşamaqda və dövlət orqanlarında müxtəlif vəzifələri tutmaqda davam etmişlər. Belə olduqda "erməni soyqırımı" ifadəsi işlətmək düzgündürmü?

Müharibə dövründə Şərq cəbhəsindən türk, müsəlmanlar da digər yerlərə köçürülmüşlər. Onda bu da "soyqırımı"dırmı? Müharibə dövründə regionda yaşayan bütün xalqlar əzab çəkmişlər. Bir xalqın acısını azalmaq, digərinin acısını sünu surətdə artırmaq tarixi gerçəkliyi özündə düzgün əks etdirə bilməz.

Bilindiyi kimi, "soyqırımı" ifadəsi ilk dəfə 1944-cü ildə ABŞ-da 600 səhifəlik əsər yazan Polşadan olan yəhudi əsilli, ingilis dilini bilməyən hüquq professoru Rafael Lenkin tərəfindən işlədilmişdir. O, bu ifadəni nasional-sosialistlərə münasibətdə istifadə etmişdir.

Tarixi mənbələr sübut edir ki, "soyqırımı" sırf siyasi məqsədlər üçün uydurulmuşdur. Bu, Anadolu torpaqlarını işğal edə bilmədikdən sonra böyük dövlətlər və regionda maraqları olan ölkələr üçün Türkiyəyə təzyiq etmək, ermənilər üçün isə tanıtmaq, təzminat, torpaq almaq və tarixdə heç bir zaman olmamış "Böyük Ermənistan" qurmaq yolunda bir vasitəyə çevrilmişdir.

Məlum olduğu kimi, ermənilər "Böyük Ermənistan" dedikdə, Aralıq dənizi, Qara dəniz və Xəzər dənizi arasındakı əraziləri nəzərdə tuturlar. Hazırda bu ərazidə yerləşən ölkələrdə təqribən 350 milyon nəfər əhali yaşayır. Müasir dövrdə bu qədər əhalinin yaşadığı bir ərazidə o zaman nə qədər erməni yaşamışdır? Axı, indinin özündə bütün dünyada təqribən 6 mln. erməni yaşayır. O zaman dünyada nə qədər erməni olmuşdur? Bu qədər böyük bir ərazinin hər min kv. km-də neçə nəfər erməni yaşamışdır?

Uydurma soyqırımını tanıtma, təzminat və torpaq tələbləri konkret hədəf güdür: "Böyük Ermənistan" qurmaq. "Erməni soyqırımı" deyilən uydurma bir şey kilsə ilə yanaşı erməniliyi mühafizə edən və Ermənistan Respublikasında rəhbərləri hakimiyyətdə saxlayan sənaye halına gəlmişdir. Bu uydurma erməniləri quruculuğa, xalqlar arasında dostluğa və birgəyaşayışa deyil, dağıdıcılığa, düşmənçiliyə yönəldir və onlarda psixoloji problemlər yaradır.

Doğrudur, Ermənistan Respublikası bir dövlət kimi 1991-ci ildən sonra Türkiyə dövlətinə qarşı ərazi iddiaları ilə rəsmi müraciət etməmişdir. Çünki belə bir rəsmi tələb üçün cavab verməli olardı. Lakin Ermənistan Respublikasının gerbindən Ağrı dağının rəsminin götürülməməsi, bu respublikanın başçılarının öz çıxışlarında erməni gənclərini Türkiyəyə qarşı ərazi iddialarını gələcəkdə gerçəkləşdirməyə çağırmaları Yerevanın təcavüzkar siyasətinin bütün mahiyyətini ortaya qoyur. Ancaq onlar bir şeyi unudurlar: ermənilər yalan iddialarını Osmanlının zəif zamanlarında qəbul etdirə bilməmişdirlərsə, Türkiyə Cümhuriyyəti dövlətinə qəbul etdirmək indi heç mümkün deyildir. "Erməni soyqırımı" deyilən bir məsələni Türkiyənin "ən böyük məsələsi" kimi təqdim etmək türk xalqı və dövlətinin inkişafına mane olmaq, yoluna əngəllər törətməkdir. Qeyd etmək lazımdır ki, bu məsələdə Türkiyə dövlətinin yumşaq mövqe tutması uydurulmuş bir məsələdə erməni təşkilatlarının mövqelərini gücləndirir, onları sanki zəfər qazanmış kimi davranmağa və böhtanlarını daha da artırmağa həvəsləndirir.

Ermənistanın təcavüzkarlıq, işğalçılıq, terror siyasəti və əsassız ərazi iddiaları hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına zidd olub, dünya təhlükəsizliyi üçün təhdiddir. Təcavüzkarı şirnikləşdirmək olmaz!

# BİBLİOQRAFİYA

## 1.Mənbələr

### *Arxivlər*

### *Azərbaycan*


- Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivi.
- Azərbaycan Respublikası Dövlət Arxivi.
- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Arxivi.
- Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivi.


### *Rusiya*


- Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi.
- Rusiya Xarici Siyasət Arxivi.
- Rusiya Federasiyası Dövlət Arxivi.


### *Türkiyə*


- Türkiyə Cümhuriyyəti Baş Bakanlık Cümhuriyyət Arxivi.
- TBMM Arxivi.


### *Gürcüstan*


- Gürcüstan Mərkəzi Ən Yeni Tarix Arxivi.
- Gürcüstan Mərkəzi Tarix Arxivi.


### ABŞ


- The National Security Archive of the USA. The Washington University in Washington.


### *Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı*


- Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Praqa Arxivi


### *Nəşr edilmiş xarici siyasət sənədləri*

### *SSRİ*


- Документы внешней политики СССР. Т. II. М., 1958; Т. III. М., 1959; Т. IV. М.,1960.
- Сборник действующих договоров, соглашений и конвенций, заключенных с иностранными государствами. Вып. III. М.,1922; Вып. IX. М.,1938.
- Советско – турецкие отношения. Сб. документов. 1917-1926 гг. М., 1947.

### *Türkiyə*

- Atatürkün söylev ve demeçleri. I cilt. İstanbul, 1945.
- Atatürkün Milli dış politikasi. Milli Mücadele dönemine ait 100 belge. 1919-1923. C. 1. Ankara, 1994.
- İsmail Soysal. Türkiyenin Siyasal Antlaşmaları. I c. (1920-1945). Ankara, 1983.

### **ABŞ**

- Papers Relating to the Foreign Relations of the United States. 1920. Vol.III. Washington, 1936.

### *Statistik məcmuələr*

- Всесоюзная перепись населения. 17.12.1926. Краткие сводки. Вып. IV. Народность и родной язык населения СССР. М.,1928.
- Населения СССР. 1987. Статистический сборник. М.,1988.
- Статистический справочник по Азербайджану на 1926 год. Под ред. В.Смирнова. Баку, 1927.

### *Ensiklopedik nəşrlər*

### *Azərbaycan dilində*

- Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya. Bakı, 2003.

### *Rus dilində*

- Большая Советская Энциклопедия. Т. 3. М., 1930.
- Энциклопедический словарь. Изд. Брокгауз, Ефрон. Т. XIV. СПб., 1895.

### *Sənədli mənbələr*

### *Azərbaycan dilində*

- Azərbaycan Respublikası Ali Sovetinin məlumatı. 1969-1995.
- Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər). Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi. Toplayan və tərtib edənlər: Fərhad Vahabov, Vəli Axundov, Elman Qasımov. Bakı, 2005.

### *İngilis dilində*

- Armenian allegations: Myth and Reality. A Handbook of Facts and Documents, 1987.

### *Rus dilində*

- “Армянский геноцид”: миф и реальность. М., 1987.
- Ведомости Верховного Совета СССР. М., 1990, № 15.
- Гасанов Г. Письмо в Совет Безопасности ООН. 1992-1993. Баку, 2004.

• Закон Азербайджанской Советской Социалистической Республики о Нагорно-Карабахской Автономной Области. 16.06.1981. Баку, 1981.

• Нагорный Карабах: разум победит. Документы и материалы. Баку, 1989.

• События вокруг НКАО в кривом зеркале фальсификаторов (сборник материалов). Баку, 1989.

• Собрание узаконений и распоряжений Рабоче-Крестъянского Правительства А.С.С. Р. за 1923 г. Баку, Издание Народного Комиссариата Юстиции А.С.С.П., 1925.

### *Dövri mətbuat*

Qəzetlər: Баку, Бакинский рабочий, Коммунист (Azərbaycan); Известия, Правда (SSRİ); Cumhuriyet, İkdam, Milliyet, Milli Gazete, Hürriyet, Güneş, Tercüman, Türkiye, Zaman, (Türkiyə); Time, The Boston Globe, The New York Times, The Washington Post, The Times, The Sunday Times (ABŞ); Заря Востока, Правда Грузии, Слово (Gürcüstan); Коммунист (Ermənistan).

Jurnallar: Diplomatiya aləmi (Azərbaycan); Вопросы истории КПСС, Революционный Восток (SSRİ); Armenian Studies, Orhun, Türk dünyası Tarih dergisi (Türkiyə); Middle East Studies (ABŞ).

## II.Ümumi ədəbiyyat

### *Azərbaycan dilində*

• Aslanlı A. Qarabağ problemi: tarixi, mahiyyəti, həll prosesi. Bakı, 2009.

• Arzumanlı N., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, 1998.

• Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998.

• Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997.

• Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005.

• Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəkləri. Bakı, 2000.

• Qasımov (Qasımlı) M. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı, 1993.

• Qasımov (Qasımlı) M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996.

• Qasımov (Qasımlı) M. İkinci dünya müharibəsindən sonrakı ilk illərdə Ermənistanın Azərbaycana ərazi iddiaları. – Qarabağ dünən, bu gün və sabah. 1-ci Ümumrespublika elmi-əməli konfransı. Tezislər. Bakı, 2002.

• Qasımlı M. Heydər Əliyev - istiqlala gedən yol. (1969-1987). Bakı, 2006.

### *Türk dilində*

• Aras O.N., Dedeyev B., Yılmaz R., İbayev V. Karabağ savaşı. Siyasi-hukuki-ekonomik analiz. Bakı, 2008.

• Cafersoy N. Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992 – Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü. Ankara, 2001.

• Cemalettin Taşkıran. Geçmişten günümüze Karabağ meselesi. Ankara, Genelkurmay Basımevi, 1995.

• Şimşir N.Bilal. Ermeni meselesi.1774 -2005. Ankara, 2005.

• Türkler. C.19. Ankara, 2002.

### *İngilis dilində*

• D'Agustino A. Gorbachev's Revolition. New York, New York University Press, 1998.

• In Armenian captivity (Tortures, Murders, Terror, Vandalism, Genocide). Bakı, 2008.

• Jack F. Matlock, Jr.The former Soviet Union: Etnonationalism and US interests and values. – Ethnic conflict and regional instability: implications for missions. Edited by Robert L.Pfaltzgraff, Jr., Richard H.Shultz, Jr., Washington, U.S.Government printing office, 1994.

• Markar Melkonian with Seta Melkonian. My Brother's Road: An American"s Fateful Journey to Armenia. London and New York. I.B.Tauris, 2007.

• Michael P.Crossant. The Armenian – Azerbaijan Conflict, causes and implications. London, Praeger, 1998.

• The Military balance. 1993-1994. The International Institute for strategic studies. London, 1993.

• Tomas de Wall. Black Garden. Armenia and Azerbaijan through Peace and War. New York and London, New York University Press, 2003.

### *Rus dilində*

• Бутрос Бутрос Гали. Во имя мира и развития. 1994. Годовой доклад о работе организации. Нью-Йорк, 1994.

• Этнополитические конфликты в Закавказье: их истоки и пути решения. Центр международного развития и конфликтологии. Мэрилендский Университет. Kolledj Park Merilend. США, 1996.

• Галоян Г.А. Социалистическая революция в Закавказье в освещении буржуазной историографии. М.,1960.

• Гасымлы М. СССР – Турция: от нормализации отношений до новой холодной войны (1960-1979 гг.). М., 2008.

• Качазнуни Ов. Дашнакцутюн больше нечего делать! Тифлис, 1927.

• Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. М., 2014.

• Нариманов Н. Избранные произведения. Т.2. Баку,1989.

• Чаладзе Т. Карабахский геноцид: обреченный Ходжалы. Документальная хроника. Баку, 2009.

• Чехонин Б.И. Журналистика и разведка. М., 2002.

## III. İnternet resursları

• http: \\ www / mksduduks.com\ asala\indekx 1.html.

**Муса Гасымлы**

# Армянские претензии – от советизации Армении к оккупации территорий Азербайджана: реальная история (1920-1994 гг)

## РЕЗЮМЕ

В монографии на основе архивных материалов и документальных источников Азербайджана, России, Грузии, Турции, США, Великобритании и других стран анализируются необоснованные территориальные претензии, выдвинутые Арменией после советизации, решения Московской и Карсской конференций по территориальному вопросу, а также Лозаннской конференции по «армянскому вопросу», размещение армян, переселённых советским руководством из зарубежных стран, искусственное образование Нагорно-Карабахской Автономной Области, нападение на турецкое представительство в Эриване, переселение зарубежных армян в 1920–30-е годы, попытки руководства Армянской ССР после Второй мировой войны выкроить НКАО из состава Азербайджанской ССР и выдвижение, по указанию советского руководства, территориальных претензий к Турции. Когда же всё это оказалось тщетным, последовала депортация азербайджанцев с исторических земель их проживания под предлогом размещения здесь армян-переселенцев из зарубежных стран, сопровождавшаяся незаконным захватом их домов, имущества и хозяйства. Необоснованные претензии армянской диаспоры и деятельность руководства Армянской ССР в 50–60-е годы, акты терроризма, осуществлённые в 70–80-е годы армянскими террористическими организациями, попытки захвата азербайджанских территорий, начало военной агрессии со стороны Армении, процесс оккупации азербайджанских земель и её последствия подвергнуты научному анализу. Автор, рассматривающий проблему с позиции международных отношений и политики великих держав, выдвинул интересные научные взгляды.

Источники, использованные при написании монографии, являются достоверными и многие из них введены в научный оборот впервые. Труд предусмотрен для историков, политиков, дипломатов и всех тех, кто хочет узнать историческую истину по этому вопросу.

**Musa Gasimli**

## Armenian claims – from the sovietization of Armenia to the occupation of Azerbaijani territories: the real history (1920-1994)

## SUMMARY

The monograph stands on archival material and documentary sources of Azerbaijan, Russia, Georgia, Turkey, USA, UK and other countries. It analyzes unfounded territorial claims put forward by Armenia after its Sovietization, decisions of the Moscow and Kars Conferences on the territorial issue, and also the Lausanne Conference on the ''Armenian issue'', placement of Armenians resettled by the Soviet leadership from foreign countries, an artificial formation of the Nagorno-Karabakh Autonomous Oblast, the attack on the Turkish representation in Erivan, resettlement of foreign Armenians in 1920-30s, attempts of the Armenian SSR leadership to cut out NKAO from Azerbaijan SSR after World War II and extension of territorial claims to Turkey based on the instructions of the Soviet leadership. When all these attempts were in vain, there would follow the deportation of Azerbaijanis from their historical lands under the pretext of placing here Armenian immigrants from foreign countries, accompanied by unlawful seizure of their homes, properties and farm. Unsubstantiated claims of the Armenian Diaspora and the activities of the leadership of Armenian SSR in the 50-60s, acts of terrorism, executed in the 70-80s by the Armenian terrorist organizations, attempts to capture Azerbaijani territories, the beginning of military aggression by Armenia, the process of occupation of Azerbaijani lands and its consequences, all the above mentioned are subjected to scientific analysis. The author, by considering the problem from the perspective of international relations and politics of the great powers, puts forward interesting scientific views.

The sources used in writing the monograph are reliable and many of them are introduced into scientific circulation for the first time. The work is intended for historians, politicians, diplomats and all those who want to know the historical truth on this issue.

*Kitab «Mütərcim» TM Nəşriyyat-Poliqrafiya Mərkəzində yığılmış, səhifələnmiş və çap olunmuşdur.*

Nəşriyyat redaktoru: Əliş Ağamirzəyev
Bədii tərtibat: Sevda Süleymanova

Çapa imzalanıb: 04.03.2016.
Format: 60x90 $^1/_{16}$. Qarnitur: Times. Ofset çap.
Həcmi: 32,5 ç.v. Tiraj: 350. Sifariş № 5.

«Mütərcim» TM Nəşriyyat-Poliqrafiya Mərkəzi

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

www.mutercim.az